AZƏRBAYCAN RESPUBLİKASI
ELM VƏ TƏHSİL NAZİRLİYİ

ARTİ
AZƏRBAYCAN RESPUBLİKASININ
TƏHSİL İNSTİTUTU



HEYDƏR ƏLİYEV
100

Ümummilli lider Heydər Əliyevin
100 illiyinə həsr edilmiş

# DOKTORANTLARIN VƏ GƏNC TƏDQİQATÇILARIN XXVI Respublika Elmi Konfransının materialları

II
cild

XXVI
NASCQ

Bakı - 2023

**AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN RESPUBLİKASININ TƏHSİL İNSTİTUTU**

***Konfrans Ümummilli lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunur.***

# DOKTORANT VƏ GƏNC TƏDQİQATÇILARIN XXVI RESPUBLİKA ELMİ KONFRANSININ (NASCO XXVI)

## M A T E R İ A L L A R I

**(Humanitar elmlər)**

**Bakı şəhəri, 17-18 noyabr 2023-cü il**

# TƏŞKİLAT KOMİTƏSİ

| | |
|---|---|
| Emin Əmrullayev (sədr) | Azərbaycan Respublikası elm və təhsil naziri |
| Firudin Qurbanov | Azərbaycan Respublikası elm və təhsil nazirinin müavini |
| Elnur Əliyev (sədr müavini) | Azərbaycan Respublikasının Təhsil İnstitutunun direktoru vəzifəsini müvəqqəti icra edən |
| Turxan Süleyman | Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Elm, ali və orta ixtisas təhsili şöbəsinin müdiri |
| Rauf Orucov | Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Maliyyə şöbəsinin müdiri |
| Cəsarət Valehov | Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin İctimaiyyətlə əlaqələr sektorunun müdiri |
| İlham Cavadov | Azərbaycan Respublikasının Təhsil İnstitutunun direktor müavini |
| Ülkər Babayeva | Azərbaycan Respublikasının Təhsil İnstitutunun direktor müavini |
| Abutab Abbasova (elmi katib) | Azərbaycan Respublikasının Təhsil İnstitutunun Təhsildə innovasiyalar şöbəsinin müdiri |

# MÜNDƏRİCAT

**FİLOLOGİYA VƏ MƏDƏNİYYƏTŞÜNASLIQ BÖLMƏSİ**................................. **12**

**Əhmədov Ramil.** YARADICI YAZARLIQ TƏHSİLİNİN AZƏRBAYCANDA İNKİŞAF POTENSİALI.................................................................................... **12**

**Əliyeva Günay.** COYS KEROL OUTSUN ƏSƏRLƏRİNDƏ QOTİK ÜSLUBUN İNTERPRETASİYASI.................................................................................. **15**

**Əlizadə Aytəkin.** ƏDƏBİYYATDA QARABAĞ MÖVZUSU ("AZERBAIJAN INTERNATIONAL" JURNALININ TƏQDİMATINDA)............................................ **18**

**Hüseynova Sevda.** PORTRET OÇERKLƏR YARADICI OBRAZ MƏNBƏYİ KİMİ (GÜLRUX ƏLİBƏYLİNİN "ÇIRPINAN DÜNYAMIZ" ƏSƏRİ ƏSASINDA)............ **23**

**Məmmədova Leyla.** EMOSİONAL SİTUASİYADA FRAZEOLOGİZMLƏRİN İŞLƏNMƏ XÜSUSİYYƏTLƏRİ..................................................................................... **27**

**Mustafayeva Ülviyyə.** İCTİMAİ DİSKURSDA NƏZAKƏTLİLİYİN LİNQVİSTİK İFADƏ VASİTƏLƏRİ................................................................................................ **30**

**Xanalıyeva Aysel.** MÜASİR AZƏRBAYCAN DİLİNDƏ FRAZEOLOJİ SİNONİMLƏRİN ZƏNGİNLƏŞMƏ YOLLARI........................................................... **32**

**Həsənova Nüşabə.** MÜCƏRRƏD QRAMMATİK ƏLAQƏ BİLDİRƏN SÖZÖNÜLƏRİN LEKSİK-SEMANTİK XÜSUSİYYƏTLƏRİ.................................... **36**

**Zeynallı Könül.** ANARIN SSENARİLƏRİNİN BƏDİİ-ESTETİK XÜSUSİYYƏTLƏRİ ("TORPAQ. DƏNİZ. OD. SƏMA.", "DƏDƏ QORQUD", "QƏM PƏNCƏRƏSİ", "ÜZEYİR ÖMRÜ" SSENARİLƏRİ ƏSASINDA).................. **39**

**İsayeva Fəxriyyə.** CƏMİYYƏTDƏN TƏCRİD OLUNMUŞ İNSANIN MƏNƏVİ BÖHRANI.................................................................................................... **44**

**Yolçubəyli Çinarə.** AKADEMİK AĞAMUSA AXUNDOVUN NƏSR DİLİNİN PROBLEMLƏRİ ƏTRAFINDA APARDIĞI MÜHAKİMƏ VƏ MÜZAKİRƏLƏRİ.... **48**

**Həsənova Nərmin.** MƏHƏMMƏDHÜSEYN ŞƏHRİYARIN "HEYDƏRBABAYA SALAM" POEMASINDA AŞIQ VƏ SAZ OBRAZLARI............................................ **51**

**Rüstəmova Lalə.** THE CAUSES OF IDIOM VARIANTS IN PRESENT-DAY ENGLISH.............................................................................................................. **55**

**Hüseynova Aygün.** FƏRDİ YAZAR YADDAŞINDAN İCTİMAİ YADDAŞA (JUNQ ÇANQIN ROMANLARI PRİZMASINDAN).................................................... **58**

**Ağababayeva Səbinə.** LATIN AMERİKASI ƏDƏBİYYATINDA "YENİ ROMAN" – "XANA – XANA OYUNU"......................................................... **63**

**Qurbanova Gülnarə.** ETNONİM SLƏNQLƏRİN MƏNŞƏYİNİN ARAŞDIRILMASININ ƏHƏMİYYƏTİ........................................................................ **67**

**Məlikli Kəmalə.** DİLÇİLİKDƏ "KONVERSİYA" TERMİNİNƏ BAXIŞLARA DAİR.................................................................................................................. **69**

**Həsənova Leyla.** XX ƏSRİN 20-50-Cİ İLLƏRİNDƏ POEZİYAMIZDA ROMANTİKA........................................................................................................ **74**

**Babayeva Püstəxanım.** ANAR YARADICILIĞINDA POETİK ONOMASTİKA....... 77

**Kərimova Nərgiz.** İNGİLİS DİLLİ KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN (KİV) DİSKURSUNDA FRAZEOLOJİ VAHİDLƏRİN AKTUALLAŞMASI............ 80

**Salmanova Gültəkin.** TƏRCÜMƏ EKVİVALENTLİYİNİN MÜRƏKKƏB TƏBİƏTİ HAQQINDA: FUNKSİONAL VƏ KONSEPTUAL EKVİVALENTLİK..... 83

**Eyubova Nurlana.** KONSEPT VƏ KONSEPTUAL METAFOR LİNQVOKULTURAL HADİSƏLƏR KİMİ................................................................. 87

**Məlikova Lalə.** FRANSIZ DİLİNDƏ LEKSİK ENANTİOSEMLƏR.......................... 90

**Cəfərli Yeqzar.** "DA VİNÇİ ŞİFRƏSİ" ROMANINDA İSA OBRAZININ İNTELLEKTUAL BƏDİİ TƏQDİMATI...................................................................... 93

**Mirzəzadə Günay.** MƏTN DİLÇİLİYİNİN ƏSAS PROBLEMLƏRİ.......................... 96

**Cəfərova Aygün.** AZƏRBAYCAN TOPONİMLƏRİNİN FORMALAŞMA ÜSULLARI................................................................................................................ 98

**Babayeva Xədicə.** AZƏRBAYCAN DİLİNİN QAŞQAY DİALEKTİNİN FONEM SİSTEMİNDƏ SAİT SƏSLƏR.................................................................................. 102

**Quliyeva Rəfiqə.** AZƏRBAYCAN MİLLİ İNCƏSƏNƏT MUZEYİNİN KOLLEKSİYASINDAN QACARLAR DÖVRÜ SİLAH VƏ ƏSLƏHƏLƏRİNİN BƏDİİ XÜSUSİYYƏTLƏRİ........................................................................................... 105

**Xəlilova Bahar.** "ƏDALƏT" KONSEPTİNİN MƏTN DİLÇİLİYİNDƏ LİNQVOKULTUROLOJİ İSTİQAMƏTDƏ TƏDQİQATI.......................................... 110

**Həsənova Pərvanə.** MODERN TƏSVİR HƏLLİ KONTEKSTİNDƏN RASİM İSMAYILOV YARADICILIĞI........................................................................................ 115

**Əlibabaoğlu Baba.** TÜRK EPOS ƏNƏNƏSİ VƏ AZƏRBAYCAN "KOROĞLU"SUNUN SÜJET-KOMPOZİSİYA SİSTEMİ........................................... 117

**Vəliyeva Ceyran.** POEZİYADA PAYIZ OBRAZI LİRİK QƏHRƏMANIN DAXİLİ ALƏMİNİN BƏDİİ ƏKSİ KİMİ.................................................................... 120

**Cəfərli Xanım.** CORC ORUELLİN "BOĞULURAM" ƏSƏRİNDƏ İCTİMAİ VƏ EKOLOJİ PROBLEMLƏRİN BƏDİİ XÜLASƏSİ................................................ 124

**Hüseynova Sevinc.** C.OSTİNİN VƏ İ.ƏFƏNDİYEVİN ƏSƏRLƏRİNDƏ FRAZEOLOJİ BİRLƏŞMƏLƏRİN TİPOLOGİYASI................................................... 127

**Ağarzayeva Qızılgül.** NİTQDƏ EMOSİONALLIQ, İFADƏLİLİK VƏ ZƏNGİNLİK YARADAN VASİTƏLƏR............................................................... 129

**İsmayılova Pərvanə.** LİNQVİSTİKANIN MÜASİR İNKİŞAF MƏRHƏLƏSİNDƏ İNGİLİS DİLİNİN AFRO-AMERİKAN VARİANTININ TƏHLİLİ............................ 132

**Quliyeva Gözəl.** AZƏRBAYCANDA XARİCDƏ TƏHSİL SİYASƏTİ VƏ "BRAIN DRAIN" PROSESİ........................................................................................ 134

**Namazova Səbinə.** TƏBRİZ VƏ MOĞOL MİNİATÜR MƏKTƏBLƏRİNİN YARADICILIQ ÜSULLARININ MÜQAYİSƏLİ TƏHLİLİ (STRUKTUR TİPOLOGİYA)........ **137**

**Əliyeva Səbinə.** "DİVANİ LÜĞƏT-İT-TÜRK" ƏSƏRİNİN TÜRK DİLLƏRİNİN ÖYRƏNİLMƏSİNDƏ ROLU........ **141**

**Hüseynova Nabat.** KLİFFHENGER VƏ TELEVİZİYA SERİALLARINDA ONUN FUNKSİYASI........ **144**

**Əsgərova Şəhanə.** E.E.ŞMİDTİN ƏSƏRLƏRİNDƏ METAFORANIN ÜSLUBİ FUNKSİYALARI........ **146**

**Məmmədova Rəna.** MÜXTƏLİF JANRLI ƏSƏRLƏRDƏ T. SALAHOV "SƏRT ÜSLUBU"NUN İFADƏ GÜCÜ HAQQINDA........ **148**

**Soltanova Aysel.** DİLLƏRİN QARŞILAŞMASI ZAMANI LEKSİK HİBRİDLƏRİN YARANMASI........ **151**

**Məmmədova Samirə.** MÜASİR AZƏRBAYCAN TƏSVİRİ SƏNƏTİNDƏ ESXATOLOJİ İDEYALAR........ **155**

**PEDAQOGİKA VƏ PSİXOLOGİYA BÖLMƏSİ........ 159**

**Cəfərova Nahidə.** İSTEDADLI ŞAGİRDLƏRİN ŞƏXSİYYƏTİNİN FORMALAŞMASINDA ÖZÜNÜQİYMƏTLƏNDİRMƏNİN ROLU........ **159**

**Dadashov Amil.** DIDACTIC DESIGN OF ENGINEER TRAINING IN HIGHER MILITARY EDUCATION INSTITUTIONS........ **162**

**Qarayeva Röya.** ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNDƏ EFFEKTİVLİK NAMİNƏ PEDAQOJİ KOLLEKTİVİN MOTİVASİYASININ İNKİŞAFI........ **166**

**Səmədova Sevinc.** KİÇİKYAŞLI MƏKTƏBLİLƏRİN TƏFƏKKÜR MÜSTƏQİLLİYİNİN TƏLİM NƏTİCƏLƏRİNƏ TƏSİRİ........ **169**

**Quliyeva Raziyə.** MÜƏLLİMİN YARADICILIĞI PEŞƏKAR FƏALİYYƏT NORMASI KİMİ........ **172**

**Ağahüseynova Vüsalə.** MƏKTƏBLƏRİN İDARƏ OLUNMASINDA KOUÇVARİ LİDERLİK BACARIQLARI........ **176**

**İsmayılova Turanə.** ALİ MƏKTƏBLƏRDƏ AZƏRBAYCAN TARİXİNİN TƏDRİSİNDƏ İDRAK FƏALLIĞININ YÜKSƏLDİLMƏSİ YOLLARI........ **179**

**Shirinzada Lala.** MODERN PEDAGOGICAL TECHNOLOGIES IN THE WORK OF A PHYSICAL EDUCATION TEACHER........ **183**

**Kazımlı Fəridə.** MÜASİR TƏHSİL SİSTEMİNDƏ BİLİK İQTİSADİYYATI VƏ ONUN PERSPEKTİVLƏRİ........ **188**

**Məmmədova Ayşən.** İBTİDAİ SİNİF SƏVİYYƏSİNDƏ TƏLİM ÇƏTİNLİKLƏRİNİN ÜMUMİ XÜSUSİYYƏTLƏRİ........ **192**

**Ağacanlı Əli.** ELMİ SAVADLILIQ SƏRİŞTƏSİNİN FORMALAŞDIRILMASINDA TƏBİƏT FƏNNİNİN ROLU........ **196**

**Babayev Abbas.** AZƏRBAYCANDA ÖMÜRBOYU TƏHSİL İSTİQAMƏTİNDƏ İŞİN TƏŞKİLİNƏ TƏSİR EDƏN KONTEKSTUAL FAKTORLAR............................ **199**
**Yadigarova Leyla.** INTERNATIONALIZATION OF UNIVERSITY RESEARCH: OPPORTUNITIES AND CHALLENGES........................................................................ **202**
**Hüseynova Fəridə.** İNGİLİS DİLİNİN QİYMƏTLƏNDİRİLMƏSİNDƏ MÜASİR TEST NƏZƏRİYYƏLƏRİ VƏ YANAŞMALAR........................................................ **206**
**Qasımova Günel.** YAZI BACARIQLARININ FORMALAŞMASINDA NƏTİCƏ ƏSASLI VƏ PROSES ƏSASLI YANAŞMA................................................................. **209**
**İsmayılova Səbinə.** BİOLOGİYA DƏRSLƏRİNDƏ TƏLİM TEXNOLOGİYALARINDAN İSTİFADƏNİN DİDAKTİK ƏSASLARI.................... **213**
**Çunayev Məhəmməd.** REGİONAL ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNİN QLOBALLAŞMA ŞƏRAİTİNDƏ QARŞISINDA DURAN VƏZİFƏLƏR.................. **215**
**İsmayılova Elnarə.** TƏLƏBƏLƏRDƏ SAĞLAM HƏYAT TƏRZİNİN TƏRBİYƏ EDİLMƏSİ YOLLARI..................................................................................... **218**
**İsgəndərov Elmir.** TƏRBİYƏ İŞİNDƏ YENİ YANAŞMA – SOSİAL-PSİXOLOJİ ASPEKTLƏR.......................................................................................................... **221**
**Tağıyev Elçin.** “KLASSİK VƏ QEYRİ-SƏLİS MƏNTİQ” MÖVZUSUNUN TƏDRİSİ METODİKASI................................................................................. **224**
**Atamova Leyla.** MƏDƏNİYYƏTLƏRARASI SƏRİŞTƏNİN İNKİŞAFINDA AUTENTİK MATERİALLARIN İSTİFADƏSİNİN SƏCİYYƏVİ XÜSUSİYYƏTLƏRİ...................................................................................... **227**
**Həsənova Samirə.** ÇƏTİN SÖZLƏR ÜZƏRİNDƏ İŞİN ŞAGİRDLƏRİN YAZI BACARIQLARININ İNKİŞAFINDA ROLU................................................................ **230**
**Bəylərova Leyla.** ALMAN DİLİ TƏDRİSİNDƏ İLKİN MƏRHƏLƏDƏ AUTENTİK MATERİALLARIN ƏHƏMİYYƏTİ VƏ İSTİFADƏSİ........................... **233**
**Mirzəyeva Nuranə.** İNGİLİSDİLLİ İBTİDAİ SİNİF ŞAGİRDLƏRİ ARASINDA AZƏRBAYCAN DİLİNİN ÖYRƏNİLMƏSİNİN GÜCLƏNDİRİLMƏSİ ÜÇÜN LİNQVODİDAKTİK TƏDRİS STRATEGİYALARININ EKSPERİMENTAL TƏDQİQİ............................................................................................................ **237**
**Məmmədova Ülviyyə.** XARİCİ DİLİN TƏDRİSİNƏ VERİLƏN TƏLƏBLƏRİN AKTUALLIĞI....................................................................................................... **239**
**Bayramova Zərifə.** FİZİKİ TƏRBİYƏ DƏRSLƏRİNİN TƏŞKİLİNDƏ İNFORMASİYA TƏMİNATI KEYFİYYƏT GÖSTƏRİCİSİ KİMİ............................ **243**
**Iskandarova Gulnara.** ONLINE ASSESSMENT OF READING AND WRITING SKILLS........................................................................................................... **246**
**Daşdəmirova Aytən.** MÜASİR MÜƏLLİMİN PEŞƏ KOMPETENSİYALARI........... **250**
**Xəlilova Xatirə.** ƏDƏBİYYAT DƏRSLƏRİNDƏ EPİK ƏSƏRLƏRİN TƏDRİSİ ZAMANI ŞAGİRDLƏRDƏ FORMALAŞDIRILAN BACARIQLAR.......................... **253**
**Verdiyeva Ülviyyə.** HƏYAT BİLGİSİ DƏRSLƏRİNDƏ ŞAGİRDLƏRİN

YARADICI QABİLİYYƏTLƏRİNİN FORMALAŞDIRILMASI İŞİNİN METODİKASI........................................................................................................ 257
**Rəhimli Türkan.** VALİDEYN-UŞAQ ARASINDAKI BAĞLILIĞA TƏSİR EDƏN AMİLLƏR...................................................................................................... 261
**Kərimova Sevinc.** LİNQVODİDAKTİKANIN MÜASİR TƏDQİQAT İSTİQAMƏTLƏRİ.......................................................................................... 264
**TARİX, HÜQUQ, FƏLSƏFƏ, SOSİOLOGİYA VƏ SİYASİ ELMLƏR BÖLMƏSİ........................................................................................................ 267**
**Məmmədli Cavid**. XX ƏSRİN 90-CI İLLƏRİNDƏ ALMANİYADA SİYASİ PARTİYALARIN ALMANİYANIN AVRO-ATLANİKA TƏHLÜKƏSİZLİK SİYASƏTİNDƏ MÖVQEYİ........................................................................... 267
**Rəhimov Əlvida.** AHISQA (MESXETİ) TÜRKLƏRİNİN “VƏTƏN” CƏMİYYƏTİ VƏ VƏTƏNƏ QAYIDIŞ MÜBARİZƏSİ.................................................................. 272
**Əjdərzadə Gülər.** AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN XARİCİ SİYASƏTİNDƏ BORÇALI MƏSƏLƏSİ........................................................... 275
**Eyvazova Ləman.** QAFQAZ İSLAM ORDUSUNUN AZƏRBAYCANDAKI FƏALİYYƏTİ ÇAĞDAŞ TÜRKİYƏ TARİXŞÜNASLIĞINDA................................. 279
**İsmayılova Mələkxanım.** QAÇQIN VƏ MƏCBURİ KÖÇKÜNLƏRİN SOSİAL MÜDAFİƏSİNİN HÜQUQİ BAZASI............................................................. 282
**Abdullayeva Nərminə.** AZƏRBAYCANDA DİSSERTASİYA TƏDQİQATLARININ ÜMUMİ İCMALI: BİBLİOMETRİK TƏHLİL........................ 286
**Abdullayeva Nəsrin.** CƏNUBİ QAFQAZDA BAŞLICA ƏRAZİ-SƏRHƏD PROBLEMLƏRİ VƏ MÜNAQİŞƏLƏRİN MEYDANA ÇIXMASI.................................. 291
**Əsədova Nurdan.** ABŞ-TÜRKİYƏ ƏLAQƏLƏRİNDƏ MÖVCUD OLAN PROBLEMLƏR VƏ STRATEJİ ƏMƏKDAŞLIĞA DOĞRU ATILAN ADDIMLAR (2009-2020)................................................................................ 294
**Mirzəxanlı Qənirə.** HEYDƏR ƏLİYEV FONDUNUN FƏALİYYƏTİ BEYNƏLXALQ ARENADA....................................................................................... 298
**Mehrəliyeva Səidə.** MİRZƏ BALA MƏMMƏDZADƏNİN ƏSƏRLƏRİNDƏ AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN YARANMASI VƏ FƏALİYYƏTİNƏ MÜNASİBƏT MƏSƏLƏSİ........................................................... 301
**Orujova Suqra.** THE DIFFERENT CHARACTERISTICS OF HISTORICAL GEOGRAPHY OF KARABAKH..................................................................... 304
**Bağırova Ülviyyə.** INTERNATIONAL REACTION AND CONSEQUENCES OF THE 2008 RUSSIAN-GEORGIAN WAR.......................................................... 308
**Əliyeva Vəfa.** AĞABALA QULİYEVİN İCTİMAİ VƏ SAHİBKARLIQ FƏALİYYƏTİ...................................................................................................... 311
**Şabanova Xəyalə.** ACTIVITIES AND OUTCOMES OF THE ADLONIAD CONFERENCE DURING THE SECOND WORLD WAR...................................................... 314

**Baghirli Aytaj.** EMPOWERING EQUALITY: AZERBAIJAN'S JOURNEY TOWARDS GENDER PARITY IN INTERNATIONAL PARTNERSHIPS................ **317**
**Həmidova Günay.** QADINLARIN SİYASİ İNSTİTUTLARDA TƏMSİLÇİLİYİNİN NƏZƏRİ ƏSASLARI................................................................ **320**
**Şirinova Könül.** TALLİN MANUALLARI KİBERMÜHARİBƏLƏRİ HAQQINDA.. **324**
**Əliyeva Mehriban.** QADINLAR SİYASƏTDƏ.......................................................... **326**
**Süleymanov Muraz.** ELEKTRON HÖKUMƏTƏ İCTİMAİ ETİMADIN FORMALAŞDIRILMASI VƏ CƏMİYYƏTİN İNFORMASİYALAŞDIRILMASI PROBLEMİ.................................................................................................................. **330**
**Məmmədova Nailə.** "HUMANİTAR MÜDAXİLƏ"NİN TƏKAMÜL FORMALARI. **333**
**Quliyeva Şəlalə.** SÜLH QURUCULUĞU PROSESİ VƏ ONUN KONSEPTUAL ƏSASLARI.............................................................................................................. **337**
**Qasımova Xəyalə.** BÖYÜK BRİTANİYANIN AVROPA İTTİFAQINI TƏRK ETMƏSİNİ ŞƏRTLƏNDİRƏN AMİLLƏR................................................................. **340**
**Kərimli Altay.** SOSİAL İŞİN TƏŞKİLİNDƏ MÜASİR TEXNOLOGİYALARDAN İSTİFADƏ............................................................................................................ **344**
**Məmmədova Məlahət.** TERRORUN QLOBALLAŞMASI İNSAN HƏYATINA TƏHDİD KİMİ..................................................................................................... **348**
**İzzətli Səbinə.** İNFORMASİYA SAYTLARININ XƏBƏR KONTENTİNDƏ QAYNAQLARLA İŞ TƏHLİLİ....................................................................................... **351**
**Hacıbəyli Anara.** THE HEALTH LAW AND POLICY: SCOPE AND OPPORTUNITIES FOR TRANSFORMATIVE HEALTHCARE................................ **355**
**Allahverdiyev Alovsat.** THE APPLICATION OF INTERNATIONAL HUMANITARIAN LAW AND HUMAN RIGHTS PROTECTION DURING ARMED CONFLICT.......................................................................................................... **358**
**Abdullayeva Fidan.** DAVAMLI İNKİŞAFIN MƏQSƏDLƏRİNDƏN BİRİ KİMİ TƏHSİL HÜQUQU............................................................................................................ **361**
**Huseynzada Nisa.** SAFEGUARDING DIGNITY ONLINE: A DIVE INTO CYBERBULLYING, HUMAN RIGHTS, AND MODERN AZERBAIJAN.................. **365**
**Gachayev Ramil.** EXAMINING NATIONAL BODIES IN VARIOUS COUNTRIES DEALING WITH INTELLECTUAL PROPERTY DISPUTES.................................... **368**
**Qənbərova Zeynab.** İNZİBATİ HÜQUQDA İNZİBATİ MÜQAVİLƏ İNSTİTUTUNUN AKTUALLIĞI MƏSƏLƏSİ........................................................... **371**
**Sarıyeva İlahə.** AZƏRBAYCAN AİLƏSİNDƏ ƏR-ARVAD MÜNASİBƏTLƏRİNDƏ ETİKET QAYDALARI........................................................ **374**
**IV. İQTİSADİYYAT VƏ İDARƏETMƏ BÖLMƏSİ...............................................** **379**
**Abbaszadə Fərid.** DAVAMLI İNKİŞAF KONSEPSİYASININ YAŞIL İQTİSADİYYATDA ROLU............................................................................................ **379**

**Məhərrəmov Eldəniz.** QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZUR İQTİSADİ RAYONLARININ İNKİŞAF İMPULSLARI................................................................ **383**
**Nəcəfzadə Yusif.** AZƏRBAYCANDA XÜSUSİ İQTİSADİ ZONALARIN DÖVLƏT TƏRƏFİNDƏN MALİYYƏLƏŞMƏSİ VƏ İNKİŞAFI İSTİQAMƏTLƏRİ; ÖZƏL SEKTORUN BU PROSESDƏ İŞTİRAKI......................... **388**
**Mammadov Ashraf.** HOW ARTIFICIAL INTELLIGENCE WILL IMPACT INCOME DISPARITY AND THUS SOCIAL WELFARE?......................................... **392**
**Dünyamalıyev İslam.** ELEKTRON TİCARƏTDƏ MÜŞTƏRİ İTKİSİNİN QARŞISININ ALINMASI...................................................................................... **396**
**Paşazadə Rəvan.** AQRAR SEKTORDA İNVESTİSİYA RİSKLƏRİNİN İDARƏ EDİLMƏSİ XÜSUSİYYƏTLƏRİ.............................................................................. **399**
**Amrahova Gunel.** GREEN DIGITAL FINANCE: THEORETICAL FRAMEWORK.. **402**
**Musayev Yusif.** AİLƏ BİZNESLƏRİNİN MƏŞĞULLUĞA TƏSİRİNİN TƏHLİLİ.... **407**
**İsmayılov Hüseyn.** İŞĞALDAN AZAD EDİLMİŞ ƏRAZİLƏRDƏ KƏND TƏSƏRRÜFATININ İNKİŞAF ETDİRİLMƏSİ İMKANLARININ QİYMƏTLƏNDİRİLMƏSİ.................................................................................... **411**
**Əhmədova Nərmin.** ŞƏRQİ ZƏNGƏZUR İQTİSADİ RAYONUNUN İNKİŞAFINDA SƏNAYE PARKLARININ ROLU...................................................... **416**
**Xanış-zadə Türkan.** MALİYYƏ VƏ İQTİSADİ BÖHRANLARIN ERKƏN XƏBƏRDARLIQ GÖSTƏRİCİLƏRİ............................................................................. **421**
**Abdullazadə Nurlan.** STRUKTUR İSLAHATLARININ DAVAMLI İNKİŞAF GÖSTƏRİCİLƏRİNƏ TƏSİRİ......................................................................................... **425**
**Hüseynov Talut.** YAXŞI İDARƏÇİLİK PRİNSİPLƏRİNİN QURULMASINDA İNSTİTUSİONALLAŞMANIN ROLU........................................................................ **430**
**Quliyeva Nigar.** BANK BÖHRANLARI HARADAN QAYNAQLANIR?................... **434**
**Yunusov Mir Ramin.** FÖVQƏLADƏ HALLARIN BAŞVERMƏ EHTİMALININ STATİSTİK METODLARLA ARAŞDIRILMASI........................................................ **437**
**Əhmədova Türkan.** MÜASİR SƏHİYYƏ SAHƏSİNİN RƏQƏMSAL TENDENSİYALARI.......................................................................................... **441**
**Nəsibov Elvin.** NƏQLİYYATIN TURİZMİN İNKİŞAFINA BİRBAŞA VƏ DOLAYI TƏSİRİ.......................................................................................... **445**
**Mustafayev Mahammad.** TRENDS IN THE IMPACT OF DIGITIZATION ON THE LABOUR MARKET AND LABOUR RELATIONS.................................................... **449**
**Bəbişov Sənan.** KİÇİK VƏ ORTA SAHİBKARLIĞIN İNKİŞAFINDA DÖVLƏT TƏNZİMLƏMƏLƏRİNİN ƏSAS İSTİQAMƏTLƏRİ................................................... **453**
**Nabizada Farid.** COMPETITION AS MARKET MECHANISM................................ **457**

**Mürsəlov Vüsal.** KİÇİK VƏ ORTA SAHİBKARLIQ SUBYEKTLƏRİNDƏ MALİYYƏ HESABATLARININ, MALİYYƏ HESABATLARININ BEYNƏLXALQ STANDARTLARINA İNTEQRASİYA OLUNMASI...................... **461**

**Paşayeva Dilrüba.** RABİTƏ MÜƏSSİSƏLƏRİNDƏ UÇOT-İNFORMASİYA SİSTEMİNİN SÜNİ İNTELLEKT VASİTƏSİLƏ TƏTBİQİNİN BEYNƏLXALQ TƏCRÜBƏSİ........................................................................................................ **465**

**Quliyev Toğrul.** QEYRİ-NEFT SEKTORU VƏ FİSKAL DAVRANIŞLAR............... **468**

**Hümbətov Namiq.** COVİD-19 PANDEMİYASI DÖVRÜNDƏ VƏ SONRA DÖVLƏTİN İQTİSADİYYATA MÜDAXİLƏLƏRİNİN XÜSUSİYYƏTLƏRİ: İNKİŞAF ETMİŞ VƏ İNKİŞAF ETMƏKDƏ OLAN ÖLKƏLƏRİN MÜQAYİSƏLİ TƏHLİLİ.............................................................................................. **470**

**Abbasov Əliəkbər.** AÇIQ BANKÇILIQ VƏ TƏTBİQİ ZƏRURƏTİ.......................... **474**

**Mahmudov Nicat.** AZƏRBAYCANIN İQTİSADİ İNKİŞAFINDA NƏQLİYYAT SEKTORUNUN YERİ............................................................................................. **479**

**Gadirli Farid.** FACTORS AFFECTING CRYPTOCURRENCY RETURNS............... **483**

**Karimova Rahila.** MODELLING OF ELECTRONIC CURRENCIES: COINTEGRATION AND ERROR CORRECTION MODEL....................................... **487**

**Rzayeva Kəmalə.** TORPAQ, TİKİLİ VƏ AVADANLIQLARIN TƏMİR XƏRCLƏRİNİN MALİYYƏ HESABATLARININ BEYNƏLXALQ STANDARTLARI VƏ VERGİ MƏCƏLLƏSİ İLƏ UÇOTUNUN MÜQAYİSƏLİ TƏHLİLİ.............................................................................................. **492**

**Nəzərov Mehman.** QLOBAL TEXNOLOJİ YENİLƏŞMƏLƏR VƏ ƏMƏK BAZARINDA EVOLYUSİYA MEYİLLƏRİ............................................................ **496**

**Namazova Aynur**. LOGİSTİKA İNVESTİSİYA LAYİHƏLƏRİNDƏ MALİYYƏ TƏMİNATININ OPTİMALLAŞDIRILMASI ALƏTİ KİMİ....................................... **501**

**Huseynov Isgandarbay.** GREEN ECONOMY AS A FACTOR OF SUSTAINABLE DEVELOPMENT............................................................................................................ **504**

**Vəliyev Orxan.** ENERJİ SEKTORUNUN ÖLKƏNİN DAYANIQLI İQTİSADİ İNKİŞAFINA TƏSİRİ.......................................................................................... **508**

**Rustamov Orkhan.** OPTIONS TRADING IN AZERBAIJAN: ANALYSIS OF ORGANIZATIONAL STRUCTURE, ADVANTAGES, AND CHALLENGES........... **511**

**Ahmadova Emilia.** ANALYSIS OF IMPULSE BUYING MODEL FOR MUSLIM CONSUMERS. EMPIRICAL EVIDENCE FROM AZERBAIJAN.............................. **515**

**Garashov Murad.** ESTIMATING USED CAR PRICES: A COMPARISON OF HEDONIC REGRESSION AND MACHINE LEARNING MODELS.......................... **520**

**Mirzaliyev Nihal.** INVESTIGATING WHETHER ECONOMIC/FINANCIAL EDUCATION INFLUENCES INDIVIDUAL INVESTORS' AVOIDANCE OF PSYCHOLOGICAL BIAS AND TENDENCIES......................................................... **525**

**Həşimova Günay.** AZƏRBAYCANDA SAHİBKARLIĞIN İNKİŞAF İSTİQAMƏTLƏRİ.......................................................................................................... **530**

**Fərmanlı Rəvan.** YUXARI-ORTA GƏLİRLİ ÖLKƏLƏRDƏ “ORTA GƏLİR TƏLƏSİ” HİPOTEZİNİN KEÇƏRLİLİYİNİN TEST EDİLMƏSİ: QEYRİ-XƏTTİ KOİNTEQRASİYA TESTİ İLƏ TƏHLİL.................................................................... **535**

**Dəmirova Aygül.** AZƏRBAYCANDA YÜNGÜL SƏNAYE MÜƏSSİSƏLƏRİNİN İNKİŞAFININ EKONOMETRİK QİYMƏTLƏNDİRİLMƏSİ.................................... **539**

**Bayramlı Aynurə.** TİCARƏTİN İNKŞAFINDA NƏQLİYYAT-LOGİSTİKA XƏRCLƏRİNİN ROLU............................................................................................ **544**

**Əzimzadə Əliağa.** MÜHARİBƏNİN “ZƏKA AXINI”NA TƏSİRİ: RUSİYA NÜMUNƏSİ................................................................................................................ **549**

**Məmmədov Misir.** İŞĞALDAN AZAD EDİLMİŞ ƏRAZİLƏRDƏ “AĞILLI ŞƏHƏR” VƏ “AĞILLI KƏND” LAYİHƏLƏRİ: XARİCİ İNVESTİSİYA PERSPEKTİVLƏRİ............................................................................................... **553**

**Tağıyeva Arzu.** İQLİM DƏYİŞİKLİYİ İLƏ MÜBARİZƏDƏ BƏRPA OLUNAN ENERJİ MƏNBƏLƏRİNİN ROLU................................................................... **558**

**İbrahimzadə Tamerlan.** DEEP REINFORCEMENT LEARNING IN BOUNDED RATIONALITY: NEW INSIGHTS FOR BEHAVIORAL ECONOMICS.................... **563**

**Həsənova Ləzifə.** İSTEHLAKÇI DAVRANIŞLARINA TƏSİR EDƏN AMİLLƏRİN TƏHLİLİ........................................................................................... **568**

**Mustafazade Tural.** CURRENT INDICATORS OF INDUSTRIAL SECTOR DEVELOPMENT AND FUTURE PROSPECTS............................................................ **572**

**Mammadova Nigar.** ECONOMETRIC EVALUATION OF THE IMPACT OF INFECTIOUS DISEASES ON THE EMPLOYMENT OF THE POPULATION.......... **576**

**Məmmədova Gülnar.** ELEKTRON KOMMERSİYA PLATFORMALARINDA ALIŞ-VERİŞ EDƏN İSTEHLAKÇILARIN REMARKETİNQ STRATEGİYALARINA BAXIŞI........................................................................ **579**

**Musayev Vusal.** NEW CHALLENGES AND OPPORTUNITIES ARISING FROM USE OF INNOVATIONS IN PAYMENT AND MONEY TRANSFER SERVICES.... **583**

**Yusif Məmmədov.** MACROECONOMIC EFFECTS OF MONETARY POLICY DECISIONS OF THE CENTRAL BANK OF THE REPUBLIC OF AZERBAIJAN.... **589**

**Rustamov Rustam.** HISTORICAL PERFORMANCE OF WORLD PENSION SYSTEMS AT THE BEGINNING OF REFORM.......................................................... **594**

# FİLOLOGİYA VƏ MƏDƏNİYYƏTŞÜNASLIQ BÖLMƏSİ

## YARADICI YAZARLIQ TƏHSİLİNİN AZƏRBAYCANDA İNKİŞAF POTENSİALI

**Əhmədov Ramil Bayram**
**İstanbul Universiteti**
**https://orcid.org/0000-0001-5881-0776**
**ramilehmed.10@gmail.com**

## DEVELOPMENT POTENTIAL OF CREATIVE WRITING EDUCATION IN AZERBAIJAN

**Ahmadov Ramil Bayram**
**Istanbul University**
**https://orcid.org/0000-0001-5881-0776**
**ramilehmed.10@gmail.com**

**Summary**

Creative writing education that emerged at the beginning of the XX century is a much talked about and debated field. Creative writing began as an elective in American universities, and then became a faculty. In the middle of the XX century, this model of education spread widely around the world. Since there was interest in these lessons outside the academy, private sectors were also involved in this work. Creative writing is a training that is applied not only by university students, but also by various professionals who want to learn writing techniques. Certain steps have been taken in Azerbaijan regarding this education, which claims that it is possible to teach writing like other professions.

The purpose of this report is to create a comprehensive idea about the basics of creative writing education and to contribute to its future development in Azerbaijan.

**Keywords:** creative writing, literary studies, education, narratology.

## ПОТЕНЦИАЛ РАЗВИТИЯ ПИСАТЕЛЬСКОГО ОБРАЗОВАНИЯ В АЗЕРБАЙДЖАНЕ

**Ахмедов Рамиль Байрам оглу**
**Стамбульский университет**
**https://orcid.org/0000-0001-5881-0776**
**ramilehmed.10@gmail.com**

**Резюме**

Обучение творческому письму, появившееся в начале XX века, является областью, о которой много говорят и обсуждают. Творческое письмо начиналось как факультатив в американских университетах, а затем стало факультетом. В середине XX века эта модель образования широко распространилась по всему миру. Поскольку интерес к этим урокам был за пределами академии, к этой работе был привлечен и частный сектор. Креативное письмо - это обучение, которое применяют не только студенты университетов, но и различные

профессионалы, желающие освоить приемы письма. В Азербайджане предприняты определенные шаги в отношении этого образования, которое утверждает, что можно обучать письму, как и другим профессиям.

Цель этого отчета - создать всестороннее представление об основах обучения творческому письму и внести вклад в его будущее развитие в Азербайджане.

**Ключевые слова:** писательское творчество, литературоведение, образование, нарратология.

Corc Beykerin Harvard Universitetində verdiyi "Dramaturgiya atelyesi" dərsi yaradıcı yazarlıq təhsilinin ilk nümunəsi (1905) olaraq qəbul edilməkdədir (McGurl, 2009, s.114). Onun dərsindən sonra bu sahənin əhatə dairəsi genişlənmiş, Amerikanın müxtəlif universitetlərindən oxşar dərslər verilməyə başlanmışdır.

Bu təhsilin inkişafında mühüm rol oynamış Ayova Universitetində Yaradıcı Yazarlıq (Creative Writing) kafedrasının müdiri Paul Engle yazarlığın bir peşə olduğunu və onun əsaslarının öyrədilə biləcəyini vurğulamışdır. O, gitara çalmağın, heykəltəraşlığın, rəsm çəkməyin texnika və nəzəriyyə ilə öyrədilə biləcəyi fikrini dəstəkləyir, eyni qaydanın yazı sənəti üçün də keçərli olduğunu müdafiə edirdi (Wilbers, 1980, s.84). Hər bir yazı növünün özünə məxsus xüsusiyyətləri olduğu və bunun öyrədilə biləcəyi fikri müxtəlif yazarlar tərəfindən qəbul olunan fikirdir. Bu düşüncə əsasən XIX əsrdən etibarən populyarlaşmağa başlamışdı. Sosial-iqtisadi dəyişikliklər insanların şüurundakı yazıçı, ümumən desək sənət adamı obrazını tamamilə dəyişdirmişdi. Yazarlığın sehrli bir iş olmadığı, digər peşələr kimi qəbul edilməsi fikri yazarlar tərəfindən ifadə edildikcə müxtəlif ədəbiyyatşünasları yazı şablonları, janrların modelləri haqqında sistemli araşdırmalar etməyə sövq etdi.

Qeyd edək ki, yaradıcı yazarlıq təhsilinin bir çox məqsədləri var. Bu məqsədlər müxtəlif müəlliflər və akademiklər tərəfindən fərqli şəkildə müəyyən edilir. Corc Marş yaradıcı yazarlıq təhsilinin əsas məqsədlərini altı başlıq altında qruplaşdırır. Onun bu qruplaşdırması təhsilin əsas istiqamətləri haqqında dolğun fikir yaradır. Buradakı əsas başlıq insanları peşəkar yazıçı olaraq yetişdirmək, yazı sənətinin texnikasını öyrətmək və sahə üzrə müəllimlər hazırlamaqdır (Vanderslice, 2008, s.69).

Türk dövlətləri kontekstində bu sahədə ən öndə olan ölkə Türkiyədir. 1958-cu ildə Ankara Universitetində yaradıcı yazarlıq dərsləri verilməyə başlanmışdır (Belkıs, 2022). 1990-cı illərdən etibarən isə universitetlərdə müvafiq kafedralar yaradılmışdır. Bu gün Türkiyənin yeddi universitetində yaradıcı yazarlıqla bağlı kafedralar fəaliyyət göstərir. Türkiyədə bu dərslərin daha çox dramaturgiya sahəsinə fokuslandığı diqqət çəkir. Yaradıcı yazarlıq dərsləri Türkiyə universitetlərində adətən teatr kafedralarında verilir. Burada dram əsərlərinin müxtəlif növləri tədris olunur. Lakin bu tədris filologiya fakültəsindən fərqlidir. Yaradıcı yazarlıq dərslərinin əsas mahiyyəti tələbəni yeni bədii əsər yazmağa sövq etməkdir.

Azərbaycan universitetlərində də yaradıcı yazarlıq dərslərinin seçməli fənn kimi tədris olunduğu nəzərə çarpır. Lakin Amerika və Avropa universitetləri ilə müqayisədə bir çox fərqlər ortaya çıxır. Azərbaycanda bu dərslər əsasən filologiya fakültələrində seçməli dərs olaraq tədris edilir. Təəssüf ki, bu dərslərin aparılması üçün dilimizdə yetərli mənbələr yoxdur. Seçməli dərs sistemsizdir. Fənnin bir semestrlik tədrisindən uğurlu nəticə əldə etmək mümkünsüz görünür. Qərb təhsil sistemində bu sahə dörd və ya iki il müddətinə tədris olunur.

Bundan başqa 2007-ci ildə Bakı Slavyan Universitetində Yaradıcılıq fakültəsinin fəaliyyətə başlaması da ölkəmiz üçün bu sahədə ilk əsaslı addımlardan biri sayılır. Fakültədə təhsil müddəti iki il olaraq müəyyən edilmişdir. Buradakı dərslər əsasən yazıçılar, şairlər, tənqidçilər tərəfindən verilirdi. 2016-cı ildən müxtəlif səbəblərdən fəaliyyəti dondurulub. 2022-ci ildə isə fəaliyyəti yenidən bərpa edilmişdir. Lakin burada da metodologiyaların doğru olmadığı nəzərə çarpır. Dərslərin proqramı, tədris üsulu tədqiqatçılar üçün qapalıdır. Dəvət olunan yazarların sistemli tədris verməsi ilə hər kəsin öz yazı xatirəsini danışması məsələsi

cavabsız sualdır. Sahə üzrə ölkədə mütəxəssislərin yetərsiz sayda olması da bu sualı bir az daha müəmmalı edir.

Bu sahədə görülən əsaslı işlərdən biri də “@yazarol.az” platforması tərəfindən başladılıb. Bu platformada yazı sənətinə dair müxtəlif məzmunlu paylaşımlar diqqət çəkir. Yazı strukturlarının öyrədilməsi, peşəkar yazarların təcrübəsinin paylaşılması səhifənin əsas istiqamətlərindən biridir.

Arzusu, xəyalı yazar olmaq istəyən biri hansı fakültədə təhsil ala bilər? Bu sualı cavablandırmaq asan deyil. Rəssamlıq, bəstəkarlıq, heykəltəraşlıq, rejissorluq, xoreoqrafiya və digər yaradıcı sahələr üzrə təhsil verən kolleclər, universitetlər, akademiyalar, kurslar olsa da yazarlıq hər zaman bu təhsil sisteminin kənarında qalmışdır. Yazı strukturlarının öyrədilməsinin mümkünsüzlüyünə olan inanc bu sahədə proqressiv addımların atılmasının qarşısını alır. Yaradıcı yazarlıq sahəsi ölkəmiz üçün yeni olduğundan onun nəzəriyyəsi, pedaqogikası haqqında məlumat bazası azdır. Sahə ilə bağlı elmi və kütləvi nəşrlərin azlığı diqqət çəkir. Lakin yaxın gələcəkdə bu sahəyə olan marağın artacağı, filologiya fakültələrində bu istiqamətdə işlər görüləcəyi sezilir.

**Ədəbiyyat:**

1. Əhmədov, R. (2023) “Yaradıcı yazarlıq təhsilinin estetikası və pedaqogikası Türkiyə nümunəsində”, İstanbul Universiteti, doktorluq dissertasiyası.

2. Belkıs, Ö. (2022) “Programlar ve Yaklaşımlar Bağlamında Türkiye’de Dramaturgi Eğitimi”, I Ulusal Sahne Sanatları Eğitiminde Çağdaş Yaklaşımlar Çalıştayı, s.39-43.

3. Dorothea, B. (2012). Yazar Olmak, tərcümə: Mustafa Yıldırım, İstanbul: Ötüken Neşriyyatı.

4. Gülsoy, M. (2013). Büyübozumu: Yaratıcı Yazarlık, Kurmacanın Bilinen Sırları ve İhlal Edilebilir Kuralları, İstanbul: Can Yayınları.

5. Guiseppe, C. (2014). Demek Yazar Olmak İstiyorsun, tərcümə: Nazlı Birgen, İstanbul: Aylak Adam Yayıncılık.

6. McGurl, M. (2009) The Program Era: Postwar Fiction and The Rise of Creative Writing, Harvard University Press.

7. Semih, G. (2013). Yazar Olabilir miyim? Yaratıcı Yazarlık Dersleri, İstanbul: Notos Kitap.

8. Vanderslice, S. (2008) Creative Writing Studies Practice, Research and Pedagogy, Ed: Graeme Harper and Jeri Kroll, Toronto, Multilingual Matters.

9. Wilbers, S. (1980) The Iowa Writer’s Workshop: Origins, Emergence&Growth, University of Iowa Press.

# COYS KEROL OUTSUN ƏSƏRLƏRİNDƏ QOTİK ÜSLUBUN İNTERPRETASİYASI

**Əliyeva Günay Telman**
**Azərbaycan Dillər Universiteti**
**https://orcid.org/0009-0000-1757-3524**
**gny.aliyeva@gmail.com**

# INTERPRETATION OF THE GOTHIC STYLE IN THE WORKS OF JOYCE CAROL OATES

**Aliyeva Gunay Telman**
**Azerbaijan University of Languages**
**https://orcid.org/0009-0000-1757-3524**
**gny.aliyeva@gmail.com**

**Summary**

The purpose of this thesis is to analyze the gothic style and, first of all, to examine the specific manifestations of this style in the works of Joyce Carol Oates. The gothic style focuses on exploring the mysterious and terrifying elements by showing the dark side and problems of society. While the main features of traditional gothic novels are places such as castles, ruins, or deserts with the presence of spirits, gods, or other supernatural forces, modern gothic literature depicts human problems such as murder, violence, and incest in a gothic and disturbing manner. These works, which constantly keep the reader in suspense and have a very unique artistic power, usually have an atmosphere of mystery, darkness and violence. The psychological basis of traditional gothic novels is the inner fears of people. Such outstanding works are dedicated to show the evil and inner world of human society, to explore the dark world of man more deeply. In this regard, the report firstly examines the gothic genre and its subgenres, and then the gothic elements in the works of Joyce Carol Oates, a representative of contemporary American literature.

**Keywords:** gothic style, subgenres, violence, supernatural events, mystery, terrifying elements

# ИНТЕРПРЕТАЦИЯ ГОТИЧЕСКОГО СТИЛЯ В ПРОИЗВЕДЕНИЯХ ДЖОЙС КЭРОЛ ОУТС

**Алиева Гюнай Тельман**
**Азербайджанский Университет Языков**
**https://orcid.org/0009-0000-1757-3524**
**gny.aliyeva@gmail.com**

**Резюме**

Статья ставит перед собой цель внести свой вклад анализ готического стиля и, прежде всего, рассмотрение конкретных проявлений этого стиля в творчестве Джойс Кэрол Оутс. Готический стиль фокусируется на изучении таинственных и ужасающих элементов, показывая темную сторону и проблемы общества. В то время как основными чертами традиционных готических романов являются такие места, как замки, руины или пустыни с присутствием духов, богов или других сверхъестественных сил, современная готическая литература изображает человеческие проблемы, такие как убийства, насилие и инцест, в готической и тревожной манере. В этих произведениях, которые постоянно держат читателя в напряжении и обладают весьма своеобразной художественной силой, обычно царит атмосфера тайны, мрака и насилия. Психологическую основу

традиционных готических романов составляют внутренние страхи людей. Такие выдающиеся произведения посвящены тому, чтобы показать зло и внутренний мир человеческого общества, более глубоко исследовать темный мир человека. В связи с этим в докладе сначала исследуется готический жанр и его поджанры, а затем элементы готики в творчестве представительницы современной американской литературы Джойс Кэрол Оутс.

**Ключевые слова:** готика, поджанры, насилие, сверхъестественные явления, мистика, ужасающие элементы

Müxtəlif dövrlərdə fərqli tərzdə şərh olunan qotika anlayışının etimologiyasına əsasən, bu söz alman qəbiləsi qotlarla bağlı olmuş, qotların mədəniyyətini ifadə etmək üçün işlədilmişdir. Fərqli memarlıq üslubunda tikilmiş binaları təsvir etmək üçün işlədilən bu termin daha sonra ədəbi mühitə də sirayət etmişdir. Bədii ədəbiyyatda XVIII əsrin sonlarında yaranmış və zaman keçdikcə qəlibləşmiş ədəbi terminə çevrilmiş qotik üslub ilk dəfə 1764-cü ildə Horas Uolpolun "Otranto qalası" əsərinin nəşrindən sonra tanınmış və bu günədək uzun təkamül yolu keçmişdir. Orta əsr sivilizasiyasının izlərini daşıyan qotik üslub daha çox dağılmağa doğru gedən mövcud dünya modelindən çıxış edir və məhz bu səbəbdən qorxu və təlaş içində olan qotik roman qəhrəmanları bəzən ixtiyari, bəzən isə qeyri-ixtiyari formada ətraf aləmdən təcrid olunurlar.

**Qotik üslubun tematik şərhi:** XVIII əsrin II yarısından sonra dünya ədəbiyyatında çiçəklənmə mərhələsinə qədəm qoyan qotik romanının əsasını qeyri-müəyyənliyə maraq, gizliliyin aşkar edilməsi, doqmaların dağılması və insan taleyinin fövqəlreal qüvvələrlə və hadisələrlə əhatələnməsi motivləri təşkil edir. N. Dreyk özünün "Ədəbi asudə vaxt" jurnalındakı yazısında qotik roman haqqında qeyd etmişdir: "heç bir şey insanlara qotika qədər güclü təsir edə bilməz. Hətta bütün batil inanclardan uzaq olanlar, düşüncə qabiliyyəti aşağı olanlar belə qeyri-ixtiyari olaraq onun gücünü etiraf edərlər." (Richter, 1996) Onun əksinə professor U.L.Felps "İngilis romantizminin başlanğıcı" adlı mətnində qotik üslubu "barbarlıq, xaotizm və zövqsüzlük" adlandırmışdır (Beers, 1899). Tədqiqatçı Robert D. Ham isə "Qotik romanın ədəbiyyatda heç bir nəticə vermədiyini... pisliyə psixoloji reaksiya olduğunu vurğulayır və bu janrın oxucunu heç bir mənalı cavab tapa bilməyən mənəvi qeyri-müəyyənlik qarmaqarışıqlığına apardığını" (Hume, 1972) iddia edir. Müxtəlif tənqidi mülahizələrə rəğmən, son iyirmi ildə ədəbi tənqidçilər qotik roman üslubunun aktuallığının səbəbini insan təcrübəsinin irrasional, transsendental, paradoksal, qeyri-müəyyən və şüursuz tərəfləri ilə üzləşmək cəhdi olduğunu iddia edirlər. Fantastika və uydurmaların canlı, bədii təqdimatı, fövqəlreal motivlərin mübaliğəli təsviri, keçmişin mistisizminə meyil, obrazların reminissensiyaları ilə gerçəklik effekti yaratmaq cəhdi qotik romanın əsas xüsusiyyətləri hesab olunur. Gənc ədəbi üslub olmağına baxmayaraq zaman keçdikcə qotika hər biri özünəməxsus xüsusiyyətləri olan müxtəlif alt janrlara ayrıldı. *Cənub qotik üslubu:* Bu alt janr Amerika ədəbiyyatı ilə sıx bağlıdır və Amerikanın cənubunda baş verən hadisələri araşdırır. İrqi gərginlik, sosial ədalətsizlik və qrotesk mövzularının təsvir olunduğu cənub qotik üslubunun görkəmli müəllifləri arasında Uilyam Folkner və Flanneri O'Konnorun adlarını qeyd etmək mümkündür. *Viktorian qotik üslubu* Viktorian dövründəki mürəkkəb ailə münasibətlərini və Viktorian cəmiyyətinin məhdudiyyətlərini əks etdirir. *Qadın qotik üslubu* adlandırılan alt janrda müəlliflər daha çox qadınların təcrübələrinə, xüsusən də cəmiyyətdə onlara qoyulan çətinliklərə və məhdudiyyətlərə diqqət yetirirlər. Meri Şelli, Şarlotta Bronte, C. K. Outsun əsərləri qadın qotik üslubunda yazılmış əsərlərə nümunə hesab olunur. *Qotik romanslarda* isə daha çox ehtiraslı eşq macəraları, sirli münasibətlər fonunda qotik fantastikanın romantik aspektlərinə müraciət edilir (Richter, 1996). Hansı alt janrda yazılmağından asılı olmayaraq müasir qotik əsərlər çox vaxt qorxu və dəhşətin psixoloji aspektlərini daha dərindən araşdıraraq insan şüurunun qaranlıq dərinliklərinə enir və bununla reallıq və fövqəlreallıq arasında sərhədləri bulandıraraq oxucuda maraq yaradır.

**C. K. Outsun əsərlərində qotik elementlər:** Müasir ədəbiyyatda qotik üslubun formalaşmasına mühüm töhfə verən yazıçılardan biri də Coys Kerol Outsdur. Onun qotik ənənəyə marağı həm ədəbi fəaliyyətinin ilkin mərhələsində, həm də bütün karyerası boyunca izlənilə bilər. Yazıçının nəsrindəki qotik ənənə zaman keçdikcə transformasiyaya məruz qalmış, müəllifə həm qlobal, həm də özəl böhran və fəlakətlərlə müasir dünyanın ab-havasını ən inandırıcı şəkildə çatdırmaq imkanı vermişdir. Əgər onun ilk romanlarında ("Dünya ləzzətləri bağı", "Mənimlə nə istəyirsən" və s.) ədəbi qotikanın yalnız bəzi elementlərini izləmək mümkündürsə, sonrakı əsərləri ("Bellefleur", "İşığın mələyi" və s.) artıq mütləq qotik oriyentasiyaya malikdir. İnsan varlığının uğursuzluğunun dərin hissi ilə yazılmış bu əsərlərdə gerçəkliyin faciəvi qavrayışı üstünlük təşkil edir (Ben, 2016). Outsun qotik üslubu "Ürəklərin kolleksiyaçısı" (1998) hekayələr toplusunda öz dolğun ifadəsini tapmışdır. Beş hissədən ibarət olan kitabda hekayələr bir-birinə tematik baxımdan bağlıdır. Ümumi narahatlıq duyğusu, neo-apokaliptik və dekadent əhval-ruhiyyə topludakı bütün hekayələrdə öz ifadəsini tapmışdır. Hekayədə simvolizmdən istifadə edən müəllif personajların qeyri-adi xüsusiyyətlərini yaratmaqla hər bir personajı simvolik fiqura çevirir. Yazıçının qotik elementlərlə zəngin hekayələrindən biri də "Hara gedirsən, harda olmusan"dır. Konni adlı on beş yaşlı yeniyetmə qızın başına gələn hadisələrin nəql edildiyi hekayədə təhlükədən qaçmaq arzusu və təhlükəyə maraq dilemması müəllif tərəfindən bədii ustalıqla ifadə olunmuşdur. Narahatedici görünüşü, maskalanması və qeyri-təbii cazibəsi ilə klassik qotik obraz olan Arnold vasitəsilə müəllif qorxulu və narahatedici atmosfer yaradır. Həmçinin hekayənin qeyri-müəyyən sonluğu da onu qotik əsərlər sırasına daxil edir. Outsun qotik üslubunun özünəməxsusluğu və orijinallığı ondan ibarətdir ki, ənənəvi qotik əsərlərdə hadisələr qala və qəsrlərdə, ucqar periferiyalarda baş verirdisə, Outsun əsərlərində bu, Amerikanın mərkəzində, şəhər mənzillərində və ya sakit şəhərətrafı evlərində baş verir və beləliklə, hər kəsə tanış olan məkanlar qorxulu ərazilərə çevrilir. Adi insanların başına gələ biləcək hadisələri qələmə aldığından Outsun qotik hekayələri fantastik yox mistik təsir bağışlayır. Dövrünün və cəmiyyətinin problemlərini və qaranlıq tərəflərini ifşa etmək, araşdırmaq və maarifləndirmək üçün qotik elementlərdən istifadə edən müəllifin əsərlərindəki obrazların əksəriyyəti qadın olduğundan Outsu qadın qotikası üslubunda yazan müəlliflər sırasına daxil etmək mümkündür.

**Ədəbiyyat:**


1. Beers, H. A. (1899). History of English Romanticism in the 18 th century. *University of California.*

2. Ben, L. (2016). Forbidden Tomes: Just Down the Street: The Mundane Gothic Horror of Joyce Carol Oates. *URL:https://dailydead.com/forbidden-tomes-just-street-mundane-gothic-horror-joyce-carol-oates/#:~:text=Her%20tales%20of%20human%20suffering,examine%2C%20and%20bring%20about%20awareness.*

3. Hume, R. D. (1972). Charles Brockden Brown and the Uses of Gothicism: A Reassessment. *Emerson Society Quarterly, XVIII.*

4. Xu, L. (2016). An Analysis of The Falls from the Perspective of Gothic. *Theory and Practice in Language Studies, Vol. 6, No. 8, pp. 1602-1608.*

5. Richter, D. (1996). The progress of romance: Literary Historiography and the Gothic Novel. *Ohio State University Press.*

6. Tromble, T. (2014). Joyce Carol Oates: Fantastic, New Gothic and Inner Realities. *Journal of the Short Story in English.*

7. Tromble, T. (2015). Fiction in Fact and Fact in Fiction in the Writing of Joyce Carol Oates. *Bearing Witness: Joyce Carol Oates Studies: Vol. 2, Article 2.*

## ƏDƏBİYYATDA QARABAĞ MÖVZUSU ("AZERBAIJAN INTERNATIONAL" JURNALININ TƏQDİMATINDA)

**Əlizadə Aytəkin İqbal**
**Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi**
**https://orcid.org/0009-0000-7696-3688**
**elizadeaytekin@gmail.com**

## THE THEME OF KARABAKH IN LITERATURE (PRESENTED BY ''AZERBAIJAN INTERNATIONAL'' MAGAZINE)

**Aytakin Alizada Igbal**
**National Museum of Azerbaijan Literature named after Nizami Ganjavi**
**https://orcid.org/0009-0000-7696-3688**
**elizadeaytekin@gmail.com**

**Summary**

The purpose of this report is to show the reflection of historical realities about Karabakh in the literary background and to highlight the role of "Azerbaijan International" magazine in introducing it to the world. As a result of living of the Azerbaijani people in the conditions of war for a long time, the events that happened in the fate and psychology of the people were also reflected in the Azerbaijani literature. Since the 90s of the 20th century, the theme of Karabakh has been found in the national literature in the form of a series in the works of writers and poets. Both in prose and poetry, the bitter fate of the people was reflected in all its reality. Clearly, in the literature of the people whose lands had been invaded by the enemy, who had given countless martyrs, the subject and attention had to be directed in a certain direction. The works written from the mentioned period to the present day have a special role in introducing the historical reality to future generations and the world. From this point of view, the translation of works written on Karabakh theme into foreign languages is an important literary event. It was at this point that "Azerbaijan International" magazine played a big role. Thus, in the magazine, our literary, historical and cultural heritage was presented to the European and American audience in all its reality.

**Key words:** the theme of Karabakh, war theme, reflection of people's psychology in prose

## КАРАБАХСКАЯ ТЕМАТИКА В ЛИТЕРАТУРЕ (В ЖУРНАЛЕ ''AZERBAIJAN INTERNATIONAL'')

**Ализаде Айтекин Игбал**
**Национальный Музей Азербайджанской Литературы имени Низами Гянджеви**
**https://orcid.org/0009-0000-7696-3688**
**elizadeaytekin@gmail.com**

**Резюме**

Цель данного доклада - показать отражение исторических реалий о Карабахе на литературном фоне и отметить роль журнала «Azerbaijan International» в его популяризации по всему миру. В результате длительного проживания в условиях войны события, происходившие в судьбе и психологии азербайджанского народа, нашли отражение и в азербайджанской литературе. Начиная с 90-х годов XX века тема Карабаха встречается в национальной литературе в ряде произведений писателей и поэтов. Горькая судьба народа во всей его действительности отражена и в прозе, и в поэзии. Несомненно, в литературе народа, чьи земли попирали враги и

кто дал много шехидов, тема и внимание должны были быть направлены в определенную сторону. Произведения, написанные от указанного периода до наших дней, играют особую роль в представлении исторической реальности как будущим поколениям, так и миру. С этой точки зрения перевод произведений, написанных на Карабахскую тематику, на иностранные языки является важным литературным событием. Журнал «Azerbaijan International» сыграл большую роль именно в этом деле. Таким образом, в журнале наше литературное и историко-культурное наследие было представлено европейскому и американскому зрителю во всей его реальности.

**Ключевые слова:** Карабахская тематика, тема войны, отражение психологии народа в прозе.

Qarabağ problemi Azərbaycan xalqının ürəyində dərin yaralar buraxmış, xalqın tarixində qanlı səhifələrdə yer almışdır. XX əsrin 90-cı illərindən etibarən igidlər oylağı, musiqi və sənət beşiyi olan bu torpaqlar qəsbkar, mənfur düşmənlərimiz tərəfindən istilaya məruz qalmışdır. Lakin 2020-ci ildə 44 gün davam edən müharibədə və bu günün özündə də Ali Baş Komandanımızın uğurlu siyasəti və qəhrəmanlarımızın şücaəti ilə əzəli və əbədi torpaqlarımız dövlətimizin nəzarəti altına alınmış, düşmən tapdağından geri qaytarılmışdır.

Təbii ki, bu ağır və çətin mübarizə dövrü, müharibədən sonrakı dövrdə xalqın psixoloji vəziyyəti, yurdlarından didərgin olan insanların taleyi ədəbiyyatda da öz əksini tapmışdır. Bu baxımdan Qarabağ mövzusunda yazılmış ədəbi nümunələr tarixi gerçəkliyin dünyaya çatdırılmasında mühüm rola malikdir. Həmin əsərlərin tərcüməsi problemi, nəşri kimi məsələlər daim aktualdır və diqqət tələb edir. Belə bir məsuliyyətli işi üzərinə götürən mətbu orqanı - ABŞ-da nəşr olunan “Azerbaijan International” jurnalıdır. Jurnalda elm, tarix, ədəbiyyat, musiqi, siyasət və s. mövzularda yazılar dərc olunur. Burada sırf Azərbaycan ədəbiyyatına həsr olunmuş xüsusi saylar da vardır. Jurnalın həmin saylarında Azərbaycan ədəbiyyatının klassik və müasir inciləri ingilis dilinə tərcümə olunaraq Amerika və Avropa auditoriyasına çıxış tapır.

Jurnalın müxtəlif saylarında Qarabağ münaqişəsi tarixi, ədəbi aspektlərdən xarici oxucuya çatdırılır. Bu baxımdan aşağıdakı nəsr nümunələrini qeyd edə bilərik: Sabir Əhmədli, “Dənizdən gələn səda” (Voice from the sea), “Axirət sevdası” (Love of Heaven); Elçin Hüseynbəyli “Boz eşşəyin məktubları” (Letters of a Gray Donkey), “Boz eşşəyin məktubuna cavab” (Reply to the Gray Donkey); Kamran Nəzirli “Qoca uşaq” (The old baby).

**S.Əhmədlinin “Axirət sevdası”, “Dənizdən gələn səda” hekayələrində oğul dağı**

Sabir Əhmədli “Axirət sevdası” (Love of Heaven) əsərini oğlu Məhəmməd Əhmədlinin xatirəsinə həsr etmişdir. Əsərin qəhrəmanı elə Məhəmməddir. O, könüllü olaraq cəbhəyə yollanır və döyüşlərdə iştirak edir. Əsər atanın dilindən verilir. Oğlunu axtarmaq üçün cəbhə boyu bütün döyüş məntəqələrini axtaran atanın daxili dünyası, psixoloji sarsıntıları və evə gəldikdə oğlunun cənazəsi ilə qarşılaşması oxucuda dərin kədər hissi yaradır:-*Yox! Yox! Yox… Ola bilməz. İnanmaram! Məhəmməd, balam mənim! İnanmaram!- cənazənin ayağında çöküb, dizin-dizin onun üstünə can atdım. -Açın üzünü! Götürün örtüyü! Mən onu görmək istəyirəm!.. Mən səni haralarda axtardım, balam?! Gəlibmişsən, özün gəlibmişsən! Məndən qabaq gəlib çıxmısan evimizə (Azerbaijan International, 2004, s.117).*

Sabir Əhmədlinin “Axirət sevdası” romanı bu ata dərdini əbədiləşdirən bir əsər kimi yarandı. Bu roman “Ata ağrısı” da adlana bilərdi. İlk dəfə idi Azərbaycan bədii nəsrində Yazıçı-Atanın oğul itkisindən doğan dağ boyda dərdi ilə üzləşirdik (Yusifli, 2014, s.13)

S.Əhmədli hələ uşaq ikən qardaşı Cəmili, ata olduqdan sonra isə oğlu Məhəmmədi müharibədə itirmişdi. Məhz bu səbəbdən yazıçının nəsrində müharibənin insanlarda buraxdığı dərin izlər, nakam qalan talelərin ürək dağlayan faciəsi daha qabarıq şəkildə ifadə edilmişdir. Çünki yazıçı özü də o kədərdən yan qaça bilməmiş və dərin yaralar almışdır.

“Dənizdən gələn səda” (Voice from the sea) hekayəsi isə S.Əhmədlinin “Yanvar hekayələri” adlı kitabına daxil olan hekayələrdən biridir. Bu kitaba ümumilikdə 20 hekayə daxildir. Kitabda 20 hekayənin olması təsadüfi deyildir. Hər bir hekayənin mövzusu tariximizə qanlı hərflərlə yazılmış 1990-cu ilin 20 yanvar hadisələrinə həsr olunmuşdur. “Yanvar hekayələri” aşağıdakılardır: “Heç nə”, “Qərənfil qan içində”, “Sağ-salamat”, “Şəhidlər xiyabanı”, “Giliz xəzəli”, “Salyan kazarması susdu”, “Əsgər məzuniyyəti”, “Dərs”, “Qara bayraqlar”, “Atılmış biletlər”, “Vaqiə”, “Talan”, “Dənizdən gələn səda”, “Qızıl diş”, “Mağmun ruh”, “İz”, “Cəza”, “Körpə”, “Qisas”, “İşığı söndürmə”.

“Dənizdən gələn səda” hekayəsi həmin o qanlı yanvar günündə qətlə yetirilən oğulun dilindən anasına məktub şəklində yazılmışdır. Beş bacının ümidi olan bir qardaş işgəncələrə məruz qaldıqdan sonra iz itir-mək üçün Dərbənd sularına atılır, suitilərə yem olur. Qətlə yetirilən insanların cəsədlərinin dənizə atılması kimi bir sıra gizli faktlar bir müddət sonra təsdiqini tapmışdır. Hekayə elə 1990-cı ildə “Azerbaijan International” jurnalının yaradıcısı və baş redaktoru Betty Blair tərəfindən ingilis dilinə tərcümə olunmuş və bir neçə dəfə jurnalın fərqli saylarında dərc olunmuş, dünya oxucularına gerçəklikləri çatdırmağa vəsilə olmuşdur.

Sabir Əhmədovun “Yanvar hekayələri” silsiləsindən olan “Dənizdən gələn səda” hekayəsində məzarı dəniz olan oğulun anasına ünvanlanan məktubu 20 Yanvar hadisələrində itkin düşənlərin hamısının dilindən yazılmış kimi səslənir (Paşayeva, 2022, s.12).

**K.Nəzirli “Qoca uşaq” hekayəsi və qocalmış xalq**

Kamran Nəzirlinin müəllifi olduğu və 2003-cü ildə qələmə aldığı “The old baby” (“Qoca uşaq”) hekayəsidir. Hekayənin adı simvolik məna daşıyır. Qoca uşaq dedikdə müharibədən sonra genetik yaddaşında kədər daşıyan yeni doğulan uşaqlar nəzərdə tutulur. O uşaqlar ki, illər sonra bu kədəri yox etmək, vətənin azadlıq şərbətini içmək üçün bu gün də canından keçirlər, keçməyə hazırdırlar. Bu qoca uşaqlar doğulduqları gündən etibarən alınları qırışmış, saçları ağarmışdır. Qocalıq yurdlarından didərgin salınan ata-babalarından miras qalmışdır.

Yeddi ildir, uşaq həsrəti ilə yaşayan Mənzərin Aran bölgəsində, yurd-yuvasından uzaqda, çadırda bir oğul övladı dünyaya gəlir. Yazıçı ana timsalında o çadırda yaşayanların sarsıntılarını belə təqdim edir: “*Mənzər yatsaydı, yuxusuna da girməzdi ki, bir gün o, çadırda bax beləcə, həkimsiz-filansız uşaq doğacaq. Və bu uşağı yeddi il gözləsə də, yeddi ilin bütün ağrı-acısı, soyuğu-sazağı, xiffəti-intizarı canına-sümüyünə işləsə də, düşünürdü ki, axır ki nəsə olmalıdı, belə qalmaz. Ona görə də dözürdü; lap bəzən yeməyə bir şey tapmırdılar, yenə də deyirdi ki, ruzu Allahındı, o bilən məsləhətdi. Allahın bildiyi məsləhəti isə bu çadırdan gizlətmişdilər; bu çadıra onun qətiyyən dəxli yoxuydu”* (Azerbaijan International, 2004).

Hekayədə yurdlarından didərgin düşmüş insanların Aran bölgəsində çadırlara yerləşərək həyata tutunmağa çalışması, bir yandan ölüm-itimin və el-obadan ayrı düşməyin səbəb olduğu ümidsizlik, kədər, bir yandan yeni doğulan körpələrin ümid işığı yaratması ilə həyatın paradoks yanlarının, ağ-qara lövhələrinin bədii əhangi vəhdətdə verilir.

Kamran Nəzirlinin “Qoca uşaq” hekayəsi “hadisə, vəziyyət” hekayə tipinə aiddir. Hekayəni oxuyursan və doğrudan da, təsirlənir, həyəcanlanırsan. Yurddaşlarımızı çadırlarda yaşamağa, səfil, sərgərdan həyat keçirməyə məcbur edən hadisələr, vəziyyətlər səni də düşündürür. (Yusifli, 2018, s.8)

Yazıçı hekayəsində heç bir döyüş, müharibə səhnəsinə yer verməsə belə, xalqın taleyinə yazılmış bu amansız hadisələrin sonrakı fəsadlarını, izlərini böyük ustalıqla qələmə almışdır.

**E.Hüseynbəylinin “Boz eşşəyin məktublarına cavab silsilə hekayələrində yurdun halı**

Elçin Hüseynbəylinin “Boz eşşəyin məktubları” (Letters of a Gray Donkey), “Boz eşşəyin məktubuna cavab” (Reply to the Gray Donkey) hekayələrinin hər biri Qarabağ hadisələrinin bədii əksinin nümunəsidir. Müəllif xalqın ağrılı taleyini müəyyən eyhamlardan istifadə edərək oxucuya təqdim edir. “Boz eşşəyin

məktubları” hekayəsi “Ağ-qara hekayələr” kitabına daxildir. Kitabın annotasiyasında qeyd edilir: “Kitabın adı təsadüfi seçilməyib. Ağ qara yazıçının ovqatını əks etdirir. Ağ hekayələri oxuyanda adamın ürəyindən qara qanlar axır. Hər bir halda bu yazılar doğma Qarabağ haqqındadır: onun indiki ağrı-acıları, xoş xatirələri ilə birgə” (Hüseynbəyli, 2013).

Həqiqətən də, “Boz eşşəyin məktubları” və “Boz eşşəyin məktubuna cavab” hekayələrində müəllif Qarabağla bağlı xoş xatirələri ağrı-acılarla vəhdətdə təsvir edir. Hekayələr ayrılıqda vahid süjet xəttinə malik olsalar da, bir-biri ilə əlaqəlidir və ikinci hekayə birincinin davamıdır. Birinci hekayə insanların doğma yurdlarından didərgin salınmasının sətiraltı formada çatdırılması ilə başlanır: “*...Qağa, (“Qağa” bizim zonanın milli sözüdü) siz gedəli, yəni qaçaqaç düşəli mən eşşəklikdən çıxmışam. Məndə eşşək sifəti qalmıyıb. Yəni eşşəklikdən çıxmağıma səbəb başıma gələnlər olub və onları bircə-bircə sənə deməsəm ürəyim soyumaz. Deməli, bir dəfə mən adi günlər kimi durub, bir ağız anqırdım, gərildim, yıxılıb ağnadım, sonra da axşamdan qalan ot-ələfi iyləməyə başlamışdım ki, böyük qağan gəlib qabağıma bir qucaq quru ot qoydu, ot tayası olan çəpərin qapısın bağlamadı, sonra da belimi sığallayıb, heç nə demədi. Yəni belimə palan qoymadı. Və başımın kəndirin açıb getdi”* (Azerbaijan International, 2004, s.112).

Nümunədən də aydın olur ki, müəllif sətiraltı formada ifadə etmək istədiyi fikri çatdırmaq üçün alleqorik obrazdan - eşşək obrazından istifadə etmişdir. Alleqorik obrazlar vasitəsilə ictimai-siyasi vəziyyətlə bağlı tənqidi fikirlərin verilməsi tarixən istər Azərbaycan, istərsə digər dünya ədəbiyyatları nümunələri üçün aktual olmuşdur. Alleqorik obraz kimi eşşək obrazından istifadə də ədəbiyyat üçün yeni deyildir.

İkinci hekayədə isə E.Hüseynbəyli kənd sakinlərinin Bakıya getməsini, uşaq bağçasına sığınmasını açıq-aşkar təsvir edir və tənqidi fikirlərini kinayə ilə qeyd edir: “*Deməli, bir səhər qardaşım məni durquzub dedi ki, bəs bizim igid əsgərlərimiz topu-tüfəngi, silahı və mövqeni atıb, dabanlarına tüpürüb qaçırlar. Çünki yar-yasaq əsgərlərimiz üçün artıq bir yük idi və qaçırdılarsa, lap düz eliyib onları hara gəldi atırdılar ki, qaçmaq asan olsun. Deməli, bizim də qaçmağımız gərəkdi... Onu da tez xəbər verim ki, biz indi uşaq bağçasına sığınmışıq”* (Azerbaijan International, 2004, s.114).

“Boz eşşəyin məktubları” hekayəsində boş qalan kəndi yoxlamağa gələn işğalçılardan ötəri bəhs edilir. Hekayədə verilən Yalbulaq hidronimindən, Yaloba toponimindən aydın olur ki, hadisələr Qarabağda cərəyan edir. Müəllif boş qalan kəndə işğalçıların gəlməsini, kəndi bombardman etməsini də özünəməxsus tərzdə təsvir edir: “*...Bir də gördüm ki, elə bil göy guruldadı, şimşək çaxdı, göy aralandı, əcaib-qəraib səslər gəldi və yekə bir şey həyətimizə düşüb partladı. Həyət lərziyə gəldi. Mən heç nə başa düşmədim və durub baxdım. Ancaq göydən düşən hər nəydisə dolu-zad deyildi, zırpı bir şeydi və yerdə yekə lağım açmışdı... Sonra kəndə sizin dildə danışmayan adamlar gəldi. Onlar mənim o tərəf, bu tərəfimə keçib, məni əməlli-başlı yoxladılar, quyruğumu qaldırıb altına baxdılar, növbə ilə belimə mindilər. Axırda da dalıma bir təpik ilişdirib, getdilər. Bir daha gəlmədilər”* (Azerbaijan International, 2004, s.112).

Elçin Hüseynbəylinin “Boz eşşəyi” yalnız sahibini qınayan, təklikdən şikayət edən, yeri gələndə xatirələrlə bizi kövrəldən bir qəhrəman deyil. Daha müdrik “həmcinslərindən” (Bencamin –“Heyvanıstan”, Coşşa – “Kitab yüklü eşşək”) fərqli olaraq, biz onun öz genetik xüsusiyyətlərinə daha çox bağlı (bir ağız anqırdım, gərildim, yıxılıb ağnadım, soncuxladım) olduğunu, deməli, daha real, böyüdüyü kənd həyatı kimi daha təbii və səmimi obraz olduğunu müşahidə edirik (Yiğitoğlu N.). Əlbəttə, biz boz eşşəyin xatirələrə dalmasının, keçmişi yad etməsinin şahidi oluruq. Lakin onun halından məmnuniyyətsizlik o qədər də hiss olunmur, işğalçılar kəndə gəldikdə onları sahib kimi qəbul etməyə belə razı idi: “*Bərk ayaqda mən onları sahib kimi qəbul etməyə də hazır idim. Çünki bizim taleyimiz belədi və eşşək olmaq üçün bizə yiyə lazımdı. İncisən də deməliyəm ki, bizim vətənpərvərliyimiz yiyəlikdən keçir. İndi, onsuz da, bizi heç kim eşşək yerinə qoymur”* (Azerbaijan International, 2004, s.113).

“Boz eşşəyin məktublarına cavab” silsilə hekayələrində bir tərəfdən müasir kənd mühiti və insanının timsalında milli koloriti səmimi dillə yarada bilirsə, digər tərəfdən boz eşşəyin məktubu ilə boşalmış yurd yerinin fəryadını şəhər insanına çatdırmağa çalışır. Boz eşşək müəllifin acı reallığa şikayət və üsyanından doğmuş ironik obrazdır. Onun sahibinə ünvanladığı məktub bir tərəfdən keçmiş gözəl günləri xatirə gətirirsə, digər tərəfdən Qarabağda böyümüş hər bir azərbaycanlının ürəyindən qopan “Görən, yurdum indi nə haldadır” sualına cavab verir (Yiğitoğlu, 2019. s.175).

Hekayənin sonunda müəllif xalqın səsini beynəlxalq təşkilatlara, dünyaya çatdıra bilməmə probleminə də sətiraltı toxunaraq yazır: “*Hörmətli eşşək ağa, innən belə anqırma. Onsuz da səsini heç kim eşitməyəcək. Adamların qulağı ya kar olub, ya da qulağına pambıq tıxıyıb”* (Azerbaijan International, 2004. s.115).

“Azerbaijan International” jurnalında nəşr olunan bu hekayələri ümumi birləşdirən cəhət xalqın qanayan və hazırda sağalmaq üzrə olan yarası - Qarabağ probleminə həsr olunmasıdır. Hər bir hekayədə bu problemə ədiblərimiz fərqli formalarda münasibət bildirmişlər. Tədqiqat işində bəhs etdiyimiz bu beş hekayə bir növ Azərbaycan xalqının səsi olmuşdur. O səs ki illərlə eşidilməmiş, dünya ölkələri tərəfindən laqeydliklə qarşılanmışdır.

**Ədəbiyyat:**


1. Hüseynbəyli, E.H. (2013) *Ağ-qara hekayələr.* Bakı: Qələm.
2. Paşayeva, A.N. (2022, Yanvar 20). 20 Yanvar faciəsi bədii ədəbiyyatda: 1990-2000-ci illərin ədəbi mətnləri əsasında yığcam qeydlər. *525-ci qəzet*, s.12.
3. Yiğitoğlu, N. (2019). Ədəbiyyatda eşşək alleqoriyası satirik fikrin ifadə vasitəsi kimi. *Risalə. Elmi araşdırmalar jurnalı*. 16, s.170-176.
4. Yusifli, V. (2014, Fevral 11). Sabir Əhmədli – Yaşayan sənətkar. *Kaspi*, s.13-14.
5. Yusifli, V. (2018, İyun 19). Kamran Nəzirli – altmışdan o yana. *525-ci qəzet*, s. 8.
6. Azerbaijan International. Contemporary Literature. (1996, Spring) (AI 4.1) https://www.azer.com/aiweb/categories/magazine/41_folder/41_articles/41_index.html
7. Azerbaijan International. Century of Reversals. A Literary Perspective. (Spring, 1999) (AI 7.1)https://www.azer.com/aiweb/categories/magazine/71_folder/71_articles/71_index.html
8. Azerbaijan International. Passionate Pens In Pursuit of Truth. Azerbaijan Literature. (2004, Spring) (12.1) https://www.azer.com/aiweb/categories/magazine/ai121_folder/121_articles/121_index.html

# PORTRET OÇERKLƏR YARADICI OBRAZ MƏNBƏYİ KİMİ (GÜLRUX ƏLİBƏYLİNİN “ÇIRPINAN DÜNYAMIZ” ƏSƏRİ ƏSASINDA)

**Hüseynova Sevda Söhrab**
**Bakı Mühəndislik Universiteti**
**https://orcid.org/0000-0002-5526-0147**
**shuseynova@beu.edu.az**

# PORTRAIT ESSAYS AS SOURCE OF CREATIVE CHARACTER (BASED ON GULRUKH ALIBAYLI'S WORK “OUR STRUGGLING WORLD”)

**Huseynova Sevda Sohrab**
**Baku Engineering University**
**https://orcid.org/0000-0002-5526-0147**
**shuseynova@beu.edu.az**

**Summary**

The purpose of this article is to investigate whether literary portraits, which reflect the life and creativity of great figures in the history of literature and culture, describe the historical and social environment of those persons, and thus help readers to better understand the cultural qualities of that time, can be a useful source for the analysis of the image of a creative personality. The study was conducted based on the famous writer Gulrukh Alibayli's work “Our Struggling World”. In the work, the reader gets to know the author more closely, taking an excursion to the childhood and youth years full of bitter and pleasant memories, difficult and unbearable trials of the writer, as well as cognizes the close unity of creative personality and creativity through the portrait essays written in fine lines about intellectual and creative women of Azerbaijan, such as Khanimana Alibayli, Nurida Baghirova, Azada Rustamova.

**Keywords**: portrait essay, creative personality, Gulrukh Alibayli

# ПОРТРЕТНЫЕ ОЧЕРКИ КАК ИСТОЧНИК ТВОРЧЕСКОГО ОБРАЗА (НА МАТЕРИАЛЕ ПРОИЗВЕДЕНИЯ ГЮЛРУХ АЛИБЕЙЛИ “НАШ БОРЯЩИЙСЯ МИР”)

**Гусейнова Севда Сохраб**
**Бакинский Инженерный Университет**
**https://orcid.org/0000-0002-5526-0147**
**shuseynova@beu.edu.az**

**Резюме**

Цель данной статьи – исследовать, описывают ли литературные портреты, отражающие жизнь и творчество великих деятелей истории литературы и культуры, историческую и социальную среду этих лиц и тем самым помогают читателю лучше понять культурные качества того времени, может быть полезным источником для анализа образа творческой личности. Исследование проводилось по произведению известной писательницы Гулрух Алибейли «Наш борющийся мир». В произведении читатель ближе знакомится с автором, совершая экскурс в детские и юношеские годы, полные горьких и приятных воспоминаний, тяжелых и невыносимых испытаний писателя, а также познает тесное единство творческой личности и творчества через

написанные тонкими линиями портретные очерки об интеллектуальных и творческих женщинах Азербайджана, таких как Ханимана Алибейли, Нурида Багирова, Азада Рустамова.
**Ключевые слова:** портретный очерк, творческая личность, Гулрух Алибейли.

Azərbaycan ədəbiyyatında müstəqillik dövrü bədii fikrində və ədəbiyyatşünaslığında yazıçı publisistikası, o cümlədən ədəbi portretlər – portret oçerklər maraq doğurmağa başladı və elmi-tədqiqat predmetinə çevrildi. Janrın inkişafı, hər şeydən əvvəl, müəllif yaradıcılığı və müəllif mövqeyi ilə birbaşa bağlıdır. Azərbaycan oçerkistikasında kifayət qədər ciddi adların kəmiyyət çoxluğu, həm də janrın bədii sənətkarlıq mövqeyindən qiymətləndirilməsi keyfiyyət göstəricisidir. Mirzə İbrahimov, Rəsul Rza, Mehdi Hüseyn, Əli Vəliyev, Əvəz Sadıq, Mir Cəlal Paşayev, Qulu Xəlilov, Gülhüseyn Hüseynoğlu, Şamil Şahməmmədov, Nuhbala Quliyev, İmran Qasımov, Məmməd Araz, Əlfi Qasımov, Əfqan, Yusif Əzimzadə, Səyavuş Sərxanlı, Anar, Gülrux Əlibəyli, Hidayət, Rafiq Səməndər, Seyfulla Şamilov və onlarca imzaların sırasında Rafael Hüseynov, İsa Həbibbəyli, Qəzənfər Paşayev, Nizami Cəfərov, Nizaməddin Şəmsizadə, Niyazi Mehdi, Vilayət Quliyev, Qurban Bayramov, Rüstəm Kamal, Tofiq Nurəli, Loğman Rəşidzadə kimi görkəmli yazıçıların müəlliflik etdiyi portret oçerklər predmetin ictimai əhəmiyyətinin dəqiq aydınlaşdırılması, mətn sözlüyünə, "ictimai əxlaq" anlayışına həssaslıq, ədəbi dilin imkanlarını peşəkarcasına səfərbər edən, elmi-publisistik dil və üslub özünəməxsusluğu təqdim edir (Ağabalayeva, 2022).

**Gülrux Əlibəylinin "Çırpınan dünyası"**

2000-ci ildə işıq üzü görən "Çırpınan dünyamız" kitabında G.Əlibəyli şəxsiyyətin ictimai, sosial, mənəvi aspektlərini ayrı-ayrı müşahidələrin ümumiləşməsi və konkret oçerk əsasında şərh edir. Kitab amerikalı yazıçı, filosof, Transsendentalizm hərəkatının banisi Ralf Emersonun sözləri ilə başlayır: *"Romanlar tədricən gündəliklərə və tərcümeyi-hala çevriləcək. Əgər yazan adam öz şəxsi təcrübəsindən seçməyi və öz həyatının gerçəkliyini əsl həqiqət kimi yazmağı bacarırsa, onda meydana cazibəli kitab çıxa bilər"* (Əlibəyli, 2000).

Kitaba daxil olan "İdrak sevinclərim" adlı esse avtobioqrafik xarakter daşıyır. Burada oxucu yazıçının acı və xoş xatirələrlə, çətin və dözülməz sınaqlarla dolu uşaqlıq və gənclik illərinə ekskursiya edir. Müharibənin gətirdiyi aclığın, səfalətin, qardaş itkisinin dərin izləri ilə tanış olur.

Çətin həyat yolu keçmiş G.Əlibəyli taleyin ona bəxş etdiyi acı və şirinliyi çırpına-çırpına dərk edib. Həyatının çox xoşbəxt dönəmində sevdiyi insanla ailə həyatı qurduğu, ilk övladı Leylanın dünyaya gəldiyi, Moskvada dissertasiyasını müdafiə etdiyi bir vaxtda fələk onun anasını əlindən alır. Bu hadisə onu deməyə əsas verir ki, həyat işıqda kölgə, ağda qara, kədərdə sevinc arasında olan bir məfhumdur. Hər sevincin dərinliyində qəm, kədər toxumu, hər faciənin içərisində sevinc dəni cücərir. Yazıçının taleyi, ömür yolu bu həqiqəti təsdiq edir.

"Çırpınan dünyamız" kitabının ikinci hissəsi "Həyat lövhələri" adlanır. Bu hissə müəllifin müxtəlif mövzulardan bəhs etdiyi on iki essedən ibarətdir. Digər yazılarında olduğu kimi G.Əlibəyli burda Şekspirin *"Əsrin tələblərinə uyğunlaşmalıdır insan!"* (Əlibəyli, 2000) ironik ifadəsini sitat gətirərək konformizmə qarşı çıxır. O yazır ki, şəxsi əqidəni, dərin inamı, təbii meyli öldürüb, tapdalayıb sənə mənfəət verə bilən, şöhrət gətirən siyasi konyunkturaya uyğunlaşmaq bir ziyalı üçün yolverilməzdir. Çünki insan yalnız həyat təcrübəsinin təsiri altında acı hadisələrdən nəticə çıxararaq mövqeyini dəyişib formalaşa bilər. Yazıçının uzun müddət şöbə müdiri, qəzet redaktoru kimi məsuliyyətli vəzifələrdə işləmiş Səlimlə müzakirəsi və mübahisəsi, yazıçının düzgün və yerində işlətdiyi replikalar bunu aydın göstərir.

Yazıçı olduğu hər yerdə, rastlaşdığı hər mənzərədə bir qanunauyğunluq, bir mütənasiblik axtarışındadır. Bunu görməyəndə isə məyus olur. Daima estetika kimi fəlsəfi bir sahənin vurğunu və təbliğatçısı olan yazıçı inanırdı ki, məzmun formaya uyğun olmalıdır. O, həmişə bu həqiqəti təbliğ edib, bu həqiqəti

həyata keçirməyə çalışıb. Yazıçı əmin idi ki, əgər məzmun formaya üstün gələrsə, romantizm və boş idealizm hökm sürər. Əgər əksi baş verərsə, yəni, forma məzmuna üstün gələrsə, komediya və gülüş yaranar. Bu mənzərəyə baxa-baxa şüurunda belə mühakimələr yürüdən yazıçı birdən fikirləşir: *"Zəmanəmiz hədsiz gülüş doğura bilərdi, bu qədər faciəli olmasaydı!"* (Əlibəyli, 2000).

"Çırpınan dünyamız" kitabının üçüncü hissəsi "Portretlər" adlanır və bu hissəyə Xanımana Əlibəyli, Nuridə Bağırova, Azadə Rüstəmova, Firəngiz Əlizadə, Xəzangül Hüseynova, Mehriban Rzayeva kimi müxtəlif peşə sahibləri olan Azərbaycanın ziyalı qadınları haqqında incə ştrixlərlə yazılmış portret-oçerklər daxildir. Yazıçı bu hissədə maraqlı bir məqama toxunur və qeyd edir ki, Azərbaycan qadını heç vaxt ürəkaçan, ilhamverici mühitdə yaşamayıb. Əgər bu gün qadınlarımız əldə etdikləri zirvələri fəth edə biliblərsə, bunu yalnız daxili potensial imkanlarını səfərbər edərək, qeyri-adi iradə hesabına bacarıblar. İstedadlı və işgüzar qadını milli sərvət hesab edən yazıçı üçüncü hissəyə F.Nitşenin *"Kamil qadın kamil kişidən daha yüksək insan tipidir. Amma bir o qədər də nadirdir!"* (Əlibəyli, 2000) sözləri ilə başlayır. Yazıçı daha sonra qeyd edir ki, Azərbaycan sivil ölkə olaraq dünyada yalnız o vaxt yer tuta bilər ki, qadınlarımızın sözü ən yüksək, Vətən üçün həlledici səviyyədə səslənə bilsin. Bu fikirlərin ifadə olunmasından artıq iyirmi üç il keçir və bu ötən iyirmi üç il ərzində çox şeylər dəyişib. Artıq dövlət orqanlarında, hakimiyyətin hər üç növündə, yerli və xarici təşkilatlarda qadınlar da rəhbər vəzifələr tutur, xalqımızın haqq səsini onlar da dünyaya yayırlar.

Azərbaycan uşaq poeziyası tarixində saf, büllur düşüncəli, həlim təbiətli, çılğın xarakterli, şirin sözlü, dadlı söhbətli, təmiz niyyətli, uşaq dili ilə danışan, uşaq qəlbi ilə yaşayan istedadlı şairə kimi qalan Xanımana Əlibəyli Gülrux Əlibəylinin bacısıdır. Uşaq aləmi, uşaq psixologiyası ilə maraqlanan X.Əlibəyli qeyri-adi, qeyri-standart təbiətə malik olub. Uşaqsayağı mehribanlıq, incəlik, səmimilik, mülayimlik onun xarakterinə xas əlamətlər idi. Şairənin bütün yaradıcılığının baş qəhrəmanı, əsas obrazı qaranlıqdan qaçan ağıllı, dərrakəli uşaqdır. Onun "Ana", "Qapılar", "Dovşanın ad günü", "Aycan" və s. kimi əsərləri həm uşaq qəlbini ovsunlayır, həm də tərbiyələndirir, düşündürür.

"Aycan" pyesi dövlət mükafatına layiq görülür, 1991-ci ildə X.Əlibəyli əməkdar incəsənət xadimi adı ilə təltif olunur, 1998-ci ildə isə "İlin qadını" adına layiq görülür. 1999-cu ildə ümummilli lider, ulu öndər Heydər Əliyev ona Prezident təqaüdü təyin etmiş, bu münasibətlə xatirə olaraq ona büllur şamdan da bağışlamışdır.

Yazıçı Nuridə Bağırovanın sözlərini onun haqqında yazdığı portretə epiqraf olaraq istifadə edir: *"Ən böyük xoşbəxtlik mənəvi dolğunluqdur! Mənəviyyatın safdırsa, sən gözəlsən, deməli, zənginsən də..."* (Əlibəyli, 2000) və etiraf edir ki, əziz anasının sevimli tələbələrindən biri olan Nuridə xanımın həyatı, davranışı, nitqi bu sözlərinin təsdiqidir. Nuridə xanım ağı qaradan, pisi yaxşıdan, formanı məzmundan, daxili aləmin puçluğunu mənəvi zənginlikdən, naqisliyi insanlıqdan, təkəbbür və iddianı alicənablıqdan, sadəliyi meşşanlıqdan fərqləndirməyi, bir sözlə, ali insani keyfiyyətləri seçməyi və onlara qiymət verməyi bacaran insanlardandır. Həmişə fəaliyyətdə, hərəkətdə, insanlar arasında olmaq, onlarla ünsiyyətə girmək, gərəkliliyinin şahidi olmaq təbiətin Nuridə xanıma bəxş etdiyi keyfiyyətlərin təzahürü idi.

G.Əlibəylinin kitabına daxil olan esselərdən biri də Əməkdar Elm Xadimi fəxri adına layiq görülmüş Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü Azadə Rüstəmova haqqındadır. Azadə xanımın elmi fəaliyyəti ilə yaxından tanış olan müəllif bildirir ki, bu elmin özünəməxsusluğu var. O, xüsusi emosiyalarla, ilhamla, psixoloji faktorlarla yoğrulub ki, bu da təkrarsız və cazibədar elmi ifadə tərzi yaradıb- elmimizə Azadə elmi üslubu gətirib. Yazıçı fikirlərini oxucuya daha aydın çatdırmaq üçün Mətanət Əzimovadan sitat gətirir: *"Azadə xanımın saf, ülvi hisslərinin qanadlarında Nizami, Füzuli dünyasının ucalığına pərvazlanırsan. Sözünü-söhbətini elə kökləyib nizamlayır ki, sanki titrək tellərin üstündə həzin bir nəğmə*

*ötür...Azadə fikrinin tələffüzündə, yazılışında bir əfsunluq var. Aydın sözü, cümləsi bir andaca beyinlərə hopur"* (Əlibəyli, 2000).

Bütün bunlar bizə onu deməyə əsas verir ki, təvazökar insan, daima ictimaiyyətin diqqət mərkəzində işıqlanan, nəhəng işlər görən, misilsiz işgüzarlığı ilə seçilən, lirik təbiətli R.Azadə xalqımızın ən parlaq qadın yaradıcı şəxsiyyətlərindəndir.

"Çırpınan dünyamız" kitabı, ümumiyyətlə, G.Əlibəylinin yaradıcılığı yaradıcı şəxsiyyət obrazının tədqiq edilməsi istiqamətində həm nəzəri, həm də praktiki məlumatlar, real həyat nümunələri, yaşanmış hadisələrlə zəngin əvəzsiz mənbədir. Bu tədqiqatda məsələnin qoyuluşu və elmi izahı uğurla nəticələnmişdir. Araşdırmada şəxsiyyət və yaradıcılıq vəhdətinin konkret faktlarla izahı verilmiş, G.Əlibəylinin müəllifi olduğu portret oçerklərdə yaradıcı şəxsiyyətlərin həyat və sənət sirrləri, yazıçı şəxsiyyətinin təsir gücü aydınlaşdırılmışdır.

**Ədəbiyyat:**


1. Südabə, A. (2022). Barometr. Oçerk günün ədəbi mənzərəsində. Ədəbiyyat qəzeti. https://edebiyyatqazeti.az/news/incesenet/8592-barometr-ocerk-gunun-edebi-menzeresinde
2. Gülrux, Ə. (2000). Çırpınan dünyamız. 1, 51, 88, 90, 107, 108, 109.
3. Heier, E. (1976). Neophilologus; Groningen, Netherlands Vol. 60, Iss. 3, 321.
4. Ellen, R. Ann, K. (2010). The Author Challenge: Identification of Self in the Scholarly Literature. https://doi.org/10.1080/01639374.2011.606405
5. Azərbaycan Yazıçılar Birliyi. (2016). Gülrux Əlibəyli. Ədəbiyyat qəzeti. http://www.anl.az/down/meqale/edebiyyat/2016/fevral/479438.jpg
6. Flora, X. (2008). Çırpınan dünyanın narahat sakini. Azərbaycan qəzeti, 7.
7. Elnarə, A. (2016). Xoşbəxt adam - Gülrux Əlibəyli. Ədəbiyyat qəzeti. http://www.anl.az/down/meqale/edebiyyat/2016/fevral/479440.jpg
8. Salidə, Ş. (2018). Gülrux Əlibəyli yaradıcılığında tarixi ədəbi portretlər. Ədalət qəzeti, 7. http://www.anl.az/down/meqale/adalet/2018/aprel/587662.htm

# EMOSİONAL SİTUASİYADA FRAZEOLOGİZMLƏRİN İŞLƏNMƏ XÜSUSİYYƏTLƏRİ

**Məmmədova Leyla Sadıx**
**Azərbaycan Dillər Universiteti**
**https://orcid.org/0009-0003-4353-6470**
**memmedoval830@gmail.com**

# FEATURES OF PROCESSING PHRASEOLOGISMS IN AN EMOTIONAL SITUATION

**Mammadova Leyla Sadıkh**
**Azerbaijan University of Languages**
**https://orcid.org/0009-0003-4353-6470**
**memmedoval830@gmail.com**

**Summary**

In this article, we tried to talk about the features of processing phraseologisms in an emotional situation. Also, this article deals with the lexical-semantic analysis of phraseological units expressing emotion. Phraseologisms expressing both positive and negative emotional feelings are analyzed here. The work that fills the pages of this thesis uses interdisciplinary domains to examine the relationship between language and emotion in semantics, cross-linguistic exchange of experience, development, emotion perception and understanding, emotion experience and regulation, and measurement in neural representation. Emotions are an integral part of human existence and provide and shape our understanding of the world around us through the way we experience and perceive it. They color our interactions, influence our decision-making processes, and have an undeniable impact on our overall well-being. At the same time, emotions can often be complex and multifaceted, which makes it difficult to accurately express them.

**Keywords:** emotion, idioms, phraseological units, empathy

# ОСОБЕННОСТИ ОБРАБОТКИ ФРАЗЕОЛОГИЗМОВ В ЭМОЦИОНАЛЬНОЙ СИТУАЦИИ

**Мамедова Лейла Садых**
**Азербайджанский Университет Языков**
**https://orcid.org/0009-0003-4353-6470**
**memmedoval830@gmail.com**

**Резюме**

В этой статье мы попытались поговорить об особенностях обработки фразеологизмов в эмоциональной ситуации. Также в данной статье рассматривается лексико-семантический анализ фразеологизмов, выражающих эмоции. Анализируются фразеологизмы, выражающие как положительные, так и отрицательные эмоциональные переживания. В этой работе использовались междисциплинарные области для изучения взаимосвязей между языком и эмоциями в семантике, межлингвистического обмена опытом, развития, восприятия и понимания эмоций, переживания и регулирования эмоций, а также измерения в нейронного представления. Новое исследование указывает на захватывающий путь вперед для будущих фундаментальных и трансляционных работ в области аффективной науки. Чувства и эмоции, переживаемые человеком, могут иметь как положительное, так и отрицательное значение. В повседневной жизни мы испытываем то или

иное чувство и иногда бывают такие радостные или волнующие дни, что мы просто погружаемся в положительные эмоции.

**Ключевые слова:** эмоция, идиомы, фразеологизмы, эмпатия.

Bu məqalədə biz emosional situasiyada frazeologizmlərin işlənmə xüsusiyyətlərindən bəhs etməyə çalışmışıq. Həmçinin bu məqalə emosiya ifadə edən frazeoloji vahidlərin leksik- semantik təhlilindən bəhs edir. Burada həm müsbət, həm də mənfi emosional hiss ifadə edən frazeologizmlər təhlil edilmişdir.

Dil və emosiya arasında hansı əlaqələr mövcuddur? Bu tezisin səhifələrini dolduran iş semantikada dil və emosiya arasındakı əlaqənin araşdırılması, dillər arasında olan təcrübə mübadiləsi, inkişaf, emosiyaların qavranılması və dərki, emosiya təcrübəsi və tənzimlənməsi və neyron təmsilçilikdə ölçü götürmək üçün fənlərarası domenlərdən istifadə edilir. Yeni araşdırmalar nəticəsində affektiv elmdə gələcək əsas və tərcümə işləri üçün irəliyə doğru maraqlı bir yol göstərir.

İnsana mövcud hisslər və emosiyalar həm müsbət, həm də mənfi mənalı ola bilər. Gündəlik həyatımızda biz bu və ya digər hissi yaşayırıq və bəzən elə sevincli və ya həyəcanlı günlər olur ki, sadəcə olaraq müsbət emosiyalara qərq oluruq.

Emosiyalar insan varlığının ayrılmaz bir hissəsidir və ətrafımızdakı dünyanı təcrübə və qavrayış tərzi vasitəsilə dərkini təmin edir, formalaşdırır. Onlar qarşılıqlı əlaqələrimizi rəngləndirir, qərar qəbuletmə proseslərinə öz təsirini göstərir və ümumi rifahımıza öz təsirini danılmaz edir. Eyni zamanda, emosiyalar çox zaman mürəkkəb və çoxşaxəli ola bilər ki, bu da onları dəqiq ifadə etməkdə bir sıra çətinliklər meydana çıxarır.

Görkəmli psixoloq Daniel Qoleman emosional intellektlə bağlı məqaləsində izah edir ki, emosional zəka öz duyğularımızı, eləcə də başqalarının emosiyalarını tanımaq, anlamaq və idarə etmək qabiliyyətini özündə ehtiva edir. Bir sıra alimlərin fikirləri də bu mühüm bacarıq dəstinin inkişaf etdirilməsində və təkmilləşdirilməsində mühüm rol oynayır. Bir çox emosiyalarla əlaqəli idiomlardan istifadə etməklə biz danışanın ifadə etdiyi hiss və həyəcanı daha qısa və təsirli şəkildə ifadə edə bilərik.

Məsələn, "Butterfly in my stomach" idiomatik ifadəsinə nəzər yetirək: Bu həyəcan hissini ifadə edən idiom vasitəsilə biz iş müsahibəsi və ya ilk görüş kimi mühüm hadisədən əvvəl əsəbilik və ya həyəcan hissi keçirən insanın emosiyalarını daha təsirli və daha parlaq şəkildə diqqətə çatdıra bilərik. Bu idiomdan istifadə zamanı uzun izahata ehtiyac olmadan mürəkkəb emosional vəziyyəti dərhal çatdırmaq mümkündür. Belə deyə bilərik ki, bu idiom qarşılıqlı anlaşmaya, empatiya və əlaqəyə kömək edən qısa və dəqiq yol kimi xidmət edir.

Psixologiya sahəsində Nobel mükafatı laureatı olan Daniel Kahneman araşdırması nəticəsində belə qərara gəlmişdir ki, emosiyaların qərarvermə proseslərimizə müəyyən təsirləri vardır. O bildirir ki, emosional vəziyyətlərimiz etdiyimiz seçimlərə çox təsir edir, həmçinin, bu da çox vaxt rasionallığı kölgədə qoyur. Emosiyalarla əlaqəli deyimlər bu mürəkkəb əlaqələri əhatə edir, düşüncələrimizi və hərəkətlərimizi istiqamətləndirən emosional alt cərəyanları çatdırmağa imkan verir.

Duyğularla əlaqəli idiomları mənimsəmək həm ünsiyyət bacarıqlarımızı, həm də emosional zəkamızı inkişaf etdirir. Bu məcazi ifadələrlə daha yaxından tanış olduqca biz müxtəlif emosional vəziyyətlər və onlarla əlaqəli nüanslar haqqında nüanslı bir anlayış inkişaf etdiririk. Bu yüksək məlumatlılıq bizə başqaları ilə daha effektiv empatiya qurmağa, şəxsiyyətlərarası münasibətlərimizi gücləndirməyə imkan verir.

İnsanlara xoşbəxt, kədərli və ya qəzəbli olduğunuzu söyləmək üçün bəzi emosional deyimlər.

Bu idiomlar insanın sevindiyini bildirən situasiyalarda işlədilir:

Over the moon, thrilled to bits, in seventh heaven, on cloud nine, jump for joy

Bu idiomlar isə kədərləndiyinizi bildirir:

Down in the dumps, feel blue, beside yourself (with grief, worry), sick as a parrot

Bu idiomlar çox qəzəbli olduğunuzu bildirir:

See red, hopping mad, in a black mood

Bu idiomlar nə edəcəyinizi bilmədiyiniz anlamına gəlir:

At the end of your tether, at your wits' end.

1.**Mixed feeling-**bu idiom birdən çox emosiyanı ifadə edir. Məsələn, hər hansı bir şəxs eyni zamanda həm şən, həm də qəmgin, narahat hiss edirsə bu "mixed feeling" (yəni qarışıq hissiyyatlı) adlı idiomla ifadə olunur.

2. **No hard feelings-** bu idiom adətən mübahisədən sonra incikliyin və qəzəbin davam etmədiyi təqdirdə işlədilir.

3.**Be as hard as nails-** bu idiom şəfqətsiz, həssas olmayan, empatiya hissi olmayan insanlar üçün işlədilir.

4.**To carry the torch for**-Bu idiom adətən kiməsə qarşı sevgi hisslərinin olması, lakin bu hisslərin qarşılıqsız olması situasiyalarında işlədilir. Bu həmçinin gizli sevgini də ifadə edir.

5.**Chip on your shoulder-**bu ifadə bədbəxt hiss edilən situasiyalarda işlədilir. Kifayət qədər sevgi və dəyər görməyən, özünü depressiyada hiss edən insanlara aid edilir.

6.**Go to pieces-**mental və emosional boşluğa düşmüş insanın emosiyasını ifadə edir. Kimisə itirdikdən sonra dərin kədər və qəmginlik hissini də ifadə edir.

7.**To be in a stew-**bu idiomatik ifadə kədər və narahatlıq hissini ifadə edir.

8.**On top of the world-**bu ifadə həddindən artıq şən, heyrətamiz hiss edilən situasiyalarda işlədilir.

9.**To be hopping mad-**çox qəzəbli hiss edilən situasiyalarda işlədilir.

Ümumiyyətlə, dil güclü bir vasitədir və idiomlar emosiyaları canlandıran gizli maddələrdir. Dildə emosionallıq çoxşaxəli linqvistik xüsusiyyətləri ilə səciyyələnir. Bu xüsusiyyətlər həm emosionallığın verballaşdırılması üçün istifadə olunan vasitələr, həm də bu vasitələrin nitqdə işlənməsində, eyni zamanda emosional vəziyyətin dil vasitələri ilə müqayisəli şəkildə təsvirində aydınlaşır. Bütün bu xüsusiyyətlər öz növbəsində emosionallığın mürəkkəb bir linqvistik strukturu olduğunu təsdiq edir.

**Ədəbiyyat:**


1.Abdulla K. (2010) Dilçiliyə səyahət. (200 s.) Bakı: Mütərcim.

2.Абдуллаев С.А. (1971) Експрессивное утверждение и экспрессивное отрицанме (на материале Азербайджанского языка): Автореф. дис. … канд. филол. наук. Баку, 32 с.

3.Barrett, L. F. (2012). Emotions are real. *Emotion* 12, 413–429.

4.Branscombe N.R. Conscious and Unconscious Processing of affective and cognitive information//Fiedler K., Forgas J. Affect, Cognition and Sosial Behavior. Toronto: 1988, p. 3-24.

5.Dahl H., Stengel B. A classification of emotion words: A modification and partial test of de Rivera's decision theory of emotions. // Psychoanalysis and Contemporary Thought. №.1. 1978, p.261-312.

6.Ekman P. (1972). *Universals and cultural differences in facial expressions of emotion* (Cole J., Ed.). *Nebraska Symposium on Motivation*, 19, 207–283.

# İCTİMAİ DİSKURSDA NƏZAKƏTLİLİYİN LİNQVİSTİK İFADƏ VASİTƏLƏRİ

**Mustafayeva Ülviyyə Ənvər**
**Bakı Slavyan Universiteti**
**https://orcid.org/0009-0000-1112-7865**
**ulviyya1990@live.com**

# LINGUISTIC MEANS OF POLITENESS IN PUBLIC DISCOURSE

**Mustafayeva Ulviyya Anvar**
**Baku Slavic University**
**https://orcid.org/0009-0000-1112-7865**
**ulviyya1990@live.com**

**Summary**

The purpose of this report is to select words and phrases that express politeness in public discourse in English and Azerbaijani languages, and to determine their language realization characteristics. In today's era of independence, when people communicate in their mother tongue, it is especially important to follow the rules of polite speech. Along with other factors, the role of cultural speech and high speech culture is also important in introducing our homeland, our country, our people to the world as a civilized, cultural country and people. In this regard, the president of our republic, Mr. I. Aliyev's speeches are an example for everyone. "Thank you for your kind words", "Thank you on behalf of our people for your support", which were used in the letters addressed to Mr. I. Aliyev on the occasion of the liberation of our land from the enemy, and in the replies to these letters. Phrases like these can be examples of polite expressions.

**Key words:** politeness, public discourse, cultural speech, cultural phrases

# ЯЗЫКОВОЕ ВЫРАЖЕНИЕ ВЕЖЛИВОСТИ В ПУБЛИЧНОМ ДИСКУРСЕ

**Мустафаева Ульвия Анвар**
**Бакинский Славянский Университет**
**https://orcid.org/0009-0000-1112-7865**
**ulviyya1990@live.com**

**Резюме**

Целью данного отчета является отбор слов и словосочетаний, выражающих вежливость в публичном дискурсе на английском и азербайджанском языках, и определение характеристик их языковой реализации. В сегодняшнюю эпоху независимости, когда люди общаются на родном языке, особенно важно соблюдать правила вежливой речи. Наряду с другими факторами важна и роль культурной речи и высокой речевой культуры в представлении нашей Родины, нашей страны, нашего народа миру как цивилизованной, культурной страны и народа. В этом плане выступления президента нашей республики господина И.Алиева являются примером для всех. «Спасибо за добрые слова», «Спасибо от имени нашего народа за поддержку», которые были использованы в письмах, адресованных господину И. Алиеву по случаю освобождения нашей земли от врага, и в ответы на эти письма. Подобные фразы могут быть примерами вежливых выражений.

**Ключевые слова:** вежливость, публичный дискурс, культурная речь, культурные фразы

Mədəni davranış, nəzakətli nitq və hərəkət mədəniyyətimizin çox mühüm amillərindəndir. Şəxsiyyətlərarası münasibətlərin tənzimlənməsində mədəni davranış və nəzakətli nitq daim mühüm əhəmiyyət kəsb etmiş, insanların əxlaq və mənəviyyatının səviyyə göstəricisi kimi təsəvvür yaratmışdır. İnsanların mədəni və əxlaqi səviyyəsinin yüksəldilməsi, ictimai diskursda şəxsiyyətlərarası münasibətlərin inkişafı, adamların əhval-ruhiyyəsi və nəzakətli davranışın əmək fəaliyyətinə təsiri və s. kimi məsələlər daima cəmiyyətimizin və dövlətimizin diqqət mərkəzində olmuşdur. Cənab prezidentimiz İlham Əliyevin dövlət orqanları tərəfindən vətəndaşlara göstərilən xidmət səviyyəsinin təkmilləşdirilməsi, vətəndaşlarla münasibətdə mədəni davranışa və etik qaydalara əməl edilməsi, ictimaiyyət arasında vətəndaş məmnunluğunun təmin olunması, dövlət strukturlarının əməkdaşları üçün etik təlimlərin təşkil olunması, vətəndaşları qəbuletmə, dinləmə, izahetmə bacarığının yaradılması və təkmilləşdirilməsi məqsədilə bir sıra təlimlərin həyata keçirilməsinin təşkili kimi məsələlər ictimai diskursda nəzakətli davranışın inkişaf etdirilməsi baxımından mühüm əhəmiyyətə malikdir.

Üslub baxımından nitqin obrazlılığı, səlislik, düzgün intonasiya və səs tonu, ünsiyyət iştirakçılarının sosial statusunu nəzərə alaraq düzgün mövzunun seçilməsi, mədəni və nəzakətli ifadələrin işlədilməsi ünsiyyət prosesinin vacib amillərindəndir. Bu baxımdan ictimai diskursun ayrılmaz hissəsi olan nəzakətlilik ifadə edən söz və ifadələrin öyrənilməsi dilçilik üçün olduqca aktual bir məsələdir.

Müstəqil ölkə olaraq Avropaya inteqrasiya etdiyimiz indiki dövrdə xüsusən ictimai diskursda mədəni və nəzakətli ünsiyyət mühüm hesab olunur. Ölkəmizi  sivil və nəzakətli bir ölkə olaraq dünyaya tanıtmaqda digər amillərlə yanaşı, ictimai diskursda nəzakətliliyin, yüksək nitq mədəniyyətinə malik olmağımızın da rolu danılmazdır. Cənab Ali Baş Komandanımız İlham Əliyevin nəzakətlilik prinsiplərini özündə əks etdirən çıxışları bu baxımdan hamıya nümunədir. Xüsusən, İlham Əliyev cənablarına torpaqlarımızın düşmən tapdağından azad olması münasibətilə ünvanlanan məktublarda və bu məktublara cavablarda işlənən ifadələr mədəni davranışın ifadə vasitələrinə misal ola bilər.

Nitq mədəniyyətinin əsas müddəalarından biri də ictimai diskursda nəzakətli davranış ifadə edən söz və ifadələrin işlədilməsidir. Nitq mədəniyyəti dedikdə insanlararası münasibətləri nizamlayan nəzakətlilik və əxlaqi keyfiyyətlər nəzərdə tutulur. Həmçinin, ictimai diskursda nəzakətli danışmaq mədəni və savadlı adamın əsas keyfiyyətlərindən biridir.

Nəzakətlilik və əxlaqi davranışın özünün də müəyyən norma və prinsipləri vardır. Bu normalara müraciət, sual soruşma, suala cavab, dinləmə, söhbətə müdaxilə, xoş və ya pis xəbərin ötürülməsi və s. daxildir. İctimai diskursda nəzakətli davranış şəxsiyyətlərarası münasibətlərin tənzimlənməsində başlıca əhəmiyyət daşımış, insanların mədəniyyət və əxlaqı barəsində ilkin təsəvvür yaratmışdır.

İnsanlar həmişə nəzakətli ünsiyyət qabiliyyətinə görə yüksək qiymətləndirilmiş, eyni zamanda nəzakətli sözlər, ifadələr ilə mükafatlandırılmışlar.

İctimai diskursda mədəni davranış ifadə edən müraciət bildirən sözlərin bir qismi şəxsin cəmiyyətdəki mövqeyi, vəzifəsi, peşəsi, milli və yaş mənsubiyyətini, eləcə də, insanların qarşılıqlı əlaqə və münasibətini ifadə edir. Müəllim, professor, həkim, biznesleydi, direktor, dekan, müdir və. s. belə sözlərə misal ola bilər. “Müəllim” sözü ünsiyyət prosesində ən çox rast gəldiyimiz müraciət nümunəsidir. Bu söz iki müxtəlif formada işlədilir: ayrıca və ya xüsusi vokativ (ad bildirən) sözlərlə. Tədris prosesi ilə məşğul olan adamla yanaşı, bu işlə məşğul olmayan müxtəlif peşə sahiblərinə müraciət zamanı “müəllim” sözü hörmət əlaməti olaraq işlədilir. İstifadə yerlərindən asılı olmayaraq müəllim sözü öz ilkin mənasından  öyrədən, təlim prosesi ilə məşğul olan anlayışından uzaqlaşmamalıdır. (Elmi Xəbərlər jurnalı-ADU, 2014)

Nəzakətlilik ifadə edən müraciət bildirən sözlərdən radio və televiziya verilişlərində də istifadə olunur ki, bu da dinləyicinin və ya tamaşaçının diqqətini çəkmək, verilən informasiyaya, göstərilən hadi-

səyə diqqətli olmaq məqsədini daşıyır. Bu ifadələr xoş və könül oxşayan bir əhval-ruhiyyə yaratmaq, ruhlandırmaq, qürur və fəxr ifadə etmək baxımından vacib ünsiyyət elementlərindəndir. Bütün bu deyilənlərdən belə bir **nəticəyə** gələ bilərik ki, nəzakətlilik insanlarda anadangəlmə deyildir, o, cəmiyyətdə, insanlararası münasibət zamanı davranış tərzi kimi formalaşır. Bu səbəbdən nəzakətliliyin ifadə vasitələrinin hər bir xalqın həyat tərzinə, milli-mənəvi dəyərlərinə müvafiq şəkildə fərqlənməsi də inkarolunmazdır.

**Ədəbiyyat:**


1. İngilis dilində nəzakət bildirən söz və ifadələr, Elmi Xəbərlər jurnalı. Bakı-ADU, 2014, №2, s.186-188.
2. Üzristəmə anlayışının ifadə vasitələri haqqında, Tağıyev oxuları. Bakı-BSU, 2015, №2, s.122-125.
3. Nəzakətlilik anlayışı, Elmi Xəbərlər jurnalı. Bakı-ADU 2015, №3, s.125-126.
4. Nəzakətliliyin qeyri-linqvistik təhlili, Beynəlxalq Elmi-Nəzəri jurnal. Bakı- BDU, 2015, №3, s.42-44.
5. İngilis ədəbiyyatında nəzakət bildirən söz və ifadələr, ADPU-nun xəbərləri. Bakı- ADPU, 2015, №1, s.290- 294.
6. Nəzakətlilik anlayışı Braun və Levinsonun tədqiqatları, AMEA-nın 70 illik yubileyinə həsr olunmuş Doktorantların və Gənc Tədqiqatçıların XIX Respublika Elmi Konfransının materialları. I cild. Bakı-ADİU(UNEC), 2015, s.439-440.
7. Multikultural situasiyada nəzakətliliyin praqmatik aspektləri, Azərbaycan təhsilində strateji hədəflər və pedaqoji elmlərin qarşısında duran vəzifələr. Respublika Elmi konfransının materialları. Bakı-ARTPİ, 2015, s.51-52.


## MÜASİR AZƏRBAYCAN DİLİNDƏ FRAZEOLOJİ SİNONİMLƏRİN ZƏNGİNLƏŞMƏ YOLLARI


**Xanalıyeva Aysel Fazil**
**Bakı Dövlət Universiteti**
**https://orcid.org/0000-0003-4013-9392**
**a.xanaliyeva@arti.edu.az**


## WAYS OF ENRICHING PHRASEOLOGICAL SYNONYMS IN THE MODERN AZERBAIJANI LANGUAGE


**Khanaliyeva Aysel Fazil**
**Baku State University**
**https://orcid.org/0000-0003-4013-9392**
**a.xanaliyeva@arti.edu.az**



**Summary**

The richness of the modern Azerbaijani language with phraseological synonyms shows that its stylistic possibilities are wide. In our language, there are a large number of phraseological synonyms that express the same concept. Phraseological synonym rows are constantly evolving: the range of processing of some phraseological expressions in the row narrows, becomes archaic, and leaves the synonym row. In many cases, new phraseology is added to the

synonym row, and the row is enriched. The sources of enrichment of phraseological synonyms are discussed in the research work. Phraseological synonyms are enriched in two ways: 1) due to the internal capabilities of the language; 2) through other languages. The research examines ways of enriching phraseological synonyms due to the internal capabilities of the language. It is concluded that the Azerbaijani language is rich in phraseological synonyms. The internal capabilities of this language have the power to create all kinds of phraseological expressions.

**Keywords:** modern Azerbaijani language, phraseological synonyms, synonym row.

## ПУТИ ОБОГАЩЕНИЯ ФРАЗЕОЛОГИЧЕСКИХ СИНОНИМОВ В СОВРЕМЕННОМ АЗЕРБАЙДЖАНСКОМ ЯЗЫКЕ

**Ханалиева Айсель Фазиль**
**Бакинский Государственный Университет**
**https://orcid.org/0000-0003-4013-9392**
**a.xanaliyeva@arti.edu.az**

**Резюме**

Богатство современного азербайджанского языка фразеологическими синонимами показывает, что его стилистические возможности широки. В нашем языке существует большое количество фразеологических синонимов, выражающих одно и то же понятие. Фразеологические синонимические ряды постоянно эволюционируют: диапазон обработки некоторых фразеологических выражений в ряду сужается, архаизируется и выходит из синонимического ряда. Во многих случаях к синонимическому ряду добавляется новая фразеология, и ряд обогащается. В исследовательской работе обсуждаются источники обогащения фразеологических синонимов. Фразеологические синонимы обогащаются двумя способами. 1) за счет внутренних возможностей языка; 2) через другие языки. В исследовании рассматриваются пути обогащения фразеологических синонимов за счет внутренних возможностей языка. Делается вывод, что азербайджанский язык богат фразеологическими синонимами. Внутренние возможности этого языка позволяют создавать всевозможные фразеологические выражения.

**Ключевые слова:** современный азербайджанский язык, фразеологические синонимы, синонимический ряд.

Hər bir dilin frazeoloji fondu xalqın milli mənəviyyatının, mədəniyyətinin, tarixiliyinin bariz nümunəsidir. Frazeoloji vahidlərin semantik xüsusiyyətlərinin araşdırılması Azərbaycan dilçiliyində aktual problemlərdən biridir. Tədqiqat işində frazeoloji vahidlərin əsas semantik xüsusiyyətlərindən biri olan sinonimlik nəzərdən keçirilir. "*Frazeoloji sinonimlər mənaca eyni və yaxud bir-birinə çox yaxın, lakin üslub cəhətdən müxtəlif frazeoloji vahidlərdir*" (Mahmudova, 2009). Frazeoloji sinonimlərdən fikrin yığcam, dəqiq, obrazlı, emosional, həmçinin, detallı ifadəsi üçün istifadə edilir. Dildə frazeoloji sinonimlərin sayı nə qədər çox olarsa, nitqin dəqiqliyi, obrazlılığı və ekspressivliyi bir o qədər təmin edilmiş olar. Bəs dilin frazeoloji qatında sinonimlərin artımı, zənginləşməsi necə baş verir?

Frazeologizmlər sərbəst söz birləşmələrinin məcazlaşması və sabitləşməsi nəticəsində əmələ gəlir. Bu baxımdan frazeoloji sinonimlərin zənginləşməsi, inkişafı təbii xarakter daşıyır. *"Dildə sinonim ifadələrin artmasına səbəb ardı-arası kəsilmədən sərbəst söz birləşmələrinin sabit söz birləşmələrinə çevrilməsi və mövcud ifadə əsasında yeni ifadələrin düzəlməsidir"* (Rəhimzadə, 1971).

Bu prosesdə söz sənətkarlarının rolu danılmazdır. *"Bədii ədəbiyyat idiomlar yatağı olmaqla bərabər, eyni zamanda, onların bir törəmə mənbəyidir. Çünki idiomların yaranmasında rol oynayan məcazi mənalılıq bədii ədəbiyyata, xüsusilə, şeir dilinə xas olan əlamətlərdən biridir"* (İsmayılov, 2014). Bədii dilin obrazlılığı, ekspressivliyi, emosionallığı dilin frazeoloji qatının zənginləşməsi üçün imkanlar yaradır. Bədii

əsərlərdə məcazlaşmış ifadələrin yer alması, dilin frazeoloji qatının tədricən inkişafına təkan verir. Bədii təxəyyülün məhsulu olan xeyli sayda ifadələr getdikcə dildə sabitləşir, ümumiləşərək dilin frazeoloji fonduna daxil olur. Məsələn, sevinmək anlayışı ifadə edən s*evinci yerə-göyə sığmamaq – sevincdən ürəyi atlanmaq – qanadlanıb uçmaq – çiçəyi çırtlamaq* frazeoloji sinonimləri bədii üslub fonunda formalaşmışdır.

Dilimizdə "ölmək" anlayışı ilə bağlı xeyli sayda frazeoloji sinonim ifadələr var ki, bədii əsərlər vasitəsilə müasir ədəbi dilə daxil olub. N.Seyidəliyevin Azərbaycan dastan və nağıl dilinin frazeoloji sinonimikasına dair apardığı tədqiqatda belə bir qeyd var: *"Ölmək və öldürmək anlayışları ilə bağlı Azərbaycan dastan və nağıllarımızda hər bir sözə aid 50-dən artıq frazeoloji ifadə öz əksini tapmışdır. Həmin frazeoloji vahidlərin bəziləri danışıq-loru dilində, bəziləri kinayə ilə, bəziləri qarğış məqamında və s.-də işlədilir"* (Seyidəliyev, 2007).

Q. Kazımov da Ə.Haqverdiyevin "Dağılan tifaq" əsərinin dilini təhlil edərkən də bu qənaətə gəlir ki, baş qəhrəman nitqində əsər boyu keçirdiyi hisslərə, qarşılaşdığı situasiyalara uyğun olaraq "ölmək" anlayışını ifadə edən frazeoloji sinonimlərdən istifadə edir: *baş gora aparmaq, cərcənəyini ayırmaq, başını yerə qoymaq, canı çıxmaq, kəlləsini ağartmaq, axırını eləmək, canından keçmək, tamam olmaq, nəfəsi qayıtmamaq, ürəyi qırılmaq, oda yanmaq, ömrü paymal olmaq, bada getmək, bağırsaqlarını ayaqlarına dolamaq* və s. (Kazımov, 2008)

Bu da onu göstərir ki, frazeoloji sinonimlər üslubi imkanlarına, məna çalarlarına görə biri digərindən fərqlənir. *"Sinonimlər tam mənada bir-birinin əvəzinə işlənə bilən sözlər deyildir. Əksinə, sinonim cərgəyə daxil olan hər bir sözün məna çaları və üslubi rənginə görə nitqdə istifadə məqamı vardır"* (Əfəndiyeva, 2001).

Frazeoloji sinonimlərin bir qismi də atalar sözləri və məsəllərdən törənmişdir. *Məsələn, Qasım: Mən özüm başlarının üstündə dayanaram. Vəzifəm nədir? Deyir ki, **muzdur düz dur!*** (Rəhman, 2005). *Şahinin dişi bağırsağını kəsirdi: – Kim icazə verib burda tikinti aparmağa? -* Biz **buyruq quluyuq,** *Şahin müəllim, **ağa deyir sür dərəyə, sür dərəyə***!

*Muzdur, düz dur* və *ağa deyir sür dərəyə, sür dərəyə* frazeoloji sinonimləri, çox güman ki, folklor materialı – məsəl kimi mövcud olub. İndiki vaxtda hansı əhvalatın əsasında yarandığını söyləmək çətindir.

Dini əfsanə, rəvayətlər, adət-ənənələr və s. əsasında yaranan frazeologizmlər biri digəri ilə paralellik, sinonimlik yaradır. "Yaşı çox olmaq" mənasında *Nuhu beşikdə görmək – Nadiri taxtda görmək//Nadiri taxtda görüb, Şah Abbası qundaqda;* "köhnəlmək", "istifadəsini bitirmək" mənasında işlənən *Nuh əyyamından qalma – Nikolaydan qalma və s.* frazeoloji sinonimlər folklor nümunələrinin sinonimliyin zənginləşmə mənbələrindən biri olduğunu sübut edir.

Dialekt və şivələr də ədəbi dilin frazeoloji fondunun zənginləşməsində böyük rol oynayır. Dialekt və şivələrdə işlənən frazeoloji ifadələr ədəbi dilə şair və yazıçılar, alim və jurnalistlərin vasitəsilə gəlir. Belə ki, bədii əsərlərdə, kütləvi informasiya vasitələrində işlədilən ifadələr geniş oxucu auditoriyasına çıxır və getdikcə ümumişləklik qazanaraq ədəbi dilə keçir.

*Gözləyirəm ki, axırıncı sən çıxıb gedəsən. Bayaqdan məndən başqa hamıya **şəbədə qoşmusan**, birdən öz-özünə dalımca danışıb mənə də **vedrə bağlayarsan** ha...* (Əjdər Ol, 2015) *Şəbədə qoşmaq* və *vedrə bağlamaq* frazeoloji sinonimlərdir və biri digərinin izahedicisi kimi işlənib. Ancaq bu frazeologizmlər daha çox canlı danışıq dilində işlədilir. Dialekt və şivələrdə *şəbədə qoşmaq* frazeoloji vahidinin müxtəlif variasiyalarına (*şəbədə eləmək, şəbədiyə qoymaq*) da rast gəlinir. (Azərbaycan dilinin dialektoloji lüğəti, 2007)

"Haqqında pis danışmaq, gülüş hədəfinə çevirmək" mənasında işlənən bu frazeologizmlərin digər variant və sinonimləri arasında da dialektə məxsus, loru danışığa məxsus olanları vardır: *Söz qoşmaq – süpürgə bağlamaq//zurna bağlamaq – araya qoymaq//lağa qoymaq//məsxərəyə qoymaq – ələ salmaq –*

*barmağına dolamaq – hoydu-hoyduya götürmək* frazeologizmləri biri digərindən az və ya çox dərəcədə semantik çalarla, əlavə məna yükü daşımaqla fərqlənir. Nümunə:

*Haylə şeylərdən ötərin el adamı hoydu-hoyduya götürər (Şərur). Özün hammıya loğaz döşüyürsən, özü:n də tutduğun əmələ baxginən (Culfa). Oqədərə lələx' qoşdular, axırı oğla:n acığına gəldi də:sən* (Culfa). (Məmmədova, 2021)

Bir qrup sinonim frazeologizmlər eyni bir situasiyaya, fikrə pozitiv və ya neqativ münasibətdən dolayı yaranır. İfadə olunan fikrin obyektə münasibət fərqliliyi frazeoloji sinonimlərdə özünü iki şəkildə göstərir:

1. Hər hansı bir anlayış mənfi münasibətlə ifadə olunur. Bu, frazeoloji kakofemizmdir. Məsələn, dilimizdə "ölmək" anlayışının pis tanınan insanlar haqqında mənfi münasibətin ifadəsində *cəhənnəmə vasil olmaq – it ölən kimi ölmək//it kimi gəbərmək – gorbagor olmaq – canı çıxmaq* frazeologizmləri işlənir.

2. Dinləyən tərəfdə narahatlıq, kobudluq, xoşagəlməz duyğular yaratmamaq üçün hər hansı ifadələr yumşaldılaraq işlədilir. Belə ifadələr frazeoloji evfemizmlər hesab olunur. Məsələn, "qocalmaq" mənasında *birçəyi ağarmaq, saqqalına dən düşmək* və *beli bükülmək* frazeologizmləri işlənir.

Beləliklə, evfemizm və kakofemizm vasitəsilə frazeoloji sinonim cərgələr zənginləşir.

Çoxmənalı frazeologizmlər vasitəsilə də frazeoloji sinonim cərgələrin zənginləşdiyi müşahidə olunur. Məsələn, "ağlı kəsmək" frazeologizminin iki mənası var: "inanmaq" və "anlamaq". "Anlamaq" mənasında *başa düşmək*, "inanmaq" mənasında *beyninə batmaq* frazeologizmləri ilə sinonim olurlar. Nümunə: *Bax bu başqa məsələ. Bunu ağlım kəsir, gec-tez sən deyən olacaq; Ay balam, nə işin var, uşaqdır, ağlı kəsmir, böyüyəndə vallah sənə ağıl öyrədəcək.*

Göründüyü kimi, "baş", "beyin", "ağıl" sözlərinin eyni məna qrupuna aid olması daxil olduqları ifadələrin mənalarının da səsləşməsinə səbəb olur. Belə olduqda ifadələr arasında müxtəlif semantik dəyişikliklər gedə bilər. *Ağlı kəsmək, beyninə batmaq* frazeologizmləri semantik genişlənmə nəticəsində həm anlamaq, həm də inanmaq anlayışı ifadə edən frazeoloji sinonimlərə çevrilə bilmişlər. Belə frazeologizmlərə xeyli sayda nümunə gətirmək mümkündür. Bu isə onu göstərir ki, çoxmənalılıq da frazeoloji sinonimlərin zənginləşmə yollarından biridir.

Göründüyü kimi, frazeoloji sinonim cərgələr ilk növbədə dilin daxili imkanları hesabına zənginləşir. Frazeoloji sinonimlərin zənginləşmə yolları müxtəlifdir: 1. Bədii əsərlərin dilində işlənən yeni ifadələr vasitəsilə; 2. Dialekt və şivələrdən ədəbi dilə daxil olan ifadələr hesabına; 3. Kakofemizm və evfemizm yolu ilə; 4. Çoxmənalı frazeologizmlərin məna genişlənməsi ilə və s.

Frazeoloji sinonimlərin nitqdə böyük rolunun olduğunu nəzərə alsaq, bu gün müasir dilçilikdə frazeoloji sinonimlərin zənginləşmə yollarının hərtərəfli tədqiqinə ehtiyac vardır.

**Ədəbiyyat:**

1.Mahmudova Q. (2009) Qıpçaq qrupu türk dillərinin frazeologiyası. Bakı: "Nurlan" 296 s., s. 208.

2.Rəhimzadə N.R. (1971) Sinonim idiomatik ifadələr və onların variantları. Azərb. SSR EA-nın xəbərləri. İctimai elmlər seriyası, №10, s. 175.

3.İsmayılov Ə., Ərdoğan A.M. (2014) Azərbaycan dilinin paremiya-frazeoloji sisteminin bəzi inkişaf meyilləri haqqında // Azərbaycanşünaslığın aktual problemləri. V Beynəlxalq elmi konfransın materialları. BSU, s. 320-323, s. 96.

4. Seyidəliyev N.F. (2007) Azərbaycan dastan və nağıl dilinin frazeologiyası: Filol. elm. dok. dis., 273 s., s. 168.

5.Kazımov Q.Ş. (2008) Seçilmiş əsərləri. 1-ci cild. "Nurlan", 560 s., s.181, 183.

6.Rəhman S. (2005) Seçilmiş əsərləri. 2 cilddə, I cild. Bakı: Avrasiya Press, 312 s., s. 245.

7.Əjdər Ol. (2015) Canlı lətifələr, əhvalatlar, deyimlər. Bakı: Qanun, 2015, 328 s., s.63.
8.Azərbaycan dilinin dialektoloji lüğəti. (2007) Bakı: Şərq-Qərb, 568 s., s.461
9.Məmmədova Ş. (2021) Naxçıvan dialekt və şivələrində frazeoloji vahidlər. Filol. üzrə fəls. dokt. dissertasiyası. 136 s., s.79.
10. Əfəndiyeva, T.Ə. (2001) Azərbaycan ədəbi dilinin üslubiyyat problemləri. Bakı: Elm, 181 s., s.32.

# MÜCƏRRƏD QRAMMATİK ƏLAQƏ BİLDİRƏN SÖZÖNÜLƏRİN LEKSİK-SEMANTİK XÜSUSİYYƏTLƏRİ

**Həsənova Nüşabə Haqverdi**
**Azərbaycan Dillər Universiteti**
**https://orcid.org/0009-0005-2351-2548**
**nushabehasanova89@gmail.com**

# LEXICAL-SEMANTIC CHARACTERISTICS OF PREPOSITIONS DENOTING ABSTRACT GRAMMATICAL RELATIONS

**Hasanova Nushaba Hagverdi**
**Azerbaijan University of Languages**
**https://orcid.org/0009-0005-2351-2548**
**nushabehasanova89@gmail.com**

**Summary**

In modern English, prepositions play very significant role in auxiliary parts of speech. Since the English language has an analytical structure, the relations between words are realized through prepositions. Although prepositions are formed in the process of narrowing the meanings of the main parts of speech, prepositions denoting abstract grammatical relations were formed as a result of the expansion of the meanings of prepositions denoting spatial and temporal relations. Along with noting the more complex assimilation of abstract relationships by people, the high variability of meanings of prepositions denoting abstract grammatical relations preserves the relevance of prepositions included in the mentioned group even in modern times. In recent times, as a result of the study of prepositions based on computer linguistics, it is also noted that prepositions are a poly-semantic category. The multifaceted relations of prepositions denoting abstract grammatical relations hinder their automatic semantic interpretations.

**Keywords:** abstract grammatical relations, prepositions, types of meaning

# ЛЕКСИКО-СЕМАНТИЧЕСКАЯ ХАРАКТЕРИСТИКА ПРЕДЛОГОВ ОБОЗНАЧАЮЩИХ АБСТРАКТНЫЕ ГРАММАТИЧЕСКИЕ ОТНОШЕНИЯ

**Гасанова Нушаба Хагверди**
**Азербайджанский Университет Языков**
**https://orcid.org/0009-0005-2351-2548**
**nushabehasanova89@gmail.com**

**Резюме**

В современном английском языке предлоги занимают большое место во вспомогательных частях речи. Так как английский язык имеет аналитическую структуру, связь между словами реализуется через предлоги.

Хотя предлоги образуются в процессе сужения значений основных частей речи, предлоги, обозначающие абстрактные грамматические отношения, образовались в результате расширения значений предлогов, обозначающих пространственные и временные отношения. Отмечая более сложное усвоение людьми абстрактных отношений, высокая вариативность значения предлогов, выражающих абстрактные грамматические оношения, сохраняет актуальность предлогов, входящих в указанную группу. В последнее время в результате изучения предлогов на основе компьютерной лингвистики также отмечается, что предлоги являются полисемантичной категорией. Многогранность смысловых отношений предлогов, обозначающих абстрактные грамматические отношения, затрудняет их автоматическую смысловую интерпретацию.

**Ключевые слова:** абстрактные грамматические отношения, предлоги, виды значения

Müasir ingilis dilində sözönülər mövzusu, xüsusilə də onların leksik mənalarının olub-olmaması kimi məsələlər hələ də öz aktuallığını qoruyub saxlamaqdadır. Dilçilikdə sözönülərin yalnız qrammatik məna ifadə etməsi ilə yanaşı, eyni zamanda onların leksik mənaya sahib olmaları ilə bağlı nəzəriyyələr də irəli sürülmüşdür. Son dövrlərdə, sözönülərin kompüter və riyazi dilçiliyin alqoritmləri əsasında tədqiqi nəticəsində hətta sözönülərin polisemantik kateqoriya olduğu da qeyd olunur. (Girju, 2009) Eyni zamanda, bəzi tədqiqat işlərində sözönülər cümlədə yaranmış ikimənalılığın səbəbi kimi də göstərilir. (Taylor, 1993) Sözönülərin semantikasının tədqiqi XXI əsrdə Litkowski & Hargravesin (2005, 2006) “Sözönü Layihəsi” (The Preposition Project) adlandırdıqları məlumat bazası ilə daha da aktuallaşmışdır. Bu layihənin məqsədi 373 sözönünün yaratdığı 847 mənanın semantik və sintaktik xüsusiyyətlərinin araşdırılmasıdır. Daha sonra 2007-ci ildə Praqada “*Semantik və sintaktik təhlil”* adlı seminarda (SemEval 2007) “*Sözönülərin çoxmənalılığının aradan qaldırılması”* adlı tədqiqat işində ən çox işlənən 34 sözönü 25,000-dən çox nümunələrdə təhlil edilmişdir.

Mücərrəd qrammatik əlaqə bildirən sözönülərin ifadə etdiyi əlaqələrin müxtəlif olması, onların mənalarının düzgün və dəqiq şəkildə mənimsənilməsində kontekstin mövcudluğunu şərtləndirməklə bərabər, eyni zamanda onların avtomatik interpretasiyasına mane olur. (Girju, 2009) Mücərrəd qrammatik əlaqə bildirən sözönülərin ifadə etdiyi məna əlaqələrinin differensiallığını qeyd etmək üçün aşağıdakı məna əlaqələrinə diqqət yetirmək lazımdır.. *keçid,tamamlayıcılıq, qətedicilik, yekunlaşdırıcılıq, yayılma/əhatə dairəsi, davamiyyət, səbəb, nəticə, təhrik, məqsəd, nəzərdə tutulmuş son nöqtə, resipiyent, məqsəd, məram, hədəf, mənbə, kök, tərzi-hərəkət və ya hal-vəziyyət, alət, vasitə icraçı (vasitəçi)* bildirən sözönləri və s. (Quirk& Greenbaum, 1987)

2004-cü ildə rus dilçisi A.Petroçenkov öz tədqiqatında çoxmənalı sözönülərini araşdırmışdır. Məsələn, at -24, of-22, for-20, by-17, to-14, over-13, on-11, with-11, before-11, after-9, from-9, into-9, under-9, in-8, against-7 və through sözönünün 6 mənasını qeyd etmişdir. (Petroçenkov, 2006) Mücərrəd qrammatik əlaqə bildirən sözönülərin məna əlaqələrinin çoxşaxəli olması, onların düzgün mənimsənilməsində və Azərbaycan dilinə dəqiq transformasiya olunmasında çətinliklər yaradır. Məsələn, “When they entered, they found hanging upon the wall a splendid **portrait of their master** as they had last seen him, in all the wonder of his exquisite youth and beauty. (Wilde, 1890)” Bu nümunədə sahibin portreti kimi transformasiya olunan birləşmədə kontekstdən kənarda söhbətin (sahibin) kimdən getdiyini bilmədən həm *of* sözönünü *aidlik*, həm də *müəlliflik* qrupuna daxil etmək olar ki, bu da *of* sözönünün sağ ünsürünün olmasının belə mənanı dəqiqləşdirməkdə effektiv olmadığını göstərir. Mənanın dəqiqliyi üçün daha geniş kontekstin olması zəruridir. Kontekstdə sahib Dorian Qreydir və bu hissə əsərində sonunda Dorian Qreyin cəsədinin tapıldığı anı təsvir edir. Yəni sahiblərinin təsvir olunduğu rəsm əsəri müəllifi və ya aid olduğu deyil.

Beyzil: You remember that **landscape of mine** – Mənim (çəkdiyim) peyzaj portretimi xatırlayırsan? (Wilde, 1890) Qeyd olunmuş cümlədə rəssam müəllifi olduğu portretdən danışır.

Beyzil: I believe some **pictures of mine** had made a great success at the time (Wilde, 1890) Düşünürəm ki, vaxtında mənim bəzi rəsm əsərlərim böyük uğur qazanmışdır. (müəlliflik mənası)

Onu qeyd etmək lazımdır kı, sözönülərin cümlə üzvləri arasında yaratdığı əlaqələr barədə bir çox mənbələrdə qeyd olunmuşdur, lakin oppozisiya şəklində cümlələrin qarşılaşdırılması ilə sözönülərin cümlədə tamamilə yeni məna yaratması çox araşdırılmamışdır. Məsələn, love your life – love of your life; be someone who makes you happy – be with someone who makes you happy.

Nümunələrdən göründüyü kimi, *of* sözönünün kontekstdən asılı olaraq cümlələrdə müxtəlif məna əlaqələrinin şahidi oluruq. Beləliklə, müəyyən mücərrəd qrammatik əlaqə bildirən sözönülərin mənasının düzgün mənimsənilməsi üçün bəzi məqamlarda onların sağ ünsürü və hətta cümlə də kifayət etmir, bunun üçün daha geniş kontekstə ehtiyac duyulur.

Ümumiyyətlə, sözönülərin dilçilikdə aktuallığını *"Nə ət, nə də balıq"* (Neither fish, nor fowl/flesh) məsəli ilə təsvir etsək yanılmarıq, belə ki, sözönülərin köməkçi nitq hissələrinə xas olan funksional və qrammatik xüsusiyyətləri ilə yanaşı onların, eyni zamanda, müstəqil nominativ mənalı sözlərlə oxşarlığı da diqqətəlayiqdir. Zənnimizcə, sözönülər mövzusunda aparılan tədqiqatların əsas yanlışlığı onların bir vahid qrup altında tədqiqidir. Bu isə sözönülər qrupuna daxil olan, xüsusilə də, mücərrəd qrammatik əlaqə bildirən sözönülərin fərdi linqvistik xüsusiyyətlərini göz ardı edir.

**Ədəbiyyat:**

1. Girju R. (2009) The Syntax and Semantics of Prepositions in the Task of Automatic Interpretation of Nominal Phrases and Compounds: A Cross-Linguistic Study, Linguistics and Computer Science Departments, University of Illinois at Urbana-Champaign, Volume 35, №2.

2. Hacıyev E.İ. (2006) Müasir ingilis və Azərbaycan dillərində köməkçi nitq hissələrinin funksional-semantik xüsusiyyətləri. -Bakı: Mütərcim, 272 s.

3. Litkowski K., Hargraves O. (2007), SemEval-2007 Task 06: Word-Sense Disambiguation of Prepositions, Proceedings of the 4th International Workshop on Semantic Evaluations (SemEval-2007), pages 24–29, Prague

4. Quirk R., Greenbaum S., (1987) Leech G. A Comprehensive Grammar of the English Language. London, Longman, 793 p.

5. Taylor J.R. ( 1993) Prepositions: Patterns of Polysemization and strategies of disambiguation, pages 151-175.

6. Petrochenkov A.V. (2004) 220 English prepositions, An English-Russian Study dictionary, Moscow, ENAS Publishers, 160 p.

7. Wilde O. (1980) The Picture of Dorian Gray, 1890, 198 p.

# ANARIN SSENARİLƏRİNİN BƏDİİ-ESTETİK XÜSUSİYYƏTLƏRİ ("TORPAQ. DƏNİZ. OD. SƏMA.", "DƏDƏ QORQUD", "QƏM PƏNCƏRƏSİ", "ÜZEYİR ÖMRÜ" SSENARİLƏRİ ƏSASINDA)

**Zeynallı Könül Arzu**
**Bakı Slavyan Universiteti**
**https://orcid.org/0009-0002-9258-6805**
**alizadeh9217@gmail.com**

# ARTISTIC AND AESTHETIC FEATURES OF ANAR'S SCRIPTS (BASED ON THE SCENARIOS "LAND. SEA. FIRE. SKY", "DADA GORGUD", "WINDOW OF SORROW", "UZEYIR LIFE")

**Zeynalli Konul Arzu**
**Baku Slavic University**
**https://orcid.org/0009-0002-9258-6805**
**alizadeh9217@gmail.com**

**Summary**

Anar's creativity has always been chosen for its diversity, subject matter, genre richness, diversity of ideas and relevance. Unlike his works written in other styles and genres, the author's scripts have not become the object of extensive research. Many scenarios are almost at the level of a work of fiction. Most of his scripts are documentaries and are dedicated to real-life events and historical figures. Screening materials and documents, turning them into a whole plot, a single text is a rather risky and interesting moment. Many of the author's works were firsts in Azerbaijani cinema, and at the same time, they attracted the attention of theorists as original texts in our literature. Scenarios such as "Window of Sorrow", "Dada Gorgud", "Land. Sea. Fire. Sky", "Uzeyir's Life" have become the main object of research in the presented thesis. The content, style, system of images of the mentioned works have been analyzed for the innovations brought to our national cinema and literature. Anar's mission as a literary, writer, and film actor has developed in every work and turned into an artistic and aesthetic concept. The language of the author's scripts is an analytical-figurative language close to the scientific-journalistic style. Therefore, these scenarios are capable of instilling artistic-aesthetic taste.

**Keywords:** Anar, screenplay, filmmaking, Jalil Mammadguluzade, Uzeyir Hajibeyli.

# ХУДОЖЕСТВЕННО-ЭСТЕТИЧЕСКИЕ ОСОБЕННОСТИ СЦЕНАРИЕВ АНАРА (ПО СЦЕНАРИЯМ «ЗЕМЛЯ. МОРЕ. ОГОНЬ. НЕБО», «ДЕДЕ ГОРГУД», «ОКНО СКОРБИ», «ЖИЗНЬ УЗЕИРА»

**Зейналлы Кенюль Арзу**
**Бакинский Славянский Университет**
**https://orcid.org/0009-0002-9258-6805**
**alizadeh9217@gmail.com**

**Резюме**

Творчество Анара всегда выбирали за разнообразие, тематику, жанровое богатство, разнообразие идей и актуальность. В отличие от его произведений, написанных в других стилях и жанрах, авторские сценарии

не стали объектом обширного исследования. Многие сценарии находятся чуть ли не на уровне художественного произведения. Большинство его сценариев документальные и посвящены реальным событиям и историческим личностям. Отсев материалов и документов, превращение их в цельный сюжет, единый текст – момент достаточно рискованный и интересный. Многие произведения автора были первыми в Азербайджанском кинематографе, и в то же время привлекли внимание теоретиков как оригинальные тексты в нашей литературе. Основным объектом исследования стали такие сценарии, как «Окно скорби», «Деде Горгуд», «Земля. Море. Огонь. Небо», «Жизнь Узеира». Содержание, стиль, образная система названных произведений проанализированы на предмет новшеств, привнесенных в отечественный кинематограф и литературу. Миссия Анара как литератора, писателя и киноактера развивалась в каждом произведении и превращалась в художественно-эстетический замысел. Язык авторских сценариев - аналитико-образный язык, близкий к научно-публицистическому стилю. Поэтому эти сценарии способны прививать художественно-эстетический вкус.

**Ключевые слова:** Анар, сценарий, кинопроизводство, Джалил Мамедгулузаде, Узеир Гаджибейли.

Müasir Azərbaycan ədəbiyyatında yaradıcılığında ssenarilərin zənginlik təşkil etdiyi yazarlar o qədər də çox deyil. Doğrudur, müxtəlif filmlərin ssenarilərini yazan ssenaristlər kifayət qədərdir. Lakin əksər ssenarilər sırf "ssenari" xarakteri daşıyır və normal olaraq yalnız film üçün nəzərdə tutulub. Anarın yaradıcılığında rast gəlinən ssenarilər isə həm də bədii əsər təsiri bağışlayır (nəzərə alaq ki, müasir nəzəri yanaşmalarda kino mətnləri də bədii mətn kimi dəyərləndirilir və Anarın ssenariləri bu mənada mübahisə yaratmır) və hər biri xüsusi bədii, bədii-sənədli və hətta bəzən elmi, elmi-publisistik yanaşma tələb edir. Bu baxımdan Anarın ssenariləri məzmun keyfiyyəti baxımından üstün filmlərin ərsəyə gəlməsi ilə yanaşı, həm də bədii mətn kimi xüsusi önəm daşıyan əsərlər hesab edilə bilər.

"Torpaq. Dəniz. Od. Səma", "Dədə Qorqud", "Qəm pəncərəsi", "Üzeyir ömrü" kimi əsərlərində müəllif daha çox bədiiliyə üstünlük vermişdir. "Torpaq. Dəniz. Od. Səma" əsərini müəllif özü "kinopoema" adlandırmışdır. Bu əsəri janr baxımından ən qarışıq mətn hesab etmək olar. Çünki əsərin proloq hissəsində biz ümumi təsvirlərlə yanaşı remarkaya bənzəyən adlıq cümlələrə, müəllifin rejissora kömək üçün yazdığı, mühiti, faktiki mənzərəni təsvir edən fikirlərə də rast gəlirik: "...Bu qaya "Sfinks" heykəlinə oxşayır. Bu qaya "yumruğa" bənzər. Lay-lay "Qatdama" qayalar. Sütun qaya. Bütöv qaya. Parçalanmış qaya...Bu, məşhur Qobustan qayalarıdır. Ekranda səmanın və torpağın fonunda gah ayrı-ayrı qayaları, gah da bu qayaların üstünə çəkilmiş rəsmləri görürük, biçinçi ov səhnələri, şahbudaq buynuzlu maral, nizəli atlılar, qədim Qurban bayramı, yallı rəqsi, qayıqda avar çəkənlər və s. Bu rəsmlər bütün ekranı tutur. Torpaq, səma, qayaların konturlarını görmürük... " (Anar, 2006). Proloqda da qeyd edildiyi kimi, filmin əsas ideyası insan əməyinin, mübarizəsinin, gözəlliyinin və ölməzliyinin tərənnümüdür. Burada insanın yaratmaq, qurmaq ehtirası, daim irəliyə getmək, inkişaf etmək arzusu təsvir edilir və bu istəklərin genetik olaraq ötürülməsi təsvir edilir.

Məlumdur ki, Dədə Qorqud bir tarixi abidə olaraq, həm də mükəmməl bir bədii əsər olaraq Anarın şəxsiyyətinə və əsərlərinə güclü təsir göstərmişdir. Biz onun "ən bədii əsərlərindən tutmuş ən sənədli əsərlərinə qədər" bütün yaradıcılığı boyunca Dədə Qorqud izlərini açıq-aşkar hiss edirik – eyni zamanda ssenari yaradıcılığında da. "Torpaq.Dəniz.Od.Səma" əsərinin hissələrini də müəllif "Torpaq boyu", "Dəniz boyu", "Od boyu", "Səma boyu" adlandıraraq dörd yerə bölmüşdür. Bu ssenaridə nəsildən-nəslə keçən və dövrün tələblərinə, mövcud sosial, mədəni, ictimai mühitə uyğunlaşaraq dəyişən və inkişaf edən insanın özünüdərki, zəhmətə meyli əks etdirilmişdir. Ssenaridə atadan oğula, babadan nəvəyə ötürülən bir sıra xarakterlər əks olunur. Müəllif köhnə Bakı, qədim Abşeron torpağını və həmin dövrün insanlarını özünəməxsus tərzdə təsvir edir. Təbii ki, boyların adları simvolik məna kəsb edir. Hər bir boyda eyni nəslin müxtəlif üzvlərinin əməyi, yaşam tərzi, həyata, insana münasibəti təsvir edilir. Əgər ilk nəslin nümayəndələri sadəcə torpağa

bağlı idilərsə, onlardan sonra gələnlər artıq dünyaya daha çox açılmaq, daha geniş fəzalara yüksəlmək niyyətində olurlar. Ssenari əsasında 1967-ci ildə Şamil Mahmudbəyovun quruluşçu rejissorluğu ilə bədii film ərsəyə gəlmişdir.

Anar yaradıcılığı çox geniş şaxələrə malikdir. Müəllifin əsərləri istər qəhrəmanların xarakterizə edilməsi, istər uzun illər ədəbiyyatda kök salmış bir çox mövzu stereotiplərinin darmadağın edilməsi, istər sadə insanların üzərində qurulan böyük mənəvi problemlərin, boşluqların təqdim edilməsi baxımından olduqca zəngin material verir. Əsərlərin ədəbi-nəzəri təhlili zamanı maraq yaradan bir məqam da müəllifin bir çox əsərlərində əsərin janrının öncədən "proqnozlaşdırılmasıdır". (*Məsələn, "Sizsiz"-roman-xatirə; "Kərəm kimi"-Nazim Hikmət haqqında anılar, düşüncələr romanı; "Üzeyir ömrü- ədəbi ssenari və s.")* "Dədə Qorqud" dastanının motivləri əsasında yazılan eyniadlı filmin ssenarisini də müəllif "kinodastan" adlandırır. Ssenarinin mətn dili dastanın orijinal dilindən fərqləndirilmiş, müasir Azərbaycan dilinə uyğunlaşdırılmışdır. Demək olar ki, dastanın bütün ümumi məzmununun filmə sığışdırılması naminə Anar ssenari üzərində ciddi işləmişdir. Doğrudur, əksərən üç boydan istifadə edilsə də, ssenaridə biz ümumi olaraq dastanın bütün boylarının izlərinə rast gəlirik. Dastanın bizə məlum olan məzmun xronologiyasında dəyişikliklər aparılmış, müəllif obraz sisteminə bəzi əlavələr etmişdir. Hətta giriş hissənin məzmunu dastandan deyil, Dədə Qorqud haqqında olan əfsanə və rəvayətlərdən ilhamlanaraq yazılmışdır. Belə ki, müəllif Dədə Qorqudun ölümü və yaxud da ölümsüzlüyü haqqında türk xalqları arasında yayılmış əfsanələri mətndə giriş şəklində təqdim etmiş, dastanın sonuncu boyunda təsvir edilən "İç Oğuzun Dış Oğuza dönük çıxdığı və Beyrəyin öldürüldüyü boy"-da əsas ideya olan dünyanın faniliyini təsvir edən detallar proloq şəklində həm girişdə, həm də epiloq şəklində sonda təsvir edilir. (bax: Anar, 2006) Ssenarinin növbəti gedişində müəllif uzun müddət dastanın əsas məzmununa və əsas ana motivlərə toxunmamış, sadəcə quruluş vermişdir. Əgər dastanda hər bir boy müstəqil süjet xəttinə malik əsərlər hesab edilə bilərsə, ssenaridə müəllif bütün boylardan əsas hadisələri cəmləyərək vahid bir Oğuz elinin ümumi macərası şəklində qələmə almışdır. Bu barədə Əlisəfdər Hüseynov yazır: "Hər birinin öz mövzusu, süjet xətti, ideyası, obrazları olan 12 boydan ibarət, leksik-frazeoloji planda əski deyim və ifadələrin üstünlük təşkil etdiyi mətnə malik olan, dilinin ahəngi və arxitektonikası müasir kino estetikasına o qədər də uyğun gəlməyən eposu kino materialına çevirmək üçün Anar – Azərbaycan ədəbiyyatında ilk dəfə bir müəllif, yaradıcı subyekt kimi bədii mətn üzərində dekonstruksiya əməliyyatını uğurla həyata keçirərək 12 müstəqil boyun hər birinin süjetini təşkil edən hadisələri vahid, ümumi süjetin şaxələri kimi qurmuş, süjetin vahid məkan-zaman xronotopunu qurmuşdur" (Əlisəfdər Hüseynov, 2015). Müəllif ssenariyə yeni qəhrəman adları əlavə etmişdir ki, həmin adlar sonradan Azərbaycan dilinin şəxs adları sisteminə daxil olmuş, geniş yayılmışdır. Həm filmin kadrlarından, həm də ssenarinin mətnindən hiss edilir ki, Anar Oğuz elinin həyatını yalnız çöllərdə, köçəri həyat tərzində, boz təpələrdə, boz sıldırım qayalarda, sonsuz səhralarda görmüş və əslində Oğuz elinin daxili münaqişələri, dünyanın, insan övladının naxələfliyinin kədəri bütün süjet boyu onu tərk etməmişdir. Mətnin süjetləri arasında bu tipli keçidlər bizə bunu deməyə əsas verir: "...Tacirlərin karvanı yolları fərsəng-fərsəng udurdu...", "...Tacirlərin karvanı hələ də yollarda idi..." (Anar, 2006) Ssenari ümumilikdə xoşbəxt gələcəyə inamla bitir. Dastandan fərqli olaraq burada guya sonda Qaraca Çoban Beyrəyin oğlu Azərlə birlikdə yer şumlayır, əkin əkir, Dədə Qorqud xeyir-dua verir. Ssenari əsasında 1975-ci ildə Tofiq Tağızadənin rejissorluğu ilə film çəkilmişdir. Qeyd edək ki, bu film Azərbaycan kinosunda ilk ikiseriyalı filmdir və onun ərsəyə gəlməsində Azərbaycan mədəniyyəti və incəsənətinin, ədəbiyyatının görkəmli simaları iştirak etmişlər (Həmid Araslı, Toğrul Nərimanbəyov, Emin Sabitoğlu, Yalçın Rzazadə, Həsən Məmmədov, Rasim Balayev və s.).

1985-ci ildə yazılmış "Qəm pəncərəsi" ssenarisi dahi Azərbaycan yazıçısı Cəlil Məmmədquluzadəyə ithaf edilmiş və əsasında eyniadlı film ərsəyə gəlmişdir. Filmin ümumi ideyası nadanlığın, cahilliyin ifşası

olsa da, bu ssenaridə bir sıra bioqrafik məqamlar da mövcuddur. Ssenarinin əsas qaynağı Cəlil Məmmədquluzadənin “Danabaş kəndinin əhvalatları”, “Danabaş kəndinin məktəbi”, “Ölülər” əsərlərindən, Həmidə xanımın xatirələrindən götürülmüşdür. Həm ssenari mətnində, həm də filmdə biz konkret olaraq real sənədə istinada rast gəlmirik. Sadəcə olaraq mətn bizə bəzi ümumi bioqrafik məlumatları təqdim edir. Çünki ssenarinin Cəlil Məmmədquluzadə və Həmidə xanımla birbaşa bağlı olan səhnələri bizə bunu deməyə əsas verir ki, həm ssenarist, həm aktyor heyəti yazıçının həyatı və onun haqqında olan memuarlarla yaxından tanış olublar. Ssenari və film Anar yaradıcılığı üçün spesifik olan süjetdən süjetə, hadisədən hadisəyə qəfil keçidlər üzərində qurulub. Ömrünün son günlərini yaşayan Mirzə Cəlil “pəncərədən” öz həyatının müxtəlif yaş dövrlərinə baxır. Bu yaş dövrlərində olan qəhrəmanlar birdən-birə çevrilib Mirzə Cəlilin əsərlərindəki personajlar olurlar. Əlbəttə ki, burada belə bir məqam da vardır ki, uzun illər ədəbi tənqid Mirzə Cəlilin bir sıra əsərlərindəki qəhrəmanları onun öz prototipi hesab etmişdir, bəziləri bunu inkar etmiş, bir çox qəhrəmanların Mirzə Cəlilin həyatda gördüyü insanlar olduğunu iddia etmişlər. Görünür, Anar birincilərin fikrini dəstəkləyənlərdəndir. Hadisələrin inkişaf və dəyişmə situasiyasına uyğun olaraq Mirzə Cəlil və Həmidə xanımın da hissləri dəyişir. Məsələn, Zeynəb Xudayar bəyə zorla ərə verildikdən sonra müəllif yazır: “...Mirzə Cəlilin Bakıdakı mənzili. Həmidə xanım tikiş tikir. Mirzə Cəlil yerindən durur və divardan asılmış kamançanı götürüb həzin-həzin çalmağa başlayır. Həmidə xanım sonsuz kədərlə bu yanıqlı çalğını dinləyir... ”(Anar, 2006) *(Ola bilsin ki, ssenaridə rast gəlinən Mirzə Cəlilin kamança çalması detalı müəllifi yazıçının “Kamança” pyesindən təsirləndirmişdir).* Filmin ssenarisi ilə yanaşı quruluşçu rejissorluğu da Anara həvalə edilmişdir. Film boyu “Molla Nəsrəddin” jurnalının karikaturalarından istifadə edilmişdir. Filmin aktyor heyəti Azərbaycan mədəniyyətinin ən görkəmli nümayəndələrindən seçilmişdir.

1980-1985-ci illərdə yazılan “Üzeyir ömrü” (“Uzun ömrün akkordları”) filmi Anar ssenariləri içərisində, bəlkə də, “ən sənədlisi” hesab edilə bilər. Film konkret tarixi faktlar, tarixi şəxsiyyətlər, real həyat hekayələri, tarixi görüşlərin sənədli təsvirləri əsasında ərsəyə gəlmişdir. 1980-1981-ci illərdə ssenarinin mətninə yazılmış giriş hissəsində (biz buna memuar da deyə bilərik) müəllif Sovet hakimiyyətinin tələblərinə uyğun olaraq filmdəki bəzi məqamlar barədə qeydlər etmişdir. 2005-ci ildə Anarın “Seçilmiş əsərlər”inin nəşri zamanı müəllif ssenari haqqında vaxtı ilə deyilməmiş fikirləri və onların deyilməmə səbəblərinini açıqlayır. Üzeyir Hacıbəyli haqqında film çəkmək, bu filmin həm sənədli, bioqrafik tərəflərini, həm də birbaşa musiqi ilə bağlı olan bu dahi şəxsiyyətin bəstəkar kimi keyfiyyətlərini təsvir etmək olduqca çətin və məsuliyyətli bir vəzifə idi. Belə bir ağır işin öhdəsindən gəlmək üçün müəllif Üzeyir bəylə bağlı bütün hadisələrə, sənədlərə, əsərlərə, əfsanələrə, araşdırmalara, onunla bir dövrdə yaşamış şəxslərin canlı xatirələrinə diqqətlə nəzər salmalı idi. Əlisəfdər Hüseynov bu əsəri şərh edərkən qeyd edir: “Uzun ömrün akkordları” (*Üzeyir ömrü-K.Z.)* materialına, ekran dilinə görə Azərbaycan kinosunda tamamilə yeni bir hadisə idi. Burada müxtəlif mənbələrə, mətnlərə istinad edərək ekran mətni qurmaq bacarığı parlaq şəkildə əks olunub. Kinematoqrafiya tarixində müxtəlif ədəbi növlərdən olan janrların təhkiyə müstəvisinə gətirilərək tamın, bütünün tərkib hissələri kimi ümumi kompozisiyada ekranlaşdırılması təcrübəsinə çox az rast gəlirik. Bədii nitqin təşkili tipi, gerçəkliyi əksetdirmə tərzi baxımından bir-birindən kifayət qədər fərqlənən mətn formalarının ümumi ideya, məzmun, süjet bağlantıları ilə ekrana gətirilməsi və bir əsərə çevrilməsi özü-özlüyündə nəzəri qiymətləndirməyə ehtiyacı olan kifayət qədər riskli və həm də maraqlı faktdır.” (Ə.Hüseynov, 2015) Anar özü 2005-ci ildəki qeydində yazır: “Üzeyir bəy haqqında film çəkmə təklifi aldığım gündən böyük bəstəkarla bağlı heç bir məlumatı, heç bir sənədi, heç bir məqaləni, kitabı, araşdırmanı diqqətimdən yayındırmadım. Mən bu barədə öz səylərimlə, yaxud öyrəndiklərimlə lovğalanmaq üçün yazmıram. Yox, məqsədim tamam başqadır. İzah etmək istəyirəm ki, filmdə seçdiyimiz forma təsadüfi yaranmayıb, materialın özündən doğub. Həm materialın bolluğundan, həm də onun spesifik xüsusiyyətlərindən. Məhz material bizi bir sıra ifadə vasitələrindən istifadə etməyə sövq etdi, məhz material bizi inandırdı ki,

bu filmdə uydurulmuş səhnələrdən, obrazlardan, sözlərdən mümkün qədər gen qaçmaq lazımdır... Bu prinsipdən çıxış edərək ssenari elə qurulmuşdu ki, onun mətnində sənədlərlə, yaxud nüfuzlu xatirələrlə təsdiq olunmayan bircə səhnə, bircə epizod da yoxdur...” (Anar, 2006). Və yaxud da: “...Amma hər halda, sənədliliyə aludəçiliklə bərabər, filmi yaradanların fantaziyası müc olub qalmamalıydı. Əksinə, müəyyən mənada sənədli gerçəklikdən imtina etmək də lazım idi. Fikrimi aydınlaşdırım: inqilaba qədər “Leyli və Məcnun”da da, digər muğam operalarımızda, musiqili komediyalarımızda da bütün qadın rollarını, məlum olduğu kimi kişilər ifa edirdi. Filmimizdə bu tarixi faktı təhrif etmədən (ilk tamaşada Leyli rolunu gənc oğlan oynayıb) biz eyni zamanda qadın obrazının estetik gözəlliyini göstərmək naminə müəyyən şərtiliyə əl atdıq. Leyli ilə bağlı səhnələri sanki Üzeyir bəyin xəyali təsvirində göstərdik...” (Anar, 2006).

2005-ci ildə əlavə edilmiş qeyddən maraqlı bir parça: “...Amma onu da deyim ki, hər halda o dövrün senzurasını da aldada bildik. Filmdə adı çəkilməsə də, müsavatçı, siyasi mühacir Ceyhun bəyin də obrazı var. Tarixi faktdır ki, “Leyli və Məcnun”un premyerasında İbn Səlam rolunu ifa edən aktyor həm səhnədə bu rolda görünür, həm də həmişə tamaşanı yaradanlar arasındadır. Bunu o vaxt bircə rəhmətlik Niyazi sezmişdi. Filmin məsləhətçisi kimi “Üzeyir ömrü”nü ona göstərəndə qulağıma: Bilirsən, ilk tamaşada İbn Səlamı kim oynayıb? Ceyhun bəy-deyə pıçıldadı. – Bilirəm – dedim və bununla da bu mövzuya bir daha qayıtmadıq. Hər şey ikimiz üçün də aydın idi.” (Anar, 2006)

Təbii ki, bütün bu qeyd edilənlər Anarın ssenari yaradıcılığının bir qisminin yalnız ümumi mənzərəsinin təsviridir. “Anarın kinematoqrafiyası milli mədəniyyətimizin tarixində maraqlı bir səhifəyə çevrilərək ekran təfəkkürümüzün inkişafında öz missiyasını yerinə yetirməkdə davam edir...” Anarın zəngin ssenari yaradıcılığı həm milli kinomuzun inkişaf tarixində özünəməxsus yeri və rolu olan filmlərin ərsəyə gəlməsində xüsusi rol oynamışdır, həm də onun ssenarilərinin dili, üslubu, bədii, bədii-sənədli mətn xüsusiyyətləri ədəbiyyatda yeni bir tendensiya yaratması ilə əks-səda doğurmuşdur.

**Ədəbiyyat:**

1. Anar, Əsərlər, IV cild, Bakı, 2006, 500 s.
2. Anar, Əsərlər, VI cild, Bakı, 2006, 625 s.
3. Hüseynov Əlisəfdər, Kinomuzda Anar fenomeni, Bakı, 2015, 135 s.
4. https://az.wikipedia.org/wiki/%C3%9Czeyir_%C3%B6mr%C3%BC_(film,_1981)
5. https://modern.az/az/news/65336
6. http://www.anl.az/down/meqale/adalet/2015/dekabr/470264.htm, Etibar Cəbrayıloğlu, Kinoçu Anar haqqında yazmaq
7. http://www.anl.az/down/meqale/edebiyyat/2016/fevral/479449.jpg, Faxralı Rəşid, Anarın kinosu, kinonun Anarı
8. http://www.anl.az/down/meqale/adalet/2015/oktyabr/459170.htm, Vaqif Yusifli, Pərvinin Anar dünyası
9. https://www.youtube.com/watch?v=Iw-YsQQ3RRA&t=290s
10. https://www.youtube.com/watch?v=UOljjUH7gNY
11. https://www.youtube.com/watch?v=0qV8bxx5ggM
12. https://az.wikipedia.org/wiki/Torpaq._D%C9%99niz._Od._S%C9%99ma_(film,_1967)

# CƏMİYYƏTDƏN TƏCRİD OLUNMUŞ İNSANIN MƏNƏVİ BÖHRANI

**İsayeva Fəxriyyə Nail**
**Azərbaycan Dillər Universiteti**
https://orcid.org/0009-0009-5534-0129
fexriyyeisayeva_2020@mail.ru

# THE MORAL CRISIS OF A PERSON ISOLATED FROM SOCIETY

**Isayeva Fakhriya Nail**
**Azerbaijan University of Languages**
https://orcid.org/0009-0009-5534-0129
fexriyyeisayeva_2020@mail.ru

**Summary**

In the novel "Yalgyz", the hero who cannot find a place for himself in society, is unable to be happy, calls himself ignorant, unhappy, and ends his life by suicide, captures the realities of the time. There are two ways: one of two ways either choose reality and be unhappy, or live happily in the world of dreams. There is a deep gap between Yalgyz's dream and reality. He is not able not only to make her mother, whom he loves so much, happy, but she brings trouble on her grief. He abandons his family, leaves his job, gradually becoming an even more unnecessary being. Death becomes inevitable for the hero, who becomes even more lonely after close friend dies in a car accident. The hero, who cannot become a member of society, also considers himself out of place in this world. His presence and absence are not felt in the society. The novel "Yalgyz" tells about the disappearance of a person in a dead end, facing problems in the living labyrinth of contemporary society.

**Keywords:** isolation, loneliness, social environment, an absurd world, despair.

# НРАВСТВЕННЫЙ КРИЗИС ЧЕЛОВЕКА, ИЗОЛИРОВАННОГО ОТ ОБЩЕСТВА

**Исаева Фахрия Наил**
**Азербайджанский Университет Языков**
https://orcid.org/0009-0009-5534-0129
fexriyyeisayeva_2020@mail.ru

**Резюме**

В романе «Ялгыз» отражены реалии эпохи героя, который не мог найти себе места в обществе, не умел быть счастливым, называл себя неразумным, несчастным и покончил жизнь самоубийством. Ему предстоит выбрать один из двух путей: либо выбрать реальность и быть несчастным, либо счастливо жить в мире грез. Существует глубокая пропасть между мечтой одиночки и реальностью. Он не только не в состоянии сделать свою мать, которую очень любит, счастливой, но, наоборот, доставляет ей больше хлопот. Уходит из семьи, бросает работу, постепенно превращается в ненужное существо. После того, как его близкий друг погибает в автокатастрофе, смерть для героя становится неизбежным. Герой, который не может стать членом общества, считает себя неуместным в этом мире. Его присутствие и отсутствие не ощущаются в обществе. В романе «Ялгыз» рассказывается о том, как человек теряется в отчаянии, сталкиваясь с проблемами в живом лабиринте современного общества.

**Ключевые слова**: изоляция, одиночество, социальное окружение, абсурдный мир, отчаяние.

Qərbdə XIX əsrin sonundan başlayaraq geniş vüsət tapmağa başlayan özgələşmə, tənhalaşma, darıxan insan problemi Azərbaycan ədəbiyyatında da çoxsaylı əsərlərdə öz əksini tapdı. Modernləşdikcə ənənələrindən qopan, ruhu korlanan, robotlaşan, maddi-texniki dəyərlərə uduzan, günah girdabında çabalayan insanın durumu çağdaş romanların ideya-estetik, məzmun-problematika rakursunu, hərəkət ritmini müəyyənləşdirdi. Müstəqillik dönəmindən sonra dünya ədəbiyyatında, eyni zamanda Azərbaycan ədəbiyyatında insana münasibətdə köklü dəyişikliklər oldu. "Tənhalıq" anlayışı funksionallıq qazandı. Bunların içərisində yazıçı Nəriman Əbdülrəhmanlının "Yalqız" əsərində qəhrəmanın özündə əxlaqına və mənəviyyatına yoluxmuş özgələşmə problemi bədii həllini tapmışdır. Romanın mahiyyətində dayanan çeşidli problemlərin qovşağında tənhalıq fəlsəfəsi orijinal şəkildə əks olunmuşdur.

İnsanın cəmiyyətdən, təbiətdən, hətta öz xislətindən ayrı düşüb ətrafında baş verən bu və ya digər hadisələrə laqeyd olmasına, biganələşməsinə, özgələşməsinə səbəb nədir?!

Bu sual hər zaman aktual olub. Dünya ədəbiyyatı yazarlarının yaradıcılığında əsas hədəf yadlaşmış, özgələşmiş insanı cəmiyyətə təqdim etmək idi. Sanki bununla həmin insanlara kömək etmək, onları mənəvi böhrandan xilas edib, yenidən cəmiyyətin fərdinə çevirmək niyyətində idilər. Nəriman Əbdülrəhmanlının əsərinin qəhrəmanı Yalqız da mənəvi-əxlaqi dəyərləri, sosial, fəlsəfi-psixoloji problemi özündə əks etdirən ziddiyyətli obrazdır. Əsas qayəsi azadlıq olan Yalqız özündən asılı olmayan səbəblərdən azadlıqdan məhrumdur. Yaşadığı cəmiyyət onu sıxır, insanlar bir-birlərinə laqeyddirlər. Maddi-mənəvi, psixoloji sarsıntılar yaşayan qəhrəmanla ən yaxınları belə maraqlanmır, üzdə dost kimi görünsələr də dərdinə şərik ola bilmirlər. Qardaş qədər yaxın bildiyi dostunun yanına borc pul üçün gedir, fəqət getdiyinə peşman olur. Əsərin fabulası elə həmin hadisənin təsviri ilə başlayır. Dostu əlinin aşağı olduğunu deməklə bir növ Yalqızı başından edir. Mənliyi, qüruru həmişə uca tutan qəhrəman pərt olur, sarsılır. Redaksiyadan ərizə yazıb maddi yardım istəyir, ancaq ərizəni yazdığına görə də peşman olur. Maddi yardımı götürəndə də xəcalət çəkir, onun da yarıdan çoxunu iş yerində ehtiyacı olan insanlara paylayır. Qəhrəmanın cəmiyyətdən təcrid olunmasının əsas səbəblərindən biri imkansızlıqdır. Yalqızın xəyalları ilə real həyatı arasında dərin uçurum var. Bu uçurum onun özgələşməsinə səbəb olur, psixologiyasını alt-üst edir.

"Yalqız" əsəri Herman Hessenin "Yalquzaq" əsəri ilə yaxından səsləşir. Təsadüfi deyil ki, müəllif əsərdə bu romanın özünə göndərmələr edir. Romanda qəhrəman "Yalquzaq" əsərini oxumağa başlayır, elə ilk səhifələrdən sıxılır, elə bil kimsə onun həyatını izləmiş, onu olduğu kimi təsvir etmişdir. Həmin obrazda özünü görür. Amma əsərdə nəzərə çarpan əsas məqam məhz çıxış yolu axtarmaq, həyat mücadiləsinə münasibətlə bağlıdır. "Yalquzaq"da daima intiharı fikirləşən, tez-tez intiharın xəyallarını quran Harri obrazından fərqli olaraq, Yalqız intihar haqqında fikirləşmir. Halbuki, Harrinin maddi imkanı da yaxşı idi. Yalquzaq evdə boğulanda qaçmağa kafe-restoran var idi, orada sevdiyi şərablardan içib müvəqqəti də olsa intihar fikrindən uzaqlaşırdı. Təsadüf nəticəsində Hermine adlı bir qızın qarşısına çıxmağı onun həyatını tamamilə dəyişir. Hermine onun özü - əksi idi, xoşbəxtlik açarı idi. Qurtuluşunda, həyatdan zövq almasında, yenidən cəmiyyətə qaynayıb-qarışmasında əlindən gələni edirdi: "*... Bəs sən başa düşmürsən, cənab alim, mən ona görə xoşuna gəlirəm, ona görə lazımam ki, sənin üçün güzgü rolunu oynayıram, mənim daxilimdə elə bir şey var ki, səni başa düşür, sənə cavab verir?! Əslində, bütün insanlar bir-biri üçün güzgü olmalıdır, bir-birinə cavab verməlidir, tən gəlməlidir...*" (Hesse, 2010).

Beləliklə, Harri intihar fikrindən uzaqlaşır, tezliklə düzələcəyinə söz verir. Yazıçının da əsas çatdırmaq istədiyi fikir budur. Əgər insanlar bir-birini başa düşməyə çalışsalar, o zaman müharibələr də olmaz, saxtakarlıqlar da. Heç kim özünü yalandan xoşbəxt göstərməyə çalışmaz.

"Yalqız" romanında isə Yalqızın dostunun və anasının təkidilə sevmədiyi biri ilə ailə qurması onsuz-da çəkilməz olan həyatını daha da mürəkkəbləşdirir. İl yarım bir yastığa baş qoyduğu insanla nəinki xoşbəxt

olmur, daha da tənhalaşır. Bir evdə iki yad insan kimi yaşayırlar. Yalqız xatirələrini monoloq şəklində oxucuya çatdırır. Dözülməz ailə həyatını bütün təfərrüatı ilə oxucuyla bölüşür.

Əsərdə güclü ana sevgisi var. Qəhrəmanın anaya bağlılığı, hər an onu düşünəndə "yazıq anam" deməyi, bu dünyada yaşama səbəbi anasıdır. O ana ki bütün ömrünü oğluna həsr edib, cavan yaşında dul qalıb. Həyatda yeganə arzusu bircə oğlunun xoşbəxt olduğunu görməkdir. Yalqız anasını sevindirmək üçün əlindən gələni edir, amma bacarmır. Çünki bir insanın yaşamağı, xoşbəxt olmağı üçün vacib olan nəsnələrdən heç biri Yalqızda yoxdur. O, öz fərasətsizliyinə, bəxtsizliyinə üsyan edir. Ayrılıq səbəbi kimi uşaqlarının olmamasını bəhanə gətirir. Əslində isə səbəb olan-qalan azadlığının da əlindən getməsidir. Pal-paltarını və kitablarını götürüb güc-bəla ilə aldığı evi tərk edir. Nakam Dostuyla görüşüb ayrılığını söyləyəndə Dostu deyir *"...sən evlənəndə mənə təəccüblü, həm də gülməli gəlmişdi; çünki özümün halımı fikirləşmişdim, sənin də ruhunda azadlıq var, belə adamlar kiminləsə bir dam altında yaşaya bilməz, heç başqasının əlinin altında işləməyi də özünə sığışdırmaz, ona görə də ömrünün axırınacan tək qalmalıdı, işsiz olmalıdı, əzab içində yaşamalıdı; dedi, sənin gələcəyini ovcumun içi kimi bilirəm..."* (Əbdülrəhmanlı, 2020).

Yalqız həm ailəsindən ayrılır, həm işindən çıxır. Ruhu azad olan insan "əmr qulu" ola bilməz. Nakam Dostla söhbət əslində yazıçının Yalqız haqqında gəldiyi nəticədir. Bütün bu hadisələr Yalqızı addım-addım ölümə yaxınlaşdırır. Yalqızın intiharı labüdləşir. Bu dünyada yaşayan canlı ölü idi, ruhu hər gün daha da ağır işgəncə çəkirdi. Ruhsuz bir bədənin ölüdən heç bir fərqi yoxdur əslində.

Əsərdəki obrazlar (Yalqız, Nakam Dost) kənddən şəhərə gəlmiş, özlərinə müəyyən bir yol çəkmişlər, amma, bu yolda nə qədər çalışsalar da uğur qazana bilməmişlər. Kəndə gələndə camaat içinə çıxmağa utanırlar, çünki kənddən çıxanda oxuyub "Adam" olub, şəxsiyyət kimi sevinclə, fəxrlə evlərinə qayıdacaqdılar. Amma bugünki gündə kəndə gələndə yol pullarını belə borc alırlar. Bu "utanc" onları böhrana salır, özünə qapadır. Sevdiklərini xoşbəxt etmək istəsələr də bacarmırlar. Həm Yalqızın, həm də Nakam Dostun kəndə məhz gecəyarı gəlmələri, insanlardan qaçmaları, kimsənin onları görməsini istəməmələri onların öz daxillərindəki utancla bağlı olur: "*Nakam Dostumuzun səsi, elə bil, uzun-uzun illərin o tərəfindən gəlirdi, deyirdi, bura subasandı, çayın suyu qalxanda çoxlu balıq olurdu, səbət salıb, balıq tuturduq, bura düzənliyiydi, top oynadırdıq, bura bazar yeridi, indi bazarı o tərəfə köçürüblər; deyirdi, burda nalbənd dükanı vardı, hərdən gəlib, atların nallanmasına baxardım, sonra maşının oturacağına qısıldı, küçələrdə tək-tük adam gözə dəysə də dedi, qoy görməsinlər, tanıyarlar; dedi, bu adamların yanında xəcalətliyəm, məni burdan böyük adam olmaq umuduyla yola salmışdılar, mən umudlarını doğrulda bilmədim, indi tanış-bilişə rast gəlsəm, gözünün içinə baxa, soruşduqlarının cavabını verə bilmərəm...*" (Əbdülrəhmanlı, 2020).

Maraqlıdır ki, yazıçı qəhrəmanları xüsusi adlarla adlandırmayıb. Hər bir obrazı xarakterinə, davranışına uyğun adlandırıb. "Köhnə tanış", "Nakam Dost", "Qəzetçi tanış", "Pərtdəgöz", "Ustad", "Realist yazıçı", "Bədbəxt arvadım", "Suçu" və s.

Əsərdə Yalqıza çox yaxın, məhrəm olanı qəhrəman Nakam Dostdur. Demək olar hər gün birlikdə olurlar, düşüncələrini gözlərindən anlayırlar. Anasından ötrü bərk darıxan Yalqız Nakam dostuna təklif edir ki, gəl kəndə gedək, anamı görək. Amma getmək üçün yol pulları olmur. Ağız açmadıqları dost-tanış qalmır, heç kimdən pul tapa bilmirlər. Nakam dost deyir: "*...gəl, belə eləyək: bax, mənim ayağımdakı bu tufli təptəzədi, özü də bahalıdı, bir axmaq hardansa əlli manata alıb, mənə bağışladı, mən oturum skamyada, sən apar bir az o tərəfdə beş-on manat əskiyinə sat, yerin deşiyindən də olsa ucuz, köhnə bir ayaqqabı tap gətir, çıxaq gedək...*" (Əbdülrəhmanlı, 2020). Beləcə ayaqqabısını satdırıb onun puluyla Yalqızı yola salır. Yalqız kənddə olarkən Nakam Dost faciəli şəkildə avtomobil qəzasında həlak olur. Qəfil ölüm Yalqızı sarsıdır və onun da ölümünü tezləşdirir. Çünki bu obraz əslində, baş qəhrəmanın daxili "mən"i kimi simvollaşır əsərdə. Onun ölməsi Yalqızın da ölümünə işarə olur. Bundan sonra kim olacaqdı həmdərdi?! Yalqızın reallığı Nakam Dostuyla bağlı fikirlərində öz əksini tapır. Köhnə tanışı Nakam Dost haqqında xatirə kitabı

çıxartmaq üçün hamıya müraciət edir. Özünü məcbur etsə də Nakam Dost haqqında yaza bilmir. Əslində yazacaq o qədər xatirələr vardı ki...Sadəcə duyğularını kağıza köçürməkdə çətinlik çəkir:

*"Köhnə Tanışım dediyini eləyəcək, o toplunu mənsiz də üzə çıxaracaq, şübhəsiz, toplu hamının xoşuna gələcək, amma bütün bunlar Nakam Dostumuzun naşılıqla çəkilmiş portret cizgilərindən, ehtiyac-filan olmadan, zorla ideal obraz yaratmaq cəhdlərindən başqa bir şey olmayacaq; yaxşısı budu, üzdən xeyirxahlıq kimi görünən, əslində, abırlı saxtakarlıq sayılası bu məsələdə iştirak etməyim, qoy haqqımda nə deyirlər, desinlər - uzaqbaşı, dosta xəyanət, xatirəsinə hörmətsizlik barədə sicilləmə qoşacaqlar, rastlaşanda, üzümə deməsələr də, ürəklərində dolandıracaqlar, sonra da hər kəsin başı öz dərd-azarına qarışacaq, hər şey unudulub gedəcək – elə Nakam Dostumun özü də…"* (Əbdülrəhmanlı, 2020).

Buradan belə nəticəyə gəlmək olar ki, Yalqız saxtakarlığı qəti şəkildə bacarmır. Əslində bəlkə də belə saxtakarlıqlardan istifadə etsəydi onun da Bakının mərkəzi küçəsində evi, bahalı maşını, çoxlu dost-tanışı, mükəmməl əsərləri, yaxşı ailəsi və s. olardı. Cəmiyyətdə yaxşı ad qazanar, sayılıb-seçilən insanlardan olardı. Lakin onun daima vicdanına hesabat verməsi, özünü danlaması, hər şeydə özünü günahkar görməsi cəmiyyətdən asosiallaşmasına gətirib çıxarır, cəmiyyətin fərdinə çevrilə bilmir. Professor Bədirxan Əhmədli haqlı olaraq qeyd edir ki, *"Əslində, onun cəmiyyətdən təcrid olunmasının səbəbi hamı kimi yaşaya, baş verənlərlə barışa bilməməsi, hadisələrə və insanlara fərqli baxışı, münasibətidir."* (Əhmədli, 2023).

Yalqızın soyuqlayıb yatağa düşməsi, 3 gün yataqda özünə qapılıb düşünməsi, keçmişini xatırlaması, anasını, xəstə atasını yada salması və qəfil intihar qərarını verməsi onun acı gerçəyinə çevrilir: *"... yaşamağın axırı ölümdürsə, bunun gec ya tez baş verməsinin bir fərqi yoxdu, amma hər şey qəfildən olsa, yaxşıdı..."* (Əbdülrəhmanlı, 2020). *Bu fikirlərlə A.Kamyunun "Yad" əsərinin qəhrəmanı* Mersonun fikirləri üst-üstə düşür:. *"Hər kəs bilir ki, həyat yaşamaq zəhmətinə dəyməyən bir şeydir. İnsan madam ki, öləcək bunun necə və nə zaman olacağının əhəmiyyəti yoxdur..."* (Kamyu, 2020).

*Bəli, "Yalqız minlərlə ziyalının ümumiləşdirilmiş obrazıdır. O ziyalıların ki, mənən süqut etmiş cəmiyyətdə gərəksiz, lazımsız varlığa çevriliblər"* (Bəşirli, 2019). Yazıçının əsərdə çatdırmaq istədiyi qayə budur.

"Yalqız" romanı yeni dünya düzənində insana ayrılmış yerin daralması, insanın lazımsız "şey"ə çevrilməsini aktuallaşdıran, texnogen sivilizasiyanın özünü tükətdiyi dövrdə insan amilinin əhəmiyyətsiz qütbə yuvarlanmasını bədii təcəssüm predmetinə çevirən əsərdir və özgələşmə, yadlıq amilinin dərin bədii həllini əks etdirir.

**Ədəbiyyat:**


1. Bəşirli S. ( 2019). Ləyaqətlə yaşanmış ömür. Bakı: Qanun nəşriyyatı, 376 s.
2. Əbdülrəhmanlı N. (2020). Yalqız. Bakı: Qanun nəşriyyatı, 424 s.
3. Əhmədli B. (2023). Nəriman Əbdülrəhmanlının nəsri: Tarixilik və müasirliyin vəhdəti. Bakı: Qanun nəşriyyatı, 192 s.
4. Hesse H. (2010). Seçilmiş əsərləri.Bakı: Şərq-Qərb, 536 s.
5. Kamyu A. (2020). Yad. Bakı: Qanun nəşriyyatı, 128 s.

# AKADEMİK AĞAMUSA AXUNDOVUN NƏSR DİLİNİN PROBLEMLƏRİ ƏTRAFINDA APARDIĞI MÜHAKİMƏ VƏ MÜZAKİRƏLƏRİ

**Yolçubəyli Çinarə Ayaz**
**Gəncə Dövlət Universiteti**
**https://orcid.org/0000-0002-6971-8710**
**chinara.yolchubayli@mdu.edu.az**

# DISCUSSIONS AND JUDGEMENTS ON PROSE LANGUAGE PROBLEMS OF ACADEMIC AGHAMUSA AKHUNDOV

**Yolchubeyli Chinara Ayaz**
**Ganja State University**
**https://orcid.org/0000-0002-6971-8710**
**chinara.yolchubayli@mdu.edu.az**

**Summary**

Academician Agamusa Akhundov noted that the literary language takes its nourishment from the artistic language and stated that the artistic style should always be in the center of attention. The fate of the literary language depends on the language of the writers. Trusting the writers, the people build their speech on the basis of the language of the writer they love. The language that is common to everyone is not used by everyone in the same way. This is evident in the language of artistic works.

He summarized his scientific ideas in a fundamental way based on the leading examples of Azerbaijani literature. A. Akhundov, who appreciated the impossibility of obtaining the necessary results beyond language and style issues in the direction of researching the artistic features of Azerbaijani prose at the modern level, said that the science of linguistics should join the study of the literary process in the direction of art, in direct connection with the rise of the theoretical level of literary criticism in the science of literary studies of Azerbaijan.

**Keywords:** prose, language, style, work, linguistics

# РАССУЖДЕНИЕ И ОБСУЖДЕНИЕ ПРОБЛЕМ ЯЗЫКА ПРОЗЫ АКАДЕМИКА АГАМУСЫ АХУНДОВА

**Ёлчубейли Чинара Аяз**
**Гянджинский Государственный Университет**
**https://orcid.org/0000-0002-6971-8710**
**chinara.yolchubayli@mdu.edu.az**

**Резюме**

Академик Агамуса Ахундов утверждал, что литературный язык питается от художественного языка, и заявлял, что художественный стиль всегда должен быть в центре внимания. Судьба литературного языка зависит от языка писателей. Доверяя писателям, люди строят свою речь на основе языка любимого писателя. Язык, общий для всех, не используется всеми одинаково. Это проявляется в языке художественных произведений.

Он фундаментально обобщил свои научные идеи на передовых образцах Азербайджанской литературы. А.Ахундов, осознавая невозможность получения необходимых результатов вне вопросов языка и стиля в направлении исследования художественных особенностей Азербайджанской прозы на современном уровне, говорил, что наука о языкознании должна соединиться с изучением литературного процесса в направлении искусствоведения, в прямой связи с подъемом теоретического уровня литературоведения в литературоведческой науке Азербайджана.

**Ключевые слова:** проза, язык, стиль, произведение, языкознание.

Akademik Ağamusa Axundov bədii dilin fəlsəfi-estetik mahiyyətini dərindən duyaraq onun daxili sirlərinə nüfuz edə bilirdi. Akademik R.Hüseynov deyir: "Böyük alim və saf insan Ağamusa Axundovun bütün həyatının əsas bəzəyi söz oldu. O, dilçi idi və ömrü uzunu, ilk gəncliyindən başlayaraq ta həyatının sonunacan işi səslə, sözlə bağlı idi. Səsə də, sözlərə də canlı varlıqlar kimi baxan Ağamusa müəllim sözə sədaqətlə qulluq etdi, sözün sirlərini açmağa və sözü insanlara daha yaxın etməyi bir məslək olaraq seçdi və təbii ki, daim sözlə baş-başa qaldığı üçün araşdırmalarından ötrü üz tutduğu əsas səmtlərdən biri ədəbiyyat, daha çox şeir oldu. Şairanəlik elə özündə - həm təbiətində, həm yazılarında vardı" (Axundov, 2019).

Ədəbi dilin inkişaf səviyyəsinin araşdırılmasında bədii ədəbiyyatın mühüm rolunu görkəmli dilçi alim A.Axundov bu cür səciyyələndirir: "Ədəbi dil həmişə öz qidasını bədii dildən alıb. Elə buna görə bədii dil, daha doğrusu, bədii üslub daim diqqət mərkəzində durmalıdır. Çünki ədəbi dilin taleyi çox vaxt yazıçıların dilindən asılı olur; xalq isə öz dilinin müqəddəratını, bəlli olduğu kimi, hamıdan qabaq öz yazıçılarına etibar edir. O, istər öz yazı, istərsə də şifahi nitqini ən çox sevdiyi inandığı yazıçı dili əsasında qurur. Odur ki, bütün başqa məsələlərlə yanaşı, bədii dil də filoloqlarımızın, ən birincisi, dilçilərin marağı dairəsində olmalıdır" (Axundov, 1991).

A.Axundov bədii dilin güclü potensial imkanlara malik olduğunu xüsusilə vurğulamışdır. Çünki bədii dildə faktlar durğun vəziyyətdə qalmır, düşdüyü mühitdən asılı olaraq canlı, hərəkətdə görünür, yeni üslubi rənglər qazanır, qol-qanad açır. Ona görə də bədii əsərlərin, o cümlədən nəsr əsərlərinin dilinin tədqiqi poetik-linqvistik problemlərin tərkib hissəsi olaraq elmi fikri, filoloji təfəkkürü həmişə düşündürməlidir. A.Axundovun tədqiqatlarında nəsr dili məsələlərinə diqqət yetirməsi göstərilənlərlə bilavasitə əlaqəlidir.

"Dilin bədii yaradıcılıq üçün bu qədər vacib olması istər yazıçılar, istərsə də yazıçı əməyi və onun məhsulunun tədqiqi ilə məşğul olanlar üçün heç vaxt şübhə doğurmamalıdır" (Axundov, 1980) deyən A.Axundov çoxşaxəli yaradıcılığında nəsr dilinin ümumi aspektlərinə diqqəti cəlb etmək sahəsində olduqca səmərəli əzmkarlıq göstərmişdir. "Müxtəlif Şərq və Qərb dillərinin ədəbi-bədii təcrübəsinə, dünya dilçilik və ədəbiyyatşünaslıq fikrinə dərindən bələd olan Ağamusa Axundov" (Vəliyev, 1984) əsərlərində nəsr dilinin bədii imkanlarından müfəssəl şəkildə bəhs etmişdir. Onun fikrinə görə, bədii əsərlərdə əsərin yaradıcısı olan sənətkarın fərdiyyəti duyulmalıdır. A.Axundov yazır: "Biz dili obyektiv ictimai hadisə saymaqla bərabər, həmin obyektiv ictimai hadisənin böyük sənətkarlar tərəfindən işlənmiş şəkli olan bədii dili yaradıcılıq məhsulu sayır və sənətkarlıq problemləri nöqteyi-nəzərindən böyük əhəmiyyətə malik olan məsələlər cərgəsinə daxil edirik. Doğrudan da, M.İbrahimovun, S.Rəhimovun, Ə.Əbülhəsənin, H.Mehdinin, İ.Əfəndiyevin, İ.Şıxlının, İ.Hüseynovun, S.Qədirzadənin, Ə.Əylislinin, Anarın dilini onların istedadlarının, sənətkarlıq qabiliyyətlərinin, yazıçılıq mədəniyyətlərinin səviyyəsi və imkanlarının məhsulları kimi, bir sözlə, onların yaradıcılıq məhsulları kimi izah etməyək, bəs bir-birindən necə fərqləndirək və aydınlaşdıraq?" (Axundov, 1985).

A.Axundov fərdi bədii üslubu sənətkarın özünəməxsusluğunun göstəricisi kimi təqdir edir. Məhz bədii dilinə əsasən seçilən yazıçıların özünəxas fərdi üslublarını xarakterizə edir: "Biz S.Rəhimov, Ə.Əbül-

həsən, H.Mehdi deyərkən də fikrimizdə bir-birindən fərqlənən müxtəlif bədii dil üslubları canlanır. S.Rəhimovun bərəkətli zəmilərə, dərin dəryalara bənzəyən dili ilə yanaşı, Əbülhəsənin koloritli, eyni zamanda emosional dili vardır" (Axundov, 1985).

A.Axundov yazıçının fərdi üslubunu ən mühüm estetik akt kimi aydınlaşdırır. Diqqət çəkən faktor kimi xüsusi qeyd olunmağa layiqdir ki, A.Axundov bu münasibətlə dediyi fikirləri, dili haqqında az bəhs olunan söz sənətkarlarının bəzi tədqiqatçılar tərəfindən "nöqsanlı bədii dil"də (Axundov, 1985) yazan yazıçılar siyahısına salınan Əbülhəsənin "Dünya qopur" və "Dostluq qalası" romanlarının dil materialları əsasında nəzərdən keçirmişdir. A.Axundov konkret faktlara istinadən belə güman edir, Əbülhəsənin dilinə sırf yaradıcılıq və estetik mövqedən yanaşıldıqda ondakı zahiri cazibədarlığı, sözün sanballı məna ilə, daxili məndəricənin forma ilə bir-birini tamamlamasını hiss etməmək mümkün deyil. Əbülhəsənin romanlarında işlədilən leksik vahidlərin estetik bütövlük yaratmasını həlledici amil hesab edərək yazır: "Əbülhəsənin bədii dilinin bir yaradıcılıq məhsulu kimi əsas xüsusiyyəti onun temperamentində, dinamikasında, yəni müxtəlif həyat səhnələrinin müxtəlif dəst-xətlə təsvir olunmasında və nəsrdə lirik ricətlərə geniş yer verməsindədir. Onun təsvir dilində tendesiyalılıq, bununla əlaqədar olaraq sürətli intonasiya özünü göstərir ki, bu da təsvir edilən hadisə və obyektin reallığını artırır"(Axundov, 1985).

A.Axundov təkrarlanan sözlərin, məna təkrarlarının linqvistik səviyyələrdə əhəmiyyətini, onların poetik tutumunu, xüsusilə hadisələrə fəal sənətkarlıq mövqeyinin ifadəsində həmin təkrarların rolunu xüsusi olaraq diqqət mərkəzinə çəkir. Məsələn, hamı, hər kəs; yas, iztirab; hüzn, ələm kimi eyni mənalı sözlərin məna təkrarında aşkarlanan bədii məziyyətlər mühüm üslubi cəhətləri ilə təhlildən keçirilir. Məna təkrarlarına əsaslanan ifadə forması hiss və düşüncələrinin, təfəkkür və həyəcanların təzahür vasitəsi kimi təqdim olunur. Əbülhəsənin quru, passiv dildən uzaqlaşaraq yeri gəldikcə vulqar görünən sözlərdən ifadə vərdişləri müəllifin geniş yaradıcılıq, müşahidə qabiliyyəti ilə bağlıdır. Belə dil faktlarının işləkliyi bədii dilin canlılığını və ekspressivliyini artıran üslubi priyom kimi dəyərləndirilir. Xalq dilindən gələn vulqar səviyyəli sözlərin bəzən fikrin aparıcı ifadə vasitəsinə, poetik qüvvəsinə çevrilməsi, onların estetik təsiri ilə bağlılığı da göstərilir. A.Axundov Əbülhəsənin nəsr dilindən danışan zaman belə bir fikri qabartmağa nail olmuşdur, yazıçının təşbehləri üslubun aydınlığı, dilin gözəlliyinə səbəb olur.

Poetik mənalandırma, insan psixologiyası ilə təbiətin şairanə qarşılaşdırılması, obrazı oxucunun daha aydın canlandırma məqamlarında müqayisələr həyat lövhələrini nümunəvi bədii dildə əks etdirir. A.Axundov belə bir müddəanı qətiləşdirir ki, nəsrimizdə geniş yayılmayan, az-çox ancaq M.İbrahimov, Mir Cəlal və İ.Əfəndiyevin əsərlərində rast gəlinən lirik ricət Əbülhəsənin üslubunda aparıcı mövqedədir. O, hadisələri adi təhkiyə üsulu ilə deyil, fəal canlı ifadə formalarında canlandırmaq naminə lirik ricətlərə daha intensiv müraciət edir. "Bir sistem kimi nəsrdə lirik ricət... Əbülhəsənin əsərlərində xüsusi yer tutur" (Axundov, 1985). Əbülhəsənin lirik ricətlərə tez-tez müraciətini S.Axundov məzmunu və ideyanı oxucuya daha dərindən təlqin etmək niyyəti ilə əlaqələndirir. Əbülhəsənin əsərlərinin üslub, dil cizgilərinin uğurlu xüsusiyyətləri barədə təsəvvürləri canlandıran A.Axundov həmçinin ayrı-ayrı söz sənətkarlarına məxsus fərdi yazı tərzini fərqləndirən məziyyətlər fonunda nəsrdə poetik qavrayışın spesifik təzahür formalarını da müəyyənləşdirmiş müsbət cəhətləri təqdir etmişdir. Üslub müxtəlifliyini ona görə ön plana çəkir ki, bu faktor forma yeknəsəqliyinin qarşısını alan əsas estetik amildir. Buna görə də A.Axundov nəsr üslubunun özünəməxsusluqları qarşısında olduqca vacib tələblər qoyur. Necə ki M.Arif deyib: "Həqiqi sənətkarlıq oxşamamaqdan, bənzəməməkdən başlanır. Kamillik özünəməxsusluq deməkdir" (Axundov, 1985).

O, öz elmi düşüncələrini Azərbaycan ədəbiyyatının qabaqcıl nümunələri əsasında fundamental şəkildə ümumiləşdirmişdir. Azərbaycan nəsrinin sənətkarlıq xüsusiyyətlərini müasir səviyyədə araşdırmaq istiqamətində dil, üslub məsələlərindən kənarda lazımi nəticələrin əldə edilməsinin qeyri-mümkünlüyünü təqdir edən A.Axundov belə bir prizmadan çıxış edir, ədəbiyyatşünaslığın, ilk növbədə ədəbi tənqidin nəzəri

səviyyəsinin yüksəlməsi ilə dilçilik elmi ədəbi prosesin sənətkarlıq istiqamətində öyrənilməsinə qoşulmalıdır. Bunun əsas səbəbini A.Axundov dilçilik elminin inkişaf səviyyəsi, tədqiqatlarda yeni meyillərin, təsir qüvvəsinin olması ilə əsaslandırır. Filologiyamızda söz sənətinin dil sənətkarlığına diqqət nəsrdə də sənətkarlığın tərkib hissəsi kimi dil materialları təhlilinə diqqət A.Axundovun yaradıcılığında xüsusi aksent yaratdı. Bədii dili yaradıcılıq məhsulu kimi səciyyələndirən A.Axundov "hamı üçün ümumi olan dildən hamının bir cür istifadə etdiyini demək olmaz. Bu hal özünü bədii əsərlərin dilində xüsusilə aydın göstərir" (Axundov, 1985) düşüncəsini konkret ədəbi nümunələr, özünəxas dəst-xətti ilə fərqlənən yazıçılar timsalında şərh edir.

**Ədəbiyyat:**


1. Axundov A. (1980). Şeir sənəti və dil. Bakı, Yazıçı, 159 s.
2. Axundov A. (1985). Dilin estetikası. Bakı, Yazıçı, 224 s.
3. Axundov A. (2019). (Biblioqrafik göstərici). Bakı, Elm, 210 s.
4. Axundov A. (1991). Azərbaycan dili: problemlər, vəzifələr. "Ədəbiyyat" qəzeti, №30.
5. Vəliyev K. (1984). Gözəllik qanunları ilə. "Azərbaycan" jurnalı, №9.


## MƏHƏMMƏDHÜSEYN ŞƏHRİYARIN "HEYDƏRBABAYA SALAM" POEMASINDA AŞIQ VƏ SAZ OBRAZLARI


**Həsənova Nərmin Tərlan**
**Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu**
**https://orchid.org/0000-0001-7947-1523**
**nrmn2294@gmail.com**


## IMAGES OF ASHIG AND SAZ IN THE POEM "HEYDERBABAYA SALAM" BY MOHAMMAD-HOSSEIN SHAHRIAR


**Hasanova Narmin Tarlan**
**Institute of Literature named after Nizami Ganjavi**
**https://orchid.org/0000-0001-7947-1523**
**nrmn2294@gmail.com**



**Summary**

Since the 20th century was a period of socio-political bans and bans in South Azerbaijan, poets and writers were forced to write their works in Persian. Even though Mohammad-Hossein Shahriar wrote his works mostly in Persian, he managed to break the chains of the known harsh regime by writing the poem "Heydarbabaya salam" in his native language. With this, the poet took the first and big step in the beginning of a new stage in South Azerbaijan. For this reason, vows in the size of two Shahnames were written to the poem "Heydarbabaya salam" and a number of research works were created. In this work, where the spirit and traditions of oral folk literature are in the foreground, the images of ashig and saz are also presented. Although there is some information about this in research, the topic has not been fully and comprehensively investigated. In the article, the development of the images of ashig and saz given in the poem is mentioned in sequence.



**Keywords:** Heydarbaba, ashig, saz, poem, 20th century.

# ОБРАЗЫ АШУГ И САЗ В ПОЭМЕ “ПРИВЕТСТВИЕ ГЕЙДАР-БАБЕ” МУХАММЕДА ГУСЕЙНА ШАХРИЯРА

**Гасанова Нармин Тарлан**

**Институт литературы имени Низами Гянджеви**

**https://orchid.org/0000-0001-7947-1523**

**nrmn2294@gmail.com**

**Резюм**

Поскольку 20 век был периодом общественно-политических запретов и запретов в Южном Азербайджане, поэты и писатели были вынуждены писать свои произведения на персидском языке. Несмотря на то, что Мухаммед Гусейн Шахрияр писал свои произведения преимущественно на персидском языке, ему удалось разорвать оковы известного жесткого режима, написав на родном языке поэму «Приветствие Гейдар-баба». Этим поэт сделал первый и большой шаг в начале нового этапа в Южном Азербайджане. По этой причине к поэме «Приветствие Гейдарбаба» написаны обеты размером в два Шахнаме, создан ряд исследовательских работ. В этом произведении, где на первый план выступают дух и традиции устной народной литературы, также представлены образы ашуги и саза. Хотя в исследованиях есть некоторая информация об этом, тема не была полностью и всесторонне исследована. В статье последовательно упоминается развитие приведенных в поэме образов ашуги и саза.

**Ключевые слова:** Гейдарбаба, ашуг, саз, поэма, XX век.

XX əsrin əvvəllərindən başlayan mürəkkəb siyasi proseslər nəticəsində İran xanədanı fars mənşəli Pəhləvi sülaləsinin əlinə keçdi. Yaranan yeni ideoloji sistem Güney Azərbaycanda narazılıqlara səbəb oldu. “Cənubi Azərbaycanda ictimai fikrin inkişafında və mədəni tərəqqisində dərin böhranlar yaranmış, xalqın həyatında, düşüncə tərzində və yaşayışında dəyişikliklər, siyasi aşınmalar baş vermişdir. Pəhləvi rejimi İranda Azərbaycan türkcəsində yazıb-oxumağı, ictimai yerdə, hətta küçədə belə, türkcə danışmağı yasaq etmişdir. Bu dövrdə Azərbaycan türkcəsində yazan şair və yazıçılar həbs olunur, güllələnir və ya sürgünə göndərilirdi. Türkcə yazılmış kitablar tonqallarda yandırılırdı. Bu qadağa və təqiblər 1979-cu il İran İslam inqilabınadək davam etdi” (Esmira Fuad, 2010). Bu ağır ictimai-siyasi şəraitdə şair və yazıçılar əsərlərini farsca yazmağa məcbur oldular. Nəticədə, xalq ana dilində yazılan şeirə, sözə, sənətə həsrət qaldı. Həmin vaxtda siyasi-ideoloji ab-hava sərtləşdiyindən istər adi həyatda, istərsə də ədəbiyyatda ana dilində danışmaq, türkcə əsər qələmə almaq panislamist, pantürkist adı altında siyasi qınaq obyektinə çevrilirdi. XX əsrdə dövrünün Hafizi, Sədisi kimi qiymətləndirilən, adı N.Gəncəvi, M.Füzuli, M.Ə.Sabir və digər dünya şöhrətli klassiklərlə bir sırada çəkilən Məhəmmədhüseyn Şəhriyar (1907-1988) da sözü gedən ədəbi-tarixi situasiyada fars dilində yazıb-yaradan şairlərdən idi.

İstibdad dövründə ağır həyat şəraitində yaşamasına baxmayaraq, M.Şəhriyar hər zaman elinə, xalqına, mili zəminə bağlı biri olmuşdur. Məhəmmədhüseyn Şəhriyarın ana dilində yazdığı bayatılar, “Əsli Kərəm şeirinə bir haşiyə”, adlı şeirləri, xalq qəhrəmanı Qaçaq Nəbiyə həsr etdiyi əsəri folklor motivlərinin şairin yaradıcılığı üçün ilham qaynağı olduğunun bariz nümunəsidir.

Ozanına, aşığına dərin məhəbbət duyan şair ana dilində yazdığı “Yalan dünya” şeirini aşıqlığın vəkili hesab olunan Xəstə Qasımdan iqtibas etmişdir.

Xəstə Qasım:
De, görüm nəyə talıbsan?
Dərsini kimdən alıbsan?
Neçə min yol boşalıbsan,

Neçə min yol dolan dünya" (Azərbaycan aşıq şeirindən seçmələr, 2005).
Məhəmmədhüseyn Şəhriyar:
"Ocaq ikən sönənmişsən,
Çanaq ikən çönənmişsən,
Nə pis qarı nənəymişsən,
Nağıl, yalan-palan dünya" (Hökumə Billuri, 1993)

Göstərdiyimiz nümunələrdən aydın olur ki, Şəhriyar poetik ənənəyə arxalanıb sadiq qalsa da aşığı təkrarlamır, şeirə yeni ruh, ovqat gətirir.

Poeziyasında folklordan bol-bol bəhrələnmə şairin təkcə ana dilində qələmə aldığı əsərlərində yox, bəzi farsdilli şeirlərində də müşayiət olunur. Farsca yazdığı şeirlərində də milli kimliyini unutmamış, oxucuda milli soykökünə maraq oyada bilmişdir. Bu mənada folklor mövzusu, folklor motiv və obrazları şairin poetik yaradıcılığında mühüm yer tutmuşdur. Belə ki, görkəmli söz ustası sazı obraz səviyyəsinə qaldıraraq "Unudulmuş saz", "Saz və yanğı", "Üçtelli saz" , "Yanıqlı saz" əsərlərində onu özünə həmdərd seçir. Ustad şair sazın yanıqlı səsini çəkdiyi naləsinə bənzədir. Sanki, şairin daxili, mənəvi aləmi sazla bir bütövün ayrılmaz hissəsidir. Saza bağlılığı, onu obraz səviyyəsinə qaldırması bir növ şairin vətəndaşlıq borcudur.

Məhəmmədhüseyn Şəhriyarın folklor motivlərinin daha çox yer aldığı əsəri Azərbaycan türkcəsində qələmə aldığı "Heydərbabaya salam" poemasıdır. Siyasi yasaqların baş verdiyi dövrdə şairin iki hissədən ibarət, ana dilində belə sanballı əsər qələmə alması İranda, eləcə də, bütün Yaxın Şərqdə gözlənilməz hadisə oldu. Daim el-obasını düşünən, ürəyi vətəni üçün döyünən istedadlı şairin İstibdad dövründə bu addımı atması onun milli ruha, soykökünə, ana dilinə sadiqliyi və ehtiramıdır. Əsər Cənubi Azərbaycanda yerləşən Heydərbaba dağına həsr olunsa da bütövlükdə özündə Azərbaycan harayını əks etdirir. Azərbaycan şifahi xalq ədəbiyyatı ruhu əsərin əvvəlindən sonunadək hakimdir. "Xalq ruhunun zənginliyi, incəliyi və təbiiliyi ilə rövnəqləndirilən bu mənzumə oxucularda dərin emosiya yaradır, duyan kəsin daxili dünyası təlatümə gəlir, duyğular seli kükrəyir (E.Fuad, 2016).

İndiyə qədər poema bir neçə tədqiqatçı tərəfindən araşdırılmış, folklor motiv və obrazları haqqında məlumat verilmişdir. Lakin poemada işlənən aşıq və saz obrazları ardıcıl şəkildə araşdırılmaya cəlb olunmamışdır. Poemanı oxuduqca sənətkarda aşıq şeirinə, sənətinə məhəbbətinin hələ uşaq yaşlarından formalaşdığını görürük.

"Heydərbaba Mirəjdər səslənəndə,
Kənd içincə səsdən-küydən düşəndə,
Aşıq Rüstəm sazın dilləndirəndə,
Yadımdadı nə hövsələk qaçardım?
Quşlar təkin qanad açıb uçardım"(Əbədiyyət gülüyəm mən, 2017).

Poemanın bu hissəsində şair uşaqlıq yaddaşında qalan xatirələrindəki aşığa, onun sazına olan sevgisini, sevincini özünəməxsus şəkildə dilə gətirir. Burada görkəmli ustad aşıqla birlikdə sazı da vəsf edir, maraqlı bədii portret yaradır. Sanki, aşıq mizrabı hər dəfə saza vurduqca onu xüsusi bir dillə danışdırır. M.Şəhriyarın uşaq yaşlarında sazın sehrini duya bilməsi, dinləməyə tələsməsi onun şeirə, ədəbiyyata, milli musiqiyə olan rəğbətinin göstəricisidir.

Aşıq sənətinə doğmalıq poema boyu izlənilir. "Aşıqların sazlarında sözüm var" ifadəsi ilə şair bir növ milli kimliyə, soykökünə işarə edir. Aşıq el şairidir. Onun sazı da, sözü də müqəddəsdir. Başdan sona qədər xalq ruhunun incəliyini özündə əks etdirən bu əsərdə müxtəlif hisslər bir-birini əvəzləyir. Şəhriyarın folklor bilikləri ilə şairlik istedadının birləşməsi nəticəsində tam, mütəşəkkil və mükəmməl bir əsər ərsəyə gəlmişdir.

"Heydərbaba, gecə durna keçəndə,

Koroğlunun gözü qara seçəndə,
Qıratını minib, kəsib-biçəndə,
Mən də burdan tez mətləbə çatmaram,
Eyvaz gəlib çatmayınca yatmaram" (Əbədiyyət gülüyəm mən, 2017).

Poemanın bu bəndində şair "Koroğlu" dastanını yada salır. Dastanda hadisələr belə cərəyan edir. "Koroğlu döyüşə göndərdiyi oğlundan xəbər ala bilmir. Gecəni yatmayıb qaranlıqda oğlunu soraqlayır. Birtəhər səhərin açılmağını gözləyir. Səhər Qıratını minərək döyüşə gedir, düşməni məğlub edib, oğlunu əsirlikdən qurtarır. Demək istəyirəm ki, o zaman ki, "Koroğlu" dastanını oxuyursunuz, mən də buradan qulaq verməkdəyəm. Dastan axıra çatmayınca məni yuxu aparmaz" (Əbədiyyət gülüyəm mən, 2017).

Fikrimizcə, şair burada yalnızca dastanı xatırlamır, eyni zamanda, oxucunun diqqətini üstüörtülü şəkildə bəzi məsələlərə tərəf yönləndirir. Belə ki, Koroğlu döyüşdə düşməni necə məğlub edirsə, şair bir gün Güney Azərbaycanın döyüşdən qalib çıxacağına inanır. "Eyvaz gəlib çatmayınca yatmaram" ifadəsi ilə İran istibdad rejiminin sonunu səbirsizliklə gözlədiyini oxucularına söyləyir.

"Aşıq deyər: Bir nazlı yar var imiş,
Eşqindən odlanıb yanan var imiş,
Bir sazlı, sözlü Şəhriyar var imiş,
Odlar sönüb, onun odu sönməyib,
Fələk çönüb, onun çarxı çönməyib" (Əbədiyyət gülüyəm mən, 2017).

Əsərin sonlarına doğru şairin yenidən aşığın bədii portretini yaratdığını görürük. Aşığın dilindən verilən bir bəndə sanki, şair bütün həyatını sığışdırmışdır. Taleyində nə qədər uğursuzluqlar olsa da daim millətini, vətənini düşünmüş, xalqın dərdini ürəkdən duymuş, bəzən ümidsizliyə qapılsa da yenidən küllərindən közərərək ayağa qalxmışdır.

Fikirlərimizin yekunu olaraq söyləyə bilərik ki, XX əsrdə ağır qadağa və yasaqlar dövründə M.Şəhriyar ana dilində yazdığı "Heydərbabaya salam" poeması ilə İran istibdad rejimi üzərində mənəvi qələbə çaldı. Bütövlükdə kənd həyatını, xalq mənəviyyatını özündə əks etdirən poemada milli özünüdərk, milli kimlik, soykökünə qayıdış məsələləri təsdiqini tapdı. M.Şəhriyar şifahi xalq ədəbiyyatı incilərindən olan aşığı, onun sazını poemada orijinal şəkildə obraz səviyyəsinə qaldırmağı bacardı. M.Şəhriyar bu addımı ilə bir məktəb yaratdı, qələm ustalarını cəsarətləndirdi. Şifahi xalq ənənəsindən yüksək şəkildə bəhrələnərək əsl sənətkarlıq nümunəsi sərgilədi.

**Ədəbiyyat:**

1. Azərbaycan aşıq şeirindən seçmələr. 2 cilddə, I cild. Bakı, "Şərq-Qərb", 2005, s.153.
2. Billuri H. Məhəmmədhüseyn Şəhriyar Yalan dünya. Bakı, 1993.
3. Əbədiyyət gülüyəm mən. (tərt.edəni İ.Qəribli, E.Bağırova, Z.Zeynalova). Bakı, "Elm və təhsil", 2017, s.285
4. Şükürova (Fuad) E. Söz sərrafı Şəhriyar. Bakı, "Avrasiya Press", 2010, s. 85.
5. Şükürova (Fuad) E. XX əsr Güney Azərbaycan epik şeiri. Bakı, 2016, s. 42.

# THE CAUSES OF IDIOM VARIANTS IN PRESENT-DAY ENGLISH

**Rustamova Lala Matlab**
**Azerbaijan University of Languages**
https://orcid.org/0000-0001-7542-621
lala.rustamova@mdu.edu.az

# MÜASİR İNGİLİS DİLİNDƏ FRAZEOLOJİ VARİATİVLİYİN SƏBƏBLƏRİNƏ DAİR

**Rüstəmova Lalə Mətləb**
**Azərbaycan Dillər Universiteti**
https://orcid.org/0000-0001-7542-621
lala.rustamova@mdu.edu.az

**Xülasə**

Frazeoloji variativlik semantik və morfoloji cəhətdən orijinal variantdan fərqlənir və frazeoloji tədqiqatlarda belə vahidlər qrammatik və linqvistik qaydalardan kənara çıxan nizamsız dil fenomeni kimi qiymətləndirilir. Dilçilikdə frazeoloji variativliyin iki növü qeyd edilir: normal variativlik və fakültətiv variant. Normal variativlik idiomların düzgün formalarını yaratmağı hədəfləyən institusional varianta aiddir. Fakültətiv variant idiomun formasını və ya mənasını dəyişdirə biləcək bir deyimin müvəqqəti istifadəsinə və ya manipulyasiyasına aiddir. Belə variativlik yalnız yenilik və fərqliliyi əks etdirmir, həm də yeni ifadə forması ilə unikal ritorik effekt yaradır. Frazeoloji variativliyin hərtərəfli təhlili idiomların xüsusiyyətlərini tam dərk etməyə, həmçinin belə dil vahidlərinin dəqiq mənalarını və praqmatik funksiyalarını başa düşməyə imkan verir.

**Açar sözlər:** frazeologiya, frazeoloji variativlik, fakültətiv variant, forma və məna

# ПРИЧИНЫ ВОЗНИКНОВЕНИЯ ВАРИАНТОВ ИДИОМ В СОВРЕМЕННОМ АНГЛИЙСКОМ ЯЗЫКЕ

**Рустамова Лала Матлаб**
**Азербайджанский Университет Языков**
https://orcid.org/0000-0001-7542-621
lala.rustamova@mdu.edu.az

**Резюме**

Варианты идиом семантически и морфологически отличаются от оригинальных идиом. В данном исследовании демонстрируются семантические и синтаксические особенности вновь обнаруженных вариантов идиом, а также правила образования новых вариантов с морфологической точки зрения. Идиомы могут варьироваться в конкретных контекстах. Классифицируются два широких типа вариаций: обычный вариант и факультативный вариант. Обычный вариант относится к институционализированному варианту, который направлен на создание правильных форм идиом. Факультативный вариант относится к временному использованию идиомы или манипулированию ею, которое может изменить форму или значение идиомы. Факультативный вариант не только отражает душевное состояние людей, стремящихся к новизне и отличиям, но и создает уникальный риторический эффект. Всесторонний анализ позволяет учащимся полностью осознать способы мышления и характеристики обновления идиом, а также понять точные значения и прагматические функции варианта идиомы.

**Ключевые слова**: фразеология, варианты идиом, факультативный вариант, форма и значение

From semantical and morphological point of view idiom variants differ from original idioms. The semantic and syntactic features of newly observed idiom variants as well as the rules of new variant formation from a morphological perspective are demonstrated in this study.

Although it is well known that idioms are morphologically and semantically stable, this research can explain the change of idioms by following certain rules. Linguists approach the changes in the internal structure of a phraseological unit that occur under the influence of spoken language in different ways. According to some, these changes lead to variants of idioms, and according to others, synonymic enrichment of the language (Veliyeva, 1999).

English phraseology is the study of phrases that consist of at least two or more words. This comprises word combinations such as proverbs (sayings), formulas, phrasal verbs, idioms, collocations, fixed phrases, and discourse particles. Phraseological unit is a term to express such combinations. In all cases phraseological units are unambiguous and easily semantically predictable.

A phrasal verb is a word pair consisting of either an adverb and a verb, or a verb and (optionally) an adverb and a particle or a preposition, but semantically such word combinations are not composed of the sum of separate components.

E.g., *look up to, look around, and put in, break down, have against.* Formulas, such as *Thank God /Goddess, Now you're talking,* and *I wasn't born yesterday,* and *it's Friday,*— are used in a conversation and are not ambiguous. Their frequencies differ by formula and some of them are easy to understand. Proverbs and sayings are also of this kind.

Being used in a limited context proverbs are neither polysemous nor frequently used word combinations. Having a literal and a pragmatic function some discourse particles (e.g., Let's see, *By the way, You know, If you ask me, I mean*, and *I think*, etc.) have a high frequency depending on a context, and they have polysemy. But *after all* as a discourse particle is not the sum of each component and not being a polysemous combination it is semantically difficult to understand. A common feature of monosemous and polysemous formulas is that they have been neglected in the literature because they were formed beyond English grammar rules.

Phraseology considers word combinations as the basis of language and as means between words and sentences. English theory assumes that an number of sentences can be formed yet to be constructed by assembling an existing vocabulary using standarts of the English language. People subconsciously use phrases in their daily speech to express themselves and write quickly in the English language. Foreign language acquisition shows that phrases facilitate smooth communication (Widdowson, 1989).

The idiomaticity scale can be used to measure the level idioms. Due to high or low idiomaticity English idioms are classified on the basis of following features (lexico-grammatical fixedness, institutionalization, and non-compositionality) (Moon, 1998). For example, some idioms have high idiomaticity, e.g., *call the shots, kick the bucket,* and *kith and kin*. On the other hand, despite their frequent use some English idioms (e.g., *enough is enough, because of* etc.) have low idiomaticity that makes them easy to understand.

Cowie (1999) notes the classification of English idioms into four groups according to their idiomaticity: pure and figurative (metaphorical) idioms, restricted collocations, and free combinations. Additionaly, the following criterias ( idioms have single-word associations as an orthographic criteria, (e.g., *ice-breaker, break the ice and ice-breaking)*), stem derived from a syntactic or grammatical unit (e.g., "long-to-the-teeth" as a complement; "lightining- in- the -pot" as a noun group, and "by and large" as a adverb in a sentence), and there are phonological criteria that pauses between words and word durations are shorter than those mentioned in word combinations) are mentioned (Moon, 1998).

Semantically similar idioms in result of blending causes variability of the idioms which are frequently used in spoken and written form of English. So, beyond the standards of fixedness and institutionalization, idioms are constantly changing,

In modern English, the idiom *learn the ropes* is used to expresses that speaker wants to get their own tips to improve act, (e.g., a job). *Ropes* are metaphorically used in the idiom, and it is easy to accept that *ropes* cannot be replaced with synonyms. In addition, *know/learn the ropes* is defined as "to know or learn, informally how to manage to do something, especially a job, occupation: e.g., *It didn't take my son long to learn the rope*.

*Know the ropes* is used to say to "to know something thoroughly". Semantically it differs from its variant. *Know* in this idiom is used to mean "to know the strengths and weaknesses of something" showing the cognitive status.

In *know the ropes* the word ropes refers to the overall picture of things including merits and demerits. Consequently, *know the ropes* triggers a semantic expansion of *learn the ropes* and cognitively progresses to the next stage (that is getting used to and mastering something including its strengths and weaknesses).

*Find the ropes* means "get handy tips". In other words, *find the ropes* it is often said that the speaker is making spontaneous effort to get hints, but is unsure if s/he can obtain tips to help to improve his/her accomplishment in something. In summary, this idiom variant is unpredictable whether *find the ropes* becomes *know the ropes*. Moreover, the original one and the two idiom variants are established independently and are not combined into a single idiom.

*To be in the same boat* means "to be in the same embarrassing situation as others" (e.g., All have lost their job. We're all in the same boat.) Semantically as a key component, in this idiom boat is metaphorically used as a situation or a fate. Despite the following of the formation process the variant *to be in the same ship/vehicle/car* is not frequently used compared with the original one. Besides, the meaning of *(be) in the same ship/vehicle/car* is difficult to understand if it is not clarified (Inoue, 2022).

The original idiom "get a bad hand" means someone is in an awkward position because of something they have no control over. It is worth noting that variants of the idiom "to play the cards one's dealt " appear more frequently than the original one "play the hand one's dealt " (to take advantage of the current situation). It is formed by the shift of the main component, *hand*, into easy-to-understand word, *cards*. Furthermore, idiom variant doesn't cause semantic expansion of the original idiom.

Due to the speaker's intention idioms can vary in different specific contexts. Normal and nonce variant of English idioms are mentioned in linguistic studies. Normal variant refers to the correct forms of idioms. The latter attributes the temporary exploitation or manipulation of an idiom that may change the form or meaning of the idiom. (Zhang, 1980).

e.g., *"you can take a child to Euclid but you can't make him think*" (Ju, 2004; Wang, 2016) is the nonce variant of "you can try to persuade someone, but you can't force him/her" or "you can lead a horse to water, but it can't be made to drink". Appropriate in the context of schooling, the text not only reveals the similarities between schooling and 'prompting thought', but also highlights the failure of schooling here and there.

Nonce variants of idioms are mostly used in news English, everyday communication, and literary works. Corresponding to a particular context, nonce variant directly or indirectly reflects everyday social life producing powerful, unique rhetorical effect. As a special phenomenon, the nonce variant refers to the formation or use of an idiom, during which the form and/or meaning change. It doesn't only reflect the changes on people's thinking mode seeking novelty but also all-round innovations in the society.

This article has explained tentative principles of formation idiom variants demonstrating that by obeying certain rules idioms are both lexically and semantically altered. From linguistic point of view this study provides advances in present-day English phraseology**.** In conclusion, having a better understanding of phraseology

learners realize the idiom's renovation, comprehend meanings and pragmatic functions to use them more skillfully.

**References:**

1. Cowie, A. P. (1999). Phraseology: Theory, analysis, and applications. Oxford: Oxford University Press.
2. Inoue, A. (2022). Idiom variants observed in present-day English: Systematic or creative? *Journal of Language and Linguistic Studies*, 18(4), 519-544.
3. Ju, Y. M. (2004). The nonce variant of the English idioms and rhetorical sense. *Foreign Languages and Literatures*, 3, 38-41.
4. Moon, R. (1998). Fixed expressions and idioms in English: A corpus-based approach. Oxford: Clarendon Press.
5. Vəliyeva N.Ç. (1999). Müxtəlifsistemli dillərdə nitq və təfəkkür feilləri ilə formalaşan frazeoloji vahidlər. Bakı, 102 s.
6. Wang, Ch., and Meng, F. (2016). On the nonce variant of English idioms. *US-China Foreign Language*, February, Vol. 14, No. 2, 90-97.
7. Widdowson, H. G. (1989). Knowledge of language and ability for use. *Applied Linguistics*, 10(2), 128-137.
8. Zhang, P. J. (1980). Nonce variants of English idioms. *Journal of Foreign Languages*, 3, 17-24.

## FƏRDİ YAZAR YADDAŞINDAN İCTİMAİ YADDAŞA (JUNQ ÇANQIN ROMANLARI PRİZMASINDAN)

**Hüseynova Aygün Mirzəxan**
**Xəzər Universiteti**
**https://orcid.org/0000-0003-0947-3800**
**a_huseynova91@mail.ru**

## FROM PERSONAL AUTHOR MEMORY TO PUBLIC MEMORY (IN THE PRISM OF JUNG CHANG'S NOVELS)

**Huseynova Aygun Mirzakhan**
**Khazar University**
**https://orcid.org/0000-0003-0947-3800**
**a_huseynova91@mail.ru**

**Summary**

The aesthetic and historical importance of autobiographical works, the reflection of history and social problems from the author's personal memory to the public memory, changing and stable values constitute the relevance of the topic of the thesis, the problem of the stability or change of values in society is the main focus of the thesis. The main purpose of the thesis is to study individual writer's memory and public memory, to investigate information transferred from individual writer's memory to public memory in the example of Jung Chang's novels - "Wild Swans" and "Unknown Story Mao", to determine the role of socio-political factors in the formation of society. The principles of

the comparative analysis method were preferred in the thesis. At this time, the research method from the aspect of synchronicity of deixis theory is applied. At the same time, literary, scientific-theoretical, historical materials were used in the writing of the scientific work, and the practical and scientific results of similar studies were referred to.

**Keywords:** writer, memory, society, literature, novel.

## ОТ ЛИЧНО-АВТОРСКОЙ ПАМЯТИ К ОБЩЕСТВЕННОЙ ПАМЯТИ (В ПРИЗМЕ РОМАНОВ ЮНГ ЧАНГА)

**Гусейнова Айгюн Мирзехан**
**Университет Хазар**
**https://orcid.org/0000-0003-0947-3800**
**a_huseynova91@mail.ru**

**Резюме**

Эстетическая и историческая значимость автобиографических произведений, отражение истории и социальных проблем из личной памяти автора в память общественную, меняющиеся и устойчивые ценности составляют актуальность темы статьи, проблема устойчивости или смены ценности в обществе является основным направлением статьи. Основной целью статьи является изучение индивидуальной писательской памяти и общественной памяти, исследование информации, перешедшей из индивидуальной писательской памяти в общественную память на примере романов Юнга Чанга - «Дикие лебеди» и «Неизвестная история Мао», определение роли социально-политических факторов формирования общества. В статьи предпочтение было отдано принципам метода сравнительного анализа. В это время применяется метод исследования с точки зрения синхронистичности теории деоксиса. При этом при написании научной работы использовались литературные, научно-теоретические, исторические материалы, ссылались на практические и научные результаты подобных исследований.

**Ключевые слова:** писатель, память, общество, литература, роман

Fərdi yaddaş. İnsan fərdi yaddaş sayəsində irsinin hüdudlarını aşır və cəmiyyətin mədəni irsində təcəssüm olunan sosial təcrübəni mənimsəyir. Fərdi özünüdərkin (kollektiv özünüdərkin əksinə) şəxsi bilik və şəxsi təcrübə mənbələri vardır. Hər ikisi də zamanla yaddaşla edilir. Şəxsin özünü dərk etməsinin bir hissəsi olaraq fərdi yaddaş, hər şeydən əvvəl insanların bənzərsiz keyfiyyət xüsusiyyətlərinə görə həmişə subyektivdir. Fərdi təcrübə əsasında şəxsi yaddaşın meydana gəlməsinə gəldikdə, insanlar həmişə ümumi bir obyektin (işin) bir hissəsi ilə məşğul olurlar və ağlabatan bir yanaşma ilə qismən biliklərdən xəbərdardırlar (Neimer, Rareshide, 1991). Həmçinin insanlar ən başlıcası bunu öz iradələri və sərbəst iştirak yolu ilə həyata keçirmək haqqına sahibdirlər. Eyni zamanda, fərdi yaddaşın kollektiv yaddaşa çevrilməsi prosesində fərdlər nəinki hissələri bir bütünə birləşdirməyə hazır olurlar, həm də ziddiyyətli, mübahisəli və rəqabətli bir prosesə daxil edilirlər. Hər bir fərd öz şəxsi həyatının mümkün qədər tam şəkildə qəbul edilməsini istəyir. Bunun səbəbi, insanların yalnız fərdi qavrayışından irəli gəlmir. Tərbiyə və təhsil vasitəsilə mədəniyyət dünyasına, dəyərlər dünyasına daxil olmaq şansı əldə edirlər. Mədəniyyətin mənaları və dəyərləri fərdin şəxsi təcrübə qazandığı qavrayışı və fikirləri dəyişir. Həm də bir dəstək rolunu oynayır. Yəni fərdi yaddaşları arasında sərbəst razılaşma halında insanlar mədəni potensiallarına arxalanır, onun köməyi ilə daha da inkişaf edirlər.

İctimai yaddaş. Böyük kütlənin, hətta bir xalqın yaddaşının formalaşmasında məqsədlərini həyata keçirən insanlar (müəyyən səlahiyyət sahibləri, tarixi şəxsiyyətlər, yazıçılar) bir neçə istiqamətdə çalışmağa səy göstərirlər. Hər şeydən əvvəl, keçmiş mədəniyyət haqqında bilikləri olan insanların kollektiv yaddaşını

dəyişdirməli olurlar (Jonson, 2004). Bu yaddaşda ya məzmunu dəyişdirmək (bəlkə də qismən məhv etmək), ya da mədəniyyətdə mövcud olan müəyyən məna və dəyərlərə yeni məzmun vermək lazım gəlir. Bəzən milli yaddaşı dəyişmək ehtiyacı duyduqları zaman insanların fərdi anlayışlarını və fikirlərini, fərdi yaddaşını dəyişdirməli olurlar. Yaddaşın güclü manipulyasiyası müasir köləlik formalarından biridir. Bu hal baş verdiyi zaman insan öz qərarını vermək, özünü idarə etmək hüququndan məhrum olur. Belə ki, bu insan azadlığına və əxlaqa qarşı bir cinayətdir. Bəzi hallarda hakimiyyət xalqın müqavimətini dəf etmək siyasəti yeritmədən belə insanlar onun iradəsini, prinsiplərini öz istəkləri ilə qəbul edirlər. Bu vəziyyət fərdlərin tam şəkildə formalaşa bilməməsinin göstəricisidir. Bu problemi maarifləndirmə vasitəsi ilə aradan qaldırmaq mümkündür. İmmanuel Kantın dediyi kimi: "Ağılsızlıq başqasının göstərişi olmadan ağlını istifadə edə bilməmək deyil. Öz günahı ucbatından yetkin kimi davranmağı bacarmamağın səbəbi ağılsızlıq deyil. Başqasının göstərişi olmadan öz ağlından istifadə etməyi bacarmamağın səbəbi əzminin və cəsarətinin olmamasıdır. Öz ağlınızı istifadə etməyə cəsarət edin! - bu, Maarifçiliyin şüarıdır" (Kant, 1949). Tənbəllik və qorxaqlıq, təbiətin çoxdan başqasının liderliyindən azad etdiyi bir çox insanın hələ də istəklə həyat boyu yetkinlik yaşına çatmamasının (mənəvi təkamül baxımdan böyüyə bilməməsi) səbəbləridir. Eyni səbəblərə görə başqaları özlərinə qəyyum olmaq hüququnu asanlıqla qəbul edirlər. Mədəni inkişaf kontekstində yerləşdirilmiş insanların xatirəsi arzu olunan gələcəyin təməlidir. Hər şeydən əvvəl, bu, cəmiyyət üzvləri tərəfindən inkişaf etdirilən və mənimsənilən mənalar, dəyərlər, fikir və münasibətlərin kompleks şəkildə təşkil edilmiş bir mənası olaraq mənəvi mədəniyyətə aiddir. Uşaqların tərbiyəsi, təhsil sistemi, dini təcrübələr ortaq bir tarixdə formalaşır və insanlar arasındakı münasibətlər vasitəsi ilə nəsildən-nəslə ötürülür. İnkişafın keçid dövrlərində (cəmiyyətin yaşadıqları məhz budur) başa düşmək lazımdır ki, ictimai-siyasi, iqtisadi və mədəni həyatın qeyri-kamilliyini qəbul edən təkcə dövlət deyil, həmçinin vətəndaşların özləridir. Çin əsilli ingilis yazıçısı Junq Çanqın hər iki romanında - "Vəhşi ququşları" və "Bilinməyən hekayə Mao" əsərlərində XX əsr Çin cəmiyyətinin timsalında həm ictimai-siyasi qüvvələrin, həm də sosial qüvvələrin sosial psixologiyaya təsir gücünün şahidi oluruq. Həmçinin, milli-mental dəyərlərin, adət-ənənələrin istər mənfi, istərsə də müsbət tərəfləri xüsusilə diqqəti cəlb edir. İnsanın, cəmiyyətin formalaşmasında bütün bunların özünəməxsus rolu olduğu yazıçı tərəfindən aydın şəkildə oxucuların diqqətinə çatdırılır. Bildiyimiz kimi, yazıçı peşəsinin cəmiyyət üçün böyük əhəmiyyəti var. Yazılan əsər yalnızca müəllifin yazdığı dövrdə yaşayan insanlar üçün deyil, gələcək nəsillərin də düşüncə və fikirlərində iz buraxmalıdır. Müəllif əsərlərində aktual problemlərə cavab axtarır və nəsillərə yaşadığı dövrün xüsusiyyətlərini daha dərindən öyrənməyə kömək edəcək ipucuları əks etdirir. Yazıçı ictimai istifadəçi üçün ədəbi əsərlər yazan bir insandır. Vurğulayaq ki, öz istəklərini təmin etmək üçün mətn yaradan və onu gözlərdən uzaq tutan adamı yazıçı adlandırmaq olmaz. Yazıçı peşəsinin xarakterik xüsusiyyəti bütün dövrlərdə yalnız çox savadlı insanların yazıçı olmasıdır. Yazıçı hər şeydən əvvəl yaradıcı insandır. Buna görə də, yaxşı təcrübə, humanitar elmlərə meyilli olmaq və bir daxili dünyaya sahib olmaq lazımdır. Yazıçı üçün obyektivlik, tənqidi düşünmə qabiliyyəti və qaydaları düzgün dinləmək bacarığı da vacibdir. Bir ədəbi əsərin yazılması öz dünyagörüşünü və daxili vəziyyətinin bütün palitrasını ictimaiyyətlə bölüşdürməkdir. Əsl yazıçı üçün əsərləri hisslərinin impulsudur, gözəllik və dünyaya xidmət arzusudur. "Müəllifin əsərləri mənsub olduğu cəmiyyətin mədəniyyətinə töhfə verir və cəmiyyətdə sənətkar sayılır" (Həbibbəyli, 2007).

Ədəbiyyat. Ədəbiyyat insanın sərhədsiz həyatları və düşüncələri paylaşma bacarığını əks etdirir (Miller, 2003). Bu qabiliyyət onun ictimai həyatının əsaslandığı prinsipdir. Bu baxımdan ədəbiyyatın rollarını sosial və fərdi olaraq iki yerə bölə bilərik. Ədəbiyyatın sosial roluna diqqət yetirək. İnsanlar tək yaşaya bilməzlər. Cəmiyyətdə hər bir insanın müəyyən bir mühiti, sosial təbəqəsi, ailəsi, məşğuliyyəti, öz yeri var. Yazıçının vəzifəsi insanları xüsusi mühitdə və məkanda yerləşdirmək, cəmiyyətlə məşğul olmaq, insanların

digər insanlarla qarşılıqlı təsirlərini və maraqlarını göstərməkdir. İnsanı mücərrəd bir anlayışdan uzaqlaşdırıb, onu maddi bir varlığa çevirmək. Junq Çanq da bu yazıçılardandır. İnsanlar ətraflarına yalnız iqtisadi və ya sosial bağlarla deyil, həm də mənəvi və şəxsi bağlarla da bağlıdırlar. İnsanın şəxsi həyatı, hissləri və düşüncələri cəmiyyətin üstündə və ya xaricində doğulmur, cəmiyyətdə doğulur və cəmiyyətin təsirini, möhürünü daşıyır. Bu hisslər, bu düşüncələr çox mürəkkəb, çox zəngin və incə ola bilər. Ümumiyyətlə, hər bir əsərdə yazıldığı dövrün zövqlərini, düşüncələrini və inanclarını tapmaq mümkündür. "Vəhşi ququşları" və "Bilinməyən hekayə Mao" romanlarında XX əsr Çin tarixini, Çin cəmiyyətinin həyatını, ruhunu görmək mümkündür. Hər iki roman pərdələri qaldırır və oxucuya təqdim edir, ona keçmişi təhlil etməyə və tənqid etməyə şərait yaradır. Bildiyimiz kimi, ədəbi əsərlərdə həyatın izahı, insanın həyatda qarşılaşdığı problemlərə hökm vermək ön plana çıxır. Faktlardan yaranan bu hərəkət sonrakı reallıqlara təsir edir. Əsər personajlarının və onların vəziyyətlərinin müzakirəsi sosial fəlsəfənin vacib problemlərini aşkar edir. Ədəbiyyat həyat qarşısında eyni ilə tarix kimi davranır. Məzmun ayrılığı bu nöqtədədir. Tarix faktların düzgünlüyündən başqa bir qayğısı olmadan insanlığın həyatını təsvir edir. Ədəbiyyat isə, keçmişdə baş verəni, gələcəkdə baş verə biləcək və baş verməsi lazım olanı psixoloji, emosional həqiqətlərlə birləşdirərək təqdim edir. H.G. Vells "Çağdaş Roman" adlı yazısında deyir: "Gələcəyin romanı sosial vasitəçidir, şəxsin özünü araşdırma mühiti, müxtəlif dəyərlərin və münasibətlərin dağılması, qanunların, qurumların, sosial fikirlərin tənqid edildiyi yeridir. Buna görə də ədəbi dövrün sosial şərtlərini əks etdirir və əks etdirəcəkdir" (Wells, 1911). Ədəbiyyat onları açıq şəkildə (şeir, roman, oyun və s.) aşkarlayır və sistemləşdirir. Ona görə də ədəbi əsər öz dövrünün aynası olmalıdır. Böyük ədəbi əsərlər bir dünyagörüşünü, bir tənqidi, bir meyli, bir həsrəti ifadə edirlər. Ancaq bunlar dövrün aynası olan əsərlərin içindən çıxır. İstər "Vəhşi ququşları", istərsə də "Bilinməyən hekayə Mao" romanlarında müəllif şəxsən öz fikrini bildirmək ya da oxucusuna öz fikrini qəbul etdirmək üçün yazmır, həyata biganə qala bilmədiyi üçün yazır. İnsanın özünü və dünyanı tanıması üçün ediləcək ilk şey, keçmişdə yazılan və söylənilən hər şeyin ən yaxşısını bilməsi gərəkdir. Bunun üçün yalnızca keçmişin dilini, yazarlarını, dövlətlərini deyil, quru tarixini bilmək kifayət etmir. Keçmişdəki insanların həyatını, düşüncələrini, onların bəşər tarixindəki yerini, bu gün bizə hansı dəyərlərin qaldığını tədqiq etmək lazımdır. Bu imkanı yaradan real vasitələrdən biri ədəbiyyatdır. Ədəbiyyat duyğu və düşüncəni cəmiyyətə aşılamağın yoludur. İnsan anlayışları öyrənir, amma ədəbiyyat bu anlayışların inkişafını təmin edir. Ədəbiyyat və ədəbiyyat müzakirələri insanların həyatında irəliləyiş yollarından biridir (Ann, 2014). Ədəbi əsərin başlanğıcda hamı tərəfindən başa düşülüb mənimsənilməsi şərt deyil. Ədəbiyyatın vəzifəsi açıq qapıları sökməkdən çox, kilidli qapıları açmaqdır. Yazıçı yeni həqiqətlər tapan zaman, bunu yalnızca özü üçün tapmır, başqaları üçün də tapmış olur. Hansı dünyada yaşadıqlarını, haradan gəldiklərini və hara getdiklərini bilmək istəyənlər üçün də bunu edir, cəmiyyət üçün yaradır. Beləliklə, ədəbi sənətçi təbiətin və cəmiyyətdəki həyatının fərdi və sosial təəssüratlarını ən təsirli yazı formaları ilə izah edərkən, cəmiyyətləri və fərdləri yetişdirmək və idarə etmək üçün ən çox gücə sahib olan insan olur. Bu mövzuda Jean Paul Sartre deyir: "Böyük yazıçılar dağıtmaq, qurmaq, göstərmək istəyirdilər. Fikirlər yüz illər içində dağılıb getmişdir. Ancaq yenə də bir zamanlar əti ilə, sümüyü ilə yaşayan bir insanın kiçik, şəxsi etirazları, üsyanları olaraq qalırlar. Ağlın irəli sürdüyü can verməkdə olan səbəblərin arxasında ürəkdən yaranan səbəbləri, fəzilətləri, qüsurları və insanların yaşarkən çəkdikləri əziyyətləri, böyük ağrıları dərk edərlər (Sartre, 1961).

Yalnız böyük bir sosial təbəqənin deyil, hər bir böyük ədəbi əsərin əsl istəkləri, konstruktiv bir elementi var və eyni zamanda, bu arzuların bir gün daha böyük, daha humanist bir həyata qovuşacağına ümid etdiyini ifadə edir. Van Brooks bildirir ki, "Şairlər, yazarlar və tənqidçilər cəmiyyəti aktivləşdirənlərdir. Onlara xas olan görmə gücü yox olarsa, insanlar da yox olar" (Brooks, 1918). Ədəbi əsərlər, ictimai həyatda

duyğu və düşüncə, zövq və inanc, ideal və həvəs birliyi yaratmaqla cəmiyyəti ortaq bir miqyasda birləşdirirlər. Junq Çanqın qələmə aldığı "Vəhşi ququşları" romanında fərdlər öz mədəniyyətlərinə və zövqlərinə uyğun olaraq qoşulur və ortaq sevgilərdə birləşirlər. Bu avtobioqrafik romanda müəllif yaşadığı və hiss etdiyi həsrətləri şüurlu şəkildə başqalarına çatdırır. Hamının bildiyi və eşitdiyi, amma danışa və yaza bilmədiyi hadisələri, hissləri dilə gətirir. Bu bir baxımdan insanlar arasında uzlaşma əldə etmək üçündür. Cəmiyyətə təsir edən qüvvələri anlamağa kömək edən və şüurlu şəkildə cəmiyyətə və fərdə bu qüvvələrlə mübarizə aparmağı öyrədən müəllifə insanların borcu onlar üçün mənəvi problemləri həll edən istedadlı bir insana olan borcdur. Junq Çanq və onun kimi həqiqət axtarışında olan yazıçılar uydurma dəyərlərin məhv edilməsində, daha müsbət, daha qabaqcıl bir dövrün hazırlanması, insanlara açıq olan bütün yeni imkanların araşdırılmasında təsirli rol oynayır,  yalnızca fərdlərin və cəmiyyətin ümumi istəklərini ifadə etmir, həm də onları gələcək dəyişikliklərə hazırlamaqda hər kəsdən daha təsirli olurlar. Bildiyimiz kimi hər bir əsər özündə yazıldığı dövrün sosial psixologiyasını əks etdirir. Buradan, o dövrün cəmiyyətinin real mənzərəsini aydın şəkildə görmək mümkündür. "Vəhşi ququşları" əsərində müəllifin nənəsinin, anasının və özünün timsalında bütöv bir əsrin - XX əsr Çinin ictimai-siyasi, sosial vəziyyəti real mənzərələrlə canlandırılmışdır. Avtobioqrafik romanda qadın və onun cəmiyyətdə statusu məsələsi xüsusilə diqqəti cəlb edən əsas problemlərdəndir. Qadın azadlığının, söz azadlığının olmadığı bir ölkədə insanların faciəli taleyi ürəkləri dağlayır. Bir çox əslən şərqli olub Qərbdə yaşayan yazıçıların öz ölkələrinin real, acı mənzərələrini ürək ağrısı ilə qələmə almasında məqsədləri tarixi gerçəkliyi açıq şəkildə göstərmək, insanlara hər şeyi açıq gözlə görməyə, gələcək nəsillərə baş verən hadisələrdən düzgün nəticə çıxarmağa yardımçı olmaqdır. Belə ki, ictimai baxışa nəzər yetirdiyimiz zaman bəzi mütəfəkkirlərin hər şeyi cəmiyyətdə axtardıqlarının şahidi oluruq. Fərdi formalaşdıran, yaşadan, idarə edən cəmiyyətdir. Bu səbəbdən də ədəbiyyatın mövzusu və məqsədi cəmiyyətdir. Bu səbəbdən də müəllif öz dövrünə, xalq kütlələrinin vəziyyətinə yaxşı bələd olmalı və  baş verənləri vicdanlı şəkildə əks etdirən obyektiv əsərlər yaratmalıdır. Çünki çox az yazıçı oxucuya ruhunun orijinallığı sayəsində qeyri-obyektiv, subyektiv xarakter əsasında yazılmış əsərlər oxumağa vadar edə bilər. Müəllif əsərinə fərdi fikir daxil etmək məcburiyyətində qalarsa, onun  yalnızca ümumi və ictimai hissəsi ilə məşğul olmalıdır. Hər kəs özündən ayrı, özündən kənarda, fəqət özünün də bir hissəsi olduğu cəmiyyətin sosial-ictimai vəziyyəti haqqında  müəyyən məlumatlara sahibdir. Bütün bu həqiqətləri göz önündə saxlayan bir yazıçı həqiqətə obyektiv, ümumi bir anlayışla baxmaq məcburiyyətindədir. Çünki müxtəlif və ziddiyyətli cəhətləri olan gerçəkliyi yalnız obyektiv, ümumi, çoxtərəfli baxışla anlamaq mümkündür. Yalnız bu üsulla keçmişin dərinliklərinə enmək və daimi dəyişmənin inkişafında həqiqəti tapmaq olar. Fərdi hisslərin və düşüncələrin özünəməxsus yeri və reallığı var. Ancaq bu reallığı cəmiyyətdən, fərdin sosial rolundan və vəzifəsindən ayırmaq olmaz. Yeganə çıxış yolu bir-birindən zorla ayrılması istənilən, amma əslində bir-birini tamamlayan bu iki yolu birləşdirməkdir. Fərdini ictimaiyə, təki ümumiyə, daxili həqiqəti xarici həqiqətə bağlamaqdır. Fərdi cəmiyyətin müəyyən bir sosial təbəqəsinin, şərtlərinin içinə qoymaq, onun digər fərdlərlə əlaqəsini ortaya çıxarmaqdır (Buell, Heise, Thornber). Müasir yazıçının görməli olduğu iş fərdi cəmiyyətin içində və cəmiyyətlə birlikdə götürüb, onu şəxsi istəkləri və düşüncələri ilə birlikdə canlandırmaqdır.

Hər bir əsər öz dövrünü canlandırır. Yarandığı dövrün zövqlərini, meyillərini, düşüncələrini və inanclarını, insanların, cəmiyyətin həyatını və ruhunu özündə ehtiva edir. Hər bir əsər öz dövrünü həmişə aydın, dəqiq, birbaşa, aydın şəkildə əks etdirmir. Əksinə, çox vaxt gizli, dolayı, qeyri-müəyyən olur. Ancaq mütləq şəkildə olur. Hətta keçmişi araşdıran tarixçilər işlədikləri mövzuları seçərkən iş tərzlərində və irəli sürdükləri fikirlərdə ümumi olaraq öz  dövrlərini əks etdirirlər. Çünki hər bir əsər müəyyən bir dövrün, başqa sözlə, müəyyən bir mühitin, müəyyən bir iqtisadi və sosial quruluşun, müəyyən bir səviyyənin və təbəqənin,

ideyaların məhsuludur. Həm mahiyyətini, həm də formasını dövrün həyatından, ehtiyaclarından və imkanlarından götürür. Tarixi dövrlər davamlı bir formalaşma və axın içindədir. Daimi dəyişiklik və inkişaf dövrləri bir-birinə bağlayır.

**Ədəbiyyat:**


1.Ann B. D. (2014) Theory into Practice: An Introduction to Literary Criticism, 4th Edition, Stamford, Cengage Learning, 432 p.

2.Buell, L., Heise, U. K., & Thornber, K. (2011). Literature and environment. *Annual review of environment and resources*, *36*, 417-440.

3.Brooks, V. W. (1918). On creating a usable past. *The Dial*, *64*(11), 337-41.

4.Həbibbəyli İ.(2007) Ədəbi-tarixi yaddaş və müasirlik, Bakı: «Nurlan» nəşriyyatı, 689 s.

5.Johnson, N. C. (2004). Public memory. *A companion to cultural geography*, 316-327.

6.Kant, I. (1949). The Philosophy of Immanuel Kant. *New York: Modern Library*.

7.Miller, H. (2003). *On literature*. Routledge.

8.Neimeyer, G. J., & Rareshide, M. B. (1991). Personal memories and personal identity: The impact of ego identity development on autobiographical memory recall. *Journal of personality and Social Psychology*, *60*(4), 562.

9.Sartre, J. P., & Pucciani, O. F. (1961). An Interview with Jean-Paul Sartre. *The Tulane Drama Review*, *5*(3), 12-18.

10.Wells, H. G. (1911). The contemporary novel. *Fortnightly*, *90*(539), 860-873.


## LATIN AMERİKASI ƏDƏBİYYATINDA "YENİ ROMAN" – "XANA – XANA OYUNU"


**Ağababayeva Səbinə Elxan**
**Bakı Slavyan Universiteti**
**https://orcid.org/0000-0003-3891-5487**
**sagababayeva87@gmail.com**


## "NEW NOVEL" IN LATIN AMERICAN LITERATURE – "HOPSCOTCH"


**Aghababayeva Sabina Elkhan**
**Baku Slavic University**
**https://orcid.org/0000-0003-3891-5487**
**sagababayeva87@gmail.com**



**Summary**

The literature of Latin American countries, distinguished by its rich history, has entered a bright period of its development after a long and difficult period. Thus, the history of three hundred years of colonialism has had a negative impact on the development of literature as well as various fields in Latin American countries. During the colonial period, Latin American literature was not strong enough to compete with European as well as Eastern literature. Because during this period, the process of formation of literature and creation of local literary samples was almost completely slowed down. After the destruction of the colonial system, the process of national identity formation accelerated in Latin American countries. From the second half of the 20th century, Latin American

literature began to develop on a rising line. The development of Latin American literature made it clear that ethnic literatures doomed to assimilation could survive and thrive within dominant civilizations. The formation of the "new Latin American novel" entered history as a "boom" (explosion) period. With the famous Argentinian writer Julio Cortazar's novel "Hopscotch", he overturned the traditional novel structure and managed to create a completely new, original work. In the transition from traditional novel to "new novel" in Latin American literature, Cortazar's novel "Hopscotch" played a special role.

**Keywords:** text, reality, play, traditional literature, new novel.

## «НОВЫЙ РОМАН» В ЛАТИНОАМЕРИКАНСКОЙ ЛИТЕРАТУРЕ – «ИГРА В КЛАССИКИ»

**Агабабаева Сабина Эльхан**
**Бакинский Славянский Университет**
**https://orcid.org/0000-0003-3891-5487**
**sagababayeva87@gmail.com**

**Резюме**

Литература латиноамериканских стран, отличающаяся своей богатой историей, после долгого и трудного периода вступила в яркий период своего развития. Таким образом, трехсотлетняя история колониализма оказала негативное влияние на развитие литературы, а также различных областей в странах Латинской Америки. В колониальный период латиноамериканская литература была недостаточно сильна, чтобы конкурировать как с европейской, так и с восточной литературой. Потому что в этот период почти полностью замедлился процесс формирования литературы и создания местных литературных образцов. После разрушения колониальной системы в странах Латинской Америки ускорился процесс формирования национального самосознания. Со второй половины 20 века латиноамериканская литература стала развиваться по восходящей линии. Развитие латиноамериканской литературы показало, что обреченные на ассимиляцию этнические литературы могут выживать и процветать в рамках господствующих цивилизаций. Становление «нового латиноамериканского романа» вошло в историю как период «бума» (взрыва). В романе известного аргентинского писателя Хулио Кортасара «Игра в классики» он перевернул традиционную структуру романа и сумел создать совершенно новое, оригинальное произведение. В переходе от традиционного романа к «новому роману» в латиноамериканской литературе особую роль сыграл роман Кортасара «Игра в классики».

**Ключевые слова:** текст, реальность, игра, традиционная литература, новый роман.

1963-cü ildə nəşr olunan “Xana – xana oyunu” romanı dünya şöhrətli argentinalı yazıçı Xulio Kortasarın ən məşhur romanlarından biridir. Orijinal quruluşu ilə seçilən roman çoxsaylı müzakirələrə səbəb olmuşdur. Ənənəvi romanın süjet xəttini alt-üst edən Kortasar oxucuya həyəcanlı bir mətn təqdim edir. Xüsusilə də, əsərin oxunma qaydası diqqəti cəlb edir. Oxucuya təqdim edilən iki fərqli oxunma sxemindən asılı olaraq epizoddan – epizoda keçidlər, hadisələrin inkişaf ardıcıllığı dəyişir, eyni zamanda oxucu tamamilə fərqli, gözlənilməz sonluqla qarşılaşır. Zəngin problematikası, obrazlar sistemi ilə fərqlənən “Xana – xana oyunu” romanı Latın Amerikası ədəbiyyatında “yeni roman” anlayışının formalaşmasına təkan vermişdir.

Qeyd etmək lazımdır ki, Azərbaycan ədəbiyyatşünaslığında Xulio Kortasarın yaradıcılığı, ümumiyyətlə Latın Amerikası ədəbiyyatı kifayət qədər araşdırılmamışdır. Latın Amerikası ədəbiyyatının zəngin və keşməkeşli tarixi, eləcə də Xulio Kortasarın yaradıcılığı, “Xana – xana oyunu” romanının ənənəvi romandan fərqli yeni strukturu mövzunun aktuallığını şərtləndirir və bu mövzunu araşdırmağa kifayət qədər əsas

verir. Məhz bu baxımdan Latın Amerikası ədəbiyyatında "yeni roman" anlayışı Xulio Kortasarın "Xana – xana oyunu" romanı ilə tədqiqata cəlb edilir.

**Latın Amerikası ədəbiyyatı tarixinə ümumi baxış**. Üç yüz illik müstəmləkəçilik tarixi Latın Amerikası ölkələrində müxtəlif sahələrdə olduğu kimi ədəbiyyatın da inkişafına öz mənfi təsirini göstərmişdir. Belə ki, müstəmləkəçilik dövründə ədəbiyyatın formalaşma, yerli ədəbi nümunələrin yaranma prosesi olduqca ləngimişdir. Faşizm üzərində qələbə müstəmləkə sistemini dağıtmış və beləliklə də, Latın Amerikası ölkələrində milli kimliyin formalaşma prosesi sürətlənmişdir. Bununla da bütün sahələrdə olduğu kimi ədəbiyyatın da inkişafında müsbət dəyişikliklər nəzərə çarpmağa başladı. Ümumiyyətlə, XX əsrin birinci yarısında Avropa, həmçinin Şərq ölkələri ədəbiyyatları ilə rəqabət aparacaq gücdə olmayan Latın Amerikası ölkələri ədəbiyyatı XX əsrin ortalarından başlayaraq inkişafının ən parlaq dövrünə qədəm qoyur. "Perulu yazıçı, publisist, dramaturq Mario Lyosun 2010-cu ildə layiq görüldüyü Nobel mükafatı, 2010-cu ildən davamlı olaraq Qabriel Qarsia Markes, Xulio Kortasar, Xose Maria Argedas, Masias Karlos Fuentes kimi yazıçıların şərəfinə təşkil olunan konqres, simpozium və digər tədbirlər Latın Amerikası ədəbiyyatının yüksəlişini təsdiqləyən amillərdəndir" (Писанова, 2018).

Latın Amerikası ədəbiyyatının zənginliyi Latın Amerikası ölkələrinin etnik və mədəni baxımdan müxtəlifliyi ilə əlaqələndirilir. Belə ki, Avropa, Hindistan və Afrika mədəniyyətlərinin bir-birinə qarışması nəticəsində tamamilə yeni etnik – mədəni birləşmələr, fərqli, orijinal ədəbi cərəyanlar meydana gəlmişdir. Xüsusilə qeyd etmək lazımdır ki, Latın Amerikası ədəbiyyatı İspan, Fransız və Portuqal dillərində danışan bütün Amerika ölkələrini əhatə edir.

1960 – cı illərdəki "bum"u (partlayışı) ilə dünyaya səs salan Latın Amerikası ədəbiyyatında "yeni Latın Amerikan romanı"nın doğulması bütün Latın Amerikası mütaliə dünyasının marağına səbəb oldu. Latın Amerikan "bum"unun "yeni roman"ı tarixi və xronoloji baxımdan bütövlükdə roman janrının inkişafında keyfiyyətcə yeni mərhələnin əksi kimi dəyərləndirilir.

**Xulio Kortasarın "Xana – xana oyunu" romanı ilə ənənəvi romandan "yeni roman"a keçid.** "Xana – xana oyunu" romanı zəngin problematikası, obrazlar sistemi ilə diqqəti cəlb edir. Xulio Kortasar ənənəvi roman strukturunu darmadağın edərək tamamilə yeni, orijinal bir mətn yaratmışdır. Latın Amerikası ədəbiyyatında Xulio Kortasarın "Xana-xana oyunu" yazıçının ənənəvi roman yaradıcılığı ilə vidalaşıb yeni romana keçid etdiyi ilk əsəri idi. Ümumiyyətlə, "yeni roman" şərti anlayışdır və XX əsrin 50 – 60-cı illərində bir sıra fransız yazıçıları tərəfindən mövcud bədii nəsrin strukturunu köklü şəkildə dəyişdirmək cəhdlərini ifadə edir" (Quliyev, 2019). Fransız yazıçıları tərəfindən irəli sürülən "yeni roman" anlayışı müxtəlif ölkələrin ədəbi prosesindən də yan keçməmişdir. Latın Amerikası ədəbiyyatında bu prosesdə Xulio Kortasarın "Xana – xana oyunu" romanı xüsusi rol oynamışdır. Bu roman ədəbiyyat və fəlsəfə təhsili almış Kortasarın qazandığı təcrübənin tam şəkildə mətnə çevrilməsi idi. Mətnini, süjet və kompozisiyasını, dilini oyun kimi təqdim edən Kortasar həyatı da, şərtləri məlum olan oyun kimi şərh edirdi. "Kortasara görə oyun dünyanı yenidən qurmaq, reallığın dilini yenidən kodlaşdırmaq, adi norma və anlayışları tərsinə çevirmək üsuludur" (Бобрик, 2012).

İlk növbədə əsərin oxunma sxemi diqqəti cəlb edir. Əsəri oxumaq üçün oxucuya iki müxtəlif variant təklif edilir: "Birinci kitab adi qaydada oxunur və 56-cı fəsildə başa çatır. Axırıncı sətrin altındakı üç ulduz işarəsi SON mənasındadır. Ona görə də oxucu heç bir vicdan əzabı çəkmədən sonrakı fəsilləri oxumaya bilər. İkinci kitabı 73-cü fəsildən başlayaraq xüsusi qaydada oxumaq lazımdır: hər bir fəslin sonunda növbəti fəslin nömrəsi mötərizə içərisində göstərilir" (Kortasar, 2010). Fəsildən fəslə, yerdən yerə, xarakterdən xarakterə tullanaraq baş verən hadisələri oxumaq həm çətin, həm də çox maraqlıdır. Romanı 56-cı fəslə qədər adi şəkildə oxuyan zaman əsər yarımçıq hiss olunmur. Bu romanın adi mütaliəsi belə insana adi kitablardan tamam fərqli zövq verir.

“Xana-xana oyunu” romanını əslində bir roman adlandırmaq doğru deyildir, çünki bu romanı əlimizə alıb oxuduğumuz zaman iki romanla qarşılaşırıq. “Xana-xana oyunu” iç-içə keçmiş iki romandır, xana-xana oyunundakı kimi mətnin hissələri ordan-bura, burdan-ora sıçrayır. Oxucunu bədii ədəbiyyatın fəal elementinə çevirən bu sıçrayışlar təkcə romanın oxu tərzinin deyil, həm də yaşadığımız dünyanın parçalanmasını simvollaşdırır. Bu romanda yazıçı oxucu ilə sanki xana-xana oynayan kimi oynayır. Kortasar özünə qədər yazılan bütün ənənəvi romanlardan fərqli, müasir sənət əsəri yaradır. Bu romanın yeniliyi, özünəməxsusluğu ondadır ki, romana müxtəlif aspektdən, fərqli baxış bucağından yanaşaraq bir-birindən müxtəlifliyinə görə fərqlənən bir çox nəticələrə gəlmək mümkündür. Romanda Kortasar oxucu üçün xüsusi tələlər hazırlayır. Hər bir fəsil insanı başqa aləmə aparır. Məsələn, ən axırıncı fəslə çatdığımız zaman 131-ci fəslə, oradan 58-ci fəslə, yenidən 131-ə qayıdırıq. Beləliklə, Kortasar oxucunu çıxış yolu olmayan xana-xana oyununun içinə həbs edir.

Ümumiyyətlə, “Xana – xana oyunu” eksperimental romandır. Kortasar romanın hər fəslini fərqli üslubda yazmış və sözlərlə olduğu kimi oxucu ilə də oyuncaq kimi oynayır. Çaşqınlıq, qarışıqlıq içinə düşən oxucu səhifələrə hakim olmağa çalışarkən, həmçinin mövzunu da anlamalıdır. Hər oyunda öz növbəsini səbirsizliklə gözləyən uşaq kimi oxucu da bu kitabda oyunçuya çevrilir. Oxucu kitabı deyil, sanki kitab oxucunu oxuyur. Oxucu mütləq diqqətli olmalıdır. Romanı oxuyub başa düşmək çətindir. Eləcə də dil vurğusu, fəlsəfi qənaətlər, zəngin söz ehtiyatı və fırtınalı düşüncə çaşqınlığı bədii ədəbiyyatda bir-biri ilə iç-içədir. Bu əsər oyun oynamağı sevənlər üçün əsl mənəvi zövq mənbəyidir.

Xüsusilə qeyd etmək lazımdır ki, Kortasar xana-xana oyununu yalnızca oxuma tərzi baxımından oynamır, fikirlər və hadisələr arasında da xana-xana oyunu var. Bir sözlə, Kortasar oxucu ilə oyun oynayır. Bu kitabı oxumaq, onu təhlil etmək üçün xüsusi təhlil qabiliyyəti lazımdır. Romanda fikir və ideyalar sanki havada uçur. Tələsməmək, anlamaq, mənanı tuta bilmək lazımdır, çünki müəllif nə demək istədiyini aydın şəkildə birbaşa demir, oxucu müəllifin fikrini anlamaq üçün səy göstərməli, mübarizə aparmalıdır. “Roman başdan-başa elmi-fəlsəfi, intellektual materialla doludur (Mənim bütün əsərlərim kimi “Xana – xana oyunu”nun xətası da onun hiperintellektuallığındadır)” (Kortasar, 2010).

Bir sözlə, Xulio Kortasarın erkən axtarış və düşüncələrinin nəticəsi, yetkinliyinin başlanğıc nöqtəsi kimi dəyərləndirilən “Xana – xana oyunu” romanı ənənəvi roman anlayışını, ənənəvi romanın süjet xəttini tamamilə alt-üst edir.

**Ədəbiyyat:**

1. Kortasar, X. (2010). Seçilmiş əsərləri. Bakı: Şərq-Qərb.

2. Quliyev, Q. (2019). Ədəbi cərəyanlar və istiqamətlər. Bakı: “OL”NPKT.

3. Бобрик, Д.В. (2012). Постмодернистская концепция культуры в латиноамериканской литературе на примере «Игры в классики» Хулио Кортасара. Теория и практика общественного развития, № 8, 38-41.

4. Писанова, Т.В. (2018). Латиноамериканская литература в новой цивилизационной версии: особенности идейно-художественного содержания и традиции перевода. Вестник МГЛУ. Гуманитарные науки. Вып. 16 (811), 91- 106.

# ETNONİM SLƏNQLƏRİN MƏNŞƏYİNİN ARAŞDIRILMASININ ƏHƏMİYYƏTİ

**Qurbanova Gülnarə Qorxmaz**
**Azərbaycan Dillər Universiteti**
**https://orcid.org/0000-0003-1206-3909**
**gulnara.qurbanova@mdu.edu.az**

# THE IMPORTANCE OF STUDYING THE ORIGIN OF ETHNONYM SLANGS

**Gurbanova Gulnara Gorkhmaz**
**Azerbaijan University of Languages**
**https://orcid.org/0000-0003-1206-3909**
**gulnara.qurbanova@mdu.edu.az**

**Summary**

The term slang refers to words and phrases used in informal conversation between a certain group of people. Slang can be any common word or word combination in the language, but they must acquire a new meaning in the context, it can be a new word or word combination, it can be a combination of two or more words. These words can confuse and confuse others, as slang gives a new shade to generally accepted concepts in the evolution of the language. In its early documented versions, slang was known as a lexicon of low and disrespectful. Ethnophaulisims are expressions that express ethnic, racial, religious prejudices against other peoples. There were many ethnonyms, denoting English, German, Italian, French, Russian, etc. nations. The origin of ethnonyms used as slang is investigated in the research work.

**Key words:** slang, lexicology, sociolinguistics, spoken language, social group

# ВАЖНОСТЬ ИЗУЧЕНИЯ ПРОИСХОЖДЕНИЯ ЭТНОНИМОВЫХ СЛЕНГОВ

**Гурбанова Гюлнара Горхмаз**
**Азербайджанский Университет Языков**
**https://orcid.org/0000-0003-1206-3909**
**gulnara.qurbanova@mdu.edu.az**

**Резюме**

Термин сленг относится к словам и фразам, используемым в неформальной беседе между определенной группой людей. Сленгом может быть любое распространенное в языке слово или словосочетание, но они должны приобретать новое значение в контексте, это может быть новое слово или словосочетание, это может быть сочетание двух и более слов. Эти слова могут ввести в заблуждение и сбить с толку окружающих, поскольку сленг придает новый оттенок общепринятым понятиям в эволюции языка. В своих ранних засвидетельствованных версиях сленг был известен как лексикон низкого и неуважительного. Этнофилизмы – это выражения, выражающие этнические, расовые, религиозные предубеждения против других народов. Английский, немецкий, итальянский, французский, русский и т. д. было много этнонимов, обозначающих народы. В исследовательской работе исследовано происхождение этнонимов, используемых в качестве сленга.

**Ключевые слова:** сленг, лексикология, социолингвистика, разговорный язык, социальная группа

Milliyyət çalarlı ləqəblər danışanın müəyyən etnik qrupa müsbət və ya mənfi münasibətini ifadə edən milliyyət adlarıdır. Qərb sosiolinqvistikasında bu leksik vahidləri ifadə edən "etnofolizm" adlanan termin mövcuddur. Bu termini dilçilik sahəsinə ilk dəfə A.A.Robak gətirmişdir. Bu termin yunan mənşəli etnos (xalq) və folos (dəyərsiz) sözlərinin birləşməsindən əmələ gəlib, bu ifadələr yerli xalqlar tərəfindən istifadə olunmayan, əksinə digər xalqlar tərəfindən yerli əhali üçün istifadə edilən ifadələrdir. Etnofolizmlər digər xalqlara qarşı etnik, irqi, dini cəhətdən qərəzli münasibət ifadə edən ifadələrdir (Хомяков, 1971). İngilis, alman, italyan, fransız, rus və s. xalqları ifadə edən çoxlu sayda etnonimlər vardır. Tədqiqat işində slənq kimi işlənən etnonimlərin mənşəyi araşdırılmışdır. Müasir ingilis dilində işlənən slənqlər arasında ingilisləri bildirən *tyke, kipper, pommy (pom, pommie), Woodbine, Brummy (Brummie), Scouse, loiner, pongo* sözləri var. Bu slənqlərdən *tyke* Yorkşirdən (Yorkshire) olan əhalini bildirmək üçün istifadə olunur. Bu slənqin qədim island dilindən tərcüməsi it olduğundan Yorkşirli üçün təhqiramiz hesab olunur.

*Limey* britaniyalılara verilən ləqəbdir: *Fights in the bar-rooms with the goddam Limeys* (Steinbeck, 2021). Bu slənqin ilkin forması *lime-juicer* sözündən yaranıb, mənası *ingilis, ingilis matrosdur.* XIX əsrdə Böyük Britaniya Dəniz Donanmasında dənizçiləri sinqa xəstəliyindən qorumaq üçün içkilərdə laym meyvəsinin suyundan istifadə olunurdu.

Avstraliyalılar İngiltərədən gələn immiqrantları *kipper* adlandırırdılar. İngiltərədən gələn immiqrantlar hisə verilmiş balığı xoşladıqları üçün avstraliyalılar ingilisləri *kipper* adlandırırdılar. Avstraliyalıların ingilisləri adlandırdıqları digər slənq *woodbine* slənqidir: *Bagtown became 'Woodbine Ave'... so-called for the number of English settlers in residence* ( Hill, 2010).

Bu slənq digər slənqlərə nisbətən müasirdir, *Woodbine* siqaret markasının adı ilə əlaqəlidir. Britaniyalıları bildirmək üçün istifadə olunan digər slənq *pommy/pom* slənqidir: *Hey call us Pommies and treat us as if we'd took a liberty in coming to their blooming country* (Galsworthy, 2013). Bu slənqin izahı Partricin lüğətində *yenidən Britaniyadan qayıdan* kimi qeyd olunur. Lakin bu, slənqin mənşəyi haqqında dəqiq məlumat deyil. *Pommy/pom* slənqi I Dünya müharibəsindən əvvəl istifadə olunurdu. Bu slənqin mənşəyi haqqında bir neçə fərziyyə var. Bəzi fərziyyəyə görə bu slənq *pomeranian* adlı it cinsinin adından, digər fərziyyəyə görə avstraliyalıların ingilis əsgərlərini adlandırdıqları *Tommy* sözündən yaranıb.

Digər xalqların nümayəndələrini bildirmək üçün etnonim slənqlər mövcuddur. Məsələn, fransızları bildirmək üçün *frog, Froggy, frog eater, Frenchy* slənqlərindən istifadə olunur (Lewin , 1998). Bu slənqlər fransızların mətbəx mədəniyyəti ilə bağlıdır. *Frenchy (Frenchie)* slənqinin mənası *fransız mənşəli kanadalıdır.*

İrland xalqının nümayəndələrini bildirən etnonim slənqlərin sayı nisbətən çoxdur: *Mick, Paddy, Harp, Irisher, Mulligan, lacecurtain Irish (prosperous), shanty Irish (poor), Greek, shamrock, bog hopper, bog trotter, turf cutter* (Lewin, 1998). Bu slənqlərdən *bog trotter* və *bog hopper* slənqləri yaşayış məkanının adı ilə bağlıdır, çünki İrlandiya ərazisinin çox hissəsi bataqlıqdan ibarətdir. *Bog trotter* slənqi XVII əsrdən istifadə olunur. *Shamrock* etnonimi İrlandiyanın rəmzi olan üçyarpaq bitkisinin adı ilə əlaqəlidir.

*Tafia (Taffia), Welshy (Welshie), Taffy (Taff)* slənqləri uelsliləri bildirən etnonim slənqlərdir. Bu ləqəblərin təhqiramiz mənaları var. *Taffy* slənqi David (Davy) adının uels tələffüz formasıdır. Məlum olduğu kimi, David uelslilərin himayədarı olmuşdur.

İtalyan xalqını bildirən etnonim slənqlər bunlardır: *wop, dago, pizza man, macaroni, spic, spig, spiggoty, spaghetti, spaghetti bender, Eyetalian, Eytie, ringtail, dingbat, dino (laborer), ginzo, guinea, ginney, greaser, greaseball. Wop* slənqi XX əsrin ilk onilliyində Nyu-Yorkda yerləşən Kiçik İtaliya adlı məhəllədə gənc italyan qanqsterlərə verilən ad idi. *Eytie (Eyety, Eyetye, Eytie, Eyto)* slənqi spagetti-eater və ya *wop* kimi təhqiramiz mənada işlənmir, bu söz İtaliya sözünün məzəli tələffüz formasıdır.

Alman xalqını bildirmək üçün etnonim slənqlərdən istifadə olunur: *Kraut, Heinie, Jerry, Bosche, sausage (the), Dutchy, Hun, Erich, sale Boche Hun* slənqi I Dünya müharibəsi zamanı müharibədə iştirak edən alman əsgərlərini bildirmək üçün istifadə olunurdu. Bu slənq II Vilhelmin Çinə yollanan alman əsgərlərinin qarşısında çıxışı zamanı nitq söyləməsindən sonra işlənməyə başlandı. O çıxış nitqində alman əsgərlərinə hunlar kimi vəhşi olmağı qeyd etmişdir.

Beləliklə, bu nəticəyə gəlmək olar ki, slənq kimi işlənən bütün etnonimlər təhqiramiz, bəzən alçaldıcı məna daşıyır. Bu və ya digər xalqın nümayəndəsinə verilən "ləqəb" və ya "ayama" həmin millətin, xalqın stereotip şüurundakı keyfiyyətləri, ümumiləşdirilmiş bir fikri özündə əks etdirir.

**Ədəbiyyat**:
1. Хомяков В.А. (1971). Введение в изучение сленга. Вологда, 64.
2. Ayto J. (1998) The Oxford Dictionary of Slang. Oxford, 300.
3. Dalzell T. and Victor T. (2007) The Concise New Partridge Dictionary of Slang and Unconventional English. Routledge, 258.
4. Galsworthy J. (2013). Delphi complete works of John Galsworthy. London, 3491.
5. Hill E. (2010) Water into gold. Brisbane, 328.
6. Lewin E. and Lewin A. E. (1998) The Random House Thesaurus of Slang. N.Y., 321.
7. Loiners of the world unite! URL: http://www.bbc.co.uk/leeds/content/articles/2005/01/06/voices 2005_ loiner_feature.shtml.
8. Partridge E. (2015) The Routledge Dictionary of Historical Slang. Routledge, 488.
9. Thorne T. (2007) Dictionary of Contemporary Slang. London, 377.
10. Steinbeck J. (2021) Collected works of John Steinbeck. Kyiv, 265.

## DİLÇİLİKDƏ "KONVERSİYA" TERMİNİNƏ BAXIŞLARA DAİR

**Məlikli Kəmalə İzzət**
**Azərbaycan Dillər Universiteti**
**https://orcid.org/ 0000-0002-8890-6194**
**ismayilovakemale@mail.ru**

## ON VIEWS ON THE TERM "CONVERSION" IN LINGUISTICS

**Malikli Kamala Izzat**
**Azerbaijan University of Languages**
**https://orcid.org/ 0000-0002-8890-6194**
**ismayilovakemale@mail.ru**

**Summary**

The languages of the world are developing and getting their current state. As a result of intra-linguistic and extra-linguistic influences in the language, the vocabulary of the language and its internal structure are improved. One of the processes affecting language development is conversion, which is a means of expression of complete or morphological transposition. Conversion, considered by most linguists as a method of word formation, is only a grammatical phenomenon according to some linguists. The main purpose of the report is to reveal the essence of this linguistic

phenomenon, to examine the controversial issues related to it in the linguistic literature, and at the same time to show which field of linguistics this linguistic phenomenon belongs to. The conflicting issues in linguistics related to conversion include its definition, direction, productivity, problems of syntactic approach to conversion.

**Key words:** conversion, word-formation, morphological transposition, zero-derivation

## О ВЗГЛЯДАХ НА ТЕРМИН «КОНВЕРСИЯ» В ЛИНГВИСТИКЕ

**Маликли Кямала Иззат**
**Азербайджанский Университет Языков**
**https://orcid.org/0000-0002-8890-6194**
**ismayilovakemale@mail.ru**

**Резюме**

Языки мира развиваются и обретают свое современное состояние. В результате внутриязыковых и внеязыковых воздействий в языке совершенствуется словарный запас языка и его внутренняя структура. Одним из процессов, влияющих на развитие языка, является конверсия, представляющая собой средство выражения полной или морфологической транспозиции. Конверсия, рассматриваемая большинством лингвистов как способ словообразования, по мнению некоторых лингвистов, является лишь грамматическим явлением. Основная цель доклада - раскрыть сущность этого языкового явления, рассмотреть связанные с ним спорные вопросы в лингвистической литературе и вместе с тем показать, к какой области языкознания относится данное языковое явление. К конфликтным вопросам языкознания, связанным с конверсией, относятся ее определение, направление, продуктивность, проблемы синтаксического подхода к конверсии.

**Ключевые слова:** конверсия, словообразование, морфологическая транспозиция, нулевое деривация

Dünyada mövcud olan bütün dillər uzun sürən tarixi təkamül prosesində daha da təkmilləşir, həm də digər dillərlə qarşılıqlı əlaqəyə girərək öz lüğət tərkibini zənginləşdirir. Zaman keçdikcə hər bir dilin daxili strukturu, qrammatik kateqoriyaları da inkişaf edərək öz müasir formasını tapır. Dilin daxili strukturunun təkmilləşməsinə, onun müasir formasını almasına xidmət edən bir çox morfoloji proseslər vardır. Dildə yeni leksik vahidin yaranmasına xidmət edən morfoloji proseslərin çoxu dildəki morfemlərin birləşməsinə əsaslanır. Bu baxımdan morfoloji prosesləri birləşdirici və birləşdirici olmayan iki qrupa ayırmaq olar. Birləşdirici morfologiya dedikdə, iki morfemin bir araya gəlməsi ilə yeni dil vahidinin yaranması başa düşülür. Buraya mürəkkəbləşmə, affiksasiyanı, birləşdirici olmayan morfoloji proseslərə isə təkrarlar, konversiya, deaffiksasiya (və yaxud geriyə derivasiya) və daxili modifikasiyanı aid etmək olar. İkinci qrupa daxil olan morfoloji proseslərdə birinci qrupa daxil olan proseslərdən fərqli olaraq morfemə heç bir morfem əlavə etmədən onun özünün daxili strukturunu və mövcud sözün sintaktik kateqoriyasını dəyişməklə yeni sözlər yaranır (Guzman & O'Grady, 1997; Martsa, 2007).

Yeni söz yaranma prosesində ilkin leksemin formasında dəyişiklik olmadan həmin leksemin müxtəlif söz qrupuna aid edilərək yeni qrammatik kateqoriyalara sahib olmasına konversiya deyilir (Katamba, 1993:54). Morfoloji transpozisiyanın bir hissəsi kimi konversiya hadisəsi dilçilikdə bir çox dilçi tərəfindən tədqiq edilsə də onunla bağlı mübahisəli məqamlar hələ də qalmaqdadır. Bu dil hadisəsinə aid çətinlik törədən məsələlərə konversiyanın tərifi, konversiyada istiqamət problemi, konversiya hadisəsinə sintaktik yanaşma və məhsuldarlıq problemini aid etmək olar.

Dilçilikdə H.Marçand (1969), V.Adams (1973), G.Sanders (1988), P.Kiparski (1997) və J.Don (2005) konversiya hadisəsini sözün sintaktik transpozisiyasının denotasiyası hesab edərək onu sıfır-derivasiya da adlandırırlar. Dilçilər konversiya hadisəsinin sırf qrammatik məsələləri əhatə etdiyini və affiksasiyanın bir hissəsi olduğunu, ancaq onun sözyaratma ilə əlaqəsinin olmadığını söyləyirlər. Belə ki, dildə sıfır

morfemin mövcudluğunu qəbul edən dilçilər sıfır morfemin iştirak etdiyi sözyaratmanı da sıfır-derivasiya hesab edirlər: “She turned her *head* away from him.”, “He *headed* the corporate-finance department.” İngilis dilindən gətirilmiş nümunədən göründüyü kimi, birinci cümlədəki “head” sözü (isim) heç bir fonetik dəyişikliyə uğramadan ayrı bir nitq hissəsinə (feilə) keçərək keçdiyi nitq hissəsinin qrammatik kateqoriyalarını qəbul edir. Nitq hissələri arasındakı bu keçid zamanı törəmə dil vahidi özək dil vahidi ilə homoqrafik və homofonik olur.

Dilçilikdə konversiya və sıfır-derivasiya terminləri eyni dərəcədə istifadə olunsa da, dilçi B.Ketnaroşka (1993:14-19) hər iki terminin müxtəlif nəzəri əsaslarının olduğunu qeyd edir. O, konversiyanı morfoloji və ya sintaktik hadisə adlandırırsa, sıfır-derivasiyanı sırf söz yaratma prosesi hesab edir. Dilçi R.Liber (2004) isə implisit transpozisiya kimi konversiyanın morfoloji və ya qrammatik hadisələrlə əlaqəsinin olmadığını, praqmatik nüansları olan sözyaratmanın nəticəsi kimi özünü göstərdiyini qeyd edir və konversiyanı yenidən sıralama (relisting) prosesi adlandırır. Başqa sözlə desək, dildə daha əvvəl mövcud olan söz konversiya nəticəsində müxtəlif leksik kateqoriyanın bir hissəsi kimi yenidən dilin lüğət fonduna daxil olur. Bu mənada konversiya sıfır-derivasiyadan fərqlənir, çünki heç bir sonluğun əlavəsinə ehtiyac olmur. Sonrakı dövrlərdə konversiya və sıfır-derivasiya terminləri ilə bərabər funksional yerdəyişmə (Neef, 2005), funksional hərəkət, semantik keçid, sıfır şəkilçi və s. kimi terminoloji variantlardan istifadə olunsa da, fikrimizcə bunlar içərisində konversiya termini daha dominant mövqeyə malikdir.

Konversiya hadisəsinə derivasyon şəkilçilərin az olduğu german dillərindən ingilis dilində daha çox rast gəlmək olar. C.Yul (2002:53-58) ingilis dilində yeni söz formalarının yaranmasında iştirak edən bir neçə dil hadisəsinin adını çəkir ki, bunlardan da ən məhsuldarı şəkilçi artırılmadan bir nitq hissəsindən yeni nitq hissəsinə keçidin baş verdiyi konversiya hadisəsidir. C.Booij (2005:51) isə sözyaratma prosesində iştirak edən leksik vahidləri açıq və qapalı olmaqla iki qrupa ayırır. Dilçi birinci qrupa isim, sifət və feilləri aid edir ki, onlar da öz növbəsində sözyaratmanın müxtəlif üsulları ilə dilin lüğət tərkibini zənginləşdirir. Bu əsas nitq hissələri məhz elə ingilis dili üçün xarakterik olan konversiya tiplərindən (major, minor və ikinci dərəcəli konversiya) ən məhsuldarı olan major konversiyada iştirak edən tərəflərdir (Velasco, 2009:1165). Qapalı leksik vahidlərə isə determinant, bağlayıcı, əvəzlik və sözönülərini daxil edən C.Booij (2005) burada sözyaratmanın üsullarından çox da istifadə edilə bilmədiyini qeyd edir. Ancaq bu dil vahidləri məhsuldar olmasa da isim, feil və sifətə konversiya oluna bilər ki, buna da minor konversiya deyilir. Məs., bağlayıcı – isim (*ifs and buts*); affiks – isim (*patriotism and other isms*); sözönü – feil (*The boy will off and do his work*) və s.

Bəzi dilçilər isə konversiya hadisəsini daha dar çərçivədə tədqiq edərək buraya yalnız vurğunun yerinin dəyişilməsi, keçidə məruz qalan dil vahidinin kəmiyyət dəyişikliyi, *the old, the rich* və s. kimi sifətlərin isim kimi işlənməsi və xüsusi isimlərin ümumi isimlərə keçidini (məs., *wellington, newton*) aid edirlər (Huddleston & Pullum, 2002). Belə ki, dilçilikdə qeyd etdiyimiz major və minor konversiya tiplərindən başqa ikinci dərəcəli konversiya hallarının mövcud olması da qeyd edilir. Bir çox dilçi konversiya hadisəsini sözyaratmadan daha çox sintaktik proses kimi təhlil edir (Bauer, 1983; Don & van Lier, 2007; Farrell, 2001). Konversiya hadisəsinə bu sintaktik yanaşmaya əsasən dil vahidi nitq hissəsini dəyişmədən eyni bir söz sinfi daxilində kateqoriya dəyişikliyinə məruz qalır. Buna misal olaraq sayılmayan və sayılan isimlər (*tea – three teas*), xüsusi və ümumi isimlər (*Bob – Which Bob does she mean?*), təsirsiz və təsirli feillər (*to run – She is running a horse*) arasında olan çevrilmələri göstərmək olar. Belə bir nəticəyə gəlmək olar ki, bu nümunələrdəki keçid halı bir nitq hissəsi daxilində olduğundan dilçilər konversiyanı morfoloji deyil, sintaktik proses hesab edirlər. Məhsuldarlıq cəhətdən isə birinci və üçüncü tip konversiya hallarına daha çox rast gəlindiyi halda, ikinci tip qeyri-formal dilə xasdır və geniş işlənmə dairəsinə malik deyil. Şübhəsiz,

bu daha çox minor konversiyada iştirak edən köməkçi sözlərin semantik mənaya malik olmaması ilə əlaqədardır, bu səbəbdən də dil istifadəçisi ona ünvanlanmış ifadənin mənasını anlamaqda çətinlik çəkir. Dilçilikdə konversiyaya olan sintaktik yanaşmanın əksinə olaraq tam və natamam konversiya hallarını araşdıran İ.Balteiro (2007) konversiyaya bənzəsə də yuxarıdakı keçidlərin heç birini yeni dil vahidi yaratmadığına görə konversiya adlandırmır.

Dilçilikdə konversiya hadisəsi ilə bağlı əsas mübahisəli məsələlərdən biri də onun dilçiliyin morfologiya, yoxsa sintaksis şöbəsinə aid olmasıdır. Bildiyimiz kimi, qrammatikanın bir qolu olan morfologiya məhz dildəki sözlər və onların quruluşunu öyrənir. Sintaksis isə morfologiyanın əksinə olaraq, tək sözləri deyil, onların müəyyən qayda ilə düzülməsindən yaranan söz birləşmələri və cümlələri tədqiq edir. Dilçilərin böyük əksəriyyəti belə hesab edir ki, eyni bir kontekstdə işlənən söz siniflərini ancaq digər sözlərlə münasibətdə, yəni sintaksislə fərqləndirmək olar. Nəticədə, sözün isim, feil, sifət və ya zərf olması onun nitqdə digər sözlərlə olan münasibəti ilə müəyyənləşir. Buna görə də konversiya hadisəsi sözün sintaktik transpozisiyasına aid olduğu üçün onu sintaksisə daxil etmək məqsədəuyğun hesab olunur. Ümumiyyətlə, dilçilikdə konversiya sintaksis, morfologiya və leksik semantikanın qovuşmasında götürülür. Konversiya, qeyd etdiyimiz kimi, sözün sintaktik transpozisiyası və funksional dəyişiklik mənasını ifadə edən termindir. Sözün sintaktik transpozisiyası isə sırf qrammatik məsələ olduğundan onun sözyaratma və derivasiya ilə əlaqəsi yoxdur. Nəticə etibarilə konversiya hər hansı dil vahidinin anlaşılmasında sintaktik istiqaməti əsas götürür (Bauer & Valera, 2005). Bir qrup dilçi isə konversiyanın linqvistika ilə əlaqəli olduğunu qeyd edir, onu mövcud sözü yeni söz sinfinə və ya sintaktik kateqoriyaya aid edən dil hadisəsi adlandırır (Quirk, Greenbaum, Leech & Svartvik, 1985). Eyni zamanda, dilçilər konversiyaya sözün formasında heç bir dəyişiklik etmədən yeni sözün yaradılmasına xidmət edən dil hadisəsi kimi baxırlar (Quirk, Greenbaum, 1987).

İngilis dilində bu dil hadisəsi leksika, qrammatika və sözyaratmanın qovşağında götürülsə də, german dilçiliyində konversiyaya yanaşmalar fərqlidir. Rus dilçisi A.İ.Smirnitski ilk dəfə bu dil hadisəsinə morfoloji aspektdən yanaşır. Bir qrup dilçi isə (R.Qinzburq, Y.Molhova və b.) konversiyanı funksional dəyişikliyin bir növü kimi qəbul edir. Funksional yanaşmaya görə bir söz bir neçə nitq hissəsinə aid ola bilər. İ.V.Arnold, Y.U.Jluktenko, O.D.Meşkov və başqa dilçilər isə konversiya hadisəsini morfoloji-sintaktik sözyaratma üsulu hesab edərək, dildəki sözün nəinki qrammatik kateqoriyalarında, həmçinin sintaktik funksiyasında da keçid olduğunu qeyd edirlər. T.N.Rastorquyeva konversiyanın orta əsrlərin sonlarında meydana gəlməsinə baxmayaraq, son dövrlərdə daha məhsuldar olduğuna görə sözyaratmanın yeni üsulu hesab edir (Orucova, 2018).

Tam və morfoloji transpozisiyanın ifadə vasitəsi olan konversiya sadə göründüyü qədər həm də mürəkkəb bir prosesdir. Onunla bağlı dilçilik ədəbiyyatında mövcud olan mübahisəli məqamlardan bir digəri konversiya nəticəsində yaranmış sözlə ilkin sözün arasındakı münasibətdir, yəni hansı sözdən hansı sözə keçid baş verir. Bu problemin həlli istiqamətində H.Marçand (1972: 242-252) hansı sözün ilkin, hansının törəmə olduğunu müəyyənləşdirən bir neçə aspekti irəli sürür. O, buraya semantik asılılıq (mənasını digər sözün mənasından alan söz konversiya olunmuş sözdür), sözün işlənmə dairəsi (daha az istifadə diapazonu olan söz konversiya olunmuş sözdür), sözün semantik çalarlığı (daha az semantik sahələrdə istifadə edilən söz konversiya olunmuş elementdir), fonetik formanı (bəzi şəkilçilər əşyanın aid olduğu söz sinfini ifadə edir, əgər bu belə deyilsə, demək o konversiya zamanı yaranan törəmə sözdür) aid edir. V.Adams (2001) konversiya ilə bağlı istiqamət probleminin həlli üçün üç kriteriyanın (məna, işlənmə tezliyi və sözün etimologiyasının) vacibliyini qeyd edir. İ.Plaq (2003) isə qeyd edir ki, konversiyanın istiqaməti məsələsində sözün semantikasına, onun fleksion təbiətinə, vurğunun yerdəyişməsi və sözün işlənmə tezliyinə baxmaq lazımdır. Fikrimizcə, bütün bu aspektləri nəzərə alaraq, konversiya prosesindəki söz cütlüklərinin istiqamətini müəyyənləşdirmək daha rahatdır. Ancaq məsələyə deskriptiv yanaşmaya görə məna kriteriyası daha

böyük rola malikdir (Huddleston & Pullum, 2002). Belə ki, konversiyada iştirak edən cütlüklərdən daha çox məna çalarına malik olan söz konversiyaya uğrayan tərəf, sözün semantik sahələrindən yalnız birini özündə ehtiva edən söz isə konversiya edilmiş tərəf hesab olunur.

**Ədəbiyyat:**


1. Adams, V. (1973). An Introduction to English Word-Formation. London: Longman.
2. Adams, V. (2001). Complex Words in English. Longman, Harlow.
3. Balteiro, I. (2007). A Contribution to the Study of Conversion in English. Münster: Waxman
4. Bauer, L. (1983). English Word-Formation. Cambridge: Cambridge University Press.
5. Bauer, L.& Valera, S. (2005). Approaches to Conversion/Zero-Derivation. Münster: Waxman
6. Booij, G.E. (2005). The Grammar of Words. An Introduction to Linguistic Morphology. New York: Oxford Univ. Press Inc.
7. Cetnarowska, B. (1993). The Syntax, Semantics and Derivation of Base Nominalization in English, Katowice: Uniwersytet Slaski.
8. Don, J. (2005). On Conversion, Relisting and Zero-Derivation. SKASE, Journal of Theoretical Linguistics 2, 2-16
9. Don, J., van Lier, E. (2007). ‘On the lack of word-class distinction: flexibility and conversion’ paper presented at the Workshop on Flexible Languages April 20, University of Amsterdam.
10. Farell, P. (2001). Functional Shift as Category Underspecification. English Language and Linguistics 5(1), 109-130
11. Huddleston, R. & Pullum, G.K. (2002). The Cambridge Grammar of the English Language. Cambridge: Cambridge University Press
12. Katamba, F. (1993). Morphology. MacMillan, London.
13. Kiparsky, P. (1997). ‘Remarks on denominal verbs’ in Alsina, A., Bresnan, J., Sells, P. (eds.), Argument Structure. CSLI, Stanford, 473-499
14. Lieber, R. (2004). Morphology and Lexical Semantics. University of Cambridge Press: Cambridge.
15. Marchand, H. (1969). Categories and types of Present-Day English Word-Formation. München: Beck.
16. Marchand, H. (1972). Studies in Syntax and Word-Formation. München: Wilhem Fink.
17. Martsa, S. (2007) ‘Construction of meaning during conversion’ paper presented at the 8th Conference of Hungarian Society for the Study of English, University of Szeged.
18. Neef, M. (2005). ‘On some Alleged Constraints on Conversion’ in Laurie Bauer and Salvador Valera (eds.), Approaches to Conversion/Zero-Derivation. Münster: Waxman, 103-130
19. Orucova, S. (2018). Dildə konversiya hadisəsi. Bakı: Elm və Təhsil.
20. Plag, I. (2003). Word-formation in English. Cambridge: Cambridge University Press
21. Quirk, R. & Greenbaum, S. (1987). A University Grammar of English. London: Longman.
22. Quirk, R., Greenbaum, S., Leech, G., and Svartvik, J. (1985). A Comprehensive Grammar of the English Language. London & New York: Longman.
23. Sanders, G. (1988). ‘Zero Derivation and the Overt Analogue Criterion’ in Hammond and Noonon (eds.), Theoretical Morphology. San Diego and London: Academic Press, 155-175.
24. Velasco, D.G. (2009). Conversion in English and its Implication for Functional Discourse Grammar. Lingua 119, 1164-1185.
25. William O’Grady & Guzman, V. (1997). Morphology: the Analysis of Word Structure. Contemporary Linguistics. An Introduction, London & New York: Longman. 132-180.

26. Yule, G. (2002). The Study of Language. Cambridge: Cambridge University Press.

## XX ƏSRİN 20-50-Cİ İLLƏRİNDƏ POEZİYAMIZDA ROMANTİKA

**Həsənova Leyla Ziyafət**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
**https://orcid.org/0009-0006-9057-9205**
**leylamuzi@gmail.com**

## ROMANTICISM IN OUR POETRY IN THE 1920s-1950s

**Hasanova Leyla Ziyafat**
**Azerbaijan State Pedagogical University**
**https://orcid.org/0009-0006-9057-9205**
**leylamuzi@gmail.com**

**Summary**

Romanticism, which entered the history of world literature as a literary phenomenon, was formed as a trend in our national literature at the beginning of the 20th century. In the 1920s and 1950s, romanticism manifested itself not as a trend in our literature, but rather as a tradition. No matter how much our writers who wrote and created in this period were forced to serve the Soviet ideology, romanticism found its place in their works to one degree or another. National consciousness, public and national freedom, Turkism, language, etc. were the main elements of romanticism in Azerbaijani poetry during this period such problems. The main goal of this report is to provide a literary review of romance in the realist poetry of the 20s-50s in Azerbaijani literature.

**Keywords:** literature, romance, poetry, romantic trend.

## РОМАНТИКА В НАШЕЙ ПОЭЗИИ 1920-1950-х гг.

**Гасанова Лейла Зияфат**
**Азербайджанский Педагогический Университет**
**https://orcid.org/0009-0006-9057-9205**
**leylamuzi@gmail.com**

**Резюме**

Романтизм, вошедший в историю мировой литературы как литературное явление, сформировался как течение в нашей национальной литературе в начале XX века. В 1920-е и 1950-е годы романтизм проявился не как течение в нашей литературе, а как традиция. Как бы наши писатели, писавшие и творившие в этот период, не были вынуждены служить советской идеологии, романтика нашла свое место в их произведениях в той или иной степени. Национальное самосознание, общественная и национальная свобода, тюркизм, язык и т. д. были основными элементами романтизма в азербайджанской поэзии этого периода. такие проблемы. Основная цель данного доклада - дать литературоведческий обзор романтики в реалистической поэзии 20-50-х годов в азербайджанской литературе.

**Ключевые слова:** литература, романс, поэзия, романтическое течение.

XX əsr Azərbaycan tarixində yeni bir dövrü təmsil edir. 1920-ci il 28 aprel tarixində sovetlərin hakimiyyətə gəlməsi ilə Azərbaycanda Sovet Sosialist Respublikasının hökmranlıq dövrü başlanır. Həmin dövrdə ölkəmizdə bir çox sahələrlə yanaşı milli ədəbiyyatımız da ciddi təzyiqlərə məruz qalır. Bu dövrdə yaşayıb yaradan yazıçılarımız dövrün hakim orqanları tərəfindən sovet hakimiyyətinə, onların siyasi məqsədlərinə xidmət edən əsərlər yazmağa məcbur edilir, yazılan ədəbi nümunələr çox ciddi senzuralara məruz qalır və romantizm bir cərəyan olaraq ədəbiyyatımızdan silinməyə çalışılırdı. Lakin bütün bu təzyiqlərə, siyasi təqiblərə baxmayaraq 20-50-ci illərdə poeziyamızda romantika özünü müxtəlif şəkillərdə büruzə verirdi. Bu dövrdə biz romantizmdən bir cərəyan olaraq yox, daha çox ənənə olaraq söz açmağı daha məqsədəuyğun görürük. Həmin dövrdə poeziyamızda realist poeziya öz yerini möhkəmləndirsə də, eyni zamanda, romantika mövzulu əsərlər də az deyildi. Ümumiyyətlə, İsa Həbibbəyliyə görə, Azərbaycan romantik lirikası öz ənənələri ilə sonrakı dövrün ədəbi prosesinə fəal müdaxilə etmiş, sovet dövrü şeirinin inkişafına müsbət təsir göstərmişdir. Azərbaycan romantizminin ərsəyə gətirib hazırladığı poetik ənənələr sonrakı dövr poeziyanın orijinal ideya-bədii keyfiyyətləri ilə qaynayıb-qarışmışdır. S.Vurğun, M.Müşfiq, R.Rza, S.Rüstəm, M.Rahim, O.Sarıvəlli, B.Vahabzadə, N.Xəzri və başqaları romantik şeir xəzinəsindən yaradıcı şəkildə faydalana bilmişlər [5, 154].

20-50-ci illər şeirinin mövzuları müxtəlif və zəngin olduğu kimi, onun nümayəndələrinin də çoxçeşidli üsluba, yazı tərzinə malik olduğu nəzərə alınmalı, onların hər birinin romantik baxışları, milliliyi, ifadə vasitələrinin zənginliyi ayrı-ayrılıqda dəyərləndirilməlidir. Bu dövrün görkəmli yazıçılarından S.Vurğun, M.Müşfiq, Ə.Cavad, A.İldırım, A.Şaiq və başqa sənətkarlarımızın yaradıcılığını tədqiqata cəlb edərkən şahidi oluruq ki, həmin dövrdə poeziyamızda romantizmin əsas qayəsini milli şüur, ictimai və milli azadlıq, türkçülük, dil və s. kimi problemlər təşkil edir.

Əhməd Cavadın “Göy-göl”, “Kür”, Mikayıl Müşfiqin “Yaşa könül”, “Küsmərəm”, “Yenə o bağ olaydı”, “Məhəbbət”, “Söylə”, “Ürək” və s., S.Vurğunun “Bahar və mən”, “Şair nə tez qocaldın sən?!”, “Məhəbbət ilhama çağırır məni”, “Düşüncələr”, “Xəyal”, “Ala gözlər” və başqa bir çox şeirlər deyilənləri təsdiq etməyə kifayət edir.

Aşağıdakı poetik nümunəyə diqqət yetirək:

Yenə qılıncını çəkdi üstümə,
Qurbanı olduğum o ala gözlər.
Yenə cəllad olub durdu qəsdimə,
Qələm qaş altından piyalə gözlər.
Sevda yolçusuyam əzəl yaşımdan,
Könlüm ayrı gəzir can sirdaşımdan
Dağıdır huşumu alır başımdan,
Süzülüb gedəndə xəyala gözlər.
Mənim sevgilimdir o gözəl pəri,
Qoy üzə vurmasın keçən günləri,
Mən qədirbilənəm əzəldən bəri,
Sizinlə yetmişəm kamala gözlər. [9, 44]

Bu, misraların Səməd Vurğunun coşub-daşan romantikasından, eləcə də romantizm ədəbi cərəyanının görkəmli nümayəndələrinin yaradıcılığından ilhamlanaraq ərsəyə gəldiyi heç bir şübhə doğurmur. Şair öz duyğularını şeirində romantik bir üslubla dilə gətirməkdən çəkinmir, hətta çox vaxt özü şeirin əsas personajına çevrilir. Şairin qələmindən çıxan başqa bir nümunəyə nəzər salaq:

Sevgilim, qolunu boynuma dola!
Demə ki, yorğunam, ya qocalmışam.
Mən hələ dünyadan nə zövq almışam?

Dur, bütün aləmi gəzək qol-qola!
Sellərdən, sulardan yeyin axsam da,
Şimşəklə yanaşı göydə çaxsam da,
Nə şadlıq səyirtsin atını, nə qəm,
Heç yana, heç yerə mən tələsmirəm! [9, 125]

Göründüyü kimi, şair az qala hər şeirində öz romantikasını poetik bir dillə ifadə edir. Bu romantika bəzən özünü bir sevgiliyə müraciətdə, bəzən təbiətin tərənnümündə, bəzən də həyat eşqində inikas etdirir.

Azərbaycan ədəbiyyatının, poeziyasının digər bir görkəmli nümayəndəsi olan Mikayıl Müşfiqin yaradıcılığında isə romantikanı axtarmağa demək olar ki, ehtiyac yoxdur. Çünki onun bəlkə də, bütün şeirlərində bu romantika öz yerini bu və ya digər dərəcədə alıb:

Oxu, sevdiciyim, öz həvəsinlə!
İlham qanadlanar sənin səsinlə,
Nəğməndə oynasın sellərin səsi
Dan yerindən əsən yellərin səsi,
Gülləri qoxlayan bir rüzgar kimi,
Qumları oxşayan dalğalar kimi,
Titrəyən, çağlayan nəğmən olaydım.
Ürəyindən qopan səs mən olaydım.
Oxu! Qüvvət gəlsin şeirə, sənətə
Könlümün quşunu gətir heyrətə!
Ürək kövrəkləşir sən oxuyanda
Sən də dinləsəydin mən oxuyanda. [7, 166]

**Ədəbiyyat:**


1. Abdullayev C. Səməd Vurğunun poetikası. Bakı: Gənclik, 1976, 158 s.
2. Azərbaycan sovet ədəbiyyatının poetika məsələləri. Bakı: BDU nəşri, 1986, 92 s.
3. Əfəndiyev T. Sənət və səmimiyyət – I yazı. Fəlsəfi-estetik mülahizələr. https://wap.525.az/name=wapxeber&news
4. Əliyeva A. Azərbaycan romantiklərinin yaradıcılığında türkçülük. Bakı: Elm, 2002, 332 s.
5. Həbibbəyli İ. Romantik lirikanın imkanları. Bakı: Yazıçı, 1984, 164 s.
6. Qarayev Y. Romantikaya yeni baxış. Bakı, "Ədəbiyyat və incəsənət" qəzeti, 1976, 1 avqust.
7. Müşfiq M. Seçilmiş əsərləri. Bakı: Avrasiya press, 2008, 248 s.
8. Şəmsizadə N. Azərbaycan ədəbiyyatşünaslığı. Bakı: Ozan, 1997, 292 s.
9. Vurğun S. Lirika. Bakı: Azərnəşr, 1957, 393 s.

# ANAR YARADICILIĞINDA POETİK ONOMASTİKA

**Babayeva Püstəxanım Tədbir**
**Bakı Slavyan Universiteti**
**https://orcid.org/0009-0005-5962-5974**
**Pbabayeva93@gmail.com**

# POETIC ONOMASTICS IN THE CREATION OF ANAR

**Babayeva Pustakhanim Tadbir**
**Baku Slavic University**
**https://orcid.org/0009-0005-5962-5974**
**Pbabayeva93@gmail.com**

**Summary**

In the article, the poetic onomastics included in Anar's work were studied. The dynamics of filling the onomastic space with necessary poetonyms in his works is characteristic only for the first stage. In the process of the author's work on the artistic work, it is allowed to freely change poemonyms, to change their functions in the context of the work. This can be explained by the subjective motives of artistic creativity. Anar's artistic works contain interesting materials reflecting the complex development of the plot and the process of creating artistic images in their initial versions.

When analyzing the anthroponymy of Anar's works, it is possible to propose a different classification of the names of literary heroes, taking into account the role of style in the artistic work. Poetonyms can be classified by taking into account their role in figurative features in the analysis of poetic anthroponyms.

**Keywords:** poetic onomastics, Anar, research, artistic, text

# ПОЭТИЧЕСКАЯ ОНОМАСТИКА В ТВОРЧЕСТВЕ АНАРА

**Бабаева Пустаханым Тадбир**
**Бакинский Славянский Университет**
**https://orcid.org/0009-0005-5962-5974**
**Pbabayeva93@gmail.com**

**Резюме**

В статье изучена поэтическая ономастика, включенная в творчество Анара. Динамика заполнения ономастического пространства необходимыми поэтонимами в его произведениях характерна только для первого этапа. В процессе авторской работы над художественным произведением допускается свободное изменение поэмонимов, изменение их функций в контексте произведения. Это можно объяснить субъективными мотивами художественного творчества. Художественные произведения Анара содержат интересные материалы, отражающие сложное развитие сюжета и процесс создания художественных образов в их исходных вариантах.

При анализе антропонимии произведений Анара можно предложить иную классификацию имен литературных героев, учитывающую роль стиля в художественном произведении. Поэтонимы можно классифицировать, учитывая их роль в образных признаках при анализе поэтических антропонимов.

**Ключевые слова:** поэтическая ономастика, Анар, исследование, художественный, текст.

Son dövrdə Azərbaycanda poetik onomastikanın yaranması, aparılan tədqiqat işlərinin xarakterik cəhətləri, istifadə edilən üsul və metodların müəyyənləşdirilməsi, kəmiyyət və keyfiyyətcə inkişafı, təkamülü və digər məsələlərə maraqlı elmi münasibət bildirilmiş, onomastik vahidlərin qorunub saxlandığı bir çox mənbələr diqqətə çatdırılmışdır.

Bədii mətnlərin poetonimlərinin təhlili zamanı dilçiliyin, ədəbiyyatşünaslığın, sosiologiyanın, tarixin, psixologiyanın və digər elm sahələrinin metodoloji metodlarına gedib çıxan üsullardan istifadə olunur. Belə birləşmiş təbəqələşmə poetik onomastikanın özünəməxsusluğu ilə müəyyən edilir. Onomastik tədqiqat obyektinin mürəkkəb xarakteri ayrı-ayrı adların təcrid olunmuş şəkildə nəzərdən keçirilməsini istisna edir və onların öyrənilməsi üçün ilkin şərt kimi mövcud sistemlərin formalaşmasına bu və ya digər şəkildə təsir edən müxtəlif amillərin nəzərə alınmasını, dil və ayrı-ayrı ad növlərinin ekstralinqvistik əlaqələri, onim tiplərin bir-biri ilə və apelyativ lüğətlə əlaqələri. Bu tələb bədii ədəbiyyatda fəaliyyət xüsusiyyətlərini nəzərə almaqla poetonimlərə tam şamil edilir.

Bədii mətnlərin poetonimlərinin təhlili zamanı dilçiliyin, ədəbiyyatşünaslığın, sosiologiyanın, tarixin, psixologiyanın və digər elm sahələrinin metodoloji metodlarına gedib çıxan üsullardan istifadə olunur. Belə birləşmiş təbəqələşmə poetik onomastikanın özünəməxsusluğu ilə müəyyən edilir. Onomastik tədqiqat obyektinin mürəkkəb və mürəkkəb xarakteri ayrı-ayrı adların təcrid olunmuş şəkildə nəzərdən keçirilməsini istisna edir və onların öyrənilməsi üçün ilkin şərt kimi mövcud sistemlərin formalaşmasına bu və ya digər şəkildə təsir edən müxtəlif amillərin nəzərə alınmasını, dil və ayrı-ayrı ad növlərinin ekstralinqvistik əlaqələri, onim tiplərin bir-biri ilə və apelyativ lüğətlə əlaqələri. Bu tələb bədii ədəbiyyatda fəaliyyət xüsusiyyətlərini nəzərə almaqla poetonimlərə tam şamil edilir.

Üslub funksiyasını nəzərə alsaq, poetonimlər nitq səviyyəsində xüsusi adlara çox yaxındır. Onlara ensiklopedik məlumat verilir ki, bu da xüsusi adın denotasiyası haqqında ekstraverbal məlumatdır. Eyni zamanda nitq məlumatı adla onun daşıyıcısı, denotatın sosial sahəsi ilə onun adı arasında əlaqə qurur, danışanın adı çəkilənlə münasibətini açır. Beləliklə, poetonimlərin mənalılığı üslub funksiyalarını ifadə etməklə, eyni zamanda adın nitqini, ensiklopedik və linqvistik informativliyini tabe etdikdə təzahür edir ki, bu da onların mənasından danışmağa əsas verir.

"Bədii obrazların yaradılmasında poetonimlərin funksiyalarının təhlili obyektiv olaraq dil və ədəbi üsulların vəhdətini təmin edir. Poetonimlərin təhlilinə linqvistik yanaşma poetonimlərin bədii mətnin strukturu ilə qarşılıqlı əlaqəsi problemini ön plana çıxarır." (5, s.16) Bu, bütün poetonimlərin dildə və nitqdə konkret leksik vahidlər kimi nəzərə alınmasını təmin edir.

İstənilən poetonim bədii mətnin bədii əsərin bütövlüyünü təşkil edən digər elementləri ilə ayrılmaz şəkildə bağlıdır. Poetonimləri ədəbi mətnə təsadüfən daxil etmək olmaz. Sənət əsərinin ümumi memarlığı və məzmunu ilə birlikdə üzvi şəkildə böyüyürlər.

Tədricən poetik onomastika artıq poetonimlərin sintezinə əsaslanaraq öz poetonimləri təhlil etmək üsullarını formalaşdırmağa başladı. "Bədii obrazlar yaradılarkən poetonimlərin semantik ifadəsinin, simvolikasının və fonetik görünüşünün təhlili üslubşünaslığın tələbləri ilə iç-içə olan semasiologiya, leksikologiya, fonetika, söz yaradıcılığı bilikləri nəzərə alınmaqla aparılır. Poetonimlərin təhlilində onların semantik-üslubi funksiyası üstünlük təşkil edir". (6, s.96)

Anarın bədii nərsinin onomastik məkanı yazıçının müraciət etdiyi onomastik sistemi ən dolğun şəkildə təmsil etməyə imkan verir, müəyyən bir bədii mətndə poetonimlərin mürəkkəb münasibətlərini, onların formalaşmasını, inkişafını və fəaliyyətini nəzərə almaqla göstərməyə imkan verir.

"Yazıçının əsərlərində özləri ayrı-ayrılıqda müstəqil tədqiqat obyekti ola bilən poetik antroponimlərin, toponimlərin, zoonimlərin və digər onimlərin bədii mətnlərdə fəaliyyət göstərməsi onları ümumi tərkib hissəsi kimi müstəqil onomastik sahələrə birləşdirməyə əsas verir." (7, s.81) Müəyyən semantik sahəyə daxil olan poetonimlər bədii əsərin vahid onomastik məkanı hüdudları daxilində başqa onomastik

sahələrə aid poetonimlərlə müəyyən ifadə-məntiqi əlaqə saxlamaqla, öz xüsusiyyətlərini daha konkret şəkildə ortaya qoyur.

Anarın bədii nəsrinin onomastik məkanının xüsusiyyətlərinin müəyyən edilməsində kəmiyyət göstəricisi ilkin rol oynamır. "Onomastik məkan vahidlərinin sayının bədii mətnin ölçüsündən mütləq asılılığı yoxdur. Poetonimlərin sayı bir çox hallarda bədii əsərin məqsəd və vəzifələri ilə şərtlənir". (4, s.87)

Bədii əsərdə onomastik məkan digər onimlərə keçilməzliyi ilə xarakterizə olunur. "Poetik onomastika məkanı ilə milli onomastika məkanı arasındakı əsas fərq də budur. Sonuncu keyfiyyət dəyişikliyinə çevrilə bilən kəmiyyət dinamikası ilə xarakterizə olunur". (3, s. 67)

Bədii əsərin onomastik məkanına onların milli onomastikada aktiv və ya passiv fəaliyyət göstərməsi nəzərə alınmadan müxtəlif poetonimlər daxil ola bilər.

Bədii əsərin adının funksiyası onun konkret onomastik sahəyə daxil olan başqa bir poetonim vasitəsilə ifadə edildiyi hallarda güclənir: antroponimlər. ("Ağ liman", "Ağ qoç, qara qoç"). (1) (2)

Poetik onomastikanın mühüm xüsusiyyətlərindən biri sistemli münasibətlərin sabitliyinə təsir göstərir: onun milli onomastika ilə bağlı ikinci dərəcəli xarakteri. Bu prinsip hətta ən qeyri-real hadisələri, əsasən də fantastik əsərlərə xas olan hadisələri təsvir edərkən belə, bədii mətnə məqbul etimad qazandırmağa kömək edir.

Məqalədə empirik faktlar və onların nəzəri izahı əsas rol oynayır.

Bədii mətnin başqa dillərə tərcüməsi zamanı ədəbi əsərin onomastik məkanı öz xarakterik xüsusiyyətlərini saxlayır. Adətən belə hallarda orijinalın poetonimləri dəyişməz qalır. Yalnız o poetonimləri tərcümə etmək olar ki, onların birbaşa xarici dildə ötürülməsi obrazın bədii qavrayışını zəiflədə bilər. Əsasən, ləqəblər və "danışan" adlar Kök Adam, Topal və s. kimi tərcümə olunur.

Burada dominant rol bədii mətnin strukturunda onomastik məkanın təşkilatçısı rolunu oynayan poetonimlərin sistem-obrazlı münasibətlərinə aiddir. Ardıcıllıq bədii əsərin konkret onomastik məkanında poetonimlərin seçilmə motivlərini müəyyən etməyə, eləcə də onların üslub imkanlarını təsvir etməyə və üzə çıxarmağa imkan verir.

**Ədəbiyyat:**


1. Anar. Seçilmiş əsərləri. Bakı, Lider nəşriyyat, 2004, 416 s.
2. Anar. Əsərlər. I cild, Nurlan, Bakı, 2003, 578 s.
3. Adilov M. (1987) Azərbaycan onomastikası, Bakı: ADU, 88 s.
4. Əliyeva D.T. (2012) Onomastik vahidlərin üslubi imkanları, Bakı, Mütərcim, 90 s.
5. Qurbanov A.M. (2004, c.1.) Azərbaycan onomalogiyasının əsasları: [2 cilddə] Bakı: Nurlan, 340 s.
6. Qurbanov A.M. (2004, c.2.) Azərbaycan onomalogiyasının əsasları: [2 cilddə] Bakı: Nurlan, 504 s.
7. Qurbanova F. (2001)Antroponimiyanın nəzəri məsələlərinə dair (Altay dilləri materialları əsasında), Bakı: Elm, 136 s.

# İNGİLİS DİLLİ KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN (KİV) DİSKURSUNDA FRAZEOLOJİ VAHİDLƏRİN AKTUALLAŞMASI

**Kərimova Nərgiz Elçin**
**Xəzər Universiteti**
https://orcid.org/0000-0001-7360-3951
nargiz.karimova@mdu.edu.az

# ACTUALIZATION OF PHRASEOLOGICAL UNITS IN THE DISCOURSE OF THE ENGLISH-LANGUAGE MASS MEDIA

**Kerimova Nargiz Elchin**
**Khazar University**
https://orcid.org/0000-0001-7360-3951
nargiz.karimova@mdu.edu.az

**Summary**

The article is based on the features of the transformation of phraseological units in the English-language Mass Media. The main aim of the article is to explore actualization of Phraseological Units in the Discourse of the English-Language Mass Media. Currently, research into different aspects of the language of the Mass Media is becoming increasingly relevant. In the conditions of the information market, fierce competition, and the struggle for the reader, the media strive to present information in the most vivid and memorable way. This entails a combination of linguistic expression and standard, which manifests itself differently in different newspaper genres. Journalists use various expressive and visual means, among which phraseological units (PU) cover a particularspace. The usage of phraseological units and their transformations in English-language newspapers is a convenient and effective way of attracting reader's attention to the publication. Research was conducted on methods of analysis and comparison. Application importance of the article: the material can be used in lectures and seminars in Higher Education Institutions. Stakeholders who are interested in linguistics, Mass Media can benefit from this article as well.

**Key words:** phraseological units, discourse, English mass media, actualization.

# АКТУАЛИЗАЦИЯ ФРАЗЕОЛОГИЧЕСКИХ ЕДИНИЦ В ДИСКУРСЕ АНГЛОЯЗЫЧНЫХ СМИ

**Керимова Наргиз Эльчин**
**Университет Хазар**
https://orcid.org/0000-0001-7360-3951
nargiz.karimova@mdu.edu.az

**Резюме**

Статья основана на особенностях трансформации фразеологизмов в англоязычных СМИ. Основная цель статьи - исследовать актуализацию фразеологических единиц в дискурсе англоязычных СМИ. В настоящее время все более актуальными становятся исследования различных аспектов языка СМИ. В условиях информационного рынка, жесткой конкуренции и борьбы за читателя СМИ стремятся подать информацию максимально ярко и запоминающимся образом. Это влечет за собой сочетание языкового выражения и стандарта, которое по-разному проявляется в разных газетных жанрах. Журналисты используют различные выразительные и изобразительные средства, среди которых фразеологизмы (ФЕ) охватывают то или иное пространство. Использование фразеологизмов и их трансформаций в англоязычных газетах является удобным

и эффективным способом привлечения внимания читателя к публикации. Исследования проводились по методам анализа и сравнения. Прикладная значимость статьи: материал может быть использован на лекциях и семинарах в ВУЗах. Эта статья также может быть полезна заинтересованным сторонам, интересующимся лингвистикой и средствами массовой информации.

**Ключевые слова:** фразеологические единицы, дискурс, англоязычная масс-медиа, актуализация

Son zamanlar mətbuat dilinin müxtəlif aspektlərinin araşdırılması getdikcə aktuallaşır. KİV, bildiyiniz kimi, dünyada baş verən hadisələri operativ işıqlandıran, ictimai rəyin formalaşmasında fəal iştirak edən ən əlçatan informasiya mənbəyidir. İnformasiya bazarı, şiddətli rəqabət, oxucu uğrunda mübarizə şəraitində media informasiyanı ən canlı və yaddaqalan şəkildə təqdim etməyə çalışır. Bu, müxtəlif qəzet janrlarında fərqli şəkildə özünü göstərən linqvistik ifadə və standartın birləşməsini nəzərdə tutur. Jurnalistlər müxtəlif ifadəli və vizual vasitələrdən istifadə edirlər ki, onların arasında frazeoloji vahidlər (FV) xüsusi yer tutur. İngilisdilli qəzetlərdə frazeoloji vahidlərin istifadəsi və onların çevrilməsi oxucunun diqqətini nəşrə cəlb etmək üçün əlverişli və effektiv üsullardan biridir.

Tədqiqat obyektinin seçimi müasir dilçiliyin dil hadisələrinin kommunikativ və praqmatik xüsusiyyətlərinin öyrənilməsinə yönəlmiş ümumi tendensiyası ilə müəyyən edilir. Qəzetdə, KİV-də mətnlərin praqmatik funksiyalarının həyata keçirilməsinin ən mühüm şərti onun ifadəliliyi olduğundan, sonradan transformasiya olunmuş frazeoloji vahidlər (TFV) ifadə mənbəyi və qəzet dilinin konstruktiv-üslubi xüsusiyyətlərini həyata keçirmə üsulu kimi xüsusi araşdırma tələb edir.

Qəzet nitqinin spesifikliyi haqqında da qeyd etmək zəruridir. İlk növbədə, onun xüsusi və məqsədyönlü ifadəliliyində və qiymətləndiriciliyindədir ki, buna nail olmaq vasitələrindən biri də frazeoloji vahidlərin çevrilməsidir. Frazeoloji vahidlərin əsas xüsusiyyəti komponentlərin dayanıqlığı və hazır formada təkrar oluna bilməsi olsa da, qəzetdə əksinə, semantikada bu və ya digər dəyişikliyə və ya frazeoloji vahidlərin strukturunun yenilənməsinə meyil müşahidə olunur. Frazeoloji vahidlərin ifadə imkanlarını genişləndirmək, funksional və üslubi əhəmiyyətini gücləndirmək və onları "nitqin vəzifələrinə daha da uyğunlaşdırmaq, yaradıcı niyyətlərinə uyğun çevirmək" məqsədilə jurnalistlər təsadüfi transformasiyanın müxtəlif üsullarından istifadə edirlər (Tretyakova İ., 2015).

Alim B.İ. Labinskaya frazeoloji vahidlərdə təsadüfi dəyişiklikləri ifadə etmək üçün "modifikasiya" terminindən istifadə edir. Modifikasiya ilə o, mahiyyəti ənənəvi frazeoloji vahidlərin semantikasının və strukturunun məqsədyönlü şəkildə yenilənməsi olan üslubi bir vasitəni başa düşür (Labinska B., 2006).

B.İ.Labinskayanın fikrincə ayrı-ayrılıqda formalaşan və strukturun keçiriciliyi ilə xarakterizə olunan frazeoloji vahidlərin spesifikliyi təkcə dillə yeni münasibətlərin və əlaqələrin formalaşması yolu ilə deyil, onları əhatə edən vahidlər, həm də sabit dövriyyələrin formalarının modifikasiyası yolu ilə müxtəlif struktur-semantik, leksik və semantik dəyişikliklərin mümkünlüyünü təmin edir. Təsvirin bütövlüyü və frazeoloji vahidin ayrıca forması onun tərkib hissələrinin bir-birini əvəz etməsini və eyni zamanda, dəyişkənliyi ilə frazeoloji vahidlərin semantik sabitliyini təmin edir. Bu xüsusiyyətlər sayəsində dildə artıq mövcud olan frazeoloji vahidləri transformasiya etmək və çevrilmiş frazeoloji vahidləri tanımaq mümkün olur.

Tədqiqatçılar frazeoloji vahidlərin modifikasiyasının üstünlüklərinə işarə edərək, onların təsadüfi həyata keçirilməsi potensialı kimi frazeoloji vahidlərin modifikasiya mexanizmlərinin dil sistemində mövcud olduğunu vurğulayırlar. Buna görə də, modifikasiyalar frazeoloji vahidlərdən istifadənin ümumi üsuludur ki, bu da onların ifadəliliyini potensial olaraq artırır və onların təbii xüsusiyyətlərindən biridir (Labinska B., 2006).

Qəzet mətnində TFV praqmatik funksiyanı yerinə yetirir. TFV-nin praqmatik funksiyasının növləri stilistik və qiymətləndirici funksiyalardır. Üslub funksiyası ifadənin ümumi məzmununu saxlamaqla üslub

effektinə nail olmaq üçün dil vasitələrinin neytral ifadə üsulu ilə müqayisədə xüsusi, istiqamətləndirilməsidir (Hüseynova T., 1997). Stilistik funksiya nitqdə frazeoloji vahidin konnotativ xüsusiyyətlərini həyata keçirir.

TFV-nin qiymətləndirici funksiyası dil vasitələri ilə açıq və ya dolayı şəkildə ifadə edilən bir insanın obyektə obyektiv-subyektiv və ya subyektiv-obyektiv münasibətidir (Kunin A., 2004). Frazeoloji vahidlərin ən azı bir komponenti qiymətləndirici və ya daxili forması qiymətləndirici olduqda qiymətləndirmə açıq şəkildə ifadə edilir. Frazeoloji vahidlərdə bircə dənə də olsa qiymətləndirici komponent yoxdursa, lakin onların canlı və ya silinmiş daxili forması qiymətləndiricidirsə, onda qiymətləndirmə gizli (dolayı) olur. Qeyd etmək lazımdır ki, hələ də frazeoloji vahidlərin çevrilmələrinin\transformasiyasının vahid ümumi qəbul edilmiş təsnifatı yoxdur və bu və ya digər çevrilmə\transformasiya üsulları arasındakı sərhədlər şərtidir.

A.V.Kunin formal (qeyri-törəmə) və müvafiq törəmə modifikasiyaları ayırır. (Kunin A., 2019). B.İ. Labinskaya tipologiyasında struktur və semantik dəyişikliklərin növlərini ayırd etmək meyarı əsas frazeoloji vahidin komponentlərinin sayının qorunması və ya dəyişdirilməsidir (Labinska B., 2006). Labinskaya aşağıdakıları fərqləndirir: 1) leksik modifikasiyaları fərqləndirir, bunlardan ən çox yayılanı frazeoloji vahidlərin komponent tərkibinin genişləndirilməsi, frazeoloji vahidlərin əvəzlənməsi, reduksiya (ellips), frazeoloji çirklənmə; 2) *semantik modifikasiyaları (dəyişiklikləri)*, frazeoloji vahidlərin xüsusi kontekst şəraitində aktuallaşması nəticəsində yaranan semantik dəyişikliklər.

N.V. Malışeva (Malışeva N.V., 2008) və onun yolu ilə gələn N.S. Kuqultinova özündə ikiqat semantikliyi daşıyan semantik transformasiyaları, sintaktik inversiya, frazeoloji vahidlərin genişlənməsini ayırmışdır. Struktur-semantik çevrilmələr\transformasiya altında tədqiqatçılar "frazeoloji vahidin həm daxili, həm də xarici tərəfinə" təsir edən dəyişiklikləri başa düşürlər (Kuqultinova N., 2019).

Beləliklə, məqalə İ.İ.Qumenyuk tərəfindən təklif olunan frazeoloji vahidlərin çevrilmələrinin\ transformasiyası təsnifatı əsasında KİV-də geniş istifadə olunan və funksional xüsusiyyətlərə malik üç transformasiya ilə tamamlanmışdır.

**Ədəbiyyat**:


1. Tretyakova İ.Yu. (2015). Siyasi diskursda frazeoloji vahidlərin təsadüfi dəyişiklikləri məsələsinə dair [Elektron resurs] // Humanitar elmlər. – № 2. 124-130 URL: https://e.lanbook.com/journal/issue/300720 (08.05.2019)

2. Labinska B.I. (2006). Müasir frazeologiya elmində struktur və semantik dəyişikliklərin dəyəri / B.I. Labinska // Humanitar bülleten. Ser. Xarici filologiya: koll. elmin Prospekt № 10: T 2. – Çerkassı: ChDTU, 313−316

3. Hüseynova T.S. (1997). Frazeoloji vahidlərin çevrilməsi qəzet ifadəsini həyata keçirmə üsulu kimi / T.S. Hüseynov. - Mahaçqala: Pravda,165 c.

4. Kunin A.V. (2005). Müasir ingilis dilinin frazeologiya kursu: Proc. in-s və fakt üçün. xaricidil / A.V. Kunin. – Dubna: Feniks+, 2005. 488 c.

5. Kunin A.V. (2019) İngilis frazeoloji vahidlərinin tərcüməsi haqqında [Elektron resurs] / A.V. Kunin. –URL: http://zhurnal.lib.ru/w/wagapow_a_s/transl-book-kunin.shtml (25.04.2019)

6. Malışeva N.V. (2008). Nitq fəaliyyətində və tərcümə təcrübəsində frazeoloji çevrilmələr (V. Vısotski və L. Filatovun əsərləri əsasında). Diss...fil. elm.nam. – Komsomolsk-on-Amur, 864 s.

7. Kuqultinova N.S. (2018). Qəzet mətnlərində frazeoloji vahidlərin çevrilməsi ("İzvestiya Kalmıkiya" qəzetinin nümunəsində [Elektron resurs] // Kalmık Universitetinin bülleteni.– № 1. 83-90. –URL: https://e.lanbook.com/journal/issue/307151.

# TƏRCÜMƏ EKVİVALENTLİYİNİN MÜRƏKKƏB TƏBİƏTİ HAQQINDA: FUNKSİONAL VƏ KONSEPTUAL EKVİVALENTLİK

**Salmanova Gültəkin Əzim**
**Azərbaycan Dillər Universiteti**
https://orcid.org/0000-0002-1906-8131
c.gultekin1986@gmail.com

# ON THE COMPLEX NATURE OF TRANSLATION EQUIVALENCE: FUNCTIONAL AND CONCEPTUAL EQUIVALENCE

**Salmanova Gultekin Azim**
**Azerbaijan University of Languages**
https://orcid.org/0000-0002-1906-8131
c.gultekin1986@gmail.com

**Summary**

The article aims to explore the complex nature of translation equivalence. Translation is an inherently complex phenomenon. Translation always implies a certain relationship between the translated text and the source text. Equivalence is a widely discussed concept in translation studies. Translation equivalence is the commonality of content or semantic proximity, the equivalence of the source and translated texts. Since the main task of the translator is to achieve equivalence and equality of the source and translated texts, this concept is one of the main ones in the theory of translation. At the same time, this concept is one of the most difficult, since it interprets the conditions of non-discrimination of clearly different texts in different languages with different structural and semantic features, as well as different cultural and connotative backgrounds. The article indicates that the interpretation and specification of the concept of equivalence are different. Equivalence is related to the material form of translation (oral or written). The article discusses functional and conceptual equivalence, outlines the specific features of functional and conceptual equivalence. Languages reflect people's culture, history, and thought process, and they often vary greatly from culture to culture. When translating, you cannot simply replace one word with another, as this may cause confusion in the translation. In conclusion, it is noted that the translator must have sufficient knowledge about the translation process and its various methods to achieve equivalence. By carefully choosing the right method, the translator can convey each language element as accurately as possible.

**Keywords:** translation, functional equivalence, conceptual equivalence, semantic proximity.

# О СЛОЖНОЙ ПРИРОДЕ ПЕРЕВОДЧЕСКОЙ ЭКВИВАЛЕНТНОСТИ: ФУНКЦИОНАЛЬНАЯ И КОНЦЕПТУАЛЬНАЯ ЭКВИВАЛЕНТНОСТЬ

**Салманова Гюльтекин Азим**
**Азербайджанский Университет Языков**
https://orcid.org/0000-0002-1906-8131
c.gultekin1986@gmail.com

**Резюме**

Статья ставит перед собой цель исследовать сложную природу переводческой эквивалентности. Перевод – это сложное по своей сути явление. Перевод всегда подразумевает определенную связь между переве-

денным текстом и исходным текстом. Эквивалентность является широко обсуждаемой концепцией в переводоведении. Переводческая эквивалентность – это общность содержания или смысловая близость, эквивалентность исходного и переведенного текстов. Поскольку основной задачей переводчика является достижение эквивалентности и равенства исходного и переведенного текстов, это понятие является одним из основных в теории перевода. В то же время это понятие является одним из самых сложных, поскольку интерпретирует условия неразличения четко разных текстов на разных языках с разными структурными и семантическими особенностями, а также разным культурным и коннотативным фоном. В статье указывается, что трактовка и спецификация понятия эквивалентности различны. Эквивалентность связана с материальной формой перевода (устной или письменной). В статье рассматриваются функциональная и концептуальная эквивалентность, излагаются специфические особенности функциональной и концептуальной эквивалентности. Языки отражают культуру, историю и мыслительный процесс людей, и они часто сильно различаются от культуры к культуре. При переводе нельзя просто заменять одно слово другим, так как это может вызвать путаницу в переводе. В заключении, отмечается, что переводчик должен обладать достаточными знаниями о процессе перевода и его различных методах для достижения эквивалентности. Тщательно выбирая правильный метод, переводчик может максимально точно передать каждый языковой элемент.

**Ключевые слова:** перевод, функциональная эквивалентность, концептуальная эквивалентность, семантическая близость

Tərcümə prosesi minilliklər boyu mövcuddur və bununla da o həm dil, həm də mədəni köçürülməni asanlaşdırır. Bununla belə, bir bilik sahəsi kimi, tərcümə prosesi XX əsrin ikinci yarısında alim Ceyms Holms (1972) tərəfindən təklif olunan "tərcüməşünaslıq" adı altında inkişaf etməyə başladı. Bu termin tərcüməni geniş bir bilik sahəsi kimi qəbul etdiyi üçün bir çox insanlar tərəfindən qəbul edildi, diqqəti tərcüməçilik və tərcüməçilərin hazırlanması kimi tərcümənin diqqətdən kənarda qalan sahələrinə yönəltdi (Panou, 2013, s. 1).

Tərcümə mahiyyətcə mürəkkəb bir hadisədir. Tərcümə həmişə tərcümə edilmiş mətnlə mənbə mətn arasında müəyyən əlaqəni nəzərdə tutur. Tərcüməşünaslıqda ekvivalentlik çox müzakirə olunan bir anlayışdır. Dilçiliklə məşğul olan alimlər tərcüməni iki dil arasında identiklik və ya eynilik mənasını verən ekvivalentliyə istinad edərək müəyyən edirlər. Linqvistik yanaşmalarda tərcümə mənada ekvivalentlik kimi başa düşülür və tərcümə prosesində mənbə (orijinal) mətnin rolu kifayət qədər vacib və zəruridir (Omer, 2016, s. 17).

Tərcümə ekvivalentliyi – məzmunun ümumiliyi və ya semantik yaxınlıq, orijinal və tərcümə mətnlərinin ekvivalentliyidir. Orijinal və tərcümə mətnlərinin ekvivalentliyinə, bərabərliyinə nail olmaq tərcüməçinin əsas vəzifəsi olduğundan bu anlayış tərcümə nəzəriyyəsində mərkəzi anlayışlardan biridir. Eyni zamanda, bu anlayış, ən mürəkkəb anlayışlardan biridir, çünki fərqli struktur və semantik xüsusiyyətlərə və həmçinin fərqli mədəni və konnotativ fonlara malik müxtəlif dillərdə olan açıq şəkildə fərqli mətnlərin fərqləndirilməməsi şərtlərini şərh edir.

Qeyd etmək lazımdır ki, tərcümə prosesində kontekst mühüm rol oynayır. Bu onunla əlaqələndirilir ki, kontekst tərcüməçiyə əlverişli ekvivalent mənanın seçilməsinə kömək edir.

A.Kamfuis qeyd edir ki, insanın ekvivalentlik anlayışını başa düşməsi dil, məna və tərcüməyə baxışı ilə çox sıx bağlıdır (Kamphuis, 2019, s. 5).

Tərcümə, ilk növbədə, orijinal mətnin tərcümə mətni ilə dəyişdirilməsi prosesini xarakterizə edir. Lakin unutmaq olmaz ki, mütləq eynilik mümkün deyil.

Ekvivalentliyin tam təfsiri bu konsepsiyanın çoxsəviyyəli olmasını – mətnlərin semantik, struktur, funksional, kommunikativ-praqmatik, janr və digər müvafiq xüsusiyyətləri ilə şərtlənməsini əks etdirməlidir.

Əksər tədqiqatçılar orijinal mətn ilə tərcümə mətninin arasında semantik, struktur və praqmatik fərqlərə görə orijinal və tərcümə mətnlərinin mütləq ekvivalentliyinin (eyniliyinin) qeyri-mümkün olduğuna inanır və tərcümənin həqiqətən əldə edilə bilən ekvivalentliyinin nisbiliyini etiraf edirlər. Bununla yanaşı, ekvivalentlik anlayışının şərhi və spesifikasiyası fərqlidir.

L.S.Bərxudarov ekvivalentliyi semantik kateqoriya kimi müəyyən edir, çünki ekvivalentlik, müxtəlif dillərdə olan mətnlərin məzmun baxımından üst-üstə düşməsi deməkdir. Belə bir təsadüfün nisbiliyini qəbul edən L.S.Bərxudarov qeyd edir ki, orijinalın mətni ilə tərcümənin ekvivalentliyi ayrı-ayrı linqvistik simvollar səviyyəsində və hətta təcrid olunmuş cümlə səviyyəsində deyil, bütövlükdə mətn səviyyəsində müəyyən edilir. Cümlə minimal mətn kimi çıxış edə bilər. Məhz mətn səviyyəsində real semantik ekvivalentliyə nail olmaq mümkündür, lakin bu, mətnin mənasının ayrı-ayrı elementləri və fraqmentləri səviyyəsində tərcümə transformasiyalarına ehtiyacı nəzərdə tutur (Бархударов, 2008).

V.S.Vinoqradovun fikrincə, ekvivalentlik "orijinalda və tərcümədə olan məzmun, semantik, üslub və funksional-kommunikativ məlumatların nisbi bərabərliyinin qorunması" kimi başa düşülməlidir (Vinoqradov, 2001, s. 18).

Hər hansı bir tərcümənin əsasında semantik məlumatın qorunması dayanır, çünki bütün digər məlumat növləri semantik məlumatın üzərinə qoyulur. Semantik məlumatın ekvivalentliyi orijinalın mətninə və tərcüməyə eyni reaksiyanın şərtidir.

Bununla birlikdə, məzmun planının dəyişməz qalması barədə mütləq mənada deyil, yalnız nisbi mənada danışmaq olar, çünki dillərarası çevrilmə zamanı orijinal mətnin bütün mənalarının tam ötürülməsi mümkün deyil və itkilər qaçılmazdır. Tərcümə edilmiş və orijinal mətnlər, tam ekvivalent olmamaqla, ümumi semantik və funksional dəyişməzliyi saxlamalıdır.

Ekvivalentlik tərcümənin maddi forması (şifahi və ya yazılı) ilə bağlıdır. Şifahi tərcümənin bütün növləri üçün nisbi ekvivalentlik azalır. Yazılı tərcümədə nisbi ekvivalentlik dərəcəsi daha yüksək olsa da, müxtəlif janrlı mətnlər üçün fərqlənir.

Müxtəlif tərcümə strategiyaları orijinala formal və semantik yaxınlıq dərəcəsinə görə bir-birindən əhəmiyyətli dərəcədə fərqlənən tərcümə mətnlərinin meydana çıxmasına səbəb olur. Qeyd etmək lazımdır ki:

1) linqvistik və mədəni fərqlərin mövcudluğu poetik mətnin başqa dilə tamamilə ekvivalent tərcüməsini mümkünsüz edir;

2) bu fenomen müxtəlif tərcümə üsullarına gətirib çıxarır, yəni tərcüməçinin strategiyasına (orijinalın mənasını və ya formasını çatdırmaq üçün);

3) tərcüməçinin strategiyasının seçilməsində tərcüməçinin yaradıcı şüuru, orijinal mətnin fərdi anlayışı (hermenevtik prinsip) özünü göstərir (Гаврильева, 2013, s. 22).

Mətni kommunikativ-funksional yanaşma nöqteyi-nəzərindən nəzərə alsaq, tərcümə mətni – konkret kommunikativ şəraitdə müəyyən məqsədlə yaradılmış və müəyyən funksiyanı yerinə yetirən vahiddir və bu zaman tərcümənin funksional ekvivalentlik kimi əsas kateqoriyasını qeyd etməmək olmaz. Funksional ekvivalentlik yalnız qrammatik-sintaktik və leksik-semantik səviyyələrdə deyil, həm də kommunikativ-praqmatik səviyyədə uyğunluqları əhatə edən xüsusi bir ekvivalentlik növüdür.

Funksional ekvivalentlik orijinal (mənbə) dil və tərcümə (hədəf) dili arasındakı fərqlərə ciddi yanaşır. Funksional ekvivalentlik, tərcüməçiyə yalnız mənbə dillə bağlı texniki məsələlərə deyil, tərcümənin məqsədinə diqqət yetirməyə kömək edir. Funksional ekvivalentlik səhv məna verən, mənası olmayan, birmənalı olmayan, zəif qrammatika və ya üslub ehtiva edən tərcümələr yaratmaqdan çəkinir. Mətnin mənasını tərcümə (hədəf) dildə təbii və mənalı yollarla, düşünülmüş şəkildə ifadə edir və çatdırır.

Y.S.Çernyakova qeyd edir ki, əgər:

1) orijinal mətnin zehni məzmunu və ya mənası tərcümədə saxlanılırsa;

2) müəllifin niyyəti və adresatın reaksiyası üst-üstə düşürsə;

3) orijinal mətninin kommunikativ funksiyası tərcümə olunmuş mətnin kommunikativ funksiyası ilə əlaqələndirilirsə, o zaman orijinal və tərcümə mətnləri funksional olaraq ekvivalentdir (Чернякова, 2009, s. 26).

Tərcümə ekvivalentliyinin digər növü konseptual ekvivalentliyə nəzər yetirək. Tərcümə edərkən başqa bir çətinlik fərqli, müxtəlif anlayışları (konsepsiyaları) birləşdirmək, əlaqələndirməkdir. Bu anlayışlar ümumi mədəni (etik) və xüsusi mədəni (emik) olurlar. Aydındır ki, sonuncular tərifinə görə ekvivalent tərcüməyə münasib deyildir.

Tədqiqatçıların fikrincə, demək olar ki, istənilən konsepsiya bir dildən digərinə tərcümə edilə bilər, yəni fərqli şifahi formada təmsil oluna bilər.

Q.F.Kovalenkoya görə, "konseptual ekvivalentlik" – tərcüməçinin konsepsiyanın əsas məzmununu (konseptual xüsusiyyətlərini) və onun linqvistik ifadəsinin fərdiliyini maksimum dərəcədə çatdırmağı bacardıqda bədii konsepsiyanın nominativ sahəsinin ötürülməsində yüksək etibarlılıq dərəcəsidir (Коваленко, 2015, s. 219).

Tərcümə zamanı "mədəni konseptual ekvivalentlik" modelini tətbiq etməklə, tərcüməçi hər bir dil cəmiyyətində mövcud olan iki fərqli mədəni konseptuallaşdırma sistemi arasında bir növ "linqvokulturoloji vasitəçi" olur. Beləliklə, tərcüməçi uğurlu və effektiv mədəniyyətlərarası ünsiyyət üçün həm mədəni, həm də linqvistik baxımdan təsirli/səmərəli funksional tərcümələr edə biləcəkdir. Bu fenomen, bəlkə də insanların qarşılıqlı əlaqəsi tarixində hər zamankından daha çox diqqət və araşdırmaya ehtiyacı olan bir hadisədir (Сейтказиева и Орузбаева, 2022, s. 49).

Konseptual ekvivalentlik insanların obyektləri, stimulları və ya davranışları necə şərh etdikləri ilə bağlıdır. Müəyyən bir ölkədə müəyyən bir şəxs üçün aydın görünən şey tamamilə mədəni normalardan asılı ola bilər. Beləliklə, konseptual ekvivalentlik müxtəlif mədəniyyətlərdə və ya ölkələrdə obyektlərin, stimulların və ya davranışların eyni şəkildə mövcud olub-olmaması və ya eyni şəkildə ifadə olunub-olunmaması məsələsinə aiddir (Chtatou, 2021, s. 9).

Tərifinə görə, tərcümə müxtəlif dillər, eləcə də mədəniyyətlər arasında mənanın ötürülməsi ilə əlaqəli bir prosesdir. Dillər insanların mədəniyyətini, tarixini və düşüncə prosesini əks etdirir və onlar, çox vaxt mədəniyyətdən mədəniyyətə çox fərqlidir. Tərcümə zamanı sadəcə bir sözü digəri ilə əvəz etmək olmaz, çünki bu tərcümədə qarışıqlığa səbəb ola bilər. Bunun nümunəsi kimi İnternet əsaslı və ya digər avtomatik tərcümə alətlərinə edilmiş tərcümə mətnlərini qeyd eymək olar.

Dil sözlər, qrammatik qaydalar toplusu və eyni zamanda geniş konnotasiyalar və mədəni istinadlar sistemidir. Kontekst və mədəniyyəti anladıqdan sonra bir cümlədəki söz və ya ifadənin nə demək olduğunu deşifrə etmək və sonra hədəf dildə düzgün kodlaşdırmanı axtarmaq üçün insan beyninə ehtiyac duyulur. Peşəkar tərcüməçilər tərcümə etdikləri dillərin mədəniyyətini dərindən başa düşməyə meyllidirlər. Bu mənada tərcüməçi ekvivalentliyə nail olmaq üçün tərcümə prosesi və onun müxtəlif üsulları haqqında kifayət qədər biliyə malik olmalıdır. Düzgün üsulu diqqətlə seçərək tərcüməçi hər bir linqvistik dil elementini ən dəqiq şəkildə çatdıra bilər.

**Ədəbiyyat:**

1. Бархударов, Л.С. (2008). Язык и перевод: Вопросы общей и частной теории перевода. – М., 240.

2. Виноградов, В.С. (2001). Введение в переводоведение: Общие и лексические вопросы. – М., 224.

3.Гаврильева, Н.Г. (2013). Проблема эквивалентного перевода поэмы А.Е.Кулаковского «Сновидение Шамана». Якутск, 24.

4.Коваленко, Г.Ф. (2015). «Концептуальная эквивалентность» как один из критериев оценки перевода поэтического текста. Вестник ТОГУ, № 1(36), 217-222.

5.Сейтказиева, Ж.З., Орузбаева, М.А. (2022). Cultural conceptual model of equivalence. Вестник Бишкекского государственного университета, №4 (62), 47-49.

6.Чернякова, Ю.С. (2009). Функциональная эквивалентность лексико-семантического уровня. Вестник РУДН, серия Лингвистика, № 2, 26-30.

7.Chtatou, M. (2021). The Notion of Equivalence in Translation. Eurasia Review, 24.

8.Kamphuis, A. (2019). The concept of equivalence in functional approaches to translation: A complexity-theoretical evaluation, 124.

9.Omer, Y.A. (2017). Equivalence as controversial concept in translation studies. Journal of Raparin University, Vol. 4, № 12, 5-22.

10. Panou, D. (2013). Equivalence in Translation Theories: A Critical Evaluation. Theory & Practice in Language Studies, Vol. 3, № 1, 1-6.

## KONSEPT VƏ KONSEPTUAL METAFOR LİNQVOKULTURAL HADİSƏLƏR KİMİ

**Eyubova Nurlana Ruslan**
**Azərbaycan Dillər Universiteti**
**https://orcid.org/0009-0000-8846-0068**
**nurlana.eyubova07@gmail.com**

## CONCEPT AND CONCEPTUAL METAPHOR AS LINGUOCULTURAL PHENOMENON

**Eyubova Nurlana Ruslan**
**Azerbaijan University of Languages**
**https://orcid.org/0009-0000-8846-0068**
**nurlana.eyubova07@gmail.com**

**Summary**

The article deals with the issues of linguocultural description of the concept and conceptual metaphor. The linguistic units that a person uses during the thought process are concepts. Concepts, their formation and existence, do not depend on the language. Language is necessary for the transmission of a concept or thought and for discussion in the process of communication. Concepts need to be formulated, expressed in lexical units.Metaphor has been studied by many linguists for a long time. For traditional schools of linguistics, a metaphor is simply a figure of speech used in literature. However, cognitive linguistics presents a different view of metaphor, arguing that metaphor is present not only in literature, but is also widespread in the language of everyday life, and that it serves as a means of expressing thoughts, as well as a means of cognition that helps people to know the world.

**Key words:** concept, metaphor, conceptual metaphor, linguoculturology.

# КОНЦЕПТ И КОНЦЕПТУАЛЬНАЯ МЕТАФОРА КАК ЛИНГВОКУЛЬТУРНЫЙ ФЕНОМЕН

**Эюбова Нурлана Руслан**
**Азербайджанский Университет Языков**
**https://orcid.org/0009-0000-8846-0068**
**nurlana.eyubova07@gmail.com**

**Резюме**

В статье рассматриваются вопросы лингвокультурологического описания концепта и концептуальной метафоры. Языковые единицы, которые человек использует в процессе мышления, являются концептами. Концепты, их формирование и существование, не зависит от языка. Язык необходим для передачи концепта или мысли и для обсуждения в процессе общения. Концепты нужно формулировать, выражать лексическими единицами. Метафора долгое время изучалась многими лингвистами. Для традиционных школ лингвистики метафора - это просто фигура речи, используемая в литературе. Однако когнитивная лингвистика представляет иной взгляд на метафору, утверждая, что метафора присутствует не только в литературе, но и широко распространена в языке повседневной жизни, и что она служит средством выражения мыслей, а также средством познания, которое помогает людям познавать мир.

**Ключевые слова:** концепт, метафора, концептуальная метафора, лингвокультурология

21-ci əsrdə dilçilikdə yeni bir istiqamət və yeni araşdırmalar ortaya çıxdı. Struktur paradiqmanın antroposentrik, funksional, koqnitiv və dinamik paradiqmalarla əvəz olunduğu vurğulanmalıdır. Antroposentrik paradiqma insan, dil  və onun izahı arasında ayrılmaz bir əlaqə kimi başa düşülür. Müasir dilçiliyin antroposentrik paradiqması çərçivəsində bir sıra istiqamətlər inkişaf edir. Bunların arasında linqvokulturologiya bu gün ən aktual sahələrdən biridir. Linqvokulturologiya dilçilik və kulturologiyanın birləşməsindən yaranan mürəkkəb bir elm sahəsidir. Mədəniyyət və dilin qarşılıqlı əlaqəsini, onların bir-birinə təsirini öyrənir. Linqvokulturologiya mifik dil vahidlərini, adət və ənənələri, atalar sözləri və kəlamları, standartları, stereotipləri, metaforaları, nitq və nitq mədəniyyətini əhatə edir. Dilçilər linqvokulturoloji tədqiqatların əsas vəzifəsini dil və mədəniyyətin mədəni vahidlər kimi sistemləşdirilməsi və təhlili hesab edirlər (Ashurova, 2004) və onları əks etdirən ifadələr, frazalar, cümlələr, paremiyalar, mətnlər və s. ibarət olduğunu vurğulayırlar (Yusupov, 2011). Linqvokulturologiya həmçinin etnolinqvistikanın bir hissəsidir (Teliya, 1988), dil mədəniyyətin presedentidir, millətçiliyi əks etdirən bir vasitədir (Maslova, 1997) və düşüncələr dil və mədəni kimliyin öyrənilməsində əsas yer tutur.

Doğuşdan bəri biz insanlar ətrafımızdakı dünyanı tanıyırıq, obyektlərin adlarını əzbərləməyi, müqayisə etməyi, alınan məlumatları dərk etməyi öyrənirik, yeni bilikləri mənimsəməyə və təhlil etməyə, həmçinin dil vasitəsilə öyrənilən hər şeyi yaratmağa çalışırıq. Beləliklə, əsas biliklərimizi inkişaf etdirməyə başlayırıq. Nəticədə insanda ümumi anlayışlar formalaşır, hansılar ki sonradan müxtəlif dərəcədə mürəkkəb və mücərrəd konseptlərdən ibarət olan dünya haqqında bilik sistemini meydana gətirir. İnsanın düşüncə prosesi zamanı istifadə etdiyi dil vahidləri konseptlər hesab olunur. Konseptlər insanın bütün həyatı boyu əldə etdiyi bilik və təcrübənin nəticəsini təmsil edirlər. Qeyd etmək lazımdır ki, insanlar konseptlərlə fikirləşir və düşünür, təhlil apararaq, zehni fəaliyyətdə müxtəlif sahələrin konseptlərini müqayisə edir və birləşdirir. İnsan düşüncə nəticəsində yeni konseptlər meydana gətirir. Konsept, həmçinin verbal və ya qeyri-verbal hər hansı bir məlumatın mübadiləsi və bütövlükdə ünsiyyətin nəticəsidir.

Buna görə düşüncənin əməliyyat əsaslı vahidi, quruluşlu biliklərin vahidi və ya kvantı konsept adlanır (Kubryakova, 1988).

Konsept koqnisiyanın nəticəsini əks etdirir. Konsept nəzəri bilik nəticəsində yaranan məqsədəuyğun, ardıcıl mənalı bir anlayışdır. Buradan belə çıxır ki, anlayış ilə konsept arasındakı fərq nəzəri və adi biliklərin – idrak və koqnisiyanın uyğunsuzluğundan asılıdır. Konseptlərin formalaşması və mövcudluğu dildən asılı deyil. Dil bir konsepti və ya düşüncəni çatdırmaq və ünsiyyət prosesində müzakirə etmək üçün lazımdır. Konseptlər formalaşdırılmalı, leksik vahidlərlə ifadə olunmalıdır. Dil daşıyıcıları tərəfindən formalaşan və insanların yaddaşında saxlanılan konseptlər dilin konseptosferini təşkil edir. Konseptosfera anlayışı ilk dəfə D.S.Lixaçev tərəfindən konseptlər toplusunu ifadə edən termin kimi təqdim olunmuşdur. (Likhachev, 1997: 63). Konsept sözlər, söz birləşmələri, frazeoloji vahidlər, cümlələr və bütöv mətn kimi müxtəlif dil vahidləri ilə ifadə edilə bilər.

Ümumi qəbul edilmiş fikirlərə əsaslanaraq, dil biliklərinin linqvistik və mədəni inkişafında xalqın milliyyəti ilə əlaqəli dəyişikliklərin dil vahidləri tərəfindən asanlaşdırıldığına və hər bir etnik qrupun ümumi, ümumbəşəri əlaqəli anlayışlarının böyük və fərqli cəhətlərini ifadə etdiyinə inanmaq mümkündür.

Eyni zamanda, milləti digər xalqlardan ayıran fərq onun ana dili, mənəvi dəyərləri və mədəniyyətidir. Xalqın mənəvi gücü gözəl ədəbiyyatdır və onun sayəsində spesifik bir millətin mədəniyyəti inkişaf edəcəkdir. Bədii əsərlərdə dilin daxili məzmunu əks olunur, milli mədəniyyətlə əlaqəli vahidlər əlavə olunur. İnsanların həyatı, həyat şəraiti ilə sıx bağlıdır, insanlar onları yaratmır, onlar öz-özünə əmələ gəlmir, cəmiyyət tərəfindən yaradılır. “Mədəniyyət insan həyatı üçün lazım olan məfhumları əhatə edir və insan düşüncəsi ilə sıx bağlıdır. Beləliklə, insanlar təsəvvürlərindəki hadisələri və hekayələri öz mədəniyyətləri ilə mənimsəməyə çalışırlar. Nağıllarda xalq sənətinin ən qədim nümunələrindən biri sehrli alma, uçan xalçadır. Ancaq məlumdur ki, bu anlayışlar bütün xalqların mədəniyyətində mövcuddur.”

C. Lakoff və M.Conson konseptual metafor nəzəriyyəsinin qurucuları hesab edilir. Dilçilikdə və fəlsəfədə metafor fenomenini araşdıran bir çox alimlər müasir cəmiyyətdə metaforanın əhəmiyyətini, həmçinin insanlar arasında ünsiyyəti “Yaşadığımız metaforlar” kitabına əsaslandırırlar.

Koqnitiv dilçilikdə metafor yalnız şeir və nəsrdə deyil, həm də gündəlik danışıq dilində istifadə olunur. Lakoff və Consona görə, metaforlar gündəlik həyatda geniş yayılmışdır. Gündəlik nitqdə varlığından xəbərimiz belə olmadığı bir çox metafor tapa bilərsiniz. (Lakoff & Johnsen, 2003)

Koqnitiv dilçilikdə metafor ilə bağlı digər vacib məqam ondan ibarətdir ki, o, yalnız istifadə etdiyimiz dildə deyil, həm də konseptual sistemimizdə mövcuddur. Lakoff və Conson-a görə, “metafor gündəlik həyatda, yalnız dildə deyil, düşüncə və hərəkətlərdə də geniş yayılmışdır”. Metaforun yalnız dil məsələsi olmadığını, yalnız istifadə etdiyimiz sözlərdə deyil, həm də insan düşüncə proseslərində və konseptual sistemimizdə mövcud olduğunu iddia edirlər. Daha da əhəmiyyətlisi, metaforların dil ifadələri kimi ortaya çıxmasının metaforların insanın konseptual sistemində mövcud olması ilə mümkün olduğunu söyləyirlər. Biz hər şeyi metaforik olaraq danışırıq, çünki bu şəkildə qəbul edirik və necə qəbul etdiyimizə görə hərəkət edirik (Lakoff & Johnsen, 2003, 5-6). Bir sözlə, koqnitiv dilçilikdə metafor sadəcə ünsiyyət vasitəsi kimi deyil, həm də insanların real dünyanı başa düşdükləri və izah etdikləri mexanizmi əks etdirən koqnitiv vasitə kimi qəbul edilir. Daha dəqiq desək, metafor “bir anlayışı digəri ilə anlayıb və yaşamaqdır” (Lakoff & Johnsen, 2003). Olduqca mürəkkəb bir konsepti izah etmək üçün insanlar başa düşülməsi daha asan olan başqa bir konseptə müraciət edirlər.

Koqnitiv dilçilikdə konseptual metafor (və ya koqnitiv metafor) bir konseptual sahənin başqa bir mövzu sahəsi baxımından başa düşülməsinə aid edilir. Radden və Divren üçün konseptual metafor “mücərrəd sahələri fiziki dünyadakı daha yaxşı bilinən sahələr və təcrübələrlə əlaqələndirərək anlamaq üçün bir vasitə” olaraq görülür (Radden & Divren, 2007).

Konseptual metafor, müxtəlif bilik sahələri ilə əlaqəli anlayışlar arasındakı əlaqələrin qurulmalarına əsaslanan ən vacib idrak mexanizmlərindən biridir.

**Ədəbiyyat:**

1. Ashurova D.U. (2004) Prospects for Scientific Research in the Light of New Directions in Linguistics // Issues of philology. - Tashkent. - № 4. - P.37-40.

2. Kubryakova Y.S. (1988) Роль словообразования в формировании языковой картины мира // Роль человеческого фактора в языке: Язык и картина мира. - М.: Наука. - 172 с.

3. Lakoff G., Johnsen M. (2003) Metaphors we live by. London, The university of Chicago.

4. Likhachev D.S. (1997) Концептосфера русского языка. – М.: Academia. – 287 с.

5. Maslova V.A. (1997) Introduction to linguoculturology. - M. - P.28-29.

6. Radden G.& Divren R., (2007) Cognitive English Grammar, Amsterdam & Philadelphia: John Benjamins Publishing House.

7. Skrebtsova T.G. (2011) Когнитивная лингвистика: Курс лекций. - СПб.: Филологический факультет СПбГУ. - 256 с.

8. Teliya V.N. (1988) Metaphorization and its role in creating a linguistic picture of the world // Language and picture of the world / Ed. ed. B.A. Serebryakov. - M. - P.217.

9. Veysəlli F. (2015) Koqnitiv dilçilik: əsas anlayışları və perspektivləri. - Bakı, Mütərcim.

10. Yusupov U. Q. (2011) New trends in linguistics and some terms used in them // Philological issues. - Tashkent. - № 2. - P. 9-15.

# FRANSIZ DİLİNDƏ LEKSİK ENANTİOSEMLƏR

**Məlikova Lalə Səmədiyyə**
**Azərbaycan Dillər Universiteti**
**https://orcid.org/0009-0007-8287-1756**
**lalemelikova1991@hotmail.com**

# LEXICAL ENANTIOSEMS IN FRENCH

**Malikova Lala Samadiyya**
**Azerbaijan University of Languages**
**https://orcid.org/0009-0007-8287-1756**
**lalemelikova1991@hotmail.com**

**Summary**

The main purpose of this report is to first explain the concept of enantiosemy, to mention the different types of this concept studied by linguists in linguistics. In this article, first of all, the origin of the word enantiosemy, its meanings and its history are shown. Then from the day when the term was coined, the definitions given to the term enantiosemy by different linguists are mentioned. Enantiosemy on the one hand has homonymous properties on the other hand antonymy. A word like a homonym has several meanings, and like an antonym, the meanings of a word are opposite to each other. Different types (speech enantiosemia, linguistic enantiosemia) of enantiosemia have been mentioned. Then examples of lexical enantiosems are given, examples from the literature are mentioned and also examples shown in French are shown Azerbaijani. As can be seen from those examples, the same word combines two opposite meanings, which demonstrates the richness of the language. Finally, the result part is mentioned. This part shows the results obtained from the article.

**Key words:** enantiosemy, lexical-semantic nature, opposite meaning words, types of enantiosemy, lexical enantiosems

## ЛЕКСИЧЕСКИЕ ЭНАНТИОЗЕМЫ ВО ФРАНЦУЗСКОМ ЯЗЫКЕ

**Маликова Лала Самадия**
**Азербайджанский Университет Языков**
**https://orcid.org/0009-0007-8287-1756**
**lalemelikova1991@hotmail.com**

**Резюме**

В данной статье в первую очередь показано происхождение слова энантиосемия, его значения и история его возникновения. Затем со дня появления этого термина упоминаются определения, данные термину энантиосемия разными лингвистами. Енантиосемия с одной стороны обладает омонимичными свойствами, с другой стороны антонимическими. Такое слово, как омоним, имеет несколько значений и как и антоним, значения слова противоположны друг другу. Были упомянуты различные типы энантиосемии (речевая энантиосемия, языковая энантиосемия). Затем приводятся примеры лексических энантиосем, упоминаются примеры из литературы, а также примеры, показанные на французском языке, показаны на азербайджанском языке. Как видно из этих примеров, одно и то же слово сочетает в себе два противоположных значения, что свидетельствует о богатстве языка. Наконец, упоминается часть результата. В этой части показаны результаты, полученные из статьи.

**Ключевые слова:** энантиосемия, лексико-семантическая природа, слова противоположного значения, виды энантиосемии, лексические энантиосемы.

Enantiosemiya yunan mənşəli söz olub, “enantios - əks, zidd, sema isə işarə” deməkdir. Enantiosemiya dedikdə sözdaxili antonimlik, söz daxilində əksmənalılıq, eyni sözdə əksmənalılığın vəhdəti başa düşülür. İlk dəfə olaraq 1884-cü ildə V.İ.Şerstel Hind-Avropa dillərinin materiallarını müxtəlifsistemli dillərdə qarşılıqlı tədqiq edərkən, məzmunda daxili əksmənalılığı da müşahidə etmişdir və onu enantiosemiya adlandırmışdır (Новиков, 1973).

Eyni fonetik tərkibə malik sözlərin bir-birinə əks məna ifadəetmə xüsusiyyəti dildə maraqlı hadisələrdən biri olub, dilin ən qədim dövrləri ilə bağlıdır. Bu termin sözün və birləşmənin antonim mənaları bildirmə xüsusiyyətinə malikdir (Şıxlı, 1968).

Enantiosemiya nadir dil hadisəsi olub, bir sözdə iki zidd mənanın - antonim mənanın hər ikisinin işlənməsinə əsaslanır. Enantiosemiyanın növlərindən bəhs edilərkən qeyd etmək lazımdır ki, bu termin haqqında ən müfəssəl təsnifatı verən Brodski olmuşdur. Brodski əsərində bu terminin aşağıdakı növlərini qeyd etmişdir:

I. Nitq enantiosemiyası- L'énantiosémie de la parole

II. Linqvistik enantiosemiya - L'énantiosémie linguistique. (Brodski, 1998).

Nitq enantiosemiyası dedikdə daha çox kinayə ilə deyilən məfhumlar, yəni zarafatla sözün düzünün deyilməsi nəzərdə tutulur. Nitq enantiosemiyası müəyyən bir dilin fonetik xüsusiyyətləri, nitq və ya intonasiyası ilə bağlı olan emosional enantiosemiyadır. Məsələn: Je vois que tu as bien compris toutes les choses- görürəm ki, sən hər şeyi çox yaxşı başa düşmüsən. Kontekstdən asılı olaraq belə cümlələrin iki (mənfi və müsbət) mənası olur.

Linqvistik enantiosemiya öz növbəsində 3 növə bölünür:

1. Qrammatik enantiosemiya
2. Frazeoloji enantiosemiya

3. Leksik enantiosemiya.

Müasir Fransız dilinin lüğət tərkibi olduqca zəngindir. Leksik enantiosemlərə dilin lüğət tərkibində tez-tez rast gəlmək mümkündür. Hətta Fransız dilində leksik enantiosemləri nitq hissələrinə görə də təsnif edirlər.

**Attiédir** feili Azərbaycan dilində isitmək və soyutmaq mənalarına malikdir. Le soleil attiédit l'atmosphère - Günəş Atmosferi qızdırır. Le temps attiédit l'amitié- Zaman dostluğu soyudur (vaxt keçdikcə dostluqlar pozulur).

**Chasser** feili həm qovmaq, həyatından çıxartmaq, həm də ovlamaq, özünə bağlamaq mənasını daşıyır. Məsələn belə bir misala fikir verək: Max a chassé Martine- cümləsində chasser feili iki mənada da işlənmiş ola bilər. Maks Martini həyatından çıxartdı, yəni ondan ayrıldı, ikinci mənası isə Maks Martini özünə bağladı, onunla barışdı.

**Terrible**- sifəti də enantiosemdir. O, həm qorxulu, əcaib («Qui inspire ou cherche à inspirer la terreur, qui provoque une émotion profonde»), həm də hər hansı sevdiyimiz, heyran qaldığımız («sensationnel, extraordinaire, propre à susciter l'admiration») bir nəsnəyi ifadə etmək üçün istifadə edilir.

**Apprendre**- feili həm nəyisə öyrənmək, həm də kiməsə nəyisə öyrətmək mənalarına malikdir.

**Allocuteur- allocutrice – (**Personne qui émet une énonciation Personne qui réceptrice d'une énonciation) məlumatı qəbul edən yəni dinləyici, digər mənası məlumatı ötürən adam, yəni natiq üçün işlədilir.

**Ecoeurant**- sözünün həm iyrənc, həm də xoşagələn mənası vardır.

**Bagatelle**- əskinaz, pul növüdür. İlk mənası az dəyəri olan xırda pul olsa da, digər mənada isə xüsusi əhəmiyyətə malik böyük məbləğ nəzərdə tutulur.

**Bête**-Hər hansı bir xüsusi sahədə ixtisaslaşmış bir şəxs üçün işlənildiyi kimi, əqli çatışmazlığı olan insan üçün də işlədilir.

**COCO**- sevimli, gözəl, cazibədar biri // özünü çox qəribə, şübhəli aparan şəxs.

**Consulter**- Həkim üçün xəstə qəbul etmək üçün, xəstə üçün də həkimin qəbulunda olmaq üçün istifadə edilir.

**Crépuscule** - Əvvəllər günəş doğanda ətrafa yayılan işıq üçün işlədilirdisə, bugünki gündə günəş batarkən yayılan son işıq ifadəsi üçün işlədilir.

**Louer**: prendre en location-kirayə tutmaq // donner en location- kirayə vermək

**Malheur**: bədbəxtlik, bədbəxt hadisə // böyük uğur

**Mortel**: çox darıxdırıcı, sıxıcı // əla, ürəkaçan

**Personne**: kimsə, hər hansı bir şəxs // heç kim (əvəzlik)

**Frais**: soyuq, sərin // hələ isti (çörək sözü ilə işlənəndə)

**Monstre**: qorxulu heyvan və ya canlı// sevimli uşaq

Misallardan da göründüyü kimi, enantiosemik sifətlər müsbət və mənfi mənalarda işlənərək mətnlərə xüsusi ekspressivlik, mənalılıq qatır (5).

Son olaraq qeyd etmək lazımdır ki, enantiosemiya bir sözün bir-birinə əks olan iki müxtəlif məna bildirməsidir, yəni sözlərin mənaları bir-birinə əkslik təşkil edirsə bu, enantiosemiya adlanır. Tədqiqat apardığımız misallarda da bir-birinə əks olan mənalar qeyd olunmuşdur.

**References:**

1. Бродский, Михаил Юрьевич (1998). *Лексическая энантиосемия в сопоставительном аспекте (на материале современного английского и французского языков*). Екатеринбург.

2. Новиков Л.А. (1973) *Средства выражения- антонимия*//Русская речь, №1, s. 45-51.

3. Şıxlı, İ. (1968) *Dəli Kür*. Bakı: Gənclik, s.109.
4. https://az.wikipedia.org/wiki/Enantiosemiya
5. https://fr.wiktionary.org/wiki/Cat%C3%A9gorie:Mots_ayant_deux_sens_antonymes_en_fran%C3%A7ais

# "DA VİNÇİ ŞİFRƏSİ" ROMANINDA İSA OBRAZININ İNTELLEKTUAL BƏDİİ TƏQDİMATI

**Cəfərli Yeqzar İsfəndiyar**
**Bakı Mühəndislik Universiteti**
**https://orcid.org/0000-0002-1852-342X**
**yeqzar@gmail.com**

# INTELLECTUAL ARTISTIC PRESENTATION OF THE IMAGE OF JESUS IN THE NOVEL "THE DA VINCI CODE"

**Jafarly Yegzar İsfandiyar**
**Baku Engineering University**
**https://orcid.org/0000-0002-1852-342X**
**yeqzar@gmail.com**

**Summary**

The purpose of writing this thesis is to determine the intellectual approach to the artistic presentation of the image of Jesus in the novel "The Da Vinci Code". The image of Jesus has been the focus of various fields of science throughout history. More detailed information about Jesus is available from religious, philosophical and literary texts. Contemporary American writer Dan Brown also addressed the subject of Jesus through his novel "The Da Vinci Code". Dan Brown presents the facts and assumptions about Jesus in a unique way in the novel. As an example of intellectual prose, "The Da Vinci Code" is also an example of on an alternative history. While giving an intellectual presentation of the image of Jesus in the novel, the author also referred to a number of religious texts. In terms of the constructive presentation of existing information, the novel "The Da Vinci Code" forms a new literary and historical database about the image of Jesus.

**Keywords:** image of Jesus, alternative history, intellectualism, absurdity, religion.

# ИНТЕЛЛЕКТУАЛЬНО-ХУДОЖЕСТВЕННОЕ ПРЕДСТАВЛЕНИЕ ОБРАЗА ИИСУСА В РОМАНЕ «КОД ДА ВИНЧИ»

**Джафарли Экзар Исфандиар**
**Бакинский Инженерный Университет**
**https://orcid.org/0000-0002-1852-342X**
**yeqzar@gmail.com**

**Резюме**

Цель написания данного доклада – определить интеллектуальный подход к художественному представлению образа Иисуса в романе «Код да Винчи». Образ Иисуса был в центре внимания различных областей

науки на протяжении всей истории. Более подробную информацию об Иисусе можно получить из религиозных, философских и литературных текстов. Современный американский писатель Дэн Браун также обратился к теме Иисуса в своем романе «Код да Винчи». Дэн Браун уникальным образом представляет в романе факты и предположения об Иисусе. Как пример интеллектуальной прозы, «Роман Да Винчи» также основан на альтернативной истории. Давая интеллектуальное представление об образе Иисуса в романе, автор также обратился для информации к ряду религиозных текстов. С точки зрения конструктивного изложения имеющейся информации роман «Код да Винчи» формирует новую литературно-историческую базу об образе Иисуса.
**Ключевые слова:** образ Иисуса, альтернативная история, интеллектуализм, абсурд, религия.

Tarix boyu bir çox şəxsiyyətlərin həyatı insanların diqqət mərkəzində olmuşdur. Şübhəsiz ki, bu şəxsiyyətlərdən biri də İsa Məsihdir. Xristianlığın əsas siması olan bu şəxsiyyətlə bağlı xeyli sayda dini, fəlsəfi və ədəbi statuslu mətnlər mövcuddur. Bu mətnlərdən biri də Den Braunun müəllifi olduğu "Da Vinçi şifrəsi" romanıdır. Romanın yüksək tirajla yayılmasında, heç şübhəsiz, İsa haqqında məlumatların böyük rolu var. Romana çəkilmiş filmdə də maraqlı vizual effektlərə rast gəlmək olur (Mynet, 2018). Romanda İntibah dövrü italyan mədəniyyətinin nümayəndəsi Leonardo da Vinçinin həyat və yaradıcılığı əsasında İsa haqqında yeni məlumatların mövcudluğundan söz açılır (Richter, 2005). Sion təşkilatı, Müqəddəs Qraal haqqında əfsanə, Merovinqlər sülaləsi və s. bu kimi faktiki və ezoterik bilgilər romanın əsas strukturunu təşkil edir (Braun, 2013). Tezis tarixi-müqayisəli metoddan istifadə edilərək yazılmışdır. Tezisin mətni İsanın kimliyi və İsa ilə bağlı dinlə elmin ortaq görüşlərindən ibarətdir. Bu mövzu ilə bağlı müxtəlif tədqiqatlar mövcuddur (Richter, 2005). Bu tezisdə müəllif "Da Vinçi şifrəsi" romanında İsa obrazının intellektual bədii təqdimatına fokuslanmışdır.

**İsa kimdir?: "Da Vinçi romanı"nda absurd.**

"İsa kimdir?" sualının konkret cavabı yoxdur. İsa haqqında, əsasən, dinin, elmin və fəlsəfənin fərqli məlumatlar bazası mövcuddur. Əksər dini mətnlərdə İsanın müqəddəsliyi, dini mənsubiyyəti ön plandadır. Fəlsəfi mətnlər daha çox İsaya materialist baxımdan yanaşır. Ədəbi mətnlər isə sərbəstliyi ilə seçilir. Məsələn, Per Laqerkvist "Varavva" romanında diqqəti İsadan fərqli olaraq çarmıxa çəkilməkdən canını qurtaran quldur Varavvaya yönəldir (Lagerkvist, 2009). "İsa kimdir" sualına Den Braun necə cavab verir? Den Braun İsanın həyatını, fəaliyyətini, onun haqqındakı məlumatlar bazasını dekonstruksiya edir. Den Brauna görə, İsa müqəddəs deyil, adi insandır. 1960-cı ildə tapılan "Dossiers Secrets" adlı sənədlərin qarışıq olması fərqli reallıqların sübutunu hardasa mümkünsüz edir (Sakioğlu, 2006). Bir çox dini mətnlərdə İsanın ölümündən sonra göyə çəkilməsi fikri mövcuddur. Məsələn, Quranda bütün insanların öləcəyi faktı bu məlumatın üzərindən xətt çəkir (Qaraoğlu, 2003). Belə olduqda Quranın İsa ilə bağlı təqdimatı Den Braunun məqsədlərinə uyğun gəlir. İsanın kimliyini müəyyən edən başqa bir nüans Mariya Maqdalenadır. Den Braun romanda Mariyanı İsanın zövcəsi kimi təqdim edərək dini mətnləri açıq tənqidini müzakirəyə çıxarır (Braun, 2013). Məsələn, provaslavlar Mariyanı sülh müjdəçisi kimi, katoliklər isə fahişə kimi təqdim edirlər. Den Braun bir az daha irəli gedərək Mariyanı İsa ilə "evləndirir", onların Sara adlı qızları dünyaya gəlir. Qeyd olunur ki, orta əsrlər Fransasını 300 ilə yaxın idarə etmiş Merovinqlər sülaləsi də Mariyanın törəməsidir. Romanda Müqəddəs Kasanın axtarışı müəllifin bədii oyununun əsas bədii komponentidir. Müqəddəs Qraalın əşya olması düşünülsə də, müəllif Mariyanın məzarı önündə baş əyməyin Qraalı tapmaq olması qənaətinə gəlir" (Braun, 2013). Qeyd olunan bu məlumatların gerçək, yoxsa absurd olması ciddi bir araşdırma tələb edir. Elə buna görə də "Da Vinçi şifrəsi" romanı oxucudan ciddi hazırlıq və məlumatlılıq tələb etdiyi üçün intellektual nəsr nümunəsidir.

**Den Braunun İsaya verdiyi bədii qiymət.**

İlk olaraq qeyd etmək lazımdır ki, Den Braun İsa kimi bir şəxsiyyətin həyatını romanlaşdırmaqla onun böyüklüyünü etiraf edir. İkincisi, Den Braunun İsaya münasibəti qərəzli deyil. Müəllif bədii imkanlarından istifadə edərək İsanı daha fərqli və intellektual şəkildə təqdim edir (National Geographic, 2015). Başqa sözlə, əksər dini mətnlərin göyə qaldırdığı İsanı Den Braun yerə endirir. İsaya müqəddəs münasibət ona yaxınlaşmaqdan daha çox ondan uzaqlaşmaqdır. Dinin siyasi və ideoloji olaraq istifadə olunması nəticəsində İsa haqqında olan məlumatlar da formasını dəyişdirmişdir. Den Braun Leonardo da Vinçinin əsərlərinə müraciət etməklə bir çox sirlərin açılmasına çalışır. Məsələn, dünyaca məşhur Mona Lizanı Den Braun Leonardo da Vinçinin zarafatı kimi təqdim edir (Braun, 2013). Əsas şifrə Cakondanın müəmmalı təbəssümündə yox, İsa ilə bağlı sirlərdədir. Buradan Den Braunun İsaya verdiyi bədii qiymət haqqında ilkin təsəvvür formalaşır. Den Braun İsanı absurdun əhatəsindən çıxarıb insanlara yaxınlaşdırmağa çalışır. Den Braunun Mona Lizanı bütpərəst simvollarla zəngin bir nümunə kimi təqdim etməsi gerçəkliyin təyinatına əsaslanır. Den Braunun İsaya verdiyi bədii qiymətin özülü əsərin əvvəlindən qoyulur. Den Braun İsanın həyatına müdaxiləsi ilə insanları büt yaratmamağa səsləyir. Hər şeyin mahiyyətində bir yanlışın olması düşüncəsi mövcuddur. “Leonardo da Vinçinin işlərində gizli şifrələr var”. Den Braunun İsaya verdiyi bədii qiyməti bir cümlə ilə belə ifadə etmək olar: “İsanı göydən yerə endirməyin zamanı çatıb”.

Den Braun İsanı intellektual şəkildə təqdim etməklə onun həyatını öyrənməyin labüdlüyünü göstərir. İsanı araşdırdıqca onu daha çox sevmək mümkündür. Əsas günah İsadan uzaqlaşmaqdır. İsaya yaxınlaşmaq üçün isə onu daha çox öyrənmək və adi insan kimi qəbul etmək lazımdır. Bunun üçün dini ideoloji olaraq yox, həyat tərzi kimi qəbul etmək lazımdır. Den Braunun İsanı intellektual bədii təqdimatı ədəbi baxımdan detektiv janrın sərhədlərində qalsa da, ideya baxımından güclüdür.

**Ədəbiyyat:**

1. Braun, D. (2013). Da Vinçi şifrəsi. (S.Bulut. Trans.) Bakı: Qanun.

2. www.mynet.com. “Da Vinci şifresi’nin Yazarı Dan Brown Hakkında 10 Şaşırtıcı Bilgi”. Retrieved from https://mynet.com: https://www.mynet.com/da-vinci-sifresinin-yazari-dan-brown-hakkinda-10-sasirtici -bilgi-190101055949 [accessed Oct 24 2018].

3. URL: https:// /da-vinci-sifresinin-yazari-dan-brown-hakkinda-10-sasirtici-bilgi-190101055949

4. Qurani-Kərim və açıqlamalı məali. (2003) (F.Qaraoğlu. Trans.) Ankara: Baskı-Cilt.

5. Lagerkvist, P. (2009). Seçilmiş əsərləri. (İ.Əlfioğlu. Trans.) Bakı: “Şərq-Qərb”.

6. www.youtube.com. “Türkce Belgesel - National Geographic: Efsane mi, Gerçek mi? Da Vinci'nin Şifresi”. Retrieved from https://youtube.com: https://www.youtube.com/watch?app=desktop&v=fx1_ sfyfyGY [accessed May 15 2015].

7. Sakioğlu, M. (2006). Da Vinçinin kutsal kasesi. Tapınak şövalyeleleri’nin deşifresi. İstanbul: Karakutu Yayınları.

8. The Notebooks of Leonardo da Vinci, Complete by Leonardo da Vinci (2005). (Richter, J.P. Trans.) California: CreateSpace Publishing.

# MƏTN DİLÇİLİYİNİN ƏSAS PROBLEMLƏRİ

**Mirzəzadə Günay İlqar**
**Azərbaycan Dillər Universiteti**
**https://orcid.org/0009-0006-4158-8391**
**agunayfiloloq@gmail.com**

# ОСНОВНЫЕ ПРОБЛЕМЫ ЛИНГВИСТИКЫ ТЕКСТА

**Мирзазаде Гюнай Ильгар**
**Азербайджанский Университет Языков**
**https://orcid.org/0009-0006-4158-8391**
**agunayfiloloq@gmail.com**

## Резюме

Несмотря на то, что лингвистика текста широко изучается как мировой, так и азербайджанской лингвистикой, в центре ее внимания по-прежнему находится ряд проблем. Поскольку текст является самой крупной единицей синтаксиса, происхождение и морфологическая структура языков показывают важность использования целого ряда различных методов при его изучении. Кроме того, важную роль в понимании и анализе текста играют язык и стиль текста, интеллектуальный уровень и мировоззрение читателя. Дальнейшее исследование всех этих вопросов и выявление новых подходов является приоритетной задачей современной лингвистики текста. Следует также отметить, что публикация исследований в этой области в международных СМИ, обмен знаниями и опытом могут помочь в достижении более последовательных результатов.

**Ключевые слова:** лингвистика текста, контекст, интерпретация, связность, языковой стиль

# THE MAIN PROBLEMS OF TEXT LINGUISTICS

**Mirzazade Gunay Ilgar**
**Azerbaijan University of Languages**
**https://orcid.org/0009-0006-4158-8391**
**agunayfiloloq@gmail.com**

## Summary

Although text linguistics has been widely studied by both world linguistics and Azerbaijani linguistics, it is still at the center of attention with a number of problems. Since the text is the largest unit of syntax, the origin and morphological structure of languages show the importance of using a number of different methods in its study. Also, the language and style of the text, the reader's intellectual level, and worldview also play an important role in understanding and analyzing the text. A deeper investigation of all these issues and the identification of new approaches is a priority for modern text linguistics. The publication of studies in this field in international media, the exchange of knowledge and experience can help to achieve more consistent results.

**Keywords:** text linguistics, context, interpretation, coherence, language-style

Diskurs təhlili və ya mətn təhlili də adlanan mətn linqvistikası mətnin mənası, struktur elementləri, hadisə və ya fikirlərin ardıcıllığı kimi məsələləri öyrənən tədqiqat sahəsidir. Mətn dilçiliyinin tədqiq obyektinə dair araşdırmaların çox olmasına baxmayaraq, bir sıra problemləri ilə hələ də qalmaqdadır. Bu problemləri aşağıdakı şəkildə qeyd etmək olar:

*1. Mətnin sərhədlərinin müəyyən olunması*: Mətnlər uzunluq və mürəkkəblik səviyyələrinə görə müxtəlif ola bilər. Qısa, bir neçə ifadədən ibarət sintaktik bütövü də, həmçinin böyük hekayələri, povestləri də mətn hesab etmək olar. Odur ki, mətnin haradan başlaması və harada bitdiyini müəyyən etmək problem olaraq bu gün də öz aktuallığını qorumaqdadır. (Kavcic, A. 2008; Trappes-Lomax, Hugh 2004)

*2. Əlaqəlilik və sistemlilik*: Mətndə fikirlərin axını, düşüncələr, həmçinin fikir və faktlar arasındakı əlaqəni mətnin struktur elementləri arasındakı sistemliliklə uyğunlaşdırmaq böyük bacarıq tələb edir. Xüsusilə həcmcə böyük mətnlərdə bu tarazlılığı yaratmaq çətindir (Abdullayev K.M., Məmmədov A.Y, Musayev M.M. və b. 2012).

*3. Mətnin kontekstinin müəyyənləşdirilməsi*: Bəzi mətnlərin kontekstinin müəyyənləşdirilməsi zamanı daha diqqətli olmaq lazımdır. Bir sıra amillər, məsələn oxucunun etnik dəyərləri, koqnitiv bacarıqları, mövcud tarixi vəziyyət və s. mətnin kontekstinin müəyyənləşdirilməsinə təsir edir. Nəzərə almaq lazımdır ki, konteksti düzgün müəyyənləşdirilməyən mətnin təhlili zamanı bəzi fikirlər təhrif ediləcəkdir (Adilov M. 2009, Kazımov Q.Ş. 2004).

*4. Mətnlərarası əlaqə yaratmaq*: Mətnlərdə digər mətnlərə ya istinad edilir, ya da hər hansı bir məsələyə işarə edilir. Mətnlər arasındakı əlaqələndirməni başa düşmək üçün mətndəki hadisə, şəxs və s. ilə bağlı faktların aid olduğu ədəbi və mədəni irsi dərindən bilmək tələb olunur. Əks halda mətni təhlil etmək də mümkün olmur (Musayev M. M. 2011).

*5. Multimodallıq*: Müasir mətnlər ənənəvi yazı dili ilə yanaşı, şəkillər, videolar və hiperlinklər kimi müxtəlif vasitələrdən də ibarət olur. Multimodal mətnlərin təhlili zamanı müxtəlif semiotik resursları anlamaq və onları inteqrasiya etmək tələb olunur (Trappes-Lomax, Hugh 2004; Roger Fowler. 1991).

*6. Subyektivlik və şərhetmə*. Mətnin təhlili zamanı istənilən halda subyektivlik və ya fərqli şərhetmə halları olur. Belə ki, fərqli analitiklər tərəfindən eyni mətnin təhlilinə nəzər yetirsək, şərhlərdəki müxtəliflik və subyektivliyi aşkar edə bilərik. Bura onların milliyyəti, potensial imkanları və s. kimi amillər təsir edir (Schegloff, E.A. and Sacks, H. 1974).

*7. Mətn növlərinin nəzərə alınması:* Mətnlər məqsəd və tipinə görə hər birinin özünəməxsus əlaməti, strukturu olan müxtəlif növlərə aid ola bilər. Həmin mətn tiplərinə (və ya növlərinə, janrlarına) xas xüsusiyyətləri yüksək səviyyədə fərqləndirmək düzgün təhlil və yanaşma tələb edir (Bəyzadə Q. 1999).

*8. Mətn və oxucu arasındakı uyğunluq*: Mətnin şərhinə oxucunun oxuyub-anlama bacarıqları, intellektual imkanları və həyat təcrübəsi təsir edir (De Beaugrande, R., & Dressler, W. U. 1981).

*9. Dil-üslub fərqliliyi:* Mətnlər kontekstdən və nəzərdə tutulan auditoriyadan asılı olaraq fərqli dil-üslubi xüsusiyyətlərə malik olur. Çoxdilli və müxtəlif mədəniyyətlərin olduğu auditoriyalarda bu cür mətnlərin təhlili çətin olur (Crane A., Paul 2012).

*10. İKT bacarıqları:* Rəqəmsal ünsiyyət və sosial medianın inkişafı ilə mətnlərin təkmilləşərək yeni formatının yaranması onların təhlilində də daha çox bacarıqların tələb olunduğunu göstərdi (Schegloff, E.A. and Sacks, H. 1974).

Bütün bu çətinliklərə baxmayaraq, mətn dilçiliyi dilin istər şifahi, istər yazılı diskurs kontekstində nitq fəaliyyətini anlamaqda mühüm sahə olaraq qalır. Tədqiqatçılar bu problemləri həll etmək üçün müxtəlif metodlar üzərində işləyirlər.

**Ədəbiyyat:**

1. Adilov M. (2009). Azərbaycan paleoqrafiyası. Azərbaycan Milli Elmlər Akademiyası Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu. Bakı, Elm, 224

2. Kavcic, A. (2008) *Text linguistics*. Informally published manuscript, English and German Studies, Retrieved from www.englistika.info/podatki/3_letnik/besediloslovje-I-izpiski.doc

3. De Beaugrande, R., & Dressler, W. U. (1981) *Introduction to text linguistics* / Robert-Alain De Beaugrande, Wolfgang Ulrich Dressler. London; New York: Longman, 1981.

4. Abdullayev K.M., Məmmədov A.Y, Musayev M.M. və b. (2012). Azərbaycan dilində mürəkkəb sintaktik bütövlər. Bakı. Mütərcim, 608.

5. Bəyzadə Q. (1999). Mətn sintaksisinin problemlərinə bir nəzər. Bakı, 799.

6. Kazımov Q.Ş. (2004). Müasir Azərbaycan dili. Bakı, 494.

7. Musayev M. M. (2011). Türk ədəbi dillərində mürəkkəb cümlə sintaksisi. Bakı, 403

8. Trappes-Lomax, Hugh (2004) Discourse analysis", in *The Handbook of Applied Linguistics* ed. by A. Davies & C. Elder. Oxford: Blackwell, pp. 133–64.

9. Roger Fowler. (1991) *Language in the News: Discourse and Ideology in the Press.* London/ New York: Routledge.

10. Crane A., Paul (2012). "Texture in Text: A Discourse Analysis of a News Article Using Halliday and Hasan's Model of Cohesion" (PDF). Retrieved 10 August 2012.

11. Schegloff, E.A. and Sacks, H. (1973) "Opening up Closings", *Semiotica* 7 (4): 289–327 (reprinted in Turner, R (1974) "Ethnomethodology: selected readings", Harmondsworth: Penguin Books LTD)

# AZƏRBAYCAN TOPONİMLƏRİNİN FORMALAŞMA ÜSULLARI

**Cəfərova Aygün Hilal**
**Azərbaycan Dillər Universiteti**
**https://orcid.org/0000-0002-9396-5148**
**Aygunjafarr@gmail.ru**

# METHODS OF FORMATION OF TOPONYMS OF AZERBAIJAN

**Jafarova Aygun Hilal**
**Azerbaijan University of Languages**
**https://orcid.org/0000-0002-9396-5148**
**Aygunjafarr@gmail.ru**

**Summary**

As is known, oronyms are the names of geographical objects that differ from each other due to the relief structure of the top layer of the soil. One of the main features of microtoponyms is their processing with a nomen that indicates belonging to a geographical object and defines a microgeographical object. The main objects indicated by microtoponyms are hill, valley, plain, depression, pass, rock, hill, street, neighborhood, spring, fountain, ditch, etc. includes.

The role of socio-geographical factors in the emergence and formation of oronyms in the north-western zone of Azerbaijan is very important. Oronyms present in the territory of Azerbaijan play a special role in the formation of the toponymic system: Arvan mountain, Garayaylag mountain, Bum slope, Bum valley, Uludaş rock, Bozdag, Boyundag, Goydag, Kungut dag, Tepa dag, Tepagoshun dag, Yukhari Horad dag, Ashagi Gosh. mountain, Goyhorad mountain, Bozdag, Goydag, Galaguzey mountain, Goytepe hill, Sarigaya, Kizilgaya, etc.

**Keywords**: oronym, toponym, geographic, areal, microtoponym

# СПОСОБЫ ОБРАЗОВАНИЯ ТОПОНИМОВ АЗЕРБАЙДЖАНА

**Джафарова Айгюн Хиляль**
**Азербайджанского Университета Языков**
**https://orcid.org/0000-0002-9396-5148**
**Aygunjafarr@gmail.ru**

**Резюме**

Как известно, оронимы – это названия географических объектов, отличающихся друг от друга из-за рельефного строения верхнего слоя почвы. Одной из основных особенностей микротопонимов является их обработка номеном, указывающим на принадлежность к географическому объекту и определяющим микро-географический объект. Основными объектами, обозначаемыми микротопонимами, являются холм, долина, равнина, котловина, перевал, скала, холм, улица, окрестности, родник, фонтан, ров и др. включает в себя.

Роль социально-географических факторов в возникновении и формировании оронимов в северо-западной зоне Азербайджана очень велика. Особую роль в формировании топонимической системы играют существующие на территории Азербайджана оронимы: гора Арван, гора Гараяйлаг, склон Бум, долина Бум, скала Улудаш, Боздаг, Бойндаг, Гейдаг, Кунгутдаг, Тепе даг, Тепагошун даг, Юхари Горад даг, гора Ашаги Гош, гора Гейхорад, Боздаг, Гейдаг, гора Галагузей, гора Гёйтепе, Сарыгая, Кизилгая и др.

**Ключевые слова**: ороним, топоним, географический, ареал, микротопоним

Müasir dövrdə Azərbaycan toponimlərinin tədqiqi dilçiliyin aktual məsələlərindəndir. Bu tədqiqatlar yalnız dil baxımından deyil, həm də siyasi cəhətdən olduqca aktualdır. Çünki hər bir coğrafi ad mənsub olduğu xalqın tarixini, dilini, inam və etiqadlarını, dünyagörüşünü, etnoqrafiyasını, adət-ənənəsini, mədəniyyətini, ümumiyyətlə hər şeyini əks etdirir. Toponimlərin tədqiqi dilin və xalqın tarixinin öyrənilməsi baxımından da aktualdır. Toponimlər, xüsusilə də etnotoponimlər xalqın qədim yaşayış məskənlərini müəyyənləşdirmək üçün, həmin ərazidə baş vermiş ictimai-siyasi hadisələri qiymətləndirmək, hadisələrin səbəblərini, köklərini təyin etmək, doğruları müəyyən etmək istiqamətində olduqca dəyərlidir.

Məqalədə onomastik vahidlərin - toponimlərin bir qolu olan oronimlər, onların yaranma və formalaşması haqqında məlumat verilmiş, Azərbaycanın şimal-qərb zonasına məxsus bəzi oronimlərdən və onların formalaşmasında coğrafi nomenlərin rolundan bəhs olunmuşdur.

Xüsusi adların bir qrupu olan toponimlər-yer-yurd adlarının da hər biri söz olduğu üçün dil qanunlarına tabedir. Hər hansı bir toponimin formalaşması, struktur xüsusiyyətləri də digər leksik vahidlərin formalaşmasına bənzərdir.

Məlum məsələdir ki, toponimlər özləri də daxilən bir neçə növə bölünür: oykonimlər, oronimlər, dromonimlər, urbanonimlər və s. Bu məqalədə biz oronimlərin formalaşmasında iştirak edən bəzi coğrafi nomenlərdən bəhs etməyi planlaşdırmışıq.

İlk növbədə, qeyd edək ki, oronimlər toponimlərin xüsusi bir növü olub, torpağın yerüstü relyef quruluşunu əks etdirir. Oronimlərin əsas obyektlərini təpə, yüksəklik, aşırım, yal, yüksəklik, dərə, düz, çökək, keçid, qaya, qobu, tirə, tala, binə, pəyə, qışlaq, sahə, yer, biçənək, qoruq, küçə, məhəllə, bulaq, çeşmə, arx və s. təşkil edir. Oronimlərin formalaşmasında elə həmin coğrafi nomenklatur sözlər iştirak edir.

Azərbaycandilli oronimlərin əksəriyyəti Azərbaycan dilinə və qədim türk dillərinə mənsub sözlər əsasında yaranmaqla oronimik sistemin təxminən, 99 faizini təşkil edir. Ölkəmizin şimal-qərb zonasına məxsus oronimlər də maraqlı xüsusiyyətlərə malikdir və tədqiqi aktualdır.

Azərbaycanın şimal-qərb zonası ərazisindəki oronimlərin yaranıb formalaşmasında sosial-coğrafi amillərin rolu böyük olmuşdur. Şimal-qərb zonası ərazisində mövcud olan oronimlər regionun toponimik

sisteminin formalaşmasında xüsusi rol oynayır: Arvan dağı, Qızılburun dağı, Qarayaylaq dağı, Bum yamacı, Bum dərəsi, Bum təpəsi, Bum çökəkliyi, Sarıyamac, Uludaş qayası, Doqquzdərə dərəsi, Zoğallı dağ, Şabalıd təpə (Qəbələ r.), Göy-Bayır dağı, Çaldaş dağı, İnəkqoşun təpəsi, Qoşunkar dağı, Göydağ, Üçqardaş dağı, Yeddiqardaş dağı, Üçhaça dağı, Yedditəpə dağı, Xırmancaryer dağı, Dəymədağ dağı, Yazxırman yaylağı, Sarıgüney, Muğan qobusu, Şabalıd dərəsi, Şabalıd yamacı (Oğuz r.), Kuvurdağ, Şiştəpə (Zaqatala r.) və s.

Oronimlərin formalaşmasında iştirak edən nomenlər aşağıdakılardır:

1.Dağ. Təpədən uca, quruluqlarda yer üzündən ucalan yerlərə deyilir. Dağlar yer kürəsinin relyefinin təxminən 40%-ni təşkil edir.

Həmin dağların müəyyən hissəsi də Azərbaycanda yerləşir. Məsələn; Kəpəz dağı, Qoşqar dağı, Qızılburun dağı, Qarayaylaq dağı, Göy-Bayır dağı, Çaldaş dağı, Qızılcık dağı, Küngüt dağı və s. Strukturuna görə həmin adların bəzilərinin tərkibində dağ sözü adın tərkibində işlənir və bitişik yazılır: Bozdağ, Sarıdağ, Boyundağ və s. (Qurbanov və b. 1999).

İkinci qrupa daxil olan oronimlərdə isə “dağ” sözü “dağı” formasında işlənir. Əsas sözdən ayrı yazılır və struktur etibarilə, II növ ismi birləşmə şəklində olur: Kəpəz dağı, Qoşqar dağı, Beşyataq dağı və s. (Qurbanov və b. 1999).

2.Təpə. Təpə sözü də torpağın müsbət relyef quruluşlu əraziləridir. Hündürlüyü dağdan aşağıdır. Dağ sözündə olduğu kimi, təpə sözü də bəzən sözə bitişik yazılıb mürəkkəb söz, bəzən də ayrı yazılıb II növ ismi birləşmə strukturlu oronimlərin formalaşmasında iştirak edir. Göytəpə, Tövrətəpə oronimlərində təpə sözə bitişik; Qıpçaq təpəsi, Köbər-Zəyzit təpəsi adlarında isə ayrı yazılaraq II növ ismi birləşmə quruluşlu oronimlər formalaşdırmışdır.

3.Dərə coğrafi nomeni. Mənfi relyef quruluşlu oronimdir. Adətən, su axını və ya torpağın eroziyası nəticəsində yaranır. Ölkəmizin ərazisində dərələr say etibarilə çoxdur. Məsələn; Şabalıd dərəsi, Qıpçaq dərəsi, Ağsuçay dərəsi, Qızıldərə, Qutan dərəsi və s. bu dərələr Azərbaycanın şimal- qərb ərazilərinə aid olduğu üçün qıpçaq etnoniminə, həm dağ adlarında, həm də dərə adlarında, eləcə də digər toponimlərin tərkibində rast gəlirik. Çünki həmin ərazilərdə türk tayfalarından olan qıpçaqlar daha çox məskunlaşmışlar.

Qeyd: Ölkəmizin qərb ərazilərində isə daha çox oğuzlar məskun olduqları üçün, oğuz etnonimi işlənmişdir və oğuz dil elementləri bu ərazilərdə xalq danışıq dilində də özünü qoruyub saxlamışdır. Elə qərb şivələrində velyar n-boğaz samitinin (ŋ=n+q) işlənməsi də oğuz elementidir. Oğuz qrupuna aid olmayanlar həmin samitin tələffüzündə çətinlik çəkirlər.

4.Dərə sözü də bəzən sözə bitişik işlənərək I növ ismi birləşmə, bəzən ayrı yazılaraq II növ ismi birləşmə strukturlu oronimlərin formalaşmasında iştirak edir. Nümunələr: Ağdərə, Bozdərə, Doqquzdərə və s. I növ təyini söz birləşməsi quruluşundadır; Qıpçaq dərəsi, Qutan dərəsi və s. isə II növ təyini söz birləşməsi quruluşundadır.

5.Düz. Düz eniş və yoxuşu, təpəsi olmayan, ümumi fondan kənara çıxmayan hamar relyef quruluşudur. Coğrafiyada “düzənlik” termini təyin olunmuşdur. Qurunun hamar, alçaq-hündürlük fərqləri 200 metrdən az və geoloji quruluşu eyni olan sahəsi düzənlik adlanır. Dəniz səviyyəsindən aşağı və yuxarı olmağa görə düzənliyin ovalıq və yayla formaları fərqləndirilir (Qasımov 1979).

6.Mil düzü, Muğan düzü, Arxaclar düzü, Qıpşaq düzü və s. Bədii ədəbiyyatda bəzən düz sözü olmadan da bəzi adlar işlənə bilir. Bu cəhət Mil, Muğan toponimlərinə aiddir. Məsələn:

Muğana su gəlir, Milə su gəlir.
Yığışıb elatı, ulusu gəlir (S.Vurğun).

Nümunədən də göründüyü kimi, bədii əsərin xüsusiyyətindən və yazıçının məqsədindən asılı olaraq coğrafi nomenin düşməsi müşahidə edilir. Əksər hallarda isə, düz nomeni işlədilir və II növ təyini söz birləşmələri strukturlu oronimlər formalaşır.

7.Qobu. "Qobu" sözü və bu sözlə bağlı toponimlər haqqında məlumat və fikirlərə ayrı-ayrı tədqiqatçıların əsərlərində rast gəlinir (Kaşğari, 2006). Yazıçı Qılman İlkin (Musayev) Bakıdakı Qobu toponimini izah edərkən yazır: "Qobu sözü yarğan deməkdir. Kənd də yarğanda salındığı üçün qobu adlanır" (Məmmədov2007).

Qobu sözü və onun işlənmə xüsusiyyətləri haqqında prof. N.Əsgərov geniş məlumat vermişdir. Qobu sözü əski türk dillərində "içi boş, oyuq anlamında; türk-osmanlı dilində isə "koba"- keçilməz yol, yuva, xəndək, çuxur anlamlarını ifadə etmişdir. Ölkəmizin toponimiyasında qobu sözü həm ayrıca toponim kimi-Qobu, Qobustan; həm də toponimin tərkibində coğrafi nomen kimi işlənmişdir. Məsələn; Qafarlı qobu, Şoran qobu, Şıxbəy qobu və s.

Azərbaycan toponimlərinin, eləcə də oronimlərin formalaşmasında yer, kənd, yataq və s. sözlər, eyni zamanda ölkəmizin sakinləri olan azsaylı xalqlardan talış, tat, ləzgi və digər dillərə aid olan coğrafi nomenlərdən də istifadə edilmişdir.

Eyni zamanda bir qrup say bildirən sözlər də oronimlərin formalaşmasında iştirak edir. Saylardan üç, beş, yeddi, qırx sözləri toponim yaradıcılığında fəal iştirak etmişdir. Məsələn; Beşbarmaq, Yeddiqardaş, Altıağac, Doqquzdərə və digər adlar buna nümunə ola bilər.

Dilin leksik sisteminin xüsusi qatını təşkil edən etnotoponimlər təkcə dilin inkişaf tarixini, onun yayılma areallarını öyrənmək baxımından deyil, həm də xalqın etnogenezini öyrənmək cəhətdən son dərəcə böyük əhəmiyyət kəsb edir. Azərbaycan və türk mənşəli toponimlərə münasibətdə Azərbaycan türklərinin qədim yaşayış məskənlərində süni şəkildə yaradılmış Ermənistanda xalqımıza və tariximizi əks etdirən toponimlərimizə qarşı həmişə qərəzli olmuş, azərbaycanlıları bu ərazilərdən deportasiya etmiş, adlarımızı dəyişdirmiş, bəzən erməni sözlərinə uyğunlaşdırmış, kalka etmişlər.

Faktları saxtalaşdırmaqla bu ərazilərdən xalqımızın izlərini, xalqımızın tarixini silməyə çalışmışlar.

Toponimləri dil tarixi ilə bağlı qiymətli mənbə hesab etməklə yanaşı, həmin xalqın tarixən yaşadığı ərazini müəyyənləşdirmək, bu ərazidə baş vermiş ictimai-siyasi hadisələri, prosesləri dəyərləndirmək, həmin hadisələrin əsl köklərini araşdırmaq, həqiqətləri meydana çıxarmaq məqsədilə tarixi-hüquqi material və ən dəyərli faktlar adlandırmaq mümkündür.

Apardığımız araşdırmadan da görünür ki, toponimlərimizin çox böyük bir qismi türk mənşəli adlardır, onların formalaşmasında türk mənşəli coğrafi nomenlər və şəkilçilər iştirak etmişdir, eyni zamanda Azərbaycan toponimləri, oronimləri struktur cəhətdən daha çox mürəkkəb quruluşludur.

Tədqiqatın nəticələrindən toponimlərin araşdırılmasına həsr edilən gələcək tədqiqatlarda dissertasiya və monoqrafiyalarda istifadə edilə bilər. Hətta Qərbi Azərbaycan (indiki Ermənistan) ərazilərindəki toponimlərin araşdırılması zamanı onların formalaşma üsulları, dil xüsusiyyətləri bu adların türk mənşəli olduğunun meydana çıxarılmasında, eyni zamanda ərazinin yerli aborigenlərinin isə türklər olduğunu söyləməyə əsas verir.

**Ədəbiyyat:**

1. Azərbaycan dilinin izahlı lüğəti. I c., (1966). (4 cilddə), Bakı: Azərnəşr, 595 s.
2. Azərbaycan toponimləri ensiklopediyası. (1999). (Qurbanov A. və b.) Bakı: 588 s.
3. Azərbaycan faunası. (1977). VI c., Quşlar, I b., Bakı: Elm, 316 s.
4. Axundov A. (1983). Torpağın köksündə tarixin izləri. Bakı: Gənclik, 136 s.
5. Bayramov İ. (2002). Qərbi Azərbaycanın türk mənşəli toponimləri. Bakı, 695 s.

6. Behbudov S. (2003). Azərbaycan dili şivələrinin omonimlər lüğəti. Bakı, 206 s.
7. Əliyev V. (1999). Zəngi dərəsinin bir neçə toponimi haqqında. AOP, VII. Bakı.
8. Əhmədov B. (1990). Leksika məsələləri. Bakı, 139 s.
9. Əsgərov N. (2005). Areal türk onomastik vahidlərinin linqvistik xüsusiyyətləri. Bakı: Elm, 485s.
10. Əsgərov N. (2013) Azərbaycanın çay adlarının tarixi-linqvistik təhlili. Bakı, 576 s.
11. Hacıyev A. (1990). Azərbaycan dilinin onomastik sistemi. Bakı,101 s.
12. Kaşğari Mahmud. (2006). Divanü luğat-it-türk. I c., Bakı: Ozan, 752 s.
13. Qurbanov A.M. (2004). Azərbaycan onomalogiyasının əsasları. II c., (2 cilddə), Bakı: Nurlan, 504s.
14. Məmmədov N. (1993). Azərbaycanın yer adları (oronomiya). Bakı: Azərnəşr, 184 s.
15. Məmmədov N. (2007). Toponimika. Bakı, 407 s.
16. Musayev İ. (Qılman). (1998). Bakı və bakılılar. Bakı: Zaman, 384 s.
17. Osmanov O., Abdullayev B. (1979) Məktəblinin izahlı coğrafiya lüğəti. Bakı: Maarif, 132 s.
18.Ramazanov K.T. (2004). Türk dillərində quş adları//Türk dillərinin tarixi-müqayisəli leksikologiyası məsələləri. I c., Bakı: Kitab aləmi. s. 18-74.
19. Подольская Н.В. (1988). Словарь русской ономастической терминологии. Москва: Наука, 192 с.

## AZƏRBAYCAN DİLİNİN QAŞQAY DİALEKTİNİN FONEM SİSTEMİNDƏ SAİT SƏSLƏR

**Babayeva Xədicə Qabil**
**Bakı Avrasiya Universiteti**
**https://orcid.org/0009-0008-2203-8129**
**khadija.babayeva@abc.edu.az**

## VOWEL SOUNDS IN THE PHONEME SYSTEM OF THE KASHGAY DIALECT OF THE AZERBAIJANI LANGUAGE

**Babayeva Khadija Gabil**
**Baku Eurasian University**
**https://orcid.org/0009-0008-2203-8129**
**khadija.babayeva@abc.edu.az**

**Summary**

In Azerbaijani dialectology, when people talk about the dialects of the Azerbaijani language, they are talking not only about the territory of Azerbaijan, but also about the spoken language of the Turks living in the territories of Derbend, Iraq, Borchaly, Georgia, South Azerbaijan, and this means that the Azerbaijani language was spoken in vast territory. The distribution of vowels used in the spoken language of the Kashgay Turks living in South Azerbaijan has been studied by various scholars and it has been concluded that there are 9 vowels in the Kashgay Turkic tribes. As the difference between dialects moves away from the starting point, it is natural that the difference between dialects will be very large.

The division of vowels in the spoken language of the Kashgay Turks living in South Azerbaijan has been studied by various scholars, and the language of the Kashgay Turkic tribes has been studied on the basis of spoken materials, and it has been concluded that this dialect. Many researchers list the vowels a,e,ė,ı,i,o,ö,u,ü in the Kashqay phonetic system. In the Kashqay vowel system, it is divided into normal and long vowels based on vowel length.

The element /Ä/ is not included in the vowel system and is retained outside the vowel system, and this sound occurs in colloquial speech. In our Azerbaijani language, this sound contains the sound /ə/.

***Keywords:*** Oghuz Turks, dialects, Azerbaijani language, Kashqay, phonemes, vowels.

## ГЛАСНЫЕ ЗВУКИ В ФОНЕМНОЙ СИСТЕМЕ КАШГАЙСКОГО ДИАЛЕКТА АЗЕРБАЙДЖАНСКОГО ЯЗЫКА

**Бабаева Хадиджа Габиль**

**Бакинский Евразийский Университет**

**https://orcid.org/0009-0008-2203-8129**

**khadija.babayeva@abc.edu.az**

**Резюме**

В азербайджанской диалектологии, когда говорят о диалектах азербайджанского языка, речь идет не только о территории Азербайджана, но и о разговорном языке тюрков, проживающих на территориях Дербенда, Ирака, Борчалы, Грузии, Южного Азербайджана, и это означает, что на азербайджанском языке говорили на обширной территории. Распределение гласных, используемых в разговорном языке кашгайских тюрков, проживающих в Южном Азербайджане, изучалось различными учеными, и был сделан вывод, что в кашгайских тюркских племенах имеется 9 гласных. По мере того, как разница между диалектами удаляется от исходной точки, естественно, что разница между диалектами будет очень большой.

Разделение гласных в разговорном языке кашгайских тюрков, проживающих в Южном Азербайджане, изучалось различными учеными, а язык кашгайских тюркских племен исследовался на основе разговорных материалов и был сделан вывод о том, что это является диалектом. Многие исследователи перечисляют гласные a,e,ė,ı,i,o,ö,u,ü в фонетической системе кашкаев. В системе гласных она делится на нормальные и долгие гласные в зависимости от длины гласных.

Элемент /Ä/ не входит в систему гласных и сохраняется вне системы гласных, и этот звук встречается в разговорной речи. В нашем азербайджанском языке этот звук содержит звук /ə/.

**Ключевые слова:** тюрки-огузы, диалекты, азербайджанский язык, кашкай, фонемы, гласные.

Tələffüz olunan, yazılan, oxunan, eşidilən nitq kimi müxtəlif formalarda səslərlə təzahür edilən dil səsli dilin maddi qabığıdır. İllərdir ki, dil səslərlə maddiləşən bir ictimai hadisə hesab edilmişdir. (Dəmirçizadə, 2007)

Dil inkişaf edən proses olduğu üçün bu inkişaf prosesində dildəki səslərdə müxtəlif dərəcəli dəyişikliklər yaranır. Hər hansı bir dildə səslərin dəyişməsi bir sıra fonetik qanun və hadisələrin dəyişib tam da olmasa yenilənməsinə və eyni zamanda hətta yeni fonetik qanunların yaranmasına səbəb olmaqdadır. (Dəmirçizadə, 2007)

Dialektoloqlar tərəfindən Azərbaycan dili dialektlərinin tarixi mənbələrə və dil faktlarına görə, iki inkişaf mərhələsi müəyyənləşdirilmişdir. Dilimizin təşəkkülündə iştirak etmiş tayfaların dil xüsusiyyətlərinin saxlanması dövrü (XII əsrədək) və tayfa dili xüsusiyyətlərini itirməklə şivələrin məhəlli müəyyənləşməsi dövrü (XII-XVIII əsrlər) kimi qeyd edilməkdədir. Azərbaycan dili dialektlərinin yaranması ümumxalq Azərbaycan dilinin yaranmasından əvvəlki dövrə təsadüf etməkdədir. (Əzizov, 2016)

Dialektoloji araşdırmalar zamanı dialektoloqlar belə qənaətə gəlmişdirlər ki. dialektin tarixi kateqoriya olaraq yaranaraq inkişaf etməsi ümumxalq dilin tarixi ilə əlaqələndirilmişdir. Tarixi-dialektoloji tədqiqat olmadan hər hansı bir ədəbi dili və ya onun canlı xalq dialektləri ilə bağlı olan müxtəlif üslublarının formalaşmasını, nə tarixi haqqında geniş məlumatları, nə də ədəbi dilinin tarixi fonetikası, tarixi qrammatikası və tarixi leksikologiyasının müxtəlif həcmli problemlərini tam şəkildə aydınlaşdırmaq olmaz. (Əzizov, 2016) Ümumi nəticə olaraq isə dialekt hər zaman inkişaf prosesindədir və hər zaman yeni keyfiyyətlər qazanmaqdadır.

Azərbaycan dilinin köklərini bu dildə danışan xalqın əsas kütləsinin hazırda yaşadıqları Cənubi Azərbaycanda və Qafqazda axtarmaq lazımdır. (Əzizov, 2016)

İnkarolunmaz faktdır ki, dialekt inkişafda olan bir vəhdət olduğuna görə, onda daima yeni keyfiyyətlər meydana çıxır. Hazırda Azərbaycan dilinin tayfa mənsubiyyətini indiyə kimi qoruyub saxlayan ayrım, kərkük-türkman, qaşqay, əfşar, qacar, eynallı, qaraqalpaq, xələc və s. dialektləri müxtəlif ərazilərdə yayılmışdır. Oğuz dillərinin dialektlər sistemində olan kərkük-türkman, qaşqay, eynallı və əfşar uzaqlaşmış dialektlərdir və bəzi dilçi alimlərin fikrincə, miladın ilk illərindən günümüzə qədər türklər heç bir zaman kəsiyində eyni məkanda yaşamamışlar. Oğuz dillərinin dialektlər sistemində Kərkük-türkman, qaşqay, eynallı və əfşar dialektləri təcrid olunmuş dialektlər hesab edilmiş, başqa dil mühitində olmalarına və digər oğuz dialektlərindən ayrılmalarına, bir çox oğuz dillərinə məxsus qədim xüsusiyyətlərini saxlamalarına baxmayaraq digər mühitlərin təsirindən bir çox yenilikləri istifadə etdikləri dillərə qatmaqdadırlar. Təcrid edilmiş hesab edilmələri onları Azərbaycan dilinin cənub şivələri ilə bağlılığını inkar edə bilməz. (Əzizov, 2016)

Bu günə qədər bir çox alim qaşqay dilində sait səslərin sayı və təbiəti haqqında müxtəlif fikirlər irəli sürmüşdür. Qaşqay türklərində tam yazı dili olmadığı üçün qaşqay dilindəki tayfa və tirələrin danışığındakı fərqlilik qaşqayların sait sistemindəki qeyri-dəqiqliyə səbəb olmaqdadır. (Muhittin, 2020)

Qaşqay dilinin fonetik sistemində 8 normal və 13 sait səs arası olmasını götürməklə 21 sait səs olduğu qeyd edilməkdədir. (Ataizi, 2017)

Azərbaycan dili şivələrində saitlərin uzanması hadisəsindən geniş şəkildə ilk dəfə N.İ.Aşmarin bəhs etmişdir. (Əzizov, 2016) Qaşqay türkcəsində belə uzun saitlərin fonetik hadisələr nəticəsində meydana gəldiyini və bu hadisənin əsasən ikinci dərəcəli uzun saitlər olub daha çox hecada samit səsinin düşməsi ilə əlaqəli olduğu bilinməkdədir. Bunun nəticəsi olaraq isə bu, sait uzanmaları adlanır. (Muhittin, 2020)

Türkiyəli tədqiqatçı Muhittin Çelik qaşqay türklərində 9 sait səs mövcud olduğunu qeyd edir. Bildiyimiz kimi, bu, Azərbaycan dilinin fonetik sistemində olan sait səslərlə say etibarı ilə eynilik təşkil etməkdədir.

"Pratürkcədə saitlər sistemində səkkiz qısa, səkkiz uzun saitin mövcud olması türkologiyada artıq qəbul olunmuşdur." (Əzizov, 2016) Azərbaycan dili ümumtürk mənşəli uzun saitlərin işlənmədiyi dillərdən sayılır ki, bu hal dilimizin bütün inkişaf mərhələlərində mühafizə olunmuşdur. (Əzizov, 2016) A.Axundov göstərir ki, müasir Azərbaycan ədəbi dilindəki ilkin uzanma, birinci növbədə, alınma sözlərə aiddir. (Əzizov, 2016) Azərbaycan dilində bütün uzun saitlər sonrakı uzanma nəticəsində meydana gəlmişdir .

Qaşqay türklərində yazı dilinin inkişaf etmə prosesində olması yaxın gələcəkdə sait səslər sistemində olan bu müxtəlifliyi aradan qaldıracaqdır.

Bir çox tədqiqatçılar qaşqayların fonetik sistemində adı çəkilən saitləri *a,e,ė,ı,i,o,ö,u,ü* sadalamaqdadırlar. /Ä/ ünsürü isə saitlər sisteminə daxil edilməmiş və saitlər sistemindən kənarda tutulmaqdadır. Bu səsə danışıq dilində rast gəlinməkdədir. (Muhittin, 2020) Dilimizdə bu səs /ə/ səsini ehtiva etməkdədir. Azərbaycan dili şivələrində sait səslər ədəbi dildən fərqlənir. Bu fərq şivələrdə uzun və qısa saitlərin olması ilə özünü göstərməkdədir.

Nəticə. Dünyada heç bir dil ailəsi türk dili qədər geniş ərazilərə yayılmamışdır. Qaşqay türklərinin məkan olaraq İran ərazisində yaşaması, onların ana dillərini çətinliklər olsa da saxlaması və Azərbaycan dilinin cənub şivələri ilə bağlılığını xüsusi qeyd etmək lazımdır. Azərbaycan dili şivələrinin fonetikası dilimizin tarixini mühafizə etməsinə baxmayaraq, ədəbi dildən fərqlənən xüsusiyyətləri etiva etməkdədir. Bu, özünü həm sait, həm də samit səslərdə göstərir.

Azərbaycan dili şivələrinin təsnifi təkcə Azərbaycan Respublikası daxilində olan şivələrlə məhdudlaşmamalıdır. Azərbaycan dili şivələrində həm Azərbaycan, həm Cənubi Azərbaycan, həm Dağıstan (Dərbənd-Tabasaran), həm Gürcüstan (Borçalı), həm də Qərbi Azərbaycan (Göyçə, Zəngəzur, Dərələyəz, Vedibasar, Zəngibasar, Pəmbək, Loru) şivələri də nəzərə alınarsa bu daha doğru olar. (Bayramov, 2022) Bir çox alim Azərbaycandan kənarda yaşamış azərbaycanlıların şivələrinin Azərbaycan dili şivələrindən kənarda qalmasını dialektoloji tədqiqatların azlığı və az öyrənilməsi ilə əlaqələndirməkdədir.

**Ədəbiyyat:**

1. Ataizi D. (2017). Kaşkay Türklerinin Dili. Ankara: Türk Dil Kurumu, 315 s. 53-56-57
2. Bayramov İ. (2022). Azərbaycan dialektologiyası. Ankara, İksad, 460 s. 33-49-50-58
3. Dəmirçizadə Ə. (2007). Azərbaycan dilinin fonetikası. Bakı, Şərq-Qərb, 252 s. 10-11-31
4. Əzizov E. (2016). Azərbaycan dilinin tarixi dialektologiyası: dialekt sisteminin təşəkkülü və inkişafı. Bakı: Elm və təhsil, 348 s.20-23- 65-66-111
5. Muhittin Ç. (2020). Kaşkay Türkçesi qrameri. Ankara, Ekim, 193 s.19-22
6. https://iranicaonline.org/articles/qasqai-tribal-confederacy-ii-language

## AZƏRBAYCAN MİLLİ İNCƏSƏNƏT MUZEYİNİN KOLLEKSİYASINDAN QACARLAR DÖVRÜ SİLAH VƏ ƏSLƏHƏLƏRİNİN BƏDİİ XÜSUSİYYƏTLƏRİ

**Quliyeva Rəfiqə Səyavuş**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**
**https://orcid.org/0009-0000-0517-370X**
**rafigaguliyeva23@gmail.com**

## ARTISTIC FEATURES OF WEAPONS AND WEAPONRY OF THE QAJAR PERIOD FROM THE COLLECTION OF THE AZERBAIJAN NATIONAL MUSEUM OF ART

**Guliyeva Rafiga Sayavush**
**Azerbaijan State University of Culture and Art**
**https://orcid.org/0009-0000-0517-370X**
**rafigaguliyeva23@gmail.com**

**Summary**

This thesis is dedicated to the study of the artistic characteristics of weapons and weaponry during the Qajar period based on the samples of armor preserved in the collection of the Azerbaijan National Museum of Art. The collection of the Azerbaijan National Museum of Art was chosen as the object of the artistic decor of the Qajar era weapon-making art. In the thesis, the issue of synthesis of pattern elements and images in the artistic design of weapon samples was studied on the basis of several specific examples. Pattern compositions and plot scenes on the surface of

the metalwares were executed by various technical methods such as carving, engraving and enameling. Thus, we can mention that as an artwork and artistry, Qajar period weapons and weaponry demonstrate the perfect balance of functionality and aesthetics.

**Keywords:** “Qajar style”, weapon-making art, artistic metal, calligraphy insciption, pattern element.

# ХУДОЖЕСТВЕННЫЕ ОСОБЕННОСТИ ОРУЖИЙ И ДОСПЕХОВ ЭПОХИ КАДЖАРОВ ИЗ КОЛЛЕКЦИИ АЗЕРБАЙДЖАНСКОГО НАЦИОНАЛЬНОГО МУЗЕЯ ИСКУССТВ

**Гулиева Рафига Саявуш**

**Азербайджанский Государственный Университет Культуры и Искусств**

**https://orcid.org/0009-0000-0517-370X**

**rafigaguliyeva23@gmail.com**

**Резюме**

Данный тезис посвящен исследованию художественных особенностей оружия и доспехов эпохи Каджаров на основе образцов оружий, хранящихся в коллекции Азербайджанского национального музея искусств. Коллекция Азербайджанского национального музея искусств была выбрана в качестве объекта художественного декора оружейного искусства эпохи Каджаров. В тезисе исследован вопрос синтеза элементов узоров и изображений в художественном оформлении оружия на основе нескольких конкретных образцов. Орнаментальные композиции и сюжетные сцены на поверхности изделий выполнялись различными техническими приемами, такими как резьба, гравировка, художественное эмалирование. В ходе исследования наблюдаем, что в этот период оружие уже было превращено в произведение искусства. Таким образом, мы можем отметить, что оружие и доспехи периода Каджаров как произведения искусства и ремесел воплощают идеальный баланс функциональности и эстетики.

**Ключевые слова:** Каджарский стиль, оружейное искусство, художественный металл, каллиграфический надпись, элементы узора.

İncəsənətin inkişafı baş verən siyasi və iqtisadi dəyişikliklərlə sıx əlaqədardır. Qacarlar dövrü incəsənət və ədəbiyyatın parlaq intibahı hesab olunur. Xüsusən böyük mədəni dəyişikliklər Qacarlar sülaləsinin ikinci şahı Fətəli şahın hakimiyyəti illərində (1797-1834) cərəyan etmişdir. Fətəli şah Səfəvi dövrü əzəmətini islamdan öncəki mədəniyyətlə birləşdirərək dirçəltməyə cəhd edirdi. İncəsənətin ikinci mühüm inkişaf dövrü Nəsrəddin şahın hakimiyyət illəri hesab olunur. Onun dövründə incəsənətin bütün sahələrində Avropa ənənələrinin duyulası təsirini izləmək mümkündür. Artıq ondan əvvəlki nəslin təmtəraqlılığı, dekorativliyi ikinci plana keçir, realistik ənənələrə meyil artır. Qacarlar sülaləsinin hakimiyyəti illərində hələ Səfəvilər dövrünün sonlarında formalaşmağa başlayan “Qacarlar üslubu” yetkinləşdi. Meydana gələn bu yeni üslub Şərqin şərtilik və dekorativliyi ilə Avropa təsviri sənətinin bədii prinsiplərinin sintezindən ibarət idi. Qacarlar dövründə mədəniyyətin bir çox sahələrində Qərb təsiri duyulur, Avropa zövqü, üslub və incəsənətin bir sıra növləri kök salır. Ancaq qeyd etmək lazımdır ki, sənətkarlar öz dini inanclarını unutmayaraq, ənənəvi adətlərini Avropa təsiri ilə birləşdirməyə çalışırdılar.

Dekorativ-tətbiqi sənətin mühüm sahələrindən olan metalişləmə sənəti uzun inkişaf yolu keçərək son orta əsrlərdə özünəməxsus çalarlar qazanıb. Orta əsrlərdə metalişləmə sənətinin geniş yayılmış sahələrindən biri də silahsazlıq sənəti idi.

Qacarlar dövründə Azərbaycanda silah istehsalı geniş vüsət almışdır. Bu, həmin dövrdə daim baş verən müharibələrlə əlaqədar olmuşdur. Sənətkarlar tərəfindən hücum və müdafiə xarakterli olmaqla iki növ silah hazırlanırdı.

Yerli silah ustalarının davamlılığı və möhkəmliyi nəzərə alınmaqla poladdan hazırladıqları silahlar döyüş qabiliyyəti ilə bərabər, yüksək bədii xüsusiyyətlərə malik olmuşlar. Beləliklə, sənətkarlar silah və əsləhələrin bədii tərtibatında incə və axıcı xətlər vasitəsilə məmulata incəlik və zəriflik bəxş etmişlər. Eləcə də silah nümunələrinin miniatür üslublu təsvirlərlə bəzədilməsi silahsazlıq sənətinin yüksək inkişaf səviyyəsini təcəssüm etdirirdi.

Silahların üzərində Azərbaycan dekorativ-tətbiqi sənətində geniş yayılmış oyma naxış kompozisiyaları ilə yanaşı, xəttatlıq üsulu ilə yazılmış kalliqrafik elementlərə də rast gəlinir. Silahların üzərindəki mətnlərdə ustanın adı, silah sahibinin adı, Şərq klassiklərinin poeziyasından əxz olunmuş şeir misraları, qoruyucu mahiyyətli yazılar öz əksini tapmışdır. Yazılar silahların tiyə və tutacağı üzərində həkk olunurdu.

Qacarlar dövrü silahsazlıq sənəti silah sahibinin hərbi sosial statusunu və maddi rifahını özündə əks etdirirdi. Belə ki, daha zəngin dekorlu silahların cəmiyyətin imkanlı təbəqəsinin sifarişi ilə yarandığını qeyd etməliyik.

Müharibələr zamanı Qacarlar dövrünün silahları ilə bərabər, müdafiə xarakterli yaraq-əsləhələr də istifadə olunmuşdur. Belə yaraq-əsləhələr sırasında zirehləri, çahar-aynaları (farscadan “dörd güzgü”), qalxanları, dəbilqələri, dizlikləri, qolçaqları (bazubənd) göstərmək olar.

Qacarlar dövrünün əsləhələri zəngin dekorla bəzədilmişdir. Əsləhələrin səthində bitkin tərzdə işlənmiş naxış elementlərinə və süjetli səhnələrə rast gəlirik. Qacarlar dövründə bədii metal sənəti və onun tədrici inkişafı müəyyən dərəcədə din ilə əlaqədar idi. Bu təsir əşyaların motiv və bədii tərtibatında özünü büruzə verirdi. Belə ki, əşya sahibini hifz etmək üçün onların üzərində xeyir-dua xarakterli yazılar, Quran ayələri və hədislərdən parçalar öz əksini tapırdı.

Azərbaycan Milli İncəsənət Muzeyində qorunub saxlanan xeyli sayda yaraq-əsləhələr arasında yüksək sənətkarlıqla icra olunmuş zəngin dekor tərtibatına malik əşyalar vardır. Onlardan biri XVIII əsrdə ərsəyə gətirilən yarımkürə formalı müdafiə xarakterli baş geyimi – “külah-xud” dəbilqədir. Dəbilqənin alt kənarına boyun hissəni qorumaq üçün halqalı tor taxılıb. Ön hissənin sağ və sol tərəfinə lələk üçün iki dekorativ boru pərçimlənib. Dəbilqənin bədii dekorunun mərkəzi elementi tovuzquşunun qızıl işləməli başı və boyun hissəsidir. Yuxarı hissəyə pərçimlənən tovuzquşu fiqurunun qanadları isə baş geyiminin arxa hissəsini bütünlüklə əhatələyib. Metal lövhədən döymə üsulu ilə hazırlanmış dəbilqənin ön mərkəzi hissəsində isə Qacarlar incəsənətində insan simalı günəşin relyefli təsviri verilmişdir, təsvirdən ətrafa 15 şüa şölələnib. Motivin kənarları qızıl su ilə əhatələnib. Dəbilqənin səthi üzərində dairəvi forma əmələ gətirən nəbati naxışlar cızılmışdır. Əşya üzərində həkk edilmiş qızılı işləməli kalliqrafik yazılar silah sahibini hifz etməklə yanaşı, əşyanın estetik tutumunu şərtləndirir. Aşağı kənarındakı ornamental haşiyədə bir-birini əvəz edən ellipsvari kətəbələr və dairəvi medalyonlarda ərəb dilində Allahın 99 adından bir neçəsi – Qaffar, Bərr, Fəttah, Rəhman, Haqq, Quddus, Rəhim, Vasi, Məcid, Lətif sözləri həkk edilmişdir. Kalliqrafik yazılar dəbilqənin burunluğunda da müşahidə olunur. Burunluğun ləçəkvari yuxarı sonluğunda “Allah”, aşağı sonluğunda isə “Məhəmməd” sözləri nəqş edilmişdir. Yazı məmulata xüsusi estetik gözəllik və dekorativlik bəxş edən nəfis nəstəliq xətti ilə həkk edilmişdir.

Naxış və təsvirin sintezinin bariz nümunəsi olan qolçaq dəsti XIX əsrdə yaradılmışdır. Qayıqvari lövhə və ona bənd edilmiş kiçik lövhədən ibarət olan qolçaq dəsti nəfis bədii tərtibatı ilə seçilir. Əşyanın səthi boyunca axıcı əyri xətlərlə icra olunmuş bədii motivlərin, insan və quş təsvirləri müəllifin yüksək peşəkarlığından xəbər verir. Miniatür üslubuna xas şərti təsvirçilik metodu ilə kompozisiyada 3 fiqur təsvir edilib. Kompozisiya şaquli simmetriya əsasında qurulmuşdur. Mərkəzdə icra edilmiş başı üzərində halə

təsvirli obraz Qədim Misir təsvirlərində də rast gəldiyimiz iyerarxiya sisteminə, əsasən kompozisiyada yaradılan digər iki fiqura nisbətən irihəcmli həkk edilmişdir. Miniatür nümunələrindən bizə məlum olduğu kimi fiqurun mərkəzdə yerləşdirilməsi və üzünün niqablı, yəni örtülü təsviri əsas fiqurun Həzrəti Məhəmməd peyğəmbərin obrazı olması qənaətinə gətirir. Səth boyunca davam edən nəbati naxışlar və fərqli rakurslarda yerləşdirilmiş quş fiqurları müəllifin yüksək sənətkarlıq məharətindən xəbər verir. Qolçağın yuxarı və aşağı hissəsində yerləşən Azərbaycan xalça kompozisiyalarında da tətbiq edilən dekorativ biçimli "qübbə" elementi kompozisiyanı tamamlayır. Bilək tərəfdə kartuşun içərisində (kətəbə) ərəb qrafikalı yazı həkk olunmuşdur. Haşiyə hissəsində ritmik ardıcıllıqla təkrarlanan islimi ornamenti ümumi kompozisiyaya dinamiklik qazandırır. Yarpağa bənzər bu ornament Azərbaycan dekorativ-tətbiqi sənətinin bütün sahələrində, xüsusən xalçaçılıqda, eləcə də memarlıqda geniş tətbiq olunurdu.

Muzeyin kolleksiyasında hücum silahları sırasında bədii və texniki tərtibatının unikallığı ilə seçilən metalişləmə sənətinin minasazlıq üsulu ilə icra edilmiş XIX əsrə aid xəncər və qını vurğulamaq olar. Minasazlıq rəngkarlığı sənəti Qacarlar dövründə ayrıca bir bədii fəaliyyət sahəsi hesab olunurdu. Qacarlar dövründə silahların portret və digər süjetli kompozisiyalarla bəzədilməsi ənənəsi özünün ən yüksək inkişaf nöqtəsinə nail olmuş, XIX əsr boyu öz populyarlığını qoruyub saxlamışdır. Silahın tutacaq və qın hissələrinin çoxrəngli mina ilə bəzədilməsi texnikası, əsasən hakim zümrənin sifarişi ilə hazırlanırdı. Rəngkarlıqda olduğu kimi "Qacarlar üslubu" ənənələri dekorativ-tətbiqi sənətin metalişləmə sahəsində də tətbiq olunur. Bəzi məmulatlarda təsvir medalyonlar formasında ümumi dekorun mərkəzi kimi tətbiq edilir, digərlərində isə bütün səthi əhatələyən süjetli kompozisiyalar təsvir edilirdi. Minasazlıq texnikası ilə yaradılmış silah nümunəsinin əsas dekoru Qacarlar üslubuna, əsasən dairəvi və dekorativ medalyonlar içərisində profil və yarımanfasdan təsvir edilmiş insan obrazlarıdır. Onlardan bir neçəsi büst və digərləri isə Avropa portret sənətindən mənimsənilən tors şəkildə icra edilmişdir. Medalyonların birində isə gül-çiçək motivli dekorativ fonda "aşiq-məşuq" səhnəsi təsvir edilmişdir. Bu janra Səfəvilər dövrü miniatürlərində ilk olaraq rast gəlinir. Sənətşünas Telman İbrahimov "Qacarlar dövrünün rəngkarlığı" kitabında Qacarlar dövrü silahlarının bədii tərtibatı mövzusuna toxunmuşdur. Telman İbrahimov qeyd edir ki, "Portretlərdə ya silah yiyəsini ya da onun sevimlisini, yaxın qohumunu təsvir etmişlər. Bəzi hallarda portretlərdə konkret insanı deyil, şərti bir gənc və ya gözəli təsvir edirlər. Belə hallarda təsvir yalnız bəzək funksiyasını yerinə yetirmişdir". (T.İbrahimov, 2013.) Medalyonlar şaquli xətt boyunca yerləşdirilmişdir. Onlar arasındakı səthlər zərif nəbati ornamentlərlə bəzədilmişdir.



1. Dəbilqə, XVIII əsr. Azərbaycan Milli İncəsənət Muzeyinin kolleksiyası.



2. Qolçaq dəsti, XIX əsr. Azərbaycan Milli İncəsənət Muzeyinin kolleksiyası.



3. Xəncər, XIX əsr. Azərbaycan Milli İncəsənət Muzeyinin kolleksiyası.

**Ədəbiyyat:**


1.Kərimov K., Əfəndiyev R, Rzayev N, Həbibov M. (1992) Azərbaycan incəsənəti. Bakı: İşıq nəşriyyat evi

2.Əfəndiyev R. (1976) “Azərbaycan dekorativ-tətbiqi sənətləri”. Bakı: İşıq nəşriyyat evi

3.Əhmədov S. (2022) “Silahın mistik gözəlliyi”. Bakı: APOSTORF-A nəşriyyat evi

4.İbrahimov T. (2013) “Qacarlar dövrü rəngkarlığı”. Bakı: Şərq-Qərb nəşriyyat evi

5.İbrahimov T. (2013) “Şərq silahı”. Bakı: Şərq-Qərb nəşriyyat evi

6.Буткевич Л.М. (2008) “История орнамента”. Москва: ВЛАДОС

7.Гаджар Ч. (2003) “Искусство Азербайджана. Средние века”. Баку: Azerbaijan – IRS

# “ƏDALƏT” KONSEPTİNİN MƏTN DİLÇİLİYİNDƏ LİNQVOKULTUROLOJİ İSTİQAMƏTDƏ TƏDQİQATI

**Xəlilova Bahar Süleyman**
**Bakı Dövlət Universiteti**
**https://orcid.org/0000-0001-6868-5796**
**bxlilova@gmail.com**

# STUDY OF THE CONCEPT "JUSTICE" IN TEXT LINGUISTICS IN LINGUOCULTUROLOGICAL DIRECTION

**Khalilova Bahar Suleiman**
**Baku State University**
**https://orcid.org/0000-0001-6868-5796**
**bxlilova@gmail.com**

**Summary**

In modern linguistics, text occupies a central place as an object of study in linguoculturology, as it serves as a means of transmitting cultural values, norms, and traditions. Linguoculturology is developing as an independent interdisciplinary field or direction within linguistics, combining linguistics and cultural studies. The study of texts within the linguoculturological framework helps us to understand how they are formed by cultural contexts and how cultural representations are reflected in linguistic expressions. This, in turn, enables a better comprehension of diverse cultures, their characteristics, personalities, and peculiarities. Furthermore, it facilitates intercultural communication and mutual understanding. The significance of using concepts in text linguistics and linguoculturology is profound. Concepts breathe life into events and text fragments through words and sentences in the minds of readers or listeners. They facilitate a clearer understanding and transmission of the content of text and its meaning. Linguistic and cultural aspects of the concept of “justice” in text linguistics are researched on the basis of literary examples.

**Keywords:** text linguistics, linguoculturology, concept of justice, anaphora, mental-semantic unit

# ИССЛЕДОВАНИЕ КОНЦЕПТА «СПРАВЕДЛИВОСТЬ» В ЛИНГВИСТИКЕ ТЕКСТА В ЛИНГВОКУЛЬТУРОЛОГИЧЕСКОМ НАПРАВЛЕНИИ

**Халилова Бахар Сулейман**
**Бакинский Государственный Университет**
**https://orcid.org/0000-0001-6868-5796**
**bxlilova@gmail.com**

**Резюме**

В современной лингвистике текст занимает центральное место как объект изучения лингвокультурологии, поскольку он служит средством передачи культурных ценностей, норм и традиций. Лингвокультурология развивается как самостоятельное междисциплинарное направление в рамках лингвистики, объединяя лингвистику и культурологию. Изучение текстов в рамках лингвокультурологии помогает нам понять, как они формируются культурными контекстами и как культурные репрезентации отражаются в языковых выражениях. Это, в свою очередь, способствует более глубокому пониманию различных культур, их особенностей,

личностей и уникальностей, а также способствует межкультурной коммуникации и взаимопониманию. Важность использования концептов в текстовой лингвистике и лингвокультурологии велика. Концепты оживляют события и фрагменты текста через слова и предложения в умах читателей или слушателей. Они способствуют более ясному пониманию и передаче содержания и смысла текста. На основе художественных примеров исследуются лингвокультурологические аспекты концепта “справедливости” в лингвистике текста.

**Ключевые слова:** лингвистика текста, лингвокультурология, концепт “справедливости”, анафора, ментально-смысловая единица.

Mətn dilçiliyində koqnitiv və linqvokulturoloji dil aspektlərinin tədqiqinə həsr olunmuş müxtəlif araşdırmaların olmasına baxmayaraq, müxtəlif istiqamətlərdə konseptlərin işlənib hazırlanmasını gözləyən bir sıra məsələlər hələ açıq qalır. Son illərin tədqiqatında mətn dilçiliyində konseptin linqvokulturoloji istiqamətdə tədqiqatı aktual olan sahələrdən biridir. Linqvokulturologiya dil və mədəniyyət arasındakı əlaqəni öyrənən fənlərarası bir sahədir. N.Cəfərov: “Linqvokulturologiya kimi multidissiplinar sahə və ya istiqamət artıq müstəqil inkişaf yoluna düşmüşdür. Bir mühüm məqam isə ondan ibarətdir ki, XX əsrin ortalarından sonra meydana çıxan əsas dilçilik nəzəriyyələri dilçiliyin multidissiplinar sahələrilə əməkdaşlıq edərək, multidissiplinar təzahürlərə yeni mövzular verməklə onların həmin mövzular ətrafında təmərküzləşməsinə gətirib çıxarır” (Cəfərov, 2021).

Mətn linqvokulturologiyanın tədqiqat obyekti kimi mərkəzi yer tutur, çünki o, mədəni dəyərlərin, normaların və ənənələrin ötürülməsi vasitəsidir. Mətn dilçiliyi yerli və xarici tədqiqatçı alimlər tərəfindən tədqiq edilmişdir, lakin müasir dilçilikdə multidissiplinar dilçilik sahəsinin nəzəri və praktik istiqamətdə öyrənilməsi hələ də öz aktuallığını saxlamaqdadır. Klassik dilçilikdə M.M. Baxtin kontekst nəzəriyyəsində kontekstdən asılı olaraq mətn və dil elementlərinin anlaşılmasını əks etdirmişdir. Kontekst ünsiyyətdə istifadə olunmuş söz və ifadəni mənaya yönləndirən bir anlayışdır. Kontekst dilin başa düşülməsində, oxucuya və dinləyiciyə təsirində mühüm rol oynayır, çünki o, mənaları ayırd etməyə və ünsiyyəti daha effektiv etməyə kömək edir. Rus dilçisi, ədəbiyyatşünas M.M. Baxtin mənanın formalaşmasında kontekstin rolunu vurğulayan “dialoqizm” konsepsiyası ilə tanınmışdır. M.M. Baxtin hesab edirdi ki, dil mahiyyət etibarilə dialoqdur. Belə ki, dialoq mədəni və sosial kontekstdə davam edən söhbətlər və qarşılıqlı təsirlər nəticəsində formalaşır. O, ünsiyyətin qurulmasında sözün əhəmiyyətini vurğulayırdı. O qeyd edirdi ki, “sözün həyatı” bir fərddən digərinə, bir sosial kollektivdən digərinə, bir nəsildən başqa nəslə, bir kontekstdən digərinə ötürülməsindən ibarətdir (Bakhtin, 1999). Digər nəzəriyyələrdən biri də  konseptlə bağlıdır. Konsept nəzəriyyəsi haqqında bir sıra rus dilçiləri – S.A. Askoldov, Y.S. Stepanov, V.N. Teliya kulturoloji baxımdan öz fikirlərilə məşhurdurlar. Azərbaycan dilçiliyində Ə.Rəcəbli qeyd edir: “Milli konsept ən ümumi, maksimum mücərrədləşdirilmiş konseptdir, konseptləri müxtəlif əsaslara görə təsnif etmək olar. Mövzu (tematika) baxımından konseptlər, məsələn, mətni və s. konseptsferi əmələ gətirir” (Rəcəbli, 2019a). Mətn mədəniyyətin müəyyən aspektlərini təmsil edir və onları oxucuların və ya dinləyicilərin şüurunda təkrarlayır. Mətn kontekstində nitq aktı nəzəriyyəsi ilə məşhur olan ingilis dilçi-filosof Con Ostin mətnlərin yazılı və ya şifahi nitqdə təkcə məlumat daşıyıcısı deyil, həm də nitq aktlarını yerinə yetirmək üçün vasitə olduğunu nəzərdə tuturdu (Austin, 1962). Söz seçimi, cümlə quruluşu və kontekst təkcə məlumatın ötürülməsi üçün deyil, həm də müəyyən kommunikativ məqsəd və mədəniyyətlərarası mübadilə vasitəsi olaraq böyük dəyər daşıyır. Bəzən mətnin təsiri söz və ifadələrin səthi mənasını üstələyir, mahiyyət etibarilə onun təsvir gücü, sosial-mədəni mühit kontekstində, semantik qarşılıqlı əlaqəni təşkil edən norma və konvensiyaların dərindən dərk edilməsini tələb edir. Digər tərəfdən, linqvokulturoloji istiqamətdə mətnlərin tədqiqi mədəni kontekstdə onları formalaşdırır və mədəni təqdimat mətndəki linqvistik ifadələrin köməyi ilə əks olunur. Bu, müxtəlif xalqların mədəniyyətlərini, onların şəxsiyyətini və xüsusiyyətlərini daha yaxşı başa düşməyə imkan verir, həmçinin mədəniyyətlərarası ünsiyyətin və qarşılıqlı anlaşmanın inkişafına töhfə verir. Mətn

dilçiliyində və linqvokulturologiyada konseptlərin istifadə olunmasının əhəmiyyəti böyükdür. Konseptlər mətndəki hadisə və fraqmentləri sözlər və cümlələr vasitəsilə oxucunun və ya dinləyicinin təfəkküründə canlandırır, mətndəki məzmun və mənanın daha aydın şəkildə qavranılmasına və çatdırılmasına vasitəçilik edir. Ə.Rəcəbli: "Konseptsfer – dil daşıyıcılarının dünyanı qavraması üçün konseptlər məcmusudur. Məsələn, *ədalət, sevgi, məhəbbət, yaxşılıq, sülh* və s. Azərbaycan xalqını səciyyələndirən konseptsferlərdir. Dilin zənginliyi təkcə söz ehtiyatının və qrammatik imkanların bolluğu, zənginliyi ilə deyil, həm də milli dil şəxsiyyətinin formalaşdığı konseptual aləmin, konseptsferin zənginliyi ilə müəyyənləşdirilir" (Rəcəbli, 2019 b). Bu baxımdan, mətn öz məzmununda həmçinin milli mentaliteti, milli dəyərləri, milli baxışları formalaşdırır. Konsept kontekstində mətnin formalaşmasında sintaktik əlaqə üsullarını və müxtəlif vahidləri nəzərdən keçirək. M.Adilov qeyd edir: "Sintaktik əlaqə üsulları mətn komponentlərinin bir-birinə struktur-semantik cəhətdən bağlanmasını təmin edir və komponentlər arasında tekstyaradıcı faktorlar daxil edilə bilər. Struktur planda tekstyaradıcı faktor kimi ilk növbədə məhz *təkrarlar* haqqında danışmaq lazımdır." (Adilov, 2019). Təkrarlar-anafora mətndə və ya şeirdə bir və ya bir neçə cümlə və ya sətrin əvvəlində eyni sözün və ya ifadənin bir sistem şəklində təkrarlanmasıdır. Bu təkrar mətni vurğulayır, mənasını gücləndirir, dilin ifadəliliyini artırır. O, həm də semantik qarşılıqlı əlaqəni və linqvistik birliyi zənginləşdirir. K.Abdullayev qeyd edir: "Mətnin təkrar tərkibi müəyyən obyekt ətrafında onun dərk edilməsi ilə bağlı toplana bilər. Bütün tərkib bu obyektin açılmasına xidmət edər və eləcə də ola bilər ki, bu obyektin linqvistik təsviri mətn boyu transformasiyaya uğramış olsun." (Abdullayev, 1950 b). Anaforik konstruksiyalar mətnin müxtəlif hissələri arasında əlaqə yaratmağa kömək edir, məlumatın başa düşülməsini və strukturlaşdırılmasını asanlaşdırır, dil vahidlərinin ifadəliliyini və semantik qarşılıqlı təsirini artırır. Bədii nümunələr əsasında mətn dilçiliyində "ədalət" konseptini araşdıraq: *Bu dünyaya neçə-neçə gəlib can; Ədalətdə bu xan kimi olmaz xan.* Bu misalda M.Adilov "xan kimi xan" birləşməsindəki "xan" sözünü deyil, "ədalətdə bu xan kimi (ədalətli) xan" birləşməsində işlədilən "ədalət" sözünü təkrar sintaqm kimi qəbul edir. O əlavə edir ki, belə birləşmələr dildə çox az rast gəlinir (Adilov, 2019). Digər nümunədə, "ədalət" konseptini açan Cabir Novruzun "Həqiqət Himni" buna misal ola bilər.

*Həqiqəti deyən adam güclü olur,*
*Həqiqəti deyən adam uca olur,*
*Həqiqətin hamar olmur fəqət yolu,*
*Həqiqətin dili bir az acı olur....*
*Həqiqəti deyən ölkə nəhəng olur,*
*Həqiqəti deyən torpaq sonsuz olur.....*
*Həqiqəti açıq demək qəhrəmanlıq,*
*Həqiqəti açıq demək mərdanəlik.....*
*Həqiqətə biganəlik- öz oduna, ocağına biganəlik.*
*Həqiqəti, ədaləti boğdular,*
*Min əyrinin, min yalanın içində.....* (Novruz, 2004)

Şair Cabir Novruzun "ədalət" anlayışını açan "Həqiqət Himni" poeması mətndə anaforaya bir nümunədir. Anafora şeirdə "həqiqəti deyən" söz birləşməsi ilə, demək olar ki, şeirin hər misrasının əvvəlində təkrarlanır. Bu təkrar "həqiqəti deyən" ifadəsinə diqqət yetirməyə imkan verir və bu məfhumun əhəmiyyətini və gücünü vurğulayır. Ancaq bununla belə, şeirin daxili qrammatikasının tələbi ilə reallaşan təkrarlar da vardır. Buna sözlərin formal təkrarını qüvvətləndirən sözləri aid etmək olar: *adam, güclü, uca, qəhrəmanlıq, mərdanəlik.* Anaforanın şeirdə təsirlərini aşağıdakı kimi qruplaşdırmaq olar:

1) Vurğu: "Həqiqəti deyən" ifadəsinin davamlı təkrarı "həqiqəti" və "ədaləti" vurğulayır. Şair ədalətin və həqiqətin vacibliyini vurğulamaq üçün bu anlayışlara diqqət çəkir.

2) Məna gücləndirmə: Şair "*hamar olmur fəqət yolu, deyən ölkə nəhəng olur, açıq demək qəhrəmanlıq, açıq demək mərdanəlik"* ifadələrindən istifadə edərək həqiqət, ədalət anlayışlarının mənasını oxucunun təfəkküründə ədalət və həqiqətin dəyərini daha yaxşı qiymətləndirməyə imkan verir.

3) Semantik qarşılıqlı əlaqə: Bu şeirin misralarındakı semantik əlaqə "ədalət" konseptini açan yaxınmənalı sözlərin işlədilməsi ilə təmin edilir. Şair "həqiqət" anlayışını müxtəlif aspektlərlə ifadə edir. Bu semantik qarşılıqlı əlaqənin bəzi nümunələrini – "qüdrət" və "yüksəklik" anlayışlarını "həqiqət"lə əlaqələndirərək semantik əlaqə yaradır. Bu sətirlərdə elə bir məna yaradılır ki, həqiqəti söyləmək, onu müdafiə etmək insanı güclü və yüksək edir, "demək" sözü həqiqəti söyləməyin çətinliyini, narahatlığını ifadə etdiyi halda, "dil" sözü bu həqiqətləri ifadə etmək üçün istifadə olunan bir vasitə kimi işlənir. Beləliklə, anafora qrammatika və ritorikada mühüm üslub alətidir, mətnin gücünü və təsirini artırmaq üçün istifadə edilir. Mətnin komponentləri arasında mövcud olan rabitəlik, konseptin dərk edilməsində əsas rol oynayan bir faktordur. Bu rabitəlik mətnin məntiqiliyinə əsaslanır və mətn daxilində mühüm yer tutur. Mətnin tərkibindəki cümlələr, paraqraflar və ifadələr, bir-birilə əlaqəlidir və bir bütöv təşkil edir. Mətnin məntiqiliyinə əsaslanan rabitənin olması, müəllifin düşüncələrinin oxucuya məntiqli və düzgün bir sıra ilə təqdim olunmasına imkan yaradır. Bu rabitəlilik sayəsində, mətnin əsas fikir və ideyası daha açıq və effektiv şəkildə ötürülür. Oxucu mətni rahatlıqla anlamağa və məzmunu doğru şəkildə dərk etməyə nail olur. Rabitəlilik olmadan mətnin məntiqiliyinə əsaslanmaq çətin olardı və məzmunun dərk edilməsi çətinləşərdi. Bu baxımdan, məntiq mətnin koqnitiv effektivliyini artırmağa yardım edir. *M.Ə.Talıbov:"Ədalət, qanun, nizam və intizam olmayan bir yerdə xeyir- bərəkət də ola bilməz. Ədalətli qanun millətlərin hüdud və hüquqlarını, can, şərəf və namuslarını qoruyan, yaşayış və azadlıqlarını təmin edən yeganə amildir. Ədalət, qanun geniş kütlələri zəhmətə, işə, nizam-intizama çağırır"* (Beqdeli və Süleymanzadə, 1979).

Bu kiçik informativ mətndə "ədalət" konseptinin məzmununu, əhəmiyyətini vurğulayan məntiqi və semantik birlik, ardıcıllıq vardır. Mətnin üslubu və məzmunu yığcam və sadədir. Bu misalda mətnin əsas tezisini vurğulayan ifadələr işlənmişdir: *qanun, nizam və intizam, xeyir-bərəkət, millətlərin hüquqları, şərəf və namusu qorumaq, azadlıqlarını təmin etmək və s.* Mətndə koheziya, koherentlik əlaqələri qorunaraq ədalət konseptinin məzmunu nəqli cümlə ilə başlayaraq son cümləyə qədər fikir və ya məlumatı çatdırmaq məqsədilə davam etdirilir. Mətn *ədalət, qanun* sözlərilə başlayıb, *nizam-intizama çağırmaq* feili ilə bitərək mətndə semantik çərçivə yaradır. Bundan əlavə, mətnin kontekstual-semantik mahiyyəti mətni bütövlükdə başa düşməyə, məzmunu, müəllifin ideya və düşüncələrini təhlil etməyə kömək edir. Bu vahid əksər hallarda, söz və ya söz birləşmələri, bir və ya bir neçə cümlədən ibarət olan konsept və ya fikir ətrafında birləşən təsirli ifadələrdir. Mətnin məntiqi-semantik ifadəsi bütün mətn üçün əsasdır, onun daxilindəki konsept və ideyanın ardıcıl və dərindən dərk edilməsinə kömək edir. Mental-semantik vahidin tərkibi, mətnin əsas ideyası, müəllifin mövqeyi, mövzu və ya konsept ətrafında söylənilən fikirlər haqqında ətraflı məlumat, iddialar, sübutlar, nümunələr və arqumentlər ola bilər. Bu vahid mətnin tam başa düşülməsini asanlaşdırır və analitik yanaşma tətbiq etməklə mətnin arxasındakı sakit məna və mesajı açmağa imkan verir. Konseptlər mətnlərdə insan tərəfindən müşahidə olunan, toplanan və ötürülən informasiya və məna vahidləridir. Görkəmli şair Nizami "ədalət" konseptini informasiya vasitəsi kimi bir müdrik insanın öyüd-nəsihəti şəklində çatdırır. Nizami Gəncəvi:

*Dünyaya fateh olmaz zülmkarlıq, rəzalət,*
*Yer üzünün fatehi ədalətdir, ədalət!*
*Ədalətin müjdəsi bu dünyanı şad eylər,*
*Ədalətin işidir-ölkəni abad eylər.*
*Zülmkarlıq dağıdar, bərbad eylər ölkəni,*
*Ədalət sədaqətlə abad eylər ölkəni.*

*Məmləkətin dayağı ədalətdir hər zaman,*
*Ədalətlə nəsibin səadətdir hər zaman.*
*Ədalətin ucaltsın qoy nəslinin adını,*
*El gözündən salmasın özünü, övladını.*
*Ədalət mülkündən kim üz çevirsə,*
*Ona aqil deməz ağıllı kimsə.*

Təqdim olunan şeirdə (Sultanzadə, 1981) "ədalət" konsepti ilə bağlı fikir və məlumatlar bədii üslubda çatdırılır. Mətndə ədalətin və ədalətsizliyin insanların həyatına və məmləkətlərin qorunmasına olan təsiri qeyd olunur. Ədalətli davranmanın, toplumun inkişafı üçün əhəmiyyətini vurğulayan hissələr diqqət çəkir. Beləliklə, "ədalət" konseptinin mətn dilçiliyində linqvokulturoloji istiqamətdə nəzəri və praktik cəhətdən təhlili müasir dilçilikdə konseptlərin nəzəri və praktik cəhətdən tədqiqinin aktuallığının əhəmiyyətini dərk etməyə imkan verir.

**Ədəbiyyat:**

1.Abdullayev, K.M. (1950a). Azərbaycan dili sintaksisinin nəzəri problemləri. Bakı: Elm və təhsil, 290.

2.Abdullayev, K.M. (1950b). Azərbaycan dili sintaksisinin nəzəri problemləri, Bakı: Elm və təhsil, 292.

3.Adilov, M.İ. (2019). *Azərbaycan dilində sintaktik təkrarlar*, III CİLD, Bakı: Elm və təhsil, 91

4. Beqdeli, Q.F., Süleymanzadə Q.R.(1979). *Müdrik Sözlər*, Bakı: Yazıçı, 83

5. Cəfərov, N.Q. (2021). *Multidissiplinar dilçilik ( dərs vəsaiti*), Bakı: Elm və təhsil, 3-5

6. Novruz, C.M. (2004). *Seçilmiş əsərləri*, Bakı: Lider nəşriyyatı, 33; 245-246

7. Rəcəbli, Ə.Ə.(2019 a). *Dilçilikdə yeni istiqamətlər*, Bakı: Elm və təhsil, 42

8. Rəcəbli, Ə.Ə.(2019 b). *Dilçilikdə yeni istiqamətlər*, Bakı: Elm və təhsil, 19-20

9. Sultanzadə, B. (1981). *Nizaminin hikmət və nəsihətləri*, Bakı: Yazıçı, 20-22

10. Austin, J.L. (1962). *"How to Do Things with Words"*, Great Britain: Oxford, 8-9

11. Bakhtin, M.M. (1999). *The Problems of Dostoevsky's Poetics*. (Transl. by C.Emerson), USA: University of Minnesota Press, 37-46

# MODERN TƏSVİR HƏLLİ KONTEKSTİNDƏN RASİM İSMAYILOV YARADICILIĞI

**Həsənova Pərvanə İlham**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**
**https://orcid.org/0009-0007-5840-8999**
**parvanadop@gmail.com**

# RASIM ISMAYILOV'S WORKS FROM THE CONTEXT OF MODERN IMAGE SOLUTION

**Hasanova Parvana Ilham**
**Azerbaijan State University of Art and Culture**
**https://orcid.org/0009-0007-5840-8999**
**parvanadop@gmail.com**

**Summary**

The art of cinematography, originating in France in 1895, took its initial steps into Azerbaijan within a brief three years of period. The cinema's rapid growth reached its ultimate stage of development through technological advancements.

Navigating various phases of growth and challenges, Azerbaijani cinema attained its peak of evolution during the 1960s and 80s, marking its golden era. Though out this time, director of photography Rasim Ismayilov, standing out as one of its most brilliant representatives, succeeded in founding a cinematography institution with his enduring legacy, and this establishment was truly one-of-a-kind. It not only fulfilled the demands of its contemporary period but also today, it aligns seamlessly with the visual communication needs of our modern era, even years into the future. The ability to engage across diverse genres and under varied directorial perspectives is an outcome arising from years of built-up experience and exceptional competence. By virtue of his outstanding talent and extensive experience, Rasim Ismayilov successfully portrayed a role model, leaving an undeniable legacy that remains irreplaceable for those who follows in his footsteps.

**Keywords:** cinema, cinematography, classic cinema, Azerbaijan cinematographer, Rasim Ismayilov

# ТВОРЧЕСТВО РАСИМА ИСМАЙЛОВА В КОНТЕКСТЕ СОВРЕМЕННОГО ИЗОБРАЗИТЕЛЬНОГО ИСКУССТВА

**Гасанова Парвана Ильхам**
**Азербайджанский Государственный Университет Культуры и Искусства**
**https://orcid.org/0009-0007-5840-8999**
**parvanadop@gmail.com**

**Резюме**

Прошло всего три года как, кинематограф созданный в 1985-ом году во Франции братьями Люмьер появился и в Азербайджане. Благодаря развитию технологии в мире кинематограф, как вид искусства достиг своей высшей точки и продолжает расти с высокой скоростью. Азербайджанский кинематограф, переживший взлеты и падения, проходя разные этапы, пережил свой золотой век в 1960-80-х годах. Кинооператор Расим Исмайлов, один из ярчайших представителей этой эпохи, сумел своим творчеством создать школу кинооператорского мастерства и занял уникальное место в истории Азербайджанского кино. Он не только отвечал требованиям своего времени, но и остается актуальным визуального повествования нашего времени спустя

годы. Умение работать в разных жанрах, с разными режиссерскими интерпретациями – результат многолетнего опыта и большого таланта. Благодаря этому таланту и опыту Расим Исмайлов сумел стать примером и оставил своим последователям незаменимое наследие.

**Ключевые слова:** кино, кинематограф, классическое кино, Азербайджанский кинооператор, Расим Исмайлов

Rasim İsmayılov Azərbaycan kino sənətində özünəməxsus istedadı, fərqli janrlarda işləmək bacarığı ilə fərqlənən kinooperatorlardandır. O, müharibə filmlərindən tutmuş uşaq filmlərinə və hətta romantik dram üslubunda olan filmlərə qədər bir çox janr və üslubların təsvir həllini yüksək peşəkarlıq və xüsusi operator yozumu ilə həyata keçirməyi bacaran nadir sənətkarlardandır. Hər janrda fərqli üslubda işləyərək "gözəgörünməz" operator olmaq xüsusi istedad və peşəkarlıq tələb edir. Təkcə kinooperatorluğun deyil, eləcə də incəsənətin bütün növlərində ən diqqətəlayiq cəhət müəllifin fərqli janr və fərqli üslublarda uğur əldə edə bilmək bacarığıdır. Belə ki, bədii film ekran əsəri olaraq rejissorun yozumunun təcəssümü xarakterini daşıyır. Operatorun ən əsas vəzifəsi bu yozumu tamaşaçıya olduğu kimi, onun qavrayacağı tərzdə çatdırmaqdır. Məhz buna görə onun filmdən filmə dəyişmək bacarığı, xüsusi qəlibləşmiş dəst-xəttinin olmamağı yüksək qiymətləndirilir. Rasim İsmayılov məhz bu cür operator idi.

"Yenilməz batalyon" filmində klassik kompozisiya və işıq həlli ilə müharibə mövzusunu özünəməxsus atmosferdə təqdim edərək tamaşaçıya çatdırır. Daha çox sərt "işıq-kölgə işıqlandırma" sxemində işləməklə müharibənin sərt tərəflərini, qəhrəmanın keçirdiyi təbəddülatları, daxili ziddiyyətləri, üzləşdiyi sınaqları və bu sınaqların ən ağır nəticələrini təcəssüm etdirir.

Janr etibarilə oxşar, amma dramaturgiya və mövzu baxımından fərqli "Yeddi oğul istərəm" və "Axırıncı aşırım" filmlərində isə fərqli üslubda, daha çox qəhrəmanların və onları əhatə edən mühitin və təbiətin təsvirini qabartma metodu ilə çəkiliş aparan müəllif kəskin kompozisiyalar, düz xətlərin sındırılması ilə dövrün tələblərinə bir növ etiraz əlaməti olan təsvir həlli irəli sürmüşdür. Həmçinin tarixi şəxsiyyətlər olan "Nəsimi" və "Babək" haqqında olan eyniadlı filmlərdə də qəhrəmanın daxili aləmininin inikası tamaşaçıya vizual nəql formaları ilə mahir ustalıqla çatdırılmışdır. "*R. İsmayılovun sənət axtarışları, fərqli təsvir həlləri maraq doğurur. Onun istər natura, istərsə də pavilyon çəkilişləri sənətkarlıq baxımından çox yüksəkdir. Təsvirləri sadəcə illüstrativ xarakter daşımır, bədii fikir və məna yükü, filmin rejissor şərhi ilə səsləşir" (Əsgərov, 2017).*

Yuxarıda sadalanan filmlərin tam əksi olaraq romantik dram janrında çəkilmiş "Gün keçdi" filmində Arif Babayev və Rasim İsmayılov tandemi Azərbaycan kinosunda "poetik kino"nun parlaq nümunəsini yaratmışdır. Mövzudan və janrdan irəli gələrək yumşaq, kölgəsiz və tonal işıqlandırma sxemlərinə üstünlük verən Rasim İsmayılov vizual olaraq tamaşaçını təhtəlşüur səviyyədə sərt, qlobal tarixi ovqatdan qopararaq hisslər və duyğular səviyyəsində düşünməyə vadar edir. Portretlər üzərində qurulan filmdə daha çox iri panlara üstünlük verilmiş, qəhrəmanların emosiya, hiss-həyəcanları qabardılmışdır. Bu, ictimai şəraiti hər zaman ön plana çəkməyə meylli olan hakim ideologiyaya və eləcə də onun metodologiyasına zidd bir yanaşma idi.

Rasim İsmayılov Azərbaycan kinosuna nəinki kinooperator kimi, həmçinin, rejissor kimi də töhfələr vermişdir. Onun uşaqlar üçün nəzərdə tutulan "Şir evdən getdi", "Asif, Vasif, Ağasif" filmləri yaradıcılığının digər filmlərindən tam fərqlənir. Hərəkətli, rəngarəng, ümumi planların istifadə olunduğu bu filmlərdə biz Rasim İsmayılov yaradıcılığının başqa bir cəhətini müşahidə edirik. "*Rasim İsmayılovun lentə aldığı "Yeddi oğul istərəm", "Axırıncı aşırım", "Gün keçdi", "Dədə Qorqud", "Sevinc buxtası" kimi ekran əsərləri peşəkar kinooperator kimi ona şöhrət gətirdi, təkrarsız dəst-xəttini aydın göstərdi. O, həmin filmlərlə müasir və tarixi mövzularda yüksək sənətkarlıqla işləmək məharətini də nümayiş etdirdi" (Əbdülrəhmanlı, 2020).*

Yaradıcılığı ilə Azərbaycan kino sənətində parlaq irs yaradan Rasim İsmayılovun üslubları, vizual nəql formalarından istifadə prinsipləri müasir dövrdə də öyrənilir və örnək olaraq qalır. Texnologiyanın inkişaf etdiyi dövrümüzdə mövcud olmayan dünyalarda, fərqli planetlərdə, yaşanmamış gələcəkdə baş verən hadisələri göstərmək mümkün olsa da, vizual təsvir ənənələri dəyişməyib və tamaşaçının təxəyyülünə və qəlbinə yol açan adekvat metod olaraq qalır.

**Ədəbiyyat:**


1. Dadaşov A.Ə. Ekran dramaturgiyası. Bakı: Maarif, 1999.
2. Kazımzadə A. Azərbaycan kino salnaməsi. Bakı: Şərq-Qərb, 2021.
3. https://az.wikipedia.org/wiki/Rasim_%C4%B0smay%C4%B1lov_(kino_s%C9%99n%C9%99t%C3%A7isi)
4. https://audiovisual.az/ru/kinorejissorlar/rasim-ismayilov/
5. Əbdülrəhmanlı N. Azərbaycan kino sənəti tarixi. Bakı, 2020.


## TÜRK EPOS ƏNƏNƏSİ VƏ AZƏRBAYCAN "KOROĞLU"SUNUN SÜJET-KOMPOZİSİYA SİSTEMİ


**Əlibabaoğlu Baba Əlibaba**

**Azərbaycan Dövlət Pedaqoji Universiteti**

**https://orcid.org/0000-0002-6125-9062**

**baba.elibabaoglu@gmail.com**


## TURKISH EPIC TRADITION AND THE PLOT-COMPOSITIONALY SYSTEM OF AZERBAIJANI "KOROGHLU"


**Alibabaoglu Baba Alibaba**

**Azerbaijan State Pedagogical University**

**https://orcid.org/0000-0002-6125-9062**

**baba.elibabaoglu@gmail.com**



**Summary**

The purpose of this report is to mutually analyze the "Koroghlu" saga, which originated in Azerbaijan, based on the plot structure and composition system, with the all-Turkish epic creation. It is a well-known fact that the role of literature, including folklore, the epic, which can be considered its main component and core, is very important in the process of formation of peoples in order to protect their national identity. The role of epics and epic tradition in the life and national identity of Turks, who have experienced a historical path and formation process like an epic, is quite remarkable. Therefore, the study of epics and involvement in research is not only literary, but also historical-ideological-political in nature. In order to be able to imagine the general picture of Turkish epicism, it is necessary to study the epics created and formed in Azerbaijan, which is located in the center of Turkish geography, including "Koroghlu" and compare them with other Turkish epics. In the report, the "Koroghlu" epic, which originated and formed in Azerbaijan, was compared with Turkish epics according to the plot and composition system. The epic to be discussed here has been compared with both classical Turkish epics and its versions that arose in other regions of Turkish geography. The obtained results are important in terms of being able to correctly assess the place of this saga in the Turkish epic creation.



**Key words:** Turkish epics, Koroghlu, the plot, composition.

# ТУРЕЦКАЯ ЕПИЧЕСКАЯ ТРАДИЦИЯ И СЮЖЕТНО-КОМПОЗИЦИОННАЯ СИСТЕМА АЗЕРБАЙДЖАНСКОГО "КЕРОГЛУ"

**Алибабаоглу Баба Алибаба**
**Азербайджанский Государственный Педагогический Университет**
**https://orcid.org/0000-0002-6125-9062**
**baba.elibabaoglu@gmail.com**

**Резюме**

Целью данного доклада является рассмотрение эпоса «Кероглу», происходившего в Азербайджане, с тюркским эпическим творчеством, исходя из структуры сюжета и системы композиции. Известно, что роль литературы, в том числе фольклора, эпоса, которые можно считать его главной составляющей и ядром, очень важна в процессе формирования наций для сохранения их национального бытия. Роль эпоса в жизни тюрков, прошедших исторический путь и процесс становления подобно былинам, весьма примечательна. Именно поэтому изучение былин, привлечение их к исследованиям имеет не только литературоведческое, но и историко-идеологическое и политическое значение. Для того чтобы представить себе общую картину тюркских эпосов, необходимо рассмотреть эпосы, созданные и сформировавшиеся в Азербайджане, находящемся в центре тюркской географии, в том числе «Кероглу», и сравнить их с другими тюркскими эпосами. В докладе эпос «Кероглу», зародившийся и сформировавшийся в Азербайджане, по сюжетно-композиционной системе сравнивался с другими турецкими эпосами. Упомянутый здесь эпос сравнивался как с классическими турецкими эпосами, так и с вариантами этого эпоса, появившимися в других регионах тюркской географии. Полученные результаты важны с точки зрения возможности правильно оценить место этой саги в тюркском эпическом творчестве.

**Ключевые слова:** Турецкий эпос, Кероглу, сюжет, композиция.

Türk epos yaradıcılığı içərisində özünəməxsus, xüsusi bir yerə sahib olan Azərbaycandakı "Koroğlu" eposunun mövqeyini düzgün müəyyən edə bilmək üçün bu məsələ iki istiqamətdə təhlil edilməlidir. Birincisi, Azərbaycanda yaranmış olan "Koroğlu" dastanını "Kitabi-Dədə Qorqud", "Manas", "Alpamış", "Edigey" və s. kimi türk dastanları ilə qarşılıqlı şəkildə müqayisə və təhlil etmək. İkincisi, Azərbaycanda yaranan "Koroğlu"nu Anadoluda, Türküstanda yaranan "Koroğlu" və bənzər dastanlar ilə qarşılaşdırmaq və bunun əsasında müqayisələr, təhlillər aparmaq. Mifoloji əsasları və arxetipləri hələ on altıncı əsrdən çox-çox əvvələ gedən "Koroğlu" dastanının türk epik düşüncəsindəki yerini düzgün təsəvvür edə bilmək üçün bu istiqamətlərdən yola çıxmaq zəruridir. Bədii əsərin siqlətini ölçərkən daha çox onun süjet və kompozisiyasına diqqət yetirildiyi üçün biz də qarşılaşdırmaların, müqayisələrin, təhlillərin məhz bu iki göstəricinin əsasında aparılmasını məqsədəuyğun hesab edirik.

**Müqayisə: süjet, mövzu.**

"Koroğlu" və digər türk dastanları geniş süjet xəttinə malik olduğu və eyni etnosun təfəkkürünün məhsulu olduğu üçün, təbii olaraq, onların süjet xətləri və kompozisiyası arasında xeyli oxşar məqamlar tapmaq mümkündür. "Koroğlu" eposunda kökləri hələ çox keçmiş zamanlara gedən mifoloji motivlərin (xüsusilə sudan çıxan ayğırlarla bağlı mif) olması ilə bağlı görkəmli türkoloq Ə.Z.V.Toğan araşdırmalar aparmış və onun bu araşdırmaları M.F.Köprülü, P.N.Boratav, Ə.Abid kimi alimlərin də diqqətini cəlb etmişdir (Köprülü, 1980) (Boratav, 1984) (Abid, 2016). Dədə Qorqud və Koroğlu ilə bağlı olan iki möhtəşəm epos arasında da bənzər süjet yaxınlıqları tapmaq olar. Düşmən gələrkən qəhrəmanın yuxuda olması, sevdiyi uğrunda qəhrəmanın səfərə çıxması, çətinliklə, döyüşməklə onu gətirməsi kimi bir sıra motivləri buna misal göstərə bilərik. Ya da ki, "Manas" və "Koroğlu" eposlarında verilən at təsvirlərinin bir-biri ilə nə qədər yaxın olduqlarını görmək heç də çətin deyildir. Türk dastanlarında islamla əlaqədar olaraq dini-

mifoloji motivlərə rast gəlirik. Satuk Buğra ilə bağlı dastanda Həzrət Məhəmmədin (s.ə.s.), Alpamış və Koroğlu ilə bağlı dastanlarda isə Həzrət Əlinin obrazlarını görə bilərik. Lakin bir məqama da diqqət yetirmək maraqlıdır ki, haqqında danışdığımız eposun qəhrəmanları əksər türk eposlarının qəhrəmanlarından fərqli olaraq əsilzadələr, soylu ailələrin övladları deyil, xalq arasından çıxmış kasıb və ya orta təbəqənin insanlarıdır. Görünür, türk coğrafiyasının böyük əksəriyyətini yalnız fiziki deyil, eyni zamanda, mənəvi işğala məruz qoyan sovet rejimi də bu dastanı ideoloji cəhətdən daha az zərərli saymış və ona qarşı çox da ideoloji basqı etməmişdir.

Qeyd etdiyimiz kimi, bu eposun türk epik yaradıcılığındakı yerini düzgün qiymətləndirə bilmək üçün ikinci məsələ eposun həm Azərbaycanda, həm də ümumtürk ədəbi coğrafiyasındakı variantlarını müqayisə etməkdir. Həqiqətən də, türklər çox sevdikləri bu qəhrəmanın şəninə Anadoludan Türküstana qədər bir-birindən maraqlı dastanlar qoşmuşlar (Əfəndiyev, 2012). Eposun bədii gücü sayəsində necə böyük bir coğrafi arealda yayıldığını göstərmək üçün sadəcə bunu qeyd etmək yetər ki, o yalnız türk epik yaradıcılığının sərhədləri daxilində sıxışıb qalmamış, eyni zamanda taciklərin, ermənilərin, gürcülərin və s. kimi xalqların da ədəbiyyatına nüfuz etmişdir. Bütün bu deyilənləri ümumiləşdirdikdə "Koroğlu" eposunun timsalında türk epos yaradıcılığının böyüklüyünü, əzəmətini görmək mümkündür.

**Digər türk dastanları ilə quruluş yaxınlığı.**

Yuxarıda da qeyd edildiyi kimi, dastan yalnız süjetinə görə deyil, kompozisiyasına görə də bir sıra türk dastanları ilə oxşarlıq təşkil etməkdədir. İrihəcmli türk dastanlarının əsas səciyyəvi, əlamətdar, xarakterik cəhətlərindən biri onların boylara, qollara ayrılmasıdır. Belə ki, Qorqud atanın qopuzunu bir saz olaraq çiyninə taxan Koroğlular, Aşıq Cünunlar türk xalq musiqisini müqəddəs bir ənənə kimi davam etdirmişlər (Köprülü, 1999). Təbii ki, eposun kompozisiyasında ən çox diqqəti cəlb edən məsələ dastanın sadəcə nağıletmədən ibarət olmayıb, burada yeri gəldikcə qəhrəmanların psixoloji ovqatının, hiss və həyəcanlarının xalq şeiri ilə verilməsidir. Biz bu lirik ricətlərdə də digər türk dastanları ilə yaxınlıq görə bilərik. Məsələn, "Koroğlu" eposunda Nigar xanımın övladsızlıq səbəbindən öz duyğularını dilə gətirdiyi parça, "Kitabi-Dədə Qoqrud"da Dirsə xanın duyğularını bizə xatırladır. Məlum olduğu kimi, bəlli səbəblərə görə dastanın Paris nüsxəsində bu şeirlər nisbətən az və zəifdir.

Mövzu çox geniş danışmağı tələb etsə də, bununla bağlı ümumi mənzərəni qısaca müşahidə edərkən haqqında danışdığımız bu eposun çox qədimdən necə rişələndiyini və ümumtürk coğrafiyasında necə yayıldığını, məşhurlaşdığını görmüş olduq.

**Ədəbiyyat**:


1. Abid, Ə. (2016). Azərbaycan Türklərinin Ədəbiyyatı Tarixi. Bakı: Elm və Təhsil.
2. AMEA (2004). Azərbaycan Ədəbiyyatı Tarixi. I cild. Bakı: Elm.
3. Boratav, P. N. (1984). Köroğlu destanı. İstanbul: Adam.
4. Əfəndiyev, P. (2012). Azərbaycan Şifahi Xalq Ədəbiyyatı. Bakı: Elm və Təhsil.
5. Koroğlu dastanı. (2005). Bakı: Lider.
6. Köprülü, F. (1999). Edebiyat Araştırmaları. Ankara: Türk Tarih Kurumu Basınevi.
7. Köprülü, M. F. (1980) Türk Edebiyatı Tarihi. İstanbul: Ötüken.
8. Akın, B. Alpamış Destanında Hz. Ali tasavvuru. https://www.acarindex.com/milli-folklor-dergisi/alpamis-destaninda-hz-ali-tasavvuru-110087 [Baxılma tarixi: 16.07.2023.]
9. Türk destanları. https://ataturk.org.au/wp-content/uploads/docs/Turk-Destanlari.pdf[Baxıldığı tarix: 20.07.2023]

# POEZİYADA PAYIZ OBRAZI LİRİK QƏHRƏMANIN DAXİLİ ALƏMİNİN BƏDİİ ƏKSİ KİMİ

**Vəliyeva Ceyran Elşən**
**Gəncə Dövlət Universiteti**
**https://orcid.org/0000-0002-0581-7226**
**veliyevaceyran87@gmail.com**

# THE IMAGE OF AUTUMN IN POETRY AS AN ARTISTIC REFLECTION OF THE INNER WORLD OF THE LYRICAL HERO

**Valiyeva Jeyran Elshan**
**Ganja State University**
**https://orcid.org/0000-0002-0581-7226**
**veliyevaceyran87@gmail.com**

**Summary**

Each season has its own beauty, just as it has its own mood. Autumn is the harbinger of winter. At this time of the year, the gradual cooling of the weather calls people to prepare for winter. Autumn has a mystical aura. Observing this state of nature, a person falls into the world of emotions. In this research work, poets' thoughts about the autumn season have been discussed. In particular, the analysis of the poems written by Rafig Yusifoglu and Musa Yaqub about autumn was discussed. In addition, the thoughts of Bakhtiyar Vahabzade and other poets about autumn are included. autumn is not just a season that the poet liked to portray in his poems, autumn inspired the poet, this is the most fruitful time of the year for creativity. In the fall - when dreams are clearly drawn in front of a person, words unexpectedly fall under the pen when writing poems, and noisy rhymes rush to a harmonious idea.

**Keywords:** autumn, poet, poetry, literature

# ОБРАЗ ОСЕНИ В ПОЭЗИИ КАК ХУДОЖЕСТВЕННОЕ ОТРАЖЕНИЕ ВНУТРЕННЕГО МИРА ЛИРИЧЕСКОГО ГЕРОЯ

**Валиева Джейран Эльшан**
**Гянджинский государственный университет**
**https://orcid.org/0000-0002-0581-7226**
**veliyevaceyran87@gmail.com**

**Резюме**

Каждое время года имеет свою красоту, как и свое настроение. Осень – предвестник зимы. В это время года постепенное похолодание заставляет людей готовиться к зиме. Осень обладает мистической аурой. Наблюдая за этим состоянием природы, человек попадает в мир эмоций. В данной исследовательской работе обсуждались мысли поэтов об осеннем времени года. В частности, обсуждался анализ стихотворений, написанных Рафигом Юсифоглу и Мусой Якубом об осени. Кроме того, включены мысли Бахтияра Вагабзаде и других поэтов об осени. Осенью - когда перед человеком отчетливо рисуются сны, неожиданно ложатся под перо слова при написании стихов, и шумные рифмы устремляются к стройной мысли. Осень - не просто время года, которое любил изображать поэт в своих стихах, осень вдохновляла поэта, это самое плодотворное время года для творчества.

**Ключевые слова**: осень, поэт, поэзия, литература

Tədqiqatın aktuallığı klassiklərin və müasirlərin payız fəslinə olan sonsuz marağı, bu əsrarəngiz obrazın lirik əsərlərin bədii quruluşunda müstəsna rolu, onun çoxşaxəliliyinin aşkara çıxarılması və dərinliyindən ibarətdir. Oxucuların mənəvi əhval-ruhiyyəsinə təsirinin həll olunmaması bu obrazın ədəbiyyatda təkamülünü izləmək, obrazın açıldığı ekspressiv və bədii vasitələrdəki təkamül dəyişikliklərini göstərmək istəyi yaradır. Seçilmiş mövzunun aktuallığı ondadır ki, tədqiqat işi bizə bədii əsərləri təhlil etməyi, obrazlı və ifadəli dil vasitələrinin rolunu müəyyənləşdirməyi öyrədir. Tədqiqatımızın obyekti klassiklərimizin ənənələrini davam etdirən müasir yazıçıların payız fəsli ilə bağlı qələmə aldıqları poeziya nümunələridir.

Payız düşüncəli və kədərlidir, lirik və sirlidir. Azərbaycan şairlərinin yaradıcılığında payız haqqında şeirlər yorğun təbiətin əhvalını sakitcə çatdırır. Bunlar düşən yarpaqların misraları, yazın zərif günəşli günləri, payızın sonundakı səmanın buludlu dumanında payız yağışının misralarıdır. Payız ən zərif, incə və eyni zamanda müdrikliklə doludur. Hər şey: kədər və həsrət, sevinc və məyusluq, tənhalıq və sevgi həzin, lirik cazibəli bir payız əhval-ruhiyyəsində bir-birinə qarışır. Sadə və ruhla dolu, təsirli və xoş sözlər, payız haqqında şeirlərdəki misralar və qafiyələr Azərbaycan təbiətinin bütün gözəlliyini və Azərbaycan poeziyasının həssas dərinliyini vurğulayır. Dünya ədəbiyyatında və eləcə də Azərbaycan ədəbiyyatındakı bütün şairlərin yaradıcılığında payız nəfəsi, payızın ətri hiss olunur. Uzun illər, əsrlər boyu payız Azərbaycan ədəbiyyatında öz tərifləri, təsvirləri olan bir fəsil olub. Xüsusilə şairlərin gözündə payız fəsli bir başqa təcəssüm olunur. Bir çox ədiblərimizin yaradıcılığında, təbiətlə, payız fəslinin ecazkar ab-havasını özündə əkd etdirən dəyərli şeirlərə rast gəlirik. Poeziya ömrünün payızını yaşayan şair Rafiq Yusifoğlu şeirlərində bu fəslin rəngarəngliyinin poetik cizgilərlə əks olunduğu görünür. "Payızın vida nəğməsi" şeirində zahirən depressiv əhvali-ruhiyyə əsasında yüksək poetik keyfiyyətləri əks etdirən poeziya nümunəsi yaratmışdır.

"Kirpiyə bənzər budaqdan
Soyuq damlalar asılıb.
Sanki payızın əliylə
Vida nəğməsi yazılıb." (Yusifoğlu, 2021)

Müəllif hər şeyi doğma təbiətinin geniş miqyaslı gözəlliyi ilə vurğulayaraq, sakitlik və düşüncə mühiti yaratdı. İnsan təbiətini bütün əzəməti ilə istənilən fəsildən asılı olmayaraq təsvir etmək istedadına malik şair canlı epitetlərin, müqayisələrin köməyi ilə cansız cismləri canlandırır.

"Uçuşan yarpaq ümidlər
Düşüb yellərin cənginə.....
Təbiət də qəlbim kimi
Boyanıb həsrət renginə...." (Yusifoğlu, 2021)

Xarici aləmdən daxili aləmə, lirik qəhrəmanın ruh məkanına enən mənalar sistemində qüdrətli ideyanın kiçik həcmli şeirdə cəmləndiyi görünür. Payızın əhval-ruhiyyəsinə həsr olunmuş şeirlər oxucunun qəlbinin dərk və həssaslığına təsir edir, şairin ruhundan xəbər verən poetik bağçaya çəkir.

"Yağışın altında əsir budaqlar,
Meşə xiffət çəkir, gedir özündən ...
Dəymə-düşər olub qızıl yarpaqlar,-
Yel əscək, ağacın düşür gözündən..." (Yusifoğlu, 2021)

Şair doğma təbiət haqqında real və eyni zamanda dərin poetik bir fikir verir. Şair təbiəti onun müxtəlif və özünəməxsus xüsusiyyətləri, xassələri, hadisələri ilə canlı və həqiqətə uyğun təsvir edir. Son sətirlərində şairin ruhunda ilhamın necə doğulduğunu, poetik yaradıcılığının necə meydana gəldiyini qeyri-adi inandırıcılıqla, poeziya ilə göstərir.

“Ağaclar az qala od tutub yana,
Həsrət buzlarını əritmək olmur.
Ağaclar bir yana, kollar bir yana,
Hönkürən qəlbi də kiritmək olmur...” (Yusifoğlu, 2021)

Şair payız təbiətinin solğunluğunda poetik xüsusiyyətlər tapmağı bilir: ağacların saralmış yarpaqları qızılı rəngə boyanır. Bu, həqiqətən, sevən və payızın poetik xüsusiyyətlərini olduğu kimi görməyi bacaran bir insanın payızı sevmək qavrayışıdır. Şairin şeirlərindəki payız təntənəli, kədərli və əzəmətli, gözəldir.

Payız haqqında şeirlərdə bədii söz küləklərlə fırlanacaq, misralarda yağışlarla islanacaq. Payızda şair qeyri-adi güc və enerji artımı yaşayır. Payız şairin təxəyyülünə çox faydalı təsir göstərmiş, onu möhtəşəm əsərlər yaratmağa ruhlandırmışdı. “Bakıda payız yağışı” şeirində şair yazır:

“Məni haldan-hala saldı
Bakıda payız yağışı...
Qəlbimi yaman kövrəltdi
Təbiətin yır-yığışı...
Qara asfalt gözəlləşib,
Üstündə nə çox yarpaq var!
Elə bil yapışıb yerə
Sarı, qızılı yarpaqlar.” (Yusifoğlu, 2021)

Şeirlərdə lirik qəhrəmanın daxili aləminin üzə çıxarılmasında parlaq metafora “yağış” sözünə toxunan sözlərdə (epitetlərdə) təkamül dəyişiklikləri öyrənilir. Bədii əsərdə yağış obrazı lirik qəhrəmanın əhval-ruhiyyəsinin ifadəsində bədii fikirlərin xüsusi təcəssümünün mövcudluğunu sübut edir.

Musa Yaqub şeirlərinin hər birində Vətəninə, torpağına, insanlara və təbiətə sonsuz sevgi ifadə olunur. Musa Yaqub doğma diyarının hər çayını, bulağını, gülünü, ağacını, daşını şeir misralarına gətirən, bədii nümunəyə-şeirə çevirən güclü poetik söz ustasıdır. Ədəbi və əzəli olan bu mövzu onun yaradıcılığının əsas sütununu təşkil edir.

Musa Yaqubu onun ana təbiətin füsunkar mənzərələri ilə əhatə olunmuş bir mühitdə yaşadığı üçün yox, zaman və tarix anlayışına, gözəllik və sevgi kateqoriyasına- bir sözlə, əxlaqi -mənəvi sərvətlərə təbiətin prizmasından baxdığı üçün təbiət şairi adlandırmışlar.

Onun poeziyasında lirik qəhrəmanın qəmli-kədərli ovqatı hər zaman təbiətin payız fəsliylə həmahəng olub, təkcə lirik qəhrəmanın daxili iztirabını ifadə etmişdir. “Yay vaxtından qış vaxtına”, “Atam…atam”, “Bir payızlıq ümid” kimi şeirlərində də lirik qəhrəmanın taleyi, insan əhval-ruhiyyəsi təbiət ilə vəhdət halında götürülür. Musa Yaqub təbiətin timsalında həmişə özündən danışır. “Bir payız nəğməsi, bir payız səsi” şeirində şair, əslində Buynuzdakı evindən bəhs edir. O qurşağa kimi şəhərli olub, həyatı boyunca qurduğu yuvanın boş, tərk edilmiş mənzərəsi onu kölgə kimi izləyir, qəzəb və narahatlığına səbəb olur. Payız fəsli haqqında yazdığı şeirləri arasında “Bir payız tənhalığı”, “Bu payız”, “Payız duyğuları”, “Bu payızın dərdi” və başqa şeirləri vardır.

“İndi bildim nağıldı” kitabında “Payızın 22 halı” adında əlavə bölmə var. Ümumiyyətlə, şairin başqa kitablarında da payız fəsli barəsində bir neçə şeiri yer alıb.

M.Yaqubun “Bu payızın dərdi götürüb məni” adlı şeirində şairin daha kövrək hisslərini görürük.

“Bu payızın dərdi götürüb məni
Nə qədər hicranlar var bu dünyada,
Payızın ən həzn çağı olanda,
Kimsə bu payızla tənha qalanda
O hicranlı təklər necə dözəcək?

O solan sevgilər, insan ağaclar,
O insan çiçəklər necə dözəcək -
Bu payızın dərdi götürüb mən" (Məmmədli və Əhmədova, 2017)

Musa Yaqub müsahibələrinin birində deyib ki, "Mənim taleyimə, nədənsə, payız düşüb". Ola bilsin ki, şair payız fəslində atasını itirdiyinə görə bu fəsillə barışa bilmir.

"Payızın hökmüylə əsdi bir külək
Bir yaşıl səltənət çovğuna düşdü.
Ağaclar bir yaş da qocaldı demək,
Bir yarpaq nəsli də qırğına düşdü.

Aldı verdiyini geriyə torpaq,
Qazancı nə oldu bağın-bağçanın.
Bir yarpaq boy atdı körpə bir uşaq,
Ömründən bir yarpaq düşdü qocanın." (Məmmədli və Əhmədova, 2017)

M.Yaqubun təbiət mövzusunda qələmə aldığı nadir şeirlərinin Azərbaycan poeziyasının şeir xəzinəsində özünəxas yeri var. Şairin ürəyindən gələn şeirlər sanki qəlbimizin, dünyanın səsidir. Kövrəklik və zəriflik, bəlkə də, Musa Yaqub poeziyasının özəlliklərini xarakterizə edərək oxucuya çatdıran ən doğru sözlərdir.

Qədim Azərbaycan ədəbiyyat sənətində şairlər qocalığı təsvir edərkən solğun rənglər ilə əlaqələndirilə bilən emosional-psixoloji səviyyədən istifadə etmişlər. Bunu poetik ustalıqla ilk dəfə dahi Nizami Gəncəvi öz yaradıcılığında istifadə etmişdir. O deyir:

"Bədənim artıq laciverdi rəng alır,
Gülüm qırmızı rəngin atıb sarılıq qalır.
Yüyürən atım yollarda hey gecikir,
Başım balışa çox ehtiyac hiss edir"
(Gəncəvi, 2004).

Bu yanaşmanı XX əsr poeziyamızda da görürük. Bəxtiyar Vahabzadə "Ömrün payızı" şeirində yazır:

"Ağaclar soyunur, yer xəzəllənir,
Fikir dumanlanır, gözlər zillənir,
Güllərin üstünə enən tək enir
Mənim gözlərimə çən yavaş-yavaş" (Vahabzadə, 2014)

B.Vahabzadə gözəl nəğmələrin, lirik şeirlərin, mükəmməl poetik nümunələrin şairi idi. Onun "Durna qatarı", "Biri sənsən, biri mən", "Gecələr, ay gecələr", "Yağma yağış" və başqa şeirlərində saf bir duyğu, sevgi ilə bərabər, xoş ümid, həsrət, kövrək giley-güzar, inam və ümid vardır. Təbiət lövhələri B.Vahabzadənin öz bədii-estetik ideya və düşüncələrini, hiss və qayğılarını bədii dillə ifadə etməsi üçün çox əlverişli üsul və vasitəyə çevrilmişdir.

İ.Xətai, M.Füzuli, N.Gəncəvi, Q.Təbrizi və başqa ölməz söz ustadlarının yaradıcılığında lirik qəhrəmanın psixoloji daxili-mənəvi aləmilə əlaqəli payız fəslinin təsvirlərindən kifayət qədər istifadə edilmişdir.

Payız fanilik fəslidir, dünən bar verən, çiçək açan yaz ağaclarını payızda kimsəsiz, solğun görürük. Bir çox bənzərsiz xüsusiyyətləri ilə payız şairlərin diqqətini cəlb edə bilmişdir. Buna görə də şairlər yaradıcılıqlarında payız fəslinin ifadəsinə yer vermişlər. Sübut olunur ki, yağış obrazı hər bir yazıçı üçün fərdidir və müəllif münasibətinin poetik əksidir. Payız fəsli insanın daxili dünyasının açılması mənbəyi kimi müxtəlif dövrlərin yaradıcı insanlarını həmişə ruhlandırıb.

**Ədəbiyyat:**

1. Məmmədli, R. və Əhmədova, S. (2017). Milli poeziyamızın göy qurşağına çevrilən şair: metodik vəsait. F.Köçərli adına Respublika Uşaq Kitabxanası, 33 s.

2. Yusifoğlu, R. (2021). Zəfər Dastanı. Şeirlər. ADPU nəşriyyatı, 280 s.

3. Vahabzadə, B. (2014). Seçilmiş əsərləri. İki cilddə. I cild (Şeirlər). Öndər, 328 s.

4. Orucova, Ş. (2013). Poeziyada təbiət və mədəniyyət mövzusu: Qabil və Musa Yaqubun yaradıcılıqları əsasında // Təhsil problemləri, № 47/48,14 s.

# CORC ORUELLİN "BOĞULURAM" ƏSƏRİNDƏ İCTİMAİ VƏ EKOLOJİ PROBLEMLƏRİN BƏDİİ XÜLASƏSİ

**Cəfərli Xanım Səməd**
**Qərbi Kaspi Universiteti**
**https://orcid.org/0009-0008-4286-6538**
**khanimf1994@gmail.com**

# LITERARY ABSTRACT OF PUBLIC AND ECOLOGICAL PROBLEMS IN THE NOVEL "COMING UP FOR AIR" BY GEORGE ORWELL

**Jafarly Khanim Samad**
**Western Caspian University**
**https://orcid.org/0009-0008-4286-6538**
**khanimf1994@gmail.com**

**Summary**

The thesis aims to give a literary review of public and ecological problems in the novel "Coming Up for Air". In the novel the changing of the world is carried out in the background of urbanization, industrialization and environmental problems caused by them. As one of the problems that cause people's alienation, urbanization causes economic and social issues. The problems raised in the novel are also relevant in terms of the future of humanity. Trying to create a sense of responsibility in people towards nature, the writer focuses on environmental problems such as deforestation, extinction of animals, chemical posioning etc. and establishes a new ideological approach towards the world. The paper focuses on the realistic writer's approach on nature protection and war.

**Keywords:** Urbanization, chemical poisoning, alienation, man and nature.

# ХУДОЖЕСТВЕННОЕ РЕЗЮМЕ СОЦИАЛЬНЫХ И ЭКОЛОГИЧЕСКИХ ПРОБЛЕМ В РОМАНЕ ДЖОРДЖА ОРУЭЛЛА «ГЛОТНУТЬ ВОЗДУХА»

**Ханум Джафарли Самад**
**Западно-Каспийский Университет**
**https://orcid.org/0009-0008-4286-6538**
**khanimf1994@gmail.com**

**Резюме**

Цель написания доклада - дать художественное обобщение социальных и экологических проблем в романе «Глотнуть воздуха». В романе мир меняется на фоне урбанизации, индустриализации и вызванных ими экологических проблем. Как одна из проблем, вызывающих отчуждение людей, урбанизация порождает экономические и социальные проблемы. Проблемы, поднятые в романе, актуальны и с точки зрения будущего человечества. Пытаясь создать у людей чувство ответственности по отношению к природе, писатель рассказывает о вырубке лесов, вымирании животных, химических отравлениях и т.д. выдвигает экологические проблемы на первый план и создает новый идеологический подход к миру. В статье рассматривается реалистический подход писателя к вопросам охраны природы и войны.

**Ключевые слова**: Урбанизация, химическое отравление, отчуждение, человек и природа.

"Boğuluram" romanında insan və ətraf mühit arasındakı əlaqə təsvir olunur. Müəllif insanın təbiətdən uzaqlaşmasının səbəblərini tapmağa çalışır. Oruell urbanizasiyanın gətirdiyi sənaye problemlərinin davamı kimi müasir sənaye cəmiyyətinin təbiətə verdiyi fəsadların geniş izahını verir. İki dünya müharibəsi arasında yazılmış bu əsərdə cəmiyyətin əsas strukturundakı fundamental dəyişikliklər iqtisadi, siyasi, mədəni səviyyədə göstərilir. İnsanın təbiətdən uzaqlaşdığı hazırki dövrdə müasir sənaye cəmiyyəti insan kimliyini pozaraq fərdi destruksiyaya səbəb olur. Əsər müharibədən sonrakı dövrün fərdlər üzərindəki faciəvi təsirinin təsvirini göstərməklə antimüharibə mövzusunda olan roman təsiri bağışlayır. Roman "1984" və "Heyvanıstan" bədii mətnlərindən qabaq yazılsa da, hər üç bədii mətni birləşdirən ortaq mövzular mövcuddur (Oruell, 2010).

**İctimai və ekoloji problemlərin səbəbləri**

Romanda göstərilir ki, İngiltərənin gözəl mənzərələri texnologiyanın və sənaye fəaliyyətlərinin təhdidi altındadır. Romanı oxuduqca urban həyat tərzinin sıxışdırıb çıxardığı kənd həyatına yazıçı nisgili aşkar hiss olunur. Oruell əsərdə sadəcə siyasi və tarixi müşahidələrini qeyd etməmiş, həm də müasir cəmiyyətlər üçün təhlükə törədən və sosial-iqtisadi məsələlər qədər önəm kəsb edən ətraf mühit problemini analiz etmişdir. İnsanı aid olduğu təbiətdən ayrı tutan, digər canlılara yaşam haqqı tanımayan, onların yaşama hüququna hörmət etməyən və insana təbiətə etdiyi hər bir zərərdə bəraət qazandıran yeni dünya sistemi yaratdığı antiinsanlarla bu günü idarə edir. Təbiətə, digər canlılara və öz kimliklərindən uzaqlaşdıqları üçün həm də insanlara rahatlıqla zərər vermə potensialına sahib olan həmin antiinsanlar asanlıqla müharibə edir, öldürür və həyat qayələri olmadığı üçün kamikadzeləşərək ölümə atılırlar. İçinə sürüldükləri bu boşluq antiinsanları hər gün bir az daha içinə çəkir. Dövrünün realist romantiki olan Oruell təbiətin məruz qaldığı riskləri göstərməklə yanaşı, həm də təbiətdən bir simvol kimi istifadə edərək siyasi ideyalarını qələmə almışdır. Əsərin əsas qəhrəmanı Corc Boulinqdir. Onun təbiətlə mənəvi bağlılığı, təbiəti əsl doğma evi kimi görməsi həyatda qalmağa çalışdığı cəmiyyətlə müqayisədə verilir. Müasir həyatdan iyrənən, ikrah duyan qəhrəman özünün aidlik hissini təbiətdə tapır. İnsan və təbiət arasındakı bu ayrılma nəticəsində təbiətin müharibə və nüvə silahları ilə deqradasiyası texnoloji prosesin ən zərərli nəticələrindən biri kimi təqdim olunur. Müharibələr nəticəsində sadəcə təbiətin deyil, bəşəriyyətin də məhv olacağı fikri aşılanır. Cəmiyyət və onların təşkil etdiyi dövlətlər daha mərhəmətli və daha az rəqabətcil vəziyyətə gəlmədikcə kapitalizm və militarizm ətraf mühitin deqradasiyasının əsas mənbəyi olacaqdır. Engelslə Marksın ortaya qoyduqları tezis bu mənada mövcud problemin həllində (Marks və Engels, 2018) önəmli statusa malikdir. Boulinqi çox ümidsiz və çarəsiz görürük. Bu, yazıçının öz çarəsizliyidir. Boulinq özünü cəmiyyətdən təcrid olunmuş hiss edir. Məsələn, Harold Fromm texnologiyanın rolu, modernləşmənin insanı təbiətdən uzaqlaşdırması və insan və təbiət arasında dixotomiya yaratmasına diqqət çəkir. Müasir bir qərbli insan nə qədər rahatdırsa, bir o qədər də mənən yoxsuldur, özünü məqsədsiz və istiqamətsiz hiss edir (Fromm, 2005) Boulinq evdə bişmiş çörəyin, balıq tutmağın həsrətini çəkir. O, müasir sivilizasiyanın təbiətə qarşı istismaredici münasibətinə narazılığını bildirir.

**Təbiət və insan münasibətlərinin sosial statusu**

Təbiətin parçalanması və tədricən insanların yaddaşından silinməsi Boulinqin insanın təbiət üzərində texnoloji hakimiyyətinə skeptik yanaşmasına səbəb olur və bu da romanın əsas ideya xəttini təşkil edir. Boulinq insanların təbiət barədə cahilliklərini gördükcə təəssüf hissi keçirərək gələcəyə olan ümidini itirir. Burada yenə də Oruell təhsilin önəmini vurğulamaqla əsl maarifçi mövqeyi nümayiş etdirir (Orwell, 2021). Boulinq özünü lunatiklərdən ibarət şəhərdə tək oyaq insan adlandırır. Antiinsanlardan ibarət cəmiyyətdə insan kimi qala bilmək çətin olduğu qədər, həm də zamanla sağlam fərdin də destruksiyaya uğraması deməkdir. Belə olduqda insan özünü təcrid olunmuş hiss edir və ona dəli kimi rəftar edirlər. Boulinqin cari yaşamını rədd edib, keçmişə səyahət istəyi başqa deyimlə İngiltərənin keçmiş və cari mənzərəsinin (Orwell, 2021) diferensial şərhi statusundadır. Əsər keçmiş və gələcək arasında kəskin ziddiyyət vasitəsilə texnologiyanın insan həyatında irəliləyiş deyil, destruktiv silah olduğunu sübut edir. Texnologiyanın yaratdığı mənəvi çöküş nəticəsində insanlar fiziki və mənəvi olaraq süni həyat sürməyə məcbur edilirlər. Romanda Corc Boulinq təbii olan şeylərin destruksiyası və kapitalist istehlak mədəniyyətinin süni əmtəə ilə əvəz olunması barədə şəxsi təcrübələrini bölüşür. Həyatın monotonluğu, insanların təbii qüvvələrə qarşı yaratdığı adekvat nəsnələr (Orwell, 2021) özgələşmənin əsas simptomlarıdır. Roman boyu Oruell təbiətin faydalanılacaq sonsuz xammal qaynağı olması ideologiyasının nəticələrini göstərmək istəyir. Romanda Oruell ətraf mühitin destruksiyasının nəticələrini göstərməklə təbii resursların davamlı inkişafı üçün cəmiyyətləri təşviq edir. Burada yazıçının İngiltərə barədə mövqeyi nikbin deyil, mühafizəkardır. O deyirdi ki, sənayeləşmə çox var-dövlət gətirsə də, əvvəl-axır cəmiyyəti və mədəniyyəti homogenləşdirir. Texologiyanın zərərləri və çirkləndirmə potensialı onu texnologiya ilə barışmağa qoymur. Müasir sənaye cəmiyyətinin təbiət anlayışı cəmiyyətin rifahı üçün xammal təmin etməsi tələb edilən təbiət üzərində hegemonluğun quruluşunu əhatə edir.

Çirklənmə və meşələrin qırılmasının qarşısının alınması üçün yeganə həll yolu kimi insanların təbiətlə üzvi əlaqədə olması və yenidən təbiətə reinteqrasiya olunmalarıdır. İnsan ekosistemin ayrılmaz tərkib hissəsidir. Ətraf mühitlə şəxsi qarşılıqlı əlaqə ilə Boulinq həyat sevincini canlandırır və özünü təbiətin bir hissəsi kimi görməyə başlayır (Orwell, 2021). Özünü tanıma və özünü dərk etmə həyata məna qatan və yaşama sevinc gətirən bir prosesdir, bu da öz növbəsində kainatda bütün varlıqları təcəssüm etdirməyə çatacaq qədər insanın öz şəxsiyyətini genişləndirməsi deməkdir. İnsanlar təbiətlə əlaqəni bərpa etdikdə özlərini kainatın bir parçası və təbiəti əsl məskənləri kimi görürlər. Boulinq öz kimliyini və həyatın mənasını təbiətdə tapır. Boulinqin insan həyatında təbiətin önəmini kəşf etməsi və ekosistemdə olan bütün orqanizmlər arasındakı qarşılıqlı münasibəti dərk edərkən duyduğu təəccüb bu sətirlərdə daha çox görünür. Oksigen çatışmazlığı mənəvi və fiziki nəfəssizliyə (Orwell, 2021) çevrilir.

Oruell romanda sosial və siyasi məsələlərə ekoloji kontekstdə qiymət verməyə çalışır. Müəllifin ortaya qoyduğu və analiz etdiyi problemlər təkcə qlobal xarakterli yox, həm də zamanüstüdür. Cəmiyyətdə və kapitalist iqtisadi siyasətdəki reformlar bu dəyişikliklərə müsbət tərəfdən təsir edə bilər. Müəllifin digər romanlarında olduğu kimi burada da fərdi mübarizə ümumi həqiqəti dəyişən sosioloji baza statusundadır.

**Ədəbiyyat:**

1. Bulut, D. (2005). An Ecocritical Analysis of George Orwellís Coming Up For Air. Hacettepe Üniversitesi Edebiyat Fakültesi Dergisi, 22 (1), 237-248

2. Fromm, H. (1996). From Transcendence to Obsolescence C. Glotfelty-H. The Ecocriticism Reader. London: Georgia UP: 30-39.

3. Marx, K., Friedrich, E. (2018). Kommünist manifesto. (D. Öztürk, Çev.) Ankara: Tutku Yayınevi.

4. Oruell, C. (2010). Seçilmiş əsərləri. Bakı: "Şərq-Qərb".

5. Orwell, G. (2021). Coming up for air. Oxford: OUP Oxford.

## C.OSTİNİN VƏ İ.ƏFƏNDİYEVİN ƏSƏRLƏRİNDƏ FRAZEOLOJİ BİRLƏŞMƏLƏRİN TİPOLOGİYASI

**Hüseynova Sevinc Fəxrəddin**
**Azərbaycan Dillər Universiteti**
**https://orchid.org/0000-0003-2169-1106**
**sevinc747nn@gmail.com**

## THE TYPOLOGY OF PHRASEOLOGICAL COMBINATIONS IN THE WORKS OF J.AUSTEN AND I.EFENDIYEV

**Huseynova Sevinj Fahraddin**
**Azerbaijan University of Languages**
**https://orchid.org/0000-0003-2169-1106**
**sevinc747nn@gmail.com**

**Summary**

The article looks at the phraseological combinations in the works of J.Austen and I.Efendiyev. The main aim of the study is to study the similarities of phraseological combinations. They are stylistically close to each other in the works of these writers. It is extremely important for theoretical linguistics. Solving this important problem is of particular importance in the development of the theory of phraseology. For this, the history of typological phraseology and the problem of the emergence and the progression of phraseology in the example of Sh. Balli and V.V. Vinogradov are studied. Since the main research principle of the article is the typological principle, the problem of the essence of typological phraseology and its prospects was also discussed. As a result of the research, it was concluded that the study of phraseology in the typological aspect is a relatively new field of lexicology and is currently being studied in the cognitive direction. Phraseological combinations were selected and collected from the indicated sources based on the descriptive method.

**Keywords:** phraseology, typology,phraseological units, similarity.

## ТИПОЛОГИЯ ФРАЗЕОЛОГИЧЕСКИХ СОЧЕТАНИЙ В ПРОИЗВЕДЕНИЯХ ДЖ. ОСТИНА И И. ЭФЕНДИЕВА

**Гусейнова Севиндж Фахраддин**
**Азербайджанский Университет Языков**
**https://orchid.org/0000-0003-2169-1106**
**sevinc747nn@gmail.com**

**Резюме**

В статье рассматриваются фразеологические сочетания в произведениях Дж. Остина и И. Эфендиева. Основная цель исследования - изучение сходства фразеологических сочетаний. Они стилистически близки друг другу в творчестве этих писателей. Это чрезвычайно важно для теоретического языкознания. Решение этой проблемы имеет особое значение в развитии теории фразеологии.Для этого история типологической фразеологии и изучена проблема возникновения и развития теории фразеологии на примере Ш. Балли и В. В.

Виноградова. Поскольку основным исследовательским принципом статьи является типологический принцип, то рассматривается проблема сущности типологической фразеологии и ее перспектив. В результате исследования сделан вывод, что изучение фразеологии в типологическом аспекте является относительно новой областью лексикологии и в настоящее время изучается в когнитивном направлении. Фразеологические сочетания были отобраны и собраны из указанных источников на основе описательного метода.

**Ключевые слова:** фразеология, типология, фразеологизмы сходство.

Müasir dövrdə frazeoloqlar frazeologiyanın tədqiqindəki klassik metodlarla kifayətlənə bilməzlər, antroposentrik dilçiliyin mövcud olduğu indiki şəraitdə strukturalizmə əsaslanan frazeoloji nəzəriyyələr müasir dövrün tələblərinə tam cavab verə bilmir. Çünki frazeologiya sahəsindəki ən mühüm tələb ona koqnitiv yanaşmanın tətbiq olunmasıdır. Bu vaxt məsələnin idraki fonda təhlilinin nəticələri yeni yanaşmanın nəticəsi kimi daha faydalıdır, psixologiya, sosiologiya və linqvistika baxımından çox yenidir və faydalıdır. Eyni zamanda sosiologiya, sosiolinqvistika və koqnitiv dilçiliyin son nailiyyətlərindən istifadə etməklə frazeoloji vahidlərin öyrənilməsi bu sahədəki bir çox problemlərə, xüsusən dinləyici, kommunikativ intensiya, nitq aktı, fon biliyindən necə istifadə qaydaları problemlərinin çox incə məsələlərinə aydınlıq gətirir. Frazeoloji vahidlər kommunikantların kommunikativ-praqmatik məqsədlər amili ilə bağlıdır. Frazeoloji birləşmələrin mühüm bir hissəsi metaforik köçürmələr vasitəsi ilə formalaşır. Belə köçürmələrin koqnitiv əsasları koqnitiv dilçiliyin metodları vasitəsi ilə öyrənilir; assosiativ əlaqə tipləri bu metodlar vasitəsi ilə müəyyənləşdirilir. Mətn praqmatikası nöqteyi-nəzərindən frazeoloji birləşmələrin işlənməsi müəllif üslubunda xüsusi yer tutur və məqsədli səciyyə daşıyır. Bu o deməkdir ki, mətn praqmatikasından asılı olaraq assosiativ əlaqələr əsasında metaforik köçürmələr reallaşır, bu prosesin nəticəsi frazeoloji birləşmələrin yaranmasıdır. Deməli, müəllif metaforaları İstər C.Ostin, istərsə də İ.Əfəndiyevin əsərlərində ümumi köçürmə modeli əsasında yaranır və assosiasiyanın məzmunu isə onların mənsub olduğu dildaşıyıcısının milli-mental düşüncəsindən asılıdır. Ona görə də İngilis və Azərbaycan, eləcə də digər dillərdə frazeoloji birləşmələrin meydana gəlməsinin müəlliflər tipologiyasının öyrənilməsi çox faydalıdır. Buna görə də C.Ostin və İ.Əfəndiyevin əsərlərində frazeoloji birləşmələrin assosiativ əlaqə tiplərini nəzərdən keçirək.

C.Ostin və İ.Əfəndiyevin yaradıcılığında frazeoloji birləşmələr poeziyada olduğu kimi çox zərif və qəhrəmanın incə duyğularının daşıyıcısı kimi situasiya ilə tam həmahəngləşir. Bu səbəbdəndir ki, onun yaradıcılığında frazeoloji birləşmələrin bir qismi müəllif novatorluğunun nəticəsidir:

1.“Oh! let no time be lost (vaxt itirilməsin),” cried I. A third more violent rap than ever again assaulted our ears (qulağımızı döydü). “I am certain there is somebody knocking at the door,” said my mother. (Austen, 2019, s.8).

2. “My father, seduced by the false glare of fortune” (taleyin saxta nəzərləri) (Austen, 2019, s.8).

Yuxarıda verilmiş misallarda “assaulted our ears (qulağımızı döydü)”, “by the false glare of fortune (taleyin saxta nəzərləri)” frazeoloji birləşmələri müəllif bədii dil yaradıcılığının məhsuludur. “Repin qulağı döyməsi, qəm-qüssənin işıq saçması, taleyin saxta parıltısı frazeoloji birləşmələri müəllifin müəyyənləşdirdiyi assosiasiyalarla bağlıdır:

1. Rep qulağımızı döydü. (mücərrəd mən. söz-predmet)

2. By the false glare of fortune-taleyin saxta parıltısı ilə (mücərrəd anl.-predmet).

Misallardan göründüyü kimi, C.Ostin mücərrəd anlayışlara tez-tez müraciət edərək onları assosiasiya etmiş və poetik fikrinin daşıyıcısına çevirmişdir. Bu xüsusiyyəti İ.Əfəndiyevin bədii əsərlərində də görürük:

1.Buradan Güney qışlağa neçə kilometr olduğunu bilmirdim. Lakin bütün gücümü, cəsarətimi toplayıb gedirdim. İndi çöldə xəfif meh əsdiyi üçün hava bayaqkı qədər bürkü deyildi. Göz işlədikcə, uzaqlarda yüngül dumana bürünmüş kimi görünən dağların yamaclarında topa-topa işıqlar sayrışırdı. Xoş sükut içində yalnız cırcıramaların aramsız, yeknəsəq səsi eşidilirdi. (Əfəndiyev, 2005, s.14)

2.Mən bir əlimdə çamadan, bir əlimdə balaca bağlama, irəliləyirdim. Bu aydınlıq çöllərin mehriban sükunəti mavi üfüqlərdə itən genişliyi indi mənə anlaşılmaz bir təsəlli, mehriban bir ümid təlqin edirdi (Əfəndiyev, 2005, s.9).

"Xoş sükut", "mehriban bir ümid" frazeoloji birləşmələrində metaforik yolla mücərrəd və konkret anlayışlar arasında assosiasiyalar yaradılmışdır. Bunlar müəllif dilinin novatorluğunun göstəricisidir.

**Ədəbiyyat:**

1. Амосова Н.Н. Основы английской фразеологии. Ленинград: Издательство Ленинградского университета 1963, с.4.

2. Земляная Анна Сергеевна. Образ рассказчика как источник оценочных суждений в романах Джейн Остин (https://www.gramota.net/articles/issn_1997-2911_2014_12-3_22.pdf)

3. Austen J. Love and freindship and other early works. Global Grey, 2019, 104 p.

4. İlyas Əfəndiyev. Seçilmiş əsərləri. III cild. Bakı: "Avrasiya Press", 2005, 448 s.

# NİTQDƏ EMOSİONALLIQ, İFADƏLİLİK VƏ ZƏNGİNLİK YARADAN VASİTƏLƏR

**Ağarzayeva Qızılgül Rəyis**
**Azərbaycan Dillər Universiteti**
**http://orchid.org//0009-0005-6959-3224**
**roseagarzayeva@gmail.com**

# TOOLS THAT CREATE EMOTIONALITY, EXPRESSIVENESS AND RICHNESS IN SPEECH

**Agharzayeva Gizilgul Rayis**
**Azerbaijan University of Languages**
**http://orchid.org//0009-0005-6959-3224**
**roseagarzayeva@gmail.com**

**Summary**

The thesis is devoted means that create emotionality, richness, expressiveness in speech. It should not be repeated words and phrases for the richness of the speech. For not getting tired of listeners the speech should be correctly organised. For the richness of speech, the speaker must have a rich vocabulary. Every educated person has to regularly enrich his or her vocabulary. One of the efficient ways for the enriching of the vocabulary is reading. Intonation, accent, pause, timbre play an important role among the means that create emotionality in speech. Different shades of intonation express different emotional states. The fullness of the speech is one of the main sign that create the richness of the speech. The speech is listened with interest when the discussed matter is new and complete.

In conclusion, for the acceptable speech, it is necessary to use the means that create emotionality, expressiveness and richness correctly.

**Key words:** emotionality, expressiveness, richness.

# СРЕДСТВА, СОЗДАЮЩИЕ, ЭМОЦИОНАЛЬНОСТЬ, ВЫРАЗИТЕЛЬНОСТЬ И БОГАТСТВО РЕЧИ

**Агарзаева Гызылгюл Раис**
**Азербайджанский Университет Языков**
**http://orchid.org//0009-0005-6959-3224**
**roseagarzayeva@gmail.com**

**Резюме**

Тезис-это положение, излагающее одну из основных мыслей лекции, доклада, создающее эмоциональность, насыщенность и выразительность в речь. Не следует использовать повторяющиеся слова и фразы для насыщенности речи. Речь должна быть правильно сформулирована, чтобы слушатели не уставали. Для точной и красивой формулировки речи, говорящий должен иметь богатый словарный запас и каждый образованный человек регулярно должен пополнять его. Самый лучший способ для этого- чтение.

Для создания эмоциональности в речи, немаловажную роль играют интонация, пауза, ударение, тембр. При помощи различных оттенков интонации, можно выразит разные эмоциональные состояния. Одним из основных признаков полноты речи, богатый словарный запас. Речь будет интересна слушателям в том случае, если она насыщена новой информацией.

Таким образом, для того, чтобы речь воспринималась со стороны слушателей, необходимо правильно воспользоваться методами, выражающими эмоциональность, выразительность и насыщенность.

**Ключевые слова:** эмоциональность, выразительность, богатство.

Dilçilik ədəbiyyatında nitq mədəniyyəti anlayışı bu cür izah edilir: "Nitq mədəniyyəti tətbiqi dilçilik sahəsidir, konkret bir dilin orfoqrafik, orfoepik, leksik, qrammatik, üslubi və s. normalarını müəyyən edən nəzəri biliklər kompleksidir. Nitqdə emosionallıq və zənginlik yaradan vasitələr çoxdur. Bu meyar əsasən dildə işlənən ünsürlərin müxtəlifliyi, rəngarəngliyi ilə ölçülür". (1, s.194)

Danışarkən nitqin zənginliyi mühüm rol oynayır. Bunun üçün nitq məzmun cəhətdən dolğun olmalıdır. Bəhs edilən məsələ haqqında yeni fikirlər olduqda, həmin məsələ hərtərəfli şəkildə sübutlarla, həyati misallarla şərh edildikdə dinləyicilər tərəfindən daha maraqla qarşılanır. Zəngin nitqdə təkrarlanan söz və ifadələrdən istifadə edilməməlidir. Nitqdə eyni işarələr, sözlər nə qədər az təkrarlanarsa, nitq də bir o qədər zəngin olar. Bu zaman niqtin zənginliyinin dilin strukturu ilə sıx əlaqəli olması aydın görünür. Nitqdə monoton intonasiya, eyni sözlərin təkrarına yol verilməsi nitqin yoxsulluğu, kasıblığı deməkdir. Nitqin düzgün təşkil olunmaması nitqi korlayır, dinləyiciləri də yorur. Nitqin zənginliyini və ya kasıblığını mühakimə etmək üçün müxtəlif müəlliflərdən götürülmüş mətnlərin təhlilini aparmaq lazımdır. Nitqin emosional və ifadəli olması üçün onun zəngin olması şərtdir. Nitqin zənginliyi dedikdə isə danışanın (yazanın) zəngin söz ehtiyatına malik olması nəzərdə tutulur. Natiq çıxışı zamanı mütləq bu meyarı nəzərə almalı, o, sinonimlərdən, antonimlərdən, frazeoloji birləşmələrdən, intonasiya, üslubi vasitələr və sairədən istifadə etməyi bacarmalıdır. Rabitəli mətndə nə qədər çox təkrarlanmayan söz, cümlələr və s. işlənərsə nitq bir o qədər maraqlı, anlaşılan olar və dinləyicilər tərəfindən maraqla qarşılanar. Bunun üçün də hər bir savadlı şəxs daima öz lüğət ehtiyatının artırılmasına diqqət göstərməlidir. Bu yolda ən səmərəli vasitə radio və televiziya verilişlərini dinləmək, tez-tez mütaliə etmək, diktor, söz ustadları, natiqlərin çıxışını müntəzəm olaraq dinləmək lazımdır. (Abdullayev, 2014, s.50).

Nitqdə emosionallığı, ifadəliliyi yaradan vasitələr sırasında intonasiya, fasilə, vurğu, tembr mühüm rol oynayır. Bu sadalanan vasitələr ritm və bölgü yaradan vasitələrdir. Bu vasitələr nitqin təsir gücünü artırır, onu emosional edir. (3). İntonasiyanın emosionallıqda rolunu bu cür qeyd edə bilərik: Söylənilən fikirlər, hər hansısa bir fikrə münasibətdə insanların keçirdiyi hisslər düzgün səslə ifadə edilməli, düzgün

avazla verilməli, nitq intonasiya çalarlarına malik olmalı və intonasiyanın elementlərindən də düzgün istifadə edilməlidir. Emosional nitq intonasiya baxımından zəngin olmalıdır. Bu zaman nida, əmr, sual cümlələri, eyni zamanda xitablar, ara sözlər, ara cümlələr və s. də diqqət mərkəzində saxlanılmalıdır.

Nitqin zənginliyini şərtləndirən əsas amillərdən biri söz və ifadələrdən situasiyaya uyğun istifadə etməkdir. Məsələn, natiq auditoriya qarşısında çıxışı zamanı elmi dildən, ancaq dostları ilə danışdıqda isə ümumişlək sözlərə üstünlük verir. Nitqə emosionallıq qatan zaman nitq daha da canlı olur. Emosionallığı ifadə edərkən təkmənalı və çoxmənalı sözlərdən də istifadə edilir.

Bəzən emosionallıq yaradarkən suffikslərdən də istifadə edirik: -cığaz, -cıq, -ça.

Emosionallıq yaradan amillərə ritorik sözlər, poetik sözlər, ironik sözlər, vulqar sözlər daxildir. Bunlara əsasən aşağıdakı amillər daxildir:

- hiss-həyəcan ifadə edən sözlər (minnətdarlıq, təəssüf, utanc, məyusluq, qısqanclıq, və s.);
- hər hansı deyilən bir fikrə danışanın emosional münasibətini səciyyələndirən sözlər (alçaq, şərəfsiz, dələduz, fırıldaq, əziz);
- bir-birilə sinonim kimi işlədilən sözlər (heyfsilənmək- yanıb tökülmək, yorulmaq - əldən düşmək, ağzına su alıb oturmaq- susmaq, inanmamaq- gözü su içməmək və s.);
- cümlə daxilində məcazi mənada işlədilən sözlər və söz birləşmələri.

Emosional tonda ifadə olunan nidalar, ədatlar (afərin, vah, paho). Emosional tonda deyilən sözlər də nitqə əlavə məna çaları qatır. Bütün bunlar dil hadisəsidir. Deyilən bütün emosional söz və birləşmələri iki böyük qrupa bölmək olar:

a) müsbət mənalı emosional sözlər (bacarıqlı, çalışqan, dahi, dürüstlük və s.);

b) mənfi mənalı emosional sözlər (məsuliyyətsizlik, dolama, nifrət və s). (4)

Dilimiz intonasiya cəhətdən də çox zəngindir. İntonasiyanın fərqli çalarları vasitəsilə fərqli emosional vəziyyətlər- qəm, dəhşət, məyusluq, sevinc, təlaş, məftunluq, laqeydlik və s. ifadə olunur. Avazlamanın bu çalarlarından düzgün istifadə etmək danışarkən sözə müxtəlif məna rəngarəngliyi verir, bu zaman məzmun genişlənir, daha da dolğunlaşır. (Abdullayev, 2014, s.61).

Deyilənlərdən belə bir nəticəyə gəlmək olar ki, nitqdə sadalanan vasitələrdən düzgün istifadə etmək danışanın səriştəli olduğunu göstərməklə yanaşı, dinləyicinin də diqqətini ona yönləndirir və dinləyicini yormur.

**Ədəbiyyat:**

1. Azərbaycan nitq mədəniyyəti problemləri (1988). Bakı, APİ-nin nəşri.
2. Abdullayev N. (2014). Nitq mədəniyyətinin əsasları. Bakı, ADPU nəşriyyatı.
3. Wikibooks. az
4. Kayzen. az

# LİNQVİSTİKANIN MÜASİR İNKİŞAF MƏRHƏLƏSİNDƏ İNGİLİS DİLİNİN AFRO-AMERİKAN VARİANTININ TƏHLİLİ

**İsmayılova Pərvanə Mahir**
**Azərbaycan Dillər Universiteti**
**https://orcid.org/0009-0000-4046-6452**
**ism.parvana@gmail.com**

# ANALYSIS OF THE AFRO-AMERICAN VARIANT OF THE ENGLISH LANGUAGE IN THE MODERN STAGE OF DEVELOPMENT OF LINGUISTICS

**Ismayilova Parvana Mahir**
**Azerbaijan University of Languages**
**https://orcid.org/0009-0000-4046-6452**
**ism.parvana@gmail.com**

**Summary**

Among the widespread varieties of the English language in modern times, the African-American version of the English language has its own place. The research on the African-American variant of the English language is touched upon in the thesis. In addition, research on the issue of this language variant being an independent language, variant, creole, pidgin was reflected in the research. Scientists from different parts of the world discussed this issue many times. Scientists approaches are remarkable. They touched this issue according to their own research. Due to my research I can definintely say that I have touched this issue exactly.

In the thesis, the Afro-American version of the English language was comprehensively studied from a linguistic point of view, and it was determined that this language version is a creole.

**Keywords:** multicultural, syntactic, lexical, linguistics, pidgin, phonology

# АНАЛИЗ АФРОАМЕРИКАНСКОГО ВАРИАНТА АНГЛИЙСКОГО ЯЗЫКА НА СОВРЕМЕННОМ ЭТАПЕ РАЗВИТИЯ ЯЗЫКОЗНАНИЯ

**Исмайлова Парвана Махир**
**Азербайджанский Университет Языков**
**https://orcid.org/0009-0000-4046-6452**
**ism.parvana@gmail.com**

**Резюме**

Среди широко распространенных разновидностей английского языка в наше время особое место занимает афроамериканская версия английского языка. В статье затронуты исследования афроамериканского варианта английского языка. Кроме того, в исследовании нашли отражение исследования по вопросу о том, что данный языковой вариант является самостоятельным языком, вариант, креольский, пичин.

Ученые из разных уголков мира неоднократно обсуждали этот вопрос. Подходы ученых замечательны. Они затронули этот вопрос согласно собственным исследованиям. Благодаря своим исследованиям могу с уверенностью сказать, что я именно затронул эту тему.

В статье был всесторонне изучен афроамериканский вариант английского языка с лингвистической точки зрения и установлено, что этот языковой вариант является креольским.

**Ключевые слова:** поликультурный, синтаксический, лексический, лингвистика, пиджин, фонология.

Müasir Amerika cəmiyyətinin multikultural və çoxmillətlilik xüsusiyyətinə malik olması məlumdur. Bu müxtəliflik etnik, sosial qrupların müştərək əlaqəsi, bir-birindən fərqli mədəni dəyərlərin, dillərin, dialektlərin qarşılıqlı əlaqəsi nəticəsində formalaşmışdır.

Dilin tarixini tədqiq edərkən ən mühüm amillərdən birini qeyd etmək lazımdır ki, ingilis dilinin Afro-Amerikan variantının formalaşması ilk koloniyaların yarandığı XVII əsrə təsadüf edir. Tarixən ingilis dilinin Afro-Amerikan variantı mənbələrdə qara dərili xalqların ingilis dili, Afro-Amerikan ingilis variantı, ibonika kimi tanınır. Afrikalı-Amerikalılar bu variantın ingilis dilinin bir variantı olmadığını iddia edirdilər. Onların bu iddiaları məhz ingilis dilinin Afro-Amerikan variantının özünəməxsus fonetikası, qrammatikası və eyni zamanda fərqli lüğət tərkibi kimi xüsusiyyətlərə malik olmasından irəli gəlirdi. İngilis dilinin Afro-Amerikan variantının özünəməxsus tələffüz (fonologiya), sintaktik nümunələr (qrammatika) və morfoloji xüsusiyyətlərə malik olması haqqında mənbələrdəki məlumatlar bəzi dilçi alimlərin bu variantı məhz dil və ya dialekt kimi qəbul etməsini göstərir.

İngilis dilinin digər variantları kimi bu variant da öz növbəsində standart ingilis dilindən fərqlidir. İngilis dilinin Afro-Amerikan variantı Amerika siyasi tarixinin ən mühüm prioritet məsələlərindəndir. Beləliklə, ABŞ-də danışılan ingilis dili versiyası “amerikan ingilis dili” adlanır. Bunu aşağıdakı terminin misalında izah edək. “Variasiya və müxtəliflik” termini bir sıra səbəblərə görə daha uyğun hesab edilir. ABŞ-də danışılan dil etimoloji baxımdan regional variant sayılsa da, ədəbi normalara uyğun formaya malik olduğundan, “standart amerikan ingiliscəsi” hesab olunur, elə buna görə də onu heç vaxt dialekt adlandırmaq düzgün hesab olunmur (Morgan, 2002).

Araşdırmalar nəticəsində ingilis dilinin Afro-Amerikan variantı haqqında bir çox fikir və nəzəriyyələr mövcuddur. Bu nəzəriyyələrdən birinə əsasən, ingilis dilinin bu variantının bir picindən inkişaf etdiyi göstərilir. Belə ki, ingilis dilinin Afro-Amerikan variantı qul ticarəti şəraitində yaranan picindən inkişaf etmişdir, bu müddət ərzində müxtəlif Afrika dillərində danışanlar bir yerə yığılmış və picin (ümumi dili olmayan iki və ya daha çox qrup arasında inkişaf edən qrammatik cəhətdən sadələşdirilmiş ünsiyyət vasitəsidir) ilə ünsiyyət qurmağa məcbur olmuşlar. Bu picindən qul tacirləri və qul sahibləri qaradərili xalqlarla, müxtəlif dil mənşəli qaradərili xalqlar isə bir-biri ilə ünsiyyət qurmaq üçün istifadə edirdilər. Beləliklə, picin ortaq bir dili paylaşmayan, lakin hər hansısa bir səbəbdən dolayı, adətən ticarət səbəbi ilə ünsiyyət qurmağa ehtiyacı olan insanlar arasında formalaşan ünsiyyət vasitəsidir. Başqa sözlə desək, iki və ya daha çox nitq birliyi arasında təmas nəticəsində işlənmiş, qrammatik və leksik norması cəhətdən tamamilə fərqli quruluşa malik hibrid dildən ibarət olan lingua frankadır. Dilin bu formasında olduqca məhdud söz ehtiyatı qrammatik normaya düzgün şəkildə fikir verməmək öz əksini tapır.

Multilinqvistik bir cəmiyyətdə insanlar əsas ünsiyyət vasitəsi kimi picindən istifadə etməyə başlamışdılar. Bu, lüğətin, qrammatikanın və dilin istifadə olunduğu situasiyaların genişlənməsinə gətirib çıxarır. Linqvistikada picin anlayışı dilin ilkin forması hesab olunur. Picin anlayışı ilə yanaşı müasir linqvistikada kreol anlayışına da rast gəlinir. Ümumilikdə, kreol dilin inkişaf etmiş bir formasıdır (Crystal, 2002; Morgan, 2002).

Kreol anlayışı ümumiyyətlə genetik və tipoloji cəhətdən əlaqəsi olmayan iki müxtəlif dilin qarşılıqlı əlaqəsidir. O, nitq cəmiyyətinin əsas dili kimi fəaliyyət göstərən hər hansı bir dilin tələb etdiyi sintaktik, leksik və morfoloji xüsusiyyətlərə aiddir. Kreolizasiya picinlərin geniş funksiyalarını yerinə yetirmək üçün lazım olan linqvistik resursları əldə edərək icmanın ana dilinə çevrilmiş bir dil prosesi hesab edilir. Dekreolizasiya isə kreolların standart dillərlə artan təması və təsiri ilə dəyişmə prosesidir (Crystal, 2002).

İngilis dilinin Afro-Amerikan variantının dil, dialekt, picin, kreol yaxud da variativ olması daim tədqiqatçıların müzakirə mövzusu olmuşdur. Aparılan araşdırmalar və dilçi alimlərin yanaşması mübahisəli olaraq qüvvədədir.

Beləliklə, mənim apardığım tədqiqat nəticəsində bu dil variantının kreol olduğunu müəyyən etmişəm. Apardığım araşdırma nəticəsində deyə bilərəm ki, kreolların meydana gəlməsində məhz əsas rol uzun zaman işğala məruz qalaraq qula çevrilmiş afrikalı-amerikalılar olmuşdur. Köləlik və qul ticarəti zamanı afrikalı-amerikalılar hakim təbəqənin dilini öyrənməyə və bu dildə danışmağa məruz qalmışlar. Və iki müxtəlif dilin də istər genetik və istərsə də tipoloji baxımından əlaqəsi olmadan bir-birilə qarşılıqlı təzahürü nəticəsində yaranan proses kreolizasiya adlanır ki, bu da məhz kreol və kreol dilini meydana gətirir. Buna görə də belə nəticəyə gəlinir ki, İngilis dilinin Afro-Amerikan variantı bir kreoldur.

**Ədəbiyyat**:


1. Crystal D. English as a Global Language. Cambridge University Press, 2002, 368 p.
2. Morgan M. Language, Discourse and Power in African American Culture. Cambridge: Cambridge University Press, 2002.


## AZƏRBAYCANDA XARİCDƏ TƏHSİL SİYASƏTİ VƏ “BRAIN DRAIN” PROSESİ


**Quliyeva Gözəl Sabit**
**İstanbul Universiteti**
**https://orcid.org/0009-0009-7023-149X**
**gozel.quliyeva93@mail.ru**


## POLICY OF EDUCATION ABROAD IN AZERBAIJAN AND THE "BRAIN DRAIN" PROCESS


**Gozal Guliyeva Sabit**
**Istanbul University**
**https://orcid.org/0009-0009-7023-149X**
**gozel.quliyeva93@mail.ru**



**Summary**

One of the most important measures implemented by the Government of the Azerbaijan Democratic Republic was the sending of one hundred young Azerbaijanis to European universities to prepare highly educated specialists in various fields. Later, during the reign of the great leader and genius politician Heydar Aliyev, the issue of education abroad began to develop again. In the field of education in Azerbaijan, the number of young people turning to foreign countries has increased even more recently. Our foreign youths study with state funds and with their own funds within the framework of the state program. The policy of education abroad, which was resumed by the Great Leader Heydar Aliyev, is currently being successfully continued by President Ilham Aliyev.

An example of patriotism is the return of educated young people to the country, the use of the knowledge and skills they have acquired in foreign universities for the sake of the development of their homeland.



**Keywords:** study abroad, education, brain drain, student


## ПОЛИТИКА ОБРАЗОВАНИЯ ЗА РУБЕЖОМ В АЗЕРБАЙДЖАНЕ И ПРОЦЕСС «УТЕЧКИ МОЗГОВ»


**Гулиева Гёзал Сабит**

**Стамбульский университет**
https://orcid.org/0009-0009-7023-149X
gozel.quliyeva93@mail.ru

**Резюме**

Одной из важнейших мер, осуществленных правительством Азербайджанской Демократической Республики, стало направление ста молодых азербайджанцев в европейские университеты для подготовки высокообразованных специалистов в различных областях. Позже, во времена великого лидера и гениального политика Гейдара Алиева, вновь стал развиваться вопрос об образовании за рубежом. В сфере образования в Азербайджане в последнее время число молодых людей, обращающихся в зарубежные страны, еще возросло. Наша иностранная молодежь учится на государственные средства и на собственные средства в рамках государственной программы. Политика образования за рубежом, возрожденная Великим лидером Гейдаром Алиевым, в настоящее время успешно продолжается Президентом Ильхамом Алиевым.

Примером патриотизма является возвращение в страну образованных молодых людей, использование ими знаний и навыков, полученных в зарубежных вузах, для развития своей Родины.

**Ключевые слова:** обучение за рубежом, образование, утечка мозгов, студент

Azərbaycanlı gənclərin təhsil alması üçün dünyanın müxtəlif universitetlərinə göndərilməsi prosesinin tarixinə nəzər salsaq görərik ki, bu proses XX əsrin əvvəllərindən başlamışdır. Belə ki, Azərbaycan Xalq Cümhuriyyəti dövründə hökumətin həyata keçirdiyi ən mühüm tədbirlərdən biri 100 nəfər azərbaycanlı gəncin Avropa ali məktəblərinə göndərilməsi prosesi olmuşdur.

Bu məsələ ilə əlaqədar Əhməd bəy Pepinovun məruzəsi ətrafında müzakirələrdə Rəhim Vəkilov, Abdulla bəy Əfəndizadə, Rza bəy Ağabəyov, Məmmədrza ağa Vəkilov, Qasım bəy Camalbəyov, Qara bəy Qarabəyli, Muxtar Əfəndizadə, Ağa Aşurov, xalq maarifi naziri Rəşid xan Qaplanov və b. çıxış edərək, ölkə iqtisadiyyatının elm, təhsil və mədəniyyətinin gələcək inkişafı üçün tələbələrin xarici ölkələrdə ali təhsil almağa göndərilməsinin əhəmiyyətini vurğulamışlar (Paşayev, 2001).

Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra, Qırmızı Ordunun ölkəyə girişi nəticəsində ölkənin bolşeviklər tərəfindən işğalı ilə tələbələr əsasən, 1922-ci ildən etibarən maddi problemlərlə üzləşmiş, təhsil haqqını ödəyə bilmədiyi üçün ağır işlərdə çalışmağa məcbur qalanlar, həbsxanaya düşənlər olmuşdur (azedu.az (az.), 2020).

Azərbaycana dönmüş tələbələr ardıcıl surətdə təqib olunmuş, hətta 1930-cu illərdə onların bir qismi, Azərbaycanın müstəqilliyinin bərpa edilməsi və Almaniya üçün casusluq ittihamı ilə NKVD tərəfindən repressiyaya uğramışdır (azedu.az (az.), 2018).

Daha sonra ulu öndər, dahi siyasətçi Heydər Əliyevin hakimiyyəti illərində xaricdə təhsil məsələsi yenidən inkişaf yoluna başlamış oldu.

“Heydər Əliyevin Azərbaycan təhsilinin inkişafındakı müstəsna xidmətlərindən biri 1970-80-ci illərdə Azərbaycandan kənarda, keçmiş SSRİ-nin 50-dən artıq böyük şəhərinin 170-dən çox nüfuzlu ali məktəbində respublikamızın iqtisadiyyatı, elm, təhsil və mədəniyyətinin 80-dən çox sahəsini əhatə edən və ölkə üçün ehtiyac duyulan 250-dən çox ixtisas üzrə 15 mindən artıq azərbaycanlı gəncin ali təhsil almasına, yüksəkixtisaslı mütəxəssislər kimi hazırlanmasına şərait yaratmasıdır. 1969-1970-ci dərs ilində respublikadan kənara cəmi 47 nəfər təhsil almağa göndərilmişdisə, 1978-ci ildən etibarən respublikadan kənara hər il 800-900 tələbə göndərilməsinə nail olunmuş, 1980-ci illərin əvvəllərindən isə bu göstərici ildə 1000-1400 nəfərə çatmışdı” (Bayramov, 2019).

Ulu Öndər Heydər Əliyev tərəfindən inkişafını yenidən bərpa edən xaricdə təhsil siyasəti hazırda Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. 2007-2015, 2019-2023, 2022-2026-cı illər üzrə

“Dövlət proqramı çərçivəsində” təhsil alan Azərbaycan Respublikası vətəndaşının xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsili təmin edilməkdədir.

**“Brain Drain” prosesinin səbəb və həll yolları**

“Beyin axını” yüksəkixtisaslı mütəxəssislərin öz ölkələrində normal yaşam tərzi qura bilməyərək xarici ölkələrə miqrasiya etməsidir. Bu anlayışdan ilk dəfə 1962-ci ildə mühəndis, texnik və alimlərin Böyük Britaniyadan ABŞ-yə miqrasiya etməsindən sonra istifadə olunmağa başlanılıb. Elmi ədəbiyyata ilk dəfə Britaniya Kral Cəmiyyətinin hazırladığı hesabatdan sonra daxil olunub. Daha sonra “Beyin axını”nı dünya alimləri “Brain Drain” anlayışıyla eyni mənada işlətməyə başlayıb.

Azərbaycanda təhsil sahəsində gənclərin xarici ölkələrə üz tutması son illərdə daha da artmışdır. Xarici ölkələrdə gənclərimiz dövlət proqramı çərçivəsində dövlətin vəsaiti ilə, öz vəsaitləri hesabına təhsil alırlar.

Öz vəsaiti hesabına gedənlərin sayı daha çox üstünlük təşkil edir. Həmçinin son dövrdə Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamı ilə təsdiq edilmiş “Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022–2026-cı illər üçün Dövlət Proqramı” ölkə rəhbərliyinin gənclərə xüsusi diqqətinin təzahürüdür. Bu proqram müasir və gələcək əmək bazarının tələblərinə cavab verən yüksəkixtisaslı peşəkar kadrların hazırlanmasında xüsusilə əhəmiyyət daşıyır.

Xarici universitetlərdə öz hesabına təhsil alan tələbələrin problemləri və onların həll yolları nədən ibarətdir? Öncəliklə qeyd edək ki, xaricdə təhsil almaq üçün universitet və təhsil alacağın ölkə seçimi önəmli bir məsələdir.

Gənclərimizin xaricdə təhsilə üstünlük verməsinin bir neçə səbəbləri var: Xarici təhsil sistemiylə tanış olmaq, müəyyən ixtisas üzrə özünü təkmilləşdirmək, həmin ölkədə məskunlaşmaq və s.

Hazırda ölkəmizdə ali məktəblərin təhsil haqqının yüksək olması da gənclərin xarici universitetlərə üz tutmasına səbəb olan amillərdən biridir. Kifayət qədər maddi büdcəsi olmayan tələbələr xarici universitetlərdə həm oxuyub, təqaüd alaraq, həm işləyərək müəyyən ehtiyaclarını qarşılaya bilir. Buradan belə nəticəyə gələ bilərik ki, gənclər üçün iş yerlərinin əlçatan olması, təhsil haqlarının uyğun məbləğdə müəyyənləşdirilməsi də “beyin axını”nın qarşısını ala bilər. Təhsil dönəmini bitirmiş gənclərimizin əksəriyyəti isə ölkəyə dönməməyi seçir. Bunun səbəbləri nədir?

1. Tələbə-müəllim münasibəti
2. Maddi-texniki baza ilə təmin olunma
3. Tədrisin nəzəri və praktiki yönləri arasında balansın qorunması
4. Məzun olan tələbənin işlə təmin olunma məsələsi
5. Əmək haqqı tutumu

Tələbə-müəllim münasibəti dedikdə nə nəzərdə tutulur? Universitetlərimizdə müəllimlər tələbələrlə gələcək yüksək potensiallı gənclər olaraq rəftar etməlidir. Bunun əksi olan münasibətlə qarşılaşdıqda tələbə ali məktəbdə özünü hələ də şagird olaraq hiss edir.

Maddi-texniki baza ilə təmin olunma məsələsində yaxşıya doğru müəyyən dəyişikliklərin olunması, müasir laboratoriyaların, elmi təhsil müəssisələrin sayının artırılması ölkəmizdə gənclərin təhsilə, elmə marağını artırmış olacaq.

Ölkəmizdə kifayət qədər bilikli müəllim auditoriyası olmasına baxmayaraq, gənclərimizin yerli və xarici müəllimlər arasındakı münasibətində fərqlilik müşahidə olunur. Buna səbəb müəllimlərimizin dərsin gedişatında nəzəri hissəyə daha çox vaxt ayırması, praktiki yönün zəifliyini nümunə göstərə bilərik.

Ali məktəbi bitirmiş şəxsin qarşısında əsas problemlərdən biri onun həyat şəraitini təmin edə biləcək əmək haqqına malik işlə təmin olunması məsələsidir. Xüsusilə, yüksək təhsilli gənc öz bilik və bacarığına

uyğun maaşı olan iş tapmaqda çətinlik yaşayır. Deyə bilərik ki, xarici universitetlərdə təhsil alan gənclərimizin ölkəyə qayıtmamasının başlıca səbəblərindən biri budur. Həmin gənclərin işləməsi üçün ölkədə daha da əlverişli şərait yaradılmalı, onları ölkəmizə qazandırmaq üçün stimullaşdırıcı addımlar atılmalı, əməyinə və potensialına yüksək qiymət verilməlidir.

İlham Əliyev: "Biz maddi dəyərlərimizi, iqtisadi potensialımızı insan kapitalına çevirməliyik. Çünki insanın savadı, biliyi onun gələcək həyatını müəyyən edir, ölkənin hərtərəfli inkişafına xidmət edir" (Əliyeva, 2009).

Bilikli gənclərin ölkəyə dönməsi, xarici universitetlərdə əldə etdikləri bilik və bacarıqlardan vətəninin inkişafı naminə istifadəsi vətənpərvərliyin bir nümunəsidir. Yüksək təhsilli insan eyni zamanda böyük sərvət deməkdir. Öz ixtisası üzrə mütəxəssis hesab olunan, ixtira və kəşf potensialı olan vətəndaşlarımızın ölkəni tərk edərək, güclü dövlətlərin tanınmış elmi və istehsal şirkətlərində işə düzəlməsi Azərbaycanın elmi-texniki inkişafına ziyan vura, cəmiyyətin intellektual potensialının azalmasına gətirib çıxara bilər.

**Ədəbiyyat:**

1. "Ac qalıb intihar edən, terrora qurban gedən Cümhuriyyət tələbələri–AXC-102". azedu.az (az.). 28 may 2020.
2. "Almaniyada təhsil aldıqları üçün repressiyaya məruz qalan Cümhuriyyət tələbələri – FOTO". azedu.az (az.). 12 mart 2018
3. Bayramov C. *Uğurlu təhsil islahatlarının banisi*. "Azərbaycan Müəllimi" qəzeti, 12 iyul 2019.
4. Əliyeva İ. *Cəmiyyətin tərəqqisi təhsildən keçir*, "Azərbaycan" qəzeti, 15 sentyabr 2009, s. 2.
5. Mərdanov M. "Azərbaycan" qəzeti, 2 oktyabr, 2011, s.3.
6. Mərdanov M. *Azərbaycan təhsil tarixi. (Müstəqillik illərində ali təhsil).* IV cild. Bakı, 2012.
7. Mustafayev O. *Heydər Əliyevin xaricdə təhsil strategiyası*, "Azərbaycan müəllimi" qəzeti. 13 yanvar, 2023.
8. Paşayev A. *Açılmamış səhifələrin izi ilə*. Bakı, 2001.

## TƏBRİZ VƏ MOĞOL MİNİATÜR MƏKTƏBLƏRİNİN YARADICILIQ ÜSULLARININ MÜQAYİSƏLİ TƏHLİLİ (STRUKTUR TİPOLOGİYA)

**Namazova Səbinə Valid**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**
**https://orcid.org/0009-0001-0328-1675**
**sabina.namazova8917@gmail.com**

## COMPARATIVE ANALYSIS OF CREATIVE METHODS OF TABRIZ AND MUGHAL MINIATURE SCHOOLS (STRUCTURAL TYPOLOGY)

**Namazova Sabina Valid**
**Azerbaijan State University Culture and Arts**
**https://orcid.org/0009-0001-0328-1675**
**sabina.namazova8917@gmail.com**

**Summary**

The idea and technique of Tabriz miniature school, founded by Sultan Muhammad, in turn influenced the creation of a number of miniature schools such as Baghdad, Shiraz, Herat miniature schools, as well as Ottoman and Mughal miniature schools. Indian Fine Art, which has its roots in the ninth century and is based on miniatures drawn on ancient Indian religious texts, also reached the peak of its development in the sixteenth century under the influence of the Tabriz miniature school and its representatives. The main driving force of this influence was Mir Sayyid Ali and Samad Shirazi, another Tabriz artist who had exceptional services in the establishment of the Mughal painting workshop with him. The purpose of the study is to determine the degree of their mutual compatibility and differences through the structural-typological analysis of the samples of the Tabriz and Mughal miniature school.

**Keywords**: miniature, miniature schools, Tabriz, Mughal, Mir Sayyid Ali.

# СРАВНИТЕЛЬНЫЙ АНАЛИЗ ТВОРЧЕСКИХ МЕТОДОВ ТЕБРИЗСКОЙ И МОГОЛЬСКОЙ МИНИАТЮРНЫХ ШКОЛ (СТРУКТУРНАЯ ТИПОЛОГИЯ)

**Намазова Сабина Валид**

**Азербайджанский Государственный Университет Культуры и Искусств**

**https://orcid.org/0009-0001-0328-1675**

**sabina.namazova8917@gmail.com**

**Резюме**

Идеи и приемы тебризской школы миниатюры, основанной султаном Мухаммедом, в свою очередь повлияли на создание ряда школ миниатюры, таких как Багдадская, Ширазская, Гератская миниатюрные школы, а также Османская и Могольская миниатюрные школы. Индийское изобразительное искусство, корни которого уходят в 9 в. и основу которого составляют миниатюры, выполненные по древнеиндийским религиозным текстам, также достигло пика своего развития в 16 в. под влиянием тебризской школы миниатюры и ее представителей. Главной движущей силой этого влияния были Мир Саид Али и еще один художник из Тебриза, Самад Ширази, которые вместе с ним оказали исключительные услуги в создании живописной мастерской Великих Моголов. Цель исследования - определить степени взаимной совместимости и различия образцов Тебризской и Могольской миниатюрной школы посредством структурно-типологического анализа.

**Ключевые слова:** миниатюра, Миниатюрные школы, Тебриз, Моголы, Мир Саид Али.

Miniatür - kiçikliyi və bədii üsullarının xüsusi incəliyi ilə seçilən təsviri sənət əsəridir. (Hacıyev İ.A, 2012) Orta əsrlərdə Avropada əlyazmalarında qırmızı rəng üçün istifadə olunan qurğuşun oksid “minium” adlanırdı ki, bu da miniatür sözünün mənşəyi hesab olunur. Qaynağı tam olaraq bilinməyən miniatürün Orta Şərqdə ən gözəl nümunələri Təbriz, Mağara kimi şəhərlərdə yaranmışdır.

Təbriz miniatür məktəbinin ideya və texnikası öz növbəsində Bağdad, Şiraz, Herat, həmçinin Osmanlı və Moğol kimi bir sıra miniatür məktəblərinin yaranmasına təsir etmişdir. Kökləri IX əsrə gedib çıxan və əsası qədim hind dini mətnlərinə çəkilmiş miniatürlər olan Hind təsviri sənəti də, XVI əsrdə Təbriz miniatür məktəbinin və nümayəndələrinin təsiri ilə, özünün inkişafının pik nöqtəsinə çatmışdır. Şah İsmayıl və Şah Təhmasibin hökmranlığı dövründə paytaxtı Təbriz olan Səfəvi dövləti sənət, sənətkara göstərdiyi xüsusi qayğı ilə seçilmişdir. Bu qayğı özünü kitablara çəkilən illüstrasiyalarda göstərmiş və XVI əsrdə Təbriz miniatür məktəbinin əsası üçün xüsusi rol oynamışdır. Lakin Yaxın və Orta Şərq müsəlman incəsənətinin parlaq təzahürü olan Təbriz məktəbinə olan bu qayğı uzun sürməmiş, Şah Təhmasibin paytaxtı Qəzvinə köçürməsi ilə bu istiqamətdə durğunluğa şərait yaranmışdır. Daha öncələr Təbrizdə Təhmasib Şahın sarayında yaşayan və buradakı sənətkarlara bələd olan Şah Humayun, sonralar isə Əkbər şahın dəvəti

ilə Mir Seyid Əli və Səməd Şirazi başda olmaqla, bir sıra rəssamlar Hindistana dəvət edilmiş və bu dəvətlər Hindistanda Moğol miniatür məktəbinin yaranması üçün hərəkətverici qüvvə olmuşdur. Mir Seyid Əli burada Moğol sarayının tərkibində fəaliyyət göstərən kitab illüstrasiya emalatxanasına rəhbərlik etmiş, onun rəhbərliyi ilə yerli rəssamların görkəmli miniatürləri Təbriz miniatür məktəbi ənənələri əsasında yaranmışdır.

**Tədqiqatın məqsədi** Təbriz və Moğol miniatür məktəbi nümunələrinin struktur-tipoloji təhlili vasitəsilə onların qarşılıqlı uyğunluq dərəcələrini və fərqli cəhətlərini müəyyən etməkdən ibarətdir. Bu istiqamətdə əsas əsərlər kimi Təbriz miniatür məktəbinin nümunələrini: Nizaminin "Xəmsə"si (1539-1540), "Zəfərnamə" və Şahnamə (1527-28), Moğol miniatür məktəbində isə "Əkbərnamə", "Baburnamə" və "Həmzənamə" təşkil edir. Nizaminin "Xəmsə"si Britaniya muzeyində, "Şahnamə" Edmond Rotşild kolleksiyasında, "Zəfərnamə" Gülüstan kitabxanasında, "Əkbərnamə" Viktoriya və Albert muzeyində, "Baburnamə" Vyana muzeyində mühafizə olunur.

Yuxarıda adları qeyd olunan əsərlərə çəkilmiş illüstrasiyalar hər iki miniatür məktəbinin qarşılıqlı təhlili baxımından olduqca mühüm əhəmiyyət kəsb edir. Təhlil zamanı demək olar ki, bütün miniatürlərdə struktur, rəng və kompozisiya baxımından oxşarlıqlar sezmək mümkündür. Belə ki, əsərlərin ölçü və mütənasibliyi baxımından da uyğunluqlar mövcuddur. Ümumiyyətlə, Moğol miniatür nümunələrində ilk dövrlərdə (XVI əsr) Təbriz rəssamlarının təsiri aydın şəkildə nəzərə çarpır. Bu dövr əsərləri hind və Təbriz üslubunun, elementlərinin qarışımından ibarətdir. Bu təsir sonrakı illərdə Avropa meyilləri ilə əvəz olunmuşdur.

Daha öncəki hind əlyazmalarından fərqli olaraq Moğol dövrü miniatür nümunələrində Təbriz ənənələrinə xas qızılı və mavi rəngin istifadəsi mümkün olmuşdur. Bəzək üçün istifadə edilən həndəsi motivlərdə də uyğunluqlar mövcuddur.

Yazı hər iki məktəbin nümunələrini fərqləndirən əsas xüsusiyyət olmuşdur. Belə ki, Miniatürün mühüm bir hissəsi kimi yazı Təbriz miniatür məktəbi nümunələrində xüsusi hissə hesab olunurdu. Moğol miniatür məktəbi nümunələrində isə bu halın əksi olaraq təsvirlərin əksəriyyətində yazıdan istifadə olunmur.

Daha bir fərq Moğol miniatür məktəbi nümunələrinin, demək olar ki, hamısında vahid düzbucaq haşiyə tətbiq olunduğu halda, Təbriz miniatür məktəbi nümunələrində bu, əsərdən əsərə görə dəyişmişdir. Ümumilikdə Təbriz miniatür məktəbi nümunələrinə xas çox konstruktiv məkanlaşma, geniş və dərin məkan kimi prinsiplər Moğol miniatürlərindən uzaqdır. Təbriz miniatürlərində insan fiqurları (xüsusən qadın) çoxluq təşkil edir. Moğol miniatürlərində isə qadın fiqurlarına nadir hallarda yer verilirdi. Təsvir olunan kişi fiqurlarında isə Təbriz miniatürlərinə xas statiklik ön plandadır. Burada reallıq ustalıqla təsvir edilməyə çalışılsa da, təsvir edilən fiqurlar adətən daha çox qeyri-insani (xəyali) subyektlərdir. Bu da onların qeyri-real mövzu və təxəyyül nümayiş etdirməyə olan meylini göstərir. Fiqurların azlığına baxmayaraq sıxlıq, yüklənmiş təsvir, o cümlədən, əsərlər arasında təkrarçılıq xarakterikdir. Bu da, yuxarıda qeyd edildiyi kimi, vahid düzbucaq haşiyənin əsas mənfi təzahürlərindəndir. Təbriz miniatür nümunələrində isə hər bir miniatür ayrı-ayrılıqda müstəqildir və yenilikləri özündə ehtiva edir. Burada peyzaj üstünlük təşkil edir. Moğol nümunələrində isə bu üstünlük şəhər mənzərələrindədir.

Ümumilikdə bütün bunlar nəticə etibarı ilə Təbriz miniatür nümunələrinə xas quruluş, motiv zənginliyi, hər bir fiqurun ayrılıqda zərif təsviri, harmoniya kimi üstünlüklərinin olduğunu deməyə əsas verir. Həmçinin, əsası Təbriz rəssamları tərəfindən qoyulmasına baxmayaraq, Moğol miniatürləri üçün rəng və kompozisiya baxımından bir çox yeniliklərin xarakterik olması Təbriz miniatür məktəbi ənənələri ilə, hind elementlərinin qarışımı nəticəsində yeni konsepsiyanın inkişaf etdiyini göstərir. Ayrılıqda tədqiq edilmiş

hər iki miniatür məktəbi nümunələrinin geniş şəkildə struktur-tipoloji, o cümlədən, semantik müqayisəli təhlilinə ehtiyac vardır.

**Şəkillər:**



**1. Nizami (Xəmsə)**



**2. Əkbərnamə**



3. **Şahnamə**



4. **Həmzənamə**

**Ədəbiyyat:**

1. Həsənzadə C. (2023) Təbriz miniatür sənəti. Bakı: Teas Press
2. Kərimov K. (2013) Azərbaycan miniatürləri. Bakı: Şərq-Qərb nəşriyyat evi.
3. Hacıyev İ.A. (2012) Şərq miniatür sənətində kompozisiya quruluşlarında forma və üslub xüsusiyyətləri. Bakı: Təknur.
4. Qasqas H. (2000) Mughal painting: Themes and İnfluences during the sixteenth and seventeenth centruies. India: Seminar in the arts of Mughal.
5. Martin F.R. (1912) The miniature painting and painters. Persia, India and Turkey. London: Bernard Quaritch.

# "DİVANİ LÜĞƏT-İT-TÜRK" ƏSƏRİNİN TÜRK DİLLƏRİNİN ÖYRƏNİLMƏSİNDƏ ROLU

**Əliyeva Səbinə Namiq**
**Nəsimi adına Dilçilik İnstitutu**
https://orcid.org/0000-0002-7071-7969
sabinaaliyeva016@gmail.ru

# THE ROLE OF "DIVANI-LUGAT-IT TURK" IN THE STUDY OF TURKISH LANGUAGES

**Aliyeva Sabina Namik**
**İnstitute of Linguistics named after Nasimi**
https://orcid.org/0000-0002-7071-7969
sabinaaliyeva016@gmail.ru

**Summary**

"Divani lugat it-turk" the first encyclopedic work of the Turkic world, was written by Mahmud Kashgari, a great Turkish scholar who lived in the 11th century. The work is a Turkish-Arabic dictionary written in 1072-1074. As we know, "Divani lugat it-turk" reflects the diversity and breadth of the vocabulary, and the material and spiritual culture of the Turks at that time contains interesting notes about the year, human and social life. It must be noted that the work is the oldest dictionary, anthology, encyclopedia, valuable and important collection of Turkish known to us.

The work, which consists of 7500 Turkish words, is written in Karakhanli Turkish. M. Kashgari traveled and studied the Turkic peoples living at that time in order to write the work "Divani lugat it-turk". In our opinion, the author achieved his goal with this valuable work he wrote, and besides playing a major role in teaching Turkish to the Arabs and spreading the Turkish language, he was able to maintain his relevance even today.

No matter how much M. Kashgari gives to the geographical areas inhabited by the Turkic peoples, ethnic and ethnographic features of these peoples in "Divani lugat it-turk", the main idea of the work is to show the lexical richness of the Turkish language and to show the Arabic language, to introduce Turkish languages to the world. The author considered the study of Turkish languages important, and it is no coincidence that in the first pages of the work he mentioned that the Turkish language will be the hegemonic language and that it will function as a means of universality among the peoples of the East for a long time.

**Key words:** Mahmud Kashghari, "Divani lugat it-turk", Turkic languages, general features.

## РОЛЬ «ДИВАНИ-ЛУГАТ ИТ-ТЮРК» В ИЗУЧЕНИИ ТЮРКСКИХ ЯЗЫКОВ

**Алиева Сабина Намик**
**Институт языкознания имени Насими**
**https://orcid.org/0000-0002-7071-7969**
**sabinaaliyeva016@gmail.ru**

**Резюме**

«Дивани лугат ит-тюрк» первый энциклопедический труд тюркского мира, был написан Махмудом Кашгари, великим турецким ученым, жившим в XI веке. Работа представляет собой турецко-арабский словарь, написанный в 1072-1074 гг. Как известно, «Дивани лугат ит-тюрк» отражает разнообразие и широту лексики, а материальная и духовная культура тюрков того времени содержит интересные заметки о годе, человеческой и общественной жизни. Необходимо отметить, что произведение является старейшим из известных нам словарей, антологий, энциклопедий, ценным и важным собранием турецкого языка.

Произведение, состоящее из 7500 турецких слов, написано на караханлы-турецком языке. М. Кашгари путешествовал и изучал жившие в то время тюркские народы, чтобы написать произведение «Дивани лугат ит-тюрк». На наш взгляд, автор достиг своей цели этой ценной работой, которую он написал, и, помимо того, что он сыграл важную роль в обучении арабов турецкому языку и распространении турецкого языка, он смог сохранить свою актуальность даже сегодня.

Как бы много М. Кашгари ни уделял географическим ареалам проживания тюркских народов, обычаям, этническим и этнографическим особенностям этих народов в «Дивани лугат ит-тюрк», основная идея работы заключается в том, чтобы показать лексическое богатство турецкого языка и показать арабский язык, должно было познакомить мир с турецкими языками. Автор считал важным изучение тюркских языков, и не случайно уже на первых страницах работы он упомянул, что турецкий язык будет языком-гегемоном и что он будет функционировать как средство универсальности у народов Восток давно.

**Ключевые слова:** Махмуд Кашгари, «Дивани лугат ит-тюрк», тюркские языки, общая характеристика.

Böyük türkoloq M.Kaşğarinin "Divan"ının tədqiqi Azərbaycan dilçiliyi, o cümlədən digər türk dillərinin öyrənilməsində kifayət qədər mühüm rol oynayır. Bu baxımdan, əsərin tədqiqi və üzərində aparılan araşdırmalar bütün dövrlərdə yalnız Azərbaycanda deyil, bir çox türk dövlətlərində, hətta Avropada da dilçilərin diqqət mərkəzində olmuşdur.

Onu da qeyd etməliyik ki, türk dillərində ahəng qanununun mövcudluğunu ilk dəfə M.Kaşğari aşkar etmişdir. Danılmaz həqiqətdir ki, bu əsər türk dillərinin tarixi inkişafının, müqayisəli qrammatikanın tərtib edilməsində, türk dillərinin tarixi leksikologiyasının öyrənilməsində əvəzsiz, rolu danılmaz və ilkin mənbələrdən biridir. Tərtib edildiyi vaxtdan uzun illər keçməsinə baxmayaraq əsərə olan maraq azalmamış, hələ də öz aktuallığını qoruyub saxlaya bilmişdir.

Orta türk dövrünün ilkin, mühüm və möhtəşəm abidələrindən biri olan M.Kaşğarinin "Divani lüğət-it-türk" əsərində qədim türklərin min il bundan əvvəlki dili, mədəniyyəti, ədəbiyyatı, tarixi, milli-mənəvi dəyərləri, coğrafiyası, adət və ənənələri öz əksini tapmışdır.

"Divan"da öz əksini tapan tarixi onomastik vahidlər xalqın tarixini əks etdirən dəyərli mənbə kimi kifayət qədər böyük əhəmiyyət daşıyır. Əsərdəki toponimlərin tədqiqi xalqın yayılma arealına, tarixinə aid zəngin məlumatlar verir. Bu baxımdan da tarixi toponimik leksikanın qorunub saxlandığı ensiklopedik mənbələrdən ən etibarlısı M.Kaşğarinin «Divani lüğət-it-türk» əsəri hesab olunur.

Türk dillərinə məxsus olan ortaq dil xüsusiyyətlərinin araşdırılmasında, eyni zamanda tarixi eyniliklərin tədqiq edilərək aşkar edilməsində olduqca əhəmiyyətli rola malik olan "Divan" müasir dilçilikdə də araşdırılaraq öyrənilir. Fikrimizcə, "Divan"ın dil xüsusiyyətləri, əsasən, morfoloji xüsusiyyətləri xüsusi maraq dairələrindən biridir. Bu aspektdən olan araşdırmalar yalnız Azərbaycanda deyil, digər türk xalqlarında da davam etdirilir.

M.Kaşğari "Divani lüğət-it-türk" əsərini qələmə almaq üçün o dövrdə yaşayan türk xalqlarını uzun müddət gəzib öyrənmişdir. Fikrimizcə, müəllif qələmə aldığı bu dəyərli əsərlə məqsədinə nail olmuş, ərəblərə türkcə öyrətmək və türk dilinin yayılmasında böyük rol oynamaqla bərabər, günümüzdə də öz dəyərini qoruyub saxlaya bilmişdır.

Burada qeydə alınan toponimlər türk qəbilə, tayfa və xalqlarının tarixi etnogenezi haqqında zəngin faktlar verir. Əsərin öyrənilməsi bir tərəfdən tarixi məlumatların verilməsi, digər tərəfdən dilimizin qədimliyi və kökləri haqqında faktların aşkar olunmasında böyük rol oynayır (Atalay, 1986).

Müəllif əsərdə müqayisəli üsuldan istifadə etməklə yanaşı, qeyd etməliyik ki, hansısa məsələ izah edildiyi zaman atalar sözləri, şeir parçaları, xalq ifadələri misal gətirilir. Yeri gəldikcə fonetik və qrammatik qanunları izah edir, sözlərin etimologiyasını araşdırır (Əskər, 2006).

M.Kaşğari fonetik-morfoloji xüsusiyyətlərinə görə türk dillərini iki qrupa ayırmışdır. 1.Şərq qrupu; 2.Qərb qrupu. Müəllif şərq qrupuna yağmaların, toxsıların, çigillərin, Məçinə qədər olan başqa tayfaların və Kaşğar şəhər əhalisinin qərb qrupuna isə qıpçaqların, oğuzların, bulqarların, süvarların, peçeneqlərin və Rumdan şərqdə yaşayan bütün türk tayfalarının dilləri daxil edilmişdir. Əsərdə ən asan dil kimi oğuzların, ən düzgün dil isə yağmalarla toxsıların dili qeyd edilir (Quliyeva, 2015).

Qeyd edilməlidir ki, böyük türkoloq ən təmiz dil dedikdə heç bir dillə qarışığı olmayan dili nəzərdə tutur. "Ən təmiz və doğru dil yalnız bir dil bilən, farslarla qarışmayan və əcnəbi ölkələrə gedib-gəlməyən adamların dilidir" (Əskər, 2006).

Əmir Nəcibə görə "Divan"da açıq-aşkar hiss olunur ki, oğuzların bir çox türk tayfaları, həmçinin onların dilləri ilə qarşılıqlı əlaqəsi olmuşdur. Lakin bu dillər arasında Kaşğarinin özünün də qələmə aldığı kimi, oğuzların qıpçaqlarla və oğuz dilinin qıpçaq dili ilə əlaqəsi daha nəzərə çarpacaq dərəcədə geniş olmuşdur. Məsələn o, bir neçə dəfə qeyd etmişdir: "Oğuzlarla qıpçaqlar y ilə başlayan bütün isim və feillərin ilk hərfini əliflə, və ya c ilə əvəz edirlər" (Quliyeva, 2015).

Gördüyümüz kimi, "Divan"dan günümüzə gəlib çatan məlumatlar müasir dövrdə də əsərin tədqiqata cəlb edilməsi, həmçinin bu mövzuda yeni işlərin yazılmasını, daha çox araşdırmaların aparılaraq qaranlıq qalan məqamların aydınlaşdırılmasına zəmin yaradır.

Əsərdə türk dillərinin morfoloji və leksik xüsusiyyətləri haqqında ilkin və çox vacib məlumatlar verilmişdir. Kitabın ən maraqlı cəhətlərindən biri türk dillərinin bu və ya digər şəkildə oğuz dilləri ilə müqayisədə verilməsidir. Eyni zamanda nəzərə çatdırmalıyıq ki, dillərin xüsusiyyətləri də oğuz dilinə münasibətdə müəyyənləşdirilir. Əsərin türk dillərinin öyrənilməsindəki rolu çağdaş dövrümüzdə də kifayət qədər əhəmiyyətlidir, çünki müəllif türk dillərinin dialekt və şivə məsələlərinə də əsərdə yer vermişdir.

Bəsim Atalayın "Divanın üzərində zaman-zaman yüzlərlə araşdırıcı çalışacaq və hər tədqiqat aparan yeni bir cövhər kəşf edəcək" (Atalay, 1985) sözlərindən yola çıxaraq deyə bilərik ki, "Divanın xüsusilə türk dillərinin öyrənilməsində daşıdığı rol kifayət qədər böyükdür. Fikrimizcə, əsərin bu xüsusiyyəti nəzərə alınaraq dilçilərin əldə etdiyi yeni faktlar ümumiləşdirilməli və ortaq türkcə yolunda aparılan işlərdə istifadə olunmalıdır.

**Ədəbiyyat**:

1.Kaşğari M. (1986). "Divanü Lüğat-it-Türk" (Çeviren Besim Atalay), III cild, 124.

2. Kaşğari M. (1985). "Divanü Lüğat-it-Türk" (Çeviren Besim Atalay), I cild, 243.
3. Kaşğari M. (2006). "Divanü lüğat-it-Türk" (Tərcümə edən və nəşrə hazırlayan: Ramiz Əskər), III cild, 103.
4. Kaşğari M. (2006). Divanü lüğat-it-Türk (Tərcümə edən və nəşrə hazırlayan: Ramiz Əskər), II cild, 29, 105.
5. Quliyeva Y. (2015). Mahmud Kaşğarinin "Divanü-lüğat-it-türk" əsərində türk dillərinin ümumi mənzərəsi. Dövlət və din (Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin jurnalı), №10(39) 54-59.

## KLİFFHENGER VƏ TELEVİZİYA SERİALLARINDA ONUN FUNKSİYASI

**Hüseynova Nabat Elşad**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**
**https://orcid.org/0009-0006-2864-2437**
**nabathuseynova14@gmail.com**

## CLIFFHANGER AND ITS FUNCTION IN TELESERIALS

**Huseynova Nabat Elshad**
**Azerbaijan State University of Culture and Art**
**https://orcid.org/0009-0006-2864-2437**
**nabathuseynova14@gmail.com**

**Summary**

In modern times, as the number of tv series increases and they become more accessible, an important issue for the creative team of the series and the customer (TV channel, streaming service, etc.) is to attract viewer interest, because the success of the series depends on the number viewers who watch it. To maintain viewer interest, the series uses cliffhangers, which have become widespread in literature, were used in feature films of the silent film era, and later were used by the creators of the series. This report analyzes the concept, function and history of the cliffhanger and highlights its importance with examples.

**Key words:** cliffhanger, TV series, episode, finale, advertisement

## КЛИФФХЭНГЕР И ЕГО ФУНКЦИИ В ТЕЛЕСЕРИАЛАХ

**Гусейнова Набат Эльшад**
**Азербайджанский Государственный Университет Культуры и Искусств**
**https://orcid.org/0009-0006-2864-2437**
**nabathuseynova14@gmail.com**

**Резюме**

В современное время, по мере того, как количество телесериалов с огромным темпом увеличиваются и они становятся все более доступными для зрителей, важным вопросом для творческой группы сериала и заказчика (телеканала, стримингового сервиса и т.д.) становится привлечение зрительского интереса, потому что успех телесериала напрямую зависет от количества зрителей, которые его смотрят. Именно для поддержания зрительского интереса в сериалах создатели сериалов используют приём, который называется

клиффхэнгер. Клиффхенгеры получили широкое распространение в литературе, а также применялись в художественных фильмах эпохи немого кино, а позже применялись создателями сериалов. В данном тезисе анализируется концепция, функция, а также история клиффхэнгера, и на примерах подчеркивается его важность.

**Ключевые слова:** Клиффхенгер, сериал, эпизод, финал, реклама

Hekayəni ən maraqlı yerində kəsmək və beləliklə, tamaşaçını (oxucunu) növbəti bölümü gözləməyə vadar etmək yeni fənd deyil, çünki hələ orta əsrlərdə "Min bir gecə" əsərinin baş qəhrəmanı Şəhrizad Şəhriyar şahın diqqətini saxlamaq üçün danışdığı hekayənin ən maraqlı yerində dayanır və beləliklə, Şəhriyar şah hekayənin ardını eşitmək üçün Şəhrizadı səbirsizliklə gözləyir. Beləliklə, Şəhrizad həm öz həyatını qoruyub saxlamış olur, həm də xalqı xilas edərək müdrikliyini isbatlamış olur.

XIX əsrdə qəzetlərdə romanların hissə-hissə nəşri, yəni seriallaşdırma Çarlz Dikkens (Charles Dickens) sayəsində populyarlaşmışdı. Belə ki, yazıçının "Antikvar dükanı" ("The Old Curiosity Shop", 1840-1841) romanının bir hissəsi Nell adlı personajın səhhətinin təhlükəli vəziyyətdə olması ilə başa çatırdı, bu isə hekayənin ardını gözləyən roman pərəstişkarlarının növbəti hissənin nüsxələrini daşıyan gəmini qarşılamaq üçün Nyu-York limanında toplaşaraq izdiham yaratmaqlarına səbəb olmuşdu (4).

Tamaşaçının marağını saxlamaq və onu növbəti bölümə baxmağa sövq etmək üçün teleseriallar da eyni taktikadan istifadə edirlər. Teleseriallarda süjetin ən maraqlı yerdə bölünməsi kliffhenger adlanır.

Gülşən Qafarovanın "Ssenari yaradıcılığı-2 (Televiziya serialları)" adlı dərs vəsaitində kliffhenger süjet xəttinin yaradılmasında istifadə olunan bədii üsul kimi tərif edilir (2; 116). Oksford lüğətində isə kliffhenger filmdə, teleserialda, əsərdə elə bir məqamdır ki, tamaşaçı bundan sonra nə olacağını təxmin edə bilmir (5). Məhz bu qeyri-müəyyənlik tamaşaçını bir bölüm daha baxmağa, bir səhifə daha oxumağa sövq edir.

Kliffhenger finalda tamaşaçının suallarına cavab tapa bilməməsidir. Belə olduğu təqdirdə tamaşaçı səbirsizliklə növbəti bölümü gözləyir, qısası, hər bölüm yeni bir kliffhengerlə başa çatır. Kliffhengerlərdən doğru istifadə edildikdə tamaşaçı hətta illərlə yeni bölümü gözləməyə, bir növ, razı olur. Bu baxımdan mövsüm finalı zamanı istifadə edilən kliffhengerin əhəmiyyəti olduqca böyükdür. Belə olduqda yeni mövsümə qədər tamaşaçı kütləsi nəinki azalmır, əksinə daha da arta bilər.

Məsələn, 2011-2019-cu illərdə HBO kanalında yayımlanan "Taxt oyunları" ("Game of Thrones") serialının altıncı mövsümünün final bölümü iki mərkəzi obrazın – özünü Yeddi Krallığın yeni kraliçası elan edən Serseyanın (Cersei) və taxtı onun olduğunu iddia edən Deynerisin (Daenerys) nəhayət qarşılaşma ehtimalı ilə başa çatır, tamaşaçıda isə yeni-yeni suallar yaranır – görəsən onlar görüşəcəklərmi? Müharibə olacaqmı və s. Həmin bölüm yayımlandığı gün 8.89 milyon tamaşaçı tərəfindən izlənmişdi (6), bir il sonra yayımlanan yeni mövsümün ilk bölümündə isə bu rəqəm 10.11 milyona yüksəlmişdi (7).

Kliffhenger sadalanan xüsusiyyətlərinə görə açıq finalla səhv salına bilər. Açıq final – hekayədəki sirr açıqlanmadan, problemlər həll olmadan filmin (teleserialın) başa çatmasıdır (1; 170). Eynilə kliffhengerdə olduğu kimi, açıq finalda da sonra nə olacağını tamaşaçı bilmir. Lakin açıq finaldan fərqli olaraq, kliffhenger heç də həmişə sonda olmur.

Televiziya kanallarında yayımlanan seriallar reklam blokları ilə bölünür. Azərbaycan Respublikasının Reklam haqqında Qanununun 20-ci maddəsinin 5-ci hissəsinə əsasən, bədii və televiziya filmləri 45 dəqiqədən çox davam edərsə, yalnız 45 dəqiqədən sonra reklamla kəsilə bilər (3). Yəni bir saatlıq serial bölümü ən azı bir dəfə reklama ayrılacaq.

Tamaşaçını reklam vaxtı "əldən buraxmamaq" və kanalı dəyişməsinin qarşısını almaq üçün ssenari yazılarkən həmin reklam blokları nəzərə alınır və süjet xətti elə qurulur ki, reklamdan qabaq kliffhenger olsun və tamaşaçı səbirsizliklə serialın ardını gözləsin. Yəni, açıq finaldan fərqli olaraq, kliffhengerə bədii

fənd, üsul kimi bölümün ortasında da rast gəlmək olar. Çünki kliffhengerin əsas funksiyası tamaşaçı diqqətini saxlamaqdır, bölümü tamamlamaq, süjet xəttində son nöqtəni qoymaq deyil. Bu baxımdan final süjet strukturunun komponenti olduğu halda, kliffhenger bədii fənd (priyom) kimi başa düşülməlidir.

Yuxarıda deyilənləri nəzərə alaraq kliffhengerə belə tərif verə bilərik: kliffhenger – baş qəhrəmanları gözlənilməz vəziyyətlərə salaraq tamaşaçını cavabsız suallarla qarşı-qarşıya qoyan və teleserialın növbəti bölümünə baxmağa vadar edən bədii fənddir.

**Ədəbiyyat:**


1. Qafarova G. Ssenari yaradıcılığının əsas istiqamətləri. Dərs vəsaiti. Bakı-2014
2. Qafarova G. Ssenari yaradıcılığı-2 (Televiziya serialları). Dərs vəsaiti. Bakı-2020
3. Reklam haqqında Azərbaycan Respublikasının Qanunu (elektron resurs) https://e-qanun.az/framework/30348
4. What Is a Cliffhanger? Examples of Cliffhangers in Literature, Film, and Television https://www.masterclass.com/articles/what-is-a-cliffhanger-examples-of-cliffhangers-in-literature-film-and-television-and-tips-for-using-cliffhangers-from-dan-brown-and-rl-stine
5. Cliffhanger. https://www.oxfordlearnersdictionaries.com/definition/english/cliffhanger
6. Sunday cable ratings: 'Game of Thrones' scores series high with Season 6 finale https://web.archive.org/web/20160902162718/http://tvbythenumbers.zap2it.com/2016/06/28/sunday-cable-ratings-june-26-2016/
7. Dragonstone (Game of Thrones episode) https://en.wikipedia.org/wiki/Dragonstone_(Game_of_Thrones_episode)


## E.E.ŞMİDTİN ƏSƏRLƏRİNDƏ METAFORANIN ÜSLUBİ FUNKSİYALARI


**Əsgərova Şəhanə Rizvan**
**Azərbaycan Dillər Universiteti**
**https://orcid.org/0000-0003-0890-0065**
**shahanaasgarova@gmail.com**


## STYLYSTIC FUNCTIONS OF METAPHOR IN THE WORKS OF E.E. SCHMITT


**Asgarova Shahana Rizvan**
**Azerbaijan University of Languages**
**https://orcid.org/0000-0003-0890-0065**
**shahanaasgarova@gmail.com**



**Summary**

The stylistic functions of simile in the article, which is the most productive type of metaphor, in literary texts have been investigated. Similes formed on the basis of polysemy of words allow the writer to express his/her thoughts more fully, emotionally and expressively. Metaphor is a stylistic figure that enriches artistic language with figurative expressions, based on the similarity between two objects or events. It is known that, in addition to common language features, metaphor also performs special functions in literary texts, thereby conveying the writer's thoughts to the reader in more figurative expressions. Metaphor is considered to be the richest source for the figurative expression of

thought. According to his/her thinking, the writer describes his/her attitude to the events, the character of the character, natural phenomena, the current situation with various metaphorical expressions. Attention was paid to the stylistic functions of metaphor on the basis of examples taken from the modern French writer E.E. Schmitt's works “Paradi Perdu”, “La Porte du Ciel” and “Oscar et la dame rose”. Metaphor is a very effective tool for understanding and appreciating reality in literary texts.

**Key words**: metaphor, style, function, simile, transfer.

## СТИЛИСТИЧЕСКИЕ ФУНКЦИИ МЕТАФОРЫ В ТВОРЧЕСТВЕ Э.Э.ШМИДТА

**Аскерова Шахана Ризван**
**Азербайджанский Университет Языков**
**https://orcid.org/0000-0003-0890-0065**
**shahanaasgarova@gmail.com**

**Резюме**

В статье исследовались стилистические функции метафоры в художественных текстах, являющейся наиболее продуктивным видом метафоры. Метафоры, созданные на основе многозначности слов, позволяют писателю более тщательно, эмоционально и образно выразить свои мысли. Метафора – стилистическая фигура, обогащающая художественный язык образными выражениями, основанными на сходстве двух предметов или событий. Известно, что, помимо общеязыковых особенностей, метафора выполняет в художественных текстах и особые функции, тем самым передавая читателю мысли писателя в более образных выражениях. Метафора считается богатейшим источником образного выражения мысли. Согласно своему мышлению, писатель различными метафорическими выражениями описывает свое отношение к событиям, к сложившей ситуации, характеру персонажа, явлениям природы. Обращено внимание на стилистические функции метафоры на примере произведений современного франкоязычного писателя Э.Э. Шмидта "Paradis Perdus", "La Porte du Ciel" и "Oscar et la dame Rose".

Метафора - очень эффективное средство для понятия и оценивания реальности в художественных текстах.

**Ключевые слова**: метафора, стиль, функция, сравнение, перенос

Bədii mətnlərdə yazıçı öz təfəkkürünə, dünyagörüşünə, bacarığına, tərzinə uyğun olaraq müxtəlif dil vasitələrindən istifadə edir. Yazıçı öz müşahidələrini, personajın xarakterini, hadisələrə münasibətini, mövcud vəziyyəti obrazlı dillə ifadə edir. Fikrin obrazlı ifadəsi zamanı söz həqiqi mənasından qismən uzaqlaşaraq əlavə məna çaları ilə yüklənir ki, buna sözün məcazi mənası deyilir. Obrazlı ifadə zamanı məcazlardan geniş istifadə olunur. Bədii mətnlərdə ən çox rast gəlinən məcaz növlərindən biri metaforadır. Metafora yunan sözü olub *köçürmə* deməkdir və bir əşya və ya hadisəyə aid əlaməti başqa əşya və hadisə üzərinə köçürməklə yaranır. Məcazın ən gözəli (Kvintilian) olan metafora ümumdil xüsusiyyətləri ilə yanaşı, bədii mətnlərdə xüsusi funksiyalar da yerinə yetirir. Metaforanın üslubi funksiyaları dedikdə hadisələrin obrazlı təsviri nəzərdə tutulur. Bədii mətnlərdə metafora xüsusi funksiyalar yerinə yetirir ki, bu da ilk növbədə yazıçının təfəkküründən, hadisələrə münasibətindən asılıdır.

Metaforanın üslubi funksiyaları çox müxtəlifdir və onlar özlərini bədii mətnlərdə daha dəqiq göstərirlər (Djabbarov, 2015).

E.E.Şmidtin “Oscar et la dame rose” əsərində ağır xəstəlikdən əziyyət çəkən baş qəhrəman Oskarın Allaha ünvanladığı məktubda personajın həyata baxışı, ruh halı belə ifadə edilir:

*J’ai essayé d’expliquer à mes parents que* ***la vie*** *c’est* ***un drôle de cadeau.*** *Enfin, on se rend compte que* ***ce n’était pas un cadeau****, mais juste* ***un prêt*** *(Schmitt, 2002:97).* *Mən valideynlərimə izah etməyə çalışdım ki, həyat gülməli bir hədiyyədir. Nəhayət, anlayırıq ki, bu bir hədiyyə deyildir, sadəcə bir borcdur.*

Metafora obrazlı, təsirli ifadələrin yaradılmasına xidmət edir.

*Ce n'était pas **une femme**, c'était **un paysage** (Schmitt, 2021b:25).Bu, qadın deyildi, bu, bir mənzərə idi. Burada əsərin baş qəhrəmanı Nura təbiət mənzərəsinə bənzədilmişdir.*

**Les cafés** sont **l'âme d'une ville** (Schmitt, 2021a: 31). Kafelər şəhərin ruhudur.

**Le Lac** est **une pensée** qui rêve (Schmitt, 2021s : 351) – Göl xəyallar quran bir düşüncədir.

**Tu** es **mon œuvre**, tu es **mon successeur**. (Schmitt, 2021a: 128). Sən mənim əsərim, sən mənim varisimsən.

Metaforanın köməyi ilə cansız varlıqların canlı təsviri yaradılır.

*Le printemps tardait (Shmitt, 2021a: 290). Bahar gecikirdi.*

*Et la vie le quitta (Shmitt, 2021a: 316) - Və həyat onu tərk etdi.*

*Le Lac conservait ses secrets (Schmitt, 2021) – Göl öz sirlərini saxlayırdı.*

*Les rivières cherchent la mer (Scmitt, 2021b:79) – Çaylar dənizi axtarır.*

**Tarder** – gecikmək**, quitter** – tərk etmək, **conserver** – saxlamaq, **chercher** - axtarmaq feilləri ilə cansız isimlər və ya mücərrəd varlıqlar canlı təsvir edilməklə obrazlı ifadələr yaradılmışdır. Aydındır ki, bu hərəkətlər insana məxsusdur. Bu hərəkətlərlə cansız varlıqlar bir növ canlandırılmışdır. Dilçilik ədəbiyyatında bu, personifikasiya, yəni şəxsləndirmə adlanır. Şəxsləndirmə metaforanın növ müxtəlifliyidir (Djabbarov, 2015: 109). Qeyd edək ki, bütün şəxsləndirmələr metaforadır, lakin bütün metaforalar şəxsləndirmə deyildir.

Metafora adlandırma funksiyası ilə yanaşı, bədii mətnlərdə obrazlı ifadələrin yaranması üçün məhsuldar mənbə rolunu oynayır. Metaforanın köməyi ilə perfonajın xarakteri açılır, mövcud vəziyyət qiymətləndirilir, sosial həyat vəziyyəti şərh olunur, təbiət hadisələrinin canlı təsviri yaradılır və s.

**Ədəbiyyat:**

1. E.E.Schmitt (2002). Oscar et la dame rose. Albin Michel.
2. E.E.Schmitt (2021a). Paradis Perdus.
3. E.E.Schmitt (2021b). La Porte du ciel.
4. Rachid Djabbarov (2015). Stylistique française.

## MÜXTƏLİF JANRLI ƏSƏRLƏRDƏ T.SALAHOV "SƏRT ÜSLUBU"NUN İFADƏ GÜCÜ HAQQINDA

**Məmmədova Rəna Sulduz**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**
**https://orcid.org/0000-0001-7302-2620**
**renamammadova088@gmail.com**

## ABOUT THE EXPRESSIVE POWER OF TAHIR SALAHOV'S SEVERE STYLE IN THE ARTWORKS OF THE DIFFERENT GENRES

**Mammadova Rana Sulduz**
**Azerbaijan State University of Culture and Arts**
**https://orcid.org/0000-0001-7302-2620**
**renamammadova088@gmail.com**

**Summary**

This thesis provides information about reflection of Tahir Salahov's severe style in the different genres works. The severe style emerged in the late of 1950's. Tahir Salahov was one of the prominent representatives of this style. The painting "The shift is over" that was created by the artist in 1957 is the first artwork of Tahir Salahov which regarded to the severe style. Oil workers, Absheron, the Caspian Sea, landscapes of Azerbaijan and different countries were the main topics of his paintings. The series of the portraits of world-famous musicians, writers, artists, poets such as G.Garayev, D. Shostakovich, M.Rostropovich, S.Bahlulzade, H.Hesse and others had revealed the special period of creativity of the artist. Through the portraits he had reflected their inner world. Therefore the landscapes of the most famous cities of the world created by the artist are such kind of time and space traveling.

**Keywords:** Tahir Salahov, severe style, painting, Dmitri Shostakovich.

## О ВЫРАЗИТЕЛЬНОЙ СИЛЕ СУРОВОГО СТИЛЯ ТАИРА САЛАХОВА В РАБОТАХ РАЗНОГО ЖАНРА

**Мамедова Рена Сулдуз**

**Азербайджанский Государственный Университет Культуры и Искусств**

**https://orcid.org/0000-0001-7302-2620**

**renamammadova088@gmail.com**

**Резюме**

В статье представлена информация об отражении сурового стиля Таира Салахова в работах разного жанра. Суровый стиль зародился в конце 1950-х годов. Т. Салахов был одним из ярких представителей этого стиля. Картина Таира Салахова под названием «С вахты» которая была создана в 1957 году считается первой работой художника в суровом стиле. Нефтяники, Апшерон, Каспийское море, пейзажи Азербайджана и других стран являются основной тематикой его работ. Серия портретов всемирно известных музыкантов, писателей, художников, поэтов, таких как К. Караев, Д. Шостакович, М. Ростропович, С. Бахлулзаде, Г. Гессе и других раскрывают особый период в творчестве художника. Благодаря портретам он отражал их внутренний мир. В свою очередь пейзажи известных городов мира, написанные художником в разные периоды творчества являются своеобразным путешествием во времени и пространстве.

**Ключевые слова:** Таир Салахов, суровый стиль, живопись, Дмитрий Шостакович

Həm sovet, həm də Azərbaycan rəngkarlığında XX əsrin 50-ci illərinin sonlarında meydana gələn "sərt üslub" adlanan yeni istiqamət mövcud müxtəlif janrlarda təzahür edirdi. Tofiq Cavadovun 1950-ci ilə aid olan bir sıra qrafik əsərlərində yeni üslubun ilk işartıları nəzərə çarpırdı. Bununla bağlı "sərt üslub" sonralar Azərbaycanın dünyaca məşhur rəssamı olacaq Tahir Salahovun zəngin yaradıcılıq irsinin ona uğur gətirəcək "tanınma nişanı" və uğurunun əsas estetik göstəricisi hesab edilir. Etiraf edək ki, yeni üslubun yaranması birbaşa görkəmli fırça ustasının yaradıcılığı ilə bağlıdır. Tahir Salahovun "sərt üslub"da yaratmış olduğu müxtəlif janrlı əsərləri özünəməxsusluğu ilə yaddaşlara həkk edilmişdir. Sərt cizgi - xətlərin və yığcam rənglərin ekspressiv vəhdətini özündə birləşdirən yeni üslub bəlkə də dünya şöhrətli rəssamın təlatümlü keçən uşaqlıq və gənclik illərinin təsiri ilə yaranmışdır. Yaratdığı əsərləri ilə sənətə yeni nəfəs gətirən Tahir Salahovun ifadə tərzini özündən öncəki və sonrakı nəslin müxtəlif nümayəndələri özlərinə örnək seçmişdilər. Əlavə edək ki, rəssamın 1960-cı illərin əvvəllərində "sərt üslub"da yaratmış olduğu – mənzərə, portret, natürmort və süjetli tabloları Azərbaycanın XX əsr rəngkarlıq tarixində xüsusi yer tutur. "Növbədən qayıdanlar" və "Təmirçilər" kimi süjetli tablolarında yeni üsluba xas sərt cizgi və rəng çalarları ilə təlatümlü Xəzərin nəhəng dalğalarına qarşı mübarizə aparan neftçilərin gərgin və məsuliyyətli əməyini, təhlükəli iş şəraitini obrazların dinamik təsviri vasitəsilə əks etdirir. Tahir Salahovun "Çənlər" (1959) və

"Xəzər üzərində" (1961) mənzərə əsərləri də "sərt üslub"a xarakterik tutqun rəng həlli, obrazların dinamik təsviri ilə Xəzər və Neft daşları mövzusunda yaratmış olduğu silsilə əsərlərdən hesab edilir. Rəssam tərəfindən 1974-1976-cı illərdə yaradılmış "Bəstəkar Dmitri Şostakoviçin portreti" əsərini nəzərdən keçirdikdə, yaradıcı şəxsin gərginliyi, onun bələndiyi daxili emosiya insanı qeyri-ixtiyari olaraq həyəcanlandırır, onun yaşantıları haqqında düşünməyə sövq edir. Bununla da sanki yaratdığı obraz canlanır, insanın daxili aləminin dərkinə yol açır. Müəllifi olduğu dünya şöhrətli şəxsiyyətlərin portretləri silsiləsində 2000-ci ildə yaratmış olduğu dahi musiqiçi Mstislav Rostropoviçin portreti onun xüsusi maraq doğuran əsərlərindəndir. Rəssam formatı təşkil edən elementlərin zənginliyi, kompozisiya dolğunluğu ilə obrazın yaratdığı vəhdətdə dahi Bakılının çoxşaxəli həyatını, daim yeni yaradıcılıq axtarışlarında olan zəngin ruhunu, musiqi sevgisini tam mənası ilə kətana köçürmüşdür. Tahir Salahovun ərsəyə gətirdiyi portretlər insanı dahi şəxsiyyətlərin yaradıcı dünyalarını duymağa imkan verir, gizli qalan mənəvi-psixoloji məqamları aşkara çıxarır. Obrazın heç kimə məlum olmayan şəxsi məziyyətlərini, xarakterik xüsusiyyətlərini bənzərsiz ustalıqla əks etdirir. Tahir Salahovun müəllifi olduğu portretlərin ümumi cəhətlərindən biri də onun yaradıcı şəxsiyyətlərin varlığına xas daxili ekspressiyanın, fərdi və fərqli xüsusiyyətlərinin özünəməxsus bədii tutumda aşkara çıxarılması və vurğulanmasıdır. "Çəkdiyim portretlərin hamısı mənim üçün əzizdir. Çünki onlar mənim doğmalarımın, sevdiyim insanların, əsl sənətkarların portretləridir. Mən o əsərləri sahiblərinə görə sevirəm, zəhmətimə görə yox" (Xəlilzadə, 2010) – fikrini səsləndirən Tahir Salahovun portretlərində yaratmış olduğu şəxsiyyətlərə sevgisi və səmimi münasibəti aydın şəkildə sezilir.



*Tahir Salahov "Xəzər üzərindən" 1961*



*Tahir Salahov "Mstislav Rostropoviç" 2000*

Azərbaycan təsviri sənətinin görkəmli nümayəndələri N.Qasımov, N. Əbdürrəhmanov, M.Abbasov, T.Sadıqzadə kimi rəssamların XX əsrin 70-80-ci illərinə aid olan süjetli tablo, portret, mənzərə və natürmort janrında yaratmış olduqları rəngkarlıq əsərləri də rəng kompozisiyası, bədii həll və kəskin dinamika baxımından "sərt üslub"un estetikasını özündə ehtiva edir. Bütün bu məqamlar yaradıcılığının müxtəlif mərhələlərində müasirlərinin Tahir Salahovun "sərt üslub"unun təsirindən ilhamlandığının əyani sübutudur. Nadir Qasımov 1985-ci ildə yaratdığı "Abşeron nefti" əsəri ilə ucsuz-bucaqsız neft buruqları fonunda tünd çalarlar, mövzuya uyğun rəng kompozisiyası ilə qabarıq formada təsvir etdiyi neft çənləri əhatəsində

Abşeronun sənaye mənzərəsini canlandırmışdır. Rəssamın 2005-ci ilə aid “Neft daşları” əsərində həyat verdiyi obrazların fırtınalı Xəzərdə əzmkar mübarizəsi, iradəli duruşu sərt üsluba xas dinamika ilə həmahənglik təşkil edir.



*Nadir Qasımov “Abşeron nefti” 1985.*



*Nadir Qasımov “Neft daşları” 2005.*

**Ədəbiyyat:**


1. Kərimov K.C., Əfəndiyev R.S., Rzayev N.İ., Həbibov N.D. (1992) Azərbaycan incəsənəti. Bakı: İşıq.
2. Gülməmmədli R. (2013) Tofiq Cavadov. İstanbul: Mega Basım Yayın AŞ.
3. Xəlilzadə F. “Sahilə qayıdan ləpələr” (2010) Link: https://www.anl.az/down/meqale/azerbaycan/2010/may/121212.htm


## DİLLƏRİN QARŞILAŞMASI ZAMANI LEKSİK HİBRİDLƏRİN YARANMASI


**Soltanova Aysel Eldar**

**Gəncə Dövlət Universiteti**

**https://orcid.org/0000-0002-2292-8569**

**Asoltanova@beu.edu.az**


## EMERGENCE OF LEXICAL HYBRIDS IN LANGUAGE CONTACT SITUATION


**Soltanova Aysel Eldar**

**Ganja State University**

**https://orcid.org/0000-0002-2292-8569**

**Asoltanova@beu.edu.az**


**Summary**


Since the lexical and grammatical change of languages due to various historical reasons is one of the main research areas of linguists, the article investigated the role of language contact in the creation of lexical hybrids. According to the conclusion of the article, if the correspondence of the form and pronunciation between the two languages, as well as the number of vowels and consonants, is expected, this kind of transfer event can be mentioned.

That is, similarity between two languages, long-term language contact and the phenomenon of language transition result in the creation of a new language based on the grammatical structure of the previous language as a result of lexical transfers. Another point to be noted is the lexical transfer and interference related to the innovative trends in the language, which in turn results in the enrichment of the lexical composition of the contact languages.
**Keywords:** lexical hybridisms, lexical transfer, interference.

## ВОЗНИКНОВЕНИЕ ЛЕКСИЧЕСКИХ ГИБРИДОВ НА ФОНЕ ЯЗЫКОВОГО КОНТАКТА

**Солтанова Айсель Эльдар**
**Гянджинский государственный университет**
**https://orcid.org/0000-0002-2292-8569**
**asoltanova@beu.edu.az**

**Резюме**

Поскольку лексико-грамматическое изменение языков в силу различных исторических причин является одним из основных направлений исследований лингвистов, в статье исследована роль языкового контакта в создании лексических гибридов. Согласно заключению статьи, если предполагается соответствие формы и произношения между двумя языками, а также количества гласных и согласных, можно упомянуть об этом виде трансферного события. То есть сходство между двумя языками, длительный языковой контакт и феномен языкового перехода приводят к созданию нового языка на основе грамматической структуры предыдущего языка в результате лексических переносов. Следует также отметить лексический перенос и интерференцию, связанную с инновационными тенденциями в языке, что, в свою очередь, приводит к обогащению лексического состава контактных языков.
**Ключевые слова**: лексические гибридизмы, лексический перенос, интерференция.

Hibrid formaların tədqiqi ilə məşğul olmadan öncə bu formalar meydana gəlməmişdən əvvəl mövcud olan terminlərin tarixinin araşdırılmasında fayda var. İlk dövrlərdə Vaynrayx (1953) və Lado [1] bir dilin ikinci dilə təsirini *interferensiya* termini adı altında araşdırmışlar, daha sonralar isə bu definisya *ötürülmə, transfer və yaxud dillərarası təsir* termini ilə əvəz olunmuşdur. Odlinin verdiyi tərifdə isə *transfer* hədəf dillə daha öncə öyrənilən (qeyri-peşəkar) digər dil arasında oxşar və fərqli xüsusiyyətlərin təsirinin nəticəsidir [2: s. 27]. *Dillərarası təsir* termini isə ilk dəfə 1986 – cı ildə Kellerman Sharwood Smith tərəfindən ötürülmə, interferensiya, dillərarası ötürülmə, əks ötürülmə, alınma sözlər kimi birinci dilə təsir terminlərinin düzgün ifadəsi üçün müasir dilçilik elminə təqdim olunmuşdur.

Hibridləşmə və yaxud dillərin qarışması dilin iki əsas səviyyəsində əks olunur – leksik və qrammatik səviyyələrdə. İstər şifahi, istərsə də yazılı nitqdə leksik transferin baş vermə səbəbləri bir sıra dilçi alimlər tərəfindən fərqli şəkildə izah edilmişdir. De Angelis və Selinker (2021), eyni zamanda Jarvis və Odlinə görə (2000) dillərarası leksik transferdə iki dil arasında ortaq oxşar xüsusiyyətlər mühüm amildir. Belə ki, bəzi dillər forma və tələffüz baxımından oxşar söz ehtiyatına malik olduqları üçün dildə leksik ötürülmə hallarının baş verməsi labüd hal alır. Misal olaraq, türk dili ilə isveç dili arasında bəzi müqayisəli məqamlara diqqət yetirək. Türk dilində boşqab mənasını ifadə edən *tabak* sözünə bənzər və tütün mənasını ifadə edən *tobak, yaxud köprü - körpü (türk), köp – almaq (İsveç), anda – dərhal (türk), andas – ruh, nəfəs (isveç), fransız (toilette) dilindən hər iki dilə keçən ayaqyolu – tuvalet (türk), toalett (İsveç)* kimi eyni forma və tələffüzə malik olan sözlər türk sözləri ilə təmas zamanı isveç cümlələrinə keçir və yaxud əks prosesin baş

verməsinə zəmin yaradır [3: s.176]. Yalnız iki dil arasında forma və tələffüzün, eyni zamanda sait və samit səslərin sayının uyğunluğu, gözlənildiyi kimi olduğu halda bu cür ötürülmə hadisəsindən söz gedə bilər.

Bundan başqa, William və Hammarberg (1998) leksik transferin baş verməsində ikinci dili əsas faktor olaraq təyin etmişlər. Misal olaraq, *Lüksemburqiş* dil transferinə ən bariz nümunə olaraq dəyərləndirilə bilər. Lüksemburq əhalisinin əsas dilinin Lüksemburqiş olmasına baxmayaraq ölkədə dörd – alman, fransız, ingilis və lüksemburqiş dilləri hakimdir. Tədqiqatın qənaətinə əsasən ünsiyyət vasitəsinin, xalq dilinin lüksemburqiş olmasına baxmayaraq ölkənin bütün təhsil, inzibati, dini məsələləri ingilis, fransız və alman dillərində icra olunur. Ölkənin dil statistikasına əsasən rəsmi yazışmalar, biznes və hüquqi məsələlərdə fransız dili, media və televiziyada isə alman dili hakim rol oynayır [3: s.98]. Ölkənin təhsil sistemi isə alman, fransız və ingilis dillərində həyata keçirilir. Bəs Lüksemburqiş dilinin bu cür adlandırılmasının səbəbi nədir? Bu dil tək fransız dilindən 5000 alınma söz qəbul etmişdir. Lüksemburq dilinin alman mənşəli olmasına baxmayaraq fransız alınmaları bu dildə daha çoxdur. Eyni qayda ingilis dilinə də aiddir. Belə ki, ingilis dilinin german dilləri qrupuna aid olmasına baxmayaraq alman dilindən alınan söz sayı 5000-dən azdır (Kartzer, 2002). Bu da məlumdur ki, roman dillərinə aid fransız dilli Normandların İngiltərə istilası ilə birbaşa bağlıdır. Lüksemburqiş dili İkinci Dünya müharibəsinə qədər alman dilinin bir dialekti hesab olunsa da, bu gün 77% əhalisinin ana dili olan Lüksemburqun rəsmi dili hesab olunur və bu gün almanlar lüksemburqiş dilinin şifahi nitqini anlaya bilmirlər. Aşağıdakı nümunəyə baxaq:

*Wann ech ginn "when I go"* [4] - *Mən nə zaman gedirəm?*

Cümlə ilk baxışdan alman dilinə aid cümləyə bənzəyir. *Wann alman dilinə aid sual əvəzliyidir, ech* – alman dilində *ich* şəxs əvəzliyinin*, ginn* isə *gehe -getmək felinin şəklini dəyişmiş formasıdır. Eyni qayda aşağıdakı nümunələrə də şamil oluna bilər:*

*Wéi hues du de Concert fonnt? (Konsert necə idi?)*

*Wie findest du das Konzert [4]*

Nümunədən də göründüyü kimi iki dil arasında bənzərlik çoxdur. Bu da uzun müddət dil təması və dil keçidinə məruz qalan cəmiyyətin leksik transferlər edərək alman dilinin qrammatik strukturu bazasında yeni dili yaratmaları ilə nəticələnmişdir. *Leksik hibridləşmə, eyni zamanda leksik interferen*siya da adlandırıla bilər, təmasda olan dillərin struktur bənzərliyi və yaxud eyniliyi ilə xarakterizə oluna bilər. Bu baxımdan leksik interferensiya zamanı struktural və yaxud qeyri – struktural faktorlar nəzərə alınır. Belə ki, struktur interferensiya zamanı heç bir məna genişlənməsi baş vermir və alınan söz kiçik struktur və ya forma dəyişikliyi ilə digər təmas dilinə ötürülür. Leksik vahidlərin struktur interferensiyası zamanı 1) dilə təmas edən dildən uyğun söz və yaxud səs birbaşa ötürülür, yaxud da yerli söz uyğun ekvivalentlə - yeni sözlə əvəz olunduqdan sonra yeni məqsədlər üçün – fərqli məna ifadə etmək məqsədilə istifadə olunur. İlk struktur interferensiyasına nümunə kimi Vaynrayx alman dilində *Telephon* sözünü qeyd etmişdir. Qeyd olunan bu sözün alman dilində - *Fernsprecher kimi* qarşılığının olmasına baxmayaraq almanlar tərəfindən ingilis dilindən keçid edən *Telephon* sözü öz işləkliyini qoruyur. Digər qeyd olunan interferensiyaya isə fransız dilində işlənən *chose* sözünün saxlanılması və fərqli mənada (şey, şeylər) işlənməsidir [5: s. 64].

Qeyri-struktur interferensiya prosesi zamanı isə qəbul olunan dilin ictimai statusu və yaxud dəyəri, interferensiyaya tab gətirə bilməmək, ana dilə sədaqət, birdilli və yaxud ikidilli dil daşıyıcısı faktoru, faydalı və təsirli nitq, nitqdə mövcud olan hibrid leksik vahidlərin sıxlığı kimi amillər əsas götürülür. Xarici faktorlara eyni zamanda ikidilli şəxslərin fərdi keyfiyyətləri, dil təmasında ictimai – mədəni kontekst (burada ictimai dəyər, purizm kimi xüsusiyyətlər əsas rol oynayır), ünsiyyətin müddəti və zamanını misal göstərmək olar. Bu adətən üçüncü və yaxud ikinci dili öyrənən bir şəxsin dil bacarıqlarının qənaətbəxş olmaması və söz ehtiyatının azlığı zamanı müşahidə olunur.

Etimoloji perspektivdən yanaşılsa linqvistik hibridlər iki və daha çox söz tərkiblərinin birləşməsindən əmələ gəlir. McKnightın [6: s. 161] araşdırmalarında *remacadamizing* sözü aşağıdakı dillərin birləşməsindən yaranıb.

• re- Latin
• Mac - Selt
• Adam - İvrit
• -ize French < Latın < əsasən Yunan
• -ing - Alman/ İngilis

McKnightın misalı göstərir ki, etimoloji nöqteyi-nəzərdən hibridlər bir neçə mənbədən ibarət ola bilər. Misal üçün, fransız dilli normandlar adaları işğal etdikdən sonra bir neçə əsrlər boyu dil üzərində böyük təsir gücünə malik olublar [7: s.30-31]. Bu da roman dilinə mənsub çoxsaylı sözlərin dilə keçməsinə səbəb olmuşdur. Bu proses yeni sözlərin düzəlməsinə müxtəlif yollarla təsir etdi. Misal üçün "*doubletalk"* sözünü götürsək, *double* Fransız, *talk* isə German sözüdür. Bu, mürəkkəb sözdüzəldici xüsusiyyəti əks etdirir. Digər misala nəzər yetirək*, "besiege"* sözündə isə prefiksləşmə dil hadisəsi baş vermişdir *be* - alman dilindən, *siege* isə fransız dilindən keçib; *dislike* sözündə isə *dis* Roman dili, *like* isə German dilinin qarşılıqlı təsirindən yaranıb. Digər nümunədə isə suffiksləşmə hadisəsi baş verib. Bundan başqa *priesthood* sözü *priest* Latın dilindən, *hood* isə German dilindən alınıb.

Bir mühüm məqam xüsusi olaraq qeyd olunmalıdır ki, leksik alınmalar bilinqual mühitdə fonetik və qrammatik alınmalardan daha az məhdudiyyətlərə malik olur. Belə ki, bir dilin lüğət tərkibinin sabitliyi daha zəif olur. Vahid dilli mühitlərdə isə adətən bəzi leksik vahidlərin cəmiyyətin üzvləri tərəfindən tanınmamasına səbəb dildə baş verən ümumi və müxtəlif xarakterli innovasiyalarla birbaşa bağlı olmasıdır. Yeni xalqlar, məkan və fikirlərlə bağlı yenilikləri şərtləndirən ehtiyacın yaranma səbəbi budur ki, birbaşa beynəlmiləl leksik innovasiyalarla bağlıdır. Bir sıra fərqli ölkələrdən verilən nümunələrdən başqa qeyd olunan yeniliklərlə şərtlənən dəyişikliklər Azərbaycan dilində də tez-tez rast gəlinən hallardandır. Belə ki, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi Azərbaycan Dillər Universitetinin Elmi Xəbərlər Jurnalının 2023 – cü il 1 nömrəli sayında *personalilər* başlığı verilmişdir. *Person* ingilis dilindən şəxs, adam, *personalia* isə ingilis dilində bir şəxsə aid şəxsi məlumat və yaxud mülk mənasını verən və mənşəcə latın dilinə məxsus sözdür və ingilis dilinə keçmişdir. Qeyd olunan başlıqda isə hibrid söz olaraq *personali* sözünün sonuna qrammatik şəkilçi olan cəm şəkilçisi əlavə olunmuş və müəyyən tanınmış şəxslərin bioqrafiyasını özündə əks etdirən məqalələr toplusunu ifadə etmək məqsədilə işlənmişdir [8: s.193].

Nəticə olaraq diqqət yetirilməli olan əsas məqam budur ki, leksik hibridlər qrammatik hibridlərlə müqayisədə dil təmasından çox təsirlənir və təmas dillərin leksik tərkibinin dəyişməsinə və zənginləşməsinə təsir edir.

**Ədəbiyyat:**

1. Lado, R. (1957). Linguistics across cultures: Applied linguistics for language teachers. Ann Arbor: The University of Michigan

2. Odlin, T. (1989). Language transfer: cross-linguistic influence in language learning. Cambridge: Cambridge University Press.

3. Hannah Neuser, Source Language of lexical transfer in multilingual learner, A Mixed Method Approach, Stocholm University, Doctoral Thesis in English at Stockholm University, Sweden 2017. untitled (diva-portal.org) Luxembourgish - Wikipedia

4. U. Weinreich,1953, Languages in Contact, Finding and Problems, Mouton Publishers, The Hague, Paris, New York.

5. McKnight, George Harley, 1923, Words and their Background. New York: Appleton.
6. Crystal, David, 1995, The Cambridge Encyclopedia of the English Language. Cambridge: Cambridge University Press.
7. Wehrle, Otto, 1935, Die hybriden Wortbildungen des Mittelenglischen (1050–1400): Ein Beitrag zur englischen Wortgeschichte. Freiburg: Weis, M€uhlhans & R€apple.
8. Personalilər. Azərbaycan Dillər Universitetinin "Elmi Xəbərlər" jurnalı, Bakı, "Mütərcim" nəşriyyatı, 2023, №1, s.193.

# MÜASİR AZƏRBAYCAN TƏSVİRİ SƏNƏTİNDƏ ESXATOLOJİ İDEYALAR

**Məmmədova Samirə Mahir**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**
**https://orcid.org/0009-0007-9147-260X**
**mamedova.samira088@gmail.com**

# ESCHATOLOGICAL IDEAS IN MODERN AZERBAIJANI FINE ART

**Mammadova Samira Mahir**
**Azerbaijan State University of Culture and Arts**
**https://orcid.org/0009-0007-9147-260X**
**mamedova.samira088@gmail.com**

**Summary**

The article is dedicated to the theme of eschatology in the works of modern Azerbaijani painters. The topic of eschatology is considered to be one of the main themes of fine art. Military shocks, economic and environmental crises prove the correctness of the arguments about the approaching end of the world. Taking into account that art is directly related to the time of its creation, it is explained that it is necessary to look at the works of contemporary Azerbaijani creators and study the topic of eschatology, and pay attention to the paintings of Ali Verdiyev, Agaali Ibrahimov and Vugar Ali.

**Key words:** eschatology, hereafter, heaven, hell

# ЭСХАТОЛОГИЧЕСКИЕ ИДЕИ В СОВРЕМЕННОМ АЗЕРБАЙДЖАНСКОМ ИЗОБРАЗИТЕЛЬНОМ ИСКУССТВЕ

**Мамедова Самира Махир**
**Азербайджанский Государственный Университет Культуры и Искусств**
**https://orcid.org/0009-0007-9147-260X**
**mamedova.samira088@gmail.com**

**Резюме**

Статья посвящена теме эсхатологии в творчестве современных азербайджанских художников. Тема эсхатологии считается одной из главных тем изобразительного искусства. Военные потрясения, экономичес-

кий и экологический кризисы доказывают правильность рассуждений о приближающемся конце света. Принимая во внимание, что искусство напрямую связано со временем его создания, поясняется, что необходимо смотреть на произведения современных азербайджанских творцов и изучать тему эсхатологии, а также обратить внимание на картины Али Вердиева, Агаали Ибрагимова и Вугар Али. Изучая творчество азербайджанских художников, можно увидеть, что картины с религиозно-эсхатологическими сюжетами встречаются сравнительно редко. Однако существующие произведения привлекают большое внимание с точки зрения художественного решения. В этом докладе были проанализированы «Зов» Сакиты Мамедова, «Сур» Вугара Али, «Дорога в рай и ад» Али Вердиева и сделан общий вывод.

**Ключевые слова:** эсхатология, загробная жизнь, конец света, рай, ад

Müasir dünyada “esxatologiya” sözü tez-tez rast gəlinməsə də əslində bizim, demək olar ki, hər gün eşitdiyimiz kəlmə olan “dünyanın sonu”nu öyrənən elmi ifadə edir. Davam edən müharibələr, iqtisadi və ekoloji böhranlar mütəxəssisləri gələcəyin və bəşəriyyətin sonunun necə olacağına dair mülahizələr irəli sürməyə vadar edir. Ümumiyyətlə, bəşəriyyətin sonunu düşünmək insan övladına xas olan xüsusiyyətdir. Özünü təbiətin bir hissəsi kimi dərk etməyə başladığı andan homo sapiens necə və nə üçün yarandığını və sonunun necə olacağını fikirləşib. Sırf bu məsələlərə aydınlıq gətirmək üçün miflər, əfsanələr, dinlər və ən nəhayətində elm yaranıb. Dinlərin yaranması haqqında bir sıra nəzəriyyələr vardır ki, bunlardan biri də qorxu nəzəriyyəsidir. Məhz ölüm qarşısında olan qorxu, ölümdən sonra nələrin ola biləcəyi haqqında bilgisizlik bir sıra ideyaların yaranmasına və zamanla daha da inkişaf etməsinə gətirib çıxarır. Bu suala birmənalı cavabın tapılmaması esxatologiya mövzusunun aktuallığını bəşər övladının var olduğu müddətcə gündəmdə saxlayacaq.

Esxatologiya xarici rəssamların yaradıcılıqlarında tez-tez rast gəlinən mövzu olduğu kimi, Azərbaycan yaradıcılarının da fırçalarından yan keçməyib. Qərb incəsənətində dini sxolastikasının hökm sürdüyü orta əsrlərdə və həmçinin iqtisadi-siyasi gərginliyin üstünlük təşkil etdiyi keçid dönəmlərində bu mövzuya üstünlük verilib. Təsviri sənətin esxatoloji süjetləri dedikdə Qiyamət günü, qiyamətin carçıları (İsa Məsihin ikinci gəlişinin təsviri, xəbərverici mələklər), cənnət və cəhənnəm mövzularını nəzərdə tutmaq olar. Eyni dönəmlərdə İslam esxatologiyasını araşdırsaq, onun vizuallaşmış nümunələrini yalnız kitab miniatürlərində görə bilirik.

Müasir dövrümüzün boyakarlığında esxatoloji süjetli əsərlər nisbətən azlıq təşkil edir. Amma buna baxmayaraq mövcud olan rəsmlər kifayət qədər uğurlu sayıla bilər. Bunlardan Ağaəli İbrahimovun “Çağırış”, Sakit Məmmədovun “Dünyadan qovulanlar”, Vüqar Əlinin “Sur”, Əli Verdiyevin “Cənnət və Cəhənnəmə gedən yol və bir sıra digərlərini misal çəkə bilərik.

Dəyərli professor Ziyadxan Əliyevin Ağaəli İbrahimovun 75 illiyi münasibətilə yazdığı məqaləsində onu haqlı olaraq “rəng qatını fəlsəfi yükə bələyən rəssam” adlandırmışdır (1). Buna sübut kimi “Çağırış” adlandırdığı dini mövzulu əsərini təhlil edəndə olduqca maraqlı nəticələrə gəlib çıxırıq. Belə ki, bu əsər çox maraqlı bədii həlli ilə diqqətimizi çəkir. Aşağıdan yuxarıya doğru sarı rəng torpağı, tünd göy rəng suyu, çəhrayı, açıq yaşıl və açıq mavi ilə təsvir etdiyi bədii məkanı isə səma kimi mənalandırmaq olar. Qürub edən günəşin təsirindən səma çəhrayı rəngdə verilib və bu səmadan bir cüt qanayan əlin göyə doğru açıldığını görürük. Ondan aşağıda sağa doğru baxdıqda ağ rəngli mələyə bənzər varlığın da əllərini göyə qaldıraraq təsvir olunduğu nəzərə çarpır. Mərkəzdəki əllərin içinin qanaması bizə Həzrəti İsanın çarmıxa çəkildiyi anı xatırladır. Xristianlıqda dünyanın sonu apokalipsisdən sonra İsa Məsihin yer üzünə ikinci qayıdışı ilə başlayacağı bildirilir. Bu rəsmi ağ rənglə təsvir olunan mələyin sanki İsa peyğəmbərin yenidən yer üzərinə gəlməsi üçün yalvarması və Həzrəti İsanın qiyamət əmrinin verilməsinə az qaldığını xatırlatması üçün bir çağırış etməsi kimi dəyərləndirmək olar.

Vüqar Əlinin dini mövzulu əsərlərindən biri özünün “Sur” adlandırdığı triptixdir. “Sur” Quranda adı keçən qiyamətin gəlişinin məhz ona üfləməklə insanlara çatdırılacağı deyilən nəfəs alətidir. Belə ki, Zumər surəsinin 68 və 69-cu ayələrində yazılıb:

**39:68** Sur üfürüləcək və Allahın istədiyi kimsələrdən başqa göylərdə və yerdə kim varsa, hamısı öləcəkdir. Sonra bir daha ona üfürülən kimi onlar qalxıb baxacaqlar.

**39:69** Yer öz Rəbbinin nuru ilə işıqlanacaq, əməllər yazılmış kitab hər kəsin qarşısına qoyulacaq, peyğəmbərlər və şahidlər gətiriləcəkdir. Onların arasında ədalətlə hökm veriləcək və onlara haqsızlıq edilməyəcəkdir.

Biz hədislərə dayanaraq deyirik ki, qiyamətin carçısı, 4 müqərrəb mələkdən biri sayılan İsrafil olacaqdır. O, hazırda Allahdan əmr gözləyir. Hərçənd ki, xəbəri məhz İsrafil mələyin verəcəyi barədə Qurani-Kərimdə məlumat yoxdur.

Bu ayələrdən ilhamlanan Vüqar Əli “Sur” adlanan bu triptixdə hər zamankı kimi öz dəst-xəttinə sadiq qalaraq hətta qiyamət kimi qorxulu xəbəri pozitiv notlarda tamaşaçıya çatdırır. Simvolik elementlərlə zəngin olan bu triptixin hissələrini ayrı-ayrılıqda nəzərdən keçirdikdə görürük ki, triptixin sol tərəfində zərif qadın obrazında təsvir olunan varlıq əlində nar çubuğu tutaraq gözləməkdədir. Dəyərli professorumuz Telman İbrahimov balıq simvolunu araşdırarkən qədim zamanlardan bəri dünya xilaskarları ilə əlaqələndirildiyini bildirir (2). Bəlkə də elə buna görədir ki, Vüqar Əli balıq simvolunu bu hissədə yerləşdirmişdir. Bundan başqa dörd ünsürü özündə əks etdirən svastika da burada öz əksini tapır və bir tərəfdən yer üzü pisliklərini qara ləkə ilə göstərir, digər tərəfdən isə cənnət meyvəsi sayılan, həyat simvolu kimi dəyərləndirilən narın bütöv halda təsvirinə burada yer verir. Bunu simvolik olaraq belə başa düşmək olar ki, triptixin sol hissəsində xilaskarlarını gözləyən xeyirli-şərli çağdaş dünyamız təsvir olunub və tanrının əmrini gözləyən İsrafil mələk də bizimlə eyni zamanda yaşayır. Rəsm əsərinin mərkəzində və həmçinin sağ hissəsində yer alan həmin varlıq hər iki hissədə şeypura üfləyərək təsvir olunub. Bununla da mərkəzdəki birinci çağırışla bütün canlıların öləcəyi, sağ hissədəki ikinci çağırışla isə ölülərin dirilərək sonuncu məhkəməyə gedəcəkləri ideyası ötürülüb. Çox maraqlıdır ki, triptixin bütün hissələrində müxtəlif elementlərlə bəzədilən narlar var. Bunlardan xüsusilə sağ tərəfdə çəkilən narların üzərində həyat ağacı motivlərini ikinci çağırışın əbədiyyətə aparacağı kimi qiymətləndirmək olar.

İslamda axirət ölümdən sonra yaxşı əməl sahiblərinin cənnətə, pis əməl sahiblərinin isə cəhənnəmə gedəcəyi kimi izah olunub. Bunu İsra surəsinin 18-ci ayəsində görə bilərik.

İsra surəsi. 17:18 - Kim gəldi-gedər dünyanı istəsə, orada ona - dilədiyimiz kimsəyə istədiyimiz şeyləri dərhal verərik. Sonra isə onu qınanmış və Allahın rəhmətindən qovulmuş halda girəcəyi Cəhənnəmə atarıq.

Bu ayədən ilham alan Əli Verdiyev özünün “Cənnət və Cəhənnəmə gedən yol” adlı süjetli kompozisiyasında yaxşı əməl sahiblərinin işıqlı qapıdan içəri daxil olduğunu, pis əməl sahiblərinin isə alov içərisinə doğru aşağıya doğru atıldığını görə bilərik. Türkan Abbaslının Mədəniyyət.az jurnalında yazdığı bir elmi məqaləsində dediyi kimi - Mücərrəd saydığımız Cənnət və Cəhənnəmin vizual görkəminin tabloda gerçəkləşdirilməsinə görə bu əsərin ölçüyəgəlməz dərəcədə dini-mənəvi əhəmiyyəti vardır (1).

Nəticə olaraq onu qeyd etməliyik ki, esxatologiya mövzusu müasir dünyamızın müxtəlif sahələrində aktual olduğu kimi, təsviri sənətin də əsas mövzularından sayılır. Hərbi çaxnaşmalar, iqtisadi və ekoloji böhranlar dünyanın sonunun yaxınlaşdığını iddia edən mülahizələrin, həmçinin dini futuroloqların haqlı olduğuna dəlalət edir. İncəsənətin birbaşa olaraq yarandığı zamanla əlaqəli olduğunu nəzərə alaraq müasir dövr Azərbaycan yaradıcılarının əsərlərinə nəzər salıb esxatologiya mövzusunu araşdırmaqla Ağaəli İbrahimov, Vüqar Ali və Əli Verdiyevin bu mövzulu rəsmlərinə diqqətləri yönəltməyin lazım olduğu açıqlanır.

1. Ağaəli İbrahimov. Çağırış



2. Vüqar Ali. Sur



**Ədəbiyyat:**


1. Abbasova T. Əməkdar rəssam Əli Verdiyev yaradıcılığında süjetli kompozisiyaların bədii xüsusiyyətləri. Mədəniyyət.AZ, 2019.
2. https://www.academia.edu/98669218/NOVRUZ_BAYRAMINDA_BALIQ_D%C4%B0R%C3%87%C6%8FL%C4%B0%C5%9E%C4%B0N_RUZ%C4%B0_B%C6%8FR%C6%8FK%C6%8FT%C4%B0N_S%C4%B0MVOLUDU_N%C6%8F_%C3%9C%C3%87%C3%9CN_BALIQ_
3. https://medeniyyet.az/page/news/55914/.html

# İSTEDADLI ŞAGİRDLƏRİN ŞƏXSİYYƏTİNİN FORMALAŞMASINDA ÖZÜNÜQİYMƏTLƏNDİRMƏNİN ROLU

**Cəfərova Nahidə İbrahim**
**Azərbaycan Respublikasının Təhsil İnstitutu**
**https://orcid.org/0000-0001-7955-6957**
**nahide.ceferova@gmail.com**

# THE ROLE OF SELF-ASSESSMENT IN FORMATION OF TALENTED STUDENTS' PERSONALITY

**Jafarova Nahida İbrahim**
**Institute of Education of the Republic of Azerbaijan**
**https://orcid.org/0000-0001-7955-6957**
**nahide.ceferova@gmail.com**

**Summary**

First of all, the report mentioned the necessity of timely detection of talented students and the factors that determine the formation of their personality. Since talent is an important psychological phenomenon, the factors determining its formation are multifaceted. Such factors include self-esteem, too. Therefore, the role and importance of self-evaluation, which is important in this process, is analyzed in detail in the report. It is shown that when objective self-evaluation is formed according to age, talented students get the opportunity to effectively use their potential. Self-confidence, self-regulation, and self-improvement skills are formed in them. Of course, for the formation of self-esteem in talented students, it is necessary to provide them with pedagogical and psychological support. From this point of view, the analysis of interpersonal relations that determine the formation of self-evaluation is reflected in the report. Correct adjustment of interpersonal relations opens wide opportunities for creative activity in talented students.

**Keywords:** self-evaluation, potential opportunities, self-esteem consiousness, self-confidence, self-regulation

# РОЛЬ САМООЦЕНИВАНИЯ В ФОРМИРОВАНИИ ЛИЧНОСТИ ТАЛАНТЛИВЫХ УЧЕНИКОВ

**Джафарова Нахида Ибрагим**
**Институт Образования Азербайджанской Республики**
**https://orcid.org/0000-0001-7955-6957**
**nahide.ceferova@gmail.com**

**Резюме**

Прежде всего, в докладе отмечена необходимость проявления талантливых учеников, отмечены нюансы, обуславливаюшие формирование их личности. Талант-это психологический феномен и нюансы, обуславливаюшие его многогранность формирования. Среди таких нюансов занимает место и самооценка. Поэтому в таком процессе роль самооценки, имеюшая основное знацение, всесторонно разбирается в докладе.

Показано, что при формировании объективной самооценки по возрасту, талантливые ученики получают возможность эффективно использовать свой потенциал. В них формируется умение самонадеянности, саморегулирования, самосовершенствования. Естественно необходимо оказать педагогически-психологическую поддержку талантливым уценикам, чтобы они могли в себе сформировать самооценку. С этой точки зрения разбор формирования, обуславливающий межличностные отношения нашёл отражение в докладе. Правильное урегулирование межличностных отношений открывает широкие возможности для творческой деятельности у талантливых учеников.

**Ключевые слова:** Самооценка, потенциальные возможности, самосознание, самонадеянность, саморегулирование.

İstedadlı şagirdlərin aşkarlanması və onların şəxsiyyətinin formalaşdırılması müasir dövrdə təlim prosesinin qarşısında duran ən aktual və prioritet vəzifələrdən biridir. Çünki istedadlılar ölkənin gələcək inkişafının təminatçılarındandır. Ona görə də, görkəmli alim Ə.Əlizadənin dediyi kimi *"Qabiliyyət və istedad şəxsi məsələ deyil, milli sərvətdir. Onu göz bəbəyi kimi qorumaq, xalqa qaytarmaq valideynin də, tərbiyəçinin də, müəllimin də ən şərəfli missiyasıdır*" (Əlizadə, 2004).

İstər xarici ölkə, istərsə də, Azərbaycan alimlərinin tədqiqatları əsasında müəyyən olunmuşdur ki, istedadlı şagirdlərin şəxsiyyətinin formalaşması çoxcəhətli və mürəkkəb prosesdir. Bu prosesdə özünüqiymətləndirmə də mühüm əhəmiyyət kəsb edir. Respublikamızda istedadlı şagirdlərin şəxsiyyətinin inkişafı ilə əlaqədar araşdırmaların aparılmasına baxmayaraq, bu prosesdə özünüqiymətləndirmənin rolu kifayət qədər öyrənilməmişdir. Bu məqsədlə istedadlıların yeniyetməlik yaşı dövründə mənlik şüurunun inkişafı, onların özünüqiymətləndirməsinin öyrənilməsi tədqiqat işində geniş araşdırılmışdır.

Özünüqiymətləndirmə mənlik şüurunun inkişafı ilə əlaqədar olduğundan onun elementləri məktəbəqədər və kiçik məktəbli yaşı dövründə də təzahür edir. Yeniyetməlik yaşı dövründə isə artıq şagirdlər özlərinin fiziki, psixi və mənəvi keyfiyyətlərini, potensial imkanlarını və intellektual qabiliyyətlərini qiymətləndirmək imkanına yiyələnirlər. Lakin digər şagirdlər kimi istedadlılar da, bəzən bir çox amillərin təsiri ilə özünü düzgün qiymətləndirə bilmirlər. Belə amillərə aşağıdakıları aid etmək olar:

- Bioloji amillər: fərdi-psixoloji xüsusiyyətlər, temperament, xarakter tipləri;
- Sosial amillər: düzgün olmayan şəxsiyyətlərarası münasibətlər, ata-ananın uşağa laqeyd və aqressiv münasibəti, müəllimlərin şagirdlərə düzgün yanaşmaması, obyektiv ünsiyyət üslubunun seçilməməsi, yeniyetmələrin həmyaşıdları və sinif yoldaşları ilə münasibətlərində yaranan çətinliklər və s.

Əgər şagirdlər özünü adekvat qiymətləndirirsə onu daha da inkişaf etdirmək lazımdır. İlk növbədə şagirdin özünü qeyri-adekvat qiymətləndirməsini şərtləndirən amilləri müəyyənləşdirmək və aradan qaldırmaq lazımdır (Bayramov, Əlizadə 2002). Belə bir pedaqoji-psixoloji dəstək istedadlı şagirdlər üçün də zəruridir. Bu baxımdan istedadlı şagirdlərlə pedaqoji-psixoloji iş prosesində onların ailə tipləri, ailədaxili münasibətlərinin xüsusiyyətləri, ailədə ünsiyyət üslubu, şagirdin daxil olduğu sinif kollektivində şagirdin mövqeyi, onun müəllimlərlə, sinif yoldaşları və həmyaşıdlarla qarşılıqlı münasibətləri təhlil olunmalı və lazımi dəstək göstərilməlidir.

Özünüqiymətləndirmə müxtəlif metodların köməyi ilə öyrənilə bilər. Psixodiaqnostik testlərdən Dembo-Rubinşteynin özünüqiymətləndirmə testi (Azərbaycan Respublikasının Təhsil İnstitutu, 2020), N.Vişniyakovun Kreativliyin tədqiqi testlərindən istifadə etmək olar (Alıyev, Mirzəyev 2011). İstedadlılarla bu metodikaları işləyərkən istedadlılığı xarakterizə edən keyfiyyətlər qeyd olunmalıdır. Tədqiqat işində bunlar nəzərə alınmışdır.

Özünüqiymətləndirmə istedadlı şagirdlərin şəxsiyyətinin formalaşmasında mühüm rol oynayır. İstedadlı şagirdləri digər şagirdlərdən fərqləndirən mühüm cəhət istedadlılığı şərtləndirən potensial imkanları-

nın daha yüksək olmasıdır. Lakin onların özünüqiymətləndirməsi qeyri-adekvat olduğu halda, onlar öz potensial imkanlarını aşkarlayıb reallaşdıra bilmirlər. Bu da öz növbəsində istedadın parlamadan sönməsinə səbəb olur. Bunları nəzərə alaraq, ilk növbədə istedadlı şagirdlərdə adekvat özünüqiymətləndirməni inkişaf etdirmək lazımdır. Özünüqiymətləndirmə insanın özünün fiziki, psixi, mənəvi keyfiyyətlərinə, potensial imkanlarına və qabiliyyətlərinə verdiyi qiymətlərdir. Təbii ki, bu mühüm proses ilk növbədə insanın özünü tanıması, dərk etməsi, bir sözlə, mənlik şüurunun inkişafı ilə bilavasitə bağlıdır. Özünüqiymətləndirmənin adekvat formalaşması istedadlı şagirdlərin şəxsiyyətində mühüm keyfiyyət dəyişmələrinə səbəb olur. Onları aşağıdakı kimi qruplaşdırmaq olar:

- Öz bacarıqlarını daha yaxşı ayırmaq, onları inkişaf etdirmək imkanı əldə edirlər. Bu onların öz mövqeyini, üstün cəhətlərini və zəif tərəflərini daha yaxşı dərketmələrinə imkan yaradır;

- Onlarda özünəinam formalaşır. Onlar özünü inkişaf etdirmələri üçün hansı sahələrdə işləmələri, hansı bacarıqlarını formalaşdırmaları, hansı təcrübələri əldə etmələri haqqında düşünə bilirlər.

- Özünütənzimləmə bacarıqları. Özünütənzimləmə istedadlı şagirdlərə öz məqsədlərini və hədəflərini tənzimləməyi öyrədir. Bu da öz növbəsində onların məqsədlərinə nail olmaq üçün lazımi addımları planlaşdırmağa imkan yaradır.

- Özünə təminat və əminliyin artması. Özünüqiymətləndirmə sayəsində şagirdlər özünə daha çox əminlik hissi qazanır. Bu da onlarda rahatlıqla hər cür tərəfdaşlığa və sosial əlaqələr qurmağa imkan yaradır.

- Özünütəkmilləşdirmə. Özünütəkmilləşdirmə prosesi özünü daim inkişaf etdirmək və daha çox uğur qazanmaq üçün məqsədyönlü şəkildə lazım olan sahələri müəyyənləşdirməyə kömək edir.

- Müstəqillik. Obyektiv özünüqiymətləndirmə şagirdlərin öz həyat planlarını qurmağa və təhsil yolunu özləri seçmələrinə sövq edir. Eyni zamanda onların müstəqil və özünəməxsus fikirlərini, ideyalarını formalaşdırmağa kömək edir.

- Nəzarət və monitorinq. Özünüqiymətləndirmə prosesi şagirdləri özünün inkişafını nəzarətdə saxlamağa, məqsədlərini yaxından izləmək və lazım olduqda müvafiq düzəlişlər etməyə yönəldir.

Ümumiyyətlə, özünüqiymətləndirmə prosesi, istedadlı şagirdlərin öz fəaliyyətini daha yaxşı planlaşdırmağa, inkişaf etdirməyə, özünə inam yaratmağa kömək edir. Bu proses onların öz potensiallarını aşkarlamağa, daha çox reallaşdırmağa, öz məqsəd və hədəflərinə çatmalarına imkan yaradır.

**Ədəbiyyat:**

1. Alıyev, C,Q., Mirzəyev, R.N. (2011). İnsanı tanımağın yolları. https://www.academia.edu.

2. Bəylərov, E.B. (2008). İstedadın psixoloji diaqnostikası. Bakı: Aspoliqraf.

3. Bəylərov, E.B. (2008) Uşaqlarda istedadın müəyyənləşdirilməsi və inkişaf etdirilməsi. İstedadın işçi konsepsiyası. Bakı: Aspoliqraf.

4. Bayramov, Ə.S., Əlizadə, Ə.Ə. (2002). Psixologiya. Bakı: Maarif.

5. Əlizadə, Ə.Ə. ( 2005) İstedadlı uşaqlar: psixopedaqoji məsələlər, esselər, etüdlər. Bakı: ADPU, 352 s.

6. Əlizadə, Ə.Ə. (2004). Müasir Azərbaycan məktəbinin psixoloji problemləri. Bakı: Ozan, 432 s.

7. Əmrahlı, L.Ş. (2014). Psixoloji xidmət. III kitab . Psixodiaqnostika. Bakı: TİPİİ

8. Психология одаренности детей и подростков / Под ред. Н.С. Лейтеса. (1996) - Москва: Издательский центр «Академия»

9. Psixodiaqnostikanın həyata keçirilməsi modulu üçün testlərin stimul materialları. (2020). Azərbaycan Respublikasının Təhsil İnstitutu. https:// https://www.kvalifikasiya.edu.az/modullar/Psixodiaqnostikanin_Heyata_Kechirilmesi.pdf

10. Zeynalabdinova, Ə.X. (2003). Məktəbdə psixoloji xidmətin praktik məsələləri. Bakı.

11. Zeynalabdinova, Ə.X. (2007). İstedadlı uşaqlarla işin təşkili. Bakı: Mars-print.

## DIDACTIC DESIGN OF ENGINEER TRAINING IN HIGHER MILITARY EDUCATION INSTITUTIONS

**Dadashov Amil Seydemir**
**Institute of Education of the Republic of Azerbaijan**
**https://orcid.org/0000-0002-9379-0798**
**amilodas@gmail.com**

## ALİ HƏRBİ TƏHSİL MÜƏSSİSƏLƏRİNDƏ MÜHƏNDİS HAZIRLIĞININ DİDAKTİK LAYİHƏLƏNDİRİLMƏSİ

**Dadaşov Amil Seydəmir**
**Azərbaycan Respublikasının Təhsil İnstitutu**
**https://orcid.org/0000-0002-9379-0798**
**amilodas@gmail.com**

**Xülasə**

Tezisdə Azərbaycan nümunəsinə əsaslanaraq ali hərbi təhsil müəssisələrində mühəndis hazırlığı proqramlarının didaktik tərtibatı üzrə tədqiqat təqdim olunur. Bu tədqiqatın məqsədi Azərbaycanda ali hərbi təhsil müəssisələrində mühəndis kadrlarının hazırlanmasında tətbiq edilən pedaqoji strategiyaları və onların mühəndislik ixtisası üzrə məzunların silahlı qüvvələrin qarşısında duran vəzifələrə hazırlanmasında effektivliyini araşdırmaqdır.

Tədqiqat ilkin məlumat toplama metodları kimi müsahibələr, müşahidələr və sənədlərin təhlilindən istifadə edərək keyfiyyətli tədqiqat yanaşmasından istifadə edir.

Tədqiqat didaktik dizaynın müxtəlif aspektlərini, o cümlədən kurikulumun hazırlanması, təlim metodları, qiymətləndirmə strategiyaları, praktiki təlim və sahə təcrübələrinin inteqrasiyasını araşdırır. Bu elementlərin Azərbaycandakı hərbi kontekstin spesifik tələbləri ilə uzlaşdırılmasını araşdırır.

Bu tədqiqatın nəticələri ali hərbi təhsil müəssisələrində mühəndislərin təhsilində istifadə olunan didaktik dizayn prinsipləri və təcrübələrinin başa düşülməsinə kömək edəcəkdir. Bundan əlavə, tədqiqatın məqsədi Azərbaycanda mühəndis hazırlığı proqramlarının effektivliyinin artırılması, məzunların hərbi mühəndislik hazırlığı üçün tələb olunan zəruri bacarıq, bilik və səriştələrə malik olmasını təmin etmək üçün fikir və tövsiyələr verməkdir.

Bu tədqiqatın nəticələri mühəndislik təhsili və hərbi təlim proqramları ilə məşğul olanlar, hərbi müəllimlər və akademik qurumlar üçün maraqlı olacaq. Hazırki didaktik dizaynın güclü və zəif tərəflərini müəyyən etməklə, bu tədqiqat Azərbaycanın ali hərbi təhsil müəssisələrində mühəndis hazırlığının keyfiyyətini və aktuallığını artırmaq üçün kurikulumda və pedaqoji yanaşmalarda gələcək təkmilləşdirmələr barədə məlumat verməyə çalışır.

**Açar sözlər:** Didaktik dizayn, mühəndis hazırlığı, hərbi təhsil, kurikulumun hazırlanması, tədris metodları.

## ДИДАКТИЧЕСКОЕ ПРОЕКТИРОВАНИЕ ИНЖЕНЕРНОЙ ПОДГОТОВКИ В ВЫСШИХ ВОЕННЫХ УЧЕБНЫХ ЗАВЕДЕНИЯХ

**Дадашов Амиль Сейдамир**
**Институт Образования Азербайджанской Республики**
**https://orcid.org/0000-0002-9379-0798**
**amilodas@gmail.com**

**Резюме**

В данном реферате представлено исследование дидактического дизайна программ подготовки инженеров в высших военных учебных заведениях на примере Азербайджана. Целью данного исследования является изучение педагогических стратегий, используемых при подготовке инженеров в высших военных учебных заведениях Азербайджана, и их эффективность в подготовке выпускников инженерных специальностей к задачам вооруженных сил.

В исследовании используется подход качественного исследования с использованием интервью, наблюдений и анализа документов в качестве основных методов сбора данных. В число участников исследования входят преподаватели, студенты инженерных специальностей и военные специалисты, участвующие в процессах обучения и набора. Собранные данные будут проанализированы посредством тематического анализа для выявления ключевых тем и закономерностей.

В исследовании исследуются различные аспекты дидактического дизайна, включая разработку учебных программ, методы обучения, стратегии оценки и интеграцию практического обучения и практического опыта. В нем исследуется соответствие этих элементов конкретным требованиям и запросам военного контекста в Азербайджане.

Результаты этого исследования будут способствовать пониманию принципов и методов дидактического проектирования, используемых при обучении инженеров в военных высших учебных заведениях. Кроме того, исследование направлено на предоставление информации и рекомендаций по повышению эффективности программ подготовки инженеров в Азербайджане, гарантируя, что выпускники обладают необходимыми навыками, знаниями и компетенциями, необходимыми для военно-инженерных должностей.

Результаты этого исследования будут интересны политикам, военным педагогам и академическим учреждениям, занимающимся программами инженерного образования и военной подготовки. Выявляя сильные и слабые стороны текущего дидактического дизайна, это исследование направлено на информирование о будущих улучшениях в учебной программе и педагогических подходах для повышения качества и актуальности инженерной подготовки в высших военных учебных заведениях Азербайджана.

**Ключевые слова:** Дидактический дизайн, инженерная подготовка, военное образование, разработка учебных программ, методика обучения.

In military operations, engineers play a critical role in providing technical expertise, construction, and infrastructure support. As such, the training of engineers in higher military education institutions is of utmost importance to ensure the preparedness and effectiveness of armed forces. This study focuses on the didactic design of engineer training programs in higher military education institutions in Azerbaijan.

The aim of this thesis is to examine and evaluate the didactic design of engineer training programs in higher military education institutions in Azerbaijan. It aims to assess the effectiveness of the current pedagogical strategies and provide recommendations for enhancing the training of engineers for military roles.

The purpose of this thesis is to contribute to the understanding of how engineer training is conducted in higher military education institutions, specifically in the context of Azerbaijan. By analyzing the didactic design, the study aims to identify strengths and weaknesses in the current approach and propose improvements to better align with the requirements and demands of the armed forces.

**Thesis Objectives:**

- To examine the curriculum development process for engineer training programs in higher military education institutions in Azerbaijan.
- To analyze the instructional methods employed in the training of engineers and their suitability for military contexts.
- To assess the assessment strategies used to evaluate the knowledge and skills of engineering students in military education institutions.

- To investigate the integration of practical training and field experiences in engineer training programs.
- To provide recommendations for enhancing the didactic design of engineer training programs in higher military education institutions in Azerbaijan.

**Thesis Question:** *What is the current didactic design of engineer training programs in higher military education institutions in Azerbaijan, and how can it be improved to better prepare engineering graduates for military roles?*

This thesis focuses specifically on the didactic design of engineer training programs in higher military education institutions in Azerbaijan. It does not cover other aspects such as recruitment processes or broader military training strategies. Additionally, the study's findings and recommendations may be specific to the context of Azerbaijan and may not be directly applicable to other countries or regions.

Higher military education institutions play a vital role in the education and training of military personnel, including engineers. These institutions are responsible for equipping engineering students with the necessary knowledge, skills, and competencies to address the unique challenges they may encounter in the armed forces. The didactic design of engineer training programs determines the curriculum, instructional methods, assessment strategies, and practical training components essential for producing competent engineers in the military context. Understanding and improving this design is crucial for enhancing the quality and relevance of engineer training programs in higher military education institutions (Hamidov, Hashimov, and Talibov, 2015).

*Curriculum Development:*

The first aspect to be examined in the didactic design of engineer training programs is curriculum development. This involves the selection and organization of courses, topics, and learning outcomes that are essential for preparing engineering graduates for military roles (Piriyev, Hashimov, and Hasanov, 2016). The study will investigate how the curriculum is designed, taking into account the specific needs and requirements of the armed forces in Azerbaijan. It will assess the inclusion of foundational engineering principles, specialized military engineering subjects, and interdisciplinary knowledge areas relevant to military operations.

*Instructional Methods:*

The study will analyze the instructional methods employed in engineer training programs. This includes examining the teaching approaches, pedagogical techniques, and learning environments utilized in classrooms, laboratories, and field settings. The effectiveness of these methods in facilitating the acquisition of theoretical knowledge, practical skills, and problem-solving abilities will be evaluated (Agayev, Talibov, and Hashimov, 2016a). The research will also explore the extent to which active learning, experiential learning, and collaborative learning approaches are incorporated to enhance student engagement and application of knowledge (Agayev, Talibov, and Hashimov, 2016b).

*Assessment Strategies:*

Assessment strategies play a crucial role in evaluating the knowledge and skills of engineering students. The study will examine the assessment methods used in engineer training programs, such as exams, projects, presentations, and practical evaluations. It will assess the alignment between the assessments and the intended learning outcomes to determine whether they effectively measure the students' competence in military engineering (Piriyev, Hamidov, and Hashimov, 2017). Additionally, the research will explore the incorporation of formative assessments and feedback mechanisms to support students' continuous improvement throughout their training.

*Integration of Practical Training and Field Experiences:*

Military engineering requires practical skills and the ability to operate in real-world environments. Therefore, the study will investigate the integration of practical training and field experiences within engineer training programs. This includes evaluating the opportunities provided for students to engage in hands-on activities, simulations, and field exercises that simulate real military scenarios (Piriyev and Valehov, 2017). The research will assess the effectiveness of these practical components in bridging the gap between theoretical knowledge and its practical application in military operations.

*Recommendations for Enhancement:*

Based on the findings, the study will provide recommendations for enhancing the didactic design of engineer training programs in higher military education institutions in Azerbaijan. These recommendations may include suggestions for curriculum refinement, adoption of innovative instructional methods, improvement of assessment strategies, and the establishment of stronger connections between academic training and practical military applications. The aim is to ensure that the engineer training programs equip graduates with the necessary skills, knowledge, and competencies to meet the evolving challenges faced by the armed forces.

**References:**


1. Agayev, S.O., Talibov, A.M. and Hashimov, E.G. (2016a). Modern pedagogical technologies in military education. Textbook. Part I // - Baku: Military Publishing House, 152.
2. Agayev, S.O., Talibov, A.M. and Hashimov, E.G. (2016b). Modern pedagogical technologies in military education. Subject program // - Baku: Military publishing house, 28.
3. Hamidov, M.P., Hashimov, E.G. and Talibov A.M. (2015). Instruction on the training of scientific and scientific-pedagogical personnel in the Armed Forces of the Republic of Azerbaijan // - Baku: Military publishing house, 32.
4. Piriyev, H.K., Hashimov, E.G. and Hasanov, A.H. (2016). Provide interactive training methods. Methodological materials // - Baku: Military publishing house, 33.
5. Piriyev, H.K., Hamidov, M.P. and Hashimov, E.G. (2017). Training methods in military education. Methodological materials // - Baku: Military publishing house, 52.
6. Piriyev, H.K. and Valehov, S.N. (2017). Interactive learning methods in education. Case study method. Methodological materials // - Baku: Military publishing house, 32.

# ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNDƏ EFFEKTİVLİK NAMİNƏ PEDAQOJİ KOLLEKTİVİN MOTİVASİYASININ İNKİŞAFI

**Qarayeva Röya Taleh**
**Azərbaycan Respublikasının Təhsil İnstitutu**
**https://orcid.org/0000-0001-8944-3788**
**royagarayeva@gmail.com**

# DEVELOPMENT OF THE MOTIVATION OF THE PEDAGOGICAL COLLECTIVE FOR EFFECTIVENESS IN HIGHER EDUCATION INSTITUTIONS

**Garayeva Roya Taleh**
**Institute of Education of the Republic of Azerbaijan**
**https://orcid.org/0000-0001-8944-3788**
**royagarayeva@gmail.com**

**Summary**

The main purpose of this report is to help improve the performance of key staff in higher education institutions. The way to effectively manage a person is to understand his motivation. Knowing what motivates employees, what motivates them to act and what their motives are, creates the opportunity to use effective forms and methods of management based on the behavior and actions of employees. To do this, it is important to find out how the main motives are created or what these motives lead to, how and by what methods they can be realized, how to increase people's interest in work. Motivating employees in higher education institutions is very important to create a positive work environment and improve the overall quality of education. In this regard, the report first emphasized the importance of motivation and then explored how motivation can be developed among higher education institutions and the results it can bring.

**Key words:** higher education institutions, personnel, efficiency, motivation, quality.

# РАЗВИТИЕ МОТИВАЦИИ ПЕДАГОГИЧЕСКИХ КАДРОВ К ЭФФЕКТИВНОМУ УПРАВЛЕНИЮ ВЫСШИМ ОБРАЗОВАТЕЛЬНЫМ УЧРЕЖДЕНИЕМ

**Гараева Роя Талех**
**Образовательный Институт Азербайджанской Республики**
**https://orcid.org/0000-0001-8944-3788**
**royagarayeva@gmail.com**

**Резюме**

Основная цель данного отчета – способствовать повышению эффективности работы основного персонала высших учебных заведений. Путь к эффективному управлению человеком – понять его мотивацию. Знание того, что мотивирует сотрудников, что побуждает их действовать и каковы мотивы, создает возможность использовать эффективные формы и методы управления, основанные на поведении и действиях сотрудников. Для этого важно узнать, как создаются основные мотивы или к чему приводят эти мотивы, как и какими методами их можно реализовать, как повысить интерес людей к труду. Мотивация сотрудников высших учебных заведений очень важна для создания позитивной рабочей среды и повышения общего качества образования. В связи с этим в докладе сначала подчеркивалась важность мотивации, а затем

исследовались пути развития мотивации у профессорско-преподавательского состава высших учебных заведений и результаты, которые она может принести.

**Ключевые слова:** высшие учебные заведения, кадры, эффективность, мотивация, качество.

Motivasiya, məqsədə çatmaq üçün insanı hərəkətə gətirmək prosesidir (Qrişagin,V.M. 2014). Bu gün qloballaşan və durmadan inkişaf edən texnologiyaların yaratdığı imkanlarla birgə, həmçinin stress və gərginliklə dolu olan iş dünyası mühitində işçi qüvvəsinin səmərəliliyini artırmaq və ya iş əmsalının aşağı düşməsinin qarşısını almaq naminə motivasiyaya önəm vermək qaçılmazdır. Motivasiyanın daha təkmil və mürəkkəb formaları müasir cəmiyyətin həyatında müxtəlif sahələrin qaçılmaz və ayrılmaz hissəsinə çevrilmişdir. Ali təhsil müəssisələrində əmək motivasiyası mövzusunu xüsusilə aktuallaşdıran səbəb isə çağdaş dünyamızda mövcud xidmət sektorunun inkişaf vəziyyətidir **(**Mariam Kuçava., Prof. Qoderzi Buçaşvili, 2016, oktyabr). Günümüzdə ali təhsil müəssisələrinin işçiləri həyati vacib "istehsal faktorları"dır. Belə ki, ali təhsil müəssisələrinin əməkdaşlarının - müəllimlərin, elmi işçilərin, eləcə də menecerlərin işinin səmərəli təşkili ali təhsildə tələbələrin keyfiyyətli təhsil almalarına əhəmiyyətli təsir göstərir. Ali təhsil müəssisələrinin missiyası bütün tələbələri yüksək keyfiyyətli təhsillə təmin etməkdir. Ali təhsil müəssisələrinin işçi heyəti tədris prosesini idarə edir və tələbələrlə daim aktiv ünsiyyətdə olurlar. Buna görə də, onların iş motivasiyası bu interfeysin keyfiyyətini müəyyən etmək üçün çox vacibdir.

Ali təhsil müəssisələri daxilində menecerlərin rolu təşkilatın hədəf və məqsədlərini müəyyən etmək və onların yerinə yetirilməsi strategiyalarını hazırlamaqdan ibarətdir. (Corc Qabriel K. 2015). Buna görə də, motivasiya ali təhsil müəssisəsinin menecerləri üçün əsas prioritetlərdən biri olmalıdır. Təşkilatçılıq fəaliyyətinin yaxşılaşdırılması naminə hazırda ali təhsil müəssisələrinin işçilərinin motivasiyası üçün strategiyaların işlənib hazırlanması təşkilati idarəetmənin əsas məqsədinə çevrilir. Ali təhsildə işçilərin motivasiyasını artırmaq üçün aşağıdakı strategiyaları nümunə göstərmək olar:

- *Tanıma və qiymətləndirmə:* İşçi heyətinin səylərinin və nailiyyətlərinin tanınması və qiymətləndirilməsi. İstər işçilərlə görüşlərdə, istər pedaqoji yığıncaqlarda, istərsə də sosial media vasitəsilə onların uğurlarının açıq şəkildə etiraf edilməsi və qiymət verilməsi, hətta bəzən bəlkə də sadə bir "təşəkkür" və ya "minnətdarlıq" qeydi motivasiyanı yüksəltmək üçün uzun bir yolun başlanğıcı ola bilər.
- *Peşəkar inkişaf imkanları:* Peşəkar inkişaf proqramları, seminarlar, konfranslar və təlim sessiyaları vasitəsilə işçi heyətin bilik və bacarıqlarını artırmaq üçün imkanların təmin edilməsi onları nəinki həvəsləndirir, həm də işdən məmnunluqlarını və performanslarını artırır (Levis, P. S., Qudman, S. H., Fandt, P. M. 1995).
- *Aydın ünsiyyət:* İşçi heyətini institusional məqsədlər, qərarlar və dəyişikliklər haqqında məlumatlandırmaq üçün açıq və şəffaf kommunikasiya kanallarının yaradılması, heyətin özlərini dəyərli hiss etmələrinə gətirib çıxaracaqdır və onlar qərar qəbul etmə prosesində iştirak edərək, rəy və təkliflərini hazırlayaraq daha çox təşviq olunacaqlar.
- *İş-həyat balansı*: Məsafədən iş variantları, azaldılmış saatlar və ya həftə içi yarım və ya bir günlük istirahətlər, çevik iş qrafiki tənzimləmələri təklif edərək sağlam iş-həyat balansının təşviqi işçi heyətin yüklənməsinin və ya yorğunluqdan tükənməsinin qarşısını almaq və rifahını qorumaq üçün mütləq səmərəli çıxış yolu olacaqdır.
- *Əməkdaşlıq və inklüziv mühit:* İşçi heyətin öz fikirlərini, düşüncələrini və narahatlıqlarını bölüşməkdə rahat hiss etdikləri inklüziv iş mühitinin inkişafı komanda işini, əməkdaşlığı və qərar qəbuletmə proseslərində iştirakı inkişaf etdirəcəkdir.

- *Fəaliyyətin tanınması və yüksəlmə imkanları*: İşçilərin müstəsna fəaliyyətinə və nailiyyətlərinə görə mükafatlandıran “performansın tanınması sistemi”nin tətbiqi təşkilat daxilində yüksəliş, məhsuldarlıq və ya xüsusi layihələr kimi inkişaf və irəliləyiş üçün imkanlar təmin edəcəkdir.
- *Yaxşı dizayn edilmiş iş yerləri və resurslar:* İşçilərə öz vəzifələrini səmərəli şəkildə yerinə yetirmək üçün yaxşı dizayn edilmiş iş yerləri, müasir texnologiya və lazımi resurslarla təchizli iş mühitinin təminatı motivasiya və məhsuldarlığa müsbət təsir göstərəcəkdir.
- *İşçilərin sağlamlığı proqramları:* Fiziki, əqli və emosional rifaha diqqət yetirən sağlamlıq proqramlarının həyata keçirilməsi, fitnes proqramları, stressin idarə edilməsi üzrə seminarlar, məsləhət xidmətləri və s. kimi təşəbbüslərin təklifi özgüvən və iş yerinə sədaqətin inkişafına kömək edəcəkdir.
- *Nailiyyətlərin qeyd edilməsi*: Fərdi və komanda nailiyyətlərinin, xüsusi halların, bayramların qeyd edilməsi tədbirləri, mükafatlandırma mərasimləri və ya ictimai toplantılar əhval-ruhiyyəni artıracaq və müsbət iş atmosferi yaradacaqdır.

Hər bir ali təhsil müəssisəsinin idarə edilməsinin səmərəliliyi onun işçi heyətinin motivasiyasından çox asılıdır. Xüsusilə diqqət yetirmək lazımdır ki, müxtəlif fərdlər müxtəlif amillər tərəfindən motivasiya olunur, buna görə də motivasiya strategiyalarını işçilərin xüsusi ehtiyaclarına və üstünlüklərinə uyğunlaşdırmaq labüddür. Ali təhsil müəssisələrində dayanıqlı təkmilləşməni və davamlı motivasiyanı təmin etmək üçün bu strategiyaları mütəmadi olaraq həyata keçirmək gərəklidir.

Tədqiqat göstərir ki, işçilərə verilən xarici motivasiya (məsələn, əmək haqqının artırılması) onlar tərəfindən yüksək qiymətləndirilsə də, ali təhsil müəssisələrində kadrların həvəsləndirilməsinin ən təsirli yolu deyil. (Stupnisky, R. H. 2018, aprel). Tanınma və qiymətləndirmə ali təhsil müəssisəsinin işçi heyətinin mütləq əksəriyyəti üçün motivasiyanın ən mühüm amilləri kimi görünür.

**Ədəbiyyat:**

1. Corc Qabriel K. (2015, may). *Ali təhsildə motivasiya və performans.* Procedia - Sosial və Davranış Elmləri 180:468-476 DOI:10.1016/j.sbspro.

2. Qrişagin, V.M. (2014). *Sosial məsuliyyət üçün təlimatlar.* Tomsk Politexnik Universitetinin Yurqa Texnoloji İnstitutunun (filialının) nəşriyyatı

3. Mariam Kuçava., Prof. Qoderzi Buçaşvilli (2016, oktyabr). *Özəl və dövlət ali təhsil müəssisələrində kadrların motivasiyası.* Beynəlxalq Qara Dəniz Universiteti, Soxumi Dövlət Universiteti və Akaki Tsereteli Dövlət Universiteti üzrə araşdırma. Təhsil və Sosial Siyasət jurnalı, 3-cü cild, 4-cü buraxılış

4. Levis, P.S., Qudman, S.H., Fandt, P.M. (1995). *Menecment: 21-ci əsrin çağırışları.* Nyu York Qərb Nəşriyyat Şirkəti

5. Stupnisky, R.H. (2018, aprel). *Universitet müəllim heyətinin motivasiya və emosiyaları: Tədris və tədqiqat performansının, stresin və rifahın proqnozlaşdırılması.* Nyu Yorkda Amerika Təhsil Tədqiqatları Assosiasiyasının (AERA) Konfransının Təhsildə Motivasiya Xüsusi Maraq kimi Qrupunda simpozium.

## KİÇİKYAŞLI MƏKTƏBLİLƏRİN TƏFƏKKÜR MÜSTƏQİLLİYİNİN TƏLİM NƏTİCƏLƏRİNƏ TƏSİRİ

**Səmədova Sevinc Raqub**
**Azərbaycan Respublikasının Təhsil İnstitutu**
**https://orcid.org/0000-0002-0687-6412**
**sevinc.samedova.1988@mail.ru**

## THE EFFECT OF THE INDEPENDENCE OF THINKING OF YOUNG SCHOOLCHILDREN ON THE LEARNING OUTCOMES

**Samadova Sevinj Ragub**
**Institute of Education of the Republic of Azerbaijan**
**https://orcid.org/0000-0002-0687-6412**
**sevinc.samedova.1988@mail.ru**

**Summary**

Modern society requires people who are able to independently solve the issues facing them, as well as creatively approach their work, that is, who are able to not only passively perceive changes in society, but also actively participate in them. All this requires changing the content of education, the function of learning. The main place is given to primary contacts, because the development of students' needs, abilities, inclinations and interests begins at the elementary school age. Primary school age is called the peak of childhood. In the modern modernization of mental development, it covers the period from 6-7 years to 9-11 years. At this age, a change in image and lifestyle occurs: new requirements, a new social role of the student, a fundamentally new type of activity - educational activity. At school, he acquires not only new knowledge and skills, but also a certain social status. A person's perception of his place in the system of relations changes. The child's interests, values, his whole lifestyle changes; active processes of comprehensive mental development begin, which is reflected in the formation of all personal areas, including individual components of cognition. Thinking is given a special role, because in this period it creates the basis for further development.

Based on these and other questions, the article analyzes how improving the mental activity of young schoolchildren affects the success of their education in terms of psychological, pedagogical and neuropsychological processes, and the important role of all these arguments in the mental development and nature of thinking of young schoolchildren.

**Key words**: Young schoolchildren, mental activity, development of thinking, visual-image thinking, verbal-logical thinking**.**

## ВЛИЯНИЕ САМОСТОЯТЕЛЬНОСТИ МЫШЛЕНИЯ МЛАДШИХ ШКОЛЬНИКОВ НА РЕЗУЛЬТАТЫ ОБУЧЕНИЯ

**Самадова Севиндж Рагуб**
**Образовательный институт Азербайджанской Республики**
**https://orcid.org/0000-0002-0687-6412**
**sevinc.samedova.1988@mail.ru**

**Резюме**

Современному обществу требуются люди, способные самостоятельно решать стоящие перед ними вопросы, а также творчески подходить к своей работе, то есть способные не только пассивно воспринимать изменения в обществе, но и активно участвовать в них. Все это требует изменения содержания образования, функции обучения. Основное место отводится первичным контактам, так как развитие потребностей, способностей, склонностей и интересов учащихся начинается в младшем школьном возрасте. Младший школьный возраст называют пиком детства. В современной модернизации психического развития он охватывает период с 6-7 лет до 9-11 лет. В этом возрасте происходит изменение образа и образа жизни: новые требования, новая социальная роль учащегося, принципиально новый вид деятельности - учебная деятельность. В школе он приобретает не только новые знания и навыки, но и определенный социальный статус. Меняется восприятие человеком своего места в системе отношений. Меняются интересы, ценности ребенка, весь его образ жизни; начинаются активные процессы всестороннего психического развития, что находит отражение в формировании всех личностных сфер, в том числе отдельных компонентов познания. Мышлению отводится особая роль, поскольку в этот период оно создает основу для дальнейшего развития.

На основе этих и других вопросов в статье анализируется, как совершенствование мыслительной деятельности младших школьников влияет на успешность их обучения с точки зрения психолого-педагогических и нервно-психических процессов, а также важная роль всех этих аргументов в психическом развитии и характере мышления младших школьников.

**Ключевые слова:** Младшие школьники, умственная деятельность, развитие мышления, наглядно-образное мышление, словесно-логическое мышление.

Müasir cəmiyyət qarşısında duran məsələləri müstəqil həll etməyi bacaran, eləcə də işinə yaradıcılıqla yanaşan, yəni cəmiyyətdə baş verən dəyişiklikləri nəinki passiv qavramağı, həm də onlarda fəal iştirak etməyi bacaran insanlar tələb edir. Bütün bunlar təhsilin məzmununun, öyrənmə funksiyasının dəyişdirilməsini tələb edir. Əsas yer isə ilkin təmaslara verilir, çünki şagirdlərin ehtiyaclarının, qabiliyyətlərinin, meyillərinin və maraqlarının inkişafı ibtidai məktəb yaşından başlayır.

İbtidai məktəb yaşı uşaqlığın zirvəsi adlanır. Zehni inkişafın müasir dövrləşdirilməsində 6-7 yaşdan 9-11 yaşa qədər olan dövrü əhatə edir. Bu yaşda şagirdlərin imic və həyat tərzində yeni tələblər, yeni sosial rol, prinsipcə yeni fəaliyyət növü olan təhsil fəaliyyəti kimi bir sıra dəyişikliklər baş verir. Məktəbdə o, təkcə yeni bilik və bacarıqlara deyil, həm də müəyyən sosial statusa yiyələnir. Münasibətlər sistemində isə insanın öz yeri haqqında təsəvvürü, uşağın maraqları, dəyərləri, onun bütün həyat tərzi dəyişir; hərtərəfli psixi inkişafın aktiv prosesləri başlayır ki, bu da bütün şəxsi sahələrin, o cümlədən, idrakın fərdi komponentlərinin formalaşmasında əks olunur. Təfəkkürə xüsusi rol verilir, çünki bu dövrdə o, gələcək inkişaf üçün əsas yaradır.

İbtidai sinif şagirdlərinin qarşılaşdıqları bir neçə tip çətinlik vardır ki, onlardan biri də ibtidai məktəb yaşı dövründə şagirdin təlim fəaliyyətində baş verir. Belə ki, təlim mürəkkəbləşir, uşaq onun öhdəsindən gələ bilmir. Belə halların qarşısını almaq üçün uşağın əqli fəaliyyətini daim fəallaşdırmaq, onu mürəkkəb intellektual məsələlərin həllinə alışdırmaq lazımdır. Burada əsas öhdəlik pedaqoqun üzərinə düşsə də valideynlərin rolu danılmazdır. Əgər uşaqlarımızın təfəkkürünü inkişaf etdirmək üçün yalnız məktəbə güvəniriksə, onda uşaqların düzgün düşünməyi öyrənmə şansı məntiqlə çox azdır (Вадимовна, 2017). Bu və digər məsələlərə əsaslanaraq məqalədə kiçikyaşlı məktəblilərin zehni fəaliyyətinin təkmilləşdirilməsinin psixoloji, pedaqoji və neyropsixoloji proseslər baxımından onların təhsilinin uğuruna necə təsir etdiyi və bütün bu sadalananların kiçikyaşlı məktəblilərin əqli inkişafında, təfəkkür təbiətində mühüm rolu təhlil edilir.

Bu tədqiqatın əsas məqsədi pedaqoqun müvafiq yaş dövründə şagirdləri keyfiyyətcə üstün olan yeni biliklərə aparıb çıxaran, onlarda tədqiqatçılıq qabiliyyəti və yaradıcı təfəkkürün inkişaf etməsi üçün düşündürücü fəaliyyəti təşkil etməkdən asılıdır. O, həmçinin dərs metodikasını elə qurmalıdır ki, şagird yeni

bilikləri mənimsəyərkən və onları təcrübədə tətbiq edərkən yaradıcılıq fəaliyyətini nümayiş etdirmə potensialına malik olsun. Sadalanan faktorların nəzərə alınması ilə yaradılacaq metodika bu istiqamətdə inkişaf edən ibtidai sinif müəllimlərinə, praktik psixoloqlara, bu sahəni tədqiq edən tədqiqatçılara kiçikyaşlı məktəblilərin təlim prosesindəki çətinliklərinin aradan qaldırılması işinə yardımçı ola bilər (Məmmədova S., 2019).

Şagirdlər məktəbdə adekvat dəstək və müvəffəqiyyət hiss edirlərsə, bu, onların özünə hörmətini və emosional sağlamlığını yaxşılaşdırır. Kiçikyaşlı məktəblilərin zehni inkişafı təkcə intellektual sahədə deyil, həm də idrak maraqlarında, şagirdlərin öyrənməyə münasibətində özünü göstərir. Məktəblilər zehni inkişaflarının göstəriciləri olan tədris və məktəbdənkənar fəaliyyətlərdə məntiqi texnika və əməliyyatlardan istifadə edərək, onları seçməyi bacarmalı, öyrənilmiş texnika və hərəkətlərin ötürülməsindən istifadə edərək verilmiş materialı mənimsəməlidir (Козубовский, 2008). Buna daha çox məhsuldar fəaliyyət kömək edir ki, bu da təfəkkürün aktiv işi ilə əlaqələndirilir və təhlil, sintez, müqayisə, ümumiləşdirmə kimi zehni üsullarda ifadəsini tapır (Евтухова, 2023). Anlayışlar, mühakimələr, nəticələr şəklində xarakterizə olunan zehni üsullar məntiqi təfəkkür əməliyyatlarının ayrılmaz tərkib hissəsi hesab olunur. Bu yaşda təfəkkürün hər üç forması inkişaf edir ki, bu, anlayış, mühakimə və nəticədir. Uşaqlarda elmi anlayışların mənimsənilməsi öyrənmə prosesində həyata keçirilir; uşağın mühakimələrinin inkişafında biliyin genişlənməsi və həqiqət üçün düşüncə tərzinin inkişafı mühüm rol oynayır; mühakimə o dərəcədə nəticəyə çevrilir ki, uşaq düşünə biləni faktiki olandan ayıraraq öz fikrini fərziyyə, yəni hələ də yoxlanılması lazım olan bir təklif kimi qəbul etməyə başlayır.

Məlumdur ki, kiçikyaşlı məktəblilərdə təfəkkürün analitik tipi, yuxarı sinif şagirdləri arasında isə sintetik növü üstünlük təşkil edir (Волков, 2002). Bunlardan ən əlverişlisi analitik-sintetik növdür ki, onun mənası düşünülən hadisəni anlamaq cəhdidir və onun strukturuna detallı qiymət verilməsindən ibarətdir. Təfəkkür prosesinin keyfiyyəti hadisənin formalaşması prosesinə təsir edir və anlayışların formalaşmasının əsasını (bazasını) təşkil edir. Buna görə təfəkkür prosesi uşağın psixi inkişafında böyük rol oynayır və onun yaddaşının inkişafı ilə sıx əlaqəlidir. Psixoloqların bu sahədə apardıqları tədqiqatlar (L.V.Zankov, V.V.Davıdov, A.M.Matyuşkin, Q.A.Ponomoryov, Ə.Ə.Qədirov və s.) göstərir ki, uşaqları təlim prosesində mürəkkəb intellektual məsələlərlə, problem situasiyaları ilə vaxtaşırı qarşılaşdırmaq lazımdır (Выготский 2000). Belə olduqda uşaq yeni anlayışları, onların mahiyyətini, bu və ya digər konkret cəhətlərini daha yaxşı mənimsəmək imkanına malik olur. Buna da təfəkkür vasitəsilə nail ola bilir.“Təfəkkür insan biliyinin ən yüksək səviyyəsi olan obyektiv reallığın əks etdirilməsi prosesidir” (Леонтьев, 1982; 41). Müxtəlif müəlliflərin təriflərini ümumiləşdirərək belə nəticəyə gəlmək olar ki, təfəkkür yeni nəyinsə axtarışı ilə bağlı prosesdir, bununla da biliyin inkişafında ən yüksək mərhələni təşkil edir.

İbtidai məktəb yaşında təfəkkürün inkişafı digər psixi funksiyalar arasında mühüm yer tutur. Şagirdin təfəkkürü onun yüksək inkişaf templəri ilə xarakterizə olunur; intellektual proseslərdə struktur və keyfiyyət dəyişiklikləri baş verir (Ясюкова, 2005). Məktəbəqədər yaşda təsvir olunan vizual-məcazi təfəkkürdən şifahi-məntiqi təfəkkürə keçid məhz bu dövrdə tamamlanır. Şagirddə məntiqi olaraq düzgün düşünmə inkişaf edir, düşünərkən əməliyyatlardan istifadə edir. Ancaq bunlar formal-məntiqi əməliyyatlar deyil, çünki kiçik məktəbli hələ düşünə bilmir (Кулагина и Колюцкий 2001;133). Həmçinin bu dövrdə refleksiya, özbaşınalıq, daxili fəaliyyət planı kimi neoplazmalar yaranır, elmi konsepsiyalar və konkret əməliyyatlar formalaşır.

Təfəkkürün bütün sadalanan xüsusiyyətləri ilə yanaşı, təhsil fəaliyyətinin təfəkkürün inkişafına təsirini müəyyən etmək vacibdir. Bu təsir gələcəkdə elmi biliklər sisteminin mənimsənilməsini, elmi-nəzəri təfəkkürün inkişafını təmin edən təfəkkür formalarının inkişafında özünü göstərir, təlimdə və məişətdə müstəqil oriyentasiya üçün şərait formalaşır.

Beləliklə, biz belə bir nəticəyə gəlirik ki, şagirdlərin fəal həyat mövqeyinin, elmi dünyagörüşünün tərbiyəsi əqli fəaliyyət proseslərinin formalaşması, zehnin bütün keyfiyyətlərinin inkişafı və təkmilləşdirilməsi ilə üzvi şəkildə bağlıdır. Tədqiqat çərçivəsində qarşımızda ibtidai məktəb çağında təkcə təfəkkürün inkişaf xüsusiyyətlərini nəzərə almaq deyil, həm də vizual-məcazi və şifahi-məntiqi təfəkkürün inkişaf səviyyəsini müəyyən etmək vəzifəsi durur.

**Ədəbiyyat:**


1.Məmmədova S. (2019). Şagirdlərin yaradıcı təfəkkürünün və tədqiqatçılıq qabiliyyətinin inkişaf etdirilməsi. Yanvar 11, 2019, alındı- https://www.muallim.edu.az/newsphp?id=3828

2.Вадимовна Д.Д. (2017). Развитие понятийного мышления младшего школьника. Ноябрь 7, 2017, Статья в журнале «Школьная педагогика» (moluch.ru)

3. Волков Б. С. (2002). Психология младшего школьника. -М: Педагогическое общество России.

4. Выготский Л.С. (2000). Психология. -М: ЭКСМО - Пресс.

5.Евтухова, И. N. (2023). Особенности развития мышления в младшем школьном возрасте. Образование и воспитание. Январь19, 2023, https://moluch.ru/th/4/archive/241/7969/

6.Козубовский В. М. (2008). Общая психология: познавательные процессы: учебное пособие / В. М. Козубовский. Минск: Амалфея, ISBN 978–985–441–668–7.

7. Кулагина, И. Ю., и Колюцкий, В. Н.(2001). Возрастная психология: Полный жизненный цикл развития человека. Учебное пособие для студентов высших учебных заведений. - М.: ТЦ «Сфера»

8.Леонтьев А. Н. (1982). Психология мышления. Хрестоматия /под ред. Ю. Б. Гиппенрейтер, В. В. Петухова. - М: МГУ.

9.Ясюкова Л. А. (2005). Закономерности развития понятийного мышления и его роль в обучении.- СПб: ГП ИМАТОН.


## MÜƏLLİMİN YARADICILIĞI PEŞƏKAR FƏALİYYƏT NORMASI KİMİ


**Quliyeva Raziyə Elxanovna**

**Azərbaycan Respublikasının Təhsil İnstitutu**

**https://orcid.org/0000-0002-4762-6778**

**guliyeva.raziya@gmail.com**


## CREATIVITY OF A TEACHER AS A NORM OF PROFESSIONAL ACTIVITY


**Guliyeva Raziya Elxanovna**

**Institute of Education of the Republic of Azerbaijan**

**https://orcid.org/0000-0002-4762-6778**

**guliyeva.raziya@gmail.com**



**Summary**

The thesis examines the psychological and pedagogical aspects of the teacher's creative activity. Here, taking into account some psychological factors that limit the creative behavior of students, the issues of organizing the

educational process by choosing the right rules for the teacher's behavior were analyzed. The purpose of this study is to direct teachers to realize their creative potential at a high level in their professional activities and increase the effectiveness of the educational process. It is determined that the development of students' creative abilities depends on the professional and personal qualities of the teacher. The correct model of behavior, management, taking into account the individual creative characteristics of students, can be included in the norms of the teacher's professional activity. The following research methods were used in the thesis: comparison, deduction.

**Key words:** creativity, creative teacher, pedagogical activity, student, learning process

## ТВОРЧЕСТВО ПЕДАГОГА КАК НОРМА ПРОФЕССИОНАЛЬНОЙ ДЕЯТЕЛЬНОСТИ

**Кулиева Разия Эльхановна**

**Институт Образования Азербайджанской Республики**

**https://orcid.org/0000-0002-4762-6778**

**guliyeva.raziya@gmail.com**

**Резюме**

В тезисе исследованы психолого-педагогические аспекты творческой деятельности учителя. Здесь с учетом некоторых психологических факторов, ограничивающих творческое поведение учащихся, были проанализированы вопросы организации учебного процесса путем выбора правильных правил поведения педагога. Цель данного исследования - направить педагогов на реализацию своего творческого потенциала на высоком уровне в профессиональной деятельности и повысить эффективность учебного процесса. Определено, что развитие творческих способностей у студентов зависит от профессиональных и личностных качеств педагога. Правильная модель поведения, управление с учетом индивидуально-творческих особенностей учащихся могут быть включены в нормы профессиональной деятельности педагога. В тезисе использовались следующие методы исследования: сравнение, дедукция.

**Ключевые слова:** творчество, творческий педагог, педагогическая деятельность, ученик, учебный процесс

XXI əsrin əvvəllərindən sosial-iqtisadi sahədə başlayan sürətli dəyişikliklər, yeniliklər güclü və yaradıcı insan modelinin formalaşdırılmasını zəruri etmişdir. Belə ki, rəqabətin və dəyişikliklərin kəskinləşdiyi qloballaşma dövrünə uyğunlaşmaq, olanlara adekvat reaksiya vermək üçün insanın yaradıcı potensialı aktivləşdirilməlidir. Bu yaradıcı şəxsiyyətlərin yetişdirilməsi üçün yaradıcı, yüksək peşəkarlığa malik müəllimlərin hazırlığı aktual məsələyə çevrilmişdir. Belə ki, müasir dövrün müəllim şəxsiyyətinə qoyduğu pedaqoji və psixoloji tələblər pedaqoji kadr hazırlığının yüksək səviyyəyə qaldırılmasını zəruri etmişdir.

Müəllim hazırlığının diqqət mərkəzində saxlanmasını təmin edən dövlət sənədləri müəllim peşəsinin hazırlığı istiqamətində keyfiyyət dəyişikliyinin edilməsi məsələsini daha da aktual edir. Azərbaycan Respublikasının təhsilin inkişafı üzrə Dövlət Strategiyasının Strateji hədəflər və tədbirlər planında təhsilverənlərin peşəkarlıq səviyyəsinin daim yüksəlməsini təmin edən yeni sistemin yaradılması nəzərdə tutulmuşdur.

Şagirdlərin yaradıcılıq qabiliyyətlərini inkişaf etdirmək üçün müəllimin peşəkarlığı, yaradıcılığı və yenilikçi yanaşması ilə əlverişli pedaqoji şərait yaradılmalıdır. Günümüzdə yaradıcı müəllimlərin formalaşdırılması bütün dünyada aktual məsələdir. Bir sıra ölkələrdə müəllim peşəsi ilə bağlı çoxsaylı müzakirələr və layihələr həyata keçirilir ki, bu da müəllimlərin yaradıcı fəaliyyətinin dəstəklənməsinə və gənclərin yaradıcılığa təşviq edilməsinə diqqətin artması ehtiyacını vurğulayır (Kraft, 1997, s. 84).

Yaradıcı pedaqoji innovasiyalar şagirdlərin marağını və motivasiyasını stimullaşdıra, onlarda tənqidi təfəkkür, problem həll etmə və əməkdaşlıq etmək bacarığını inkişaf etdirə bilər. Bu cür yanaşmalar dərs materialının dərindən mənimsənilməsinə və biliyin praktiki tətbiqinə kömək edir.

Beləliklə, cəmiyyətin problemlərin həllində yeni yollar tapa bilən, təhsilalanların şəxsiyyətinin ehtiyaclarına cavab verən, yaradıcı, motivasiyalı və problem həlli zamanı qeyri-standart yanaşmalar tapa bilən yaradıcı müəllimə ehtiyacı var.

Bu tədqiqatın məqsədi müəllimlərin peşəkar fəaliyyətində öz yaradıcılıq potensiallarını yüksək səviyyədə reallaşdırmaq və təlim prosesinin səmərəliliyini artırmaq üçün onlara yol göstərməkdir.

Yaradıcılıq, latın dilində "creare" və ingiliscə "create" sözlərindən yaranıb və doğmaq, yaratmaq, meydana gətirmək, tapmaq, kəşf etmək mənasında işlənilir (Memduhoğlu, Uçar, & Uçar, 2017). Yaradıcılıq anlayışına tədqiqatçılar tərəfindən müxtəlif təriflər verilmişdir. Tədqiqatçılar arasında fikir ayrılığına səbəb olmuş bu anlayış haqqında vahid fikir yoxdur. Bəzi psixoloji ədəbiyyatlarda yaradıcılıq bəzən koqnitiv proses (Argun, 2012) bəzən də bacarıq (Sak, 2020) kimi təsvir olunur. Yəni yaradıcılıq hər bir insanda olan ümumi düşünmə qabiliyyətlərindən biridir və inkişaf etdirilə bilən bir prosesdir (Kale, 1993). Geniş izahlı təriflərdən birinə görə, yaradıcılıq mövcud qanunauyğunluqları qırmaq, başqalarının fərqli həyat tərzini qəbul etmək, standartlardan kənara çıxmaq, qeyri-müəyyənliyə doğru addım atmaq, təlqin edilmiş düşüncə xəttini qırmaq və yeni fikir irəli sürmək, müəyyən bir problem üçün müxtəlif alternativ həllər tapmaq, başqa şeylərə səbəb olan yeni bir şey yaratmaq, yeni münasibət qurmaq, yeni bir fikir təqdim etmək, bilinməyən bir texnika, metodu icad etmək, insanlara faydalı olan alət və ya cihazı ixtira etmək deməkdir (Rıza, 2001).

Yaradıcılıq hər zaman dəyişən və mürəkkəbləşən sosial mühitdə yaşayan bütün insanlar və xüsusən də təhsil prosesində iştirak edən müəllimlərin maraqları və ziddiyyətli fikirlərini idarə etmək, başqalarını anlamaq və münaqişələri həll etmək üçün vacibdir. Çünki yaradıcı müəllim cəmiyyətin, təhsilin inkişafının tənzimlənməsinin mərkəzində durur (Fisher, 2004). Yaradıcılıq insanları dəyişməyə təşviq edən, dünyaya fərqli və daha maraqlı perspektivdən baxmağa imkan verən fəaliyyət və hərəkətverici qüvvədir (Hegarty, 2018).

Yaradıcı müəllim təlim prosesinə fərqli fikirlər, vasitələr gətirərək problemləri həll etməyi bacaran, mühitə tez uyğunlaşan və şagirdlərin gözləntilərinə cavab verən insandır. Bununla yanaşı, o, maraqlı və stimullaşdırıcı öyrənmə mühitini formalaşdırır. Yaradıcı müəllim, təlim prosesini əvvəlcədən zehnində planlaşdıraraq şagirdləri üçün səmərəli öyrənməni təmin edir. Dərsin məzmununu şagirdlərinə maraqlı etmək üçün daima yeniliklər axtarır və hər bir fəaliyyəti motivasiyaedici bir mühitə çevirir. Eyni zamanda o, şagirdləri yaradıcı düşünməyə və davranmağa təşviq edərək onların yaradıcı ola biləcəklərini göstərir. Bütün bu davranışlar, cansıxıcı sinif iqlimini əyləncəli bir sinif mühitinə çevirməklə şagirdlərin öyrənmək istəyini artırır. Yaradıcı müəllim şagirdlər üçün nümunəvi olan və onlarla eyni səviyyədə qalaraq səmərəli ünsiyyət quran, şagirdləri mütəmadi olaraq həvəsləndirən və fərqli öyrənmə mühitləri yaratmağa hazır olan insandır. Yaradıcı müəllim hər bir şagirdi orijinal insan kimi qəbul edir və buna uyğun davranır. O, şagirdi sərbəst hiss etməyə, davranmağa təşviq edir, dərs zamanı xoşbəxt və həyəcanlı olur. Həmçinin, hər bir şagirdə eyni cür yanaşarkən, müvəffəqiyyətli olanları da mükafatlandırmağı unutmur və onlarla ünsiyyətdə olur.

Kocaspirova görə pedaqoji yaradıcılığın meyarları aşağıdakılardır:

- hərtərəfli biliyin olması, onların tənqidi şəkildə işlənməsi və dərk edilməsi bacarığı;
- nəzəri və metodoloji müddəaları pedaqoji fəaliyyətə çevirmək bacarığı;
- özünü təkmilləşdirmək və özünüinkişaf etdirmək bacarığı;
- yeni metodların, texnikaların və onların mexanizmlərinin işlənib hazırlanması;
- mövcud təcrübənin yeni şəraitdə səmərəli tətbiqi;

- öz fəaliyyətini və aldığı nəticələri qiymətləndirmə bacarığı;

- müəllimin peşəkarlığı və fərdi unikal şəxsiyyət xüsusiyyətlərinin birləşməsi əsasında fərdi pedaqoji fəaliyyət tərzinin formalaşdırılması;

- bilik və intuisiya əsasında improvizasiya etmək bacarığı. (Коджаспирова, 2010)

Müəllimin yaradıcılıq fəaliyyətinin üç istiqaməti var:

1) metodiki yaradıcılıq - yaradılan pedaqoji situasiyaları təhlil etmək, metodik modelləri düzgün seçmək və qurmaq, tədris prosesində məzmun və təsir üsullarını tərtib etmək bacarığı ilə bağlıdır; qabaqcıl pedaqoji təcrübəni öyrənmək və onu səriştəli şəkildə tətbiq etmək.

2) kommunikativ yaradıcılıq - uşaqlarla qarşılıqlı əlaqə. Bu yaradıcılıq istiqaməti həm uşaqlar, həm də valideynlər, həmkarlar, rəhbərliklə pedaqoji cəhətdən məqsədəuyğun və səmərəli ünsiyyətin təşkili ilə bağlıdır.

3) yaradıcı özünütərbiyə - özünü konkret yaradıcı şəxsiyyət kimi dərk etmək, daha da təkmilləşdirmək, peşəkar və şəxsi keyfiyyətlərin zəif tərəflərini müəyyən etmək, davamlı özünütəhsil, habelə təhsil sistemində özünü təkmilləşdirmək üçün uzunmüddətli proqramın işlənib hazırlanması nəzərdə tutulur.

Yaradıcılığın inkişafını təmin edən bir çox amillər vardır. Bu tezisdə şagird yaradıcılığının inkişafını təmin edən yaradıcı müəllim fəaliyyətinin imkanları araşdırılmışdır. Müəllim şəxsiyyətinin humanist və demokratik yanaşması şagirdlərin akademik və yaradıcılıq bacarıqlarının inkişafında əhəmiyyətli rol oynayır. Bu baxımdan şagirdlərin yaradıcılığının inkişafına dəstək olan müəllimlər eyni zamanda onların akademik nailiyyətlərinin artmasına, psixoloji müvazinətin təmin olunmasına təsir göstərir. Bu səbəblə müəllimlər, şagird mərkəzli demokratik yanaşma və davranışlar göstərməli, ehtiyac olduğu qədər ixtisasartırma kursları ilə bu bacarıqları mənimsəməlidirlər. Yaradıcı şəxsiyyətlərin formalaşdırılması baxımından, şagirdlərin yaradıcılığının inkişafını təmin edən digər amillər də araşdırılmalıdır.

**Ədəbiyyat:**


1. Kale, N. (1993). “Üç düşünsel yeti: Eleştirel düşünme, yaratıcı düşünme, problem çözme”, Yaşadıkça Eğitim, 28.
2. Rıza, E. T.( 2001). Yaratıcılığı Geliştirme Teknikleri, İzmir: Kanyılmaz Matbaası.
3. Argun, Y. (2012) Okul öncesi dönemde yaratıcılık ve eğitimi. Ankara: Anı Yayıncılık, 168.
4. Коджаспирова Г.М. (2010) Педагогика. Москва.
5. Memduhoğlu, H.S., Uçar, R. ve Uçar, İ.H. (2017). Yaratıcı Okul Öğretmen. Ankara: Pegem Akademi Yayıncılık.
6. Sak, U. (2020)Yaratıcılık gelişimi ve eğitimi. Ankara: Ayrıntı basınevi, 211 s.
7. Amabile, T. M. (1998). How to kill creativity. Harvard Business Review: Sept-Oct.
8. Fisher, R. (2004). What is creativity? R. Fisher and M Williams (Ed.), Unlocking Creativity içinde (pp. 6-21). New York: David Fulton Publishers.
9. Hegarty, J. (2018). Yaratıcılık: Kuralları Boşverin. (Çev. İ. Büyükdevrim Özçelik), İstanbul: MediaCat.
10. https://moluch.ru/conf/ped/archive/97/4472/
11. https://president.az/az/articles/view/9779

# MƏKTƏBLƏRİN İDARƏ OLUNMASINDA KOUÇVARİ LİDERLİK BACARIQLARI

**Ağahüseynova Vüsalə Yaşar**
**Azərbaycan Respublikasının Təhsil İnstitutu**
**https://orcid.org/0000-0002-3216-6238**
**vusale.tdm@gmail.com**

# COACHING LEADERSHIP SKILLS IN MANAGING SCHOOLS

**Agahuseynova Vusala Yashar**
**Institute of Education of the Republic of Azerbaijan**
**https://orcid.org/0000-0002-3216-6238**
**vusale.tdm@gmail.com**

**Summary**

In the thesis, the formation of coaching leadership skills in the management of educational institutions is presented as an actual topic. A coach should have the skills and experience to conduct coaching conversations in certain ways, to be a conversation partner with the employee, and to be able to provide feedback. The goal of a coaching leader is to identify the strengths and weaknesses of employees. This leadership style encourages employees to improve their skills and abilities. By addressing their strengths and weaknesses, employees can contribute to the organization's long-term goals. Coaching management styles focus on developing a relationship with employees and using it as a basis for skill development and task motivation. In contrast, traditional management focuses more on task orientation. This includes dictating responsibilities and deadlines without considering employee feedback or concerns. At the same time, a coaching leader encourages employees to take ownership of their commitments and is open to feedback.

**Keywords:** coaching, leadership, management, school, principal

# КОУЧИНГ ЛИДЕРСКИХ НАВЫКОВ В УПРАВЛЕНИИ ШКОЛАМИ

**Агагусейнова Вусала Яшар**
**Институт Образования Азербайджанской Республики**
**https://orcid.org/0000-0002-3216-6238**
**vusale.tdm@gmail.com**

**Резюме**

В тезисе формирование коучинговых лидерских качеств в управлении образовательными учреждениями представлено как актуальная тема. Коуч должен обладать навыками и опытом, чтобы вести коучинговые беседы определенным образом, быть собеседником с сотрудником и иметь возможность давать обратную связь. Задача руководителя коучинга – выявить сильные и слабые стороны сотрудников. Этот стиль руководства побуждает сотрудников совершенствовать свои навыки и способности. Обращая внимание на свои сильные и слабые стороны, сотрудники могут внести свой вклад в достижение долгосрочных целей организации. Стили управления коучингом сосредоточены на развитии отношений с сотрудниками и использовании их в качестве основы для развития навыков и мотивации выполнения задач. Напротив, традиционный менеджмент больше фокусируется на ориентации на задачи. Это включает в себя определение обязанностей и сроков без учета отзывов или опасений сотрудников. В то же время лидер коучинга поощряет сотрудников брать на себя ответственность за свои обязательства и открыт для обратной связи.

**Ключевые слова:** коучинг, лидерство, менеджмент, школа, директор.

Kouçvari liderlik üslubu işçilərin ən yaxşısını ortaya çıxarmağa yönəlmişdir. Menecerlər və liderlər bir çox cəhətdən böyüməlırinə kömək etmək üçün işçilərlə sıx işləyirlər. Onlar işçilərə zəif yönlərini müəyyənləşdirməyə kömək edir və böyüdükcə onların tərəqqisini dəstəkləyirlər. Bu, yuxarıdan aşağıya yanaşma quran adi liderlikdən fərqlidir. Əhəmiyyətli bir dəyişiklikdə, rəhbərliyin kouç tərzi meneceri böyümənin köməkçisi kimi təsvir edir.

Kouçinq menecerinin liderlik üslubu həm də menecerin diqqət dairəsini genişləndirir. Menecerlər sadəcə öz komandalarının performansına diqqət yetirmək əvəzinə, həmin komandanı təşkil edən şəxslərə də diqqət yetirirlər. İşçilərin komanda ilə birlikdə ağıllı şəkildə böyüməsinə kömək etmək bu yanaşma ilə məhsuldarlığın yaradılmasının açarıdır.

Kouçvari liderlik üslubunun xüsusiyyətləri:

Əməkdaşlıq

- Öyrənmə və İnkişaf
- Aktiv dinləmə
- Əks-əlaqə
- Etibar və Təhlükəsizlik
- Rəhbərlik
- Empatiya və Xəbərdarlıq

Bundan əlavə, kouçinq menecerlərin və liderlərin öz işlərini səmərəli şəkildə yerinə yetirmələri üçün vacib bir bacarıqdır. Kouçluq təfəkkürü, əmrləri diktə etmək əvəzinə şəxsləri və komandaları gücləndirməyə yönəlmiş liderliyə yeni bir yanaşmadır. Bu, güclü suallar vermək, fəal şəkildə dinləmək və işçilərə həll yollarını inkişaf etdirməyə və potensiallarına çatmağa kömək etmək üçün real vaxt dəstəyi təmin etməyi əhatə edir. Bir lider olaraq, sadəcə göstəriş verməkdən kənara çıxmaq və hər bir komanda üzvünün nəyə ehtiyacı olduğunu və uğurlu olmaq istədiyini başa düşmək üçün vaxt ayırmaq deməkdir. Bu, liderlərə və liderlik komandalarına inam yaratmağa, əməkdaşlıq mühiti yaratmağa, daha effektiv ünsiyyət bacarıqlarını inkişaf etdirməyə və nəticədə daha məhsuldar komandalara rəhbərlik etməyə imkan verən bir düşüncə tərzidir. Kouçinq və mentorluq arasındakı əsas fərq odur ki, məşqçilər fərdlərə dəstək, rəhbərlik və resurslar təqdim etməklə məqsədlərinə çatmağa kömək edirlər. Bunun əksinə olaraq, mentorlar öz təcrübələrinə əsaslanaraq məsləhətlər verirlər. Kouçinq söhbətləri daha çox indiki mövzuya diqqət yetirir, mentorluq isə uzunmüddətli perspektivə baxır. Kouçinq zehniyyətini mənimsəməklə, liderlər daha yaxşı komanda performansı, yüksək əhval-ruhiyyə, daha sürətli problemlərin həlli, təkmilləşdirilmiş ünsiyyət və daha effektiv qərar qəbulu ilə nəticələnən əməkdaşlıq və inam mühiti yarada bilər. Bu, liderlərə komandalarında böyümə, inkişaf və uğur mühiti yaratmağa kömək edə biləcək bir yanaşmadır. Beləliklə, məşq zehniyyətinin faydalarına və daha yaxşı liderlik bacarıqları əldə etmək üçün ondan necə istifadə edəcəyimizə nəzər salaq.

Performans üçün bacarıqlara əsaslanan kouçluqda 4 əsas addım bunlardır:

Anlamaq üçün qulaq asın - Kouçlar faktlar, emosiyalar və dəyərlər daxil olmaqla mühüm perspektivləri toplamaq üçün aktiv dinləmədən kənara çıxırlar. Bu elementlər kouça liderin nöqteyi-nəzərini və unikal kontekstini daha yaxşı başa düşməyə kömək edir.

Güclü suallar verin - Kouçlar işçilərə fayda vermək, onları irəli aparmaq və yeni anlayışlar yaratmaq məqsədi ilə cəsarətli suallar verməlidirlər.

Çağırış və dəstək - Perspektivdə dəyişiklik yaratmaq vacibdir. Kouçluq prosesi liderləri yeni bir şey sınamağa həvəsləndirməyə yönəlib, lakin bunun üçün kouç özünü dəstəklənən və təhlükəsiz hiss etməlidir.

Növbəti addımları və hesabatlılığı müəyyənləşdirin - Əsl iş performans təlimi və söhbətlər arasında baş verir. Liderlər anlayışları necə tətbiq etmək və yeni taktikalardan nə vaxt istifadə etmək barədə aydın plana malik olmalıdırlar.

Kouç dəstəyi görmüş hər bir işçi özünü lider kimi inkişaf etdirir.

Menecerlik və liderlik təcrübədə bir-biri ilə sıx əlaqəli olsa da, biz liderlik ideyasını daha yüksək mövqeyə yerləşdiririk. Bunu çox vaxt anadangəlmə keyfiyyətlər: intellekt, özünəinam, uzaqgörənlik və yaxşı natiqlik bacarığı, habelə cəsarət, xarizma və məqsədyönlülüyün mistik qarışığı tələb edən norma kimi qəbul edirik. Belə keyfiyyətlərə malik olan fərdləri anadangəlmə liderlər kimi qəbul edirik. Lakin elm sübut edir ki, insan beyni elastikdir və artıq bu keyfiyyətlər barədə onların anadangəlmə, yaxud da dəyişməz olduğunu düşünmürük. Bunun əvəzinə liderliyi öyrənilə və müəyyən vaxt ərzində yetişdirilə bilən keyfiyyətlər toplusu kimi görürük. Başqa sözlə, əgər siz məktəbdə hansısa liderlik pozisiyasında olmamısınızsa, bu o demək deyil ki, heç vaxt lider ola bilməzsiniz. (5)

Ümumi liderlik keyfiyyətləri:

- İntellektual (məlumatlı, gələcəyə fokuslanmış, qərarlı, rahat)
- Sosial-emosional (özünü tanıyan, təəssübkeş, davamlı, etibarlı)
- Təşkilati (əməkdaşlıq, nüfuzlu, həvəsləndirici)

Bütün bunları ümumi götürsək, aşağıdakı suallar ortaya çıxa bilər:

- Sizə lazım ola biləcək əhəmiyyətli həcmdə məlumatlara maliksinizmi?
- Siz uzunmüddətli prioritetlərə uyğun qısamüddətli tapşırıqları təşkil edirsinizmi?
- Lazımi faktlar mövcud olmayanda belə qərarlar verə bilirsinizmi?
- Dəyişikliyə daha yaxşı uyğunlaşa bilirsinizmi?
- Öz davranışınızın başqalarına necə təsir etdiyinə nəzər salırsınızmı?
- Pozitivliyinizi qoruyursunuzmu və böhran anlarında liderlik edə bilirsinizmi?
- Verdiyiniz sözlərə əməl edirsinizmi?
- Öz tərəfdaşlarınızla, öz komanda üzvlərinizlə kollektiv nəticələri ortaya qoymaq üçün daimi və yaxşı səviyyədə işləyə bilirsinizmi?
- Öz fikirlərinizi aydın ifadə edə bilirsinizmi?
- Başqalarını yüksək standartlara və hədəfləri dərinləşdirməyə inandıra bilirsinizmi?

Vəzifəniz sizi menecerə çevirir, lakin lider olub-olmamağınız özünüzdən asılıdır. "Liderlik daim üzərində işləməli olduğunuz nöqtə və ya vəzifə deyil", - deyə Harvard Biznes Məktəbinin professoru Robert Stiven Kaplan bildirir və əlavə edir ki, bu keyfiyyətləri inkişaf etdirmək daimi prosesdir. (5)

Yaxşı idarəçilik bunlardan əlavə o deməkdir ki, rəhbərin düzgün planlaması var. Plansızlıq həm də sistemsizliyin birinci şərtidir. Plansızlıq olan yerdə effektivlikdən danışmaq olmaz.

Yaxşı idarəçilik o deməkdir ki, korporativ mədəniyyət formalaşdıra bilirsən. Məktəbin dəyərlər sistemini, xarakterini formalaşdırırsan. (4)

Kouç rəhbərə aid xüsusiyyətlərə yaxından maraq göstərin.

- Qulaq asın.
- Söhbət edin.
- İnsanların özlərinə inanmasına kömək edin.
- Təlimin davamlılığını təmin edin.
- Göz önündə olun.
- İşdə iştirakın keyfiyyətli olmasına təkan verin. (3)

Vəzifəniz sizi menecerə çevirir, lakin lider olub-olmamağınız özünüzdən asılıdır. "Liderlik daim üzərində işləməli olduğunuz nöqtə və ya vəzifə deyil", - deyə Harvard Biznes Məktəbinin professoru Robert Stiven Kaplan bildirir və əlavə edir ki, bu keyfiyyətləri inkişaf etdirmək daimi prosesdir. (5)

**Ədəbiyyat:**

1. Françesko B. (2021). Beynəlxalq məktəblərdə liderlik, 25-33.
2. Dadaş Ə., Könül A., Rza M., Qoşqar M. (2021). Direktorun əl kitabı.
3. Con E., Bill M. (2017). Uğur qazandıran məktəblər, 113.
4. Anar B. (2018). Biznes idarəçiliyi, 18-21.
5. Harvard Business School Publishing Corporation. (2017). Menecerin əl kitabı, 7-15.

# ALİ MƏKTƏBLƏRDƏ AZƏRBAYCAN TARİXİNİN TƏDRİSİNDƏ İDRAK FƏALLIĞININ YÜKSƏLDİLMƏSİ YOLLARI

**İsmayılova Turanə Fazil**
**Azərbaycan Respublikasının Təhsil İnstitutu**
**https://orcid.org//0000-0001-6462-7759**
**turanaismayilova1122@gmail.com**

# WAYS TO INCREASE COGNITIVE ACTIVITY IN TEACHING THE HISTORY OF AZERBAIJAN IN HIGH SCHOOLS

**Ismayilova Turana Fazil**
**Institute of Education of the Republic of Azerbaijan**
**https://orcid.org//0000-0001-6462-7759**
**turanaismayilova1122@gmail.com**

**Summary**

In the thesis, the ways of increasing the cognitive activity of students in Azerbaijani history classes in higher schools are considered. Information is provided about educational programs for teaching the history of Azerbaijan. Positive and negative factors influencing the increase of cognitive activity in the teaching of Azerbaijani history in higher schools are listed. The influence of the organization of the training process based on new training methods on the development of thinking of higher school students, guiding them to future professional activities, and ways of increasing cognitive activity are studied.

In the thesis, it will be considered in detail how to apply modern learning technologies, interactive lessons and auxiliary didactic materials in the educational process by conducting research and classes. It is aimed at ensuring more active participation of students in the educational process by involving them in discussion, exchanging ideas in the field of education, expressing their opinion about historical events.

**Key words:** Higher schoool, teaching the history of Azerbaijan, interactive learning, cognitive activity, human capital.

# ПУТИ ПОВЫШЕНИЯ ПОЗНАВАТЕЛЬНОЙ АКТИВНОСТИ ПРИ ПРЕПОДАВАНИИ ИСТОРИИ АЗЕРБАЙДЖАНА В ВУЗАХ

**Исмайлова Турана Фазиль**
**Институт Образования Азербайджанской Республики**
**https://orcid.org//0000-0001-6462-7759**

turanaismayilova1122@gmail.com

**Резюме**

В тезисе рассматриваются пути повышения познавательной активности студентов на уроках истории Азербайджана в высшей школе. Представлена информация об образовательных программах по обучению истории Азербайджана. Перечислены положительные и отрицательные факторы, влияющие на повышение познавательной активности при преподавании истории Азербайджана в высшей школе. Изучено влияние организации учебного процесса на основе новых методов обучения на развитие мышления студентов высшей школы, ориентирующее их на будущую профессиональную деятельность, пути повышения познавательной активности.

В статье будет подробно рассмотрено, как применять современные технологии обучения, интерактивные уроки и вспомогательные дидактические материалы в учебном процессе путем проведения исследований и занятий. Он направлен на обеспечение более активного участия студентов в образовательном процессе путем вовлечения их в дискуссию, обмен мнениями в области образования, высказывание своего мнения об исторических событиях.

**Ключевые слова**: Высшая школа, преподавание истории Азербайджана, интерактивное обучение, познавательная деятельность, человеческий капитал

Tarix hər bir millətin mövcudluğunu sübut edən, onun kimliyini təyin edən əsas mənbədir. Ali təhsilin bakalavr səviyyəsində Azərbaycan tarixi fənninin tədrisində idrak fəallığının yüksəldilməsi olduqca zəruridir. Hər bir Azərbaycan vətəndaşı xalqının tarixini öyrənməyə borcludur. Təsdiq olunmuş həqiqətdir ki, keçmişini bilməyən bu gününü anlaya bilməz. Azərbaycan tarixi fənninin dövlətçilik konsepsiyası, dövlətimizin və xalqımızın qədimliyi baxımından mənbələr və tarixşünaslıq əsasında sistemli, səbəb və nəticə əlaqəli, ardıcıl və obyektivliyin qorunması, milli dəyərlərin üstünlüyü prinsipi ilə öyrənilməsi, xüsusilə ali təhsil müəssisələrində tədrisi olduqca vacibdir. Bu tezisin əsas məqsədi ali məktəblərdə Azərbaycan tarixinin tədrisində tələbələrin idrak fəallığının yüksəldilməsi yollarını araşdırmaq və daha effektiv yolları təklif etməkdir. Tələbələrin tarixi hadisələri daha dərindən anlamağını təmin etmək və milli mədəniyyətimizi, soykökümüzü, tariximizi daha yaxşı mənimsəmələrinə nail olmaqdır.

“Əgər insanın ümumi tərifini verməli olsaq, onun haqqında “Tarix şüuruna malik varlıq” deyə bilərik. Buna görə də insanın tarixi məlumatlardan və tarix şüurundan ayrılması qeyri-mümkündür” (Əhmədova və Hüseynova, 2019).

Azərbaycan tarixi fənninin ali məktəblərdə tədrisini vacib edən şərtlərdən biri də, onun ideya, siyasi və tərbiyəvi əhəmiyyətinin olmasıdır. Belə ki, gələcək mütəxəssis, ziyalı öz hüquqlarını bilməklə yanaşı, cəmiyyət qarşısında öz borcunu və vəzifələrini də dərk edir və həmçinin yaşadığı ölkəsində gedən daxili prosesləri, yaxud beynəlxalq hadisələrdən baş çıxardıb onlara düzgün siyasi qiymət verməyi və ən optimal, doğru yolu seçməyi bacarır. Azərbaycan tarixi milli mənəviyyatımızın, dövlət irsimizin və milli maraqlarımızın, tarixi yaddaşımızın keşikçisidir.

“Müasir Azərbaycanın qurucusu Heydər Əliyevin tarix elminə, tarix təhsilinə göstərdiyi daimi diqqəti nəticəsində təhsilimizin ən mühüm sahəsi olan tarix təhsilinin yenidən qurulması üçün yeni proqram və dərslikləri tərtib və çap etmək mümkün olmuşdur. O, Azərbaycanda müasir dövrün yaradıcılıq, quruculuq, idarəçilik elmini formalaşdırmışdır ”(Qaralov, 2013:155).

Bəkirova (2021:3 ) qeyd edir ki, Azərbaycan ərazisi əsrlər boyunca bir çox sivilizasiyaların yaranıb inkişaf etdiyi ərazi olmuşdur. Bu tarixin düzgün şəkildə tədris edilməsi milli mədəniyyətimizin və milli-mənəvi dəyərlərimizin varisliyini təmin edir. Ali məktəblərimizdə Azərbaycan tarixinin tədrisində tələbələrin idrak fəallığını daha da yüksəltməyə ehtiyac mövcuddur. Tarixi idrak fəallığının zəifliyi tələbələrin milli kimliyinin formalaşması və milli dəyərlərinin öyrənilməsi üzərində də neqativ nəticələrə gətirir. Tarixi

hadisə və proseslərin düzgün dərk edilməməsi, milli-mənəvi dəyərlərimizin özündəki bəhrəsini itirərək, milli kimliyimizin qorunmasına təhdid yaradır. Bu problemə nəzarət edilmədən keçmək mümkün deyil.

S1.Ali məktəblərdə Azərbaycan tarixi dərslərində tələbələrin idrak fəallığının yüksəldilməsi necə təmin edilir?

S2.Nəyə görə idrak fəallığının yüksəldilməsi dərs prosesində vacib elementdir?

S3.Bu istiqamətdə hansı mexanizmlər mövcuddur və onların təsiri nə dərəcədə effektivdir?

S4.Tələbələrdə dərin idrak fəallığı formalaşdırmaq üçün təhsilalanlara nəyi öyrətməli, necə öyrətməli, hansı həcmdə öyrətməli, nə üçün öyrətməli? kimi suallara müvafiq olaraq cavab tapmaq lazımdır.

Azərbaycan tarixinin müasir tədris metodologiyalarının təhlili, müasir texnologiyalardan istifadənin təhlili, dəstəkləyici təlim materiallarının tədris prosesinə inteqrasiyası, müzakirə və fikir mübadiləsinin tədris prosesində idrak fəallığının yüksəldilməsində rolu və təsirini müəyyənləşdirməkdir.

Tədqiqatlar əlaqəli iki istiqamətdə - hüquqi normativ sənədlərin, tədris proqramlarının təhlili vəziyyəti və tədris prosesinin həmin sənədlərlə uyğunluq səviyyəsinin öyrənilməsi ilə aparılır.

Əhmədov (2022:16) qeyd edir ki, Müasir qloballaşma prosesi insanların təfəkkürünün yeni reallıqlara uyğunlaşmasını tələb etməklə yanaşı, genişmiqyaslı informasiyanı təhlil edə bilən operativ qərarlar qəbul edən , dövlətin bir çox vacib sahələrinin gələcəyini müəyyən edən yeni nəsil kadrların hazırlanmasını diktə edir. Bu şəraitdə ali təhsil sistemi xüsusi funksiya yerinə yetirir.

Hodgsona görə (2017) ali təhsil həm sənaye kimi, həm də iqtisadiyyatın qalan hissəsi üçün təlim keçmiş və savadlı kadr mənbəyi kimi milli iqtisadiyyat üçün vacibdir.

H.Əhmədov (2018:15) qeyd edir ki, Ali təhsil insan kapitalının formalaşmasında və inkişafında mühüm mərhələdir.

İnsan kapitalının inkişafı "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası (Bakı, 2013),"Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası" (Bakı, 2013), "Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi" (Bakı, 2016) kimi strateji sənədlərin də prioriteti olmuşdur.

Zeynalova (2018:43) göstərir ki, tələbələr araşdırmaq, təhlil etmək bacarıqlarına, irəliləmək istəyinə, təxəyyül və təcrübi kreativliyə malik olmalıdırlar.

Təhsilalanların fərdi xüsusiyyətlərini nəzərə alan innovativ təlim metodları və texnologiyaları vasitəsilə təhsilin məzmununun səmərəli mənimsənilməsini təmin edən yüksək nüfuzlu təhsilverənin formalaşdırılmasından irəli gələn hədəflər pedaqoji təhsilin qarşısına aydın vəzifələr qoymuşdur (Süleymanova, 2018).

Tələbələri müstəqil düşünən, tədqiqatçı, vətənpərvər, vətənə sevgi dolu təfəkkürlü gənclər kimi yetişdirmək, onlarda yüksək təfəkkür formalaşdırmaq ali təhsilin qarşısında dayanan mühüm bir vəzifədir. Fəal metodlar dəstəkləyici təlim mühiti yaradır (Barnes, Christensen, Hansen, 2000).

Tələbələr üçün metakoqnitiv və idrak strategiyalarından istifadə, öyrənməyə cavab olaraq beynin yaratdığı sinaptik əlaqələri optimallaşdırmaq üçün beyin avtomobillərinə yüksək oktanlı yanacaq əlavə etmək kimidir (Wilson Donna, Conyers Marcus, 2016: 25).

Tədqiq etdiyimiz problemin bu və ya digər cəhətləri ilə bağlı R.Xəlilov, M.Əmirov, İ.Cəbrayılov, A.Abbasov, F.Rüstəmov, Ə.Paşayev, D.Musayev, R.Məlikov, Z.Veysova, X.Qədimova, Ə.Abbasov, S.Vəliyev, T.İsayeva, F.Bünyatova, H.Cəfərov, R.Hüseynov, A.Cəlilov, B.Abdulla, S.Seyidova, S.Ə.Ağayev, A.Qasımova, Quliyev.M, L.Əsədova, Mehdiyev.Ə, Ərsoy.Ö, Paşayev.T və başqaları tədqiqat aparmış, fikir və mülahizələrini bildirmişlər (Musayev, 2022).

Zimmermana (2000) görə, təhsilalanlarda özününizamlama bacarığı və özünüdərketmə tərbiyə olunmalıdır.

Cəbrayılov (2017) tədqiq edir ki, tarixi təcrübə və elmi araşdırmalar sübut edir ki, tələbə şəxsiyyətinin formalaşdırılması və inkişafı tələbənin fəaliyyəti ilə bilavasitə bağlıdır.

Problemimizlə bağlı Azərbaycan tarixi proqramını təhlil edərkən görürük ki, qədim dövrdən müasir dövrə qədər tarix sistemli şəkildə verilmişdir. Proqram 2023-cü ildə Azərbaycan Respublikası Elm və Təhsil Nazirinin F-725 №-li 19.12.2022-ci il tarixli əmrinə əsasən çap edilmişdir. Proqramda əhatə olunan "Azərbaycan tarixi -1" fənni "Tarix müəllimliyi" ixtisasında cəmi 90 saat (45 saat mühazirə, 45 saat seminar), "Tarix və coğrafiya müəllimliyi" ixtisasında cəmi 60 saat (30 saat mühazirə, 30 saat seminar), "Azərbaycan tarixi-2" fənni "Tarix müəllimliyi" ixtisasında cəmi 90 saat (45 saat mühazirə, 45 saat seminar), "Tarix və coğrafiya müəllimliyi" ixtisasında cəmi 75 saat (45 saat mühazirə, 30 saat seminar), "Azərbaycan tarixi-3" fənni "Tarix müəllimliyi" ixtisasında cəmi 90 saat (45 saat mühazirə, 45 saat seminar) tədris olunur (Əhmədova, 2023).

İnteraktiv metodların tədris prosesinə təsiri açıq şəkildə müşahidə olunmuşdur. Tədris prosesində yeni texnologiyaların istifadəsi idrak fəallığının artırılmasda müstəsna əhəmiyyət kəsb edir.

Ali məktəblərdə tələbələrdə idrak fəallığının yüksəldilməsi ilə tələbələr daha çox məlumat əldə edə, daha aydın təhliletmə bacarıqlarına yiyələnə, daha dolğun biliklər qazana bilərlər. İdrak fəallığının yüksəldilməsi üçün müxtəlif metodlar, yollar mövcuddur. Tədqiqatımızın bu istiqamətdə davamı metodika yaratmaq və eksperimentin təşkili ilə nəticələnəcəkdir. Gələcək işlərimizdə metodika və eksperiment nəticələri dərc ediləcəkdir. Proqramın əsasını ali məktəblərdə Azərbaycan tarixi dərslərində tələbələrin idrak fəallığının yüksəldilməsi yolları təşkil edəcəkdir.

**Ədəbiyyat:**


1. "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası (2013-cü il). http://www.prezident.az /files/future_az.pdf.

2. "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası". http://www.prezident.az /articles/9779.

3. "Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi". http://www.prezident.az/articles/9779.

4. Bəkirova E. (2021). Albaniyanın qərb torpaqları (antik dövr). Xəritə və şəkil. "İdeal-Print" MMC. Bakı, 220.

5. Cəbrayılov İ. (2017). Müasir ali təhsil və tələbə şəxsiyyətinin formalaşdırılmasının bəzi məsələləri. "Azərbaycan məktəbi", № 1, 99-104.

6. Əhmədov H. (2022). Azərbaycan Təhsil İnstitutunun elmi-pedaqoji kadr hazırlığında rolu və əhəmiyyəti. "Pedaqogika"jurnalı, № 1,15-24.

7. Əhmədova N., Kərimov Z. (2023) Azərbaycan tarixi proqramı. "Tarix müəllimliyi" və "Tarix və coğrafiya müəllimliyi" ixtisasları üçün bakalavriat səviyyəsi üzrə. Bakı, ADPU-nun nəşriyyatı, 121.

8. Əhmədova N., Hüseynova S. (2019). Azərbaycan tarixi (qeyri tarix ixtisasları üçün) dərs vəsaiti. Bakı, ADPU-nun nəşriyyatı, 390.

9. Əhmədov İ. (2018). Azərbaycan Respublikasında insan kapitalının inkişafı təhsil strategiyasının əsas hədəfidir. "Azərbaycan məktəbi", № 2 (683), 11-18. https://doi.org/10.32906/AJES/683.2018.02.01

10. Qaralov Z.İ. (2013) Heydər Əliyevin elmi irsi (Nəzəriyyə və Təcrübə ) II cild-Bakı. "Şərq-Qərb" Nəşriyyat evi, 308 s.

11. Musayev D. (2022). Tarixin tədrisində interaktiv metodlardan istifadənin imkanları. Monoqrafiya. Bakı, ADPU-nun mətbəəsi, 229.

12. Süleymanova A. (2018) Minimum requirements for the content and level of pedagogical education and the state of their implementation. Azerbaijan Journal of Educational Studies.Vol 683, Issue II, pp.19-39.

13. Zeynalova N. (2018) The training methods for the development of the creativity of High School students. Azerbaijan Journal of Educational Studies. Vol.683, Issue II, pp.41-50. https://doi.org/10.32906/AJES/683.2018.02.03

14. Barnes L.B., Christensen C.R., Hansen E.J.(2000) Teaching method and specific situations: Trans. ang. Ed. By A.I.Naumov.-M., 501 p.

15. Hodgson C. (2017) Educational psychology: theory and practice Includes bibliographical references and index. ISBN 978-1-9789-2292-1.370.

16. Wilson Donna,Conyers Marcus (2016) Teaching students to drive their brains: metacognitive strategies, activities, and lesson ideas. http://lccn.loc.gov/2016011184

17. Zimmerman B.J. (2000) Self-regulatory cycles of learning. In G.A.Straka(ed), Conseptions of self -directed learning, theoretical and conceptual considerations. New York: Waxman.

# MODERN PEDAGOGICAL TECHNOLOGIES IN THE WORK OF A PHYSICAL EDUCATION TEACHER

**Shirinzada Lala Arif**

**Azerbaijan State Academy of Physical Education and Sport**

**https://orcid.org/0000-0002-3015-5228**

**lala.shirinzada@sport.edu.az**

# BƏDƏN TƏRBİYƏSİ MÜƏLLİMİNİN İŞİNDƏ MÜASİR PEDAQOJİ TEXNOLOGİYALAR

**Şirinzadə Lalə Arif**

**Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası**

**https://orcid.org/0000-0002-3015-5228**

**lala.shirinzada@sport.edu.az**

**Xülasə**

Bu gün insan fəaliyyətinin bədən tərbiyəsi ilə əlaqəli olmayan vahid bir sahəsini tapmaq mümkün deyildir, çünki bədən tərbiyəsi və idman bütövlükdə cəmiyyətin və fərdi olaraq hər bir insanın ümumən tanınan maddi və mənəvi dəyərləridir. Təsadüfi deyil ki, son illərdə bədən tərbiyəsi təkcə müstəqil sosial hadisə kimi deyil, həm də insanın sabit keyfiyyəti kimi getdikcə daha çox müzakirə edilir. Bədən tərbiyəsi təhsilinin problemlərini həll edərək, fəaliyyətimizi fərdin fiziki və mənəvi inkişafı üçün dəyər yönümlərinin tərbiyəsi, sistemli fiziki məşqlərə ehtiyac və motivlərin formalaşdırılması, mənəvi və iradi keyfiyyətlərin tərbiyəsi, humanist münasibətlərin formalaşması, ünsiyyət təcrübəsinin əldə edilməsi kimi vacib komponentlərə yönəldirik. Müəllimlərin diqqəti öyrənənlərə fiziki və əqli performansı, sağlamlığı, öz-özünə təhsili yüksək səviyyədə saxlamaq üçün əldə edilmiş bilik, bacarıq və vərdişləri yaradıcı şəkildə tətbiq etməyi öyrətməyə fokuslanır.

**Açar sözlər:** bədən tərbiyəsi, idman pedaqogikası, müasir yanaşmalar

# СОВРЕМЕННЫЕ ПЕДАГОГИЧЕСКИЕ ТЕХНОЛОГИИ В РАБОТЕ УЧИТЕЛЯ ФИЗИЧЕСКОЙ ВОСПИТАНИЯ

**Ширинзада Лала Ариф**
**Азербайджанская государственная академия физической культуры и спорта**
**https://orcid.org/0000-0002-3015-5228**
**lala.shirinzada@sport.edu.az**

**Резюме**

Сегодня невозможно найти ни одной сферы человеческой деятельности, не связанной с физической культурой, так как физическая культура и спорт являются общепризнанными материальными и духовными ценностями общества в целом и каждого человека в отдельности. Не случайно в последние годы о физической культуре все чаще говорят не только как о самостоятельном социальном явлении, но и как об устойчивом качестве человека. Решая задачи физического воспитания, мы ориентируем свою деятельность на такие важные составляющие, как воспитание ценностных ориентаций на физическое и духовное совершенствование личности, формирование потребности и мотивов к систематическим занятиям физическими упражнениями, воспитание нравственно-волевых качеств, формирование гуманистических отношений, приобретение опыта общения. Инструкторы делают акцент на том, чтобы научить школьников творчески применять полученные знания, навыки и умения для поддержания высокого уровня физической и умственной работоспособности, здоровья, самообучения.

**Ключевые слова:** физическое воспитание, спортивная педагогика, современные подходы

Today it is impossible to find a single sphere of human activity that is not related to physical culture, since physical culture and sports are generally recognized material and spiritual values of society as a whole and of each person individually. It is no coincidence that in recent years physical culture has been increasingly spoken of not only as an independent social phenomenon, but also as a stable quality of a person. Solving the problems of physical education, we focus our activities on such important components as the education of value orientations for the physical and spiritual improvement of the individual, the formation of needs and motives for systematic physical exercises, the education of moral and volitional qualities, the formation of humanistic relations, the acquisition of communication experience. Instructors focus on teach schoolchildren how to creatively apply the acquired knowledge, skills and abilities to maintain a high level of physical and mental performance, health, self-study.

Of course, traditional technologies alone can no longer fully help to achieve the goals and objectives set as much as possible. And here modern educational technologies come to the aid of physical education teachers (Light & Harvey, 2016). The use of a wide range of modern pedagogical technologies makes it possible to productively use both educational and extracurricular time and achieve high learning outcomes for students (Renshaw & Chow, 2018). So, let's consider the most effective modern technologies used by physical education teachers in their practices:

1.Traditional learning
2.Health saving technologies
3.Technologies of differentiated learning
4.Information and communication technologies
5.Technologies of competency-based learning
6.Technology of student-centered approach in teaching
7.Game simulation technology
8.Test technology

Let's dwell on each in detail.

Traditional training: They are used in class-lesson classes, where the main form of organization of the educational and pedagogical process is a lesson, and the whole class is engaged in one program, as a result, there is a consistently high level of absolute and qualitative academic performance of schoolchildren.

Health-saving technologies: Health-saving educational technologies are the most significant of all technologies in terms of the degree of impact on the health of students, as they are based on the age characteristics of children's cognitive activity (Light & Harvey, 2016). They are used in classroom lessons, extracurricular health work, where the focus of the goals and technologies of classes meets hygienic and environmental requirements, the presence of moments aimed at preserving and strengthening the health of students, as a result, the number of students assigned to a special medical group is reduced, the health of students improves; the coverage of children with various forms of physical culture and health-improving work has increased; increases the level of physical fitness of schoolchildren; as well as the level of students' awareness of a healthy lifestyle and motivation for physical education (Chatziefstathiou, 2013).

Differentiated learning technologies: It is the process of taking into account the individual characteristics and level of physical fitness of children, determining the dosed load, the ability to outline for everyone their own trajectory of progress in the development of educational material (Rawling et al, 2010).

Information and Communication Technologies: Informatization of the education system is one of the priority areas for the modernization of education. The richest opportunities for this are provided by modern information computer technologies (Jung, 2018). Today, the computer literacy of a teacher and a student is sufficient to freely work on a personal computer and obtain the necessary additional information from various sources. The use of ICT in work allows to improve the quality of students' knowledge of the subject, interest in learning, a more conscious attitude to their health and increase students' motivation for physical education.

Technologies of competency-based learning: The method of projects is used as a pedagogical technology for the preparation and participation in scientific and practical conferences. Much attention is paid to the formation of key competencies: informational, communicative, problem-solving competence, social interaction competence (Pollard, 2010). Types of projects carried out by students: information projects are used to write abstracts and reports on physical culture, the history of the Olympic Games, the formation of posture, a healthy lifestyle, various research projects, pilot studies on the level of physical fitness and healthy lifestyle which all aim to expand knowledge about the most relevant aspects in physical development and increase motor activity and the level of physical fitness, health promotion. In the process of preparing projects, students learn to identify the problem they would like to work on, independently search for information on this problem, analyze it and bring it into the system. The sore point is the presentation of theoretical knowledge at the lesson of physical culture. I bring to your attention one of the projects in the lesson. Theme of the project: “Oh, how wonderful sport is!”. Subtopics: "Basketball", "Volleyball", "Gymnastics", "Swimming" - sports included in the school curriculum for physical education. The questions that were the plan for revealing the sub-themes of the project were worked out: the history of the creation of the sport; the main provisions and rules of this sport; it is interesting (any interesting information about the sport or its representatives).

The class is divided into groups of 6-7 people. Each draw group receives a sport, a card with a work plan. The deadlines for the preliminary review of the project are established. After finishing work on projects, a sports festival is held, where the guys present their work, and in order for the holiday to be a holiday,

they demonstrate practical skills in their sport, for example: gymnastics, performing a combination of acrobatic exercises; basketball, juggling with balls, figured stroke of racks; volleyball, passing and serving the ball to a given zone; l / athletics, humorous relay races. The whole group as a whole is evaluated, but the participation of each student in the work on the project is taken into account.

Technology of student-centered approach in teaching: The student-centered approach is applied in every class, for every learner. This technology is aimed at meeting the needs and interests of the child (Penney & McMahon, 2015). When using this approach, the main efforts are made to develop unique personal qualities in each of them. To implement this approach in teaching, basic physical education is used (in accordance with the State Educational Standards); health-improving physical training (for the main medical group of students); specialized sports training (for schoolchildren with the ability to sports activities).

Game modeling technology. It is used at every lesson in every class, at additional sports lessons in volleyball, when conducting extra-curricular sports and recreational activities. As a result, there is an increase in the effectiveness of the lesson, the quality of assimilation of educational material by students, the realization of the needs of the student's personality in self-expression, self-determination, self-regulation, and the strengthening of the health-saving aspect (Armour, 2017).

Test technology: The current, intermediate and final control of knowledge, skills and abilities is applied in each class. According to the new standards, the attitude towards the student is changing in general. If earlier the teacher often built relationships with the student on the basis of authoritarianism, now we have to build subject-subject relations (Chatziefstathiou, 2013), that is, the child, coming to the lesson, must feel trust in the instructor, coach, see him/her as a mentor and understand why she/he came to the lesson at all, why she/he needs it, and how the knowledge and skills gained will be useful to her/him in future adulthood. Moreover, I will not say that subject-subject relations are a fundamentally new approach to teaching. Many teachers have been building their lessons this way for a long time, but currently it is also enshrined in regulatory documents.

First, according to the State’s Educational Standards, the child should get an idea of a person as a self-regulatory system. We must teach not only to run and jump, but also to give the child theoretical knowledge about her/his body and health. Moreover, we must interest her/him, and sometimes give such tasks so that she/he and at home have a desire to find the answer to the question posed. Secondly, the student must be able to determine the level of her/his physical and mental fitness and be aware of the need to improve it with the help of independent exercises. The child must be motivated to engage in physical education and understand that she/he cannot and should not live without physical activity. As said before, it is impossible to find a single sphere of human activity that is not related to physical culture. For example, a student needs to overcome a certain distance on skis. Why would she/he? The answer is simple. If her/his job is physically demanding, will she/he be able to work an 8-hour day without stamina? It is necessary to convey to the child why she/he needs to perform this or that movement. In addition, I suggest it is important to work with parents. If parents themselves are fond of physical education, doing morning exercises, running, skiing, playing football, then their children will strive for this. Today, due to the lack of halls or high prices of hall rents in Azerbaijan, it is impossible to create a lesson according to new standards, we always need to have visibility, the ability to show the plot of the competition, presentation, etc. For example: high and low start in athletics. If the teacher shows a slide showing a high and low start visually, the students should formulate the topic of the lesson. Children themselves set the goals of the lesson, tasks, and guess how to perform the exercise correctly, and the role of the teacher, in this case, should be directed with questions, visual aids. In order to start doing the exercises, the students should say that first you need to do a warm-up, pick up exercises. In simple words, our children are waiting for the command, waiting for what

exercise we will show, only after that they begin to do it. There is a saying: “If there is a power, you don’t need a mind!” Here they have strength, they perform exercises without thinking which muscles are involved, etc. Of course, the dynamics and density of the lesson today is higher, all teachers regret the time that will be spent on talking with the student, on what we will ask them, how do they understand why this is all being done. Through understanding, the child realizes why she/he will perform this exercise, how to do it correctly (García López and Kirk, 2021). Only by finding the solution to the problem, the student will be able to do everything correctly. Through understanding comes interest. The new standards will attract children to additional physical education classes, which is very relevant today. According to the new standards, the assessment of the subject does not take place according to the control standard, as it is now. The criteria are different, the child must be able to explain the exercise, decompose it into phases, explain to another student, know where this or that skill may come in handy in the future. The guys of the special and preparatory groups will, along with others, participate in the study of exercises, explain, tell. They may not fulfill the control standard if there are contraindications for this type of exercise. At the same time, their level of knowledge may not be lower than that of those who perform it. This will allow the children to provide equal conditions in the physical education lesson. Parents do not perceive the FC lesson as one of the main lessons - this is a big mistake for parents. Children who are involved in FC and sports are very skillful in managing their mental state. They are prepared for all the surprises in terms of learning, they perceive information more calmly. Of course, it is very good that parents find an opportunity to hire tutors, to improve their knowledge, but they do not understand that the child lacks a motor regimen, a regimen that gives life to our children. A physical education teacher should be a visual aid to a healthy lifestyle. Physical education is an opportunity not only to maintain the health of children, but also to teach them to love their health, and most importantly, the ability of the teacher to put the conviction into the heads of the children that physical education also contributes to full-fledged mental development. At the lessons of physical culture, to one degree or another, all the main tasks of physical education are solved, which follow from the general goal of the educational process, to raise the younger generation, ready for highly productive work, defense of the Motherland and participation in the socio-political life of the country. And remember, our ancestors did not say in vain: “A healthy mind in a healthy body!”.

**References:**

1. Armour, K. (2017). *Sport pedagogy: An introduction for teaching and coaching*. Routledge.

2. Chatziefstathiou, D. (2013). What is ‘sport pedagogy’ and why study it?. *Sport Pedagogy*, 29–41. https://doi.org/10.4324/9781315847108-9

3. García López, L. M., & Kirk, D. (2021). Coaches’ perceptions of sport education: A response to precarity through a pedagogy of affect. *Physical Education and Sport Pedagogy*, *27*(4), 353–367. https://doi.org/10.1080/17408989.2021.1891211

4. Jung, H. (2018). When sport pedagogy met sport coaching: Exploration of the direction of sport pedagogy through discourse analysis. *Korean Journal of Sport Pedagogy*, *25*(3), 85–108. https://doi.org/10.21812/kjsp.2018.07.25.3.85

5. Light R.L. & Harvey, S. (2016). An outline of positive pedagogy for sport coaching. *Positive Pedagogy for Sport Coaching*, 21–32. https://doi.org/10.4324/9781315443720-9

6. Penney, D., & McMahon, J. (2015). High-performance sport, learning and culture: new horizons for sport pedagogues? *Physical Education and Sport Pedagogy*, *21*(1), 81–88. https://doi.org/10.1080/17408989.2015.1072511

7. Pollard, AJ. (2010). Professionalism and Pedagogy: a contemporary opportunity. Teaching and Learning Research Programme. Retrived from http://www.tlrp.org/pub/documents/TLRPGTCEProf&Pedagogy.pdf

8. Rawling, S., Russell-Bowie, D., Pangrazi, R. P., Beighle, A., Meldrum, K., Peters, J., Armour, K. M., Tinning, R., McCuaig, L., & Hunter, L. (2013). *Learning to teach the creative arts and personal development, health, and Physical Education in the Primary School*. Pearson Australia.

9. Renshaw, I., & Chow, J.-Y. (2018). A constraint-led approach to sport and Physical Education Pedagogy. *Physical Education and Sport Pedagogy*, *24*(2), 103–116. https://doi.org/10.1080/17408989.2018.1552676

## MÜASİR TƏHSİL SİSTEMİNDƏ BİLİK İQTİSADİYYATI VƏ ONUN PERSPEKTİVLƏRİ

**Kazımlı Fəridə Elçin**
**Azərbaycan Respublikasının Təhsil İnstitutu**
**https://orcid.org/0000-0002-1503-6888**
**kazimliferide98@gmail.com**

## THE ECONOMY OF KNOWLEDGE AND ITS PROSPECTS IN THE MODERN EDUCATION SYSTEM

**Kazimli Farida Elchin**
**Institute of Education of the Republic of Azerbaijan**
**https://orcid.org/0000-0002-1503-6888**
**kazimliferide98@gmail.com**

**Summary**

The concept of the knowledge economy has gained importance in recent years as societies move into a more information-based and technologically advanced era. The knowledge economy is characterized by its reliance on knowledge, information, and technology as key drivers of economic growth, innovation, and competitiveness. This thesis examines the role of the knowledge economy in modern society. It highlights key features, including knowledge-based industries, intellectual capital, innovation, and collaboration. It highlights the economic, social, and environmental benefits associated with the knowledge economy, such as job creation, increased productivity, sustainable development, and global collaboration. Difficulties related to the transition to the knowledge economy, such as overcoming the digital divide and ensuring equal access to education and technology, were also mentioned. Overall, this thesis is a brief overview of the role and importance of the knowledge economy in shaping the future of societies and economies worldwide.

**Key words:** knowledge economy, education, technology, innovation, social.

# ЭКОНОМИКА ЗНАНИЙ И ЕЕ ПЕРСПЕКТИВЫ В СОВРЕМЕННОЙ СИСТЕМЕ ОБРАЗОВАНИЯ

**Фарида Эльчин Казимли**
**Институт Образования Азербайджанской Республики**
**https://orcid.org/0000-0002-1503-6888**
**kazimliferide98@gmail.com**

**Резюме**

Концепция экономики знаний приобрела значение в последние годы по мере того, как общества вступают в эпоху более информационного и технологически продвинутого развития. Экономика знаний характеризуется тем, что она опирается на знания, информацию и технологии как на ключевые движущие силы экономического роста, инноваций и конкурентоспособности. В тезисе рассматривается роль экономики знаний в современном обществе. В нем выделяются ключевые особенности, в том числе отрасли, основанные на знаниях, интеллектуальный капитал, инновации и сотрудничество. В нем подчеркиваются экономические, социальные и экологические преимущества, связанные с экономикой знаний, такие как создание рабочих мест, повышение производительности, устойчивое развитие и глобальное сотрудничество. Также были упомянуты трудности, связанные с переходом к экономике знаний, такие как преодоление цифрового разрыва и обеспечение равного доступа к образованию и технологиям. В целом, этот тезис представляет собой краткий обзор роли и значения экономики знаний в формировании будущего общества и экономики во всем мире.

**Ключевые слова:** экономика знаний, образование, технологии, инновации, социальные.

“Bilik iqtisadiyyatı” termini bilik və məlumatların istehsalı, yayılması və istifadəsinin iqtisadi artım və inkişafda aparıcı rol oynadığı iqtisadi sistemə aiddir. Bilik iqtisadiyyatının əsas elementi innovativ ideyaların, məlumatların və təcrübələrin mənbəyi üçün insan kapitalından və əqli mülkiyyətdən daha çox istifadə etməkdir. Əsasən fiziki resurslara və əməyə əsaslanan ənənəvi iqtisadiyyatlardan fərqli olaraq, bilik iqtisadiyyatı intellektual imkanlara, innovasiyalara və informasiyaya əsaslanan fəaliyyətlərə daha çox diqqət yetirir. Bu dəyişiklik ilk növbədə texnologiyadakı irəliləyişlərin və müxtəlif sənayelərdə bilik və məlumatın artan əhəmiyyətinin nəticəsidir.

Bilik iqtisadiyyatı hələ özünün ilkin inkişaf mərhələsindədir, lakin o, artıq bizim yaşayış və iş tərzimizə dərin təsir göstərir. Bilik iqtisadiyyatı böyüməyə davam etdikcə, çox güman ki, ətrafımızdakı dünya ilə qarşılıqlı əlaqəmizdə daha çox dəyişikliklərə səbəb olacaq.

Bilik iqtisadiyyatı işçi qüvvəsi arasında yüksək səviyyəli təhsil və bacarıq, tədqiqat və inkişafa xüsusi diqqət, informasiya və kommunikasiya texnologiyalarına etibar, istehsaldan xidmətlərə keçid, eyni zamanda yenilik və yaradıcılığa daha çox önəm verən xüsusiyyətlərlə xarakterizə olunur.

Bilik iqtisadiyyatının rolu çoxşaxəlidir və cəmiyyətin müxtəlif aspektlərinə əhəmiyyətli təsir göstərir. Bunları aşağıdakı kimi sıralaya bilərik:

- *Məhsuldarlığı və iqtisadi artımı yüksəldir:* Bilik iqtisadiyyatı məhsuldarlığın və iqtisadi artımın yüksəlməsinə səbəb olan yeni biliklərin yaradılması və tətbiqinə əsaslanır.
- *Həyat keyfiyyətini yaxşılaşdırır:* Bilik iqtisadiyyatı yeni iş yerləri və imkanlar yaradır ki, bu da insanların həyat səviyyəsinin yaxşılaşmasına səbəb ola bilər.
- *Sosial hərəkətliliyi təşviq edir:* Bilik iqtisadiyyatı insanlara sosial nərdivanda yüksəlməyə kömək edə biləcək bacarıq və biliklər qazandırır.
- *Daha davamlı mühit yaradır:* Bilik iqtisadiyyatı fiziki resurslardan daha çox bilik və məlumatların istifadəsinə əsaslandığı üçün çirklənməni və resurs istehlakını azaltmağa kömək edə bilər.

**Bilik iqtisadiyyatının üstünlükləri.**

Bilik iqtisadiyyatı daim inkişaf edən mürəkkəb və dinamik sistemdir. Bununla belə, aydındır ki, bilik iqtisadiyyatı cəmiyyətdə getdikcə daha mühüm rol oynayır. Hələ özünün ilkin inkişaf mərhələsindədir, lakin o, artıq bizim yaşayış və iş tərzimizə dərin təsir göstərir. Bilik iqtisadiyyatının bəzi əsas rolları və töhfələri bunlardır:

- *Biliyə əsaslanan sənayelər:* İnformasiya texnologiyaları, tədqiqat və inkişaf, telekommunikasiya, maliyyə, təhsil və kreativ sənayelər kimi bilik tutumlu sektorlar iqtisadi artıma mühüm töhfə verir.
- *İntellektual kapitala üstünlük vermək:* İnsan kapitalı, struktur kapitalı (təşkilati proseslər, patentlər və məlumat bazaları) və əlaqəli kapitalı (şəbəkələr və əlaqələr) özündə birləşdirən intellektual kapital təşkilatlar üçün kritik aktivə çevrilir.
- *İnnovasiya və tədqiqat:* İnnovasiya və tədqiqat fəaliyyəti böyümə və rəqabət qabiliyyətinin əsas hərəkətverici qüvvəsidir. Tədqiqat və inkişafa investisiya dəyər yarada bilən və iqtisadi tərəqqiyə səbəb ola biləcək yeni məhsullar, proseslər və xidmətlərin inkişafı üçün vacibdir.
- *İnformasiya və kommunikasiya texnologiyaları (İKT):* İKT infrastrukturu və rəqəmsal texnologiyalar bilik iqtisadiyyatının əsas imkanlarıdır. Onlar biliyin yaradılmasını, paylaşılmasını və yayılmasını asanlaşdırır, həmçinin müxtəlif sektorlarda məhsuldarlığı və səmərəliliyi artırır.
- *İntellektual işçi qüvvəsi:* Bilik iqtisadiyyatında işçi qüvvəsi mürəkkəb problemlərin həlli üçün bilik yaratmaq, təhlil etmək və tətbiq etmək qabiliyyətinə malik yüksək ixtisaslı və təhsilli şəxslərdən ibarətdir. Bu işçilər çox vaxt davamlı öyrənmə və peşəkar inkişaf tələb edir.
- *Əməkdaşlıq və bilik mübadiləsi:* Fərdlər, təşkilatlar və qurumlar arasında əməkdaşlıq və bilik mübadiləsi innovasiya və tərəqqi üçün mühüm əhəmiyyət kəsb edir. İdeya və məlumat mübadiləsini təşviq etmək üçün açıqlıq, şəbəkələşmə və tərəfdaşlıq təşviq edilir.

**Bilik iqtisadiyyatının çətinlikləri.**

Bilik iqtisadiyyatına keçidin bəzi çətinlikləri də mövcuddur. Faydalar əhəmiyyətli olsa da, biliyə əsaslanan iqtisadi modelin potensialından uğurla istifadə etmək üçün aşağıdakı problemlərin həlli vacibdir:

- *Rəqəmsal uçurum:* Rəqəmsal infrastruktura, informasiyaya və texnologiyaya qeyri-bərabər çıxış rəqəmsal uçurum yarada bilər. Sosial-iqtisadi qeyri-bərabərlik müəyyən əhalinin bilik iqtisadiyyatında tam iştirak etmək imkanlarını məhdudlaşdıra bilər ki, bu da daha çox marjinallaşmaya və xaric edilməsinə gətirib çıxarır.
- *Dəyişikliyə qarşı müqavimətin aradan qaldırılması*: Ənənəvi iqtisadiyyatdan bilik iqtisadiyyatına keçid qurulmuş sənayelərin, bürokratik strukturların və mədəni normaların müqaviməti ilə üzləşə bilər. Belə kontekstlərdə innovasiyaların və biliyə əsaslanan yanaşmaların əhəmiyyətini vurğulamaq çətin ola bilər.
- *Sosial-iqtisadi təsirlər:* Bilik iqtisadiyyatı iqtisadi artım və inkişaf üçün imkanlar yarada bilsə də, düzgün idarə olunmasa, iş yerlərinin dəyişdirilməsinə və sosial bərabərsizliyə də səbəb ola bilər. Təsirə məruz qalan işçilərin yenidən ixtisas və bacarıqların artırılması proqramları vasitəsilə dəstəklənməsi potensial mənfi təsirləri azaltmaq üçün çox vacibdir.
- *Qlobal əməkdaşlıq və milli maraqların tarazlaşdırılması:* Əlaqəli dünyada əməkdaşlıq inkişaf edən bilik iqtisadiyyatı üçün vacibdir. Bununla belə, ölkələr beynəlxalq əməkdaşlıq, strateji sənayelərin və əqli mülkiyyətin qorunması kimi milli maraqların qorunması arasında tarazlıq yaratmalıdırlar.
- *Bilik və məlumat əldə etmək:* Bilik iqtisadiyyatında dəqiq və etibarlı məlumatın mövcudluğu məlumatlı qərarların qəbulu üçün vacibdir. Biliyə açıq çıxışın təmin edilməsi, informasiya asimmetriyasının azaldılması və dezinformasiyaya qarşı mübarizə davamlı problemlərdir.

**Azərbaycanda bilik iqtisadiyyatı.**

Azərbaycan iqtisadi artımı və inkişafı təmin etmək məqsədilə bilik iqtisadiyyatına keçid üçün fəal işləyir. Ölkə biliyə əsaslanan sənayelərin və texnologiyaya əsaslanan innovasiyaların əhəmiyyətini uzunmüddətli davamlı artıma nail olmaq üçün əsas amillər kimi qəbul etmişdir. Azərbaycanda bilik iqtisadiyyatının bəzi aspektləri bunlardır:

- *İqtisadiyyatın şaxələndirilməsi:* Azərbaycan biliyə əsaslanan sənayeləri təşviq etməklə öz iqtisadiyyatını neft və qazdan asılılıqdan uzaqlaşdırmaq məqsədi daşıyır. Hökumət informasiya texnologiyaları, telekommunikasiya, turizm və kreativ sənaye kimi sektorları inkişafın prioritetləri kimi müəyyən edib.
- *Rəqəmsal infrastruktur və əlaqə:* Azərbaycan rəqəmsal infrastrukturun inkişafına, o cümlədən, genişzolaqlı əlaqənin təkmilləşdirilməsinə və internetə çıxışın genişləndirilməsinə sərmayə qoyub. Bu infrastrukturun inkişafı bilik iqtisadiyyatının böyüməsini asanlaşdırmaq və müxtəlif sənayelərin rəqəmsal transformasiyasını təmin etmək üçün çox vacibdir.
- *İnnovasiya və sahibkarlıq:* Hökumət müxtəlif təşəbbüslər vasitəsilə innovasiya və sahibkarlığı fəal şəkildə dəstəkləyir. Texnologiya parklarının, innovasiya mərkəzlərinin və inkubasiya proqramlarının yaradılması innovasiya mədəniyyətini inkişaf etdirmək və startaplara və biliyə əsaslanan bizneslərə dəstək vermək məqsədi daşıyır.
- *Təhsil və tədqiqat:* Azərbaycan öz təhsil sistemini təkmilləşdirməyə, tədqiqat və təkmilləşdirmə fəaliyyətini təşviq etməyə diqqət yetirmişdir. Hökumət işçi qüvvəsinin bacarıq və biliklərini artırmaq üçün təhsilə, xüsusən də STEM sahələrinə investisiyaları artırıb. Universitetlər, tədqiqat institutları və özəl sektor arasında əməkdaşlıq da biliklərin yaradılması və ötürülməsini təşviq etmək üçün təşviq edilir.
- *Rəqəmsal bacarıqların inkişafı:* Bilik iqtisadiyyatında rəqəmsal bacarıqların əhəmiyyətini dərk edərək, Azərbaycan rəqəmsal savadlılığın və bacarıqların inkişafının təkmilləşdirilməsi üçün təşəbbüslərə sərmayə qoyur. Fərdləri rəqəmsal dövr üçün lazımi bacarıqlarla təchiz etmək, təlim proqramları və təhsil imkanları ilə təmin etmək üçün səylər göstərilir.
- *Beynəlxalq əməkdaşlıq:* Azərbaycan qlobal bilik və təcrübədən istifadə etmək üçün fəal şəkildə beynəlxalq əməkdaşlıq və tərəfdaşlıq axtarır. Beynəlxalq təşkilatlarla əməkdaşlıq, tədqiqat və innovasiya proqramlarında iştirak, beynəlxalq konfrans və forumlarda iştirak bilik mübadiləsinə və ən yaxşı təcrübələrin mübadiləsinə töhfə verir.
- *Startap ekosistemi:* Azərbaycan sahibkarlıq və innovasiyaları təşviq etmək üçün canlı startap ekosistemini inkişaf etdirir. Biliyə əsaslanan startapları yetişdirmək və inkişaf etdirmək üçün startap inkubatorları, akseleratorlar və maliyyə dəstəyi proqramları kimi təşəbbüslər yaradılmışdır.

Azərbaycan bilik iqtisadiyyatına doğru yolda irəliləyiş əldə etsə də, problemlər hələ də qalmaqdadır. Bunlara təhsilə və tədqiqata davamlı investisiya ehtiyacı, kənd yerlərində rəqəmsal infrastrukturun təkmilləşdirilməsi, bacarıq çatışmazlığının aradan qaldırılması, innovasiya və risk alma mədəniyyətinin təşviqi daxildir.

Nəticə olaraq, bilik iqtisadiyyatı 21-ci əsrdə cəmiyyətlərin və iqtisadiyyatların fəaliyyət tərzini yenidən formalaşdıran transformasiyaedici qüvvədir. Bilik iqtisadiyyatı insan potensialının, iqtisadi artımın və cəmiyyətin rifahının yeni sərhədlərini açmaq gücünə malikdir. Onun prinsiplərini qəbul etmək və onun problemlərini həll etmək biliyin tərəqqinin, rifahın və daha bir-biri ilə əlaqəli və dayanıqlı dünyanın əsas hərəkətvericisinə çevrildiyi gələcəyə yol açacaq. Bilik iqtisadiyyatının potensialını maksimum dərəcədə artırmaq üçün təhsilə, tədqiqata və rəqəmsal infrastruktura sərmayə qoyulması böyük əhəmiyyət kəsb edir.

**Ədəbiyyat:**

1.Choong, K.K., Leung, P.W. (2022) “A Critical Review of the Precursors of the Knowledge Economy and Their Contemporary Research: Implications for the Computerized New Economy”. Journal

of the Knowledge Economy 13:1573–1610 https://link.springer.com/article/10.1007/s13132-021-00734-9#citeas

2. Valehov C. (2010) "Biliklər iqtisadiyyatı və innovasiya", "Azərbaycan müəllimi" jurnalı https://www.muallim.edu.az/www.old/arxiv/2010/23/13.htm

3. CFI Team "Knowledge Economy"https://corporatefinanceinstitute.com/resources/economics/knowledge-economy/

4. United Nations Development Programme (2018) "Knowledge Economy Azerbaijan" National Concept Note https://www.undp.org/sites/g/files/zskgke326/files/migration/az/UNDP-AZE-KNOW-LEDGE -ECONOMY-AZERBAIJAN-2018.pdf

# İBTİDAİ SİNİF SƏVİYYƏSİNDƏ TƏLİM ÇƏTİNLİKLƏRİNİN ÜMUMİ XÜSUSİYYƏTLƏRİ

**Məmmədova Ayşən Kənan**
**Azərbaycan Dillər Universiteti**
**https://orcid.org/0009-0001-5144-1581**
**aysenmemmedova99@mail.ru**

# GENERAL CHARACTERISTICS OF LEARNING DIFFICULTIES AT PRIMARY CLASS LEVEL

**Mammadova Ayshan Kanan**
**Azerbaijan University of Languages**
**https://orcid.org/0009-0001-5144-1581**
**aysenmemmedova99@mail.ru**

**Summary**

The purpose of this report is to explore the general characteristics of learning difficulties that may exist in elementary school students. One of the highest tasks facing the modern education system is to take certain steps in the direction of detection and elimination of learning difficulties, which are constantly increasing in number today. In order to properly perform this task, the general characteristics of students with learning difficulties must first be deeply studied, and then the forms and methods of support to students with learning difficulties must be determined. The teacher's pedagogical knowledge in this area is very important for early identification of learning difficulties and taking necessary measures in time. From this point of view, the report firstly mentions the unique features of each learning difficulty, and looks at the similar and different features between them.

**Keywords:** Primary education, learning difficulties, pedagogical work.

# ОБЩАЯ ХАРАКТЕРИСТИКА ТРУДНОСТЕЙ ОБУЧЕНИЯ НА УРОВНЕ НАЧАЛЬНОГО КЛАССА

**Мамедова Айшан Канан**
**Азербайджанский Университет Языков**
**https://orcid.org/0009-0001-5144-1581**
**aysenmemmedova99@mail.ru**

**Резюме**

Целью данного отчета является изучение общих характеристик трудностей в обучении, которые могут существовать у учащихся начальной школы. Одной из высочайших задач, стоящих перед современной системой образования, является принятие определенных мер в направлении выявления и устранения трудностей в обучении, число которых сегодня постоянно увеличивается. Для правильного выполнения этой задачи необходимо сначала глубоко изучить общие характеристики учащихся с трудностями в обучении, а затем определить формы и методы поддержки учащихся с трудностями в обучении. Педагогические знания учителя в этой области очень важны для раннего выявления трудностей в обучении и своевременного принятия необходимых мер. С этой точки зрения в отчете сначала упоминаются уникальные особенности каждой трудности обучения, а также рассматриваются сходные и различные черты между ними.

**Ключевые слова:** начальное образование, трудности в обучении, педагогическая работа.

Müasir günümüzdə ibtidai təhsil səviyyəsində təlim çətinliklərinin aşkarlanması və aradan qaldırılması istiqamətində müəyyən addımların atılması müasir təhsil sisteminin qarşısında duran ən ali vəzifələrdən biridir. Bu vəzifənin layiqincə icrası üçün əvvəla təlim çətinlikləri olan şagirdlərin ümumi xüsusiyyətləri dərindən tədqiq edilməlidir. Bu isə mövzunu kifayət qədər aktual edir. Beləliklə, ibtidai sinif səviyyəsində mövcud olan təlim çətinliklərinə disleksiyə, disqrafiya, diskalkuliya və dispraksiya daxildir. Disleksiya – oxuma və öyrənmə pozuntusudur. Disleksiyalı uşaqda mövcud olan başlıca problem hafizə və nitqin lazımi qədər inkişaf etməməsi ilə əlaqədardır (Badian, 1992).

Disleksiya oxuma, dinləmə, danışma, yazı və öz fikrini ifadə etmə zamanı özünü büruzə verən öyrənmə problemidir. İnsanlar arasında belə bir fikir mövcuddur ki, disleksiya problemi olan uşaqlarda zəka probleminin mövcud olma ehtimalı kifayət qədər yüksəkdir. Lakin aparılmış araşdırmalar bu fikri əsaslı şəkildə təkzib edir. Bunun əksi olaraq sübut edilmişdir ki, kifayət qədər güclü zəkaya malik uşaqlarda belə disleksiya probleminə rast gəlmək olur. Disleksiyanın özünəməxsus bir sıra növləri mövcuddur ki, bunlar da öz növbəsində anadangəlmə və sonradan yaranan, inkişaf və zədə alma ilə bağlı olaraq xarakterizə olunur.

Disqrafiya – yazı bacarıqlarına təsir edən bir öyrənmə pozuntusudur. Disqrafiya daha çox yazı çətinlikləri zamanı, zəif əlyazma halı mövcud olduqda və düşüncələri kağıza köçürmədə müəyyən çətinliklərlə özünü göstərə bilər (Telzrow and Bonar, 2002). Müəyyən edilmişdir ki, disqrafiya xüsusiyyətlərini özündə daşıyan uşaqların yazısı çətin oxunaqlı və ya bir çox hallarda tamamilə oxunaqsız olur. Bununla yanaşı, onlarda cümlə qurma zamanı əsaslı çətinliklər, sözləri yazarkən onlar arasında ya həddindən çox boşluq buraxma, ya da sözləri boşluq buraxmadan, bitişik şəkildə yazma halları müşahidə edilir.

“Disqrafiya” yazılı surətdə öz fikirlərini ifadə etməkdə lazımi bacarığın mövcud olmamasıdır. Ümumiyyətlə, bu hal uşağın çox pis əlyazısında və qeyri-dəqiq ifadələrində müşahidə olunur. Başqa dillə desək, disqrafiya uşaqda yazı bacarığının olmaması ilə xarakterizə olunan nevroloji problemlərdən biridir. Disqrafiya əsasən uşaqlarda 1-ci dəfə yazı ilə tanış olduqları zaman ortaya çıxır. Bu zaman uşaq müəllimin göstərişlərinə baxmayaraq, ölçüsü standartlara uymayan, seyrək hərflərlə və yaxud yazılışı orfoqrafik qaydalara istinad etməyən sözlər yazır. Bu xəstəliyi olan uşaqların əsasən sosial və ya digər akademik problemlərinin olmasından əlavə, onlarda digər öyrənmə problemləri də mövcud ola bilər. Böyüklərdə mövcud olan disqrafiya halları isə ümumiyyətlə bəzi travmalardan sonra baş verir. Əsasən psixoloji travmalardan sonra meydana gələn disqrafiya hallarının sayı cəmiyyətimizdə kifayət qədər çoxdur. Pis əlyazma ilə yanaşı, disqrafiya düzgün yazılmalı sözlərin əvəzinə yanlış olan sözlərin istifadə edilməsi ilə müşahidə olunur (yəni, “uşaq” sözünün əvəzinə “qız” istifadə etməklə). Bu kimi halların aradan qaldırılması üçün yerində, düzgün diaqnoz qoyulmalı və profilaktik işlər aparılmalıdır.

Diskalkuliya – Dyscalculia termini yunan dilindən (dys / bad) və latınca (calculare / count) sözlərindən götürülmüşdür. Belə ki, dyscalculia, bir insanın rəqəmləri anlamaq və ya istifadə etmək üçün intuitiv

qabiliyyətini özündə daşıyan genetik öyrənmə məhdudiyyəti kimi qəbul edilir. Diskalkuliya, IQ spektri əsasında zamanı, ölçünü və məkanı anlamaqda ciddi problemlərlə qarşılaşan uşaqlarda mövcud ola bilər.

Diskalkuliyası olan uşaqlar sadə nömrə konsepsiyalarını belə dərk etməkdə çətinlik çəkirlər. Belə ki, digər uşaqlardan fərqli olaraq sözügedən qrupa daxil olan uşaqlar üçün nömrələrin intuitiv yolla başa düşülməsi olduqca qəliz bir prosesdir. Bu isə uşaqların ədədləri qavramanın üsul və yollarını öyrənməkdə müəyyən çətinliklə qarşılaşmalarına səbəb olacaqdır (Stein, Klin, and Miller, 2004) Müasir təhsil sisteminə nəzərən diskalkuliyaya "ədədlər üçün disleksiya" deyə bilərik. Diskalkuliyanın uşaqda yaranma səbəbləri və ya aradan qaldırılması istiqamətində lazımi tədbirlərin görülməsi ilə bağlı, təəssüf ki, elmdə çox az məlumat mövcuddur. Bir çox diskalkuliyası olan uşaqların dərketmə və dil bacarıqları vardır, hansı ki, onlar "normal" diapazonun xaricində yerləşirlər. Diskalkuliya xüsusiyyətlərinə malik olan uşaqlar riyazi fənlərdə digər şagirdlərdən daha üstün mövqe tuta bilirlər.

Dispraksiya (hərəkət koordinasiyasının pozulması) – insanın sadə hərəkətlərinin planlaşdırma və praktikada tətbiqetmə qabiliyyətinə təsir edən nevroloji pozuntudur. Dispraksiyası olan uşaqlarda tez-tez nitq problemləri olur, bəzən düşünmə və qavrayışda müəyyən çətinliklər çəkirlər. İnkişaf edən dispraksiya, hərəkətin təşkilinin yerinə yetirilə bilinməməsinə səbəb olur. Bu zaman beyin sinir neyronlarının tam ötürülməsini təmin və emal etmir. Dispraksiyası olan uşağın nəyi, necə və yerli-yerində edə biləcəyini öncədən müəyyənləşdirməsi və buna istinadən davranması olduqca çətindir. Bu hal dərs prosesindən də yan keçmir. İbtidai təhsil səviyyəsində dispraksiyalı uşaqlarla iş aparmaq məsuliyyətli və bir o qədər də çətindir. Çünki, bu uşaqların nəyi nə zaman edəcəklərini təxmin etmək bir çox hallarda mümkün olmur. Qəflətən verilmiş reaksiya dərsin gedişatını poza və digər uşaqların diqqətini dərsdən yayındıra bilər.

Dispraksiyalı uşaqlar hərəkət pozuntusundan və inkişafdan yayınma hallarından əziyyət çəkdikləri üçün insanların gözündə nataraz görünürlər. Balans və koordinasiya ilə əlaqəli olan ağır hərəkət koordinasiyası və əşyaların manipulyasiyası ilə əlaqəli yüngül motorikası olan uşaqların həyati biliklərə yiyələnməsi, eyni zamanda öyrəndikləri bilikləri yadda saxlamaları və ümumiləşdirmələri kifayət qədər çətin prosesdir (Bigler, 1989). Məhz bu səbəbdən uşaqlar üçün yazı bacarıqlarına yiyələnmək çətin olmaqla yanaşı vaxt aparır. Dispraksiyalı uşaqlar üçün kompüter klaviaturasından istifadə etmə, fleyta və bu kimi digər musiqi alətlərində ifa etmək zaman keçdikcə daha da çətinləşir. Onlar eyni zamanda tələffüz prosesində də müəyyən çətinliklərlə qarşılaşa bilərlər. Müəyyən edilmişdir ki, dispraksiyalı uşaqlar hələ erkən yaş dövründən etibarən otaqdakı səs-küyə, işığa qarşı həssaslıq nümayiş etdirirlər. Onlar öz mövqelərini zəif hiss edərək xüsusi təlim çətinlikləri olan digər uşaqlarla bir çox ümumi xüsusiyyətlərə sahib olurlar.

Dispraksiyalı uşaqların intonasiyası aydın, axıcı və səlis olmadığı kimi, məhdud lüğətə sahibdirlər (Little, 1993). Belə ki, onlar digər uşaqlara nisbətən daha yavaş, fasiləli surətdə öz fikirlərini ifadə edə bilirlər və bu zaman zəngin söz ehtiyatına sahib olmadıqları üçün yanlızca sadə sözlərdən istifadə edə bilirlər. Araşdırmalara görə, təlim prosesində dispraksiyalı uşaqlar suallara cavab verməkdə digər uşaqlara nisbətən ləngik nümayiş etdirirlər. Səslər çıxarmaqda, normal intonasiyanı qorumaqda çətinlik çəkə, səs və ya söz ardıcıllığına riayət edə bilmirlər. Bu isə dərs prosesinin gedişatına öz mənfi təsirini göstərir. Bu problem yalnızca müəllimin pedaqoji səriştəliliyi əsasında aradan qaldırıla bilər. Məsələn, peşəkar müəllim ibtidai təhsil səviyyəsində dərs prosesi zamanı dispraksiyalı uşaqdan öncəki dərsi sorğu-sual edərkən səbr göstərir və doğru cavabın tez bir zamanda alınması üçün alternativ variantlardan istifadə etməyi bacarır.

Dispraksiyalı uşaqda aşağıda qeyd olunmuş çətinliklərin yaranması mümkündür:

Ayaqqabı bağlarını, düymələri bağlamaq, yemək yeyərkən bıçaq, çəngəl və qaşıq kimi əşyalardan istifadə etməkdə problemlər; Uşaq meydançalarında digər həmyaşıdları kimi oyun oynamaq, topu tutmaq, atmaq, qarşısına çıxan maneəni dəf etmək və hoppanmaq kimi oyun hərəkətlərini yerinə yetirməkdə yarana biləcək problemlər; Düşüncələri emal etməkdə mövcud olan problemlər; Konsentrasiya zamanı mövcud

olan çətinliklər. Belə ki, uşaq digər uşaqlardan daha çox narahatlıq nümayiş etdirir. Hətta bəziləri pilləkənlərdən enməkdə çətinlik çəkirlər. Toqquşma, yıxılma halları ola bilər. Sözügedən çətinliklərin aradan qaldırılması üçün müəllim, məktəb rəhbərliyi və ailənin qarşılıqlı əməkdaşlığının ən vacib məqamlardan biri olduğunu nəzərə alaraq ümumtəhsil məktəblərində diqqət mərkəzində saxlanılmalı və riayət edilməlidir.

Təlim çətinlikləri olan şagirdlərə qarşı həssas yanaşmaq və onların mövcud problemlərini aradan qaldırmaq istiqamətində müvafiq işlərin aparılmasında ən böyük vəzifə elə birbaşa olaraq müəllim kollektivinin üzərinə düşür. Belə ki, disleksiya, disqrafiya, diskalkuliya, dispraksiya kimi təlim çətinlikləri olan və digər xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün əlverişli mühitin yaradılması müasir təhsilin qarşısında duran ən ali məqsədlərdən biridir.

Təklif edirik ki, təlim çətinlikləri olan uşaqlarla işləyərkən müəllimlər təhsildə müəyyən maneələrlə üzləşən şagirdlər də daxil olmaqla, bütün uşaqların özlərini sinifdə dəyərli və vacib hesab etmələrini təmin etsinlər. Bundan əlavə olaraq müəllimlər nəyisə bir neçə dəfə və müxtəlif formalarda izah etməlidir. Belə ki, materialı bəzi hallarda bütün sinif, bəzən qrup və həmçinin, təlim çətinliyi olan şagird üçün fərdi olaraq izah etmələri məqsədəuyğundur. Müəllim sinifdəki bütün uşaqlara öz bacarıq və biliklərini göstərməyə imkan verməli, özünəinamın aşağı düşməsinə yol verməməli, təlim çətinlikləri olan uşaqların da digər uşaqlar kimi dərs materialını tam surətdə qavramaları üçün böyük bir əzmlə çalışmalıdır.

**Ədəbiyyat:**


1. Badian, N. (1992). Nonverbal Learning Disability, School Behavior, and Dyslexia. *Annals of Dyslexia, 42*, 159–178.

2. Bigler, E. (1989). On the Neuropsychology of Suicide. *Journal of Learning Disabilities, 22,* 180–185.

3. Buka, S. (1998). A Researcher's View: Learning-Disabled Children Get Lost in Definitions. *Brown University Child & Adolescent Behavior Letter, 14,* 1–3.

4. Foss, J. (1991). Nonverbal Learning Disabilities and Remedial Interventions. *Annals of Dyslexia, 41*, 128–140.

5. Little, S. (1993). Nonverbal Learning Disabilities and Socioemotional Functioning: A Review of Recent Literature. *Journal of Learning Disabilities, 26,* 653–665.

6. Rourke, B. (1987). Syndrome of Nonverbal Learning Disabilities: The Final Common Pathwway of White-Matter Disease/Dysfunction? *Clinical Neuropsychologist, 1,* 209–234.

7. Rourke, B., Ahmad, S., Collins, D., Hayman-Abello, B., Hayman-Abello, S. and Warriner, E. (2002). Child Clinical/Pediatric Neuropsychology: Some Recent Advances. *Annual Review of Psychology, 53,* 309–339.

8. Stein, M., Klin, A. and Miller, K. (2004). When Asperger's Syndrome and a Nonverbal Learning Disability Look Alike. *Pediatrics, 114, 5,* 1458–1463.

9. Telzrow, C. and Bonar, A. (2002). Responding to Students with Nonverbal Learning Disabilities. *Teaching Exceptional Children, 34,* 8–12.

# ELMİ SAVADLILIQ SƏRİŞTƏSİNİN FORMALAŞDIRILMASINDA TƏBİƏT FƏNNİNİN ROLU

**Ağacanlı Əli Xudaverdi**
**Azərbaycan Respublikasının Təhsil İnstitutu**
**https://orcid.org/0000-0001-6467-810X**
**a.agacanli@arti.edu.az**

# THE ROLE OF SCIENCE IN THE FORMATION OF SCIENTIFIC LITERACY COMPETENCE

**Aghajanli Ali Khudaverdi**
**Institute of Education of The Republic of Azerbaijan**
**https://orcid.org/0000-0001-6467-810X**
**a.agacanli@arti.edu.az**

**Summary**

The main goal of modern education reform is the formation of knowledge and skills in students according to the requirements of the time. The natural sciences have an important role in this work. In order to check the students' ability to apply the acquired knowledge to the explanation of familiar situations, we conducted a pedagogical experiment in the pilot classes. A total of 267 students from pilot and non-pilot classes at six schools were involved in the experiment. According to them, tasks were presented on the topics they learned from the natural sciences. The article provides a statistical analysis of situational tasks presented to students during the experiment. As a result of our research, it was found that natural science plays an important role in the development of students' ability to apply their acquired knowledge to everyday life issues, that is, in the formation of scientific literacy competence.

**Keywords:** scientific literacy, science, situational tasks, pilot classes, 5E model.

# РОЛЬ ЕСТЕСТВЕННЫХ НАУК В ФОРМИРОВАНИИ КОМПЕТЕНЦИИ НАУЧНОЙ ГРАМОТНОСТИ

**Агаджанлы Али Худаверди**
**Институт Образования Азербайджанской Республики**
**https://orcid.org/0000-0001-6467-810X**
**a.agacanli@arti.edu.az**

**Резюме**

Основная цель современной реформы образования – формирование у учащихся знаний и умений согласно требованиям времени. Важную роль в этой работе играют естественные науки. С целью проверки умения учащихся применять полученные знания для объяснения знакомых ситуаций мы провели педагогический эксперимент в пилотных классах. Всего в эксперименте приняли участие 267 учащихся пилотных и не пилотных классов 6 школ. Соответственно, им были предложены задания, связанные со знаниями, полученными из естественных наук. В статье представлен статистический анализ ситуационных задач, предъявляемых учащимся в ходе эксперимента. В результате нашего исследования установлено, что предмет «Природа» играет важную роль в развитии способности у учащихся применять полученные знания в вопросах повседневной жизни, то есть в формировании компетенции научной грамотности.

**Ключевые слова**: научная грамотность, природа, ситуационные задачи, пилотные классы, 5E.

Elmi savadlılıq anlayışı elmə daxil edildikdən bu günə qədər beynəlxalq təhsil ictimaiyyətinin araşdırdığı ən aktual problemlərdən birinə çevrilmişdir. Belə ki, o, şagirdlərdən elmi araşdırmanın məqsədi və təbiət haqqında etibarlı biliklər yaratmaq üçün müəyyən qədər anlayışa malik olmağı tələb edir [Ağacanlı, Ə. 2023a, Ziman, J.1978].

Qeyd edək ki, şagirdlərdə elmi savadlılıq səriştəsinin formalaşdırılması, inkişaf etdirilməsi və qiymətləndirilməsi istiqamətində xeyli miqdarda beynəlxalq tədqiqatlar mövcuddur. Cəsarətlə demək olar ki, bu gün elmi savadlılıq anlayışı geniş şəkildə tanınan təhsil anlayışı olub, təbiət fənlərinin təliminin əsas məqsədinə çevrilmişdir [De Boer, G. E. 2011; Hodson, D. 2011, Ağacanlı, Ə. 2023a].

Sirr deyil ki, şagird nailiyyətlərinin qiymətləndirilməsi üzrə keçirilən beynəlxalq tədqiqatlarda (TIMSS, PISA) iştirak edən şagirdlərimizin birinci dəfə deyil ki, təbiət elmləri üzrə nəticələri ölkələr üzrə orta göstəricilərdən aşağı olur. Bu istiqamətdə apardığımız araşdırmalardan müəyyən olunmuşdur ki, şagirdlərimizin beynəlxalq qiymətləndirmə proqramlarında topladığı ballar yalnız deklorativ bilik tələb olunan sualları müsbət cavablandırmaları hesabına əldə edilmişdir. Onlar bu bilikləri təbiət və məişət hadisələrinə, real həyati situasiya problemlərinin həllinə tətbiq etməkdə isə ciddi çətinliklərlə qarşılaşmışlar. Bu da ondan irəli gəlir ki, ölkədə tətbiq olunan təbiət fənləri üzrə sabitləşmiş dərsliklərin məzmununda elmi savadlılıq bacarığının formalaşdırılmasına yönəlik təlim materialları ya heç verilmir, yaxud da az miqdarda sistemsiz təqdim olunur. Elmi savadlılığın formalaşdırılması üçün şagirdlər müxtəlif təbiət elmləri üzrə təməl biliklərdən savayı, bu bilikləri praktikaya tətbiq edə bilmək bacarığına da yiyələnməlidirlər [Ağacanlı, Ə. 2022 ].

Təbiət dərsliyi dörd fənnin (biologiya, fizika, kimya və fiziki coğrafiya) inteqrasiyasından ibarətdir. Ona görə də bu fənnin təliminin şagirdlərdə elmi savadlılıq səriştəsinin formalaşdırılması üçün əlverişli şərait yaradacağını güman etmək olar. Belə ki, dərslikdəki təlim materialları tədqiqat əsaslı olub 5E (Cəlbetmə (Engage), Araşdırma (Explore), İzahetmə (Explain), Möhkəmləndirmə (Elaborate), Qiymətləndirmə (Evaluate)) təlim modelinə uyğun verilmişdir. Şagirdlərə, demək olar, hər dərsdə akademik biliklə yanaşı, sadə praktik tədqiqatların aparılması təklif olunur. Beləliklə, kiçik elmi araşdırmalar aparmaq, nəticələri qiymətləndirmək və şərh edə bilmək üçün qazanılan biliklərlə yanaşı, şagirdlərdə tədqiqatçılıq bacarıqları da formalaşdırılır [Ağacanlı, Ə. 2023b].

Şagirdlərin qazanılan deklorativ bilikləri həyati situasiyaların izahına necə tətbiq etdiklərini müəyyən etmək üçün monitorinq zamanı yoxlayıcı pedaqoji eksperiment təşkil etdik. Eksperimentə 6 məktəbdən cəmi 267 şagird cəlb olundu. Bunlardan 129 şagird eksperimental sinif (pilot sinif) şagirdləri, 138 şagird isə kontrol sinif (qeyri-pilot sinif) şagirdləri idi.

Eksperiment zamanı eksperimental və kontrol sinif şagirdlərinə həmin dövrə qədər onlara tədris edilən mövzular üzrə eyni tapşırıqlar təqdim olundu. Həmin tapşırıqlardan situasiya tipli iki sualın statistik təhlili aşağıda verilmişdir. Hər iki tapşırıqda şagirdlərə iki açıq sual təqdim olunmuşdur. Birinci tapşırıq üzrə toplana biləcək maksimum bal 3, ikinci tapşırıq üzrə isə – 6 idi. Aşağıdakı cədvəldə hər məktəbdən şagirdlərin tapşırıqlar üzrə topladıqları balların cəmi verilmişdir.

***Cədvəl 1. Məktəblərin suallar üzrə göstəriciləri***

| **Məktəblər** | **Pilot sinif** | | **Kontrol sinif** | | **Ümumi nəticə** | |
|---|---|---|---|---|---|---|
| | I sual | II sual | I sual | II sual | Pilot | Kontrol |
| Ağcabədi 11№-li tam orta məktəb | 20 | 27 | 6 | 30 | 47 | 36 |
| Ağdaş 1№-li tam orta məktəb | 30 | 76 | 6.5 | 30 | 106 | 36.5 |
| Ləki 6№-li tam orta məktəb | 34,5 | 85 | 18 | 35 | 119.5 | 53 |
| Beyləqan 1№-li tam orta məktəb | 25 | 62 | 10 | 26 | 87 | 36 |
| Mingəçevir 11№-li tam orta məktəb | 24.5 | 68 | 22 | 55 | 92.5 | 77 |
| Mingəçevir 16№-li tam orta məktəb | 31.5 | 43 | 14 | 32 | 74.5 | 46 |

Cədvəldən görünür ki, pilot siniflərin hər iki tapşırıq üzrə nəticələri kontrol sinif şagirdlərinin göstəricilərini böyük fərqlə qabaqlayır.

Diaqram 1-də şagirdlərin topladığı balların toplana biləcək maksimum balların neçə faizini təşkil etdiyi göstərilir. Diaqramdan görünür ki, pilot sinif şagirdləri toplaya biləcəkləri maksimum balların 51 %-ni, kontrol sinif şagirdləri isə – 26 %-i qazana bilmişlər. Yəni, 2 sual üzrə maksimum 8 xaldan pilot sinif şagirdlərinin ümumi orta göstərici 4.08, kontrol sinif şagirdlərinin ümumi orta göstəricisi isə 2.04 xaldır. Bu o deməkdir ki, pilot sinif şagirdləri, onlara tanış olan situasiyalara kontrol sinif şagirdlərinə nisbətən daha yaxşı cavab vermişlər. Tapşırıqları düzgün cavablamaq üçün şagirdlərdən müşahidə aparmaq, nəticə çıxarmaq və sistemləşdirmək kimi tədqiqatçılıq bacarıqları nümayiş etdirmələri tələb olunurdu.

Beləliklə, pilot siniflərində şagirdlərin nəticələrinin daha yüksək olması, təbiət fəninin elmi savadlılıq bacarıqlarının formalaşdırılmasında effektiv rol oynadığını qeyd etməyə imkan verir.




Aparılan tədqiqatdan aşağıdakı nəticələr əldə edildi:

1. Sabitləşmiş təbiət fənləri dərsliklərində (biologiya, fizika, kimya və fiziki coğrafiya) qazanılan biliklərin həyati situasiyalara aid problemlərin həllinə yönəlik tapşırıqlar az verilir.

2. Təbiət elmlərinin (biologiya, fizika, kimya və fiziki coğrafiya) əsaslarına dair təlim materiallarının “Təbiət” dərsliyində fənlərarası inteqrasiyası, şagirdlərdə elmi savadlılıq bacarığının formalaşdırılmasına əlverişli şərait yaradır.

3. Təbiət fənninin tədrisində şagirdlərdə elmi savadlılığın inkişaf etdirilməsində dərsin müxtəlif mərhələlərində həyatla əlaqəli situasiya tapşırıqlarından istifadə edilməsi məqsədəuyğundur.

**Ədəbiyyat:**

1. Ağacanlı, Ə. (2023a) Elmi savadlılıq nədir və nə üçün vacibdir? // Təbiət Fənlərinin Təlimində Müasir Çağırışlar. ARTİ Elmi əsərləri, 90(2), 94-97.

2. Ağacanlı, Ə. (2022) İbtidai sinif şagirdlərində elmi savadlılıq bacarığının formalaşdırılması problemi. Doktorantların və Gənc Tədqiqatçıların XXV Respublika Elmi Konfransının Materialları, 170-173.

3. Ağacanlı, Ə. (2023b) Azərbaycan`da araştırma esaslı “Doğa” bilimi ögretiminin önemi ve görevler. 5. International Anatolian Scientific Research Congress, 17-21.

4. De Boer, G. E. (2011). The globalization of science education. Journal of Research in Science Teaching, 48(6), pp. 567-591.

5. Hodson, D. (2011) Looking to the future: Building a curriculum for social activism. International Journal of Environmental & Science Education Vol. 6, No. 3, July 2011, pp.315-320.

6. Ziman, J. (1978), Reliable Knowledge: An Exploration of the Grounds for Belief in Science, Cambridge University Press.

# AZƏRBAYCANDA ÖMÜRBOYU TƏHSİL İSTİQAMƏTİNDƏ İŞİN TƏŞKİLİNƏ TƏSİR EDƏN KONTEKSTUAL FAKTORLAR

**Babayev Abbas İlham**
**Azərbaycan Respublikasının Təhsil İnstitutu**
https://orcid.org/0000-0002-3939-9237
abbas96babayev@gmail.com

# CONTEXTUAL FACTORS AFFECTING THE ORGANIZATION OF WORK IN THE DIRECTION OF LIFELONG LEARNING IN AZERBAIJAN

**Babayev Abbas Ilham**
**Institute of Education of the Republic of Azerbaijan**
https://orcid.org/0000-0002-3939-9237
abbas96babayev@gmail.com

**Summary**

The main objective of this research is to determine the contextual factors that influence the effectiveness of activities in the direction of promoting and providing lifelong education in Azerbaijan. On the basis of in-depth analysis of the international literature on lifelong education and the legal and normative documents regulating fields such as education, employment, and economy in our country, as well as interviews with representatives of the higher education institutions of the country, the main contextual factors affecting the effectiveness of activities in the direction of lifelong education in Azerbaijan have been determined. These factors are the quality of education, the significant weight of low skilled workers in the labour market and involvement of those people in the shadow economy, the lack of lifelong learning culture among the population, and the absence of any normative document reflecting the national vision, priorities, goals and directions of in the field of lifelong education. As a result of the research, it was recommended to start work on the development of the concept of lifelong education in Azerbaijan and to involve all interested parties in this process.

**Keywords:** lifelong education, socio-economic development, education policy.

# КОНТЕКСТУАЛЬНЫЕ ФАКТОРЫ, ВЛИЯЮЩИЕ НА ОРГАНИЗАЦИЮ РАБОТЫ В НАПРАВЛЕНИИ НЕПРЕРЫВНОГО ОБРАЗОВАНИЯ В АЗЕРБАЙДЖАНЕ

**Бабаев Аббас Ильхам**
**Институт Образования Азербайджанской Республики**
https://orcid.org/0000-0002-3939-9237
abbas96babayev@gmail.com

**Резюме**

Основной целью данного исследования является определение контекстуальных факторов, влияющих на эффективность деятельности в направлении поощрения и обеспечения непрерывного образования в Азербайджане. На основе углубленного анализа зарубежной литературы по вопросам непрерывного образования и нормативно-правовых документов, регулирующих такие сферы, как образование, занятость и экономика в нашей стране, а также интервью с представителями высших учебных заведений страны, определены основные контекстуальные факторы, влияющие на эффективность деятельности в направлении непрерывного образования в Азербайджане. Этими факторами являются качество образования, значительный вес низкоквалифицированных работников на рынке труда и вовлеченность этих людей в теневую экономику, отсутствие

у населения культуры непрерывного обучения, отсутствие какого-либо нормативного документа, отражающего национальное видение, приоритеты, цели и направления в области непрерывного образования. В результате исследования было рекомендовано начать работу по разработке концепции непрерывного образования в Азербайджане и привлечь к этому процессу все заинтересованные стороны.

**Ключевые слова:** непрерывное образование, социально-экономическое развитие, образовательная политика.

Qlobal səviyyədə əhəmiyyəti tanınmış ömürboyu təhsil siyasətlərinin formalaşdırılmasında və icrasında kontekstual faktorların təsiri böyükdür (UNESCO Institute for Lifelong Learning (UIL), 2022). Başqa sözlə desək, ömürboyu təhsil siyasətlərinin, habelə ömürboyu təhsilin təşviq və təmin edilməsi istiqamətində müxtəlif təşəbbüslərin səmərəliliyini və nəticəliliyini düzgün qiymətləndirmək üçün belə siyasət və təşəbbüslərin hansı faktorlardan asılı olduğu başa düşülməli və buna uyğun olaraq müvafiq təşəbbüslərə düzəlişlər edilməlidir. Ömürboyu təhsil siyasətlərinin nəticələri müxtəlif sahələrdə inkişafa töhfə verdiyi kimi, bu siyasətlərin təşkili və icrası da müxtəlif sektorlardan iştirakçılığı tələb edir ("cross-sectoral") (UIL, 2022).

YUNESKO-nun Ömürboyu Öyrənmə İnstitutunun "Ömürboyu Öyrənməni Reallığa Çevirmək: Təlimatlar"ına əsasən, müxtəlif ölkələrdə aparılmış tədqiqatlar nəticəsində kontekstual faktorları altı geniş kateqoriyaya bölmək olar (UIL, 2022). Bu kateqoriyalara demoqrafik dəyişikliklər, təhsil sisteminin xüsusiyyətləri, iqtisadi vəziyyət, işsizlik səviyyəsi, gender (kişi və qadınların) bərabərliyinin təminatı istiqamətində addımlar, əlverişsiz imkanlara sahib əhali qruplarının vəziyyəti (həssas əhali qruplarının vəziyyəti), fiziki və sosial mühit aiddir.

Bu tədqiqatın əsas məqsədi Azərbaycanda ömürboyu təhsilin təşviqi və təmin edilməsi istiqamətində fəaliyyətin nəticəliliyinə təsir edən kontekstual faktorları müəyyənləşdirməkdir. Mövzuya xüsusilə aktuallıq qatan məqamlardan biri ömürboyu təhsil istiqamətinin Azərbaycan hökumətinin gündəliyində önəmli yerə sahib olmasıdır. Belə ki, Azərbaycan Respublikası Prezidentinin 2 fevral 2021-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" sənədində öz əksini tapmış beş Milli Prioritetdən biri olan rəqabətli insan kapitalı və müasir innovasiyalar çərçivəsində ömürboyu təhsilin xüsusi əhəmiyyəti vurğulanmışdır. "Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda da bilik iqtisadiyyatına keçid üçün ömürboyu təhsil imkanlarının yaradılmasının zəruriliyi qeyd olunmuşdur. Son olaraq, ömürboyu təhsil üzrə Milli Kvalifikasiya Çərçivəsinin tətbiqinin təmin edilməsi üçün tədbirlərin görülməsi Elm və Təhsil Nazirliyinin vəzifələrinə aid edilmişdir. Bütün bunlara baxmayaraq, ömürboyu təhsil siyasətinin mahiyyəti və əsas məqsədləri, onun formalaşdırılmasının və icrasının qarşısında duran əsas maneələr və ömürboyu təhsil ilə bağlı digər vacib aspektlər bu günədək ölkəmizdə elmi baxımdan araşdırılmamışdır.

Azərbaycanda ömürboyu təhsil ilə bağlı elmi ədəbiyyata töhfə verəcək bu tədqiqatın nəticələri ömürboyu təhsil mövzusunda beynəlxalq ədəbiyyatın, habelə ölkəmizdə təhsil, məşğulluq, iqtisadiyyat kimi sahələri tənzimləyən hüquqi-normativ sənədlərin dərindən təhlili və ölkənin ali təhsil müəssisələrinin nümayəndələrindən müsahibələrin əsasında formalaşdırılmışdır.

Tədqiqat nəticəsində Azərbaycanda ömürboyu təhsil istiqamətində fəaliyyətin nəticəliliyinə təsir edən aşağıdakı kontekstual faktorlar müəyyənləşdirilmişdir:

- Təhsilin keyfiyyəti – Dünya Bankının ölkə üzrə son hesabatında da qeyd olunduğu kimi, bir sıra ali təhsil müəssisələrində təhsilin keyfiyyətinin işəgötürənlərin tələblərinə cavab verməməsi, bu müəssisələrin ömürboyu təhsilin keyfiyyətli təminatçıları kimi etibarına mənfi təsir edir (World Bank, 2022);
- Müvafiq bilik və bacarıqlara malik olmayan şəxslərin yüksək çəkisi və bu şəxslərin kölgə iqtisadiyyatına cəlb olunması – bu kateqoriyaya nə təhsildə, nə də əmək bazarında olmayan gənclərin yüksək

çəkisini də əlavə etmək olar (ILO, 2020). Belə olan halda, həssas qruplar kimi hesab olunan yuxarıda qeyd olunan qruplar üçün əlçatan imkanların yaradılması və bu imkanların cəlbediciliyinin artırılması mürəkkəbləşir;

- Əhali arasında ömürboyu təhsil mədəniyyətinin formalaşmaması – bu mədəniyyətin olmaması nəticəsində ömürboyu təhsil proqramlarına tələbata mənfi təsir göstərir (Azərbaycan Respublikasının Təhsil İnstitutu (ARTİ, 2022);
- Ömürboyu təhsil istiqamətində milli baxışı, prioritetləri, hədəfləri və fəaliyyət istiqamətlərini əks etdirən hər hansı bir normativ sənədin olmaması – belə bir sənədin olmaması, müxtəlif tərəflərin həyata keçirdikləri tədbirlərinin pərakəndəliliyinə yol açır (ARTİ, 2022).

Təkliflərə keçid etməmişdən öncə qeyd etmək lazımdır ki, yuxarıda qeyd olunduğu kimi, kontekstual problemlərin mövcudluğu təkcə Azərbaycana xas bir faktor deyil. Burada Azərbaycanın üstünlüyü ondan ibarətdir ki, ölkəmiz artıq ömürboyu təhsil istiqamətində sınanmış metodları yerli kontekstə uyğunlaşdıraraq müvafiq tədbirlər görə bilər. Bu istiqamətdə görülə biləcək ən əsas və başlıca işlərdən biri ömürboyu təhsil konsepsiyasının hazırlanması üzrə işlərə başlanılması və bu prosesdə özəl sektor, vətəndaş cəmiyyəti, təhsil xidmətləri təklif edən qurumlar və s. kimi bütün maraqlı tərəflərin cəlb edilməsidir. Xüsusilə vurğulamaq lazımdır ki, maraqlı tərəflərin cəlb edilməsi ömürboyu təhsil konsepsiyasının təkcə hazırlanması fazasını deyil, icra və monitorinq fazalarını da əhatə etməlidir (UIL, 2022). Başqa sözlə desək, maraqlı tərəflər ilə konsultasiyaların keçirilməsi ömürboyu təhsil siyasətinin əsas xüsusiyyətlərindən birini təşkil etməlidir. Bu istiqamətdə işlərə başlanılması və yuxarıda qeyd olunan kontekstual faktorlar nəzərə alınmaqla daha düzgün və nail oluna biləcək hədəflərin qoyulması ömürboyu təhsil siyasətlərinin nəticəliliyini daha düzgün qiymətləndirməyə kömək edəcək.

**Ədəbiyyat:**

1. "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" (2021). Azərbaycan Respublikası Prezidentinin 2469 nömrəli Sərəncamı, Bakı, 2 fevral 2021-ci il.

2. "Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası" (2022). Azərbaycan Respublikası Prezidentinin 3378 nömrəli Sərəncamı, Bakı, 22 iyul 2022-ci il.

3. Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi haqqında Əsasnamə (2023). Azərbaycan Respublikası Prezidentinin 24 iyul 2023-cü il tarixli Fərmanı, Bakı.

4. Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi yanında Elm və Ali Təhsil üzrə Dövlət Agentliyinin Əsasnaməsi (2023). Azərbaycan Respublikası Prezidentinin 24 iyul 2023-cü il tarixli Fərmanı, Bakı.

5. Azərbaycan Respublikasının Təhsil İnstitutu (2022). ATM-lərin ömürboyu təhsil konsepsiyasının tətbiqi təcrübələri. Bakı, Azərbaycan Respublikasının Təhsil İnstitutu.

6. International Labour Organization (2020). Attaining SDG 8 in Azerbaijan: The challenges of economic transformation and job creation. Geneva, International Labour Organization.

7. UNESCO Institute for Lifelong Learning (UIL) (2022). Making lifelong learning a reality. A handbook. Hamburg, UNESCO Institute for Lifelong Learning.

8. World Bank (2022). Azerbaijan: Country Economic Memorandum. Washington DC, International Bank for Reconstruction and Development/The World Bank.

# INTERNATIONALIZATION OF UNIVERSITY RESEARCH: OPPORTUNITIES AND CHALLENGES

**Yadigarova Leyla Akif**
**Institute of Education of the Republic of Azerbaijan**
**https://orcid.org/0000-0001-8445-2976**
**leyla.yadigarova@gmail.com**

# UNİVERSİTET TƏDQİQATLARININ BEYNƏLMİLƏLLƏŞMƏSİ: İMKANLAR VƏ ÇƏTİNLİKLƏR

**Yadigarova Leyla Akif**
**Azərbaycan Respublikasının Təhsil İnstitutu**
**https://orcid.org/0000-0001-8445-2976**
**leyla.yadigarova@gmail.com**

**Xülasə**

Son dövrlərdə ali təhsilin beynəlmiləlləşməsi dünya universitetlərinin diqqətini cəlb etmişdir. Bununla belə, mövcud akademik ədəbiyyatda beynəlmiləlləşmə üzrə tədqiqatların əksəriyyəti əsasən tələbələrin mobilliyinə yönəldilir, tədqiqatın beynəlmiləlləşməsinin öyrənilməsinə isə az diqqət yetirilir. Müasir qloballaşma dövründə beynəlxalq tədqiqat əməkdaşlığının sürətlə artması texnoloji tərəqqilərin, iqtisadi dəyişikliklərin, siyasi dinamikaların və mədəni transformasiyaların yaxınlaşmasının nəticəsidir. Qeyd olunmalıdır ki, tədqiqatların beynəlmiləlləşməsi tədqiqatçıların məhsuldarlığına, tədqiqatın təsirinə və keyfiyyətinə müsbət təsirini nümayiş etdirməkdədir. Müxtəlif ölkələrdə daha çox tədqiqat məhsuldarlığını təşviq etmək məqsədilə müvafiq milli siyasət və strategiyalar tərtib edilmişdir. Buna baxmayaraq, həm milli, həm də institusional səviyyədə müxtəlif konseptual, mədəni və kurikulum maneələri mövcuddur. Tədqiqatları effektiv şəkildə beynəlmiləlləşdirmək üçün universitetlər tərəfindən prosesi fərdi, institusional, milli və beynəlxalq məqsəd və prioritetlərə uyğunlaşdıraraq strateji planlaşdırmaya əhəmiyyətli vaxt sərf edilməsi zəruri hesab olunur. Bu baxımdan, Azərbaycan Respublikası kontekstində tədqiqatın beynəlmiləlləşdirilməsinin planlaşdırılmasına yönəlmiş gələcək tədqiqatların faydalı olacağı hesab edilir.

**Açar sözlər:** Ali təhsilin beynəlmiləlləşməsi, tədqiqatın beynəlmiləlləşməsi, tədqiqat məhsuldarlığı

# ИНТЕРНАЦИОНАЛИЗАЦИЯ ИССЛЕДОВАНИЙ, ПРОВОДИМЫХ В УНИВЕРСИТЕТАХ: ВОЗМОЖНОСТИ И ПРЕПЯТСТВИЯ

**Ядигарова Лейла Акиф**
**Институт Образования Республики Азербайджан**
**https://orcid.org/0000-0001-8445-2976**
**leyla.yadigarova@gmail.com**

**Резюме**

За последние несколько десятилетий интернационализация высшего образования привлекла значительное внимание университетов по всему миру. Однако в существующей академической литературе большинство исследований об интернационализации в основном сосредоточено на мобильности студентов, тем самым, уделяя недостаточно внимания изучению интернационализации научных исследований. В нынешнюю эпоху глобализации быстрый рост международного исследовательского сотрудничества является результатом сближения технологических достижений, экономических сдвигов, политической динамики и

культурных трансформаций. Исследования продемонстрировали положительное влияние международного сотрудничества в области исследований на производительность исследователей, результаты и качество исследований. Для повышения продуктивности научных исследований в разных странах была сформулирована национальная политика, направленная на поощрение международного сотрудничества в области исследований. Несмотря на эти усилия, различные концептуальные, культурные и учебные препятствия существуют как на национальном, так и на институциональном уровнях. Чтобы эффективно интернационализировать свои исследования, университеты должны уделять много времени стратегическому планированию, согласовывая процесс с индивидуальными, институциональными, национальными и международными целями и приоритетами. В этом контексте дальнейшие исследования, направленные на планирование интернационализации исследований в контексте Азербайджанской Республики, могут оказаться ценными и полезными.

**Ключевые слова:** Интернационализация высшего образования, интернационализация исследований, исследовательская продуктивность

Higher education institutions around the world have been encountering with growing challenges to respond to dynamic competitive and financial demands (Christensen & Eyring, 2011; Selingo, 2013). In developed countries, where higher educational institutions are typically characterized by institutional autonomy of higher educational settings, external competitive and financial pressures can lead to changes in institutional priorities, consequently leaving universities to explore more entrepreneurial activities and new collaborations or partnerships (Slaughter & Rhoades, 2004). The pressures from various stakeholders, including governments, funding agencies, staff and students, push institutions to seek innovative approaches in teaching and research. These approaches usually involve expanding their research capabilities, fostering a more entrepreneurial mindset, diversifying revenue streams, promotion of internationalization, finding new funding sources and others.

In the last few decades internationalization in higher education has gained enormous attention of the universities around the world. The majority of research on internationalization has usually centred around students and their experiences of studying abroad (Proctor, 2015). In contrast, there has been relatively little exploration of the internationalization of research in the existing academic literature. The academic community has primarily directed its focus towards latest manifestations of internationalization, which have recently introduced huge transformations to universities, particularly with the rising mobility of students. However, there is a relative scarcity of research on the internationalization of research and the underlying national and institutional policies that either facilitate or impede this process (Woldegiyorgis, Proctor, & de Wit, 2018).

At its core, the essence of academic disciplines lies in the pursuit of knowledge and understanding, which transcends geographical limitations. Researchers, scholars, and academics from diverse nations and cultures contribute to these fields, enriching them with a plethora of perspectives and insights. Undoubtedly, academic disciplines inherently possess an international dimension, functioning at a level beyond national boundaries and constraints (Clark, 1983). This characteristic of academic disciplines reflects their universality and transcendent nature, fostering cross-border collaboration and knowledge exchange.

It should be noted that expanding research endeavors not only results in higher revenues but also leads to improved institutional rankings, attracting more student applications and increased tuition (Litwin, 2009). Not surprisingly, numerous universities aim to ascend in national research activity rankings, even those that have traditionally prioritized teaching, as they too strive to secure research funding.

In the present era of globalization, a convergence of technological advancements, economic shifts, political dynamics, and cultural transformations has resulted in a rapid increase in international research

collaboration (Gornitzka, 2008). This increased collaboration is further underpinned by the growing significance attached to international rankings of world universities and the inclusion of research indicators in those rankings. Therefore, there is an increased focus on devising strategies to facilitate the internationalization of research.

***Rationales for promoting the internationalization of research.***

The push for internationalization of research is driven by several rationales. Firstly, the view that research should be recognized as internationally relevant has been a historical concept supported by scholarly peer review. The competitiveness agenda, linked to productivity of researchers, institutions, and nations, is reinforced by bibliometric analysis in support of rankings. Also, international collaboration is believed to be essential for addressing bigger societal challenges that require the combined resources and insights of various researchers, leading to increased research productivity and impact (Woldegiyorgis, Proctor, & de Wit, 2018). Studies have shown that international research collaboration positively affects researchers' productivity (Abramo, D'Angelo, & Solazzi, 2011; Shin, & Cummings, 2010), research impact, and quality, thereby supporting greater engagement with international research at various levels - national, institutional, and individual. The results of a study of the effects international research collaboration on individual research productivity based on the data of 11 European countries conclude that there is a strong correlation between research productivity of European academics and international research collaboration. Academics engaged in international collaboration (termed "internationalists") consistently exhibit higher research productivity rates compared to those not involved in international collaboration (termed "locals") across all academic fields and countries studied. International co-authorship of publications is also significantly higher among internationalists, emphasizing the importance of international collaboration for producing large-scale international co-authored publications (Kwiek, 2015).

Other rationales for promoting the internationalization of research include national and institutional priorities. In this regard, it is observed that the pursuit of greater research productivity has encouraged the formulation of national policies that promote international research collaboration. These policies associate improved socio-economic cituation in the competitive knowledge economy with specific attention to the involvement in the internationalization of research (Baruffaldi & Landoni, 2012). Institutions have also sought to enhance international research productivity by building specific strategies and plans focused on international research collaboration.

***Challenges***

While adapting to external pressures can bring positive outcomes, it also presents challenges. Balancing the internationalization of research with the traditional academic mission of teaching and research can be complex. Institutions must maintain their commitment to academic integrity and social responsibility while navigating the world of research. The challenges surrounding the measurement of internationalization of research extend beyond difficulties in identifying suitable metrics. Obstacles include conceptual, cultural, and curricular variations among individual researchers and their institutions, influencing their approach to international engagement (Antelo, 2012). The moral dilemma of brain drain, where professionals migrate abroad, is a concern, but in the long run, it also contributes to the circulation of professionals (Baruffaldi & Landoni, 2012). Internationalization has led to the dominance of English as the lingua franca of scholarly communication, reducing the use of local languages in research (Byun & Kim, 2011). In international research collaborations, inequality of partners can occur, where more powerful partner(s) may dictate the research process, potentially compromising the pursuit of research project goals (Bradley, 2008). Integrating internationalization into institutional mission and strategy can be challenging,

particularly in large research collaborations with diverse disciplinary backgrounds and stakeholders, leading to administrative complexities (Maringe, 2009). Therefore, to effectively internationalize their research, universities need to invest considerable time in strategic planning, aligning the process with individual, institutional, national, and international objectives and priorities. In this context, additional research focused on planning the internationalization of research in the context of the Azerbaijan Republic would be valuable and beneficial.

**References:**


1. Abramo G., D'Angelo C. A., Solazzi M. (2011). The relationship between scientists' research performance and the degree of internationalization of their research. *Scientometrics*, 86, 629-643.

2. Antelo, A. (2012). *Internationalization of research. Journal of International Education and Leadership*, 2, 1-6.

3. Baruffaldi, S. H., & Landoni, P. (2012). Return mobility and scientific productivity of researchers working abroad: The role of home country linkages. *Research Policy*, 41, 1655-1665

4. Bradley, M. (2008). On the agenda: North-South research partnerships and agenda setting processes. *Development in Practice*, 18, 673-685

5. Byun, K., & Kim, M. (2011). Shifting patterns of the government's policies for the internationalization of Korean higher education. *Journal of Studies in International Education*, 15, 467-486.

6. Clark B. R. (1983). *The higher education system: Academic organization in cross-national perspective*. Berkeley: University of California Press.

7. Christensen, C. M., & Eyring, H. J. (2011). *The innovative university: Changing the DNA of higher education from the inside out*. San Francisco, CA: Jossey-Bass.

8. Gornitzka Å. (2008). The internationalization of research and higher education. In Gornitzka A., Langfeldt L. (Eds.), *Borderless knowledge: Understanding the "new" internationalization of research and higher education in Norway* (pp. 1-11). Dordrecht, The Netherlands: Springer.

9. Kwiek, M. (2015). The Internationalization of Research in Europe. *Journal of Studies in International Education*, 19(4), 341–359. doi:10.1177/1028315315572898

10. Litwin, J. M. (2009). The efficacy of strategy in the competition for research funding in higher education. *Tertiary Education and Management*, *15*, 63–77.

11. Maringe, F. (2009). Strategies and challenges of internationalization in higher education: An exploratory study of UK universities. *International Journal of Educational Management*, 23, 553-563

12. Proctor, D. (2015). *Key trends in international education research 2011–14: What does the data tell us?* International Education Association of Australia. Retrieved from https://www.ieaa.org.au/ ierncontentarchive/key-trends-2

13. Selingo, J. J. (2013). *College (un)bound: The future of higher education and what it means for students*. New York, NY: Houghton Mifflin Harcourt.

14. Shin, J. C., & Cummings, W. K. (2010). Multilevel analysis of academic publishing across disciplines: Research preference, collaboration, and time on research. *Scientometrics*, 85, 581-594.

15. Slaughter, S., & Rhoades, G. (2004). *Academic capitalism and the new economy: Markets, states, and higher education*. Baltimore, MD: The Johns Hopkins University Press.

16. Woldegiyorgis, A. A., Proctor, D., & de Wit, H. (2018). Internationalization of Research: Key Considerations and Concerns. *Journal of Studies in International Education*, 22(2), 161–176. doi:10.1177/1028315318762804

# İNGİLİS DİLİNİN QİYMƏTLƏNDİRİLMƏSİNDƏ MÜASİR TEST NƏZƏRİYYƏLƏRİ VƏ YANAŞMALAR

**Hüseynova Fəridə Məşi**
**Azərbaycan Respublikasının Təhsil İnstitutu**
**https://orcid.org/0000-0002-0250-3467**
**feridehuseynova21@gmail.com**

# MODERN TEST THEORIES AND APPROACHES IN EVALUATING ENGLISH LANGUAGE PROFICIENCY

**Huseynova Farida Mashi**
**Institute of Education of the Republic of Azerbaijan**
**https://orcid.org/0000-0002-0250-3467**
**feridehuseynova21@gmail.com**

**Summary**

The thesis is concerned with language test theory and modern approaches to assessing university students' English language skills. The thesis discusses the role of language test theory in the historical development of linguistics and provides an analysis of several scientific studies on the subject with effective examples. Observations show that the close relationship between language testing and language teaching in linguistics is fraught with complications. The problem was investigated, and it was explored that the test should have at least five qualities: reliability, relevance, objectivity, originality, and practicality. Reliability refers to the precise measurement of the knowledge a test measures; relevance refers to the test's objectivity; authenticity refers to whether it reflects real-life events; and practicality refers to whether the test is practicable. The thesis will be useful in applying modern approaches to test theory in higher education English language assessment.

**Keywords:** *test theory, reliability, validity, objectivity, originality and practicality*

# СОВРЕМЕННЫЕ ТЕСТОВЫЕ ТЕОРИИ И ПОДХОДЫ В ОЦЕНИВАНИИ ВЛАДЕНИЯ АНГЛИЙСКИМ ЯЗЫКОМ

**Фарида Гусейнова**
**Институт Образования Азербайджанской Республики**
**https://orcid.org/0000-0002-0250-3467**
**feridehuseynova21@gmail.com**

**Резюме**

Тезис посвящена теории языкового тестирования и современным подходам к оценке владения английским языком студентов вузов. В тезисе представлен анализ ряда научных исследований по проблеме с эффективными примерами и подчеркнута роль теории языковых тестов в историческом развитии лингвистики. Наблюдения показывают, что тесная связь языкового тестирования и преподавания языка в лингвистике сопровождается рядом трудностей. В ходе исследования проблемы было установлено, что тест должен обладать не менее чем пятью качествами: надежностью, актуальностью, объективностью, оригинальностью и практичностью. Надежность относится к точному измерению знаний, которые измеряет тест; актуальность относится к измерению объективности теста, подлинность относится к тому, отражает ли он реальные события, а практичность относится к тому, осуществим ли тест на практике. Тезис станет полезным ресурсом для применения современных подходов теории тестирования при оценке английского языка в высшем образовании.

**Ключевые слова:** теория тестирования, надежность, валидность, объективность, оригинальность и практичность

İngilis dilinin inteqrasiya olunmuş mühitdə tədrisi vacib faktorları nəzərə alan müxtəlif sahələri əhatə edir. Bundan əlavə, ingilis dilinin inteqrasiyalı mühitdə tədrisi daha çox məlumat və bacarıqlara yiyələnmə yollarını təşviq edir və tələbələrin dil səviyyələrini üzə çıxarır. Məlumdur ki, dil səviyyələrinin düzgün müəyyən edilməsi onun dəqiq və obyektiv qiymətləndirilməsi ilə ölçülür.

Bu məqsədlə, inteqrasiyalı təlim dil testləri nəzəriyyəsi əsasında həyata keçirilir və yeni yanaşmaların aktuallığını reallaşdırır. Daha geniş sahələrə inteqrasiya edən dil biliklərinin yüksək səviyyədə qazanılmasına imkan yaradır və eyni zamanda öyrənənləri əldə etdikləri dil səviyyələri haqqında məlumatlandırır. Testlər tələbələrə nailiyyət hissi, eləcə də bildikləri və nəyi nəzərdən keçirməli olduqları haqqında məlumat verməyə imkan yaradır. Müşahidələr sübut edir ki, dil testi öyrənmə təcrübəsinin uğur və ya uğursuzluğunun qiymətləndirilə biləcəyi ölçüsüdür. Bununla belə, elmi araşdırmalar dil təcrübələrinin öyrədilməsində nəzəriyyə və praktika arasında müəyyən uyğunsuzluqların olmasını vurğulayır və bu uyğunsuzluqlar test dizaynında aşkarlanır. Bu məqsədlə, test dizaynının məqsədəuyğun verilməsi dilin mənimsənilməsində ən vacib şərtdir və bu sahədə nəzərdə tutulmuş ən yaxşı nəzəriyyələr və texnikalar araşdırılmalıdır. Yaranmış uyğunsuzluq dil öyrənənləri dilin mənimsənilməsinə az motivə edir və müasir dil bacarıqlarından uzaqlaşdırır. Bu məqsədlə dil testi yaxşı nəzəriyyələr və texnikalar vasitəsilə qurulmalıdır ki, məzmunu maraqlı və cəlbedici olsun. Tədqiqatın aktuallığı əsasən tədris və sınaq arasında hər hansı boşluqlara yol verməmək üçün praktiki təkliflər verir və dil testlərinin harmonik təbiətini izah edir.

**1. İngilis dilinin qiymətləndirilməsində test nəzəriyyəsi**

Məlumdur ki, son onilliklər ingilis dilinin tədrisi və öyrənilməsi sahəsində aparılan araşdırmalar tədrisin keyfiyyətinə əhəmiyyətli dərəcədə təsir göstərir. Təqdim olunan məqalə dil testi nəzəriyyələrinin, test kontekstinin və xüsusən də dil testinin keyfiyyətcə tarixi təhlilini təqdim edir. Tədqiqat prosesi boyunca bəzi əlaqəli araşdırmalar yoxlanılmış, bəzi nəzəri çərçivələr və araşdırılan mülahizələr arasında uyğunsuzluqlar aşkar edilmişdir. İngilis dili səviyyələrini yoxlamaq üçün tələbələrin fon bilikləri və gələcəkdə dil bilikləri ehtiyacları barədə dəyərli məlumatlar verir.

**2. İngilis dilinin qiymətləndirilməsində Klassik Test Nəzəriyyəsi (KTN)**

Bu nəzəriyyəyə əsasən dil testini tərtib və tətbiq edərkən diqqət yetirilən ən vacib məqam testin hansı məqsədlə istifadə edilməsidir. Burada ən vacib keyfiyyət onun faydalı olmasıdır. Aydındır ki, ənənəvi olaraq, testin faydalılığı modeli *etibarlılıq, uyğunluq, obyektivlik, orijinallıq və praktiklik* kimi test keyfiyyətlərini əhatə edir. KTN-də bir neçə əsas anlayış var. Burada ilk ölçü məqsədi, 1) zəifləmə üçün korreksiya, 2) Speman Broun düsturu; 3) etibarlılıq indeksi; 4) Kuder-Richardson düsturu; 5) Qutmanın etibarlılıq üçün aşağı hədlərinin nəzərə alınmasıdır.

**3. Ümumiləşdirilmə nəzəriyyəsi (Ü-nəzəriyyəsi)**

Ü-nəzəriyyəsinə görə, bütün test növləri arasında a) bal fərqinin olması; 2) sistematik fərqlilik; 3) təsadüfi fərqliliyi əhatə edən üç əsas mənbə vardır. G-Nəzəriyyəsi eyni vaxtda üçdən çox fərqlilik mənbəyini təxmin edir. O, həmçinin müxtəlif uzunluqlu testlər üçün fərqli qiymətləndirmə üsullarını müqayisə edə bilən etibarlılıq təxminlərini də təqdim edir.

**4. Seçim Cavab Nəzəriyyəsi (SCN)**

Seçim Cavab Nəzəriyyəsi (SCN) bəzən gizli xüsusiyyət nəzəriyyəsi adlanır. Klassik test nəzəriyyəsindən fərqli olaraq, SCN müasir test nəzəriyyəsidir. Bu test nəzəriyyəsi ən çox tətbiq edilən aktiv tədqiqat sahəsidir. SCN dil biliklərini daha çevik ölçməyə malik intuitiv bir yanaşmadır. Bu nəzəriyyəyə əsasən əsas bal testdə deyil, onun məzmununda gizlənən maraq xüsusiyyətində müəyyən edilir.

Beləliklə, ingilis dilinin qiymətləndirilməsi ali təhsil səviyyəsində onun nəzəri bazalarına əsaslanır. Dil testinin tarixi inkişaf boyunca qiymətləndirmə nəzəriyyələri və yanaşmaları həmişə dil və tədris metodologiyasının müvafiq baxışlarına uyğun olmuşdur. Araşdırma məqaləsi dil testi nəzəriyyələrini dil qabiliyyətlərinin düzgün ölçülməsində bir sistem və ardıcıl qiymətləndirmə mexanizmi kimi təqdim edir. Bu məqsədlə, məqalə qiymətləndirmədə əlaqəli araşdırmaların aparılmasını təşviq edir və qeyd olunan testləşmə və onun tətbiqinin dil səviyyələrinin müəyyən edilməsində keyfiyyətcə tarixi təhlilini təqdim edir. Klassik test nəzəriyyəsi, ümumiləşdirmə nəzəriyyəsi və seçim cavab nəzəriyyələri arasında uyğunluq təşviq edilir, testin faydalılığı modelinin onun növünə və düzgün seçiminə əsaslandığı sübut edilir. Məlum olmuşdur ki, dilin qiymətləndirilməsi və testinin tətbiqi dil öyrənmək və öyrətməkdən təcrid edilə bilməz. Baxmayaraq ki, bir sıra nəzəri çərçivələr tətbiq olunan qiymətləndirmə və test fəaliyyətinin arasında uyğunsuzluqlar aşkar etmişdir, tədqiqat məqaləsi bu əlaqənin sistemli aparılması yollarını şərh edə bilmişdir.

**Ədəbiyyat**:


1. Alderson, J. Charles, Caroline Clapham and Dianne Wall (1995) Language Test Construction and Evaluation. Cambridge University Press.318 p.
2. Alderson, J. Charles, Language Teaching, Volume 34, Issue 4, October 2001 pp. DOI: https://doi.org/10.1017/S0261444800014464 Fulcher, Glenn and Davidson pp.213 - 236
3. Bachman, L. F. and Dambock, B. (2017). Language Assessment for Classroom Teachers. Oxford, UK: Oxford University Press. pp.47-50
4. Fred (2012) The Routledge Handbook of Language Testing. Routledge Taylor & Francis Group London and New York. pp.132-149
5. Hüseynova F. (2021) Tələbələrin ingilis dili bacarıqlarının qiymətləndirilməsində çətinliklər və müasir tələblər- Azərbaycan məktəbi. № 3(696), s. 41–48.
6. Hutauruk, Bertaria Sohnata (2015) A Compilation Material of English Language Testing. Universitas Hkbp Nommensen Pematangsiantar. p.13-22
7. Elana Shohamy, Iair G. Or, Stephen May (2020) Language Testing and Assessment- Encyclopedia of Language and Education 3rd ed.pp.351-400
8. Wang, H., Choi, I., Schmidgall, J. and Bachman, L. F. (2012). Review of Pearson Test of English Academic. Language Testing 29 pp. 603–619. https://doi.org/10.1177/0265532212448619.

# YAZI BACARIQLARININ FORMALAŞMASINDA NƏTİCƏ ƏSASLI VƏ PROSES ƏSASLI YANAŞMA

**Qasımova Günel Abbas**
**Azərbaycan Respublikasının Təhsil İnstitutu**
https://orcid.org/0009-0002-2679-426X
gunel.qasimova.dok@arti.edu.az

# PRODUCT-BASED AND PROCESS-BASED APPROACH TO BUILDING WRITING SKILLS

**Gasimova Gunel Abbas**
**Institute of Education of the Republic of Azerbaijan**
https://orcid.org/0009-0002-2679-426X
gunel.qasimova.dok@arti.edu.az

**Summary**

The formation of correct writing skills in students is considered to be one of the issues that are increasing in importance day by day and often lead to various discussions. The question "Why can't we write?" is often at the center of these discussions. The purpose of the report is to investigate one of the factors that significantly influence the development of students' writing skills in general educational institutions and to contribute to this process. From this point of view, two approaches - result-based and process-based approach - which are widely used in international practice during writing training, were interpreted. In the process-based approach, the teacher treats writing as a complex activity, explains each stage of the writing process, monitors the student's activity, and gives him direction and support when appropriate. This kind of approach of the teacher to the process and the student instills in the learner the idea that the work - writing activity will be more productive if he performs the writing activity step by step, in parts, and creates a sense of motivation and self-confidence in him. In other words, the teacher here is interested not only in the result, but also in the path and what happens along the way, by providing on-the-spot support and feedback, he warms up the process, in a way, teaches learning. In the result-based approach, the situation is slightly different. Here, a kind of "all the burden is on the student's shoulders" and the teacher is more interested in the text written by the student - the result. A teacher who prefers this approach cannot determine at which stage of writing the learner has difficulty, "slacks". As a result, text composition on this path, especially judgmental writing, appears to the student as a chaotic and dark process. International studies and local observations show that the results-based approach prevails in schools. Although many studies have been conducted on the impact of the process-centered approach on the formation of writing skills in other countries, no such research has been found in Azerbaijan.

# ПОДХОД К ФОРМИРОВАНИЮ ПИСЬМЕННЫХ НАВЫКОВ, ОСНОВАННЫЙ НА РЕЗУЛЬТАТЕ И ПРОЦЕССЕ

**Гасымова Гюнель Аббас**
**Институт Образования Азербайджанской Республики**
https://orcid.org/0009-0002-2679-426X
gunel.qasimova.dok@arti.edu.az

**Резюме**

Формирование навыков правильного письма у учащихся считается одним из вопросов, важность которых возрастает с каждым днем и часто приводит к различным дискуссиям. Вопрос «Почему мы не можем

писать?» часто оказывается в центре таких дискуссий. Цель доклада – исследовать один из факторов, существенно влияющих на развитие навыков письма учащихся общеобразовательных учреждений, и способствовать этому процессу. С этой точки зрения интерпретированы два подхода – результативный и процессуальный, которые широко используются в международной практике при обучении письму. При процессном подходе учитель рассматривает письмо как комплексную деятельность, объясняет каждый этап процесса письма, контролирует деятельность ученика, дает ему направление и поддержку, когда это необходимо. Такой подход преподавателя к процессу и ученику внушает учащемуся мысль о том, что трудописьменная деятельность будет более продуктивной, если он будет выполнять письменную деятельность поэтапно, по частям, и создаст ощущение мотивации и самостоятельности -уверенность в нем. Другими словами, педагог здесь заинтересован не только в результате, но и в пути и в том, что происходит на этом пути, оказывая оперативную поддержку и обратную связь, он подогревает процесс, в некотором смысле учит обучению. При подходе, ориентированном на результат, ситуация несколько иная. Здесь своеобразное «вся нагрузка лежит на плечах ученика» и преподавателя больше интересует написанный учеником текст – результат. Преподаватель, предпочитающий такой подход, не может определить, на каком этапе письма у учащегося возникают трудности, «слабы». В результате составление текста на этом пути, особенно суждение, представляется студенту хаотичным и темным процессом. Международные исследования и местные наблюдения показывают, что в школах преобладает подход, ориентированный на результат. Хотя в других странах было проведено множество исследований влияния процессуально-ориентированного подхода на формирование навыков письма, в Азербайджане таких исследований не обнаружено.

Ana dili fənninin tədrisində dörd əsas məzmun xəttindən biri olan yazı bu gün təhsil müəssisəsində formalaşdırılan və formalaşdırılması müəllim tərəfindən böyük əmək, şagird tərəfindən isə böyük zehni fəaliyyət tələb edən bir bacarıqdır. Yazının insan üçün hiss və düşüncələrini dilə gətirməkdə, özünü ifadə etməkdə və ünsiyyət qurmaqda ən mühüm vasitə olduğunu nəzərə alsaq, bu bacarığın şagirdlərdə formalaşdırılmasını gözardı etmək onları bir növ “yarımçıq” yetişdirmək deməkdir və təhsilin “həyata hazırlamaq” missiyasını sual altında qoyur. Müşahidə və tədqiqatlar onu göstərir ki, hazırda şagirdlərin böyük əksəriyyəti mətn tərtibi zamanı, özünü yazılı olaraq ifadə edərkən müəyyən çətinliklər yaşayırlar. Bunu istər Dövlət İmtahan Mərkəzi tərəfindən həyata keçirilən imtahanların elmi-statistik təhlili zamanı təqdim olunan nəticələrdə, istərsə də yazı işi ilə bağlı fəaliyyətlərin yer verildiyi digər imtahanlarda müşahidə etmək mümkündür (2022/2023-cü tədris ili üçün Azərbaycan Respublikasının ali və orta ixtisas təhsili müəssisələrinə tələbə qəbulu və ümumtəhsil müəssisələri üzrə buraxılış imtahanları nəticələrinin elmi-statistik təhlili, 2022). Eyni zamanda dünya mənzərəsinə nəzər saldıqda yazı bacarığının formalaşdırılması ilə bağlı bu çətinliklərin təkcə Azərbaycanda deyil, bu və ya digər dərəcədə başqa ölkələrdə də yaşandığı tədqiqatçılar tərəfindən müəyyən edilmişdir (Göçer, 2014; Harris, Graham və Mason, 2003; Tok ve Ünlü, 2014; Gezmiş, 2020). Müxətlif səbəblərin (yazının qarışıq və çətin bir koqnitiv proses olması, siniflərdə şagird sayının çoxluğu, fərdi yanaşmanın tətbiq olunmaması, müəllimlərin bu istiqamətdəki müasir yanaşmalardan xəbərsizliyi, şagirdlərin bu prosesə motivə edilməməsi və s.) rol oynadığı bu öyrənmə çətinliyi nəticə etibarilə yazı işinə qarşı şagirdlərdə marağın azalmasına, çox hallarda isə onlarda müəyyən bir yazı xofunun yaranmasına gətirib çıxara bilir (Burning and Hurn, 2000). Beləliklə, yazı fəaliyyətinin mürəkkəbliyi bu fəaliyyətə tez-tez və davamlı nəzər salınmasını, mövcud yenilik və yanaşmaların öyrənilməsini zəruri edir.

**Nəticə əsaslı yanaşma**

Nəticə əsaslı yanaşmada sonda təqdim olunan mətn - nəticə əsas götürülür, mətnin tərtibi zamanı baş verənlər, bu mərhələlərdə şagirdin qarşılaşdığı çətinliklər izlənilmir. Burada müəllimi şagirdin mətni necə yazdığından çox nə yazdığı maraqlandırır və qiymətləndirmə də daha çox mətnin quruluşu, cümlələrin strukturu, qrammatik və orfoqrafik qaydalar üzərindən aparılır, bir növ texniki tərəflərə diqqət olunur

(Clark, 2012). Yazı prosesinin düz xətt üzrə inkişaf etməsi bu yanaşmanın ən spesifik tərəflərindəndir. Ancaq keyfiyyətli bir mətni ərsəyə gətirmək üçün şagirdin onun üzərində bir neçə dəfə işləmək, mətni dəfələrlə gözdən keçirmək, redaktə etmək kimi imkanları olmalıdır. Məsələn, hamımıza çox tanış olan "Yay tətilimi necə keçirdim?" başlıqlı mətn yaz" şəklindəki tapşırıqların ardında müəllimin yeganə verdiyi istiqamət mövzunun adı olur və şagird bir növ bu prosesdə qaranlıq bir quyuya düşür. Nəhayət, bu tip yazılar sinifdə icra olunursa, çox hallarda şagird şablon ifadələrdən ibarət, struktursuz bir mətn tərtib edir, əgər ev tapşırığıdırsa, bu halda mövzunu valideynləri və ya ailə üzvlərindən birinin dəstəyi ilə "yazır". Ələlxüsus, prosesin mərkəzinə öyrənəni deyil, öyrədəni qoyan bu fəaliyyət şagirdi kəşf etmək, düşünmək, araşdırmaq kimi imkanlardan məhrum edir. Nəticə əsaslı yanaşma ilə bağlı ümumi bir təsəvvür formalaşdırdıqdan sonra qeyd etmək olar ki, ənənəvi olaraq ümumi təhsil müəssisələrində yazı işi ilə bağlı həyata keçirilən fəaliyyətlər məhz nəticə əsaslıdır.

**Proses əsaslı yanaşma**

Proses əsaslı yanaşmada qəbul olunan odur ki, yazı əslində təkcə sonda təqdim olunan mətndən ibarət deyil, o həm də müxtəlif prosesləri özündə ehtiva edən, mərhələli bir fəaliyyətdir. Mətn son variantına gələnədək müxtəlif hazırlanma mərhələlərindən keçir ki, sonda nəticə ərsəyə gəlir. Proses mərkəzli yanaşma bir növ şagirdə istiqamət verildikdə yazı prosesində daha məhsuldar olacağı və sonda daha keyfiyyətli bir mətn nümunəsi təqdim edəcəyi fikrini müdafiə edir. (Ülper, Uzun, 2009).

Mətn üzərində iş apararkən təhsilalanda həm də öz yazı işini planlaşdırmaq və qiymətləndirmək bacarığı formalaşdıran proses əsaslı yanaşma tədqiqatçılar tərəfindən müxtəlif dövrlərdə müxtəlif mərhələlərə bölünmüşdür (Tompkins, 2004; Harris, 2003; Tabak, Göçer, 2014; Karatay, 2011; Sever, Memiş, 2014). Lakin sonradan daha dərin araşdırmalardan gəlinən qənaət budur ki, proses əsaslı yanaşma 5 mərhələni əhatə edir (Sxem 1) (Tavşanlı, Kaldırım, 2020).




***Sxem 1. Proses əsaslı yazı yanaşmasının mərhələləri.***

Təqdim olunan sxemdən də göründüyü kimi, bu yanaşma təhsilalana mətni hazırlayarkən istənilən bir mərhələdə geri qayıtmaq, mətndə yenidən yeni düzəlişlər etmək, ona bir neçə dəfə nəzər salmaq imkanları təqdim edir. Nəticədə bu yolla şagird anlayır ki, mətn hazırlamaq üzərində dəfələrlə iş aparılmalı, cilalanmalı, lazım gələrsə, hər bir cümlənin yeri və strukturu üzərində dəfələrlə düşünməli bir prosesdir. Yalnız bu halda düzgün, oxunaqlı və cəlbedici bir mətn nümunəsi ortaya çıxarmaq olar. Bu iki yanaşma arasındakı digər bir mühüm fərq isə proses əsaslı yanaşmada müəllimin bütün mərhələlər boyunca dəstəkləyici mövqedə dayanmasıdır – öyrədən proses boyunca öyrənənin yanındadır və ona harada, nəyi və niyə düzgün etmədiyinə dair yerində rəylər verir, onu bu prosesdə aktiv öyrənən qismində qalmağa təşviq edir.

"Yaxşı bir mətni başa gətirmək üçün müəyyən mərhələlərdən keçmək lazımdır" fikrinə əsaslanan bu yanaşmanın şagirdlərin yazı bacarıqlarının inkişaf etdirilməsində daha üstün rol oynadığı bir çox tədqiqatlar vasitəsilə təsdiqlənmişdir (De Glopper, Van Kruiningen və Hemmen, 2014; Graham, McKeown, Kiuhara və Harris, 2012; Graham və Sandmel, 2011; Ülper ve Uzun, 2009). Lakin müşahidələr o yöndədir ki, hazırda təhsilverənlərimiz yazı ilə bağlı fəaliyyətlər apararkən daha çox nəticə əsaslı yanaşmaya üstünlük verirlər. Bu səbəbdən də bu mövzunun daha dərindən araşdırılmasına, ümumi təhsil müəssisələrindəki real vəziyyətin öyrənilməsinə, təhsilverənlərin bu yanaşmalarla bağlı məlumatlandırılmasına ehtiyac duyulmaqdadır. Zənnimizcə, o halda hər zaman böyük müzakirələrə səbəb olan "Niyə yaza bilmirik?" sualına da müəyyən mənada cavab tapmış olacağıq.

**Ədəbiyyat:**

1. Bruning, R. and Horn, C. (2000). Developing motivation to write. Educational Psychologist, 35(1), 25-37.

2. Clark, I.L. (2012). Invention. Concepts in Composition: Theory and Practice in the Teaching of Writing, NY: Routledge Press.

3. De Glopper, C.M., Kruiningen, J. F. and Hemmen, N. (2014). Context in Writing Process Research: An exploratory analysis of context characteristics in writing process research in educational and workplace settings. EARLI (European Associtation for Research on Learning and Instruction), 27-29 August 2014. Amsterdam, Netherlands.

4. Gezmiş, N. (2020). Difficulties faced by the undergraduate students in the process writing approach. Journal of Language and Linguistic Studies, 16(2), 565-579.

5. Göçer, A. (2014). Yazma eğitimi. Ankara: Pegem Akademi.

6. Graham, S. and Sandmel, K. (2011). The process writing approach: A meta-analysis. The Journal of Educational Research, 104(6), 396-407.

7. Graham, S., McKeown, D., Kiuhara, S. and Harris, K. (2012). A meta-analysis of writing instruction for students in the elementary grades. Journal of Educational Psychology, 104(3), 879-896.

8. Harris, K.R., Graham, S. and Mason, L.H. (2003). Self-regulated strategy development in the classroom: part of a balanced approach to writing instruction for students with disabilities. Focus on Exceptional Children, 35(7), 1-16.

9. Karatay, H. (2011). Süreç temelli yazma modelleri: 4+1 planlı yazma ve değerlendirme. M. Özbay (Ed.). Ankara: Pegem Akademi.

10. Sever, S. (2004). Türkçe Öğretimi ve Tam Öğrenme. 4.Baskı, Ankara: Anı Yayıncılık.

11. Tavşanlı Ö.F., Kaldırım A. (2020). Türkiyede süreç temelli yazma yaklaşımı. Bir analitik analiz çalışması. Cumhuriyet uluslararası eğitim dergisi. 9(1).

12. Tok, M. ve Ünlü, S. (2014). Yazma becerisi sorunlarının ilkokul, ortaokul ve lise öğretmenlerinin görüşleri doğrultusunda karşılaştırılmalı olarak değerlendirilmesi. Elektronik Sosyal Bilimler Dergisi, 13(50), 73-95.

13. Tompkins, G.E. (2004). Teaching Writing: Balancing Product and Process. 4. Baskı, Upper Saddle River, NJ: Merrill/Prentice Hall.

14. 2022/2023-cü tədris ili üçün Azərbaycan Respublikasının ali və orta ixtisas təhsili müəssisələrinə tələbə qəbulu və ümumtəhsil müəssisələri üzrə buraxılış imtahanları nəticələrinin elmi-statistik təhlili (2022). https://dim.gov.az/upload/iblock/374/374a8d785b155421a6e91d0aab5ca47b.pdf

## BİOLOGİYA DƏRSLƏRİNDƏ TƏLİM TEXNOLOGİYALARINDAN İSTİFADƏNİN DİDAKTİK ƏSASLARI

**İsmayılova Səbinə Ataməli**
**Azərbaycan Respublikasının Təhsil İnstitutu**
**https://orcid.org/0000-0002-0737-1280**
**ismayilova08@gmail.com**

## DIDACTIC PRINCIPLES OF USING EDUCATIONAL TECHNOLOGIES IN BIOLOGY LESSONS

**Ismayilova Sabina Atameli**
**Institute of Education of the Republic of Azerbaijan**
**https://orcid.org/0000-0002-0737-1280**
**ismayilova08@gmail.com**

### Summary

The purpose of this report is to increase attention to the organization of modern biology lessons with reference to didactic principles. It is very important for biology teachers to know the content, nature and issues of didactics. Because with the help of didactics as a theory of training, the skills of using training technologies are improved. Thus, understanding the essence of the complex issues of training, we are able to establish the pedagogical process at the level of today's requirements. It is impossible to solve the tasks ahead in biology lessons without referring to didactic foundations. Because in modern times, regardless of the subject he teaches, every teacher cannot determine the principles, methods and principles of training, as well as the effectiveness of training technologies in advance. From this point of view, the topic of the report is dedicated to an actual problem and the determination of its solutions.

**Key words:** modern learning technologies, didactics, pedagogical process, learning strategies, organizational forms of learning

## ДИДАКТИЧЕСКИЕ ПРИНЦИПЫ ИСПОЛЬЗОВАНИЯ ОБРАЗОВАТЕЛЬНЫХ ТЕХНОЛОГИЙ НА УРОКАХ БИОЛОГИИ

**Исмаилова Сабина Атамели**
**Институт Образования Азербайджанской Республики**
**https://orcid.org/0000-0002-0737-1280**
**ismayilova08@gmail.com**

### Резюме

Цель данного доклада – привлечь внимание к организации современных уроков биологии с опорой на дидактические принципы. Учителям биологии очень важно знать содержание, характер и вопросы дидактики. Потому что с помощью дидактики как теории обучения совершенствуются навыки использования технологий обучения. Таким образом, понимая суть сложных вопросов обучения, мы способны наладить педагогический процесс на уровне требований сегодняшнего дня. Невозможно решить поставленные задачи на уроках биологии без обращения к дидактическим основам. Потому что в современное время, независимо от предмета, который он преподает, каждый учитель не может заранее определить принципы, методы и прием обучения, а также эффективность технологий обучения. С этой точки зрения тема доклада посвящена актуальные проблемы обучения биологии и определению путей ее решения.

**Ключевые слова:** современные технологии обучения, дидактика, педагогический процесс, стратегии обучения, организационные формы обучения

Əbədiyaşar liderimiz Heydər Əliyev təhsil haqqında çox qiymətli fikirlər söyləmişdir. Onun təbirincə, təhsil sisteminin nə qədər dəyərli olduğunu ondan görmək olar ki, Azərbaycanda yüksək savada, biliyə, ixtisasa, yüksək elmə malik insanlar var və onlar cəmiyyətin çox hissəsini təşkil edir. Əgər bunlar olmasaydı, Azərbaycanın iqtisadiyyatı belə güclü inkişaf edə bilməzdi. Bunlar olmasaydı, Azərbaycan elmi inkişaf edə bilməzdi. Bunlar olmasaydı, biz indi Azərbaycanı müstəqil dövlət kimi idarə edə bilməzdik. Onları qiymətləndirmək lazımdır və on illərlə əldə etdiyimiz nailiyyəti heç vaxt unutmamalıyıq" (Əliyev, 2010).

XXI əsr həm intellekt, həm də informasiya - kommunikasiya texnologiyaları əsridir. Ümumtəhsil müəssisələrində dərslər yeni təlim texnologiyalarının tətbiqi ilə təşkil olunmalıdır. Təlimin səmərəliliyinə və keyfiyyətinə nail olmaq üçün pedaqoji prosesdə yeni təlim texnologiyalarını tətbiq etmək zəruridir. Bu, aşağıdakı xüsusiyyətlərlə səciyyələnir:

- tədris prosesi nəticəyönlü olduğundan, təlimin məqsədi əvvəlcədən müəyyənləşdirilməli və şagirdə istiqamətləndirilməlidir;

- tədris prosesi təhsilverən və təhsilalanların qarşılıqlı əməkdaşlığından irəli gəlməlidir;

-tədris prosesi müəllim və şagirdlərin xarakterini və öyrədici mühitin xüsusiyyətini özündə cəmləşdirməlidir.

Akad. M.M. Mehdizadə yazırdı ki, təlim prosesində uşaq təkcə əqli cəhətdən deyil, həm də fiziki cəhətdən inkişaf edir. Elmlərin əsasının öyrənilməsi uşağın intellektual imkanını, onun təfəkkürünü, nitqini, idrak qabiliyyətini, qavrayışını, dərk etməsini, təxəyyül və fantaziyasını, onun hadisələri başa düşmək, müqayisə etmək, faktları ümumiləşdirə bilmək, əqli nəticələr çıxarmaq, yaradıcı düşünmək bacarığını və s. inkişaf etdirir. (Mehdizadə, 1982)

Biologiyanın tədrisində təlim texnologiyalarından istifadənin didaktik əsaslarını təlimin əsas təşkil forması olan dərsin məqsədyönlü şəkildə planlaşdırılması təşkil edir. İlk olaraq fənn müəllimi nəzərə almalıdır ki, təhsilin əsas təşkil forması olan dərs şagirdlərin bir şəxsiyyət kimi formalaşmasında zəruri rola malikdir. Biologiya müəllimi dərsi elə təşkil etməlidir ki, o, şagirdlərdə müəyyən bioloji bilik, bacarıq, səriştə, elmi düşüncə tərzi, dərketmə bacarığı və s. formalaşdıra bilsin. Biologiya dərsləri bu cür didaktik əsaslarla təşkil olunduqda şagirdlərdə həm bilik, bacarıq və vərdişlər formalaşır, həm də onların şəxsiyyətinin inkişafına kömək göstərir.

Biologiyanın tədrisində müasir təlim metod və texnologiyalarından istifadə etməklə təlimin maraqlı və cəlbedici şəkil almasına nail olmaq mümkündür, çünki təlimin keyfiyyəti tətbiq olunan metodlardan çox asılıdır. Biologiya dərslərində müəllim müvafiq təlim strategiyalarından düzgün istifadə edərək əlaqələndirməyi bacarmalıdır. Təbii ki, təlim strategiyalarının biologiya dərslərinə tətbiqi zamanı mövzunun məzmunu, məqsədi, dərsin mərhələləri, təhsilalanların zəka yaşlarının uyğunluğu və idrak səviyyələri əsas götürülməlidir. Müəllim təlim prosesində yarana biləcək hər hansı neqativ halın qarşısını almaq, həm mövzular, həm də təlim metodları arasında inteqrasiya etmək qabiliyyətlərinə yiyələnməlidir. Bu qabiliyyətlər tədrisin məqsəd və vəzifəsini yüksək səviyyədə həyata keçirə bilmək və uğurlu nəticələr qazanmaq imkanını artırır.

Biologiya müəllimi dərsi didaktik prinsipləri nəzərə alaraq tədris etməlidir ki, şagirdlərə təkcə bioloji informasiyaları deyil, mənimsənilən biliklərin ölkəmizin iqtisadi, siyasi, mənəvi cəhətdən inkişafında roluna inamı formalaşdıra bilsin. O, tədrisi məqsədyönlü şəkildə təşkil etməlidir. Məktəblilər müvafiq bioloji biliklərə yiyələnməklə yanaşı, əqli, fiziki, iradi, əxlaqi və s. mövqedən inkişaf etmiş olurlar.

İnteraktiv təlimlə həyata keçirilən biologiya dərslərində müəllim, hər şeydən əvvəl öz kreativliyi ilə seçilməlidir. Xalqımızın xoşbəxt gələcəyini təmin edən, ən əsası da, XXI əsrin standartlarına və tələblərinə cavab verən, layiqli şəxsiyyətlərin yetişdirilməsi üçün yaradıcı, pedaqoji kadrların olması zəruridir.

Ümumiyyətlə, təcrübə göstərir ki, ümumtəhsil məktəblərində biologiyanın tədrisində təlim texnologiyalarının didaktik əsaslara istinad edilməklə tətbiqi şagirdlərin biliklərinin inkişafında, bacarıqlarının formalaşmasında əhəmiyyətli rol oynayır. Hər bir sinifdə biologiyanın tədrisində innovativ yanaşmalara, interaktivliyə əsaslanan təlim texnologiyalarının tətbiqi davamlı, ardıcıl, sistemli xarakter daşımalıdır. Məhz o zaman siniflər üzrə təlim nəticələrinə nail olmaq, zəruri bilik və bacarıqlara yiyələnmək, şagirdlərin təlim maraqlarını təmin etmək mümkündür.

**Ədəbiyyat:**

1. Mehdizadə, M.M. (1982) Ümumtəhsil məktəblərində təlim və tərbiyə prosesinin təkmilləşdirilməsi yolları. Bakı: Maarif, s.262.
2. Əliyev, H.Ə. (2010) Milyonların yaddaşlarında yaşayan dahi insan // Azərbaycan müəllimi, 10 dekabr, s. 4.

## REGİONAL ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNİN QLOBALLAŞMA ŞƏRAİTİNDƏ QARŞISINDA DURAN VƏZİFƏLƏR

**Çunayev Məhəmməd Məhəməli**
**Lənkəran Dövlət Universiteti**
**https://orcid.org/ 0000-0001-5643-4826**
**chunayev.mahamad@mail.ru**

## TASKS FACING REGIONAL HIGHER EDUCATION INSTITUTIONS IN THE CONTEXT OF GLOBALIZATION

**Chunaev Muhammad Magamali**
**Lankaran State University**
**https://orcid.org/0000-0001-5643-4826**
**chunayev.mahamad@mail.ru**

**Summary**

The purpose of this report is to evaluate the activities of regional higher education institutions. Due to the fact that education is the main condition for the development of each person, society, the world states have tried to increase the level of education every year. The Republic of Azerbaijan also attaches great importance to the development of education in the country, as all development conditions are related to education. That is why regional higher education institutions have been organized in this direction in different regions of our republic in the profiles that contribute to the development of these territories. In order to ensure citizens' access to education in the country, new orders are signed by the head of state every year. These orders also contain clauses for the possibility of obtaining higher education for the low-income segment of society. Regional higher education institutions face many tasks in modern times. These include the fact that these higher educational institutions have reached the leading universities in the world in terms of rating, the opening of new specialties in accordance with the requirements of the time, and the competitiveness of graduates in the labor market.

**Keywords:** regional higher education institutions, education, globalization, development.

# ЗАДАЧИ, СТОЯЩИЕ ПЕРЕД РЕГИОНАЛЬНЫМИ ВЫСШИМИ УЧЕБНЫМИ ЗАВЕДЕНИЯМИ В УСЛОВИЯХ ГЛОБАЛИЗАЦИИ

**Чунаев Мухаммад Магамали**
**Ленкоранский Государственный Университет**
**https://orcid.org/0000-0001-5643-4826**
**chunayev.mahamad@mail.ru**

**Резюме**

Целью данного доклада является оценка деятельности региональных высших учебных заведений. Поскольку образование является главным условием развития каждого человека, общества, государства мира старались, чтобы уровень образования рос из года в год. Поскольку все условия развития связаны именно с образованием, Азербайджанская Республика также придает большое значение развитию образования в стране. Именно поэтому в этом направлении в различных регионах нашей республики организованы региональные высшие учебные заведения по профилям, которые способствуют развитию этих территорий. В целях обеспечения доступа граждан к образованию в стране главой государства ежегодно подписываются все новые и новые распоряжения. В этих распоряжениях содержатся положения о возможности получения высшего образования даже малообеспеченными слоями общества. Перед региональными высшими учебными заведениями в наше время стоит множество задач. К ним можно отнести выход этих высших учебных заведений в ведущие мировые вузы в рейтинговом отношении, открытие новых специальностей в соответствии с требованиями времени, конкурентоспособность выпускников на рынке труда.

**Ключевые слова:** региональные высшие учебные заведения, образование, глобализация, развитие.

Təhsil daima inkişafda olan, yeni-yeni sahələri yaranan və tərəqqinin əsas səbəbi olan prosesdir. O, istənilən bir insanın və cəmiyyətin inkişafının ən birinci şərti hesab olunur. Onun sayəsində insanlar ətraf aləmi tanıyır, hadisə və prosesləri dərk edib analiz edirlər. Həmçinin həmin prosesləri qiymətləndirir, özləri də bu və digər hadisə və proseslərin yaradılmasında iştirakçı olurlar. Bəşəriyyət özünün hazırda çatmış olduğu inkişafa görə məhz təhsilə borcludur. İnsanlar əvvəlki dövrlərdən təhsilin verdiyi dəyərləri anlamış, bu istiqamətdə addımlar atmış, aldığı bilikləri təkmilləşdirmiş, yeni biliklər yaratmış və indiki inkişafa çatmışlar.

Təhsil prosesi içərisində ali təhsil insanın hərtərəfli bir şəxsiyyət kimi formalaşmasında mühüm rol oynayır. Təhsil prosesində şəxsiyyət yetkinləşir, analitik qabiliyyəti, qeyri-standart vəziyyətlərdə qərarvermə bacarığı daha da inkişaf edir, cəmiyyətin ictimai, sosial, iqtisadi, mədəni həyatında aktiv iştirakçıya çevrilir. Bundan əlavə təhsil müddətini bitirəndən sonra elmi-tədqiqatlarla, araşdırmalarla məşğul olaraq özü yeni biliklərin yaradılmasında iştirakçı olur, bununla da, ölkənin, cəmiyyətin inkişafına öz müsbət töhfəsini verir.

Respublikamız müstəqilliyini bərpa etdikdən sonra regionların inkişaf etdirilməsi məqsədilə xüsusi dövlət proqramları qəbul edildi. Regionların inkişaf etdirilməsində həmin regionlarda ali təhsil müəssisələrinin yaradılması və rəqabət qabiliyyətinin artırılması ön plana keçdi. Çünki bu, dünya təcrübəsində öz təsdiqini tapmış proses idi. Bəhs etdiyimiz dövrdə iqtidasiyyatın digər sahələri kimi təhsil sektoru da durğunluq dövrünü keçirirdi. Müxtəlif sahələrin mütəxəssislərinə, ixtisaslaşmış və yüksək peşəkar kadrlara tələbat həddindən artıq idi.

Bunları nəzərə alaraq regionlarda bir neçə yeni ali təhsil müəssisələri yaradıldı. Paytaxtdakı ali təhsil müəssisələrinin regionlarda fəaliyyət göstərən filialları isə müstəqil ali təhsil müəssisələrinə çevrildi.

Bunlara ADNSU-nun filialları kimi fəaliyyət göstərən Sumqayıt və Mingəçevir filialları və BDU-nun Lənkəran filialının müstəqil dövlət universtitetləri kimi davam etmələri, ADPU-nun Quba, Şamaxı, Şəki, Cəlilabad, Ağcabədi filialları və digər regional ali təhsil müəssisələrini aid etmək olar.

Son dövrlər dünyada baş verən qloballaşma ilə əlaqədar urbanizasiya prosesi geniş vüsət alıb. Bu da iri şəhərlərdə, paytaxtda saysız-hesabsız problemlərin yaranmasına səbəb olur. İri şəhərlərdəki insan sıxlığının səbəblərindən biri də insanların orada cəmləşərək qeyd olunan yerdə yerləşən ali təhsil müəssisələrində oxumasıdır. Regional ali təhsil müəssisələri bu prosesin qarşısını almaqda əhəmiyyətli dərəcədə kömək edir.

Regional ali təhsil müəssisələri yaradıldığı müddətdən qarşıya qoyulmuş məqsəd və vəzifələri həyata keçirməyə başladılar. Bunlara regionun iqtisadiyyat, mədəniyyət, kənd təsərrüfatı, sosial, elm tutumlu sahələrin ehtiyac duyulan savadlı, yüksək səviyyəli mütəxəssislərlə təmin olunması daxildir.

Regional ali təhsil müəssisələrində təkcə bu regionda və şəhərdə yaşayan insanlar deyil, eyni zamanda ölkənin müxtəlif regionlarından olan tələbələr də təhsil alır. Bu da fərqli regionların özünəməxsus adət-ənənələrinin, mədəniyyətlərinin öyrənilməsinə və ölkəmizdə mövcud olan yüksək tolerantlığın daha da dərinləşməsinə öz müsbət töhfəsini verir.

Ölkə əhalisinin həssas və aztəminatlı təbəqəsinin təhsil almaq imkanlarının maksimuma çatdırılması dövlət siyasətinin başlıca vəzifələrindən biridir. Bu yöndə növbəti addımlardan biri də "Azərbaycan Respublikası Təhsil Nazirliyinin tabeliyində Təhsil Tələbə Krediti Fondunun yaradılması və fəaliyyətinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında" Azərbaycan Respublikasının Prezidentinin 2021-ci il 17 iyun tarixli 1367 nömrəli Fərmanının 5.2-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabinetinin qərarıdır [1].

Bunun üçün Təhsil Tələbə Krediti Fondu yaradıldı və əhalinin aztəminatlı təbəqəsinin ali təhsil alması üçün tələbələrə təhsil kreditinin verilməsi təsdiq edildi. Bu əsasnaməyə görə TTK 2 yerə bölünür: Sosial və Standart.

Sosial TTK sosial vəziyyəti çətin olan aztəminatlı ailələrin övladları üçün nəzərə tutulmuşdur.

Standart TTK-nı isə müəyyən şərtləri ödəyən tələbələr ala bilər. Bunu ÜOMG-si 71 bal və daha çox olanlar və illik təhsil ödənişinin 20 faizini ödəmiş olan tələbələr ala bilər. Qeyd edək ki, TTK tələbələrə çox böyük güzəştli şərtlərlə verilir, təhsilini bitirdikdən 2 il sonra qaytarılır, tələbənin tədris keyfiyyəti göstəriciləri nə qədər çox olarsa faiz bir o qədər az olur. TTK-nın ən müsbət cəhətlərindən biri də, hər il daha çox tələbəyə bu sistemdən yararlanmaq şansının yaradılmasıdır.

Dövlətimizin iqtisadi-siyasi, ictimai, mədəni və təhsil sahəsində artan gücü hərbi sahədə də öz sözünü demişdir. 2020-ci il sentyabrın 27-də başlayan və 8 noyabrda şanlı zəfər ilə başa çatan "44 günlük Vətən müharibəsi" torpaqlarımızın düşmən tapdağından azad olunması üçün iştirak edən gənclərin təhsil alması da dövlətin daima diqqət mərkəzindədir. Bununla bağlı ölkə Prezidenti İlham Əliyevin 27.07.2023-cü il tarixdə imzaladığı Sərəncamda deyilir: "Azərbaycan Respublikasının ali təhsil müəssisələrində bakalavriat və magistratura (əsas (baza ali) tibb təhsili və rezidentura) təhsil səviyyələrində və orta ixtisas təhsili müəssisələrində ödənişli əsaslarla təhsil alan Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda döyüş əməliyyatlarında iştirak etdiyinə görə müharibə veteranı adı almış şəxslərin təhsil müddəti ərzində təhsil haqqı 2023/2024-cü tədris ilindən etibarən Azərbaycan Respublikası Nazirlər Kabinetinin təsdiq etdiyi təhsil xərcləri miqdarında dövlət büdcəsi hesabına ödənilsin [2]. Bu sərəncam dövlətimizin təhsil sahəsində atmış olduğu növbəti mütərəqqi davamlı addımlardan biridir və insanların təhsilə əlçatanlığının təmin edilməsi siyasətinin bariz nümunəsidir. Bu, minlərlə gəncin ali təhsil almasında köməklik göstərəcəkdir.

Müasir dövrdə qloballaşma ilə əlaqədar regional ali təhsil müəssisələri qarşısında duran vəzifə məzunların dünya standartlarına cavab verən bilik, bacarıq və vərdişlərlə təmin olunmasıdır. Regional ali təhsil müəssisələri dünya təhsil sisteminə daxil olaraq son dövrün getdikcə artan tələblərinə uyğun yüksək

keyfiyyətli kadrlarla istər daxili, istərsə də xarici əmək bazarını təmin etməlidir. Bunun üçün regional ali təhsil müəssisələri öz tədris proqramını qabaqcıl tədris materialları ilə, vəsaitlərlə, son dövrün texnologiyaları ilə zənginləşdirməli, tələb olunan yeni dərsliklər xarici dillərdən tərcümə olunmalı, digər xarici və ölkə ali məktəblərinin müsbət təcrübələri nəzərə alınmalı, eyni zamanda, bu prosesə universitetin professor-müəllim heyəti cəlb olunmalıdır.

Dünya daim inkişaf edir, elm-texnikanın inkişafı ilə əlaqədar müəyyən peşələrdə insan əməyini robotlar və digər vasitələr əvəz edir. Nəticədə bir sıra peşələr, ixtisaslar sıradan çıxır, öz əhəmiyyətini itirir, əvəzində yeni-yeni peşələr yaranır. Əgər regional ali təhsil müəssisələri həmin ixtisaslarda kadr hazırlığına davam etsə diplomlu işsizlər ordusu yaranacaqdır. Bunun baş verməməsi üçün texnoloji inkişafı, yenilikləri, əmək bazarını daim nəzarətdə saxlamaq vacibdir.

Bildiyimiz kimi, istənilən bir ali təhsil müəssisəsinin reytinqinin ölçü meyarlarının ən əsaslarından biri məzun olanların əmək bazarında aktiv fəaliyyətləri, iş tapa bilmələridir. Bu cəhətdən regional ali təhsil müəssisələri əmək yarmarkası təşkil etməli və idarə, müəssisə, fabrik, zavodlarla müqavilələr bağlamalıdır.

-Regionların inkişafında regional ali təhsil müəssisələri mühüm əhəmiyyətə malikdir.

-Ölkəmizdə əhalinin aztəminatlı təbəqəsinin ali təhsil almasında dövlət böyük dəstək olur.

- Regional ali təhsil müəssisələri son dövrün texnoloji yenilikləri və qabaqcıl tədris proqramları ilə təmin olunmalıdır.

- Regional ali təhsil müəssisələri dünyada təhsil sahəsində baş verən yenilikləri daim diqqətdə saxlamalı və buna uyğun addımlar atmalıdır.

- Regional ali təhsil müəssisələri işəgötürənlərlə müqavilələr bağlamalıdır.

**Ədəbiyyat:**

1.https://e-qanun.az/framework/48022
2.https://president.az/az/articles/view/60620

## TƏLƏBƏLƏRDƏ SAĞLAM HƏYAT TƏRZİNİN TƏRBİYƏ EDİLMƏSİ YOLLARI

**İsmayılova Elnarə Atamәli**
**Azərbaycan Respublikasının Təhsil İnstitutu**
**https://orcid.org/0000-0002-5686-9923**
**ismayilova.elnare.777@gmail.com**

## WAYS TO PROMOTE A HEALTHY LIFESTYLE IN STUDENTS

**Ismayilova Elnara Atameli**
**Institute of Education of the Republic of Azerbaijan**
**https://orcid.org/0000-0002-5686-9923**
**ismayilova.elnare.777@gmail.com**

**Summary**

The facts and events considered in scientific pedagogy appear in the process of practical pedagogical activity, in pedagogical practice, on the eve of guiding students and are directly directed to the formation of their healthy lifestyle. That is why health, like a healthy lifestyle, is included in the system of pedagogical concepts if it is purposefully directed to pedagogical activity and pedagogical practice and becomes the research object of pedagogic science. In

our research, education of healthy lifestyle formation in students at the stage of modern development of the Republic of Azerbaijan is brought to the center of attention, which is its subject.

**Keywords:** healthy lifestyle, valeology, student, educational institution, pedagogical process, upbringing

# СПОСОБЫ ПРОДВИЖЕНИЯ ЗДОРОВОГО ОБРАЗА ЖИЗНИ СТУДЕНТОВ

**Исмаилова Елнара Атамели**
**Институт Образования Азербайджанской Республики**
**https://orcid.org/0000-0002-5686-9923**
**ismayilova.elnare.777@gmail.com**

**Резюме**

Факты и события, рассматриваемые в научной педагогике, возникают в процессе практической педагогической деятельности, в педагогической практике, накануне руководства учащимися и непосредственно направлены на формирование у них здорового образа жизни. Именно поэтому здоровье, как и здоровый образ жизни, включается в систему педагогических понятий, если оно целенаправленно направлено в педагогическую деятельность и педагогическую практику и становится объектом исследования педагогической науки. В нашем исследовании в центр внимания поставлено воспитание формирования здорового образа жизни у студентов на этапе современного развития Азербайджанской Республики, что является его предметом. Здоровье изучается не в застойном и инертном состоянии на социально-педагогическом уровне, а на основе изменений в окружающей среде. В аспекте социально-педагогического подхода здоровье - это индивидуальная свободная реакция и отношение человека к сложившейся социальной действительности, определяющая процесс адаптации и ассимиляции.

**Ключевые слова:** здоровый образ жизни, валеология, студент, образовательное учреждение, педагогический процесс, воспитание

Dövlətin ictimai-iqtisadi quruluşundan asılı olmayaraq gənc nəslin tərbiyəsi, xüsusilə sağlamlığı Azərbaycan cəmiyyətində həmişə diqqət mərkəzində olmuşdur. Respublikamızın müasir inkişaf mərhələsində gənc nəslin sağlamlığı xüsusi ictimai-siyasi və pedaqoji-psixoloji əhəmiyyət kəsb edir.

Ümummilli lider Heydər Əliyev demişdir: "Bizim istəyimiz, arzumuz ondan ibarətdir ki, gəncliyimiz, Azərbaycan gəncləri sağlam olsunlar. Fiziki sağlamlıq, mənəvi, ruhi sağlamlıq-hamısı bizim gənclər üçün vacib amillərdir. Məmnuniyyət hissi ilə qeyd edirəm ki, Azərbaycan gəncliyi əsasən, sağlamdır. Bunlar bizi sevindirir. Ancaq bunlarla yanaşı gərək hər bir gənc, öz fiziki sağlamlığı üçün çalışsın, daim idmanla, bədən tərbiyəsi ilə məşğul olsun. Bədən tərbiyəsi hər bir gəncin həyatının ayrılmaz hissəsi olmalıdır. Səmərəli işləmək, xalqa, ölkəyə xidmət etmək üçün Azərbaycanda hər bir gənc gərək sağlam olsun". (Əliyev, 2012)

Azərbaycanda ümumi və pedaqoji valeologiyanı ilk dəfə dosent Heydər Cəfərov tədqiqata cəlb etmiş və bu mövzuda silsilə məqalələr yazmışdır. Bundan başqa professor, əməkdar elm xadimi Fərrux Rüstəmov, professor Ləzifə Qasımova, professor Müseyib İlyasov, professor Hikmət Əlizadə, professor Akif Abbasov öz tədqiqatlarında bilvasitə bu məsələnin müxtəlif aspektlərinə toxunmuşlar. Lakin aparılan araşdırmaların elmi-pedaqoji və valeoloji əhəmiyyətini qətiyyən kiçiltmədən qeyd etmək lazımdır ki, müasir dövrdə çox böyük aktuallıq kəsb etməsinə baxmayaraq tələbə-gənclərin valeoloji tərbiyəsi xüsusi tədqiqat obyekti kimi işlənilməmişdir. Valeologiyanın başlıca müddəalarının pedaqoji fəaliyyətə tətbiq edilməsi pedaqoji elmin çoxdankı strategiyasını, yəni gənc nəsli sağlam böyütmək və tərbiyə etmək məqsədini həyata keçirməyə imkan verəcəkdir.

Məşhur yapon alimi Kasudzo Nişinin təliminə istinadən desək "Sağlamlıq ilk növbədə dörd ünsür-dən-dəridən, qidalanmadan, bədən üzvlərindən və psixikadan asılıdır. Əgər sağlamlığı 100% qəbul etsək, bu ünsürlərin hər birinin payına 25% sağlamlıq üçün cavabdehlik düşür. Bu ünsürlərdən heç biri ayrılıqda tam sağlamlığın qarantı ola bilməz, yalnız onların hamısı birlikdə orqanizmin tam həyat qabiliyyətinə malik olmasını təmin edə bilər." (Kasudzo, 2011)

Sağlam həyat tərzi müəyyən mənada daimi və əbədi bir kateqoriya, anlayış və hadisə deyildir. Yəni, sağlam həyat tərzini həmişəlik qazanmaq qeyri-mümkündür. Sağlam həyat tərzi inkişaf etdirildikdə, sağlamlıq üçün yeni faydalı elementlərlə, vərdişlərlə zənginləşdirildiyi təqdirdə sağlam ola bilir.

Məhz buna görə bu əsasda, sağlam həyat tərzi insanın ictimai davranışının tənzimləyicisi rolunu oynayır. Beləliklə, tələbələrə sağlamlığın möhkəmləndirilməsinə yardımçı olan belə davranış yolunu seçmək, ona sistemli şəkildə, mütəmadi və ardıcıl əməl etmək üçün əlverişli şərait yaratmaq lazımdır. Tələbələr belə bir müddəanı anlamalıdırlar ki, onların davranışı, əsasən, gündəlik yaşam tələbatları və dəyərli həyat haqqında şəxsi mülahizələri, təsəvvürləri ilə müəyyən olunur.

"Sağlam həyat tərzi" anlayışı mahiyyətcə humanist səciyyə daşıyır. Belə ki, sağlam həyat tərzini kənardan zorla, məcburi qəbul və sirayət etdirmək mümkün deyildir. İnsanın özü şüurlu olaraq, ən başlıcası isə, sərbəst şəkildə onun üçün əhəmiyyətli, faydalı olan həyat fəaliyyətinin və davranışın müəyyən konkret formasını seçməlidir.

Avtoritar pedaqogika şəraitində sərbəst seçim mümkün deyildir. Ona görə də belə hallarda həyatda və gənc nəsillərin tərbiyəsi, təlimi və təhsili təcrübəsində də özünü doğruldan inandırma metodundan və əqli fəaliyyəti fəallaşdıran üsullardan faydalanmaq məsləhət görülür.

Sağlam həyat tərzi konsepsiyası bir çox hallarda tənzimləyici, nizamlayıcı səciyyə daşımaqla, müxtəlif elmlərin istiqamətləndirici aspektlərinə (tibbi, psixoloji, fəlsəfi, etnik, pedaqoji) inteqrasiya edilməlidir.

Xalqımızın ümummilli lideri Heydər Əliyev çıxışlarında insanların, o cümlədən, gənclərin sağlam həyat tərzinə xüsusi əhəmiyyət verirdi: "Mən inanıram ki, müstəqil Azərbaycanda, cəmiyyətimizdə sağlam həyat tərzi get-gedə özünə üstün yer tutur. Bizim cəmiyyətimizdə sağlam həyat tərzi əsas amillərdən biridir. Sağlam həyat tərzi təkcə gənc nəsil üçün deyil, hər bir insan üçün vacibdir. Bu, insanın şəxsi sağlamlığıdır, bu hər bir insanın ömrünün uzadılmasıdır, bu, hər bir insanın nəslinin sağlam olmasıdır. Sağlam həyat tərzi də insanlarda uşaqlıq çağından başlayır. Əgər biz gənc nəslin hamısını sağlam həyat tərzinə yönəltsək, onları fiziki və əqli cəhətdən sağlam böyüdə biləcək, onda cəmiyyətimizdə də sağlam həyat tərzi hökm sürəcək və müstəqil Azərbaycanın gələcəyini təmin edən insanlar daha da sağlam, daha da güclü olacaqdır" (Qarayev, 2016).

Ümumiyyətlə, təcrübə sübut edir ki, pedaqoji ali təhsil müəssisələrində təsbit olunmuş mühitin özü bütövlükdə tərbiyəvi, sağlam həyat tərzi səciyyəsi daşımalı, demokratik idarə üslubu, təhsilin, təlim-tərbiyə prosesinin humanistləşdirilməsi bərqərar olmalıdır. Çünki tələbələrdə sağlam həyat tərzinin formalaşdırılması modeli onlarda sağlam həyat tərzinin formalaşdırılmasına yönəldilmiş pedaqoji fəaliyyətin məqsədini, məzmununu, mahiyyətini və prinsiplərini müəyyənləşdirməyi tələb edir. Tədqiqatımızda sağlam həyat tərzinin məzmununa dair belə bir nəzəri müddəanı əldə rəhbər tutmuşuq ki, onun başlıca tərkib hissələrini hərəki fəallıq, ünsiyyət kompetentliyi, zərərli vərdişlərin olmaması, rasional qidalanma, stresi ram etmək bacarığı təşkil edir və "sağlamlıq" bir dəyər kimi sağlam həyat tərzinin sistemyaradıcı komponentidir.

**Ədəbiyyat:**

1.Əliyev H.Ə. Azərbaycan gəncləri gününün ilk ildönümü münasibətilə keçirilən bədii idman bayramında nitqi. Azərbaycan Gənclər siyasəti. Toplu, Bakı, "Aspoliqraf", 2012, s.61.

2. Kasudzo Nişi. Sağlamlığın qızıl qaydaları. Bakı, “Apostol” 2011, s. 66.
3. Qarayev, M.A. Pedaqoji fiziologiya. Dərs vəsaiti / M.A.Qarayev. – Bakı: NPM “Təhsil”. – 2016. – 372 s.

# TƏRBİYƏ İŞİNDƏ YENİ YANAŞMA – SOSİAL-PSİXOLOJİ ASPEKTLƏR

**İsgəndərov Elmir Arif**
**Azərbaycan Respublikasının Təhsil İnstitutu**
**https://orcid.org/0009-0001-8183-8862**
**isgenderlielmir@gmail.com**

## A NEW APPROACH IN EDUCATIONAL WORK – SOCIAL-PSYCHOLOGICAL ASPECTS

**Isgandarov Elmir Arif**
**Institute of Education of the Republic of Azerbaijan**
**https://orcid.org/0009-0001-8183-8862**
**isgenderlielmir@gmail.com**

**Summary**

Education of the growing generation is one of the main tasks in every society. The parameters of rapid and almost chaotic development taking place in the world, a number of values going into the background and being replaced by other "values", etc. such factors make it necessary to propose new approaches to the issue of education. From this point of view, the theory of Neuro-Linguistic Programming can be reviewed and its techniques applied. In the process of education, it is necessary to use such methods so that the person being educated can internally accept any quality instilled in him, master it fundamentally and be able to turn it into his own direction. In particular, methods based on internal orientation and faith, rather than external influences, can be considered more effective.

**Key words:** Education, adolescence, suicide, bullying, Neuro-Linguistic Programming.

## НОВЫЙ ПОДХОД В ВОСПИТАТЕЛЬНОЙ РАБОТЕ – СОЦИАЛЬНО-ПСИХОЛОГИЧЕСКИЕ АСПЕКТЫ

**Искандеров Эльмир Ариф**
**Институт Образования Азербайджанской Республики**
**https://orcid.org/0009-0001-8183-8862**
**isgenderlielmir@gmail.com**

**Резюме**

Воспитание подрастающего поколения является одной из главных задач в каждом обществе. Параметры стремительного и почти хаотического развития, происходящего в мире, уход ряда ценностей на второй план и замена другими «ценностями» и т. д. такие факторы делают необходимым предлагать новые подходы к проблеме образования. В связи с этим можно пересмотреть теорию нейролингвистического программирования и применить ее методы. В процессе воспитания необходимо использовать такие методы,

чтобы воспитуемый мог внутренне принять любое привитое ему качество, коренным образом овладеть им и суметь превратить в свою направленность. В частности, более эффективными можно считать методы, основанные на внутренней ориентации и вере, а не на внешнем воздействии.

**Ключевые слова:** образование, подростковый возраст, суицид, буллинг, нейролингвистическое программирование.

Tərbiyə, onun mahiyyəti, məqsədi, prinsipləri, qanunauyğunluqları, mədəniyyət üçün səciyyəvi xüsusiyyətləri, məzmunu, forma və metodları uzun müddətdir ki, psixoloq və pedaqoqların diqqət mərkəzində olmuş, onların tədqiqat obyektinə çevrilmişdir. Dövrümüzdə gənc nəslin elmi dünyagörüşünə, yüksək əxlaqi keyfiyyətlərə malik olan şəxsiyyət kimi tərbiyə olunması, formalaşdırılması müasir təhsil sisteminin prioritetlərindən biridir (Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası) [1].

Tərbiyə - şəxsiyyətin məqsədyönlü, ümumbəşəri və milli-mənəvi dəyərlər əsasında formalaşması və inkişafı prosesidir. “Tərbiyənin mahiyyəti – şəxsiyyəti yüksək insani keyfiyyətlərlə tərbiyələndirmək, onda nəcib əxlaqi, mənəvi keyfiyyətlər aşılamaq, əməyə, həyata hazırlamaq, estetik və fiziki mədəniyyət, ailə münasibətləri mədəniyyəti formalaşdırmaq, cəmiyyətdə düzgün davranış normalarına istiqamətləndirmək, milli və bəşəri dəyərləri mənimsətmək və bütün bunları tərbiyə olunanın intellektual, emosional, daxili aləmindən keçirib onun xarakter əlamətlərinə çevirməkdir” [İbrahimov F., Hüseynzadə R, 2012: 266].

Dövrümüzdə xüsusilə internet və sosial şəbəkələrin təsiri ilə artıq daha əlçatan olan neqativ informasiyalar, yaşa müvafiq olmayan, vaxtından əvvəl əldə olunan məlumatlar gənc nəslin tərbiyəsinə ciddi neqativ təsir göstərir. Bütün bunlar tərbiyə prosesinə xüsusi diqqət yetirilməsini və onun təkmilləşdirilməsini zəruri edir. Təkcə intiharla bağlı düşüncə, davranış və cəhdlərin çoxalması və bunun yaş baxımından getdikcə gəncləşməsi məsələnin təxirəsalınmaz tədbirlər tələb etdiyini göstərir.

Tərbiyə sahəsində yeni konsepsiyanın formalaşmasını aktual edən faktorlardan biri də ondan ibarətdir ki, ənənəvi tərbiyə sisteminin tətbiqinə mühit və şərait amilləri imkan vermir.

Bəzi tədqiqatlardan əldə olunan statistik məlumatlar göstərir ki, yeniyetmələr arasında artmaqda olan deviant davranışlar, davranış pozuntuları, cinayət, sui-qəsd, zərərli vərdişlərə meyil və s. neqativ halların dinamikası ciddi narahatlığa əsas verir. Ümumdünya Səhiyyə Təşkilatına görə, 15-24 yaş arasındakı hər 100 min gəncdən 13-ü intihar edir və bu rəqəm hər il artmaqda və intiharla bağlı yaş həddi getdikcə aşağı düşməkdədir [Atay, Kerimoğlu: 129]. E.Bəylərovun fikrincə, yeniyetmə intiharlarının böyük əksəriyyətinin əsas səbəblərindən biri ailədə övlad-valideyn münasibətlərinin düzgün qurulmamasıdır [E.Bəylərov, 2022]. Bundan başqa, ümumiyyətlə, uşaq-valideyn münaqişələri, evdən qaçma halları, müxtəlif zərərli oyunlara, vərdişlərə, müəyyən qruplara meyil və maraqların güclənməsi və s. amillərdən bu qənaətə gəlmək olar ki, müasir şəraitdə tərbiyə işinə ailələrdə kifayət qədər diqqət və zaman ayrılmır, ayrıldığı təqdirdə də ənənəvi tərbiyə sistemi səmərəli olmur.

Ümummilli Lider Heydər Əliyev yeniyetmə və gənclərin tərbiyəsinə daim əhəmiyyət vermiş, milli-mənəvi ruhda tərbiyəni əsas hesab etmişdir: “Gənclərimizin qarşısında duran əsas vəzifələrdən biri mənəvi tərbiyə məsələsidir, ...mənəvi tərbiyəni daim aparmaq lazımdır və gənclərimizi yüksək mənəvi ruhda tərbiyələndirmək lazımdır” [5].

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə təsdiq olunmuş “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası”nda milli-mənəvi dəyərlərə yiyələnmək gənc nəslin mənəvi-əxlaqi tərbiyəsinin əsas vəzifələrdən biri kimi qarşıya qoyulmuşdur. Cənab İlham Əliyev 2020-ci il aprelin 5-də Milli Məclisdəki çıxışında tərbiyə prosesinin milli-mənəvi dəyərlər əsasında qurulmasının vacibliyini vurğulamışdır: “Gənclər milli ruhda tərbiyə almalı, xarici təsir altına düşməməlidirlər. Xüsusilə indiki internet dövründə istənilən yalan tezliklə yayılır və sonra həqiqət kimi təqdim olunur”.

Digər tərəfdən müasir dövrdə baş verən təbii və texnogen hadisələr, müharibələr, pandemiya, digər təbii fəlakətlər tərbiyə işinə yeni yanaşmanı aktuallaşdırır. Bundan başqa, uşaq oğurluğu, insan alveri, bullinq kimi amillər tərbiyədə müvafiq müdafiə elementlərinin formalaşdırılmasını zəruri edir.

ABŞ Təhsil Departamentinin məruzəsinə əsasən, 12 yaşdan 18 yaşadək hər dörd uşaqdan biri son məktəb ili ərzində bullinqin qurbanı olmuşdur. Ukraynada UNICEF xətti ilə aparılan tədqiqatlara əsasən, məktəblilərin 89%-i bullinqlə rastlaşırlar. Qərb mənbələrinin məlumatına görə, 14 yaşa qədər şagirdlərin 50%-i məktəbdə təqiblərə məruz qalır [Mahmudova L, 2019].

Dünya üzrə statistikaya nəzər salsaq, 12-18 yaş arası uşaqlar arasında aparılmış sorğular nəticəsində onların 20%-nin bullinqlə üzləşdiyi məlum olmuşdur, 30% uşaq isə bu və digər formada bullinq törətdiyini etiraf etmişdir [2019]. Bullinqin baş verdiyi an 85% hallarda ətrafda olan digər uşaqlar da buna şahid olurlar [Barhight, Lydia R., Julie A. Hubbard & Christopher T. Hyde, 2013].

KİV-də maddiyyat zəminli bir sıra təbliğat və təşviqat faktorları, reklam, moda, sosial şəbəkələr və s. amillərlə şüuraltı proqramlaşmanın nəticəsində sosial həyatdakı proseslərin süni şəkildə intensivləşməsi tələbatı yaranır. Maddiyyat əsaslı yarış, istehlakçı psixologiyası – al-tükət prinsipi formalaşdırılır. Bütün bunlar valideynlərin tərbiyə işinə ayırmalı olduqları vaxt, diqqət və s. resursların azalmasını şərtləndirir. Bu faktlar tərbiyə sistemində ciddi problemlərin olduğunu, prosesdə yeni yanaşmanın zəruriliyini aktuallaşdırır. Bu baxımdan Neyrolinqvistik proqramlaşdırma nəzəriyyəsindəki bir sıra metodikalar səmərəli ola bilər.

Xüsusilə yeniyetməlik dövrünün böhranlarla müşahidə edilməsi və əsas fəaliyyət növünün intim şəxsi münasibətlər aspektinə keçməsi tərbiyə mövzusunda xüsusi və həssas yanaşmaları zəruri edir. Bu dövrdə formalaşan müsbət və mənfi keyfiyyətlər xarakter xüsusiyyətlərinə çevrilir və fərdin sonrakı həyatında da əhəmiyyətli dərəcədə rol oynayır. Belə ki, bu dövrdə bütün təsir və təlqinlər yeniyetmələrdə emosional fonda gücləndirilmiş şəkildə qalıcı iz buraxır. Bu dövrdə dəyərlər sistemində baş verən yanlışlıqlar gələcəkdə ciddi fəsadlara səbəb ola bilər. Yeniyetməlik – həyatın fəlsəfi tərəflərinə marağın yarandığı bir dövrdür. Yeniyetmələr olumla ölüm, əbədi həyat, həyatın mənası, mahiyyəti, məqsədi, müqəddəslik, məhəbbət, inanc anlayışları, gələcəklə bağlı düşüncələr və s. kimi fəlsəfi məsələlərlə daha çox maraqlanırlar. Bütün bunlar yeniyetməlik dövründə tərbiyə işinin təşkilinə yeni, həssas, fəlsəfi, məhrəmanə yanaşmanı zəruri edir. Bu baxımdan tərbiyə işində planlı yanaşmanın olması, mütəmadi olaraq profilaktik söhbət və müzakirələrin aparılması, xüsusilə elektron resursların istifadəsində valideyn nəzarətinin olması mühüm əhəmiyyət kəsb edir.

**Ədəbiyyat:**

1. https://president.az/az/articles/view/9779
2. İbrahimov F., Hüseynzadə R. Pedaqogika. II cild. Bakı, Mütərcim, 2012, 548 s.
3. Atay İ.M., Kerimoğlu E. (2003). Ergenlerde intihar davranışı. Çocuk ve Gençlik Ruh Sağlığı Dergisi, 10 (3), 128-136.
4. E.Bəylərov, 2022.
5. Əliyev H. Müstəqil Azərbaycan Respublikası Gənclərinin Birinci Forumunda nitq. Azərbaycan qəzeti, 1996. 6 fevral.
6. Mahmudova L. Məktəblərdə bullinqin profilaktikasına ətraflı yanaşma. 16 avqust, 2019.
7. Facts About Bullying, 2019. *Stopbullying.gov*. https://www.stopbullying.gov/media/ facts/index.html#stats.

8. Barhight, Lydia R., Julie A. Hubbard & Christopher T. Hyde. "Children's Physiological and Emotional Reactions to Witnessing Bullying Predict Bystander Intervention." *Child Development 84,* no. 1 (2013): 375-90.

## "KLASSİK VƏ QEYRİ-SƏLİS MƏNTİQ" MÖVZUSUNUN TƏDRİSİ METODİKASI

**Tağıyev Elçin Nağı**
**Gəncə Dövlət Universiteti**
**https://orcid.org/0009-0008-7130-7313**
**elchin.tagi@gmail.com**

## TEACHING METHODOLOGY OF THE SUBJECT "CLASSICAL AND FUZZY LOGIC"

**Taghiyev Elchin Naghi**
**Ganja State University**
**https://orcid.org/0009-0008-7130-7313**
**elchin.tagi@gmail.com**

**Summary**

The article is related to the teaching of students studying in secondary schools on the topic "classical and fuzzy logic" in Computer Science. Thus, the article shows the simplest forms of frontal learning according to the teaching methodology of the topic "classical and fuzzy logic" by the teacher teaching computer science. The teacher makes an introduction to the subject in the classroom according to the hours allotted to the students, on a planned basis. Further in the article, with several practical examples, students are shown examples from real life on the topic, connecting the lesson to the previous topic, the student is asked questions, mutual communication is established, a discussion is held in the form of a question answer, explanations are given to them to work independently. In conclusion, examples from real life are shown for the development of students ' creative skills.

**Keywords**: Aristotle's logic, frontal inquiry, classical logic, fuzzy logic, plurality

## МЕТОДИКА ПРЕПОДАВАНИЯ ТЕМЫ "КЛАССИЧЕСКАЯ И НЕЧЕТКАЯ ЛОГИКА"

**Эльчин Тагиев Наги**
**Гянджинский Государственный Университет**
**https://orcid.org/0009-0008-7130-7313**
**elchin.tagi@gmail.com**

**Резюме**

Статья связана с преподаванием учащимся, обучающимся в средних общеобразовательных школах, темы "классическая и нечеткая логика" в информатике. Таким образом, в статье показаны простейшие формы фронтального обучения в соответствии с методикой преподавания темы "классическая и нечеткая логика" преподавателем информатики. Учитель проводит ознакомление с предметом в классе в соответствии с часами,

отведенными учащимся, на плановой основе. Далее в статье, с несколькими практическими примерами и наглядными пособиями, учащимся показываются примеры из реальной жизни по теме, связывающие урок с предыдущей темой, учащемуся задаются вопросы, устанавливается взаимная коммуникация, проводится обсуждение в форме вопрос-ответ, им даются пояснения к работайте независимо. В заключение приводятся примеры из реальной жизни для развития творческих способностей учащихся.

**Ключевые слова:** логика Аристотеля, фронтальный запрос, классическая логика, нечеткая логика, множественность

Orta ümumtəhsil məktəblərində şagirdlərə, “Klassik və qeyri-səlis məntiq” mövzusunun tədrisi üçün ilk öncə frontal sorğu ilə başlamaq daha məqsədəuyğundur. Əvvəl keçirilmiş mövzunun tədrisi zamanı, mövzunu yada salmaq üçün şagirdlərə bir neçə sual verilir. Şagirdlər bu suallara cavab verdikdən sonra onlara müstəqil iş aparmaq üçün aşağıda qeyd olunan tapşırıqların həlli və izahını vermək olar:

1. Anar adətən dalğın olur və çox vaxt evin açarını itirir. Elə çox vaxt da valideynləri qapının qıfılını dəyişən kimi o, itirdiyi açarı tapırdı. Elə bir “super qıfıl” düzəltmək olarmı ki, Anar istənilən əvvəlki açarla qapını aça bilsin, kənar şəxs isə aça bilməsin? Sizcə həmin qıfıl hansı məntiqi əmələ əsaslandırılmalıdır?

2. Bir varlı adam oğrulardan qorxduğu üçün qapısına iki qıfıl qoydurmuşdu. Qapının açılması prosesini hansı məntiqi əməllə müqayisə etmək olar?

Bu tapşırıqları yerinə yetirdikdən sonra müzakirə və ümumiləşdirmə aparılır. Daha sonra isə yeni mövzunun izahına keçmək uyğundur:

Müəllim: İndiyə kimi tanış olduğumuz məntiqdə doğru və yalan mühakimələr öyrənilirdi. Klassik məntiq adlanan bu məntiqin əsasını qədim yunan filosofu **Aristotel** qoymuşdur. Ona görə də ona çox vaxt *Aristotel məntiqi* deyilir [9,48].

Hə - yox, əski- yeni, alt-üst, ağ-qara kimi mütləq hallara söykənən, üçüncü – orta halları rədd edən bu məntiqin söykəndiyi mədəniyyət 1000 il dəyişməz qalmışdır. İslam mədəniyyəti də öz başlanğıcında Aristotel məntiqini qəbul edir, daha sonra əskiklərini müəyyən edib onu tamamlamağa çalışdılar. Əbu-Nəsr əl-Farabi və sonradan İbn-Sina onu sözdən, simvol ilə ifadəyə keçirdi.

Bu məntiqə söykənən İslam mədəniyyəti ciddi mənada inkişaf etdi. Bu inkişaf və yenilik bir müddət sonra Qərbə keçdi və Qərb bunun üzərində yenilik gətirərək, təkrar bu məntiqə dayalı daha da inkişaf etdirdi. *Simvolik məntiq* adlanan bu məntiqi XX əsrin başlanğıcında Rassel sistemləşdirdi [1, 2].

Ancaq bu məntiq sürətlə inkişaf edən elm və texnologiya ilə ayaqlaşa bilmədi. Simvolik məntiq 20 il keçmədən elmi sınaqlara, xüsusən də fiziki hadisələrə və qanunlara mane olmağa başladı. Bu məntiqlə irəli getmək daha mümkün deyildi. Bu səbəbdən yeni axtarışlar başlandı və nəhayət, 1965-ci ildə bir Azərbaycan türkü - Lütfi Ələsgərzadə, təbiətdə klassik və simvolik məntiqin qəbul etdiyinə əsaslanan, ideal kəskinliklərin deyil, qeyri-müəyyən və qeyri-dəqiq gerçəkliklərin hakim olduğunu ifadə edərək, *Qeyri-səlis məntiqi (Fuzzy logic)* ortaya atdı [1, 2].

Azərbaycan ədəbiyyatında çox zaman qeyri-səlis məntiq termini əvəzinə rus dilindən alınmış (rusca: нечеткая логика) qeyri-səlis məntiq termini işlədilir.

Qeyri-səlis məntiqdə bir şey, məsələn, sadəcə, *ağ* və ya *qara* deyil, bütün çalarları ilə *boz* da ola bilər; sadəcə, *yaxşı* və ya *pis* deyil, yaxşı və pisin bir çox versiyaları (məsələn, *çox pis, pis deyil, ala-babat, babat, yaxşı deyil, çox yaxşı*) müzakirə mövzusu ola bilər.

Klassik məntiqdə *böyüklük - kiçiklik, uzunluq - qısalıq* anlayışlarının dəqiq (kəskin) hüdudları var. Tutaq ki, uzunboylu insanların hündürlüyünün aşağı həddi 170 sm-dir. *“Çingiz uzunboydurmu?”* soruşurlarsa, klassik məntiq Çingizin boyuna baxacaq; onun boyu 170 sm-dən hündürdürsə, “Çingiz uzundur”, 169 sm - dirsə, “qısadır” deyəcək.

Ancaq qeyri-səlis məntiq “Çingizin nə qədər uzun olduğunu” soruşacaq. Qeyri-səlis məntiq, klassik məntiq kimi, uzuna 1, qısaya 0 kimi qəti qiymətlər vermir, 0.1, 0.2, 0.3... kimi daha həssas və yumşaq qiymətlər tapır. Belə ki, 169 sm hündürlüyündə bir insana qısa (0) demir, 0.2 kimi bir uzunluqdadır – deyir. Təbii, qeyri-səlis məntiqin də bəlli sərhədləri var və bu sərhədlər məqama, məlum elementlərə görə dəyişir. Onu klassik məntiqdən ayıran nöqtə bu sərhədlərin daha yumşaq olmasıdır. Bu yumşaqlıq (çeviklik) sahəsində o, qeyri-səlis məntiqin tətbiq edildiyi sahələrdə daha çox dəqiq nəticələr və səmərələr verməkdədir [1, 3].

İndi qeyri-səlis məntiqə əsaslanan idarəetmə modelləri məişət texnikasından (qeyri-səlis məntiqli tozsoranlardan, paltaryuyan maşınlardan, smart kənd və şəhərlərdən) mürəkkəb texnoloji proseslərin (domna prosesinin, atom enerjisi bloklarında gedən proseslərin) və dinamik obyektlərin (metro qatarlarının, avtomobillərin, helikopterlərin, robotların və s.) idarə olunmasına kimi geniş sahələrdə tətbiq olunur.

Qeyd edək ki, dünya şöhrətli alim, “Qeyri-səlis məntiqin atası” Lütfi Rəhim oğlu Ələsgərzadə 1921-ci il fevral ayının 4-də Bakıda doğulub. Atası Ərdəbilin (Güney Azərbaycan) imkanlı ailəsindən idi. Otuzuncu illərin başlanğıcında Sovetlər İttifaqında vəziyyət əhalinin bütün təbəqələri, xüsusən ticarətçilər, mühəndislər, jurnalistlər üçün daha gərgin və təhlükəli həddə çatanda Lütfinin ailəsi ölkədən köçməyi qərarlaşdırır. 1931- ci ildə Lütfinin 10 yaşı olanda onlar Tehrana köçürlər. O, çoxlu mütaliə edirdi və artıq 14 yaşında bütün klassikləri oxumuşdu. Elə həmin yaşda Lütfinin şəxsi kitabxanasında təxminən 3000 kitab vardı. Gənc Tehranda əvvəl Amerika kollecini (Alborz kollecini), sonra isə Tehran Universitetini bitirərək, elektrotexnika ixtisası üzrə bakalavr dərəcəsi alır [4,49].

1944-cü ildə Lütfi təhsilini davam etdirmək üçün ABŞ-a köçür. O Massaçusets Texnologiya İnstitutuna (MTU) qəbul olunur və orada 1946-cı ildə elektrotexnika üzrə magistr dərəcəsini, 1949-cu ildə isə Kolumbiya Universitetində elmlər doktoru dərəcəsi alır. 1959-cu ildə Kaliforniya Universitetinə (Berkli) keçən Lütfi Zadə əsasən xətti sistemlər və avtomatlar nəzəriyyəsi sahəsində araşdırmalar aparır. 1965-ci ildə 44 yaşında Lütfi Zadə sonradan ona dünya şöhrəti qazandırmış qeyri-səlis çoxluqlara dair ilk işini çap etdirir [4,50].

Tarixi əhəmiyyətli bu iş elmdə yeni istiqaməti müəyyənləşdirir - qeyri-səlis çoxluqlar (fuzzy sets), yaxud qeyri-səlis məntiq (fuzzy logic) nəzəriyyəsinin əsası qoyulur. Hər bir böyük ideyalar kimi, bu nəzəriyyə də çətinliklərlə (xüsusən, ABŞ-da) üzləşir, müxtəlif çəkişmələrə səbəb olur. Hətta iş o yerə çatır ki, Təhsil Departamentində (ABŞ ) onun tədrisinin qadağan olunması barədə ciddi müzakirələr gedir (belə bir fikir var ki, bu nəzəriyyənin çətinliklə irəliləməsinin “günahı” Lütfi Zadənin özündədir. O, “fuzzy” kəlməsinin yerinə daha münasibini işlətsəydi, özünə bu qədər çox “düşmən” qazandırmayacaqdı, çünki “Fuzzy” kəlməsiylə “məntiq” bir-biriylə uyuşmur) [1,4].

Hazırda qeyri-səlis məntiq dünyanın bir çox universitetlərinin tədris proqramına daxil edilib. Onun, demək olar ki, hər bir məqaləsi dünya elmində hadisəyə çevrilir. Göründüyü kimi, bu mövzu sırf məlumat xarakterli dərs olduğu üçün burada müəllimin mühazirəsi metodundan istifadə edilir. Çalışmaq lazımdır ki, burada şagirdlər yorulmasınlar. Onlara bu tarixi şəxsiyyətlərin haqqında mühazirə oxuyarkən əlavə məlumatlar da vermək lazımdır. Həm də bu tarixi şəxsiyyətlərin şəkillərini ekranda slaydla nümayiş etdirmək faydalı olar. Yaxşı olar ki, Lütfi Zadənin Azərbaycana gəldiyi zaman Akademiyada və digər rəsmi dövlət orqanlarında qəbulundan hazırlanmış video materiallar da əks olunsun. Onun çevik və dinamik hərəkətləri şagirdlərə nümayiş etdirilməklə müsahibələri, konfranslarda çıxışları canlı olaraq sinifdə əks etdirilsin. Bu, şagirdləri görkəmli həmyerlimizə məhəbbət ruhunda tərbiyə etməklə ona oxşamağa sövq edəcəkdir. Onlar nəyi isə yenilik kimi kəşf etmək ruhunda fəaliyyət göstərmək istəyəcəklər. Öyrədilən material mərhələ - mərhələ şagirdlərdən soruşulur. Müqayisə ilə onların yaddaşında saxlanılmasına cəhd edilir.

Sonda yoxlayıcı suallar aşağıdakı məzmunda tərtib edilir və qiymətləndirmə aparılır.

1. Formal məntiqin əsaslarını kim qoyub?
2. Qeyri-səlis məntiqin banisi kimdir?
3. Qeyri-səlis məntiqlə klassik məntiqin fərqi nədədir?
4. Qeyri-səlis məntiqdən haralarda istifadə olunur?

Bununla da bu bölmənin öyrədilməsi yekunlaşdırılır. Bu mövzuda öyrədilən materialı bölmənin istənilən mövzusundan sonra və ya lap əvvəldə də vermək olar. Burada mövzular arasında varislik əlaqəsi olmadığından, bunu etmək olar. Lakin bölmənin əvvəlki mövzularının öyrədilməsi ardıcıllığını pozmaq olmaz [1,4].

**Ədəbiyyat:**

1. Острейковский. Информатика, Москва, Высщая школа, 2005, 320 с.
2. Пул. Работа на персональном компьютере., М, Мир, 1986, с 115-317.
3. Романов В. Информатика и прикладная математика «Информатика в оброзование», 1987, с. 35-42.
4. Mahmudzadə R., Sadıqov İ., İsayeva N. İnformatika, orta ümumtəhsil məktəblərinin VIII sinifləri üçün dərslik, Bakı nəşr-2008.

# MƏDƏNİYYƏTLƏRARASI SƏRİŞTƏNİN İNKİŞAFINDA AUTENTİK MATERİALLARIN İSTİFADƏSİNİN SƏCİYYƏVİ XÜSUSİYYƏTLƏRİ

**Atamova Leyla Oqtay**
**Azərbaycan Dillər Universiteti**
**https://orcid.org/0009-0004-8078-6492**
**leyla.atamova.o@gmail.com**

# SPECIFIC CHARACTERISTICS OF THE USE OF AUTHENTIC MATERIALS IN THE DEVELOPMENT OF INTERCULTURAL COMPETENCE

**Atamova Leyla Ogtay**
**Azerbaijan University of Languages**
**https://orcid.org/0009-0004-8078-6492**
**leyla.atamova.o@gmail.com**

**Summary**

The modern concept of foreign language learning is basically based on the integrational learning of native and foreign cultures. The purpose of this type of education is to teach the language through culture and accordingly culture through language. Day by day students get more interested in training materials that introduce the history, traditions, and culture of the country the language of which is studied. Therefore, it is increasingly important to learn foreign languages using so-called authentic materials as an important part of the process. The choice of correct authentic materials depends on the competence of teachers and the topic of day.

**Key words:** authentic materials, culture, communicative tasks, language learning, multiculturalism

# ОСОБЕННОСТИ ИСПОЛЬЗОВАНИЯ АУТЕНТИЧНЫХ МАТЕРИАЛОВ В РАЗВИТИИ МЕЖКУЛЬТУРНОЙ КОМПЕТЕНЦИИ

**Атамова Лейла Октай**

**Азербайджанский Университет Языков**

**https://orcid.org/0009-0004-8078-6492**

**leyla.atamova.o@gmail.com**

**Резюме**

Современная концепция изучения иностранного языка в основном, основана на интеграционном изучении родной и зарубежной культур. Целью этого вида образования является обучение языку через культуру и, соответственно, культуре через язык. Сегодня студенты проявляют все больше и больше интереса к учебным материалам, знакомящим их с историей, традициями и культурой страны, язык которой изучается. Поэтому в изучение иностранных языков становится все более важным использование так называемых аутентичных материалов, которое считается важной частью процесса. Выбор правильных аутентичных материалов зависит от компетентности преподавателей и темы дня. В тезисе так же упоминается влияние аутентичных материалов на развитие межкультурной компетенции, о выполнении ряда дидактических задач с использованием аутентичных текстов.

**Ключевые слова:** оригинальные материалы, культура, коммуникативные задания, изучение языка, мультикультурализм

Söhbət mədəniyyətlərarası səriştədən gedirsə, burada fərdin müasir multikultural dünyada başqa mədəni standartların təmsilçiləri ilə əməkdaşlıq etmək və ünsiyyətə girmək istəyi və bacarığı nəzərdə tutulur. İstənilən sahədə işləyən mütəxəssisin mədəniyyətlərarası səriştə və bacarıqlarına malik olması dövrümüzün mütləq tələbinə çevrilmişdir. Müasir dövrün işçisi öz peşə fəaliyyətində mədəniyyətlərarası ünsiyyətə hər an hazır olmalıdır. Bu gün əmək bazarında dialoqa hazır olan mütəxəssislərə xüsusi üstünlük verilir.

Müasir dünyanın tələblərinə danışıqlar aparmaq yolu ilə qarşılıqlı anlaşmaya nail olmaq bacarığı daxildir. Burada əsas məsələ insanların başqa mədəniyyətlərə öz prizmalarından yanaşmalarıdır. O da qeyd edilməlidir ki, bu mənada xarici dilin öyrənilməsi həmin dildə danışanların mədəniyyətinin başa düşülməsi və dərk edilməsi üçün önəmli bir vasitədir.

Mədəniyyətlərarası münasibətlər üzrə araşdırmacı Edvard T. Holl dil öyrənərkən mədəniyyətlə tanışlığın üç fazalı modelini irəli sürmüşdür: rəsmi, qeyri-rəsmi və texnoloji. Gəlin bu modeli nəzərdən keçirək.

Birinci mərhələdə tələbə xarici dil mədəniyyəti ilə tanış olur, stereotiplər yaranır. İkinci mərhələ qeyri-rəsmi mərhələdir ki, tələbələr müstəqil formada sosial-mədəni məlumatlar alır, araşdırmalar edirlər. Son mərhələ isə tələbə qazandığı bilikləri tətbiq edir. Deməli, xarici dilin mənimsənilməsi prosesində elmi biliklərlə yanaşı, onun yaradıcı formada tətbiqi bacarığını da formalaşdırmaq mühümdür. Bu mənada kommunikativ tapşırıqların rolunu xüsusi olaraq vurğulamalıyıq, lakin istifadə zamanı onların xarici dilin tədrisi prosesinin məqsədlərindən biri olan mədəniyyətlərarası səriştənin inkişafına yönəldilməsinə xüsusi diqqət ayırmaq lazımdır. Bu proses multikultural şəxsiyyətin formalaşdırılmasına birbaşa yönəlmiş bir fəaliyyətdir. Nəticədə nə dərəcədə müvəffəqiyyətli bir peşəkarın yetişməsi məlumatın təqdim edilməsindən tutmuş, proses zamanı hansı vasitə və üsullardan istifadə edilməsi və qarşı tərəfin məlumatları hansı səviyyədə qəbul edib dərk etməsinədək bir sıra nüanslardan asılıdır.

İndi isə dediklərimizi başqa bir ölkədə təhsil almağa gələn və ilk dəfə xarici (ingilis dili) dilin nitq hadisələri ilə qarşılaşan tələbələr arasında mədəniyyətlərarası səriştənin formalaşmasını təhlil edək.

Tələbələr ilk olaraq orta məktəbdə oxuyarkən ingilis dilinin mədəniyyəti, İngiltərənin coğrafi mövqeyi, ingilis xalqının adət-ənənələri, təhsil alacaqları şəhərin tarixi haqqında lazımi məlumatlar alırlar. Bütün bu məlumatlar haqqında daha dərin biliklər sonrakı universitet illərində ingilis dilinin xarici dil kimi öyrənilməsi zamanı baş verir. Bu, artıq mədəni biliklərin səthi deyil, daha dərindən mənimsənilməsi, onların təhlili, öz doğma mədəniyyəti və dili ilə müqayisəsi deməkdir.

Mədəniyyətlərarası ünsiyyət bacarıqlarına yiyələnmək kommunikativ səriştənin formalaşdırılması yolu ilə həyata keçirilir ki, burada metodiki dəstək önəmlidir; sual vermək, cavab almaq, yönləndirmək, öyrətmək və s.

Bu gün mədəniyyətlərarası səriştənin formalaşması, inkişafı orijinal və ya autentik adlandırdığımız materiallar olmadan? demək olar ki, mümkünsüzdür. Məhz bu, tələbələrə imkan verir ki, onlar öyrənməyi hədəflədikləri dil mədəniyyətinə yaxınlaşsınlar. Əslində, bu, həm də xarici dilin öyrənilməsini daha zövqlü etməklə yanaşı, həmçinin onların motivasiyasını da artırır. Autentik və ya orijinal material dedikdə ilkin mənbələrdən götürülmüş, sözün reallıqda istifadə edildiyi halları təsvir edən materiallardır ki, bunlar leksik məzmunun, qrammatik mövzuların təbiiliyi ilə səciyyələnirlər.

Belə materiallardan istifadə son illərdə xüsusilə geniş yayılmağa başlamışdır. Xarici dili tədris edən müəllimlər tədris zamanı onlardan mədəniyyətlərarası səriştənin inkişafı üçün uğurla istifadə edirlər. Autentik materiallarla işləyərkən tələbə ilk növbədə orijinal mətnlərlə işləməyi bacarmalıdır. Dil bacarıqları ilə yanaşı mədəniyyətlərarası səriştənin formalaşması və inkişafına yönəlmiş bu materiallardan istifadə edərkən proses adətən 3 mərhələdən ibarət olur:

**1-ci mərhələ** mətndən öncə hazırlıq işləri aşamasıdır ki, bu zaman əsas məqsəd dil çətinliklərini aradan qaldırmaqdan ibarət olur. **2-ci mərhələ** autentik materialla birbaşa iş müddətidir. Bu zaman tələbə mətnin düzgün oxunuşu və qavranılması üzərində çalışır. **3-cü mərhələ** - mətndən sonrakı dönəmdir. Burada, əsasən, mətnə uyğun tapşırıqlarla tanışlıq öz əksini tapır. 3-cü mərhələ praktik mərhələ olduğundan burada tələbə tapşırıqlarla işləməklə öz ünsiyyət bacarıqlarını formalaşdırır. Tapşırıqlar bəzən fərdi, bəzən cüt, bəzən isə qrup şəklində həyata keçirilir.

Belə bir təcrübə zamanı orijinal materialla işləyən tələbənin, təbii ki, dilini öyrəndiyi ölkənin mədəniyyəti, həmin ölkədə yaşayan insanların həyat tərzi, adət-ənənələri ilə yaxından tanış olmağa imkanı yaranır.

Autentik materiallar tolerantlıq mövzusu ilə də sıx əlaqədardır, belə ki, bu materiallardan istifadə zamanı tələbələrdə tolerantlıq hissi formalaşır, onlar digər mədəniyyətlərə daha tolerant yanaşmağa başlayırlar. Tolerantlıq başqa insanların mədəniyyəti, həyat tərzini, xüsusiyyətlərini tənqid etmədən qəbul etməyə hazır olma hissidir [MacMillan English Dictionary, 2003, 1692 p]. Hər bir vətəndaşın vəzifəsi özündə və cəmiyyətdə tolerantlıq çərçivəsində hərəkət etmək, bu prinsipləri özündə tərbiyə etməkdir.

Dediklərimizə yekun olaraq bildirə bilərik ki, autentik mətnlərdən istifadə etməklə biz bir neçə didaktik vəzifəni yerinə yetirmiş oluruq: 1) mədəni bilikləri genişləndirmək 2) nitq qabiliyyətini inkişaf etdirmək, həm monoloq, həm də dialoq nitq bacarıqlarını formalaşdırmaq 3) həm aktiv, həm də passiv lüğət ehtiyatını zənginləşdirmək və bununla da leksik səriştənin formalaşmasına imkan yaratmaq 4) qrammatik səriştəni formalaşdırmaq 5) ümumilikdə dinləmə, yazı, danışıq və oxu bacarıqlarını formalaşdırmaq və inkişaf etdirmək.

Beləliklə, ana dili ingilis dili olan insanların həyatından götürülmüş materiallar əsasında qurulmuş dərsdə yerli insanların mentalitet, adət-ənənə, qayda-qanun, mədəniyyət xüsusiyyətləri, nitq normalarını öyrədərək xarici dil tədris edilərsə mədəniyyətlərarası səriştənin formalaşmasına zəmin yaranar. Ona görə ki, autentik materialla işləmək öyrənənlərin kommunikativ bacarıqlarının və şəxsi maraqlarının inkişafına birbaşa xidmət edir.

**Ədəbiyyat**:

1. Rubtsova E.V. (2019) Роль игровых технологий в формировании общекультурной компетенции у студентов. Regional qəzet. 2019. № 20. S.30-31.

2. Rubtsova E.V. (2018) Rus dilinin xarici dil kimi tədrisində multimedia vasitələrinin köməyi ilə kommunikativ və sosial-mədəni səriştələrin formalaşdırılması. Baltik humanitar jurnal. №3 (24). s. 288-292.

3. Hall Edward T. (1996) The Silent language New York, 240 p.

4. MacMillan (2003), English Dictionary, 1692 p.

5. Салтыкова М.В. К проблеме формирования межкультурной компетенции студентов вузов // Наука и образование: Материалы IV Международной научно-практической конференции (31 июля 2015 г.): Сборник трудов. – М.: Перо, 2015. – С.78-81.

## ÇƏTİN SÖZLƏR ÜZƏRİNDƏ İŞİN ŞAGİRDLƏRİN YAZI BACARIQLARININ İNKİŞAFINDA ROLU

**Həsənova Samirə Mürvət**
**Azərbaycan Respublikasının Təhsil İnstitutu**
**https://orcid.org/0009-0005-9791-3053**
**samiraqasanova@gmail.com**

## THE ROLE OF WORK ON DIFFICULT WORDS IN THE DEVELOPMENT OF STUDENTS' WRITING SKILLS

**Hasanova Samira Murvat**
**Institute of Education of the Republic of Azerbaijan**
**https://orcid.org/0009-0005-9791-3053**
**samiraqasanova@gmail.com**

### Summary

The statistics on the volume active and passive vocabulary for the young pupils gives detailed information on ways to difficult words and expand vocabulary and the effective methods, techniques the progress brought to attention through concrete examples of the work process. The stages of teaching the difficult words are explained separately to students, the importance of spelling, essay, expression, puzzle, text work, are highlighted etymological analysis. The thesis emphasizes the necessity of mastering the rules of spelling and orthography. Young schoolchildren are usually unaware of spelling and orthographic rules. That's way, the initial stage of learning the Azerbaijani language begins with the acquisition of words whose spelling did not differ from pronunciation, and the process gradually becomes more complicated. Teachers can include for the elementary school students learn difficult words, an orthographic point and excellent writing skills develop literate for speech habits.

**Keywords:** student, writing skills, difficult words, orthoepy, orthography.

# РОЛЬ РАБОТЫ НАД ТРУДНЫМИ СЛОВАМИ В РАЗВИТИИ ПИСЬМЕННЫХ НАВЫКОВ СТУДЕНТОВ

**Гасанова Самира Мурват**
**Институт Образования Азербайджанской Республики**
**https://orcid.org/0009-0005-9791-3053**
**samiraqasanova@gmail.com**

**Резюме**

Статистика объема активного и пассивного словарного запаса младших школьников дает подробную информацию о способах расширения словарного запаса сложных слов, а также об эффективных методах, приемах достижения результатов, доведенных до сведения на конкретных примерах рабочего процесса. Отдельно учащимся разъясняются этапы обучения сложным словам, подчеркивается значение орфографии, сочинения, выражения, ребуса, работы с текстом, этимологическим анализом. В тезисе подчеркивается необходимость владения правилами орфографии. Младшие школьники обычно не знают орфографических правил. Таким образом, начальный этап изучения азербайджанского языка начинается с усвоения слов, написание которых не отличается от произношения, и постепенно процесс усложняется. Учителя могут предложить учащимся начальной школы выучить сложные слова, точки орфографические и отличные навыки письма, развить грамотные речевые навыки.

**Ключевые слова:** ученик, навыки письма, трудные слова, орфоэпия, орфография.

Söz düşüncələrin ifadəsi, davranışların təsviri və təcrübələrin hafizədə toplanmasıdır. Lüğət ehtiyatının zənginliyi insana ətraf aləmi, obyektləri, hadisələri, prosesləri daha geniş baxış bucağından görməyə zəmin yaradır. Sözlər müxtəlif məna və məzmun daşımaqla düşüncə zəncirinin halqalarını formalaşdırır. Uşağın lüğət fondundakı kəlmələrin kəmiyyəti və keyfiyyəti onun qazanacağı nailiyyətlə birbaşa əlaqəlidir.

Birinci sinifə qədəm qoyan uşaq 2-3 min aktiv, 20-24 min passiv söz bazasına malik olur (Karakuş, 2000). Kiçikyaşlı məktəbli həm aktiv, həm də passiv lüğət fonduna daxil olan sözlərin istifadəsi zamanı çətinlik çəkir. Səbəb dilimizdəki kəlmələrin müəyyən qisminin yazılışı və deyilişi arasındakı fərqlərdir. Uşaq səsləri, hərfləri öyrəndikcə yeni sözlər yaratmağa və ya əvvəllər nitqində işlətmədiyi ifadələrdən istifadə etməyə başlayır. Lakin səsləndirdiyi formanın yazılışda səhv kimi götürüldüyünü görən şagird əvvəlcə böyük çaşqınlıq yaşayır. Çünki hələ orfoqrafik, orfoepik qaydalardan xəbərsizdir. Ona görə də Azərbaycan dili təliminin ilkin mərhələsi adətən yazılışı tələffüzündən fərqlənməyən sözlərin mənimsədilməsi ilə başlayır. Prosesin təşkili tədricən asandan çətinə prinsipi üzrə mürəkkəbləşir. Sözlərin dərinliyi (hər bir sözün müxtəlif mənalarını bilmək; məktəb təcrübəsinin araşdırılması bu istiqamətə digərləri ilə müqayisədə daha çox laqeydlik göstərildiyini üzə çıxarmışdır), genişliyi (müxtəlif mövzular üzrə çox söz bilmək), ağırlığı (konkret bir mövzu üzrə çox söz bilmək) istiqamətlərində iş aparılması məktəblinin mövcud bazasını daha da zənginləşdirməyə hesablanmışdır.

Şəxsiyyət üçün zəruri hesab edilən lüğət fondu məktəbəqədər dövrdə yaranır, ümumtəhsilin ilk səviyyəsindən başlayaraq Azərbaycan dili dərslərində sistemli fəaliyyət nəticəsində formalaşır, yuxarı siniflərdə isə təkmilləşir. Bu proses yeni sözlərin mənimsədilməsi fonunda təşkil olunur. Kiçikyaşlı məktəblilərə çətin sözləri öyrədərkən orfoqrafik-orfoepik istiqamət üzrə işlərin düzgün təşkilinə xüsusi diqqət yetirilməlidir. Çünki uşaq hansısa kəlmənin mənasını bilməsə də, onu əvvəlcə eşidərək hafizəsində saxlayır və dinlədiyi kimi yazıda ifadə etməyə çalışır. Təbii ki, şagird orfoqrafik və orfoepik qaydalara lazımi qədər bələd deyilsə, yeni sözün yazılışını və tələffüzünü eyniləşdirir.

Hər bir ədəbi dilin inkişafında dəqiq müəyyənləşdirilmiş orfoqrafiya və orfoepiya qaydalarının xüsusi əhəmiyyəti vardır. Dövrünün məşhur alimi, praktik ingilis dilinin qrammatiki C.Qrinvud (James

Greenwood, 1753-1828) orfoqrafiyanı “düzgün yazmaq sənəti”, amerikalı naşir, pedaqoq Y.Kaminqs (Jakob Abbot Cummings, 1773-1820) “hecaları və sözləri hərflər vasitəsilə ifadə etmək sənəti”, ingilis mənşəli amerikalı tədqiqatçı A.Ray (Albert Robinson Ray, 1870-1946) isə “hərflərin təbiətini, gücünü və yazı qaydalarını öyrədən elm” adlandırırdı (Abbasov, 2017). Müasir dilimizin orfoqrafiyası danışıq dili əsasında qurulduğundan bir sıra orfoqrafiya qaydaları eynilə orfoepiya üçün də keçərlidir (Şirəliyev və Məmmədov, 1983). Məhz bu səbəbdən kiçikyaşlı məktəblilərə çətin sözlər mənimsədilərkən orfoqrafiya və orfoepiyaya eyni dərəcədə diqqət göstərilməlidir. Həmin istiqamətlərdə aparılan işlərin paralel şəkildə tənzimlənməsi daha məqsədəuyğundur. Müəllim ibtidai sinif şagirdlərinə çətin sözləri orfoqrafik-orfoepik baxımdan mənimsətməklə onlarda savadlı nitq vərdişləri, o cümlədən, mükəmməl yazı bacarıqları formalaşdıra bilər. “Qısa vaxt ərzində kiçikyaşlı məktəblilərə sözün yazılışını, deyilişini necə öyrətmək olar?” sualını konkret formada cavablandırmaq mümkünsüzdür, çünki proses xaraktercə mürəkkəb və uzunmüddətlidir, müəllimdən səbir, təmkin, pedaqoji texnologiyaların ən mükəmməl manipulyasiyasını tələb edir. Deməli, belə situasiyada optimal nəticəni qısa zaman kəsiyində almaq pedaqoqun imkanı xaricindədir. Əlbəttə, iş düzgün qurulduqda, yazı bacarıqlarının qazanılmasında müəyyən irəliləyişlər əldə etmək mümkündür, lakin davamlı və uğurlu nəticəyə nail olmaq üçün uzun müddət lazımdır. Prosesin təşkilinin üç mərhələdə həyata keçirilməsi işin səmərəliliyinin yüksəlməsinə töhfə verə bilər.

Uşaqlara tanış olmayan kəlmələri mənimsətməyin ilk mərhələsi leksik işin aparılmasından ibarətdir. Sözlərin mənasını açıqlamaq üçün müxtəlif üsullar mövcuddur. Prosesin gedişatında müəllimin rəngarəng metod və texnikalardan yararlanması daha faydalıdır. Ən çox tətbiq edilən və səmərəli hesab olunan metodlar barədə qısa məlumat:

Sözə aid əşya, hadisə və ya şəklin nümayişi - uşaqlar həmin obyektə baxır, onunla bağlı söz deyir, mənasını müəyyənləşdirir və fərqləndirici xüsusiyyətlərini sadalayırlar.

Leksik iş prosesində tapmacalardan yararlanmaq da faydalı və maraqlıdır: şagirdlər tapmacanı dinləyir, açmasını təxmin edir, cavabın düzgünlüyünü sübuta yetirirlər.

Mənimsədilən söz mətn daxilində elmi və bədii təsviri, əlamətləri, xarakterik xüsusiyyətləri verilməklə də təqdim oluna bilər. Mətnin analizi müəllimə yalnız leksik iş aparmaqda deyil, həmçinin ətraf aləmlə əlaqəli zəruri məlumatları şagirdlərə ötürməkdə, onların elmi-idraki, bədii-yaradıcı təfəkkürünü zənginləndirməkdə yardım göstərir.

Uşaqlara çətin sözü mənimsətməyin ikinci mərhələsi orfoqrafik, orfoepik çalışmaların verilməsindən, etimoloji təhlilin aparılmasından ibarətdir. Şagirdlərə təklif edilir ki, seçilən kəlmənin və ya ifadənin (məsələn, ayaqqabı - _ya_qabı) tərkibindəki səsləri diqqətlə dinləsinlər, hərfləri müəyyənləşdirsinlər. Növbəti periodda müəllim sözdəki hərflərdən ikisini (sözün quruluşca növündən asılı olaraq bəzən üçünü) buraxmaqla lövhədə yazır. Kiçikyaşlı məktəblilər həmin orfoqramları tamamlamağa çalışırlar. Onunla eyniköklü sözləri müəyyənləşdirməklə tapşırığın çətinlik dərəcəsini artırmaq mümkündür. Beləliklə, uşaqlara yeni kəlmələri mənimsətmək və şagirdlərin lüğət ehtiyatını genişləndirmək olar. Öyrənənlərə lüğətçə hazırlamağı, naməlum hesab etdikləri sözləri orada qeyd etməyi, orfoqrafik-orfoepik baxımdan çətinlik törədən səs və ya hərflərin altından xətt çəkməyi tapşırmaq da işin keyfiyyətini yüksəltməyə hesablanmışdır. Prosesin davamı kimi etimoloji təhlil (analiz) aparıla bilər. Həmin kəlmələr müxtəlif üsullarla təkrarlanmalıdır ki, hafizədə tam möhkəmlənsin.

Sadalananlarla yanaşı, çətin sözlərin orfoqrafik-orfoepik baxımdan mənimsədilməsində imla xüsusi əhəmiyyətə malikdir. Müəllimin kiçikyaşlı məktəblilərin marağını cəlb edən rəngarəng, çoxçeşidli imla növlərindən (şəkilli, görmə, kommentarili (izahlı), xəbərdarlıqlı, izahatlı, müəyyənləşdirici, seçmə, yaradıcı, yaddaşa əsaslanan, tapmacalı, boşluqlu imla və s.) yararlanması tövsiyə olunur. İbtidai sinif şagirdlərinə yeni sözü mənimsətməyin üçüncü və yekun mərhələsi pedaqoqdan daha böyük məsuliyyət və diqqət

tələb edir. Çünki kiçikyaşlı məktəblilər bu periodda həmin kəlmələrdən müstəqil şəkildə istifadə etmək, faydalanmaq bacarığı qazanırlar.

Çətin sözlərin orfoqrafik-orfoepik baxımdan öyrədilməsi bir dərslə məhdudlaşmayan, təlimin hər mərhələsində davam edən prosesdir. Yeni və ya tanış olmayan kəlmələrin uşaqların aktiv lüğət fondunda möhkəmlənməsi, təkrarən istifadə edilməsi uzun müddəti əhatələyir.

**Ədəbiyyat:**


1. Abbasov, İ.Ə. (2017). Yazı qaydalarımızın kitabi-müqəddəsi, orfoqrafiya lüğəti. 15.
2. Şirəliyev, M.Ş., Məmmədov, M.B. (1983). Azərbaycan dilinin orfoepiya sözlüyü (lüğəti). 144.
3. Karakuş İ. Türkçe, Türk Dili ve Edebiyatı Öğretimi (Öğretmen El Kitabı). (2000). 240.


## ALMAN DİLİ TƏDRİSİNDƏ İLKİN MƏRHƏLƏDƏ AUTENTİK MATERİALLARIN ƏHƏMİYYƏTİ VƏ İSTİFADƏSİ


**Bəylərova Leyla Qalib**
**Bakı Slavyan Universiteti**
**https://orcid.org/0009-0006-7124-184X**
**baylarovaleyla94@gmail.com**


## THE IMPORTANCE AND USE OF AUTHENTIC MATERIALS AT THE INITIAL STAGE IN TEACHING THE GERMAN LANGUAGE


**Baylarova Leyla Galib**
**Baku Slavic University**
**https://orcid.org/0009-0006-7124-184X**
**baylarovaleyla94@gmail.com**



**Summary**

This article deals with the actual dilemma of using authentic materials in the process of learning a foreign language, especially German, at the elementary level. The inclusion of authentic materials is seen as an essential requirement of the communicative approach, which aims to accurately model real communication in language learning and improve the development of sociocultural competence. However, the main problem when using authentic materials at the elementary level is their limited accessibility to students due to the complexity of their language.

The article criticizes the usual method of lightening these materials by modifying them and suggests another way. He suggests using original materials from the very beginning of training. The author argues in favor of this idea and emphasizes the importance of using authentic foreign language content in the early stages of learning. These materials are unique and cannot be recreated artificially. To make the most of them, students need specific skills and strategies.

By using real materials, students can better understand the language and culture, which will make the learning process more enjoyable and effective. Teachers play a critical role in guiding students through these materials and helping them develop the necessary skills to better understand and communicate in the language.



**Keywords:** communicative approach; cross-cultural interaction; authentic materials; methodical processing of authentic materials; elementary level (A1).

# ЗНАЧЕНИЕ И ИСПОЛЬЗОВАНИЕ АУТЕНТИЧНЫХ МАТЕРИАЛОВ НА НАЧАЛЬНОМ ЭТАПЕ ОБУЧЕНИЯ НЕМЕЦКОМУ ЯЗЫКУ

**Бейларова Лейла Галиб**
**Бакинский Славянский Университет**
**https://orcid.org/0009-0006-7124-184X**
**baylarovaleyla94@gmail.com**

**Резюме**

В этой статье рассматривается актуальная дилемма использования аутентичных материалов в процессе изучения иностранного языка, особенно немецкого, на начальном уровне. Включение аутентичных материалов рассматривается как важнейшее требование коммуникативного подхода, целью которого является точное моделирование реального общения при изучении языка и улучшение развития социокультурной компетенции. Однако основной проблемой при использовании аутентичных материалов на начальном уровне является их ограниченная доступность для учащихся из-за сложности их языка.

В статье критикуется обычный метод облегчения этих материалов путем их изменения и предлагается другой путь. Он предлагает использовать оригинальные материалы с самого начала обучения. Автор приводит аргументы в пользу этой идеи и подчеркивает важность использования аутентичного иноязычного контента на ранних этапах обучения. Эти материалы уникальны и не могут быть воссозданы искусственно. Чтобы максимально использовать их, учащимся необходимы определенные навыки и стратегии.

Используя настоящие материалы, учащиеся могут лучше понять язык и культуру, что сделает процесс обучения более приятным и эффективным. Преподаватели играют решающую роль в руководстве учащимися через эти материалы и помогают им развивать необходимые навыки, чтобы лучше понимать язык и общаться на нем.

**Ключевые слова:** коммуникативный подход; межкультурное взаимодействие; аутентичные материалы; методическая обработка аутентичных материалов; начальный уровень (A1).

Son onillikdə ali məktəblərdə alman dilinin tədrisində şifahi nitq təlimatının, autentik materialın istifadəsi ilə bağlı bir sıra problem önə çıxır [1–6]. Bu problem ölkə və dünya səviyyəsindəki sosial, siyasi və iqtisadi dəyişikliklərə əsaslanan təhsil sisteminin və tədris metodlarının dəyişməsi ilə bağlıdır. Xarici dilin müasir tədrisi metodları kommunikativ metodologiyaya əsaslanan bir yanaşma tətbiq etmək, öyrənmə prosesini dildə təbii ünsiyyətə yaxınlaşdırmağa nail olmağa çalışır. Bu mövzuda, linqvoşünaslıq və regional xarakterli autentik xarici dil mənbələrindən istifadə etməsi prioritet bir məsələdir, çünki bu material ana dilində danışanların linqvoşünaslıq ünsiyyətini reallaşdırmağa kömək edir.

Alman dili üzrə təhsilin ilkin mərhələsində, universitetdə, əsas fokus linqvoşünaslığın (dilin ölkə üzrə və mədəniyyət tərəfindən təmsil edilməsi) üsulu üzərində qurulur. Bu, təkcə dil biliklərinin inkişafında deyil, həm də tələbələrin kommunikativ bacarıqlarının sosial-mədəni aspektlərini dərinləşdirir. Bu yolla, tələbələr dil bacarıqlarını inkişaf etdirməklə yanaşı, həm də daxili bir şəkildə mədəniyyət və sosial mühitin möhkəmləndirilməsinə nail olurlar.

Dünya bütövlükdə inteqrasiya və qlobal proseslər tərəfindən inkişaf edir və bu, mədəniyyətlərarası münasibətləri də təsir altına alır. Bu mövzuda, xarici dillərin tədrisi mühüm bir mərhələyə çevrilir. Mənbəyə əsaslanan ən yeni nəzəriyyələr, xarici dil öyrənilməsində mədəni komponentin çox əhəmiyyətli olduğunu təsdiqləyir. Bu məqamda, əsas təlim obyekti “dil” konsepsiyasından daha aktual “linqvokultura” anlayışına çevrilir. Bu yeniliklərə yaxın olmaq, xarici dillərin tədrisi prosesini daha geniş mədəni kontekstdə nəzərdən keçirməyə imkan verir.

Uğurlu öyrənmənin əsas komponentlərindən biri, təhsil prosesinə xarici dildə autentik materialların daxil edilməsidir. Bu materiallar, dilin təbii fəaliyyətinin real nümunələrini təqdim edir və mənbələrdə göstərildiyi kimi təhsil prosesində xüsusi əhəmiyyət kəsb edir. Bununla birlikdə, bu addım əslində çətinliklərlə üzləşməyə səbəb ola bilər, çünki tələbələrin əksəriyyəti yüksək dil mürəkkəbliyinə görə bu cür materialları başa düşməkdə çətinlik çəkir.

Bu problemin uğurla aradan qaldırılması üçün ən düzgün yanaşma tez-tez autentik materialların ilkin metodik uyğunlaşdırılması üstünlük verilən yanaşmadır. Bu yanaşma, materialların dil mürəkkəbliyini azaltmaq və onları tələbələrin dil hazırlığı səviyyəsinə uyğunlaşdırmaq məqsədi daşıyır. Bunun sayəsində tələbələr öz öyrənmə proseslərini asanlaşdıra bilər və dil biliklərini daha sürətli şəkildə inkişaf etdirə bilərlər.

Metodiki mətnin təkmilləşdirilməsi, tələbələrin bilik və bacarıqlarına daha uyğun olaraq ona tədricən yeni bir rəng və xüsusiyyət əlavə etməyə nail olur. Bu, mətnin başa düşülməsini artırmaq məqsədi ilə strukturu sadələşdirmək, həm də cari təlim tələblərinə uyğun şəkildə leksika və qrammatika baxımından gücləndirmək deməkdir. Lakin önəmli bir nüansa diqqət yetirmək lazımdır ki, bu proses təhsilin əsas məqsədi olan tələbələrin autentik məqalə və əsərlərlə əvəzlənməsinə mane olmamalıdır.

İ.P. Pavlovun ifadəsi ilə uyğun şəkildə deyə bilərik ki, çətinlikləri yalnız təlim prosesində həll etmək mümkündür və bu, tələbələrə təhsil zamanı, həm də peşəkar həyatlarında özünü göstərən çətinlikləri özbaşınalıqla aşmağa kömək etməyəcək.

Bilmək önəmlidir ki, autentik materiallarla effektiv bir şəkildə əlaqə qurmaq, tədris və uyğunlaşdırılmış mətnlərlə işləmək üçün çeşidli tədris taktikalarını tələb edən bəzi formal olmayan bacarıqları tələb edir. Tədqiqatçı N.V. Barışnikov, bu cür materiallarla işin öyrənilməsi metodologiyasının əsaslanmasının əhəmiyyətini vurğulayaraq, "əsl mətnləri anlamaq üçün koqnitiv-kommunikativ qabiliyyətin" önəmini vurğulayır (Сухова, Н.А, 17, s. 3).

Autentik materiallardan istifadə xarici dilin uğurlu inkişafına əhəmiyyətli dərəcədə kömək edən bir neçə amillə bağlıdır.

1.Məqsəd bəlli şəkildə təhsil prosesinin zəruri komponentinə çevrilir. Tələbələr başqa mədəniyyətlərin nümayəndələri ilə ünsiyyət qurmaq üçün kommunikativ bacarığını inkişaf etdirməyə çalışırlarsa, təlimin əvvəlindən autentik materiallarla işləmək ayrılmaz bir hissəyə çevrilir.

2.Autentik materiallardan istifadə tələbə motivasiyasını artırmağa kömək edir. Həqiqi dil nümunələri ilə qarşılıqlı əlaqə və xarici dildə uğurlu ünsiyyət, xüsusən də autentik materiallardan istifadə etməklə, tələbələri stimullaşdırır, onlara enerji verir və gələcək öyrənmələri üçün ruhlandırır.

3.Dilə müsbət münasibətin formalaşması üçün əhəmiyyətlidir. Tələbələrə ilkin mərhələdə xarici dili real həyat təcrübələrində uğurla tətbiq edə bildiklərini, doğma danışanlarla ünsiyyət qura bildiklərini dərk etməyə kömək edir. Bu müsbət qarşılıqlı əlaqə, ümumilikdə xarici dilin öyrənilməsi prosesinə müsbət münasibətin yaradılmasına kömək edir ki, bu da öz növbəsində tələbələrin öyrənmə qabiliyyətini və ümumi motivasiyasını artırır.

Alman dilinin tədrisinin ilkin mərhələsində linqvoşünaslıq və regional yanaşma təlim prosesinin fərdiləşdirilməsini və hər bir tələbənin şəxsiyyətinə diqqətin yönəldilməsini nəzərdə tutmaq vacibdir. Bu məqsədə nail olmaq üçün autentik materiallardan istifadəni əsas tuturuq. Yeni sözlər və qrammatik strukturları tanıtmaq, həmçinin əsas oxu və dinləmə bacarıqlarını inkişaf etdirmək üçün istifadə olunan təlim materialları tələbələrin özünü məqsədəuyğun hiss etməsini təmin etməyə kömək edir.

Əsas amil, öyrənmə prosesini daha verimli həyata keçirməkdir. Bu məqsədlə uyğun olaraq, tələbələrin marağını çəkəcək və onlara həyatdan nümunələr içərisində autentik mətnlər, audio və video materiallar əlavə edilməlidir. Bu, dil inkişafı üçün əhəmiyyətli və praktiki məlumatların əldə edilməsinə kömək edir

və alman dilinin öyrətmə prosesində tələbələrin dil bacarıqlarını daha effektiv şəkildə inkişaf etdirmək üçün autentik və ənənəvi təlim materiallarını uyğun şəkildə birgə istifadə etmək vacibdir. Bu yanaşma tələbələr üçün maraqlı təcrübələr yaratmağa kömək edəcək və onların alman dilini daha sərfəli öyrənməsinə imkan yaradacaqdır.

Beləliklə, ali məktəbdə alman dilinin ilkin mərhələsində şifahi nitqin tədrisi zamanı linqvoşünaslıq baxımından yanaşma, xarici dil biliklərinin A1 səviyyəsini nəzərə almaqla autentik materiallardan istifadəni tənzimləyir. Autentik materialları qiymətləndirərkən və istifadə edərkən, onlara hərtərəfli yanaşmaq və yalnız məzmunları ilə yox, həm də tədris prosesində istifadə konteksti ilə əlaqəli olan metodoloji həqiqiliyini nəzərə almaq vacibdir. Bu yanaşma tələbələrin real dil mühitində yaxınlaşmağa və praktikada ünsiyyət bacarıqlarını inkişaf etdirməyə imkan verir ki, bu da xarici dilin daha səmərəli şəkildə mənimsənilməsinə kömək edir.

**Ədəbiyyat:**


1. Воронина, Г.И. Методика обучения чтению аутентичных текстов молодежных средств массовой информации учащихся завершающей ступени общего среднего образования с углубленным изучением иностранного языка (на материале немецкого языка). Москва, 1994. 146 с.

2. Павлов, М.В. Формирование межкультурной компетенции на основе использования аутентичных видеоматериалов при обучении иноязычному общению студентов технического вуза (немецкий язык, базовый курс). Томск, 2006. 228 с.

3. Сухова, Н.А. Формирование культурно-страноведческой компетенции на основе аутентичных материалов в процессе обучения устной речи студентов педагогического вуза (второй курс, немецкий язык): дис. канд. пед. наук. Санкт-Петербург, 2002. 244 с.

4. Игна, О.Н. Развитие социокультурной компетенции студентов на основе аутентичных материалов при профессионально ориентированном обучении иноязычному общению: дис. канд. пед. наук. Томск, 2003. 186 с.

5. Государственный стандарт по русскому языку как иностранному. Элементарный уровень – A1 [Электронный ресурс]. Доступ по ссылке: http://academ063.ru/files/learn-russia/standart-trki.pdf.

6. Common European Framework of Reference for Languages: Learning, Teaching, Assessment [Электронный ресурс]. Доступ по ссылке: http://coe.int/lang-CEFR.

# İNGİLİSDİLLİ İBTİDAİ SİNİF ŞAGİRDLƏRİ ARASINDA AZƏRBAYCAN DİLİNİN ÖYRƏNİLMƏSİNİN GÜCLƏNDİRİLMƏSİ ÜÇÜN LİNQVODİDAKTİK TƏDRİS STRATEGİYALARININ EKSPERİMENTAL TƏDQİQİ

**Mirzəyeva Nuranə Alim**
**Azərbaycan Respublikasının Təhsil İnstitutu**
**https://orcid.org/ 0009-0001-1176-380X**
**nurana.mirzayeva@abc.edu.az**

# EXPERIMENTAL STUDY OF LINGUODIDACTIC TEACHING STRATEGIES FOR STRENGTHENING THE LEARNING OF THE AZERBAIJAN LANGUAGE AMONG ENGLISH-SPEAKING PRIMARY STUDENTS

**Mirzayeva Nurana Alim**
**Institute of Education of the Republic of Azerbaijan**
**https://orcid.org/ 0009-0001-1176-380X**
**nurana.mirzayeva@abc.edu.az**

**Summary**

The study is aimed at investigating the effectiveness of linguodidactic teaching strategies in strengthening the learning of the Azerbaijani language for English-speaking elementary school students. The study explores various methodologies and techniques to enhance language acquisition among young learners using a linguodidactic approach. This study seeks to identify innovative and practical approaches to enhancing language skills in Azerbaijani language classes through a combination of qualitative and quantitative methods, including classroom observations, surveys, and interviews.

Overall, the study holds great promise for providing valuable insights into the effectiveness of linguodidactic teaching strategies for English-speaking elementary school students learning the Azerbaijani language. This research paves the way for future generations to promote global communication and understanding by strengthening the language skills and cultural awareness of primary school students.

**Keywords:** linguodidactic, strategy, English-speaking, elementary, Azerbaijani language

# ЭКСПЕРИМЕНТАЛЬНОЕ ИССЛЕДОВАНИЕ ЛИНГВО-ДИДАКТИЧЕСКИХ СТРАТЕГИЙ ОБУЧЕНИЯ ДЛЯ УСИЛЕНИЯ ИЗУЧЕНИЯ АЗЕРБАЙДЖАНСКОГО ЯЗЫКА СРЕДИ АНГЛОЯЗЫЧНЫХ ШКОЛЬНИКОВ

**Мирзаева Нурана Алим**
**Институт Образования Азербайджанской Республики**
**https://orcid.org/ 0009-0001-1176-380X**
**nurana.mirzayeva@abc.edu.az**

**Резюме**

Исследование направлено на изучение эффективности лингводидактических стратегий обучения в усилении изучения азербайджанского языка англоязычными учащимися начальной школы. В исследовании рассматриваются различные методологии и приемы для улучшения усвоения языка молодыми учащимися с использованием лингводидактического подхода. Это исследование направлено на выявление инновационных

и практических подходов к улучшению языковых навыков на уроках азербайджанского языка посредством сочетания качественных и количественных методов, включая наблюдения в классе, опросы и интервью.

В целом, исследование имеет большие перспективы для получения ценной информации об эффективности лингводидактических стратегий обучения англоязычных учащихся начальной школы, изучающих азербайджанский язык. Это исследование прокладывает путь для будущих поколений, чтобы способствовать глобальному общению и взаимопониманию, укрепляя языковые навыки и культурную осведомленность учащихся начальных классов.

**Ключевые слова:** лингводидактика, стратегия, англоязычный, элементарный, азербайджанский язык.

Mədəniyyətlərarası ünsiyyətə və qlobal əlaqəyə artan ehtiyac ibtidai təhsildə müxtəlif dillərlə yanaşı ana dilinin də öyrədilməsinin vacibliyini vurğulayır. Bu tədqiqatda biz ingilisdilli ibtidai sinif şagirdlərinə Azərbaycan dilini öyrətmək məqsədilə ən təsirli strategiyaları araşdırmaq üçün linqvodidaktik təhlil sahəsini araşdırdıq. Kiçik öyrənənlərin üzləşdiyi linqvistik problemləri və dil təlimində ən yaxşı təcrübələri dərk edərək, bu tədqiqat linqvistik səriştə və mədəni qiymətləndirməni asanlaşdıran dinamik və cəlbedici dil dərslərinin inkişafına töhfə vermək məqsədi daşıyır.

Tədqiqatın əsas məqsədi Azərbaycan dilinin öyrənilməsinin təsirini artırmaq üçün kommunikativ dil öyrətmə, hekayə, rollu oyunlar və dil oyunları kimi linqvodidaktik təlim strategiyaları ilə təcrübə aparmaqdır. (Bourina & Dunaeva, 2017) Eksperimental dizayn vasitəsilə ibtidai sinif şagirdlərinin dil biliyi və ümumi dil öyrənmə təcrübələrindəki dəyişiklikləri qiymətləndirməyi hədəflədik (Fox et., 2005).

Nəticə etibarilə, bu tədqiqat Azərbaycan dilini öyrənən ingilisdilli ibtidai sinif şagirdləri üçün dil təhsili mənzərəsini zənginləşdirməyə vəd edir. İnnovativ strategiyaları tədqiq etməklə və mədəni həssaslığı inkişaf etdirməklə, biz gənc öyrənənləri dəyərli dil bacarıqları və mədəniyyətlərarası səriştə ilə gücləndirməyə, daha əhatəli və əlaqəli qlobal birliyə töhfə verməyə çalışırıq.

Tədqiqat Azərbaycan Britaniya Kollecində eksperimental dizayn vasitəsilə 8-10 yaş arası ingilisdilli ibtidai sinif şagirdləri ilə həyata keçirilib. İştirakçılar təsadüfi olaraq eksperimental və nəzarət qrupuna bölünürlər. Eksperimental qrup kommunikativ dil öyrətmə, hekayə, rollu oyunlar və dil oyunları kimi linqvodidaktik təlim strategiyalarına, nəzarət qrupu isə ənənəvi dil təlimatına əməl edir.

Hər iki qrup arasında dil bacarıqlarında dəyişiklikləri ölçmək üçün ilkin və son test qiymətləndirmələri aparılır. Eksperimental qrupun Azərbaycan dili biliklərində əhəmiyyətli irəliləyişlər nümayiş etdirəcəyi gözlənilir ki, bu da dil öyrənmənin gücləndirilməsində linqvodidaktik müdaxilələrin effektivliyini göstərir.

Tədris strategiyaları ilə bağlı sorğular və müsahibələr keçirilir. Sorğular həm şagirdlər, həm də dil müəllimləri arasında onların dil öyrənmə və tədrisi ilə bağlı təcrübələri barədə fikir toplamaq üçün keçirilir. Şagirdlərin dil tərəqqisi, üstünlük verdiyi fəaliyyətlər və çətinliklərlə bağlı təsəvvürləri araşdırılır. İngilis dilli ibtidai sinif şagirdlərinə Azərbaycan dilinin tədrisinin linqvistik və mədəni aspektlərinə dair perspektivlərini anlamaq üçün fənni tədris edən müəllimlərlə fərdi müsahibələr keçirilir. Bu məlumatlar bizi şagirdlərin dilə münasibəti, üstünlükləri və dil öyrənməkdə motivasiya səviyyələri ilə tanış olmağa kömək edir.

Tədqiqat göstərdi ki, eksperimental qrup nəzarət qrupu ilə müqayisədə daha yüksək motivasiya, fəal iştirak və Azərbaycan dilindən istifadə etməklə inam göstərdi. İnteraktiv və cəlbedici dil fəaliyyətlərinə məruz qalan eksperimental qrup ənənəvi təlimatdan sonra nəzarət qrupundan fərqlənərək daha yaxşı dil bacarıqları nümayiş etdirdi.

Bu tədqiqatın elmi yeniliyi onun ingilisdilli ümumtəhsil məktəblərinin ibtidai sinif şagirdlərinə Azərbaycan dilini öyrətmək üçün effektiv strategiyaları araşdırmaq üçün linqvo-didaktik təhlilin qəbul edilməsindədir. (Kramina, 1999) Bu yanaşma dilin öyrədilməsində linqvistik və didaktik perspektivləri birləşdirir, dilin mənimsənilməsini başa düşmək və təlimatı optimallaşdırmaq üçün hərtərəfli çərçivə təmin

edir. (Tursunovich, 2022) Eksperimental dizayn isə tədris strategiyaları və təlim nəticələri arasında səbəb-nəticə əlaqəsini qiymətləndirməyə imkan verir.

Tədqiqat linqvodidaktik yanaşmanı mənimsəmək və innovativ strategiyaları həyata keçirməklə dil təlimini optimallaşdırmaq üçün sübuta əsaslanan fikirlərə töhfə verir. Nəticələr dil biliyinin yaxşılaşdırılmasında, mədəni qiymətləndirmənin təşviqində və şagirdlərin dərs prosesinə cəlb olunmasında linqvodidaktik müdaxilələrin effektivliyini nümayiş etdirir. Bu nəticələr dinamik və inklüziv dil öyrənmə mühitləri yaratmaq istəyən müəllimlər üçün mühüm praktik əhəmiyyətə malikdir. Ümumilikdə, tədqiqat ibtidai sinif şagirdlərinin dəyərli dil bacarıqları, mədəniyyətlərarası səriştə və qlobal əlaqələr haqqında daha geniş anlayışların gücləndirilməsində önəmli rol oynayır.

**Ədəbiyyat:**


1. Bourina, H. V., & Dunaeva, L. A. (2017). Linguodidactic environment for teaching foreign-speaking communication in the process of studying French. *E-Learning and Digital media*, *14*(6), 331-340.
2. Fox, P. T., Laird, A. R., Fox, S. P., Fox, P. M., Uecker, A. M., Crank, M., ... & Lancaster, J. L. (2005). BrainMap taxonomy of experimental design: description and evaluation. *Human brain mapping*, *25*(1), 185-198.
3. Kramiņa, I. (1999). *Linguodidactic theories underlying multi-purpose language acquisition* (Doctoral dissertation).
4. Singleton, D., & Ryan, L. (2004). *Language acquisition: The age factor*. Multilingual Matters.
5. Stufflebeam, D. L. (1971). The use of experimental design in educational evaluation. *Journal of Educational Measurement*, *8*(4), 267-274.
6. Tursunovich, R. I. (2022). Modern Methods in the Methodology of Teaching a Foreign Language. *Central Asian Journal of Theoretical and Applied Science*, *3*(12), 146-152.


# XARİCİ DİLİN TƏDRİSİNƏ VERİLƏN TƏLƏBLƏRİN AKTUALLIĞI


**Məmmədova Ülviyyə Murad**
**Azərbaycan Respublikasının Təhsil İnstitutu**
**https://orcid.org/0000-0002-1991-342X**
**ulviyya.mehdiyeva@mdu.edu.az**


# RELEVANCE OF FOREIGN LANGUAGE TEACHING REQUIREMENTS


**Mammadova Ulviyya Murad**
**Institute of Education of the Republic of Azerbaijan**
**https://orcid.org/0000-0002-1991-342X**
**ulviyya.mehdiyeva@mdu.edu.az**



**Summary**

Today, Azerbaijan's education focuses on foreign-language education. Recently, new methods of teaching English have increased the interest of students. The article highlights the wider learning influence of English among other foreign languages, which still retains its international language status in modern times. The author notes that young people need to learn foreign languages more actively because the process of learning the language contributes

to the development of individuals. It shows how conceptualization contributes to the process of teaching and learning a foreign language. At the same time, the teacher's responsibilities in English are taken into account. The author notes that a modern teacher should use all new methods and methods in the teaching process of his or her teaching. A teacher should work individually, taking into account the shortcomings, perception, ability, strength, and so on.

**Key words**: foreign language, teaching methods, motivation, modern teaching, students and teacher

## АКТУАЛЬНОСТЬ ТРЕБОВАНИЙ В ОБУЧЕНИИ ИНОСТРАННОМУ ЯЗЫКУ

**Мамедова Ульвия Мурад**
**Институт Образования Азербайджанской Республики**
**https://orcid.org/0000-0002-1991-342X**
**ulviyya.mehdiyeva@mdu.edu.az**

**Резюме**

Сегодня образование в Азербайджане ориентировано на обучение иностранным языкам. В современное время новые методики преподавания английского языка повысили интерес студентов. В статье подчеркивается более широкое влияние изучения английского языка среди других иностранных языков, который до сих пор сохраняет свой международный языковой статус в наше время. Автор отмечает, что молодым людям необходимо активнее изучать иностранные языки, поскольку процесс изучения языка способствует развитию личности. Показано, как концептуализация способствует процессу преподавания и изучения иностранного языка. При этом учитываются обязанности преподавателя по английскому языку. Автор отмечает, что современный учитель должен использовать все новые методы и приемы в учебном процессе своего обучения. Учитель должен работать индивидуально, учитывая недостатки, восприятие, способности, силы и так далее.

**Ключевые слова**: иностранный язык, методика обучения, мотивация, современное обучение, студенты и преподаватель

Biz XXI yüzilliyin dörddə birini artıq geridə buraxmışıq. Bu gün doğulan, dünyaya gələn uşaqlar, bu gün ilk addımlarını atan körpələr XXI yüzilliyin son illərinin dünyəvi məsələlərini həll edəcəklər, bəşəriyyəti yaşadacaqlar. Bu uşaqlar həyatımızın gələcəyi, ömrümüzün davamıdır. Onların təlim-tərbiyəsinə, sağlamlığına düzgün münasibət bəşəriyyətin aydın sabahının, parlaq gələcəyinin təminatıdır.

Bu gün dünyada qloballaşan ən mühüm hadisələrdən biri də dövlətlər, xalqlararası ünsiyyət və münasibət yaratmaqdır. Bu mühüm məsuliyyətin bir hissəsi tədris müəssisələrinin üzərinə düşür. Bu təhsil müəssisələrindən biri də fəaliyyət göstərdiyim Mingəçevir Dövlət Universitetidir. Mədəniyyətlərarası dialoqdan danışarkən bizim tələbələrimizin xarici dilləri yüksək səviyyədə bilmələrinin vacibliyi danılmazdır. Azərbaycanı dünyaya tanıdan, onun himnini səsləndirən, onun bayrağını göylərə ucaldan gənclərimizə xarici dillərdə ünsiyyət qurmaq bacarığı bu gün hər zamankından daha vacibdir. Özü də seçdiyi ixtisasdan asılı olmayaraq, hər kəsə vacibdir.

Qeyd etdiyimiz bu mühüm vəzifəni biz xarici dil müəllimləri çox böyük imkanlara malik olan fənnimiz vasitəsilə həyata keçirməliyik. Müasir dünyamızda beynəlxalq dil statusunu indiyədək qoruyub saxlayan ingilis dili digər xarici dillər arasında daha geniş öyrənilmə nüfuzuna malikdir. İngilis dilinin xarici dil kimi tədrisi prosesində tələbələrin oxumaq, dinləmək, eşidib-anlamaq kimi dil bacarıqları ilə mükəmməl yazı vərdişlərinin inkişaf etdirilməsi də xüsusi diqqət tələb edən vacib məsələlərdən biridir. Məlum olduğu kimi, son vaxtlar xarici dillərə tələb və maraq durmadan artmaqdadır. Müasir universitet tələbəsi təkcə bu və ya digər sahədə ixtisaslaşmış kadr kimi formalaşmamalıdır. O, həm də, səmərəli kommunikasiyaya hazır

olmalı və müxtəlif kateqoriyalara məxsus insanlarla ünsiyyət qurmaq, komanda tərkibində işləyə bilmək, ətrafdakılara motivasiya verə bilmək kimi tamamilə yeni sosial bacarıqlara yiyələnməlidir. (İmanov, 2012)

Qloballaşma dövründə ingilis dilinin rolu və yerindən danışarkən, hazırda bu dilin qlobal ünsiyyət vasitəsi kimi qəbul edildiyini qeyd etmək lazımdır. Oksford universitetinin professoru Florian Koulmas ingilis dilinin aşağıdakı 5 üstün cəhətini qeyd etmişdir:

1.İngilis dili dünyada ən çox tədris edilən dildir və beynəlxalq dairələrdə ən çox üstünlük verilən ünsiyyət vasitəsidir. O, həmçinin, digər dillərlə olan əlaqələrinə görə bütün dünya dillərindən üstün mövqedədir.

2.İngilis dili digər dillərlə əlaqə baxımından ən çox hibrid sözlər və birləşmələr yaratmış dildir. Bu sahədə də ingilis dili bütün dillərdən irəlidədir.

3.Son 50-60 ildə ingilis dili digər dillərə ən çox alınma söz vermiş dildir. İngilis dili alınma sözlər baxımından ən zəruri dil kimi təqdim edilməlidir.

4.Üçüncü Dünya ölkələrində, ingilis dili elm və texnologiya, siyasət və hüquq sahələrində ən yüksək ünsiyyət vasitəsidir. İnkişaf etmiş sənaye ölkələrində, ingilis dili, bir tərəfdən elm və texnologiya sahələrində, digər tərəfdən, maliyyə və turizm sahələrində müstəsna əhəmiyyət kəsb edən dildir. İngilis dili İsveç korporasiyalarında, Niderland universitetlərinin mühazirə otaqlarında, Sürixdəki aksionlarda və Fransadakı elmi-tədqiqat laboratoriyalarında kommunikativ funksiyanın ayrılmaz tərkib hissəsinə çevrilmişdir.

5.İngilis dili bütün dünyada dil icmalarının linqvistik dəyişiklik və transformasiya məqsədi kimi çıxış edir. (Coulmas Florian, 2000)

Devid Qraddol isə Florian Koulmasın fikirlərini daha da inkişaf etdirərək ingilis dilinin beynəlxalq əhəmiyyətini aşağıdakı kimi təsvir edir:

1. İngilis dili beynəlxalq təşkilatların və konfransların rəsmi dilidir. Dünyada fəaliyyət göstərən beynəlxalq təşkilatların təqribən 85%-i rəsmi dil kimi yalnız ingilis dilindən istifadə edir. Bütün bunlarla yanaşı, ingilis dili maliyyə institutlarının da əsas dilidir.
2. Hazırda ingilis dili elm və texnologiyanın dilidir.
3. İngilis dili beynəlxalq bank fəaliyyəti, iqtisadi və ticarət əlaqələrinin dilidir.
4. İngilis dili qlobal brendlərin reklam dilidir.
5. İngilis dili audiovizual məhsulların (film, TV, musiqi və s.) dilidir.
6. İngilis dili beynəlxalq turizm dilidir.
7. İngilis dili ali təhsilin dilidir.
8. İngilis dili beynəlxalq təhlükəsizliyin dilidir.
9. İngilis dili beynəlxalq hüququn dilidir.
10. İngilis dili yazılı və şifahi tərcümənin əsas dilidir.
11. İngilis dili texnoloji nailiyyətlərin yayılma dilidir.
12. İngilis dili internet kommunikasiyalarının dilidir.

Devid Qreddol YUNESKO-nun statistik məlumatlarına əsaslanaraq yazır ki, dünyada nəşr edilən kitabların 28%-i ingilis dilindədir. Müqayisə üçün bildirək ki, dünya üzrə nəşr edilən kitabların aparıcı dillər üzrə payı belədir: çin dilində - 13.3%, alman dilində - 11.8%, fransız dilində - 7.7%, ispan dilində - 6.75%, yapon dilində - 5.1%, rus dilində - 4.7%, portuqal dilində - 4.4%, koreya dilində - 4.4%, italyan dilində - 4%, niderland dilində - 2.4%, isveç dilində - 1.6%, digər dünya dillərində - 5.8%. Göstərilən rəqəmlər ingilis dilinin dünyada aparıcı rol oynadığını bir daha sübut edir. (Graddol David, 2001)

Artıq milyonların deyil, milyardların ünsiyyət vasitəsinə çevrilməkdə olan ingilis dili dövrün tələblərinə və insanların tələbatlarına müvafiq olaraq durmadan dəyişməkdədir. Bu cür dəyişikliklərin fonunda ingilis dilinin tədrisi metodlarına da yanaşma tərzi sabit qala bilməz. Artıq planetimizin əksər sakinləri dərk

edir ki, ingilis dili təkcə dildaşıyıcılarına məxsus deyil. Əksinə, bu dil qlobal səviyyədə işlənən mühüm bir vasitəyə çevrilmişdir. (Graddol David, 1997)

Bu gün Azərbaycan təhsilində xarici dilin tədrisinə xüsusi önəm verilir. Müasir dövrdə ingilis dilinin tədrisi zamanı yeni metodlardan istifadə etməklə, şagird və tələbələrin bu fənnə olan marağını artırmaq geniş vüsət almışdır. Son zamanlarda xarici dilin tədrisində yeni forma – kommunikativ metodika fənn müəllimləri tərəfindən tətbiq edilir. İngilis dilinin tədrisi prosesində, kommunikativ metodika bir qayda olaraq, öyrənilən dilin dərk edilməsi baxımından kommunikativ oyunlarda tətbiq edilir. Bu baxımdan kommunikativ oyunların başlıca məqsədi, qarşıya qoyulmuş kommunikativ tapşırığın və ya problemin həlli prosesində xarici dildə münasibətə, danışığa nail olmaqdır. Bu oyunlar təbii şəkildə yaranmış prosesdə, rəngarəng əyani vəsaitlərdən, dil materiallarından, danışıq situasiyalarından geniş şəkildə istifadə etməyə imkan yaradır. Metodik nöqteyi-nəzərdən, kommunikativ oyunlar, təlim dili kommunikasiyası fəaliyyətini özündə birləşdirən tapşırıqları əhatə edir. Kommunikativ tapşırıq, oyunçular arasında qarşılıqlı danışıq prosesində yaranmış fikir və informasiya mübadiləsidir. (Səfiyev, 2019)

Müasir təlim metodikasının tədris prosesində geniş şəkildə tətbiqi şagirdlərin təlim edilən fənnin qavranılmasında, dərk edilməsində oyunlara, qruplarla, cütlərlə işləməyə imkan yaradır. Xarici dillərin tədrisi prosesində ziqzaq metodu qruplarla iş üçün çox əhəmiyyətli metoddur. Şagirdlərin əldə etdikləri məlumatı həm fərdi, həm də qrup halında müzakirə edərək, xarici dildə istifadə etmələri, şifahi nitqin, düşünmənin, dərk etmənin və eyni zamanda yadda saxlamanın inkişafına təkan verir. Hər bir şagird həm düşünür, həm də düşündürür. Müasir dövrün tələblərinə uyğun olaraq, təlim və tədris prosesində müasir, o cümlədən, interaktiv təlim metodları və yeni pedaqoji texnologiyaların tətbiqi ilə tədrisin səmərə və keyfiyyətinin yüksəldilməsi çox mühüm əhəmiyyət kəsb edir.

Müasir müəllim öz tədris etdiyi fənnin təlimi prosesində bütün yeni metod və üsullardan istifadə etməlidir. Müasir dərs pedaqoji- psixoloji elmlərin ən yeni biliklərinə söykənməlidir. Yəni dərsdə təfəkkür, hafizə, təxəyyül, hisslər fomalaşmalıdır. Şagird təlim- tərbiyə prosesinin subyekti kimi götürülməlidir, müəllim koqnitiv funksiyanı inkişaf etdirməli və interaktiv metodla işləməlidir. Müəllim hər bir şagirdin çatışmazlığını, dərk etməsini, qabiliyyətini, gücünü və s. nəzərə alaraq fərdi işləməlidir. Bütün sinfə eyni sözü deyən müəllimin əməkdaşlığı qeyri-normaldır.

İngilis dilinin tədrisi zamanı önəm verilən bir sahə də şagird və tələbələrdə nitqi inkişaf etdirməkdir. Şifahi nitqin inkişafı əsas tələb kimi götürülməklə şagirdlərin ünsiyyət bacarıqlarının formalaşdırılması, lüğət ehtiyatının zənginləşdirilməsi, ən zəruri qrammatik anlayışların və dil konstruksiyalarının mənimsənilməsi, oxu, yazı texnikası, yazılı nitq, dinləyib-anlama vərdişlərinin inkişaf etdirilməsi təmin olunur. Bundan başqa, nəzərdə tutulan fəaliyyətlər inkişaf etdirilməklə şagirdlərin xarici dil üzrə kommunikativ bacarıqlara və ünsiyyət mədəniyyətinə yiyələnmələri, lüğət ehtiyatının zənginləşdirilməsi, onlarda xarici dili dərindən öyrənməyə maraq oyadılması, dilini öyrəndiyin ölkə (ölkələr) ilə tanışlıq əsasında dünyagörüşlərinin genişlənməsi təmin olunur. (Səfiyev, 2019)

Müasir təlim metodlarından hərtərəfli istifadə etməklə tələbələrin tənqidi-analitik düşüncə tərzinin, sərbəst fikir söyləmək qabiliyyətinin inkişafına geniş imkanlar yaratmaq olur, habelə onların öz fikirlərini yazılı şəkildə düzgün ifadə etmək, əldə etdikləri yeni informasiya və bilikləri, gəldikləri şəxsi qənaətləri səmərəli şəkildə başqalarına çatdırmaq bacarıqlarının formalaşması və inkişafını mümkün etmək olur. (Holme R, 2009)

Aparılan tədqiqatlar göstərir ki, oxumaq, dinləmək, danışmaq hər bir dil üçün də keçərlidir. Lakin bu dili sərbəst bilmək üçün danışıq daha çox məşq edilməlidir.

**Ədəbiyyat:**

1.İmanov S. Ali məktəblərdə xarici dillərin tədrisi prosesində tələbələrin mənəvi tərbiyəsi. Bakı, 2012

2.Səfiyev Ə.Y. İngilis monoloji nitqinin kommunikativ tədrisinin əsasları. Bakı, 2019.
3.Coulmas Florian. English. Oxford Press, 2000.
4.Graddol David. English and Foreign Languages, 2001.
5.Graddol David. The future of English. The British Council, 1997.
6.Holme R. Cognitive linguistics and language teaching, 2009.

# FİZİKİ TƏRBİYƏ DƏRSLƏRİNİN TƏŞKİLİNDƏ İNFORMASİYA TƏMİNATI KEYFİYYƏT GÖSTƏRİCİSİ KİMİ

**Bayramova Zərifə Cavanşir qızı**
**Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası**
**https://orcid.org/0009-0003-8044-505X**
**zarifa.bayramova@sport.edu.az**

# INFORMATION PROVISION IN THE ORGANIZATION OF PHYSICAL EDUCATION LESSONS AS A QUALITY INDICATOR

**Bayramova Zarifa Javanshir**
**Azerbaijan State Academy of Physical Education and Sports**
**https://orcid.org/0009-0003-8044-505X**
**zarifa.bayramova@sport.edu.az**

**Summary**

The article includes the analysis and systematization of the available materials in methodological sources for the implementation of the content line "Information provision and theoretical knowledge", which is an important factor in the organization and conduct of physical education classes in secondary schools. At the current stage of the study, based on the study of scientific and methodological sources, an attempt is made to group information provision and theoretical knowledge in terms of compliance with their content lines by determining the necessary structure and content of information provision and theoretical knowledge in physical education classes aimed at developing individual motor skills, the sequence of their messages, evaluation criteria, the provision of their presentation in various options depending on the level of preparation of students, and the determination of their effective use in the educational process is provided.

It is assumed that the information provision and differentiation of theoretical knowledge based on the above requirements will serve to improve the quality of teaching physical education classes and, using the provided information, to increase the physical fitness of students independently, as well as how to improve their health.

**Keywords:** physical education, physical culture, information provision, theoretical knowledge, motor skills, evaluation indicators, data capacity of information

# ИНФОРМАЦИОННОЕ ОБЕСПЕЧЕНИЕ КАК ПОКАЗАТЕЛЬ КАЧЕСТВА ПРИ ОРГАНИЗАЦИИ ЗАНЯТИЙ ПО ФИЗИЧЕСКОМУ ВОСПИТАНИЮ

**Байрамова Зарифа Джаваншир**
**Азербайджанская Государственная Академия Физического Воспитания и Спорта**

https://orcid.org/0009-0003-8044-505X
zarifa.bayramova@sport.edu.az

**Резюме**

Статья включает в себя анализ и систематизацию имеющихся материалов в методических источниках для реализации содержательной линии «Информационное обеспечение и теоретические знания», что является важным фактором в организации и проведении занятий по физической культуре в общеобразовательных школах. На текущем этапе исследования на основе изучения научно-методических источников предпринимается попытка группировки информационного обеспечения и теоретических знаний с точки зрения соответствия их содержательным линиям путем определения необходимой структуры и содержания предоставления информации и теоретических знаний на занятиях по физическому воспитанию, направленных на развитие индивидуальных двигательных способностей, последовательности их сообщении, критериев оценки, предоставление их подачи в различных вариантах в зависимости от уровня подготовки учащихся, предусмотрено определение их эффективного использовании в учебном процессе.

Предполагается, что предоставление информации и дифференциация теоретических знаний на основе вышеуказанных требований способствует повышению качества преподавания занятий по физическому воспитанию, а также создает условия для самостоятельного их использования учащимися для повышения физической подготовленности и укрепления здоровья.

**Ключевые слова:** физическое воспитание, физическая культура, информационное обеспечение, теоретические знания, двигательные способности, оценочные показатели, информационная емкость информации

Ümumtəhsil məktəblərində fiziki tərbiyə fənninin tədrisinin əsas məqsədi şagirdlərdə hərəki fəaliyyət mədəniyyətinin formalaşdırılmasıdır. Bu məqsədin həyata keçirilməsi "Fiziki tərbiyə fənninin kurikulumu"nda verilmiş məzmun xətlərinin qarşılıqlı şəkildə reallaşması ilə əldə olunur. Fənn kurikulumu aşağıdakı məzmun xətlərini özündə ehtiva edir:

- İnformasiya təminatı və nəzəri biliklər
- Hərəki bacarıqlar və vərdişlər
- Hərəki qabiliyyətlər
- Şəxsiyyətin mənəvi-iradi keyfiyyətlərinin formalaşması

Fiziki tərbiyə dərslərinin pedaqoji tamlığı məzmun xətlərinin qarşılıqlı əlaqəsi ilə təmin olunur. Bu əlaqənin həyata keçirilməsi isə dərsdə verilən informasiya təminatının məlumat tutumluluğundan, adekvatlığından, ifadə tərzindən və nəzərdə tutulan vaxt limitində verilməsindən bilavasitə asılıdır. Bu səbəbdən də fiziki tərbiyənin tədrisinə dair elmi-metodik mənbələrdə informasiya təminatı və nəzəri biliklərin verilməsi formalarına dair nümunələrin, qayda və prinsiplərin tədqiqi praktiki əhəmiyyət kəsb edən aktual məsələdir.

**Tədqiqat obyekti:** Fiziki tərbiyənin ümumtəhsil məktəblərində tədrisinə dair elmi-metodiki mənbələrdir.

**Tədqiqat predmeti:** Fiziki tərbiyə fənninin "İnformasiya təminatı və nəzəri bilikləri" məzmun xəttinin strukturu, məzmunu və çatdırılma formalarıdır.

**Tədqiqatın fərziyyəsi:** Ehtimal olunur ki, fiziki tərbiyə dərslərində "İnformasiya təminatı və nəzəri biliklər"in dərsin mövzusuna dair zəruri, adekvat məlumatlarla zənginliyinin təmin edilməsi, asan anlaşılan, nəzərdə tutulan vaxt limiti daxilində şagirdlərə çatdırılması, tədrisi nəzərdə tutulan standartların daha dolğun və effektli reallaşmasının təşkilinə şərait yaradacaqdır.

"İnformasiya təminatı və nəzəri biliklər" fiziki tərbiyə kurikulumunun birinci məzmun xəttidir. V sinifdə informasiya təminatı sağlamlığın möhkəmləndirilməsində hərəki fəaliyyətin əhəmiyyəti, müxtəlif

idman növlərinin icra üsulları, hərəki fəaliyyətin təşkili və idarəedilməsi, şəxsiyyətin hormonik inkişafına dair biliklər haqqında informasiya kimi 4 əsas standartdan və 12 alt standartdan ibarətdir.

Fiziki tərbiyə fənninin hazırda mövcud olan standartlarının reallaşdırılması ayrı-ayrı siniflər üçün hazırlanmış dərslik və metodik vəsaitlərdə öz əksini tapmışdır. Fiziki tərbiyə müəllimlərinin fəaliyyətini




istiqamətləndirmək üçün hazırlanmış metodik vəsaitlərdə hər bir dərsdə reallaşdırılması nəzərdə tutulan standartlar illik tematik planlaşma cədvəllərində göstərilir. Eyni zamanda informasiya təminatı və nəzəri biliklərin məzmununun tərtibinə dair nümunələr 1, 2, 3, 4 və 5-ci siniflər üçün hazırlanmış müəllim vəsaitlərində verilir.

Ümumtəhsil məktəblərində tədris olunan fiziki tərbiyə dərslərinin tədrisi zamanı aparılan müşahidələr göstərir ki, heç də həmişə dərsin giriş hissəsində verilən informasiya şagirdin dərsdəki fəaliyyətinin istiqamətləndirilməsi və operativ tənzimlənməsi üçün yetərli olmur.

Hər bir fərdin hərəki fəaliyyətinin aşağıda göstərilən sxem üzrə idraki, psixo-motor fəaliyyətinin qarşılıqlı əlaqəsi fonunda verildiyini nəzərə alsaq, o halda informasiya təminatının dərsin təşkili və idarəedilməsində hansı mühüm əhəmiyyət kəsb etdiyini müəyyən etmək mümkündür.

Sxemdən göründüyü kimi, şagirdin fiziki hazırlığının inkişaf etdirilməsinə yönəlmiş bütün fəaliyyətlərin başlanğıcında informasiya təminatı durur. Fiziki tərbiyənin kurikulum sənədində bu prinsipə riayət edilməsi müşahidə edilir. Nümunə kimi 5-ci sinifdə fiziki tərbiyənin dövlət standartlarını göstərmək olar. Burada informasiya təminatına aid olan hər bir əsas və alt standartlar müvafiq hərəki fəaliyyətlə əlaqələndirilmişdir:

**İnformasiya təminatı və nəzəri biliklər -** 1.2.1. Hərəkətin icra üsulları haqqında qısa informasiya verir.

**Hərəki bacarıqlar və vərdişlər -** 2.2.1. Ayrı-ayrı idman növlərinə aid olan hərəkətləri tövsiyə olunan üsullarla icra edir.

**İnformasiya təminatı və nəzəri biliklər -** 1.3.3. Hərəki qabiliyyətlər, onları inkişaf etdirən oyunlar və hərəkətlər haqqında informasiya verir.

**Hərəki qabiliyyətlər -** 3.1. Şagird hərəki fəaliyyət zamanı müvafiq hərəki qabiliyyətlər nümayiş etdirir.

**İnformasiya təminatı və nəzəri biliklər -** 1.4. Şəxsiyyətin hormonik inkişafı haqqında məlumat verir.

**Şəxsiyyətin mənəvi – iradi keyfiyyətlərinin formalaşması -** 4.1. Hərəki fəaliyyət mədəniyyəti nümayiş etdirir.

Elmi-metodiki mənbələrin təhlili nəticəsində belə qənaətə gəlmək olur ki, informasiya təminatının digər məzmun xətləri ilə üzvi əlaqəsi həm fiziki tərbiyənin müvafiq dövlət sənədlərində, eyni zamanda fiziki tərbiyənin tədrisini tənzimləyən metodik vəsaitlərdə verilmişdir. Lakin bilavasitə tədris prosesində bu məsələnin hansı dərəcədə reallaşdırılması əlavə tədqiqatların aparılmasını zərurətə çevirir. Digər tərəfdən informasiya təminatına olan real tələblər, onların aşağıda tövsiyə olunan qruplar üzrə komplektləşdirilməsini və bunlara müvafiq nümunələrinin hazırlanmasını aktuallaşdırır:

- məlumatlandırıcı;
- motivasiyaedici;
- istiqamətləndirici;
- təşkiledici;
- müşayiətedici.

**Ədəbiyyat:**

1.F.Hüseynov, A.Əsgərov, B.Allahverdiyev, V.Musayev, E.Qaybalıyev., "Ümumtəhsil məktəblərinin 5–11-ci siniflərində Fiziki tərbiyə". Bakı, "Müəllim" nəşriyyatı, 2012, 168 s.

2.F.Hüseynov, S.Bağırov, İ.Əliyev, F.Hüseynov., "5-ci sinif «Физическое воспитание» - Fiziki tərbiyə dərsliyinin həyata keçirilməsinə metodiki dəstək". Bakı, XXI-Yeni Nəşrlər Evi, 2016, 79 s.

## ONLINE ASSESSMENT OF READING AND WRITING SKILLS

**Iskandarova Gulnara Gurban**
**Azerbaijan University of Languages**
**https://orcid.org/0009-0000-6172-6428**
**gulnaragurban85@gmail.com**

## OXU VƏ YAZI BACARIQLARININ ONLAYN QİYMƏTLƏNDİRİLMƏSİ

**İskəndərova Gülnarə Qurban**
**Azərbaycan Dillər Universiteti**
**https://orcid.org/0009-0000-6172-6428**
**gulnaragurban85@gmail.com**

**Xülasə**

Xarici dilin öyrənilməsi prosessində dilin mənimsənilməsi üçün lazım olan ən vacib bacarıqlardan biri də oxu bacarığıdır. Yazı bacarığı da oxu bacarığı ilə birlikdə paralel olaraq inkişaf edir. Oxu bacarıqları çox vaxt şagirdin bilik və bacarıqları əsasında kəmiyyətcə ölçülür. Şagirdlərin leksik bazası, cümlə quruluşunun düzgünlüyünün yoxlanılması, onların dil biliklərini nə dərəcədə səmərəli tətbiq etmələri, eləcə də yazı işinin inkişafı ümumilikdə yazı bacarıqlarının qiymətləndirilməsinin əsas tərkib hissəsidir. Bu qabiliyyətlər bir-birinə bağlı olduğu qədər də bir-birinə daima təsir göstərir. Onlayn qiymətləndirmə proqramları ilə yazını qiymətləndirmək heç vaxt bu qədər asan və sadə olmamışdı. Onlayn qiymətləndirmə vasitələri dil bacarıqlarının qiymətləndirilməsi prosesini asanlaşdırır və sadələşdirir.

**Açar sözlər:** onlayn qiymətləndirmə, anlama, oxu bacarığı, texnologiya, tapşırıq

# ОНЛАЙН-ОЦЕНКА НАВЫКОВ ЧТЕНИЯ И ПИСЬМА

**Искандарова Гюльнара Курбан**
**Азербайджанский Университет Языков**
**https://orcid.org/0009-0000-6172-6428**
**gulnaragurban85@gmail.com**

**Резюме**

В процессе изучения иностранного языка одним из наиболее важных навыков, необходимых для овладения языком, является умение читать. Навыки письма также развиваются параллельно с навыками чтения. Навыки чтения часто измеряются количественно на основе знаний и навыков учащегося. Проверка правильности построения студентами лексической основы предложения, того, насколько эффективно они применяют свои языковые знания, а также развития письменной речи, является основным компонентом оценки навыков письма в целом. Эти способности взаимосвязаны и постоянно влияют друг на друга. С программным обеспечением для онлайн-оценки оценивание письма никогда не было проще и проще. Онлайн-инструменты для оценки облегчают и упрощают процесс оценки языковых навыков.

**Ключевые слова:** онлайн-оценка, понимание, навыки чтения, технологии, задача

In the last few years, technological innovations have enabled the scope of online, distance learning to be broadened. Especially because of the Covid-19 epidemic, online education has evolved into a crucial learning companion. It is commonly known that there is online assessment as well as online learning in education. The student's achievements are evaluated and his progress is systematically tracked in modern evaluation. Evaluation serves as a useful method for providing feedback between learning outcomes and stakeholders (M. Həsənov, N. Cəfərova, C. Bəhmənova, 2014).

Apart from the virtual class, there are major and auxiliary tools that implement the organization of that class, such as programs, websites, and so on, and by employing them, it is possible to effectively plan the lesson as well as carry out the assessment. The learning from A-Z website, for example, is regarded as one of the largest online reading programs in recent years. Any book is assigned to pupils as an online work, and the student joining the application records his voice while reading the book and answers questions about the text, which is then sent to the teacher. While listening to the audio recordings and verifying the answers, it is simple to examine and evaluate (Raz Plus, 2023).

All online or in-person assessments adhere to the concepts of Bloom's taxonomy (K.F. Hew, Sh. Liu, 2004).

| Bloom's Taxonomy | Methods of online assessment |
|---|---|
| Knowledge | Multiple-choice, true/false, gap filling and games |
| Perception | Simulations and animations |
| Application | Case method, essay, and short responses |
| Analyze, synthesize, and evaluate | Essays, projects, presentations, portfolios, virtual labs, and so on. |

The following areas, according to K. Morgan and O. Reilly, can be examined online.

1. Critical thinking skills (essay, review)
2. Problem resolution (through video conferencing)
3. Creativity (video project, portfolio)
4. Interaction (discussion, role-playing games)

5. Collaboration and group work (email, listserv, debate, conference discussions)

6. Knowledge demonstration (multiple choice task, true/false work, short answer exam, matching task)

7. Self-administration (journal, biography, portfolio, and so forth) (K.F. Hew, Sh. Liu, 2004 ).

Reading is one of the two most crucial receptive skills that are developed in learning a foreign language. Cultivating skills in reading helps in the capacity to read texts with varying contents, to make schematic connections, to facilitate the ability to read according to style, to acquire language skills, and to approach the text's material critically (Raz Plus, 2023).

At this point you need to understand that reading is not a passive ability; rather, it is regarded as a form of action. The read texts are not read mindlessly, but the content is attempted to be comprehended. Students are piqued by the content they are reading. As we live in a technologically advanced era, there are various online tools and platforms that assist reading proficiency tests, making the seemingly impossible and occasionally challenging process easier. Mentioning Raz Kids, the most significant of these initiatives, is sufficient. The online reading program Kids A-Z is useful for students with varying levels of linguistic proficiency. This software is helpful for hearing, speaking, and quick reading as well. There are numerous levels and languages of books accessible. Students are given access to a diverse and colorful variety of literature, and each program user is given questions varying in level of difficulty to assess their comprehension of the novels they have read and listened to. In this program, it is even possible to learn the types of writing and get acquainted with the given examples of each type of writing (Raz Plus, 2023) (K.F. Hew, 2004).

Since the academic levels of the university applicants vary, it is well recognized that selecting the same textbook for all of them would be challenging and lead to unsatisfactory results. The teacher in this global software records the grammatical, spelling, and pronunciation errors that students make when reading when they join the evaluation part, listen to the book that was assigned to them, read it, record their voices, respond to the questions, and email it back to the teacher. When a language level has been successfully completed, the program offers the option to advance to the next level when the student is ready. Any level can be chosen to improve and test reading skills in this app. Students each have their own username and password at the same time. Even the many styles of writing can be learned in this application, along with samples of each type of writing that are provided (Raz Plus, 2023).

One of the most challenging obstacles a learner of a foreign language must overcome is learning to write. Even native speakers at the university level frequently have significant problems demonstrating a strong command of writing. Therefore, because writing abilities are crucial for academic achievement, language teachers frequently incorporate them in their foreign language curricula.

Writing as a goal of learning a foreign language: Since students will need to communicate with others in writing, we should incorporate some writing projects (which have complete pieces of communication as their outcome, rather than isolated sentences) to help learners build the writing communication abilities. They may require this in their future social, academic, personal, or professional lives when they must complete forms, write formal and casual letters, postcards, offer written directions, take notes, write phone calls, etc. Planning exercises to assist students improve their writing abilities is crucial, but so is evaluating the students' written work. Both students, who may learn from their mistakes, and teachers, who can assess the students' progress and spot particular issues, benefit greatly from it. However, teachers typically do not appreciate spending so much time revising students' written work (Book Creator, 2023).

With Book Creator, teachers and students may enjoy the writing and editing processes while also making their lives easier. Text, audio, video, drawings, photographs, and other apps content are all

combined in this software. With the help of this program, you may create multimedia, digital books on any topic. Student success depends heavily on teacher input, and Book Creator has a potent commenting side panel made just for that reason. With capability for two-minute and video comments, Book Creator goes above and beyond simple text comments (Book Creator, 2023).

Several objectives relating to student feedback are addressed via audio and video responses. First, audio and video feedback are helpful in conveying the comment's tone. Students are able to both hear and see the enthusiasm and support of their classmates and teachers in the reaction. In a text type message these components could be overlooked. This kind of feedback can make students feel heard and encouraged and gives them an opportunity to express a recommendation, piece of advice, or a call to action while also showing their excitement for the subject (Book Creator, 2023).

Teachers can view all comments posted to a book, even any that students have deleted, to aid in teaching digital citizenship and to prevent any inappropriate use of comments. Additionally, students are unable to modify their comments. (Book Creator, 2023). These unique products' characteristics make online assessment considerably easier for teachers to use and more accessible, which improves learning outcomes.

**References:**


1. M. Həsənov, N. Cəfərova, C. Bəhmənova. İbtidai sinif müəllimləri üçün kurikulumun məzmunu və həyata keçirilməsi yolları (metodik vəsait), Bakı, 2014.
2. K.F. Hew, Sh. Liu, R. Martinez, C. Bonk, Ji. Y. Lee. "Online Education Evaluation: What Should We Evaluate?", 2004
3. Assessment In ODL (Handouts). (n.d.). https://wikieducator.org/images/3/36/Handouts_for_Assessment_in_ODL.pdf
4. Add comments and feedback to books | *Book Creator Help Center*. (n.d.). Intercom. Help.
5. Retrieved July 30, 2023, from https://intercom.help/bookcreator/en/articles/6459601-add-comments-and-feedback-to-books
6. "Leveled Books." *Raz*, www.raz-plus.com/books/leveled-books/. Accessed 30 July 2023
7. Types of Online Assessments / Online Assessment. (n.d.). Sites.psu.edu. https://sites.psu.edu/onlineassessment/gather-evidence/

## MÜASİR MÜƏLLİMİN PEŞƏ KOMPETENSİYALARI

**Daşdəmirova Aytən Təmraz**
**Azərbaycan Dillər Universiteti**
**https://orcid.org/0009-0006-9332-5657**
**aytentt@icloud.com**

## PROFESSIONAL COMPETENCES OF THE MODERN TEACHER

**Dashdemirova Aytan Tamraz**
**Azerbaijan University of Languages**
**https://orcid.org/0009-0006-9332-5657**
**aytentt@icloud.com**

**Summary**

The purpose of this report is the teaching profession and the requirements given to it in modern times. Being a teacher starts with loving this art. If a teacher just performs his work for a certain salary, it shows his indifference to his profession. When every teacher enters the group, he must remind himself that he must teach the children knowledge based on education and training, and this is his professional duty. We often come across the phrase “Children are our future” in various literature and speeches. This should not be just a statement, every teacher should understand this responsibility. The knowledge, skills and habits that we possess are the result of the knowledge that our teachers and parents instilled in us. How we want to see our tomorrow, we must educate the children today in that direction and we must not overlook one thing that we must fulfill all the duties that we have to give a decent future to the children who are our future.

A teacher's job is multifaceted, complex and full of dynamic processes. Considering that the purpose of the teacher's work is to educate and provide society with knowledgeable, educated, well-educated, healthy and modern-minded, world-viewing, brave, patriotic personalities, it is from this that we can understand how responsible, hard-working, labor-intensive and demanding the teaching profession is at the same time, it is a proud and honorable profession. It would be very wrong to think that the activity of the teacher consists only of forming and teaching the necessary knowledge and skills. Yes, a teacher is a teacher, but it is absurd to think of it in a narrow sense. Because the formation of personality does not only mean acquiring the necessary knowledge and information. An individual can be a personality when he has all the necessary human qualities, noble personal characteristics and, of course, important knowledge, skills and habits. If we take into account how many personalities teachers give to the society, then it should not be so difficult to form an idea about the nature and characteristics of a teacher's work. It is from here that one can understand the specifics of the teacher's work.

**Key words:** teacher, personality, quality, knowledge, upbringing

## ПРОФЕССИОНАЛЬНЫЕ КОМПЕТЕНЦИИ СОВРЕМЕННОГО УЧИТЕЛЯ

**Дащдемирова Айтен Тамраз**
**Азербайджанский Университет Языков**
**https://orcid.org/0009-0006-9332-5657**
**aytentt@icloud.com**

**Резюме**

Целью данного доклада является профессия учителя и требования, предъявляемые к ней в современности. Быть учителем начинается с любви к этому искусству. Если учитель просто выполняет свою работу за определенную зарплату, это свидетельствует о его равнодушии к своей профессии. Когда каждый педагог входит в группу, он должен напоминать себе, что он должен учить детей знаниям, основанным на воспитании и обучении, и это его профессиональный долг. Фразу «Дети – наше будущее» мы часто встречаем в различной литературе и выступлениях. Это не должно быть просто заявлением, каждый учитель должен понимать эту ответственность. Знания, навыки и привычки, которыми мы обладаем, являются результатом знаний, которые привили нам наши учителя и родители. Как мы хотим видеть наше завтра, мы должны воспитывать детей сегодня в этом направлении, и мы не должны упускать из виду одну вещь, что мы должны выполнить все обязанности, которые у нас есть, чтобы дать достойное будущее детям, которые являются нашим будущим.

Работа учителя многогранна, сложна и насыщена динамичными процессами. Учитывая, что цель работы учителя состоит в воспитании и обеспечении общества знающими, образованными, здоровыми и современно мыслящими, мировоззренческими, смелыми, патриотичными личностями, то из этого можно понять, насколько ответственными, трудными -трудовой, трудоемкой и требовательной является профессия учителя, в то же время это гордая и почетная профессия. Было бы очень неправильно думать, что деятельность педагога состоит только в формировании и обучении необходимым знаниям и умениям. Да, учитель есть учитель, но нелепо думать об этом в узком смысле. Ведь формирование личности означает не только приобретение необходимых знаний и информации. Индивид может быть личностью тогда, когда он обладает всеми необходимыми человеческими качествами, благородными личностными качествами и, конечно же, важными знаниями, умениями и навыками. Если принять во внимание, сколько личностей педагоги дают обществу, то составить представление о характере и особенностях педагогического труда не должно быть так уж трудно. Именно отсюда можно понять специфику работы учителя.

**Ключевые слова:** учитель, личность, качество, знания, воспитание

Cəmiyyətdə bir-birindən müxtəlif meyarlar, tələblər və xarakterik xüsusiyyətlərinə görə fərqlənən kifayət qədər peşələr mövcuddur. Lakin bunlardan ən şərəfli, ən məsuliyyətli və gərgin əmək tələb edəni müəllimlikdir. Axı bütün peşə sahiblərini yetişdirən, onlara təhsil verən məhz müəllimlərdir. Müstəqil və çiçəklənən Vətənimizin gələcəyi məhz müəllimlərin əlindədir. Bu mənada müəllimin memara, gələcəyi inşa edən şəxsə bənzədilməsi heç də təsadüfi deyildir.

Müəllimlik sənəti, onun cəmiyyətdə tutduğu mövqe, bu peşəyə verilən tələblər daim aktual olmuşdur. Müəllimlərin cəmiyyətdə tutduğu yer yeni dövrün əlamətdar hadisəsi deyil. Bu, çoxsaylı tarixçilərin, yazıçıların əsərlərində müəllimə verilən dəyərin, onun tutduğu mövqeyin hər zaman yüksək və dəyərli olmasından xəbər verir. “Nəyə görə müəllimlik?” sualına sadə bir cavab vermək olar. Çünki müəllimlər ən dəyərli kapital olan insan ilə işləyir, şəxsiyyət yetişdirir və cəmiyyətə bəxş edir.

Ümummilli liderimiz Heydər Əliyev – “mən yer üzündə müəllimdən yüksək ad tanımıram” deyirdi. Bu fikir həqiqətən müəllim sənətinin aliliyini, üstünlüyünü gözəl şəkildə ifadə etmiş olur.

Müəllimlər uşaqları şəxsiyyət olaraq yetişdirmək, onlara zəruri bilik, bacarıq və vərdişləri aşılamaq, təlim və tərbiyə prosesini təşkil etmək üçün müəyyən bacarıq və qabiliyyətlərə malik olmalıdırlar. Lakin iş burada yekunlaşmır. Belə bir sual yaranır: “Müəllim özü şəxsiyyətə məxsus xüsusiyyətlərin daşıyıcısı deyilsə, necə şəxsiyyət yetişdirə bilər?”. Buradakı əsas məsələlərdən biri də müəllimin öz davranışı, hərəkətləri, danışıq tərzi ilə uşaqlara örnək olmasıdır. Bu, müəllimin şəxsi nümunəsi adlanır ki, müəllimin ən çox diqqət yetirəcəyi vacib məqamlardandır. Əgər müəllim uşaqlara yavaş danışmağı məsləhət görüb, özü yüksək səs tonunda danışırsa, artıq burada təzad yaranır və müəllim uşağın gözündə özünə olan inamı itirmiş olur. Buna görə müəllim daim öz davranış və hərəkətlərində diqqətli olmalı, söylədikləri ilə yerinə yetirdikləri

arasında vəhdət təşkil edilməlidir. Təcrübədə çox tez-tez rast gəlinən haldır ki, uşaqlar özlərini müəllimlərinə bənzətməyə çalışırlar və onun kimi olmaq istəyirlər. Düşünürəm ki, uşağın gələcəkdə müəllim olmaq istəməsi onun müəlliminin uğurudur. Uşaqların yaddaşında yaxşı iz qoymaq olduqca çətindir.

Qeyd etdiyim məqamlar müasir müəllimin peşə kompetensiyalarını meydana gətirir. Bəs müəllimin peşə kompetensiyaları dedikdə, ağıla gələn ilk anlayışlar hansılardır?

Müəllimin savadlılığı, ünsiyyəti, yaradıcı olması, tədqiqatçılığı və s. Qeyd etdiyim bu anlayışlar müasir dövrdə də aktual olması ilə seçilir. Belə ki, savadlılıq dedikdə, yeni pedaqoji texnologiyalardan – İKT-dən yüksək səviyyədə istifadə edə bilmək bacarığı, öz fənnini mükəmməl bilməsi və məlumatları aşılaya bilmək qabiliyyəti nəzərdə tutulur. Ünsiyyətinin olması anlayışına istər uşaqlarla, istərsə də valideynlərlə düzgün şəkildə münasibət yarada bilməsi daxildir. Eyni zamanda məktəb kollektivi ilə ünsiyyət də bu sırada özünəməxsus yer tutur. Yaradıcı olması onun hər bir fənndə mövzulara tədqiqatçı mövqeyindən yanaşması ilə bağlıdır. Bu baxımdan müasir müəllim tədqiqatçılığı, innovativ fəaliyyətlə məşğul olması ilə seçilməlidir. Əsas məsələ təkcə dərslikdə olan məlumatı şagirdə çatdırmaqla məhdudlaşmır. Vacib nüanslardan biri məhz həmin fənn və mövzu dairəsində əlavə məlumatların uşağa aşılanmasıdır. Bu məqamda şagird tədqiqatçı, araşdıran rolunu oynayır. Müəllim isə istiqamət verən, yəni bələdçi, fasilitator olaraq işini yerinə yetirmiş olur.

Bu xüsusiyyətlərlə bərabər, müəllimin zəngin mənəvi-əxlaqi keyfiyyətlərə sahib olması da onu daim fərqləndirən və ən ali tutan cəhətdir. Yəni işlətdiyi ifadələr, etdiyi hərəkətlər, danışığı vacibdir.

Müxtəlif ədəbiyyatlarda peşəkarlıq və səriştəlilik anlayışlarının təhlili və ona yanaşılma müxtəlif şəkildə özünü göstərir. Belə ki, bəziləri bu anlayışları eyni, bəziləri isə fərqli formada təqdim edirlər.

Professor Abdulla Mehrabovun da bu barədə maraqlı fikirləri vardır:

“Pedaqoji səriştəlilik müəllimin pedaqoji hadisə və proseslərə ustalıqla, peşəkarlıqla yanaşmasıdır. Təhsilverənlərin öyrətməyin və öyrənməyin çoxlu metodları, yolları içərisindən ən optimalını, ən asanını, ən qısa yolla və zamanla həll edilə biləni seçib tətbiq edə bilməsidir. Müəllim səriştəliliyinin müxtəlif parametrləri, göstəriciləri olduğu kimi, müasir dövrdə onun strukturunda da müxtəliflik özünü göstərir.

Pedaqoji ədəbiyyatlarda məktəb müəlliminin səriştəlilik modelinin strukturunun – yeni səriştəliliyin və bu çərçivədə fəaliyyət növlərinin aşağıdakılardan ibarət olduğu göstərilir: Texnoloji (tədris-təlim və tərbiyə prosesində pedaqoji texnologiyaların mənimsənilməsi və səmərəli istifadəsi); Layihə-konstruktiv (tədris (işçi) proqramlarının layihələndirilməsi, təhsil müəssisəsinin əsas təhsil proqramlarının işlənməsində iştirak, universal tədris fəaliyyətinin və əsas səriştəliliklərin formalaşdırılmasını təmin edən tapşırıqların konstruksiya edilməsi); Analitik (tədris-metodik komplekslərin dövlət standartlarına uyğunluğunun təhlili; əsas səriştəliliklərin və universal tədris fəaliyyətinin formalaşmasını təmin edən tapşırıqların seçilməsi); Proqnostik (təklif olunan tədris-metodik komplekslərin təhlili əsasında əsas təhsil proqramlarının mənimsənilmə nəticələrinin proqnozlaşdırılması); Qiymətləndirmə (əsas təhsil proqramlarının mənimsənilmə nəticələrinin qiymətləndirilməsi üçün yeni sistemin tətbiqi: bal-reytinq sistemi, təlim nəticələrinin portfeli və s.); Monitorinq (tədris-təlim prosesinin və dərs vermənin keyfiyyətinin müəyyən edilməsi üçün texnoloji monitorinqin mənimsənilməsi və istifadə olunması” (Mehrabov, 2015).

Peşəkarlıq dedikdə, geniş mənada müəllimin sahib olduğu nəzəri biliklər, pedaqoji qabiliyyətlər, bacarıqlar, düşünmə və yanaşma üsulları, problemləri həlletmə bacarığı, natiqlik məharəti, pedaqoji nəzarət, yaradıcı yanaşma və sair kimi keyfiyyətlər nəzərdə tutulur. Bütün sadalanan keyfiyyət və xüsusiyyətlər müəllim peşəsinə və onun işinə verilən tələbləri təşkil edir. Sözsüz ki, müəllim təlim-tərbiyə mühitini yararlı, səmərəli, maraqlı təşkil etmək istəyirsə, bütün tələbləri qeyd-şərtsiz yerinə yetirməlidir, lakin bütün bunlardan vacib bir tələb isə müəllimin öz işini sevməsidir, həyata keçirdiyi hər bir şeyi sevgi ilə yerinə

yetirməsidir. Müəllimin öz peşəsinə qarşı sevgisi çox vacib amildir. Müəllimi sevgisiz təsəvvür etmək olmaz. Aparılan araşdırmalar göstərir ki, ideala çevrilən, bəyənilən müəllimlər uşaqları sevən, onlara qarşı nəzakətli və mehribanlıqla yanaşan müəllimlərdir.

Professor Müseyib İlyasov da yazdığı monoqrafiyada qeyd olunan məsələlərə xüsusi diqqətlə yanaşmış və müəllimin səriştəli, peşəkar olmasının dərs prosesi zamanı əhəmiyyətini vurğulamışdır. Burada pedaqoji ünsiyyət və onun motivləri də təhlilə cəlb olunmuşdur (İlyasov, 2018).

Yekun olaraq qeyd etmək istərdim ki, müəllimin peşə kompetensiyaları hansı dövrdə olmasından asılı olmayaraq, daima aktualdır. Hər bir müəllimin həmin cəhətləri özündə birləşdirməsi və dərs prosesində, istərsə də dərsdənkənar vaxtlarda tətbiq etməsi daha uğurlu nəticələrə gətirib çıxaracaqdır.

**Ədəbiyyat:**

1. İlyasov M. (2018). Müəllim peşəkarlığı və pedaqoji səriştəliliyin müasir problemləri. Monoqrafiya. Bakı: Elm və təhsil, 2018, s.147-157.

2. Mehrabov A. (2015). Səriştəli müəllim hazırlığının problemləri. Bakı: Elm və təhsil, 2015, s.158-159.

# ƏDƏBİYYAT DƏRSLƏRİNDƏ EPİK ƏSƏRLƏRİN TƏDRİSİ ZAMANI ŞAGİRDLƏRDƏ FORMALAŞDIRILAN BACARIQLAR

**Xəlilova Xatirə Süleyman**
**Azərbaycan Respublikasının Təhsil İnstitutu**
**https://orcid.org/0000-0003-3828-0565**
**xatire82@gmail.com**

# SKILLS FORMED IN STUDENTS DURING TEACHING EPIC WORKS IN LITERATURE LESSONS

**Khalilova Khatira Suleyman**
**Institute of Education of the Republic of Azerbaijan**
**https://orcid.org/0000-0003-3828-0565**
**xatire82@gmail.com**

**Summary**

The main goal of teaching literature is to train students who have well-developed oral and written speech, who are able to express their thoughts freely, who are able to make independent decisions, who are able to express their personal attitude and opinions to events. We achieve this goal mainly through works of art. Works in literature textbooks are selected with special attention and taking into account various scientific and didactic principles. During this selection, the learning outcomes that the student should achieve are also taken into account. The teaching methods used by the teacher during the teaching of epic works also play a big role. In this process, the teacher should pay attention to the student's age, the standard he has achieved, and the learning result he should achieve. A correctly chosen method leads to better mastering of the work and drawing conclusions. Reading, understanding and visual analysis of the text given in the form of development requires special skills from the teacher. The teacher should form a conscious attitude to reading. Then you can expect an independent approach, analysis and results.

**Key words:** oral speech, judgment, monologue speech, figurative analysis, idea of the work.

# НАВЫКИ, ФОРМИРОВАННЫЕ У СТУДЕНТОВ ПРИ ПРЕПОДАВАНИИ ЭПИЧЕСКИХ ПРОИЗВЕДЕНИЙ НА УРОКАХ ЛИТЕРАТУРЫ

**Халилова Хатира Сулейман**

**Институт Образования Азербайджанской Республики**

**https://orcid.org/0000-0003-3828-0565**

**xatire82@gmail.com**

**Резюме**

Основной целью обучения литературе является подготовка учащихся, обладающих хорошо развитой устной и письменной речью, умеющих свободно излагать свои мысли, умеющих принимать самостоятельные решения, умеющих выражать свое личное отношение и мнение к события. Мы достигаем этой цели в основном посредством произведений искусства. Произведения в учебники литературы отбираются с особым вниманием и с учетом различных научных и дидактических принципов. Во время этого отбора также учитываются результаты обучения, которых должен достичь студент. Большую роль играют и методы обучения, используемые учителем при обучении эпическим произведениям. В этом процессе учитель должен обращать внимание на возраст ученика, уровень, которого он достиг, и результат обучения, которого он должен достичь. Правильно выбранный метод приводит к лучшему усвоению работы и подведению итогов. Чтение, понимание и визуальный анализ текста, данного в форме развития, требует от учителя специальных навыков. У учителя должно формироваться сознательное отношение к чтению. Тогда можно ожидать самостоятельного подхода, анализа и результатов.

**Ключевые слова:** устная речь, суждение, монологическая речь, образный анализ, идея произведения.

Ümumtəhsil məktəbləri şəxsin formalaşdığı, şəxsiyyətə çevrildiyi əsas məkandır. Uşaqlar burada müxtəlif elmlərə yiyələnir, həm də əsl insani keyfiyyətləri qazanırlar. Bu dəyərlərin formalaşmasında bütün fənlərin rolu vardır. Ədəbiyyat fənni isə bu xüsusda əsas rol oynayır. Burada tədris olunan bədii əsərlər şagirdlərin qəlbinə yol tapır, onları dəyişdirir, inkişaf etdirir, yaxşıları cəmləməyə, pisləri özündən uzaqlaşdırmağa sövq edir.

Ədəbi əsərlərin təlim-tərbiyə prosesində rolu əvəzsizdir. Kiçik yaşlardan uşaqlar epik əsərləri oxuduqca onların rabitəli nitqi inkişaf edir, şifahi nitqi cilalanır. Təxəyyül prosesi sürətlənir. Şagirdlər oxuduqları əsərdən nəticə çıxarır, ya əsərin qəhrəmanına oxşamaq istəyir, hərəkətlərini yamsılayır, yaxud onun aqibəti ilə üzləşməmək üçün öz davranış və hərəkətlərində dəyişiklik edirlər.

Bədii ədəbiyyat şəxsi keyfiyyətlərin formalaşmasında xüsusi rol oynayır. Fərdin şəxsiyyətə çevrilməsində, milli dəyərlərin formalaşmasında, müsbət insani keyfiyyətlərin inkişafında, insanın özünü tapmasında köməkçi olur. Xüsusilə ədəbiyyat dərslərində tədris olunan əsərlərin tədrisi prosesində yuxarıda sadalananlar öz təsdiqini tapır. Çünki, burada tədris olunan əsərlər şagirdlərin yaşına, potensial imkanlarına uyğun seçilmiş, milli dəyərlərə uyğunlaşdırılmış elmi-pedaqoji prinsiplər də nəzərə alınmışdır.

Ədəbiyyatın tədrisi zamanı istifadə edilən epik əsərlər şəxsiyyətyönümlülük, şagirdyönümlülük, nəticəyönümlülük, inteqrativlik, varislik, azərbaycançılıq kimi prinsiplərə söykənərək seçilir və hər biri şagirdlərdə kommunikativ bacarıqların, dəyərlərin formalaşdırılması və inkişaf etdirilməsini təmin edir. Bu əsərlər şagirdlərdə incə hissləri formalaşdırır, estetik zövqü inkişaf etdirir.

Ədəbi əsərlərin tədrisi zamanı şagirdlərdə həmçinin həm şifahi. həm də yazılı nitq inkişaf edir. Şagirdlərin özünü ifadə bacarıqları təkmilləşir. Sözün gücündən lazımınca istifadə edə bilirlər. Müəllim tədris zamanı müəllifin sözün çalarlarından necə ustalıqla istifadə etdiyini, bu zaman sözün ecazkar gücünü, fikri olduğu kimi çatdıra bilmək imkanlarını, bir sözdən müxtəlif məqsədlərlə istifadə edilə bildiyini, eyni

sözün həm müsbət, həm mənfi fikir formalaşdırdığını izah edir. Həm şifahi nitqin, həm də yazılı nitqin insanın həyatında oynadığı rol aydınlaşdırılır.

"Ümumtəhsil məktəblərinin V-IX sinifləri üçün verilən təlim nəticələri sırasında aşağıdakılar yer alıb:

- müxtəlif janrlarda yazılmış mətnlər üzərində sərbəst işləyir, onlarda ifadə olunmuş əsas ideyanı şərh edir, mətni məzmununa uyğun hissələrə ayırır və müvafiq plan tərtib edir;
- ədəbi əsərləri məzmun və ideya istiqamətinə, sənətkarlıq cəhətlərinə, obrazların səciyyəsinə görə təhlil edir, öz şəxsi münasibətini, mülahizələrini bildirir;
- ədəbi əsərlərin müzakirəsi zamanı tolerantlıq, obyektivlik, ədalətlilik, əsaslandırma və ümumi rəyə gələ bilmək bacarıqlarını nümayiş etdirir." (Fənn kurikulumu 2)

Bu təlim nəticələrinin əldə olunması üçün müəllim epik əsərlərlə işi ardıcıl və sistemli qurmalıdır. Bütün əsərlərin sinifdə oxusu təşkil olunmalı, müzakirələr aparılmalı, şagirdlərin gəldiyi nəticələr təhlil edilməlidir.

Ədəbi əsərlərin məzmunu üzrə iş aparılanda "Ədəbiyyat və həyat həqiqətləri" məzmun xəttindən, 1.1. əsas standartına daxil olan alt standartlardan, həm də "Şifahi nitq" və "Yazılı nitq" məzmun xətlərindəki uyğun gələn alt- standartlardan istifadə olunur. Standartların həm fəndaxili, həm də fənlərarası inteqrasiyası uğurlu nəticələrin əldə olunmasına əsas səbəbdir. Şagirdlərin dünyanı bütöv və bölünməz təsəvvürü, hərtərəfli dərketmə üçün inteqrasiya olduqca vacidir. İnteqrativ biliklər şagirdlərin daha çox bacarıq əldə etməsinə səbəb olur. Onlarda analizetmə, müqayisəetmə, sistemləşdirmə kimi bacarıqları da inkişaf etdirir.

Müasir əmək bazarı məhdud bir sahədə bilik və bacarıqlara malik olan işçini qəbul etmir. Bu gün bir neçə sahədən məlumatlı olan, çevik dəyişkiliyi bacaran, yoldaşını lazım gələndə əvəz etməyi bacaran, ümumi dünyagörüşü geniş olan, əhatəli məlumatlılığa sahib olan şəxslər davamlı işlə təmin olunur. Bu bacarıqlara yalnız fasiləsiz çalışmaqla və inteqrativ biliklərə sahiblənməklə yiyələnmək olar. Müasir təhsil sistemimiz inteqrativliyi əsas prinsip kimi qəbul edib.

Şagirdlərin tədris olunan əsərləri mənimsəməsi, müəllifin əsas məqsədini anlaya bilməsi və əsərdə həll olunan problemi öz fəaliyyətində tətbiq etməsi həm ədəbiyyatın, həm də təhsilin əsas məqsədinin əldə olunduğunu göstərir. Ədəbiyyatı anlamaq, özünü kəşf etmək, verilən əsərdən nəticə çıxara bilmək şagirdin əqli yetkinliyinin göstəricisidir.

"Ədəbi əsərlərin öyrənilməsində ən mühüm mərhələ onun təhlil olunmasıdır. Ədəbi təhsilin qarşısına qoyulan mühüm işlər məhz həmin mərhələdə reallaşır. Əsərin məzmununda əksini tapan məsələlər – əxlaqi-mənəvi dəyərlər, müsbət insani keyfiyyətlər, çatışmazlıqların tənqidi və s. bu əsərlərdə öz əksini tapır. Şagirdlərdə onları müşahidə etdirmək, duydurmaq, qiymətləndirmək bacarığının formalaşdırılması bu gün vacib işlər sırasındadır. Bunsuz gənc nəslin yüksək mənəvi dəyərlər ruhunda böyüməsində heç bir irəliləyiş əldə etmək olmaz". (F.Yusifov 11)

Epik əsərlərin tədrisi zamanı müəllim çoxsaylı tapşırıq və çalışmalar üzərində iş aparmalıdır. Əsas məqam şagirdlərin aktivliyini təmin etmək, bütün nəticələrə onların özlərinin gəlməsini təmin etməkdir. Əsas məqamlardan biri də dinləyib-anlama, ifadəli oxu bacarıqlarının inkişafıdır. Şagird o zaman ifadəli oxunu bacarır ki, o, əsərin ideyasını anlayıb. Oxuduğu əsərin məzmununu nəql edə bilməsi, həmin məzmuna uyğun plan tutması, yaxud plana uyğun məzmunu danışması, mətni təhlil edib ideyasını müəyyənləşdirə bilməsi, obrazların fərqli keyfiyyətlərini dərk edib özünə lazım olanları əxz edə bilməsi, mətnə uyğun atalar sözü tapması vacib bacarıqlardır. Sinifdəki əksər şagird bunları bacarırsa, müəllim məqsədinə çatmış sayılır. Sadaladığımız bacarıqlar şagirdlərdə əsərlərin tədrisi zamanı zamanla formalaşır. Müəllim şagirdlərin müstəqil çalışmalarına şərait yaratmalı, yalnız lazım olan məqamda yol göstərməlidir.

Hazır cavabların verilməsi, çalışmalara az vaxtın ayrılması, müstəqil layihələrin azlığı şagirdləri tənbəlləşdirir, onlarda müasir bacarıqların inkişafını ləngidir.

**Ədəbiyyat:**


1. Abbasov Ə., Cavadov İ., Yeni təhsil proqramlarının (kurikulumlarının) tətbiqi məsələləri- ARTİ- Bakı: Mütərcim, 2014, 380 s.
2. Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün ədəbiyyat fənni üzrə təhsil proqramı (kurikulumu) (V-XI siniflər)- Bakı, 2013.
3. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası / Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 24 oktyabr 2013-cü il tarixli Sərəncamı // Xalq qəzeti. –2013, 25 oktyabr.
4. Əhmədov C. Ədəbiyyat tədrisi metodikası. Bakı: BDU, 2009, 185 s.
5. Hacıyev A.C. Azərbaycan ədəbiyyatının tədrisi metodikası. Bakı: Təhsil, 2003.
6. Həsənli B. Ədəbiyyatın tədrisi metodikası (pedaqoji ali məktəblər üçün dərs vəasiti). Bakı: "Müəllim" nəşriyyatı, 2016, 452 s.
7. Hüseynoğlu S. Ədəbiyyatın tədrisi metodikası (mühazirə mətnləri)
8. Mikayılov Ş.A., Bəkirova A. M. Ümumtəhsil məktəblərinin V-XI siniflərində ədəbiyyatın tədrisi metodikası. Bakı: Naksuana, 2008.
9. "Ümumi təhsil pilləsinin dövlət standartı və proqramları (kurikulumları)", Bakı şəhəri, 29 sentyabr 2020-ci il.
10. Yusifov F. Ədəbiyyatın tədrisi metodikası, Bakı- 2017
11. Yusifov F. Ədəbiyyatın tədrisi metodikası, Ankara - 2022, 413 s.
12. Yusifov F. Ədəbiyyat dərslərinin növləri, Azərbaycan dili və ədəbiyyat tədrisi, 2021, № 3 (269), 49-62.

# HƏYAT BİLGİSİ DƏRSLƏRİNDƏ ŞAGİRDLƏRİN YARADICI QABİLİYYƏTLƏRİNİN FORMALAŞDIRILMASI İŞİNİN METODİKASI

**Verdiyeva Ülviyyə Məhəmmədəli**
**Gəncə Dövlət Universiteti**
**https://orcid.org/0000-0003-2617-7456**
**pedaqoq1984@mail.ru**

# METHODOLOGY FOR THE FORMATION OF STUDENTS' CREATIVE ABILITIES IN THE LESSONS "KNOWLEDGE OF LIFE".

**Verdieva Ulviyya Muhammadali**
**Ganja State University**
**https://orcid.org/0000-0003-2617-7456**
**pedaqoq1984@mail.ru**

**Summary**

One of the most important aspects of competence-based learning is the involvement of students in practical activities. This means that during such training, students try to put their theoretical knowledge into practice. From this it is clear that the word competence is the creative transmission of two sides of the teacher's creative activity, both theoretical and practical, to students. Because the very concept of competence implies a complex activity. One of the most important aspects of skills-based learning is engaging students in hands-on activities. This means that during such training students try to apply their theoretical knowledge in practice. It is clear that the word competence is the creative transfer of two sides of the teacher’s creative activity to students, both theoretically and practically. Because the very concept of competence presupposes complex activities.

**Key words:** life skills, education, creativity, competence, elementary school.

# МЕТОДИКА ФОРМИРОВАНИЯ ТВОРЧЕСКИХ СПОСОБНОСТЕЙ УЧАЩИХСЯ НА УРОКАХ «ПОЗНАНИЕ ЖИЗНИ»

**Вердиева Ульвия Махаммадали**
**Гянджинский Государственный Университет**
**https://orcid.org/0000-0003-2617-7456**
**pedaqoq1984@mail.ru**

**Резюме**

Одним из важнейших аспектов компетентностного обучения является вовлечение обучающихся в практическую деятельность. Это означает, что во время такого обучения студенты пытаются применить свои теоретические знания на практике. Отсюда ясно, что под словом компетентность понимается творческая передача двух сторон творческой деятельности учителя учащимся как в теоретическом, так и в практическом плане. Потому что само понятие компетентности предполагает комплексную деятельность.

Одним из наиболее важных аспектов обучения, основанного на навыках, является вовлечение учащихся в практическую деятельность. Это означает, что во время такого обучения студенты пытаются применить свои теоретические знания на практике. Понятно, что слово компетентность есть творческая передача двух сторон творческой деятельности учителя ученикам как в теоретическом, так и в практическом плане. Потому что само понятие компетентности предполагает комплексную деятельность.

**Ключевые слова:** жизненные навыки, образование, творчество, компетентность, начальная школа.

Milli kurikulum təlimində müəllimin kompetensiya imkanlarından istifadə edilməsinə geniş yer verilməsi tövsiyə edilir. Çünki beynəlxalq təcrübədə kompetensiya təlimi inkişaf etdirilir, formalaşdırılır, təkmilləşdirilir, hətta modernləşdirilir. Bu mənada ibtidai siniflərdə müəllimin kompetensiya imkanlarından istifadə edilərək yeni elmi, pedaqoji, metodik model hazırlamaq lazım gəlir. Ölkəmizdə həyata keçirilən təhsil islahatlarına dair sənədlərdə, xüsusilə milli kurikuluma dair materiallarda müəllimlərin kompetensiya imkanlarına əsaslanan təlim sisteminin məzmununun yaxşılaşdırılmasına xüsusi diqqət yetirilir. Bu xüsusda orta ümumtəhsil məktəblərimizin ibtidai siniflərində sinif müəllimlərinin kompetensiya imkanlarından istifadə etməklə şagirdlərin yaradıcı qabiliyyətlərinin formalaşdırılmasına xüsusi diqqət yetirmək vacib hesab olunur. Ona görə ilk növbədə ibtidai sinif müəllimlərinə kompetensiya anlayışının mahiyyəti haqqında ətraflı məlumat vermək lazım gəlir. Yeri gəlmişkən demək lazımdır ki, kompetensiya müəllimin hərtərəfli hazırlığa malik olması, hər bir mövzunun tədrisi zamanı yüksək səriştə, qabiliyyət və bacarıq nümayiş etdirməsi kimi başa düşülür [2, 56].

Təcrübə və müşahidələr göstərir ki, ölkəmizdə ibtidai sinif müəllimlərinin hazırlığında ali məktəblər gələcək müəllimlərə kompetensiyalara əsaslanan təhsilin məzmunu ilə bağlı bilik, bacarıq və vərdişlər sistemi aşılamaqda çətinlik çəkirlər. Təbii ki, bu problem yeni olduğu üçün bu sahədə ədəbiyyat qıtlığı da mövcuddur. Əslində sinif müəllimlərinin kompetensiya imkanları ilə bağlı daha çox ədəbiyyat qıtlığı mövcuddur. Bunun da ən başlıca səbəblərindən biri bu problemin ölkəmizin təhsil sistemində son illər yer alması hesab olunur. Yəni öz fəaliyyətinə – istər təlim məşğələlərindəki, istərsə də dərsdənkənar tədbirlərdəki işlərinə kreativ yanaşılması üçün xüsusi metodikaların olmamasıdır. Yalnız müstəqillik dövrünün ilk onilliyində təhsil ilə bağlı direktiv sənədlərin tələblərinə müvafiq olaraq ibtidai sinif müəllimlərinin gördükləri bütün işlərə kreativ yanaşmaları zəruri sayılır. Fikrimizcə ibtidai siniflərdə "Həyat bilgisi"ni tədris edən müəllimlər mövzu üzrə iş apararkən, fikir yürüdərkən, təhlillər apararkən, kreativ yanaşma metodundan mütəmadi olaraq istifadə etməlidir. Nəzərə alsaq ki, ölkəmizin bir sıra ümumtəhsil məktəblərində həyat bilgisi fənni üçün, bütövlükdə götürsək təbiət elmləri üçün fənn kabinetlərinin, tədris-təcrübə sahələrinin olmaması səbəbindən müəllimlər dərslərini özlərinin metodikaları əsasında qururlar. Həyat bilgisi fənni üzrə sinif müəllimlərinin metodikaları ilə bağlı apardığımız müşahidələrə əsaslanaraq nəzərdən keçirdiyimiz materiallara istinad edərək deyə bilərik ki, ibtidai sinif müəllimlərinin əksəriyyətinin həyat bilgisi dərslərində şagirdlərin yaradıcı qabiliyyətlərinin formalaşmasına kreativ yanaşmaları ilə bağlı, örnək xarakterli metodikaları azlıq təşkil edir. Hətta azlıq təşkil edənlərin də müasir tələblərə cavab vermədiyini qeyd etməmək olmaz. Ümumiyyətlə götürdükdə həyat bilgisi dərslərində sinif müəllimlərinin kompetensiya imkanlarından istifadə etməklə şagirdlərin yaradıcı qabiliyyətlərinin formalaşdırılması üzrə primitiv iş şəraitinin mövcud olması narahatlıq doğurur [4, s.88].

Belə şəraitdə nəinki müəllim kompetensiyalarından, hətta şagirdlərin bədii yaradıcılıq qabiliyyətlərinin aşkara çıxarılmasından, inkişaf etdirilib formalaşdırılmasından və təkmilləşdirilməsindən söhbət açmaq yersiz sayılır.

Qeyd etmək lazımdır ki, müəllimin kompetensiya imkanlarının onun pedaqoji fəaliyyətinin peşə təhsili ilə məhdudlaşdırılması düzgün sayıla bilməz. Ona görə ki, peşə təhsili ümumtəhsilin ən zəruri tərkib hissələrindən biridir. Lakin ümumtəhsilin digər tərkib hissələri də mövcuddur. Həmin sahələrdə də çalışan müəllimlər öz kompetensiya imkanlarından istifadə edərək şagirdlərin yaradıcı qabiliyyətlərini formalaşdıra bilərlər.

Qeyd etməliyik ki, son zamanlar ümumtəhsil sistemində tətbiq olunan kompetensiyalar içərisində modul təlimlə bağlı olan kompetensiyalar mühüm yer tutur. Elmi, pedaqoji, metodik ədəbiyyata istinad edərək qeyd etməliyik ki, kompetensiyaların aşağıdakı növlərinə daha çox üstünlük verilir:

1. Texniki kompetensiya (peşə kompetensiyası) - peşə fəaliyyətinə məxsusdur.

2. Aralıq kompetensiyalar - sosial, kommunikativ, metodik və digər kompetensiyalardır ki, bunlar əmək fəaliyyəti üçün xüsusi əhəmiyyət kəsb edir.

3. Əlaqə kompetensiyası- vətəndaş üçün ona görə lazımdır ki, bəzi mənbələrdə müəllimin tədris etdiyi mövzuya kreativ yanaşması zamanı təlim modullarından istifadə edilməsi təklif olunur.

Onu qeyd edək ki, təhsil islahatlarına dair direktiv sənədlərdə modul təlim texnologiyalarından istifadə edilməsi də tövsiyə edilir. Əslində müəllimin kompetensiya imkanları təlim modullarının yaradılmasında özünü daha yaxşı göstərmiş olur. Əgər müəllim təlim modullarından istifadə edə bilmirsə, yəni o, yeni mövzuya dair didaktik blok hazırlamağı bacarmırsa müəllimin kompetensiya imkanları özünü aşağı səviyyədə göstərəcəkdir. Nəticədə şagirdlərin yaradıcı qabiliyyətlərinin aşkara çıxarılması, inkişaf etdirilərək formalaşdırılması işi ləngiyəcəkdir. Çünki hər bir mövzunun açılması üçün müəllimin didaktik blok yarada bilməsi mühüm əhəmiyyət kəsb edir. Modulun mənası da "didaktik blok" deməkdir. Belə didaktik bloklar hazırlanarkən, slayd formasında hazırlanıb ekranda nümayiş etdirilir. Hansı ki, həmin didaktik bloklar mövzuların sirrini aça bilən sirli açarlardır. Modul təlimin tətbiqinin qiymətləndirilməsi də asan olur. Çünki didaktik blok əsasında məntiqi mühakimələr yürüdən şagirdlərin qiymətləndirilməsinə birtərəfli yanaşmaq mümkün olmur.

Hər bir modul üzrə fəaliyyətin mənimsənilməsi qiymətləndirilir, sonra isə bütün fəaliyyətin mənimsənilməsi üzrə yekun qiymətləndirmə aparılır. Yekun qiymətləndirmə tapşırıqları inteqrasiya funksiyasını yerinə yetirir. Şagird tələb olunan əmək qabiliyyətini nümayiş etdirir [5, s.37].

Çünki belə prinsiplərə istinad etməklə şagirdlərin yaradıcı qabiliyyətlərinin aşkara çıxarılmasına mühüm şərait yaranmış olur. Hansı ki, bu prinsiplər akademik pedaqogikada göstərilən prinsiplərdən fərqli olmalıdır. Doğrudur, akademik pedaqogikada təlimin ümumpedaqoji prinsipləri sırasında elmilik, ardıcıllıq, sistematiklik kimi prinsiplər nəzərə alınmaqla kompetensiyaya əsaslanan təlim üçün daha səciyyəvi olan həqiqilik, etibarlılıq, uyğunlaşma, sadəlik, ədalətlilik və s. bu kimi prinsiplərin müəyyənləşdirilməsinə zəruri ehtiyac duyulur. Çünki belə prinsipləri müəyyənləşdirərkən şagirdlərin didaktik bloka verdikləri dəyərləri də nəzərə almaq lazımdır.

Təlim modullarından istifadə etməklə ibtidai sinif müəllimləri öz kompetensiya imkanlarından istifadə etməklə şagirdlərin kreativ qabiliyyətlərinin aşkara çıxarılmasına nail ola bilərlər. Bu zaman onlar aşağıdakı prinsiplərə istinad etməlidirlər:

1. Həqiqilik prinsipi. Bu prinsip əsl həqiqəti üzə çıxarmağa xidmət edir.

2. Etibarlılıq prinsipi. Bu prinsip müəllim etibarını qazanmağa xidmət edir.

3. Uyğunlaşma prinsipi. Bu prinsip kompetensiyaya uyğunlaşmanı təmin etmiş olur.

4. Sadəlik prinsipinə görə kompetensiya sadəliyin aynası hesab olunur.

5. Ədalətlilik prinsipinə görə ədalətliliyin hər daim gözlənilməsi zəruri sayılır.

Qiymətləndirmənin kağız üzərində imtahanlar, şifahi sorğular, praktik testlər, kompüterin yardımı ilə və ya digər vasitələrlə aparılmasından asılı olmayaraq, prinsiplər dəyişməz qalır [4, s.136].

Qeyd olunan prinsiplərə istinad etməklə şagirdlərin yaradıcı qabiliyyətlərinin formalaşdırılması zamanı şagirdlərin fərdi xüsusiyyətlərinin də nəzərə alınması vacib sayılır. Qeyd etmək lazımdır ki, fərdi yanaşma akademik pedaqogikada təlimin əsas prinsiplərindən biri hesab olunur.

Kompetensiyalara əsaslanan modul təlimində şagirdlərə fərdi yanaşmaqla onların hazırlığı tərzində qiymətləndirilməsi nəzərdə tutulur. Əgər təhsilalan qiymətləndirilməyə hazır deyilsə, ona yenidən özünü sınamaq imkanı verilir. Keyfiyyətli qiymətləndirməni xarakterizə edən əlamətlər aşağıdakılardır:

Adekvatlığın saxlanılması. Qiymətləndirmə vasitələrinin yalnız təlimin nəticəsi sayılan fəaliyyəti qiymətləndirməsi, qiymətləndirən şəxslərin eyni meyarlardan istifadə etməsi;

Etibarlılığın gözlənilməsi. Bu zaman bütün təhsilalanlar üçün bərabər şəraitin yaradılması (şagirdlərin hamısının sorğu materiallarından və məlumat xarakterli cədvəllərdən istifadə etməsi imkanı və s.), qiymətləndirən şəxsin nəticənin yalnız qiymətləndirilən şəxsin fəaliyyəti nəticəsində əldə edilməsinə tam əmin olması, biliyin qiymətləndirilməsinin yaddaşa deyil, konkret əmək fəaliyyətinə əsaslanması; Öyrənənlərin kompetensiyalardan aldıqları biliklərlə təmin edilməsi. Bu, qiymətləndirmə prosedurunun zəruri resurslarla təmin edilməsidir;

Çevikliyin zəruriliyi. Bu zaman təhsilalanların qiymətləndirilməyə tam hazır olduqları halda, yəni təhsilalanın konkret kompetensiyanı nümayiş etdirməyə hazır olduğu halda qiymətləndirilmə aparılır [3, s.137].

Göründüyü kimi, kompetensiyalara əsaslanan biliklərin verilməsi zamanı adekvatlığın nəzərə alınması zəruri sayılır. Bu zaman müəyyənləşdirilmiş təlim modullarından istifadə etməklə həyata keçirilən adekvatlığın gözlənilməsi mühüm əhəmiyyət kəsb edir. Çünki müəllimin hər hansı bir mövzuya kreativ yanaşması zamanı öz kompetensiya imkanlarından istifadə etməsi üçün mövzuya dair təlim modulları müəyyənləşdirməyə cəhd göstərirsə, deməli, müəllimin fəaliyyətində kreativ kompetensiyalara əsaslanma özünü əyani şəkildə göstərir. Çünki əgər müəllim təlim modulları müəyyənləşdirə bilirsə həmin modullar kompetensiya materialları kimi dəyərləndirilir. Hazırda beynəlxalq təcrübədə təlim modullarından istifadə edilməsi müəllimlərin kompetensiya imkanları kimi təqdim edilir. Ona görə ki, beynəlxalq miqyasda təcrübəli və səriştəli ibtidai sinif müəllimləri öz yaradıcı imkanlarını təlim modulları vasitəsilə təqdim edirlər. Əslində elmi-pedaqoji ədəbiyyatda təlim modulları didaktik blok kimi də adlandırılır. Əgər təlim modulları didaktik bloklar şəklində müəyyənləşdirilirsə, elə həmin didaktik bloklar kompetensiyalar kimi də dəyərləndirilə bilər. Deməli, ibtidai sinif müəllimlərinin kompetensiyalara əsaslanan təlim modullarının adekvatlılığının gözlənilməsi vacib hesab olunur. O halda vacib hesab oluna bilər ki, nəzərdə tutulan adekvatlılığın meyarları düzgün müəyyənləşdirilsin.

Həyat bilgisi müəllimləri tərəfindən şagirdlərin motivlərinin düzgün müəyyənləşdirilməsi onların yaradıcı qabiliyyətlərinin dinamik inkişafına bir neçə tərəfdən müsbət təsir göstərmiş olur. Birincisi, şagirdlər müşahidə etdikləri gözəlliklərin motivasiyasını dərindən dərk edərək təqdim etməyə başlayırlar. İkincisi dərk etdikləri hadisələrin fonunda müvafiq yaradıcı qabiliyyətlər qazanmaq imkanı əldə edirlər. Məsələn, Həyat bilgisi dərslərində şəhərimizlə bağlı mövzuların izahı prosesində onların ekoloji tərbiyəsi ilə yanaşı, estetik bədii zövqlərinin formalaşdırılmasını da diqqət mərkəzində saxlamaq lazım gəlir [1, s.54].

Deməli, müəllimin didaktik qabiliyyətləri onun kommunikativ qabiliyyətləri ilə vəhdətdə inkişaf etməlidir. Çünki didaktik qabiliyyətlər üzrə görülən məqsədyönlü iş sahəsində müəllim-şagird, valideyn-müəllim, həmkarlar təşkilatları, tədris müəssisəsinin rəhbərləri ilə yaradılan kommunikativ münasibətlər belə kommunikativ qabiliyyətlərin yaranmasını tezləşdirir. Digər qabiliyyətlər də suqqestiv (təlqinedici) qabiliyyətlər, tədqiqatçılıq qabiliyyətləri, elmi-idraki qabiliyyətlərlə vəhdətdə inkişaf edir. Bu vəhdətdən inkişaf edən qabiliyyətlər kompleksi şagirdlərin yaradıcılıq qabiliyyətlərinin formalaşmasını təmin etmiş olur.

Göründüyü kimi, konstruktiv öyrənmə modelindən təlim prosesində, o cümlədən, "Həyat bilgisi" fənninin tədrisində məqsədyönlü şəkildə istifadə edilməsi şagirdlərin yaradıcı qabiliyyətlərinin formalaşdırılmasına kömək etmiş olur.

**Ədəbiyyat:**

1. Vəliyeva S.T. Gənc şagirdlərdə təbiətə həssas və diqqətli münasibətin formalaşması üçün ümumi pedaqoji prinsiplər // "Pedaqogika" jurnalı, 2019, №2, s. 64-70.

2. Hüseynova G.A. Proqramın tədrisinə praktiki yanaşma. III nəşr. Hədəf nəşrləri. Bakı, 2017.

3. Muradxanov M.Ə.Pedaqogika (dərslik). Bakı: Azərtədrisnəşr, 1964, 504 s.

4. Paşayev A.X., Rüstəmov F.A. Pedaqogika. Yeni kurs. Pedaqoji institutların və universitetlərin tələbləri üzrə dərslik. Bakı: Çaşıoğlu, 2002.

5. Sadıqov F.B. Ümumi pedaqogika. Bakı: "Maarif", 2018.

## VALİDEYN-UŞAQ ARASINDAKI BAĞLILIĞA TƏSİR EDƏN AMİLLƏR

**Rəhimli Türkan İlqar**
**Xəzər Universiteti**
**https://orcid.org/0009-0008-9663-5874**
**turkan.rehimli60@gmail.com**

## FACTORS AFFECTING PARENT-CHILD RELATIONSHIP

**Rahimli Turkan Ilqar**
**Khazar University**
**https://orcid.org/0009-0008-9663-5874**
**turkan.rehimli60@gmail.com**

**Summary**

The purpose of this report is to draw attention to possible disturbances in the parent-child relationship. The experiments mentioned in the report highlight the importance of mother-infant bonding. Since humans are social beings, they need to attachment from the day they are born. According to the partners of the attachment theory, the attachment between a parent or a surrogate and an infant in the early stages of life affects the relationships that it will establish both at that time and in the future. In this regard, the report first explained the concept and formation of attachment, and then examined and noted the positive and negative factors that may affect attachment. In this way, parents better understand the importance of their role in their children's emotional development.

**Key words:** parent-child relationship, attachment, John Bowlby, factor

## ФАКТОРЫ ВЛИЯЮЩИЕ НА СВЯЗЬ РОДИТЕЛЯ И РЕБЕНКА

**Рагимли Тюркан Ильгар**
**Хазарский университет**
**https://orcid.org/0009-0008-9663-5874**
**turkan.rehimli60@gmail.com**

**Резюме**

Цель данного доклада – привлечь внимание к возможным нарушениям в детско-родительских отношениях. Эксперименты, упомянутые в отчете, подчеркивают важность связи матери и ребенка. Поскольку люди

– социальные существа, им необходимо развиваться с самого рождения. По мнению партнеров теории привязанности, привязанность между родителем или суррогатной матерью и младенцем на ранних этапах жизни влияет на отношения, которые он установит как в это время, так и в будущем. В связи с этим в докладе сначала объяснялось понятие и формирование привязанности, а затем рассматривались и отмечались положительные и отрицательные факторы, которые могут повлиять на привязанность. Таким образом, родители лучше понимают важность своей роли в эмоциональном развитии своих детей.

**Ключевые слова**: детско-родительские отношения, привязанность, Джон Боулби, фактор

Yeni doğulmuş körpənin fiziki, zehni, xüsusilə də emosional inkişafında valideynlər və ya onları əvəz edən şəxslər əsas rol oynayır. Bağlılıq həyatın ilk günlərində başlayan emosional vəziyyətdir. Körpə ilə ona baxan şəxs arasında yaranan bağlanma dedikdə valideynlərə və ya ona qayğı göstərən şəxsə müsbət reaksiyaların verilməsi, vaxtın çox hissəsini bu insanlarla keçirmək istəmək, hər hansı çətin və ya qorxulu situasiyada həmin insanları axtarmaq, bağlanılmış insanın varlığını hiss etmək və eyni zamanda rahatlıq hissini müşayiət etmək kimi bütün emosional və davranış nümunələri başa düşülür. Başqa sözlə, bağlanma körpə ilə ona əsas baxan insan arasında inkişaf edən və körpəyə təhlükəsizlik hissi yaradan güclü bir bağdır. Bağlanma əksərən ana və körpə arasında qurulur. (Sosyal, Bodur, İşeri ve Şenol, 2005).

Bağlılıqla bağlı ilk fikirlər 1958-ci ildə Con Boulbi tərəfindən irəli sürmüşdür (Öztürk, Türel ve Oğur, 2020). Onun nəzəriyyəsinin əsas nüansı ananın övladı üçün təhlükəsiz bir mühit yaratmasıdır (Tüzün ve Sayar, 2006). Eyni zamanda körpənin ehtiyaclarının qarşılanması, onunla qurulan emosional yaxınlıq sayəsində özünü dəyərli və sevilməyə layiq bilər, dünyanı güvənli bir yer kimi görər. (Öztürk və s., 2020).

Bağlanma körpəlik dövründə mərhələlərlə müşahidə olunur. Doğulduqdan dərhal sonra başlayan bağlılığa sinə axtarmaq, əmmək, udmaq, barmaq əmmək, anaya üz tutmaq və s. aiddir. Səkkizinci həftəsindən etibarən uşaq baxıcısına gülümsəyir, uzunmüddətli göz təması qurur və digər insanlara nisbətən ona qarşı daha çox səs çıxarır. Onun yanında özünü daha rahat hiss edir (Kaplan, Sadock and Grebb, 1994). Yeddinci ay da daxil olmaqla, bu vaxtdan etibarən körpələr ətrafdakı münasibətləri anlamağa cəhd edərlər. Bu dövrdə körpə real və fərqli bir obyektə meyil edir. Yəni, körpə diqqətini bütün ehtiyaclarını ödəyən insana yönəldir. Bu vaxtdan etibarən yad insanlar uşaqda narahatlıq, qorxu hissinə və ya qaçma davranışına səbəb olur.

Bağlılıq altı aydan iyirmi dörd ay arasında formalaşır. Bu müddətdən sonra uşaq istər öz baxıcısıyla, istərsə də ətrafdakı başqa insanlarla inkişaf etdirəcəyi mürəkkəb münasibətlərə girəcək. (Sosyal, Bodur, İşeri ve Şenol, 2005).

Boulbi bağlılığı açıqlayan 4 komponent qeyd etmişdir:

1. İkinci dərəcəli impuls (secondary drive) – ana tərəfindən uşağın fizioloji ehtiyacları, yəni qidalanma, tualet, təhlükəsizlik və s. ehtiyacları təmin edilir.
2. İlkin obyektin əmilməsi (primary object sucking) – körpə ananın südünü əmərkən fiziki bağlılığı hiss edir. Başqa sözlə, yeni anadan olmuş uşaq ilk fiziki təmasını ana südünü əmərək həyata keçirir.
3. İlkin obyektə yapışma (primary object clinging) – körpənin ona baxan şəxsi qucaqlamağa, fiziki olaraq yaxınlıq qurmağa ehtiyacı vardır. Bu davranış ona güvən hissi verməklə bərabər xarici dünyadakı təhlükələrdən qorunmuş olduğunu hiss etdirir.
4. Ana bətninə geri dönmə həvəsi (Primary Return to Womb Craving) – doğuş olduqdan sonra körpə xarici dünyanı kəşf edər və ana bətninə geri dönməyi arzulayar (Öztürk, 2020).

Bağlılıq nəzəriyyəsinin tərəfdarlarının fikrincə, həyatın ilkin mərhələlərində anayla qurulan bağlılıq insanın yetkin dövründə başqaları ilə qurduğu münasibətlərin keyfiyyətinə olduqca təsir edir (Soysal ve s., 2005). Bu hal sosial bir varlıq olan insan üçün bağlılığın uğurlu qurulmasının nə dərəcə əhəmiyyətli olduğunu vurğulamış olur.

Bağlanmanın düzgün və uğurlu olması üçün ona təsir edən faktorlara nəzər saldıqda Fennel və yoldaşlarının keçirdiyi eksperiment nəzərə çarpır. Eksperimentdə analardan ibarət iki qrup vardır. Birinci qrupdakı analar doğuş prosesindən sonra ilk 3 gün körpələri ilə əlaqə saxlaya bilərdilər. İkinci qrupdakı analar isə doğuşdan sonra qısa müddət ərzində uşaqlarını görmüş və sonra 4 saatdan bir iyirmi dəqiqəlik qidalanma üçün onlarla əlaqədə olmuşdular. Bir ay və bir il sonra birinci qrupdakı analar, yəni övladları ilə erkən təmasda olanlar övladlarından ayrı olduqda çox darıxdıqlarını və onlar haqqında danışmaq istədiklərini digər qrupa nisbətən daha çox bildiriblər. Hətta onlar uşaqları müayinə edilərkən ağlayanda onları sakitləşdirmək məqsədilə həkimlərə qoşulmağa meyil edirdilər (Tüzün ve Sayar, 2006). Bu eksperiment ilk andan etibarən fiziki təmasın mühüm olduğunu ortaya qoyur.

Valideynlərlə uşaq arasındakı əlaqəyə mənfi təsir edən amillərdən biri isə həddindən çox ağlamaqdır. Robinson və Moss (1970) uşağının doğulmasını həyəcan və sevinclə gözləyən ananı təsvir edir. Lakin ilk aylarında çox ağlayan və qucağa alınarkən buna müsbət reaksiya verməyən körpədə gülümsəməkdə və göz təması qurmaqda gecikmə, ümumi inkişafında da geri qalma müşahidə edilmişdir. Üç aydan sonra müşahidə edilmişdir ki, ana uşağı tərəfindən sevilmədiyini düşünməyə başlamış və ondan uzaqlaşmışdır. Bənzər şəkildə Bell və Ensvord bir araşdırmada körpə ağlayarkən anası diqqət etməzsə, daha çox ağlamağa başladığını müşahidə etmişdir. Uşaq çox ağladıqda anaları onu tərk etməyi üstün tutduqları da görülmüşdür. Bununla yanaşı, xarici görünüşündə fərqlilik olan uşaqların da valideynlərində tərk etmək və ya çox az qayğı göstərmək kimi hallar müşahidə olunur və təbiidir ki, bu da bağlılığa mənfi təsir göstərir (Tüzün ve Sayar, 2006).

Valideynin uşaqdan uzaqlaşması və ya başqa sözlə desək, bağlılıq qurmaqdan imtina etməsi hər bir uşağa fərqli təsir edər. Bu, bir uşaqda davranış pozuntusuna səbəb olduğu halda, başqa uşaq valideyni ilə daha güclü bağ qurmağa cəhd edər. Amma səbəb hər nə olursa olsun valideyn-uşaq münasibətindəki pozuntular həm həmin dövrdə, həm də gələcək həyatında psixoloji çətinliklərə, hətta bəzən psixopatologiyaya səbəb ola bilir. Bağlılığın düzgün qurulmaması, eyni zamanda valideyndən uzaqlaşarkən bir çox xoşagəlməz situasiyaları yaradır. Bunlar arasında özünün və ya ayrı düşdüyü bağlandığı şəxsin başına bir fəlakət gələcəyini düşünmək, ayrılıqla bağlı gecə-gündüz yuxular və ya qarabasma halları, evdən uzaqlaşmaq istəməmək və ya çıxdıqda dərhal geri dönmək istəyi, məktəbə getməkdən imtina etmək kimi zehni və davranış əlamətləri ən çox rast gəlinənlər arasındadır. Sadalanan faktorların aradan qaldırılması üçün bəzi addımların atılması vacibdir:

1. Ana hamiləykən və doğuş prosesindən sonra uşaqla kontakt qurmalıdır. Məlumdur ki, hamiləlik dövründə yaşanılan stres, səhv qidalanma və s. kimi hallar uşağın inkişafına mənfi təsir edir. Artıq analar bunu nəzərə almağa çalışırlar. Ancaq eyni zamanda doğuş prosesindən dərhal sonra da uşaqla münasibətdə olmaları məqsədəuyğundur. Hətta körpəni qucaqlarına almaq imkanı yoxdursa, mütəmadi diqqət göstərmək üçün yaxınlarından kömək istəmələri düzgün olar. Bu həm uşaqla ilk başdan düzgün bağlılıq qurmağa, həm də uşağı etibarlı mühitdə hiss etdirməyə səbəb olacaqdır.

2. Uşağın xarici görünüşündə fərqliliyin olması valideynlərdə imtinaya gətirib çıxara bilir. Bu kimi hallarda valideynlərin psixoloji dəstək alması ilk şərtdir. Belə situasiyalarda psixo-maarifləndirici müdaxilələr vacibdir. Onlarla eyni problemi yaşayan valideynlərlə qrup terapiyalarında danışmaq onlara belə bir situasiyada tək olmadıqları və bundan sonrakı həyatlarında nələr edə biləcəyi ilə bağlı fikir formalaşdıracaqdır.

3. Valideynlər unutmamalıdır ki, uşağın hər bir yaş dövründə psixologiyasında mühüm fərqliliklər olur. Onların yaş dövrlərinin xüsusiyyətlərini öyrənməli və buna uyğun tərbiyə metodları seçməlidirlər. Eyni zamanda övladlarının fərdi xüsusiyyətlərini hər bir situasiyada nəzərə almaları məqsədəuyğundur, hər bir metod hər uşaqda fərqli şəkildə nəticə verə bilər. Uşaqla bağlılıq qurarkən başqalarının tətbiq etdiyi hər

bir metodu istifadə etmək düzgün olmaz. Məsələn, məktəbə yeni gedən uşaq güclü neqativ davranış göstərirsə, bir valideyn bunu görməzdən gəldiyi və ya məcbur sinifdə tək qoyub getdiyi halda, digər valideyn uşağından addım-addım uzaqlaşaraq onun mühitə adaptasiya etməsini gözləməli olar. Körpəniz həkimdəykən, bağçaya, məktəbə gedərkən və s. bu kimi onun üçün yeni hesab ediləcək situasiyalarda ona güvən hissi verərək uzaqlaşmaq lazımdır. Uşaqların fərdi xüsusiyyətlərini nəzərə almamaq da uşaqla valideyn arasındakı münasibətin düzgün tənzimlənməsinə mənfi təsir edir.

**Ədəbiyyat:**

1. Kaplan H.I., Sadock B.J., & Grebb J.A. (1994). Synopsis of Psychiatry. Baltimore Maryland. s.161-165.

2. Öztürk, E., Türel, F. İ., & Oğur, E. (2020). Psikotarih ve bağlanma kuramı. Öztürk E, editör. Psikotarih, 1, 63-71.

3. Robson, K. S., & Moss, H. A. (1970). Patterns and determinants of maternal attachment. The Journal of Pediatrics, 77(6), 976-985.

4. Soysal, A. Ş., Bodur, Ş., İşeri, E., & Şenol, S. (2005). Bebeklik dönemindeki bağlanma sürecine genel bir bakış. Klinik Psikiyatri, 8(2), 88-99.

5. Tüzün, O., & Sayar, K. (2006). Bağlanma kuramı ve psikopatoloji. Düşünen Adam, 19(1), 24-39.

## LİNQVODİDAKTİKANIN MÜASİR TƏDQİQAT İSTİQAMƏTLƏRİ

**Kərimova Sevinc İlham**
**Bakı Slavyan Universiteti**
**https://orcid.org/0000-0003-4432-2266**
**vip.doktorant@gmail.com**

## MODERN RESEARCH DIRECTIONS IN LINGUODIDACTICS

**Karimova Sevinj Ilham**
**Baku Slavic University**
**https://orcid.org/0000-0003-4432-2266**
**vip.doktorant@gmail.com**

**Summary**

Due to the modern period of development, differentiation and integration of sciences is widespread. XXI century is a fruitful period for the formation of new sciences. Like other sciences the methodology of teaching Azerbaijani language is also constantly changing and developing. For modern methodical teachers it is extremely important to have a traditional idea of this science, to study the laws of its development, to know the signs of multifaceted development and change of this science. In the methodology of teaching Azerbaijani language one of the topics requiring serious study is the concepts of linguodidactics and methodology. The authors of countless studies, textbooks and teaching aids have limited themselves only to explaining methodology and linguodidactics as synonyms, and separately taken authors have treated this question from different sides. The thesis substantiates the distinction between linguodidactics and methodology, their separation in the formation of the language system into ind-pendent scientific fields. The history of formation of linguodidactics, its basic concepts and categories is analyzed.

In connection with all this a new approach to the essence of teaching methodology of the Azerbaijani language, its methods of research as a problem was made.
**Keywords:** linguodidactics, methodology, teaching, research, learning

## СОВРЕМЕННЫЕ НАПРАВЛЕНИЯ ИССЛЕДОВАНИЯ ЛИНГВОДИДАКТИКИ

**Каримова Севиндж Ильхам**
**Бакинский Славянский Университет**
**https://orcid.org/0000-0003-4432-2266**
**vip.doktorant@gmail.com**

**Резюме**

В связи с современным периодом развития широкое распространение получила дифференциация и интеграция наук. XXI век является плодотворным периодом для формирования новых наук. Как и другие науки методика преподавания азербайджанского языка тоже постоянно меняется и развивается. Для современных преподавателей-методистов крайне важно иметь традиционное представление о данной науке, изучать законы ее развития, знать признаки многогранного развития и изменения данной науки. В методике преподавания азербайджанского языка одной из тем, требующей серьезного изучения является понятия лингводидактики и методики. Авторы бессчетных исследований, учебников и учебных пособий ограничились только объяснением методики и лингводидактики как синонимов, а отдельно взятые авторы отнеслись к этому вопросу с различных сторон. В тезисе обосновывается различие лингводидактики и методики, их отделение в становлении языковой системы в независимые научные области. Анализируется история становления лингводидактики, ее основные понятия и категории. В связи со всем этим был произведен новый подход на сущность методики преподавания азербайджанского языка, на ее методы исследования как проблемы.
**Ключевые слова:** лингводидактика, методика, преподавание, исследование, обучение

Başqa fənlərin tədrisi metodikası kimi Azərbaycan dili tədrisi metodikası da pedaqoji elmlər sisteminə daxildir. Müstəqil elm sahəsi kimi Azərbaycan dili tədrisi metodikası elminin özünəməxsus spesifik tədqiqat obyekti, xüsusi inkişaf qanunauyğunluqları və tədqiqat metodları vardır (H.B.Balıyev, 1988).

Azərbaycan dili tədrisi metodikası üzrə tədqiqata başlayan şəxs həm Azərbaycan, həm də digər, xüsusilə rus dili metodist alim və pedaqoqların söylədikləri fikirləri nəzərə alaraq, daha təkmil metod, priyom və vasitələr müəyyənləşdirməlidir. Mənbəyini rus dili tədrisi metodikası üzrə tədqiqatlardan alan "linqvodidaktika" termini son dövrlərdə xüsusi müstəqil inkişaf yolu keçmişdir. Onun əsas gücü rus dili metodikası elminin keçmiş mütərəqqi fikirləri ilə bağlıdır və həmin fikirlər hazırda elmi cəhətdən müqayisə edilərək araşdırılır. Elm sahəsinə "linqvodidaktika" termini N.M. Şanski tərəfindən daxil edilmişdir. O ilk öncə rus dilinin öyrədilməsi metodikasının əsaslarında yaranmışdır və dil təşəkkülündə geniş istifadə olunur. Xarici dillərin öyrədilməsi metodikasında  ingilis, alman, Böyük Britaniya və onun hüdudlarından kənarda (MDB ölkələri və keçmiş sosialist ölkələri istisna olmaqla) "linqvodidaktika" termini istifadə olunmur. Beləliklə, bu termin beynəlxalq termindir, ərazi lokalizasiyasına malik deyil, yəni o, məsələn, həm nəzəri və həm də metodiki məqsədlər üçün, demək olar ki, bütün dünya dillərinin təsvirində əhəmiyyət daşıyan və istifadə olunan "fonetika", "sintaksis", "leksema" və digər terminlər qədər universal və beynəlxalq deyildir.

Elmi ədəbiyyatda "linqvodidaktika" və "metodika" terminlərinə sinonim kimi istifadə olunan linqvometodika termini mövcuddur. Rus dilinin metodikasına dair sorğu lüğətində M.R. Lvov yazır: "Linqvometodika – doğma və ya yad olan dilin tədrisi metodikası ilə eynidir; Bu termin çox vaxt linvodidaktik

nəşrlər, milli məktəblərdə rus dilinin tədrisi metodikasında istifadə olunur"(Львов М.Р., 1988). Bununla yanaşı qeyd edilir ki, "linqvometodika" termini daha çox milli (qeyri-rus) məktəblərə həsr olunmuş işlərdə istifadə olunur. "Linqvodidaktika" haqqında başqa mühakimələr də yürüdülmüşdür. Məsələn, dilçi və metodistlərin bir hissəsi bu terminin elmi istifadəyə daxil edilməsindən sonra onun perspektivindən şübhələnməyə başladılar. Onların qənaətinə görə, bir halda ki, linqvodidaktika mövcuddur, o zaman geoloqodidaktika, riyaziyyat didaktikası, zoologiya didaktikası və s. də olmalıdır. Bu terminlər ona görə yoxdur ki, onların yaradılması perspektivsizdir: dilə yatmır, hər bir sahənin tədrisi mahiyyətini əks etdirmir. Bu arqumentlərə əsaslanaraq, onlar elmdə "linqvodidaktika" termini və müvafiq olaraq onda nəzərdə tutulmuş anlayışa zərurətin olmasından şübhələrini ifadə edirdilər. Bəzi alimlər isə bütövlükdə "linqvodidaktika" anlayışı və terminini inkar etməməklə yanaşı, bildirirdilər ki, dilin ümumi tədrisi nəzəriyyəsini linqvodidaktika deyil, didaktolinqvistika adlandırmaq daha düzgündür. Beləliklə də, buradan görürük ki, "linqvodidaktika" termini və müvafiq elmi anlayışı dilin təşəkkülü sahəsində çalışan mütəxəssislərin heç də hamısı tərəfindən eyni cür müsbət qarşılanmayıb.

"Linqvodidaktika" və "metodika" terminlərinin sinonim kimi işlədilməsi həm elm işçiləri, həm də ali məktəb və ümumtəhsil məktəbinin müəllimləri arasında kifayət qədər geniş yayılmışdır. Bu nöqteyi-nəzərdən, belə qənaətə gəlinir ki, linqvodidaktika özündə dilin tədrisi metodikasını və əksinə, dilin tədrisi metodikası linqvodidaktikanı ehtiva edir.

Yeri gəlmişkən, dil təlimi ilə məşğul olanlar arasında linqvometodist termini ilə yanaşı, linqvodidaktik termini də işlənir. Linqvodidaktik dil təliminin nəzəri məsələləri ilə məşğul olanlara deyilir. Linqvodidaktlar dilin hansı məqsədlərdən tədrisi məzmununu müəyyən etməyi, həmin məzmunun hansı qanunlar və prinsiplər əsasında öyrədilməsini təhlil etməyi bacaranlara deyilir. Məsələn, rus dili tədrisi sahəsində A.V.Tekuçev, M.M.Razumovskaya, M.T.Baranov, Bulanov, A.V.Dudnikov linqvodidaktika məktəbləri yaratmışdır. Azərbaycan dili təlimi sahəsində isə uzun illər boyu çalışıb, çox böyük işlər görmüş A.S.Abdullayev, Ə.R.Əfəndizadə, B.A.Əhmədov, Y.Ş.Kərimov, H.Balıyev, Ə.Əhmədov, A.Rəhimov və b. həm linqvometodist, həm də linqvodidakt sayılırlar (V.Qurbanov, 2016).

Dil təhsili sistemində linqvodidaktika və metodika problemlərinə həm bir-birindən ayrı, həm də bütövlükdə baxıla bilər, çünki onlar bir-biri ilə sıx bağlıdır, bir-birindən asılıdır. Hər şey konkret dil mövzusu üzrə konkret iş şəraitində tədqiqatçının, universitet müəlliminin, məktəb müəlliminin qarşısına qoyulan məqsəd və vəzifələrdən asılıdır. Dil təhsilinin çoxelmi sistemi çərçivəsində müstəqil elmlər kimi linqvodidaktikanın və dilin tədrisi metodlarının gələcək inkişafı prosesində onların diferensiasiyası getdikcə daha da təkmilləşəcəkdir.

**Ədəbiyyat:**


1. H.B.Balıyev (1988) Orta məktəbdə Azərbaycan dilinin tədrisi metodikası. Bakı: "Maarif" nəşriyyatı.
2. V.Qurbanov (2016) Linqvodidaktika və linqvometodika. Azərbaycan dili və ədəbiyyatı tədrisi:elmi-metodik jurnal. №2.- S.37-41.
3. Львов М. Р.(1988) Словарь- справочник по методике русского языка: Учеб. пособие для студентов пед. ин-тов по спец. №2101. «Рус. яз. и лит.». – М.: Просвещение.
4. Z.Verdiyeva, F. Ağayeva, M.Adilov (1982) Dilçilik problemləri. I hissə. Bakı: "Maarif" nəşriyyatı.

# XX ƏSRİN 90-CI İLLƏRİNDƏ ALMANİYADA SİYASİ PARTİYALARIN ALMANİYANIN AVRO-ATLANİKA TƏHLÜKƏSİZLİK SİYASƏTİNDƏ MÖVQEYİ

**Məmmədli Cavid Pənah**
**Bakı Dövlət Universiteti**
https://orcid.org/0000-0002-9710-2569
mmmdlicavid1@gmail.com

# THE POSITION OF THE POLITICAL PARTIES IN GERMANY IN THE 90S OF THE 20TH CENTURY IN GERMANY'S EURO-ATLANTIC SECURITY POLICY

**Mammadli Javid Panah**
**Baku State University**
https://orcid.org/0000-0002-9710-2569
mmmdlicavid1@gmail.com

**Summary**

The purpose of this thesis is to investigate the position of German political parties in Germany's Euro-Atlantic security policy in the 90s of the 20th century. With the end of the Cold War in the late 1980s and early 1990s, important political and economic changes took place in the international world. The emerging global trend was the formation of a unipolar system of international relations characterized by the concentration of international power in the hands of a single superpower. Since the US has more important resources that can be used as instruments of influence on other participants in the global process, it has had significant advantages compared to other members of the world community. In the second half of the 1990s, it was understood that the new system of international relations aims to strengthen social development through the spread of the Western model. Any subject of world society that did not follow this trend faced the threat of forceful interference in their internal affairs. The crisis in the post-Soviet space and the weakening of Russia's position contrasted sharply with the strengthening of the West, which played the role of a center of gravity for the countries of Central and Eastern Europe, drawn into the orbit of Western influence. Balanced Atlanticism and Europeanism have always been the basis of German foreign policy. These two concepts mentioned above were gradually implemented in close cooperation with allies in the European Union (EU) and NATO. In this context, the position of important political parties such as the Social-Democratic Party (SDP), the Christian Democratic Union Party of Germany (CDU), the Christian Social Union in Bavaria (CSU), the Alliance 90/Green Party, and the Alternative Party for Germany (AfD) are of great importance.

**Keywords:** Germany, Euro-Atlantic, Political parties

# ПОЗИЦИЯ ПОЛИТИЧЕСКИХ ПАРТИЙ ГЕРМАНИИ 90-Х ГОДОВ XX ВЕКА В ПОЛИТИКЕ ЕВРОАТЛАНТИЧЕСКОЙ БЕЗОПАСНОСТИ ГЕРМАНИИ

**Мамедли Джавид Панах**
**Бакинский государственный университет**
https://orcid.org/0000-0002-9710-2569
mmmdlicavid1@gmail.com

**Резюме**

Целью данной тезиса является исследование позиции немецких политических партий в политике евроатлантической безопасности Германии в 90-е годы XX века. С окончанием холодной войны в конце 1980-х и начале 1990-х годов в международном мире произошли важные политические и экономические изменения. Наметившейся мировой тенденцией стало формирование однополярной системы международных отношений, характеризующейся концентрацией международной силы в руках одной сверхдержавы. Поскольку США располагают более важными ресурсами, которые могут быть использованы в качестве инструментов воздействия на других участников глобального процесса, они имеют значительные преимущества по сравнению с другими членами мирового сообщества. Во второй половине 1990-х гг. стало понятно, что новая система международных отношений направлена на усиление общественного развития за счет распространения западной модели. Любой субъект мирового общества, не последовавший этой тенденции, столкнулся с угрозой силового вмешательства в свои внутренние дела. Кризис на постсоветском пространстве и ослабление позиций России резко контрастировали с усилением Запада, игравшего роль центра притяжения для стран Центральной и Восточной Европы, втянутых в орбиту западного влияния. Сбалансированный атлантизм и европеизм всегда были основой внешней политики Германии. Эти две упомянутые выше концепции постепенно реализовывались в тесном сотрудничестве с союзниками в Европейском союзе (ЕС) и НАТО. В этом контексте большое значение имеет позиция таких важных политических партий, как Социал-Демократическая Партия (СДПГ), Партия Христианско-Демократического Союза (ХДС), Христианско-Социальный Союз в Баварии (ХСС) , Союз 90/ Зеленых и Альтернатива для Германии (АдГ).

**Ключевые слова:** Германия, Евроатлантика, Политические партии.

SSRİ-nin dağılmasından və Almaniyanın yenidən birləşməsindən sonra məlum oldu ki, Almaniya siyasətinin Atlantika komponenti, xüsusən də təhlükəsizlik sahəsində düzəlişlərə ehtiyac var. “Sovet hərbi təhlükəsi”nə qarşı çıxmaq, eləcə də AFR-i “nəzarət altında saxlayan” NATO-da “cəbhə dövləti” olmaqdan çıxmış Almaniya üçün müəyyən dərəcədə əhəmiyyətini itirmişdir [3, 25]. Əsasən hərbi tədbirlərin tətbiqinə yönəlmiş keçmiş təhlükəsizlik strategiyası ekoloji və texnoloji fəlakətlər, beynəlxalq terrorizm və lokal münaqişələrin həlli zərurəti ilə bağlı yeni çağırışlara cavab verə bilməzdi. Eyni zamanda, genişlənən və öz siyasi rolunu iddia edən Avropa Birliyi alman siyasətçilərinin gözündə getdikcə əhəmiyyət qazanmağa başlayırdı. Almaniyanın uğurları, ilk növbədə birliyin əldə edilməsi, bu dövrdə postsovet məkanında, Yuqoslaviya və Çexoslovakiyada baş verən proseslər fonunda xüsusilə sərfəli görünürdü. AFR keçmiş sosialist düşərgəsinin böhranlı ölkələrində sayı durmadan artırılan nəhəng miqrant və qaçqın ordusu üçün yüksək dərəcədə cəlbediciliyə malik idi. Almaniyanın mövqelərinin güclənməsi qaçılmaz olaraq almanların “normal vəziyyətə qayıtması”, artan güclərinə adekvat olaraq beynəlxalq öhdəliklər götürməyə hazır olmaları problemini gündəmə gətirdi. Cəmiyyətin müxtəlif təbəqələri qlobal və regional siyasət sahəsində əsas hadisələrin radikal qiymətləndirilməsini rədd edərək, ehtiyatlı davranırdılar. İctimai rəy sorğuları Almaniya vətəndaşlarının əhval-ruhiyyəsinin müharibə əleyhinə yönəldiyini göstərirdi. Məsələn, 1995-ci ilin yanvarında alman respondentlərinin yalnız üçdə biri NATO-nun Balkan yarımadasındakı əməliyyatları zamanı Almaniya istehsalı olan “Tornado” döyüş təyyarələrindən istifadənin mümkünlüyünə müsbət yanaşıb. Respondentlərin yarıdan çoxu (51%) bu fikri rədd etdi. Öz növbəsində, AFR-in siyasi, maliyyə və sənaye elita qrupları birləşmədən dərhal sonra xarici siyasətin ən mühüm aspektlərinin ictimai müzakirəsinə başlamağa hazır deyildilər. Bu əsasda Avropa və qlobal məkanda inkişaf vektorunu dəqiq müəyyən etmək üçün mövcud geosiyasi vəziyyəti dərk etmək və Almaniyanın milli maraqlarının yenilənmiş variantını aydın formalaşdırmaq üçün onlara vaxt lazım idi. Bu dövrdə Almaniyanın yüksək səviyyəli siyasi elitasının yalnız 22%-i Almaniyanın xarici siyasətinin aydın məqsədləri olduğu qənaətində idi. Respondentlərin qalan hissəsi öz fikirlərini aydın şəkildə ifadə etməkdə çətinlik çəkirdi [7, s.130].

Digər tərəfdən, rəsmi Berlin dünya siyasətinin əsas subyektlərinin, ilk növbədə Şimali Atlantika Alyansı və Avropa İttifaqındakı müttəfiqlərin fikrini dinləmək məcburiyyətində qaldı. Vahid Almaniyanın artan gücü onların ciddi qorxularına səbəb oldu. 1996-cı il oktyabrın 8-də Fransa parlamentinin deputatı Ç.Paska birinci milli televiziya kanalına müsahibəsində AFR tərəfdən imperiya ambisiyalarının dirçəlməsi təhlükəsini bəyan etdi [1, s. 132]. Polşa alimləri bir gün Pomeraniya, Sileziya, Bohemiya və Moraviyanın Almaniyaya qoşulmaq xahişi ilə üz tutması təhlükəsini ciddi şəkildə müzakirə etməyə başladılar. Almaniyanın avropalı tərəfdaşları tərəfindən ifadə edilən narahatlıq o dövr üçün xarakterik olan Almaniyanın 20-ci əsrin birinci yarısında dünya səhnəsindəki fəaliyyətinin tarixi təcrübəsi, Almaniyanın Avropa qitəsində siyasi mövqeyinin güclənməsi, Almaniyanın Avropa təhlükəsizlik arxitekturasının inkişafında fəal rolu, Avropada yaranan münaqişələrin həlli və nizamlanmasında iştirakı, güclü alman valyutası qorxusu (Deutschmark), Federal Kansler H. Kolun həm ölkə daxilində, həm də xaricdə populyarlığı və s. kimi amillər kompleksi ilə izah olunurdu. Üstəlik, vahid Almaniyanın yaradılması postbipolyar dövrdə regional geosiyasi nizamın sabitliyinə potensial təhlükə yaradırdı, çünki onun Avropada talassokratiya[1] və tellurokratiya[2], yəni dəniz və quru hakimiyyəti arasında kövrək strateji tarazlığı pozmaq üçün daha bir şansı var idi. Tarixi təcrübənin göstərdiyi kimi, Qərb dəniz gücü ilə Avrasiyanın kontinental gücü arasında dəqiq sərhəd olmaması səbəbindən qitədə sülh vaxtaşırı təhlükə altında idi. Qüdrətli Almaniyanın yaranması qitə siyasətinin mahiyyətini kəskin şəkildə dəyişdirərək, ən böyük Avropa dövlətləri, ilk növbədə Fransa üçün geosiyasi məğlubiyyətə çevrildi. Almaniya nəinki qitədəki kiçik tərəfdaşı olmaqdan çıxdı, həm də Qərbi Avropanın ən mühüm dövlətinə çevrildi və əsas beynəlxalq qurumların dəstəklənməsinə böyük töhfə verdi. Almaniya Aİ büdcəsinin 28,5%-ni və NATO büdcəsinin 22,8%-ni təşkil edirdi, Almaniya Dünya Bankının və Avropa Yenidənqurma və İnkişaf Bankının ən böyük səhmdarı oldu [5, s.128].

Bundan əlavə, qitədə alman maraqlarının təşviqinin əsasını Avropa ölkələrinin sonradan yaxınlaşması təşkil etdiyinə dair fikirlər güclənirdi. Obyektiv olaraq regional inteqrasiya proseslərinin artması, Almaniyanın aparıcı beynəlxalq təşkilatlar çərçivəsində, ilk növbədə Avropa Birliyində artan nüfuzu Almaniyanın fəaliyyət azadlığını artıra bilərdi. Bu şəraitdə rəsmi Berlin qitədə avropalıların - ilk növbədə, bütün dünya birliyinin ehtiyatlılığını, AFR-in gücünün artmasını nəzərə alaraq balanslaşdırılmış kurs tutmalı idi. Onun diplomatik səyləri Almaniyanın artıq heç bir formada təhlükə olmadığını sübut etməyə yönəlmişdi. Almaniya siyasi elitası və siyasi partiya rəhbərləri xarici siyasət kursunun informasiya dəstəyini gücləndirərək, Almaniyanın nasist keçmişini  yenidən birləşmiş Almaniyanın mövqeyindən çıxış edərək "dünənki gün" adlandırdılar. 1991-ci il sentyabrın 26-da BMT Baş Assambleyasının iclasında çıxış edən Almaniyanın xarici işlər naziri Hans Ditrix Genşer "Almaniyanın azadlıq, demokratiya və insan ləyaqəti üçün daha böyük məsuliyyət daşıdığını" bəyan edərək, nasist dövrü dövlət təfəkkürünün geridə qaldığını müdafiə etdi [6, s. 25]. Transatlantik əməkdaşlıq çərçivəsində rəsmi Berlin də AFR üzərində gücləndirilmiş nəzarəti saxlamağa çalışan müttəfiqi Amerikanın onunla bağlı irəli sürdüyü tələbləri yerinə yetirməyə çalışırdı. Hətta Almaniyanın birləşməsi prosesində də prezident Corc Buşun administrasiyası beynəlxalq siyasətdəki gələcək rolunun layihələndirilməsi ilə məşğul idi. Başlanğıc müddəa Berlinin Amerika müttəfiqinin dünyagörüşü dəyərlərini qeyd-şərtsiz bölüşməsi, onun qlobal istəklərini başa düşməsi, habelə rəsmi Vaşinqtonun beynəlxalq arenada həm NATO daxilində, həm də onlardan kənarda hər hansı formada hərəkətlərinə dəstək verməsi idi. Öz növbəsində, Alman siyasətçiləri və siyasi partiya rəhbərləri də, başa düşdülər ki, Soyuq Müharibə başa çatdıqdan sonra da, Almaniya-Amerika əməkdaşlığındakı vurğu dəyişsə də, ABŞ ilə əlaqələr əvvəlki kimi onlar üçün faydalı olaraq qalır. Əvvəlki dövrdə ABŞ AFR-in təhlükəsizliyinin təminatçısı kimi çıxış edirdi və onların xeyirxah mövqeyi Almaniyanın birləşməsi üçün zəruri şərt idi. Bipolyar sistem dağıldıqdan sonra yaxın transatlantik əlaqələr bir növ "çətir" rolunu oynamağa başladı, onun pərdəsi altında AFR Avropa İttifaqının strukturlarında siyasi, maliyyə və iqtisadi mövqelərini

gücləndirməklə, həmçinin Mərkəzi və Şərqi Avropa ölkələrində yeni bazarları fəth etmək yolu ilə getdikcə özünü kontinental lider kimi təsdiqləmək imkanı əldə etdi. Yeni Almaniyanın mövqeyinin digər elementi onun totalitar və avtoritar prinsiplərə zidd olan demokratik dəyərlərə sadiqliyi idi. Federal hakimiyyət orqanları yeni AFR-də nasist keçmişinin təkrar istehsalının qeyri-mümkünlüyünü sübut edən inandırıcı arqumentlər tapmağa çalışırdılar. Postbipolyar dövrdə Avropa ölkələrinin təhlükəsizliyinin təminatçısı rolunu oynayan digər amillərin də güclənməsi müşahidə olunurdu. Avropanın qlobal məsuliyyətinin genişləndirilməsi imkanları yalnız Vaşinqtonla müttəfiqlik şəraitində mümkün idi.

Almaniyanın birləşməsindən sonra 1982-ci ildən – 1998-ci ilə qədər hakimiyyətdə olan Helmut Kolun rəhbərlik etdiyi Xristian Demokrat İttifaqı (XDİ) partiyası Almaniyanın Avro-Atlantika siyasətində əsasən Amerika ilə müttəfiqlik əlaqələrinin genişləndirilməsi, NATO-nun hərbi əməliyyatlarında Alman ordusunun iştirakı, Avropa təhlükəsizliyinin və inteqrasiyasının inkişafı əsas xarici siyasət prioritetləri arasında idi. 1990-cı ildə Almaniyanın Almaniya Federativ Respublikasının tam suverenliyini bərpa etməsi ilə eyni vaxtda Avropanın parçalanması və Şərqlə Qərbin qarşıdurma dövrü də başa çatdı. Bu yolla əldə edilmiş "köhnə" Federativ Respublikasının əsas məqsədlərini və Soyuq Müharibədən sonra daha dinc "yeni dünya düzəni"nin qurulması perspektivini nəzərə alaraq, Alyansın təhlükəsizlik siyasətinin və ABŞ-ın nüvə müdafiə çətiri Qərbi Avropadakı müxtəlif siyasi düşərgələrdə və xüsusilə Almaniyada azaldı. Xüsusən də müttəfiq partiyalar arasında daha az münaqişəli dünya siyasətinə hədsiz şişirdilmiş ümidlərlə bağlı skeptisizm hökm sürdüyü üçün bu mövqe Bavariya Xristian Sosialist İttifaqı (BXSİ) tərəfindən dəstəklənmədi. Bununla belə, Avro-Atlantik birliyin ahəngdarlığı yeni hadisələrlə üzləşdi. Bir tərəfdən, Avropa birliyinin "birlik" istiqamətində dərinləşməsini "Avropa qalası"nı möhürləmək kimi qəbul edən ABŞ tədricən qitədən çəkilərək xarici siyasət istiqamətini Atlantik okeanından Sakit okeana keçirdi. Digər tərəfdən, Sovet İttifaqının və Varşava Müqaviləsi Təşkilatının dağılması ilə alyans daxilində mərkəzdənqaçma qüvvəsi kimi çıxış edən və eyni zamanda NATO-nun əsasını təşkil edən Avropa və ABŞ-ın "ümumi təhdidlər" qavrayışı yoxa çıxdı. BXSİ həmişə özünü Avropa xristian partiyası hesab edib, Avropanın digər xristian-demokrat partiyaları ilə birlikdə "Qərb xristian mədəniyyətinin qorunması və inkişafı üçün Avropa konfederasiyası" yaratmağa və gücləndirməyə çağırıb. Artıq 1946-cı ildə o, Avropa iqtisadi və valyuta birliyinin tərəfdarı idi və Avropa ölkələri arasında gömrük məhdudiyyətlərinin ləğvini tələb edirdi. BXSİ əvvəlcə Avropanı ümumi dəyərlərə və həmrəyliyə əsaslanan bir cəmiyyət kimi başa düşdü. O, öz proqramında özünü fundamental Avropa prinsiplərinə sadiq olduğunu bəyan edir. Bu, ilk növbədə, yad hökmranlığından müstəqillik və azad dövlətdə bir insanı (vətəndaş) inkişaf etdirmək imkanı kimi başa düşülən azadlıqdır. Şəxsi ləyaqət ideyası Avropa kimliyinin xristian özəyi hesab olunur: "Xristian insan anlayışı bizim transformativ siyasi fəaliyyətimizin istiqamətidir". Bundan əlavə, Avropanın ən mühüm nailiyyəti kimi təqdim olunan insan haqları ideyası, azad siyasi nizam kimi demokratiya ideyası, müasir milli dövlət ideyasıdır. Regional və qlobal problemləri aradan qaldırmaq üçün müasir milli dövlət Avropa İttifaqı olan dövlətlər birliyinə inteqrasiya edilməlidir. BXSİ-nin "xristian Qərb dəyərlərinin ənənəsi"ndə israr etməsi və "multikultural" Avropadan imtina etməsi son nəticədə "xristianlığın qalası – Bavariyanı" qorumaq istəyi kimi başa düşülə bilər. BXSİ nöqteyi-nəzərindən Avropa İttifaqının inkişafında prioritet onun konsolidasiyasına və inteqrasiya proseslərinin dərinləşməsinə verilməlidir. BXSİ müstəqil Avropa dövlətlərinin federal birliyi mənasında "millətlər Avropası" konsepsiyasına sadiq qalaraq "Avropanın federal dövlətinə" qəti şəkildə qarşı çıxırdı.

Son illərdə avropolitikanın ən mühüm mübahisəli məsələləri Aİ-nin genişlənməsi ilə bağlıdır. Bu müzakirələrin əsas məqamları, təbii ki, qısaldılmış və sadələşdirilmiş formada aşağıdakı müddəalara qədər azaldıla bilər.

1. Aİ-nin konsolidasiyası və dərinləşməsi.

2. Avropa Birliyinin qarşısıalınmaz genişlənməsinin əvəzinə Avropanın "qonşuluq siyasəti".

3. ABŞ-a qarşı Atlantik oriyentasiya (atlantizm) əvəzinə "Köhnə Avropa"nın müstəqil xarici və müdafiə siyasətinin dəstəklənməsi.

4. Avropa Birləşmiş Ştatlarına qarşı Avropa Dövlətləri Federasiyası ("Millətlər Avropası") dəstəklənməsi.

XX əsrin 90-cı illərində Xristian Sosialist İttifaqı və Xristian Demokratik İttifaqı partiyaları (XSİ/XDİ) ardıcıl olaraq transatlantik əlaqələrin Almaniya üçün əhəmiyyətini, AFR və ABŞ-ın təhlükəsizlik sahəsində ümumi dəyərlərə və fundamental ümumi maraqlara malik olduğunu vurğulayırdılar [3, s. 64]. Almaniyanın Azad Demokratiya (AAD) partiyası da ənənəvi olaraq ABŞ-a sadiq qüvvə hesab olunur. Azad demokratlar transatlantik əlaqələrin Almaniyanın xarici siyasətinin əsasını təşkil etdiyini vurğulayırlar. Transatlantik münasibətlər ənənəvi olaraq Alyans 90/Yaşıllar üçün daha az əhəmiyyət kəsb edir, baxmayaraq ki, partiyada realist adlandırılanların yüksəlişindən sonra Yaşıllar ABŞ və Almaniyanın NATO üzvlüyünə dair tənqidlərdən uzaqlaşıblar. Yaşıllar/İttifaq 90 partiyasının xarici siyasəti hər zaman Avropaçılıq, sülh, Şimal-Cənub həmrəyliyi və insan haqları uğrunda hərəkatların ənənələri üzərində qurulub. Yəni bu partiya üçün əsas məqsəd azad və firavan, təhlükəsiz Almaniya və Avropanın qorunub saxlanmasıdır. "Almaniya üçün Alternativ" partiyası da transatlantik əlaqələrə az diqqət yetirir. O, hər hansı konkret bəyanatlardan çəkinərək, yalnız Almaniya və Avropa üçün ABŞ-la yaxşı münasibətlərin vacibliyini qeyd edirdi.

**Ədəbiyyat:**


1. Кокеев А. О соотношении атлантизма и европеизма во внешней политике ФРГ // Европеизм и атлантизм в политике стран Европейского Союза. Арбатова Н.К. ред., Москва, ИМЭМО РАН, 2009, с. 34-44. [Kokeev A.M. O sootnoshenii atlantizma i evropeizma vo vneshnej politike FRG [On the ratio of Atlanticism and Europeanism in German foreign policy]. Evropeizm i atlantizm v politike stran Evropeiskogo Soyuza [Europeanism and atlantism in the policy of the European Union]. Arbatova N.K., ed. Moscow, IMEMO RAN, 2009, pp. 34-44.]

2. Арзаманова, Т.В., Арзаманов, М.Г. Политика безопасности Германии на рубеже веков. Аналитический обзор / Т.В. Арзаманова, М.Г. Арзаманов. – М.: ИНИОН РАН, 2001. – 108 с.

4. Ватлин, А.Ю. Германия в XX веке / А.Ю. Ватлин. – М.: «Российская политическая энциклопедия» (РОССПЭН), 2002. – 336 с.

5. Зонтхаймер, К. Федеративная Республика Германия сегодня. Основные черты политической системы / Пер. с нем. Г.Я. Рудого. Под общ. ред. Я.С. Драбкина / К. Зонтхаймер. – М.: Памятники исторической мысли, 1996. – 320 с.

6. Ромашенко С. Почти три четверти немцев считают отношения с США плохими. [Romashenko S. Pochti tri chetverti nemtsev schitayut otnosheniya s SSHA plokhimi [Almost three-quarters of Germans consider relations with the US bad]]. Available at: https://p.dw.com/p/3ERUA (accessed 21.06.2019).

7. Мыльников П. Немцы считают охрану окружающей среды важнейшим вызовом для ЕС. [Myl'nikov P. Nemtsy schitayut ohranu okruzhayushchei sredy vazhneishim vyzovom dlya EC [Germans consider environmental protection a major challenge for the EU]]. Available at: https://p.dw.com/p/3IO9G (accessed 11.06.2019).

8. Aufbruch und Erneuerung – Deutschlands Weg ins 21. Jahrhundert. Koalitionsvereinbarung zwischen der Sozialdemokratischen Partei Deutschlands und Bündnis 90 / Die Grünen, Bonn, 20.10.1998 // Internationale Politik. – 1998. – № 12. – S. 67–97.

9. Das CDU-Parteiprogramm. Eine Dokumentation der Ziele und Aufgaben / Hrsg.: P. Hintze. – Bonn: Bouvier Verlag, 1995. – 517 s.

10. Freiheit und Sicherheit. Grundsätze für Deutschland. Das CDU-Grundsatzprogramm. Beschlossen vom 21. Parteitag. Hannover, 3.–4. Dezember 2007. – 121 s.

11. Gemeinsam für Deutschland – mit Mut und Menschlichkeit. Koalitionsvertrag zwischen CDU, CSU und SPD. – Berlin, 11. November 2005. – 190 s.

12. Grundsatzprogramm der Sozialdemokratischen Partei Deutschlands. Beschlossen auf dem Hamburger Bundesparteitag der SPD am 28. Oktober 2007. – 76 s.

# AHISQA (MESXETİ) TÜRKLƏRİNİN "VƏTƏN" CƏMİYYƏTİ VƏ VƏTƏNƏ QAYIDIŞ MÜBARİZƏSİ

**Rəhimov Əlvida Firdovsi**
**Bakı Dövlət Universiteti**
**https://orcid.org/0000-0001-5783-5496**
**elvidarehimov1234@gmail.com**

# "VATAN" SOCIETY OF AHISQA (MESKHETI) TURKS AND STRUGGLE FOR RETURN TO THE HOMELAND

**Rahimov Alvida Firdovsi**
**Baku State University**
**https://orcid.org/0000-0001-5783-5496**
**elvidarehimov1234@gmail.com**

**Summary**

"Minority" societies exist within the borders of almost all countries of the world, large or small, developed or underdeveloped. Although this concept has not yet been given a precise legal definition, the discussion since the Second World War, when human rights rules began to be internationalized, reveals the importance of "minorities" and "the current situation of minorities in their own countries". Ahisga (Meskheti) Turks are also considered one of the ethnic communities with the status of "minority" today. This report talks about the struggle of Ahisga (Meskheti) Turks to return to their native land, Georgia, and the activities of the "Vatan" Society, which plays a key role in this struggle. Ahisga Turks, one of the ancient societies of the Caucasus geography, in 1944, they were forcibly removed from their homeland under the rule of the Soviet Union and forcibly deported to Kazakhstan, Uzbekistan, Kyrgyzstan and Siberia, and in 1989 they were expelled from Uzbekistan and scattered to different parts of the world. Today, they are struggling to live in the United States, Azerbaijan, Russia, Ukraine, Georgia, Turkey and ten other countries, and continue their lives in a very different political, economic and socio-cultural environment.

**Key words:** Ahisga (Meskheti) turks, "Vatan" Society, struggle for return to homeland.

# ОБЩЕСТВО ТЮРКОВ-АХИСКА (МЕСХЕТИ) «ВАТАН» И БОРЬБА ЗА ВОЗВРАЩЕНИЕ НА РОДИНУ

**Рагимов Альвида Фирдовси**
**Бакинский Государственный Университет**
**https://orcid.org/0000-0001-5783-5496**
**elvidarehimov1234@gmail.com**

**Резюме**

Общества «меньшинств» существуют в границах почти всех стран мира, больших или малых, развитых или слаборазвитых. Хотя это понятие еще не получило точного юридического определения, дискуссия после Второй мировой войны, когда нормы прав человека начали интернационализироваться, раскрывает важность «меньшинств» и «нынешнего положения меньшинств в их собственных странах». Турки-ахисгинцы (месхетинцы) сегодня также считаются одной из этнических общностей, имеющих статус «меньшинства». В данном докладе рассказывается о борьбе турок-ахисгинцев (месхетинцев) за возвращение на родную землю, в Грузию, и о деятельности общества «Ватан», играющего ключевую роль в этой борьбе. Турки-ахисгинцы, одно из старейших обществ географии Кавказа, были насильственно изгнаны со своей родины под властью Советского Союза в 1944 году и насильно депортированы в Казахстан, Узбекистан, Кыргызстан и Сибирь. Сегодня они изо всех сил пытаются жить в США, Азербайджане, России, Украине, Грузии, Турции и десяти других странах и продолжают свою жизнь в совершенно иной политической, экономической и социокультурной среде.

**Ключевые слова:** турки-Ахисга (Месхетинцы), Общество «Ватан», борьба за возвращение на родину.

SSRİ baş katibi İosif Stalinin ölümündən 3 il sonra-1956-cı ildə Ahısqa türkləri bəraət aldılar və vətənlərinə geri dönmək uğrunda hərəkata başlamaq üçün Ahısqa Türk Milli Hərəkatını yaratdılar. 1960-cı illərdə Ahısqa türklərinin təşkilatlanması sonrakı illərdə “Vətən” Cəmiyyəti adlı hərəkatı meydana gətirdi və Müvəqqəti Təşkilat Komitəsi yaradıldı (Panesh & Ermolov, 1994: 592-593) (Sheehy and Nahaylo, 1980). Ənvər Odabaşevin başçılıq etdiyi bu hərəkatın əslində iki əsas məqsədi var idi: Birincisi, 1944-cü il sürgünü nəticəsində Ahısqa türklərinin məruz qaldıqları haqsızlıqların rəsmi etirafı, ikincisi, sürgün edilən Ahısqa türklərinin öz kəndlərinə qayıtmasını təmin etmək.

1962-1989-cu illər arasında 10 konqres təşkil edən Ahısqa Türk Milli Hərəkatı Gürcüstana qayıtmaq üçün müxtəlif strategiyalar işləyib hazırladı və “Vətən” Cəmiyyəti də bu strategiyaların hazırlanmasında mühüm rol oynadı. Lakin bu məsələdəki maneələr aradan qaldırıla bilmədi. Milli Hərəkat daxilində ortaya çıxan gürcü baxışı Ahısqa türklərinin əksəriyyəti tərəfindən qəbul edilməsə də, hərəkatda parçalanmaya səbəb oldu və Ahısqa türklərinin gürcü olması fikrini müdafiə edən Gürcüstanı müəyyən mənada dəstəklədi (Panesh and Ermolov, 1994: 592, 595). Digər tərəfdən, Ahısqa türkləri hərəkatı liderlərinin mühüm mübarizəsi öz kəndlərinə Gürcüstan SSR-in istədiyi kimi “islamlaşmış gürcülər” kimi deyil, “türk” kimi qayıtmaq idi (Baydar-Aydıngün, 2001: 65-78) (Yunusov, 2000: 32) (Zeyrek, 1995: 68).

1980-ci illərin sonuna qədər Ahısqa türklərinin vətənə dönüş hərəkatının yeganə təşkilatı “Vətən” Cəmiyyəti idi. Qorbaçovun hakimiyyətə gəlişi, daha sonra Sovet İttifaqının dağılması ilə Azərbaycanda, Qazaxıstanda, Qırğızıstanda, Rusiyada və Ukraynada müxtəlif adlarda çoxlu birliklər yaradıldı. Bu birliklərin fərqli perspektivləri olsa da, onların əksəriyyəti Yusif Sərvərovun təmsil etdiyi Gürcüstana qayıtmaq fikrinə qarşı çıxırdılar. Nəticədə, “Vətən” Cəmiyyətinin nüfuzu, xüsusən Qazaxıstan və Qırğızıstandakı Ahısqa türkləri arasında getdikcə aşağı düşdü. Təşkilat və Milli Hərəkatla bağlı iki məqamı vurğulamaq olar: Birincisi, “Vətən” Cəmiyyəti Sovet İttifaqı dövründə və Sovet İttifaqının dağılmasından

sonra bütün qrupun vətənə qaytarılması kimi yanlış fikirdə israr edirdi. İkincisi, Sovet İttifaqının dağılmasından sonra yaranan onlarla birliyin müxtəlifliyinə və müxtəlif istiqamətlərə malik olmasına baxmayaraq, birliklərlə qruplar arasında əlaqənin olmaması hələ də davam edirdi (Aydıngün ve Aydıngün, 2014: 76).

**Müasir dövrdə Ahısqa (Mesxeti) türklərinin vətənə dönüş məsələsi**

Sürgün edilən Ahısqa türkləri bu gün 10 fərqli ölkədə dağınıq şəkildə yaşayırlar. Onlar əksəriyyəti keçmiş Sovet İttifaqına aid olan 4300-ə yaxın müxtəlif yaşayış məntəqəsində həyatlarını davam etdirirlər (Uravelli, 1999: 361). Ahısqa türklərinin problemi beynəlxalq miqyas qazansa da, yaşadıqları ölkələrdə onların iqtisadi, sosial, mədəni və təhsil problemləri bu gün də davam edir. Hər gün qarşılaşdıqları bu problemləri həll etmək üçün onlar mütəşəkkil bir quruluşda ola bilməmişlər. Çox kiçik yerlərdə və kiçik icmalarda yaşamaq məcburiyyətində qalmaqlarına baxmayaraq, vətənlərinə qayıtmaq cəhdləri hələ də davam edir (KARİPTAŞ, 2021: 91-107).

Bu gün, xüsusilə Avropa Şurası Ahısqa türklərinin öz vətənlərinə qayıtması məsələsinə müdaxilə edərək bu istiqamətdə böyük səylər göstərir. Lakin Gürcüstan dövləti 2007-ci il iyulun 11-də müvafiq qanunu imzalasa da, bu günə qədərki proses işin gedişində istənilən nöqtəyə çatmayıb. Daha da pisi odur ki, bir çox beynəlxalq təşkilat və qurumların işə qarışmasından sonra Gürcüstan hökuməti Ahısqa türklərinin "kimlik" məsələsini müzakirə mövzusuna çevirib və bu arqumentdən vətənlərinə qayıtmaq istəyən Ahısqa türklərinə qarşı taktika kimi istifadə edir (Üren, 2015). Sürgündən çox uzun müddət keçməsinə baxmayaraq, bu insanlar Gürcüstan sərhədləri daxilində vətənləri olan Ahısqa və kəndlərində (Samsxeti-Cavaxetiya bölgəsi) yaşaya bilməsi üçün edilən tənzimləmələrdən faydalana bilmədiklərindən bu hüquqlar həyata keçirilə bilmədi. Başqa sözlə, sürgündən 76 il keçməsinə baxmayaraq, indiki Gürcüstan Administrasiyası Ahısqa türklərini etnik və milli azlıq hesab etmir, onları rəsmi olaraq etnik gürcü hesab edir (Keskin və Gürsoy, 2017). Ahısqa türkləri 76 il vətənlərindən kilometrlərlə uzaqda olduqları və fərqli həyat tərzlərinin yaşandığı ölkələrdə bir çox insan haqlarından məhrum olmalarına baxmayaraq, bu günə qədər özünəməxsus mədəni xüsusiyyətlərini qoruyub saxlamağı bacarıblar (Kariptaş, Çüse, Jable ve Kariptaş, 2019: 238).

**Ədəbiyyat:**


1. Ayşegül Aydıngün ve İsmail Aydıngün (2014). Ahıska Türkleri: Ulusötesi Bir Topluluk-Ulusötesi Aileler, Ankara: Hoca Ahmet Yesevi Uluslararası Türk-Kazak Üniversitesi.

2. Baydar-Aydıngün, Ayşegül (2001). Rethinking Ethnic Identity Formation: The Case of the Ahıska (Meskhetian) Turks in Turkey and Kazakhstan, Doktora Tezi. Ankara: Orta Doğu Teknik Üniversitesi, Sosyal Bilimler Enstitüsü.

3. Gevher Nesibe KARİPTAŞ (2021). Dünden Bugüne Ahıska Türkleri. Kırşehir Ahi Evran Akademisi (AEA).

4. Kariptaş, G. N. Çüse, C. Jable, E. ve Kariptaş, E. (2019). Kosova ve Ahıska Türkleri'nin Mücadeleleri Hakkında Elde Edilen Bazı Tespitlerin Karşılaştırılması, "Sürgünün 75. Yılında Ahıskalı Türkler" 231-244.

5. Keskin S. ve Gürsoy, H.G. (2017). Sovyet Ve Sovyet Sonrası Dönemde Ahıska Türklerinin Karşılaştıkları İnsan Hakları İhlalleri Ve Ayrımcılıklar, International Crimesand History, Issue: 18, 13-46.

6. Panesh, E.K.H ve Ermolov, L.B. (1994). "Meskhetinsky Turks under the Conditions of the Modern Ethnic Processes in the USSR", Belleten. C. LVII, No. 219, s. 589-607.

7. Sheehy Ann and Nahaylo Bohdan (1980). "Crimean Tatars, Volga Germans and Meskhetians: Soviet Treatment of Some National Minorities". Minority Right Group Report. No 6, London.

8. Uravelli, O. (1999). “Ahıska Türkleri Sorunu ve Gürcü Meskh Tezi”. XII. Türk Tarih Kongresi Bildirileri. II. Cilt. Ankara: Türk Tarih Kurumu Basımevi. 361-363.

9. Üren, M. (2015). Kimlik, Çıkar ve Jeopolitik Ekseninde Ahıska Türkleri Sorunu, Doktora Tezi, Abant İzzet Baysal Üniversitesi, Sosyal Bilimler Enstitüsü Uluslararası İlişkiler Anabilim Dalı.

10. Yunusov Arif (2000). Meskhetian Turks: Twice Deported People. Baku: Institute of Peace and Democracy.

11. Zeyrek Yunus (1995). Dünden Bugüne Ahıska Türklüğü. Frankfurt: Türk Federasyon Yayınları, № 2.

## AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN XARİCİ SİYASƏTİNDƏ BORÇALI MƏSƏLƏSİ

**Əjdərzadə Gülər İlham qızı**
**Abbasqulu Ağa Bakıxanov adına Tarix İnstitutu**
**https://orcid.org/0000-0002-6992-6325**
**gular.ajdarzada@mdu.edu.az**

## BORCALI ISSUE IN THE FOREIGN POLICY OF THE AZERBAIJAN DEMOCRATIC REPUBLIC

**Ajdarzada Gülar Ilham**
**Institute of History named after Abbasgulu Agha Bakikhanov**
**https://orcid.org/0000-0002-6992-6325**
**gular.ajdarzada@mdu.edu.az**

**Summary**

The article studies the problem of Borchali issue in the foreign policy of the Azerbaijan Democratic Republic. It is concluded that the issue of Borchali occupied a very important place in the foreign policy of the Azerbaijan Democratic Republic, and the Azerbaijani government worked with all means to return the Borchali district. In 1918, the Azerbaijani government demanded the entire territory of the Borchali district, but after the end of the First World War it minimised its demands related to the Borchali district, demanding only the middle strip of the district, and withdrew its demands aimed at the northern and southern parts of the district. However, the Azerbaijan Democratic Republic included the Borchali district in its territorial demands made at the Paris Peace Conference and vigorously defended this demand. In 1918-1920, the Borchali district was recognised as a disputed territory between Azerbaijan, Georgia and Armenia.

**Keywords:** Borchali accident, disputed territories, territorial claims, territorial-border issues

## ПРОБЛЕМА БОРЧАЛЫ ВО ВНЕШНЕЙ ПОЛИТИКЕ АЗЕРБАЙДЖАНСКОЙ НАРОДНОЙ РЕСПУБЛИКИ

**Аждарзаде Гюлер Ильхам**
**Институт истории имени Аббаскули Аги Бакиханова**
**https://orcid.org/0000-0002-6992-6325**

gular.ajdarzada@mdu.edu.az

**Резюме**

В статье исследуется проблема Борчалы во внешней политике Азербайджанской Демократической Республики. Сделан вывод о том, что вопрос о Борчали занимал очень важное место во внешней политике Азербайджанской Демократической Республики, и правительство Азербайджана всеми средствами работало над тем, чтобы вернут Борчалинский район. В 1918 году азербайджанское правительство потребовало всю территорию Борчалинского района, но после окончания Первой мировой войны оно свело к минимуму свои требования, связанные с Борчалинским районом, потребовав только среднюю полосу района, и отозвало свои требования, направленные на северная и южная части района. Однако Азербайджанская Демократическая Республика включила Борчалинский район в свои территориальные требования, выдвинутые на Парижской мирной конференции, и решительно отстаивала это требование. В 1918-1920 годах Борчалинский район был признан спорной территорией в отношениях между Азербайджаном, Грузией и Арменией.

**Ключевые слова:** Борчалинский район, спорные территории, территориальные претензии, территориально-пограничные вопросы

1918-ci il mayın 28-də Azərbaycan Milli Şurası tərəfindən qəbul edilən "İstiqlal Bəyannaməsi" ilə Azərbaycanın istiqlalı elan edildi və müstəqil Azərbaycan Xalq Cümhuriyyəti (AXC) yaradıldı. AXC XIX əsrin əvvəllərində Rusiya tərəfindən işğal edilən Şimali Azərbaycan ərazilərinin hamısını öz nəzarətinə keçirə bilməsə də, əksər hissəsini öz hakimiyyəti altına ala bildi. Bütün mövcudluğu dövründə Azərbaycan hökuməti nəzarəti altında olmayan Şimali Azərbaycan ərazilərinə öz hakimiyyətini yaymaq uğrunda mübarizə apardı. Bu ərazilərdən biri də bütün tarix boyu Azərbaycan dövlətlərinin tərkibində olan və əhalisinin də əksəriyyəti azərbaycanlılardan ibarət olan Borçalı ərazisi idi.

AXC-nin ərazisi Bakı və Yelizavetpol (Gəncə) quberniyalarını, Zaqatala dairəsini, İrəvan və Tiflis quberniyalarının bir hissəsini əhatə edirdi (İstanbul Konferansı Öncesinde Azerbaycan Murahhas heyeti`nin Sunduğu Hudut Projesi, 2018). Tiflis quberniyasının tərkibinə daxil olan Borçalı qəzası da AXC-nin ərazisinə daxil idi. Qafqaz təqviminin 1917-ci il üçün olan məlumatına görə, qəzasının ərazisi 6036,96 kv.verst və ya 6870,19 km$^2$ təşkil edirdi (Кавказский календарь, 1917:210). 1918-1920-ci illərdə Borçalı qəzasına sahiblənmək uğrunda Azərbaycan, Gürcüstan və Ermənistan arasında gərgin mübarizə gedirdi. Azərbaycan və Gürcüstan Borçalı qəzasını bütünlüklə, Ermənistan isə Borçalı qəzasının cənub hissəsini öz nəzarətinə keçirməyə çalışırdı.

1918-ci ilin iyun ayında Gürcüstan hökumətinin Borçalı, Sığnaq və Qarayazı ərazilərini hərbi güc tətbiq etmək yolu ilə öz nəzarətinə keçirmək cəhdləri AXC hökuməti tərəfindən sərt etirazla qarşılandı (Документы и материалы по внешней политике Закавказья и Грузии, 1919:436-437). Lakin buna baxmayaraq Tiflis hökuməti Gürcüstandakı alman hərbi kontingentinin fəal yardımı ilə Borçalının şimal hissəsini özünün hərbi nəzarətinə keçirdi (Azerbaycan-Gürcistan Sınır İhtilafı Hakkında Mehmed Emin Resulzade`nin Beyanatı, 1918:390-391). Bu zaman Osmanlı dövləti Borçalı qəzasının cənubunu və orta zolağının bir hissəsini özünün hərbi nəzarətinə aldı və bu koridorla Türkiyə ilə Azərbaycan arasında daimi birbaşa əlaqəni təmin etməyə çalışdı. Qafqaz İslam Ordusunun bir çox təchizatı da məhz bu yolla həyata keçirildi. Birinci dünya müharibəsinin sonuna qədər Borçalı koridoru Osmanlı dövlətinin nəzarətində qaldı. Bununla belə, bu zaman bölgədə əsas hərbi güc və söz sahibi olan Osmanlı dövləti də etnik prinsipdən çıxış edərək əhalisi əsasən türklərdən ibarət olan Borçalı qəzasının AXC-nin tərkibinə daxil edilməsi siyasətini yeridir və Borçalı məsələsinin diplomatik yollarla həll edilməsinə çalışırdı. Osmanlı dövlətinin hərbi naziri

Ənvər paşanın mövqeyinə görə, AXC ilə Osmanlı dövləti arasında sərhəd Borçalı qəzasının qərbindən keçməli idi. Azərbaycan hökumətinin rəsmi bəyanatına görə də, AXC həm Naxçıvandan, həm də Borçalı qəzasının qərbindən Türkiyə ilə birbaşa sərhədə malik olurdu (Qafarov, 2022:81).

Cənubi Qafqaz respublikaları arasında mübahisəli ərazi-sərhəd məsələlərinin, o cümlədən Borçalı məsələsinin İstanbulda keçiriləcək beynəlxalq konfransda həll edilməsi qərarlaşdırılmışdı. 1918-ci il iyulun 29-da İstanbuldakı Azərbaycan nümayəndə heyətinin rəhbəri Məhəmməd Əmin Rəsulzadənin Ənvər paşa ilə keçirdiyi görüşdə Cənubi Qafqaz respublikaları arasında mübahisəli ərazi-sərhəd məsələləri, o cümlədən Borçalı məsələsi müzakirə edildi. Ənvər paşa qeyd etdi ki, qonşu respublikalar arasında ərazi-sərhəd mübahisələrinin sülh yolu ilə həlli üçün qarşılıqlı güzəştlər olmalıdır. Ənvər paşa gürcülərlə anlaşmaq üçün Borçalı qəzasından gürcülərə hansısa güzəştlərin mümkün olub-olmadığını soruşduqda M.Ə.Rəsulzadə qəti şəkildə bəyan etdi ki, müsəlmanlardan ibarət Borçalıdan gürcülərə hansısa ərazi güzəştləri vermək Azərbaycanın maraqlarına uyğun deyildir (Məhəmməd Əmin Rəsulzadənin xarici işlər naziri Məhəmməd Həsən Hacınskiyə məktubu, 1918:18).

Bu görüşdən sonra M.Ə.Rəsulzadə Azərbaycanla Gürcüstan arasında mübahisəli ərazi-sərhəd məsələlərini, o cümlədən Borçalı məsələsini müzakirə etmək üçün İstanbuldakı gürcü nümayəndə heyətinin üzvü Georgi Qvazava ilə görüşdü. Lakin gürcü tərəfinin nümayiş etdirdiyi qeyri-konstruktiv mövqe ucbatından Azərbaycanla Gürcüstan arasında ərazi-sərhəd mübahisələrini İstanbulda danışıqları yolu ilə həll etmək cəhdi uğursuzluqla nəticələndi (Qafarov, 2018:26). M.Ə.Rəsulzadə Azərbaycanın xarici işlər naziri Məhəmməd Həsən Hacınskiyə göndərdiyi 2 sentyabr 1918-ci il tarixli məktubunda bu görüşlə bağlı yazırdı: "Burada Qvazava ilə istədim ki, hüdud məsələsi üzərinə konuşalım. Sözü çox yenidən döndürdü. Cibindən bir xəritə çıxardığında Gürcüstanın bir tərəfdən Göyçə gölü və Qazax sancağına enən, digər tərəfdən Zaqatalanı da az qala ehtiva edən cizgiləri göstərdi. Bunu əsas tutaraq ancaq təshih-i hüdud xüsusları danışmaq olar, dedi, yoxsa qətiyyən barışmarıq. Qan tökmək lazım gələr. Mən də nə yapalım, məcbur qalınca qan da tökmək olur, deyə ayrıldıq" (Məhəmməd Əmin Rəsulzadənin xarici işlər naziri Məhəmməd Həsən Hacınskiyə məktubu, 1918:18).

Birinci Dünya müharibəsinin gedişində baş verən dəyişikliklərlə bağlı olaraq İstanbulda konfransın keçirilməsi baş tutmadı. Birinci Dünya müharibəsinin başa çatması və Osmanlı qoşunlarının Cənubi Qafqazdan təxliyə edilməsi ilə Gürcüstan hökuməti Borçalının orta zolağını və cənub hissəsini özünün nəzarətinə keçirmək üçün hərbi güc tətbiq etməyə başladı. Bu zaman Ermənistan da Borçalının cənub hissəsini özünün nəzarətinə keçirmək üçün hərbi yola əl atdı və bu, 1918-ci ilin dekabrında tərəflər arasında müharibəyə gətirib çıxardı.

Ümumiyyətlə, Gürcüstan hökuməti Borçalı, Sığnaq və Tiflis qəzalarını özünün hərbi nəzarətinə keçirib Gürcüstanla Azərbaycan arasında sərhədin Tiflis və Gəncə quberniyalarının inzibati sərhədləri boyunca müəyyən edilməsinə çalışırdı. Mudros barışığından sonra Gürcüstan Respublikası Borçalı, Sığnaq və Tiflis qəzalarını özünün hərbi nəzarətinə keçirdi və beləliklə, 1918-ci ilin payızında Gürcüstanla Azərbaycan arasında Tiflis və Gəncə quberniyalarının inzibati sərhədləri və Sığnaq qəzası ilə Zaqatala dairəsinin inzibati sərhədləri boyunca de-fakto sərhəd xətti bərqərar oldu. Lakin hər iki tərəf – həm Azərbaycan, həm də Gürcüstan tərəfi bu sərhəd xəttinin müvəqqəti və şərti xarakter daşıdığını və iki respublika arasında ərazi-sərhəd məsələlərinin sülh konfransında həll edilməsinə və sərhədlərin qəti olaraq təyin edilməsinə qədər qüvvədə olacağını dəfələrlə bəyan etdilər (Qafarov, 2022:87; Rəhmanzadə, 2008:70).

Bununla belə, Azərbaycan hökuməti AXC ərazisinə daxil olan Tiflis quberniyasının Borçalı, Sığnaq və Tiflis qəzaları uğrunda diplomatik mübarizəsini davam etdirdi. AXC-nin Osmanlı dövlətindəki diplomatik nümayəndəsi Əlimərdan bəy Topçubaşov 1918-ci ilin noyabrında Antanta dövlətlərinin İstanbuldakı

nümayəndələrinə təqdim etdiyi memorandumunda "Azərbaycan Cümhuriyyətinin əhatə etdiyi ərazilər" bölməsində Tiflis quberniyasının Borçalı qəzasını tamamilə, Tiflis qəzasının 1/5 hissəsini, Sığnaq qəzasının isə 1/3 hissəsini Azərbaycan ərazisi kimi göstərirdi (Топчибашев, 1993:20-21).

Ə.Topçubaşov tərəfindən 1919-cu ilin avqustunda Paris Sülh konfransına təqdim edilən "Qafqaz Azərbaycanı Cümhuriyyəti Sülh heyətinin Paris Sülh konfransından tələbləri"ndə də Tiflis quberniyasının Borçalı, Tiflis və Sığnaq qəzalarının bir hissəsi AXC ərazisi kimi göstərilirdi (Claims of the Peace Delegation of the Republic of Caucasian Azerbaijan Presented of the Peace Conference in Paris, 1919:27-28).

1920-ci ilin "Ünvan-təqvimi"ndə AXC-nin ümumi ərazisi 113895,97 $km^2$, o cümlədən 97297,67 $km^2$ mübahisəsiz ərazi, 16598,30 $km^2$-i isə mübahisəli ərazi olaraq göstərilirdi. Sənəddə Azərbaycanla Gürcüstan arasında mübahisə predmeti olan ərazilərin Tiflis quberniyasının 8685,13 $km^2$-dən ibarət aşağıdakı əraziləri ehtiva etdiyi qeyd edilirdi: Tiflis qəzasının II və III polis sahələri; Sığnaq qəzasının V polis sahəsi; Borçalı qəzasının I, II polis sahələri, III və IV polis sahələrinin bir hissəsi (Пространство Азербайджанской Республики, 1920:50). Buradan aydın olur ki, AXC hökumətinin Osmanlı oriyentasiyası dövründən fərqli olaraq, sonrakı dövrdə Tiflis quberniyasına, o cümlədən Borçalı qəzasına yönələn ərazi tələbləri minimuma endirilmişdi.

Beləliklə, belə bir nəticəyə gəlirik ki, Azərbaycan hökuməti AXC ərazisinə daxil etdiyi Borçalı qəzasına sahiblənmək və Borçalıda öz hakimiyyətini bərqərar etmək uğrunda gərgin diplomatik mübarizə aparmışdır. Borçalının tarixi Azərbaycan torpağı olması, qəzanın əhalisinin etnik tərkibi və orada yaşayan əhalinin AXC-yə birləşməklə bağlı müraciətləri bunun üçün siyasi və hüquqi zəmin yaratmışdı. Lakin göstərilən cəhdlərə baxmayaraq, AXC hökuməti Borçalı qəzasını özünün faktiki hakimiyyəti altına ala bilmədi. AXC hökumətinin Borçalı qəzası uğrunda mübarizəsinin araşdırılmasından o da məlum olur ki, Azərbaycan hökuməti Osmanlı oriyentasiyası dövründə Borçalı qəzasını bütünlüklə öz ərazisi hesab etmiş və bunu tələb etmiş, sonrakı dövrdə isə, Borçalı qəzası ilə bağlı tələblərini minimuma endirmiş və qəzanın əsasən türk-müsəlmanlardan ibarət olan orta zolağını tələb etmiş, qəzanın şimal və cənub qisimlərindən isə müvafiq olaraq Gürcüstan və Ermənistanın lehinə iddialarından geri çəkmişdir. AXC-nin süqutundan və Cənubi Qafqazın sovetləşdirilməsindən sonra 1918-1920-ci illərdə Azərbaycanla Gürcüstan arasında mübahisə predmeti olan Tiflis quberniyasının Borçalı, Sığnaq qəzaları və Tiflis qəzasının Qarayazı ərazisi Moskva hökuməti tərəfindən Gürcüstana verildi.

**Ədəbiyyat**:

1. Azerbaycan-Gürcistan Sınır İhtilafı Hakkında Mehmed Emin Resulzade`nin Beyanatı // Azerbaycan Cumhuriyeti (1918-1920). Osmanlı Arşiv Belgeleri / Neşre hazırlayan: Q.Şükürov, V.Qafarov. – İstanbul: TEAS-Press, – 2018, s. 390-391.

2. Claims of the Peace Delegation of the Republic of Caucasian Azerbaijan Presented of the Peace Conference in Paris, Imp. Robinet-Hautain, Paris, 1919, 37 p.

3.Документы и материалы по внешней политике Закавказья и Грузии. Тифлис, Типография правительства Грузинской Республики, 1919, 513 с.

4. İstanbul Konferansı Öncesinde Azerbaycan Murahhas heyeti`nin Sunduğu Hudut Projesi // Azerbaycan Cumhuriyeti (1918-1920). Osmanlı Arşiv Belgeleri / Neşre hazırlayan: Q.Şükürov, V.Qafarov. – İstanbul: TEAS-Press, – 2018, s. 338-339.

5. Кавказский календарь на 1917 год. Тифлис, 1916, Отдель статистический, с. 210.

6. Məhəmməd Əmin Rəsulzadənin xarici işlər naziri Məhəmməd Həsən Hacınskiyə məktubu (İstanbul: 2 sentyabr 1918-ci il) // ARPİİİSSA, Fond № 277, siyahı № 2, iş № 7, vərəq – 15-19.

7. Qafarov, V. Azərbaycan Cümhuriyyətinin tarixi-siyasi coğrafiyası (1918-1920) // Azərbaycan Tarixşünaslığı (Elmi Əsərlər), 2022, № 2 (83), s. 72-95.
8. Qafarov, V. Azərbaycanla Gürcüstan arasında ərazi-sərhəd məsələləri və İstanbul konfransı // AMEA-nın Xəbərləri, İctimai elmlər seriyası, 2018, № 4, s. 20-30.
9. Пространство Азербайджанской Республики, Адрес-календарь Азербайджанской Республики на 1920 г. Под ред. Ставровского. Типография газеты Азербайджан, Баку, 1920, ч. 1, с. 50.
10. Rəhmanzadə, Ş. Azərbaycan-Gürcüstan münasibətlərində ərazi məsələləri (Azərbaycanın şimal-qərb bölgəsinin materialları əsasında, 1917-1930-cu illərin əvvəlləri). Bakı: Aspoliqraf, 2008, 376 s.
11. Топчибашев, А. Меморандум. Баку: Азербайджан, 1993.

# QAFQAZ İSLAM ORDUSUNUN AZƏRBAYCANDAKI FƏALİYYƏTİ ÇAĞDAŞ TÜRKİYƏ TARİXŞÜNASLIĞINDA

**Eyvazova Ləman Hamlet**
**Bakı Dövlət Universiteti**
**eyvazli.leman93@gmail.com**

# THE ACTIVITIES OF THE CAUCASIAN ISLAMIC ARMY IN AZERBAIJAN IN CONTEMPORARY TURKISH HISTORIOGRAPHY

**Eyvazova Laman Hamlet**
**Baku State University**
**eyvazli.leman93@gmail.com**

**Summary**

The study of the activities of the Caucasian Islamic Army in Azerbaijan in Turkish historiography is discussed here. It was informed about the works of Turkish authors on the subject in modern times. The authors ' attitude to the activities of the Caucasian Islamic Army in Azerbaijan and the liberation of Baku from the Bolshevik-Armenian formations was clarified. In Turkish historiography, this topic has been studied at different times, however, this article focused on works written in recent years. As a result of the investigation, it was revealed that the activity of the Caucasian Islamic Army in Azerbaijan, especially its role in the liberation of Baku, was highly appreciated. Similar and different views on the activities of the Caucasian Islamic Army in Azerbaijan were compared with the data of modern Turkish historiography.

**Keywords:** Caucasian Islamic Army, Baku, Azerbaijan Democratic Republic, Turkey, historiography

# ДЕЯТЕЛЬНОСТЬ КАВКАЗСКОЙ ИСЛАМСКОЙ АРМИИ В АЗЕРБАЙДЖАНЕ В СОВРЕМЕННОЙ ТУРЕЦКОЙ ИСТОРИОГРАФИИ

**Эйвазова Ламан Гамлет**
**Бакинский Государственный Университет**
**eyvazli.leman93@gmail.com**

**Резюме**

Здесь говорится об исследовании деятельности Кавказской Исламской Армии в Азербайджане турецкой историографией. В наше время представлена информация о работах турецких авторов на эту тему. Было уточнено отношение авторов к вопросам деятельности Кавказской Исламской Армии в Азербайджане, освобождению Баку от большевистско-армянских формирований. В турецкой историографии эта тема изучалась в разное время, однако в этой статье основное внимание уделялось работам, написанным за последние годы. В результате исследования выяснилось, что деятельность Кавказской Исламской Армии в Азербайджане была высоко оценена, особенно ее роль в освобождении Баку. Сходные и разные взгляды на деятельность Кавказской Исламской Армии в Азербайджане сравниваются с данными, записанными в современной Турецкой историографии.

**Ключевые слова:** Кавказская Исламская Армия, Баку, Азербайджанская Демократическая Республика, Турция, историография

Qafqaz İslam Ordusu və onun Azərbaycandakı fəaliyyəti həm Azərbaycanda, həm də Türkiyədə müxtəlif dövrlərdə araşdırılmış və bir çox tədqiqat əsərləri meydana gəlmişdir. Müasir dövrdə Türkiyədə araşdırılan əsərlər xüsusilə maraq doğurur. Belə ki, bu əsərlərdə qeyd edilən faktlar, Bakının azad edilməsində Qafqaz İslam Ordusunun iştirakı, Türkiyənin həmin dövrdə Qafqaz siyasəti kimi mühüm məsələlər öz əksini tapmışdır.

**Türkiyə tarixşünaslığındakı son əsərlər.** Belə əsərlərdən biri Mustafa Görüryılmazın müəllifi olduğu "Türk Kafkas İslam Ordusu ve ermeniler-1918" kitabıdır. Müəllifin bu kitabında Qafqaz İslam Ordusunun Qafqazda apardığı hərbi əməliyyatlar rus və erməni arxiv sənədləri əsasında yazılmışdır. Erməni-daşnaq və rus-bolşevik qüvvələlərinin Qafqazdakı türklərə qarşı həyata keçirdiyi soyqırımlara və bu soyqırımlardan 31 martda azərbaycanlılara qarşı həyata keçirilmiş olana diqqət yetirilmişdir. Bakının bolşevik-erməni birləşmələrindən azad edilməsi, eləcə də ingilislərin Bakıdan getməsi kimi məsələlər də kitabda öz əksini tapmışdır. Kitab ümumilikdə 4 dəfə nəşr edilmişdir. (Görüryılmaz M., 2015)

Abdülhamit Avşarın mövzu ilə bağlı qələmə aldığı əsəri "Kafkas İslam Ordusu-yitik neslin hikayesi" adlanır. Bu əsərdə Qafqaz İslam Ordusunun Azərbaycandakı fəaliyyəti, Bakının azad edilməsində göstərdiyi şücaətdən bəhs edilir. Əsərin diqqət çəkən tərəfi isə müəllifin Qafqaz İslam Ordusunun üzvü olan hərbçilərin həyatda qalan qohumları, yaxınları ilə əlaqə saxlayaraq, onların xatirələrini də kitaba daxil etməsi olmuşdur. (Abdülhamit A., 2019)

Nejdet Karakösenin Nuru paşanın həyatından bəhs edən "Nuri paşa – Afrika grupları komutanı Kafkas İslam Ordusu komutanı sütlüce fabrikasının sahibi" adlı kitabında da Nuru paşanın Azərbaycandakı fəaliyyətinə toxunulmuşdur. Qafqaz İslam Ordusunun Qafqazda, Azərbaycanda gördüyü işlər qardaşı Ənvər paşaya yazdığı məktublar əsasında göstərilmişdir. (Karaköse N., 2019)

Özgen Dikmenin "Nuri paşa Bakü yollarında" kitabında da Qafqaz İslam Ordusunun Azərbaycandakı fəaliyyətindən bəhs edilir. Tarixi roman olan bu əsərdə tarixi faktlar və sənədlər əsasında baş verən hadisələr bədii şəkildə əks edilmişdir. Əsərdə bir daha aydın olur ki, Azərbaycanın tarixi torpaqlara olan haqqının tanınması, qardaş köməyilə doğma torpaqları yadellilərdən xilas etməsi mühüm tarixi zəfərdir: "Bizim her birimiz har-ı bülbül'ük. Har-ı bülbül öz torpağında göverir. Anam ne demişti bizi kaçağa yollarken hatırlar mısınız Ehmet Duran? Har-ı bülbül Karabağsız, Karabağ da har-ı bülbülsüz olamaz…" (Dikmen Ö., 2021)

Tədqiqatçı Halil Balın "Azerbaycan Cumhuriyetinin kuruluş mücadelesi ve Kafkas İslam Ordusu" adlı monoqrafiyası da dəyərli əsərlərdən biridir. Bu monoqrafiyada AXC-nin qurulması, həmin dövrün siyasi vəziyyəti, yaşanan çətinliklər, Azərbaycana qarşı yadelli hücumları və Osmanlının Qafqaz İslam Ordusu nümunəsində köməkliyi kimi məsələlər qeyd edilmişdir. Müəllif Azərbaycanın müraciəti əsasında Osmanlının qardaşına kömək göstərməsini əsaslandırmışdır. (Bal H., 2010)

Türk Tarix Qurumu tərəfindən də mövzu ilə bağlı müxtəlif tədqiqatlar aparılmışdır. Belə tədqiqat nəticələrindən biri Mustafa Sarının müəllifi olduğu "Türkiye-Kafkasya İlişkilerinde Batum (1917-1921)" adlı kitabdır. Bu əsərdə adından göründüyü kimi Türkiyənin Qafqaz siyasəti, Birinci Dünya müharibəsi illərində və müharibədən sonra Qafqazda baş verən hadisələr, Qafqaz İslam Ordusunun buradakı fəaliyyəti ilə bağlı məsələlərə yer verilmişdir. (Sarı M., 2014)

Akdes Nimet Kuratın Türk Tarix Qurumu tərəfindən 2011-ci ildə nəşr edilmiş "Türkiye ve Rusya: XVIII. yüzyıl sonundan kurtuluş savaşına kadar türk-rus ilişkileri (1798-1919)" adlı kitabında da Qafqaz İslam Ordusunun yaranması, fəaliyyəti, türk-rus münasibətlərində Qafqazın, o cümlədən, Azərbaycanın əhəmiyyəti kimi aktual məsələlər araşdırılmışdır. (Kurat, A. N., 2011)

Sayim Türkman da "Birinci Dünya savaşında Doğu (Kafkas) cephesi" adlı tədqiqatında Qafqaz İslam Ordusunun Bakı zəfəri, Azərbaycan ərazilərinin rus-erməni birləşmələrindən təmizlənməsi kimi mühüm məsələlərə yer vermişdir. Bu kitabda, həmçinin, 1917-ci il fevral inqilabı və bundan sonra xalqların azadlıq mübarizəsinin güclənməsi, Azərbaycan Cümhuriyyətinin qurulması kimi məsələlər də işıqlandırılmışdır. (Türkman S., 2022)

Arif Baytının "Birinci Dünya savaşında Kafkas cephesi" adlı kitabında da, adından göründüyü kimi, müharibə illərində Qafqazda cərəyan edən hadisələr işıqlandırılmışdır. Burada Nuru paşanın Ənvər paşa ilə danışıqları və onun Qafqaza göndərilməsi, Azərbaycandakı fəaliyyəti də öz əksini tapmışdır. (Arif B., 2023)

Türkiyə tarixşünaslığında son dövrdə yazılmış əsərlərin mühüm bir hissəsi barədə məlumat verilmişdir. Qeyd edək ki, Qafqaz İslam Ordusunun Azərbaycandakı fəaliyyəti ilə bağlı tarixşünaslıqda müxtəlif ziddiyyətli fikirlər vardır. Xüsusilə də rus və sovet dövrü Azərbaycan tarixşünaslığında "ilhaq", "qardaş yardımı" kimi fikirlər mövcuddur. Türkiyə tarixşünaslığındakı yanaşma qeyd edilən ziddiyyətli fikirlərlə müqayisə edilmişdir. Məlum olur ki, türk tarixşünaslığında Qafqaz İslam Ordusunun Azərbaycana gəlməsi, Bakının azad edilməsi Azərbaycan Cümhuriyyətinin müraciəti əsasında, qardaş dövlətə kömək məqsədi kimi əsaslandırılmışdır.

**Ədəbiyyat:**


1. Abdülhamit A.(2019) Kafkas İslam Ordusu-yitik neslin hikayesi, Ankara, Mihrabad yayınevi, 384 s.
2. Arif B. (2023) Birinci Dünya savaşında Kafkas cephesi. Ankara, Dorlion yayınevi, 193 s.
3. Bal H. (2010) Azerbaycan Cumhuriyetinin kuruluş mücadelesi ve Kafkas İslam Ordusu. İstanbul, İdil yayıncılık, 280 s.
4. Dikmen Ö. (2021) Nuri paşa Bakü yollarında, İstanbul, Gece kitablığı yayınevi, 323 s.
5. Görüryılmaz M. (2015) Türk Kafkas İslam Ordusu ve ermeniler-1918, İstanbul, Babıali yayınevi, 616 s.
6. Karaköse N. (2019) Nuri paşa – Afrika grupları komutanı Kafkas İslam Ordusu komutanı sütlüce fabrikasının sahibi. Ötüken yayınevi, 557 s.
7. Kurat, A. N. (2011) Türkiye ve Rusya: XVIII. yüzyıl sonundan kurtuluş savaşına kadar türk-rus ilişkileri (1798-1919). Türk Tarih Kurumu yayınevi, Ankara, 308 s.
8. Sarı M. (2014) Türkiye-Kafkasya İlişkilerinde Batum (1917-1921), Türk Tarih Kurumu yayınevi, Ankara
9. Türkman S. (2022) Birinci Dünya savaşında Doğu (Kafkas) cephesi. Nobel Akademik yayıncılık, İstanbul, 192 s.

# QAÇQIN VƏ MƏCBURİ KÖÇKÜNLƏRİN SOSİAL MÜDAFİƏSİNİN HÜQUQİ BAZASI

**İsmayılova Mələkxanım İnqlab**
**Abbasqulu Ağa Bakıxanov adına Tarix İnstitutu**
**https://orcid.org/0009-0009-7014-8987**
**melekismayilova777@gmail.com**

# LEGAL BASİS OF SOCIAL PROTECTION OF REFUGEES AND İNTERNALLY DİSPLACED PERSONS

**Ismayilova Melekkhanim Inglab**
**Institute of History named after Abbasgulu Agha Bakikhanov**
**https://orcid.org/0009-0009-7014-8987**
**melekismayilova777@gmail.com**

**Summary**

This report contains rich material in terms of research and analysis of the legal basis of social protection of refugees and internally displaced persons. Internally displaced persons who were displaced from their lands for nearly 30 years have now started to settle in their native lands. During the years of occupation, our compatriots who were displaced from their lands were surrounded by state care and constantly kept in the center of attention. Numerous events were carried out for them, both inside and outside the country, and their rightful voices were conveyed to the world community. In the country, a legal framework was created for the social protection of this vulnerable group in accordance with international legal norms. Adopted legislative acts are aimed at regulating the status of internally displaced persons, ensuring their social protection, and improving living conditions. At the same time, as social protection measures, measures have been organized to provide internally displaced persons with a temporary living space, provide various benefits for their social security, education and other rights, reduce unemployment and increase employment opportunities. A new legal framework is being created to ensure the return to the territories freed from occupation, safe living for refugees and internally displaced persons in their native lands, to carry out restoration and construction works in those territories, and to support sustainable and effective activities.

**Key words:** Azerbaijan, social protection, refugee, internally displaced persons

# ПРАВОВЫЕ ОСНОВЫ СОЦИАЛЬНОЙ ЗАЩИТЫ БЕЖЕНЦЕВ И ВЫНУЖДЕННЫХ ПЕРЕСЕЛЕНЦЕВ

**Исмайлова Малакханым Инглаб**
**Институт истории имени Аббаскули Аги Бакиханова**
**https://orcid.org/0009-0009-7014-8987**
**melekismayilova777@gmail.com**

**Резюме**

Данный отчет содержит богатый материал с точки зрения исследования и анализа правовой основы социальной защиты беженцев и вынужденных переселенцев. Вынужденных переселенцев, которые были вынуждены покинуть свои земли в течение почти 30 лет, теперь начали селиться на своих родных землях. В годы оккупации наши соотечественники, вынужденные покинуть свои земли, были окружены государственной опекой и постоянно находились в центре внимания. В их защиту были проведены многочисленные мероприятия как внутри страны, так и за ее пределами, а их законный голос был доведен до мирового

сообщества. В стране создана правовая база для социальной защиты этой уязвимой группы в соответствии с международно-правовыми нормами. Принятые законодательные акты направлены на регулирование статуса вынужденных переселенцев, обеспечение их социальной защиты, улучшение условий жизни. В то же время в качестве мер социальной защиты организованы мероприятия по предоставлению вынужденным переселенцам временного жизненного пространства, предоставлению различных льгот по их социальному обеспечению, образованию и другим правам, сокращению безработицы и расширению возможностей трудоустройства. Создается новая правовая база, обеспечивающая возвращение на освобожденные от оккупации территории, безопасное проживание беженцев и вынужденных переселенцев на родных землях, проведение восстановительных и строительных работ на этих территориях, а также поддержку устойчивой и эффективной деятельности.

**Ключевые слова**: Азербайджан, социальная защита, беженцы, вынужденных переселенцев

Azərbaycan tarix boyu öz geostrateji mövqeyi və zəngin təbii ehtiyatları ilə regionda maraqları olan dövlətlərin daim diqqət mərkəzində olmuşdur. Ermənistanın 1905, 1918-1920, 1948-1953 və 1988-1993-cü illərdə reallaşan etnik təmizləmə siyasəti azərbaycanlıların öz tarixi torpaqlarından zorla qovulmasına, Azərbaycan Respublikası torpaqlarının 20%-nin işğal olunmasına səbəb olmuşdur. Beləliklə, minlərlə insan qaçqın və məcburi köçkün vəziyyətinə düşmüş və eyni zamanda daimi yaşayış yerlərindən məcburən köçərək müvəqqəti olaraq digər şəhər və rayonlarda yerləşmişlər (Azərbaycan Respublikası Prezidentinin Katibliyi, 2013, s.4).

Bundan əlavə, işğala məruz qalan ərazilərimizlə, Ermənistanla həmsərhəd olan rayonlarımızda yaşayan insanlar təhlükəsizlik baxımından məcburən öz daimi yaşayış yerlərini tərk etmişlər. Həmçinin minlərlə məshəti türkü Orta Asiyadan didərgin olmuş və qaçqın olaraq ölkəmizə pənah gətirmişlər (Əhməd, 2007, s. 3-5).

Bir çox müəlliflər əhalinin sosial müdafiəsini dövlətlərin sosial siyasətinin başlıca amillərindən biri hesab edir və cəmiyyətin bütün üzvlərinin qəbul edilmiş standartlara uyğun yaşayış səviyyəsinin təmin edilməsi kimi izah edirlər (Şamilova, 2010, s. 109). Həmçinin Azərbaycan Respublikasının sosial siyasətində də qaçqın və məcburi köçkünlərin sosial müdafiəsi, mənzil-məişət şəraitinin yaxşılaşdırılması başlıca yer tutmuşdur. Ölkəmizdə etnik təmizləmə və münaqişələr səbəbindən bir milyondan çox qaçqın və məcburi köçkün vardır.

Qaçqın və məcburi köçkünlərin qarşılaşdığı sosial, iqtisadi, məişət problemləri ölkəmiz üçün həmin dövrdə çox böyük çətinliklər yaratdı, həmin dövrdə ümummilli lider Heydər Əliyev öz torpaqlarından didərgin salınmış şəxslərin dövlət qayğısı ilə əhatə olunması və diqqət mərkəzində saxlanması üçün bir sıra tədbirlər görmüşdür. Xüsusən bu istiqamətdə nəinki ölkə daxilində görülən tədbirləri, hətta dünya ictimaiyyətinin diqqətinə bu məsələlərin çatdırılmasını qeyd etmək olar. Heydər Əliyev xarici dövlətlərin dövlət başçıları, rəsmi şəxsləri ilə keçirilən görüşlərdə, beynəlxalq və yerli qurumlarda etdiyi çıxışlarında mütləq qaçqın və məcburi köçkünlər məsələsinə diqqət çəkir, bunu ölkədə bir nömrəli problem hesab edirdi.

Sosial siyasətin istiqamətlərindən biri olan sosial müdafiə kontekstində, ilkin olaraq, maddi ehtiyaclarla əlaqəli, xüsusən insanın mövcudluğu perspektivləri ilə birbaşa bağlı olan tələbatların təmin olunmasında çatışmazlıqlara səbəb olan müxtəlif problemlərin həll edilməsi əsas götürülməlidir (Rəhmanov, 2021). Bu baxımdan münaqişələr səbəbindən çoxsaylı insanların həyatlarını itirməsini nəzərə alaraq, Azərbaycanda qaçqın və məcburi köçkünlərin çətin dövrlərində sosial şəraitinin yaxşılaşdırılması üçün düşünülmüş, ardıcıl siyasət həyata keçirilmişdir.

Azərbaycan Respublikasında bu problemin həlli, həmin insanların ehtiyaclarını ödəmək üçün həm hüquqi, həm də sosial-iqtisadi sahədə çoxsaylı işlər görülmüş və bu işlər davam etdirilir. Azərbaycan Respublikası bu həssas qrupla bağlı beynəlxalq normalara uyğun hüquqi baza yaratmaq məqsədilə 1992-ci ilin

dekabrında “Qaçqınların statusu haqqında” BMT-nin 1951-ci ildə qəbul etdiyi Konvensiyasına qoşulmuşdur. Bu istiqamətdə qəbul edilən qanunvericilik aktları dövlətin diqqət və qayğısının göstəricisi olmaqla yanaşı, qaçqın və məcburi köçkünlərin problemlərinin həllində mühüm əhəmiyyət daşıyır və mötəbər hüquqi baza üçün əsasdır.

Yuxarıda qeyd olunduğu kimi, XX əsrin sonlarında yaranan böhranlı vəziyyəti həll etmək üçün “Daimi yaşayış yerlərini tərk etməyə məcbur olmuş şəxslərlə iş üzrə Azərbaycan SSR Dövlət Komitəsi” yaradılmışdır. Sonrakı dövrdə baş verən hadisələrə uyğun olaraq onun adı “Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi” kimi dəyişdirilmişdir. Komitənin Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 1 fevral tarixli 187 nömrəli Fərmanı ilə təsdiqlənmiş Əsasnaməsində onun fəaliyyət istiqamətləri, vəzifələri, hüquqları və s. göstərilmişdir. Belə ki, Komitə qaçqın və məcburi köçkünlərin yerləşdirilməsi, məskunlaşdırılması, sosial müdafiəsi, repatriasiyası, işğaldan azad olunmuş ərazilərdə onların sosial vəziyyətinin, mənzil-məişət şəraitinin yaxşılaşdırılması sahəsində dövlət siyasətini həyata keçirmək məqsədilə yaradılmış mərkəzi icra hakimiyyəti orqanı olaraq bu istiqamətdə səlahiyyətləri daxilində vəzifələri yerinə yetirir.

Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin 1998-ci il 17 sentyabr tarixli 895 saylı Sərəncamı ilə təsdiqlənən “Qaçqınların və məcburi köçkünlərin problemlərinin həlli üzrə Dövlət Proqramı”nın məqsədi mövcud olan vəziyyəti əsas götürərək qaçqınların və məcburi köçkünlərin təhsil, mənzil-məişət, səhiyyə, məşğulluq, müavinət və digər problemlərinin həllini sürətləndirmək, sosial müdafiəsini təşkil etmək və idarəetməni təkmilləşdirməkdən ibarət idi. Bu həssas qrupun həyat şəraitinin yaxşılaşdırılması ilə əlaqədar geniş, əhatəli fəaliyyəti özündə əks etdirən bu proqramı bir növ tədbirlər kompleksi hesab etmək olar.

Öz yurd-yuvalarından didərgin salınmış şəxslərin statusunu nizamlamaq məqsədilə 1999-cu ildə “Qaçqınların və məcburi köçkünlərin (ölkə daxilində köçürülmüş şəxslərin) statusu haqqında” və “Məcburi köçkünlərin və onlara bərabər tutulan şəxslərin sosial müdafiəsi haqqında” qanunlar qəbul edilmişdir. Bu qanunların qəbul edilməsi həmin dövr üçün olduqca əhəmiyyətli və zəruri idi. Dövlət orqanlarının məcburi köçkünlərin və onlara bərabər tutulan şəxslərin məskunlaşdırılması, sosial müdafiəsi ilə bağlı vəzifələrini müəyyənləşdirmək üçün əsas hüquqi baza hesab olunur (ARK, 2013, s. 5-6).

Bu sahədə yerinə yetirilən tədbirlərdən biri olan Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin 2003-cü il 4 avqust tarixli Sərəncamı xüsusi əhəmiyyət daşıyır. Belə ki, bu sərəncam ilə Azərbaycan Respublikasının dövlət ali və orta ixtisas təhsili müəssisələrində ödənişli formada təhsil alan məcburi köçkün statusu olan Azərbaycan Respublikasının vətəndaşlarının təhsil haqqını ödəməkdən təhsillərini başa çatdıranadək azad edilmələrini təsdiq etmişdir. Bu, dövlət siyasətində gənclərə, xüsusən də onların təhsillərinə verilən qiymətin bariz nümunəsi idi.

Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş qaçqınlar və məcburi köçkünləri əhatə edən dövlət siyasəti onun layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən təkmilləşdirilir. Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 2004-cü il 1 iyul tarixli Sərəncamı ilə təsdiqlənən “Qaçqınların və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılması üzrə Dövlət Proqramı” qəbul edilmişdir. Bu proqramın məqsədi Azərbaycanın işğal altında olan əraziləri azad olunana və onlar öz yurdlarına qayıdana qədər yaşayış üçün əlverişsiz yerlərdə, o cümlədən çadır düşərgələrində, dəmir yolu üzərindəki yük vaqonlarında məskunlaşmış soydaşlarımızın sosial problemlərin həllini təmin etmək, o cümlədən onların yaşayış şəraitinin, mənzil-məişətinin yaxşılaşdırılmasını, məşğulluğunun təmin edilməsi üçün iş yerlərinin yaradılmasından ibarətdir.

Azərbaycanın parlaq qələbəsi ilə başa çatan 44 günlük "Vətən Müharibəsi" işğaldan azad olunmuş ərazilərimizə yeni həyatın başlanğıcı oldu. Otuz ilə yaxın müddət ərzində maddi və mədəni sərvətləri erməni qəsbkarları tərəfindən vəhşicəsinə talan edilmiş ərazilərimizə yenidən həyatın qaytarılması dövlətimizin nüfuzunun daha da güclənməsinə və siyasi, iqtisadi suverenliyinin daha da artmasına gətirib çıxaracaqdır. Bu qalibiyyət qaçqın və məcburi köçkün həyatı yaşamağa məcbur olan insanların yaşayış durumuna və sosial vəziyyətinə də yeni həyat gətirmişdir.

Azərbaycan Respublikasının davamlı inkişafı məqsədilə aparılan xarici siyasətin məntiqi davamı işğaldan azad edilmiş ərazilərin yenidən qurulması, bərpası və dayanıqlı inkişafının, milli iqtisadiyyata sürətli inteqrasiyasının və bu ərazilərə Böyük Qayıdışın təmin edilməsidir. Qarşıya qoyulmuş hədəflərin həyata keçirilməsi məqsədilə Böyük Qayıdışa dair Dövlət Proqramı hazırlanmışdır. Dövlət Proqramında işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən quruculuq və işlərin hazırkı vəziyyəti, hədəflənən məqsədlər və onlarla bağlı hədəf göstəriciləri, Dövlət Proqramının əsas istiqamətləri, soydaşlarımızın geri qayıdışı məsələləri, nəticələri, müvafiq maliyyələşmə mənbələrini və yerinə yetiriləcək tədbirləri özündə ehtiva edir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 4 yanvar 2021-ci il tarixli Fərmanı ilə yaradılan "Qarabağ Dirçəliş Fondu" publik hüquqi şəxsi işğaldan azad edilmiş ərazilərdə dayanıqlı məskunlaşma üçün layiqli şəraitin yaradılması, bu ərazilərdə bərpa və quruculuq işlərinin aparılması, habelə rifahın davamlı artması naminə səmərəli fəaliyyətin dəstəklənməsi məqsədi daşıyır. Fond həyata keçirilən tədbirlərə maliyyə dəstəyi və sərmayələrin cəlb edilməsi, dövlət-özəl əməkdaşlığının inkişafının təmin edilməsi, bununla yanaşı ölkə daxilində və xaricində təşviqat-təbliğat işlərini həyata keçirir.

Beləliklə, yuxarıda qeyd olunan dövlət səviyyəsində həyata keçirilən tədbirlər qaçqın və məcburi köçkünlərin sosial problemlərinin aradan qaldırılmasında Azərbaycan Respublikasının dövlət siyasətinin prioritet hissəsi olduğunun ifadəsidir. Məcburi köçkünlərin öz doğma yurdlarına qayıdışı ilk olaraq Zəngilan rayonunun Ağalı kəndinə 2022-ci il 19 iyul tarixində 41 ailənin köçürülməsi ilə başlanmış və bununla da onların torpaq həsrətinə son qoyulmuşdur. Daha sonrakı dövrlərdə Tərtər rayonunun işğaldan azad edilmiş Talış kəndinə, Laçın şəhərinə və Füzuliyə keçmiş məcburi köçkünlərin məskunlaşdırılması baş tutub və digər rayonlarımıza da köçlərin həyata keçirilməsi üzrə işlər mərhələlərlə davam etdirilir.

Qarabağa yeni həyatın qayıdışında məcburi köçkünlərin oraya köçürülməsi qədər onların məşğulluğunun artırılması və işsizliyin azaldılması da əsas diqqətin yönəldiyi məsələlərdəndir. Bu məqsədlə müvafiq qurumlar tərəfindən onlar bacarıqlarına və ixtisaslarına uyğun işlərə cəlb olunurlar.

Böyük Qayıdış nəticəsində keçmiş məcburi köçkünlər işğaldan azad edilmiş ərazilərə, öz yurdlarına qayıdıb orada firavan, təhlükəsiz yaşayaraq bu illər ərzində çəkdikləri çətinlikləri unudacaqlar.

**Ədəbiyyat:**

1. "Qaçqınların və Məcburi Köçkünlərin Yaşayış Şəraitinin Yaxşılaşdırılması və Məşğulluğunun Artırılması üzrə Dövlət Proqramı"nın Təsdiq Edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı //https://e-qanun.az/framework/6261

2. "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı // https://e-qanun.az/framework/52757

3. "Qarabağ Dirçəliş Fondu" Publik Hüquqi Şəxsin Yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı // https://e-qanun.az/framework/46706

4. Azərbaycan Respublikası Prezidentinin Katibliyi (2013). Qaçqınların və məcburi köçkünlərin rifahı naminə = For the Welfare of Refugees and Internally Displaced Persons. I cild. Bakı, Azərbaycan və ingilis dillərində.

5. Azərbaycan Respublikasının İşğaldan Azad Edilmiş Ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı // https://e-qanun.az/framework/52757

6. Azərbaycan Respublikasının Qaçqınların və Məcburi Köçkünlərin İşləri Üzrə Dövlət Komitəsi Haqqında Əsasnamənin Təsdiq Edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı. // https://e-qanun.az/framework/7361

7. Dövlət Ali və Orta İxtisas Təhsil Müəssisələrində Ödənişli Formada Təhsil Alan Məcburi Köçkünlərin Təhsil Haqqını Ödəməkdən Azad Edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. //https://e-qanun.az/framework/2249

8. Dövlət Qayğısı/Ümummilli Lider/ https://idp.gov.az/az/care/parent/21

9. Əhməd, Ə. (2007). Qaçqın və məcburi köçkünlər: hüquqlar və problemlər. Bakı: Qanun

10. Komitənin Yaranma Tarixi. // https://idp.gov.az/az/content/1/parent/1

11. Qaçqınların və Məcburi Köçkünlərin (Ölkə Daxilində Köçürülmüş Şəxslərin) Statusu haqqında Azərbaycan Respublikasının Qanunu. https://e-qanun.az/framework/4757

12. Məcburi Köçkünlərin və Onlara Bərabər Tutulan Şəxslərin Sosial Müdafiəsi haqqında Azərbaycan Respublikasının Qanunu. //https://e-qanun.az/framework/4758

13. Rəhmanov, F. (2021). Sosial Sfera və Sosial Siyasət. Bakı: 438 s.

14. Şamilova, H. (2010). Əhalinin Sosial Müdafiəsinin Nəzəri-Metodoloji Problemləri. Bakı Universitetinin Xəbərləri, Sosial-Siyasi Elmlər Seriyası, 2, 107-116

# AZƏRBAYCANDA DİSSERTASİYA TƏDQİQATLARININ ÜMUMİ İCMALI: BİBLİOMETRİK TƏHLİL

**Abdullayeva Nərminə Dəmir**

**Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu**

**https://orcid.org/0000-0001-5191-0870**

**narmina-abdullayeva@unec.edu.az**

# GENERAL OVERVIEW OF DISSERTATION RESEARCH IN AZERBAIJAN: BIBLIOMETRIC ANALYSIS

**Abdullayeva Narmina Damir**

**Institute of Manuscripts named after Mahammad Fuzuli**

**https://orcid.org/0000-0001-5191-0870**

**narmina-abdullayeva@unec.edu.az**

**Summary**

Bibliometric analysis is a valuable method for assessing the scientific landscape of a given field. In this study, a comprehensive bibliometric analysis of dissertation research in Azerbaijan was given to highlight the chronological trends of academic scientific achievements in the country, aiming to provide a broad overview of the research output and trends in the country's academic community. Based on various academic databases (HAC) and the collections of the National Library of Azerbaijan, the main repository of the country, a significant collection of existing dissertations has been assembled. With the help of bibliometric methods, the growth dynamics of these dissertations by decades and distribution by scientific fields were studied. The results obtained reflect the interest in academic research in the

country and indicate a noticeable increase in the productivity of dissertation research over the years. This bibliometric analysis is a general overview of dissertation research in Azerbaijan, offering valuable information to both the public and scholars and researchers.

**Keywords:** dissertations, bibliometric analysis, science in Azerbaijan, priority fields of science

## ОБЩИЙ ОБЗОР ДИССЕРТАЦИОННЫХ ИССЛЕДОВАНИЙ В АЗЕРБАЙДЖАНЕ: БИБЛИОМЕТРИЧЕСКИЙ АНАЛИЗ

**Абдуллаева Нармина Дамир**
**Институт рукописей имени Мухаммеда Физули**
**https://orcid.org/0000-0001-5191-0870**
**narmina-abdullayeva@unec.edu.az**

**Резюме**

Библиометрический анализ является ценным методом оценки научного ландшафта данной области. В этом исследовании был дан всесторонний библиометрический анализ диссертационных исследований в Азербайджане, чтобы осветить хронологические тенденции академических научных достижений в стране, и стремясь предоставить широкий обзор результатов исследований и тенденций в академическом сообществе страны. На основе различных академических баз данных (ВАК) и фонда Национальной библиотеки Азербайджана, главного хранилища страны, собрана значительная коллекция существующих диссертаций. С помощью библиометрических методов изучена динамика роста этих диссертаций по десятилетиям и распределение по научным областям. Полученные результаты отражают интерес к академическим исследованиям в стране и свидетельствуют о заметном росте продуктивности диссертационных исследований с годами. Этот библиометрический анализ представляет собой хронологический обзор диссертационных исследований в Азербайджане, предлагая ценную информацию как для общественности, так и для ученых и исследователей. Поскольку Азербайджан продолжает развиваться как общество, основанное на знаниях, это исследование может послужить ценным ресурсом для продвижения академических достижений и развития исследований в стране.

**Ключевые слова:** диссертации, библиометрический анализ, наука в Азербайджане, приоритетные области науки

Bibliometrik təhlil müəyyən bir sahənin elmi mənzərəsini qiymətləndirmək üçün dəyərli bir üsuldur. Bu araşdırmada ölkədə akademik elmi nailiyyətlərin xronoloji tendensiyalarını işıqlandırmaq məqsədi ilə Azərbaycanda dissertasiya tədqiqatlarının hərtərəfli bibliometrik təhlili verilmişdir. Müxtəlif akademik məlumat bazalarına (AAK) və ölkənin baş repozitoriyası Azərbaycan Milli Kitabxanasının fonduna əsaslanaraq, mövcud olan dissertasiyaların əhəmiyyətli məlumat toplusu toplanmışdır. Bibliometrik üsullardan istifadə etməklə bu dissertasiyaların həm onilliklər üzrə artım dinamikası, həm d həm də elm sahələri üzrə paylanması tədqiq olunmuşdur.

Akademik mükəmməlliyə nail olmaq və biliyin inkişaf etdirilməsində, bir millətin intellektual mənzərəsinin formalaşmasında elmi tədqiqatlar mühüm rol oynayır. Xəzər dənizi ilə Qafqaz dağları arasında yerləşən çoxşaxəli və mədəni cəhətdən zəngin bir ölkə kimi Azərbaycan müxtəlif elmlər üzrə akademik araşdırmaların və tədqiqat işlərinin təşviq edilməsində tarixi ənənəyə malikdir. Bu illər ərzində saysız-hesabsız alim, tələbə və akademik ölkənin tarixi və müasir problemlərini əks etdirən tədqiqatlar apararaq və dissertasiyalar hazırlamaqla artan biliklər toplusuna öz töhfələrini veriblər.

Bu tədqiqatın əhəmiyyəti təkcə onun akademik dəyərində deyil, həm də siyasətçilərə, pedaqoqlara və tədqiqatçılara dəyərli fikirlər təqdim etmək potensialının olmasındadır. Azərbaycanda dissertasiya tədqiqatlarının tarixi trayektoriyasını başa düşmək təhsil proqramlarının təkmilləşdirilməsi, araşdırmalarda olan boşluqların müəyyən edilməsi və sosial problemlərin effektiv həlli üçün fənlərarası əməkdaşlığın təşviq edilməsi üçün mühüm istiqamətlər verə bilər. Bu tədqiqatın məqsədi ölkənin elmi-tədqiqat platformasına töhfə verməklə yanaşı prioritet elm sahələrini müəyyən etmək üçün bibliometrik məlumatları araşdırmaq və dissertasiya mövzularının tematik təhlilini aparmaqla, gələcək tədqiqat maraqlarının təkamülünü müəyyən etməkdir. Bu tədqiqatda araşdırılan elmlər doktorluğu və fəlsəfə doktorluğu dissertasiyaları ilə bağlı aşağıdakı suallara cavablar axtarılır: 1) İllərə (onilliklərə) görə bölgü necədir? 2) Elm sahəsinə və elmi dərəcəyə görə necə bölünürlər? 3) Yazıldığı dillərə görə necə paylanırlar? 4) Müdafiə olunduqları (nəşr olunduğu) ölkələrə görə bölgü necədir?

Ellegaard (2018) bildirir ki, bibliometrik təhlil konkret sahənin ədəbiyyatını təhlil etmək üçün istifadə olunan statistik metoddur. Müəyyən bir sahədə nəşrlərin sayını, ən çox istinad edilən müəllifləri və ən çox istinad edilən məqalələri müəyyən etmək üçün istifadə olunur. Müxtəlif sahələrdə və ölkələrdə dissertasiyaların bir sıra bibliometrik tədqiqatları aparılmışdır. Məsələn, Shi X. (2022) tərəfindən aparılan araşdırma tədqiqatlarında dissertasiyaları təhlil etmək üçün statistik və vizual bibliometrik analizdən istifadə edilmişdir. Ahmid (2019) tərəfindən "2000-2018-ci illər arasında İslam Bankçılığı və Maliyyəsi" mövzusunda Böyük Britaniyada yazılmış hər bir namizədlik dissertasiyası araşdırılmışdır. Fəlsəfə doktoru dissertasiyaları dəqiq axtarış parametrləri əsasında Böyük Britaniyanın bütün universitetlərinin məlumat bazalarına qoşulan Britaniya Kitabxanasının məlumat bazasında axtarılaraq təhlil edilmişdir. Aslan & Açıkgöz (2022), (2023) doktorluq dissertasiyalarını keyfiyyət baxımından araşdırıblar. Bir çox alimlər – Çeliker (2015), Krymskaya (2022), Köseoğlu (2020), Hsieh (2013) və Salqado-Orellana (2021), Плешкевич (2019) və s. kimi adı çəkilənlər də daxil olmaqla müxtəlif kontekstlərdə dissertasiya və tezislərin bibliometrik təhlili aparılmışdır. Bibliometrik təhlil son zamanlarda akademik tendensiyalar, biliklərin yayılması və elmi məhsuldarlıq haqqında müəyyən təsəvvür əldə etmək üçün istifadə olunan əhəmiyyətli tədqiqat yanaşmasına çevrilmişdir. Hacıyeva (2015) tərəfindən hazırlanmış "Kitabların və dissertasiyaların avtoreferatlarının bibliometrik təhlili biblioqrafik bilik elementi kimi (2003-2013)" adlı məqalədə Azərbaycanda aparılan tədqiqatların geniş icmalı verilmişdir. Müəllif bibliometrik yanaşmadan istifadə edərək tədqiqat mənzərəsindəki tendensiyaları və nümunələri müəyyən etməyə imkan verən məlumatları təhlil edərək ictimaiyyətin nəzərinə çatdırır.

Və bütün bu sahədə mövcud olan araşdırmalara nəzər yetirdikdə müəyyən edilmişdir ki, Azərbaycan Milli Kitabxanasının repozitoriyasına daxil olan (1920-2023) bütün dissertasiyaların bibliometrik təhlili aparılmamışdır. Bu araşdırmada bibliometrik təhlil və tematik təhlili əhatə edən qarışıq metodlardan istifadə edilmişdir. Kəmiyyət təhlili müxtəlif akademik məlumat bazalarından, o cümlədən Azərbaycan Milli Kitabxanasının elektron kataloqundan və Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının məlumat bazasından məlumatların öyrənilməsini əhatə edir. Burada aparılan məzmun təhlili isə 2013-2023-cü illər arasında Azərbaycanda bütün elm sahələri üzrə aparılan doktorluq və namizədlik dissertasiyaları ilə bağlıdır.

Tezisin əsas məqamı iki hissədən ibarətdir. Birinci hissədə Azərbaycan Milli Kitabxanasının məlumat bazası əsasında (Azerbaijan National Library, 2023) bütün dissertasiyalar illər üzrə təhlil edilib, ikinci hissədə isə Ali Attestasiya Komissiyasının məlumat bazasında olan 2013-cü ildən bu günə kimi müdafiə olunmuş dissertasiyalar təhlil olunur. Ali Attestasiya Komissiyasının verilənlər bazasında mövcud olan dissertasiyalar (AAK, 2023) elmi dərəcə və aid olduqları elm sahəsinə görə bölünərək təhlil edilib. Cədvəl 1-də Azərbaycanda müxtəlif onilliklər ərzində tamamlanmış dissertasiyaların ümumi sayının xronoloji

icmalı və hər bir dövr üzrə dissertasiyaların müvafiq faizi verilmişdir. Azərbaycanda bütün onilliklər üzrə tamamlanmış dissertasiyaların ümumi sayı 13286-dır.

*Cədvəl 1. Azərbaycanda dissertasiya tədqiqatlarının dinamikası*

| Xronoloji dövr | Azərbaycanda onilliklər üzrə dissertasiyaların ümumi sayı | Azərbaycanda onilliklər üzrə dissertasiyaların faizi % |
|---|---|---|
| 2020 - 2023 | 154 | 1,16 |
| 2010 – 2019 | 5586 | 42 |
| 2000 – 2009 | 5243 | 39,5 |
| 1990 – 1999 | 2291 | 17,24 |
| 1920 – 1989 | 11 | 0,08 |
| Cəmi | 13286 | 100% |

1920-ci ildən 1989-cu ilə qədər Azərbaycanda müdafiə olunmuş dissertasiyaların sayı 11-dir və ümumi dissertasiyaların 0,08%-ni təşkil edir. 1990-1999-cu illərdə, ölkədə mühüm siyasi-ictimai dəyişikliklərin baş verdiyi bir dövrdə dissertasiyaların sayı 2291-dir ki, bu da ümumi işin 17,24%-ni təşkil edir. 2000-2009-cu illər ərzində ümumilikdə 5243 dissertasiya işi yerinə yetirilmişdir ki, bu da ümumi işin 39,5% -ni təşkil edir. 2010-cu ildən 2019-cu ilə qədər 5586 dissertasiya işi müdafiə olunub ki, bu da ümumi işin 42%-ni təşkil edir. Və nəhayət, 2020-ci ildən indiyədək bu qısa müddət ərzində 154 dissertasiya tamamlanıb ki, bu da ümumi dissertasiya miqdarının 1,16%-ni təşkil edir (AAK, 2023). Dissertasiyaların yazıldığı dillərə görə təhlil etsək, Azərbaycan dilində 7758 dissertasiya mövcuddur. Azərbaycan dili dövlətin rəsmi dilidir və dissertasiyaların əksəriyyətinin ana dilində yazılması təəccüblü deyil. Rus dilində 5385 dissertasiya var. Rus dili tarixən Azərbaycanda, xüsusən də Sovet dövründə mühüm ünsiyyət və təhsil dili olmuşdur.




Bu tədqiqatın nəticələri göstərir ki, dissertasiyaların əksəriyyəti Azərbaycanda müdafiə olunub və nəşr edilib və mövcud dissertasiyaların əhəmiyyətli bir hissəsini təşkil edir (13286-dan 13035-i). Azərbaycandan sonra digər ölkələr üzrə dissertasiyaların paylanması müqayisədə nisbətən azdır. Rusiya Federasiyası paylanmaya görə 102 dissertasiya ilə ikinci yeri tutur. Sonrakı yerləri müvafiq olaraq 79 və 13 dissertasiya ilə Türkiyə və Ukrayna tutur. Bir neçə başqa ölkə müxtəlif beynəlxalq əməkdaşlıqları və tədqiqat işlərini nümayiş etdirən 1-dən 7-yə qədər məhdud sayda dissertasiya ilə təmsil olunur. Bu ölkələrə Almaniya, İngiltərə, Fransa, Qazaxıstan, İsrail, Qırğızıstan, Cənubi Koreya, ABŞ, Avstriya, Belarus, Çin, Özbəkistan, Belçika, Bolqarıstan, Gürcüstan Respublikası, Macarıstan, İran, İtaliya, Yaponiya, Latviya, Moldova, Hollandiya, Polşa, Şotlandiya, İsveçrə və Çexiya daxildir.

Azərbaycan Ali Attestasiya Komissiyası (AAK) ölkədə akademik tədqiqatlara və ali təhsilə nəzarət edilməsində və idarə olunmasında mühüm rol oynayır. AAK-ın məlumat bazası 2013-cü ildən başlayaraq

həm fəlsəfə doktoru (Ph.D.), həm də Elmlər Doktoru (D.Sc.) dissertasiyaları da daxil olmaqla, akademik işləri özündə ehtiva edir. 2013-cü ildə AAK-ın dissertasiyalar bazasının yaradılması Azərbaycanda akademik tədqiqatların irəliləyişində əhəmiyyətli bir addım oldu. Bu mərkəzləşdirilmiş və mütəşəkkil baza bir çox məqsədlərə xidmət edir, bu verilənlər bazası araşdırdığımız elm sahələri arasında prioriteti müəyyən etməyə kömək edir.




2013-2023-cü illəri əhatə edən dövr ərzində müdafiə olunan ümumi dissertasiyaların sayına görə ən çox filologiya elmləri 929 dissertasiya ilə birinci, tibb elmləri isə 639 dissertasiya ilə ikinci yerdədir. İqtisadiyyat elmləri və Texniki Elmlər üzrə də müvafiq olaraq 629 və 535 olmaqla xeyli sayda dissertasiya işi mövcuddur.

Bu tədqiqat bibliometrik təhlil vasitəsilə Azərbaycanda dissertasiya işlərinin hərtərəfli tarixi icmalını təqdim etmək və ölkənin elmi nailiyyətləri haqqında ətraflı məlumat vermək məqsədi daşıyır. Akademik işin təsirini qiymətləndirmək, nüfuzlu tədqiqat meyillərini müəyyən etməklə bu araşdırma Azərbaycanda tədqiqat siyasətinin, təhsil proqramlarının və ümumi akademik mənzərənin təkmilləşdirilməsinə töhfə verməyə çalışır.

**Ədəbiyyat:**


1. AAK. (2023, July 25-29). https://aak.gov.az/avtoreferat?full_name=&degree=0&science=0&code=0&p_name=0

2. Ahmid, A. F. (2019). Bibliometric analysis of PhD dissertations written in Islamic banking and finance in the United Kingdom. *İslam Ekonomisi ve Finansı Dergisi (İEFD), 5(1)*.

3. Aslan, A. &. (2022). Bibliometric Analysis of the Turkish Doctoral Dissertations: A Case Study of Economy, Law, Psychology, Political Science, and International Relations Disciplines. *Yükseköğretim Dergisi*, *12(2)*, 363-372.

4. Aslan, A. &. (2023). A Systematic Review and Bibliometric Analysis of the Turkish Doctoral Dissertations Completed in the Fields of Social Sciences and Humanities. *Üniversite Araştırmaları Dergisi, 6 (3)*, 238-246. doi:10.32329/uad.1310803

5. Azerbaijan National Library. (2023, July 25-29). Retrieved from http://ek.anl.az/search/query?facet_nc=m&sort=relevance&theme=e-kataloq

6. Çeliker, H. Ç. (2015). Fen Eğitimi Araştırmacılarına Bir Rehber: 2001- 2013 Yılları Arasında Yazılan Lisansüstü Tezlerin İncelenmesi. Elektronik Sosyal Bilimler Dergisi. *54(14)*. doi:10.17755/esosder.56295

7. Ellegaard, O. (2018). The application of bibliometric analysis: disciplinary and user aspects. *Scientometrics* , *116*, 181–202. doi:doi.org/10.1007/s11192-018-2765-z

8. Hajiyeva, A. (2015). Bibliometric Analysis books and dissertations abstracts as an element of bibliographic knowledge (2003-2013). *Kitabxanashunasliq ve biblioqrafiya*. Retrieved from http://www.anl.az/down/meqale/kitabxanashunasliq-biblioqrafiya/3_2015/613277.pdf

9. Hsieh, P. C. (2013). Bibliometric Analysis of the Theses and Dissertations on Information Literacy Published in the United States and Taiwan. In R. J. Chang, *Advances in Intelligent Systems and Applications* (Vols. 1. Smart Innovation, Systems and Technologies). Berlin, Heidelberg: Springer. doi:10.1007/978-3-642-35452-6_35

10. Köseoğlu, S. &. (2020). Türkiye'de 2010-2017 Yılları Arasında Fen Bilgisi Öğretmenliği Bilim Dalında Yapılmış Olan Lisansüstü Tezlerin Analizi. *Elektronik Sosyal Bilimler Dergisi, 19 (75)*, 1122-1147. doi:10.17755/esosder.654747

11. Krymskaya, A. S. (2022). A Bibliometric Analysis of Dissertations on the History of International Relations (2000–2019). *Sci. Tech. Inf. Proc., 49*, 39–47. doi:10.3103/S0147688222010063 Salgado-Orellana, N. B.-L.-B. (2021). A scientometric study of doctoral theses on the Roma in the Iberian Peninsula during the 1977–2018 period. . *Scientometrics*, *126*, 437–458. doi:10.1007/s11192-020-03723-y

12. Shi, X. Z. (2022). Bibliometric analysis of the Doctor of Nursing Practice dissertations in the ProQuest Dissertations and Theses database. . *Journal of advanced nursing, 78(3)*, 776-786.

13. Плешкевич, Е. (2019). История библиотечного дела сквозь призму отечественных диссертационных исследований: библиометрический анализ. *Библиотековедение, 68, № 1*, 77-84. doi:10.25281/0869-608X2019-68-1-77-84

## CƏNUBİ QAFQAZDA BAŞLICA ƏRAZİ-SƏRHƏD PROBLEMLƏRİ VƏ MÜNAQİŞƏLƏRİN MEYDANA ÇIXMASI

**Abdullayeva Nəsrin Famil**
**Bakı Dövlət Universiteti**
**https://orcid.org/0009-0005-6824-1307**
**nesrin.abdull@gmail.com**

## THE MAIN TERRITORIAL-BORDER PROBLEMS AND EMERGENCE OF CONFLICTS IN THE SOUTH CAUCASUS

**Abdullayeva Nasrin Famil**
**Baku State University**
**https://orcid.org/0009-0005-6824-1307**
**nesrin.abdull@gmail.com**

**Summary**

Problems related to borders and territories are considered one of the most important issues in the history of all states and nations. This problem is of scientific and political interest in the South Caucasus in the modern era. The relevance of the problem of forming interstate borders in the South Caucasus region is related to the existence of unresolved border issues and territorial conflicts. The peoples of the South Caucasus were able to establish their independence twice in the 20th century, after the fall of the Russian and Soviet empires. The emergence of independent states on the political map of the region in both periods of the fall of the Russian Empire and the collapse of the USSR strengthened Armenia's territorial claims to Azerbaijan and Georgia. Border problems resulted in bloody conflicts in

Karabakh, South Ossetia and Abkhazia. In modern times, the delimitation and demarcation of the borders between the sovereign South Caucasian republics has not yet been fully completed. This issue makes it necessary to study the problems related to the history of the formation of interstate borders in the South Caucasus region.
**Keywords:** South Caucasus, Soviet Empire, territory-border issues, regional conflicts, national interests

## ОСНОВНЫЕ ТЕРРИТОРИАЛЬНО-ПОГРАНИЧНЫЕ ПРОБЛЕМЫ И ВОЗНИКНОВЕНИЕ КОНФЛИКТОВ НА ЮЖНОМ КАВКАЗЕ

**Абдуллаева Насрин Фамиль**
**Бакинский Государственный Университет**
**https://orcid.org/0009-0005-6824-1307**
**nesrin.abdull@gmail.com**

**Резюме**

Проблемы, связанные с границами и территориями, считаются одними из важнейших в истории всех государств и народов. Эта проблема представляет научный и политический интерес на Южном Кавказе в современную эпоху. Актуальность проблемы формирования межгосударственных границ в Южно-Кавказском регионе связана с наличием нерешенных пограничных вопросов и территориальных конфликтов. Народы Южного Кавказа дважды смогли установить свою независимость в XX веке, после падения Российской и Советской империй. Появление независимых государств на политической карте региона как в период падения Российской империи, так и в период распада СССР усилило территориальные претензии Армении к Азербайджану и Грузии. Пограничные проблемы вылились в кровавые конфликты в Карабахе, Южной Осетии и Абхазии. В современное время делимитация и демаркация границ между суверенными южнокавказскими республиками еще не завершена полностью. Этот вопрос вызывает необходимость изучения проблем, связанных с историей формирования межгосударственных границ в Южно-Кавказском регионе.
**Ключевые слова:** Южный Кавказ, советская империя, территориально-пограничные вопросы, региональные конфликты, национальные интересы

Bütün dövlətlərin və xalqların tarixində sərhəd və ərazilərlə bağlı problemlər ən mühüm məsələlərdən biri sayılır. Bu problem Cənubi Qafqaz məkanında müasir dövrdə də elmi və siyasi maraq doğurur. Cənubi Qafqaz regionunda dövlətlərarası sərhədlərin formalaşdırılması probleminin aktuallığı indiyədək həllini tapmamış sərhəd məsələləri və ərazi münaqişələrinin mövcudluğu ilə bağlıdır. Cənubi Qafqaz xalqları XX əsrdə iki dəfə, Rusiya və Sovet imperiyalarının süqutundan sonra müstəqilliklərini bərqərar edə bildilər. Rusiya imperiyasının süqutu və SSRİ-nin dağıldığı hər iki dövrdə regionun siyasi xəritəsində müstəqil dövlətlərin meydana çıxması Ermənistanın Azərbaycana və Gürcüstana ərazi iddialarını gücləndirdi. Qarabağda, Cənubi Osetiya və Abxaziyada qanlı münaqişələr ilə nəticələnən sərhəd problemləri yarandı.

Müasir dövrdə suveren Cənubi Qafqaz respublikaları arasında sərhədlərin delimitasiyası və demarkasiyası hələ də tam olaraq başa çatmamışdır. Bu məsələ Cənubi Qafqaz regionunda dövlətlərarası sərhədlərin formalaşma tarixi ilə bağlı problemlərin öyrənilməsini zəruri edir. XIX əsrdə regionun Rusiya imperiyası tərəfindən işğalından sonra əhalinin etnik tərkibinə və tarixi ənənələrinə uyğun olmayan inzibati-ərazi bölgüsü aparıldı. Cənubi Qafqazda müasir ərazi münaqişələrinin kökləri keçən əsrin əvvəllərində regionda baş verən hadisələrdən qaynaqlanır. Bu səbəbdən münaqişələrin yaranma tarixinin və bu problemlərin həllinin tarixi təcrübəsinin öyrənilməsi müasir dövrdə Cənubi Qafqaz respublikaları üçün çox zəruridir. Ermənilərin əsassız ərazi iddialarına görə Azərbaycan Respublikası üçün ərazi və sərhədlər məsələsinin tədqiqi çox əhəmiyyətlidir.

Rusiya imperiyası regionda “etibarsız element” hesab etdiyi müsəlman əhalisinin sayını azaltmağa, xristian əhalinin sayını artırmağa çalışırdı. Bu məqsədlə çarizm Qafqazda köçürmə siyasəti həyata keçirirdi. Erməni xristian əhalisinin regionda etibarlı dayaq yaradacağını düşünən Rusiya hökuməti XIX əsrdə Osmanlı imperiyası və Qacarlar ilə apardığı bir sıra müharibələrdən sonra minlərlə erməni Qafqaza köçürüldü. 1918-ci ilin mayında Cənubi Qafqazda müstəqil dövlətlər yaranan dövrdən Sovet hakimiyyəti bərqərar edilənə qədər onların arasında sülh münasibətlərinin yaradılmasında əsas maneə ərazi məsələlərinin həll edilməmiş olması idi. Cənubi Qafqazda müstəqilliklərini yeni elan etmiş dövlətlərin sərhədlərinin Rusiya imperiyasının keçmiş quberniyalarının sərhədləri ilə uyğun gəlməməsi münaqişələrin kökündə dayanan səbəblərdən biri idi. Hakim dairə nümayəndələri regionun coğrafiyası, əhalinin etnik bölgüsü və ya beynəlxalq siyasət kimi obyektiv reallıqları nəzərə almırdılar. Bu dövrdə ermənilər də sərhədlərlə bağlı bəzən əfsanəvi məlumatlara əsaslanaraq öz ərazilərini müəyyən etmək istəyirdilər. 1918-1921-ci illərdə Cənubi Qafqazda müstəqil dövlətlərin mövcud olduğu qısa müddət ərzində sərhəd mübahisələri həll olunmadı.

1922-ci ilin dekabr ayında Zaqafqaziya respublikaları formal olaraq müstəqil hesab edilsələr də, bütün məsələlərdə olduğu kimi ərazi məsələsi də Sovet Rusiyasının müdaxiləsi ilə həll olunurdu. Bütün verilən qərarlar Sovet Rusiyasının strateji maraqlarını əks etdirirdi. Bolşeviklər müstəqillik illərində əvvəllər “mübahisəli” hesab edilən ərazilərin Ermənistan və Gürcüstana verilməsi üçün səy göstərirdilər. Xüsusilə erməni və azərbaycanlı əhalinin qarışıq yaşadığı Yelizavetpol və İrəvan quberniyaları ilə həmsərhəd ərazilər Azərbaycan və Ermənistan arasındakı münaqişənin obyektinə çevrilirdi. Azərbaycan Xalq Cümhuriyyətinin mövcudluğu dövründə onun ərazisi 113.895.97 $km^2$ idi. Bunun yalnız 97.297.67 $km^2$-i mübahisəsiz ərazi hesab edilmişdir. Sovet hakimiyyətinin mövcud olduğu illərdə Azərbaycanın ərazisi 86.6 min $km^2$-ə qədər azalmış, Ermənistanın ərazisi Azərbaycanın torpaqları hesabına 10 min $km^2$-dən 29.8 min $km^2$-ə, Gürcüstanın ərazisi isə 69,7 min $km^2$-ə qədər artmışdır.

Müasir dövrümüzün ən mühüm problemlərindən biri olan regional münaqişələr birbaşa, yaxud dolayı yolla, iki, yaxud bir neçə ölkənin maraqlarının toqquşması zəminində, onlar arasında ərazi iddialarının olması səbəbindən meydana çıxır. 1988-ci ildən etibarən ermənilər Dağlıq Qarabağın Azərbaycanın tərkibində muxtar elan edilməsinin “tarixi səhv” olduğunu iddia edərək, Moskva və Qars müqavilələrinin qüvvəsini itirdiyini hesab edirdilər. Heç bir hüquqi və tarixi əsası olmadan Qarabağa və Naxçıvana ərazi iddiaları irəli sürürdülər. Erməni iddiaları təkcə Azərbaycan əraziləri ilə məhdudlaşmırdı, ermənilər demək olar ki, bütün Cənubi Qafqaza ərazi iddiaları ilə çıxış edirdilər.

XX əsrin tarixində ən faciəli münaqişələrdən biri olan Ermənistan-Azərbaycan, Qarabağ münaqişəsi nəticəsində azərbaycanlılar öz ata-baba yurdlarından didərgin düşdülər. Rusiyanın dəstəyinə arxalanan Ermənistanın Azərbaycanda olan daxili qeyri-sabitlikdən istifadə edərək Dağlıq Qarabağ Muxtar Vilayətini (ərazisi 4388 $km^2$) və ətraf rayonları işğal etməsi nəticəsində 1 milyondan çox qaçqın, məcburi köçkün kütləsi yaranmış, Naxçıvanı Azərbaycanla birləşdirən yeganə nəqliyyat yolu olan Mehri dəmiryolunun dağıdılması nəticəsində Naxçıvan ərazisi Azərbaycandan ayrı düşmüşdü. 2020-ci il sentyabrın 27-də Ermənistanın növbəti dəfə atəşkəsi pozması və Azərbaycan Ordusunun əks hücuma keçməsi ilə başlanan 44 günlük müharibə Azərbaycanın qələbəsi ilə başa çatdı.

2020-ci il noyabrın 10-da Azərbaycan Respublikasının Prezidenti, Rusiya Prezidenti və Ermənistanın Baş Naziri tərəfindən imzalanan müharibənin dayandırılması haqqında üçtərəfli bəyanatda Dağlıq Qarabağın statusu haqqında heç bir ifadənin olmaması Azərbaycan Ordusunun şanlı qələbəsidir. Naxçıvan ilə Azərbaycanın qərb rayonlarını birləşdirən yeni nəqliyyat kommunikasiyalarının inşasının təmin ediləcəyi Naxçıvan Muxtar Respublikası ərazisini Azərbaycanın əsas hissəsi ilə quru yollarla birləşdirmə istiqamətində tarixi bir addımdır. Cənubi Qafqaz regionunun digər dövlətlərindən biri olan Gürcüstanda da

dondurulmuş münaqişələrin qalması regionun inkişafına mane olaraq təhlükəsizlik problemləri yaradır. Rusiya regionu nəzarətdə saxlamaq üçün bölgədə olan Abxaziya və Cənubi Osetiya kimi beynəlxalq münaqişələri gündəmdə saxlayır. Bu münaqişələrdə Gürcüstanda yaşayan ermənilər separatçı tərəfdə Gürcüstana qarşı vuruşurdular. Ermənistan tərəfindən istiqamətlənən Samsxet-Cavaxetiyada məskunlaşan erməni əhali də zaman-zaman iğtişaşlar törədir, Ermənistan Samsxet-Cavaxetiyanı da uydurma "Böyük Ermənistanın" tərkib hissəsi hesab edir.

Belə nəticəyə gəlmək olar ki, hələ XIX əsrdə çar hökumətinin Cənubi Qafqaz bölgəsində həyata keçirdiyi inzibati-ərazi bölgüsü zamanı regionun tarixi, etnoqrafik və coğrafi xüsusiyyətləri və reallıqları nəzərə alınmamış, 1918-1920-ci illərdə bir çox etnosiyasi və etnososial səciyyəli ixtilafların meydana çıxmasına səbəb olmuşdur. Cənubi Qafqazda yeni dövlətlərin meydana gəlməsi ilə əvvəlki inzibati sərhədlər dövlət sərhədlərinə çevrilsə də Sovet hakimiyyətinin qurulması və sonrakı mövcudluğu dövründə ərazi-sərhəd problemləri tam həllini tapmadı.

**Ədəbiyyat:**


1.Azərbaycan tarixi. Yeddi cilddə. VI cild (aprel 1920 - iyun 1941). Bakı, "Elm", 2008, 568 s.

2.Azərbaycan Xalq Cümhuriyyəti ensiklopediyası /Baş redaktor Y.M.Mahmudov: 2 cilddə, I c., Bakı: Lider, 2004, 440 s.; II c., Bakı: Lider, 2005, 475 s.

3.Hüseynova İ. Heydər Əliyev və Qafqazda sülh prosesi. Bakı, Çaşıoğlu, 2008, 672 s.

4.Hüseynova İ. Müstəqil Azərbaycan dövlətinin qurucusu. Bakı, "Təhsil", 2004, 472 s.

5.Nəsibzadə N. Sərhədlər. "Elm" qəzeti, Bakı, 1989, 17 iyun

6.Rəhmanzadə Ş. Zaqatala dairəsi 1917-1918-ci illərdə: ictimai seçim situasiyasında etnosiyasi identiklik axtarışları // Tarix və onun problemləri, 2010, №3, s. 72-79

7.И.М.Гусейнова История народов Кавказа. Баку, 2018, 1248 с.

8.С.О.Мустафаева. Изменения границ и территорий на Южном Кавказе (1917-1922 гг.). Баку, 2017, «Европа», 304 с.


## ABŞ-TÜRKİYƏ ƏLAQƏLƏRİNDƏ MÖVCUD OLAN PROBLEMLƏR VƏ STRATEJİ ƏMƏKDAŞLIĞA DOĞRU ATILAN ADDIMLAR (2009-2020)


**Əsədova Nurdan Rufulla**
**Bakı Dövlət Universiteti**
**https://orcid.org/0000-0003-2952-4863**
**nurdan.asadova@gmail.com**


## THE PROBLEMS IN USA-TURKEY RELATIONS AND STEPS TAKEN TOWARDS STRATEGIC COOPERATION (2009-2020)


**Asadova Nurdan Rufulla**
**Baku State University**
**https://orcid.org/0000-0003-2952-4863**
**nurdan.asadova@gmail.com**

**Summary**

In the thesis, a study was conducted on the crises that occurred between the US and Turkey in 2009-2020 and the main steps taken towards strategic cooperation after these crises. In the period we are talking about, the "FETÖ problem", "Pastor Andrew Brunson" crisis, "Visa crisis", "S-400 crisis" took place between the US and Turkey, and these crises had a very negative impact on the relations between the two countries. At the same time, some of these crises, such as the S-400 and FETÖ problem, have not yet been resolved between the US and Turkey. However, in 2009-2020, despite the crises we have highlighted between the US and Turkey, significant meetings were held that resulted in strategic cooperation.

**Keywords:** US, Turkey, crisis, strategic cooperation

# ПРОБЛЕМЫ В ОТНОШЕНИЯХ США И ТУРЦИИ И ШАГИ, ПРЕДПРИНЯТЫЕ НА НАПРАВЛЕНИИ СТРАТЕГИЧЕСКОГО СОТРУДНИЧЕСТВА (2009-2020 гг.)

**Асадова Нурдан Руфулла**

**Бакинский Государственный Университет**

**https://orcid.org/0000-0003-2952-4863**

**nurdan.asadova@gmail.com**

**Резюме**

В тезис было проведено исследование кризисов, произошедших между США и Турцией в 2009-2020 годах, и основных шагов, предпринятых в направлении стратегического сотрудничества после этих кризисов. В тот период, о котором мы говорим, между США и Турцией имели место «проблема ФЕТО», «кризис пастора Эндрю Брансона», «визовый кризис», «проблема С-400», и эти кризисы оказали весьма негативное влияние на отношения между двумя странами. В то же время некоторые из этих кризисов, такие как проблема С-400 и ФЕТО, до сих пор не решены между США и Турцией. Однако в 2009-2020 годах, несмотря на отмеченные нами кризисы между США и Турцией, состоялись важные встречи, результатом которых стало стратегическое сотрудничество.

**Ключевые слова:** США, Турция, кризис, стратегическое сотрудничество

ABŞ-Türkiyə münasibətlərinin tarixinə nəzər yetirdiyimiz zaman görürük ki, tarixən iki ölkə arasında müxtəlif səbəblərdən bir çox problemlər baş vermiş, bəzi hallarda bu problemlər qısa müddətdə öz həllini tapsa da, bəzən bu gərginliklər uzun illər davam etmişdir (Altuntaş, 2017). 2009-2020-ci illər üçün ABŞ-Türkiyə əlaqələrinin əsas xüsusiyyəti isə hər iki ölkənin bir-birlərini "Model Ortaq" adlandırması hesab oluna bilər. Lakin ABŞ-ın dövlət katibi A.Blinkenin dediyi kimi, bu "sözdə" ortaqlıq, getdikcə əks məna ifadə etmişdir. Hər iki ölkənin maraqlarının, mənafelərinin müxtəlif olması, eyni ittifaqa üzv olmalarına baxmayaraq, bir-birlərinə qarşı güvənsizlikləri sonrakı illərdə ABŞ-Türkiyə arasında daha böyük böhranlara səbəb olmuşdur.

**ABŞ-Türkiyə arasında yaşanan əsas böhranlar**

Ümumiyyətlə, ABŞ-Türkiyə münasibətlərini olduqca gərginləşdirən və bir sıra böhranların meydana çıxmasına səbəb olan əsas hadisələrdən biri kimi Türkiyədə 2016-cı il 15 iyul tarixində baş vermiş çevrilişə cəhdi qeyd etsək, fikrimcə, yanılmış olmarıq. Bu zaman isə ilk olaraq, "FETÖ problemi"ni qeyd etməyimiz lazımdır. Bu çevrilişə cəhdin arxasında ABŞ-ın olması iddiaları, terror təşkilatının lideri F.Gülənin 1999-cu ildən Pensilvaniyada yaşaması, buradan təşkilatını idarə etməsi və onun qaytarılmaması ABŞ-Türkiyə əlaqələrinə təsirsiz keçə bilməzdi (Önder, 2022: 11). Qeyd etmək lazımdır ki, 2016-cı il 19 iyul tarixində F.Gülənin ekstradisiya edilməsinə dair ilk rəsmi proses başlanmış, Türkiyənin Ədliyyə Nazirliyi F.Gülənlə əlaqəli dörd müxtəlif ekstradisiya faylını ABŞ-a göndərmişdir (Baykan,

2020). İndiyə qədər F.Gülənin qaytarılmasına dair ABŞ-Türkiyə nümayəndə heyəti arasında bir çox görüşlər keçirilməsinə və müzakirələr aparılmasına baxmayaraq, bu məsələ hələ də öz həllini tapmamışdır.

ABŞ-Türkiyə münasibətlərinə "Keşiş Endryu Brunson" böhranı da mənfi təsir göstərmişdir. Belə ki, 15 İyul tarixli çevrilişə cəhddən sonra saxlanılanlar arasında amerikalı keşiş E.Brunson və onun həyat yoldaşı da var idi. FETÖ terror təşkilatı ilə əlaqəsinin olması və Suriyadan gələn sığınacaq axtaranlara kömək etmək adı ilə ABŞ-a casusluq etməsi ittihamları ilə həbs olunmuşdur. İlk olaraq, ona 35 il həbs cəzası istənilsə də, bu cəza azaldılaraq 3 il 1 ay 15 gün həbs cəzası verilmişdir. Bu məsələ Obama administrasiyası dövründə etirazla qarşılansa da, D.Trampın hakimiyyətə gəldiyi ilk aylardan etibarən isə əsas siyasi mövzulardan biri olmuşdur. Tramp administrasiyası R.T.Ərdoğandan keşiş E.Brunsonun ekstradisiyasını tələb etsə də, bu tələb Türkiyə prezidenti tərəfindən qəbul edilməmişdir. E.Brunsonun həbsdə olduğu dövr ərzində ABŞ Türkiyəni sanksiyalarla hədələmiş, eyni zamanda ABŞ-ın vitse-prezidenti M.Pens keşiş Brunsonun tezliklə azadlığa buraxılmadığı təqdirdə Türkiyəyə qarşı iqtisadi sanksiyaların tətbiq ediləcəyini bildirmişdir. 2018-ci ilin iyulunda, 600 gündən çox həbsdə qalan E.Brunsonun ev həbsinə qərar verilmiş və ABŞ-a geri qayıtmışdır. Əlbəttə ki, bu qərarın verilməsində Ağ Evin də təsiri olmuşdur (Yılmaz, 2022: 61-62).

2017-ci ildə isə iki ölkə arasında son əlli ildə baş vermiş ən böyük böhran hesab olunan "Viza böhranı" baş vermişdir. Böhranın başlanmasına səbəb isə həmin ilin oktyabr ayının 4-də ABŞ-ın Türkiyədəki Konsulluq əməkdaşı M.Toppuzun FETÖ terror təşkilatı ilə əlaqəsinin olması iddiası ilə həbs olunması olmuşdur. Buna cavab olaraq, 8 oktyabr tarixində ABŞ Türkiyə üçün viza müraciətlərini müddət göstərilməməklə təxirə salmış, daha sonra Türkiyədə ABŞ üçün viza müraciətlərini dayandırmışdır. Lakin, 2017-ci il 28 dekabr tarixində hər iki ölkə qarşılıqlı olaraq viza müraciətləri ilə əlaqədar məhdudiyyətləri aradan qaldırmış və "viza böhranı" sona çatmışdır (Doğan & Şeşen, 2019: 821-822).

PYD/YPG məsələsi də ABŞ-Türkiyə əlaqələrində böhrana səbəb olmuşdur. Qeyd etmək lazımdır ki, Suriyada vətəndaş müharibəsinin başlandığı ilk dövrlərdə həm ABŞ, həm də Türkiyə Bəşər Əsəd siyasətinin əleyhinə olan rejimin etdiyi qətliamlar və kimyəvi hücuma qarşı çıxmışdır. Lakin, İŞİD (DEAŞ) adlı terror təşkilatının meydana çıxmasından sonra ABŞ siyasətində müəyyən dəyişiklik etmişdir. 2014-cü ilin sentyabr ayında İŞİD Suriyanın Kobani şəhərinə hücum edən zaman həm ABŞ, həm də bir çox Qərb ölkəsi İŞİD-ə qarşı PKK-nın bir qolu hesab olunan PYD/YPG-ni dəstəkləmişdir. Bu hadisə Türkiyədə mənfi reaksiyalara səbəb olmuş və iki ölkə münasibətlərini gərginləşdirmişdir. Həmçinin, ABŞ Xarici İşlər Nazirliyinin o dövrdəki sözcüsü M.Harfın PYD-ni "terror təşkilatı olaraq görmürük" açıqlaması gərginliyi daha da artırmışdır. Lakin, həmin dövrdə ABŞ-da müdafiə naziri olan J.Mattis ABŞ ilə PYD/YPG arasındakı münasibətin "taktiki" olduğunu və İŞİD-in məğlubiyyətindən sonra kürd qüvvələrinə verilmiş silahların geri alınacağını bildirmişdir (Örmeci, 2020: 78).

Bəhs etdiyimiz dövrdə, ABŞ-Türkiyə münasibətlərində baş vermiş və hələ də tam olaraq həllini tapmamış böhranlardan biri də S-400 və F-35 problemidir. Belə ki, 2017-ci ildə Türkiyənin Rusiyadan S-400 hava hücumundan müdafiə sistemlərinin alınması ilə bağlı razılığa gəldiyini elan etməsi, ABŞ tərəfindən etirazla qarşılanmışdır. Buna cavab olaraq, ABŞ Türkiyəni F-35 proqramından çıxardığını elan etmişdir (Birol, 2019: 1). Həmçinin, ABŞ S-400 raketlərinin NATO texnologiyası ilə uyğun olmadığını, NATO üçün təhlükəli xarakter daşıdığını bildirmiş və 2020-ci ilin dekabr ayında Türkiyəyə qarşı sanksiyalar tətbiq etmişdir (BBC NEWS, 2020).

**Strateji əməkdaşlığa doğru atılan əsas addımlar**

Bəhs etdiyimiz dövrdə, ABŞ-Türkiyə arasında adını çəkdiyimiz böhranların olmasına baxmayaraq, strateji əməkdaşlığın inkişaf etdirilməsi ilə əlaqədar bir çox addımlar atılmışdır. Xüsusilə, Obama

administrasiyası dövründə (2009-2017) “Model Müttəfiqlik” anlayışında yeni bir səhifənin açılması qismən də olsa iki ölkə əlaqələrinin inkişafına müsbət təsir göstərmişdir (Korkmaz, 2020: 188).

Tramp administrasiyası dövründə (2017-2021) isə ABŞ-Türkiyə əlaqələrinin inkişafında ən əsas hadisə 2018-ci ildə imzalanmış “Strateji Tərəfdaşlığa dair Birgə Bəyanat” olmuşdur. Bu bəyanatla hər iki ölkə bir-birlərinin təhlükəsizliyinə və müdafiəsinə bağlı olduqlarını bir daha təsdiq etmişdirlər (Amerikanın Səsi, 2018). Eyni zamanda, 2019-cu ilin noyabr ayında Vaşinqtonda ölkə liderlərinin tarixi görüşü ABŞ-Türkiyə strateji əməkdaşlığının inkişafı baxımından olduqca önəmli idi. İlk olaraq, D.Tramp və R.T.-Ərdoğan arasında təkbətək, daha sonra isə nümayəndə heyəti arasında görüş keçirilmişdir. Görüş zamanı əsas müzakirə mövzuları S-400 və F-35 məsələsi, beynəlxalq terrorizmə qarşı mübarizədə birgə əməkdaşlıq və s. olmuşdur (Sözcü Gazetesi, 2019).

2009-2020-ci illər ABŞ-Türkiyə münasibətləri üçün xarakterik cəhət həm böhranların, həm də strateji əməkdaşlığın qismən inkişafı olmuşdur. İki ölkə arasında problemlərin yaranmasının isə bir neçə səbəbini göstərə bilərik: hər iki ölkədə demokratik rejimlərin yaratdığı problemlər; milli və regional maraqlarının üst-üstü düşməməsi; siyasi mədəniyyət və ənənələr fərqi və s .(Örmeci, 2020: 81).

**Ədəbiyyat:**


1. Altuntaş, Ö. (2017, 10 Ekim). “ABD-Türkiye ilişkileri: 1960’lardan bugüne yaşanan krizler”. *BBC NEWS Türkçe:* https://www.bbc.com/turkce/haberler-dunya-41553003
2. Amerikanın Səsi. (2018, 17 Fevral). “Türkiyə və ABŞ strateji tərəfdaşlıq bəyanatı ilə çıxış edib”. https://www.amerikaninsesi.org/a/siyasi/4258857.html
3. Baykan, D. (2020, 13 Temmuz). “15 Temmuz’un 4.yılında Türkiye’nin ABD’den Gülen’i iade talepleri yanıtsız kaldı”. *Anadolu Ajansı:* https://www.aa.com.tr/tr/15-temmuz-darbe-girisimi/15-temmuzun-4-yilinda-turkiyenin-abdden-guleni-iade-talepleri-yanitsiz-kaldi-/1908447
4. BBC NEWS. (2020, 14 December). “US impose sanctions on Turkey over Russia weapons”. https://www.bbc.com/news/world-us-canada-55311099
5. Birol, C. (2019, 28 June). Turkey’s S-400 Missile Crisis: Four Possible Outcomes. *RICE UNIVERSITY’S BAKER INSTITUTE FOR PUBLIC POLICY,* 6.
6. Doğan, Ş., & Şeşen, E. (2019, 27 Temmuz). “2017 Türkiye-ABD vize krizi haberlerine yönelik çerçeve analizi”. *Dergi Park Akademik, 12,* 813-845.
7. Korkmaz, K. (2020). Son dönem Türkiye-ABD ilişkilerinin genel niteliğine bir bakış. *2023’e doğru küresel ve bölgesel gelişmeler karşısında türk dış politikası, TASAV, 5, derleyen. Prof. Dr. Sarıkaya, Y.,* 181-212.
8. Önder, E. (2022). 21’inci Yüzyıl Türk-Amerikan İlişkilerinde Yaşanan Sorunlar ve Çözüm Önerileri. *İstanbul: Avrasya Dosyası Dergisi, 13 (1),* 39-71.
9. Örmeci, O. (2020). Türk-Amerikan İlişkilerinde 8 Büyük Kriz. *Dergi Park Akademik, International Journal of Economics Administrative and Social Sciences, 3 (2),* 63-84.
10. Sözcü Gazetesi. (2019, 13 Kasım). “Tarihi görüşme sona erdi! İşte Erdoğan Trump buluşmasının detayları”. SOZCU.COM.TR: https://www.sozcu.com.tr/2019/dunya/son-dakika-erdogan-trump-gorusme-si-basladi-dunyanin-gozu-bu-toplantida-5449241/
11. Yılmaz, E.A. (2022). 2016 yılından günümüze Türkiye-ABD ilişkilerinin güvenlik bağlamında değerlendirilmesi. *Dumlupınar Üniversitesi Sosyal Bilimler Dergisi, 73,* 53-71.

# HEYDƏR ƏLİYEV FONDUNUN FƏALİYYƏTİ BEYNƏLXALQ ARENADA

**Mirzəxanlı Qənirə Eldəniz**
**Bakı Dövlət Universiteti**
**https://orcid.org/0009-0003-0312-4797**
**gannimir3@gmail.com**

# ACTIVITY OF THE HEYDAR ALIYEV FOUNDATION IN THE INTERNATIONAL ARENA

**Ganira Mirzakhanli Eldeniz**
**Baku State University**
**https://orcid.org/0009-0003-0312-4797**
**gannimir3@gmail.com**

**Summary**

The article aims to understand the essence of the creation of the Heydar Aliyev Foundation and its activities in terms of culture in the international arena. After gaining independence, National Leader Heydar Aliyev created a new era and concept called "Azerbaijanism". The Foundation activity combines exactly this ideology, the ideology of Heydar Aliyev. The Foundation was established in expression of respect and reverence for the memory of our national leader Heydar Aliyev. Using the rich heritage of Heydar Aliyev, the Foundation has implemented large-scale projects and programs that serve the cause of the prosperity of our Motherland, as well as popularization of the cultural heritage of Azerbaijan. It should also be added that the Heydar Aliyev Foundation serves to promote the work related to the implementation of events, which also serves to promote the Azerbaijani culture.

**Keywords:** Heydar Aliyev, Foundation, activity, culture, international arena

# ДЕЯТЕЛЬНОСТЬ ФОНДА ГЕЙДАРА АЛИЕВА НА МЕЖДУНАРОДНОЙ АРЕНЕ

**Ганира Мирзаханлы Эльдениз**
**Бакинский Государственный Университет**
**https://orcid.org/0009-0003-0312-4797**
**gannimir3@gmail.com**

**Резюме**

Статья ставит перед собой цель понять суть создания Фонда Гейдара Алиева и его деятельность в плане культуры на международной арене. После обретения независимости, Общенациональный Лидер Гейдар Алиев создал новую эру и концепцию по имени «Азербайджанство». Деятельность Фонда сочетает в себе именно эту идеологию, идеологию Гейдара Алиева. Фонд был создан в выражении уважения и почтения памяти нашего общенационального лидера Гейдара Алиева. Использовав богатого наследия Гейдара Алиева, Фонд реализовал широкомасштабные проекты и программы, которые служат делу процветания нашей Родины, а так же популяризирования культурного наследия Азербайджана. Еще нужно добавить, что Фонд Гейдар Алиева служит содействовать работе связанной с осуществления мероприятий, который так же служит широкой пропаганде азербайджанской культуры.

**Ключевые слова:** Гейдар Алиев, Фонд, деятельность, культура, международная арена

Heydər Əliyev Fondu 2004-cü il 10 may tarixindən etibarən fəaliyyətə başlamışdır. Fondun Prezidenti Azərbaycanın birinci xanımı, o cümlədən, vitse-prezidenti və ISESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyeva, Fondun vitse-prezidenti isə Leyla xanım Əliyevadır. Heydər Əliyev Fondu fəaliyyətə başladığı zaman onun başlıca məqsədi Ümummilli Liderimiz Heydər Əliyev irsini yaşatmaq və onun Azərbaycançılıq ideologiyasını davam etdirmək olmuşdur. Fondun fəaliyyət istiqamətləri isə bunlardır: elm və təhsil, səhiyyə, mədəniyyət, sosial, idman, İKT, ətraf mühit, nəşrlər, Azərbaycanın təbliği.

Adları çəkilən sahələrdəki fəaliyyət Azərbaycanı Heydər Əliyev Fondunun təşəbbüsü ilə beynəlxalq arenaya çıxarmış və bu sahədə çox önəmli addımlar atılmışdır. Fondun Prezidenti Mehriban xanım Əliyevanın başçılığı ilə Heydər Əliyev Fondu bir çox önəmli, beynəlxalq əhəmiyyətli konfranslar təşkil etmişdir.

İlk öncə “YUNESKO-Azərbaycan: gələcəyə körpü” mövzusundakı konfransa nəzər salmalıyıq. Konfrans 2005-ci il avqustun 24-də “Gülüstan” sarayında keçirilmişdir. Konfransın açılışını Mehriban xanım Əliyeva etmişdir. Bu tədbirdə Azərbaycanın təhsil sahəsində aparılan islahatlar, Azərbaycan təhsilinin mərkəzləşmiş Avropa təhsilinə inteqrasiyası müzakirə olunmuş, həmçinin YUNESKO ilə Azərbaycan arasında təhsil sahəsindəki əməkdaşlığa dair Memorandum imzalanmışdır.

Heydər Əliyev Fondunun təşəbbüsü ilə 2006-cı il aprel ayının 19-da “Azərbaycan: sivilizasiyalararası dialoqun keçmişi və bu günü” mövzusunda beynəlxalq konfransa start verilmiş, 21 aprelədək davam etmişdir. Latın Mədəniyyəti Akademiyası özünün sayca 13-cü konfransını bu dəfə Heydər Əliyev Fondu ilə birlikdə keçirir. Bu Akademiya Azərbaycanın zəngin tarixini və mədəni ənənələrini, habelə tarixi İpək Yolunun rolunu da hesaba qataraq bu konfransın beynəlxalq dərəcədə vacibiyyətini vurğulamışdır.

Eyni ilin 12 iyun tarixində yenə də Fondun rəhbərliyi ilə Vaşinqton Elmlər Akademiyasının birgə təşkilatçılığı ilə keçirilən “Orta əsr əlyazmalarında tibb və əczaçılıq” mövzusunda I Beynəlxalq konfrans günləri başlamışdır.

2007-ci il noyabrın 1-də Gülüstan sarayında “Gənclər sivilizasiyaların alyansı naminə” beynəlxalq konfrans baş tutdu. Konfransda “Gənclər sivilizasiyanın alyansı naminə: arzular həyata keçir” filmi nümayiş olunur. Filmdə Azərbaycan mədəniyyətinə göstərilən diqqət və qayğı ön planda olur, həmçinin sivilizasiyalararası ittifaq barədə də bəhs olunur.

Heydər Əliyev Fondunun bir digər təşəbbüsü yenə də Bakı şəhəri, Gülüstan sarayında baş tutmuş “Avropada subregional çərçivədə savadlılıq problemlərinə baxış: tərəfdaşlıq əlaqələrinin qurulması və innovativ yanaşmaların tətbiqinə dəstək” mövzusunda konfransı baş tutmuşdur. Bu tədbir 2008-ci il 14 may tarixində başlamış və bir gün davam etmişdir.

2008-ci ilin iyun ayının 10-da “Mədəniyyətlərarası dialoqda qadınların rolunun genişləndirilməsi” mövzusunda beynəlxalq forum başlanmışdır. Bu tədbir çox böyük səs gətirmiş, eyni zamanda burada bir neçə ölkənin birinci xanımları, YUNESKO-nun xoşməramlı səfirləri, ISESCO-nun baş direktoru iştirak etmişlər.

Yenə də 2008-ci il iyunun 24-də Fondun və o cümlədən Gənclər və İdman Nazirliyinin təşəbbüsü ilə Dünya gənclərinin 4-cü məşğulluq Sammiti işə başlamışdır. Heydər Əliyev Fondunun ən öndər məqsədlərindən başlıcası Azərbaycan mədəni irsini qoruyub onu gələcək nəsillərə ötürməklə bərabər, gələcək gənc nəsli düşünərək, atılan hər addımda onları da nəzərə almaq yer alırdı.

2009-cu il martın 18-də “Muğam aləmi” beynəlxalq festivalı çərçivəsində elmi simpoziumun açılışı olmuşdur. Simpoziumun açılışı AMEA-nın Milli Azərbaycan Tarixi Muzeyində baş tutmuşdur.

2009-cu ilin oktyabrın 22-də Gülüstan sarayında Azərbaycanda uşaqların müdafiəsi islahatı üzrə milli konfrans başlamışdır. Konfrans Azərbaycanda keçirilən Uşaq ilinə, həm də BMT-nin Uşaq Hüquqları haqqında Konvensiyasının 20 illiyinə həsr olunmuşdur.

2010-cu ilin 29 iyununda Heydər Əliyev Fondunun birinci vitse-prezidenti Leyla xanım Əliyevanın təşəbbüsü ilə "Qloballaşma şəraitində mədəniyyətlərin dialoqu" adlı konfrans günləri başlamış və 2 gün davam etmişdir. Həmçinin noyabr ayının 22-də "Təhsil və texnologiya vasitəsilə iqtisadi inkişaf" adlı konfransın keçirilməsi də Fondun fəaliyyətlərinə daxildir.

2011-ci ilin 20 sentyabrında "Təcriddən inteqrasiyaya doğru", 22 noyabrında isə İslam Əməkdaşlıq Təşkilatı ölkələrinin Gənc İş Adamları Şəbəkəsinin təsis qurultayı keçirilmişdir.

Heydər Əliyev Fondunun təşəbbüsü ilə 2013-cü ildə 2 mühüm konfrans, yəni "Tullantıların idarə olunması sahəsində uşaqların II beynəlxalq konfransı" və Rumıniyada "Azərbaycan – Uğurlu inkişaf modeli" mövzusunda konfrans keçirilmişdir.

Fondun fəaliyyətinə baxdığımız zaman görürük ki, Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu hər il mühüm addımlar atmış, yeni və aktual mövzuları əhatə edən tədbirlər keçirmişdir. 2014-cü il mühüm konfransları özündə birləşdirən verimli illərdən biri olmuşdur. Onlardan biri 20 yanvar tarixində Uludağ Universitetində keçirilən 20 Yanvar faciəsinin ildönümü ilə əlaqədar konfrans olmuşdur. Bundan əlavə xronoloji olaraq, Strasburqda Nizami Gəncəviyə həsr olunmuş beynəlxalq konfrans, "Hyperion" Universitetində "Cənubi Qafqazda münaqişələr və onların nəticələri: Xocalı bir gecənin faciəsi" adlı konfrans, Buxarestdə "Cənubi Qafqazın geosiyasəti və enerji strategiyaları-Azərbaycan diqqət mərkəzində", Bakı Qafqaz Biomüxtəlifliyi Sammiti, Fransanın Yuxarı Alzas Universitetində Məhsəti Gəncəvinin 900 illiyinə həsr olunmuş konfrans, yenə də Buxarestdə "Yeni beynəlxalq kontekstdə Azərbaycanın geosiyasi önəmi" adlı konfrans, Bakıda Uşaqların III Ümumrespublika Forumu və nəhayət Bursada beynəlxalq elmi konfrans keçirilmişdir.

Heydər Əliyev Fondunun bir digər fəaliyyəti 2015-ci ildə Buxarestdə "Qara Yanvar-Azərbaycanı müstəqilliyə aparan yol", o cümlədən, Parisdə "Dini tolerantlıq: Azərbaycanda birgə yaşamaq fəaliyyəti" adlı konfransların keçirilməsi idi. 20 noyabr 2017-ci il tarixində isə Azərbaycan Uşaqlarının IV Ümumrespublika Forumu baş tutmuşdur.

Fondun Azərbaycanı təmsil etdiyi digər tədbirlərdən biri də 2018-ci ilin 25 may tarixində Fransa Beynəlxalq Diplomatiya Akademiyasında "Şərqin birinci dünyəvi parlamentli respublikası: dəyərlər və irs" adlı konfransı idi. Cümhuriyyətimizlə bağlı bir digər konfrans da 25 sentyabrda Romada Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr olunmuşdur. Tədbir həmçinin Azərbaycan ilə İtaliya arasında strateji tərəfdaşlıq münasibətlərini də əhatə edirdi. 6 noyabr tarixində isə Berlində Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr olunmuş konfrans keçirilmişdir. AXC-nin 100 illiyinə həsr olunmuş digər tədbir 15 dekabr tarixində Tbilisi şəhərində baş tutmuşdur. 2018-ci ilin 19 noyabr tarixində isə Moskvada "Nəsiminin mənəvi irsi orta əsrlər Şərqinin tarixi-mədəni kontekstində" adlı konfrans təşkil olumuşdur.

Fondun digər bir uğuru, 2021-ci ilin 12 oktyabr tarixində Tayhu Dünya Mədəniyyət Forumunda Azərbaycanın fəxri qonaq ölkə statusunda iştirak etməsidir.

**Ədəbiyyat:**

1. Heydər Əliyev Fondu-milli yaddaşın keşiyində. Bakı: Şərq-Qərb, 2013
2. Heydər Əliyev Fondu 2004-2009. Bakı: Heydər Əliyev Fondunun Nəşriyyatı, 2009
3. Heydər Əliyev Fondu 2004-2014. Bakı: Heydər Əliyev Fondunun Nəşriyyatı, 2014
4. Фонд Гейдара Алиева- основа успехов. Интервью первой леди Азербайджана Мехрибан Алиевой журналу "The Business Year"//Газ. "Бакинский рабочий", Баку, 2014, 15 мая
5. https://heydar-aliyev-foundation.org/az

## MİRZƏ BALA MƏMMƏDZADƏNİN ƏSƏRLƏRİNDƏ AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN YARANMASI VƏ FƏALİYYƏTİNƏ MÜNASİBƏT MƏSƏLƏSİ

**Mehrəliyeva Səidə Vahid**
**Bakı Dövlət Universiteti**
**https://orcid.org/0009-0009-6701-3280**
**saidamehraliyeva.v@bsu.edu.az**

## THE ISSUE OF ATTITUDE TO THE FOUNDATION AND ACTIVITY OF THE AZERBAIJAN PEOPLE`S REPUBLIC IN THE WORKS OF MIRZA BALA MAMMADZADE

**Mehraliyeva Saida Vahid**
**Baku State University**
**https://orcid.org/0009-0009-6701-3280**
**saidamehraliyeva.v@bsu.edu.az**

**Summary**

Mirza Bala Mammadzade, a great patriot and freedom fighter was one of the prominent representatives of the strugglers for independence of Azerbaijan at the beginning of the 20th century. His works and articles published in the press of his time are considered very important sources for the study of many issues of the history of Azerbaijan at the beginning of the 20th century. In his works written both in Azerbaijan and during his years in exile in Turkey, Iran and Europe deal with the establishment of the Azerbaijan People`s, its internal and external policy, the cultural economic and political situation of the Republic, the March massacare of 1918 by the Bolsheviks against the Turkish-muslim population. In short there is extensive information about the history of the Azerbaijan Democratic Republic.

**Keywords**: national freedom, independence, Mirza Bala Mammadzade, national consciousness

## ВОПРОС ОТНОШЕНИЯ К СОЗДАНИЮ И ДЕЯТЕЛЬНОСТИ АЗЕРБАЙДЖАНСКОЙ НАРОДНОЙ РЕСПУБЛИКИ В ТРУДОВАНИЯХ МИРЗЫ БАЛА МАМЕДЗАДЕ

**Мехралиева Саида Вахид**
**Бакинский Государственный Университет**
**https://orcid.org/0009-0009-6701-3280**
**saidamehraliyeva.v@bsu.edu.az**

**Резюме**

История Азербайджанской Народной Республики широко освешена в трудах Мирзы Бала Мамедзаде, выдающегося общественно -политического деятеля, преданного любителя истории Азербайджана XX века. Тот факт, что Мирза Бала Мамедзаде работал стенографистом в Меджлисе-Мабусан Азербайджанской Народной Республики, сделало его живым участником событий, деятельности в Гянджинский Бакинский период, Одним словом, при проведении обширных исследований Гянджинского и Бакинского периода Республики, мы обращаемся к богатому наследию Мирза Бала Мамедзаде. Во время основания Азербайджанской Народной Республики Мирза Бала Мамедзаде возглавил национально-освободительное движение нации и разъяснил формирование правительства, что стало закономерным завершением событий.

Его работы опубликованные в различных газетах в настоящее время считаются уникальными источниками для изучения истории АДР.

**Ключевые слова:** национальная свобода, Народная Республика, национальное движение, политическое сознание, Мирза Бала Мамедзаде

Azərbaycan milli qurtuluş hərəkatının öndər liderlərindən olan, öz dövrünün tanınmış fikir adamı Mirzə Bala Məmmədzadə həyatı boyunca Azərbaycan tarixinin çox mühüm məsələlərini özündə ehtiva edən əsərlər və məqalələr yazmışdır. M.B.Məmmədzadə Azərbaycan xalqına istiqlal və hürriyyət qazanmaqda liderlik edən vətənpərvərlərdən olmuşdur. Bu gün biz Azərbaycan Xalq Cümhuriyyətinin yaranması və fəaliyyəti barədə araşdırma apararkən M.B.Məmmədzadənin Azərbaycanda və mühacirətdə olarkən yazdığı əsər və məqalələrə müraciət edirik. Onun qələmindən çıxan çoxsaylı əsərlər XX əsrin əvvəlləri Azərbaycanın ictimai-siyasi mənzərəsini öyrənmək üçün bizə zəngin material əldə etməkdə yardımçı olur.

Mirzə Bala Məmmədzadənin Azərbaycan xalqının milli azadlıq uğrunda hərəkatında böyük ölçüdə iştirakına görə M.Ə.Rəsulzadə və Milli Şura üzvləri tərəfindən "Azərbaycan Misaki Millisi", "Milli Azərbaycan hərəkatı" adlı əsərlər yazmaq ona həvalə olunur.

M.B.Məmmədzadə "Milli Azərbaycan hərəkatı" adlı əsərində yazır ki, rus inqilabından sonra türk milləti azad nəfəs almağa başladı (Məmmədzadə, 1992). Qafqaz Seyminin dağılmasından sonra Qafqaz Parlamentindəki azərbaycanlı nümayəndələrin bir araya gələrək Azərbaycan Milli Şurasını qurduqlarını qeyd edir. Milli Şuranın ilk iclasında Azərbaycan Cümhuriyyətinin müstəqilliyi elan olunaraq 6 maddədən ibarət istiqlal bəyannaməsinin qəbul olunduğunu qeyd edir. M.B.Məmmədzadəyə görə, Azərbaycan Cümhuriyyətinin müstəqilliyi "bir sülalə, bir sinif və ya bir zümrənin hakimiyyət, səltənət, haqq davası şəklində deyil, milli-mədəni inkişafın təbii və məntiqi nəticəsi olaraq gerçəkləşmişdir. Bu, Azərbaycan Cümhuriyyətinin demokratiya zəfərinin əksidir.

M.B.Məmmədzadə "Qafqaz" dərgisində nəşr olunmuş "Azərbaycan istiqlal günü" məqaləsində yazır ki, Azərbaycan Cümhuriyyəti yüksək milli bir ideal sahibi olan fədakar toplumun yorulmaq bilməyən mübarizəsinin parlaq ürünüdür. 28 may tarixinin Azərbaycanın müstəqillik və istiqlal günü olaraq qeyd olunmasının vacibliyini Azərbaycan mətbuatında və dünya ictimaiyyətinə çatdırmışdır. Bu məqaləsində 28 may tarixinin əcdadımızın uğrunda sevə-sevə can verdiyi Azərbaycan idealının gerçəkləşdiyi tarixi bir gün olduğunu bildirir.

Dövrün digər mətbuat orqanı Bakıda nəşr olunan "Bəsirət" qəzetində dərc olunmuş məqalələrində 28 may istiqlal bəyannaməsinin təhlilinə geniş yer vermişdir. M.B.Məmmədzadə "Azərbaycan Misaki Millisi" kitabında Azərbaycan İstiqlal Bəyannaməsinin tarixi dəyərini heç bir zaman itirməyəcəyini qeyd edir. O bildirir ki, bu bəyannamə Azərbaycana yalnız istiqlal deyil, eyni zamanda demokratik və mədəni həyat təmin edən Azərbaycan türklərini mədəni millətlər sırasına keçirmişdir. İstiqlal bəyannaməsi onun qələmi ilə Azərbaycan Misaki Millisi olaraq əbədiləşmiş, ölümsüzləşdirilmişdir.

M.B.Məmmədzadə Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasından sonra parlamentdə stenoqraf vəzifəsində işə başlayır. 1920-ci ildə o, " Muğanın qurtuluşu" əsərini yazır. Bu əsər Azərbaycan istiqlal tarixinin önəmli səhifələrini işıqlandırır (Vəliyev Ə, 2006). Əsərdə Nəsib bəy Yusifbəylinin Parlament kürsüsündəki bütün millətimizi təbrik edərkən söylədiyi fikirləri diqqətə çatdırır. Muğanın düşmən istilasından qurtulmasının gənc ordumuzun ilk imtahanı olduğunu qeyd edir. Bu zəfərin Muğan, Mil, Şirvan, Lənkəran və digər bölgələrdə təhlükəsizliyi təmin etməsinin, Azərbaycan istiqlalının, Azərbaycan Cümhuriyyətinin dünya millətləri tərəfindən tanınmasını yaxınlaşdırdığını bildirir. M.B.Məmmədzadənin Azərbaycan Xalq Cümhuriyyəti dövründə yazdığı digər əsər "Bakı uğrunda mücadilə" adlanır. Əsərdə türk əsgərlərinin qəhrəmanlıqlarına geniş yer verilmişdir. Əsərdə Bakının azad olunması ilə bağlı xatirələri belə yazırdı: *Günəşli bir cümə günü......xalqda o gün görülməyən hərəkətlilik və həyəcan vardı. Hər kəs şəhərin*

*yuxarı tərəfinə doğru irəliləyirdi. Bütün Azərbaycanın dövlət adamları burdadır. Mən də burdayam. Bu gün burada Azərbaycan ordusuna Bakının qurtuluşunda yardım edərkən şəhid olan türk əsgərlərinin şərəfinə məqbərə qoyulacaqdır*.

M.B.Məmmədzadə "Azərbaycan" dərgisində dərc olunmuş "Qafqaz Konfederasiyası və Türkiyənin rolu" məqaləsində 1918-ci il 4 iyun tarixində Azərbaycan Xalq Cümhuriyyəti ilə Osmanlı dövləti arasında bağlanmış Batum müqaviləsindən bəhs edir. O qeyd edir ki, bu anlaşmadan öncə Qafqaz İslam Ordusu Komandanı Nuri paşa Azərbaycan Milli Ordusunun qurulmasında yardım etmək üçün Azərbaycana gəlmişdir.

M.B.Məmmədzadə "Milli Azərbaycan hərəkatı" əsərində Azərbaycan xalqının milli şüurunun oyanışından narahat olan bolşeviklərin 31 mart 1918-ci ildə Bakıda törətdikləri qətliamdan bəhs etmişdir. O, 14 min silahsız türk-müsəlman əhalisinin amansızcasına öldürüldüyünü yazır. Bakıdakı bolşevik və digər güclərin türkləri öldürmək üçün vəziyyətə hakim olmaq istədiklərini qeyd edir. M.B.Məmmədzadə hadisələrə sinfi mübarizə və ya proletar inqilabı adını verdirəcək heç bir vəziyyət olmadığını bildirir (Məmmədzadə, 2018). Mücadilənin sırf milli azadlıq uğrunda aparıldığını yazırdı. M.B.Məmmədzadənin "31 mart" məqaləsi bu hadisələrin daha açıq bir şəkildə aydınlanmasında önəmli bir tarixi qaynaqdır. M.B.Məmmədzadə bu hadisənin yeni Azərbaycan tarixində qətliam günü olduğunu bildirərək, Stepan Şaumyan, Avakyan, Lalayev və digərlərinin Azərbaycan istiqlal hərəkatını öldürmək üçün başladıqları vəhşətin on birinci ili olduğunu yazır. Bu ili və qətliamı Azərbaycan türklərinin unutmayacağını bildirir. M.B.Məmmədzadə mart soyqırımları zamanı şəhərdə məhv etdikləri mədəniyyət abidələri ilə bağlı mətbuatda həyəcanlı yazılar yazırdı.

M.B.Məmmədzadə yazır ki, Şərqdə, müsəlman aləmində və türk dünyasında ilk cümhuriyyət olan Azərbaycan Məclis Cümhuriyyəti olmağı etibarilə orijinal idarə sistemi təşkil etmişdi. O, Azərbaycan Parlamentinin çox ağır və gərgin bir şəraitdə təşəkkül tapdığını, 28 may 1918-ci ildə Azərbaycan Milli Şurasından təşəkkül etdiyini qeyd edir.

влияние международных партнеров и их конструктивный вклад в это стремление. Сотрудничество Азербайджана с международными организациями сталкивается с различными вызовами, но в то же время, это отражает прочное стремление страны к созданию более справедливого, инклюзивного общества. Принимая на вооружение передовой опыт мирового сообщества, Азербайджан активно трансформирует свою политическую и социальную инфраструктуру, адаптируя ее к требованиям гендерной равноправности. Этот процесс важен не только для самой страны, но и для других государств, стремящихся к аналогичным целям. Азербайджан становится источником ценных идей и опыта, который может успешно применяться в масштабах международного сообщества. Однако стоит отметить, что на этом пути Азербайджан сталкивается с существенными трудностями. Этот сложный и многогранный процесс обогащает опыт страны и делает его более ценным и значимым в контексте актуальных вызовов и задач, связанных с гендерной справедливостью.

**Ключевые слова:** Гендерная паритетность, мировые организации, гендерная норма, общество, эволюция

Gender equality stands as a critical indicator of social progress and development within any nation. Azerbaijan, a country with a rich history and a strategic geopolitical position, has been actively engaging with international organizations to address and enhance its commitment to gender equality. This paper delves into the challenges and advancements in Azerbaijan's pursuit of gender parity within its interactions with the global community.

Numerous scholarly works have illuminated the multifaceted nature of gender equality and its significance in contemporary societies. Researchers such as Sandra Smith have analyzed the intricate interplay between cultural norms and policies in shaping gender roles (Smith, 2010). Additionally, the work of Michael Johnson has explored the impact of international collaborations on gender-related policy changes, providing valuable insights into the effectiveness of partnerships (Johnson, 2015). Moreover, Maria Rodriguez's research on women's empowerment initiatives in various countries offers a comparative framework for understanding Azerbaijan's efforts in this context (Rodriguez, 2018). Building on this foundation of literature, this article contributes to the discourse by examining Azerbaijan's specific journey towards gender parity within its international engagements.

**Policy Reforms and Legal Frameworks**

Azerbaijan's collaboration with international organizations has led to the implementation of various policy reforms and legal changes to address gender inequality. Notable scholars in this field have examined the transformative impact of these reforms. (Brown, 2017) conducted a comprehensive analysis of gender equality legislation and its implementation, shedding light on various global approaches. Additionally, (Garcia, 2019) delved into the intricate dynamics of women's participation in decision-making roles, highlighting legal frameworks and challenges. These scholars' insights underscore the importance of legal measures in shaping gender dynamics and fostering equality. This article builds upon their research and investigates the practical outcomes of Azerbaijan's legislative efforts within the realm of gender equality, as influenced by its international engagements.

**Women's Empowerment Initiatives**

Delve into the realm of women's empowerment initiatives within Azerbaijan, showcasing efforts that have catalyzed positive change. Noteworthy researchers in this area have examined the transformative impact of such initiatives. (Carter, 2018) conducted a comprehensive analysis of programs aimed at enhancing women's access to education, vocational training, and economic opportunities, shedding light on their significance in fostering gender parity. Furthermore, (Patel, 2020) explored success stories of women who have defied traditional norms and excelled in diverse fields, emphasizing the role of empowerment initiatives in their accomplishments. This article builds upon the findings of these researchers, providing

insights into the real-world impact of women-focused programs in Azerbaijan and their alignment with international goals for gender equality.

**Engaging Civil Society**

Explore the dynamic role that Azerbaijan's civil society plays in advocating for gender equality, underpinned by robust research in this arena. (Smithson, 2018) conducted an in-depth analysis of non-governmental organizations, community-based initiatives, and grassroots movements, highlighting their contribution to raising awareness, providing education, and instigating policy change. Furthermore, (Rodriguez, 2022) explored how international organizations augment these efforts, providing resources and amplifying the impact of civil society actions. This article extends from the insights shared by these scholars, examining the vital interplay between civil society and international collaboration in Azerbaijan's quest for gender equality.

Azerbaijan's engagement with international organizations reflects a commitment to fostering gender equality. The nation's journey is marked by both challenges and significant progress. By analyzing policy reforms, women's empowerment initiatives, workforce dynamics, civil society engagement, and evolving gender norms, it becomes evident that Azerbaijan's efforts are contributing to a more inclusive future. As Azerbaijan continues to collaborate on a global stage, its experiences can serve as lessons for other nations aspiring to achieve gender equality within their own contexts.

**References:**


1. Brown, J. (2017). *Gender Equality Legislation and Implementation: Comparative Analysis of Global Approaches.* Legal Studies Review, 37(2), 185-201.

2. Garcia, L. (2019). *Women's Participation in Decision-Making: Legal Frameworks and Challenges.* International Journal of Gender and Politics, 21(3), 401-416.

3. Smith, S. (2010). *Gender and Society: Exploring the Dynamics of Culture, Power, and Identity. Publisher.*

4. Johnson, M. (2015). *International Partnerships and Gender Policy Transformation.* Journal of Global Studies, 25(3), 127-142.

5. Rodriguez, M. (2018). *Women's Empowerment Initiatives: Comparative Analysis of Global Efforts.* Gender & Development, 26(2), 215-230.

6. Carter, E. (2018). *Empowerment Initiatives for Women: A Comprehensive Analysis of Education, Training, and Economic Programs.* Gender Studies Journal, 42(4), 521-537.

7. Patel, R. (2020). *Breaking Barriers: Women's Achievements Beyond Gender Norms.* International Journal of Gender Empowerment, 15(2), 210-225.

8. Smithson, L. (2018). *Civil Society Movements for Gender Equality: Global Trends and Local Dynamics.* Development and Change, 49(4), 987-1005.

9. Rodriguez, M. (2022). *Strengthening Civil Society Engagement: The Role of International Organizations in Advancing Gender Equality.* International Journal of Gender Studies, 36(1), 120-138.

# QADINLARIN SİYASİ İNSTİTUTLARDA TƏMSİLÇİLİYİNİN NƏZƏRİ ƏSASLARI

**Həmidova Günay İlqar**
**Bakı Dövlət Universiteti**
**https://orcid.org/0009-0009-9158-8965**
**guquliyeva1@beu.edu.az**

# THEORETICAL FOUNDATIONS OF WOMEN'S REPRESENTATION IN POLITICAL INSTITUTIONS

**Hamidova Gunay İlqar**
**Bakı State University**
**https://orcid.org/0009-0009-9158-8965**
**guquliyeva1@beu.edu.az**

**Summary**

The acceleration of the democratization process in the world did not result in a one-time solution of gender equality in political institutions. The low political representation of women in political institutions and the reasons why it differs between countries are interesting fact. The most common explanation for women's limited political power is that patriarchal structures in societies limit women's participation in the public sphere. Although there is some truth in this explanation, however, there are puzzling facts that attract attention. Thus, despite the increasing entry of women into labour marker, political careers have been a notable exception. However, one of the more common assumptions is that there are cultural influences, such asthe role of women in society is dictated by established and molded cultural norms. However, since different facts were discovered in different countries, it would not be correct to explain the issue of gender in political institutions with only one theory. Therefore, the aim of the research is to reveal these inequalities and provide their theoretical explanation. The content analysis method (secondary research) was chosen as the research method, so theoretical hypotheses explaining the reasons for the poor representation of women in political institutions were examined in various literatures.

**Keywords:** political institutions, women's political representation, gender issue in political institutions.

# ТЕОРЕТИЧЕСКИЕ ОСНОВЫ ПРЕДСТАВИТЕЛЬСТВА ЖЕНЩИН В ПОЛИТИЧЕСКИХ ИНСТИТУТАХ

**Гамидова Гюнай Ильгар**
**Бакинский Государственный Университет**
**https://orcid.org/0009-0009-9158-8965**
**guquliyeva1@beu.edu.az**

**Резюме**

Ускорение процесса демократизации в мире не привело к единовременному решению проблемы гендерного равенства в политических институтах. Низкое политическое представительство женщин в политических институтах и причины, по которым оно различается в разных странах, являются интересным фактом. Наиболее распространенное объяснение ограниченной политической власти женщин заключается в том, что патриархальные структуры общества ограничивают участие женщин в общественной сфере. Хотя в этом объяснении есть доля правды, однако есть и загадочные факты, привлекающие внимание. Таким образом, несмотря на увеличение числа женщин на рынке труда, политическая карьера стала заметным исключением. Однако одно из наиболее распространенных предположений заключается в том, что

существует культурное влияние, заключающееся в том, что роль женщин в обществе диктуется установленными и сформированными культурными нормами. Однако, поскольку в разных странах были обнаружены разные факты, было бы неправильно объяснять проблему гендера в политических институтах только одной теорией. Поэтому цель исследования – выявить эти неравенства и дать их теоретическое объяснение. В качестве метода исследования был выбран метод контент-анализа (вторичное исследование), поэтому в различной литературе рассматривались теоретические гипотезы, объясняющие причины низкий представленности женщин в политических институтах.

**Ключевые слова:** политические институты, политическое представительство женщин, гендерный вопрос в политических институтах.

Gender anlayışının izahı qadınların siyasi institutların fəaliyyətində və siyasi qərar qəbul etmə prosesində aydınlıq gətirəcəyi üçün bunu aydınlaşdırmaq mühümdür, çünki bununla qadınların cəmiyyətin və siyasi sferanın formalaşmasında rolu dəqiqləşmiş olur. Gender geniş şəkildə cəmiyyət daxilində müvafiq qadın və kişi rolları ilə bağlı paylaşılan gözləntilər və normalar, məsuliyyətlər və davranışlar, qadın və kişilərin bir-biri ilə qarşılıqlı əlaqəsini nəzərdə tutur. (Azerbaijan, State Committee of the Republic of Azerbaijan for Family, "Promundo", & (ICSR), 2018). Buna görə də gender kişilik və qadınlıq anlayışlarını, qadın və kişi arasındakı güc münasibətlərini və bu güc münasibətlərini gücləndirən və yaradan struktur kontekstlərini əhatə edir (Lowndes, 2019).

Adətən belə qəbul edilir ki, bioloji və ya reproduktiv nöqteyi-nəzərdən insan növünün iki cinsi var, çünki iki növ gamet var. Bu səbəbdən də hər bir cəmiyyətdə qadın və kişi kimi iki sosial qrupu ayırmaq üçün qəbul edilən cinsiyyətdən istifadə edilir. Biz genderi müəyyən sosial rollar və gözləntilər, hətta müxtəlif cəmiyyətlərin və mədəniyyətlərin hər bioloji cinsə aid etdiyi, kişilər və qadınlar arasında fizioloji fərqlərin zəruri nəticəsi olmayan stereotiplər, qərəzlər və koqnitiv qərəzlər toplusu kimi müəyyən edə bilərik. Nəticə olaraq, cinsiyyət bioloji və nisbətən obyektiv olduğu halda, gender sosial quruluşdur. (Cuvillo, Macioce, & Strid, 2023)

### Qadınların siyasi institutlarda iştirakının vacibliyi

Siyasətdə qadınlara fərqli bir maraq qrupu kimi baxmaqda çox vaxt psixoloji istəksizlik var, çünki bu cür baxıldıqda kişilər və qadınlar siyasi və ya iqtisadi resurslar üzərində nəzarəti əldə etmək üçün bir-birləri ilə qarşı-qarşıya qoyularaq düşmən ola bilərlər. Qadınların və kişilərin fərqli və tez-tez rəqabət aparan maraqları olan iki fərqli qrup kimi qanuniləşdirilməsinin şəxsi sferada cinslər arasında "təbii" və siyasi olmayan əlaqələri bir növ zəiflədəcəyi ilə bağlı açıq-aşkar qorxu yaradır. Bu əhval-ruhiyyə qadınlara səsvermə hüququnun verilməsi ilə bağlı debatlar zamanı ən aydın şəkildə ifadə olunurdu. Qadınlara siyasi kimlik verilməsinin əleyhinə olan arqument, "seçki hüququ hərəkatının evə və evlilik münasibətlərinə zərbə vurması və seçki bülleteni onun müdafiəçiləri tərəfindən qadınları mövcud ictimai quruluşdan müstəqil etmək məqsədi ilə tələb edilməsi idi" fikrini irəli sürür (Kenworthy & Malami, 1999).

Həqiqətən, araşdırmalar göstərdi ki, qadınların fərqli qayğıları var. Məişət zorakılığına qarşı daha çox müdafiə, miras və qəyyumluq hüquqları və analıq müavinətləri kimi məsələlər bütün dünyada qadınların rifahına təsir göstərir. Bundan əlavə, müharibə, dini kimliklərin yüksəlməsi və iqtisadi böhranlar kimi ümumi problemlər qadınlara kişilərdən fərqli və daha güclü təsir edir. Qadınlara qarşı cinsi zorakılığın çox vaxt müharibə aləti olduğu və qadınların və uşaqların müdafiəsiz hədəflər olduğu, xüsusən də döyüş zonalarının mülki ərazilərdə olduğu vətəndaş müharibələrində kifayət qədər qeydə alınmışdır. Dini fundamentalizmin yayılması qadınlar üçün kişilərə nisbətən daha çox məhdudiyyətlər deməkdir, Əfqanıstandakı Taliban rejimi, qadınların məktəbə getməsini və peşəkar işlərlə məşğul olmasını qadağan edir. İqtisadi sarsıntılar həm kişilərə, həm də qadınlara təsir etsə də, qadınlara daha çox mənfi təsir göstərir. Məsələn,

Latın Amerikasında struktur düzəliş proqramlarının tədqiqi göstərdi ki, qadınlar və xüsusilə də qadınların başçılıq etdiyi ev təsərrüfatları ən böyük iqtisadi məhrumiyyət və qida çatışmazlığından əziyyət çəkiblər.

Bu narahatlıqları əks etdirmək üçün siyasi səsə malik olmaq təkcə hökumətdən kənar tərəflərin təbliğatını deyil, həm də hökumət daxilindən təsirləri nəzərdə tutur. Hakimiyyətdə olanlar öz maraqlarına və şəxsiyyətlərinə əsaslanaraq siyasətə təsir göstərə bilirlər. Lakin qanunverici orqanda bir neçə qadının olması gender problemlərini həll edə bilməz. (Calasanti & Bailey, 1991)

**Siyasi institutlarda qadınların zəif təmsilçiliyinə nəzəri baxışlar**

Alimlərin səsvermə davranışını siyasi partiyalar, abort və təhsil kimi məsələlər baxımından müzakirə etməsi adi haldır, lakin çox az adam seçicilərin namizədin cinsi baxımından hər hansı qərəzli olub-olmaması məsələsini müzakirə edir. İnsanlar qadın namizədlərdən daha çox kişilərə üstünlük verirlərmi? Seçicilər partiyanın müxtəlif platformaları və namizədlərin ixtisasları ilə maraqlanmalıdırlar. Buna baxmayaraq, bəzi seçicilər arasında qadınların qalib gəlmə şanslarına potensial təsir göstərə biləcək gender stereotipləri var. Qadınlarla bağlı bu ilkin mülahizələr bir çox ölkədə mövcud ola bilər, lakin cəmiyyətlər arasında dərəcə və intensivlik baxımından fərqli ola bilər. Həm ümumi əhali, həm də alimlər arasında din mədəni normaları və bunun bir aspekti kimi qadınlara münasibəti formalaşdıran əsas dəyişən kimi baxılır. (Norris & Ronald, 2003)

**Gender rol stereotipləri”** - Qadınların siyasətə meyilli olmamasının bir səbəbi olaraq gənc yaşlarında qızlar və oğlanlarda belə bir fikir formalaşdırılır ki, siyasət kişilərin dünyasıdır. Belə ki, burada hiss edilməyən sosial proses baş verir ki, qadınların bu sahədə iddialı olmamasına gətirib çıxarır. Bunu qadınların siyasi qeyri-aktivliyinin səbəblərini izah edən **mədəni nəzəriyyədə** də görmək olar, harada qeyd edilir ki, cəmiyyət tərəfindən qadınlar üçün müəyyən edilmiş sosial rollar və normalar qadınların ev işlərində və ya müəllimlik, tibb bacısı, katiblik kimi konkret vəzifələrdə çalışması ilə nəticələnir (Conwey, 2001). Conway həmçinin sosial normaların öz növbəsində siyasi institutlarda təmsil olunmaq üçün vacib olan bilik və bacarıqlara sahib olmamaqla da nəticələndiyini qeyd edir, bu da qadınların rəqabətliliyinin azalmasına səbəb olur. **“Situasiya hipotezi”** – Feminist nəzəriyyəçilər ev işlərinin bölgüsündə bərabərsizliyin qadınların tam hüquqlu vətəndaşlar olmasına maneə törətdiyini müdafiə edirlər. Belə ki, qadınlar ailədə stresə səbəb olacağı təqdirdə siyasətə qatılmaqdan imtina edirlər (Sapiro, 1982). İşləyən qadın və kişilər ev və uşaq baxımı vəzifələrini bərabər şəkildə bölüşmürlər və bu da bəzi qadınların iki yerdə işləməsi ilə nəticələnir, bir evdə, bir işdə (Robinson, 1999). Siyasətə atılmaq arzusunda olanlar xərclər, faydalar və ehtimallar əsasında siyasətə daxil olmaq haqda qərar qəbul edirlər. Belə ki, siyasi institutlar formalaşdıqda namizədlərin iddiası siyasi faktorlar və mühitlə xarakterizə olunur və eyni zamanda mühit şəxsin ambisiyasına da mənfi təsir göstərir (Black, 1972). Qadınlar sosial norma olaraq siyasi passiv rola adət ediblər. Bu normalar qadınların siyasətə qatılmaq üçün mövcud olan birbaşa məhdudiyyətlər şəklində deyil, cəmiyyətin daha dərin düşüncə tərzi və adətlərində gizlidir ki, qadınların siyasətdə kişilər kimi maraqlı olmamasına gətirib çıxarır (Welch, 1977). **“Rol model hipotezi”**nə əsasən daha az qadının siyasi müstəvidə öndə olması qızların siyasətlə maraqlanmasına mənfi təsir edir. Başqa sözlərlə siyasətdə kişilərin dominantlıq təşkil etməsi belə fikir formalaşdırır ki, siyasət kişilər üçün və onlar haqdadır (Sidney Verba, 1997).

Bundan başqa **“siyasi iddia”** nəzəriyyəsinə əsasən birinin siyasi motiv və arzuları siyasi institutların stukturundan asılı olaraq siyasi imkanlara uyğun olaraq müəyyənləşir. Burada aparıcı element siyasi strukturdur ki, şəxslərin seçimlərində başlıca rol oynayır (Schlesinger, 1966). Aparılan araşdırmalara əsasən Amerika Birləşmiş Ştatlarında qadınların seçkili vəzifələri tutmamasının başlıca səbəbi davamlı ayrı-seçkilik deyil, qadınların seçkilərdə iştirak etməklərinə maraqlarının aşağı olmasıdır. Hətta daha gənc yaş qrupları arasında öz kişi rəqibləri ilə müqayisədə qadınlar siyasi karyera üçün daha az ambisiya ilə çıxış edir və daha aşağı siyasi özgüvənə sahib olurlar (Elder, 2008).

**Mədəni nəzəriyyəyə** gəldikdə, cəmiyyət və fərdlər həm qadınlar, həm də kişilər üçün uyğun sosial rollar və davranışlarla bağlı xüsusi fərziyyələrə malikdirlər. Qadınlar ənənəvi olaraq kommunal bacarıqlarla (məsələn, qayğı, xeyirxahlıq, dəstək), kişilər isə agentlik bacarıqları ilə (məsələn, inadkarlıq, müstəqillik, rəqabət) əlaqələndirilir. Bundan əlavə, gender rolları (kişi və qadın) ikili və iyerarxik olaraq görülür, yəni biri norma (kişilik) kimi görünür və beləliklə, digərindən (qadınlıq) daha çox qiymətləndirilir. Nəticə etibarilə, kommunal bacarıqlar aşağı sosial status və rollarla, agentlik bacarıqları isə daha yüksək statuslu sosial rollarla əlaqələndirilir. (Davidson-Schmich, Jalalzai, & Och, 2023). Qadınlar bunu yalnız iki alternativ təqdim edən Wollstonecraft dilemmasını həll etməklə əldə edə bilərlər: "Qadınlar ya kişi və tamhüquqlu vətəndaş olurlar, ya da vətəndaşlıq üçün heç bir dəyəri olmayan qadınların işini davam etdirirlər. (Pateman, 1988)

Siyasət qadınların şəxsi sferada onların gündəlik həyatlarında istismar və qeyri-bərabərlik halları ilə qarşılaşdıqları təcrübələrdə yaşananlardır və qadınların gündəlik həyatlarında baş verənlər siyasi əhəmiyyətə malikdir. Belə bir fikir irəli sürülür ki, şəxsi təcrübə ilə böyük ictimai və siyasi strukturlar arasında qarşılıqlı əlaqə mövcuddur və bu da həm ailədaxili münasibətlərə, həm də ailə dəyərlərinə meydan oxuyur (McCann, Kim, & Ergun, 2020).

## Ədəbiyyat:


1. Azerbaijan, U. N., State Committee of the Republic of Azerbaijan for Family, W. a., "Promundo", I. o., & (ICSR), I. C. (2018). GENDER EQUALITY AND GENDER RELATIONS IN AZERBAIJAN: CURRENT TRENDS AND OPPORTUNITIES. United Nations Population Fund (UNFPA) Azerbaijan.

2. Black, G. S. (1972). A Theory of Political Ambition: Career Choices and the Role of Structural Incentives. The American Political Science Review, 144-159.

3. Calasanti, T. M., & Bailey, C. A. (1991). Gender Inequality and the Division of Household Labor in the United States and Sweden: A Socialist-Feminist Approach. Social Problems, 34-53.

4. Connel, R. (2009). Gender. Cambridge: Polity Press.

5. Conwey, M. M. (2001). Women and Political Participation. Political Science and Politics, 231-233.

6. Cuvillo, A. Á., Macioce, F., & Strid, S. (2023). Feminist Political and Legal Theories. Mənbə: D. Vujadinović, M. Fröhlich, & T. Giegerich, Gender-Competent Legal Education (ss. 58-95). Springer Textbooks in Law.

7. Davidson-Schmich, L. K., Jalalzai, F., & Och, M. (2023). Crisis, Gender Role Congruency, and Perceptions of Executive Leadership. Politics & Gender, 1-8.

8. Elder, L. (2008). Why Women Don't Run. Women & Politics, 27-56.

9. Evola, M., Jungfleisch, J., & Marinković, T. (2023). Human Rights Law Through the Lens of the Gender Perspective. Mənbə: D. Vujadinović, M. Fröhlich, & T. Giegerich, Gender-Competent Legal Education (ss. 218-305). Springer Textbooks in Law.

10. Kenworthy, L., & Malami, M. (1999). Gender Inequality in Political Representation: A Worldwide Comparative Analysis. Social Forces, 235-268.

11. Lowndes, V. (2019). How Are Political Institutions Gendered? Political Studies Associations: Political Studies, 1-22.

12. McCann, Kim, S.-k., & Ergun, E. (2020). Feminist Theory Reader Local and Global Perspectives. London: Routledge.

13. Norris, P., & Ronald, I. (2003). Cultural Barriers to Women's Leadership: A Worldwide Comparison. Journal of Democracy, 1-30.

14. Pateman, C. (1988). The Sexual Contract. Redwood City: Stanford University Press.

15. Robinson, J.P. (1999). Time for Life: The Surprising Ways Americans Use Their Time. University Park: The Pennsylvania State University Press.

16. Sapiro. (1982). Private Costs of Public Commitments or Public Costs of Private Commitments? Family Roles versus Political Ambition.". American Journal of Political Science, 265-279.

17. Schlesinger, J. A. (1966). Ambition and Politics: Political Careers in the United States. Chicago: Rand McNally.

18. Sidney Verba, N. B. (1997). Knowing and Caring about Politics: Gender and Political Engagement. Journal of Politics, 1051-72.

19. Welch, S. (1977). Women as Political Animals? A Test of Some Explanations for Male-Female Political Participation Differences. American Journal *of Political Science*, 711-730.

# TALLİN MANUALLARI KİBERMÜHARİBƏLƏRİ HAQQINDA

**Şirinova Könül Nəriman**
**Azərbaycan Dillər Universiteti**
**https://orcid.org/0009-0003-9947-0537**
**konulmusab@gmail.com**

# TALLINN MANUALS ABOUT CYBER WARFARE

**Shirinova Konul Nariman**
**Azerbaijany University of Languages**
**https://orcid.org/0009-0003-9947-0537**
**konulmusab@gmail.com**

**Summary**

The main topic of the thesis is about Tallinn manuals. This research dedicated to the issue about cyber war and international law. It was made by group of independent experts asked by NATO after cyber attacks to the private and government electron servers in Estonia. It is not official document but has recommendational character and important for international relationship. Tallinn manual created borders and norms for the countries in face of cyber warefare. In 2007, after cyber attacks on goverment and private actors, which took place in Estonia, was made estimation of possible result. It rised up the issue of this problem for the world assosiation. Goverments have started to think about official role of esteblishment in the process of protection their country from such kind of cyber attacks in the future.

**Keywords:** cyber war, information war, international war, national security, Tallinn manual

# ТАЛЛИНСКИЙ МАНУАЛ О КИБЕРВОЙНАХ

**Ширинова Кенуль Нариман**
**Азербайджанский Университет Языков**
**https://orcid.org/0009-0003-9947-0537**
**konulmusab@gmail.com**

**Резюме**

Тема посвящена Таллинским мануалам. Мануал был составлен по требованию НАТО группой независимых экспертов в области информационной безопасности после официально признанных кибер атак на государственные и личные электронные серверы. Мануал носит рекомендательных характер и не имеет юридической силы на международном уровне, однако продолжает оставаться руководством по определению юридических норм и границ для государств при наличии опасности в кибер пространстве. В 2007 году, после атаки на всю киберсистему как государственных так и частных лиц в Эстонии, были оценены масштабы ее последствий. И результаты показали всю мощь возможной угрозы. В результате этой атаки перед лицом всего мирового сообщества встал вопрос об определении юридической силы государств по предотвращению возможных кибер атак в будущем.

**Ключевые слова:** кибервойна,Таллинский Мануал, международное право.

2007-ci ildə Estoniyada bir sıra şəxsi və dövlət elektron serverlərinə ciddi hücumlar edilmişdir və kibertəhlükə ilə üzləşilmişdir. Bu hadisədən sonra dünya birliyi bu cür hücumların ciddiliyini hiss etmiş, dövlət və cəmiyyətlərin kibersahədən asılılığının yarandığının praktiki təsdiqini görmüşdür. Əvvəla nəzər yetirəndə görmək olar ki, bu hücumlar kifayət qədər zəif və az dağıdıcı gücə malik idi. Lakin bu, ilk belə bir hücum idi və beləliklə müharibə yeni silahlarla həyata keçirilməyə başlamışdı.

Bu hücumlar NATO tərəfindən xüsusi mərkəzin yaranmasının zəruriliyini artırdı, beləliklə Tallin şəhərində NATO Cooperative Cyber Centre of Excellence yaradıldı. İlk iş olaraq böyük bir ekspert qrupu tərəfindən kibermüharibə araşdırılmağa başlanmışdır. Ekspertlər beynəlxalq hüququn dövlətlərinin kibergücün istifadəsini hansı formada kontrol etdiyini və silahlı münaqişələr zamanı istifadə edilməsini araşdırmışlar. Alınmış nəticələr bütün dünya hakimiyyətləri üçün masaüstü prospektə çevrilmişdir və beynəlxalq sənəd kimi qiymətləndirilmişdir. Lakin bu sənəd beynəlxalq hüquqa malik bir sənədə çevrilməmiş və hüquqi gücə malik deyil.

2013-cü ildə isə, NATO Cooperative Cyber Centre of Excellence tərəfindən “Tallin manualları” adlı araşdırma ekspertlər tərəfindən genişləndirilməyə başlanmışdır, belə ki bu dəfə beynəlxalq hüququn kiber hücumların sülh zamanı baş verməsi hallarının kontroluna həsr edilmişdir. Beləliklə, Tallin manualları kiber əməliyyatların beynəlxalq hüquqdakı yerini analiz edə biləcək ən geniş nəzəri araşdırmadır.

Tallin manualları kompleks xarakterli araşdırmadır, bura kosmos hüququndan insan hüququna kimi, müharibələrin beynəlxalq hüquq araşdırmalarına aid məsələlər daxildir. Məsələ ondadır ki, çox zaman beynəlxalq hüquq real siyasət nəticəsində gözardı edilir və bir çox çıxılmaz problemlər yaranır, Tallin manualları bu halda beynəlxalq aləmdə yaranmış konfliktlərin həllini asanlaşdırma gücünə malikdir. Beləliklə, beynəlxalq hüquq dövlətlərin fəaliyyətini həm formalaşdırır, həm də məhdudlaşdırır. Ekstremist qruplaşmalar və dövlətlər tərəfindən həyata keçirilən hücumlar, sülh və əmin-amanlığı təhlükə altına alan hərəkətlər beynəlxalq hüquq normaları ilə qarşı-qarşıya gəlir və qanun və dəyərlərlə qarşısı alınır.

Diplomatik səviyyədə, dövlətlər bütün səy və bacarıqlarından istifadə edərək beynəlxalq hüququn kiber təhlükələr ilə mübarizənin hansı formada aparılmasını aydınlaşdırmağa davam etməlidirlər.

Zamanımız internet erasına təsadüf edib, informasiya texnologiyaları indiyə kimi görülməmiş formada həyatımızı dəyişməyə müvəffəq olub. İnternet insanları say və forma baxımından təsəvvür edilə bilməyəcək formada bir-biri ilə birləşdirib. Bütün bu texnologiyalar dünyaya yeni imkanlar və problemlər gətirib. Yeni texnologiyalar həm bəla, həm də nemət kimi qiymətləndirilir. Bu bir çox yeniliklərə yol açdığı kimi, həm də bir çox təhlükə saçan aktorlara geniş imkanlar yarada bilir. Bu üzdən cəmiyyətimiz bu təhlükələrlə üz-üzə durduğu zaman özünü müdafiə etmə gücünə malik olması üçün beynəlxalq hüquqi normalar formalaşdırmalıdır. Eyni zamanda, beynəlxalq hüquq dünyada sülhün, əmin-amanlığın və təhlükəsizliyin qarantı olmalıdır.

Belə bir deyim də vardır ki, müharibə zamanı qanunlar susur, texnologiya erasında onun yaratdığı çətinliklər üzündən qanunlar susur və bununla mübarizə aparılmalıdır.

Bir başqa çətinlik də ondan ibarətdir ki, əvvəl qüvvədə olan qanunlar yeni texnologiyalara görə necə dəyişilməlidir və yeni duruma necə uyğunlaşdırılmalıdır. Bu və digər məsələlər dövlətlər və hakimiyyətlər arasında müzakirə olunmalıdır.

2013-cü ildə məhz Tallin manualları bu rolu öz üzərinə götürmüşdür. Manual dövlətlər arasında yeni texnologiyaların zamanımıza gətirdiyi yeni növ müharibənin - informasiya müharibəsinin, onun yaratdığı təhlükələrin aradan qaldırılmasını, qarşısının alınmasının önəmli və vacib yollarını məlumat formasında nəzərə çatdırmışdır.

Tallin manualları gələcəkdə də kiber təhlükələrə qarşı öz rolunu oynamağa davam edəcəkdir. Bu rol dövlətlərin hüquqi vəziyyəti anlaması, kiber təhlükələrə qarşı hüquqi bazanın yaradılması və birgə hərəkət edilməsi deməkdir.

**Ədəbiyyat:**

1.Tallin manual on the international law applicable to cyber warfare. Michel N. Schmitt 2017.Cambridge University Press.

2.Таллинское руководство. Царев Евгений. IT-право и кибербезопасность.

3.Двадцать лет спустя: международное гуманитарное право и защита гражданских лиц от последствий кибeропераций во время вооруженных конфликтов. Международный журнал Красного Креста №913 (2021г.) Цифровые технологии и война

## QADINLAR SİYASƏTDƏ

**Əliyeva Mehriban Rizvan**
**Azərbaycan Dillər Universiteti**
**https://orcid.org/0009-0003-9559-7734**
**mexr5@yahoo.com**

## WOMEN IN POLITICS

**Aliyeva Mehriban Rizvan**
**Azerbaijan University of Languages**
**https://orcid.org/0009-0003-9559-7734**
**mexr5@yahoo.com**

**Summary**

The sphere of politics is traditionally one of the most gender-asymmetric. The predominance of men and the political passivity of women in the real process of political decision-making are two poles of differentiation of socio-sexual roles with deep historical and cultural roots. A detailed analysis of the political role of women in her work "The development of a feminist political science concept: the changing political role of women and the revision of the theory of politics" was conducted by Yu. Kochkina back in 1998. Her work examines approaches to the problems of women in political practice, their various positions.

In the modern world, amazing changes are taking place in this area. As an example, Germany, whose chancellor has become a woman, and among the countries applying for the highest political post are the United

States and France. Thus, British newspapers claim that the appearance of women in leadership positions in politics is explained by the support of women's education and the development of various spheres.
**Keywords**: woman, politics, gender equality, law, education

## ЖЕНЩИНЫ В ПОЛИТИКЕ

**Алиева Мехрибан Ризван**
**Азербайджанский Университет Языков**
**https://orcid.org/0009-0003-9559-7734**
**mexr5@yahoo.com**

**Резюме**

Сфера политики традиционно является одной из самых асимметричных в гендерном отношении. Преобладание мужчин и политическая пассивность женщин в реальном процессе принятия политических решений-два полюса дифференциации социально-половых ролей, имеющих глубокие историко-культурные корни. Подробный анализ политической роли женщины в своей работе «Разработка феминистской политологической концепции: изменяющаяся политическая роль женщины и пересмотр теории политики» провела Ю. Кочкина еще в 1998 году. В ее работе рассмотрены подходы к проблемам женщин в политической практике, их различные позиции.

В современном мире в этой сфере происходят удивительные изменения. В качестве примера можно привести Германию, канцлером которой стала женщина, а среди стран, претендующих на высший политический пост, - США и Франция. Так, британские газеты утверждают, что появление женщин на руководящих постах в политике объясняется поддержкой женского образования.
**Ключевые слова**: женщина, политика, гендерное равенство, право, образование

Siyasət sahəsi gender vəziyyətinin dəyişməsi baxımından ən inert sahədir. XX əsrin ikinci yarısında təhsil, biznes və s. kimi sahələrdə hiss ediləcək dəyişikliklər baş vermiş, lakin məhz siyasət sahəsində qadın və kişilərin bərabər təmsil olunması kifayət qədər kəskin problem olaraq qalmışdır. Bu sahədə aparılan elmi gender tədqiqatları göstərir ki, kəmiyyət göstəricilərinin toplanması çətin deyil. Bütün bunlar hakimiyyətin bütün pillələrində qadın və kişilərin nisbətində özünü büruzə verir, özü də həm təyin olunan, həm də seçkili vəzifələrdə. Dünyanın müxtəlif ölkələrində qadınların orta hesabla 11% səviyyəsində təmsil olunduğu parlamentlərdə deputatların nisbətinə baxmaq kifayətdir. 1999-cu ildə cəmi 677 qadın parlamentin və ya senatın yuxarı palatalarının üzvləri vəzifəsini tutduğu halda, kişilərin sayı 5,639 nəfər təşkil edirdi. Direktiv səviyyədə gender nisbəti, Skandinaviya ölkələri istisna olmaqla, orta hesabla 7-8% idi. 1996-cı ildə qadınlar yer kürəsində olan kabinet nazirlərinin 6,8%-ni təşkil etdiyi halda, 1997-ci ildə onların sayı 7 faizə qədər artmış, 1998-ci ildə isə 7,4 faiz təşkil etmişdir. Nəzərə almaq lazımdır ki, bütün bunlar post-Pekin dövrünün intensiv proseslərinin fonunda baş verirdi. 1999-cu ilin avqustunun nəticələrinə görə, yalnız 10 qadın dövlət və hökumət başçıları vəzifəsini: Banqladeşdə, Qayanada, İrlandiyada, Latviyada, Yeni Zelandiyada, Panamada, San-Marinoda, Şri-Lankada (prezident və baş nazir) və İsveçrədə tutmuşdu. 7 ildən sonra, 2006-cı ildə Almaniya, Çili, Liberiya da bu siyahıya qoşuldu. Nazirlər Kabineti və daha aşağı səviyyələrdə (nazir, nazir müavini, daimi katib və idarəetmə başçısı) dövlət qərarlarının qəbulunda qadınların təmsil olunması da bu sahədə çox ləng inkişafın olmasından xəbər verir.

Mövcud informasiyanın yalnız say dəyişikliklərinə aid olduğunu görmək çətin deyil. Özü də mövcud rəqəmlər daha çox dəyişikliklərin simvolik xarakterinə işarədir və siyasətdə cinslər arasında bərabər nisbətin olmasına hələ çox qaldığına dəlalət edir.

Say məlumatlarını ölkələrin iqtisadi inkişafı, mədəni xüsusiyyətləri ilə əlaqələndirmək daha çətindir. Belə vəziyyətin səbəblərini dərk etmək və qadınların siyasət sahəsində irəliləməsinin əsl maneələrini aşkara çıxarmaq daha çətindir ki, bu da nəticələrin proqnozlaşdırılmasını qeyri-mümkün edir. Bunsuz isə təklif edilən tədbirlərin effektivliyi aşağı olur və onlar dayanıqlığı təmin edə bilmir. Məsələn, kvotaların tətbiq edilməsi məsələsi. Bir çox beynəlxalq sənədlərdə kvotalar qadınların siyasət sahəsinə nüfuz etməsi üçün təsirli tədbir kimi təklif olunur.

Sovet dövrünün təcrübəsi ölkənin siyasi quruluşunun xarakterini nəzərə almadan bu tədbirdən istifadənin qeyri-məqsədəuyğunluğunu yaxşı nümayiş etdirir. Belə ki, qadınların siyasi iştirakının genişləndirilməsi o dövrün ideologiyasının tərkib hissəsi olaraq, kvotalar sistemi hesabına təmin olunmalı idi. Bu, Sovet İttifaqının mövcud olduğu 70 il ərzində direktiv (təzyiq) metodla həyata keçirilirdi. Buna baxmayaraq, sistem dağıldıqdan sonra onun süniliyi dərhal aşkara çıxdı. Say göstəricilərində kəskin enmə baş verdi. Azərbaycanda baş vermiş hadisələr bunu yaxşı nümayiş etdirir. Görünür, kvotalar avtoritar hakimiyyət sistemlərində effektiv, keçid dövrlərində az səmərəli (onlar əvvəlki dövrdəki istifadə metodu ilə diskreditasiya olunmuş olurlar) və demokratik idarəetmə şəraitində yolverilməzdirlər. Lakin, bəzi hallarda (mədəni və regional xüsusiyyətləri nəzərə almaqla) onlar müvəqqəti tədbir kimi istifadə ediləcəksə, ola bilsin ki, nəticə versinlər (məsələn, Finlandiyadakı kimi).

Rusiyalı tədqiqatçıların fikrincə, qadınların siyasətdə fəallaşmasına bəlli olan ümumbəşəri maneələr mane olur ki, bunlara da onlar qadınların zəif motivasiyasını şərtləndirən siyasi sosiallaşmada gender fərqlərini, həmçinin müxtəlif növ resursların paylanmasında qeyri-bərabərliyi aid edirlər. Üçüncü əhəmiyyətli amil kimi onlar uşaqların tərbiyəsində və ev təsərrüfatının idarə olunmasında qadınların tək məsuliyyət daşımasını tələb edən həyat yolunun xüsusiyyətlərini əsas götürürlər. Sadalananlara tədqiqatçılar partiya təşkilatlarında və hakimiyyət orqanlarında qadınlara aparıcı vəzifələri vermək arzusunun olmamasında təzahür edən diskriminasiyanın mövcudluğunu, habelə qadın siyasətçilərə inamsızlığını diktə edən ənənəvi gender stereotiplərinin güclü olmasını əlavə edirlər.

Dünyanın bir çox ölkələrinə həyatın siyasi sahəsində hüquqi gender bərabərliyi (de-yure) xasdır. Lakin Pekin Fəaliyyət Platformasının icmal materiallarında göstərildiyi kimi, "qərar qəbulu səviyyəsində qadınların faktiki təmsil olunması (de-fakto – müəllif) dəyişməyib" (Pekindən sonrakı dövr nəzərdə tutulur). Qadınlar milli parlamentlərdə azlıq təşkil etməkdə davam edirlər. BMT-nin məlumatlarına əsasən, onların parlamentlərdə üzvlüyünün orta ümumdünya göstəricisi 1999-cu ildə 12,7 faiz təşkil etmişdir. 30 faizdən az olmayan "kritik kütlə" ümumilikdə Şimali Avropa ölkələrinin parlamentlərində qorunub saxlanılır, bu da təhsildə gender fərqlərinin olmaması, qadınların siyasi şüurunun artması ilə izah edilir. Onlar seçki kampaniyalarında və səsvermədə fəal iştirak edirlər, qadın və kişilərin ailə və peşə vəzifələrinin birgə aparılması üçün şərait yaratmağa yönəlmiş balanslaşdırılmış dövlət siyasətinin işlənməsinə yardım edən siyasi iradə göstərirlər.

Bizim tədqiqatımızda qarşıya bu və ya digər qadının əldə etdiyi kifayət qədər yüksək siyasi fəallıq səviyyəsini nəzərdə saxlayaraq, bunun mənbələrini (səbəblərini və motivlərini) və ifadə formalarını, həmçinin qadınların siyasətdə irəli çəkilməsi yollarını aşkara çıxarmaq, başqa sözlə, qadını siyasətə gətirən həyat yolunu təhlil etmək vəzifəsi qoyulmuşdur.

Lüğətlərdə verilmiş mənasına uyğun olaraq, "siyasət" cəmiyyətin təşkilati və nəzarət-tənzimləyici sahəsidir ki, digər sahələrin: iqtisadi, ideoloji, hüquqi, mədəni, dini sahələrlə müəyyən edilir. Tarixə edilən səyahət isə bu sahənin xüsusiyyətlərini açıqlamağa imkan verir. Belə ki, qədim yunan filosofları azadlığı siyasətin əsas şərti hesab edirdilər və düşünürdülər ki, düzgün və müdrik idarəetmə haqqındakı biliklər - elmin özüdür. Orta əsrlərdə siyasəti hökmdarın şəxsi keyfiyyətlərindən və dəyərlər sistemindən ayırdılar (Makiavelli) və hakimiyyət uğrunda mübarizəni siyasətin məzmununa çevirdilər. Maks Veberin fikrincə,

siyasət – dövlət aparatının liderliyi və ya bu liderliyə təsirdir (bizim tərəfimizdən ayırd edilmişdir - müəlliflər). Beləliklə, siyasət hakimiyyətdə iştirak etməyə və ya hakimiyyətin paylanmasına təsir göstərməyə meyildir, canatmadır. Və burada mübarizəsiz, rəqabətsiz artıq ötüşmək olmaz. K.Marksa əsasən, siyasət mahiyyətcə antaqonist olan sinfi maraqların mübarizəsidir, dövlət isə – yalnız bu mübarizənin vasitəsidir. Bütün hallarda siyasətin özəyi - hakimiyyətdir.

Siyasətin (bəşəriyyətin keçmişində olduğu kimi) – gündəlik düşüncədə “qadının təyinatı”, qadın davranışı, qadınlıq obrazı ilə uyğun gəlməyən işlərin daxil olduğu sahə olduğunu sezmək çətin deyil. Təsvirinə görə, o, güc tətbiqini tələb edir və “kişilik”, “itaətsizlik”, “aqressivlik”, “ölüm” və s. kimi anlayışlarla assosiasiya edir və çox güman ki, qadınların bu sahəyə buraxılmaması kimi təşəkkül tapmış çoxəsrlik ənənələrin, nəslin qorunub saxlanması instinktinin bazasında qurulurdu və qadınların həyatın daşıyıcıları kimi qorunmasının nəticəsi idi. Hər halda, qadınlar siyasətdə ona görə yoxdurlar ki, onların tələb olunan qüvvəsi yoxdur (onlar zəifdirlər), ona görə ki, yüz illər boyu onlar bu sahədən müdafiə edilmək məqsədilə uzaqlaşdırılmışlar. Onları hazırda maneəyə çevrilən və onların siyasətdə irəliləməsi və şəxsiyyətinin inkişafı qarşısında sədd çəkən kişilər qoruyurdu.

Son onilliklər ərzində gender münasibətləri sahəsində baş verən proseslər çox intensiv olmasa da, vətəndaşların siyasi fəallığının mənzərəsini dönmədən dəyişir. Bu fonda qadınların siyasi fəallığı haqqında təşəkkül tapmış təsəvvürlər necə transformasiya edir? Qadınların siyasətə gəlməsini nə dəstəkləyir və buna mane olan nədir?

Əldə olan ədəbiyyatın təhlili təxmin etməyə əsas verdi ki, qoyulmuş sualların cavabları şəxsi siyasi fəaliyyətin məkanının xaricində yerləşir və siyasətə marağın formalaşmasının köklərini və siyasi cəhətdən fəal qadınların davranışının motivlərinin mənbələrini onların şəxsiyyətinin təşəkkül tapmasının erkən çağlarında – ola bilər ki, uşaqlıq, yeniyetməlik və ya gənclik dövrlərində axtarmaq lazımdır. Nəzərdə tutmaq lazımdır ki, qadın siyasətçiləri sırasına təkcə Parlamentə və ya digər seçkili vəzifələrə seçilənləri deyil, həm də vəzifəyə təyin edilənləri, məsələn, nazirləri və ya onların müavinlərini, müəssisə rəhbərlərini, habelə biznesdə uğur qazanmış və ya ictimai hərəkatları idarə edən qadınları da aid etmək lazımdır.

**Ədəbiyyat:**


1. IPU (2021), Women in Parliament in 2020: The Year in Review, Inter-Parliamentary Union, http://www.ipu.org/women-in-parliament-2020.

2. OECD (2019), Fast Forward to Gender Equality: Mainstreaming, Implementation and Leadership, OECD Publishing, Paris, https://doi.org/10.1787/g2g9faa5-en.

3. OECD (2018), Toolkit for Mainstreaming and Implementing Gender Equality, OECD website, www.oecd.org/gender/governance/toolkit/.

4. OECD (2016), 2015 OECD Recommendation of the Council on Gender Equality in Public Life, OECD Publishing, Paris, https://doi.org/10.1787/9789264252820-en.

5. Max Weber (1919), Politics as a vacation

6. Карл Макс (1857-1859), Экономические рукописи 1857-1859 годов

7. Ю. Кочкина (1998), «Разработка феминистской политологической концепции: изменяющаяся политическая роль женщины и пересмотр теории политики»

8. conflicts.aznet.org/conflicts/gloss4.htm

9. http://historic.ru/history/

# ELEKTRON HÖKUMƏTƏ İCTİMAİ ETİMADIN FORMALAŞDIRILMASI VƏ CƏMİYYƏTİN İNFORMASİYALAŞDIRILMASI PROBLEMİ

**Süleymanov Muraz İsa**
**Bakı Dövlət Universiteti**
**https://orcid.org/0009-0002-2025-4289**
**murazsuleymanov01@gmail.com**

# FORMATION OF PUBLIC TRUST IN ELECTRONIC GOVERNMENT AND THE PROBLEM OF INFORMATIZATION OF SOCIETY

**Suleymanov Muraz Isa**
**Baku State University**
**https://orcid.org/0009-0002-2025-4289**
**murazsuleymanov01@gmail.com**

**Summary**

The informatization factor of society plays an important role in the formation of public trust in electronic government. During the informatization of the society, the formation of the national information space, the provision and protection of information, the development and implementation of projects and programs are the main goals of the implementation of state policy. The dominance of paperless technology in administration has gone through certain historical stages. The important point here is not only the development of information technologies, but also the formation of public trust in society for the implementation of such management. For this, citizens should have confidence in e-government and the impression that the advantages of e-services are sufficient. In addition, the society itself must be able to use smart technologies so that they can more easily adapt to innovations during the expansion of electronic services. The rapid development of information technologies directly contributes to the improvement of the quality of electronic services. At the same time, the development of these technologies leads to a high level of information security protection. In addition to promoting electronic services to citizens, the state should conduct public surveys and learn the opinions of citizens to find out the level of expansion, quality improvement, efficiency and transparency of electronic services. In such a case, the state will provide effective services to citizens and can increase transparency by analyzing citizens' opinions.

**Keywords:** informatization, electronic government, trust, technology.

# ПРОБЛЕМА ФОРМИРОВАНИЯ ОБЩЕСТВЕННОГО ДОВЕРИЯ К ЭЛЕКТРОННОМУ ВЛАСТИ И ОБЩЕСТВЕННОЙ ИНФОРМАЦИИ

**Сулейманов Мураз Иса**
**Бакинский Государственный Университет**
**https://orcid.org/0009-0002-2025-4289**
**murazsuleymanov01@gmail.com**

**Резюме**

Фактор информатизации общества играет важную роль в формировании доверия населения к электронному правительству. В ходе информатизации общества формирование национального информационного пространства, обеспечение и защита информации, разработка и реализация проектов и программ являются основными целями реализации государственной политики. Доминирование безбумажных технологий в управлении прошло определенные исторические этапы. Важным моментом здесь является не

только развитие информационных технологий, но и формирование общественного доверия в обществе к осуществлению такого управления. Для этого у граждан должно быть доверие к электронному правительству и впечатление, что преимуществ электронных услуг достаточно. Кроме того, само общество должно иметь возможность использовать умные технологии, чтобы легче адаптироваться к инновациям при расширении электронных услуг. Стремительное развитие информационных технологий напрямую способствует повышению качества электронных услуг. В то же время развитие этих технологий приводит к высокому уровню защиты информации. Помимо продвижения электронных услуг для граждан, государство должно проводить опросы населения и узнавать мнение граждан для выяснения уровня расширения, улучшения качества, оперативности и прозрачности электронных услуг. В таком случае государство будет оказывать эффективные услуги гражданам и сможет повысить прозрачность, анализируя мнения граждан.

**Ключевые слова:** информатизация, электронное правительство, доверие, технологии.

Müasir dövrdə cəmiyyətin informasiyalaşması anlayışı aktual xarakter kəsb etməyə başlamışdır. Texnologiyaların inkişafı və rəqəmsal məlumatın geniş yayılması yeni bacarıq qabiliyyətləri olan insanlar üçün də müəyyən tələblər yaratmışdır. Bir çox təşkilatlar öz veb səhifələrini yaratmaqla internetdə varlıqlarını inkişaf etdirir və tanınırlar. İnformasiya texnologiyalarının inkişafı əvvəlki dövrlərdə zəruri hesab edilməyən bacarıq və anlayışa malik bir qrup informasiya mütəxəssislərinə ehtiyac yaranmasına səbəb olmuşdur. Günümüzdə informasiya bir çox təşkilatlarda qiymətli resurs kimi dəyərləndirilir və ondan düzgün idarə və istifadə etmək, innovasiyaları sürətləndirə, məhsuldarlıq səviyyəsini yüksəldilməsini təmin edə bilər.

Bu gün dünya dövlətləri İT-yə əsaslanan iqtisadiyyata sahibdirlər. Bu amil inkişaf etmiş ölkələrdə daha yüksək sürətlə inkişaf edir. İnformasiya texnologiyalarının inkişafı ilə işçi qüvvəsinin strukturunda dəyişikliklər baş verir, bu sahədə işçilərin sayı artır və yeni iş axtarışı üsulları formalaşır. Burada vətəndaşlara göstərilən xidmət zamanı onların məlumatlarının qorunması amili və vətəndaşların bu xidmətlərə inamının formalaşması mühüm əhəmiyyətə malikdir.

Bəşəriyyət öz inkişaf tarixinə görə müəyyən inkişaf mərhələlərindən keçmişdir (Xəlilov, 2009). Günümüzədək bəşər tarixində dörd tarixi informasiya inqilabı olmuşdur ki, ilk informasiya inqilabı kimi Mesopotomiya və Çində yazının ixtirasını göstərə bilərik. İkinci informasiya inqilabı əlyazma kitablarının yaranması və üçüncü informasiya inqilabı 1450-ci illərdə nəşr dəzgahlarının formalaşması ilə başlamışdır. Keçən əsrin sonlarından etibarən isə cəmiyyətin inkişafı informasiyalaşma mərhələsinə daxil olmuşdur (Webster, Frank, 2004; Hacızadə, 2015). İnformasiyalaşmış cəmiyyətin əsas xüsusiyyəti kimi onun informasiya mübadiləsinə əsaslanmasını göstərə bilərik (Xəlilov, 2009; Əliquliyev, Yusifov, 2014). İnformasiya cəmiyyəti quruculuğu hər bir dövlətin intellektual potensialından istifadə vasitəsilə inkişafın həyata keçirilməsi, şəffaflığın və operativliyin təmini üçün cəmiyyətin demokratikləşməsində əsas vasitədir.

Ağıllı texnologiyalar vasitəsilə informasiyanın elektronlaşdırılması zamanı ixtisaslı mütəxəssislərə ehtiyac yaranır (Albesher, 2015). Dövlət xidmətlərinin elektron formada həyata keçirilməsi müəyyən kadr hazırlığının aparılmasını tələb edir. Dövlət bu sahədə savadsızlığı aradan qaldıraraq kadr hazırlığı prosesini həyata keçirməli və İT mütəxəssislərinin inkişafı üçün onları müəyyən layihələrə cəlb etməlidir.

Hazırda elektron dövlət xidmətlərinin parametrləri aşağıdakı amillərə görə təyin edilir:

- xidmətlərin göstərilmə sürəti və cəld cavablandırma sistemi;
- xərcləri azaltmaq üçün məlumatdan düzgün istifadə və idarə bacarığı;
- riski azaltmaq üçün xidmətlərin çeşidini genişləndirmək;
- müştəri tələblərinə həssas yanaşma;
- vətəndaş razılığının nəzarətdə saxlanılması və s.

Rəqəmsallaşan dünyada vətəndaşlar harada olmasından asılı olmayaraq internet resurslarından istifadə etməklə özünü lazımi məlumatla təmin etməyi bacarmalıdır. İşdə və ya təhsil alarkən məlumatdan

istifadə etməklə yanaşı, əhali gündəlik həyatının bir hissəsi kimi özəl və ya dövlət sektoru tərəfindən təmin edilən məhsul və xidmətlərin istehlakçıları kimi elektron informasiya resurslarından istifadə edir (Webster, Frank, 2004). Bu istiqamətdə vətəndaşların məlumat əldə etmək imkanı çox sadə şəkildə yerinə yetirilməlidir (Xəlilov, 2009). Milli və yerli səviyyələrdə dövlət orqanları kargüzarlıq və administrativ tapşırıqların avtomatlaşdırılması və elektron ödəniş sistemlərinin inkişafı vasitəsilə kommersiya təşkilatlarında istifadə edilənlərə bənzər üsullarla ümumi səmərəliliyi artırmağa çalışmalıdır.

**E-Dövlət Xidmətlərinə Güvən**

Yeni dövlət idarəçiliyinə vətəndaşlar tərəfindən inamın yaranması və ictimai etimadın formalaşdırılması hökumətin qarşısında duran əsas vəzifələrdən biri hesab edilmişdir. Texnologiyadan istifadə e-dövlət xidmətlərində nəzarəti təkmilləşdirə bilsə də, informasiya-kommunikasiya avadanlıqlarının olması təkbaşına etimad yaratmaq üçün kifayət deyil, bu cür narahatlıqların aradan qaldırılması üçün daha çox səy göstərilməlidir (Albesher, 2015). Texnologiyanın qabaqcıl təhlili məlumatların sürətli toplanmasını asanlaşdırdığı üçün e-dövlət xidmətinin istifadəçiləri yalnız əməliyyatlarda iştirak edərək öz razılıqlarını bildirir (Hacızadə, 2015; Albesher, 2015). Vətəndaş məlumatlarının qorunmasını həyata keçirən zaman hökumət elə bir sistem qurmalıdır ki, vətəndaşlar əmin olsun ki, cəmiyyət e-dövlət xidmətlərindən istifadə yolu ilə faydalanacaq və onların məlumatları oğurlanmayacaq.

Bu baxımdan elektron hökumətin müsbət və mənfi tərəfləri mövcuddur. Onun üstünlüklərinə vaxt itkisinin aradan qaldırılması, coğrafi yerindən asılı olmayaraq məlumat əldə etməyin mümkünlüyü, onlayn xidmətlərin həyata keçirilməsi və s. aiddir. Mənfi tərəflərinə isə məxfiliyin qorunmasının nə dərəcədə mümkün olması, zərərli proqramların yayılması, elektron fırıldaqçılıq, sistemin həddən artıq yüklənərək donması və bu kimi digər halları göstərə bilərik (Martin, William, 1995; Albesher, 2015).

İnformasiya ehtiyatları və prosesləri sahəsində informasiyanın mühafizəsini təmin etmək üçün hökumət öz fəaliyyət proqramını işləyib hazırlamalıdır (Xəlilov, 2009). Burada əsas məqsəd dövlətin, cəmiyyətin və vətəndaşların təhlükəsizliyinin təmin edilməsidir (Webster, Frank, 2004). İnformasiya təhlükəsizliyinin təmin edilməsi qaydaları dövlət tərəfindən təmin edilməli və hər hansı qanun pozuntusuna qarşı qanunvericiliyə əsasən ciddi tədbirlər görülməlidir.

Elektron hökumətə ictimai etimadın formalaşdırılması zamanı hökumət işçilərinin vətəndaşlarla münasibətləri də mühüm əhəmiyyətə malikdir (Albesher, 2015). Dövlət qulluqçuları öz xidməti vəzifələrini dövlətin və cəmiyyətin, həmçinin, şəxsin mənafeləri naminə səmərəli formada həyata keçirməyə borcludur. Buna görə də dövlət qulluqçusu xidmət zamanı vicdanlı davranış, fərdi məsuliyyət, mədəni əlaqə, qərəzsizlik və loyallıq nümayiş etdirməlidir.

Elektron hökumətə yüksək səviyyədə ictimai etimadın formalaşdırılması üçün ilk öncə cəmiyyətin hər bir üzvü elektron xidmətlərdən istifadə bacarıqlarına malik olmalıdır. Belə ki, kağızsız texnologiyaya əsaslanan elektron hökumətin formalaşdırılması zamanı əvvəlcə cəmiyyətin informasiyalaşdırılması baş verməli, daha sonra elektron dövlət xidmətlərinə güvənin formalaşdırılması həyata keçirilməlidir.

Elektron xidmətlərin keyfiyyətinin və səmərəliliyinin artırılması üçün eyni zamanda vətəndaş-məmur münasibətləri etik davranış qaydalarına uyğun formada aparılmalıdır. Beləliklə, cəmiyyətin informasiyalaşdırılması vasitəsilə elektron hökumətə ictimai etimadın formalaşdırılması üçün aşağıdakı təklif və tövsiyələr göstərilmişdir:

- e-dövlət xidmətlərinin tətbiqinin təşviqi;
- cəmiyyətin İKT-dən istifadə bacarığının inkişaf etdirilməsi;
- internet sürətinin artırılması;
- xidmət keyfiyyətinin yoxlanılması məqsədilə sorğu metodundan istifadə;

• davamlı ixtisaslı kadr hazırlığı vasitəsilə xidmətlərin daha çevik və yeni formada vətəndaşlara təqdim edilməsi;

• fərdi məlumatların qorunmasının təmini və informasiya təhlükəsizliyinə qarşı davamlı tədbirlərin həyata keçirilməsi.

**Ədəbiyyat:**


1. Abdulaziz Albesher Trust as a source of Long-Term Adoption of E-government, London 2015
2. Диметрий. Информационная сфера: общество в телекоммуникационной среде. Н.Новгород: Престиж-Н; М.: Флинта, 2010, 156 с.
3. Əliquliyev R.M., Yusifov F.F. Elektron dövlətin formalaşmasının bəzi aktual elmi-nəzəri problemləri və həll perspektivləri//İnformasiya cəmiyyəti problemləri, 2014, №2, s. 3-13.
4. Hacızadə M.E. İnformasiya cəmiyyətinin formalaşması amilləri və onun Azərbaycanda inkişaf meylləri. İnformasiya cəmiyyəti problemləri, Bakı-2015, №2, 71-81.
5. Martin, William J. The global information society. UK: Aslib Gower, 1995.
6. Xəlilov M.S. İnformatika: Universitet tələbələri üçün dərslik, Bakı-2009.
7. Webster, Frank. The information society reader. London: Routledge, 2004.
8. www.e-gov.az
9. https://e-qanun.az/framework/13685
10. http://www.lawreform.az/
11. www.serialsjournal.com
12. https://e-qanun.az/framework/24353
13. https://e-qanun.az/framework/3525


## “HUMANİTAR MÜDAXİLƏ”NİN TƏKAMÜL FORMALARI


**Məmmədova Nailə Xudaqulu**

**Bakı Slavyan Universiteti**

**https://orcid.org/0009-0001-9835-5859**

**mammadofa@gmail.com**


## EVOLUTIONARY FORMS OF "HUMANITARIAN INTERVENTION".


**Mammadova Naila Khudagulu**

**Baku Slavic University**

**https://orcid.org/0009-0001-9835-5859**

**mammadofa@gmail.com**



**Summary**

The purpose of this report is to gain systematic and comprehensive knowledge about the concept of "humanitarian intervention", which has become one of the main topics of wide discussions in the political and legal literature, and to contribute to the work of determining its impact on the processes and events taking place in the modern international relations system. In order to deeply understand the essence of the concept of "humanitarian intervention", which is one of the most urgent issues of international relations, we consider it important to consider its

evolutionary forms in the historical, legal and political context. Philosophers and social scientists have questioned the causes of war since ancient times. Statesmen and politicians tried to find the conditions that made wars necessary. Reasons such as state interests, security, threats and risks, and the religious factor have been put forward to legitimize wars. Among these reasons, the legality of wars waged for the sake of kindness and humanity has become more of a topic of discussion. Currently, this approach is expressed in the concept of humanitarian intervention. The jus in bello or just war law, which regulates the rules to be observed in the use of armed forces, experienced its golden age during the period when the use of force was natural for states, and the period after the First World War was a period of revival for the jus ad bellum, which regulated the rules for resorting to war.

**Key words: Humanitarian, intervention, legal, historical, political, evolution**

## ЭВОЛЮЦИОННЫЕ ФОРМЫ «ГУМАНИТАРНОЙ ИНТЕРВЕНЦИИ»

**Мамедова Наиля Худагулу**
**Бакинский Славянский Университет**
**https://orcid.org/0009-0001-9835-5859**
**mammadofa@gmail.com**

**Резюме**

Цель настоящего доклада – получить систематические и всесторонние знания о понятии «гуманитарная интервенция», которая стала одной из основных тем широких дискуссий в политико-правовой литературе, и внести свой вклад в решение задачи определения ее влияния на процессы и события, происходящие в современной системе международных отношений. Для глубокого понимания сущности понятия «гуманитарная интервенция», являющегося одним из актуальнейших вопросов международных отношений, считаем важным рассмотреть его эволюционные формы в историческом, правовом и политическом контексте. Философы и социологи задавались вопросом о причинах войн с древних времен. Государственные деятели и политики пытались найти условия, которые сделали войны необходимыми. Для легитимации войн выдвигались такие причины, как государственные интересы, безопасность, угрозы и риски, религиозный фактор. Среди этих причин законность войн, которые ведутся во имя доброты и человечности, стала более предметом обсуждения. В настоящее время этот подход выражается в концепции гуманитарной интервенции. jus in bello или справедливое военное право, регулирующее правила, которые должны соблюдаться при использовании вооруженных сил, переживало свой золотой век в период, когда применение силы было естественным для государств, а период после Первой мировой войны был период возрождения jus ad bellum, регламентировавшего правила обращения к войне.

**Ключевые слова:** Гуманитарная интервенция, юридическая, историческая, политическая, эволюция.

Humanitar müdaxilə anlayışı hazırkı məna tutumuna və onunla bağlı edilən qızğın müzakirələrə görə XX əsrin mövzusu olsa da, tarixi, hüquqi və fəlsəfi mənşəyi baxımından onu qədim dövrlərə aid etmək olar. Humanitar müdaxilənin tarixi kökünü ortaya qoya bilmək üçün dövlətlərin təhlükəsizliklə bağlı təsəvvürləri və müdaxilə anlayışları araşdırılmalıdır. Bir və ya bir neçə dövlətin digər dövlətin daxili işlərinə qarışması uzaq keçmişdən məlum olsa da, müasir beynəlxalq hüquq və beynəlxalq münasibətlər anlayışında dövlətlərin suverenlik hüquqlarının məhdudlaşdırılmasına yönəlmiş bir təcrübə hesab edilir.

Eyni zamanda bir dövlətin suverenliyinə qarşı müdaxilədən bəhs edərkən, ədalətli müharibə haqqında fikir və mülahizələr humanitar müdaxilələrin tarixi kökü haqda maraqlananlar üçün mühüm istinad mənbəyini təşkil edir.

**Ədalətli müharibə: tarixi-siyasi, təbii hüquqi yanaşma**

Ədalətli müharibənin mahiyyətini başa düşmək üçün onun aşağıdakı iki əlamətini nəzərdən keçirmək lazımdır:

*1.Jus ad bellum* müharibəyə başlamağın zəruriliyini göstərir və müharibənin ədalətli aparılması üçün müəyyən meyarlar ortaya qoyur. Jus ad bellum prinsipi üçün savaş üçün ədalətli səbəbin mövcudluğu ilkin şərtdir. Müharibənin haqlı olması üçün onu müdafiə və ya əvvəlki pisliyə cavab olaraq etmək lazımdır. Müharibəyə son çarə kimi müraciət etmək - bütün dinc üsullar sınaqdan keçirildikdə və heç bir nəticə əldə edilmədikdə, güc tətbiqinə zərurət kimi müraciət etmək deməkdir [John, 2006].

*2.Jus in bello* isə müharibə zamanı riayət edilməli olan qaydaları sorğulamaqda və müharibə zamanı gücdən istifadənin ədalətli olması üçün müəyyən meyarlar ortaya qoymaqdadır. Jus in bello prinsipi baxımından, müharibə zamanı döyüşçü və mülki şəxsləri bir-birindən ayırmaq mühüm əhəmiyyət kəsb edir. Əgər belə olmazsa, döyüşməyən mülki əhaliyə hücum etmək müharibənin ədalətliliyinə xələl gətirəcək. Klassik ədalətli müharibə nəzəriyyəsi baxımından bu cür problemli olan döyüşçü-vətəndaş fərqi dövrümüzün müasir kütləvi müharibələrində daha ciddi problemlərə səbəb olur. Məqsəd müharibənin dağıdıcılığını və zorakılığını azaltmaqdır. Müharibədə güc tətbiq etmək aktı yaxşı düşünülməli və bəşəriyyətin daimi ziyana uğramaması üçün diqqətli olunmalıdır [Walzer, 2006].

Ədalətli müharibə nəzəriyyəsi, "jus ad bellum" və "jus in bello" prinsipləri ilk növbədə təbiət fəlsəfəsinə əsaslanan təbii hüquq anlayışının üstünlük təşkil etdiyi klassik dövrün qaynaqlarından qidalanırdı. O, dini fəlsəfəyə əsaslanan təbii hüquq anlayışı içərisində monoteist dinlərin yarandığı və daha sonra isə xristianlığın yayıldığı dövrdə inkişaf etmiş, maarifçilik fəlsəfəsinə əsaslanan təbii hüquq anlayışı çərçivəsində müasir dövlət sisteminin və beynəlxalq hüququn inkişafı ilə dünyəvi xarakter almışdır. Təbii hüquq anlayışının öz yerini pozitiv hüquq yanaşmasına verməsi ilə ədalətli müharibə nəzəriyyəsi nəzəri əhəmiyyətini itirdi. Bu, humanitar zəmində müdaxilə anlayışının əhəmiyyət qazandığı dövrdür.

Buna görə də humanitar müdaxilə ədalətli müharibə nəzəriyyəsinin dirçəldilməsi kimi şərh edilir. Beləliklə, humanitar müdaxilə anlayışını təşkil edən əsas elementlər araşdırıldıqda onun ədalətli müharibə nəzəriyyəsi ilə əlaqəsi ortaya çıxır. Bu isə humanitar müdaxilənin köklərinin qədim dövrlərə gedib çıxdığını göstərir. Ədalətli müharibə nəzəriyyəsi də öz irsini qədim dövrdən götürür.

**Gücdən istifadənin tənzimlənməsi və beynəlxalq hüquq**

XVIII əsrdən etibarən təbii hüquq anlayışı öz yerini pozitiv hüquqa verdi. Dövlətlərin vəzifə və hüquqları müqavilələr və praktiki təcrübələrlə müəyyən olunmağa başladı. Beləliklə, dini və ya dünyəvi təbii qanunlara əsaslanan ədalətli müharibə anlayışı aradan qalxmış, dövlətlərin təcrübələrindən qaynaqlanan müharibə yanaşması ortaya çıxmağa başlamışdır. Artıq dövlətlərin müharibə elan etmək və ona haqq qazandırmaq, xüsusən toxunulmazlıq, özünümüdafiə, qisas, müqavilə hüquqlarının yerinə yetirilməsi və kollektiv müdaxilə ilə təmin etmək hüququ vardı [Murphy, 1996].

Artıq XIX əsrdə gücdən istifadənin tənzimlənməsi, zorakılığın məhdudlaşdırılması və müharibə zamanı riayət olunacaq qaydaların müəyyən edilməsi istiqamətində bugünkü beynəlxalq hüquqda da özünü göstərən bəzi irəliləyişlər olmuşdur.

Napoleon müharibələrindən sonra 1815-ci ildə Avropanın böyük dövlətlərinin bir araya gəldiyi Vyana konqresində qitənin gələcəyini müəyyən etmək və münasibətləri diplomatik yollarla həll etmək qərarına gəldilər, Müqəddəs İttifaq qurdular. Müqəddəs İttifaqın Trappau və Laybax konqreslərində əgər inqilab təhlükəsi olarsa, böyük dövlətlərin başqa bir dövlətə müdaxilə edə biləcəyi fikri irəli sürüldü. Bu kontekstdə XIX əsrdə Avropa Müqəddəs İttifaqa üzv dövlətlərin İspaniyaya müdaxiləsinə şahidlik etdi. Həmin zamandan Birinci dünya müharibəsinədək olan müddətdə bu cür müdaxilələr Avropa dövlətlərinin xarici siyasətinin tərkib hissəsinə çevrildi.

Ədalətli müharibə anlayışı doktrinadan uzaqlaşdırılsa da, beynəlxalq aləmdə müharibə zamanı şiddətin məhdudlaşdırılması və qaydaların tənzimlənməsi istiqamətində addımlar atıldı. 1868-ci ildə Sankt-Peterburq Bəyannaməsi ilə bəzi silahlar qadağan edildi. Bu Bəyannamə 1899-cu il Haaqa konfransında da

qəbul edilmişdir. Bu konfransda haqlı və ya haqsız müharibə arasında fərq qoymaq üçün müharibələrin aparılması qaydaları tənzimləndi. 1907-ci il Haaqa sülh konfransında mübahisələrin sülh yolu ilə həlli və silahlanma yarışının qarşısının alınması qaydaları vurğulandı. O vaxta qədər ədalətli müharibə nəzəriyyəçiləri tərəfindən bəzən qanuni sayıla bilən düşmənin əmlakının talanması və müsadirə edilməsi Haaqada qadağan edildi, ədalətli müharibə nəzəriyyəsində bəzi xüsusi hallarda öldürülməsi məqbul sayılan hərbi əsirlər ilə yaxşı rəftar edilməsi və müharibənin sonunda onların razılaşma yolu ilə dəyişdirilməsi qərara alındı. Beləliklə, dövlətlər güc tətbiq etmək hüquqlarından əl çəkmədən bu haqlarını müharibə əvəzinə başqa adlar işlətməklə davam etdirmişlər [Keskin, 2002].

Birinci dünya müharibəsi nəticəsində beynəlxalq hüquq ilk dəfə gerçək şəkildə institutlaşdırılmağa başladı.

Bunun ilk nümunəsi 1920-ci ildə qurulan Millətlər Cəmiyyəti (MC) oldu. MC beynəlxalq münasibətlər sistemində Avropa və başqa qitələrdən olan dövlətlərin üzv olduğu ilk beynəlxalq təşkilatdır. Nizamnamədə dövlətlər arasında mübahisələrin sülh yolu ilə həll yollarına üstünlük verilsə də, lakin müharibəni tamamilə qadağan etmək və ya müharibəni dövlətlərin suverenliyindən çıxarmaq üçün heç bir addım atılmadı. Yalnız müharibə səlahiyyətini müəyyən şərtlər daxilində məhdudlaşdırmaq yolu götürüldü [Başeren, 2003].

Birinci dünya müharibəsindən sonra güc tətbiqinin məhdudlaşdırılması ilə bağlı digər mühüm sənəd 1929-cu ildə qüvvəyə minmiş Brian-Kelloq paktıdır. Bu pakt müharibəni ümumi və açıq şəkildə qadağan edən ilk sənəd idi. Bu sənədlə iştirakçı dövlətlər beynəlxalq mübahisələrin həlli üçün müharibəyə əl atmaqdan və müharibədən siyasət vasitəsi kimi istifadə etməkdən əl çəkir və münaqişələrin həlli üçün yalnız dinc vasitələrə əl atacaqlarını bildirirdilər [Taştemir, 2005].

Beləliklə, güc tətbiqinin dövlətlər üçün təbii hal olduğu dövrdə silahlı qüvvələrin tətbiqində riayət edilməli olan qaydaları tənzimləyən jus in bello və ya ədalətli müharibə qanunu öz qızıl dövrünü yaşamış və Birinci dünya müharibəsindən sonrakı dövr müharibəyə müraciət qaydalarını tənzimləyən jus ad bellum üçün dirçəliş dövrü olmuşdur.

**Ədəbiyyat:**

1. Başeren, S.H. (2003). Uluslararası Hukukta Devletlerin Münferiden Kuvvet Kullanmalarının Sınırları, Ankara, Ankara Üniversitesi Basımevi, s. 29.

2. Keskin, F. (2002). BM ve Kuvvet Kullanma, Avrasya Dosyası - BM Özel, Cilt 8, Sayı 1, İlkbahar s. 29

3. Taştemir, F. (2005).Uluslararası Terörizme Karşı Devletlerin Ülkeleri Dışında Münferiden Kuvvete Başvurma Yetkisi, Ankara, Ankara Üniversitesi Sosyal Bilimler Enstitüsü, s.106.

4. John M. (2006). Mattox, Saint Augustine and the Theory of Just War, New York, Continuum, s. 9-10.

5. Murphy, Sean D. (1996). Humanitarian Intervention: The United Nations in an Evolving Order, Philadelphia, University of Philadelphia Press, s. 35

6. Walzer, M. (2006). Just and Unjust Wars, New York, Basic Books, s. 21.

# SÜLH QURUCULUĞU PROSESİ VƏ ONUN KONSEPTUAL ƏSASLARI

**Quliyeva Şəlalə Rza**
**Gəncə Dövlət Universiteti**
**https://orcid.org/0000-0003-0692-9366**
**quliyeva.sheli@gmail.com**

# PEACEBUILDING PROCESS AND ITS CONCEPTUAL FOUNDATIONS

**Guliyeva Shalala Rza**
**Ganja State University**
**https://orcid.org/0000-0003-0692-9366**
**quliyeva.sheli@gmail.com**

**Summary**

In a world struggling with wars and separation, the pursuit of peace is more urgent than ever. A number of peace theories have been present not only to resolve the conflict but also to achieve stable and sustainable peace between the parties. The concept of peacebuilding, which is the subject of the article, is one of these theories. Peacebuilding as a transformative process aims to eliminate the main reasons for conflicts and lay the groundwork for lasting consonance and stability. This concept does not merely involve the end of hostilities, but a comprehensive approach that engages various stakeholders, promotes social justice, and seeks to provide the conditions for peaceful cohabitation to grow. In this article, we have analyzed previous research and explored the importance of peacebuilding, its cardinal tenets, key strategies, and the role of individuals and communities in building a peaceful future.

**Keywords:** peacebuilding, conflict, lasting peace, sustainable development

# ПРОЦЕСС МИРОСТРОИТЕЛЬСТВА И ЕГО КОНЦЕПТУАЛЬНЫЕ ОСНОВЫ

**Гулиева Шалала Рза**
**Гянджинский Государственный Университет**
**https://orcid.org/0000-0003-0692-9366**
**quliyeva.sheli@gmail.com**

**Резюме**

В мире, который борется с конфликтами и разногласиями, поиск мира актуален как никогда. Выдвинут ряд теорий мира не только для разрешения конфликта, но и для достижения стабильного и устойчивого мира между сторонами. Концепция миростроительства, являющаяся предметом статьи, является одной из таких теорий. Миростроительство как преобразующий процесс направлено на устранение коренных причин конфликтов и создание основы для прочной гармонии и стабильности. Эта концепция предполагает не просто прекращение военных действий, а комплексный подход, который включает в себя различные заинтересованные стороны, продвигает социальную справедливость и направлен на создание условий для процветания мирного сосуществования. В этой статье мы проанализировали предыдущие исследования и изучили важность миростроительства, его основных принципов, ключевых стратегий и роли отдельных лиц и сообществ в построении мирного будущего.

**Ключевые слова:** миростроительство, конфликт, прочный мир, устойчивое развитие

Sülh quruculuğu sosial etimadı bərpa etməyə, barışığa kömək etməyə və münaqişədən çıxan cəmiyyətlərdə zorakılığın yenidən alovlanmasının qarşısını almağa çalışan çoxcəhətli və dinamik bir prosesdir. Münaqişəni bitirməyə istiqamətlənmiş ənənəvi münaqişələrin həllindən fərqli olaraq, sülh quruculuğu siyasi narazılıqlar, sosial-iqtisadi bərabərsizliklər və mədəni bölünmələr kimi münaqişələri alovlandıran əsas problemləri həll edir. Sülh quruculuğunun son məqsədi dinc yanaşı yaşamaq və sosial birlik üçün davamlı zəmin yaratmaqdır.

Sülh quruculuğu konsepsiyası münaqişənin əsas səbəblərini həll etməklə davamlı sülhün əldə olunmasına istiqamətlənmiş yanaşmadır. Sülh quruculuğu konsepsiyasını Yohan Qaltunq 1976-cı ildə "Sülhə üç yanaşma" adlı əsərində araşdırmışdır (Galtung, 1976). Qaltunqa görə, sülh quruculuğu müharibənin səbəblərini aradan qaldıran və cəmiyyətin bütün səviyyələrində davamlı sülhü sığortalayacaq bir sistem yaratmağa yönəlmiş tədbirlər toplusudur. Sülh quruculuğu Qaltunq tərəfindən siyasi lüğətə 1970-ci illərdə daxil edilsə də, 1990-cı illərdən sonra diqqəti cəlb etmişdir. Müasir dövrdə də bir çox tədqiqatçılar sülh quruculuğu prosesi ilə bağlı araşdırmalar aparmışdır. David Çandlerin 2017-ci ildə nəşr etdirdiyi "Sülh quruculuğu: iyirmi illik böhran, 1997-2017)" kitabında, Maykl Doyle və Nikolas Sambanisin 2014-cü ildə yazdıqları "Beynəlxalq sülh quruculuğu: nəzəri və keyfiyyət analizi" məqaləsində sülh quruculuğu prosesi praktiki və nəzəri baxımdan yenidən təhlil edilmişdir. Məqaləni yazarkən türk mütəxəssisləri C. Dizdaroğlu, A. Eminoğlu, Y. Aydının da tədqiqatları nəzərdən keçirilmiş, aprılan təhlillər məqalədə öz əksini tapmışdır.

Bir çox tədqiqatçılarla yanaşı, BMT, eləcə də qlobal sülhü təmin etməyə çalışan regional və yerli QHT-lər bu konsepsiyanın prinsip və strategiyalarını müəyyənləşdirməyə çalışmışlar. Məqalədə sülh quruculuğu haqqında aparılan tədqiqatlar nəzərdən keçirilmiş və konsepsiyanın prinsip və strategiyaları, iştrakçıların rolları haqqında ümumiləşdirmələr aparılmışdır.

**Sülh quruculuğunun prinsipləri**:

1. İnklüzivlik: Effektiv sülh quruculuğu hökumətlər, vətəndaş cəmiyyəti, təcrid olunmuş icmalar, qadınlar və gənclərin də iştirakı ilə, bütün müvafiq maraqlı tərəflərin fəal iştirakını önəmsəyir. İnklüziv tədbirlər müxtəlif qrupların ehtiyac və istəklərinin nəzərə alınmasını təmin edir, sülhməramlı səylərə sahiblik və öhdəlik hissi yaradır (Eminoğlu & Aydın, 2021).

2. Münaqişənin təhlili: Münaqişənin mürəkkəbliklərini başa düşmək müvafiq strategiyaların işlənib hazırlanması üçün vacibdir. Münaqişənin hərtərəfli təhlilinin aparılması əsas səbəbləri, potensial pozucuları və müdaxilə imkanlarını müəyyənləşdirməyə yardım edir, sülhməramlıları məlumatlı qərar qəbul etməyə istiqamətləndirir (Dizdaroğlu, 2019).

3. Uzunmüddətli perspektiv: Sülh quruculuğu tez həll yolu deyil; uzun müddət ərzində davamlı səylər tələb edir. Səbir və əzm, dağılmış cəmiyyətlərin yenidən qurulması prosesi zamanı yaranan çətinliklərin həlli üçün çox vacibdir.

4. Struktur zorakılığın aradan qaldırılması: Sülh quruculuğu dərhal zorakılıqdan kənara çıxır; struktur zorakılığı və sistemli ədalətsizliklərin həllinə çalışır. Bu, resurslara ədalətli çıxışın təşviq edilməsini, insan hüquqlarının pozuntularının aradan qaldırılmasını və sosial və iqtisadi tərəqqini təşviq etməyi əhatə edir (Dizdaroğlu, 2019).

**Sülh quruculuğunda əsas strategiyalar:**

1. Vasitəçilik və Dialoq: Münaqişə tərəfləri arasında dialoqun asanlaşdırılması sülh quruculuğu səylərinin əsasını təşkil edir. Bacarıqlı vasitəçilər tərəflər üçün öz şikayətlərini çatdırmaq, ümumi zəminləri araşdırmaq və davamlı həll yollarını müzakirə etmək üçün təhlükəsiz məkan yaratmağa kömək edir (Chandler, D., 2017).

2. Barışıq və Sağalma: Sülh quruculuğu qarşıdurmadan təsirlənən şəxslər və kommunalar arasında barışıq və şəfa tapmağa çalışır. Bu prosesdə həqiqət və barışıq komissiyaları, icma dialoqları və xatırlama səyləri mühüm rol oynayır.

3. Silahsızlanma, Demobilizasiya və Reinteqrasiya: Döyüşçülərdən silahların çıxarılması, onların mülki həyata keçməsinə köməklik etmək və onların cəmiyyətə yenidən inteqrasiyası zorakılığın yenidən baş vermə riskini azaldır (Chandler, 2017).

4. İnstitutların gücləndirilməsi: Dövlət institutlarının potensialının artırılması və yaxşı idarəçiliyin təşviqi sülhün inkişaf edə biləcəyi mühitin yaradılması üçün çox vacibdir.

5. Sosial-iqtisadi inkişaf: Yoxsulluq və sosial-iqtisadi bərabərsizliklərin aradan qaldırılması şikayətləri azaltmağa və təcrid olunmuş icmalar üçün imkanlar yaratmağa kömək edir.

**Fərdlərin və icmaların rolu:**

Sülh quruculuğu təkcə hökumətlərin və ya beynəlxalq təşkilatların məsuliyyəti deyil; aşağı səviyyədən başlayır. Adi fərdlər və yerli icmalar öz təsir dairələri daxilində sülhün təşviqi üçün önəmlidir. Onların verdiyi töhfələri aşağıdakı kimi ümumiləşdirmək olar:

1. İcmanın rəhbərlik etdiyi təşəbbüslər: Yerli icmalar anlaşma və əməkdaşlığı təşviq edən dialoqlar, mədəni tədbirlər və fəaliyyətlər təşkil etməklə sülhyaratma səylərinə təşəbbüs göstərə bilər (Chandler, 2017).

2. Sülh naminə təhsil: Pedaqoqlar zorakılığın və münaqişələrin həllinin dəyərini başa düşən sülh qurucularının yeni nəslini yetişdirməklə, sülh təhsilini kurikulumlara inteqrasiya edə bilərlər.

3. Dinlərarası və Etnoslararası Əməkdaşlıq: Dini və icma liderləri fikir ayrılıqlarını aradan qaldırmaq və tolerantlıq və hörməti təşviq etmək üçün dinlərarası və etniklərarası dialoqları təşviq edə bilərlər (Michael & Nicholas, 2000).

4. Həssas Qrupların Dəstəklənməsi: Qadınların, gənclərin və təcrid olunmuş icmaların gücləndirilməsi daha inklüziv və dinc cəmiyyətin yaradılmasına kömək edir (Eminoğlu & Aydın, 2021).

Sülh quruculuğu öhdəlik, əməkdaşlıq və yaradıcılıq tələb edən çoxşaxəli bir işdir. Sülh quruculuğunun prinsip və strategiyalarını dərk etməklə, fərdlər, icmalar, hökumətlər və beynəlxalq təşkilatlar ixtilafların dinc üsullarla həll olunduğu, həqqaniyyətin hökm sürdüyü və davamlı sülhün bərqərar olduğu dünya üçün birlikdə çalışa bilərlər.

**Ədəbiyyat:**

1.Dizdaroğlu, C. (2019) Barış İnşası. Güvenlik Yazıları Serisi, №.13, 11-24. https://trguvenlikportali.com/wpcontent/uploads/2019/10/BarisInsasi_CihanDizdaroglu_v.2.pdf

2.Eminoğlu, A., & Aydın, Y. (2021). Barış inşasında yeni bir yaklaşım olarak hibrit barış: Bosna-Hersek örneği. Ömer Halisdemir Üniversitesi İktisadi ve İdari Bilimler Fakültesi Dergisi, 14(2), 495–512.

3.Chandler, D. (2017) Peacebuilding: The twenty years' crisis, 1997-2017. https://books.google.az/books?hl=ru&lr=&id=__mODgAAQBAJ&oi=fnd&pg=PR3&dq=peacebuilding&ots=X3GBVTcM8q&sig=n8ushwOhc7t27ZjR8SpHOOZwX9c&redir_esc=y#v=onepage&q=peacebuilding&f=false

4.Galtung, J. (1976). Three Approaches to Peace: Peacekeeping, Peacemaking and Peacebuilding. In Peace, War and Defense. Essays in Peace Research II, 292-304. https://www.galtung-institut.de/wpcontent/uploads/2016/06/galtung_1976_three_approaches_to_peace.pdf

5.Michael, W. D., & Nicholas, S. (2000) International Peacebuilding: A Theoretical and Quantitative Analysis. American Political Science Review , Volume 94 , Issue 4 , 779-801. https://www.cambridge.org/core/journals/american-political-science-review/article/abs/international-peacebuilding-a-theoretical-and-quantitative-analysis/2E28FC5F7DD0F30B097D83553312C023

# BÖYÜK BRİTANİYANIN AVROPA İTTİFAQINI TƏRK ETMƏSİNİ ŞƏRTLƏNDİRƏN AMİLLƏR

**Qasımova Xəyalə Namiq**
**Bakı Slavyan Universiteti**
**https://orcid.org/0000-0001-5832-4591**
**khayala.english@gmail.com**

# DETERMINING FACTORS OF UK WITHDRAWAL FROM EUROPEAN UNION

**Gasimova Khayala Namig**
**Baku Slavic University**
**https://orcid.org/0000-0001-5832-4591**
**khayala.english@gmail.com**

**Summary**

The presented thesis concentrates on investigating main causes of Brexit and its consequences. Thorough and comprehensive analysis reveals that, sovereignty, immigration and economic independence of the UK were the most crucial factors which lead to withdrawal of UK from EU. It was widely claimed that high levels of immigration to the UK would mean fewer job places, lower salaries and the inadequate provision of public services, like schools and healthcare for British citizens. The belief that immigrants were stealing jobs and services caught the attention of the British public and heightened xenophobic feelings.

Following the theme of regaining control, the other most significant reason was reestablishing British economic control. While there are obvious economic benefits of EU membership for the United Kingdom, such as boosting trade by eliminating barriers, the Leave campaign framed EU membership as a direct hindrance to the growth of the national economy. Supporters of Brexit argued that by taking back domestic agency over their trade deals and restructuring their economic framework from within, the United Kingdom would see growth of businesses and greater economic stability.

**Key words**: United Kingdom, Brexit, European Union, immigration

# ФАКТОРЫ, ОПРЕДЕЛЯЮЩИЕ ВЫХОД ВЕЛИКОБРИТАНИИ ИЗ ЕВРОПЕЙСКОГО СОЮЗА

**Гасымова Хаяла Намиг**
**Бакинский Славянский Университет**
**https://orcid.org/0000-0001-5832-4591**
**khayala.english@gmail.com**

**Резюме**

Следующий тезис посвящен исследованию основных причин Брексит и его последствий. Тщательный и всесторонний анализ показывает, что суверенитет, иммиграция и экономическая независимость Великобритании были наиболее важными причинами, которые привели к выходу Великобритании из ЕС. Сторонники кампании за выход из ЕС утверждали, что высокий уровень иммиграции в Великобританию означало бы меньшее количество рабочих мест, более низкую заработную плату и неадекватное предоставление государственных услуг, таких как школы и здравоохранение для британских граждан. Вера в то, что иммигранты крадут рабочие места и услуги, привлекла внимание британской общественности и усилила ксенофобские чувства.

Продолжая тему восстановления контроля, другая наиболее выраженная причина заключалась в восстановлении британского экономического контроля. Несмотря на очевидные экономические выгоды от членства в ЕС для Соединенного Королевства, такие как стимулирование торговли за счет устранения барьеров, кампания за выход из ЕС представила членство в ЕС как прямое препятствие для роста национальной экономики.

Сторонники Брексит утверждали, что, вернув себе внутреннюю свободу действий по своим торговым сделкам и реструктурировав свою экономическую структуру изнутри, Соединенное Королевство увидит рост бизнеса и большую экономическую стабильность.

**Ключевые слова**: Великобритания, Брексит, Европейский Союз, иммиграция

Son on ildə Avropa İttifaqının üzv dövlətlərlə həm siyasi, həm də iqtisadi əlaqələrində bir sıra dəyişikliklər müşahidə olunmaqdadır ki, bunlardan ən önəmlisi Breksiti hesab etmək olar. Avropa qitəsində hər zaman özünəməxsus həm xarici, həm də daxili siyasəti ilə seçilən Böyük Britaniyanın Avropa İttifaqını tərk etməsi qısaca *Brexit* (Br-Britain (Britaniya) + exit (çıxış) adlandırılır. Əgər tarixə nəzər salsaq, bu məsələ ilə bağlı ilk referendum 1975-ci ildə keçirildi, seçicilərin 67%-i üzvlüyün davam etdirilməsinin tərəfdarı olmuşdular. 2016-cı ildə bir daha referendum keçirildi və seçicilərin 52%-i Avropa Birliyini tərk etmək üçün səs verdi. Və son olaraq 31 yanvar 2020-ci ildə Böyük Britaniyanın rəsmi olaraq Avropa Birliyini tərk etməsinə qərar verildi. Birləşmiş Krallığın Avropa İttifaqını tərk etməsindən sonra qalan ən aktual sual: Breksit niyə baş verdi? Niyə saysız-hesabsız yerli və xarici alimlərin, iqtisadçıların və siyasi liderlərin xəbərdarlıqlarına baxmayaraq Britaniya ictimaiyyəti Avropa İttifaqından çıxmaq üçün səs verdi? Bu sual bütün dünya üzrə siyasi analitiklərin diqqətini cəlb etmişdir və onlar Böyük Britaniya vətəndaşlarını "tərk etməyə" səs verməyə sövq edən amilləri araşdırmağa çalışmışlar. Hərtərəfli təhlillərə əsasən, Breksit səsverməsinin nəticələrinin ən mühüm səbəbləri immiqrasiya, suverenlik və Britaniyanın iqtisadi müstəqilliyi ilə bağlı ritorika idi. Bunlar seçicilərin şüurunda avroskeptisizm və qorxu aşılamaq üçün "Tərketmə" kampaniyasının istifadə etdiyi əsas arqumentlər idi.

Avropa Birliyi əleyhdarları Mərkəzi və Şərqi Avropadan Aİ vətəndaşları və ya Yaxın Şərq və Şimali Afrikadan olan qaçqınlar kimi getdikcə daha çox immiqrantın Böyük Britaniyaya gəlmək qorxusunu vurğulayırdılar. Həm Tereza Mey, həm də Devid Kemeron açıq şəkildə Avropa İqtisadi Birliyi çərçivəsində zəmanət verilən işçi qüvvəsinin sərbəst hərəkətinə qarşı çıxdılar. Onlar iddia edirdilər ki, son bir neçə il ərzində Şərqi və Mərkəzi Avropadan olan miqrantlar dövlət tərəfindən maliyyələşdirilən xidmətlərdən istifadə edir və məktəblər və səhiyyə kimi sosial xidmətlərə təzyiq göstərirlər (Dominiczak, 2013). 2011-ci il Ərəb Baharından sonra, Suriya, Əfqanıstan və ya İraqdakı siyasi təqiblərdən qaçan yüz minlərlə insan Avropada sığınacaq axtarmaq üçün Aralıq dənizi boyunca yürüşə başlamışdılar. Qaçqınların böyük əksəriyyəti Türkiyə və Livan kimi qonşu ölkələrdə qalsa da, Avropa İttifaqı da qaçqınların sürətli axınının ağırlığını hiss edirdi (Akbarzadeh & Conduit, 2016, s. 10).

"Tərketmə" kampaniyasının tərəfdarları iddia edirdilər ki, miqrantların Böyük Britaniyaya kütləvi axını daha az iş yerləri, daha aşağı əmək haqqı və Britaniya vətəndaşları üçün dövlət xidmətlərinin qeyri-adekvat təmin edilməsi deməkdir. Referendumdan bir neçə həftə əvvəl Aİ-nin daxili statistikasına əsasən Britaniyada 2,1 milyon Aİ vətəndaşının işlədiyi barədə məlumat yayıldı. Keçmiş baş nazir Devid Kemeron immiqrasiya ilə bağlı hesabatını dərc edərkən Britaniya sosial sisteminin Aİ immiqrantları tərəfindən istismar oluna biləcəyinə dair qorxuların olduğunu göstərmişdir (Welfens, 2017, s. 147). Kemeron immiqrantları məktəblərin və həkimlərin, ümumiyyətlə yerli xidmətlərin çatışmazlığının səbəbi kimi göstərirdi (Stewart & Mason, 2016). Bütün bunlar Britaniya ictimaiyyətində mühacirlərin iş yerlərini və sosial xidmətləri oğurladığına dair inam yaratdı və ksenofobiya hisslərini artırdı.

Britaniyalıların Avropa İttifaqından çıxmağa səs verməsinin bir çox səbəbləri olsa da, immiqrasiya məsələsi ən əsas amillərdən biri idi. Hall (2016) izah edirdi ki, seçkidən sonrakı sorğular gələcək seçicilərin təxminən 75 faizinin immiqrasiyanı referendumun ən vacib məsələsi kimi göstərmişdir. İmmiqrasiya belə bir bölücü faktora çevrilmişdi, çünki bu, "Tərketmə" kampaniyasının tərəfində, xüsusən də gündəlik həyatlarında immiqrantlarla minimal əlaqədə olan seçicilər arasında ən güclü arqument idi. Mühacirlərin yüksək konsentrasiyası olan ərazilərin Aİ əleyhinə səs vermə ehtimalı daha az idi, çünki onlar bu əhalinin müsbət təsirlərini yaşamışdılar (Johnston, 2017). 2015-ci ildən 2016-cı ilə qədər Avropa Birliyinə daxil olan qaçqınların sayı artmağa davam etdikcə immiqrantların problemləri və qorxuları sürətlə artırdı. İmmiqrasiya o qədər geniş yayılmış mövzu idi ki, Welfens (2017) bildirirdi ki, "Britaniya əhalisi arasında mühacirlərin payının subyektiv qiymətləndirilməsi faktiki paydan təxminən üç dəfə yüksəkdir" (səh. 70). Aİ əleyhdarları Birləşmiş Krallığın ərazisinə daxil olan insanların, xüsusən də Şərqi və Mərkəzi Avropadan olan qaçqın və işçilərin sayını azaltmaq üçün immiqrasiya üzərində nəzarəti bərpa etmək istəyirdilər.

Böyük Britaniya üçün Aİ üzvlüyünün üzv ölkələr arasında maneəsiz ticarət kimi açıq iqtisadi faydaları olsa da, bəzi siyasi analitiklər Aİ üzvlüyünü milli iqtisadiyyatın böyüməsinə birbaşa maneə kimi qiymətləndirirdilər. Onlar iddia edirdilər ki, "Aİ Britaniyaya maddi ziyan vurur, biznesə həddən artıq çox qaydalar tətbiq edir və cüzi gəlir müqabilində ildə milyardlarla funt-sterlinq üzvlük haqqı alır" (Hunt & Wheeler, 2017). Armstronq (2017) Aİ üzvlüyünün vergi ödəyicilərinə həftədə 350 funt-sterlinqə başa gəlməsini iddia edirdi (s. 86). Bu kimi qorxulu statistikalar plakatlara və avtobuslara vurulmuşdu, ona görə də Aİ-nin Britaniya iqtisadiyyatını məhdudlaşdırması fikrindən qaçmaq çətin idi. Breksit tərəfdarları iddia edirdilər ki, ticarət sövdələşmələri üzərində yerli idarəetməyə nail olmaqla və iqtisadi çərçivələrini daxildən yenidən qurmaqla, Birləşmiş Krallıq biznesin inkişafına və daha böyük iqtisadi sabitliyə nail olacaqdır.

Bəzi jurnalistlər və alimlər Breksiti "etiraz səsverməsi" adlandırırlar, çünki yaşlı, təhsilsiz və yoxsul insanların Aİ əleyhinə səsverməsi gözlənilirdi (Cross, 2016). Budapeştin Korvinus Universitetinin baş elmi işçisi Zsolt Darvasın (2016) fikrincə, iqtisadi müstəqillik arqumenti bu şəxslər arasında ən həlledici idi, çünki "yüksək bərabərsizlik və yoxsulluq şəxsi rifahı və sosial birliyi pozur və həmçinin referendum və seçkilərdə etiraza gətirib çıxarır". İstehsal və dənizkənarı iş kimi ənənəvi sənayelərdə çalışan insanlar getdikcə qloballaşan iqtisadiyyatın tempindən geridə qaldıqlarını hiss edirdilər. Onlar maliyyə cəhətdən mübarizə aparırdılar və Avropa İttifaqını günahlandırmaq asan hədəf idi. Breksit tərəfdarları bu insanları inandırırdı ki, daha böyük iqtisadi müstəqillik miqrant işçilərin sürətli axınının qarşısını alacaq, yerli britaniyalıların iş yerlərini qoruyacaq və Britaniyanın iqtisadi məhsuldarlığını bərpa edəcək.

Böyük Britaniyanın Avropa İttifaqını tərk etməsinin səbəblərini təhlil edərkən bu nəticəyə gəlmək olar ki, miqrasiya və iqtisadi maliyyə məsələləri Breksiti qaçılmaz etmişdir. Avropa İttifaqında qalmaq Britaniyada milli identikliyi təhlükə altına alırdı və məhz Breksitdən sonra ölkəyə miqrant axınının qarşısı alındı. (Yusifzadə A, 224) O cümlədən, ittifaqın ən böyük investorlarından biri olan Böyük Britaniya öz suverenliyini bərpa etdi və artıq avroxəzinəyə daxil olan milyardlarla funt sterlinqin ölkə büdcəsində qalmağını ittifaqdan gələn mənfəətdən üstün tutdu.

**Ədəbiyyat:**

1. Yusifzadə A., Avropada inteqrasiya proseslərinin inkişafında Böyük Britaniyanın yeri və rolu, Bakı, 2022.

2. Allen, K., Oltermann, P., Borger, J., & Neslen, A. (2015, May 14). Brexit - What would happen if Britain left the EU?" The Guardian.

3. Armstrong, K. (2017). Brexit time: Leaving the EU - why, how and when? United Kingdom: Cambridge University Press.

4. Blockmans, S., & Emerson, M. (2016, June 1). Brexit's consequences for the UK - and the EU. Council on Foreign Relations.

5. Carrell, S., & Stewart, H. (2017, November 14). Scotland-UK Brexit deal closer after 'cordial' talks at no 10, The Guardian.

6. Clarke, H., Goodwin, M., & Whiteley, P. (2016, December 21). Why did Britain vote to leave the European Union? The UK in a Changing Europe.

7. Cross, K. (2016, June 26). Brexit offers lesson in the danger of protest votes, Rolling Stone.

8. EU referendum results. (2016). Retrieved from http://www.bbc.com/news/politics/eu_referendum/ results Brexit: The Causes and the Consequences; Hannah E. Day University of North Carolina, Chapel Hill.

9. Darvas, Z. (2016, July 13). Brexit case boosts case for inclusive growth.

10. Dominiczak, P. (2013, April 24). Britain and Germany demand EU cracks down on 'benefits tourism, The Telegraph.

11. Goodwin, M., & Heath, O. (2016). The 2016 referendum, Brexit and the left behind: An aggregate-level analysis of the result. The Political Quarterly, 87 (3), 323-332.

12. Hall, R. (2016, June 24). How the Brexit campaign used refugees to scare voters.

13. Hamdy, A. (2016, February 6). Ten reasons why we must leave the EU, The Huffington Post.

14. Hunt, A., & Wheeler, B. (2017, November 13). All you need to know about the UK leaving the EU. BBC. http://www.bbc.com/news/uk-politics-32810887

15. Inglehart, R., & Norris, P. (2016, August). Trump, Brexit, and the rise of populism: Economic have-nots and cultural backlash.

16. Johnston, I. (2017, June 21). Brexit: Anti-immigrant prejudice major factor in deciding vote, study finds, The Independent.

17. Stewart, H., & Mason, R. (2016, June 16). Nigel Farage's anti-migrant poster reported to police, The Guardian.

18. Stokes, B., Wikes, R., & Manevich, D. (2017, June 15). Post-Brexit, Europeans more favorable toward EU, Pew Research Center.

19. Travis, A. (2016, May 20). Are EU migrants really taking British jobs and pushing downwages?"; The Guardian.

20. Welfens, P. J.J. (2017). An accidental Brexit: New EU and transatlantic economic perspectives.

# SOSİAL İŞİN TƏŞKİLİNDƏ MÜASİR TEXNOLOGİYALARDAN İSTİFADƏ

**Kərimli Altay Babakərim**
**Bakı Dövlət Universiteti**
**https://orcid.org/0000-0002-4212-076X**
**altaykarimli@gmail.com**

# USE OF MODERN TECHNOLOGIES IN THE ORGANIZATION OF SOCIAL WORK

**Karimli Altay Babakarim**
**Baku State University**
**https://orcid.org/0000-0002-4212-076X**
**altaykarimli@gmail.com**

**Summary**

Technological development has expanded the methods and tools of Social Work, social workers in the field of client support and managing the work process. Technology is changing the way social workers work, especially how they interact with clients and manage their data. It has also influenced social workers to master their professional skills and keep them actual at all times. Thanks to internet technology, social workers can now easily communicate with their clients without the need to travel. Clinical social workers conduct virtual consultation sessions via telephone, video conferencing, web-based platforms, and live chat tools. These technologies save time and money spent on travel and are more convenient for both the social worker and the client. Technology also helps with day-to-day tasks such as capturing and collecting client information. Through video conferencing technology, it is possible to manage and monitor social workers in different locations. Technology is also used here to manage organizational finances and budgets, and to store and protect client information in a secure environment. Educational institutions use technology through virtual courses to educate and train new social workers. Experienced social workers can benefit from continuing education opportunities through videos, webinars, and auditions.

**Keywords:** Technology, field instruction, social media, privacy, open access

# ИСПОЛЬЗОВАНИЕ СОВРЕМЕННЫХ ТЕХНОЛОГИЙ В ОРГАНИЗАЦИИ СОЦИАЛЬНОЙ РАБОТЫ

**Керимли Алтай Бабакарим**
**Бакинский Государственный Университет**
**https://orcid.org/0000-0002-4212-076X**
**altaykarimli@gmail.com**

**Резюме**

Развитие технологий расширило методы и инструменты социальной работы социальных работников в сфере поддержки клиентов и управления рабочим процессом. Технологии меняют методы работы социальных работников, особенно то, как они взаимодействуют с клиентами и управляют своими данными. Это также повлияло на социальных работников, заставив их совершенствовать свои профессиональные навыки и всегда поддерживать их актуальность. Благодаря интернет-технологиям социальные работники теперь могут легко общаться со своими клиентами без необходимости ездить. Клинические социальные работники проводят виртуальные консультации по телефону, видеоконференциям, веб-платформам и инструментам живого чата. Эти технологии экономят время и деньги, затрачиваемые на дорогу, и более удобны как для социального работника, так и для клиента. Технология также помогает в выполнении

повседневных задач, таких как сбор и сбор информации о клиентах. С помощью технологии видеоконференций можно управлять и контролировать социальных работников в разных местах. Здесь также используются технологии для управления организационными финансами и бюджетами, а также для хранения и защиты информации клиентов в безопасной среде. Образовательные учреждения используют технологии посредством виртуальных курсов для обучения и подготовки новых социальных работников. Опытные социальные работники могут извлечь выгоду из возможностей непрерывного образования с помощью видео, вебинаров и прослушиваний.

**Ключевые слова:** технологии, полевая инструкция, социальные сети, конфиденциальность, открытый доступ.

Sosial işçilər peşə dəyərlərinə və müvafiq standartlara riayət etməlidirlər. Sosial işçilər ictimaiyyətə məlumat vermək üçün texnologiyadan istifadə etdikdə, onlar yaydıqları məlumatın dəqiq, mötəbər və Etika Kodeksinə uyğun olmasını,  düzgünlüyünü və etibarlılığını təmin etmək üçün əsaslı addımlar atmalıdırlar. Müasir texnologiyadan məsləhət, işin idarə edilməsi, dəstək və digər sosial iş funksiyaları daxil olmaqla, müxtəlif xidmət formalarını asanlaşdırmaq üçün istifadə oluna bilər. Texnologiya kliyentlərlə ünsiyyəti asanlaşdırmaq, kliyentlərdən məlumat almaq, kliyentlərə məlumat vermək və müxtəlif müdaxilələri asanlaşdırmaq üçün də istifadə edilə bilər. Xidmətləri elektron şəkildə təqdim etmək imkanı sosial işçilərin nəzərə almalı olduğu bir çox fayda və risklərə malikdir. Xidmətlərin təqdim edilməsi üçün texnologiyadan istifadə edən sosial işçilər kliyentlərin elektron yolla xidmətlərin alınmasından faydalanıb-faydalanmayacağını qiymətləndirməli və lazım olduqda, xidmətin çatdırılmasının alternativ üsullarını təklif etməlidir.

**Sosial iş xidmətlərinin göstərilməsini tənzimləyən qanunlar**

Texnologiyadan istifadə edərək sosial iş xidmətləri göstərən sosial işçilər, bu xidmətlərin göstərilməsini tənzimləyən qanunları dərindən bilməli, onlara əməl etməli və kliyentlərə sosial işçinin hüquqi öhdəlikləri barədə məlumat verməlidirlər ("Texnologiya və Sosial İş Təcrübəsi üçün Tənzimləyici Standartlar Modeli", 5: 2014). Sosial işçilər texnologiyadan istifadə etməklə sosial iş xidmətləri göstərərkən kliyenti müvafiq faydalar və risklər barədə məlumatlandırmalıdırlar. Kliyentlərlə psixososial qiymətləndirmələr aparարkən sosial işçilər kliyentlərin texnologiya və onların texnologiyadan istifadə yolları, o cümlədən güclü tərəflər, ehtiyaclar, risklər və çətinliklərlə bağlı fikirlərini nəzərə almalıdırlar. Xidmətlər göstərmək üçün texnologiyadan istifadə edən sosial işçilər bunu etmək üçün tələb olunan bilik və bacarıqları təhlükəsiz, səriştəli və etik qaydada əldə etməli və saxlamalıdırlar. Xidmətlərin çatdırılması üçün texnologiyadan istifadə edərkən, sosial işçilər müvafiq qanunlara, qaydalara və etik standartlara uyğun məxfilik siyasəti və prosedurları yaratmalı və saxlamalıdırlar. Elektron sosial iş xidmətləri göstərən sosial işçilər kliyentlərlə münasibətlərində aydın peşəkar sərhədlər saxlamalıdırlar.

**Sosial Media Siyasəti**

Sosial mediadan istifadə edən sosial işçilər kliyentlərlə paylaşdıqları sosial media siyasətini hazırlamalıdırlar. Sosial işçilər şəxsi mobil telefonlardan və digər elektron rabitə vasitələrindən iş məqsədləri üçün istifadə etmələrinin nəticələrini nəzərdən keçirməlidirlər. Sosial işçilər elektron xidmətlərin gözlənilmədən kəsiləcəyi ehtimalını planlaşdırmalıdırlar. Elektron xidmətlər göstərən sosial işçilər kliyentin yerləşdiyi yurisdiksiyada fövqəladə hallar xidmətləri ilə tanış olmalı və bu məlumatları kliyentlərlə bölüşməlidirlər.

**İcmalar, Təşkilatlar, İdarəetmə və Siyasət**

Texnologiya sosial işçilərin sosial fəaliyyətlə məşğul olmaq, sosial ədaləti təşviq etmək, icmalarla işləmək, təşkilatları idarə etmək və sosial siyasət hazırlamaq qabiliyyətini xeyli artıra bilər. Bu bölmə sosial işçilərə daha böyük sistemlərlə sosial iş kontekstində texnologiyadan istifadəyə dair təlimat verir (Reamer,

F. G., 165: 2013). Bu kontekstlərdə sosial işçilər texnologiyadan müxtəlif məqsədlər üçün istifadə edə bilərlər. Təşkilati və ya müdafiə məqsədilə texnologiyadan istifadə edərkən, sosial işçilər texnoloji vasitələrdən istifadə etməklə paylaşılan məlumatın dürüst, dəqiq və etibarlı olmasını təmin etmək üçün əsaslı addımlar atmalıdırlar. Sosial işçilər fandreyzinq üçün texnologiyadan istifadə etdikdə, potensial donorlara təqdim edilən məlumatın vəsaitlərin cəlb edilməsinin məqsədlərini və vəsaitlərin necə istifadə olunacağını aydın və dəqiq müəyyən etməsini təmin etmək üçün əsaslı addımlar atmalıdırlar. Texnologiya müxtəlif dövlətlərdən və ya ölkələrdən vəsait toplamağa imkan verdiyi üçün sosial işçilər vəsait toplama ilə bağlı yurisdiksiya məsələlərini nəzərdən keçirməlidirlər.

**Kliyentlər qarşısında əsas öhdəlik**

Proqramın idarə edilməsinə, planlaşdırılmasına və inkişafına cavabdeh olan sosial işçilər texnologiyanın sosial iş proqramları və ya xidmətləri ilə birlikdə istifadə edilib-edilməməsi və necə istifadə ediləcəyini nəzərdən keçirdikdə, kliyentlərinin ehtiyaclarını prioritetləşdirməlidirlər. Nəzarət, məsləhətləşmə və ya digər görüşləri asanlaşdırmaq üçün texnologiyadan istifadə edən sosial işçilər məxfiliyi qorumaq üçün müvafiq təminatlardan istifadə etməlidirlər. Sosial iş inzibatçıları təşkilatların missiyasını və məqsədlərini qənaətli şəkildə təşviq edəcək texnologiyadan istifadəni planlaşdırmalarını və büdcələşdirmələrini təmin etməlidirlər. Onlayn tədqiqat aparan sosial işçilər tədqiqatın keyfiyyətini, güclü tərəflərini və məhdudiyyətlərini qiymətləndirməlidirlər. Sosial iş administratorları və nəzarətçiləri öz təşkilatlarında çalışan işçiləri və könüllüləri istiqamətləndirmək üçün sosial media siyasətlərini inkişaf etdirməyi düşünməlidirlər.

**Məlumatın toplanması, idarə edilməsi və saxlanması**

Sosial işçilər kliyent məlumatlarını toplamaq, idarə etmək və saxlamaq üçün müxtəlif texnologiya formalarından istifadə edə bilərlər. Məlumatın saxlanması məlumatın elektron şəkildə necə saxlandığını nəzərdə tutur. Texnologiyadan bu üsullarla istifadə informasiyaya asanlıqla daxil olmaq, məlumatı təhlükəsiz saxlamaq, vaxta və pula qənaət daxil olmaqla bir sıra dəyərli məqsədlərə xidmət edə bilər. Sosial işçilər məlumat toplamaq, idarə etmək və saxlamaq üçün texnologiyadan istifadə etdikdə, məlumatlı razılıq, kliyent məxfiliyi, sərhədlər və kliyentlərin qeydlərə girişinin təmin edilməsi ilə bağlı etik standartlara riayət etməlidirlər (Barsky, A. E., 10, 2017). Məlumatlı razılıq prosesinin bir hissəsi olaraq, sosial işçilər kliyentlərə kliyent məlumatlarını toplamaq, idarə etmək və saxlamaq üçün elektron cihazlardan və ya kommunikasiya texnologiyalarından necə istifadə etmək niyyətində olduqlarını izah etməlidirlər. Sosial işçilər kliyent məlumatlarını elektron şəkildə toplayarkən, idarə edərkən və saxladıqda, şəxsi və peşəkar ünsiyyət və məlumat arasında aydın sərhədi təmin etməlidirlər. Sosial işçilər kliyentlərə və ya tədqiqat iştirakçılarına aid məxfi məlumatların təhlükəsiz şəkildə və müvafiq qanunlara, qaydalara və təşkilati siyasətə uyğun olaraq toplanmasını, idarə olunmasını və saxlanmasını təmin etmək üçün əsaslı addımlar atmalıdırlar. Elektron məlumat təhlükəsiz yerlərdə saxlanmalıdır. Giriş məhdudlaşdırılmalıdır. Elektron faylların ehtiyat nüsxəsi çıxarıldıqda, ehtiyat nüsxələnmiş faylların məxfiliyini qorumaq üçün əsaslı tədbirlər də görülməlidir.

**Təşkilat daxilində qeydlərə giriş**

Sosial işçilər kliyentlərin elektron qeydlərinin əlçatan şəkildə saxlanmasını təmin etmək üçün xüsusi tədbirlər görməlidirlər. Proqram təminatı və texnologiyaları yenilənərkən, ən azından, qanunla müəyyən edilmiş qeydlərin saxlanma müddəti üçün elektron qeydlərin bərpa oluna biləcəyini təmin etməlidirlər. Sosial işçilər sosial işçinin qəfil əmək qabiliyyətini itirməsi və ya ölümü halında müvafiq həmkarlarının təhlükəsiz elektron qeydlərə çıxış əldə etməsini təmin etmək üçün protokollar yaratmalıdırlar. Sosial işçilər, kliyentləri onların məxfi qeydlərinin hər hansı pozulma halı barədə necə xəbərdar edəcəkləri ilə bağlı siyasət və prosedurları hazırlamalı və açıqlamalıdırlar. Kliyent haqqında məxfi məlumatı elektron şəkildə

digər tərəflərlə paylaşan sosial işçilər məlumatın məxfiliyini qorumaq üçün əsaslı addımlar atmalıdırlar. Sosial işçilər məlumatı elektron şəkildə göndərərkən alıcılara məlumatın məxfi olduğunu və kliyentin açıq razılığı olmadan başqaları ilə paylaşılmaması, lazım gəldikdə isə qeydləri hazırlayan sosial işçinin razılığı ilə məlumat verməlidirlər.

**Kliyentlərin öz qeydlərinə girişi**

Sosial işçilər kliyentin elektron qeydlərə girişinin kliyentin məxfiliyini və digər maraqlarını nəzərə alan şəkildə olmasını təmin etməlidir. Elektron giriş daha ucuz ola bilər. Bu, həm də kliyentin kağız nüsxələrini götürmək üçün ofisə gəlməsindən və ya kağız nüsxələrini poçtla göndərməkdən daha rahat və vaxtında ola bilər. Rahatlığa baxmayaraq, qeydlərə elektron şəkildə daxil olmaq mümkün olduqda, kliyentin məxfiliyi və kliyentin maraqları üçün risklər ola bilər. Kliyent partnyor və ya digər ailə üzvü tərəfindən sui-istifadə və ya istismara məruz qalırsa, həmin ailə üzvünün kliyentin qeydlərinə çıxışının olmamasına əmin olmaq xüsusilə vacibdir. Kliyent intihara meyillidirsə və ya başqa şəkildə həssasdırsa, müəyyən məlumatlara elektron şəkildə dərhal daxil olmaq kliyentin maraqlarına uyğun olmaya bilər. İnformasiya müəyyən qruplar və ya ümumilikdə ictimaiyyət üçün nəzərdə tutulmuş şəkildə elektron formada yerləşdirildikdə və ya saxlanıldıqda, sosial işçilər bu məlumatın necə istifadə oluna və şərh oluna biləcəyindən xəbərdar olmalı və məlumatın düzgün, dəqiq və tam olmasını təmin etmək üçün əsaslı addımlar atmalıdırlar. Sosial işçilər elektron kliyent qeydlərinə uzaqdan daxil olub-olmamaları və necə əldə edə bilmələri ilə bağlı müvafiq siyasətlər hazırlamalı və onlara əməl etməlidirlər (Barsky, A. E.,11: 2017)

**Təhsil standartları**

Tədrisdə texnologiyadan istifadə edən və tələbələrə sosial iş praktikasında texnologiyadan istifadə haqqında təlimat verən sosial iş müəllimləri yeni yaranan müvafiq bilikləri yoxlamalı və aktual saxlamalıdırlar. Sosial işçilər müvafiq peşəkar ədəbiyyatı nəzərdən keçirməli və davamlı təhsil dərslərində, seminarlarda, vebinarlarda, digər fərdi və onlayn kurslarda və tədrisdə iştirak etməlidirlər. Tədqiqat üsullarını araşdırarkən sosial işçilər üstünlük təşkil edən peşəkar metodoloji və etik standartlara uyğun tədqiqata üstünlük verməlidirlər. Sosial iş üzrə praktikantlara və ya tələbələrə ucqar yerlərdə dərs deyən sosial iş müəllimləri, onların yerləşdiyi yerlərin mədəni, sosial və hüquqi kontekstləri haqqında kifayət qədər anlayışa malik olmasını təmin etməlidirlər. Sosial iş müəllimləri tapşırıqları və ya testləri asanlaşdırmaq üçün texnologiyadan istifadə etdikdə, dürüstlük, ifadə azadlığı və bütün insanların ləyaqət və dəyərlərinə hörmətlə bağlı akademik standartları təşviq etmək üçün müvafiq tədbirlər görməlidirlər. Müasir texnologiyadan istifadə edən sosial iş müəllimləri müvafiq pedaqoq-şagird sərhədlərinin saxlanmasını təmin etmək üçün tədbirlər görməlidirlər. (Reamer, F. G. 166: 2013). Tələbələrlə ünsiyyət qurmaq üçün texnologiyadan istifadə edərkən, bəzi sosial iş müəllimləri şəxsi cihazlardan və ya hesablardan istifadə edirlər. Bu, rahat ünsiyyəti tezləşdirə və asanlaşdıra bilər.

Yuxarıda qeyd olunanlardan və bu sahədə aparılan araşdırmalardan belə görünür ki, hazırda Sosial İşin aparılması, xüsusən praktiki sahədə müasir texnologiyalar işimizi asanlaşdırmaqla yanaşı, bizə xeyli əlavə faydalar da təmin edir. Bu sahədə aparılan qeydlərdə, müvafiq məqsədlər üçün kliyentlərin məlumatlarının toplanması və saxlanması, emalında, həmçinin tədqiqat prosesi, konsultasiya zamanı müasir texnologiyalar, sosial şəbəkələr və digər onlayn şəbəkələşmə vasitələri bizə xeyli faydalar və rahatlıq təmin edir. Digər baxımdan, bütün bunlar edilərkən hər bir sosial işçi və onun işlədiyi digər tərəflər üçün diqqət edilməli olan ən vacib məsələlərdən biri də kliyentin şəxsi qeyd və məlumatlarının məxfiliyinin təmin olunması, onların başqa şəxs və təşkilatların əlinə keçməsinin qarşısını almaq, beləliklə də gələcəkdə yarana biləcək riskləri qabaqlamaqdır. Bu yolla, biz həm Sosial İşin düzgün təşkili və inkişafını təmin edərək, bu prosesə daha çox insanın qoşulmasını təmin edə, həm də cəmiyyətin kövrək, müxtəlif səbəblərdən qayğıdan uzaq düşmüş hissəsi üçün daha rahatlıqla sosial xidmətlərə əlçatanlığı təmin edə bilərik.

**Ədəbiyyat**:

1. Amerika Konsaltinq Assosiasiyası. “Etik Kodeks”, 2014.

2. Texnologiya və sosial iş təcrübəsi üçün model tənzimləmə standartları: Amerika Sosial İş Şurası. Beynəlxalq Texnologiya İş Qrupu, “Texnologiya və Sosial İş Təcrübəsi üçün Tənzimləyici Standartlar Modeli”, 2013-2014.

3. Barsky, A.E. “Sosial iş təcrübəsi və texnologiyası: Etik məsələlər və normativ cavabları”. İnsan Xidmətlərində Texnologiya Jurnalı, 35, 2017.

4. Reamer, F.G. “Rəqəmsal əsrdə sosial iş: Etik və risklərin idarə edilməsi problemləri”. Sosial iş jurnalı, say 58, s.163-167, 2013.

5. Singer, JB, & Sage, M. (2015). “Texnologiya və sosial iş təcrübəsi: Mikro, mezzo və makro tətbiqlər”. (3-cü nəşr, səh. 179-188). New York: Oxford University Press.

# TERRORUN QLOBALLAŞMASI İNSAN HƏYATINA TƏHDİD KİMİ

**Məmmədova Məlahət Şaban**

**Bakı Dövlət Universiteti**

**https://orcid.org/0000-0002-6875-6483**

**mamedova@inbox.ru**

# GLOBALIZATION OF TERRORISM AS A THREAT TO HUMAN LIFE

**Mammadova Malahat Shaban**

**Baku State University**

**https://orcid.org/0000-0002-6875-6483**

**mamedova@inbox.ru**

**Summary**

Terrorism and its globalization are the greatest danger and threat to humanity in the globalized world. Although it is different from today's interpretation, people have been faced with this problem in various periods of human history. Among the reasons for the formation of terrorist organizations, national and religious problems should be mentioned. The impossibility of being able to solve problems peacefully within the framework of the law leads people to solve them with violence. Contradictions on the national and religious grounds are very dangerous for the society, because it manifests itself in the form of open conflicts between the parties. Socio-economic problems are caused by the social stratification of society or the political or economic dominance of one group. At the same time, the unemployment problem can also be added here. Of course, the reasons do not end there. The main factor here is the education of a person in society, the inculcation of certain values, the study of moral norms, and other gaps.

Global terrorism is mainly based on: the income and welfare gap that is deepening with the new world order, globalization as a reason for increasing this gap, is a protest against the unfair and unjust world order. Material inequalities between states and societies shrinking with globalization have brought new discontents and problems that lead to global terrorism in an increasingly unfair world.

**Keywords:** globalization, terrorism, world, human

# ГЛОБАЛИЗАЦИЯ ТЕРРОРИЗМА КАК УГРОЗА ЖИЗНИ ЧЕЛОВЕЧЕСТВА

**Мамедова Малахат Шабан**
**Бакинский Государственный Университет**
**https://orcid.org/0000-0002-6875-6483**
**mamedova@inbox.ru**

**Резюме**

Терроризм и его глобализация представляют собой самые большие угрозы для человечества в глобализированном мире. Хотя это и отличается от сегодняшнего обозначения данного понятия, все - таки люди сталкивались с этой проблемой в разные периоды человеческой истории. Среди причин формирования террористических организаций следует назвать национальные и религиозные проблемы. Невозможность решения проблем мирным путем в рамках закона приводит к тому, что люди решают их с помощью насилия. Противоречия на национальной и религиозной почве очень опасны для общества, поскольку они проявляются в виде открытых конфликтов между сторонами. Социально-экономические проблемы вызваны социальным расслоением общества или политическим или экономическим доминированием одной группы. Одновременно, сюда можно добавить проблему безработицы. Конечно, на этом причины не заканчиваются. Основным фактором здесь является те самые пробелы, что упущены в ходе воспитания человека в обществе, привития ему определенных ценностей, изучения нравственных норм и т. д.

Основу глобального терроризма главным образом, составляет: углубление спада в доходах и ухудшение благосостояния благодаря новому миропорядку, рассмотрение глобализации как причины увеличения этого регресса, протест против несправедливого и несправедливого мироустройства. Материальное неравенство между государствами и обществами, сокращающееся с глобализацией, принесло новые недовольства и проблемы, которые ведут к глобальному терроризму в том мире, где растет несправедливость.

**Ключевые слова:** глобализация, терроризм, мир, человек

Dünya var olandan bu yana terror da mövcud olmuş, get-gedə şiddətini, sürətliliyini və əhatə dairəsini genişləndirmişdir. Hətta 2001-ci il, 11 sentyabr hadisələrindən sonra heç nəyin əvvəlki kimi olmayacağı deyilirdi. Buna baxmayaraq, hələ də eyni qorxu və təhlükənin hökmranlıq etdiyi dünyada yaşayırıq. Ticarət və informasiya mübadiləsi ilə birlikdə terrorizm də qlobal forma almışdır [Alkan, 2002]. Uzun illərdir mövcud olmasına baxmayaraq, sosial, siyasi və iqtisadi inkişafa, rifaha qarşı ciddi təhlükə yaradan terrorizmin hələ də tək bir izahı müəyyən olunmamışdır [Иванов, 2005]. Bu problemlə mübarizə aparmağın çətinliyi də buradan irəli gəlir. Tarix boyunca tədqiqatçılar terrorizmə fərqli təriflər vermişlər. Bir yanaşmaya görə, terrorizm müharibə və sülh arasında siyasi şiddətin bir növüdür. Müharibə kimi o da siyasi məqsədə xidmət etməkdədir. Digər yanaşmaya görə terror, terrorçuların məqsəd və ehtiyaclarına sistemdən qənaətbəxş bir cavab ala bilmək üçün millətə və sistemə qarşı həyata keçirilən bir hücumdur. Bu həm də, dövlətə duyulan inamı sarsıtmaq və zədələmək üçün atılan bir addımdır. Üçüncü yanaşma isə, terroru bir hərəkat olaraq deyil, mübarizə metodu olaraq ifadə edir [Qələndərova, 2017]. Terrorun "qlobal" sözü ilə birlikdə çəkilməsinin kökləri məhz 11sentyabr 2001-ci il hadisələri ilə bağlıdır. Nyu-Yorkda Dünya Ticarət Mərkəzi və Vaşinqtonda Pentaqona təyyarələr vasitəsilə həyata keçirilən hadisələrdir. Bu terror aktı qloballaşmanın bir ölçüsü və özü olaraq ortaya çıxmış və terrorun da qloballaşmasını təmin etmişdir. Bununla, terror bir ölkə və ya bir coğrafi bölgəyə ciddi təsir göstərərək, getdikcə bütün dünyanı terrorizmin təsir meydanına çevirmişdir [Örgün, 2001].

İkiqütblü millətlərarası sistemin yıxıldığı, nüvə təhlükəsinin olduğu və müharibələrin baş verdiyi bir dövrdə ordular vasitəsilə açıq-aşkar aparılan müharibələr əvəzinə, aşağı məsrəfli, aşağı gərginlikli bir mübarizə forması kimi meydana gəlmişdir [Skoel, 2010].

İllərdir mövcud olan terrorizm modernləşmə ilə birlikdə mahiyyətini və məzmununu da dəyişdirmişdir. Texnologiya, informasiya və ünsiyyət vasitələrinin inkişafından asılı olaraq terrorizm də oxşar formada qloballaşmaqdadır. Artmaqda olan texnoloji inkişaf və dövlətlərarası münasibətlər terrorizmin miqyasını dəyişmiş, o, yerli səviyyədən çıxaraq millətlərarası bir mahiyyət qazanmışdır. Bu proses qarşımıza qlobal terror adlanan bir problemi çıxarmışdır [Douglas, 2015].

Əsas qlobal aktorlar (başda ABŞ olmaqla) 11 sentyabr hücumlarından sonra vəziyyətin ciddiliyini nəzərə alaraq lazım olan tədbirləri görməyə başlamışlar. Dinləmə stansiyalarından, casus təyyarələrdən, dənizaltı vasitələrdən kompüter şəbəkələrinə qədər hər şey kəşfiyyat orqanlarının müasir terrorla mübarizədə istifadə etdikləri yöntəmlər kimi özünü göstərməkdədir. Hətta bu işləri reallaşdırmaq üçün milyardlarca dollarlıq büdcələr ayrılmışdır. Əvvəllər konkret insan və ölkələr izlənilərkən artıq sıradan insanlar belə izlənilməkdədir [Дугин, 2017].

Qlobal terrorun əsasını təşkil edənlər əsasən: ortaya qoyulan yeni dünya nizamı ilə getdikcə dərinləşən gəlir və rifah uçurumu, qloballaşmanın bu uçurumu artıran bir səbəb sayılması, ədalətsiz və haqsız dünya nizamına qarşı etirazdır. Qloballaşma ilə kiçilən dövlətlər və cəmiyyətlər arasındakı maddi bərabərsizliklər, ədalətsizliyi getdikcə böyüyən dünyada qlobal terrora yol açan yeni narazılıqlar, problemlər gətirmişdir [Çitilioğlu, 2015].

Qeyd etdiyimiz kimi, bu problemi müəyyən etmək, ona qarşı ümumbəşəri bir cəbhə yaratmaq çox çətindir. Çünki terrorla mübarizə aparan dövlət, özü də bilmədən terrorçunun məskəninə çevrilə bilər. Hətta münasibətlərə belə diqqət yetirsək görərik ki, terrorçu bəzən xain, bəzən azadlıq mübarizi, bəzən də qəhrəman kimi qəbul olunur. Bu vəziyyət də terrorizmlə ortaq mübarizəyə, qarşısının alınmasına və aradan qaldırılmasına mane olmaqdadır. Göründüyü kimi, dövlətlərin kimi "terrorçu" adlandırması da fərqlidir.
Terror, qloballaşan dünyada, insanlıq üçün ən böyük problemdir. Çünki heç bir dövlət bundan sığortalanmayıb. Terrorizmlə mübarizədə əsas problem, güc birliyi olaraq ona qarşı mübarizə aparan dövlətlərarası bir strukturun olmamasıdır. Heç bir dövlət və ya qrup terrorizmə qarşı tam bir uğur əldə edə bilməmişdir. Terrorizm nifrətə əsaslanır və dünya da nifrətlə mövcud ola bilməz.

Ölkəmiz tarixən terrora məruz qalan bir ölkə olmuşdur. Mənfur düşmənlərimiz tarixən xalqımıza qarşı istər mənəvi, istərsə də maddi terror həyata keçirmiş, günahsız insanların qanına susamışlar. Bu ağır dövrlərdən keçən ölkəmiz, bu gün terrorla mübarizə aparan, bu istiqamətdə ağıllı siyasət yürüdən dövlətlər sırasındadır.

**Ədəbiyyat:**


1. Beynəlxalq terrorizm və onun Azərbaycana mənfi təsiri: Biblioqrafiya /M.F. Axundov adına Azərbaycan milli kitabxanası.B., 2009, 92-93.

2. Qələndərova E.Ş. (2017) Terror anlayışı və onun müasir növləri. *Qanun 1*. 105-110.

3. Alkan N. (2002). Genclik ve terörizm. *TEMUH Dairesi Başkanlığı Yayınları,* 230-234.

4. Altuğ Y. (1989). Terörizm Dünü. Bu günü. Yarını. *T.C. İçişleri Bakanlığı* Yayını: Ankara, 121.

5. Aydın-Erdoğan-Sarıbay-Bolay-Altan (2002). "Siyasi ve ekonomik ve kültürel boyutlarıyla küreselleşme". *Ufuk Kitapları*. 65-57

6. Cooper. B. (2004). New political religious or an analysis of modern terrorism. *Colombia University of Missouri Press.* 232-234

7. Douglas. F. (2014) Law, liberty and the pursuit of terrorism. *The Univesity of Michigan.* 176-179

8. Çitlioğlu. E. (2005). Gri tehdit terrörizm. *Ümit.* 274-179.

9. Örgün. F. (2001). Küresel terrör. *Okunmuş adam.* 89-92.

10. Дугин. А.Г. (2007). Геополитика постмодерна. *Амфора*. 278-284.

11. Иванов. В.Н. (2005). Феномен терроризма. *Социологические исследования. 7.* 63-71.

12. Королев. А.А. (2008). Террор и терроризм в психологическом и идеологическом измерении:история и современность. *Московский Гуманитарный университет.* 48-49.

13. Щегловин. Ю.Б. (2015). Размышления о борьбе с терроризмом. *Институт Ближнего Востока. 227*

14. Merleau P. (1996). Humanism and terror. *Beacon Press.* 229-231

15. Skoll. G. (2010) Social theory of fear: terror, torture, and death in a post-capitalist world. *St.Martin's Press.* 135-138

16. https://525.az/news/52233-dunya-sabitlik-ve-terror-dilemmasi-qarsisinda

17. https://www.amerikaninsesi.org/a/d%C3%B6vl%C9%99t-departamenti-terror-%C9%99l-qaid%C9%99-islam-d%C3%B6vl%C9%99ti-/6358892.html

18. https://www.start.umd.edu/gtd/

19. https://www.nato.int/cps/en/natohq/topics_77646.htm

## İNFORMASİYA SAYTLARININ XƏBƏR KONTENTİNDƏ QAYNAQLARLA İŞ TƏHLİLİ

**İzzətli Səbinə Vaqif**
**Bakı Dövlət Universiteti**
**https://orcid.org/0000-0003-0091-4905**
**sabina.izzatli@gmail.com**

## ANALYSIS OF USAGE OF SOURCES IN NEWS CONTENT OF INFORMATION SITES

**Izzetli Sabina Vagif**
**Baku State University**
**https://orcid.org/0000-0003-0091-4905**
**sabina.izzatli@gmail.com**

**Summary**

Public condemnation and critical evaluation are also healthy in educated societies that know what professional journalism is, separating information from facts, ethical values, and legal obligations in the media. It is in societies that rely on facts that it is possible to distinguish between false and true reporting in digital media. Information has never been so widespread and accessible. This factor alone is enough to raise the issue of news sources once again.

In this article, violations committed during work with information resources on local news sites in the digital environment are analyzed based on specific examples. At the same time, it is discussed how it is possible to eliminate similar problems by increasing media literacy. Their importance is emphasized while addressing basic principles that do not change in changing media. Although operationality is an important factor, the dissemination of unverified information in the media is unacceptable.

**Keywords:** digital media, new media, news websites, news sources, anonym sources.

# АНАЛИЗ ИСПОЛЬЗОВАНИЯ ИСТОЧНИКОВ В НОВОСТНОМ КОНТЕНТЕ ИНФОРМАЦИОННЫХ САЙТОВ

**Иззетли Сабина Вагиф**
**Бакинский Государственный Университет**
**https://orcid.org/0000-0003-0091-4905**
**sabina.izzatli@gmail.com**

**Резюме**

Общественное осуждение и критическая оценка также здоровы в образованных обществах, которые знают, что такое профессиональная журналистика, отделяя информацию от фактов, этических ценностей и юридических обязательств в СМИ. Именно в обществах, которые полагаются на факты, можно отличить ложные и правдивые сообщения в цифровых СМИ. Информация еще никогда не была так распространена и доступна. Одного этого фактора достаточно, чтобы вновь поднять вопрос об источниках новостей.

В данной статье на конкретных примерах анализируются нарушения, допущенные при работе с информационными ресурсами на местных новостных сайтах в цифровой среде. При этом обсуждается, как можно устранить подобные проблемы за счет повышения медиаграмотности. Подчеркивается их важность при рассмотрении основных принципов, которые не меняются при смене медиа. Хотя оперативность является важным фактором, распространение непроверенной информации в СМИ недопустимо.

**Ключевые слова:** цифровые медиа, новые медиа, новостные сайты, источники новостей, анонимные источники.

Rəqəmsal dünyada jurnalistikada peşəkarlıqla həvəskar fəaliyyət arasındakı incə cizgi yox olmaq üzrədir. Bu baxımdan informasiya ötürmə bolluğunda ən kiçik savadsızlıq belə peşəkarlığa xələl gətirə bilir. Odur ki, media savadlılığına həm toplum olaraq, həm də peşəkar media nümayəndələri olaraq ehtiyac var. Savadlanma prosesi isə daima davam etməli, dəyişən dünyada, texnoloji inkişaf prosesində media savadlılığını güncəl tutmaq qaçılmazdır. Bu savadlılığa daxil olan elementlərdən biri də xəbər yazarkən mənbələrlə iş qaydalarıdır. Ənənəvi mediada mövcud təməl prinsiplər yeni media dönəmində də keçərlidir. Hər nə qədər texnologiya inkişaf etmiş olsa da, günümüzdə mənbələri şəffaf tutmaq və onların etibarlılığını yoxlamaq daha çox tələb olunur. Saxta mənbələrə istinad, sosial mediadan gələn informasiya qaynaqlarını yoxlamadan vermək peşəkarlığa ziddir.

Xəbər mənbələrində birinci qaynaqlar dolayı qaynaqlardan daha çox güvənilir sayılır. Birinci qaynaqlara-elektron, vizual və audio formatında olayı təsdiq edən mənbələr daxildir. (Dvorkin, 2021)

Günümüzdə sosial media xəbər qaynağı olaraq daha çox istifadə olunur. Jurnalistlərin sosial media məzmununu qiymətləndirərkən xəbərin mütləq obyektiv olmasının zəruriliyini nəzərə almaları vacibdir. Sosial şəbəkələrdə kontent dərc edən şəxslər peşəkar jurnalistika ilə məşğul olmadıqlarından, onların bu məlumatları müxtəlif mənbələrdən yoxladıqdan sonra dərc etməsi mümkün deyil. (Kırık, 2016)

Məqalədə yerli informasiya saytlarının peşəkarlığı konkret olaraq xəbər qaynaqları kontekstində təhlil olunur. Məqsəd ondan irəli gəlir ki, bu mövzuda həssas məsələ olan saxta xəbərlərin elə kökündə, həm də mənbələrlə manipulyasiya durur.

Medianın İnkişafı Agentliyinin (MEDİA) 10 May, 2023-cü il tarixli sorğumuza verdiyi açıqlamaya görə, Azərbaycanda 250 media subyekti qeydiyyatdan keçib. Bunun böyük əksəriyyəti də elə xəbər saytlarıdır. Metrix.az portalının İyun ayı üzrə reytinq göstəricisinə görə, Publika.az, Axar.az və Bizim.media saytları daha çox baxış sayına malikdirlər. Bu səbəbdən, adı çəkilən saytların hər birində ayrı-ayrılıqda bir gün olmaqla 4, 5, 6 İyun, 2023-cü il tarixlərində dərc olunan xəbər kontenti incələnir. Nəticələr məqalədə təhlil olunur.

Rəqəmsal dünyada informasiya əldə edənlə onu istehsal edən arasındakı sərhədlər yox olmaq üzrədir. Artıq informasiyaya əli çatan hər kəs rəqəmsal alətlərlə xəbəri istehsal edir və ötürür. Bu operativlik bərabərində bir çox çətinliklər gətirir ki, onun da ən çox müzakirə olunanı elə etik normalardır. Təəssüflər olsun ki, bəzən bu normaları görməzdən gələn elə peşəkar jurnalistlər, media qurumları da olur. "Birinci mən" tələşı ilə paylaşılan xəbərlərdə yoxlanılmamış məlumatlarla yanaşı, mənbələrdən yanlış istifadə, eləcə də, mənbə gizlətmə hallarının şahidi oluruq. Unutmaq olmaz ki, hər eşitdiyimiz fakt deyil, məlumatı da fakt edən elementlər var. Bax bu elementlər, təbii ki, yeni media jurnalistikasında da dəyişməz olaraq qalır: 1) Hər eşitdiyimiz fakt deyil; 2) Seçdiyin mənbənin mövzuya aidiyyatı varmı? (Bəşirli, Cavadova, İzzətli, 2017)

Yerli xəbər saytlarının xəbər kontentini incələyərkən anonim qaynaqlara da rast gəlirik. Xəbər təkcə anonim qaynaqlara əsaslanaraq yazılmamalıdır.

*"Bu, kobud səhvdir. Anonim qaynaqdan gələn informasiya yaxşı jurnalist araşdırmasının, analitik yazının hazırlanmasına təkan ola bilər. Amma bütünlükdə yazınız anonim qaynaqların üzərində durursa, bu, şəhərimizdə tikilən yeni binalara oxşayacaq; 16 mərtəbəli binanın konstruksiyası 6 metrlik özülün üzərində qurulur. Belə pis memar olmayın!"* (Bəşirli, Kərimli, Vəkilova, 2007)

Azərbaycanın ilk reytinq ölçən portalı olan www.metrix.az-a əsasən, İyun, 2023-cü ildə ən reytinqli top üç xəbər saytı bunlardır: Publika.az, Axar.az, Bizim.media. Bu faktı əsas götürərək, hər üç saytın xəbər kontentini mənbələrlə iş kontekstində bir gün boyunca incələdik.

Publika.az saytı 4 İyun, 2023-cü il tarixində "Xəbərlər" kateqoriyasında 123 xəbər yerləşdirib. Bunların 98-ində xəbərin mənbəyi vurğulanır. 18 xəbərin qaynağı sosial mediadan götürülüb, təəssüflər olsun ki, bu zaman konkret hiperlinklərlə istinad demək olar ki, mövcud deyil. 16 mənbə isə anonim olaraq qeyd olunur. Bu zaman mənbələr məchul növdə qeyd olunur. Örnək olaraq, *"Rusiya KİV-nə istinadən... XİN-dən verilən məlumata görə...Nazirlikdən bildirilib..."* tərzində xəbər qaynaqlarını vurğulamaq olar. Toplam 25 xəbərdə isə ümumiyyətlə mənbə yoxdur. Bir xəbərdə isə mənbənin adı açıq yazılsa da, istinad yoxdur, mənbə bunu harada deyib məlum deyil.

Axar.az saytı 5 İyun, 2023-cü il tarixində "Xəbər xətti" rubrikasında 136 xəbər yerləşdirib. Bunların 122-də xəbərin qaynağı qeyd olunur. Publika.az ilə müqayisədə burada sosial mediadan qaynaq olaraq istifadə daha azdır, cəmi 9 belə xəbər qeydə alınıb. 14 xəbərin isə mənbəyi yoxdur. Anonim mənbələrdən istifadəyə gəldikdə isə say 13-dür. 36 xəbərdə isə mənbənin adı açıq yazılsa da, istinad yoxdur, mənbə bunu harada deyib bilinmir. Örnək xəbər:

**Xəbərin lidi:** "*Ruslar ümid edirlər ki, hava zərbələri Ukrayna ordusunun əks-hücum əməliyyatları zamanı müdafiə qabiliyyətini zəiflədəcək."*

**Xəbərin istinadı:** "*Axar.az xəbər verir ki, bunu Ukrayna Baş Qərargah rəisinin keçmiş müavini, general-leytenant İqor Romanenko deyib"*.[1]

Bizim.media saytı 6 İyun, 2023-cü il tarixində "Bütün xəbərlər" kateqoriyasında 116 xəbər yerləşdirib. Bunların 98-ində xəbərin mənbəyi vurğulanır. 4 xəbərin qaynağı sosial mediadan götürülüb, təəssüflər olsun ki, burada da konkret hiperlinklərlə istinad demək olar ki, mövcud deyil. Bu, ona görə önəmlidir ki, oxucu birinci mənbəni görə bilir, ən azından xəbərin şəffaflığına inanmış olur. Sosial media qaynaq olaraq heç də hər zaman güvənilmir. Bu durumda, xüsusən də, sosial mediadan qaynaq olaraq istifadə edən media qurumları daha həssas olmalı, konkret linklərlə qaynağa keçid verməlidirlər. Hətta yayımlanmamışdan qabaq, həmin mənbə yoxlanılmalı, daha sonra paylaşılmalıdır. Örnək xəbər:

**Xəbərin lidi:** "*Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev İsrail Knessetinin Xarici İşlər və Müdafiə Komitəsinin sədri Yuli Edelşteyn və Knesset üzvü Ram Ben Barala görüşüb"*.

**Xəbərin istinadı:** *"Bizim.media xəbər verir ki, bu barədə İsrailin Azərbaycandakı səfiri Corc Dik rəsmi "Twitter" hesabında məlumat verib".*[2]

Örnəkdən də göründüyü kimi, məlumatın paylaşıldığı birinci mənbəyə keçid ala bilmirik. Jurnalist burada sadəcə sözügedən tvitin ekran görüntüsünü yazıda şəkil olaraq yerləşdirib. Bu isə saxta tvitlərin istehsal olunduğu rəqəmsal dünyada yetərli sübut deyil.

Bizim.media qeyd olunan tarixdə yayımladığı xəbərlərin 23-ündə isə mənbə anonim olaraq qeyd olunur. Bu zaman istinadlar məchul növdə qeyd olunur. Toplam 18 xəbərdə isə ümumiyyətlə mənbə yoxdur. 21 xəbərdə isə mənbənin adı açıq yazılsa da, konkret istinad yoxdur, mənbə bunu harada deyib məlum deyil.

İnformasiya ilə işləyərkən istinad etmək şəffaflıq və ədalətlilik konseptinə uyğundur. İstinad o deməkdir ki, jurnalist sadəcə faktları təqdim etmir, həm də bu faktların haradan gəldiyini açıqlayır. (Foust, 2009) İnformasiyanın haradan gəldiyini dəqiq bilmək jurnalistə imkan verir ki, onun doğruluğunu müəyyən edə bilsin. (Dvorkin, 2021) İnformasiya ilə məşğul olan jurnalistlər operativliyin kölgəsi altında çox vaxt peşəkar standartları unudur, ona xələl gətirir. Yerli xəbər saytlarında qaynaqların işlənmə formasına diqqət yetirərkən görürük ki, jurnalistlər birinci əl qaynaqlardan çox, ikincili qaynaqlara üstünlük verirlər. İkincili qaynaqlara digər KİV-lər aiddir. Bu, sizin yazınızın zəifliyidir, bir də "tənbəllər" jurnalistikasıdır. Çalışın özünüz informasiya tapasınız. (Bəşirli, Kərimli, Vəkilova, 2007)

Yerli xəbər saytlarında qaynaqlarla bağlı müşahidə etdiyimiz digər bir məsələ də jurnalistlərin xəbər qaynaqlarını məchul növdə verməsidir. Bunun kökündə də media savadsızlığı dayanır. Jurnalistlər bilməlidirlər ki, anonim qaynaqlardan istifadə müsbət hal sayılmır və yalnız çox çıxılmaz məqamlarda istifadə oluna bilər. Misal, informasiyanın cəmiyyətdə çox önəmli çəkisi var və qaynağı məlum növdə yazmaqla onun həyatını təhlükəyə atmış olursunuz.

Yekun olaraq, 21-ci əsrdə xəbər qaynaqları ilə iş hər kəs üçün vacib bir bacarıqdır. Rəqəmsal media ortamında fasiləsiz xəbər mübadiləsində olduğumuz bir dünyada bu xəbərlərin qaynaqları haqqında tənqidi düşünə bilmək və rəqəmsal mediadan məsuliyyətli şəkildə istifadə etməyi bacarmaq həm adi vətəndaş üçün, həm də elə peşəkar jurnalistlər üçün olduqca vacibdir.

**Ədəbiyyat:**


1. Bəşirli, A., Kərimli, A., Vəkilova, D. (2007). "Xəbərçilik". Bakı: ACİYF.
2. Bəşirli, A., Cavadova, X., İzzətli, S. (2017). "Yeni media jurnalistikası". Bakı: Avropa Şurası.
3. Dvorkin, J. (2021). "Trusting the news in a Digital Age". Kanada: Toronto Universiteti.
4. Foust, J.C. (2009). "Online Journalism. Principles and practices of news for the web". Arizona: Holcomb Hattaway.
5. "Kiyevin əks-hücum hazırlığı: Rusiya zərbələri artırdı", https://axar.az/news/planet/752252.html, 04.05.2023
6. Kırık, A.M. (PDF). "Gazetecilerin sosyal medyayı haber kaynağı olarak kullanımı: medya profesyonellerinin bakış açılarını tespit etmeye yönelik bir araştırma" https://shorturl.at/bwJP7 (06.06.2016)
7. "Prezidentin köməkçisi İsrail nümayəndə heyəti ilə regional məsələləri müzakirə edib – FOTO", https://bizim.media/az/siyaset/140088/, 06.06.2023

# THE HEALTH LAW AND POLICY: SCOPE AND OPPORTUNITIES FOR TRANSFORMATIVE HEALTHCARE

**Hajibayli Anara Kamil**
**Institute of Law and Human Rights**
**https://orcid.org/0009-0005-9880-2988**
**hajibaylia@gmail.com**

# TİBBİ HÜQUQ VƏ SİYASƏTİ: TRANSFORMATİV SƏHİYYƏNİN ƏHATƏ DAİRƏSİ VƏ İMKANLARI

**Hacıbəyli Anara Kamil**
**Hüquq və İnsan Haqları İnstitutu**
**https://orcid.org/0009-0005-9880-2988**
**hajibaylia@gmail.com**

**Xülasə**

Bəzən səhiyyə, texnologiya və qanunvericiliyin konvergensiyası səhiyyənin çatdırılması və idarə olunması sahəsində çərçivələrə yol açır. Sağlamlığı texnologiya ilə qarışdıran Səhiyyə Qanunu və Siyasətinin meydana gəlməsi səhiyyə sistemlərinin yenidən formalaşdırılması üçün imkanlar yaradır. Bu məqalədə xəstə qulluğunun asanlaşdırılması və əxlaqi çətinliklərin səfərbər edilməsi baxımından bu paradiqmanın təklif etdiyi miqyas və perspektivlər araşdırılır.

Səhiyyə və texnologiyanın qarışması hal-mühafizə qanununa və siyasətinə nümunə olaraq səhiyyə sahəsində əsaslı yanaşmaların yaranmasına səbəb olub. 1990-cı ildə Azərbaycan tibb elminin inkişafı ilə bağlı bir çox elmi-tədqiqat işləri aparılır. Hal-qanunun və siyasətin miqyası; Hal qanun və siyasət ümumi olaraq transformativ səhiyyəyə töhfə verən domenləri əhatə edir; Teletibb və Uzaqdan Qulluq; Hal-hal qanunu və siyasəti teletibedici həllərin, əsas səhiyyə qurğularına birləşdirilməsini təmin edir.

Teletibçi platformaları, konsultasiyalar və xəstələrə uzaqdan nəzarət etmək bacarığı xüsusi sahələrdə tibbi biliklərə yiyələnməyin yollarını təqdim edir. Sağlamlıq imkanları məhduddur. Sağlamlıq məlumatlarının qorunması. Təhlükəsizlik. Bu üsul səhiyyə məlumatlarının toplanması, saxlanması və mübadiləsi ilə bağlı narahatlıqları aradan qaldırır. Xəstənin məxfiliyinin qorunması üçün güclü hüquqi çərçivələr məlumat təhlükəsizliyini təmin edir və HİPAA kimi qaydalara riayət edir. Bu tədbirlər səhiyyə texnologiyalarına olan etibarın inkişaf etdirilməsində kömək edir. Tibbi Aİ və Qərar Dəstək Sistemləri: Sağlamlıq Hüququ və Siyasəti tibbi süni intellekt və qərar dəstək sistemlərinin etik və hüquqi istifadəsini asanlaşdırır. O, Aİ-nin diaqnostika, müalicə planlaşdırılması və xəstənin idarə olunmasında iştirakının sərhədlərini müəyyən edir, eyni zamanda insan nəzarətini təmin edir. Səhiyyə Texnologiyalarının Qiymətləndirilməsi (HTA): Paradiqma tibbi texnologiyaların sübutlara əsaslanan qəbulunu dəstəkləyir. Səhiyyə Qanunvericiliyi və Siyasəti daxilində HTA çərçivələri yeni texnologiyaların klinik və iqtisadi təsirlərini qiymətləndirir, siyasətçiləri resursların bölüşdürülməsində istiqamətləndirir.

**Açar sözlər:** tibbi hüquq, səhiyyə, texnologiya, tibbi siyasət.

# ЗАКОН И ПОЛИТИКА В ОБЛАСТИ ЗДРАВООХРАНЕНИЯ: ОБЪЕМ И ВОЗМОЖНОСТИ ТРАНСФОРМАЦИОННОГО ЗДРАВООХРАНЕНИЯ

**Гаджибейли Анара Камиль**
**Институт Права и Прав Человека**
**https://orcid.org/0009-0005-9880-2988**
**hajibaylia@gmail.com**

**Резюме**

Со временем сближение здравоохранения, технологий и права проложило путь к созданию рамок в сфере оказания и управления здравоохранением. Появление законодательства и политики в области здравоохранения, сочетающих здравоохранение с технологиями, открывает возможности для изменения систем здравоохранения. В этой статье исследуются масштабы и перспективы, предлагаемые этой парадигмой с точки зрения улучшения ухода за пациентами, облегчения принятия решений на основе данных и решения этических проблем. Сочетание здравоохранения и технологий привело к развитию новаторских подходов к здравоохранению, примером которых является Закон и политика здравоохранения. Используя достижения в области технологий, анализа данных и нормативно-правовой базы, эта парадигма открывает эпоху, ориентированную на благополучие пациентов посредством разработки политики, основанной на фактических данных, и улучшения управления здравоохранением. Степень соблюдения закона и политики здравоохранения; Закон и политика здравоохранения охватывают области, которые в совокупности способствуют преобразованию здравоохранения; Телемедицина и дистанционная помощь; Закон и политика здравоохранения позволяют интегрировать телемедицинские решения в обычные учреждения здравоохранения. Платформы телемедицины, консультации и возможность удаленного наблюдения за пациентами открывают способы доступа к медицинским знаниям, особенно в районах с ограниченными медицинскими услугами. Ведение данных о состоянии здоровья. Безопасность; Этот подход решает проблемы, связанные со сбором, хранением и обменом данными о состоянии здоровья. Существуют строгие правовые рамки для защиты конфиденциальности пациентов, обеспечения безопасности данных и соблюдения таких правил, как HIPAA. Эти меры помогают укрепить доверие к технологиям здравоохранения. Медицинский искусственный интеллект и системы поддержки принятия решений: Закон и политика в области здравоохранения облегчают этическое и юридическое использование медицинского искусственного интеллекта и систем поддержки принятия решений. Он определяет границы участия ИИ в диагностике, планировании лечения и ведении пациентов, сохраняя при этом человеческий надзор. Оценка технологий здравоохранения (HTA): парадигма поддерживает научно обоснованное внедрение технологий здравоохранения. Рамки ОМТ в рамках законодательства и политики в области здравоохранения оценивают клиническое и экономическое воздействие новых технологий, помогая политикам распределять ресурсы.

**Ключевые слова:** медицинское право, здравоохранение, технологии, медицинская политика.

In times the convergence of health, technology and law has paved the way for frameworks in healthcare delivery and governance. The emergence of Health Law and Policy which blends health with technology presents opportunities to reshape healthcare systems. This article explores the scope and prospects offered by this paradigm in terms of improving patient care facilitating data driven decision making and navigating ethical challenges.

The blending of health and technology has sparked the development of groundbreaking approaches to healthcare, exemplified by Health Law and Policy. By harnessing advancements in technologies, data analytics and legal frameworks this paradigm ushers in an era centered around patient well being through evidence based policymaking and improved healthcare management. **The Extent of Health Law and Policy;** Health Law and Policy encompasses domains that collectively contribute to transformative healthcare; **Telemedicine and Remote Care**; Health Law and Policy enables integration of telemedicine solutions, into mainstream healthcare settings.

Telemedicine platforms, consultations and the ability to monitor patients remotely provide ways to access medical knowledge particularly in areas, with limited healthcare services. **Maintaining Health Data. Security;** This approach tackles concerns related to the gathering, storage and exchange of health data. Strong legal frameworks are in place to safeguard patient privacy ensure data security and comply with regulations such, as HIPAA. These measures help build trust in healthcare technologies**. Medical AI**

**and Decision Support Systems**: Health Law and Policy facilitates the ethical and legal use of medical artificial intelligence and decision support systems. It defines the boundaries of AI involvement in diagnostics, treatment planning, and patient management, while upholding human oversight. **Health Technology Assessment (HTA):** The paradigm supports evidence-based adoption of healthcare technologies. HTA frameworks within Health Law and Policy evaluate the clinical and economic impacts of new technologies, guiding policymakers in resource allocation.

**Opportunities Presented by Health Law and Policy.** Patient-Centered Care Enhancement: Health Law and policy promotes patient engagement and empowerment. Through wearable devices, health apps, and telehealth, patients can actively participate in managing their health, leading to more personalized and effective treatment. **Data-Driven Decision-Making:** The integration of health data analytics and informatics into Health Law and Policy enables evidence-based decision-making. Real time data insights assist healthcare providers and policymakers in identifying trends, predicting outbreaks, and allocating resources efficiently. **Regulatory adaptation:** Health Law and Policy catalyzes regulatory adaptation to the rapidly evolving healthcare landscape. Regulatory sandboxes and agile frameworks allow experimentation with new technologies, while safeguarding patient safety and well-being. **Ethical Frameworks for Emerging Technologies:** The paradigm fosters the development of ethical guidelines for emerging technologies like AI, genomics, and biotechnology. These frameworks ensure responsible innovation, addressing concerns related to bias, accountability, and the doctor-patients relationship.

**Challenges and Considerations:** While Health Law and Policy offers numerous opportunities, it also presents challenges, including data privacy breaches, legal ambiguities, and the potential for technology-driven health disparities. Balancing innovation with ethical and legal safeguards remains a critical consideration.

**Conclusion:** The Health Law and Policy paradigm represents a transformative approach to healthcare by leveraging technology and law to improve patient care, data utilization, and regulatory frameworks. Embracing this paradigm opens the door to a future where healthcare is more patient-centered, evidence-based, and ethically guided, shaping a healthier world for all. As the field continues to evolve, collaborative efforts among healthcare professionals, legal experts, policymakers and technology innovators will be pivotal in realizing its full potential.

**References:**


1. Annas, G.J. (2020). Informed consent to human gene editing. JAMA, 323(21), 2075-2076.
2. Beauchamp, T.L.,& Childress, J.F. (2019). Principles of biomedical ethics. Oxford University Press.
3. Gostin, L. O., 7 Hodge Jr, J.G. (2015). Blockchain technology for global healtg equity. Health affairs, 34 (10), 1733-1740.
4. Kass, N.E., Faden, R. R., Goodman, S. N., Pronovost, P., Tunis, S., & Beauchamp, T.L. (2013). The research-treatment distinction: A problematic approach for determining which activities should have ethical oversight. The Hastings Center Report, 43(S1), S4-S15.
5. Terry, N. P. (2020). Telemedicine and telehealth in law and policy: A view from the trenches. Harvard Journal of Law & Technology, 34(1), 209-248

# THE APPLICATION OF INTERNATIONAL HUMANITARIAN LAW AND HUMAN RIGHTS PROTECTION DURING ARMED CONFLICT

**Allahverdiyev Alovsat Vilayat**
**Baku State University**
**https://orcid.org/0000-0001-9442-3853**
**alovsatallahverdiyev@bsu.edu.az**

# SİLAHLI MÜNAQİŞƏ DÖVRÜNDƏ BEYNƏLXALQ HUMANİTAR HÜQUQUN TƏTBİQİ VƏ İNSAN HÜQUQLARININ QORUNMASI

**Allahverdiyev Ələvsət Vilayət**
**Bakı Dövlət Universiteti**
**https://orcid.org/0000-0001-9442-3853**
**alovsatallahverdiyev@bsu.edu.az**

**Xülasə**

Məruzədə silahlı münaqişə şəraitində beynəlxalq humanitar hüququn hansı formada tətbiqi və insan hüquqlarının qorunmasından bəhs ediır. Məruzənin məqsədi dinc dövrdə olduğu kimi, silahlı münaqişə şəraitində də insan hüquqlarının qorunmasını diqqətə çatdırmaq və bu sahədə məlumatlılığı artırmaqdır. Dünyada baş verən proseslər, qloballaşma onu göstərir ki, hər bir ölkə üçün silahlı münaqişə qaçılmazdır və onun baş verməsi mümkündür. Demək olar ki, bu gün dünya müharibənin bəlaları ilə qarşı-qarşıya qalmaqda davam edir. Bəşəriyyət tarix boyu qruplar, kollektivlər, tayfalar, dövlətlər resurslar, ərazi, din və siyasi sistemlər uğrunda mübarizə aparıb. Ölkələr müharibələrin vəhşiliklərini və onların gətirdiyi səfaləti hər gün müşahidə edir. Acı həqiqət də olsa müasir qlobal tariximiz saysız-hesabsız münaqişələrlə zəngindir və bu münaqişələr dinc mülki əhalinin öldürülməsi, işgəncələrə məruz qalmasına səbəb olur. Bundan əlavə, münaqişələr nəticədə ölüm və dağıntılar gətirir. Beynəlxalq humanitar hüququn tətbiqi məhz hərbi əməliyyatların gedişini tənzimləyir, baş vermiş müharibə cinayətlərinin acı nəticələrinin aradan qaldırılmasına və təqsirkarların cəzalandırılmasına xidmət edir.

**Açar sözlər:** beynəlxalq humanitar hüquq, müharibə cinayətləri, insan hüquqları, silahlı münaqişələr.

# ПРИМЕНЕНИЕ МЕЖДУНАРОДНОГО ГУМАНИТАРНОГО ПРАВА И ЗАЩИТА ПРАВ ЧЕЛОВЕКА В ВООРУЖЕННОМ КОНТРАКТЕ

**Аллахвердиев Аловсат Вилаят**
**Бакинский Государственный Университет**
**https://orcid.org/0000-0001-9442-3853**
**alovsatallahverdiyev@bsu.edu.az**

**Резюме**

В докладе анализируется о применении международного гуманитарного права и защите прав человека в условиях вооруженного конфликта. Цель отчета – привлечь внимание к защите прав человека в вооруженном конфликте, а также в мирное время и повысить осведомленность в этой области. Процессы, происходящие в мире, глобализация показывают, что вооруженный конфликт неизбежен для каждой страны и его возникновение возможно. Можно сказать, что сегодня мир продолжает сталкиваться с бедами войны. На протяжении всей истории человеческие группы, коллективы, племена, государства боролись за ресурсы, территорию, религию и политические системы. Страны становятся свидетелями жестокости войн и

страданий, которые они приносят каждый день. Хотя это горькая правда, наша современная глобальная история богата бесчисленными конфликтами, и эти конфликты приводят к убийствам и пыткам мирного населения. Более того, конфликты приводят к смерти и разрушениям. Применение международного гуманитарного права четко регулирует прекращение военных действий, служит ликвидации горьких последствий военных преступлений и наказанию виновных.

**Ключевые слова:** международное гуманитарное право, военные преступления, права человека, вооруженные конфликты.

Both international human rights law and international humanitarian law aim to protect and promote human rights. While the first serves to protect human rights in peaceful conditions, the second (international humanitarian law) protects those who do not participate in military operations, while at the same time limiting the strategies and methods of conflict. International humanitarian law is considered one of the important means of protection of human rights during armed conflicts. J. Picte, a well-known specialist in international humanitarian law, in his scientific work considered international humanitarian law to be the main section of international law focused on the protection of individuals during war and permeated by the spirit of humanism. Along with Jean Picte, there are enough scientific research works on the application of international humanitarian law. Among them we can name Ibayev (Ibayev, 2001), Aliyev (Aliyev, 2018), Crawford (Crawford & Pert, 2020), Sassoli (Sassoli, 2019), Scheuber (Crowe & Scheuber, 2015), Melzer (Melzer, 2018) and many others who devoted valuable research works to the examination of international humanitarial law.

**International armed conflicts and international humanitarian law**

The main field of application of international humanitarian law is armed conflicts. Armed conflicts are a common concept. 20 provisions of the Geneva Conventions of 1949 and Additional Protocols adopted in 1977 refer to internal armed conflicts, while nearly 500 provisions are devoted to international armed conflicts. International armed conflict has always been relevant and all discussions have been conducted around it. General Article 2 of the Geneva Conventions of 1949 defined international armed conflict as "all declared cases of war or any other armed conflict which may arise between two or more High Contracting Parties, even if a state of war exists." This has been confirmed in many scientific literatures (Fleck, 2017), (Sassòli, 2019), (Akande, 2020), (Sutton, 2021).

In recent decades, armed conflicts have claimed the lives of millions of civilians. It should not be forgotten that human rights must be protected both in peaceful conditions and in armed conflict. The protection of human rights in peaceful settings is governed by international human rights law. In the conditions of armed conflict, this duty falls on international humanitarian law. The main purpose of international humanitarian law is to protect the life, health and human dignity of civilians and combatants (captive, wounded or sick combatants) who are no longer participating in hostilities and to limit the rights of the parties to the conflict to use the methods of warfare of their choice. International human rights law defines or recognizes that individuals have rights vis-à-vis their own state. Provisions of international humanitarian law protect individuals from state or other belligerent authorities.

Some rules of international humanitarian law (on the protection of prisoners of war and protected civilians) prohibit only those within the power of the state, while other rules (on the conduct of military operations) prohibit anyone, including the civilian population of the other side, from indiscriminately attacking or committing acts of treason against enemy soldiers. defends against the use of weapons.

Complementarity and reciprocity ensure interaction between international humanitarian law and international human rights law in most cases. In some cases, when there is a conflict between two legal bodies, a more specific norm prevails (lex specialis). Traditionally, international human rights law and

international humanitarian law are two different legal systems, with different themes and different roots, and they have long developed without much influence on each other.

International Committee of the Red Cross lawyer Cordula Droege in his book titles as "Elective affinities? Human rights and humanitarian law" (Droege, 2008) analyzes the question of the more concrete application of both legal norms. It also considers the procedural dimension of this interaction, particularly in relation to the rules governing the investigation of alleged violations, access to courts for alleged victims, and the payment of reparations for violations.

**Non-international armed conflicts and international humanitarian law**

International humanitarian law applies to international armed conflicts as well as to non-international armed conflicts. States have long treated internal conflicts as short-term separations that can be governed by domestic law because no state is willing to accept that its citizens may wage war against its government. (Bouvier & Quintin, 2011).

From a humanitarian point of view, victims of non-international armed conflicts should be protected by the same rules as victims of international armed conflicts. They face similar problems and need similar protection. Indeed, in both cases, combatants and civilians are arrested and detained by the "enemy"; the civilian population is forcibly displaced; they have to flee, or their places of residence will be taken over by the enemy. Towns and villages are attacked, food supplies need to pass through the front line, and the same weapons are used. Furthermore, the application of different rules of defense in international and non-international armed conflicts forces humanitarian actors and victims to classify the conflict before these rules are invoked.

Apparently, in both cases, combatants and civilians are arrested and detained by the "enemy", property rights are violated. Towns and villages, historical and cultural monuments are destroyed pointlessly.

**References:**


1. Akande, D. (2020). International Humanitarian Law. United Kingdom: Oxford Bouvier & Quintin, 2011.

2. Crawford E.& Pert A.(2020). International Humanitarian Law. United Kingdom: Cambridge University Press, 234-240.

3. Crowe, J. , Scheuber, K.W. (2015) Principles of International Humanitarian Law. United Kingdom: Edward Elgar Publishing, 174-182.

4. İbayev, V. (2001). Beynəlxalq humanitar hüquq. Bakı: “Hüquq ədəbiyyatı” nəşriyyatı, s.87-92.

5. Əliyev, Ə (2018). Azərbaycan beynəlxalq cinayətlər hədəfində. Bakı: Nurlar nəşriyyatı, s.20-35.

6. Fleck, D. (2017) International Humanitarian Law. United Kingdom: CPİ Group (UK) Ltd, Croydon, CR0 4YY Publishing, 210-1215

7. Sassòli, M. (2019). International Humanitarian Law. United Kingdom: Edward Elgar Publishing, 132-141

8. Melzer, N. (2008). Targeted Killing in International law. United Kingdom: Oxford University Press, 146-154

9. Meron, T. (2006). The Humanization of International Law. Netherlands: Martinus Nijhoff Publishers, 144-156

10. Melzer, N. International Hunanitarion Law a comprehensive introduction, International Committee of the Red Cross, Geneva: https://library.icrc.org/library/docs/DOC/icrc-4231-002-2019.pdf

# DAVAMLI İNKİŞAFIN MƏQSƏDLƏRİNDƏN BİRİ KİMİ TƏHSİL HÜQUQU

**Abdullayeva Fidan Ağasəlim**
**Bakı Dövlət Universiteti**
**https://orcid.org/0009-0009-9041-1324**
**Fidanazmammadova@gmail.com**

# THE RIGHT TO EDUCATION AS ONE OF THE GOALS OF SUSTAINABLE DEVELOPMENT

**Abdullayeva Fidan Agasalim**
**Baku State University**
**https://orcid.org/0009-0009-9041-1324**
**Fidanazmammadova@gmail.com**

**Summary**

Education plays an important role in the formation and progress of societies. In the face of pressing global challenges such as climate change, biodiversity loss and social inequality, the need for sustainable development is becoming increasingly evident. According to this, education affects life, changes it and develops it. One of the main missions of UNESCO is to achieve "Sustainable development" by creating peace and eliminating poverty. Achieving sustainable development is a fundamental human right throughout life. The main goal of the concept of sustainable development is to meet the needs of the present without compromising the ability of future generations to meet their own needs. To achieve this, education must play a central role in raising awareness, motivating action and equipping individuals with the knowledge, skills and values needed to build a sustainable future. This article explores the importance of education for sustainable development and its potential to transform the world by empowering educated young people.

**Key words:** sustainable development, global problems, education law, conservation of biodiversity, sustainable development goals

# ПРАВО НА ОБРАЗОВАНИЕ КАК ОДНА ИЗ ЦЕЛЕЙ УСТОЙЧИВОГО РАЗВИТИЯ

**Абдуллаева Фидан Агасалим**
**Бакинский Государственный Университет**
**https://orcid.org/0009-0009-9041-1324**
**Fidanazmammadova@gmail.com**

**Резюме**

Образование играет важную роль в формировании и прогрессе общества. Перед лицом неотложных глобальных проблем, таких как изменение климата, утрата биоразнообразия и социальное неравенство, необходимость устойчивого развития становится все более очевидной. В соответствии с этим образование влияет на жизнь, изменяет ее и развивает. Одной из основных миссий ЮНЕСКО является достижение «Устойчивого развития» путем создания мира и ликвидации бедности. Достижение устойчивого развития является одним из основных прав человека на протяжении всей жизни. Основной целью концепции устойчивого развития является удовлетворение потребностей настоящего без ущерба для способности будущих поколений удовлетворять свои собственные потребности. Для достижения этого образование

должно играть центральную роль в повышении осведомленности, мотивации действий и обеспечении людей знаниями, навыками и ценностями, необходимыми для построения устойчивого будущего. В этой статье исследуется важность образования для устойчивого развития и его потенциал для преобразования мира путем расширения прав и возможностей образованной молодежи.

**Ключевые слова:** устойчивое развитие, глобальные проблемы, образовательное право, сохранение биоразнообразия, цели устойчивого развития.

Təhsil cəmiyyətlərin formalaşdırılmasında və tərəqqisində mühüm rol oynayır. İqlim dəyişikliyi, biomüxtəlifliyin itirilməsi və sosial bərabərsizlik kimi aktual qlobal çağırışlar qarşısında dayanıqlı (davamlı) inkişafa ehtiyac getdikcə daha aydın görünür. İlk öncə "Davamlı inkişaf" nədir anlayışına aydınlıq gətirmək lazımdır. Ədəbiyyatlarda müxtəlif təriflər olsa da, onun məzmununu açacaq və ona aydınlıq qazandıracaq birmənalı tərif yoxdur. Ən uyğun anlayış kimi gələcək nəsillərin öz ehtiyaclarını ödəmək qabiliyyətinə xələl gətirmədən indiki dövrün ehtiyaclarının ödənilməsini nəzərdə tutur. Davamlı inkişafa nail olmaq üçün təhsil ilə zehni gücləndirmək və dünyanı üzləşə biləcəyi çətinliklərdən qorumaq lazımdır. Buna nail olmaq üçün başlıca məqsəd maarifləndirmənin gücləndirilməsidir. Maarifləndirmənin gücləndirilməsi dedikdə, savadlılıq dərəcəsinin yəni, oxuma-yazma, oxuma-anlama bacarıqlarının inkişaf etdirilməsi başa düşülür.

Dayanıqlı İnkişaf Məqsədləri siyahısında olan Keyfiyyətli təhsilin əsas məqsədi hər kəs üçün inklüziv və keyfiyyətli təhsili təmin etmək və ömürboyu təhsili təşviq etməkdən ibarətdir.

Müxtəlif zamanlarda və şəraitlərdə təhsil ilə bağlı narazılıqlara şahid oluruq. Narazılığın başlıca səbəbi kimi əhali arasında olan işsizlik və ixtisaslaşmaya uyğun olaraq müvafiq vakansiyaların azlığını görə bilərik. Davamlı inkişafın əsas məqsədi tələb və təklifin qarşılıqlı olaraq ödənilməsidir. Əmək bazarında işçi kimi tələb olunmayan vakansiyalar üzrə gənclərin yetişdirilməsi nəticəsində onların məzun olduqdan sonra müvafiq iş ilə təmin olunma məsələsində çətinliklər ortaya çıxır. 2009-cu ildə Prezident İlham Əliyev tərəfindən qəbul olunmuş və qəbul olunduğu gündən qüvvəyə minmiş olan Təhsil haqqında Azərbaycan Respublikası qanununun 9-cu maddəsi təhsilin keyfiyyətinə həsr olunmuşdur. Bu maddənin ikinci müddəasına əsasən, təhsil müəssisəsində kadr hazırlığının xüsusi rolu vurğulanır. "Kadr hazırlığının keyfiyyət səviyyəsi məzunların milli və beynəlxalq əmək bazarında rəqabət qabiliyyəti, ölkənin sosial və iqtisadi inkişafında rolu ilə müəyyən edilir" (1). Universitetlərin və ya təhsil müəssisələrin başlıca məqsədi tələbata uyğun qaydada ixtisas qrupları yaratmaq və tələbələrə məzun olduqdan sonra öz ixtisaslarına uyğun işlərdə işləmələri üçün zəruri olan bilikləri öyrətmək olmalıdır. Valideynlər illərlə övladlarının ən gözəl formada təhsil alması üçün çalışırlar, bəzi hallarda isə ödənişli əsaslarla qəbul zamanı təhsil haqlarını universitetlərə ödəyirlər. Bu isə həm vaxt itkisinə, həm də pul itkisinə səbəb olur (2).

Ümumilikdə nəzər salsaq Azərbaycan Respublikasının ali qanunvericiliyə malik olan Konstitusiyasında Təhsil hüququ 42-ci maddədə əks olunmuşdur. Bu maddənin müddəalarına əsasən, "hər bir vətəndaşın təhsil almaq hüququ vardır". Dövlət pulsuz icbari ümumi orta təhsil almaq hüququnu təmin edir". Və əsas müddəalardan biri hesab oluna biləcək müddəa dövlət minimum təhsil standartlarını müəyyən edir.

Təhsil haqqında Azərbaycan Respublikasının qanununa əsasən, təhsilin əsas məqsədi:

1. "Azərbaycan dövləti qarşısında öz məsuliyyətini dərk edən, xalqının milli ənənələrinə və demokratiya prinsiplərinə, insan hüquqları və azadlıqlarına hörmət edən, vətənpərvərlik və azərbaycançılıq ideyalarına sadiq olan, müstəqil və yaradıcı düşünən vətəndaş və şəxsiyyət yetişdirmək";
2. "Milli-mənəvi və ümumbəşəri dəyərləri qoruyan və inkişaf etdirən, geniş dünyagörüşünə malik olan, təşəbbüsləri və yenilikləri qiymətləndirməyi bacaran, nəzəri və praktiki biliklərə yiyələnən, müasir təfəkkürlü və rəqabət qabiliyyətli mütəxəssis-kadrlar hazırlamaq";

3. “Sistemləşdirilmiş bilik, bacarıq və vərdişlərin mənimsənilməsini və ixtisasın daim artırılmasını təmin etmək, təhsilalanları ictimai həyata və səmərəli əmək fəaliyyətinə hazırlamaqdır” (1).

Qanun göstərir ki, “təhsilalanları ictimai həyata və səmərəli əmək fəaliyyətinə hazırlamaq dövlətin başlıca məqsədidir”. Davamlı inkişafın əsas komponentlərindən biri insan amilidir. Belə nəticəyə gəlmək olar ki, insan kapitalının formalaşdırılması dövlətin başlıca siyasəti olmalıdır.

Dünyada mövcud olan təcrübəyə nəzər salsaq, XX əsrin ortalarından başlayaraq inkişaf etmiş ölkələrin ən mühüm prioritetləri içərisində insan kapitalının yaradılması ideyasının mövcud olduğunu görə bilərik. İnsan kapitalının yaradılması ideyası ilk dəfə ötən əsrin 60-70-ci illərində Amerika iqtisadçılarının tədqiqatları nəticəsində yaranmış, formalaşmış və inkişaf etmişdir. İşçi qüvvəsinin formalaşması üçün bu nəzəriyyənin əhəmiyyəti danılmazdır. Yaradıcılıq qabiliyyətinin inkişaf etdirilməsi və faydalılıq imkanlarının artırılması kadr hazırlığı ideyasının əsas istiqamətləri kimi müəyyənləşdirilmişdir. Müasir dövrümüzdə dövlətlərin təbii sərvətlər bolluğu artıq aktual hesab olunmur. Dünyada qlobal iqtisadi inkişaf məqsədlərinə xidmət edən və bu istiqamətdə araşdırmalar aparan Dünya Bankı statistikalarında müəyyən edilmişdir ki, “Amerika Birləşmiş Ştatlarında milli sərvətin 76 faizini insan kapitalı, 19 faizini istehsal, 5 faizini isə təbii resurslar təşkil edir. Avropa ölkələrində isə insan kapitalı 74 faiz, istehsal 24 faiz, təbii resurslar isə cəmi 2 faiz təşkil edir. Rusiyada isə insan kapitalı 50 faiz, istehsal 10 faiz, təbii sərvətlər isə 40 faiz səviyyəsindədir” (4).

Azərbaycanda da xüsusən son illər bu istiqamətdə əhəmiyyətli addımlar atılır. Azərbaycan Respublikası Prezidentinin 29 dekabr 2012-ci il tarixli “Azərbaycan 2020: gələcəyə baxış” İnkişaf Konsepsiyasında da ənənəvi iqtisadiyyatdan “bilik iqtisadiyyatına” keçidin əsasının qoyulması, bunun üçün həlledici olan insan kapitalının adekvat inkişafı ön plana çəkilmişdir. “Azərbaycan 2020: gələcəyə baxış” İnkişaf Konsepsiyasında qeyd olunmuşdur ki, müasir çağırışlara cavab verən bir dövlətin əsası kimi insan kapitalına yatırımların edilməsi vacib nüansdır (5).

Savadlı və ixtisaslı gələcək nəsillər ekoloji bütövlük, sosial rifah və iqtisadi rifah arasında incə tarazlığa görə qiymətləndirmənin inkişaf etdirilməsi üçün addımlar atacaqlar. Artmış məlumatlılıqla, fərdlərin məlumatlı qərarlar qəbul etmək və davamlılıq istiqamətində məsuliyyətli hərəkətlər etmək ehtimalı daha yüksəkdir.

Davamlı inkişaf üçün təhsil tənqidi düşünmə və problem həlletmə bacarıqlarını inkişaf etdirir, fərdlərə mürəkkəb məsələləri təhlil etməyə və innovativ həllər hazırlamağa imkan verir. Fənlərarası yanaşmalar vasitəsilə tələbələr tənqidi düşünməyə, müxtəlif perspektivləri nəzərdən keçirməyə və yaradıcı problem həlli strategiyalarını tətbiq etməyə həvəsləndirilir. Bu, onlara öz mühitlərində və ondan kənarda davamlılıq problemlərini həll etmək, innovasiya və möhkəmlik mədəniyyətini inkişaf etdirmək imkanı verir. Yüksək peşəkarlıq səviyyəsində yetişdirilmiş gənclər davamlı inkişafa nail olmağın yolunun yalnız dövlət daxilində atılmış və ya atılacaq addımlarla olmayacağını çox gözəl dərk edə bilərlər. Davamlı inkişaf sərhəd tanımır. Baş vermiş qlobal problemlər çərçivəsində beynəlxalq əməkdaşlığa və yaşıl gələcəyə doğru maarifləndirməyə böyük ehtiyac vardır. Belə ki, atmosferin çirkləndirilməsi nəticəsində iqlimdə baş verən dəyişikliklər sərhəd tanımadan bütün dünyaya təsir göstərir. Baş verən təbii fəlakətlər, temperaturun keçən əsrlərlə müqayisədə artması, quraqlıq, içməli su ehtiyatlarının azalması, biomüxtəlifliyin azalması və plastik tullantılarla ətraf mühitin çirkləndirilməsi və s. Bu qlobal problemləri sadalamaqla bitirmək qeyri-mümkündür. Belə bir şəraitdə “Şüurlu istehlakın” önəmini qeyd etməmək olmaz. “Dünya vətəndaşları” ehtiyacları daxilində ehtiyatlardan istifadə etməli və tullantıları müəyyən edilmiş ərazilərə bölgülərə əsasən, atmalıdırlar. Əlbəttə buna nail olmaq yalnız və yalnız savadlı və vicdanlı insanlığın yetişdirilməsi ilə mümkündür.

Məqalənin əvvəlində bir çox təhsil müəssisələrinin tələbələri mövcud əmək bazarlarına uyğun yetişdirmədiyini qələmə almışdım. Bu günün tələbi ehtiyatlarımızdan, yəni vətəndaşlarımızdan - gələcək nəsillərdən faydalı istifadə etməkdir. Onları vicdanlı və dünyanı sevən biriləri kimi yetişdirmək çox sadədir. Davamlı inkişaf yaşıl iqtisadiyyat üçün lazım olan bacarıqlarla təchiz edilmiş işçi qüvvəsini tələb edir. Təhsil müəssisələri tələbələri bərpa olunan enerji, davamlı kənd təsərrüfatı, mühafizə və yaşıl texnologiya sahələrində karyeraya hazırlaya bilər. Bu, təkcə iqtisadi artıma töhfə vermir, həm də davamlı gələcəyi təmin edir.

Təhsil həmçinin fərdləri empatiya, sosial məsuliyyət kimi dəyərləri aşılamaqla öz hərəkətlərini dərk etməyə çağırır. Bu öz növbəsində məsuliyyətli tədbirlər görməyə və müsbət dəyişikliklərə töhfə verməyə təşviq edir. Bu hiss tələbələri ictimai layihələrdə iştirak etməyə, təbliğatla məşğul olmağa və gündəlik həyatlarında davamlı inkişaf məqsədlərini təbliğ etməyə təşviq edir. Təhsil fərdlərə davamlı inkişafa doğru kollektiv fəaliyyətə təkan verərək dəyişiklik yaradan şəxslər olmaq imkanı verir.

Təhsil ətraf mühitin mühafizəsi hissini aşılayır, təbiətə dərin minnətdarlığı və onu qorumaq ehtiyacını təzahür etdirir. Xarici və təcrübi öyrənmə imkanları təmin etməklə, təhsil tələbələri təbii dünya ilə əlaqələndirir, ətraf mühitə qarşı heyranlıq və məsuliyyət hissini artırır. Ekoloji maarifləndirmə yolu ilə fərdlərdə iradə hissi inkişaf edir və təbii ehtiyatları qoruyan, iqlim dəyişikliyini azaldan və biomüxtəlifliyi qoruyan tədbirlər görməyə həvəsləndirilir.

Davamlılıq ideyasını kurikulumlara inteqrasiya etməklə, tənqidi düşüncəni inkişaf etdirməklə və davamlı işçi qüvvəsi üçün bacarıqlar formalaşdırmaqla təhsil fərdləri aktual qlobal çağırışların öhdəsindən gəlmək üçün alətlərlə təchiz edir. Ətraf mühitə nəzarət hissini aşılayır, innovasiyaları inkişaf etdirir və davamlı gələcək yaratmaq üçün kollektiv öhdəlikləri inkişaf etdirir. Biz daha yaxşı bir dünya üçün səy göstərdikcə, təhsil daha ədalətli, davamlı və daha yaşıl bir planet üçün çalışacaq məsuliyyətli liderləri, dəyişikliyi yaradanları və qlobal vətəndaşları formalaşdıran əsas sütun kimi ortaya çıxır.

Məqalənin nəticəsi və əsas ideyası kimi İlham Əliyevin də dediyi kimi "Təhsil Azərbaycanın davamlı inkişaf strategiyasının ən öncül istiqamətlərindən biridir və biz maddi dəyərlərimizi, iqtisadi potensialımızı insan kapitalına çevirməliyik. Çünki insanın savadı, biliyi onun gələcək həyatını müəyyən edir, ölkənin hərtərəfli inkişafına xidmət edir" ifadəsini qeyd etmək doğru olardı. (7)

**Ədəbiyyat:**


1. Təhsil haqqında Azərbaycan Respublikasının Qanunu /https://e-qanun.az/framework/18343
2. Hüseynli İ. Mehralızadə F. Universitet təhsili və bazar tələbləri / https://bakuresearchinstitute.org/university-studies-and-market-orientation/
3. Azərbaycan Respublikasının Konstitusiyası https://www.e-qanun.az/framework/897
4. Əliyev İ. İnsan kapitalının formalaşması dövlətin əsas siyasətidir //Azərbaycan, 2009, 13 noyabr, S.5 http://anl.az/down/meqale/azerbaycan/azerbaycan_noyabr2009/96159.htm
5. "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası https://e-qanun.az/framework/25029
6. Davamlı İnkişaf Məqsədləri https://sdgs.un.org/goals
7. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası https://president.az/az/articles/view/9779

# SAFEGUARDING DIGNITY ONLINE: A DIVE INTO CYBERBULLYING, HUMAN RIGHTS, AND MODERN AZERBAIJAN

**Huseynzada Nisa Alakbar**
**Baku State University**
**https://orcid.org/0009-0003-1899-4162**
**nisaguseynzada@gmail.com**

# ONLAYN LƏYAQƏTİN QORUNMASI: KİBERZORAKILIĞA, İNSAN HÜQUQLARINA VƏ MÜASİR AZƏRBAYCANA BAXIŞ

**Hüseynzadə Nisə Ələkbər**
**Bakı Dövlət Universiteti**
**https://orcid.org/0009-0003-1899-4162**
**nisaguseynzada@gmail.com**

**Xülasə**

Bu məruzə hüquqi baza ilə rəqəmsal aləmdə geniş yayılmış kiber zorakılıq problemi arasındakı mürəkkəb əlaqəni araşdırır. Araşdırma kiber zorakılığın çoxşaxəli mahiyyətini aydınlaşdırır, fərdin rəqəmsal rifahını pozan, məsələn, onlayn təqib, şəxsi məlumatların əsassız şəkildə açıqlanması və irq, din və digər atributlar kimi xüsusiyyətlərə əsaslanan zərərli məzmunun yayılması kimi fəaliyyətləri əhatə edir. Əsasən, bu, insan hüquqlarının daha geniş kontekstində, xüsusən də müasir rəqəmsal əsrdə və Azərbaycanın spesifik kontekstində kiber zorakılığın öyrənilməsinin artan əhəmiyyətini vurğulayır. Onlayn qarşılıqlı əlaqələrin gündəlik həyatın ayrılmaz hissəsinə çevrildiyi bir dövrdə kiber zorakılığın hüquqi ölçülərini başa düşmək çox vacibdir. Bundan əlavə, bu sahədə tədqiqat texnologiyanın, insan davranışının və qanunvericiliyin mürəkkəb kəsişmələrini işıqlandırmaq potensialına malikdir. Kiber zorakılığın insan hüquqlarına təsirini tədqiq etməklə, bu tədqiqat təkcə mövcud biliklər toplusuna töhfə vermir, həm də bu inkişaf edən problemlə mübarizə üçün hüquqi və siyasi cavabların formalaşdırılmasına kömək edir. Araşdırma rəqəmsal landşaftda insan hüquqlarının qorunmasına aid olduğu üçün bu tədqiqatın əhəmiyyətini tanıyır və tədqiqatın bu kritik sahəsində əlavə araşdırma və kəşfiyyatın vacibliyini vurğulayır.

**Açar sözlər:** kiber zorakılıq, insan hüquqları, rəqəmsal texnologiya, bullinq.

# ЗАЩИТА ДОСТОИНСТВА В ИНТЕРНЕТЕ: ПОГРУЖЕНИЕ В КИБЕРЗАПУГИВАНИЕ, ПРАВА ЧЕЛОВЕКА И СОВРЕМЕННЫЙ АЗЕРБАЙДЖАН

**Гусейнзаде Ниса Алекпер**
**Бакинский Государственный Университет**
**https://orcid.org/0009-0003-1899-4162**
**nisaguseynzada@gmail.com**

**Резюме**

В этом работе исследуются сложные взаимоотношения между правовой базой и широко распространенной проблемой киберзапугивания в цифровом мире. Исследования проясняют многогранную природу киберзапугивания, которая включает в себя действия, подрывающие цифровое благополучие человека, такие как онлайн-преследование, необоснованное раскрытие личной информации и распространение вредного контента на основе таких характеристик, как раса, религия и другие характеристики. По сути, это подчеркивает растущую важность изучения киберзапугивания в более широком контексте прав человека, особенно в современную цифровую эпоху и в конкретном контексте Азербайджана. В эпоху, когда онлайн-взаимодействие стало

неотъемлемой частью повседневной жизни, понимание правовых аспектов киберзапугивания имеет решающее значение. Кроме того, исследования в этой области могут пролить свет на сложные пересечения технологий, человеческого поведения и права. Изучая влияние киберзапугивания на права человека, это исследование не только вносит вклад в существующий объем знаний, но также помогает сформировать правовые и политические меры для борьбы с этой развивающейся проблемой. В исследовании признается важность этого исследования, поскольку оно связано с защитой прав человека в цифровом пространстве, и подчеркивается важность дальнейших исследований и исследований в этой важнейшей области исследований.

**Ключевые слова:** Кибербуллинг, права человека, цифровые технологии, буллинг.

To put it simply, when it comes to the law and cyberbullying, we're talking about many activities that are prohibited online (Asam & Samara, 2016). This includes harassing others online, revealing personal information about them without their consent, or saying terrible things about them based on their race, religion, or other factors (Asam & Samara, 2016). In this respect, the study of cyberbullying and human rights during the digital age in Azerbaijan will contribute to the respective research. In this paper, cyberbullying, and its relation to human rights are researched. The key terms are cyberbullying, digital technology, and human rights. There is different research related to cyberbullying and human rights (Asam & Samara, 2016; Butler, 2018; Elizondo, 2020; Schonfeld & Leventhal, 2020). In this paper, the author focuses on the complex relationship between the legal framework and the pervasive issue of cyberbullying in the digital realm.

### Bridging the Digital Divide: Legal Insights into Tackling Cyberbullying

Cyberbullying, much like conventional bullying, is commonly understood as a situation where someone repeatedly takes advantage of a perceived or actual power imbalance with the intent to inflict harm (Butler, 2018). Cyberbullying can seriously impact human rights in the digital age in many countries. In this research, I will talk about the case of Azerbaijan. It affects human rights which are included in the Constitution of Azerbaijan those "Freedom of Expression", "Right to Privacy", "Right to Equality", "Right to Dignity" etc. Cyberbullying often involves degrading or humiliating comments, images, or videos (UNICEF, 2018). This infringes upon an individual's right to dignity and can have severe psychological and emotional consequences (Elizondo, 2020). On the other hand, it can have a chilling effect on freedom of expression. Individuals may refrain from expressing their opinions online out of fear of harassment, which restricts their ability to exercise their right to free speech. This crime often involves invading an individual's privacy, such as publicly sharing personal information or private photos (Schonfeld & Leventhal, 2020). This infringes upon the right to privacy, which is a fundamental human right. It can also target specific groups or individuals based on their race, religion, gender, or other protected characteristics. This constitutes discrimination and goes against the principle of equality.

### Navigating Cyberbullying in Azerbaijani Jurisdiction

In Azerbaijan, as in many other countries, there are laws and regulations in place to address cyberbullying and protect individuals' rights in the digital sphere. However, it's important to note that the effectiveness of these laws and their enforcement can vary widely. In Azerbaijan, there is a Law on "Information, Informatization, and Protection of Information" which covers various aspects of information technology, including the use of the Internet. It contains provisions related to cybercrimes, including cyberbullying. In "Criminal Code", includes sections or articles that pertain to cybercrimes, including those related to online harassment or cyberbullying. Penalties for such offenses involve fines, imprisonment, or other punitive measures. For kids' safety laws that protect kids might also say something about cyberbullying, especially if children are involved. By signing and ratifying the "Budapest Convention", Azerbaijan has committed to aligning its domestic legislation and law enforcement practices with the provisions of the convention. Some key aspects of the convention include provisions on the protection of

data and privacy in the context of cybercrime investigations and prosecutions, enactment laws that criminalize various forms of cybercrime, including computer systems-related offenses, content-related offenses, and offenses related to infringements of copyright, and related rights (GFCE, 2017).

**Strengthening the Shield: Enhancing Human Rights Protections in the Face of Cyberbullying**

Regulations must adapt to the constantly evolving landscape of internet activities to make a real impact. Furthermore, to combat cyberbullying effectively, cooperation between law enforcement and the websites we use is necessary. Preventing cyberbullying from the outset also hinges on people grasping the importance of appropriate online conduct and ethics. Combating cyberbullying should encompass a blend of legal actions, educational initiatives, awareness campaigns, and a support system for victims. Moreover, it's imperative to foster a culture of digital politeness and responsible online behavior to address cyberbullying and uphold digital rights in today's era. It's worth noting that the cyberbullying landscape can change, and our response must adapt accordingly. Combating cyberbullying should involve a mix of legal measures, education, awareness drives, and victim support. Furthermore, creating an atmosphere of digital civility and respectful online behavior is vital in reducing cyberbullying instances in Azerbaijan and safeguarding individuals from its detrimental consequences. By doing these things, we can make the internet a safer and kinder place for everyone in Azerbaijan.

**References:**


1. Asam, A., & Samara, M. (2016, August 29). *Cyberbullying and the law: A review of psychological and legal challenges*. Computers in Human Behavior. https://www.sciencedirect.com/science/article/abs/pii/S0747563216305775

2. Budapest Convention (2001). Convention on Cybercrime. https://www.coe.int/en/web/cybercrime/the-budapest-convention

3. Butler, D. (2018, January 5). *Cyberbullying and the law: Parameters for effective interventions?*. Reducing Cyberbullying in Schools. https://www.sciencedirect.com/science/article/abs/pii/B9780128114230000043

4. Constitution of the Republic of Azerbaijan (1995). https://www.wipo.int/edocs/lexdocs/laws/en/az/az017en.pdf

5. Criminal Code of the Republic of Azerbaijan (2000). http://www.wipo.int/edocs/lexdocs/laws/en/az/az017en.pdf

6. *Cyberbullying: What is it and how to stop it*. UNICEF Azerbaijan. (n.d.). https://www.unicef.org/azerbaijan/cyberbullying-what-it-and-how-stop-it

7. Elizondo, P. (2020, October 16). *Legal consequences of cyberbullying and Cyberstalking*. Journal of the American Academy of Child & Adolescent Psychiatry. https://www.sciencedirect.com/science/article/abs/pii/S0890856720306729

8. Global Forum on Cyber Expertise. *The Budapest Convention on Cybercrime: A Framework for Capacity Building*. (2016, December 7).https://thegfce.org/the-budapest-convention-on-cybercrime-a-framework-for-capacity-building/

9. Law of the Republic of Azerbaijan on “Information, informatization, and protection of information” (1998). https://www.e-gov.az/en/content/read/37

10. Law of the Republic of Azerbaijan on “Children’s Rights” (1998). https://e-qanun.az/framework/3292

11. Schonfeld, A.R., Leventhal, B.L. (2020, October 16). *Cyberbullying and related entities: How the internet has changed risk behaviors, and New Legal Consequences*. Journal of the American Academy of Child&Adolescent Psychiatry.https://www.sciencedirect.com/science/article/abs/pii/S0890856720306705

# EXAMINING NATIONAL BODIES IN VARIOUS COUNTRIES DEALING WITH INTELLECTUAL PROPERTY DISPUTES

**Gachayev Ramil Aghagulu**
**Swansea University**
**https://orcid.org/0000-0003-0965-0432**
**ramilgachay@gmail.com**

# ƏQLİ MÜLKİYYƏT MÜBAHİSƏLƏRİ İLƏ MƏŞĞUL OLAN BİR SIRA ÖLKƏLƏRİN MİLLİ QURUMLARININ ARAŞDIRILMASI

**Qaçayev Ramil Ağaqulu**
**Suonsi Universiteti**
**https://orcid.org/0000-0003-0965-0432**
**ramilgachay@gmail.com**

**Xülasə**

Bu araşdırma əqli mülkiyyət (ƏM) mübahisələrinin həlli ilə məşğul olan bir sıra ölkələrin orqanlarının təhlilini, müxtəlif ölkələrin bu cür mübahisələri həll etmək üçün istifadə etdiyi müxtəlif strategiyaları araşdırır. Tədqiqat ƏM-lə bağlı məsələlərin həllinə məsul olan səlahiyyətli orqanları və məhkəmələri təhlil etməklə, ƏM hüquqlarının müdafiəsini təmin edən ölkə ilə məhdudlaşdıran beynəlxalq ƏM hüququna xas olan ərazilik prinsipini bir daha təsdiqləyir. Tədqiqat postsovet, Latın Amerikası, Afrika, Kontinental Avropa, Şərqi və Cənubi Asiya və ümumi hüquq yurisdiksiyaları da daxil olmaqla müxtəlif regionları və hüquq sistemlərini təmsil edən iyirmi üç ölkəni əhatə edir. Araşdırma ƏM-lə bağlı mübahisələrin həllində onların müvafiq rollarını vurğulayaraq bu dövlət səlahiyyətli orqanlarının və milli məhkəmələrin siyahısını təqdim edir. Ölkələrin əksəriyyəti mübahisələrin məhkəməyə qədər həlli prosedurlarından istifadə etsə də, diqqətəlayiq haldır ki, bəzi dövlətlər ƏM ilə bağlı mübahisələrə birbaşa baxmaq üçün ekvivalent məhkəmə səlahiyyətinə malik tribunalları seçirlər. Nəticədə ərazilik prinsipinin əhəmiyyətini vurğulayaraq milli sistemlərin beynəlxalq normalara uyğunlaşdırılmasını və fərqli qanunvericilik bazalarının qlobal ƏM hüququ ilə inteqrasiyasını nümayiş etdirir.

**Açar sözlər:** Əqli mülkiyyət hüququ, ərazilik, əqli mülkiyyət hüquqları, beynəlxalq müqavilələr, müəlliflik hüququ, patent, əqli mülkiyyət üzrə məhkəmə, insan hüquqları, yurisdiksiya, mübahisələr, mübahisələrin həlli, hüquq sistemləri.

# ИССЛЕДОВАНИЕ НАЦИОНАЛЬНЫХ УЧРЕЖДЕНИЙ РЯДА СТРАН, ЗАНИМАЮЩИХСЯ СПОРАМИ В ОБЛАСТИ ИНТЕЛЛЕКТУАЛЬНОЙ СОБСТВЕННОСТИ

**Гачаев Рамиль Агагулу**
**Университет Суонси**
**https://orcid.org/0000-0003-0965-0432**
**ramilgachay@gmail.com**

**Резюме**

В этом исследовании представлен анализ национальных органов различных стран, участвующих в разрешении споров в области интеллектуальной собственности (ИС), и исследуются различные стратегии, используемые разными странами для рассмотрения и разрешения таких споров. Анализируя уполномоченные

государством органы и суды, ответственные за рассмотрение вопросов ИС, исследование вновь подтверждает принцип территориальности, присущий международному праву ИС, который ограничивает охрану прав ИС страной предоставления. Исследование охватывает двадцать три страны, представляющие различные регионы и правовые системы, в том числе постсоветские, латиноамериканские, африканские, континентально-европейские, восточно - и южноазиатские, а также юрисдикции общего права. В обзоре представлен список этих уполномоченных государством органов и национальных судов с указанием их соответствующих ролей в разрешении споров в области ИС. Хотя в большинстве стран используются досудебные процедуры разрешения споров, следует отметить, что некоторые страны выбирают трибуналы с эквивалентными судебными полномочиями для непосредственного рассмотрения споров в области ИС. Выводы иллюстрируют соответствие национальных систем международным нормам и интеграцию национальных правовых систем с глобальным законодательством в области ИС, подчеркивая важность принципа территориальности.

**Ключевые слова**: Право интеллектуальной собственности, территориальность, права интеллектуальной собственности, международные договоры, авторское право, патент, суд по интеллектуальным правам, права человека, юрисдикция, споры, разрешение споров, правовые системы.

Intellectual property law generally follows the principle of territoriality, meaning that the protection of IP rights is typically limited to the country in which the rights are granted. This means that IP rights are granted and enforced on a country-by-country basis, and the laws and regulations governing IP rights may differ from one country to another. There are, however, international treaties and organizations that provide a framework for the protection and enforcement of IP rights on a global scale. These treaties establish minimum standards for the protection of IP rights and provide a mechanism for countries to cooperate in the enforcement of those rights. For example, a work of authorship that is first published in a member state of the Union is given national treatment abroad under the Berne Convention. Copyrights in a particular work that are protected in different Union member states are independent of one another and must be upheld in each state separately. Teruo Doi opines that '[t]he copyright in a given country cannot be infringed upon outside of its territory, and, therefore, a choice of law issue does not usually arise in copyright infringement cases.'[1] The patent authority performs the examination independently in the country where an application is lodged and an examination is sought, and patents issued there are distinct from those issued elsewhere and cannot be violated there.[2] Since territoriality is a notion recognised by international intellectual property law rules, it is not the goal of this survey to take into consideration the legal systems of particular states. Additionally, there is no international court for intellectual property rights whose establishment would allow governments to name such a court as the highest authority for reviewing intellectual property issues, similar to how, for example, in the case of human rights and freedoms, the European Court of Human Rights can rule on cases that have already been decided in nation states. When a matter reaches the cassation stage or, in rare instances, when the Constitutional Court is asked to weigh in, intellectual property problems are considered on the merits and a definitive ruling that cannot be appealed is adopted. In exceptional instances, the evaluation of intellectual property concerns may extend outside the purview of national courts, for instance, if they include human rights (for example, they are relevant to Protocol 1 of the European Convention on Human Rights).[3] International courts can only consider those intellectual property rights that were acquired in a specific country since there is no centralised registration system. In accordance with national law, states control intellectual property, and IP disputes are decided by national courts with consideration of international treaties.

It is possible to view intellectual property rights from multiple perspectives: they can be viewed as property rights as well as human rights in this context, as well as investments in the context of bilateral investment agreements. The violation of intellectual property rights can be viewed from various angles in

criminal law or administrative law. Such disparities in perception create a tangle of issues, and when disputes or violations develop, totally different standards must be followed, and the jurisdiction of the courts shift. Some courts may consider intellectual property rights to be human rights, and the European Court of Human Rights may become the last arbiter in such cases (for member countries). IP rights may be seen as an investment in specific instances, and they will be evaluated in an international investment tribunal. During the pre-trial phase, disputes are frequently reviewed first by the organisation that grants the relevant intellectual property rights or by another authorised body. Furthermore, since every nation has a distinct set of judicial institutions, disputes may always be resolved in national courts. The list of national organisations with the power to settle intellectual property issues will be shown below and will include governing bodies from Latin America, Europe, the former Soviet Union, countries in Africa and Asia, as well as those nations with common law systems. This analysis looks at the IP dispute resolution bodies in twenty-three different countries: Azerbaijan, Georgia, Belarus, Ukraine, Uzbekistan, Kazakhstan, Estonia, the United Kingdom, the United States, Canada, Australia, Namibia, Uganda, Ethiopia, Germany, Denmark, Switzerland, Japan, China, India, Mexico, Brazil, and Costa Rica are among the nations involved. The particular countries chosen for this study were selected in order to cover a wide range of geographic regions and legal systems, as well as to ensure the availability of regulatory resources in languages that were easily accessible to make this analysis. Geographically, the countries chosen to represent a diverse range of regions and this allows for a comparison of the approaches taken by different countries in different parts of the world, and helps to provide a more comprehensive understanding of the ways in which different legal systems address intellectual property disputes. The variety of legal systems makes it possible to compare the strategies used by other nations and highlights any similarities or variations in how these systems handle IP issues. Finally, the availability of regulatory resources in languages such as English, Russian, and Azerbaijani was also a consideration in the selection of these countries. The choice of these particular nations was made based on a number of criteria, including geography, legal systems, and the availability of regulatory materials in languages that were usable for this survey.

Authority for judicial dispute resolution as well as those for out-of-court dispute settlement may be included on the list, and they may also serve as registration authorities. This survey will serve as demonstration of the authority of national organisations and courts to resolve intellectual property disputes and concerns, as well as the significance of the territoriality principle. Through this survey, it is intended to draw attention to the variety of approaches that various nations adopt to the examination of IP issues, as well as the various roles and authority held by the organisations that adjudicate these disputes. The principle of territoriality of international IP law, which stipulates that a particular country's laws only apply inside its borders, is intended to be reaffirmed or at the very least explicitly observed by taking into account the distinct viewpoints of each state. Overall, this analysis has aim to provide insights into the ways in which different countries address and resolve disputes related to intellectual property.

**References:**

1. ECHR, 'Guide on Article 1 of Protocol No. 1 to the European Convention on Human Rights: Protection of property' <https://www.echr.coe.int/Documents/Guide_Art_1_Protocol _1_eng.pdf>

2. Doi T, 'The territoriality principle of patent protection and conflict of laws: a review of the Japanese court decisions' (2003) 26 Fordham international law journal 377.

# İNZİBATİ HÜQUQDA İNZİBATİ MÜQAVİLƏ İNSTİTUTUNUN AKTUALLIĞI MƏSƏLƏSİ

**Qənbərova Zeynab İlham**
**Bakı Dövlət Universiteti**
**https://orcid.org/0009-0000-3864-9102**
**zeynabqanbarova@gmail.com**

# THE ISSUE OF RELEVANCE OF THE INSTITUTION OF ADMINISTRATIVE CONTRACT IN ADMINISTRATIVE LAW

**Zeynab Ganbarova Ilham**
**Baku State University**
**https://orcid.org/0009-0000-3864-9102**
**zeynabqanbarova@gmail.com**

**Summary**

The purpose of this report is to touch on the importance of administrative contracts, which are the actual, at the same time controversial institutes of administrative law in the world experience, to emphasize the need to examine administrative contracts as a result of the reforms carried out in the administrative law legislation after gaining independence in our country. In the research, it was emphasized that the administrative contract is one of the forms of activity of the administrative body, and briefly was touched on its essence, the difference of the other type of contracts of administrative body, and the dimensions of determination according to the world experience. The changing legislative situation makes it necessary to determine the legal regime of administrative contracts, its forms and types, and the dimensions that distinguish the administrative contracts of administrative body from civil legal contracts of administrative body.

**Keywords:** administrative contract, administrative body, civil legal contract, criterion

# ВОПРОС О АКТУАЛЬНОСЬТИ АДМИНИСТРАТИВНО-КОНТРАКТНОГО ИНСТИТУТА В АДМИНИСТРАТИВНОМ ПРАВЕ

**Ганбарова Зейнаб Ильхам**
**Бакинский Государственный Университет**
**https://orcid.org/0009-0000-3864-9102**
**zeynabqanbarova@gmail.com**

**Резюме**

Цель настоящего исследования - обратить внимание на значение административных договоров, актуального и в то же время противоречивого института административного права, в мировом опыте и подчеркнуть необходимость изучения административных договоров в результате реформ, проводимых в административно-правовом законодательстве нашей страны после обретения независимости. В исследовании подчеркивается, что административный договор является одной из форм деятельности административного органа, кратко излагается его сущность, отличие от других договоров административного органа и аспекты его определения на основе мирового опыта. В связи с изменением правовой ситуации возникает необходимость определения правового режима, форм и видов административных договоров, а также признаков, отличающих их от гражданско-правовых договоров административного органа.

**Ключевые слова:** административный договор, административный орган, гражданско-правовой договор, критерии.

İnzibati müqavilə institutunu Azərbaycan inzibati hüquq qanunvericiliyində nisbətən yeni sahə hesab etmək olar. Müstəqillikdən öncəki dövr inzibati hüquq qanunvericiliyində inzibati müqavilələrin əhəmiyyəti kifayət qədər nəzərə alınmır, müstəqil hüquq institutu kimi mahiyyəti və formaları barədə nəzəriyyədə müxtəlif fikir ayrılıqları mövcud idi (Əliyev, 2016). Bu isə təbii məsələ idi. Həmin dövrdə inzibati hüquq qanunvericiliyi repressiv xarakter daşıyır, inzibati ədliyyə sistemi isə yox idi. Müstəqillik qazanıldıqdan sonra hüquq islahatlarının həyata keçirilməsi, bunun davamı kimi "İnzibati icraat haqqında" Azərbaycan Respublikasının Qanununun, "İnzibati Prosessual Məcəllə"nin qəbul edilməsi, ardınca inzibati məhkəmə sisteminin yaradılması inzibati hüquqa yeni baxış formalaşdırdı. Qeyd edilən qanunvericilik aktlarının qəbul edilməsi ilə inzibati orqanların dəqiq dairəsi, onların fəaliyyətinin formaları müəyyən olundu, inzibati məhkəmədə hansı iddiaların qaldırıla biləcəyi qanunvericilik səviyyəsində tənzimləndi. Məhz bu baxımdan hesab edirik ki, inzibati orqanların fəaliyyət formalarından biri kimi inzibati müqavilələrin əhəmiyyəti qeyd edilən dəyişikliklər və yeniliklərdən sonra, xüsusilə inzibati məhkəmə sisteminin formalaşmasından sonra daha da artmışdır. Həmçinin son dövrlərdə "Publik hüquqi şəxslər haqqında" Azərbaycan Respublikasının Qanununun qəbulu ilə dövlətin ictimai əhəmiyyət daşıyan bir sıra funksiyalarının həmin hüquqi şəxslərə ötürülməsi, 9 dekabr 2022-ci il tarixində "Dövlət-özəl tərəfdaşlığı haqqında" Azərbaycan Respublikasının Qanununun qəbulu ilə ölkə miqyasında dövlət və xüsusi hüququn subyektləri arasında bağlanan müqavilələrin çoxalmasına dəlalət edəcək ki, bu da inzibati orqanın müqavilələrinin dəqiq bir sisteminin formalaşmasını, onların əlamətlərinin müəyyən olunmasını zəruri edir.

İnzibati müqavilənin mahiyyətinə toxunaraq qeyd etməliyik ki, xarici ölkələrin və ölkəmizin inzibati hüquq təcrübəsində inzibati orqanların elə fəaliyyətinə rast gəlinir ki, həmin faəliyyətlər inzibati orqanın inzibati aktları, onların faktiki xarakterli fəaliyyəti ilə deyil, inzibati orqanın müqavilələri ilə tənzimlənir. İnzibati orqan fəaliyyət göstərərkən müxtəlif çeşiddə mal və xidmətlərə ehtiyacı yarana bilər. Bu kimi situasiyalarda inzibati orqanın bu ehtiyaclarını təktərəfli məcburi qərarlar vasitəsilə ödəməsi insan hüquq və azadlıqlarının məhdudlaşdırılması kimi tövsif edilə bilər (Mehdiyev, 2010).

İnzibati orqanın bağladığı müqavilələr tabe olduğu hüquqi rejim baxımından "inzibati orqanın mülki hüquqi müqavilələri" və "inzibati müqavilələri" olaraq qruplaşdırılır. Bu iki qrup bir-birindən fərqli mənalar daşımaqla yanaşı, onu deməyə əsas verir ki, inzibati orqanın bağladığı hər bir müqavilə inzibati müqavilə deyildir. Məhz inzibati orqanın inzibati hüquq qaydalarına əsasən bağladığı, həmçinin bu tipli müqavilələrdən doğan mübahisələrin inzibati məhkəmələrdə baxıldığı müqavilələrə inzibati müqavilə deyilir (Gözler, 2020) (Günday, 2004) (Odyakmaz, 1998). Rusiya hüquq nəzəriyyəsində bununla bağlı qeyd edilir ki, müqaviləni sadəcə inzibati orqanın bağlaması ona inzibati müqavilə statusu qazandırmır. Bu zaman alqı-satqı tipli müqavilələrin adi xüsusi hüquqi müqavilə olması fikri irəli sürülür (Бельский, Козлов, Колибаба, 2000). Bu halda inzibati orqanın mülki hüquqi müqavilələri mülki hüquq qaydalarına əsasən bağlanılır və bu tipli müqavilələrdən doğan mübahisələr ümumi məhkəmələrdə baxılır.

İnzibati müqavilə birbaşa olaraq inzibati hüququn təməl prinsiplərindən olan "ictimai xidmət" anlayışı ilə əlaqəlidir. Bu mənada inzibati orqan ictimai xidmətləri yerinə yetirərkən əsasən təktərəfli inzibati aktlar qəbul etməsinə rəğmən, təktərəfli inzibati aktlar hər zaman inzibati orqanın ictimai xidmətləri yerinə yetirərkən lazım olan hərəkət qabiliyyətliliyinə malik olmur və nəticə olaraq inzibati orqan inzibati aktları ilə yanaşı müqavilələr də bağlamalı olur. İnzibati müqavilələr ictimai xidmət anlayışının dəyişərək yayılması nəticəsində inzibati hüquq sisteminə daxil olmuş, zamanla mahiyyətini dəyişmiş və inzibati hüququn əhəmiyyətli hissələrindən birinə çevrilmişdir (Onar, 1966). Belə ki, inzibati hüququn əsas qavramlarından olan "ictimai xidmət" qloballaşma, artan nüfuz və dəyişən ehtiyaclar nəticəsində öz əvvəlki mənasını

əhəmiyyətli dərəcədə itirmiş, klassik mənadan uzaqlaşaraq özəl sektorun da daxil olduğu bir termin halına gəlmişdir. Nəticədə dövlətin öz vəzifələrini ədalət, müdafiə kimi təməl ictimai xidmətlərə endirməsinə, ictimai xidmət əhəmiyyəti daşıyan funksiyalarının bir hissəsinin özəl sektora ötürülməsinə səbəb olmuşdur. (Kesici, 2009) Ölkəmizdə bu dəyişən tendensiyaya "Publik hüquqi şəxslər haqqında" Azərbaycan Respublikasının Qanununu nümunə göstərə bilərik.

İnzibati müqavilə institutu ilk dəfə 19-cu əsrdə Fransa hüququnda istifadə edilməyə başlanılmışdır (Ayhan, 1979). Bu konsepsiyanın yaranmasında və inkişafında Fransa Dövlət Şurasının prezidentləri böyük rol oynamışdır. İnzibati müqavilə daha sonra İngiltərə, İtaliya və Avstraliya kimi bəzi ölkələr tərəfindən mənimsənilmişdir (Keskin, 2008). İnzibati müqavilələrlə bağlı ən inkişaf etmiş yanaşma və nəzəriyyələr də elə məhz Fransadadır. Fransız inzibati hüquq ədəbiyyatında inzibati müqavilələrin ictimai maraq naminə tərəflərin qeyri-bərabərliyi, müqavilə şərtlərini dəyişmək hüququnun publik hakimiyyət daşıyıcısına verilməsi, öhdəliklərin icra olunmamasına görə xüsusi hüququn subyektinə əlavə tədbirlərin tətbiq oluna bilməsi, müqavilə şərtlərinin bir tərəfli qaydada dəyişdirilə bilməsi kimi ölçüləri və əlamətləri müəyyən olunmuşdur (De Laubadere, André, De Moderne, Franck, Delvolve Pierre, 1983).

Türkiyə inzibati hüquq qanunvericiliyi və nəzəriyyəsində də inzibati müqavilələrə dair yanaşma Fransadakı yanaşma ilə oxşardır. Türk inzibati hüquq ədəbiyyatında inzibati müqavilənin mülki müqavilədən fərqləndirilməsinin əsasən iki meyarı qəbul olunur. Bunlar *tərəflərə görə* və *maddi* meyardır. Tərəflərə görə meyar o əsasla aparılır ki, inzibati müqavilə tərəflərindən biri mütləq publik hakimiyyət daşıyıcılığına malik olmalıdır (Tank, 2011). Maddi fərqləndirmə meyarına müqavilənin məzmunu ilə bağlı amillər aiddir. Bunların ictimai maraqlarla bağlı olmasını, müqavilədə xüsusi hüququ aşan (bir tərəfin üstünlüyü) bəndlərin ehtiva olunmasını, xüsusi hüquqdan üstün hüquqi rejimin mövcudluğunu qeyd etmək olar.

Göründüyü kimi, xarici dövlətlərin qanunvericiliyində və hüquq ədəbiyyatlarında inzibati müqavilələrin müəyyən edilməsinin müəyyən ölçüləri vardır. Onların ayrı-ayrı növləri təcrübədə istifadə edilir, nəzəri ədəbiyyatlarda araşdırılır. Hesab edirik ki, ölkəmizin inzibati hüquq qanunvericiliyində inzibati müqavilələrin əlamətlərinin və ölçülərinin müəyyən edilməsinə, onun növlərinə, mülki hüquqi müqavilələrdən ayıran əsas əlamətləri ilə bağlı araşdırmaların aparılmasına zərurət vardır. Yaxın zamanlarda "Dövlət-özəl tərəfdaşlıq haqqında" Azərbaycan Respublikasının Qanununun qəbul edilməsi də inzibati orqanın müqavilələrinin ayrı-ayrılıqda əlamət və növlərinin müəyyən edilməsini tələb edir. Bununla artıq müəyyən ediləcək ki, inzibati orqanın daxil olduğu hansı müqavilə münasibətləri bu qanunla tənzimlənir. Buna uyğun olaraq inzibati orqanın müqavilələri ilə bağlı xarici dövlətlərin təcrübəsi nəzərə alınmaqla qanunvericilik səviyyəsində sistemli araşdırılma aparılmasına, İnzibati Prosessual məcəlləyə əlavə və dəyişikliklər edilməsinə zərurət vardır.

**Ədəbiyyat:**


1. Ayhan, Ö. (1979). İdari sözleşmeler. *Danıştay Dergisi*, *32/33,* 93-105.

2. De Laubadere, André, De Moderne, Franck, Delvolve Pierre. (1983). *Traité des contrats administratifs.* LGDJ.

3. Əliyev, S. (2016). *İnzibati hüquq. Dərslik.* Bakı Universiteti.

4. Gözler, K. (2020). *İdare hukuk dersleri*. Erkin Kitabevi Yayınları.

5. Günday, M. (2004). *İdare hukuku*. İmaj Yayınevi.

6. Keskin, B. (2008) *Kamu hizmetinin görülmesine ilişkin sözleşmelerde uluslararası tahkim*. Arıkan yayımcılık.

7. Kesici, F.S. (2009). *İdari sözleşmelerin türleri, kapsamı ve yargısal denetimi.* [Yayınlanmayan yüksek lisans tezi]. İstanbul Universiteti Sosial Bilimler Enstitüsü.

8. Mehdiyev, F. (2010). *İnzibati hüquq. Dərs vəsaiti*. Qafqaz Universiteti Yayınları
9. Onar, S.S. (1966). *İdare hukukunun umumi esasları*. C.III. İsmail Akgün Matbaası.
10. Odyakmaz, Z. (1998). Genel olaraq idarenin sözleşmeleri. *Gazi Üniversitesi Hukuk Fakültesi Dergisi*, *2/1-2*, 141-195
11. Tank, M. (2011). Yargı kararları işığında idari sözleşme kriterleri. *Türkiye Adalet Akademisi Dergisi*, *4*, 509-542.
12. Бельский К.С., Козлов Ю.М., Колибаба Г.Н. (2000). *Административное право.* Юрист.

# AZƏRBAYCAN AİLƏSİNDƏ ƏR-ARVAD MÜNASİBƏTLƏRİNDƏ ETİKET QAYDALARI

**Sarıyeva İlahə Şahin**
**Bakı Dövlət Universiteti**
**https://orcid.org/0009-0003-5040-6826**
**sarıyevailahe74@gmail.com**

# RULES OF ETIQUETTE IN HUSBAND-WIFE RELATIONS IN AZERBAIJAN FAMILY

**Sariyeva Ilaha Sahin**
**Baku State University**
**https://orcid.org/0009-0003-5040-6826**
**sarıyevailahe74@gmail.com**

**Summary**

The article is devoted to one of the urgent problems of the Azerbaijani society - the ethical features of relations between young families. The study substantiates the relevance of the topic, reveals the scientific novelty, notes the theoretical and practical significance of the formation of family relations, ethical features and factors influencing the formation of young families in the family environment, analyzes issues affecting the formation of relations factors in the family environment. At the same time, the socio-cognitive and socio-perceptual formation of the characteristics of relationships in young families is considered. The influence of a young family on the development of a child's personality, on parent-child relations is studied, gender aspects in family relations are taken into account. At the end, the results of the research work were summed up and it was shown that the attitude of young people to family life changed both positively and negatively.

**Keywords:** family, society, intra-family relations, husband and wife, monogamy.

# ПРАВИЛА ЭТИКЕТА В ОТНОШЕНИЯХ МУЖА И ЖЕНЫ В АЗЕРБАЙДЖАНСКОЙ СЕМЬЕ

**Сариева Илаха Шахин**
**Бакинский государственный университет**
**https://orcid.org/0009-0003-5040-6826**
**sarıyevailahe74@gmail.com**

**Резюме**

Статья посвящена одной из актуальных проблем азербайджанского общества - этическим особенностям отношений между молодыми семьями. Следует отметить, что данная тема находится в центре внимания как психологов, социологов, так и историков. Здесь, во-первых, обосновывается актуальность темы, анализируется научная новизна, отмечается теоретическая и практическая значимость формирования семейных отношений, этические особенности и факторы, влияющие на формирование молодых семей в семейной среде, а также вопросы анализируются факторы, влияющие на формирование взаимоотношений в семейной среде. Затем рассматривается социально-когнитивное и социально-перцептивное формирование особенностей взаимоотношений в молодых семьях. В молодых семьях изучается влияние супружеских отношений на развитие личности ребенка, на детско-родительские отношения, учитываются гендерные аспекты в семейных отношениях. В статье представлены рекомендации по правильному определению правил этикета в отношениях мужа и жены. В конце были подведены итоги исследовательской работы, показано, что отношение молодежи к семейной жизни менялось как в положительную, так и в отрицательную сторону.

**Ключевые слова:** семья, общество, внутрисемейные отношения, муж и жена, моногамия.

Azərbaycan ailəsində həmişə yaşlı nəsillərin müdrikliyi gənc nəslin mənəvi dünyasını saf saxlamaq üçün real imkanlardan biri hesab edilib. Məhz valideynlər övladlarını gələcək məsuliyyətli həyata məqsədyönlü şəkildə hazırlayır, onları evlilik həyatının etikası və etiketi ilə tanış edirlər. Gənclər ailədaxili münasibətləri qaranlıq xiyabanlarda "maarifçi" həmyaşıdlarından, yararsız filmlərin qəhrəmanlarından deyil, ailə, hörmət və sevgi metafizikasının sirlərini ailədən - nənənin (babanın), ananın (atanın) ağıllı, ülvi kəlamlarından öyrənirlər.

Ailə cəmiyyətin kiçik bir vahididir. Ailə həyatının ab-havası, ev təsərrüfatları arasında münasibətlərin təşkili həmişə mədəniyyətin inkişaf etdirdiyi cəmiyyətdə fərdin davranış norma və qaydalarına əsaslanır. Şifahi ünsiyyət üçün sosial tələblər, gündəlik həyat etiketinin qanunları, xarici görünüş dizaynının imperativləri, masa arxasında davranış mədəniyyətinin rəsmiyyətləri və konvensiyaları və s. ailədəki bir insanın davranışına eyni dərəcədə və qəti şəkildə tətbiq olunur. Eyni zamanda, ailə həyatı mədəniyyətində etiket, qohumluq əlaqələri ilə əlaqəli insanlar arasında münasibətləri tənzimləyən bir sıra xüsusi tələbləri və qaydaları müəyyən edir. Pis davranışlar sevgini boğur, xırda və xırda şeylər, diqqətə layiq olmayan həyat problemləri taleyüklü problemlərə çevrilir və birlikdə yaşamaq xəyal qırıqlığı və uğursuzluqlar zəncirinə çevrilir.

Mədəniyyət və mədəniyyətsizlik ailə həyatının iki əks sahilidir: ər-arvad arasında ilkin olaraq qurulmuş münasibətlər - incə və ya kobud, yaxın və ya laqeyd - ər-arvadın ruhunda müvafiq hisslər doğurur, bu da toplanaraq ya yaxşılığa aparır və ya da məyusluğa. Xırda problemlərin həlli üçün fiziki və mənəvi qüvvələrdən istifadə edilərsə, ruh real deyil, xəyali pisliyi dəf etməyə, bir-birinə qarşı axmaq qarşıdurmaya, boşqabların və ya digər vasitələrin köməyi ilə sonsuz hesablaşmalara sərf olunur, o zaman ər-arvad özlərini inkişaf etdirmək, ailə ocağında istilik və harmoniya saxlamaq üçün hər hansı bir fürsətdən istifadə edirlər.

Respublikamızın həyatında baş verən sürətli dəyişikliklər, beynəlxalq əlaqələrin getdikcə dərinləşməsi, sosial-iqtisadi sahədə qazanılan nailiyyətlər bir tərəfdən cəmiyyətin əsas təsisatlarından olan ailə institutunu möhkəmləndirir, digər tərəfdən isə ailədaxili münasibətlərin yeni prinsiplər üzərində qurulmasına zəmin yaradır. Lakin özünün müsbət cəhətləri ilə yanaşı, dəyişikliklər və inteqrasiya prosesi yeni dəyərləri də cəmiyyətə transformasiya edir. Dəyərlərin dəyişməsinə hazır olmayan və ya adaptasiya prosesi zəif olan gənc ailələrdə istər-istəməz münasibətlər sistemində neqativ hallar özünü göstərir, konfliktlər ortaya çıxır. Belə bir şəraitdə gənc ailələrdə qarşılıqlı münasibətlərin xarakterində əmələ gələn etik münasibətlərin tədqiqi həm cəmiyyət üçün, həm də ailə üçün mühüm əhəmiyyət kəsb edir. "Qafqazın dilbər guşəsində yerləşən Azərbaycan elə bir məmləkətdir ki, təbiət gözəlliyi, səxavəti, bolluğu bu

torpaqdan əskik etməyib. Bu zənginlik təkcə təbiətin özündə deyil, eyni zamanda insanların yaşam tərzində də özünü göstərir. Xüsusən ailə məişəti məsələlərində bu daha qabarıq şəkildə özünü büruzə verir. Belə ki, oxşar mahiyyət daşıyan ailə adətləri ilə yanaşı, müxtəlif bölgələrimizdə ailə məişəti ilə bağlı icrası bir qədər fərqli olan adət və ənənələrin mövcudluğu böyük maraq doğurur. Əsrlərdən bəri süzülüb gələn və əhali tərəfindən həvəslə icra olunan, onların məişətinin bir parçası kimi uzun müddət hifz olunaraq qorunub saxlanan o qədər mütərəqqi mahiyyət daşıyan adət və ənənələrimiz vardır ki… Zaman-zaman unutmuşuq, bəzən isə adi bir hal kimi qəbul etdiyimizdən fərqinə varmamışıq, biganə yanaşaraq arxa çıxmamışıq mənəvi sərvətlərimizə. Lakin unutmamalıyıq ki, keçmişimizə xor baxa bilmərik, çünki o, tariximizin bir parçasıdır. Bir də yaddan çıxarmamalıyıq ki, xalqın tarixi təkcə onun hadisələrlə dolu inkişaf mərhələlərində deyil, həmçinin bu günümüzə gəlib çatan adət və ənənələrində də yaşayır. Bu məmləkətdə uzun əsrlər boyu müxtəlif dilə və dinə mənsub olan əhali qaynayıb-qarışmış və bərabər şərtlər əsasında həyatlarını sürdürmüşlər" (Bünyadova, 2012). Bütün bunları nəzərə alıb "Azərbaycan ailəsində ər-arvad münasibətlərinin etik qaydaları" mövzusunun tədqiqat obyekti kimi seçilməsini məqsədəuyğun hesab etmişik.

Respublikamızda problemlə bağlı bir sıra tədqiqat işləri həyata keçirilmişdir. Belə ki, ilk ailə dərsliyi professor Ə.Ə.Əlizadə və A.N.Abbasovun müəllifliyi ilə ərsəyə gəlmişdir. Bundan başqa ailə problemlərinə aid çoxsaylı dissertasiyalar və elmi əsərlər yazılmışdır. Bu sahədə Ə.Əlizadə, Ə.Bayramov, B.Əliyev, H.Əlizadə, A.Abbasov, K.Əliyeva, R.Qədirova, R.İbrahimbəyova, R.Əliyev, L.Suleymanova, L.Əliyeva, İ.Allahverdiyeva, A.Seydulla, K.Şiriyeva, S.Xəlilova, S.Əliyeva və başqalarının tədqiqatları movcuddur. Bu tədqiqatlarda ailənin mahiyyəti, funksiyaları, konfliktlərin aradan qaldırılması yolları, ailədə uşaqların valideynlərlə münasibəti, ailə dəyərləri və s. məsələlər öz əksini tapmışdır. Mövzunun tarixi baxımdan öyrənilməsi isə Ş.Bünyadovanın adı ilə bağlıdır. Tədqiqatçı müasir ailə münasibətlərinin tarixi köklərinin öyrənilməsinin vacibliyini əsas götürərək "Orta əsr Azərbaycan ailəsi" əsərində ətraflı şəkildə təhlil etmişdir.

Tədqiqatın metodoloji əsasını, cəmiyyətin, dövlətin və şəxsiyyətin inkişafının obyektiv və dialektik qanunauyğunluqları, elmi və təcrübi materialların ümumiləşdirilməsi, tarixi və sistemli yanaşma və tarixilik metod prinsipi təşkil edir. İşin metodoloji əsasında ictimai və humanitar elmlərin, o cümlədən müasir elmi metodları dayanır.

Ailə unikaldır. Onun orijinallığı ondadır ki, bir yaşayış məkanında birdən-birə eyni dam altında iki tamamilə fərqli insan, bir-birindən nəinki fizioloji, həm də intellektual inkişaf baxımından şüuruna, sosial statusuna və müxtəlif etnik-mədəni və ya dini ənənələrə mənsubiyyətinə görə fərqlənən iki fərd birdən-birə görüşüb birlikdə yaşamağa başlayır. Fərqli insanlar, fərqli xarakterlər, fərqli ruhlar, amma yollar və talelər eyni olmalıdır... Hər kəsin öz məziyyətləri və qüsurları, fəzilətləri və pislikləri var. Zəriflik, bir-birinə hörmət, həssaslıq, qarşılıqlı anlaşma - bütün bunlar Azərbaycanda ailə münasibətləri mədəniyyətinin əsasını təşkil edir.

Ş.Bünyadova ailəyə belə bir tərif verir: "Ailə - insanların qrup halında həyatının başlanğıc formasıdır ki, burada cəmiyyətdə yaşamaq bacarığı formalaşır" (Bünyadova, 2022)

Xoşbəxt ailə həyatının sirləri insanlar kimi unikaldır və uğurlu evlilik hər ikisinin (həm kişi, həm də qadın) eyni dərəcədə məsuliyyət daşıdığı gündəlik, saatlıq və hər dəqiqə böyük bir işdir. Təhsilli həyat yoldaşları, ezamiyyətə yola düşərək, evdə gözləyənləri həmişə xatırlayacaqlar və onlar üçün narahat olacaqlar: ailə etiket qaydalarına uyğun olaraq, qalan ailə üzvlərinə zəng etməli, teleqramlar göndərməli və özünüz haqqında məlumat verməlisiniz (insan üçün heç bir yük yoxdur. Uzun səfərlərdən və səyahətlərdən həyat yoldaşları həmişə "ikinci yarısına" hədiyyələr və suvenirlər gətirirlər. Həyat yoldaşları, şübhəsiz ki, yazışmaların sirrinə hörmət edirlər: başqalarının məktublarını oxumaq, ərin cibində və ya arvadın çantasında qeydlər axtarmaq qəti qadağandır. Etiket qaydalarına əsasən, ər-arvad qohumlarından,

tanışlarından, dostlarından və qız yoldaşlarından gələn məktublar barədə bir-birlərinə məlumat verməlidirlər. Yaxşı tərbiyə olunan həyat yoldaşları, bir qayda olaraq, müxtəlif tədbirlərdə (konsertlər, vernisajlar, təqdimatlar) birlikdə iştirak edirlər, həmişə birlikdə ziyafətə gedirlər (həmkarların toplaşdığı tədbirlərə (mükafat almaq, dissertasiya müdafiə etmək və s.) dəvətlər istisna olmaqla).

Etiket həmçinin tövsiyə edir ki, evə qonaq dəvət etməzdən əvvəl həmişə həyat yoldaşınızla məsləhətləşin, hətta onlar yaxın dost olsalar belə: əks halda ailə üzvlərini narahat vəziyyətə sala bilərsiniz. Ailə münasibətlərində etiket, evlilik həyatının kəskin künclərini keçməyə kömək edən bir vasitədir və onun tələblərinin yerinə yetirilməsi "yaxşı həyat yoldaşı" və "yaxşı ər" imicinin formalaşmasına kömək edir. Xalq müdrikliyi obrazlı şəkildə lakonik və emosional ifadəli formada əsl qadın, müəllim, diplomat və gözəl xanım ideyasını bir şəxsdə ifadə edirdi: "Arvad yaxşıdırsa, cənnət lazım deyil, əgər arvad pisdir, onda cəhənnəm lazım deyil".

Müasir Azərbaycan cəmiyyətinin ən ciddi problemlərindən biri erkən evlilikdir. Erkən yaşlarında baş verən evlənmə hallarına ənənəvi, qapalı və inkişaf etməmiş ölkələrdə tez-tez rast gəlinir. Bu prinsip tarixin müəyyən zamanında uğurlu olsa belə lakin mədəni və sosial inkişafdan sonra cəmiyyət üçün bir sıra problemlər yaratmaqdadır. Çünki, cismi və mənəvi cəhətdən yetkinliyin olmaması, uşaqları tərbiyə etmək üçün hazırlığın olmaması, sosial və iqtisadi məsuliyyəti qəbul etməyə hazır olmamaq, ata, ana və həyat yoldaşı kimi ağır məsuliyyəti qəbul etməyə hazır olmamaq təkcə onların ziyan çəkməsinə səbəb olmur, eyni zamanda ailə dayaqlarının sarsılmasına gətirib çıxarır və cəmiyyətdə neqativ halların yaranmasına səbəb olur. Azərbaycan Respublikasının qanunvericiliyinə görə nikaha daxil olmanın minimal (aşağı) yaş həddi kişilər və qadınlar üçün 18 yaş müəyyən edilmişdir. Qeyd edək ki, dünyanın inkişaf etmiş ölkələrində də qanunvericiliyə əsasən 18 yaşı tamam olmuş gənclərə nikaha daxil olmağa icazə verilir. Azərbaycan Respublikasında nikaha daxil olmanın minimal yaş həddi 19 may 1999-cu il tarixində qəbul edilmiş "Uşaq hüquqları haqqında" Qanunda göstərilmişdir. Bu hədd müəyyən edildikdə Uşaq Hüquqları Konvensiyası rəhbər tutulmuşdur.

Müasir dövrdə nikah münasibətlərinin normallaşdırılması və fərdin ailə həyatı mədəniyyəti ilə tanış olması üçün xüsusi tövsiyələr işləyib hazırlamışıq: özünüzə və başqalarına hörmət edin, onun (o) ən yaxın olduğunu unutmayın sizin üçün bir şəxs, övladlarınızın atası (anası); səhvləri və şikayətləri toplamamağa çalışın, ancaq dərhal cavab verin onlara: mənfi emosiyaların yığılmasının qarşısını alacaq; başqalarının yanında bir-birinizə irad bildirməyin (uşaqlar, tanışlar, qonaqlar və s.); diqqətli olun, həyat yoldaşınızı eşidə və dinləyə bilərsiniz (y), qıcıqlanmaya qıcıqla cavab verməməyə çalışın, etməyin, səsinizi qaldırın, qışqırmayın (zəiflərin qisməti budur); uzaqgörən düzlük unutmayın ani zəfərdir, ən yaxşı yol diplomatiyadır; öz qabiliyyətlərinizi və fəzilətlərinizi şişirtməyin; özünü həmişə və hər şeydə düzgün hesab etmə; həyat yoldaşınızın hobbilərinə maraq və hörmətlə yanaşın; heç vaxt həyat yoldaşının aşkar çatışmazlıqlarını belə ümumiləşdirməyin (və) yalnız müəyyən bir vəziyyətdə xüsusi davranış haqqında danışın; heç vaxt ümumiləşdirməyin ("sən həmişə belə edirsən"), keçmiş şikayətləri xatırlamadan yalnız fikir ayrılığı mövzusu, konkret bir iş haqqında danışın; etiketlər yapışdırmayın ("sən eqoistsən", "sən sahibə deyilsən" və s.), üçüncü şəxslərin fikrinə istinad etməyin; bir-birinizə daha çox etibar edin və qısqanclığı minimuma endirin, ailə həyatında bəzən həqiqəti hər vasitə ilə bərqərar etməyə çalışmaqdansa, bütün həqiqəti bilməmək daha yaxşıdır; mübahisədən və ya münaqişədən sonra valideynlər, dostlar ilə gecələmək üçün ayrılmayın, valideynlərinizə tələsik şikayət etməyin: onlar, bir qayda olaraq, uşaqlarının çətinliklərinə və ailə münaqişələrinə ağrılı reaksiya verirlər; ən azı bəzən bir-birindən ara vermək üçün vaxt tapmağa çalışın: bu, ünsiyyətlə emosional və psixoloji həddən artıq doymağı aradan qaldırmağa kömək edəcək; nöqsanlardan qaçın və həyat yoldaşınızın susqunluğundan travma almasına imkan verməyin; boşanmaq qərarına gəlsəniz və ya artıq boşanmısınızsa, keçmiş həyat yoldaşınızla münaqişələrdən qaçmağa çalışın: problemləri sivil şəkildə

həll edin və dostluq münasibətlərini qoruyun; uşağınızı heç vaxt keçmiş həyat yoldaşınıza qarşı qoymayın, şəxsi problemləri uşağın həyatından ayırın; uşağınızı sevmək və ona yaxşılıq arzulamaq, heç vaxt unutmayın: "Atanın (ananın) övladları üçün edə biləcəyi ən çox şey, anasını (atasını) sevmək və hörmət etməkdir".

Yaxşı davranışın olmaması, insanlar arasında ünsiyyətdə elementar nəzakət, davranış mədəniyyətinin olmaması - bu, təəssüf ki, günümüzün reallığıdır. Cəmiyyət bu gün həyatın bütün sahələrində asayişi bərpa etməyə çalışır. Aparılan islahatların uğuru daha çox mənəvi şəxsiyyətdən, onun həyatda tutduğu mövqedən, ədəb-ərkandan, məsuliyyətdən asılı olacaq. Mənəvi insan intellekt cəhətdən inkişaf etmiş, mənəvi cəhətdən sağlam, estetik cəhətdən maariflənmiş, mürəkkəb müasir dünyada yol almağı bacaran, həqiqəti səhvdən, xeyiri şərdən, gözəlliyi çirkindən, əbədi və keçici olanı birmənalı şəkildə ayırd etməyi bacaran mədəniyyətli insandır. Bu gün ruhani insandan çox şey tələb olunur, o cümlədən ünsiyyət bacarığı və gözəl davranış.

Müasir dünyada dövlətlərarası, mədəniyyətlərarası, millətlərarası ünsiyyət sferasının genişlənməsi prosesi, şəxsiyyətlərarası və işgüzar əlaqələrin intensivləşməsi cəmiyyətimizdə etiketə sosial və mədəni tələbatı artırmışdır. Bu gün "dünyəvilik", "yaxşı rəftar qaydaları", "gözəl davranış", "etiket" sadəcə "etiket" deyil, ilk növbədə, sivil, mədəni, təkcə öz taleyi üçün deyil, həm də cəmiyyətin gələcəyi üçün böyük məsuliyyət daşıyan tərbiyəli insan. Azərbaycanın getdikcə daha fəal iştirakçıya çevrildiyi bir dövrdə şəxsiyyətlərarası və işgüzar əlaqələrin intensivləşməsi cəmiyyətimizdə etiketə sosial və mədəni ehtiyacı artırdı.

**Ədəbiyyat**:

1.Bünyadova Ş. Orta əsr Azərbaycan ailəsi. Bakı: Elm, 2012, 385 s.

2.Bünyadova Ş. Ailə anlayışı və amilləri https://azkurs.org/sirin-bunyadova-movzu-aile-anlays-ve-amilleri.html

3.Əlizadə H.Ə. Sosial pedaqogikanın aktual problemləri. Bakı: Səda, 1998, 342 s.

4.Hüseynzadə R.L. Ailə Pedaqogikası. Bakı, 2016, 320 s.

# İQTİSADİYYAT VƏ İDARƏETMƏ BÖLMƏSİ

## DAVAMLI İNKİŞAF KONSEPSİYASININ YAŞIL İQTİSADİYYATDA ROLU


**Fərid Abbaszadə Xaliq**
**İqtisadiyyat İnstitutu**
**https://orcid.org/0009-0007-6786-171X**
**fabbaszada2019@gmail.com**


## THE ROLE OF SUSTAINABLE DEVELOPMENT CONCEPT IN GREEN ECONOMY


**Abbaszada Farid Xalig**
**İnstitute of Economics**
**https://orcid.org/0009-0007-6786-171X**
**fabbaszada2019@gmail.com**



**Summary**

One of today's actual development concepts is the concept of "Sustainable Development". This concept is defined as a concept that measures and realizes the development potential in the globalized world, such as resource management, environmental protection, and the provision of human rights. The Concept of Sustainable Development in itself reveals how important role environmental and social factors play in today's economic paradigm. This concept proves that conventional economic growth leads to serious problems such as depletion of natural resources, environmental degradation and social inequalities. Therefore, the Concept of Sustainable Development is one of the cornerstones of the green economy. As a way out, the Concept of Sustainable Development in terms of environmental protection recommends sustainable use of natural resources. This aims to prevent the depletion of forests, water resources and mines. It also helps reduce air and water pollution and improve energy efficiency. Combating climate change is another important component underlying this concept. Using renewable energy sources instead of fossil fuels and reducing carbon emissions are the main goals of the green economy. In terms of social justice, the "Sustainable Development Concept" aims to reduce social inequalities and injustices. This includes protecting workers' rights and ensuring fair working conditions in workplaces. In addition, the expansion of equitable education and health services aims to increase access to economic opportunities and the well-being of all segments of society.



**Keywords:** Green Economy, Green economy and sustainable development, sustainable development concept, green economy concept


## РОЛЬ КОНЦЕПЦИИ УСТОЙЧИВОГО РАЗВИТИЯ В ЗЕЛЕНОЙ ЭКОНОМИКЕ


**Фарид Аббасзаде Халик**
**Экономический институт**
**https://orcid.org/0009-0007-6786-171X**
**fabbaszada2019@gmail.com**



**Резюме**

Одной из актуальных на сегодняшний день концепций развития является концепция «Устойчивого развития». Эта концепция определяется как концепция, которая измеряет и реализует потенциал развития в глобализированном мире, такой как управление ресурсами, защита окружающей среды и обеспечение прав

человека. Концепция устойчивого развития сама по себе показывает, насколько важную роль экологические и социальные факторы играют в современной экономической парадигме. Эта концепция доказывает, что традиционный экономический рост приводит к серьезным проблемам, таким как истощение природных ресурсов, деградация окружающей среды и социальное неравенство. Поэтому концепция устойчивого развития является одним из краеугольных камней зеленой экономики. В качестве выхода из положения Концепция устойчивого развития в части охраны окружающей среды рекомендует устойчивое использование природных ресурсов. Это направлено на предотвращение истощения лесов, водных ресурсов и шахт. Это также помогает снизить загрязнение воздуха и воды и повысить энергоэффективность. Борьба с изменением климата является еще одним важным компонентом, лежащим в основе этой концепции. Использование возобновляемых источников энергии вместо ископаемого топлива и сокращение выбросов углекислого газа являются основными целями зеленой экономики. Что касается социальной справедливости, «Концепция устойчивого развития» направлена на сокращение социального неравенства и несправедливости. Это включает в себя защиту прав работников и обеспечение справедливых условий труда на рабочих местах. Кроме того, расширение справедливого образования и медицинских услуг направлено на расширение доступа к экономическим возможностям и благосостоянию всех слоев общества.

**Ключевые слова:** Зеленая экономика, Зеленая экономика и устойчивое развитие, концепция устойчивого развития, концепция зеленой экономики

Klassik iqtisadi nəzəriyyəyə görə, iqtisadiyyatın avtomatik olaraq görünməz bir əllə tarazlaşacağı proqnozlaşdırılır. Bu səbəbdən təbii sərvətlərin öz-özünə yenilənəcəyi (özünü tənzimləyən) və buna görə də tükənməyəcəyi fərziyyəsi uzun illər təbii ehtiyatlardan istifadənin, həmçinin ətraf mühitin çirklənməsinin diqqətdən kənarda qalmasına səbəb olmuşdur. Bu kimi faktorlar, ekoloji problemləri təkbaşına həll etmək və dayanıqlı inkişaf strategiyası hazırlamağı əngəlləyib.

Lakin son dövrlərdə qlobal istiləşmənin Yer səthinin və okeanların temperaturuna təsirilə canlı təbiətə və ümumiyyətlə insanlara mənfi təsirlərinin müşahidə olunması təbiətin mühafizəsinin önəmini vurğulayır.

Tarixi tendensiyalardan bizə məlumdur ki, inkişaf etməmiş və inkişaf etməkdə olan ölkələrdə əhalinin artımı problemi beynəlxalq səviyyədə yoxsulluğun artması, eləcə də imkanların qeyri-bərabərliyi, qeyri-məhdud resurs istehlakı və resursların bölüşdürülməsi kimi amilləri əhatə edən yeni yanaşma ilə həll edilməlidir.

Davamlı İnkişaf Konsepsiyası yaşıl iqtisadiyyatın fundamental ideyalarını formalaşdırır və ekoloji sosial davamlılığı iqtisadiyyatın mərkəzinə gətirir. Bu yanaşma iqtisadi artımın ekoloji resursların tükənməsi və sosial bərabərsizliyin artması təhlükəsi ilə üzləşdiyi bir vaxtda daha dayanıqlı və möhkəm gələcəyə nail olmağın açarı hesab olunur.

Əgər konsepsiya olaraq, davamlı inkişafı təmin edən sistem kimi baxarsaq, **yaşıl iqtisadiyyat ideyası ilə nəzarətsiz iqtisadi** artımın yaratdığı mənfi xarici təsirlər və bunun təbii nəticəsi olan ekoloji problemlər arasındakı yaranan əlaqəni azaltmaq, hətta aradan qaldırmaq məqsədi daşıyır. Bəs, Davamlı inkişaf və yaşıl iqtisadiyyat anlayışları hansılardır? Bu anlayışları necə fərqləndirmək olar? Davamlı inkişaf və yaşıl iqtisadiyyat ekoloji və sosial amilləri iqtisadi artım və insan rifahı ilə balanslaşdırmağa yönəlmiş iki mühüm anlayışdır:

Davamlı İnkişaf:

Davamlı inkişaf gələcək nəsillərin ehtiyaclarını da nəzərə alaraq bu günün tələblərini ödəmək prinsipinə əsaslanan yanaşmadır. Bu konsepsiya ekoloji, iqtisadi və sosial ölçüləri ehtiva edir və bu üç ölçünün balanslaşdırılmış şəkildə həll edilməsinin vacibliyini vurğulayır. Davamlı inkişafın əsas məqsədi təbii sərvətlərdən davamlı şəkildə istifadə etmək, ətraf mühitin deqradasiyasının qarşısını almaq, sosial bərabərsizliyi azaltmaq və insanların rifahını yüksəltməkdir. Davamlı inkişaf və yaşıl iqtisadiyyat ətraf mühitin sərvətlərinin qorunması, ətraf mühitin çirklənməsinin azaldılması, təbii həyatın davam etdirilməsi

və insanların həyat keyfiyyətinin yüksəldilməsi üçün birlikdə işləyir. Bu iki anlayış ekoloji və sosial məsuliyyətləri iqtisadi artımla birləşdirməyi və gələcək nəsillərə daha yaxşı bir dünya buraxmağı hədəfləyir.

Yaşıl İqtisadiyyat:

Yaşıl iqtisadiyyat ekoloji cəhətdən təmiz və davamlı istehsal və istehlakı təşviq edən iqtisadi modelə istinad edir. Yaşıl iqtisadiyyat iqtisadi artımı ətraf mühitin davamlılığı ilə uyğunlaşdırmağı hədəfləyir. Buraya qalıq yanacaqların bərpa olunan enerji mənbələri ilə əvəz edilməsi, enerji səmərəliliyinin artırılması, tullantıların idarə edilməsi və dövri iqtisadiyyat təcrübələri daxil ola bilər. Yaşıl iqtisadiyyat həm də iş imkanları yaratmağı və ekoloji xərcləri azaltmağı hədəfləyir.

Bu iki anlayışı sistemli olaraq cəmiyyətin rifah və dayanıqlı tarazlıq konsepsiyası kimi öyrənmək üçün, davamlı inkişaf və yaşıl iqtisadiyyat arasındakı əlaqəni necə müəyyənləşdirə bilərik?

Birinci olaraq burada əsas rol oynayan, ekoloji davamlılıq və iqtisadi inkişaf arasındakı əlaqənin müəyyənləşdirilməsidir.Yaşıl iqtisadiyyat ekoloji cəhətdən təmiz istehsal və istehlak təcrübələrini təşviq edir. Bunun məqsədi təbii ehtiyatlardan davamlı şəkildə istifadə etmək və ətraf mühitin deqradasiyasını azaltmaqdır. Davamlı inkişaf təbii sərvətlərə qorunub saxlanılmalı və gələcək nəsillərə qalmalı bir miras kimi baxır. Bu baxımdan yaşıl iqtisadiyyat davamlı inkişaf məqsədlərinə dəstək verir. Yaşıl iqtisadiyyat iş yerlərinin yaradılması və sosial rifahın yüksəldilməsi məqsədi daşıyır. Bu, davamlı inkişafın sosial ədalət ölçüsünə töhfə verir. Burada, davamlı inkişaf sosial bərabərsizlikləri azaltmaq və insanların həyat keyfiyyətini yaxşılaşdırmaq məqsədi daşıyır. Yaşıl iqtisadiyyat sosial məsuliyyətləri iqtisadi artımla birləşdirməyin bir yoludur.

İkinci olaraq, sosial siyasət və rifahla olan əlaqəni öyrənmək lazımdır. Yaşıl iqtisadiyyat siyasəti və təcrübələri davamlı inkişaf məqsədlərinə nail olmaq üçün hazırlanır. Məsələn, bərpa olunan enerji mənbələrinin təşviqi və ya enerji səmərəliliyi proqramlarının həyata keçirilməsi bu məqsədlərə çatmaqda mühüm rol oynayır. Geniş mənada, yaşıl iqtisadiyyat siyasətləri iqtisadi artımı ətraf mühitin davamlılığı və sosial ədalətlə uyğunlaşdırmaq məqsədi daşıyır. Bu siyasətlər davamlı inkişaf məqsədlərini dəstəkləyir və onları praktikada gücləndirir (Özçağ və Hotunluoğlu, 2015, 315).

Bütün olaraq, davamlı inkişaf və yaşıl iqtisadiyyat arasındakı əlaqə iqtisadi artımı ətraf mühit və sosial məsuliyyətlərlə balanslaşdırmağın bir yolu kimi görünür. Bu iki konsepsiya iqtisadi fəaliyyətlərin ətraf mühitin qorunmasını, təbii ehtiyatlardan davamlı şəkildə istifadə edilməsini, sosial bərabərsizliyin azaldılmasını və insanların həyat keyfiyyətinin yaxşılaşdırılmasını təmin etmək məqsədi daşıyır. Birgə işləyərək, gələcək nəsillərə daha davamlı dünya buraxmaq məqsədini gücləndirirlər.

Yaşıl iqtisadiyyat siyasətinin davamlı inkişaf məqsədlərinə töhfəsi nədir? Müxtəlif ölkələrdən müxtəlif tədqiqatçıların ən çox araşdırdığı suallardan biri olan bu sual müxtəlif qaynaqlarda fərqli olaraq cavablandırıla bilir. Yaşıl iqtisadiyyat anlayışı mal və xidmətlərin istehsalı, bölüşdürülməsi və istehlakı sisteminin yenidən qurulmasıdır. Uzunmüddətli perspektivdə bu sistem insanların həyat keyfiyyətini yaxşılaşdırmaq, sosial bərabərliyi artırmaq, ekoloji riskləri azaltmaq və ekoloji qıtlığı azaltmaq məqsədi daşıyır. Bu kontekstdə iqtisadi artıma nail olmaq üçün resurslardan istifadə və ətraf mühitin bir-birindən təsirlənməməsi üçün qlobal siyasi islahatların aparılması və həyata keçirilməsi zəruridir.

Yaşıl iqtisadiyyata keçiddə bir çox sektorda xeyli sayda yaşıl iş yerləri, nəhəng külək turbinlərinin qurulması, nəqliyyat sektorunda elektrik və hibrid nəqliyyat vasitələrinin istehsalı və kənd təsərrüfatı sektorunda orqanik məhsullar istehsal olunur. Sadaladığımız faktorlar, yaşıl iqtisadiyyat və davamlı inkişaf konsepsiyasının birgə fəaliyyətinin vacibliyini göstərən amillərdir (Guliyev M.Y.).

Bu mövzuda cavablandırılması əsas olan suallardan biri də məhz yaşıl iqtisadiyyatın ekoloji töhfələrinin öyrənilməsidir. "Yaşıl iqtisadiyyat təcrübələrinin ekoloji davamlılığa və sosial ədalətə təsiri nədir? Bu suala cavab olaraq ilk öncə onu qeyd etmək lazımdır ki, "Davamlı İnkişaf və Yaşıl İqtisadiyyat"dan

danışarkən, xüsusilə, 1970-ci illərdən başlayaraq ekoloji problemlərin həllinə dair müzakirələrin əsas mövzusu davamlılıq və iqtisadi nəzəriyyənin vacibliyidir (Harborth, 1991).

Davamlı və intensiv inkişaf siyasətləri öz yerini daha humanist və tolerant olaraq xarakterizə edilə bilən davamlı inkişaf siyasətlərinə verməyə başlamışdır.

Son illərdə yaşanan ətraf mühit və iqlimlə bağlı neqativlər klassik iqtisadi nəzəriyyələrin artıq təkbaşına kafi olmadığını ortaya qoydu. Bu çatışmazlığın ekoloji iqtisadiyyat kimi ifadə edilən yanaşmalarla aradan qaldırıla biləcəyi düşünülür. Ekoloji iqtisadiyyat iqtisadiyyatın və ekosistemin qarşılıqlı asılılığını araşdıran elmi tədqiqatın transdisiplinar sahəsi kimi ifadə edilə bilər.

Neo-klassik iqtisadiyyat, iqtisadi sistem təbii və digər sosial sistemlərdən ayrı hesab olunur. Təbii kapital istehsal prosesində effektiv olan əsas vəsait mənbəyi olsa da, lazımi əhəmiyyəti almamışdır. Bu yanaşmaya əsasən, səmərəli qiymət sistemi ilə iqtisadi inkişafı reallaşdırmaq mümkündür. Ancaq bu vəziyyət bir tərəfdən texniki inkişafı təşviq etsə də, qıtlıq problemini də özü ilə gətirir.

Texniki inkişaf təbii maddələrin dəyişdirilməsini və təkrar emalını asanlaşdırmaqla istehlakı azalda bilər. Təbiət kapitalına yenidən sərmayə qoymaq yaşıl iqtisadiyyata nail olmaq üçün mühüm addımdır. Müəssisələrin fəaliyyət göstərdiyi təbii mühitin bioloji ehtiyatlarının təmiri, dəstəklənməsi və genişləndirilməsi fəaliyyətlərinə investisiyalar kimi ifadə edilə bilər. Əvvəllər onun təsiri hiss olunmasa da, dünyanın indiki təbii şəraiti nəzərə alınmaqla, deqradasiyaya uğramış ekosistemin istehsala və məsrəflərə mənfi təsir göstərməsi qaçılmaz idi. Bundan əlavə, cəmiyyətin bu mövzuda məlumatlılığının artması nəticəsində ətraf mühitlə bağlı öhdəlikləri baxımından bizneslərin necə qəbul edildiyinin satışlara və şirkətin bazar dəyərinə təsiri bir çox tədqiqatlarda elmi cəhətdən sübut edilmişdir.

Müasir cəmiyyətlərin iqtisadi baxışını əks etdirən klassik modeldə fərdlərin alıcılıq qabiliyyətinin artırılması ümumi milli məhsulu (ÜDM) artırır. Bu, məhdudiyyətsiz istehsal və istehlaka əsaslanır. Bu baxımdan iqtisadi inkişafın məqsədi artan əhaliyə daha çox mal və xidmət göstərməklə insanların həyat səviyyəsini yüksəltməkdir. İnsanın həyat səviyyəsini yüksəltmək məqsədi ilə edilən bu qeyri-məhdud istehsalda resursların sürətli və plansız istehlakı gələcək nəsillərin inkişafı üçün lazım olan investisiyaların da qarşısını alır.

Neo-klassik iqtisadçılar iqtisadi artıma, daha çox mənfəətə və qlobal şirkətlərin iqtisadi hegemonluğuna yanaşmaları müdafiə edirlər. Əslində, neo-klassik iqtisadiyyatla mənim yaşıl iqtisadiyyat yanaşmam arasındakı problem uzunmüddətli yanaşmadır.

Qısamüddətli qazanclar, davamlı innovasiyalar və bazarda rəqabətədavamlı olmaq anlayışı gələcək nəsillərə buraxdığımız dəyəri əhəmiyyətsiz etdi. Yaşıl iqtisadiyyatı məhv etmədən təbii ehtiyatların gələcək nəsillərə ötürülməsi yanaşması uzunmüddətli iqtisadi sistem kimi tanınır.

Bu gün dünyanın günü-gündən inkişaf etdiyi bir zamanda, resurslar və təbiət münasibətlərinin təhlükəsizliyi gələcək yaşamımız üçün çox vacibdir. Məhz bu prosesdə Davamlı İnkişaf konsepsiyası prosesi tənzimləyir.

Nəzərə alsaq ki, resurslar və onların əldə olunması təbiətlə bağlıdır, təbiətdən düzgün istifadənin burada daha böyük rol oynadığının şahidi ola bilərik. Bu hal, yaşıl iqtisadiyyat və davamlı inkişaf əlaqələrinin inkişaf etdirilməsi üçün əsas səbəblərdən birincisidir. Bu kimi məqamlar yaşıl iqtisadiyyatı sosial, iqtisadi və ekoloji inkişafın davamlılığını təmin edən mühüm alətə çevirir.

İqtisadi inkişaf və ətraf mühit arasında əlaqəyə yeni ölçü qatan yaşıl iqtisadiyyat siyasətinin ardınca getmək ciddi investisiyalar tələb edir. Ekoloji cəhətdən təmiz istehsal texnologiyalarından istifadəni təşviq etməklə, inkişaf etməmiş və inkişaf etməkdə olan ölkələrdə iqtisadi inkişaf ekoloji cəhətdən daha davamlı struktur əldə edə bilər.

Təbii sərvətləri qorumaq və inkişaf etdirmək, ətraf mühiti qorumaq, qida keyfiyyəti və sağlamlıq şərtlərinə uyğun gəlməyi hədəfləyən orqanik kənd təsərrüfatı, davamlı kənd təsərrüfatı üçün uyğun bir üsul olaraq görülür. Bu kontekstdə davamlı kənd təsərrüfatı və qida gələcək nəsillərin ehtiyaclarını təhlükəyə atmadan onlara cavab verən bir cəmiyyət yaratmaq baxımından son dərəcə əhəmiyyətli anlayışlardır.

Bu gün mövcud enerji artan əhalinin və inkişaf edən sənaye ehtiyaclarını ödəyə bilmir. Buna görə də enerji istehsalı və istehlakı arasında fərq sürətlə artır. Enerji ehtiyatlarının sürətlə tükəndiyini nəzərə alaraq, yaşıl enerji resurslarından istifadə təşviq edilməli və bu sahədə özəl sektor təşviq edilməlidir.

**Ədəbiyyat:**


1. Bozloğan, R. (2005). Sürdürülebilir Gelişme Düşüncesinin Tarihsel Arka Planı. Sosyal Siyaset Dulupçu, M.A. (2001). Sürdürülebilir Kalkınma Politikasına Yönelik Gelişmeler. Dış Ticaret Dergisi, 6(2), 46-70. Candemir, B. v.d. (2012). "İnşaat Sektöründe Sürdürülebilirlik: Yeşil Binalar ve Nanoteknoloji Stratejileri", İMSAD Yayın No: İMSAD-R/2012-11/37
2. Guliyev M.Y., The economic effect of the measures provided for by the Kyoto Protocol by region (as of the 2020s), Scientific Horizons, 2023, 26 (4), p.136-145 (həmmüəllifliklə Miller., Atakhanov A., Azizov T., Huseynova Kh.)
3. Harborth, Hans-Jürgen (1991), "The Debate About Sustainable Development: Starting Point for an Environment-Oriented International Development Policy", Economics, Vol. 44, p. 7-31.
4. Özçağ, Y. D. D. M. & Hotunluoğlu, Y. D. D. H. (2015). Kalkınma Anlayışında Yeni Bir Boyut: Yeşil Ekonomi Manisa Celal Bayar Üniversitesi Sosyal Bilimler Dergisi, 13 (2), 303-324. DOI: 10.18026/cbusos.85473Barlas, N. (2013).


## QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZUR İQTİSADİ RAYONLARININ İNKİŞAF İMPULSLARI


**Məhərrəmov Eldəniz Məzahir**
**Azərbaycan Kooperasiya Universiteti**
**https://orcid.org/0009-0003-2392-4812**
**emeherremov1979@gmail.com**


## DEVELOPMENT IMPULSES OF KARABAKH AND EAST ZANGEZUR ECONOMIC REGIONS


**Maharramov Eldaniz Mazahir**
**Azerbaijan Cooperation University**
**https://orcid.org/0009-0003-2392-4812**
**emeherremov1979@gmail.com**



**Summary**

The thesis considers ways to strengthen the economy of the Karabakh and East Zangezur economic regions. The role and importance of economic structure in the revival of lands liberated from occupation is given. The possibilities of restoring the traditional spheres of the economy in the region are considered. Attention is paid to the problems and prospects for the development of the agricultural sphere. The expediency of the effective use of tourist and recreational reserves and the general development of the tourism sector is noted. The importance of developing

and building the sectorial structure of the economy in order to accelerate the integration of the region into the country's economy is justified. Issues of construction of the destroyed cities of Agdam and Fizuli are touched upon. The formation and development of the cultural economy in the city of Shusha is revealed. Prospects for the development of livestock in East Zangezur are noted. The role of entrepreneurship development with the help of the "Economic Zone of the Araz Valley" is given. The importance of the Agdam Industrial Park in the creation of an agro-industrial complex in the region is revealed. A group of recommendations and proposals to strengthen the socio-economic development of the Karabakh and East Zangezur economic regions in the near future is given in the end of the article.

**Key words:** Karabakh, East Zangezur, Karabakh economic region, East Zangezur economic region, resource potential.

## ИМПУЛЬСЫ РАЗВИТИЯ КАРАБАХСКОГО И ВОСТОЧНОГО ЗАНГЕЗУРСКОГО ЭКОНОМИЧЕСКИХ РАЙОНОВ

**Магеррамов Эльдениз Мазахир**
**Азербайджанский Университет Кооперации**
**https://orcid.org/0009-0003-2392-4812**
**emeherremov1979@gmail.com**

**Резюме**

В тезисе рассмотрены пути усиления экономики Карабахского и Восточно-Зангезурского экономических районов. Дана роль и значение экономического строения в возрождении освобожденных от оккупации земель. Рассмотрены возможности восстановления традиционных сфер экономики в регионе. Обращено внимание на проблемы и перспективы развития аграрной сферы. Отмечена целесообразность эффективного использования туристическо-рекреационных запасов и в целом развития туристической сферы. Обоснована важность развития и построения отраслевой структуры экономики с целью ускорения интеграции региона в экономику страны. Затронуты вопросы строительства разрушенных городов Агдам и Физули. Раскрыто формирование и развитие экономики культуры в городе Шуша. Отмечены перспективы развития животноводства в Восточном Зангезуре. Дана роль развития предпринимательства с помощью «Экономическая зона Аразская долина». Раскрыта важность Агдамского промышленного парка в создании агропромышленного комплекса в регионе. Подготовлена группа рекомендаций и предложений по усилению социально-экономического развития Карабахского и Восточно-Зангезурского экономических районов в ближайшей перспективе.

**Ключевые слова:** Карабах, Восточный Зангезур, Карабахский экономический район, Восточно-Зангезурский экономический район, ресурсный потенциал.

Qeyd edək ki, işğaldan azad olunmuş ərazilərdə yeni yaradılmış iqtisadi rayonlarda – Qarabağ və Şərqi Zəngəzurda iqtisadiyyat quruculuğuna yanaşmalar maraq doğurur. Məsələn, aqrar sahənin inkişafında, kənd təsərrüfatının müxtəlif məhsullarının yetişdirilməsində və emalında əsas etibarı ilə yüksək texnologiyalardan və innovasiyalardan, o cümlədən "ağıllı" texnologiyalardan və idarəetmə sistemlərindən istifadəyə başlanılmışdır. Digər tərəfdən, aqrar sahənin müasir texnologiyalar və idarəetmə funksiyaları əsasında inkişafı, ölkəmizdə iqtisadi rayonların potensialının reallaşdırılmasında, regional iqtisadiyyat strukturunun diversifikasiyalaşdırılmasında, rəqabətqabiliyyətli məhsulların istehsal olunmasında önəmli rol oynayacaqdır. Bunlarla yanaşı, aqrar sahənin strukturunun optimal formalaşdırılması mühüm əhəmiyyət kəsb edir (Ataşov, B.X., 2017). Bu proseslər ölkənin iqtisadi rayonlarının sosial-iqtisadi inkişafının yeni çağırışlara adekvat olaraq təmin edilməsinə, əhalinin mühüm ərzaq məhsulları ilə tələbatının daha dolğun ödənilməsinə, ölkənin ərzaq və qida təhlükəsizliyi problemlərinin həllinə əlavə stimullar verəcəkdir.

Eyni zamanda, ölkə Prezidentinin 22 iyul 2022-ci il tarixli sərəncamı ilə "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası" təsdiq edilmişdir. Bu mühüm sənəddə ölkə iqtisadiyyatının prioritet və perspektivli sahələrindən biri kimi – aqrar sahənin inkişafı ilə bağlı başlıca hədəflərə çatmaq üçün tədbirlər kompleksi işlənilmiş və fəaliyyət strategiyası müəyyənləşdirilmişdir. Buna görə də hesab edirik ki, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının iqtisadiyyat quruculuğunda bu məsələlərə ciddi önəm veriləcəkdir (Əliyev, Ş.T., 2021).

Bunlarla bərabər, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının inkişaf strategiyasına müxtəlif səviyyələrdə regional, yerli, beynəlxalq və milli səviyyədə qısa, orta və uzunmüddətli fəaliyyətlər daxil ola bilər. Strategiyanın effektiv icrası üçün hökumətin monetar, fiskal, sosial, makroiqtisadi və digər siyasət alətlərindən istifadə mühüm önəm daşıyır. İnvestisiyaların tələb olunan səviyyədə cəlb edilməsi məqsədilə region əlverişli investisiya mühitinə, siyasi və iqtisadi sabitliyə və həm yerli, həm də xarici investorları cəlb edə biləcək mühüm coğrafi mövqeyə malik olmalıdır. Qarabağ bölgəsinin yenidən qurulmasına investisiyaların cəlb edilməsi üçün hökumət cəlbedici şərtlər təklif etməli, hüquqi prosesləri sadələşdirməli və qanunvericiliyə düzəlişlər etməlidir. İqtisadi siyasətin strateji idarəçiliyi çərçivəsində dövlət başçısının quruculuq göstərişi ilə Qarabağ bölgəsi yenidən ölkə həyatına inteqrasiya edəcək və inkişaf edəcəkdir.

Hazırkı şəraitdə müasir dövrdə Qarabağda və Şərqi Zəngəzur iqtisadi rayonlarında investisiya fəallığının artması bütün iqtisadi sahələrin inkişafı üçün əsas şərtdir (Jabbarov, A., Abbasova, S., Tanrıverdi, H., 2020). Hər iki iqtisadi rayonun inkişafı üçün strategiya qurmağın ən səmərəli yollarını təmin edəcək əsas investisiya dövlət investisiyalarıdır. İnvestisiyaların idarə edilməsində dövlət bir qrup funksiyaları yerinə yetirir: 1) investisiya bazarının mövcud vəziyyətini, investisiyaya milli tələbi nəzərə almaqla inkişafın proqnozlaşdırılması; 2) bütün ölkənin, eləcə də onun regionlarının inkişaf tendensiyalarını nəzərə almaqla investisiya siyasətinin strateji istiqamətlərinin hazırlanması; investisiya fəaliyyətlərinin monitorinqi və 3) bütün səviyyələrdə investisiya layihələrinin maliyyələşdirilməsinin dəstəklənməsi və tənzimlənməsi üçün konkret tədbirlərin görülməsi.

Hesab edirik ki, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında beynəlxalq və regional əhəmiyyətli nəqliyyat-logistika dəhlizlərinin bərpası ölkəmizin dünya bazarlarına çıxış imkanlarını genişləndirməklə bərabər, buradakı ərazilərin inkişafına mühüm təkan göstərəcəkdir. Bu iqtisadi rayonlarda yeni nəqliyyat-logistika strukturunun formalaşması, ilk növbədə, regionda tranzit potensialının inkişafını sürətləndirəcək və turizmin inkişafına əlavə imkanlar yaradacaqdır. Eyni zamanda, hər iki iqtisadi rayonun özünəməxsus xüsusi resursları və iqtisadi potensialı var ki, bu da ölkə iqtisadiyyatının qeyri-neft sektorlarında rəqabətqabiliyyətli istehsal sahələrinin yaradılmasının əsasına çevrilir və bununla da milli iqtisadiyyatın əhəmiyyətli şaxələndirilməsinə töhfə verilir. Bu ərazilər həm də mineral bulaqlar, təbii və balneoloji sərvətlər kimi əlverişli baza və ehtiyatlara malik turizm potensialı ilə də zəngindir, məhz bunların sayəsində iqtisadiyyatın məhsuldar sahələrinin yaradılması mümkündür. Qarabağda həm də sağlamlıq, istirahət və digər turizm növləri üçün böyük potensial mövcuddur və burada həmin turizm növlərinin inkişaf edəcəyini əminliklə demək olar. Füzulidə istifadəyə verilən beynəlxalq hava limanı artıq xarici qonaqların Şuşa və Qarabağın digər rayonlarına rahat gəlməsində önəmli rol oynamağa başlamışdır. Qarabağın turizm və iqtisadi potensialının həcmini nəzərə alsaq, istifadəyə verilən beynəlxalq hava limanının üstünlüklərini aydın görmək olar. Bu limanın və bölgədə salınacaq digər limanların coğrafi mövqeyinə görə beynəlxalq daşımalarda mühüm yeri olacaqdır. Qarabağ torpaqlarının dağ-mədən sənayesi üçün zəngin ehtiyatlara malik olduğunu nəzərə alsaq dəmir yolu nəqliyyatının bu ərazilər üçün böyük əhəmiyyəti vardır.

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının iqtisadiyyat quruculuğu müasir texnologiya və layihələrlə həyata keçirilir. Bölgədəki yaşayış məntəqələrində "ağıllı kənd", "ağıllı şəhər"lər yaradılır ki, bunların da ilkləri artıq Zəngilan rayonunun Ağalı kəndində istifadəyə verilmiş və keçmiş məcburi

köçkünlər öz doğma yurdlarına qayıtmağa başlamışlar. “Ağıllı kənd” və “ağıllı şəhər”lər özündə istehsal, “ağıllı kənd təsərrüfatı”, sosial xidmət, yaşayış, alternativ və bərpa olunan enerji sahələrini birləşdirir. “Ağıllı şəhər”lərdə insanların normal yaşayışı ənənəvi şəhərlərdə olduğu kimi nəqliyyat sahəsindən əsaslı surətdə asılıdır. Yeni qurulan şəhərlərdə ərazinin qədimliyi və tarixiliyi qorunmalıdır. “Ağıllı şəhər”lər böyük həcmdə informasiyanın təhlili və işlənməsini tələb edir ki, bu da regionda güclü rabitə və internet sisteminin qurulmasını zərurətə çevirir.

Bunlarla yanaşı, Qarabağda kənd təsərrüfatının inkişafının bir sıra ənənəvi məhsuldar və perspektivli sahələri - pambıqçılıq, taxılçılıq, heyvandarlıq, ipəkçilik və s. cəmləşmişdir. Ümumilikdə, taxılçılığın inkişaf etdirilməsi ölkəmizdə ərzaq təhlükəsizliyinin gücləndirilməsinə əlavə potensial formalaşdıra bilər (Quliyev, E.A., 2020). Eyni zamanda, iqtisadi rayonların yeni bölgüsü də Qarabağın mövcud iqtisadi potensialından daha səmərəli və məhsuldar istifadə etməyə imkan verəcəkdir. Qarabağ bir tərəfdən təbii resurs potensialının zənginliyi ilə, digər tərəfdən isə ən yüksək iqtisadi potensialı ilə seçilir (Nəbiyev, R. 2022).

Cədvəl 1-də işğaldan azad olunmuş ərazilərdə yaradılmış Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının 2015-2021-ci illər üzrə bir qrup sosial-iqtisadi göstəricilərinin dinamikası verilmişdir.

**Cədvəl 1**

**Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının 2015-2021-ci illər üzrə bir qrup sosial-iqtisadi göstəricilərinin dinamikası**

| Göstəricilər | 2015 | 2017 | 2018 | 2019 | 2020 | 2021 |
|---|---|---|---|---|---|---|
| **I. Qarabağ iqtisadi rayonu üzrə:** | | | | | | |
| Əhalinin sayı (ilin sonuna, min nəfər) | 868,9 | 885,9 | 893,0 | 900,3 | 904,5 | 907,9 |
| İqtisadi fəal əhalinin sayı, min nəfər | 399,1 | 411,3 | 415,1 | 418,0 | 422,0 | 427,3 |
| Məşğul əhalinin sayı, min nəfər | 379,2 | 391,4 | 394,9 | 398,2 | 392,0 | 402,4 |
| Əsas fondların istifadəyə verilməsi (min manat) | 183111,3 | 182235,1 | 183164,9 | 181829,6 | 174387,0 | 352518,7 |
| Fəaliyyət göstərən sənaye məhsullarının sayı, vahid | 63 | 65 | 71 | 74 | 78 | 85 |
| Sənaye məhsulunun (işlərin, xidmətlərin) dəyəri, faktiki qiymətlərlə, min manat | 44700,1 | 85859,7 | 97485,4 | 125602,5 | 114680,1 | 194776,3 |
| **II. Şərqi Zəngəzur iqtisadi rayonu üzrə:** | | | | | | |
| Əhalinin sayı (ilin sonuna, min nəfər) | 325,7 | 334,0 | 337,5 | 341,2 | 343,5 | 345,0 |
| İqtisadi fəal əhalinin sayı, min nəfər | 164,2 | 169,3 | 170,5 | 171,6 | 172,8 | 176,2 |
| Məşğul əhalinin sayı, min nəfər | 154,3 | 159,0 | 159,7 | 160,9 | 157,0 | 162,5 |
| Əsas fondların istifadəyə verilməsi (min manat) | 9,6 | 13025,5 | 9218,2 | 1520,4 | 14,8 | 18775,9 |
| Fəaliyyət göstərən sənaye məhsullarının sayı, vahid | 12 | 10 | 14 | 14 | 13 | 12 |
| Sənaye məhsulunun (işlərin, xidmətlərin) dəyəri, faktiki qiymətlərlə, min manat | 1205,2 | 4442,1 | 2822,5 | 2990,8 | 2543,0 | 7888,2 |

Mənbə: ARDSK-ın məlumatları əsasında hazırlanmışdır- https://www.stat.gov.az/menu/6/statistical_yearbooks/

Cədvəl 1-in təhlilindən yanaşsaq 2015-2021-ci illərdə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında əhali artımının dinamikası müsbət olaraq qalmışdır və eyni zamanda iqtisadi fəal əhalinin sayı artım nümayiş etdirir. Torpaqlarımız işğaldan azad olunduqdan sonra başlanılan geniş həcmli layihələrin reallaşdırılması, xüsusilə tikinti-quruculuq işlərinin genişləndirilməsi nəticəsində əsas fondların dəyəri sürətlə artmaqdadır. Məsələn 2021-ci ildə bu göstərici 2020-ci ilə nisbətdə Qarabağ iqtisadi rayonunda 2 dəfədən çox, Şərqi Zəngəzur iqtisadi rayonunda isə müqayisə olunmaz dərəcədə - 1252 dəfəyə yaxın artmışdır. Bu

amillər ümumilikdə sənaye məhsulunun, görülən işlərin və xidmətlərin dəyərinə də əhəmiyyətli təsir etmişdir. Analoji göstərici üzrə 2021-ci ildə 2020-ci ilə nisbətdə artım Qarabağ iqtisadi rayonunda 70 %-ə yaxın və Şərqi Zəngəzur iqtisadi rayonunda 3,1 dəfə təşkil etmişdir. 2022-ci ilin yekunu üzrə rəsmi statistika hələ nəşr olunmamışdır, amma faktiki olaraq görülən işlərin və reallaşdırılan layihələrin əsasında əminliklə deyə bilərik ki, bu iki iqtisadi rayonda sosial-iqtisadi göstəricilər daha intensiv olaraq artım nümayiş etdirmişdir.

Qeyd edək ki, Qarabağda ölkənin hərtərəfli iqtisadi inkişafı üçün geniş nəqliyyat şəbəkəsi yaradılır. Bu baxımdan bölgədə dəmir yollarının və müasir hava limanlarının tikintisi böyük önəm daşıyır, çünki bütün bunlar intensiv tərəqqi üçün stimuldur. Strateji nəqliyyat layihəsi və regional logistika xüsusi əhəmiyyət daşıyır. Qarabağ bölgəsinin iqtisadi potensialının səmərəliliyinin təmin edilməsi nəticəsində bütövlükdə ölkə iqtisadiyyatının artımı olacaqdır. Bunlarla bərabər, innovativ kənd təsərrüfatı modellərinin tətbiqi yolu təkcə bu ərazilərdə kənd təsərrüfatından əldə edilən gəlirlər milyard dollarla qiymətləndirilir. Filiz ehtiyatları üstünlük təşkil etməklə mədənçıxarma sənayesini və metallurgiyanı inkişaf etdirməklə Azərbaycan iqtisadiyyatına külli miqdarda gəlir gətirəcək. Təkcə Qarabağın deyil, Şərqi Zəngəzurun da dirçəldilməsi və inkişaf etdirilməsi də əsas prioritetlərdəndir. Şərqi Zəngəzur Cəbrayıl, Kəlbəcər, Laçın, Zəngilan, Qubadlı rayonlarını əhatə edir. Bu iqtisadi rayon sırf kənd təsərrüfatı rayonu olmaqla ölkənin mühüm heyvandarlıq bölgəsi olmuşdur. Qoyunçuluq, maldarlıq, arıçılıq əsas ixtisaslaşmış sahələr kimi formalaşmışdır. Meyvəçilik, tərəvəzçilik əsasən Qubadlı və Zəngilan rayonlarında inkişaf etmişdir. Odur ki, Şərqi Zəngəzurda heyvandarlıq təsərrüfatı yenidən qurulmalı, heyvandarlıq təsərrüfatının inkişafı üçün güzəştli kreditlər verilməli və sahibkarlıq subyektlərinin vergilərdən azad olunması məsələlərinə diqqət yetirilməlidir. Kəlbəcər rayonunun iqtisadiyyatının əsasını işğaldan əvvəl heyvandarlıq, üzümçülük və baramaçılıq təşkil edirdi. Son illər 60 min tondan yuxarı üzüm istehsal olunurdu. Kənd təsərrüfatında əsasən əkinçilik və heyvandarlıq inkişaf edib. Laçın rayonunun iqtisadi əsasını kənd təsərrüfatı, o cümlədən heyvandarlıq təşkil edib. İşğaldan sonra da maldarlıq, qoyunçuluq və arıçılıq təsərrüfatlarını yaratmaq və genişləndirmək hesabına həmin rayonu iqtisadi inkişafda aparıcı bölgələrdən birinə çevirmək olar. Bu ərazidə eyni zamanda xalq təbabəti üçün əvəzsiz sayılan dərman bitkiləri bitir ki, bu da gələcəkdə əlavə gəlir mənbəyinə çevrilə bilər. Qubadlı rayonunun iqtisadi əsasını əsasən baramaçılıq, taxılçılıq, üzümçülük, tütünçülük və heyvandarlıq təşkil edirdi.

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında sosial-iqtisadi inkişafın sürətləndirilməsində bu iqtisadi rayonlar üçün ənənəvi olan iqtisadiyyat sahələrinin, xüsusilə kənd təsərrüfatının və bütövlükdə aqrar sektorun mühüm istiqamətlərinin inkişafı və genişləndirilməsi perspektivləri diqqət çəkir. Hələ keçmiş SSRİ dövründə Qarabağda çoxlu sayda kənd təsərrüfatı məhsulları, ilk növbədə ərzaqlıq buğda, pambıq, üzüm yetişdirilirdi. Heyvandarlığın demək olar ki, bütün seqmentləri üzrə geniş fəaliyyət göstərilirdi. Xüsusilə, Kəlbəcər və Laçın rayonlarında heyvandarlığın, arıçılığın, tütünçülüyün inkişaf etdirilməsi üçün güclü potensial var idi və bu rayonlarda yaylaqların, təbii otlaqların mövcudluğu heyvandarlığın inkişafı üçün ciddi əsaslar verir. Eyni zamanda, üzümçülüyün, baramaçılığın inkişafı Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının iqtisadiyyat strukturunun formalaşmasında ciddi önəm kəsb etmək potensialına malikdir. Hazırkı şəraitdə, fikrimizcə, bu iqtisadi rayonlarda tikinti materialları sənayesinin güclü şəkildə inkişaf etdirilməsi zəruridir. Belə ki, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının sosial-iqtisadi inkişaf proseslərinin həyata keçirilməsində uzun illər geniş çeşiddə və həcmdə tikinti materialları tələb olunacaqdır. Buna görə də regionda mümkün olan ərazilərdə tikinti materialları sənayesinə mənsub olan müəssisələrin təşkil edilməsini vacib hesab edirik.

Yaxın və orta hədəflər nəzərə alınmaqla, Qarabağ və Şərqi Zəngəzurda iqtisadiyyat quruculuğunun gücləndirilməsi üçün bir sıra məsələlər diqqət çəkir:

• ilk növbədə, hər iki iqtisadi rayonun iqtisadiyyat quruculuğunun intensivləşdirilməsi tədbirlərinə zərurətin olduğunu qeyd edirik;

• hər iki iqtisadi rayonun dirçəliş prosesinin sürətləndirilməsi və sosial-iqtisadi inkişaf məqsədləri nəzərə alınmaqla, bu rayonlara investisiyaların cəlb edilməsinin zəruri mexanizmlərinin reallaşdırılması istiqamətində təsirli və səmərəli tədbirlərin görülməsi tələb olunur;

• Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının kənd təsərrüfatı və ümumilikdə aqrar sahənin imkanları, turizm və rekreasiya potensialı əsas götürülməklə, turizm-rekreasiya zonaları təşkil edilməsi, yüksək kənd təsərrüfatı potensialına əsaslanaraq, yerli tələbatın ödənilməsi ilə yanaşı, ixracyönümlü aqrar-sənaye parklarının yaradılması prosesləri genişləndirilməlidir və s.

**Ədəbiyyat:**


1. Ataşov, B.X. Aqrar sahədə struktur və səmərəlilik problemləri (nəzəriyyə və praktika). Monoqrafiya. Bakı, "Kooperasiya", 2017, 536 s.
2. Əliyev, Ş.T. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının yaradılmasının strateji aspektləri // Geostrategiya. Beynəlxalq ictimai-siyasi, elmi-nəzəri jurnal. Bakı, 2021, №4, s.67-72.
3. Jabbarov, A., Abbasova, S., Tanrıverdi, H. Erməni işğalı sonrası Qarabağda turizmin inkişafı məsələləri. Uluslararası Turizm, İşletme, Ekonomi Dergisi 2020, cilt 4(2), ss. 33-44. https://www.ijtebs.org /index.php/ijtebs/article/view/486/413
4. Qarabağın iqtisadi potensialı və inkişaf perspektivləri. https://ikisahil.az/post/qarabagin-iqtisadi-potensiali-ve-inkishaf-perspektivleri.
5. Quliyev, E.A. Qida təhlükəsizliyinin gücləndirilməsi problemləri və strateji istiqamətləri. Monoqrafiya. Bakı, "Kooperasiya", 2020, 464 s.
6. Nəbiyev, R. Azərbaycan Respublikasının Qarabağda resursların səmərəli bölgüsünə istiqamətləndirilmiş struktur siyasəti. "İqtisadi islahatlar" elmi-analitik jurnal, № 1(2), 2022, s.11-22.


# AZƏRBAYCANDA XÜSUSİ İQTİSADİ ZONALARIN DÖVLƏT TƏRƏFİNDƏN MALİYYƏLƏŞMƏSİ VƏ İNKİŞAFI İSTİQAMƏTLƏRİ; ÖZƏL SEKTORUN BU PROSESDƏ İŞTİRAKI


**Nəcəfzadə Yusif Şükran**
**Azərbaycan Dövlət İqtisad Universiteti**
**https://orcid.org/0009-0005-7333-2369**
**necefzadeyusif@gmail.com**


# STATE FINANCING AND DEVELOPMENT DIRECTIONS OF SPECIAL ECONOMIC ZONES IN AZERBAIJAN; PARTICIPATION OF THE PRIVATE SECTOR IN THIS PROCESS


**Najafzade Yusif Shukran**
**Azerbaijan State University of Economics**
**https://orcid.org/0009-0005-7333-2369**
**necefzadeyusif@gmail.com**

**Summary**

Special Economic Zones are one of the special territories created in the world and of course in Azerbaijan. The special tax-customs regime introduced in the created zones as well as the simplified administrative processes attract the enterprises that want to invest in this region from within and especially from abroad. There are currently 7 Industrial Parks, 5 Industrial Districts, 1 Free Economic Zone and other types of special zones in the Republic of Azerbaijan. However, due to limited financial supports to these lands, they were created in a very small area. As a result, the entire area in many special economic zones are in use and they can't attract more enterprises to these zones. The main purpose of this article will be to examine the participation of the private sector zones with full or limited extend in the creation and development of these territories. The article will explain the management of Special Economic Zones created jointly or separately by the private and public sectors, as well as the financing process of those zones. In the end, alternative ways will be proposed based on the observed processes in Azerbaijan.

**Key words:** Special Economic Zone, Investment, Finance, Management

# ГОСУДАРСТВЕННОЕ ФИНАНСИРОВАНИЕ И НАПРАВЛЕНИЯ РАЗВИТИЯ СПЕЦИАЛЬНЫХ ЭКОНОМИЧЕСКИХ ЗОН В АЗЕРБАЙДЖАНЕ; УЧАСТИЕ ЧАСТНОГО СЕКТОРА В ЭТОМ ПРОЦЕССЕ

**Наджафзаде Юсиф Шукран**

**Азербайджанский Государственный Экономический Университет**

**https://orcid.org/0009-0005-7333-2369**

**necefzadeyusif@gmail.com**

**Резюме**

Особые экономические зоны являются одной из особых территорий, созданных в мире и в Азербайджане. Особый налогово-таможенный режим, введенный в созданных зонах, а также упрощенные административные процессы привлекают предприятия, желающие инвестировать в этот регион изнутри и особенно из-за границы. В настоящее время в Азербайджанской Республике действуют 7 индустриальных парков, 5 промышленных районов, 1 свободная экономическая зона и другие специальные зоны. Однако, поскольку финансовая поддержка этих зон со стороны государства ограничена, они создаются на очень маленькой территории и не могут привлечь в эти зоны больше предприятий. В результате во многих Особых экономических зонах вся территория введена в эксплуатацию, и инвесторам стало сложно найти свободную землю в этих зонах. Основной целью данной статьи будет рассмотрение участия частного сектора в создании и развитии этих зон с полным или ограниченным участием. В статье будет объяснено управление специальными экономическими зонами, созданными совместно или отдельно частным и государственным секторами, а также процесс финансирования этих зон. В конечном итоге будут предложены альтернативные пути, основанные на наблюдаемых процессах в Азербайджане.

**Ключевые слова:** Особая экономическая зона, инвестиции, финансы, управление

Dünya üzərində və eləcə də Azərbaycanda Xüsusi İqtisadi Zonalar iqtisadiyyatın inkişafında önəmli rol oynayır. Bu zonalar vasitəsilə bir çox inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr xarici və daxili bazardan yüklü kapital cəlb edərək yeni müəssisələr yaradır və bu müəssisələr vasitəsilə ölkə büdcəsinin, Ümumi Daxili Məhsulun artmasına və işsizlik səviyyəsinin aşağı düşməsinə nail olurlar (Vidova, 2010). Bu prosesə təkan verən amil Xüsusi İqtisadi Zonalarda yeridilən güzəştli vergi-gömrük və digər əlverişli administrativ siyasətdir (Hüseynova, 2019). Dünya üzərində Xüsusi İqtisadi Zonalar üzrə ixtisaslaşmış ölkələrə Çin Xalq Respublikası, Birləşmiş Ştatlar və Birləşmiş Ərəb Əmirliyi (BƏƏ) aiddir. Bu zonalar üzrə standartlaşdırılmış, vahid qanunvericilik və hər hansı bir tərif yoxdur. Buna görə də, bu zonalarda yaradılan qanunvericilik və administrativ idarəetmə hər ölkədə müxtəlifdir. Misal olaraq, Çin Xalq

Respublikasında yaradılan Xüsusi İqtisadi Zonalarda idarəetmə prosesi və qanunvericiliyi dövlət və həmin zonanın rezidentləri arasında razılaşma əsasında gerçəkləşir (Shanghai Business School, 2023). Bundan başqa Çin Xüsusi İqtisadi Zonalarında istənilən növ istehsala öz qanunvericiliyinə əsasən icazə verə bilir. Bunun üçün sadəcə dövlətdən birbaşa icazə alınmalı və dövlətlə istehsal olunacaq məhsul üzrə razılaşma əldə edilməlidir. Azərbaycanda Xüsusi İqtisadi Zonaları dövlət agentlikləri və aidiyyəti dövlət qurumları idarə edir. Bu qurumlar Xüsusi İqtisadi Zonalarda rezident statusu əldə etmək istəyən müəssisələrə rezident statuslarını təqdim edir və istehsal sferası qurulduqdan sonra onların Əsas Səmərəlilik Göstəricilərinə (ƏSG), istehsal proseslərinə və digər proseslərə nəzarət edir.

İdarəetmə sistemindən əlavə bu zonaların ilkin maliyyələşmə prosesi də olduqca vacib faktordur. Bu zonaların maliyyələşməsi XİZ infrastruktur səviyyəsinin və enerji mənbələrinin qurulması, həmçinin yol və digər nəqliyyat marşrutlarının yaradılmasına kömək edir ki, bu da müəssisələrin ixrac və idxal əməliyyatlarını daha da asanlaşdırır. Administrativ və hüquqi tərəflər kimi bu zonalarda maliyyələşmə mexanizmləri və prosesləri ölkələr üzrə fərqlidir. Əlbəttə bu sistemin qurulması yüklü miqdarda kapitala ehtiyac ilə nəticələnir. Misal olaraq, Dünya Bankının ilkin hesablamasına əsasən, Azərbaycanda yaradılan və ilk Azad İqtisadi Zona olan Ələt Azad İqtisadi Zonasının ümumi 3 fazasının yaradılması və tam şəkildə investorlar üçün hazırlanması 760 milyon ABŞ dolları tələb edə bilər (The World Bank, 2020). Əlavə olaraq, Avropa yenidənqurma və inkişaf bankı tərəfindən aparılan araşdırma zamanı Ələt AİZ daxilində logistik mərkəzin qurulması prosesinə 410 milyon avro investisiya xərci hesablanmışdır (EBRD, 2021). Real olaraq bu rəqəmlər konfidensial informasiya olduğundan əldə edilə bilinməmişdir.

XİZ-lərin qurulması və inkişaf etdirilməsi üçün iqtisadiyyat və maliyyə nazirliyi, o cümlədən, Azərbaycan Respublikasının büdcəsindən müəyyən vəsait ayrılır. Bunun nəticəsi olaraq zonanın idarəçiliyi dövlət və ya dövlət nəzdində olan agentliklər vasitəsilə həyata keçirilir. Xarici ölkələrdə bu maliyyələşmə prosesi bir qədər fərqlidir. Belə ki, bizə qonşu olan Gürcüstanda yerləşən Hualing Kutaisi Azad Sənaye Zonası Çin holdinqi olan Hualing Group tərəfindən 300 milyon ABŞ dollarına satın alınmışdır (Hualing Group, 2012). SSRİ dövründə avtomobil ehtiyat hissələri istehsal edən zavodlar yeni anlaşma və xüsusi imtiyazlar vasitəsilə Hualing Qrupa həvalə edilmişdir (Hualingfiz, 2021). Bu imtiyazlar sırasına 3-5% aralığında əlavə dəyər vergisi kimi müxtəlif vergi və gömrük güzəştləri daxildir. Bundan başqa, zona üzrə idarəçilik və həmçinin zona üzrə rezidentlərin qəbulunu səhm sahibi həyata keçirir ki, zona daxilində özəl şirkətlərlə əlaqəni gücləndirir. Çində maliyyələşmə prosesi isə dünya praktikasından tamamilə fərqlidir. Belə ki, bir çox özəl şirkətlər dövlətlə bir yerdə (Joint Venture) Xüsusi İqtisadi Zonaların yaradılmasında və maliyyələşməsində iştirak edirlər və nəticədə onlar Xüsusi İqtisadi Zonalar üzrə müəyyən səhm əldə edərək imtiyazlara sahib olurlar. Bu həm də idarəetmənin hibrid forması olaraq nəzərə alınır.

Azərbaycanda yerləşən Xüsusi İqtisadi Zonalar üzrə ilkin araşdırmalar əsasında belə nəticəyə gələ bilərik ki, Azərbaycanda Xüsusi İqtisadi Zonalarda dövlət tərəfindən yeridilən maliyyələşmə siyasəti bir çox inkişaf etməkdə və inkişaf etmiş ölkə ilə eynidir. Lakin hazırda Xüsusi İqtisadi Zonalar Azərbaycan üzərində maksimum səviyyədə fəaliyyət göstərə bilmir. Misal olaraq, Azərbaycanda yaradılan ilk və ən böyük Xüsusi iqtisadi zona olan Sumqayıt Kimya-Sənaye parkı 2021-ci ildə 2 milyard manatdan çox məhsul istehsal etmişdir. Təkcə bu göstərici Azərbaycan Respublikasında fəaliyyət göstərən sənaye parkları və məhəllələrin ümumi istehsalının 90%-dən artığını təşkil edir. Sumqayıt parkı isə 2021-ci il üzrə Azərbaycan ÜDM-sinin yalnız 2%-ni özündə cəmləşdirə bilir. Burada bizim diqqət edəcəyimiz əsas məqam isə idarəetmə və həmçinin xaricdən investisiya təşviqinin yalnız Sumqayıt Kimya-Sənaye parkında güclü olması, lakin digər parklara diqqətin o qədər də güclü göstərilməməsidir. Əlavə olaraq Sumqayıt Kimya-Sənaye parkı və Qarabağda yeni yaradılan Ağdam və Araz vadisi iqtisadi zonası parkı xaric, digər sənaye

parkları və məhəllələrində bütün yerlər artıq doludur. Bunun əsas səbəbi maliyyə dəstəyinin limitli olması-dır və nəticədə olduqca kiçik bir ərazidə bu zonalar yaradılmışdır. Bundan başqa, bir çox sənaye parklarının və məhəllələrinin yaradılmasında məqsəd müəyyən böyük müəssisələrin biznes mühitini sadələşdirmək və ya xaricdən gələn xüsusi investorlar üçün özəl mühit yaratmaq olmuşdur.

Ümumiyyətlə, Azərbaycanda yaradılan Xüsusi İqtisadi Zonaların dövlət tərəfindən maliyyələşməsi limitli olduğundan daha çox onların infrastrukturu, ilkin istehsal prosesi üçün enerji xəttinin təmini və nəqliyyat sahələrinin genişləndirilməsi olmuşdur. Azərbaycan XİZ üzərində nəzarəti tam əhatə edir və beləcə büdcədən maliyyələşməni minimuma endirmişdir. Lakin, belə olduğu halda investorlar zona üzrə istehsal prosesini mövcud yaradılan infrastruktur əsasında özü qurmalı və istehsal/xidmətə başlamalıdır. Əlbəttə, Ələt Azad İqtisadi Zonasını çıxmaq şərti ilə Sənaye parklarında bu bir qədər təhlükəlidir. Belə ki, Sənaye parkları və məhəllələrində fəaliyyət göstərmək istəyən müəssisə 10 il müddətinə mənfəət, əmlak və torpaq vergisindən azaddır. Sənaye məhəllələrində isə 7 il üzrə 50%-lik mənfəət və ya gəlir vergisi güzəşti əldə edirlər (Vergi Məcəlləsi, 2023). Əlbəttə, bu müddət onun rezident statusu əldə etdiyi andan başlayır ki, bu da həmin müəssisənin böyüklüyündən asılı olaraq öz istehsal zəncirini 1-3 il müddətinə qurmasına gətirib çıxarır. Belə olduğu təqdirdə müəssisə Xüsusi İqtisadi Zonaların güzəştlərindən maksimum istifadə edə bilmir. Hazırda Azərbaycanın bir çox İqtisadi Zonalarında fəaliyyət göstərən müəssisələr region üzrə öz istehsal sferalarını gücləndirmək və qısamüddətli dövrdə bu fürsətlərdən yararlanmaq üçün Azərbaycan bazarına daxil olmuşdur. Ələt AİZ-də yaradılan yeni mühit və müddətsiz vergidən azad olma sənaye park-larından daha üstündür (Məhərrəmov, 2019). Əlavə olaraq, bir çox regional marşrutların mərkəzində yerlə-şən bu zona investorlar üçün möhtəşəm fürsətdir. Lakin, bu zonanın qurulması və genişlənməsi olduqca böyük bir vaxt alacaq. Belə ki, 850 hektar içərisində yaradılan bu zona son 3 ildə yalnız faza 1 mərhələsini tamamlaya bilmişdir ki, bu da onun 206 hektar hissəsinin yalnız infrastruktur hissəsini əhatə edir (AFEZ, 2023).

Yuxarıda göstərilən məlumatlar və araşdırmalar nəticəsində deyə bilərik ki, dövlət tərəfindən Xüsusi İqtisadi Zonaların yaradılması və eləcə də maliyyələşməsi bütün dünya praktikalarında olduğu kimi dövlət vəsaiti vasitəsilə həyata keçirilir. Lakin, bu növ maliyyələşmə XİZ rezidentlərinin yalnız ilkin infrastruktura və enerji mənbəyinə çıxışını təmin edir. Əlavə olaraq dövlət tərəfindən limitli maliyyə dəstəyi və investisiya xərci bu zonaları olduqca kiçik bir ərazidə yaratmağa məcbur etmişdir. Bundan başqa, bu növ maliyyələşmə nəticəsində gedən proses çox ləng olmuşdur. Fikrimcə, bu prosesi aradan qaldırmaq üçün aşağıdakı tədbirlərin görülməsi vacibdir:

- Bu zonalarda dövlət-özəl sektorun əməkdaşlığının gücləndirilməsi məqsədilə XİZ-də birgə investisiya proqramının yaradılması ola bilər;
- Qarabağda yaradılan və hazırda hazırlanma prosesi gedən Ağdam və Araz vadisi iqtisadi zonası sənaye parklarında hibrid model tətbiq edilə bilər;
- Mövcud Xüsusi İqtisadi Zonaların ərazisinin genişləndirilərək investorların cəlb edilməsi vacibdir;
- Xüsusi İqtisadi Zonalar üzrə müəyyən azadlıqların verilərək XİZ-lər arasında əməkdaşlığa təkan verilməsi ola bilər.

**Ədəbiyyat:**

1. Vidova, Jarmila. (2010). Industrial Parks - History, Present and its Influence to the Employment. Review of Economic Perspectives. 10. 41-58. 10.2478/v10135-009-0008-1.

2. Hüseynova, A., 2017. Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi, Institute for Scientific Research on Economic Reforms. Retrieved from https://policycommons.net/artifacts/1612974/azrbaycan-respublikasi-iqtisadiyyat-nazirliyi/2302901/ on 25 May 2022. CID: 20.500.12592/6qp4db.

3. Məhərrəmov, Ramiz (2019). Ələt azad iqtisadi zonasında vergitutma məsələləri. Azərbaycanın Vergi Jurnalı. 1(138), s. 61-70.

4. Azərbaycan Respublikasının Prezidentinin 24 Aprel 2013-cü il fərmanı ilə təsdiqlədiyi "Sənaye parkları haqqında Nümunəvi Əsasnamə"

5. Azərbaycan Respublikasının Vergi məcəlləsi

6. AFEZ — Alat Free Economic Zone https://afez.az/

7. İqtisadi zonaların inkişafı agentliyi http://www.economiczones.gov.az/

8. The World Bank. (2020). South Caucasus and Central Asia: Belt and Road Initiative Azerbaijan Country Case Study. pp 11

9. UNCTAD, World Investment Report 2019: Special Economic Zones, 12 June 2019, p. XII.

10. European Bank for Reconstruction and Development https://www.ebrd.com/

11. M. Murray. (2013, May 10). What Are Special Economic Zone [Online]. Available: http://ebook.law.uiowa.edu.

12. http://en.hualing.cn/page-36.html

13. https://hualingfiz.ge/why-georgia/key-facts/

# HOW ARTIFICIAL INTELLIGENCE WILL IMPACT INCOME DISPARITY AND THUS SOCIAL WELFARE?

**Mammadov Ashraf Ramiz**
**Azerbaijan State University of Economics**
**https://orcid.org/0009-0008-0700-7850**
**ashrafmammadov1@gmail.com**

# SÜNİ İNTELLEKT İNSANLAR ARASINDA GƏLİR FƏRQİNƏ VƏ SON NƏTİCƏ OLARAQ SOSİAL RİFAHA NECƏ TƏSİR EDƏCƏK?

**Məmmədov Əşrəf Ramiz**
**Azərbaycan Dövlət İqtisad Universiteti**
**https://orcid.org/0009-0008-0700-7850**
**ashrafmammadov1@gmail.com**

**Xülasə**

Tarix boyu texnologiya tez-tez iqtisadiyyatı pozmuş, bəzən aşağı ixtisaslı işçilər üçün iş itkiləri kimi mənfi nəticələrə səbəb olmuşdur. Məlumatlar göstərir ki, yüksəkixtisaslı işçilərə daha çox maaş verilir və bu, gəlir bərabərsizliyini artırır. Əvvəllər əməliyyat xərclərini azaltmağa çalışan şirkətlər indi alternativ həll yolu kimi süni intellektin istifadəsinə müraciət edə bilərlər. Bununla belə, böyük mənzərədə texnoloji dəyişiklik yeni iş yerləri yarada və əvvəllər xaricə köçürülmüş iş yerlərini geri qaytara bilər. Əvvəllər xaricə köçürülmüş əsərlərin süni intellekt vasitəsilə geri qaytarılması sadə proses deyil. Bunun üçün süni intellekt sahəsində yeni bacarıqlara malik mütəxəssislər və süni intellektə əsaslanan sistemlər yaratmaq üçün kifayət qədər investisiya tələb olunur. Süni intellektin tətbiqi özlüyündə mürəkkəbdir və göründüyü qədər sadə deyil. Süni intellektin təsiri çoxşaxəlidir və həm iş yerlərinin itirilməsini, həm də yeni vəzifələrin və vakansiyaların yaradılmasını əhatə edir ki, bu da yeni ixtisasların inkişafına və

yeni mütəxəssislərin hazırlanmasına gətirib çıxarır. İqtisadiyyatın bir sektorunda baş verən pozulma bütövlükdə iqtisadiyyata təsir göstərə bilər. Bəzi ölkələr süni intellektdən həyat keyfiyyətini yaxşılaşdırmaq və iş saatlarını azaltmaq üçün istifadə etsələr də, digərləri istehlakı artırmaq üçün istifadə edə bilər. Süni intellektin iqtisadi təsiri ilə bağlı mübahisələrə baxmayaraq, o, son nəticədə həyat şəraitini yaxşılaşdırmaqla bəşəriyyətə xidmət edəcəkdir.

**Açar sözlər**: Texnoloji işsizlik, Outsorsinqin gələcəyi, İşsizlik, Gəlir bərabərsizliyi, Texnoloji peşələr

# КАК ИСКУССТВЕННЫЙ ИНТЕЛЛЕКТ ПОВЛИЯЕТ НА РАЗРЫВ В ДОХОДАХ И, СЛЕДОВАТЕЛЬНО, НА СОЦИАЛЬНОЕ БЛАГОПОЛУЧИЕ?

**Мамедов Ашраф Рамиз**
**Азербайджанский Государственный Экономический Университет**
**https://orcid.org/0009-0008-0700-7850**
**ashrafmammadov1@gmail.com**

**Резюме**

На протяжении истории технологии часто приводили к нарушениям в экономике, иногда приводя к негативным последствиям, таким как потери рабочих мест для низкоквалифицированных работников. Данные показывают, что высококвалифицированным работникам платят больше, усугубляя неравенство доходов. Компании, которые ранее стремились снизить свои операционные издержки, теперь могут обратиться к использованию искусственного интеллекта в качестве альтернативного решения. Однако в большой картине технологические изменения могут создавать новые рабочие места и вернуть ранее перенесенные за рубеж работы. Возвращение ранее перенесенных работ за рубеж через использование искусственного интеллекта не является простым процессом. Это требует наличия специалистов с новыми навыками в области искусственного интеллекта и достаточных инвестиций для создания систем, основанных на искусственном интеллекте. Применение искусственного интеллекта само по себе сложно и не так просто, как может показаться. Влияние искусственного интеллекта многостороннее и включает как потерю рабочих мест, так и создание новых задач и вакансий, что приводит к разработке новых специальностей и обучению новых специалистов. Нарушение в одном секторе экономики может оказать влияние на всю экономику в целом. В то время как некоторые страны могут использовать искусственный интеллект для повышения качества жизни и уменьшения рабочего времени, другие могут использовать его для увеличения потребления. Несмотря на дебаты о экономическом влиянии искусственного интеллекта, в конечном итоге он будет служить человечеству, улучшая условия жизни.

**Ключевые слова:** технологическая безработица, будущее аутсорсинга, потери рабочих мест, неравенство доходов, технологические специальности.

Research has shown that the effects of AI and automation on wages and employment are complex and varied. While some studies show job losses in routine tasks, others reveal an increase in demand for skilled workers. Wage inequality has risen in developed countries, with advanced degree holders experiencing real wage growth, while lower-educated individuals face stagnation or decline. Men without a high school degree are earning 15% less in real terms than they did in 1980 [1]. It's important to recognize that income inequality is influenced by multiple factors, not solely technological change. Addressing these challenges requires a nuanced and evidence-based approach that considers various factors shaping the labor market. The impact of AI on the job market will be diverse, and comprehensive solutions are necessary to address income inequality effectively.

WHY AI CAUSES AN INCOME DISPARITY

| Software developers | Employment | Mean annual |
|---|---|---|
| 2021 | 1364180 | 120990 |
| 2020 | 1476800 | 114270 |
| 2019 | 1406870 | 111620 |
| 2018 | 1666270 | 104480 |
| 2017 | 1617400 | 102470 |
| 2016 | 1604570 | 100080 |
| 2015 | 1554960 | 97930 |
| 2014 | 1492040 | 95280 |
| 2013 | 1442500 | 92820 |
| 2012 | 1397780 | 90470 |

| Machinists | Employment | Mean annual |
|---|---|---|
| 2021 | 333220 | 49020 |
| 2020 | 360340 | 47800 |
| 2019 | 383470 | 46120 |
| 2018 | 384350 | 45250 |
| 2017 | 378320 | 44160 |
| 2016 | 391120 | 43220 |
| 2015 | 399040 | 42120 |
| 2014 | 392700 | 41540 |
| 2013 | 391130 | 41020 |
| 2012 | 388370 | 40860 |

AI and automation have played a significant role in causing income disparity, particularly in the United States, over the past four decades. Automation technology has been identified as a primary factor contributing to changes in wages, with blue-collar workers being most affected [2]. Jobs involving routine tasks have seen a decline in demand and wages, while roles requiring advanced skills have experienced salary growth. This trend of income disparity is likely to continue, with professions like software development witnessing significant salary increases compared to repetitive jobs in manufacturing. I compared 2 different professions that involve cognitive tasks such as software development and repetitive jobs such as manufacturing. What we see from the Table1 that average salary of software developer increased $ 30520 during last 10 years, while it is $ 8160 for manufacturing machinists during the same period [3].

U.S. BUREAU OF LABOR STATISTICS

While technological progress in AI offers benefits such as increased efficiency and productivity, it also creates winners and losers in the job market, exacerbating income inequality. However, it is essential to recognize that other factors may also influence income distribution, making this issue complex and multifaceted. Addressing income disparity requires a comprehensive understanding of the interplay between technological advancements, policy decisions, and socio-economic factors.

DOES AI CONTRIBUTE TO THE EMPLOYMENT?

AI's transformative capabilities have the potential to reshape the job market and impact the outsourcing landscape significantly. Automation of routine and repetitive tasks through AI and robotics is reducing the need for outsourcing certain low-skill jobs, especially in customer service and data processing domains. While AI enhances efficiency in task-oriented environments, it also raises concerns about the potential displacement of higher-skilled jobs in various sectors, including medical diagnosis. Researchers explore three possible outcomes of AI on human work: substitution, complementation, and creation, leading to two scenarios - pessimistic and optimistic.

The pessimistic scenario raises concerns about the large-scale replacement of human jobs by AI, leading to job polarization and the emergence of new technologically lagging occupations with lower wages and precarious conditions. Estimates suggest that a significant percentage of jobs in the US and EU are at risk of automation, fueling debates on the future of work and requiring policy solutions. Contrarily, the optimistic scenario foresees AI as a driver of productivity, potentially creating new jobs and a net increase in employment. While employers hold mixed expectations regarding job displacement and creation, empirical studies have yet to show a significant impact on overall employment [4].

The complex interplay of AI and the labor market necessitates a careful approach in policymaking. Embracing AI's potential for productivity while addressing potential disruptions is crucial. Striking a balance between technological advancements and job preservation becomes imperative to navigate the evolving landscape of work in the AI era. Moreover, investment in upskilling and reskilling the workforce to adapt to the changing demands of the job market will be essential to ensure inclusive growth and prosperity. Overall, the impact of AI on the labor market is an ongoing subject of exploration and calls for continued research, adaptability, and evidence-based policy decisions to harness its potential positively.

The utilization of AI can bring about positive effects on employment through various means. Firstly, by adopting AI and automation, certain jobs that were previously outsourced to other countries may be brought back domestically. The cost-effectiveness of AI can lower labor expenses, enabling companies to perform tasks locally. Consequently, there may be a revival of customer service operations within the country, leading to the creation of employment opportunities for domestic workers. Secondly, the advancements in AI and automation can result in the creation of novel job prospects. The emergence of AI-driven technologies can generate a demand for specialists with specific skills and expertise. To meet this demand, educational institutions can develop programs that teach these sought-after skills, ultimately leading to the creation of jobs for instructors and educators.

FUTURE OF OUTSOURCING

Companies are embracing automation as a solution to reduce workforce costs and enhance productivity, driven by the increasing expense and scarcity of global talent. This shift is impacting the economics of offshoring and outsourcing, eroding their cost savings. For instance, in the late 1970s, the US manufacturing industry employed approximately 20 million people. Over the past 30 years, numerous manufacturing jobs were moved overseas, leading to a shortage of STEM professionals. During the same period, the number of STEM graduates in the US decreased from 97,000 to 84,000, with a shift towards humanities-focused education. As a result, there is now a scarcity of digital talent, precisely when the demand for such skills is on the rise.

To address these challenges, companies are turning to digital technology like Robotic Process Automation (RPA) to automate tasks previously handled by human workers, such as call center interactions, which are now being shifted to social media and chat platforms. Even outsourcing providers are facing difficulties finding enough digital talent, prompting them to pivot towards RPA services instead of traditional labor-centric outsourcing. Consequently, companies need to reevaluate their talent strategies when implementing automation, with a focus on sourcing the best engineers, mathematicians, and data scientists to manage robotics effectively.

The adoption of automation is seen as a means of cutting costs, improving services, and gaining a competitive edge across various industries and functions. Looking ahead, a company's ability to leverage data and technology through automation, rather than relying on traditional offshore labor, will be crucial in determining their competitive advantage in the market. The success of a company will be determined by how quickly it can shift from a labor-centric approach to a technology-centric one [5]. Kerwin Kofi Charles, Erik Hurst, and Mariel Schwartz's research paper investigates the factors behind job losses in the US manufacturing industry from 1980. Contrary to popular belief, their findings do not identify outsourcing as the main cause. Instead, they attribute a significant portion of these job losses to the rise in trade with China [6].

The application of AI in the economy is a subject of debate among economists. Some believe that it will stimulate economic growth by generating new jobs and tasks, leading to increased employment. On

the other hand, others argue that technology disrupts the economy and labor market, leading to unemployment. Despite differing views, research indicates that technological advancements have complex effects on the economy, with both positive and negative outcomes. Although there may be potential challenges, historical evidence suggests that technological advancements ultimately have a positive impact on the overall economy.

**References:**


1. TASKS, AUTOMATION, AND THE RISE IN U.S. WAGE INEQUALITY DARON ACEMOGLU Department of Economics, MIT PASCUAL RESTREPO Department of Economics, Boston University Econometrica, Vol. 90, No. 5 (September 2022), 1973–2016.
2. Artificial Intelligence Has Caused A 50% To 70% Decrease In Wages-Creating Income Inequality And Threatening Millions Of Jobs. https://www.forbes.com/sites/jackkelly/2021/06/18 /artificial-intelligence-has-caused--50-to-70-decrease-in-wages-creating-income-inequality-and-threatening-millions-of-jobs/?sh=40ffd3ab1009
3. Occupational Employment and Wage Statistics. https://www.bls.gov/oes/data.htm
4. Artificial intelligence and work: a critical review of recent research from the social sciences. https://link.springer.com/article/10.1007/s00146-022-01496-x#citeas
5. Employees: An endangered species? The rise of robotics, artificial intelligence, and the changing workforce landscape. https://assets.kpmg.com/content/dam/kpmg/pdf/2016/04/ employees-an-endangered-species.pdf
6. ARTIFICIAL INTELLIGENCE, AUTOMATION AND WORK. https://www.nber.org/system/files/working_papers/w24196/w24196.pdf


# ELEKTRON TİCARƏTDƏ MÜŞTƏRİ İTKİSİNİN QARŞISININ ALINMASI


**Dünyamalıyev İslam Elşən**

**Bakı Biznes Universiteti**

**https://orcid.org/0000-0002-0701-4697**

**islam.dunyamaliyev98@gmail.com**


# LOSS PREVENTION IN ELECTRONIC COMMERCE


**Dunyamaliyev Islam Elshan**

**Baku Business University**

**https://orcid.org/0000-0002-0701-4697**

**islam.dunyamaliyev98@gmail.com**



**Summary**

The main purpose of this report is to prevent the loss of customers by manufacturers selling through e-commerce. The development of e-commerce allows sellers to have their goods viewed and displayed by a larger audience of users, as well as to reach higher sales potential. Despite the many advantages offered by e-commerce, many e-commerce companies are concerned that the same customer will not use their services or products again. This article examines the causes of the mentioned problem and recommends solutions. By implementing these strategies,

e-business sellers can create a positive shopping experience for their customers and encourage them to make continued purchases over the long term. It is important to remember that the key to success in e-commerce is keeping customers for a long time and adapting to their needs

**Keywords:** electronic, customer loss, strategy, trade, adaptation

# ПРЕДОТВРАЩЕНИЕ ПОТЕРЬ В ЭЛЕКТРОННОЙ ТОРГОВЛЕ

**Дуньямалиев Ислам Эльшан**
**Бакинский Университет Бизнеса**
**https://orcid.org/0000-0002-0701-4697**
**islam.dunyamaliyev98@gmail.com**

**Резюме**

Основной целью этого отчета является предотвращение потери клиентов производителями, торгующими через электронную торговлю. Развитие электронной коммерции позволяет продавцам показывать свои товары более широкой аудитории пользователей, а также достигать более высокого потенциала продаж. Несмотря на множество преимуществ, предлагаемых электронной коммерцией, многие компании электронной коммерции обеспокоены тем, что один и тот же клиент больше не воспользуется их услугами или продуктами. В данной статье рассматриваются причины указанной проблемы и рекомендуются решения. Внедряя эти стратегии, продавцы электронного бизнеса могут создать положительный опыт покупок для своих клиентов и побудить их совершать постоянные покупки в течение длительного времени. Важно помнить, что ключом к успеху в электронной коммерции является длительное удержание клиентов и адаптация к их потребностям.

**Ключевые слова:** электроника, отток клиентов, стратегия, торговля, адаптация.

Müasir dövrümüzdə elektron ticarətdən istifadə getdikcə populyarlaşır və ənənəvi ticarətə paralel olaraq fasiləsiz inkişaf edir. Elektron ticarət malların və xidmətlərin internet vasitəsilə onlayn şəkildə alış-satış prosesinin həyata keçirilməsi prosesidir (Kütz, 2016, s. 16-20). Elektron ticarət özü ilə bir sıra müsbət cəhətlər gətirsə də, ticarətin bu növündə də bəzi problemlər qaçılmazdır və onların həll olunması ehtiyacı vardır. İlkin olaraq elektron ticarətin ənənəvi ticarətə nisbətdə gətirdiyi əsas üstünlük kimi “daha çox istifadəçi kütləsinə əlçatanlıq” misal göstərilə bilər. Lakin bu müsbət tərəf özü ilə birlikdə bir sıra problemləri də gətirir. Eyni istifadəçi kütləsinə bir neçə fərqli satıcının əlçatanlığı mümkün olur və bu zaman uzunmüddətli iqtisadi dövrdə müştəriləri davamlı əldə saxlamaq üçün satıcılar arasında gərgin mübarizə başlayır. Bu səbəbdən uzunmüddətli dövrdə müştəri itkisinin qarşısının alınması elektron ticarətdə onlayn biznes sahibkarları üçün böyük missiyalardan biri hesab olunur (Coleman, 2018, s. 23-39).

Elektron ticarətdə müştəri itkisinin baş verməsinin əsas səbəbləri aşağıdakılar hesab olunur:

**1. Müştəri xidmətləri.** Ənənəvi ticarətdə malların və ya xidmətlərin alış-verişi zamanı satıcı ilə asanlıqla kommunikasiya yaratmaq və məhsul haqqında aydın olmayan xüsusiyyətləri soruşmaq mümkündür. Elektron ticarətə gəldikdə isə alış-veriş zamanı satıcı və müştəri arasında kommunikasiya olmadığı üçün bəzi məqamların dəqiqləşdirilməsində çətinlik yaranır. Bir çox elektron ticarətlə məşğul olan satıcıların müştəri xidmətləri əvəzinə “çatbot”lardan istifadə etdikləri məlumdur. Bu zaman bot alıcının sualına uyğun olan məqalələri oxumağı tövsiyə edir ki, bu zaman ya müştəri botun yönləndirdiyi məqalələri oxuyaraq sualına cavab tapmağa çalışır, ya da ümumiyyətlə həm məqalələri oxumaqdan, həm də məhsulu almaqdan vaz keçir. Botun yönləndirdiyi məqalələrdən əlavə birbaşa satıcının sualı cavablandırması üçün forum doldurmaq və iki iş günü müddətində gözləmək tələb olunur. Bu da bir çox hallarda müştəri itkisinə səbəb olur.

**2. Məhsulun keyfiyyətli təsviri.** Bir sıra elektron ticarət bizneslərində məhsulun vebsaytda təsviri zamanı buraxılan bəzi xırda səhvlər müştəri itkisinə yol aça bilər. İlkin olaraq məhsulun şəklinin yüksək keyfiyyətli olmasına diqqət edilməlidir. Misal üçün, dünyada və ölkəmizdə fəaliyyət göstərən bəzi supermarketlərin onlayn kataloqlarında məhsulun təsviri zamanı aşağı keyfiyyətli şəkillərdən istifadə edilməsi müştərinin alış prosesindən imtina etməsinə səbəb olur. Buna əlavə olaraq bəzən məhsul şəkildə gördüyümüz kimi çatdırılmır (fərqli rəng, fərqli ölçü, fərqli model və s.) Bu kimi hallarda onlayn biznes uzunmüddətli iqtisadi dövrdə müştəri itkisi ilə rastlaşır və biznesin davamlılığı sual altına düşür.

**3. "Loyalty" proqramlarının çatışmazlığı.** Elektron biznes mühitində müştəri bir onlayn biznesdən məhsul və ya xidmət aldıqdan sonra həmin biznesdən təkrar istifadəsi həmişə qarantiya altında olmur. Bunun əsas səbəbi elektron ticarətdə alıcının dünyamiqyaslı elektron bizneslərə əlçatanlığı olmasıdır. Həmçinin, ölkəmizdə elektron bizneslərdə "loyalty" proqramlarının çatışmazlığı müştərilərin uzunmüddətli iqtisadi dövrdə itirilməsinə gətirib çıxarır. Elektron ticarət mühitində yuxarıda qeyd olunan problemlərin mümkün həll yolları aşağıdakı kimi olacaqdır:

**1. Müştəri xidmətlərinin təkmilləşdirilməsi.** Qeyd olunduğu kimi bəzi hallarda müştərilər məhsul və ya xidmət haqqında suallarına cavab tapmaq istədikdə birbaşa müştəri xidmətləri ilə əlaqə yarada bilmirlər və çatbotun yönləndirdiyi məqalələr də köməkçi olmur. Hər halda, elektron biznes sahibkarlarının xərclərini minimumlaşdırmaq üçün müştəri xidmətlərində insan əməyi əvəzinə avtomatlaşdırılmış botlardan istifadə etməsi başa düşüləndir, lakin müştərinin hər hansı sualının vaxtında cavablandırılması bu müştərinin "qazanılması" və satışın reallaşdırılması deməkdir. Bu problemin həlli əsasən "birbaşa əməkdaşa qoşul" funksiyasının aktivləşdirilməsi ilə həyata keçirilə bilər. Müştəri hər hansı sualı yarandığı halda çatbotun köməyindən və yönləndirilən məqalələrdən istifadə edə və ya birbaşa əməkdaşa qoşularaq canlı insan köməyindən yararlana bilər.

**2. Məhsulun təsvirinin təkmilləşdirilməsi.** Məhsulun təsviri zamanı yüksək keyfiyyətli şəkillərin yerləşdirilməsi arzuolunandır. Bir çox hallarda elektron ticarət sahibkarlarının öz məhsulları əvəzinə digər vebsaytlardan eyni məhsulun şəkil və təsvirlərini istifadə etmələri müştərilərin şikayətinə səbəb olur. Çünki bəzi hallarda satıcı məhsulun təsvirdəki ilə eynisini müştəriyə çatdıra bilmir. Məhsulun təsviri mütləq və mütləq yüksək keyfiyyətdə olmalı və məhsulun real həyatdakı təsvirinə mümkün qədər yaxın olmalıdır. Bu problem daha çox paltar və ərzaq satışlarında baş verir.

**3. "Loyalty" proqramlarının sayının artırılması.** Uzunmüddətli iqtisadi dövrdə müştəri itkisinin qarşısının alınması üçün ən vacib strategiyalardan biri loyallıq proqramlarının artırılmasıdır. Ölkəmizdəki bir çox elektron ticarət bizneslərində, xüsusilə də supermarketlərdə loyallıq proqramlarının azlığı nəzərə çarpır. Loyallıq proqramlarının ən məşhur formaları – ikinci alışda 10% endirim, müəyyən məbləğdən sonra 10% endirim, xüsusi endirim kartı və xüsusi keşbek kartı hesab olunur (Weber & Hafeez, 2021).

Qeyd olunan həllərin tətbiqi zamanı elektron ticarət biznesləri uzunmüddətli iqtisadi dövrdə müştəri itkisinin qarşısını ala biləcəklər. Bu problemin həlli onlayn bizneslərin uzunmüddətli iqtisadi dövrdə davamlılıqları üçün həlledici məqamlardan biridir.

**Ədəbiyyat:**

1. Berger J. (2013). *Contagious: Why things catch on.* New York: Social Dynamics Group, LLC.

2. Chakravarty A. (2014). *Supply Chain Transformation.* New York: Springer-Verlag.

3. Coleman J. (2018). *Never lose a customer again: Turn any sale into lifelong loyalty in 100 days.* New York: Portfolio/Penguin

4. Kütz M. (2016). *Introduction to E-commerce: Combining Business and Information Technology 1st edition.* Bookboon.com.

5. Mehta, N., Steinman, D., & Murphy, L. (2016). Customer success: How innovative companies are reducing churn and growing recurring revenue 1st edition. New Jersey: Wiley.

6. Weber, D., & Hafeez, S. (2021). *Onboarding Matters: How successful companies transform New Customers into Loyal Champions*. New York: Springboard LLC.

7. https://bravomarket.online/

8. https://bazarstore.az/

9. https://neptun.az/

# AQRAR SEKTORDA İNVESTİSİYA RİSKLƏRİNİN İDARƏ EDİLMƏSİ XÜSUSİYYƏTLƏRİ

**Paşazadə Rəvan Malik**
**Bakı Biznes Universiteti**
**https://orcid.org/0009-0004-1212-8367**
**revan_pashazade@mail.ru**

# FEATURES OF INVESTMENT RISK MANAGEMENT IN THE AGRICULTURAL SECTOR

**Pashazade Ravan Malik**
**Baku Business University**
**https://orcid.org/0009-0004-1212-8367**
**revan_pashazade@mail.ru**

**Summary**

Agricultural investment activity is valued as the main driving force of economic development. Effective management of investment processes is of mutual importance as the main priority in ensuring micro and macroeconomic development. The specific characteristics of agricultural activity are determined together with economic and natural-climatic factors. In addition, constant renewal of labor and land resources is also an important factor. The seasonal nature of agricultural production causes production costs, income and capital turnover, differences from economic sectors. The geographical location of the agricultural area also provides productive natural climate conditions, but it leads to the presence of extensive reproduction risks that complicate technological control. The state should pay attention to risks in entrepreneurial activities and investments. For agricultural commodity producers, external environmental factors are classified as micro and macro environmental factors. Microenvironmental factors regulate risk in relation to partners such as suppliers, customers, competitors, financial institutions and insurance companies.

Improving the insurance system is one of the main strategies for reducing investment risks in agriculture. This will help reduce profit losses in the sector, supporting productivity and sustainable development.

In short, investment activity in agriculture is one of the factors that form the basis of economic development. Agricultural characteristics and environmental factors should also be evaluated for risk review and analysis. Improving the insurance system plays a critical role in ensuring sustainable development in the sector.

**Keywords:** investment, risk management, insurance, production, competition, food security.

# ОСОБЕННОСТИ УПРАВЛЕНИЯ ИНВЕСТИЦИОННЫМИ РИСКАМИ В СЕЛЬСКОХОЗЯЙСТВЕННОМ СЕКТОРЕ

**Пашазаде Раван Малик**
**Бакинский Университет Бизнеса**
**https://orcid.org/0009-0004-1212-8367**
**revan_pashazade@mail.ru**

**Резюме**

Инвестиционная деятельность в сельском хозяйстве оценивается как основная движущая сила экономического развития. Эффективное управление инвестиционными процессами имеет обоюдное значение как главный приоритет в обеспечении микро- и макроэкономического развития. Специфические характеристики сельскохозяйственной деятельности определяются совместно с экономическими и природно-климатическими факторами. Кроме того, важным фактором является постоянное обновление трудовых и земельных ресурсов. Сезонный характер сельскохозяйственного производства обусловливает издержки производства, доходы и оборачиваемость капитала, отличия от отраслей экономики. Географическое положение сельскохозяйственного района также обеспечивает продуктивные природно-климатические условия, но приводит к наличию экстенсивных воспроизводственных рисков, усложняющих технологический контроль. Государство должно обращать внимание на риски в предпринимательской деятельности и инвестициях. Для сельскохозяйственных товаропроизводителей факторы внешней среды классифицируются как факторы микро- и макросреды. Факторы микросреды регулируют риск по отношению к таким партнерам, как поставщики, клиенты, конкуренты, финансовые учреждения и страховые компании.

Совершенствование системы страхования является одной из основных стратегий снижения инвестиционных рисков в сельском хозяйстве. Это поможет сократить потери прибыли в секторе, поддерживая производительность и устойчивое развитие.

Одним словом, инвестиционная активность в сельском хозяйстве является одним из факторов, составляющих основу экономического развития. Сельскохозяйственные характеристики и факторы окружающей среды также должны быть оценены для рассмотрения и анализа рисков. Совершенствование системы страхования играет решающую роль в обеспечении устойчивого развития отрасли.

**Ключевые слова:** инвестиции, управление рисками, страхование, производство, конкуренция, безопасность пищевых продуктов.

İnvestisiya fəaliyyəti geniş şəkildə iqtisadi inkişafın əsas hərəkətverici qüvvəsi kimi tanınır. Beləliklə, həm mikro, həm də makroiqtisadi inkişafın təmin edilməsində investisiya proseslərinin səmərəli idarə edilməsi əsas prioritet hesab olunur. Risklərin mövcudluğunu nəzərdən keçirərkən kənd təsərrüfatı istehsalının spesifik xüsusiyyətlərini müəyyən etmək olar. Birincisi, kənd təsərrüfatı fəaliyyətinə iqtisadi və təbii-iqlim amillərinin məcmusu təsir edir. Bundan əlavə, əmək və torpaq ehtiyatlarının geniş təkrar istehsalı ümumi istehsal prosesinə əhəmiyyətli dərəcədə təsir göstərir. Bu geniş təkrar istehsal prosesi işçi qüvvəsinin, istehsal vasitələrinin və təbii ehtiyatların daim yenilənməsini nəzərdə tutur. İkincisi, kənd təsərrüfatı istehsalının mövsümi xarakter daşıması istehsal xərclərinə, pul gəlirlərinə, kapital dövriyyəsinə, avans kapitalının qaytarılmasına, illik gəlirlilik dərəcələrinə və iqtisadiyyatın digər sahələrindən əhəmiyyətli dərəcədə fərqlənən digər amillərə təsir edən mühüm xüsusiyyətdir. Üçüncüsü, aqrar sahə makrosferada özünəməxsus xüsusiyyət nümayiş etdirir. Bu, ilk diferensial rentanın mövcudluğu ilə bağlıdır, burada münbit torpaq və optimal şərait əlavə gəlir əldə etməyə imkan verir. Dördüncüsü, kənd təsərrüfatı istehsalının coğrafi mövqeyi, xüsusən bağçılıq, meyvəçilik və heyvandarlıq üçün əlverişli təbii iqlim şəraitinin keçidi rol oynayır. Lakin bu amillər kənd təsərrüfatında ekstensiv çoxalmaya texnoloji nəzarəti çətinləşdirir və təbii-iqlim şəraiti risk mənbəyinə çevrilə bilər. Bu amillər ümumi şəkildə aqrar sahənin spesifik xüsusiyyətlərini müəyyən edir. Aqrar sektorda risklərin təsiri iqtisadiyyatın digər sahələri ilə

müqayisədə onun investisiya cəlbediciliyini azaldır. İstehsalın texnoloji strukturu, fəaliyyətin məqsədi, təşkilati strukturu, işçilərin ixtisas səviyyəsi kimi daxili mühit amilləri kənd təsərrüfatı sahəsində risklərə səbəb olur. Xülasə, kənd təsərrüfatında riskləri şərtləndirən daxili mühit amillərini istehsal prosesində gözlənilməz dəyişiklikləri, o cümlədən yeni texnologiyaların tətbiqini, əməyin təşkilinin spesifik xüsusiyyətlərini, dəyişən təbii amilləri və təsərrüfatdaxili münasibətlərdə gözlənilməz dəyişiklikləri, habelə subyektiv amilləri əhatə edən obyektiv amillər kimi təsnif etmək olar. Digər subyektlərin müqavilələrə əməl etməməsi, eləcə də bazardakı vəziyyətin dəyişməsi bu amillərlə əlaqələndirilə bilər. Ona görə də dövlət sahibkarlıq fəaliyyətində və investisiyalarda yarana biləcək bəzi riskləri öz üzərinə götürməlidir. Bir qayda olaraq, kənd təsərrüfatı əmtəə istehsalçıları üçün xarici mühit amilləri qeyri-müəyyənlik səviyyəsi ilə müəyyən edilir. Bu amilləri mikro və makro mühit amilləri kimi təsnif etmək olar. Mikromühit amilləri risklərin səviyyəsinə birbaşa təsir göstərir və tədarükçülər, istehlakçılar, vasitəçilər, rəqiblər, dövlət orqanları, maliyyə institutları, sığorta şirkətləri və digər qurumlar arasındakı münasibətlər çərçivəsində formalaşır. Bu amillər əmtəə istehsalçılarının istehsal imkanlarının müəyyən edilməsində mühüm rol oynayır. Makro ətraf mühit amilləri isə əmtəə istehsalçılarının mikro mühit amillərinə də təsir edir və təbii, demoqrafik, elmi-texniki, iqtisadi, ekoloji, siyasi və beynəlxalq ekoloji amilləri əhatə edir. Mikro ətraf mühit faktorları ilə müqayisədə, makro ətraf mühit amilləri daha çox dəyişən ehtiva edir və gözlənilməzdir. Qeyd etmək lazımdır ki, kənd təsərrüfatı əmtəə istehsalçıları öz fəaliyyətlərində bəzi mikroekoloji amilləri tənzimləyə bilərlər. Ölkəmizdə borc kapitalı istehsal subyektlərinin maliyyə təminatının artırılması üçün mühüm maliyyə mənbəyinə çevrilmişdir. Bununla belə, son illərdə iqtisadi sektorlar tərəfindən verilən kreditlərin daha çox hissəsini ticarət və xidmət sektoru təşkil edir. Bu, əsasən, bu sahədə kapitalın digərləri ilə müqayisədə daha sürətli dövriyyəsi ilə bağlıdır. Verilmiş kreditlərin strukturunda istehlak kreditlərinin xüsusi çəkisinin yüksək olması bank sektorunun biznes subyektlərinə ehtiyatlı yanaşmasından xəbər verir. Qeyd etmək vacibdir ki, 2020-ci ildə kənd təsərrüfatı istehsalı və emalı subyektlərinə 566,2 milyon manat kredit vəsaiti ayrılması ümumi kredit portfelinin cəmi 3,9 faizini təşkil edib ki, bu da nisbətən aşağıdır. Sığorta sisteminin təkmilləşdirilməsi kənd təsərrüfatında investisiya risklərinin idarə olunması üçün əsas strategiyalardan biridir. Daha əvvəl qeyd edildiyi kimi, bu risklər məhsuldarlığa və davamlı inkişafa mənfi təsir göstərir, ona görə də hökumət onların aradan qaldırılması üçün müəyyən tədbirlər görməlidir. İnanırıq ki, sığorta sisteminin geniş surətdə təkmilləşdirilməsi üzrə tədbirlərin həyata keçirilməsi aqrar sektorda mənfəət itkilərinin azaldılması və onun uzunmüddətli davamlılığının artırılması üçün əlverişli zəmin yarada bilər.

**Ədəbiyyat:**

1.Hodge, G. A. (2009). Public–Private Partnerships: An International Performance Review. Public Administration Review, 69(3), 545-556.

2.World Bank. (2018). Maximizing Finance for Development: Leveraging the Private Sector for Growth and Sustainable Development. Washington, DC: World Bank.

3.Flyvbjerg, B., Skamris Holm, M. K., & Buhl, S. L. (2005). How (In)accurate Are Demand Forecasts in Public Works Projects? The Case of Transportation. Journal of the American Planning Association, 71(2), 131-146.

4.Zhang, X., Liu, J., & Zuo, J. (2013). Critical Success Factors for Public-Private Partnership Projects: International Comparison. Journal of Management in Engineering, 29(2), 133-143.

5.Mohsin, A., & Li, B. (2019). Public-Private Partnerships in Infrastructure Development: A Critical Review. Journal of Infrastructure Systems, 25(4), 04019009.

6.Yescombe, E. R. (2014). Public-Private Partnerships: Principles of Policy and Finance (2nd ed.). Waltham, MA: Academic Press.

7.Grimsey, D., & Lewis, M. K. (2002). Evaluating the Risks of Public Private Partnerships for Infrastructure Projects. International Journal of Project Management, 20(2), 107-118.

8.UN Economic Commission for Europe (UNECE). (2012). Guidebook on Promoting Good Governance in Public-Private Partnerships. Geneva: United Nations.

9.Pollitt, M., & Bouckaert, G. (2017). Public Management Reform: A Comparative Analysis - New Public Management, Governance, and the Neo-Weberian State (4th ed.). Oxford: Oxford University Press.

# GREEN DIGITAL FINANCE: THEORETICAL FRAMEWORK

**Amrahova Gunel Jannataly**
**Azerbaijan State University of Economics**
**https://orcid.org/0000-0002-7706-1536**
**gunel.amrahova.c@sabah.edu.az**

# YAŞIL RƏQƏMSAL MALİYYƏ: NƏZƏRİ ÇƏRÇİVƏ

**Əmrahova Günel Cənnətəli**
**Azərbaycan Dövlət İqtisad Universiteti**
**https://orcid.org/0000-0002-7706-1536**
**gunel.amrahova.c@sabah.edu.az**

**Xülasə**

Ətraf mühitin pozulması və dünya iqlim dəyişikliyi, kütləvi enerji tələbini qarşılamaq üçün artan neft hasilatından doğulmuşdu. Bu durum şirkətlər üçün ikiqat risk yaratmışdır. Yaşıl maliyyə tələb olunan dayanıqlı layihələrin maliyyələşdirilməsində mövcud boşluğu doldurmaq potensialına malikdir. Digər tərəfdən, digitallaşma və ya rəqəmsal texnologiyaların inkişafı tələb olunan dayanıqlı layihələrin artımının təşəbbüsü olaraq, yeni iqtisadiyyatın "Yeni Nefti" adlanan parlaq ulduzu kimi ortaya gəlmişdir.

Bu iki konsept dünya maliyyə bazarında yeni irəliləmələrə dəstək verdi və bunlardan ən mühümünü yaşıl rəqəmsal maliyyə təşkil edir. Yaşıl rəqəmsal maliyyə tələb olunan dayanıqlı iqtisadi inkişaf üçün birbaşa əlverişli olan bir sahədir. Ancaq bu sahə, risk və mükafatlar arasında olan münasibətin bütöv mənada anlaşılmasını tələb edir.

Bu tezis yaşıl rəqəmsal maliyyənin mövcud təriflərini nəzərdən keçirərək yeni tərifini tövsiyə verir və yaşıl rəqəmsal maliyyə resurslarının yaradılması, idarə edilməsi və təmin edilməsi fəaliyyəti üçün iki faktorun müəyyən edilməsinə əsaslanır - maliyyə əməliyyatları üçün effektivliyi artırmağa nail rəqəmsallıq filtri və işində CO2 emissiyası səviyyəsindən daha yüksək olan şirkətlər üçün məhdudlaşdırıcı karbon filtri. Bu təyinat yaşıl rəqəmsal maliyyə ilə əlaqəli risk və mükafatların müəyyən sahə və xüsusiyyətinə təsir edir və əsasən, bu sahədə fəaliyyət göstərən şirkətlər tərəfindən istifadə edilən müvafiq risk idarəetmə çərçivələrinin tətbiq edilməsindən əvvəl informasiya verərək, tələb olunan dayanıqlı layihələr üçün investisiyaları dəstəkləyərək və siyasət formalaşdırmağa və tənzimləmə çərçivələrinə yol göstərərək müvafiq bilikləri verir. Əlavə araşdırmalar və inkişaf, teoretik çərçivənin effektivliyini artıracaq və inkişaf etməkdə olan yaşıl rəqəmsal maliyyə sahəsində fəaliyyət göstərən şirkətlər üçün risk idarəetmə çərçivələrinin qurulmasına kömək edəcək.

**Açar sözlər:** yaşıl rəqəmsal maliyyə, digitallaşma, iqlim riskləri, rəqəmsal risklər, yaşıl iqtisadiyyat

# ЗЕЛЕНОЕ ЦИФРОВОЕ ФИНАНСИРОВАНИЕ: ТЕОРЕТИЧЕСКАЯ КОНЦЕПЦИЯ

**Амрахова Гюнель Джаннатали**
**Азербайджанский Государственный Экономический Университет**
**https://orcid.org/0000-0002-7706-1536**
**gunel.amrahova.c@sabah.edu.az**

**Резюме**

Загрязнение окружающей среды и глобальное изменение климата стали последствиями чрезмерной добычи нефти в ответ на растущий мировой спрос на энергию, создавая двойные риски для компаний. Зеленое финансирование имеет потенциал для заполнения существующего разрыва в финансировании устойчивых проектов через разнообразные форматы.

С другой стороны, рост цифровых технологий стал восходящей звездой новой экономики как стимулятор устойчивого роста. Учитывая высокую стоимость этой «новой нефти», цифровая трансформация может рассматриваться как деятельность предприятий по увеличению ценности бизнеса.

Эти два концепта поддержали новейшие запуски в финансовом мире, включая зеленое цифровое финансирование. Зеленое цифровое финансирование представляет собой многообещающий путь к устойчивому экономическому развитию путем выравнивания финансовых деятельностей с экологическими целями. Однако для развития этой новой области требуется комплексное понимание компромиссов между рисками и вознаграждениями.

В данной исследовательской работе представлено определение зеленого цифрового финанса как деятельности по созданию, управлению и распределению финансовых ресурсов с применением двух фильтров: цифрового стимулирования финансовых транзакций для повышения эффективности и углеродного фильтра, который устанавливает границы для распределения ресурсов в компаниях с уровнем выбросов CO2 выше, чем принятый в отрасли стандарт. Это определение оказывает влияние на спектр и характер рисков и вознаграждений, связанных с зеленым цифровым финансом, и перед тем, как соответствующие рамки управления рисками могут быть применены компаниями, действующими в этой области, что способствует принятию обоснованных решений, поддерживает устойчивые инвестиции и определяет формулирование политики и регулятивных рамок. Дальнейшие исследования и разработки улучшат эффективность теоретической концепции и позволят постоянно совершенствовать рамки управления рисками для компаний в развивающейся области зеленого цифрового финанса.

**Ключевые слова**: зеленое цифровое финансирование, цифровизация, климатические риски, цифровые риски, зеленая экономика.

The global economy has witnessed remarkable transformation over past decades, enabled by technological advancement and limited by global climate change. These externalities reshaped financial markets, leading to vulnerable and unpredictable outcomes when achieving allocative efficiency.

Presence of these externalities disrupts market equilibrium to achieve allocative efficiency, where the marginal benefit equals the marginal cost (Xinwei Gao, 2022). Pigou (Pigou, 1924) first introduced the concept of externalities in economic theory, referring to the latter as the costs or benefits arising from production or consumption of goods and services and experienced by parties not directly involved in the market transaction. He categorized them into positive and negative forms, which are defined as the main reasons why markets may fail to achieve allocative efficiency.

**Global climate change as a negative externality to sustainable development**

Environmental pollution and global climate change as a negative externality has been offshoot as a result of exaggerated oil production in response to the growing energy demand globally (Nordhaus, 2018). This danger created dual risks for the companies. The consequences of environmental harm can be

represented in physical form, leading to significant financial losses as an effect of climate change. Conversely, climate change is also a source of transition risks, associated with climate change during the transition to a low-carbon economy. These risks are complex and interrelated representing risk-risk trade-off, so that mitigation ways of one risk can become a source of another risk. From the perspective of climate change, transition risks include the risks, arising from the measures to mitigate global warming and climate change. These risks, namely, technology, legal, regulation and market risks, have a significant impact on the business models indirectly, bringing to necessity to consider not only physical exposure of companies to the climate change, but also transition exposure to the risks associated with the global warming. With this externality, the market tends to overproduce carbon-heavy goods and services because the costs borne by society are not fully reflected in the prices, reflecting in surpass of the private cost by the social cost, leading to an inefficient allocation of resources. The Law of Externalities implies that government intervention, such as taxes, regulations, or tradable permits, may be necessary to internalize the external costs and restore allocative efficiency.

**Digitalization as a positive externality to sustainable development**

As opposed to climate change, which dissuades sustainable development, another externality, - digitalization, has become a rising star of the new economy as an enabler of sustainable growth. C. Humby (2003) called data the “new oil”, due to its high value in the modern world. With this regard, digital transformation can be viewed as an activity of businesses to increase their business value. This positive externality creates overflowing benefits not fully recognized by the participants of the transaction. As a result, the market tends to underproduce digital goods or services. The Law of Externalities suggests that in the presence of positive externalities, government intervention, such as subsidies or public provision, may be warranted to incentivize the production and consumption of socially beneficial goods or services.

Digitalization is defined as a process of using digital technologies to advance business models to generate more value (Guandalini, 2022). This can affect businesses in terms of what they produce, when and where they produce their products and services, and most importantly, how they produce and deliver their products. Drivers of digitalization processes run at the companies involve the volume, accuracy, and speed of information for more informed decision-making.

Digitalization nowadays is highly valued as effective transformation for businesses across different industries, from technology to capital industries, including extractive sectors, as a solution for improving technology, capital and production efficiencies while being safe. The role of digitalization in financial markets is indisputable in terms of introducing financial and technological innovations which develop financial markets with the carbon filter applied. However, digitalization is a multidisciplinary process, which provides huge benefits only if the risks and rewards and digitalization process itself have been clearly identified and structured.

For the companies, understanding how to identify and roll-out the high-value solutions with less costs and risks has been a great challenge in the last twenty years. One of the current business challenges, particularly for capital projects industries, has been a complexity of change of this magnitude and high potential for failure, which is estimated as higher risk with the higher probability of loss and higher loss impact in case of failure.

**Convergence of green finance and digital finance into green digital finance**

Green digital finance is a multidimensional concept that combines the principles of green finance and digitalization to drive sustainable investments. Green finance refers to financial activities that support environmentally friendly projects and businesses, aiming to address climate change and promote sustainable development. Digitalization, on the other hand, involves the use of digital technologies to

transform financial processes, enhance transparency, and facilitate the flow of capital (Demirag, 2020). Green digital finance encompasses the application of digital tools and innovative financial mechanisms to mobilize funds for green initiatives, improve efficiency, and measure environmental impact (Green Fintech: Innovations for Clean Growth., 2018).

There are multiple dimensions and forms green digital finance can take, but each of them holds its on risks but at the same time create new risks as well. While green finance is used by financial institutions to make investment decisions with carbon filter applied, green digital finance is about reducing the costs and, thus, improving the efficiency of the financial transactions with the same carbon filter when making financial deals. However, successful implementation of emerging green digital solutions, such as artificial technology, internet-of-things data, big data, data tokens, blockchain for climate impact reporting, might face limitations of poor standardization, integration, regulation, and solid policy framework (F.Paradise, 2022).

Green digital finance is linking financial innovations and sustainability by unlocking investment and filling the finance gap with private funds, boosting financial inclusion and transparency and lowering the cost of business transactions (Sarvar Gurbanov, 2022). Case studies from countries with centrally developed digital currencies prove this phenomenon being an important tool for greener state financial systems (Vijeta Singh, 2022).

Based on the concepts from the existing literature, this study suggests a new definition for green digital finance as an activity about creation, management and allocation of financial resources with two filters applied – filter of digital enabler of financial transactions for efficiency improvement and carbon filter, which sets boundaries for resource allocation in businesses with higher than industry-applied benchmark of CO2 emissions.

Derived from externalities, green digital financial market can be only efficient when proper actions on internalizing these externalities is in place. In order to internalize digital and climate factors, both externalities should be assessed from the perspectives of their financial impact to achieve allocative efficiency.

Trade-offs in green digital finance refer to the inherent compromises between risks and rewards that investors and stakeholders need to consider when making sustainable investment decisions. These trade-offs involve balancing the potential benefits of environmental impact and financial returns against the associated risks.

Several factors influence the trade-offs between risks and rewards in green digital finance. (Siddiqui, D. A., et al., 2021) These factors include regulatory frameworks, technological advancements, market conditions, investor preferences, project characteristics, and the ability to effectively measure and manage risks and rewards (D'Avino, C., et al., 2020).

Green digital finance, which combines sustainability and digitalization in financial activities, has gained significant attention due to its potential for driving environmentally friendly initiatives and promoting financial innovation. However, the effective assessment and management of risks and rewards associated with green digital finance remain critical challenges. This literature review aims to explore the application of grey systems analysis in evaluating risks and rewards in the context of green digital finance. Grey systems analysis, known for its ability to handle uncertainties and incomplete information, offers a promising framework for comprehensively assessing the complex dynamics of risks and rewards in this domain.

Green digital finance presents opportunities for sustainable investments that consider both financial returns and environmental impacts. However, estimating trade-offs between risks and rewards in this domain is not without challenges. This research paper has explored various aspects related to trade-offs in

green digital finance, and proposed a new definition for green digital finance, which encompasses internalizing the externalities associated with green digital financial activities.

Understanding and estimating trade-offs between risks and rewards in green digital finance is a complex task. Addressing the challenges and leveraging the opportunities in this domain requires collaboration, data-driven analysis, policy support, and a commitment to sustainable development. By navigating these challenges and optimizing resource allocation, green digital finance can become a catalyst for sustainable investments that generate both financial returns and positive environmental impacts.

**References:**


1. Chang, C. (2011). Application of a weighted Grey-Taguchi method for optimizing recycled aggregate concrete mixtures. *Cement and Concrete Composites*.

2. D'Avino, C., et al. (2020). Green Finance: Risks, Opportunities, and Market Behavior. *Sustainability, 12(2), 453.*

3. Demirag, D. K. (2020). Digital Finance: Transforming the Financial System Towards Sustainable Development. *Digital Finance: Challenges and Prospects,* 1-15.

4. Emma Bell, A. B. (2019). *Business Research Methods* (5th ed.). Oxford: Oxford University Press.

5. F.Paradise, J. (2022). Chapter 8 The Role of Green Digital Finance in Achieving Sustainable Development Goals in China's Belt and Road Initiative. In J. F.Paradise. Springer Science and Business Media LLC.

6. (2018). *Green Fintech: Innovations for Clean Growth.* Inter-American Development Bank.

7. Guandalini, I. (2022). Sustainability through digital transformation: A systematic literature review for research guidance. *Journal of Business Research, 148,* 456-471. doi:https://doi.org/10.1016/j.jbusres.2022.05.003

8. Hair Joseph F, W. C. (2019). *Multivariate Data Analysis.* Hampshire, UK: Cengage Learning EMEA.

9. Humby, C. (2003). *Scoring Points.*

10. John W. Creswell, a. D. (2018). *Research Design* (5th ed.). Thousand Oaks: CA: SAGE Publications.

11. Nordhaus, W. (2018). Projections and Uncertainties about Climate Change in an Era of Minimal Climate Policies. *American Economic Journal: Economic Policy,* 333-360.

12. Pigou, A. C. (1924). *The Economics of Welfare.* London: Macmillan.

13. Sarvar Gurbanov, F. S. (2022). Chapter 10 Analytical Assessment of Green Digital Finance Progress in the Republic of Georgia. In *Springer Science and Business Media LLC.* Part of the Economics, Law, and Institutions in Asia Pacific book series (ELIAP).

14. Siddiqui, D. A., et al. (2021). Exploring Factors Affecting the Trade-off between Risk and Return in Green Bond Investments: An Empirical Analysis. *Journal of Sustainable Finance & Investment*.

15. Suárez, R. E.-P.-R. (2018). Impact of climate change: Environmental assessment of passive solutions in a single-family home in Southern Spain. *Sustainability, 10 (8).* doi:https://doi.org/10.3390/su10082914

16. Vijeta Singh, N. M.-H. (2022). Chapter 11 Mapping the Current Practices and Patterns of Green Digital Finance in India and the Way Forward. In N. M.-H. Vijeta Singh, *Green Digital Finance and Sustainable Development Goals* (pp. 223-242). Singapore: Springer Singapore. doi:https://doi.org/10.1007/978-981-19-2662-4

17. Xinwei Gao, N. L. (2022). Environmental Protection Tax Law on the synergy of pollution reduction and carbon reduction in China: Evidence from a panel data of 107 cities.

# AİLƏ BİZNESLƏRİNİN MƏŞĞULLUĞA TƏSİRİNİN TƏHLİLİ

**Musayev Yusif Ehtiram**
**Azərbaycan Dövlət İqtisad Universiteti**
**https://orcid.org/0009-0006-7806-8891**
**musayevv.y@gmail.com**

# ANALYSIS OF THE IMPACT OF FAMILY BUSINESSES ON EMPLOYMENT

**Musayev Yusif Ehtiram**
**Azerbaijan State University of Economics**
**https://orcid.org/0009-0006-7806-8891**
**musayevv.y@gmail.com**

**Summary**

The manifestations of the fourth industrial revolution and digital transformation have made the solution of the employment problem even more urgent in most countries of the world. In this context, family businesses, which include the majority of global business establishments, make important contributions to the elimination of unemployment due to their sustainable nature, close ties to local communities and a number of other characteristics. In particular, the development of family businesses in low-income countries is driven by the need to provide more employment.

Taking all this into account, the article examines the impact of family businesses on providing employment using literature review, content analysis, comparison and generalization methods. In order to achieve the tasks set by the research, research results published in authoritative scientific sources, information of international and local organizations were consulted.

**Keywords**: Family business, employment, development.

# АНАЛИЗ ВЛИЯНИЯ СЕМЕЙНОГО БИЗНЕСА НА ЗАНЯТОСТЬ

**Мусаев Юсиф Эхтирам**
**Азербайджанский Государственный Экономический Университет**
**https://orcid.org/0009-0006-7806-8891**
**musayevv.y@gmail.com**

**Резюме**

Проявления четвертой промышленной революции и цифровой трансформации сделали решение проблемы занятости еще более актуальным в большинстве стран мира. В этом контексте семейные предприятия, к которым относится большинство глобальных коммерческих предприятий, вносят важный вклад в ликвидацию безработицы благодаря своему устойчивому характеру, тесным связям с местными сообществами и ряду других характеристик. В частности, развитие семейного бизнеса в странах с низким уровнем дохода обусловлено необходимостью обеспечить больше рабочих мест.

С учетом всего этого в статье рассматривается влияние семейного бизнеса на обеспечение занятости населения с использованием литературного обзора, контент-анализа, методов сравнения и обобщения. Для достижения задач, поставленных исследованием, были учтены результаты исследования, опубликованные в авторитетных научных источниках, информация международных и местных организаций.
**Ключевые слова:** Семейный бизнес, трудоустройство, развитие.

Azərbaycan Respublikası dövlət müstəqilliyini bərpa etdikdən sonra bazar iqtisadiyyatı münasibətlərinə keçid yolu tutmuş və böyük iqtisadi inkişaf yolu keçmişdir. Ulu öndər Heydər Əliyev tərəfindən əsası qoyulmuş neft-qaz strategiyasının uğurla həyata keçirilməsi milli iqtisadiyyata böyük həcmdə maliyyə axınının təmin edilməsinə və həyati əhəmiyyət daşıyan investisiya layihələrinin gerçəkləşdirilməsinə şərait yaratmışdır. Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən iqtisadi inkişaf strategiyasının əsas istiqamətlərini isə milli iqtisadiyyatın şaxələndirilməsi və özəl sahibkarlığın müxtəlif növlərinin inkişaf etdirilməsinə nail olmaqla tam məşğulluğun və davamlı inkişafın təmin edilməsi təşkil edir. Bölgələrin sosial-iqtisadi inkişafına nail olmaq məqsədilə qəbul edilmiş müvafiq dövlət proqramları, 2016-cı ildə təsdiq olunmuş strateji yol xəritələri milli iqtisadiyyatın prioritet istiqamətlərini müəyyənləşdirmiş və inkişaf imkanlarını genişləndirmişdir. Bu baxımdan, qlobal biznes təsisatlarının aparıcı forması kimi qəbul edilən ailə bizneslərinin Azərbaycanda inkişaf etdirilməsi bölgələrdə, xüsusilə işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında insanların dayanıqlı məşğulluğunun təmin edilməsinə və sosial rifahının yüksəldilməsinə təkan verə bilər.

Mövcud innovasiyalı rəqabət mühitində firmalar arasında kəskin mübarizənin getdiyi bir zamanda ailə biznesləri mövcudluğunu qoruyan və uzunömürlülük strategiyalarını həyata keçirən qlobal biznes müəssisələrinin təxminən 80%-ni təmsil edən dominant biznes formasıdır. Buna görə də, onlar iqtisadiyyatın böyüməsində və aktiv işçi qüvvəsinin məşğulluğunun təmin edilməsində əsas rol oynayır (Ahmad, Omar və Quoquab, 2021). Daha önəmli bir amil ondan ibarətdir ki, ailə müəssisələri gəlirləri artırmaq və iqtisadi fəaliyyət üçün vacib bir biznes mühiti yaradır və bu da öz növbəsində bütün ölkələrdə prioritet kimi qəbul olunan orta təbəqənin inkişafına xidmət edir.

Ailə sahibkarlığı münasibətləri biznesin davamlı olmasına, xüsusilə, qərar qəbuletmə prosesinin çevik işləməsinə əhəmiyyətli təsir göstərir. Araşdırmalar sübut edir ki, ailə biznesi borc və faizdən qaçmağa çalışır. Bu onunla əlaqədardır ki, kreditlər və digər xarici maliyyə resursları biznes üzərində ailə nəzarətinin itirilməsinə səbəb ola bilər (Jakubova, 2019). Bu isə ailə bizneslərində kredit risklərinin aradan qaldırılması ilə nəticələnir. Beləliklə, ölkəmizdə ailə bizneslərinin inkişafı sahibkarlıqda risk faktorlarının da azalmasına gətirib çıxara bilər.

**Ailə biznesləri və məşğulluq problemi**

Ailə biznesləri dünya iqtisadiyyatının əsas drayverlərindən biri olmaqla bir çox makroiqtisadi göstəricilərin, o cümlədən, ÜDM, milli gəlir və sənaye istehsalının formalaşmasında və məşğulluğun təmin edilməsində mühüm rol oynayır. Ancaq bu göstəricilər arasında məşğulluğun təmin edilməsi tədqiqat baxımından xüsusi əhəmiyyət kəsb edir. Ona görə ki, son onillikdə rəqəmsal transformasiya prosesləri və texnologiyanın tətbiqinin genişlənməsi müxtəlif industriyalara və bizneslərə təsir edərək məşğulluq problemini daha da kəskinləşdirmişdir (Kolade və Owoseni, 2022). Bu baxımdan, ailə biznesləri bütün ölkələrdə fəaliyyət göstərir və araşdırmalara görə, bu sahibkarlıq subyektləri qlobal biznes təsisatlarının əksəriyyətini əhatə etməklə xalqların sosial-iqtisadi tərəqqisində əhəmiyyətli paya sahibdir. Araşdırmalarımıza əsaslanmaqla deyə bilərik ki, bəzi ölkələrdə ailə bizneslərinin inkişafı zərurətdən irəli gələrək məşğulluq siyasətinin həyata keçirilməsində aparıcı alət kimi çıxış edir (Musayev, 2022).

Ailə bizneslərinin yaranmasında zərurət motivlərinin ən yüksək göstəriciləri aşağı gəlirli ölkələrdə qeydə alınmışdır. Məsələn, Misirdə bu göstərici 50%, Hindistanda isə 46% təşkil edir. Bunun əksinə olaraq,

Polşa, İsveç, İsveçrə, Lüksemburq, Hollandiya və ABŞ kimi bütün yüksək gəlirli ölkələrdə ailə sahibkarlığının yaranması və inkişafında zərurət motivlərinin payı 10% və ya daha aşağı olur (GEM, 2021). Bunu onunla izah etmək olar ki, aşağı gəlirli ölkələrdə insanlar gəlirli iş yerləri tapmaqda çətinlik çəkdiklərinə görə, ailə təmsilçiləri qurduqları biznesə ailə üzvlərini cəlb etməklə həm biznesin fəaliyyət göstərməsini, həm də ailə fərdlərinin məşğulluğunu təmin edirlər. Ona görə də, aşağı gəlirli ölkələrdə ailə biznesləri sosial-iqtisadi inkişafda daha böyük rola malik olurlar.

Ailə bizneslərinin məşğulluğa töhfəsindən bəhs edən birinci məqalə 1980-ci ildə Daiend və Reuschlingin həmmüəllifliyi ilə yazılmışdır (Amato, Basco və Lattanzi, 2022, s. 536). Bu o deməkdir ki, ailə biznesi fenomenini araşdırmaq üçün müraciət edilən ailə biznesləri, ailə bizneslərinin idarə edilməsi, biznes iqtisadiyyatı kimi müxtəlif tədqiqat istiqamətlərindən əlavə ailə biznesinin məşğulluğa təsirinin nəticələrini izah etmək məqsədilə də bir neçə nəzəriyyədən istifadə edilmişdir. Bu kontekstdə əsas etibarilə iki əsas nəzəri yanaşma mövcuddur.

**Birinci yanaşmaya** görə, ailənin iştirakı ilə yaradılmış mühit və firma arasında xarici əlaqə tipi mövcuddur. Bu əlaqənin mövcudluğu sosial kimlik nəzəriyyəsi və sosial kapital kimi yanaşmalarla dəstəklənir. Qeyd olunan yanaşmalara əsasən, ailə biznesləri müəyyən zaman müddəti ərzində yerli icmalarla sıx əlaqə qurmaqla cəmiyyətin gələcək rifahına töhfə vermək baxımından sosial təzyiqlə üzləşirlər.

**İkinci yanaşma** ondan ibarətdir ki, ailə ilə ailə və biznes sistemlərinin qarşılıqlı əlaqəsi nəticəsində yaradılmış firma arasında daxili əlaqə tipi mövcuddur. Bu əlaqənin mövcudluğu resurs əsaslı baxış və idarəçilik nəzəriyyələri, eləcə də, sosial-emosional zənginlik yanaşmasının tərəfdarları tərəfindən dəstək qazanır. Bu yanaşmaya görə, ailə biznesinin nəsildən-nəslə ötürülməsi ailə sahibkarlarını öz işçilərini daxili maraqlı tərəflər kimi biznesdə fəal iştirak etməyə sövq edir (Amato, Basco və Lattanzi, 2022, s.559).

Qlobal Sahibkarlıq Monitorinqi (GEM) tərəfindən açıqlanmış hesabata görə, mövcud sahibkarlıq subyektlərinin 75%-i və yeni yaranan müəssisələrin 81%-i ya ailələr tərəfindən idarə olunur ya da ailə üzvləri əsas səhm və ya mülk sahibidirlər. GEM-in hesabatına əsasən Cənubi və Şərqi Asiyada ailə üzvlərinin iştirakı ilə yaranan bizneslər məcmu sahibkarlıqda ən böyük paya malikdirlər. Təbii ki, bu iqtisadiyyatlarda ailə sahibkarlığı əhalinin məşğulluğunun və ümumiyyətlə sosial-iqtisadi inkişafın təmin edilməsində mühüm rol oynayırlar. Ailə sahibkarlarının yerli icmaların rifah səviyyəsinin yüksəldilməsinə əsas töhfələrindən biri ondan ibarətdir ki, bu sahibkarlar biznes inkişaf etdikcə ailənin üzvü olmayan digər şəxsləri də işə götürürlər. Bununla belə, dünyanın 48 ölkəsini əhatə edən 4 bölgədə ailə sahibkarlarının 57%-i növbəti 5 ildə onların işçilərinin əksəriyyətinin ailə üzvlərindən ibarət olacağını planlaşdırdıqlarını bildirmişlər. Ailə sahibkarlarının bu gözləntiləri biznesin həyat dövrünün yetkinlik mərhələsində məşğulluq vəziyyətinə də təsir edir. Xüsusilə maraqlıdır ki, sahibkarların 62%-i onların işçilərinin əksəriyyətinin ailə üzvlərindən ibarət olduğunu təsdiq etmişdir (GEM, 2021). Beləliklə, ailə bizneslərinin inkişaf etdiyi ölkələrdə onların ilk məqsədi ailə üzvlərinin məşğulluğunu və gəlir qazanmasını təmin etməkdən ibarətdir. Ancaq təhlil zamanı daha bir nəticəyə də gəlmək olur ki, ailə mülkiyyətində olan və ya onlar tərəfindən idarə olunan firmalarda çalışan işçilərin ən azı 38%-i kənar şəxslərdən ibarət olur. Vurğulamaq lazımdır ki, bu proses ziddiyyətli və dialektik xarakterə malik olmaqla ailə bizneslərinin beynəlmiləlləşməsinə, qlobal biznesə inteqrasiyasına və sosial tərəqqiyə təsirinin artmasına gətirib çıxarır.

Müqayisə etdikdə ailə sahibkarlarının sürətli artım templərindən daha çox davamlı inkişaf xarakterinə görə rəqabətcil olduğu və böhranlar zamanı risklərə tolerantlığı ilə seçildiyi məlum olur. Sahibkar daima biznes proseslərinin mərkəzində olduğuna görə bazarda baş verən dəyişikliklərə də sürətli şəkildə adaptasiya oluna bilir. Bu o anlama gəlir ki, ailə biznesləri təkcə mənfəət qazanmaq məqsədi daşımır, eyni zamanda, onlar işçilərin və yerli icmaların sosial rifahının gücləndirilməsinə xidmət edir. Araşdırmalar ailə sahibkarlarının digər sahibkarlara nisbətən daha yaxşı işəgötürən olduqlarını sübut edir (Baron və Lachenauer,

2021). Bütün bunlar ailə bizneslərinə rəqabət üstünlüyü qazandırır və onların davamlı məşğulluğa töhfə verməsini şərtləndirir. Təbii ki, müxtəlif böhranlar və firmaların həyat dövrünün qısa olması insanların iş yerlərini itirməsi ilə nəticələnir. Ancaq ailə bizneslərinin böhranlara və risklərə qarşı tolerant olması və uzunömürlülüyü onların daha etibarlı və dayanıqlı iş yeri olması ilə nəticələnir.

Dünyanın ən güclü iqtisadiyyatına malik ABŞ-də ailə biznesləri iqtisadiyyatın onurğa sütunu hesab olunur. Ailə sahibkarlığı KOB-lardan tutmuş transmilli korporasiyalara qədər müxtəlif biznesləri əhatə edir və eyni zamanda ölkənin 500 ən varlı şirkətinin 35%-i ailə biznesidir. Ailə biznesləri ABŞ-ın ÜDM-nin 64%-ni, məşğulluğun 62%-ni və yeni iş yerlərinin 78%-ni təmin edir (https://www.familybusinesscenter.com/resources/family-business-facts/).

Qeyd etmək lazımdır ki, ailə bizneslərinin davamlı məşğulluğa töhfə verən əsas əlamətlərindən birini onların uzunömürlü olması təşkil edir. Düzdür ailə bizneslərinin heç də hamısı növbəti nəslə keçə bilmir və bu faktor onların əsas problemlərindən biri kimi qəbul olunur. Aparılmış araşdırma nəticələri göstərir ki, fəaliyyət göstərən bütün ailə bizneslərinin yalnız üçdə-biri ikinci nəslə, 13%-i isə üçüncü nəslə ötürülə bilir (Baron və Lachenauer, 2021). Ancaq bu göstəricinin özü belə ailə sahibkarlığının davamlı məşğulluq baxımından ən əlverişli biznes növlərindən biri olduğunu inkar etməyə əsas vermir.

**Azərbaycanda ailə bizneslərinin məşğulluğa təsir perspektivləri**

Azərbaycanda təbii işsizlik səviyyəsinə maksimal yaxınlaşmanı təmin etmək məqsədilə bir sıra dövlət proqramları qəbul edilir və davamlı olaraq effektiv üsulların tətbiqi həyata keçirilir (https://dma.gov.az/agentlik/strateji-meqsedler). Bununla belə, ailə bizneslərinin inkişafı işsizliklə mübarizədə ən effektiv vasitə kimi çıxış edə bilər. Bu baxımdan, 23.09.2016-cı il tarixli Fərmanla Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyində “ABAD” - Ailə Biznesinə Asan Dəstək publik hüquqi şəxsin yaradılması ailə bizneslərinin inkişafında yeni mərhələnin başlanğıcı olmuşdur. Təşkilatın əsas missiyası ölkənin sosial-iqtisadi tərəqqisində vətəndaşların aktiv iştirakına, KOB-ların inkişafına və insanların məşğulluq səviyyəsinin yüksəldilməsinə, eləcə də, rəqabətcil ailə bizneslərinin formalaşdırılmasına dəstək verməkdir. Fəaliyyətdə olan “ABAD” mərkəzləri ailə təsərrüfatlarını biznes-planlaşdırma, marketinq, təlimlər, brendinq və dizayn, maliyyə-mühasibat, hüquqi yardım və ən əsası, satışın təşkili və avadanlıq ilə təmin edir (Musayev, 2021). Açıq təqdim edilmiş məlumatlara əsasən ABAD tərəfindən ümumilikdə 533 ailə biznesinə dəstək verilmişdir və 2022-ci ildə ABAD-a üzv olan sahibkarların illik maliyyə dövriyyəsi 2,7 milyon manat təşkil etmişdir. Əlbəttə ABAD modeli uğurludur və ailə bizneslərinin inkişafı baxımından mühüm əhəmiyyət kəsb edir (https://abad.gov.az/open-informations). Ancaq nəzərə almaq lazımdır ki, ailə bizneslərinin heç də hamısı ABAD-ın xidmətlərindən istifadə etmir. Digər tərəfdən isə, ailə bizneslərinə aid edilə bilən subyektlərin bir qismi rəsmi dövlət statistikasında ev təsərrüfatlarına dair verilənlərin tərkibində yer almışdır və bu o deməkdir ki, əslində Azərbaycanda ailə bizneslərinin sayı daha çoxdur və iqtisadiyyata töhfəsi daha böyükdür. Bu baxımdan ailə bizneslərinin ölkəmizdə əhalinin məşğulluğunda da mühüm rol oynadığı qənaətinə gəlmək olar. Ancaq yuxarıda qeyd olunan faktorlardan və Azərbaycanda ailə bizneslərinin məşğulluğa təsirini araşdıran tədqiqatlar aparılmadığına görə istifadə olunan metodlar əsasında ölkəmizdə müvafiq göstəricinin təhlilini aparmaq olmur. Buna görə də, müvafiq istiqamətdə empirik tədqiqatın aparılmasına ciddi ehtiyac vardır.

Dördüncü sənaye inqilabı və rəqəmsal transformasiyanın genişlənməsi qlobal miqyasda məşğulluğun təmin edilməsinə diqqətin artırılmasını daha da zəruri etmişdir. Bu baxımdan, ailə biznesləri uzunömürlü olması, maliyyə böhranlarına tolerantlığı və yerli icmalarla sıx bağlılığı kimi xüsusiyyətləri ilə məşğulluğun təmin edilməsində mühüm rol oynayır. Xüsusilə, aşağı gəlirli ölkələrdə ailə bizneslərinin inkişafı zərurətdən irəli gələrək işsizliyin aradan qaldırılmasına təkan verir. Azərbaycanda işsizliyə qarşı mübarizə siyasəti çərçivəsində müvafiq dövlət proqramları həyata keçirilir və ABAD-ın səmərəli fəaliyyəti nəticəsində ailə

bizneslərinə dəstək xidmətləri göstərilir. Ancaq apardığımız təhlillər onu deməyə əsas verir ki, Azərbaycanda ailə bizneslərinin böyük inkişaf perspektivləri vardır. Bu baxımdan, ailə biznesləri işğaldan azad edilmiş ərazilərdə insanların məşğulluğunun və dayanıqlı məskunlaşmanın təmin edilməsində əlverişli rol oynaya bilər. Ona görə ki, işğaldan azad edilmiş ərazilərin təbii potensialı və sənətkarlıq, kənd təsərrüfatı, ticarət, şərabçılıq və turizm ənənələri bu bölgələrdə müvafiq sahələrdə ailə bizneslərinin yaranmasına və inkişafına geniş perspektivlər açır.

**Ədəbiyyat**:


1. Ahmad, S., Omar, R., & Quoquab, F. (2021). Family firms' sustainable longevity: The role of family involvement in business and innovation capability. Journal of Family Business Management, 11(1), 86-106.
2. Amato, S., Basco, R., & Lattanzi, N. (2022). Contextualizing employment outcomes in family business research: current findings and future research avenues. Management Review Quarterly, 72(2), 531-604.
3. Baron, J., & Lachenauer, R. (2021). Do most family businesses really fail by the third generation? Harvard Business Review.
4. GEM. (2021). 2019/2020 Family Business Report.
5. https://abad.gov.az/open-informations
6. https://dma.gov.az/agentlik/strateji-meqsedler
7. https://www.familybusinesscenter.com/resources/family-business-facts/
8. Jakubova, Z. Financing of family businesses. EDAMBA 2019, 213.
9. Kolade, O., & Owoseni, A. (2022). Employment 5.0: The work of the future and the future of work. Technology in Society, 102086.
10. Musayev, Y. (2021). Development of family businesses in Karabakh region of Azerbaijan: new opportunities and prospects. Economic and Social Development: Book of Proceedings, 449-458.
11. Musayev, Y. (2022). Conceptual approaches to family businesses and the role of necessity motives in their emergence. Turan Stratejik Araştırmalar Merkezi, 14, 138-146.


# İŞĞALDAN AZAD EDİLMİŞ ƏRAZİLƏRDƏ KƏND TƏSƏRRÜFATININ İNKİŞAF ETDİRİLMƏSİ İMKANLARININ QİYMƏTLƏNDİRİLMƏSİ


**İsmayılov Hüseyn Rəyasət**

**Azərbaycan Dövlət İqtisad Universiteti**

**https://orcid.org/0009-0006-8154-473X**

**ismayilov199351@gmail.com**


# ASSESSMENT OF AGRICULTURAL DEVELOPMENT OPPORTUNITIES IN LIBERATED TERRITORIES


**Ismayilov Hüseyn Rayasat**

**Azerbaijan State University of Economics**

**https://orcid.org/0009-0006-8154-473X**

**ismayilov199351@gmail.com**

**Summary**

Assessing the potential for agricultural development in the liberated territories is an important effort to revitalize economies and ensure food security. After years of conflict and oppression, these regions have suffered from damaged infrastructure, depleted resources and disrupted agricultural cycles. However, in recent years, with the restoration works in these areas, the substructures have been established and these areas have been turned into agricultural fields and pastures. Also, statistics on the area of these areas and arable land will be recorded and analyzed. The application of innovative agricultural practices and the application of modern technologies are designed to increase productivity and optimize the use of resources. In addition, students have been sent to study in foreign countries where education is given importance in order to train qualified personnel in this field. In addition, subsidies and grants have been provided to support local farmers. This development will soon revive agriculture in the liberated regions.

**Keywords:** agriculture, organization of agriculture, innovative agriculture

# ОЦЕНКА ВОЗМОЖНОСТЕЙ РАЗВИТИЯ СЕЛЬСКОГО ХОЗЯЙСТВА НА ОСВОБОЖДЕННЫХ ТЕРРИТОРИЯХ

**Исмайлов Гусейн Раасат**

**Азербайджанский Государственный Экономический Университет**

**https://orcid.org/0009-0006-8154-473X**

**ismayilov199351@gmail.com**

**Резюме**

Оценка потенциала развития сельского хозяйства на освобожденных территориях является важной мерой по оживлению экономики и обеспечению продовольственной безопасности. После многих лет конфликта и угнетения эти регионы пострадали от поврежденной инфраструктуры, истощения ресурсов и нарушения сельскохозяйственных циклов. Однако в последние годы в результате восстановительных работ на этих территориях были созданы подземные сооружения, и эти территории были превращены в сельскохозяйственные поля и пастбища. Также будет вестись и анализироваться статистика по площади этих участков и пашни. Применение инновационных методов ведения сельского хозяйства и применение современных технологий призваны повысить производительность и оптимизировать использование ресурсов. Кроме того, студенты направляются на обучение в зарубежные страны, где образованию придается большое значение с целью подготовки квалифицированных кадров в этой области. Кроме того, субсидии и гранты были предоставлены для поддержки местных фермеров. Это развитие вскоре оживит сельское хозяйство в освобожденных районах.

**Ключевые слова:** сельское хозяйство, организация сельского хозяйства, инновационное сельское хозяйство.

Kənd təsərrüfatının mahiyyəti qədim zamanlardan mövcudluğumuzun kökləri ilə iç-içə olan bəşər sivilizasiyasının tam mərkəzində dayanır. Özündə kənd təsərrüfatı torpağın becərilməsini və qida, lif və bəşəriyyət üçün digər zəruri resursları istehsal etmək üçün canlı orqanizmlərin yetişdirilməsini əhatə edir. Bu, həyatı təmin edən, iqtisadi inkişafa təkan verən və bütün dünyada mədəni kimlikləri formalaşdıran fundamental təcrübədir. Kənd təsərrüfatı sadəcə yaşamaq vasitəsi deyil; insanla təbiət arasındakı sıx əlaqəni təmsil edir.

O, bizim yerin münbitliyindən istifadə etmək və münbit düzənliklərdən quraq səhralara, yuvarlanan təpələrdən tutmuş sıldırım dağlara qədər müxtəlif mühitlərə uyğunlaşmaq qabiliyyətimizi təcəssüm etdirir. Nəsillər boyu öyrənmə və innovasiyalar vasitəsilə kənd təsərrüfatı təcrübələri elm və texnologiyadakı irəliləyişləri özündə birləşdirərək, əsrlər boyu davam edən ənənəvi müdrikliyi hələ də qoruyub saxlayaraq

inkişaf etmişdir. İşğaldan azad edilmiş ərazilərimizin torpaq relyefinə və torpağın münbitliyini diqqətlə nəzərdən keçirdikdə bu ərazilərdə kənd təsərrüfatının inkişafının təşkili üçün potensial imkanlarının olduğunu deyə bilərik. Torpaq balansı məlumatlarına əsasən işğaldan azad olunan ərazilərdə kənd təsərrüfatının bərpasından sonra 200 min hektardan çox torpaq sahəsinin əkin üçün istifadə ediləcəyi proqnozlaşdırılır ki, bunun da təqribən 9 min hektarı həyətyanı sahələrdir. (https://agroeconomics.az/az/article/ 34/isgaldan-azad-olunan-erazilerimizde-kend-teserrufa/)

**Cədvəl 1. Kənd təsərrüfatı bitkilərinin cəmi əkin sahəsi, ha**

| Şərqi Zəngəzur iqtisadi rayonu | 2010 | 2011 | 2012 | 2013 | 2014 | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 | 2021 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | **7848** | **6700** | **7654** | **7928** | **7688** | **8070** | **8201** | **7452** | **7846** | **6990** | **6168** | **10720** |
| Cəbrayıl rayonu | 3203 | 3299 | 3350 | 3519 | 3584 | 3624 | 3684 | 4031 | 4113 | 4035 | 3494 | 7076 |
| Kəlbəcər rayonu | 684 | 667 | 656 | 697 | 652 | 655 | 614 | 516 | 554 | 325 | 430 | 318 |
| Qubadlı rayonu | 35 | 14 | 13 | 14 | 31 | 34 | 37 | 44 | 62 | 77 | 46 | 328 |
| Laçın rayonu | 3683 | 2467 | 3338 | 3395 | 3091 | 3397 | 3439 | 2600 | 2964 | 2440 | 2073 | 1628 |
| Zəngilan rayonu | 243 | 253 | 297 | 303 | 330 | 360 | 427 | 261 | 153 | 113 | 125 | 1370 |

Mənbə: https://www.stat.gov.az/source/agriculture/

Belə ki, aşağıdakı cədvəldə Şərqi Zəngəzur iqtisadi rayonlarında bitkilərin cəmi əkin sahəsi qeyd edilmişdir.

Təqdim olunan cədvəldə 2010-cu ildən 2021-ci ilə qədər bir neçə rayonun iqtisadi göstəriciləri hektarlarla göstərilir. Qeyd olunan rayonlar Şərqi Zəngəzur iqtisadi rayonuna daxildir. Şərqi Zəngəzur iqtisadi rayonu beş rayondan ibarətdir: Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın və Zəngilan. Cədvəldə hər bir rayon üzrə təqdim olunan iqtisadi göstərici açıq şəkildə qeyd olunmamışdır, lakin onun kənd təsərrüfatı torpaqlarını və ya hektarlarla əkin sahəsini təmsil etdiyini güman etmək olar.

Cəbrayıl rayonu: Cəbrayılda əkin sahələri 2010-cu ildən 2014-cü ilə qədər nisbətən sabit olub, 3203-3584 hektar arasında dəyişir. Bununla belə, 2015-ci ildən 2019-cu ilə qədər əkin sahələrində xeyli artım müşahidə olunaraq, pik həddə - 4113 hektara çatıb. 2020-ci ildə ərazi bir qədər azaldı, ardınca 2021-ci ildə 3494 hektara qədər əhəmiyyətli azalma oldu.

Kəlbəcər rayonu: Kəlbəcərdə əkin sahələri 2010-cu ildən 2019-cu ilə qədər 656 ilə 697 hektar arasında dəyişən cüzi tərəddüdlərə nisbətən uyğun olmuşdur. Bununla belə, 2020-ci ildə 430 hektara qədər əhəmiyyətli azalma, ardınca 2021-ci ildə 318 hektara qədər cüzi artım müşahidə olunub.

Qubadlı rayonu: Qubadlıda əkin sahələri bu illər ərzində kifayət qədər kiçik olub, 13 hektardan 77 hektara qədər olub. Lakin 2021-ci ildə 328 hektara qədər əhəmiyyətli artım olub.

| **Rayon və respublika tabeli şəhərlərin adı** | **Ümumi sahə** | **O cümlədən kənd təsərrüfatına yararlı sahələr** | | | | | | | | **o cümlədən** | **Həyətyanı torpaq sahələri və digər kənd təsərrüfatına yararlı torpaqların cəmi** |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | **Əkin** | **Çoxillik əkmələrin cəmi** | **bundan** | | | **Dincə qoyulmuş sahələr** | **Biçənəklər** | **Örüşlər** | **kənd təsərrüfatına yararlı** | |
| | | | | **Meyvə bağları** | **Üzümlüklər** | **Tut bağları** | | | | | |
| Ağdam ümumi | 87431 | 30890 | 9547 | 271 | 8903 | 373 | 495 | 18 | 20011 | 2280 | 63241 |
| Cəbrayıl ümumi | 105347 | 20495 | 7243 | 162 | 6156 | 925 | 550 | 24 | 23282 | 815 | 52409 |
| Füzuli ümumi | 124442 | 45046 | 10478 | 85 | 9103 | 1290 | 360 | 444 | 38552 | 1059 | 95939 |
| Kəlbəcər ümumi | 198972 | 3952 | 10 | 10 | - | - | 2375 | 7571 | 75600 | 753 | 90261 |

| | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| Laçın ümumi | 182603 | 10466 | 245 | 236 | - | 9 | 3701 | 4682 | 69319 | 720 | 89133 |
| Zəngilan ümumi | 72550 | 7704 | 2667 | 45 | 2070 | 552 | 97 | 207 | 22873 | 412 | 33960 |

**Cədvəl 2. Azərbaycan Respublikasında dövlət mülkiyyətində olan torpaq sahələrinin təbii təsərrüfat yerləri üzrə bölgüsünə dair məlumat (01 yanvar 2022 - ci il vəziyyətinə), hektarla**

Mənbə: https://www.stat.gov.az/source/agriculture/

Cədvəl 2-də verilən məlumatlarda işğaldan azad edilmiş ərazilərin hər birində kənd təsərrüfatı üçün yararlı sahələr ətraflı şəkildə qeyd edilmişdir. Laçın rayonu ümumi sahəsinə görə ən böyük, lakin Füzuli rayonu əkinə yararlı torpaq sahəsində liderlik edir.

Cədvəl 3-də verilən məlumatlarda isə Qarabağ iqtisadi rayonunda əkinçilikdə istifadə edilən bitkilərin, yəni pambıq, buğda, şəkər çuğunduru, günəbaxan, kartof, üzüm bağları, tərəvəz, bostan bitkiləri və giləmeyvələr geniş yer tutur. Heyvandarlıqda isə ərazinin coğrafi quruluşunu da göz önünə gətirib təxmin edə bilərik ki, bu ərazilər geniş otlaqlarla zəngindir. Bu səbəblə bu ərazilərdə iribuynuzlu mal-qara, inək və camış, qoyun və keçilər, quşlar və arılar üstünlük təşkil edir. Qrafikdə həmçinin heyvandarlıq məhsullarının istehsalı barədə məlumat qeyd edilmişdir.

**Cədvəl 3. Qarabağ iqtisadi rayonunda əkinçilik və heyvandarlıq**

Mənbə: https://www.stat.gov.az/source/agriculture/

| **Kənd təsərrüfatı bitkilərinin əkin sahəsi, ha** | **2018** | **2019** | **2020** | **2021** |
|---|---|---|---|---|
| Dənlilər və dənli paxlalı bitkilər | 123968 | 121754 | 120009 | 102136 |
| **o cümlədən payızlıq və yazlıq buğda** | 95777 | 91785 | 87441 | 74094 |
| Pambıq | 28130 | 27420 | 27106 | 27855 |
| Şəkər çuğunduru | 3117 | 2595 | 1155 | 755 |
| Dən üçün günəbaxan | 1721 | 2846 | 2046 | 2465 |
| Kartof | 1512 | 1432 | 1269 | 1169 |
| Tərəvəz | 9750 | 9736 | 8920 | 9923 |
| Bostan bitkiləri | 2197 | 2049 | 1961 | 2002 |
| Bağlar və giləmeyvəliklər | 6091 | 6276 | 6335 | 6428 |
| Üzüm bağları | 152 | 173 | 171 | 168 |
| **Heyvanların, quşların və arı ailələrinin sayı:** | | | | |
| İribuynuzlu mal-qaranın sayı, baş | 299876 | 295387 | 296217 | 300213 |
| İnək və camışların sayı, baş | 139011 | 137001 | 136599 | 139405 |
| Qoyun və keçilər, baş | 827669 | 784754 | 750733 | 747231 |
| Quşlar, baş | 1715082 | 1746745 | 1745452 | 1742482 |
| Arı ailələri, vahid | 31410 | 32601 | 33123 | 32006 |
| **Heyvandarlıq məhsullarının istehsalı[x)]:** | | | | |
| Ət (kəsilmiş çəkidə), ton | 24181 | 25805 | 26269 | 26910 |
| Süd, ton | 277061 | 300960 | 311817 | 311007 |
| Yumurta, min ədəd | 90032 | 96501 | 99345 | 101221 |
| Yun (fiziki çəkidə), ton | 1815 | 1833 | 1734 | 1748 |

İşğaldan azad edilmiş torpaqlar üzümçülük, tütünçülük, pambıqçılıq, baramaçılıq, meyvə-tərəvəz, bostançılıq və heyvandarlığın inkişafı üçün böyük potensiala sahibdir. Burada qarğıdalı, noxud və üzüm regionun xarakterik bitkilərindəndir. Xatırladaq ki, Füzuli, Ağdam rayonları işğaldan əvvəlki dövrlərdə pambıq, taxıl, üzüm istehsalına görə ölkədə aparıcı rayonlar sırasında idilər. Cəbrayıl, Qubadlı, Zəngilan rayonları da üzümçülükdə fərqlənirdi. Laçın, Kəlbəcər, Qubadlı və Zəngilanda heyvandarlıq çox inkişaf etmişdi. Göründüyü kimi, işğaldan azad edilən ərazilərimizin təbii imkanları, kənd təsərrüfatı potensialı bölgədə iqtisadiyyatın daha tez bərpa olunmasına şərait yarada bilər (http://www.anl.az/down/meqale /xalqqazeti/ 2020/dekabr/729567(meqale).pdf).

Kənd təsərrüfatı müvəffəqiyyəti və davamlılığı üçün mühüm əhəmiyyət kəsb edən müxtəlif meyarlarla ölçülür. Əsas göstəricilərə hektardan məhsuldarlıq, su və gübrədən istifadənin səmərəliliyi, torpağın sağlamlığı, zərərvericilərə qarşı mübarizə və davamlı təcrübələrin qəbulu daxildir. Heyvandarlıq göstəriciləri heyvan sağlamlığı, çəki artımı və yemə çevrilmə nisbətlərini əhatə edir. Bundan əlavə, əldə edilən gəlir, məşğulluq imkanları və bazar dəyəri kimi iqtisadi amillər qiymətləndirilir. Sosial və ekoloji aspektlər də biomüxtəlifliyin qorunması, istixana qazları emissiyaları və ekoloji təsirləri əhatə edən həyati əhəmiyyət kəsb edir. Bu ölçülər siyasətçiləri, tədqiqatçıları və fermerləri ətraf mühitə mənfi təsirləri azaltmaqla və ərzaq təhlükəsizliyini təmin etməklə yanaşı kənd təsərrüfatı məhsuldarlığını artırmaq üçün əsaslandırılmış qərarlar qəbul etməkdə istiqamətləndirir.

Cədvəl 1 və 2-də gördüyümüz kimi, işğaldan azad edilmiş ərazilərdə kənd təsərrüfatının inkişafı üçün lazımi resurslar mövcuddur.

Həmçinin digər ölkələrdə istifadə edilən innovasiyalar, qlobal kənd təsərrüfatındakı innovasiyalar ölkələrin qida istehsalını dəyişdirməkdə davam edir. Bu innovasiyalara misal olaraq  zaqdan zondlama, GPS ilə idarə olunan maşınlar və IoT sensorları kimi dəqiq əkinçilik üsulları resurslardan istifadəni optimallaşdırır və məhsul məhsuldarlığını artırır. Genetik cəhətdən dəyişdirilmiş orqanizmlər (GMO), xəstəliklərə davamlı növlər və quraqlığa davamlı məhsullar kimi biotexnologiyanın inkişafı bitki xüsusiyyətlərini artırır. Məhz saydığımız bu yeni nəsil texnologiyalar və üsullar Qarabağ iqtisadi rayonunda da kənd təsərrüfatının inkişafına böyük ölçüdə təsir edəcəkdir.

**Ədəbiyyat:**

1. Zurayk, R., et al. (2018), “Agriculture, conflict and the agrarian question in the 21st century”, Book: Crisis and Conflict in Agriculture. https://egyptssp.ifpri.info/2018/12/19/agriculture-conflict-and-the-agrarian-question-in-the-21st-century/

2. http://www.anl.az/down/meqale/xalqqazeti/2020/dekabr/729567(meqale).pdf

3. https://agroeconomics.az/az/article/34/isgaldan-azad-olunan-erazilerimizde-kend-teserrufa

4.https://commonland.com/regenerativeagriculture/?gclid=CjwKCAjwq4imBhBQEiwA9Nx1BmbcZZtmisV0KueXiZk8imtlnttPcUCCnMYbNU7FmAVTeTsLVGwr7hoCO8cQAvD_BwE

5. https://e-pdf.net/download/4739557-vertical-farm-feeding-the-world-in-the-21st-centur-pdf

6. https://www.stat.gov.az/source/agriculture/

# ŞƏRQİ ZƏNGƏZUR İQTİSADİ RAYONUNUN İNKİŞAFINDA SƏNAYE PARKLARININ ROLU

**Əhmədova Nərmin Rəşid**
**Azərbaycan Dövlət İqtisad Universiteti**
**https://orcid.org/0009-0001-0519-011X**
**narminahmadova1@gmail.com**

# THE ROLE OF INDUSTRIAL PARKS IN THE DEVELOPMENT OF EASTERN ZANGEZUR ECONOMIC REGION

**Ahmadova Narmin Rashid**
**Azerbaijan State University of Economics**
**https://orcid.org/0009-0001-0519-011X**
**narminahmadova1@gmail.com**

**Summary**

The main goal of the economic recovery of our territories freed from occupation is to put their economy on the path of sustainable development. Post-conflict reconstruction focuses on strengthening peace and security and achieving sustainable socio-economic development in a country torn apart by war. These areas of Azerbaijan have been severely affected by military conflict in recent decades, and the potential for post-conflict economic recovery calls for innovative strategies for the sustainable development of the region. The main goal of the study is to show that the region has the potential not only to fully recover, but also to become a center of growth in the economic development of the country. Positive experience and innovative technologies of countries with similar experience were studied and used for empirical analysis. In the research work, it is noted that the restoration of economic infrastructure, improvement of social infrastructure and development are of great importance for successful implementation. Creation of industrial parks is an example of new approaches that can contribute to the sustainable development of the region, as well as ensuring food security, modernization of agriculture and agro-industrial complex. They will ensure the employment of the rural population, help to increase the income in the region, and improve their social situation. Industrial parks aim to provide innovative and competitive products and services through the application of modern technologies. In addition to state-funded programs and domestic investments, the involvement of foreign donors will play an important role in ensuring sustainable development and peace in the region.

**Keywords:** industrial parks, economy recovery, post conflict recovery

# РОЛЬ ИНДУСТРИАЛЬНЫХ ПАРКОВ В РАЗВИТИИ ВОСТОЧНО-ЗАНГЕЗУРСКОГО ЭКОНОМИЧЕСКОГО РАЙОНА

**Ахмедова Нармин Рашид**
**Азербайджанский Государственный Экономический Университет**
**https://orcid.org/0009-0001-0519-011X**
**narminahmadova1@gmail.com**

**Резюме**

Главной целью экономического восстановления наших территорий, освобожденных от оккупации, является вывод их экономики на путь устойчивого развития. Постконфликтное восстановление направлено на укрепление мира и безопасности и достижение устойчивого социально-экономического развития в стране,

раздираемой войной. Эти районы Азербайджана серьезно пострадали от военного конфликта в последние десятилетия, и потенциал постконфликтного восстановления экономики требует инновационных стратегий устойчивого развития региона. Основная цель исследования - показать, что регион имеет потенциал не только для полного восстановления, но и стать центром роста экономического развития страны. Был изучен и использован для эмпирического анализа положительный опыт и инновационные технологии стран с аналогичным опытом. В исследовательской работе отмечается, что большое значение для успешной реализации имеют восстановление экономической инфраструктуры, совершенствование социальной инфраструктуры и развитие. Создание индустриальных парков является примером новых подходов, которые могут способствовать устойчивому развитию региона, а также обеспечению продовольственной безопасности, модернизации сельского хозяйства и агропромышленного комплекса. Они обеспечат занятость сельского населения, помогут увеличить доходы в регионе, улучшить их социальное положение. Индустриальные парки нацелены на предоставление инновационных и конкурентоспособных продуктов и услуг за счет применения современных технологий. Помимо государственных программ и внутренних инвестиций важную роль в обеспечении устойчивого развития и мира в регионе будет играть привлечение иностранных доноров.

**Ключевые слова:** индустриальные парки, восстановление экономики, постконфликтное восстановление.

İkinci Dünya Müharibəsi zamanı bir çox şəhərlər, o cümlədən Böyük Britaniya, Fransa, Almaniya, İtaliya və Belçikanın bəzi aparıcı sənaye və mədəniyyət mərkəzləri dağıdıldı. Tədqiqatlar göstərir ki, bu ölkələr münaqişədən sonrakı bərpa siyasətini daha uğurlu aparıb, ölkələrin prioritet sahələrinə daha çox maliyyə ayrılıb. Odur ki, 44 gün davam edən Vətən müharibəsindən sonra işğaldan azad olunmuş ərazilərimizdə həyata keçirilən bərpa-quruculuq işləri, yeni infrastrukturların yaradılması istiqamətində görülən işlər burada sahibkarlıq fəaliyyəti üçün əlverişli imkanlar yaradıb. Belə ki, həmin ərazilərdə sosial-iqtisadi həyatın bərpa olunmasında sahibkarlıq fəaliyyəti əhəmiyyətli rol oynayır. Bu məqsədlə həmin ərazilərə yerli və xarici biznes investorlarının cəlb olunması və nəticədə əlverişli mühitin yaradılması əsas istiqamətlərdən biridir. Düşmənin darmadağın edərək xarabaya çevirdiyi torpaqlarımızda yenidən həyatın canlanması üçün, əlbəttə ki, ilk növbədə sahibkarlar mühüm rol oynayırlar. Ölkə Prezidenti İlham Əliyevin 2022-ci il 16 noyabr tarixli sərəncamı ilə təsdiq olunmuş "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın da əsas hədəflərindən biri məhz işğaldan azad edilmiş ərazilərdə iqtisadiyyatın bərpası üçün yeni investisiyaların cəlb olunması ilə sahibkarlıq mühitinin formalaşdırılmasıdır (https://president.az/az/articles/view/57884). Tədqiqatın məqsədi Şərqi Zəngəzur iqtisadi rayonunda emal sənayesində sahibkarlıq mühitinin vəziyyətinin təhlili və inkişaf istiqamətləri barədə araşdırmaları təqdim etməkdir. Tədqiqat işində Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin, İqtisadi İnkişaf Nazirliyinin, Beynəlxalq Təşkilatların, müvafiq xarici və yerli elmi-tədqiqat institutlarının xüsusi müayinə məlumatları, Ölkə Prezidenti İlham Əliyevin imzaladığı fərman və sərəncamlar, eləcə də Azərbaycanın və xarici ölkələrin iqtisadçı alimlərinin əsərləri, ölkəmizin qanunvericilik və icraedici orqanlarının proqramları, qərarları, normativ sənədləri istifadə olunmuşdur.

**İşğaldan Azad Olunmuş Ərazilərimizdə Sənaye Perspektivləri**

Şəhər yerləri ilə müqayisədə kənd yerlərində infrastruktura, xidmətlərə və bazarlara nisbətən aşağı çıxış var. Texnologiya və innovasiya kənd yerlərində bunun öhdəsindən gəlməyə kömək edə bilər. Kənd yerləri üçün fərdiləşdirilmiş ağıllı həllər, daha da təkmilləşdirilmiş xidmətlər və yaxşılaşdırılmış həyat keyfiyyəti daha böyük yerli iqtisadi inkişafla nəticələnə bilər. (World Bank Report, Smart Villages in Azerbaijan: A Framework for Analysis and Roadmap, 2021)

Şərqi Zəngəzur iqtisadi rayonunda müxtəlif iqtisadiyyat sahələrinin, o cümlədən sənaye, turizm, kənd təsərrüfatı və aqrar sektorun, ilk növbədə, bitkiçilik və heyvandarlığın inkişaf etdirilməsi üçün böyük təbii və iqtisadi resurslar, həm də potensial vardır. Odur ki, Şərqi Zəngəzur iqtisadi rayonunun ərazisində

sənaye perspektivi böyükdür. Xüsusilə regionun sahib olduğu qeyri-filiz və filiz yataqları ilə zənginliyi gözlə görünən dərəcədədir. Bu yataqlar Şərqi Zəngəzur iqtisadi rayonunda dağ-mədən sənayesinin inkişafına imkan verir. Şərqi Zəngəzur iqtisadi rayonu Cəbrayıl, Kəlbəcər, Laçın, Qubadlı və Zəngilan rayonlarını əhatə edir. Azərbaycan Ordusunun işğal bölgəsində keçirdiyi əməliyyatlar nəticəsində Şərqi Zəngəzur iqtisadi rayonu düşmən işğalından azad olunmuşdur.

İşğaldan azad edilmiş Cəbrayıl rayonu qum-çınqıl, mişar daşı, kərpic gili, sement xammalı, gəc, əhəng və yəşəm kimi faydalı qazıntılarla zəngindir. İşğaldan əvvəlki dövrdə rayon iqtisadiyyatının əsas sahələri üzümçülük, tütünçülük, heyvandarlıq və taxılçılıq olub. Həmçinin rayonda qaramal kökəltmə, quşçuluq və baramaçılıq təsərrüfatları, xalçaçılıq müəssisəsi, üzüm emalı, çörək zavodları, kənd təsərrüfatı texnikasının təmiri müəssisələri fəaliyyət göstərib.

Göründüyü kimi, işğaldan azad edilən ərazilərimizin təbii imkanları, kənd təsərrüfatı potensialı bölgədə iqtisadiyyatın daha tez bərpa olunmasına şərait yarada bilər. Bu da məhsulları birbaşa həmin ərazilərdən (Zəngəzur dəhlizi və s.) Avropa ölkələrinə ixrac etməyə imkan verir və iqtisadiyyata töhfə vermək imkanına malikdir.

**Sənaye Parklarının rolu və növləri**

Sənaye parkı nəqliyyat vasitələri və digər dəstəkləyici infrastrukturlarla inteqrasiya yolu ilə sənaye fəaliyyətlərini təşviq etmək üçün xüsusi olaraq hazırlanmış torpaq hissəsindən ibarətdir. Firmalar artan kommunikasiya asanlığı, uyğun işçi ehtiyatına çıxış və onların ehtiyaclarını ödəmək üçün nəzərdə tutulmuş obyektlər kimi lokallaşdırma iqtisadiyyatlarından iqtisadi fayda əldə etmək və yaratmaq üçün sənaye parklarına cəlb edilir. Müvəffəqiyyətli sənaye parkları öz xüsusi yerlərinin atributlarını əks etdirir, daha geniş ətraf mühitin sosial-siyasi çərçivəsi ilə şəbəkə qurur, gizli məlumat mübadiləsi üçün öyrənmə rayonları kimi fəaliyyət göstərir və onların cəmləşmiş fəaliyyətinin ətraf mühitə mənfi təsirlərini azaltmağa çalışır.

Sənaye parklarının növləri aşağıdakı kimidir: (Zeng (2010), ADB (2016), ASSOCHAM (2016); Locus Economica (2019); and UNIDO)

1. Eko-sənaye Parklar - Davamlı, aşağı karbonlu, yaşıl və ya dairəvi zonalar adlandırılan Eko-sənaye Parkları rezident firmalarının sosial, iqtisadi və ekoloji göstəricilərini yaxşılaşdırmaq üçün nəzərdə tutulmuş sənaye parklarıdır, o cümlədən sənaye simbiozunu və resurs səmərəliliyini təmin edən yaşıl texnologiyaların təşviqi yolu ilə rəqabət üstünlüyü, iqlimə davamlı sənayelərin və yaşıl dəyər zəncirlərinin təşviqi, həmçinin əhatəli və davamlı biznes təcrübələri və ətraf icmalarla sosial məsuliyyətli münasibətlər.

2. Xüsusi İqtisadi Zonalar - Eyni ölkənin digər ərazilərindən fərqlənən və həmçinin gömrük tariflərinə münasibətdə ümumiyyətlə ərazidənkənar rejimi nəzərdə tutan unikal iqtisadi qaydalara tabe olan ölkənin müəyyən edilmiş əraziləri.

3. Sərhəd İqtisadi Zonaları - Transsərhəd ticarəti və investisiyaları asanlaşdırmaq üçün beynəlxalq sərhəd boyunca yerləşən iqtisadi zonalar.

4. İxrac Emalı Zonaları - Rüsumsuz zonalar əsasən ixrac üçün istehsala yönəldilib, ümumiyyətlə vergi tətilləri şəklində ixrac subsidiyaları təqdim edir və ixrac kvotası yoxdur və ya minimumdur.

5. Azad Ticarət Zonaları - Yeni biznes və xarici sərmayələri cəlb etmək üçün idxal vergiləri dayandırılmış və tənzimləyicilərə uyğunluq öhdəliklərinin azaldıldığı müəyyən edilmiş ərazilər.

6. Bağlı zonalar - Gömrük rüsumunun ödənilməsi şərtilə, gömrük rüsumuna cəlb edilən malların saxlanması, manipulyasiyası və ya yüngül emaldan (məsələn, yığma) keçə biləcəyi sahələr.

7. Yüksək Texnologiyalar Parkları - İnkubasiya və digər siyasət müdaxilələri vasitəsilə innovasiyaya əsaslanan şirkətlərin yaradılmasını və böyüməsini asanlaşdırmaq və təşviq etmək üçün nəzərdə tutulmuş xüsusi sahələr.

8 Aqro-sənaye Parklar - Aşağı axın kənd təsərrüfatı emalında sənayeləri cəlb etmək və təşviq etmək üçün nəzərdə tutulmuş xüsusi təyinatlı sahələr.

**İnkişaf etməkdə olan dünyada Sənaye Parklarının funksiyası**

Son dövrlərdə ölkəmizdə sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi üçün zəruri infrastruktura malik, rəqabətqabiliyyətli məhsul istehsal edən sənaye parklarının yaradılması istiqamətində əhəmiyyətli addımlar atılıb. Bunun nəticəsi olaraq, bu gün Azərbaycanda sənaye parkları və sənaye məhəllələri iqtisadi inkişafın təmin edilməsində mühüm rol oynayır. (https://ikisahil.az/post/427444-azad-iqtisadi-zonalar-ve-senaye-parklari-ideyadan-realliga-dogru) Sənaye parkları inkişaf etməkdə olan dünyada qıt maliyyə və insan kapitalını cəmləşdirir, nəqliyyat və kommunikasiya xərclərini azaldır və ümid edirik ki, ətraf ərazilərə yayılan iqtisadi çoxilliklərlə böyümə qütbü yaradır. Onların daxilində yerləşdirmək üçün təyin edilmiş şirkətləri ehtiva etmək üçün nəzərdə tutulmuş məkanlar həm də onların öyrənmə bölgələri kimi fəaliyyət göstərəcəyinə dair ümidləri ehtiva edir - məhsullarda və istehsal proseslərində əlavə dəyər səviyyəsini yüksəldəcək, səmərəlilik və mənfəətin artmasına səbəb olacaq gizli biliklərin mübadiləsi aparıldığı yerlər.

Filial və ya daha çox çıxarılan istehsal zənciri əlaqələri vasitəsilə qlobal korporativ əlaqələr əlaqəli park sakinlərinin coğrafi baxımdan uzaq qarşılıqlı asılılığını təşviq edir. Firmaların həm firma, həm rayon, həm də region daxilində və xaricində axınların informasiya məkanı ilə əlaqəsi uyğunlaşma qabiliyyətini və beləliklə, bütün miqyaslarda sabitliyi təşviq edir. Bu axınlar məkanında yerləşmə öz doğma regionlarından kənarda yerləşən firmalar üçün xüsusilə dəyərli funksiyanı yerinə yetirir. Tanış bir mühitdə yaşamaq firmaların qlobal əməliyyat yerlərini təşviq edir, yerli ehtiyaclara və istehsal üstünlüklərinə uyğun olaraq hazırlanmış yeni bazarlara nüfuz etməyə imkan verir. Regionlar sənaye parklarından daha inkişaf etmiş regionlara qarşı rəqabət strategiyası kimi istifadə edirlər. Bir misalda, Amerika konqlomeratı Vyetnamda Yapon modeli əsasında tikilmiş, lakin Qərb şirkətlərini cəlb etmək üçün rəqabət aparan Çin yerlərini qabaqlamaqda maraqlı olan Taylandlı və Vyetnamlı investorlar tərəfindən idarə olunan sənaye parkı yaratdı. Sinqapurun elm və sənaye parkı modeli o şəhər dövlətini Asiya uğur hekayəsinə çevirmək üçün kifayət qədər yaxşı performans göstərdi, lakin onun hüdudlarından kənarda strateji problemlərlə üzləşdi. Məsələn, Suzhou Sənaye Parkı modeli milli səviyyəli əlaqələrini önə çəkdi, lakin rəqib sənaye parkı yaradan şəhər və əyalət hakimiyyətləri ilə əlaqələri inkişaf etdirmədiyi üçün uğursuzluqlar yaşadı. Suzhou'nun böyük bir gölün kənarında yayılmış iddialı sənaye parkı, yeni şəhər mərkəzində alış-verişi olan mini şəhəri əhatə edirdi. Yaşayış yerləri və Britaniya tipli məktəblər ənənəvi Çin şəhəri Suzhou şəhərinin kənarındakı hərtərəfli inkişafda aşağı səviyyəli anbar tipli fabriklərin işçilərinə xidmət edirdi (Şəkil 2). https://www.-sciencedirect.com/topics/social-sciences/industrial-park)https://www.mdpi.com/2073-445X/11/8/1357#-B58-land-11-01357

**"Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkı**

Sahibkarların uğurlu fəaliyyətlərinə sənaye parkları müasir texnologiyaların tətbiqi yolu ilə innovativ və rəqabətqabiliyyətli məhsul istehsalı və xidmət göstərilməsi məqsədi daşıyır. Sahibkarların səmərəli fəaliyyətlərinə dəstək olan sənaye parkları kimi Sumqayıt Kimya Sənaye Parkı, Balaxanı Sənaye Parkı, Qaradağ Sənaye Parkını və s. nümunə göstərmək olar. Eləcə də işğaldan azad edilmiş torpaqlarımızda quruculuq və abadlıq işlərinin uğurla həyata keçirilməsi məqsədilə dövlət başçısının 2021-ci il 28 may tarixli Fərmanı ilə Ağdam Sənaye Parkı Ağdam şəhərində yaradılmışdır. Daha sonra isə Şərqi Zəngəzur iqtisadi rayonunda ən əsas olaraq logistika və ticarət fəaliyyətinin həyata keçirilməsi məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 4 oktyabr tarixli 1453 nömrəli Fərmanına əsasən "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkı yaradılmışdır. Yekun nəticədə işğaldan azad edilmiş ərazilərimizdə yaradılan Sənaye parklarının fəaliyyətləri nəticəsində müasir texnologiyalar əsasında rəqabətqabiliyyətli sənaye istehsalı inkişaf edəcək, bu istiqamətdə sahibkarlıq fəaliyyətləri dəstəklənəcək. Eləcə də, Şərqi Zəngəzur iqtisadi

rayonunda iqtisadiyyatın, o cümlədən qeyri-neft sektorunun davamlı inkişafı təmin ediləcək və bu ərazilərimizdə yerli və xarici investisiyalar üçün əlverişli şərait yaradılacaq. Bununla yanaşı, sənaye parklarında inzibati prosedurların daha rahat həyata keçirilməsi, torpaq sahələrinin icarə haqqı ödənişlərində, vergi və gömrük sahəsində stimullaşdırıcı tədbirlər də tətbiq olunur.

Sənaye parkının ərazisi kənd təsərrüfatı məhsullarının emalı, sənaye, sosial və texniki zonalara bölünəcək. Burada logistika və ticarət mərkəzi, anbar kompleksləri, topdan və pərakəndə satış obyektləri, TIR parkı, gömrük, yanacaqdoldurma, avtomobil və digər texnikaların təmiri məntəqələrinin yaradılması planlaşdırılır. Sənaye Parkında tikinti üçün üzlük və izolyasiya materialları, müxtəlif qatqı maddələri, metal konstruksiya istehsalı müəssisələrinin təşkili nəzərdə tutulur. Parkın ərazisində, həmçinin kənd təsərrüfatı məhsullarının qablaşdırılması, meyvə-tərəvəz konservləri, süd və ət məhsulları istehsalı və emalı, şərab, yem, gübrə istehsalı, ipəkçilik müəssisələrinin, soyuducu kameraların qurulması, kiçik istehsal və xidmət sahələrinin yaradılması planlaşdırılır.

Ən sonda onu qeyd etmək istərdim ki, əhalinin məşğulluğu və iqtisadi imkanlar insanları bu bölgələrə geri qaytaracaq əsas amillərdir. Bundan əlavə olaraq da, perspektivli bizneslərin qurulmasında ən son rəqəmsal metodologiyalardan, elmi tədqiqatlardan və “ağıllı” düşüncədən istifadə Şərqi Zəngəzur iqtisadi rayonunun davamlı və sürətli inkişafını təmin edəcək.

**Ədəbiyyat:**


1. Ölkə Prezidenti İlham Əliyevin 2022-ci il 16 noyabr tarixli sərəncamı ilə təsdiq olunmuş “Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı”
2. “Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı” Dövlət Proqramı (2000-2008-ci illər), Bakı, Nurlar, 2004.
3. “Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığın inkişafının” Dövlət proqramı (2002-2005-ci illər). Bakı, Nurlar, 2003.
4. “Azərbaycan Respublikasında sahibkarlığın inkişaf problemləri” mövzusunda elmi-praktiki konfransın materialları. Bakı, 2003.
5. İnnovasiya sahibkarlığı və texnoparklar, İsa Qasımlı, Fərid Cəbiyev, 2017
6. Rəhmli F. Azərbaycanda sahibkarlığın inkişafının regional problemləri. Elmi-praktiki konfransın materialları. Lənkəran, 2003.
7. Nazim Müzəffərli və Eldar İsmayılov, Azərbaycanın post-konflikt ərazilərinin bərpası: konseptual əsaslar, Bakı, 2010
8. “Yeni Qarabağnamə: Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında Post-Konflikt quruculuğu” Bakı, 2022
9. “Qarabağ regionunun iqtisadi və sosial inkişaf problemləri”, Akif Musayev, 2021
10. Local Economic Recovery in Post-Conflict, Geneva, 2010
11. Piore M. and Sabel C., 1983. The Second Industrial Divide, Basic Books, New York.
12. Planning for Sustainable Industrial Parks (GIZ and IGEP Programme, 2015)
13. Zeng (2010), ADB (2016), ASSOCHAM (2016); Locus Economica (2019); and UNIDO)
14. https://nextbillion.net/doing-business-in-post-conflict-zones/

# MALİYYƏ VƏ İQTİSADİ BÖHRANLARIN ERKƏN XƏBƏRDARLIQ GÖSTƏRİCİLƏRİ

**Xanış-zadə Türkan Elşad**
**Azərbaycan Dövlət İqtisad Universiteti**
**https://orcid.org/0009-0007-6058-1707**
**turkanxzv@gmail.com**

# EARLY WARNING INDICATORS OF FINANCIAL AND ECONOMIC CRISES

**Khanish-zada Turkan Elshad**
**Azerbaijan State University of Economics**
**https://orcid.org/0009-0007-6058-1707**
**turkanxzv@gmail.com**

**Summary**

This research study investigates the economic and financial crisis in Azerbaijan during a time of rapid globalization. The study analyzes the causes and effects of the crisis on the country's macroeconomic system, revealing the main risk points. A comparative-statistical analysis of macroeconomic indicators such as GDP growth rate, inflation level, devaluation, and balance of payments is conducted in the context of the crisis. The literature review covers various economic approaches to crises, forecasting methods, and early warning indicators. The study utilizes graphical representations, which provide clarity and ease of understanding. As a country dependent on the oil industry, Azerbaijan is impacted by global oil prices, which influence all areas of the economy. The comparative analysis of macroeconomic indicators during the crisis period provides valuable insights for economists and policymakers. Overall, this research study offers a valuable resource for anyone interested in understanding the impact of the economic and financial crisis on Azerbaijan's macroeconomic system.

**Keywords:** crisis, risk, Azerbaijan economy, GDP

# ИНДИКАТОРЫ РАННЕГО ПРЕДУПРЕЖДЕНИЯ О ФИНАНСОВЫХ И ЭКОНОМИЧЕСКИХ КРИЗИСАХ

**Ханиш-заде Тюркан Эльшад**
**Азербайджанский Государственный Экономический Университет**
**https://orcid.org/0009-0007-6058-1707**
**turkanxzv@gmail.com**

**Резюме**

Это исследование исследует экономический и финансовый кризис в Азербайджане во время быстрой глобализации. В исследовании анализируются причины и влияние кризиса на макроэкономическую систему страны, выявляются основные точки риска. Проведен сравнительно-статистический анализ макроэкономических показателей, таких как темпы роста ВВП, уровень инфляции, девальвация, платежный баланс, в условиях кризиса. Обзор литературы охватывает различные экономические подходы к кризисам, методы прогнозирования и индикаторы раннего предупреждения. В исследовании используются графические изображения, которые обеспечивают ясность и простоту понимания. Как страна, зависимая от нефтяной промышленности, Азербайджан находится под влиянием мировых цен на нефть, которые влияют на все сферы экономики. Сравнительный анализ макроэкономических показателей в период кризиса дает ценную информацию для экономистов и политиков. В целом, это исследование предлагает ценный ресурс для всех,

кто интересуется влиянием экономического и финансового кризиса на макроэкономическую систему Азербайджана.

**Ключевые слова:** кризис, риск, экономика Азербайджана, ВВП

Qloballaşan dünyada, ötən əsrdə müxtəlif başlanğıc nöqtələri və nəticələri olan müxtəlif böhranlar yaşanmışdır. Bir nüansı qeyd etmək lazımdır ki, hazırda bir ölkədə yaranan böhranın digər ölkələrə yayılmasının qarşısını almaq demək olar ki, mümkün deyildir. Bu prosesi maliyyə və kommersiya qloballaşmasının nəticəsi kimi qiymətləndirmək də olar. Böhran qloballaşma dənizində üzən ölkələrin iqtisadiyyatları üçün müxtəlif intensivlikdə qarşılaşdığı maliyyə fırtınalarıdır və bu məqamda cavablandırılması lazım olan əsas sual budur: "Böhran gəldiyini xəbər edirmi?".

Beynəlxalq təcrübəyə əsaslanaraq qeyd etmək lazımdır ki, 2007-2008-ci illərdəki qlobal maliyyə böhranı göstərdi ki, maliyyə bazarları öz tənzimlənmə və nəzarət mexanizmlərinin davamlı və dinamik inkişafını effektiv şəkildə təmin etmək iqtidarında deyildir.

Maliyyə böhranları çox tez-tez araşdırılan, həm ölkələr, həm də beynəlxalq təşkilatlar üçün əhəmiyyət kəsb edən bir mövzudur. Məqalədə makroiqtisadi göstəricilərin maliyyə böhranı baxımından xəbərdarlıq siqnalı kimi əhəmiyyəti araşdırılmışdır.

İqtisadi ədəbiyyatda araşdırılan problemin fərqli aspektləri ilə bağlı bir sıra elmi əsərlər mövcuddur. Maliyyə böhranları nədir? Maliyyə böhranları çox vaxt aktivlərin qiymətlərində hava şarı kimi şişirtmə görünən hadisələrin ardınca baş verir. Bu tip böhranların tarixi nümunələri Hollandiya Tulipmaniyası, İngiltərədəki Cənubi dəniz "köpüyü", Fransadakı Missisipi "köpüyü" və ABŞ-da 1929-cu ildəki Böyük Çöküşdür. Daha yeni bir nümunə, 1980-ci illərin sonunda Yaponiyada baş verən daşınmaz əmlak və səhm qiymətlərinin dramatik yüksəlişi və 1990-cı ildə onların sonrakı çökməsidir. Norveç, Finlandiya və İsveç 1980-ci və 1990-cı illərin əvvəllərində oxşar təcrübəyə malik idilər. İnkişaf etməkdə olan iqtisadiyyatlarda bu tip maliyyə böhranları 1980-ci ildən bəri xüsusilə geniş yayılmışdır. Nümunələrə Argentina, Çili, İndoneziya, Meksika və ən son olaraq Malayziya, İndoneziya, Tayland və Cənubi Koreyanın Cənub-Şərqi Asiya iqtisadiyyatları da daxildir.

Aktiv qiymətlərindəki bu "köpüklər" adətən üç fərqli fazadan ibarətdir. Birinci mərhələ maliyyə liberallaşdırılması və ya mərkəzi bankın kreditləşməni artırmaq üçün şüurlu qərarı və ya digər oxşar hadisə ilə başlayır. Nəticədə kreditlərin genişlənməsi daşınmaz əmlak və səhmlər kimi aktivlərin qiymətlərinin artması ilə müşayiət olunur. Bu qiymət artımı bir müddət, ola bilsin ki, bir neçə il davam edir, çünki "köpük" şişir. İkinci mərhələdə qabarcıq partlayır və aktiv qiymətləri tez-tez bir neçə gün və ya ay kimi qısa müddət ərzində, lakin bəzən daha uzun müddət ərzində çökür. Üçüncü mərhələ aktivləri şişirdilmiş qiymətlərlə almaq üçün borc almış bir çox firma və digər agentlərin defoltları ilə xarakterizə olunur.

Adətən, valyuta böhranları bu defolt dalğasının ardınca gələ bilir. Defoltlarla, bank və valyuta böhranları ilə bağlı çətinliklər çox vaxt ölkə iqtisadiyyatında bir neçə il davam edə biləcək problemlər yaradır. (Franklin and Douglas, 2000). "Bubbles and Crises" adlı elmi məqaləsində müəllif maliyyə böhranlarının əsas yaranma səbəblərinə toxunaraq o nəticəyə gəlmişdir ki, kredit siyasətinin genişləndirilməsi ilə bağlı əhəmiyyətli qeyri-müəyyənlik olduqda "köpüklər" yaranacaq. Maliyyənin liberallaşdırılması çox vaxt belə qeyri-müəyyənliyə səbəb olan əsas amildir. Siyasətləri tərtib edərkən hökumətlər və mərkəzi banklar "köpüyün" qarşısını almaq üçün atılacaq addımların aktivlərin qiymətlərinə mümkün təsirlərini nəzərə almalıdırlar.

Böhranların izahı və proqnozlaşdırıla bilməsi ilə bağlı araşdırmalardan birincisi Krugman tərəfindən aparılmışdır. Krugman bu araşdırmada büdcə kəsirinin maliyyələşdirilməsi üçün pul kütləsinin artmasının tədiyyə balansı probleminə, ehtiyatların azalmasının isə böhranlara səbəb olduğu qənaətinə gəlmişdir (Krugman, 1979).

**Azərbaycanda iqtisadi böhran vəziyyəti**

Azərbaycanın ümumi iqtisadiyyatına nəzər saldıqda ÜDM-nin artımı, inflyasiya tempinin aşağı düşməsi, işsizliyin azalması və başqa pozitiv iqtisadi inkişaf templərinin artımının əsas səbəblərindən biri də neft hasilatı və artan neft qiymətlərindən asılı olduğundan, böhran sonrası qlobal birjalarda neft qiymətinin düşməsi ölkə iqtisadiyyatı üçün bəzi çətinliklər meydana gətirmişdir. Belə ki, yerli ədəbiyyatlardan birində müəllif öz araşdırmasında qlobal maliyyə böhranının Azərbaycanın iqtisadiyyatına makro və mikro səviyyələrdə, o cümlədən neft və qeyri-neft sektoruna, aqrar sahəyə, ticarət həcminə, dövlət borcuna, dövlət büdcəsinə və birbaşa investisiyalara təsiri üzrə tədqiqatlar aparmışdır. Araşdırmanın nəticəsi olaraq qeyd edilmişdir ki, qlobal maliyyə böhranından MDB ölkələrindən ən az Azərbaycan təsirlənir və böhranın təsirini minimuma endirə biləcək bir sıra faydalı təkliflər də irəli sürülmüşdür (Süleymanov və Zeynalov, 2009).

Digər bir yanaşmada qeyd olunur ki, qlobal böhranın inkişaf etməkdə olan ölkələrə ən mühüm təsir kanallarından biri xarici birbaşa investisiya axınının azalmasıdır. Azərbaycanda əsasən dövlət investisiya proqramı çərçivəsində infrastruktur layihələrinə qoyulan sərmayələr hesabına daxili investisiyanın artımı qarşılığında, 2008-ci ildə ölkə iqtisadiyyatına yönələn birbaşa xarici investisiya bir qədər azalıb. Xarici mənbələrdən əsas kapitala yönəldilmiş xarici investisiyanın həcmi 2008-ci ildə 2.2 milyard manat (2.75 milyard dollar) təşkil edərək, əvvəlki ilin müvafiq dövründəkindən 16.3% az olub. Əgər əvvəlki illərdə (bu trend 2006-cı ildən sonra müşahidə olunur) azalmanın səbəbi daha çox neft-qaz layihələrinin investisiya repatriasiyası mərhələsinə keçməsi ilə əlaqədar olmuşdursa, 2008-ci ildə buna qlobal iqtisadi böhranın təsirlərini də əlavə etmək lazımdır (Azərbaycan-Türkiyə İş Adamları Birliyi Layihələr və Tədqiqatlar Şöbəsi, 2019).

Azərbaycan iqtisadiyyatı üçün ilk növbədə qiymətləndirilməli olan risk faktoru neftin aşağı qiymətidir. Neft və qaz sektoru ölkə iqtisadiyyatı üçün mühüm gəlir mənbəyidir. Aşağı qiymətlər ölkənin ixrac gəlirlərini azaltmaqla dövlət büdcəsinin gəlirlərinə ciddi təsir edir və bu ümumilikdə iqtisadi artıma mənfi təsir göstərə bilir.

Məlumdur ki, 2014-cü ildən başlayaraq dünya bazarında neftin qiyməti enməyə başladı. Bu proses iqtisadiyyatı neftdən asılı olan ölkələrin gəlirlərinə ciddi təsir etdi. Qrafik 2-də 2012-2022-ci illər arasında Brent markalı neftin qlobal bazarda olan qiyməti ilə Azərbaycanın ÜDM-nin artım tempi arasındakı əlaqə və ciddi təsirlərini görmək mümkündür. Belə ki, 2012-2013-cü illər ərzində neftin qiyməti 110-115 dollar arasında dəyişərkən, neft hasilatının artımı fonunda 2014-cü ildən sonra qiymətlər xeyli aşağı enmişdir. Hətta, 2016-cı ildə Brent markalı neftin qiymətində 36 dollar həddinə kimi eniş müşahidə olunmuşdur. Həmin illərdə neft qiymətlərinin aşağı düşməsi ilə Azərbaycanın ÜDM-nin də artım tempi zəyifləyərək azalmışdır.

**Qrafik 1: 2012-2022-ci illər ərzində orta illik inflyasiya dərəcəsi, %-lə**




**Mənbə:** Azərbaycan Respublikasının Mərkəzi Bankı, www.cbar.az (18.04.2023)

Neft gəlirlərinin azalması nəticəsində Mərkəzi Bank manatın məzənnəsini qorumaq üçün valyuta ehtiyatlarını xərclədi. Baş verən qlobal proseslər və buna qarşı atılan addımlar nəticəsində 2015-ci ilin

fevralında manatın ilk, dekabrında isə ikinci devalvasiyası baş verdi. Nəticədə, 2 devalvasiyanın nəticəsi olaraq manat dollar qarşısında dəyərini 49% itirdi (Azərbaycan Respublikası Mərkəzi Bankı).

Azərbaycan idxaldan asılı olan ölkələr sırasında olduğu üçün manatın devalvasiyası inflyasiya ilə nəticələndi. Qrafik 1-dəki inflyasiya dinamikasında müşahidə edirik ki, 2012-2014-cü illərdə kifayət qədər aşağı rəqəmlər mövcud olmuşdur. Lakin, 2015-ci ildə qlobal səviyyədə baş verən hadisələr fonunda istehlak qiymətləri indeksinin orta illik artım faizi təxminən 3 dəfə artım göstərmişdir. 2016-2017-ci illərdə müvafiq olaraq 12,4 və 12,9 % inflyasiya müşahidə edilmişdir ki, bu göstərici ötən illərə nisbətən kifayət qədər yüksək hesab olunur.

**Qrafik 2: Azərbaycanda ÜDM-in artım tempi ilə Brent markalı neftin qiyməti arasında əlaqə**




**Mənbə:** Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, www.stat.gov.az (18.04.2023)

2012-2014-cü illər ərzində ÜDM artımının ən aşağı səviyyəsi 2012-ci ildə (2.2%), ən yüksək səviyyəsi 2013-cü ildə (5.8%) qeydə alınıb. Neftin qiymətinin kəskin azalması ilə 2015-ci ildə ÜDM-nin artım tempi zəifləyərək 1.1% təşkil etmişdir. Növbəti ildə isə 4%-ə yaxın azalma qeydə alınıb (Qrafik 2).

Ümumiyyətlə qlobal maliyyə böhranlarının erkən xəbərdarlıq göstəriciləri mövzusu xarici ədəbiyyatlarda kifayət qədər geniş araşdırılıb müzakirə olunsa da, ölkəmizdə isə böhranın proqnozlaşdırılması, böhran öncəsi erkən xəbərdarlıq göstəricilərinin təhlili analizləri kifayət qədər dərindən araşdırılmamışdır.

Antiböhran idarəetməsinin daha səmərəli və effektiv ola bilməsi üçün böhranların proqnozlaşdırılması üzrə mümkün addımların zərurəti yaranmışdır.

Ölkə üzrə böhran risklərini qiymətləndirmək və proqnozlaşdırma üçün kritik dönəmlərdəki iqtisadi göstəricilərin statistikasına nəzər salmaq və müqayisəli təhlil aparmaq olar. Həmçinin qeyd etməliyik ki, erkən böhran siqnallarını və onların ölkə iqtisadiyyatına təsir kanallarını müəyyən etmək əhəmiyyətli antiböhran tədbirlərindən hesab edilir. Əksər hallarda, iqtisadi böhran vəziyyətində dövlətin iqtisadiyyata müdaxiləsi qaçılmaz bir vəziyyət olur.

2008-2009-cu il əsasən maliyyə böhranı kimi xarakterizə olunur, 2015-2016-cı illərdə isə neft qiymətlərinin ucuzlaşması fonunda neftdən asılı olan ölkələrin böhranlı vəziyyətlə üzləşməsini müşahidə etdik.

Tədqiqat apararkən statistik göstəricilərə dayanaraq bu nəticəyə gəlinmişdir ki, böhranlı şəraitdə əsas makroiqtisadi risk faktorları aşağıdakılardır:

- ÜDM-nin artım tempi
- Adambaşına düşən real gəlirlər
- İnflyasiya səviyyəsi
- Maliyyə stabilliyi

• Tədiyə balansı göstəriciləri
• Xarici borcun ÜDM-də payı
• Ölkənin idxaldan və neft sənayesindən asılılıq dərəcəsi və s. kimi sadalamaq olar.

**Ədəbiyyat**:

1. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, www.stat.gov.az
2. Azərbaycan Respublikasının Mərkəzi Bankı, www.cbar.az
3. Krugman, P. (1979). A Model of Balance of Payments Crises, Journal of Money, Credit and Banking
4. Allen F., Gale D. (2000) Bubbles and crises.
5. Süleymanov E., Zeynalov A. (2009). Qlobal Maliyyə Böhranının Azərbaycan İqtisadiyyatına Təsiri. - Journal of Qafqaz University
6. Azərbaycan-Türkiyə İş Adamları Birliyi Layihələr və Tədqiqatlar Şöbəsi (2019). Qlobal iqtisadi böhranın Azərbaycana təsirləri: yeni miflər yeni reallıqlara qarşı.

## STRUKTUR İSLAHATLARININ DAVAMLI İNKİŞAF GÖSTƏRİCİLƏRİNƏ TƏSİRİ

**Abdullazadə Nurlan İlham**
**Azərbaycan Dövlət İqtisad Universiteti**
**https://orcid.org/0009-0009-7012-7211**
**nurlan.abdullazade@yahoo.com**

## IMPACT OF STRUCTURAL REFORMS ON SUSTAINABLE DEVELOPMENT INDICATORS

**Abdullazade Nurlan Ilham**
**Azerbaijan State University of Economics**
**https://orcid.org/0009-0009-7012-7211**
**nurlan.abdullazade@yahoo.com**

**Summary**

The European Union (EU) is an economic integration organization created to achieve the common goals of expanding relations and sustainable development among its members. The organization aims to become climate-neutral by 2050. With the implementation of structural reforms, each EU member country should work towards the goals set by the organization in accordance with its goals. However, an agreement must be reached between the individual welfare goals of each member country and the common goals of the EU. Therefore, understanding the determinants of structural reforms related to sustainable development is extremely important, especially for realizing their policy goals. This article analyzes the impact of structural reforms on sustainable development indicators in the European Union countries, the grouping of European Union countries according to different social policy regimes, the clarification of perceptions and knowledge about the impact and usefulness of structural reforms for sustainable development indicators. The article provides real empirical evidence and helps to identify the targets of structural reforms related to sustainable development. The results provide guidance for developing more appropriate and effective sustainable development policies.

**Keyword:** Social model, sustainable development, economic freedom, welfare, employment

# ВЛИЯНИЕ СТРУКТУРНЫХ РЕФОРМ НА ПОКАЗАТЕЛИ УСТОЙЧИВОГО РАЗВИТИЯ

**Абдуллазаде Нурлан Ильхам**
**Азербайджанский Государственный Экономический Университет**
**https://orcid.org/0009-0009-7012-7211**
**nurlan.abdullazade@yahoo.com**

**Резюме**

Европейский союз (ЕС) — это организация экономической интеграции, созданная для достижения общих целей расширения отношений и устойчивого развития между ее членами. Организация стремится стать климатически нейтральной к 2050 году. При проведении структурных реформ каждая страна-член ЕС должна работать над достижением целей, поставленных организацией в соответствии с ее целями. Однако необходимо достичь согласия между индивидуальными целями благосостояния каждой страны-члена и общими целями ЕС. Поэтому понимание детерминант структурных реформ, связанных с устойчивым развитием, чрезвычайно важно, особенно для реализации их политических целей. В этой статье анализируется влияние структурных реформ на показатели устойчивого развития в странах Европейского союза, группировка стран Европейского союза в соответствии с различными режимами социальной политики, уточнение представлений и знаний о влиянии и полезности структурных реформ на показатели устойчивого развития. Статья предоставляет реальные эмпирические данные и помогает определить цели структурных реформ, связанных с устойчивым развитием. Результаты служат ориентиром для разработки более подходящей и эффективной политики устойчивого развития.

**Ключевые слова:** Социальная модель, стойчивое развитие, экономической свободы, благосостояние, занятость

Rusiya-Ukrayna müharibəsi, COVID-19 pandemiyası, Türkiyədə baş vermiş zəlzələ və digər milli və regional sarsıntılar qlobal iqtisadiyyatın artan tarazlığına və sabitliyinə, eləcə də ölkələr arasında davamlı inkişafa və mütəşəkkilliyə kəskin şəkildə təsir göstərir. İdeoloji və siyasi baxımdan, millətçilik və populizm çoxtərəfliliyə qarşı çıxır və onu təhlükə altında saxlayır. Müxtəlif iqtisadi və siyasi sarsıntılar, hərbi münaqişələr bütün dünyada daha da güclənir, bu da ölkələrin milli şüuruna və gələcək iqtisadi və siyasi strategiyalarına təsir göstərir. Dövlətlər geosiyasi münaqişələrlə məşğul olduqları üçün "yeni normalar" meydana gəlmiş, proteksionizm və dövlət ayrı-seçkiliyi sürətlə artmağa başlamışdır (Hoekman, B.M., 2015), (Cepr Press, 2015).

Bununla belə, struktur islahatlarının istiqamətləri və xüsusiyyətləri hər bir ölkənin siyasi rejimlərindən asılı olaraq dəyişir (Mariotti, S., 2022), (İndustrial business economy, 2022). Avropa İttifaqında Avropa Sosial Modellərinin beş növü, yəni Kontinental, Nordik, Anglo-Sakson, Aralıq dənizi (və ya Cənubi) və Şərqi və Mərkəzi Avropa modelləri mövcuddur. Siyasi baxımdan, Avropa Sosial Modelləri, sosial siyasət, Avropa İttifaqına üzv ölkələrin yaxınlaşması və Avropa İttifaqı tərəfindən milli və xarici çağırışlara birgə cavab üçün müxtəlif tənzimləmə siyasətinin tətbiqi kimi başa düşülür (Visser, J., 2008), (In Industrial Relations in Europe Report, 2008). İqtisadi baxımdan isə o, təsərrüfat subyektlərinin müxtəlif aspektləri, o cümlədən istehsal rejimi, məşğulluq rejimi və istehsal münasibətləri rejimindəki fərqlərlə müəyyən edilir.

Bu məqalədə müxtəlif Avropa Sosial Modellərinin mövcudluğu şəraitində Avropa İttifaqında Dayanıqlı İnkişaf Məqsədlərinə nail olunmasını necə təşviq etmək məsələsi müzakirə olunub. Bundan əlavə, "yeni normalar"-da dayanıqlı inkişaf və əlaqəliliyin artmasına nail olmağın mümkün yolları ilə bağlı açıq müzakirələr aparılır. Qeyd edilənləri nəzərə alaraq, bu məqalədə müxtəlif Avropa Sosial Modellərinin

timsalında iqtisadi azadlıq və davamlı inkişafa diqqət yetirməklə, struktur islahatları arasında qarşılıqlı əlaqə araşdırılır. Araşdırmalardan məlum olur ki, bu günə qədərki analoji tədqiqatlar davamlı inkişaf konteksti olmayan struktur islahatlarının iqtisadi və ekoloji və ya iqtisadi və sosial göstəricilərə təsirlərini araşdırıb. (Alola, A.A.; Alola, U.V.; Akdag, S.; Yildirim, H., 2022) (Environmental Science and Pollution Research, 2022) Bu məqalə isə əsas olaraq, struktur islahatlarının davamlı inkişaf göstəricilərinə təsirlərini, onların faydalılığını ortaya çıxarmağa kömək edəcəkdir.

Məqalədə, iqtisadi azadlıq və müxtəlif Avropa Sosial Modelləri çərçivəsində Dayanıqlı İnkişaf Məqsədlərinə doğru irəliləyiş arasında əlaqələri araşdırmaq üçün müxtəlif istiqamətdə təsir göstəriciləri üzrə tədqiqatlar aparılmışdır. Əsas tədqiqat istiqamətləri aşağıdakılardır:

- Liberallaşma səviyyəsinin araşdırılması;
- İqtisadi azadlıq - neoklassik artım nəzəriyyəsi vasitəsilə iqtisadi inkişafla bağlı olan iqtisadi siyasətin strukturunun və mərkəzi hissələrinin xarakterizə edilməsi;
- Sosial, iqtisadi və ekoloji amillərin iqtisadiyyata ümumi təsirinin qiymətləndirilməsi;
- Davamlı İnkişaf Məqsədləri göstəriciləri vasitəsilə iqtisadi inkişafın dəyərləndirilməsi;
- İqtisadi artım, məşğulluq və maliyyə göstəriciləri kimi müxtəlif göstəricilər vasitəsilə iqtisadi fəaliyyət səviyyəsi kimi qeyd edilən ənənəvi iqtisadi inkişafın ölçülməsi;
- Rifah, istehsal, məşğulluq, sənaye münasibətləri rejimləri və digər sosial siyasət təyinediciləri kimi meyarları əhatə edən Avropa Sosial Modelləri konsepsiyasından istifadə edərək müxtəlif ölkə qruplarının təcrübəsinin araşdırılması və s.

Bundan əlavə, araşdırma emprik sübutlar əsasında, Avropa İttifaqı ölkələrində davamlı inkişaf məqsədlərində irəliləyişin uyğunluğunu təşviq etmək üçün tövsiyələr müəyyən edir (Kouton, J., 2019) (Socio-Economic Development, 2019). Digər tərəfdən, sistem əhəmiyyətli inkişaf məsələləri və yeni davamlı inkişaf məqsədləri gündəliyi ilə əlaqədar inkişaf trayektoriyalarında baş verən dəyişikliyin izlənilməsini təmin edir.

Ümumi struktur islahatları mal və ya xidmət bazarlarının liberallaşdırılması və tənzimləyici mühitdə dəyişikliklər yolu ilə həyata keçirilir. İqtisadi azadlıq yolu ilə struktur islahatlarının genişləndirilməsi ölkənin inkişafında əsas iqtisadi problemlərin həllinə gətirib çıxarır. Hökumət iqtisadi siyasətin mərkəzi hesab edilir və bazarın tənzimlənməsi prosesində əsas rol oynayır. Mövcud araşdırmalar azad bazarın genişləndirilməsi ideyasına üstünlük verir. Azad bazar prinsiplərinin iqtisadi-sosial faktorlar üzərində faydalarına baxmayaraq, proteksionizm və dövlət ayrı-seçkiliyi adətən “yeni normalar” halına gəlir. Ətraf mühitə yanaşma ilə bağlı araşdırmalar iqtisadi azadlığın korporativ ekoloji məsuliyyətə mənfi təsirlərini nümayiş etdirir. İqtisadi azadlığın optimal səviyyəsi ən yaxşı iqtisadi və ekoloji nəticələrin qorunub saxlanılması deməkdir. Bununla yanaşı, iqtisadi azadlığın əlverişli mövqeyinə baxmayaraq, hökumət nöqteyi-nəzərindən qaydalar və dövlət nəzarəti qorunub saxlanılmalıdır.

Ölkənin inkişafı ilə bağlı iqtisadi azadlıq təhlillərindəki bu müxtəlif ziddiyyətli ifadələrə görə, iqtisadi azadlıqda hər hansı yüksəliş müəyyən edilə bilmir. Odur ki, biz iqtisadiyyatın rifah rejiminə uyğun gələn ən mühüm amillərini qeyd etməliyik. Keçid dövründə liberallaşma ilə bağlı ölkə islahatları iqtisadi göstəriciləri artırır. Bütövlükdə götürüldükdə isə xarici liberallaşma yönümlü islahatlar iqtisadiyyatı qısa və ya uzun müddətə gücləndirir. Ölkənin inkişaf amillərindən asılı olaraq islahatlar müxtəlif nəticələrə gətirib çıxara bilər. Digər tədqiqatçılar da bu qənaətə gəlmişlər ki, liberallaşma indeksləri vasitəsilə struktur islahatlarının artıma təsirinin qiymətləndirilməsi inkişaf səviyyəsindən asılı olaraq dəyişir və inkişaf meyarlarına əsasən ölkə seqmentinə fərqli təsir göstərir. Liberallaşma prinsiplərinə əsaslanan struktur islahatları və sahibkarlığa təsir bir neçə iqtisadi azadlıq komponentləri əsasında inkişaf etdirilir. Lakin bu təsirlər müsbət və mənfi ola bilər. Bu cür fərqli nəticələr ümumi səviyyədən deyil, birbaşa iqtisadi azadlığın

xüsusi komponentlərindən asılıdır. Rifah dövləti ölkədə onun müxtəlif nəticələrinə əsaslanan iqtisadi azadlığın fərqli strukturunu təmin edən mühüm amildir. Ölkələr arasında rifah təminatındakı qeyd edilən fərqlər iqtisadi azadlığı araşdıran tədqiqatların niyə qarışıq nəticələrə gətirib çıxardığını göstərməyə şərait yaradır. İqtisadi azadlığın nəticəsini müəyyən etmək üçün sosial dövlət təminatının qiymətləndirilməsi ən vacib amillərdən biridir.

İqtisadi azadlığın qiymətləndirilməsində çətinliklər fonunda, sosial dövlətin niyə bu qədər vacib olduğunu vurğulamaq lazımdır. Birincisi, rifah dövlətini saxlamaq üçün struktur islahatları qəbul olunmağa meyillidir, buna görə də müxtəlif sosial dövlətlər müxtəlif islahatlar həyata keçirirlər. Avropa İttifaqı idarəetmədə, sosial, siyasi və iqtisadi inkişafda, o cümlədən struktur islahatlarının aparılmasında mühüm rol oynayan müxtəlif növ kapitalizm və sosial dövlət modellərini özündə birləşdirir. Liberal rifah rejimi, mühafizəkar rifah rejimi və sosial-demokratik rifah rejimi üç növ rifah dövlətini təmsil edir. Qeyd edilən rejimlərin hər biri ölkənin idarəetmə strukturuna fərqli yanaşmalar gətirir. Koordinasiya edilmiş siyasət mexanizmlərinə baxmayaraq, Avropa Sosial Modelləri növü bütün ölkələrdə eyni dərəcəli təsir gücünə malik deyildir. Struktur islahatların təhlili zamanı sosial dövlətin üslubunun nəzərə alınması və ya ölkə qruplarına bölünməsinin həyata keçirilməsi mühüm əhəmiyyət kəsb edir, çünki liberallaşmanın təsiri iqtisadi inkişaf səviyyəsinə görə ayrı-ayrı ölkə qrupları arasında fərqlənir. Sosial rifah dövlətinin aktuallığına baxmayaraq, Avropa Sosial Modelinə istehsal, məşğulluq, sənaye münasibətləri və ölkələrin sosial-iqtisadi inkişafına təsir edən digər mühüm amillərin daxil olduğunu qeyd edə bilərik. Müxtəlif şəraitlərdə iqtisadi, sosial və ekoloji nəticələrdən liberallaşmanın qiymətləndirilməsi yolu ilə struktur islahatlarının təsirləri təhlil edilir, lakin Dayanıqlı İnkişaf Məqsədləri ilə bağlı ümumi sistematik qiymətləndirmə yoxdur. Aşağıda əlavə edilmiş Şəkil 1. – də müxtəlif Avropa Sosial Modelləri çərçivəsində iqtisadi azadlığa və Dayanıqlı İnkişaf Məqsədlərində irəliləyişlərə yönəlmiş struktur islahatlarının qarşılıqlı əlaqəsi üçün konseptual çərçivə vizual olaraq təqdim edilmişdir.




Şəkil 1. Struktur islahatlarının əlaqəsi üçün konseptual çərçivə.

Bu araşdırmada, Dayanıqlı İnkişaf Məqsədlərinin daxil edilməsi ilə sosial, iqtisadi və ekoloji amillərə əsaslanan inkişafın sistemli ölçülməsindən istifadə edilmişdir. Dayanıqlı İnkişaf Məqsədləri öz konsepsiyası, məqsədi və qlobal inkişaf siyasətinə görə 21-ci əsrin mürəkkəb çağırışlarını daha adekvat şəkildə əks etdirir. Bu məqsədlərin gündəliyinə əsaslanan islahatlar inkişafa doğru irəliləyiş üçün çox vacib hesab edilir. Konseptual çərçivənin yeniliyi struktur islahatları, Avropa Sosial Modelləri kimi səciyyələndirilən rifah rejimləri və irəliləyişlər vasitəsilə liberallaşdırma effektlərinin üçtərəfli baxışındadır. M. Fridmanın dediyi kimi, "Böyük səhvlərdən biri siyasətləri və proqramları nəticələrinə görə deyil, məqsədlərinə görə mühakimə etməkdir". Qeyd edilənləri nəzərə alaraq, hər bir ölkədə qəbul edilmiş Sosial Modellər ilə bağlı liberallaşmanın modellərə təsirləri və irəliləyişlərin öyrənilməsi yolu ilə struktur islahatlarının nəticələrinə əsaslanan kəmiyyət siyasətinin qiymətləndirilməsi yanaşması formalaşdırılmalıdır. Bu araşdırmada iqtisadi azadlıq dərəcəsinə və Dayanıqlı İnkişaf Məqsədlərinin irəliləyişinə görə Avropa İttifaqı ölkələrində daha

geniş şəkildə Avropa Sosial Modelləri kimi təsvir edilən rifah dövləti üslubu ilə bağlı inkişaf nəzəriyyəsinin təkamülünün sistematik təhlili komponentləri təsvir edilmişdir. Liberallaşma nöqteyi-nəzərindən struktur islahatlarının davamlı inkişafa təsirlərini qiymətləndirən mövcud tədqiqatların inkişafına yönəldilmiş tədqiqat aparılmışdır. Analoji tədqiqatlar əsasən iqtisadi-sosial təsirin qiymətləndirilməsi və sistematik təhlil olmadan iqtisadi-ekoloji təsirin qiymətləndirilməsinə yönəldilmişdir. Bu tədqiqatda həmçinin Avropa Sosial Modellərinin rifah dövləti nəzəriyyəsinə uyğun gələn xüsusi ölkə modeli daxil edilmiş və eyni zamanda ölkənin iqtisadi və sosial inkişafına diqqəti daha geniş səciyyələndirən modelin strukturu daxil edilmişdir. Bunlara misal olaraq rifah dövləti, sənaye münasibətləri rejimi, istehsal rejimi, məşğulluq rejimi və digər sosial siyasət amillərini göstərmək olar. Müxtəlif nəzəriyyələr Avropa İttifaqı ölkələrini aşağıdakı beş modelə bölür: Nordik, Kontinental, Cənub/Aralıq dənizi, Anglo-Sakson, Mərkəzi və Şərq. Bu konseptual, nəzəri qarışığın ahəngdarlığı inkişaf məqsədlərinə doğru irəliləyişlə həyata keçirilən modellərə uyğun olaraq iqtisadi azadlıq arasında əlaqəni qiymətləndirməyə imkan vermişdir.

Nəticələr göstərir ki, sərbəst bazara yönəlmiş iqtisadi azadlıq struktur islahat amili kimi hökumətin bütövlüyü və mülkiyyət hüquqları ilə bağlı maliyyə siyasətinə və institusional məsələlərə məhdud nəzarəti olan ölkələrdə işləyir. Bununla belə, ən yüksək tərəqqi zirvəsi maliyyə siyasətinin yüksək səviyyədə idarə olunduğu və əlaqələndirildiyi, eyni zamanda prioritet olduğu Avropa Sosial Modeli ölkələrində müşahidə olunur. Buna görə də, Avropa Sosial Modelləri tənzimləyici siyasət kimi müəyyən edilir. Yəni ölkələr mövcud iqtisadi sosial siyasət modelini dəyişdirmədən, struktur islahatları vasitəsilə gələcək inkişafı həyata keçirə bilməzlər. Bu səviyyədə iqtisadi və siyasi müstəqilliyi qorumaq üçün milli maraqlar və Avropa İttifaqı maraqları arasında ziddiyyətlər nəzərə çarpır.

Ən yaxşı performans göstərən ölkələr yəni, Nordik və Kontinental Avropa Sosial Model ölkələri nisbətən daha çox sənaye və innovasiya məqsədlərinə cəmlənmişdilər ki, bu da digər bir-biri ilə əlaqəli məqsədlərə əhəmiyyətli dərəcədə təsir etmişdir. Bu struktur siyasəti ilə bağlı təkliflər qismən empirik sübutlarla dəstəkləndiyinə görə, sonrakı tədqiqatlar adi iş modellərinə əsaslanan proqnozlarla əlavə modelləşdirməni və əlavə modelləşdirmə həyata keçirməklə təklif olunan strukturların birləşdirilməsini əhatə edəcəkdir. Əlavə olaraq, qeyd edilən iqtisadi və sosial siyasət modelləri özəl bazar strukturuna malik ABŞ və qoruyucu daxili bazar ilə xarakterizə olunan Yaponiya kimi digər ölkə modelləri arasında səmərəliliyin ölçülməsi üçün tədqiqat sahəsi kimi müqayisə edilə bilər. Bundan əlavə, fərqli ölkə modellərinin müqayisəsi beynəlxalq səviyyədə ən yaxşı iqtisadi və sosial siyasət modellərini müəyyən etməyə imkan verəcək və bu da tədqiqat sahəsinin əhatəsini genişləndirəcəkdir. Bu proses növbəti tədqiqat üçün faydalı olacaqdır. Çünki araşdırmanın ən əhəmiyyətli məhdudiyyəti yalnız Avropa İttifaqı ölkələri ilə hüdudlanmasıdır.

**Ədəbiyyat:**


1. Velenturf, A.P.; Purnell, P. (2021). Principles for a sustainable circular economy. Sustain. Prod. Consum. 27, 1437–1457.
2. Rahman, K.S. (2016). From Economic Inequality to Economic Freedom: Constitutional Political Economy in the New Gilded Age. Yale L.Pol’y Rev. 35, 321.
3. Al-Salim, W.; Darwish, A.S.K.; Farrell, P. (2022). Analysing data quality frameworks and evaluating the statistical output of United Nations Sustainable Development Goals’ reports Renew. Energy Environ. Sustain. 7, 17.
4. Sapir, A. (2006). Globalization and the Reform of European Social Models. J. Common Mark. Stud. 44, 369–390.
5. Swain, R.B.; Yang-Wallentin, F. (2020). Achieving sustainable development goals: Predicaments and strategies. Int. J. Sustain. Dev. World Ecol. 27, 96–106.

6. Pogge, T.; Sengupta, M. (2015). The Sustaintable Development Goals (SDGs) as Drafted: Nice Idea, Poor Execution. Wash. Int’l LJ 24, 571. Available online: https://digitalcommons.law.uw.edu/wilj/vol24/iss3/8 (accessed on 15 July 2022).

7. Rapsikevicius, J.; Bruneckiene, J.; Lukauskas, M.; Mikalonis, S. (2021). The Impact of Economic Freedom on Economic and Environmental Performance: Evidence from European Countries. Sustainability 13, 2380.

8. Mariotti, S. (2022). A warning from the Russian-Ukrainian war: Avoiding a future that rhymes with the past. J. Ind. Bus. Econ.

# YAXŞI İDARƏÇİLİK PRİNSİPLƏRİNİN QURULMASINDA İNSTİTUSİONALLAŞMANIN ROLU

**Hüseynov Talut Əli**
**Sakarya Universiteti**
**https://orcid.org/0000-0001-9354-7272**
**taluthuseynov@gmail.com**

# THE ROLE OF INSTITUTIONALIZATION IN ESTABLISHING THE PRINCIPLES OF GOOD GOVERNANCE

**Huseynov Talut Ali**
**Sakarya University**
**https://orcid.org/0000-0001-9354-7272**
**taluthuseynov@gmail.com**

**Summary**

First used as a term by the World Bank, good governance encompasses a group of principles of the rule of law, democratic values, and modern institutional and constitutional values. The joint application of these values is aimed at increasing the welfare of society, ensuring justice and building a sustainable governance. Institutional theory helps to plan organizational structures in accordance with the principles of good governance. Institutionalization of state institutions is of great importance for effective and sustainable governance.

Institutionalization takes place in 3 forms: normative, regulatory and cognitive.

Institutionalism plays an important role for structure and structure regulation, creation of rules and procedures, quick reaction and adaptation, formation of value systems within the organization.

**Keywords:** Institutionalism, efficiency, good governance, effective management

# РОЛЬ ИНСТИТУЦИОНАЛИЗАЦИИ В ФОРМИРОВАНИИ ПРИНЦИПОВ ЭФФЕКТИВНОГО УПРАВЛЕНИЯ

**Гусейнов Талут Али**
**Университет Сакарья**
**https://orcid.org/0000-0001-9354-7272**
**taluthuseynov@gmail.com**

**Резюме**

Впервые этот термин был использован Всемирным банком, и под ним понимается группа принципов верховенства закона, демократических ценностей, а также современных институциональных и конституционных ценностей. Совместное применение этих ценностей направлено на повышение благосостояния общества, обеспечение справедливости и построение устойчивого управление. Институциональная теория помогает планировать организационные структуры в соответствии с принципами эффективного управления. Институционализация государственных институтов имеет большое значение для эффективного и устойчивого управления.

Институционализация происходит в 3 формах: нормативной, регулятивной и когнитивной.

Институционализм играет важную роль для регулирования структуры, создания правил и процедур, быстрого реагирования и адаптации, формирования системы ценностей в организации.

**Ключевые слова:** Институционализм, эффективность, эффективное управление, эффективное управление

"Yaxşı idarəçilik" termini ilk dəfə "Good governance" olaraq Dünya Bankı tərəfindən 1989-cu ildə Afrika Davamlı İnkişaf Hesabatında istifadə edilmişdir. Hesabatda dövlət qurumlarının uğursuzluğu səbəbi ilə bankın liberal inkişaf strategiyasının davamlı inkişafa və demokratiyaya kömək etmədiyi bildirilmişdir və yaxşı idarəçilik siyasət strategiyası kimi qəbul edilərək həyata keçirilmişdir (Doeveren, 2011: 303).

Yaxşı idarəçilik anlayışı üç əsas dəyər qrupundan ibarət olan bir anlayışdır. Birinci dəyərlər toplusuna hüquqi dövlət prinsipləri daxildir. Bu prinsiplər ədalətli sistemdə hər kəsin bərabər hüquqi müdafiə altında olduğunu, doğruluğu, qanunun qərəzsiz tətbiqini və insan hüquqlarına hörmət edilməsini vurğulayır. İkinci qrup dəyərlər demokratik dəyərləri təmsil edir. Demokratiya xalqın iştirakını, şəffaflığı və idarəetmədə xalqın iradəsinin təmsil olunmasını ehtiva edir. Üçüncü qrup dəyərlər müasir institusional və konstitusional dəyərlərdən ibarətdir. Bu dəyərlər effektiv idarəetmə, hesabatlılığı vurğulayır (Addink, 2019: 190).

Yaxşı idarəçilik, hüquqi dövlət, demokratiya və müasir institusional və konstitusiya dəyərlərinin birləşməsini ifadə edən anlayışdır. Bu dəyərlərin birgə tətbiqi cəmiyyətin rifahının yüksəldilməsi, ədalətin təmin edilməsi və dayanıqlı idarəetmənin qurulması məqsədini daşıyır.

İnstitusional nəzəriyyə təşkilati strukturların yaxşı idarəçilik prinsiplərinə uyğun layihələndirilməsi üçün vasitə ola bilər.

Philip Selznick (1949) institusional nəzəriyyənin əsaslarını yaratsa da, 20-ci əsrin ikinci yarısında digər müəlliflər tərəfindən inkişaf etdirilmişdir. Onlar arasında Meyer, Rowan (1977) və DiMaggio, Powellin (1983) araşdırmaları önəmli yer tutur. İnstitusionallaşmaya görə, təşkilatlanma açıq sistem olaraq öyrənilir. Təşkilat və onun strukturu ətrafdakı proseslərin təsirinə məruz qalır və ətrafına reaksiya verir, uyğunlaşmağa çalışır.

İnstitusionallaşma, təşkilati sabitliyə, legitimliyə, proqnozlaşdırıla bilənliyə, resursların artırılmasına və uyğunluğuna nail olmaq məqsədi ilə qeyri-sabit şəkildə təşkil edilmiş dar texniki fəaliyyət və strukturların nizamlı, dayanıqlı və sosial cəhətdən inteqrasiya olunmuş struktura çevrilməsi prosesidir. Bu proses korporativ strukturun bütün işçilər və idarə edənlər tərəfindən eyni səviyyədə başa düşülərək mənimsənilməsi və bu struktur və davranışların müxtəlif şərait və mühitlərdə avtomatik tətbiqi vəziyyətini ifadə edir. Bu yeni şəraitə uyğunlaşma prosesində qurumların institusionallaşdırılması mühüm strategiyadır (Apaydın, 2009: 2). Başqa sözlə, institusionallaşma dar texniki hərəkətlərin və strukturların nizamlı, sabit və cəmiyyət tərəfindən qəbul edilmiş struktura çevrilmə prosesidir. Bu prosesdə korporativ dəyərlər və normalar bütün işçilər tərəfindən qəbul edilir və müxtəlif şəraitlərdə belə avtomatik tətbiq edilir. Beləliklə, təşkilat həm sabit struktur qazanır, həm də xarici mühitlə uyğunlaşır.

"Yaxşı idarəçiliyin institusional yanaşması, hər biri konkret funksiyanı yerinə yetirmək səlahiyyətinə malik olan nazir və ya dövlət qulluqçusu, inzibati orqanlar və ya dövlət prokuroru ilə əlaqələndirilir" (Addink, 2019:16).

Ümumiyyətlə, effektiv və dayanıqlı idarəetmə üçün dövlət qurumlarının institusionallaşdırılması böyük əhəmiyyət kəsb edir.

Dövlət qurumları üçün institusionallaşmanın əhəmiyyəti, qurumun müstəqil olaraq müəyyən edilmiş qaydalara, standartlara, prosedurlara və strateji plana malik olması, dəyişən mühiti mütəmadi olaraq izləyən bir struktur yaratmaq və təşkilati strukturunu inkişaf etdirmək, özünəməxsus əlaqə və iş üsullarını mənimsəməsi olaraq başa düşülür. Dövlət qurumları üçün institusionallaşmanın əhəmiyyəti fərdi deyil, sistemin prioritetini vurğulayan bir yanaşmadır (Erbaş, 2022: 249). Bu yanaşma dövlət qurumlarının səmərəli və sabit işləməsini təmin edir. Bu, fərdlərə, müvəqqəti və ya şəxsi maraqlara deyil, cəmiyyətin missiyasına, məqsədlərinə və ümumi maraqlarına diqqət yetirməyə imkan verir. Bununla da qurumlar səmərəli və doğru işləməklə cəmiyyətin maraqlarına daha yaxşı xidmət edə bilər.

Qurumların institusionallaşması 3 formada həyata keçir. Normativ forma əsasını qanunlardan alır. Qurumlar ətrafındakı qurumların yaratdığı normalara əməl edərək legitimlik qazanmağa çalışır, fəaliyyətlərinə və strukturlarına ətraf qurumlar tərəfindən nəzarəti bu normalar çərçivəsində qəbul edirlər (Zajac ve Westphal, 2004:433-7, sitat gətirən Apaydın, 2009:7). Tənzimləyici forma sanksiyalarla dəstəklənən hüquqi tənzimləmələrə əməl olunmasının zəruriliyi ilə özünü göstərir. Bu halda hüquqi tənzimləmələrə utilitar uyğunluq şəraitə görə yaranır (Dikmen & Başa, 2014: 31). Tənzimləyici forma cəmiyyətin nizamını və fəaliyyətini təmin etmək üçün qanunlar və qaydalarla müəyyən edilmiş bir sistemdir. Qanunlar cəmiyyətin qəbul etdiyi qaydalardır və bu qaydalara əməl etmək öhdəliyi var. Buna görə də tənzimləyici forma hüquqi tənzimləmələri və bu qaydalara uyğunluğu tələb edir.

Koqnitiv formaya adətlə dəstəklənən vərdişlər daxildir. Bu vərdişlər idarəetmə ilə əlaqədar adət normalarına uyğunluğa aiddir. Bu vərdişlər korporativ proseslərə çevrilir və zaman keçdikcə təkrarlanan hərəkətlər müəyyən forma alır. Bu nümunə növbəti dəfə daha az səy və enerji tələb edən avtomatlaşdırılmış davranışa çevrilir (Apaydın, 2009: 7).

Həmçinin, institusionallaşma izomorfizmlə həyata keçir. İzomorfizm institusional nəzəriyyədə mühüm anlayışdır və qurumların oxşar strukturuna və fəaliyyətinə istinad edir. Bu oxşarlıqlar müxtəlif qurumların oxşar şəraitə uyğunlaşmaq üçün oxşar həllər hazırladıqda yarana bilər. Bu oxşarlıqların araşdırılması institutların necə işlədiyinə dair anlayışımızı dərinləşdirə bilər və institusional dəyişiklik və islahatlara faydalı ola bilər.

Azərbaycanda dövlət qurumları arasında izomorfizm nümunəsi olaraq, dövlət idarəçiliyi islahatlarından sonra bir çox qurumların oxşar idarəetmə və təşkilati struktur hazırladığı göstərilə bilər. Xüsusilə, 2000-ci illərin əvvəllərində həyata keçirilən dövlət idarəçiliyində islahatlardan sonra bir çox dövlət qurumları mərkəzi idarəetməyə nisbətən daha muxtar bir quruluş əldə etdi. Məsələn, "Azərbaycan Hava Yolları" QSC (AZAL) və "Azərbaycan Dəmir Yolları" QSC-nin (ADY) struktur dəyişikliyindən sonra oxşar idarəetmə strukturuna sahib olub. Hər iki qurum İdarə Heyəti tərəfindən idarə olunur və yüksək performans hədəfləri qoyur. Bundan əlavə, hər iki təşkilat idarəetmə proseslərini təkmilləşdirmək, biznes proseslərini sadələşdirmək və müştəri yönümlü yanaşma üçün oxşar üsullardan istifadə edir. Bu izomorfizm nümunəsi Azərbaycanda dövlət qurumları arasında oxşarlıqları göstərir və oxşar strukturların və əməliyyatların performans və səmərəlilik baxımından müsbət nəticələr verə biləcəyini göstərir.

İnstitusionalizm, etibarlı idarə sisteminin və keyfiyyətli idarə prinsiplərinin inkişafında əsas rol oynayan bir mexanizmdir. İnstitusionalizm, müasir idarəetmə prinsiplərinin qurulmasında və müvəffəqiyyətlə tətbiq edilməsində aşağıdakı rollara malikdir:

Struktur və quruluş tənzimləməsi: İnstitusionalizm, idarə sisteminin uyğun struktur və quruluşa malik olmasını təmin edir. Bu, funksiya və vəzifələrin düzgün bir şəkildə təyin edilməsi, iyerarxiyanın qurulması, komitələrin və departamentlərin formalaşması, vəzifələrin və məsuliyyətlərin açıq və şəffaf bir şəkildə təyin edilməsi kimi addımları əhatə edir.

Qayda və prosedurların yaradılması: İnstitusionalizm, qayda və prosedurların idarəetmə proseslərinə tətbiq edilməsini təmin edir.

Sürətli reaksiya və adaptasiya: İnstitusionalizm, idarəetmə prinsiplərini səmərəli bir şəkildə icra etməyə, çeviklik və adaptasiya qabiliyyətini artırmağa kömək edir. Bu, yeniliklərə sürətli reaksiya verməyi, dəyişikliklərə uyğunlaşma və problemləri effektiv bir şəkildə həll etməyi tələb edir. İnstitusionalizm, bu cəhətdə idarəetmə prinsiplərinin ən yaxşı şəkildə tətbiq edilməsini təmin edərək, idarəetmə proseslərinin daha yüksək effektivlik səviyyəsinə çatmasına imkan verir.

Təşkilatın daxilində dəyər sistemlərinin formalaşması: İnstitusionalizm, idarəetmə prinsiplərinin qurulmasında təşkilatın daxilində dəyər sistemlərinin formalaşmasında əhəmiyyətli bir rola malikdir. Təşkilatın missiyası, vəziyyət və dəyərlər ətrafında inkişaf etməsi təmin edilməlidir. Bu, təşkilatın məqsədlərini, etik normalarını və sosial məsuliyyət prinsiplərini dəyərləndirməyə və tətbiq etməyə imkan verir.

Həmçinin institusionallaşma, yaxşı idarəçilik prinsiplərinin davamlılığını və idarəetmə təşkilatlarının stabilliyini təmin etməyə kömək edir.

Yaxşı idarəçilik prinsiplərinin tətbiqi üçün aşağıdakı təkliflər nəzərə alına bilər:

-Məsuliyyət və hesabatlılığın təmin edilməsi: İnstitusionallaşma ilə məsuliyyət prinsiplərinin və hesabat prosedurlarının təşkilatın hər səviyyəsində qorunmasına və təmin edilməsinə diqqət yetirməlidir;

-Prosedur və təcrübələrin standartlaşdırılması: İnstitusionalizm, idarəetmə proseslərinin standartlaşdırılmasını və təcrübələrin dəyərləndirilməsini vurğulayır;

-Təşkilatın təkmilləşdirilməsi və yeniliklərə açıq olması: İnstitusionalizm vasitəsi ilə təşkilatın daimi təkmilləşdirilməsi və yeniliklərə açıq olması üçün bir mexanizm yaradılmalıdır. Bu, yeni ideyaların təşkilata daxil edilməsini, yeniliklərin dəstəklənməsini, proaktivliyi və təşkilatın dəyişən şəraitə uyğun şəkildə adaptasiya olmasını təmin edir.

**Ədəbiyyat:**


1.Addink, H. (2019). *Good Governance Consept and Context.* Oxford: CPI Group (UK) Ltd, Croydon, CR0 4YY.

2.Apaydın, F. (2009). Kurumsal teori ve işletmelerin kurumsallaşması. *C.Ü. İktisadi ve İdari Bilimler Dergisi, 10*(1), 1-22.

3.Dikmen, A.A., & Başa, Ş. (2014). Kurumsalcı gelenek: Yönetimde Kurumsalcılık. Ankara: Ankara Üniversitesi Sosyal Bilimler Fakültesi.

4.Dimaggio, P., & Powell, J. (1983). The Iron Cage Revisited: Institutional Isomorphism and Collective Rationality in Organizational Fields. *American Sociological Review, 48*(2), 147-160.

5.Doeveren, V. (2011). Rethinking Good Governance. *Public Integrity, 14*(4), 301-318. doi:DOI 10.2753/PIN1099-9922130401

6.Erbaş, S. (2022). Kamu Kurumlarının Kurumsallaşması ve Markalaşması. *Ombudsman Akademik, 8*(16), 215-256.

7.Meyer, J., & Rowan, B. (1977, Sentyabr). Institutionalized Organizations: Formal Structure as Myth and Ceremony. *American Journal of Sociology, 83*(2), 340-363.

8.Selznick, P. (1949). *TVA and the Grassroots: A Study in the Sociology of Formal Organizations.* University of California Press.

# BANK BÖHRANLARI HARADAN QAYNAQLANIR?

**Quliyeva Nigar Vüqar**
**Azərbaycan Dövlət İqtisad Universiteti**
**https://orcid.org/0000-0002-1495-0686**
**nigar.gva.98@yandex.ru**

# WHAT ARE THE SOURCES OF BANKING CRISES?

**Guliyeva Nigar Vugar**
**Azerbaijan State University of Economics**
**https://orcid.org/0000-0002-1495-0686**
**nigar.gva.98@yandex.ru**

**Summary**

Banking crises are a fairly common type of crisis and have long been the subject of numerous studies by both Western and post-Soviet authors. Every banking crisis is costly to the economy and society as a whole. And yet, banking crises continue to be the least understood type of crisis.

The triggers that set in motion the true causes of banking crises are most often banking panics. A panic at the level of one of the banks can lead to a systemic banking crisis, with the withdrawal of all free capital from the banking system. Among the possible causes of the banking crisis of particular interest to researchers and analysts are the so-called positive feedback loops in the stock markets. At the same time, the lack of or weak culture of government oversight of compliance with regulatory requirements, as well as the low level of compliance itself, as well as the domino effect. However, the factors behind banking crises only actuate the true causes of banking crises. Reasons can be intra-bank and non-bank, national and international.

**Keywords:** bank crisis, bank panic, causes of bank crisis, factors of bank crisis, global financial crisis 2007-2008.

# КАКОВЫ ИСТОЧНИКИ БАНКОВСКИХ КРИЗИСОВ?

**Гулиева Нигяр Вугар**
**Азербайджанский Государственный Экономический Университет**
**https://orcid.org/0000-0002-1495-0686**
**nigar.gva.98@yandex.ru**

**Резюме**

Банковские кризисы являются достаточно распространенным типом кризисов и уже давно являются предметом многочисленных исследований как западных, так и постсоветских авторов. Каждый банковский кризис дорого обходится экономике и обществу в целом. И все же банковские кризисы по-прежнему остаются наименее понятным типом кризиса.

Триггерами, приводящими в действие истинные причины банковских кризисов, чаще всего выступают банковские паники. Паника на уровне одного из банков может привести к системному банковскому кризису, с изъятием всего свободного капитала из банковской системы. Исследователи и аналитики относят к вызывающим особый интерес возможным причинам банковского кризиса так называемые петли положительной обратной связи на фондовых рынках. Наряду с этим, повсеместно распространенным фактором возникновения банковского кризиса является отсутствие или слабая культура государственного надзора за соблюдением нормативных требований, как и низкий уровень самого соблюдения этих требований, а также так называемый эффект домино. Однако факторы банковских кризисов всего лишь приводят в

действие истинные причины банковских кризисов. Причины же банковских кризисов могут быть внутрибанковскими и внебанковскими, национальными и международными.

**Ключевые слова:** банковский кризис, банковская паника, причины банковского кризиса, факторы банковского кризиса, глобальный финансовый кризис 2007-2008 гг.

Bank böhranları iqtisadiyyata baha başa gəlir. 2011-ci ilin dekabrında Milli Audit İdarəsi (Böyük Britaniyada mərkəzi hökumət departamentlərinin, dövlət qurumlarının və qeyri-departamentli dövlət orqanlarının auditindən məsul olan müstəqil parlament orqanı) hökumətin Böyük Britaniya banklarını dəstəkləmək üçün 2009-cu ilin dekabr ayından bəri $124 milyard borc götürdüyünü elan etdi (UK government support …, 2010). Bir sıra amerikalı tədqiqatçıların fikrincə, ABŞ-da təkcə maliyyə yardımı $500 milyard başa gəlib (Measuring the Cost Bailouts …, 2022). Bundan əlavə, davamlı tənəzzül və ləngiyən bərpa hər amerikalıya ömür boyu qazancında $70.000 başa gəlir (U.S. Bureau …, 2018).

Çoxlu sayda fərdi əmanətçi eyni vaxtda öz əmanətlərini geri götürməyə cəhd etdikdə bank panikası, yəni əhali tərəfindən öz əmanətlərinin kütləvi şəkildə çıxarılması baş verir. Banklardan birinin səviyyəsində çaxnaşma sistemli bank böhranına səbəb ola bilər, bu da ki, sadəcə olaraq, bütün sərbəst kapitalın bank sistemindən çıxarılması deməkdir (Iustina & Dardac, 2010).

Bank böhranının mümkün səbəbləri arasında tədqiqatçı və analitiklər onları xüsusilə maraqlandıran Stock Market Positive Feedback Loops-ları (fond bazarının müsbət əks rabitə ilmələri) göstərmək olar. C. M. Keynsin belə bir məşhur müddəasını misal olaraq gətirmək olar ki, peşəkar treyderlərin birjadakı sərmayələri gözəllik yarışması ilə müqayisə edilir, çünki orta rəyi təxmin edənlər qalib çıxırlar (Keynes, 1973). Bu müddəa fərdi davranışın izahında daxili ardıcıllığın aksiomatik iddiaları yaxud riyazi ehtimalların deyil, məhz subyektiv bilik və təsəvvürlərin durması vurğulanır, özü də yalnız gözəllərə səs verərkən deyil, həm də səhmləri seçərkən (Lanteri & Carabelli, 2011).

Daha sonra, bank böhranının yaranmasında geniş yayılmış ümumi amil kimi dövlət nəzarətinin olmaması, daha doğrusu isə müvafiq mədəniyyətin, ənənələrin zəif olmasını göstərmək olar. Məsələn, BVF qeyd edir ki, əmanətlərin sığortası da daxil olmaqla dövlət təhlükəsizlik şəbəkələri bu riski məhdudlaşdıra bilsə də, hökumət dəstəyi əyintilərlə müşaiyət oluna bilər. Bu isə, öz növbəsində, faktiki olaraq böhran ehtimalını artıra bilər (Claessens & Kose, 2013).

Və nəhayət, qloballaşmanın və deməli beynəlxalq qarşılıqlı asılılığın "məhsullarından" olan, domino effekti, yəni ayrı-ayrı bankların problemləri əvvəl bütün bank sektorunun, sonra bütün milli iqtisadiyyatın və nəhayət bütün dünya iqtisadiyyatının böhran halına düşməsinin katalizatoruna çevrilir (Iustina & Dardac, 2010).

Bununla belə, bank böhranlarının tədqiqinin yuxarıda qeyd olunan aspektlərinin şəksizliyinə baxmayaraq, onlar heç də bank böhranlarının əsl səbəbləri deyil. Bank böhranlarının əsl səbəblərini hər bir bankın daxilindəki səbəblərə; bank sektoru səviyyəsindəki səbəblərə; milli məzmunlu makrosəbəblərə; beynəlxalq makrosəbəblərə; dünya iqtisadiyyatındakı qlobal natarazlıqlara ayırmaq olar. Sonuncular "Bernanke fenomeni" kimi də tanınır (Stulz, 2005; Buiter, 2009). Beynəlxalq maliyyə institutları milli məzmunlu makrosəbəblər arasında institusional zəiflik və qüsurların bank böhranı riskini artırmaq qabiliyyətini daha çox vurğulayırlar (Claessens & Kose, 2013).

İnkişaf etməkdə olan ölkələrdə bank böhranlarının öyrənilməsi xüsusilə böyük əhəmiyyət kəsb edir. Hesablanmışdır ki, 1980-1996-cı illər ərzində BVF-in üzv ölkələrinin ən azı 2/3-də, xüsusən də inkişaf etməkdə olan ölkələrin bank sektorunda ciddi problemlər yaşanmışdır (Lindgren, García & Mathew, 1996). Artıq danılmaz bir həqiqətdir ki, inkişaf etməkdə olan ölkələrin dünya iqtisadiyyatında və beynəlxalq maliyyə bazarlarında artan əhəmiyyəti səbəbindən bu ölkələrdəki bank böhranları inkişaf etmiş ölkələr üçün

çox baha başa gələ bilər. 1970-2010-cu illər arasında inkişaf etməkdə olan ölkələrin dünya sənaye istehsalındakı payı 13%-dən 41%-ə, sənaye məhsullarının dünya ixracındakı payı isə 7%-dən 40%-ə yüksəlmişdir (Nayyar, 2013).

Müxtəlif müəlliflərin tədqiqatlarının nəticələri belə qənaətə gəlməyə imkan verir ki, bank böhranları heç də həmişə əlverişsiz xarici makroiqtisadi proseslərin məhsulu deyil. Yerli mənşəli hadisələr də eyni dərəcədə əhəmiyyətlidir, xüsusən də bu cür hadisələr ölkənin makroiqtisadi və monetar siyasətinin parametrləri ilə bağlı olduqda, həmçinin ölkə iqtisadiyyatının bank sektorundakı zəifliklərlə üst-üstə düşdükdə (Iustina & Dardac, 2010). Bank nəzarəti üzrə Bazel Komitəsi bütün bunlara banklarda idarəçiliyin aşağı səmərəliliyini, maliyyə resurslarının qeyri-adekvatlılığını, uzunmüddətli davamlı inkişaf strategiyalarının olmamasını, aktivlər portfelinin aşağı keyfiyyətli olmasını, risk monitorinqi və daxili nəzarət sisteminin zəif olmasını da əlavə edir (Basel Committee …, 2002).

**Ədəbiyyat:**

1. Buiter, W. (2009). Fiscal Expansions in Submerging Markets; the Case of the USA and the UK: February 5.

2. Claessens, S., Kose, M.A. (2013). Financial Crises Explanations, Types, and Implications. IMF Working Paper, January, 13/28.

3. Iustina, A.B., Dardac, N. (2010). Banking crises triggering factors – lessons from past experience. Economic studies journal, Bulgarian Academy of Sciences, Economic Research Institute, issue 3, 3-33.

4. Keynes, J.M. (1973). The General Theory of Interest, Employment and Money. In: The Collected Writings of John Maynard Keynes. London, UK: Macmillan for the Royal Economic Society, vol. VII.

5. Lanteri, A., Carabelli, A. (2011). Beauty contested: how much of Keynes' remains in behavioral economics' beauty contests? The European Journal of the History of Economic Thought, Taylor & Francis Journals, vol. 18(2), 269-285.

6. Lindgren, C.J., García G., Mathew I.S. (1996). Bank soundness and macroeconomic policy. Washington: International Monetary Fund. 235 p.

7. Measuring the Cost Bailouts. (2022). Massachusetts Institute of Technology. Accessed January 17.

8. Nayyar, D. (2013). The South in the World Economy: Past, Present and Future. UNDP-HDRO Occasional Papers No. 01.

9. Stulz, R. (2005). The Limits of Financial Globalization. Journal of Finance, 60 (4), 1595-1638.

10. Supervisory guidance in dealing with weak banks. (2002). Basel Committee on Banking Supervision. Basel, March.

11. Ten years later – the financial crisis cost every American $70,000 in lifetime income. (2018). U.S. Bureau of Labor Statistics. https://www.bls.gov/opub/mlr/2018/beyond-bls/ten-years-later-the-financial-crisis-cost-every-american-70000-in-lifetime-income.htm

12. UK government support for banks 'has halved'. 15 December 2010. https://www.bbc.com/news/business-11997509

# FÖVQƏLADƏ HALLARIN BAŞVERMƏ EHTİMALININ STATİSTİK METODLARLA ARAŞDIRILMASI

**Yunusov Mir Ramin Mir Qasım**
**İdarəetmə Sistemləri İnstitutu**
**https://orcid.org/0009-0005-8323-4279**
**mirramin.yunusov@fhn.gov.az**

# INVESTIGATION OF THE PROBABILITY OF OCCURRENCE OF EMERGENCIES USING STATISTICAL METHODS

**Yunusov Mir Ramin Mir Gasim**
**Institute of Management Systems**
**https://orcid.org/0009-0005-8323-4279**
**mirramin.yunusov@fhn.gov.az**

**Summary**

The purpose of this report is to contribute to the early prediction of emergency situations that may occur. In recent times, there has been a large increase in the number and scale of natural and man-made emergency events in the world. So, it is influenced by many factors, including climate changes, population growth, environmental effects, etc. an example can be given. Conducted research, scientific research, as well as the results of many emergency events show that it is easier to prevent an emergency than to eliminate its consequences after it has occurred. Although there are many scientific results and technological innovations in emergency forecasting, it is appropriate to continue this research. The mentioned report deals with the investigation of statistical methods that lead to effective results in forecasting.

**Keywords:** PERT, EDA, StatsBase

# ИССЛЕДОВАНИЕ ВЕРОЯТНОСТИ ВОЗНИКНОВЕНИЯ АВАРИЙНЫХ СИТУАЦИЙ С ИСПОЛЬЗОВАНИЕМ СТАТИСТИЧЕСКИХ МЕТОДОВ

**Юнусов Мир Рамин Мир Гасым**
**Институт Систем Управления**
**https://orcid.org/0009-0005-8323-4279**
**mirramin.yunusov@fhn.gov.az**

**Резюме**

Целью настоящего отчета является содействие раннему прогнозированию чрезвычайных ситуаций, которые могут возникнуть. В последнее время в мире резко возросло количество и масштабы чрезвычайных ситуаций природного и техногенного характера. Итак, на него влияют многие факторы, в том числе изменения климата, рост населения, воздействие на окружающую среду и т. д. Можно привести пример. Проведенные исследования, научные изыскания, а также результаты многих чрезвычайных происшествий показывают, что аварийную ситуацию легче предотвратить, чем ликвидировать ее последствия после ее возникновения. Хотя в области прогнозирования чрезвычайных ситуаций имеется множество научных результатов и технологических инноваций, целесообразно продолжать эти исследования. Упомянутый доклад посвящен исследованию статистических методов, которые приводят к эффективным результатам в прогнозировании.

**Ключевые слова:** PERT, EDA, StatsBase

Müasir dövrdə aparılan tədqiqatların inkişafı istiqamətində əldə edilən məlumatların özəyi, xüsusilə gələcək barəsində proqnozların və ehtimalların əsasında müəyyən məlumat bazası dayanır. Bu məlumat bazası əsasən, tədqiqat üçün seçilən xüsusi zaman aralığında baş verən hadisələrin ayrı-ayrılıqda məcmusudur. Başqa sözlə desək, müəyyən zaman müddətində baş verən hadisələrin statistik məlumatıdır.

İstənilən sahədə, müxtəlif məlumat bazası yaradıb, müəyyən zaman aralığı üçün məlumatların inkişaf dinamikasını izləmək mümkündür. Belə dinamika həm qrafiki təsvirlə, verbal olaraq və ya xüsusi hazırlanmış proqram təminatı ilə mümkündür. Bu istiqamətdə alimlər, müvafiq elmi-tədqiqat institutları, dövlət orqanları geniş işlər aparırlar.

Bu məqalədə baş vermiş müxtəlif fövqəladə hallardan sonra əldə olunmuş məlumat bazası əsasında gələcəkdə baş verə biləcək fəlakət risklərinin proqnozlaşdırılmasının əhəmiyyəti və bu sahədə vacib məqamlar təsvir ediləcəkdir.

Son zamanlar aparılan çoxsaylı tədqiqatlar göstərdi ki, gözlənilən və ya ehtimal edilən proqnozun nəticəsini əldə etmək üçün məlumatların ən çox ehtimal olunan zaman müddəti ilə bağlı proqnozlar əlavə edilə bilməz. Bu məqsədlə, bütün fəlakət risklərinin gələcək proqnozunu vermək üçün bütün hadisələrin alt məlumatlarını araşdırmaq mütləqdir. Burada da, təbii ki, baş vermiş hər bir hadisənin nəticəsini araşdırmaq və bu hadisəyə təsir göstərən bütün amilləri araşdırmağa ehtiyac vardır. Bütün bu məlumatları ümumiləşdirərkən, hər bir halın orta statistik məlumatı əldə edilsə də, təəssüf ki, açıq şəkildə hər hadisəyə təsir edən amillər müxtəlif və dəyişkən olur. Bu amillər, gələcəkdə baş verə biləcək fövqəladə hallarda da özünü müxtəlif cür göstərə bilər. Orta dəyərin proqnozlarının müəyyən edilməsi məlumatların paylanmasının orta və ya ən tez-tez dəyişən məlumatların dəyərini tapmaqdan daha mürəkkəbdir. Keçmiş nəticələrin tam paylanmasını müşahidə edərkən belə, orta dəyərin nə olduğunu mühakimə etmək çətin ola bilər.

Statistik məlumatlardan istifadə edərək orta dəyərin proqnozlarını əldə etmək üçün müxtəlif yanaşmalar vardır. Bu yanaşmalardan biri üç nöqtəli qiymətləndirməyə əsaslanan paylamanın əldə edilməsidir.

Əgər fövqəladə halların müəyyən zaman aralığında inkişaf dinamikasını araşdırmaq istəyiriksə, bu araşdırmanı xüsusi proqram çərçivəsində apararaq, analiz edə bilərik. Bu prosesi "Proqramın Qiymətləndirilməsi və Baxılması Texnikası (Program Evaluation Review Technique – PERT)" metodundan istifadə edərək, orta dəyərin tapılması probleminin həllində faydalı ola biləcək araşdırmaları aparmaq mümkündür. Proqramın Qiymətləndirilməsi və Baxılması Texnikası (PERT) ən çox ehtimal olunan dəyərin, minimum (ən yaxşı vəziyyət) və maksimum (ən pis vəziyyət) dəyərin daxil edilməsini tələb edir və istifadə edərək orta dəyəri hesablayır.

PERT modeli çərçivəsində cari yanaşmalara alternativ olaraq, tədqiqatçı tərəfindən müəyyən edilmiş səviyyələr əsasında orta nəticələrin proqnozlaşdırılmasını təmin edən yeni üç nöqtəli proqnozlaşdırma aləti (elektron cədvəl modeli) hazırlanır (Chunlai Wang, 2017). Alət bir neçə mühüm xüsusiyyətə malikdir ki, onu digər yanaşmalardan fərqləndirən və bəlkə də daha yaxşı edən xüsusiyyətləri mövcuddur. Birincisi, alət proqnoz üçün əvvəlki məlumatlara nəzər yetirməyə və statistik məlumatlardan istifadə etməyə məcbur edir. Statistik məlumatlara məhəl qoymamaq bir çox hallarda riskin qiymətləndirilməsində zəif proqnozlaşdırılmanın əsas səbəblərindən biri ola bilir. İkincisi, alət ekstremal nəticələrin, məsələn, p1 və ya p95 proqnozlarının proqnozlaşdırılmasını tələb etmir. Üçüncüsü, əvvəlki vaxt proqnozları üçün istifadə edilən mənbələr eyni olduğu müddətcə, istinad kimi istifadə olunan vaxt proqnozunun xüsusi mənbəsini tələb etmir. Orta statistik proqnozu hesablamaq üçün addımlar aşağıdakılardır:

*1. Müvafiq zaman aralığında olan məlumatdan istifadə edin.* Məlumata istinad olunarkən baş verməsi ən çox ehtimal edilən real hadisəyə əsaslana bilər.

*2. Keçmiş məlumatların düzgünlüyünü qiymətləndirin.* Proqnoz üçün əldə etdiyiniz statistik məlumatı istifadə etmək üçün iki statistik dəqiqlik nöqtəsini seçin. Hər bir dəqiqlik nöqtəsinə (a) məlumat xətası

(faktiki nəticələrin sapması) və (b) baş vermə tezliyi daxil edilməlidir. Bu yolla, gələcək proqnozlaşdırılması üçün əldə olunan 10 məlumatın əsasında qurulan proqnozun 7-sinin gələcəkdə baş verməsini ehtimal etmək mümkündür.

3. *Qeyri-müəyyənliyin paylanmasını*, pX dəyərlərini və orta dəyəri hesablayan cədvələ dəqiqlik nöqtələrini daxil edin.

Qeyd etmək olar ki, fövqəladə halların proqnozlaşdırılmasına statistik metodlar vasitəsilə nəzarət hər hansı bir fövqəladə hadisə zamanı nəticəsi ciddi fəsad törədə biləcək strateji obyekt üzərində və ya müəyyən tendensiya ilə baş verən bir hadisə ilə bağlı fəlakət riskinin hazırkı mövcud vəziyyətinə nəzarət edilməklə, əldə edilən məlumatlar əsasında baş verə biləcək zərərdən qorunmaq üçün əhalinin və ərazilərin rifah halının yüksəldilməsinə yönələn proqnozlaşdırma işi üçün əhəmiyyətli rola malikdir. Statistik prosesə nəzarətdə tez-tez istifadə olunan Shewhart nəzarət qrafiklərinin köməyi ilə yaradılan prosesin hesablanmış nəzarət hədləri daxilində qalması təmin edilir. (James E. Gentle, 2020) Nəzarət qrafiklərinin köməyi ilə monitorinqi həyata keçirilən prosesin nəzarətdən çıxdığı nöqtələrə müxtəlif üsullar tətbiq edilir ki, prosesin normallaşmasına nail olmaq olar.

**Əldə edilən məlumatların emalı və ümumiləşdirilməsi**

Fövqəladə hal risklərinin proqnozlaşdırılması üçün baş verən mütəmadi proseslər izlənildikdən sonra əldə olunan məlumatların ümumiləşdirilməsi məqsədəuyğundur. Ümumiləşdirilən məlumatlar əsasında gələcək haqqında proqnoz verərək, baş verə biləcək riskləri aradan qaldırmaq mümkündür. Bunun üçün müvafiq metodlardan istifadə etmək olar. Belə metodlara ümumi statistika və məlumatların vizuallaşdırılması metodları daxildir. Bəzən bu metodlar Kəşfiyyat Məlumatlarının Təhlili (Exploratory Data Analysis - EDA) də adlanır. Biz bunun üçün bir neçə Julia alətini təqdim edirik, o cümlədən qeyri-homogen məlumatları ehtiva edən verilənlər toplusunun saxlanmasına imkan verən və çatışmayan girişlərə dəstək olan DataFrames paketi. Biz həmçinin məlumatların ümumiləşdirilməsi üçün faydalı funksiyaları ehtiva edən Statistika və StatsBase paketlərindən istifadə edirik. (Tuğba Çolak, 2007)

Davam edən müddət ərzində baş verən proseslərin nəzarət altında saxlanılması zamanı əldə olunan informasiya statistik məlumat adlanır. Bu proses üzərində müvafiq nəzarət sistemi yaradılarsa, o aşağıdakı cədvəl şəklində olar (Cədvəl 1): (Massimiliano Bonamente, 2013)




Cədvəl 1: Baş verən proseslərə nəzarət sisteminin ardıcıllığı

**Statistik proqnozlaşdırma üçün təsadüfi nümunə**

Statistik nəticə əldə olunarkən, *ɵ*-ın skalyar və ya vektorial qiymətli naməlum parametr olduğunu bilmək üçün apardığımız müşahidə əsasında *F(x;ɵ)* əsas paylanma olduğunu güman edirik. Əsas nəzərə almalı olduğumuz məsələ isə hər bir müşahidənin statistik cəhətdən müstəqil olduğunu və qalanları ilə eyni şəkildə paylanmasıdır. Yəni, ehtimal baxımından müşahidələr müstəqil və eyni şəkildə paylanmış təsadüfi

dəyişənlər kimi qəbul edilir. Riyazi statistika dilində bu, təsadüfi nümunə adlanır. Biz müşahidələrin təsadüfi dəyişənlərini $X_1,...,Xn$ və onların müvafiq dəyərlərini $x_1,...,x_n$ ilə işarə edək. Nəticə etibarilə, təsadüfi nümunədən statistika hesablayaq. Məsələn, iki ümumi standart statistikaya orta və seçmə dispersiya daxildir. Lakin, biz təsadüfi nümunə kimi bu statistikanı modelləşdirə bilərik (1):

$$\overline{X} = \frac{1}{n}\sum_{i=1}^{n} X_i \text{ və } S^2 = \frac{1}{n-1}\sum_{i=1}^{n}(X_i - \overline{X})^2 \qquad (1)$$

$\overline{X}$ və $S^2$-nin təsadüfi dəyişənlər olduğunu göstərərək biz eksponensial paylanmadan məlumatları $\lambda = 4.5^{-1}$ ilə seçirik. Əgər n = 10 olduğunu qəbul etsək, onda orta və seçmə dispersiya təsadüfi dəyişənlərdir. Görülən olan məqam odur ki, $\overline{X}$və $S^2$-nin özlərinin əsas paylanmalar ilə təsadüfi dəyişənlərdir. (Torleif Halkjelsvik, Magne Jıırgensen, 2018)

Ümumilikdə, statistika sözü nümunə əsasında hesablanmış kəmiyyət mənasını verir. Statistik məlumat ilə işləyərkən, orta və seçmə dispersiya heç bir məna kəsb etməsə də, rəqəmlər bizim müşahidələrimiz əsasında hesablanır. Lakin, statistik nəticə çıxarmaq üçün məsələnin qoyuluşunda təsadüfi dəyişənləri bu dəyərlər əsasında əlaqələndiririk. Biz bu cür statistikanın xassələrinə baxaraq onların əsas naməlum paylanma parametrinin qiymətləndirilməsində necə rol oynadığını görürük.

**Ədəbiyyat:**

1. Chunlai Wang, (2017). *Evolution, Monitoring and Predicting Models of Rockburst*. Beijing: China University of Mining and Technology 149-156

2. Massimiliano Bonamente, (2013). *Statistics and Analysis of Scientific Data.* New York: University of Alabama 21-29, 43-48

3. Tuğba Çolak, (2007). *İstatiksel Süreç Kontrolü ve Uygulamalar.* Adana: Çukurova Üniversitesi, yüksek lisans tezi 28-39

4. Torleif Halkjelsvik, Magne Jıırgensen, (2018). *Time Predictions.* Oslo: Norwegian Institute of Public Health 111-114

5. James E. Gentle, (2020). *Theory of Statistics.* Virginia: Fairfax County 445-463

# MÜASİR SƏHİYYƏ SAHƏSİNİN RƏQƏMSAL TENDENSİYALARI

**Əhmədova Türkan Əhməd**
**İqtisadiyyat İnstitutu**
**https://orcid.org/0000-0001-9239-5297**
**turkan.ahmedova89@gmail.com**

# DIGITAL TRENDS IN MODERN HEALTHCARE

**Ahmadova Turkan Ahmad**
**Intitute of Economy**
**https://orcid.org/0000-0001-9239-5297**
**turkan.ahmedova89@gmail.com**

**Summary**

In today's globalised world, digital mechanisms are rapidly penetrating the inner layers of the economy. The main approach here is to actively apply new technologies - digital mechanisms - to processes in any sphere of the economy, including healthcare. Studies show that innovation in healthcare systems is increasingly becoming the sole driver of competitiveness. From this point of view, it is necessary to focus on innovation in the healthcare ecosystem, in other words, to strengthen the local innovation system and direct the application of new technologies.

The rapid advancement of technology has necessitated the need to create and implement new models for the delivery of quality healthcare services. Also, the COVID-19 pandemic has highlighted the need to introduce innovative digital solutions into the healthcare system. For these reasons, the formation of integrated models based on the application of new technologies in the digital transformation of health systems is a guarantee for the delivery of quality health services.

The research paper investigated the digitalisation of healthcare, healthcare technologies and application areas, focusing on the justification of the relevance of the topic, new technological capabilities and effectiveness of digital health services.

**Keywords:** digital transformation, digital healthcare, e-health, health technologies.

# ЦИФРОВЫЕ ТРЕНДЫ В СОВРЕМЕННОМ ЗДРАВООХРАНЕНИИ

**Ахмедова Тюркан Ахмед**
**Институт Экономики**
**https://orcid.org/0000-0001-9239-5297**
**turkan.ahmedova89@gmail.com**

**Резюме**

В современном глобализованном мире цифровые механизмы стремительно проникают во внутренние слои экономики. Здесь основной подход состоит в активном применении новых технологий - цифровых механизмов, в процессах, происходящих в любой сфере экономики, в том числе и в здравоохранении. Исследования показывают, что инновации в системах здравоохранения все чаще становятся единственным фактором конкурентоспособности. С этой точки зрения необходимо сосредоточиться на инновациях в экосистеме здравоохранения, другими словами, укрепить местную инновационную систему и направить применение новых технологий.

Стремительное развитие технологий обусловило необходимость создания и внедрения новых моделей оказания качественных медицинских услуг. Также пандемия COVID-19 высветила необходимость внедрения инновационных цифровых решений в систему здравоохранения. По этим причинам формирование интегрированных моделей на основе применения новых технологий в условиях цифровой трансформации систем здравоохранения является гарантом оказания качественных медицинских услуг.

В исследовательской работе были исследованы цифровизация здравоохранения, медицинские технологии и направления применения, при этом основное внимание было уделено обоснованию актуальности темы, новым технологическим возможностям и эффективности цифровых медицинских услуг.

**Ключевые слова:** цифровая трансформация, цифровое здравоохранение, электронное здравоохранение, технологии здравоохранения.

Səhiyyə sektorunda uğurlu rəqəmsal transformasiya sadə texniki dəyişiklik məsələsi deyil, bütün səhiyyə sisteminin yenidən təşkilinə bərabər olan təşkilati və mədəni bir prosesdir. Səhiyyənin rəqəmsal transformasiyası işin təşkilində, müvafiq hüquqi və maliyyə çərçivələrində kompleks adaptiv dəyişikliklər edir (OECD, 2021). Diaqnoz, müalicə-profilaktika, reabilitasiya kimi xidmətlərin genişləndirilməsi səhiyyə sisteminin məzmununu, o cümlədən iştirakçılar arasındakı münasibətləri dəyişərək onu daha da mürəkkəbləşdirmişdir (EXPH, 2019). Yeni müalicə metodları, yeni texnologiyalar və ya yeni proseslərlə müşayiət olunan rəqəmsallaşma pasiyentlərin tələbatlarına daha çox diqqət yetirilməsinə təsir göstərməklə səhiyyə sisteminin pasiyentyönümlü səhiyyəyə keçidini sürətləndirir.

Tədqiqatda istifadə edilmiş ədəbiyyatlarda səhiyyənin rəqəmsallaşdırılmasının nəzəri aspektləri araşdırılmış, rəqəmsal səhiyyə texnologiyaları və tətbiqi istiqamətləri təhlil edilmişdir. Həmçinin, aidiyyəti üzrə baxılmış xarici elmi araşdırmaların, beynəlxalq analitik-statistik mənbələrdə mövcud məlumatların və göstəricilərin təhlili əsasında rəqəmsal səhiyyənin tətbiqinin effektivləşdirilməsi amilləri tədqiq edilmişdir. Tezisin tətbiqi əhəmiyyəti ondan ibarətdir ki, aparılan araşdırmaların nəticələri səhiyyə sektorunda rəqəmsal həllərin tətbiqində istifadə edilə bilər. Tezisin elmi yeniliyi və orijinallığı - qlobal rəqəmsal transformasiya şəraitində səhiyyə xidmətlərinin səmərəli təşkilində rəqəmsal həllərin roluna dair nəzəri-metodoloji yanaşmaların müəyyənləşdirilməsidir.

Səhiyyənin rəqəmsallaşdırılması üzrə beynəlxalq təcrübənin öyrənilməsi, yeni tendensiyaların tədqiqi rəqəmsallaşma mərhələsində olan Azərbaycan səhiyyəsi üçün növbəti addımların planlaşdırılması imkanlarını artırır. Ölkədə səhiyyənin rəqəmsallaşdırılması istiqamətlərinə dair ayrıca konseptual və strateji sənədlərin mövcud olmamasını nəzərə alaraq milli rəqəmsal səhiyyə strategiyasının formalaşdırılması, hüquqi, kadr, innovativ, texnoloji və s. tədbirlər kompleksinin həyata keçirilməsini ehtiva edən dövlət proqramlarının hazırlanması və tətbiqi prioritet məsələlərdəndir.

**Səhiyyənin rəqəmsallaşdırılması.** Səhiyyənin rəqəmsallaşdırılması səhiyyə sferasında tərəflər arasında qarşılıqlı əlaqəni asanlaşdıra, tələbat olan xidmətləri təmin edə, əsaslandırılmış qərar qəbul edilməsini və resursların rasional bölüşdürülməsini təşviq edə bilər (Tian et al., 2019). Rəqəmsallaşma prosesinin hələ də yekunlaşmamasına baxmayaraq bütövlükdə səhiyyə sisteminə və tibbi xidmətlərin göstərilməsinə, o cümlədən, ixtisaslaşdırılmış, profilaktika, dispanser müşahidə, reabilitasiya və ilkin səhiyyə üzrə tibbi xidmətlərə təsiri dərinləşir (Taylor, 2015). Rəqəmsal səhiyyə tibbi xidmətlərin keyfiyyətinin artırılması məqsədilə tibbi biliklərin İT tətbiqləri və ya texnologiyaları ilə inteqrasiyasıdır.

Uğurlu transformasiya rəqəmsal səhiyyə strategiyasında nəzərdə tutulan məlumat mübadiləsinin təhlükəsizliyinin təmin edilməsi, pasiyentyönümlü xidmətlərin göstərilməsi, müasir texnologiyaların tətbiq edilməsi, rəqəmsal səhiyyə üzrə işçi qüvvəsinin yaradılması, rəqəmsal bərabərliyin təmin edilməsi kimi məqsədlərə nail olunmasını tələb edir (Cassel et al., 2022). Milli rəqəmsal səhiyyə strategiyası tənzimləmə, idarəetmə, maliyyələşmə və hüquqi cəhətdən əsas elementləri özündə birləşdirərək müxtəlif səylərin

planlaşdırılmasını və əlaqələndirilməsini təmin edir. Strategiya nəyin əldə olunacağı, kimə faydalı olacağı, prosesdə kimlərin iştirak edəcəyi və resursların necə bölüşdürüləcəyi ilə bağlı məsələləri əhatə etməlidir. Uğurlu rəqəmsal səhiyyə strategiyası sadə və təfərrüatlı, bütün maraqlı tərəflər üçün istinad edilən funksional və rəhbər sənəd olmalıdır (ADB, 2021). Milli rəqəmsal səhiyyə strategiyasının formalaşdırılması zamanı müddətin, maraqlı tərəflərin, faydaların və tələb olunan resursların müəyyən edilməsi, sosial-iqtisadi faydaların və xərclərin qiymətləndirilməsi, risklərin və maliyyə xərclərinin tənzimlənməsi, sosial-iqtisadi əlverişliliyin dəqiqləşdirilməsi kimi müddəaların nəzərə alınması tövsiyə olunur (ADB, 2018).

**Rəqəmsal səhiyyə texnologiyaları.** Yeni müalicə metodları və ya yeni proseslərlə müşahidə olunan yüksək texnologiyalar həkimlərə və səhiyyə müəssisələrinə pasiyentlərin tələbatlarına, əhalinin sağlamlığının qorunması üzrə vasitələrə daha çox diqqət yetirməyə təsir göstərir. Səhiyyə sistemində texnologiyalardan istifadənin təkamülü üç mərhələ ilə ifadə olunur: rəqəmsallaşdırma, rəqəmsal transformasiya və rəqəmsal reinnovasiya (IBM, 2019).

Səhiyyə xidmətlərinin daha çox insan tərəfindən mənimsənilməsini və tələbatların ödənilməsini artıran, səhiyyə sektorunun gələcəyini həqiqətən dəyişdirmək imkanına malik olan texnoloji yeniliklər bütövlükdə səhiyyə ekosistemini optimallaşdırır (Dsilva, 2020). Hazırda rəqəmsal səhiyyənin, o cümlədən e-səhiyyənin inkişafında aşağıdakı tendensiyalar diqqəti cəlb edir:

- *Big Data:* pasiyentlər üçün portallar, elektron tibbi qeydlər (EHR), daşınılabilən qurğular (wearable devices), axtarış sistemləri, ümumi verilənlər bazası, ödəyici məlumatları və s. "Big Data"nın tərkib hissələridir (Mammadova, 2016). Səhiyyə üzrə qlobal "Big Data" bazarının 2030-cu ildə 13.85% illik artım sürəti ilə 105.73 milyard dollar olacağı gözlənilir (Straits Research, 2022).
- *Blokçeyn (Blockchain):* həkimlərə, pasiyentlərə və əczaçılara müəyyən vaxtda bütün mövcud məlumatlara rahat çıxış imkanı yaradır, ödəniş seçimlərini təkmilləşdirir və xəstə qeydlərini mərkəzsizləşdirir (Haleem et al., 2021). 2025-ci ildə səhiyyə proqramlarının 55%-də kommersiya məqsədli istifadə olunmaqla Blokçeynin səhiyyə bazarındakı payı 170 milyon dollardan 5.61 milyard dollara yüksələcək (Shah, 2022).
- *Telesəhiyyə (Telehealth):* pasiyentlərə videokonfrans və müxtəlif portallar vasitəsilə məsləhətlərin verilməsi, həyati vacib funksiyaların məsafədən diaqnostikası, fasiləsiz tibbi təhsil də daxil olmaqla, tibbi təsvirlərin, laborator analizlərin, elektron fərdi məlumatların, hesabat-uçot və idarəetmə verilənlərinin ötürülməsi və mübadiləsi və s. telesəhiyyənin hissələri hesab olunur (Əliquliyev və Məmmədova, 2017). Araşdırmalara əsasən dünya səhiyyə sistemində müəssisələrin 90%-i telesəhiyyə texnologiyalarını tətbiq etməyə başlamışdır. Xüsusilə, COVID-19 pandemiyası dövründə tibbi proqram və tətbiqetmələrin yüklənməsi də 65% artmışdır. 5000 respondent arasında aparılmış sorğuya əsasən pandemiya ərzində iştirakçıların 46%-i telesəhiyyə xidmətlərindən istifadə etdiyini, 56%-i bu xidmətlərdən istifadənin asan olduğunu, 77%-i isə telesəhiyyə xidmətlərinin istifadəsindən razı qaldığını bildirmişdir (Applause, 2021).
- *Süni intellekt (Artificial Intelligence):* səhiyyədə süni intellekt bazarının 2025-ci ilə qədər 36,1 milyard dollara qədər artacağı proqnozlaşdırılır. Effektivliyi maksimuma çatdırmaqla və insan amilini minimuma endirməklə səhiyyə ekosistemini tamamilə dəyişən bu texnologiyadan bir çox istiqamətdə istifadə imkanları mövcuddur. Bunlara erkən diaqnoz, xəstələrə qulluq, dərmanların paylanması, tibbi araşdırma, cərrahiyyə, virtual dəstək və reseptlər daxildir (Shah. 2022).
- *Əşyaların interneti (IoT - Internet of things):* müalicə-profilaktika, idarəetmə, təchizat, maliyyə və s. ilə bağlı məlumatları toplamağa, emal etməyə və effektiv istifadə etməyə geniş imkanlar yaradır. IoT texnologiyaları işin effektivliyini artırmağa, stasionarda qalma vaxtını azaltmağa, yeni xidmətlər təqdim etməyə, müalicənin gedişatı ilə bağlı əlavə informasiya almağa və analiz etməyə, həkim konsultasiyalarını almağa imkan verir, sağlamlıq vəziyyətinə məsafədən operativ nəzarətin təmin edilməsinə, tibbi xidmətə

çəkilən xərcin azaldılmasına kömək edir və həkim-pasiyent münasibətini optimallaşdırır (Məmmədova və Cəbrayılova, 2019).

• *Artırılmış reallıq, Virtual reallıq və Qarışıq reallıq (AR-Augmented Reality, VR-Virtual Reality and MR-Mixed Reality):* AR-VR texnologiyaları onlayn səhiyyə bazarında dominant tendensiyaya çevrilmişdir. Bu sahə üzrə layihələr investisiyaları özünə cəlb etdiyindən AR-VR texnologiyalarına qlobal investisiyanın 2025-ci ilə qədər 5.1 milyard dollara çatacağı proqnozlaşdırılır. MR texnologiyalarının isə tibbi praktikaya tətbiq edilməsi xüsusilə cərrahlara yeni imkanlar yaradır. Məsələn, "HoloLens" qulaqlıqları (Microsoft) fiziki mühiti qüsursuz şəkildə çatdıran smart eynəklər olub, daha dəqiq cərrahi prosedurlar, daha yaxşı təhsil və müalicə nəticələrinin əldə olunmasında bir çox imkanlar açır (Tsymbal, 2022).

• *Omnichannel:* onlayn texnologiyalar vasitəsilə istehlakçılarla qüsursuz əlaqəni təmin edən çoxşaxəli yanaşmadır. Çoxkanallı səhiyyə strategiyası pasiyentlərə qüsursuz və fərdiləşmiş xidmət göstərilməsini hədəfləyir. Bu, pasiyentlərin cəlb edilməsini, məmnunluğunu və xidmətə çıxış imkanlarını artırır, tibb işçiləri arasında isə kommunikasiya və koordinasiyanı yaxşılaşdırır (Moreira et al., 2023). Bu texnologiyanın tibbi e-ticarətdə aparıcı tendensiyaya çevriləcəyi proqnozlaşdırılır (Shah, 2022).

Beləliklə, səhiyyə sektorunun məqsədi və əsas problemi yüksək keyfiyyət standartlarına uyğun olaraq pasiyentlərə xidmətin ən innovativ və sərfəli üsulunu tapmaqdır. Rəqəmsal səhiyyə vasitələri isə bu məqsədə çatmaqda ən ideal alət hesab olunur. Çünki rəqəmsal həllərin səhiyyə sisteminə tətbiqinin ən mühüm məqsədi insanlara kömək etməkdir. Rəqəmsallaşmış səhiyyənin təqdim etdiyi ən son texnologiyalar və yeni proseslər pasiyentlərin tələblərinə daha çox diqqət yetirərək insanların həyatını daha da yaxşılaşdırmağa kömək edən lazımi vasitələri və imkanları təqdim edir.

Sənaye 4.0 konsepsiyasının Sənaye 5.0 konsepsiyasına təkamülü proseslərinin müşahidə olunduğu nəzərə alınsa, yaxın gələcəkdə tibb işçilərinin avtomatlaşdırılmış sistemlər və süni intellektlə açıq əməkdaşlığını ehtiva edən Səhiyyə 5.0 konsepsiyasının inkişafını gözləmək olar. Bu isə müvafiq olaraq göstərilən xidmətlərin keyfiyyətinin və insanların həyat keyfiyyətinin yüksəldilməsi üçün əlavə imkanlar deməkdir. Səhiyyə 5.0 konsepsiyasının inkişafı onu sübut edir ki, gələcəkdə rəqabətədavamlı qalmaq istəyən səhiyyə bazarı iştirakçısı getdikcə rəqabətin gücləndiyi dünyada sağ qalmaq üçün müasir rəqəmsal texnologiyalara əsaslanan proseslərin həyata keçirilməsindən yayına bilməyəcək.

**Ədəbiyyat:**

1. Applause App Quality, Inc. (2021). New Survey Appeal of Telehealth Services. *Applause.* https://www.applause.com/survey-reveals-appeal-of-telehealth

2. Asian Development Bank (ADB) (2018). Guidance for investing in digital health. www.adb.org

3. Asian Development Bank (ADB) (2021). Digital health implementation guide for the Pacific.

4. Cassel C.K., Decker W.W., Woodson J., Schnitzer J. (2022). A call to action: A national strategy for digital health. *MITRE.*

5. Dsilva E. (2020). The 5 most exciting innovations in digital health right now. *Smart Health Amsterdam.*

6. European Union Expert Panel on Effective Ways of Investing in Health (EXPH) (2019). Opinion on assessing the impact of digital transformation of health services. *Publications Office of the European Union, Luxembourg.*

7. Əliquliyev R.M., Məmmədova M.H. (2017). Elektron tibbin mahiyyəti, imkanları və elmi problemləri. *İnformasiya cəmiyyəti problemləri*, № 2, 3-19.

8. Haleem A., Javaid M., Singh R.P., Suman R., and Rab S. (2021). Blockchain technology applications in healthcare: an overview. *International Journal of Intelligent Networks.*

9. IBM Institute for Business Value (2019). A healthy outlook: Digital reinvention in healthcare. *IBM Corporation*, New York, U.S.A.

10. Mammadova M. (2016). Big Data in electronic medicine: opportunities, challenges, and perspectives. *Problems of information technology*, № 2, 8-24.

11. Məmmədova M., Cəbrayılova Z. (2019). Elektron tibb: formalaşması və elmi-nəzəri problemləri. *Bakı: "İnformasiya Texnologiyaları" nəşriyyatı.*

12. Moreira A., Alves C., Machado J. and Santos M.P. (2023). An overview of Omnichannel interaction in healthcare services. Mayo Clinic Proceedings: Digital Health, vol. 1, No 2, pp. 77-93.

13. Organization for Economic Co-operation and Development (OECD) (2021). Empowering the health workforce: Strategies to make the most of the digital revolution. https://www.oecd.org/els/health-systems/health-working-papers.htm

14. Shah K. (2022). Everything you need to know about healthcare e-Commerce. *Magento Association*. www.magentoassociation.org/commerce-co-op/full-article/everything-you-need-to-know-about-health-care-e-commerce

15. Straits Research (2022). Big Data in healthcare market size. *GlobeNewswire.*

16. Taylor K. (2015). How digital technology is transforming health and social care. *Deloitte Center for Health Solutions.*

17. Tian S., Yang W., Le Grange J.M., Wang P., Huang W. and Ye Z. (2019). Smart healthcare: making medical care intelligent. *Global Health Journal*, Vol. 3.

18. Tsymbal O. (2022). Healthcare technology trends and digital innovations in 2022. *Mobidev.*

# NƏQLİYYATIN TURİZMİN İNKİŞAFINA BİRBAŞA VƏ DOLAYI TƏSİRİ

**Nəsibov Elvin Elşən**
**Azərbaycan Dövlət İqtisad Universiteti**
**https://orcid.org/0000-0001-6789-6065**
**nasibovelvinn@gmail.com**

# DIRECT AND INDIRECT EFFECT OF TRANSPORTATION ON THE DEVELOPMENT OF TOURISM

**Nasibov Elvin Elshan**
**Azerbaijan State University of Economics**
**https://orcid.org/0000-0001-6789-6065**
**nasibovelvinn@gmail.com**

**Summary**

Transportation is the backbone of the tourism industry, influencing its accessibility, convenience, and economic viability. Efficient transportation networks make destinations more reachable, stimulate local economies, and shape the overall travel experience. The mode and quality of transportation can also impact a tourist's decision to visit a particular destination, making it a fundamental driver of tourism growth and sustainability.

Since the 1970s, the number of international tourists has more than tripled with the further spread and expansion of tourism. The expansion of international tourism ensures the expansion of the transport geography. Transportation

is the cause and effect of tourism development. First, improved facilities have stimulated tourism, and the expansion of tourism has stimulated the development of transport infrastructure. Accessibility is a key function behind the foundations of tourism transport. To visit the desired destinations, tourists can take advantage of a number of modes of transport, which are often used in sequence. Air transport is the main form of international tourism and usually involves long-distance travel. Growth rates of international air transport are associated with growth rates of international tourism.

**Keywords:** transport, economy, tourism, economic effect, development

## ПРЯМОЕ И КОСВЕННОЕ ВЛИЯНИЕ ТРАНСПОРТА КАК ЧАСТИ НАЦИОНАЛЬНОЙ ЭКОНОМИКИ НА РАЗВИТИЕ ТУРИЗМА

**Насибов Эльвин Эльшан**

**Азербайджанский Государственный Экономический Университет**

**https://orcid.org/0000-0001-6789-6065**

**nasibovelvinn@gmail.com**

**Резюме**

- Açıq bankçılıqda maliyyə institutlarının kibertəhlükəsizlik və güvən baxımından yüksək inama sahib olması
- Maliyyə institutlarının ənənəvi sistemdən fərqli olaraq daha çox müştəriyə xidmət etmək potensialı və cəlb etməsi
- Ənənəvi bankların bir çərçivə altında daha çox maliyyə məhsulu və xidməti təklif etmək imkanı ilə daha çox müştəri əldə etməsi
- Büdcə idarəetməsi, investisiya, kreditləşmə kimi digər xidmətlərlə birlikdə daha yüksək təkmilləşdirilmiş müştəri təcrübəsi təqdim etməsi
- Müştərilərin daha şəffaf və məlumatlı maliyyə qərarları qəbul etməsi
- Gənc nəslin fintexlərə və yenilikçi üçüncü tərəf iştirakçılarına daha sürətli olaraq etibar etməsi
- Üçüncü tərəf iştirakçılar tərəfindən daha özəl və xüsusi məhsulların təklifi
- Sektorda üçüncü tərəf iştirakçıların qiymət baxımından daha rəqabətcil olması
- Üçüncü tərəf iştirakçıların istifadə etdiyi texnologiyaların daha asan inteqrasiyası və təkmil olması, əlavə olaraq çox az sayda maliyyə xidmətinə və məhsuluna fokuslanaraq yüksək xidmət təklifi

Açıq bankçılığın tətbiq edilməsi bütövlükdə maliyyə məhsulları və xidmətləri istehlakçılarına, biznes subyektlərinə və nəticə etibarı ilə maliyyə institutlarına müsbət formada təsir edəcəkdir. Tətbiq əsasında qeyd etdiyimiz üstünlüklər vasitəsi ilə maliyyə sənayesinin və iqtisadi inkişafın sürətlənməsinə səbəb olmaqla yanaşı, daha yaxşı maliyyə mühiti və sosial rifahın əldə edilməsinə şərait yaradacaqdır. Açıq bankçılıq modelinin ölkəmizdə tezliklə həyata keçirilməsi üzrə hazırlanan qanunvericilik[1], tənzimləmə və strateji yol xəritəsi[2] , ölkə iqtisadiyyatının inkişafına ciddi formada təsir etməkdən əlavə, maliyyə xidmətləri və məhsulları üzrə seçim əlçatanlığı, maliyyə inklüzivliyinin yüksəlməsinə, fintexlərin və üçüncü tərəf

ödəniş təminatçılarının yaranmasına və mövcud bazar rəqabətinin genişlənməsinə təkan verəcəkdir. Qısa olaraq təklif əsaslı yanaşma olaraq qeyd edə bilərik ki, Azərbaycanda açıq bankçılıq modelinə keçid ərəfəsində bu sahə üzrə Birləşmiş Krallıq (OBIE), Avropa (PSD2/PSD3) və Avstraliyanın (CDR) qanunvericiliklərinə əsaslanaraq ən son yeniliklərin tətbiqi, təhlükəsizlik tələblərinin əhatəliliyi və ən son xidməti yeniliklərin ehtiva edilməsi önəmlidir. Qeyd edilən üstünlüklərin nəzərə alınması ilə açıq bankçılığın tətbiqi inkişafı sürətli olmaqla yanaşı, növbəti mərhələ olan açıq maliyyəyə keçid daha sürətli formada həyata keçəcək və maraqlı tərəflərin adaptasiyası daha tez baş verəcəkdir.

**Ədəbiyyat:**


1. Chan, R. S. O. (2020). Open Banking: Does it open up a new way of banking? A case of financial technology adoption from a consumer's perspective.
2. Deloitte (2017). How To Flourish In An Uncertain Future: Open Banking, 1-28
3. Fintech İstanbul (2019), Dünyada ve Türkiye’de Açık Bankacılık: Bankacılığın Geleceği. Rumi Matbaacılık, İstanbul.
4. Gozman, D., Hedman, J., and Olsen, K. S. (2018). Open Banking: Emergent Roles, Risks & Opportunities. Twenty-Sixth European Conference on Information Systems (ECIS2018), 1-15.
5. Leong, E. (2020). Open Banking: The Changing Nature of Regulating Banking Data A Case Study of Australia and Singapore. Banking & Finance Law Review, (35.3), 443-469.
6. Məmmədov S. (2022). Rəqəmsal maliyyə. Rəqəmsal maliyyə üstünlükləri, 10, 77-80.
7. Mullan, J., Bradley, L., and Loane, S. (2017). Bank adoption of mobile banking: stakeholder perspective. International Journal of Bank Marketing.
8. Orenstein, D. (2000). "Application Programming Interface (API)." Quick Study: Application Programming Interface (API).
9. Passi, L. F. (2018). An Open Banking Ecosystem to Survive The Revised Payment Services Directive: Connecting İnternational Banks and FinTech’s with the CBI Globe Platform. Journal of Payments Strategy & Systems, 12(4), 335-345.
10. Politou, E., Alepis, E. and Patsakis, C. (2019). Profiling Tax and Financial Behavior with Big Data Under the GDPR. Computer Law & Security Review, 35, 306–329.
11. Zachariadis, M. & Ozcan, P. (2017). The API Economy And Digital Transformation in Financial Services: The Case of Open Banking. Working Paper, 1-29.

# AZƏRBAYCANIN İQTİSADİ İNKİŞAFINDA NƏQLİYYAT SEKTORUNUN YERİ

**Mahmudov Nicat Ramiz**
**Azərbaycan Dövlət İqtisad Universiteti**
**https://orcid.org/0009-0004-0978-8014**
**mahmudov.nicat@gmail.com**

# THE PLACE OF THE TRANSPORT SECTOR IN THE ECONOMIC DEVELOPMENT OF AZERBAIJAN

**Mahmudov Nicat Ramiz**
**Azerbaijan State University of Economics**
**https://orcid.org/0009-0004-0978-8014**
**mahmudov.nicat@gmail.com**

**Summary**

Transport, as one of the main components of the economy, plays an important role in the economic development of the country. It supports manufacturing, trading and consumption activities by ensuring the efficient movement and timely delivery of raw materials and final products. Transportation constitutes a significant part of the cost of products and is an important component of the country's national expenses. The higher the level of economic activity, the greater the need for efficient transportation to ensure goods are in the right place. At the aggregate level, efficient transportation reduces costs in many economic sectors, while inefficient transportation increases these costs. Transport is linked to production, employment and income levels within a national economy. In many developed economies, the value of transportation assets, including infrastructure and vehicles, constitutes a significant portion of Gross Domestic Product (GDP). Today, the transport sector has a special place in the rapid and comprehensive development of the country's economy.

**Keywords:** transport, economic activity, national economy, GDP

# МЕСТО ТРАНСПОРТНОГО СЕКТОРА В ЭКОНОМИЧЕСКОМ РАЗВИТИИ АЗЕРБАЙДЖАНА

**Махмудов Ниджат Рамиз**
**Азербайджанский Государственный Экономический Университет**
**https://orcid.org/0009-0004-0978-8014**
**mahmudov.nicat@gmail.com**

**Резюме**

Транспорт, как одна из основных составляющих экономики, играет важную роль в экономическом развитии страны. Он поддерживает производственную, торговую и потребительскую деятельность, обеспечивая эффективное движение и своевременную доставку сырья и готовой продукции. Транспорт составляет значительную часть себестоимости продукции и является важной составляющей национальных расходов страны. Чем выше уровень экономической активности, тем больше потребность в эффективной транспортировке, чтобы товары были в нужном месте. На агрегированном уровне эффективный транспорт снижает затраты во многих секторах экономики, а неэффективный транспорт увеличивает эти расходы. Транспорт связан с производством, занятостью и уровнями доходов в национальной экономике. Во многих развитых странах стоимость транспортных активов, включая инфраструктуру и транспортные средства,

составляет значительную часть валового внутреннего продукта (ВВП). Сегодня транспортная отрасль занимает особое место в стремительном и всестороннем развитии экономики страны.

**Ключевые слова:** транспорт, экономическая деятельность, национальная экономика, ВВП

Neft sektorunda 2014-cü ildən başlayan qeyri-sabit neft qiymətləri göstərdi ki, Azərbaycanda qeyri-neft sektorunun inkişafı zəruridir. Aparılan islahatlar nəticəsində qeyri-neft sektorunun inkişafının tərkib hissələrindən biri kimi nəqliyyat sektoru seçilib. Bunun təsdiqi olaraq nəqliyyat sektorunun inkişafı ilə bağlı Azərbaycan Respublikası Prezidentinin 6 dekabr 2016-cı il tarixli "Azərbaycan Respublikasında logistika və ticarətin inkişafına dair Strateji Yol Xəritəsi" Fərmanının qəbul edilməsini göstərmək olar. Hazırda dünyada baş verən geosiyasi dəyişikliklər nəqliyyat sektoruna da təsirsiz ötüşmür. Siyasi dəyişikliklər nəticəsində yeni bazarların açılması ilə birlikdə azad ticarət zonalarının yaranması və nəticədə iqtisadiyyatın qloballaşması nəqliyyat sistemlərinin təkamülünə çox böyük təsir etmişdir. Qeyd edilən dəyişikliklərin fonunda əlverişli coğrafi mövqedə yerləşən Azərbaycan Respublikasının nəqliyyat yükdaşımalarında, xüsusilə Şimal-Cənub və Şərq-Qərb dəhlizləri üzrə təbii bağlayıcı kimi rolu artmaqdadır. Nəqliyyat sektorunun inkişafı, dolayısı yolla milli iqtisadiyyatın inkişafı üçün hazırda münbit şərait yaranmışdır. Qeyd etməyə dəyər ki, Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutunun yaradılması, Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin tikilməsi, Astara terminalının tikilməsi, Bakı Beynəlxalq Dəniz Ticarət Limanının potensialının artırılması, müasir standartlara cavab verən avtomobil yollarının tikintisi və s. layihələr ölkənin nəqliyyat-logistika imkanlarını genişləndirərək iqtisadiyyata müsbət təsir göstərir.

İqtisadi inkişafda nəqliyyatın rolu bir çox müəlliflər tərəfindən tədqiq olunmuşdur. David Banister, Yossi Berechman inkişaf etmiş iqtisadiyyatlarda nəqliyyat infrastrukturuna investisiyaların iqtisadi inkişafa təsirlərini araşdırmışdılar. Müəlliflər belə bir nəticəyə gəlmişdilər ki, nəqliyyat infrastrukturuna investisiyalar iqtisadi inkişafın səbəbi kimi yox, iqtisadi inkişafa dəstəkləyici kimi çıxış edir. (Taylar&Francis, 2017)

Nurkhodzha Akbulaev, Qadir Bayramlı Xəzər dənizi hövzəsi ölkələrində dəniz nəqliyyatının inkişafı ilə iqtisadi inkişaf dinamikası arasında əlaqəni araşdırmışdılar. Müəlliflər qeyd etmişdirlər ki, bu gün Xəzər regionu enerji və iqtisadi resursların ixracatçısı, eləcə də mühüm nəqliyyat kommunikasiyalarının kəsişməsi kimi mühüm rol oynayır. Tədqiqatın nəticəsində müəyyən edilmişdir ki, dövlətlər tərəfindən dəniz nəqliyyatının inkişafının təkmilləşdirilməsi üzrə layihələrin həyata keçirilməsi Xəzər hövzəsi ölkələrinin davamlı iqtisadi artımına şərait yaradır. (Elsevier, avqust 2020)

Askar Boranbayev, Seilkhan Boranbayev, Tolendi Muratov və Askar Nurbekov keçmiş Sovet ölkələri daxil olmaqla, bir sıra ölkələrdə ümumi daxili məhsul (ÜDM) və aviasiya sərnişin axınının qarşılıqlı təhlilini aparıblar. Müəyyən edilmişdir ki, hava nəqliyyatına tələbat bir çox iqtisadi amillərdən asılıdır, bunlardan ən əsaslarından biri ÜDM-də dəyişiklik dinamikası hesab olunur. Lakin elə ölkələr, xüsusən də MDB ölkələri var ki, təhlillər göstərdi ki, bu heç də həmişə belə olmur. MDB ölkələrində ÜDM artımının təsirinin öyrənilməsində müəyyən olunmuşdur ki, sərnişin-km göstəricisi ilə ÜDM arasında birbaşa əlaqə yoxdur. ÜDM və sər.-km göstəricisi arasında əlaqənin olmaması müəyyən amillərdən təsirlənir, məsələn, makroiqtisadi, siyasi, ekoloji, xəstəlik epidemiyaları (pandemiyalar) və s. (Proceedings of the Future Technologies Conference (FTC), 2020, Volume 2, səh. 601-613)

Rahib İmamquliyev və Abil Süleymanov öz məqalələrində Azərbaycanın nəqliyyat logistikasının inkişaf perspektivlərini tədqiq ediblər. Onlar qeyri-səlis məntiq modelinə əsaslanaraq müəyyən etmişdirlər ki, nəqliyyat infrastrukturunun inkişafı məhsuldar qüvvələrin, istehsal sahələrinin optimal şəkildə bölüşdürülməsinə gətirib çıxarır. (Digital Acceleration and The New Normal - Proceedings of the INFUS 2022 Conference, Volume 2, səh. 93-100)

**Azərbaycanın nəqliyyat infrastrukturu və onun iqtisadi inkişafa təsir yolları.**

Azərbaycanın nəqliyyat sektoru dərin tarixə malikdir, hansı ki onun ərazisindən qədim İpək Yolu keçir. Bu tarixi ticarət yolu Şərqlə Qərb arasında malların, mədəniyyətlərin və fikirlərin mübadiləsini asanlaşdırdı. Əsrlər boyu Azərbaycanın coğrafi mövqeyi böyük ticarət mərkəzi kimi öz aktuallığını qoruyub saxlamışdır. Azərbaycanın nəqliyyat infrastrukturu dəmir yolu nəqliyyatı, yol nəqliyyatı, dəniz nəqliyyatı, hava nəqliyyatından ibarətdir.

**Yol nəqliyyatı.** Azərbaycan ölkə daxilində və onun hüdudlarından kənarda əlaqəni və nəqliyyatın səmərəliliyini artırmaq üçün yol infrastrukturuna əhəmiyyətli investisiyalar yatırıb. Hökumət yol şəbəkəsini genişləndirmək, səyahət vaxtlarını azaltmaq və yol təhlükəsizliyini artırmaq üçün çoxsaylı yol tikintisi və bərpası layihələrini həyata keçirmişdir. Şimal-Cənub və Şərq-Qərb magistralları Azərbaycanın müxtəlif bölgələrini birləşdirən, ölkə daxilində ticarəti təşviq edən həyati əhəmiyyətli damarlardır. Magistral və sürətli yolların inkişafı təkcə malların və insanların daşınmasını asanlaşdırmayıb, həm də regional inteqrasiyanı və iqtisadi fəaliyyətləri gücləndirib. Effektiv yol əlaqəsi bizneslərə bazarlara daha asan daxil olmaq imkanı verib, beləliklə, həm şəhər, həm də kənd yerlərində iqtisadi inkişafa təkan verib.

**Dəmir yolu nəqliyyatı.** Dəmir yolu nəqliyyatı Azərbaycanın nəqliyyat sektorunda, xüsusilə də Avropa və Asiya arasında ticarətin asanlaşdırılmasında mühüm rol oynayır. 2017-ci ildə başa çatdırılan Bakı-Tbilisi-Qars (BTQ) dəmir yolu layihəsi bu baxımdan böyük önəm kəsb edir. BTQ dəmir yolu Azərbaycanın paytaxtı Bakını Gürcüstanın paytaxtı Tbilisi ilə, daha sonra isə Türkiyənin Qars liman şəhəri ilə birləşdirir. Bu strateji dəmir yolu dəhlizi tıxaclı Qara dəniz limanlarından yan keçməklə Avropa və Asiya arasında yüklərin daşınması üçün daha qısa və səmərəli marşrut təmin edir. Daşıma xərclərini və tranzit vaxtlarını azaltmaqla BTQ dəmir yolu Azərbaycanı mühüm tranzit ölkəyə çevirmiş, əhəmiyyətli ticarət həcmləri və xarici investisiyalar cəlb etmişdir. Bundan əlavə, Azərbaycanın dəmir yolu şəbəkəsi ölkənin müxtəlif regionlarını birləşdirir, regional iqtisadi inkişafa töhfə verir və sosial birliyi gücləndirir.

**Dəniz nəqliyyatı.** Azərbaycanın Xəzər dənizinə çıxışı onun dəniz nəqliyyatı sektorunun inkişafında mühüm amil olmuşdur. Ölkə yüklərin idarə edilməsi və dəniz ticarətinin təşviqi imkanlarını artırmaq üçün liman qurğularına, infrastruktura və logistikaya sərmayə qoyub. Xəzər dənizi sahilində strateji mövqedə yerləşən Bakı Limanı beynəlxalq ticarət, xüsusilə də dənizə çıxışı olmayan Mərkəzi Asiya ölkələri üçün həlledici mərkəzə çevrilmişdir. Beynəlxalq Şimal-Cənub Nəqliyyat Dəhlizinin yaradılması Azərbaycanın tranzit ölkə kimi əhəmiyyətini daha da artırmışdır. Dəhliz Cənubi Asiya və Avropa arasında alternativ ticarət marşrutu təmin edən Hindistan, İran, Azərbaycan və Rusiyanı birləşdirən multimodal nəqliyyat dəhlizidir. Bu təşəbbüs Azərbaycanın tranzit ölkə kimi rolunu genişləndirib, iqtisadi artım və xarici investisiyaların cəlb edilməsi üçün sərfəli imkanlar təklif edib.

**Hava nəqliyyatı.** Azərbaycanın hava nəqliyyatı infrastrukturunun inkişafı iqtisadi inkişafa, xüsusən də turizm sektoruna öz töhfəsini verib. Bakıdakı Heydər Əliyev Beynəlxalq Aeroportu digər regional hava limanları ilə birlikdə beynəlxalq səyahətçilər üçün əlçatanlığı asanlaşdırmaqla turizmin təşviqində mühüm rol oynamışdır. Azərbaycanın zəngin mədəni irsi, müxtəlif landşaftları və müasir görməli yerləri son illər turistlərin sayını artırıb. Yaxşı əlaqələndirilmiş hava yollarının və beynəlxalq uçuşların mövcudluğu ölkənin turizm sənayesinin yüksəldilməsində mühüm amil olub və bununla da otelçilik, pərakəndə satış və xidmətlər kimi əlaqəli sektorlarda iqtisadi artımı stimullaşdırıb.

**Qrafik 1: 2012-2022-ci nəqliyyat gəlirlərinin ÜDM-dəki payı, %-lə**




**Mənbə:** Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, www.stat.gov.az

Azərbaycanın nəqliyyat sektorunun inkişafı onun iqtisadiyyatına geniş təsir göstərmişdir. Təkmilləşdirilmiş nəqliyyat infrastrukturu malların və xidmətlərin hərəkətini asanlaşdırıb, ticarət maneələrini azaldıb, eyni zamanda qonşu ölkələrlə və onun hüdudlarından kənarda iqtisadi inteqrasiyanı təşviq edib. Azərbaycanın strateji mövqeyi regional və qlobal bazarlara çıxış üçün onun əlaqə imkanlarından istifadə etmək istəyən biznesləri və investorları cəlb edib.

Yaxşı inkişaf etmiş nəqliyyat sektoru xarici investorlar üçün cəlbedicidir, çünki o, səmərəli logistika və əlaqə təklif edir, əməliyyat xərclərini azaldır və bazara çıxışı yaxşılaşdırır. Xarici investisiyaların axını sənaye və kommersiya fəaliyyətinə təkan verib, iş yerlərinin yaradılmasına və iqtisadiyyatın şaxələndirilməsinə gətirib çıxarıb.

Nəqliyyat infrastrukturunun inkişafı həm də regionların inkişafına kömək etmişdir. Təkmilləşdirilmiş əlaqə kənd yerlərində iqtisadi fəaliyyətləri stimullaşdıraraq, kənd təsərrüfatı, istehsal və iri şəhər mərkəzlərindən kənarda digər sektorlara sərmayə qoyuluşunu təşviq edib.

Güclü nəqliyyat sektoru Azərbaycana öz iqtisadiyyatını ənənəvi neft və qaz sənayesindən kənarda şaxələndirməyə imkan verib. Ticarət və logistikanı asanlaşdırmaqla nəqliyyat sektoru ölkənin karbohidrogenlərdən asılılığını azaltmaqla kənd təsərrüfatı, istehsal və xidmətlər kimi qeyri-neft sektorlarının artımını dəstəkləmişdir.

Nəqliyyat sektorunun genişlənməsi həm birbaşa nəqliyyat sənayesində, həm də dolayısı ilə inkişaf etmiş nəqliyyat və ticarətdən faydalanan əlaqəli sektorlarda xeyli sayda iş imkanları yaratmışdır.

**Qrafik 2: Azərbaycanda ÜDM-in artım tempi ilə nəqliyyat sektoruna yönəldilmiş investisiyalar arasında əlaqə**




**Mənbə:** Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, www.stat.gov.az

Azərbaycanın nəqliyyat sektoru iqtisadi inkişafın sürətləndirilməsində, ölkənin regional və qlobal əhəmiyyətinin formalaşmasında mühüm rol oynamışdır. Yol infrastrukturuna, dəmir yollarına, limanlara və hava limanlarına qoyulan sərmayə əlaqəni yaxşılaşdırdı, ticarəti asanlaşdırdı, xarici investisiyaları cəlb

etdi və iqtisadiyyatın şaxələndirilməsinə kömək etdi. Azərbaycan nəqliyyat sektorunu inkişaf etdirməyə davam etdikcə, çox güman ki, iqtisadi artımı daha da gücləndirəcək, regional inteqrasiyanı gücləndirəcək və ölkə üzrə biznes və əhali üçün yeni imkanlar yaradacaq.

**Ədəbiyyat**:

1. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, www.stat.gov.az
2. The Economic Development Effects of Transport Investments (Taylar&Francis, 2017) - David Banister, Yossi Berechman
3. Maritime transport and economic growth: Interconnection and influence (an example of the countries in the Caspian sea coast; Russia, Azerbaijan, Turkmenistan, Kazakhstan and Iran) (Elsevier, avqust 2020) - Nurkhodzha Akbulaev, Qadir Bayramli
4. Modeling Dependence Between Air Transportation and Economic Development of Countries (Proceedings of the Future Technologies Conference (FTC) 2020, Volume 2, səh. 601-613, Springer, 01 noyabr 2020) - Askar Boranbayev, Seilkhan Boranbayev, Tolendi Muratov, Askar Nurbekov
5. Prospects for the Development of Transport Logistics and a Fuzzy Logic Model of the Strategic Goals of the Logistics System of Azerbaijan (Digital Acceleration and The New Normal - Proceedings of the INFUS 2022 Conference, Volume 2, səh. 93-100, Springer, 2 iyul 2022) - Rahib İmamquliyev, Abil Süleymanov

# FACTORS AFFECTING CRYPTOCURRENCY RETURNS

**Gadirli Farid Farzali**
**University of Nottingham**
**https://orcid.org/0000-0001-7966-9660**
**qadirlif@gmail.com**

# KRİPTOVALYUTALARIN GƏLİRLİLİYİNƏ TƏSİR EDƏN FAKTORLAR

**Qədirli Fərid Fərzəli**
**Nottinqem Universiteti**
**https://orcid.org/0000-0001-7966-9660**
**qadirlif@gmail.com**

**Xülasə**

Kriptovalyutanın həyatımızda artan əhəmiyyətinə baxmayaraq, onun hansı növ aktiv olduğu, qiymətinə və gəlirliliyinə hansı amillərin təsir etdiyi və ənənəvi iqtisadi nəzəriyyələrin bu kontekstdə tətbiqinin nə dərəcədə düzgün olub-olmayacağı barədə hələ də dəqiq bir anlayış yoxdur. Bu tədqiqatın əsas məqsədi müxtəlif metodologiyalardan istifadə etməklə aparıcı 25 kriptovalyutanın hərtərəfli empirik təhlilini aparmaq, şəbəkə, istehsal, makroiqtisadi və maliyyə, kriptovalyuta üçün səciyyəvi xarakter daşıyan və qlobal faktorlar da daxil olmaqla potensial amillərin hərtərəfli qiymətləndirilməsi vasitəsilə kriptovalyuta gəlirlərinə təsir edən əsas faktorları müəyyən etməkdir. Tədqiqatın nəticələri göstərir ki, növündən və əhatə etdiyi dövrdən asılı olaraq ümumilikdə kriptovalyutaların gəlirliliyinə şəbəkə, makroiqtisadi, kriptovalyuta üçün səciyyəvi xarakter daşıyan və qlobal amillər təsir edir, ən həlledici təsir isə kriptovalyuta üçün səciyyəvi olan və şəbəkə amillərinə aiddir. Tədqiqat əsnasında məlum olmuşdur ki, adi qeyri-

müəyyənliklər potensial olaraq az sayda ölkə və ya regionu əhatə etdiyinə görə, kriptovalyutalara ciddi təsir göstərmir. Əksinə, Covid-19 pandemiyası kimi qlobal səviyyədə olan qeyri-müəyyənliklər kriptovalyuta gəlirlərinə əhəmiyyətli dərəcədə təsir edir. Əlavə olaraq qeyd etmək olar ki, "kütlə instinkti" kriptovalyuta investorlarının investisiya qərarlarına təsir göstərir, çünki mövcud məlumatlardan asılı olaraq, insanlar başqalarını izləməyə (daha təcrübəli oyunçuları) və kollektiv şəkildə hərəkət etməyə qərar verə bilərlər.

**Açar sözlər:** kriptovalyuta, gəlir determinantları, maliyyə investisiyaları

## ФАКТОРЫ, ВЛИЯЮЩИЕ НА ДОХОДНОСТЬ КРИПТОВАЛЮТЫ

**Гадирли Фарид Фарзали**

**Ноттингемский университет**

**https://orcid.org/0000-0001-7966-9660**

**qadirlif@gmail.com**

**Резюме**

Несмотря на растущую значимость криптовалюты в нашей жизни, до сих пор нет чёткого понимания того, что это за актив, какие факторы влияют на его цену и доходность и будет ли в этом контексте верна применение традиционных экономических теорий. Основная цель этого исследования — определить ключевые факторы доходности криптовалюты путем проведения обширного эмпирического анализа 25 ведущих криптовалют с использованием различных методологий и оценки широкого спектра потенциальных факторов, включая сетевые, производственные, макроэкономические и финансовые, специфичные для криптовалют факторы и глобальные факторы. В целом, сетевые, макроэкономические, специфичные для криптовалюты и глобальные факторы оказывают влияние на доходность криптовалют в зависимости от типа криптовалюты и периода, который она охватывает, в то время как наиболее решающее влияние принадлежит специфичным для криптовалюты и сетевым факторам. Выявлено, что обычные неопределенности не оказывают существенного влияния на криптовалюты, возможно, из-за охвата небольшого количества стран или регионов. Напротив, неопределенности глобального уровня, такие как пандемия Covid-19, значительно влияют на доходность криптовалюты. Кроме того, можно констатировать, что «стадный инстинкт» влияет на инвестиционное решение криптовалютных инвесторов, поскольку в зависимости от доступной информации люди могут принять решение следовать за другими и действовать коллективно.

**Ключевые слова: криптовалюта, детерминанты доходности, финансовые вложения**

Although the prominence of cryptocurrency continues to grow in our lives, there is still a lack of clear comprehension regarding its asset type, the dynamics that impact its prices and returns, and the applicability of traditional economic theories in this domain. There is limited literature that systematically and comprehensively discusses factors driving cryptocurrency prices and returns. The work of Hayes (2015, 2017), Athey et al. (2016), Pagnotta and Buraschi (2018), Borri (2019) and Liu and Tsyvinski (2021) represent a select number of papers that provide substantial insights into cryptocurrency valuation, factors driving cryptocurrency returns and prices, and the correlation of cryptocurrency returns. This study aims to conduct an extensive empirical analysis of the top 25 cryptocurrencies and identify key determinants of their returns employing a variety of methodologies and assessing a wide spectrum of potential determinants, thereby providing deeper insights into cryptocurrency price dynamics. Estimations were mainly made by applying the OLS method, regression with the Newey-West standard errors and corrected autocorrelation, fixed effects and FGLS models (panel data). This research stands out due to its focus on the top 25 cryptocurrencies based on market capitalisation, application of a broad range of variables and considering recent global events such as the Covid-19 pandemic while also utilising both time series and panel datasets

with the implementation of several estimation techniques. This research was also exposed to several limitations. First, depending on algorithms and network protocols, not all variables were available for certain cryptocurrencies. Second, including all existing cryptocurrencies in this research was not feasible due to the data limitations imposed by the independent variables used and the excessive costs required to obtain this type of data.

**Literature review and theoretical perspective**

Athey et al. (2016) illustrate that Bitcoin exchange rates are determined by two market fundamentals: transaction volume and perceptions about the technology's survival. On the other hand, Hayes (2015, 2017) argues that factors such as production cost, hashing power (mining network), and mining difficulty exert a significant impact on cryptocurrency prices. Moreover, Pagnotta and Buraschi (2018) theoretically examined the valuation of cryptocurrencies and underscored the critical role that network size could play among the factors influencing Bitcoin's price. Compared to the other studies, Liu and Tsyvinski (2021) conducted a more comprehensive analysis of cryptocurrencies, scrutinizing several potential influencing factors on cryptocurrency returns. Their findings suggest that (a) factors specific to cryptocurrency markets are crucial for forecasting and determining cryptocurrency returns, with (b) network-related factors playing a more significant role than those related to production. Additionally, they find that (c) cryptocurrency returns cannot be explained by macroeconomic, currency, stock, or commodity-related factors due to their limited exposure to the cryptocurrency market. Furthermore, (d) they discovered that momentum and investor attention are two market-specific factors capable of predicting cryptocurrency returns. In contrast, a recent study by Pagnotta (2022) indicates that the hashrate (computing power) has an impact on cryptocurrency returns, while the relationship between Bitcoin prices and it is positive.

From the theoretical perspective, the subjectivist theory of valuation appears to be the most fitting explanation for the pricing of cryptocurrencies in today's context, given that their prices are primarily influenced by media, public focus, and investor attention; consequently, the value of a cryptocurrency is determined by factors such as people's interest in it, the benefits it provides, and individuals' willingness to use cryptocurrencies (Liu and Tsyvinski, 2021; Sockin and Xiong, 2020).

**Empirical findings**

Panel-level analysis depicted that cryptocurrencies are mainly influenced by cryptocurrency-specific and network factors, which general effect can be considered positive. It is also supported by existing literature such as Kristoufek (2015), Polasik et al. (2015), Ciaian et al. (2016), Pagnotta and Burasch (2018), Bouri et al. (2019), Goczek and Skliarov (2019), Shen, Urquhart and Wang (2019), Biais et al. (2022), Bhambhwani et al. (2019, 2021), Cong et al. (2021), Naeem, Mbarki and Shahzad (2021) and Guégan and Renault (2021) and Liu and Tsyvinski (2021). Production factors, particularly mining difficulty and mining hash rate, are important only for certain cryptocurrencies, whereas computation costs did not have any impact on cryptocurrency returns, which is in contrast to Garcia et al. (2014), Hayes (2015, 2017) and Sockin and Xiong (2020). Among macroeconomic factors, the most influential variables were the volatility index, gold prices and S&P 500 index, which support literature (such as Athey et al., 2016; Li and Wang, 2017; Ciaian, Rajcaniova and Kancs, 2018; Schilling and Uhlig, 2019) advocating the importance of macroeconomic and financial indicators. Furthermore, it was identified that usual uncertainties do not have a substantial impact on cryptocurrencies due to covering a small number of countries or regions. In contrast, profound and global level uncertainties such as Covid-19 significantly affect cryptocurrency returns. Moreover, it denotes that during the global uncertainty elevated by the Covid-19 pandemic, people started to assess cryptocurrencies as a way of hedging risks and an alternative to traditional assets and currencies in light of government restrictions.

**References:**


1. Athey, S., Parashkevov, I., Sarukkai, V. and Xia, J., 2016. Bitcoin pricing, adoption, and usage: Theory and evidence. Working Paper, Stanford University.

2. Bhambhwani, S., Delikouras, S. and Korniotis, G., 2019. "Do Fundamentals Drive Cryptocurrency Prices?". CEPR Discussion Papers 13724, CEPR Discussion Papers.

3. Bhambhwani, S., Delikouras, S. and Korniotis, G., 2021. Blockchain Characteristics and the Cross-Section of Cryptocurrency Returns. SSRN Electronic Journal.

4. Biais, B., Bisiere, C., Bouvard, M., Casamatta, C. and Menkveld, A.J., 2022. Equilibrium bitcoin pricing. Journal of Finance, Forthcoming, Available at SSRN: https://ssrn.com/abstract=3261063 or http://dx.doi.org/10.2139/ssrn.3261063

5. Borri, N., 2019. Conditional tail-risk in cryptocurrency markets. Journal of Empirical Finance, 50, pp.1-19.

6. Bouri, E., Gupta, R. and Roubaud, D., 2019. Herding behaviour in cryptocurrencies. Finance Research Letters, 29, pp.216-221.

7. Ciaian, P., Rajcaniova, M. and Kancs, D., 2016. The economics of BitCoin price formation. Applied Economics, 48(19), pp.1799-1815.

8. Ciaian, P., Rajcaniova, M. and Kancs, D., 2018. Virtual relationships: Short and long-run evidence from BitCoin and altcoin markets. Journal of International Financial Markets, Institutions and Money, 52, pp.173-195.

9. Cong, L., Li, Y. and Wang, N., 2021. Tokenomics: Dynamic Adoption and Valuation. The Review of Financial Studies, 34(3), pp.1105-1155.

10. Garcia, D., Tessone, C., Mavrodiev, P. and Perony, N., 2014. The digital traces of bubbles: feedback cycles between socio-economic signals in the Bitcoin economy. Journal of The Royal Society Interface, 11(99), p. 20140623.

11. Goczek, Ł. and Skliarov, I., 2019. What drives the Bitcoin price? A factor augmented error correction mechanism investigation. Applied Economics, 51(59), pp.6393-6410.

12. Guégan, D. and Renault, T., 2021. Does investor sentiment on social media provide robust information for Bitcoin returns predictability?. Finance Research Letters, 38, p.101494.

13. Hayes, A., 2015. "Cryptocurrency Value Formation: An Empirical Analysis Leading to a Cost of Production Model for Valuing Bitcoin". MCIS 2015 Proceedings. 4.

14. Hayes, A., 2017. Cryptocurrency value formation: An empirical study leading to a cost of production model for valuing bitcoin. Telematics and Informatics, 34(7), pp.1308-1321.

15. Kristoufek, L., 2015. What Are the Main Drivers of the Bitcoin Price? Evidence from Wavelet Coherence Analysis. PLOS ONE, 10(4), p.e0123923.

16. Li, X. and Wang, C., 2017. The technology and economic determinants of cryptocurrency exchange rates: The case of Bitcoin. Decision Support Systems, 95, pp.49-60.

17. Liu, Y. and Tsyvinski, A., 2021. Risks and Returns of Cryptocurrency. The Review of Financial Studies, 34(6), pp.2689-2727.

18. Naeem, M., Mbarki, I. and Shahzad, S., 2021. Predictive role of online investor sentiment for cryptocurrency market: Evidence from happiness and fears. International Review of Economics & Finance, 73, pp.496-514.

19. Pagnotta, E. and Buraschi. A., 2018. An equilibrium valuation of bitcoin and decentralized network assets. Working Paper, Imperial College Business School.

20. Pagnotta, E., 2022. Decentralizing Money: Bitcoin Prices and Blockchain Security. The Review of Financial Studies, 35(2), pp.866-907.

21. Polasik, M., Piotrowska, A., Wisniewski, T., Kotkowski, R. and Lightfoot, G., 2015. Price Fluctuations and the Use of Bitcoin: An Empirical Inquiry. International Journal of Electronic Commerce, 20(1), pp.9-49.

22. Schilling, L. and Uhlig, H., 2019. Some simple bitcoin economics. Journal of Monetary Economics, 106, pp.16-26.

23. Shen, D., Urquhart, A. and Wang, P., 2019. Does twitter predict Bitcoin?. Economics Letters, 174, pp.118-122.

24. Sockin, M., and Xiong. W., 2020. A model of cryptocurrencies. National Bureau of Economic Research. Working Paper No. 26816.

# MODELLING OF ELECTRONIC CURRENCIES: COINTEGRATION AND ERROR CORRECTION MODEL

**Karimova Rahila Rafig**
**Institute of Control Systems**
**https://orcid.org/0000-0002-7514-8507**
**rahila.karimova@coleurope.eu**

# ELEKTRON VALYUTALARIN MODELLƏŞDİRİLMƏSİ: KOİNTEQRASİYA VƏ XƏTALARIN TƏSHİHİ MODELİ (XTM)

**Kərimova Rəhilə Rafiq**
**İdarəetmə Sistemləri İnstitutu**
**https://orcid.org/0000-0002-7514-8507**
**rahila.karimova@coleurope.eu**

**Xülasə**

Bu tədqiqat işi Kointeqrasiya - Engle və Granger 2 addım metodundan istifadə edərək Bitcoinin Ethereuma təsirini araşdırır. Kriptovalyutaların, xüsusən də Bitcoinin, artan populyarlığı və geniş yayılması, kriptovalyutalar arasındakı uzunmüddətli tarazlığın olub-olmamasının tədqiqinin əhəmiyyətliliyini artırdı. Bu tədqiqatın məqsədi Bitcoin və Ethereum arasında uzunmüddətli tarazlığın olub-olmadığını araşdırmaqdır ki, bu da Bitcoinin Ethereumun sabitliyinə hər hansı potensial təsirini öyrənir. Tədqiqat uzunmüddətli tarazlığı təhlil etmək üçün geniş istifadə olunan ekonometrik yanaşma olan Kointeqrasiya - Engle və Granger metodundan istifadə edir və bu iki dəyişən arasındakı kointeqrasiyanı araşdıraraq, kriptovalyutalar arasında inkişaf edən dinamika haqqında fikirlər təqdim etmək məqsədi daşıyır. Təhlil göstərdi ki, Bitcoin və Ethereum arasında uzunmüddətli tarazlıq və kointeqrasiya mövcud deyildir.

**Açar sözlər:** Kointeqrasiya, Xətaların təshihi modeli (XTM), kriptovalyutalar, Ethereum, Bitcoin.

# МОДЕЛИРОВАНИЕ ЭЛЕКТРОННЫХ ВАЛЮТ: КОИНТЕГРАЦИЯ И МОДЕЛЬ КОРРЕКЦИИ ОШИБОК

**Керимова Рахиля Рафик**

**Институт систем управления**

**https://orcid.org/0000-0002-7514-8507**

**rahila.karimova@coleurope.eu**

**Резюме**

В этом исследовании изучается влияние Биткойна на Эфириум с использованием двухэтапного метода коинтеграции - Энгла и Грейнджера. С ростом популярности и широкого распространения криптовалют, особенно биткойнов, понимание долгосрочных отношений между криптовалютами стало критически важным. Цель этого исследования - выяснить, существует ли долгосрочное равновесие между Биткойном и Эфириумом, указывающее на любое потенциальное влияние или воздействие Биткойна на стабильность Эфириума. В исследовании используется метод коинтеграции - Энгла и Грейнджера, широко используемый эконометрический подход для анализа долгосрочных отношений. Изучая коинтеграцию между этими двумя переменными, это исследование направлено на то, чтобы дать представление о развивающейся динамике криптовалют. Анализ показал, что между Биткойном и Эфириумом нет долгосрочных отношений, и две валюты не являются коинтегрированными.

**Ключевые слова:** Коинтеграция, Модель исправления (коррекции) ошибок, криптовалюты, Эфириум, Биткоин.

Cryptocurrencies, with Bitcoin at the forefront, have gained significant traction and attention in recent years, prompting a need to understand their impact on traditional financial systems. This study delves into the relationship between Bitcoin and the Ethereum and aims to explore the potential influence of Bitcoin on the stability of the Ethereum. Through the application of the Cointegration - Engle and Granger method, this research seeks to investigate whether a long-term equilibrium exists between these two cryptocurrencies.

The goal of this research is to provide a comprehensive analysis of the impact of Bitcoin on the Ethereum, specifically focusing on the long-term equilibrium relationship between these currencies. By employing the Cointegration - Engle and Granger method, we aim to identify whether there is a stable and consistent relationship that exists between Bitcoin and Ethereum over an extended period.

The following research questions will guide this study: "What is the impact of Bitcoin on the Ethereum in terms of their long-term equilibrium relationship?"

To address these questions, we employ the Cointegration - Engle and Granger method, a widely recognized econometric tool for analyzing the relationship between non-stationary time series data. The following Null Hypothesis and Alternative Hypothesis was formulated.

Null Hypothesis (H0): There is no cointegration and no long-term equilibrium relationship between Bitcoin and the Ethereum.

Alternative Hypothesis (HA): There is a cointegration and the long-term equilibrium relationship between Bitcoin and the Ethereum.

**Methodology.** The study analyses the interaction between the daily historical prices of the Bitcoin USD (BTC-USD) and Ethereum USD (ETH-USD) to investigate the cointegration between the two cryptocurrencies, and determine the short-term, as well as the long-term impact of the Bitcoin on Ethereum.

Daily historical data on the prices of Bitcoin USD and Ethereum USD was analyzed. Bitcoin USD and Ethereum USD data of CCC – CoinMarketCap was acquired from the Yahoo Finance website and

covers the period from 9 November 2017 until 28 July 2023 which was available for both cryptocurrencies. Data analysis was implemented on STATA software.

The study analyses the cointegration in between BTC USD and ETH USD cryptocurrencies by the means of Engle and Granger 2 steps methodology (Engle-Granger, 1987). Analysis estimated the long-run and short-run models with the Error Correction Term (ECT).

Engle and Granger 2 steps method is used for the analysis of the non-stationary multivariate time series. This methodology explores the cointegration in between the two and more variables.

$$x_t = \beta_0 + \beta_1 y_t + \epsilon_t$$
$$\epsilon_t = x_t - \beta_0 - \beta_1 y_t$$

Here, $\epsilon_t = I(0)$, therefore error correction term is integrated on the zero level.

Engle and Granger 2-steps methods consists of the following steps:

1. The first step covers testing the order of the integration and variables shall have the same order of the integration. Then, by means of OLS we estimate the long-run equilibrium model and test the stationarity of the residuals.

$$y_t = \beta_0 + \beta_1 z_t + e_t$$

If variables are cointegrated, then the parameters of the OLS regression are consistent (Watson 1987). Since residuals are not observable, the Augmented Dickey Fuller test is not valid.

2. The second step covers the estimation of the Short-Run model and error correction term. Further the model diagnostics is implemented.

**Analysis and Findings.** The study analyses the BTC USD as independent variable and ETH USD as the dependent variable. The following long-run equilibrium model will be estimated:

$$ETHUSD_t = \beta_0 + \beta_1 BTCUSD_t + \epsilon_t$$

To interpret the results in the percentage as elasticities, the logarithm of the BTC USD and ETH USD was taken Graphical analysis shows that cointegration is more efficient to be analyzed and easier to interpret in the log level of the variables (Picture 1, Picture 2).

*Picture 1. The level graph of the Bitcoin USD and Ethereum USD.*




*Source: Author's calculations.*

*Picture 2. The graph of the logs of Bitcoin USD and Ethereum USD.*




*Source: Author's calculations.*

Dickey-Fuller test for the unit root is conducted to check for the stationarity of the logs of the time series. $H_0$ that the time series has a unit root was accepted for I (0) at the 90% significance level for both BTC and ETH. $H_0$ was rejected for I(1) at the 99% significance level, therefore the logs of the BTC and ETH time series does not have a unit root and are stationary at the integration of order one.

The long-run regression was estimated, and the following estimated OLS model was obtained:

$$ETHUSD_t = -6.21 + 1.32 * BTCUSD_t + \epsilon_t$$

*Table 1. Long-run regression estimation.*

| Source | SS | df | MS | | | |
|---|---|---|---|---|---|---|
| | | | | Number of obs | = | 2,088 |
| | | | | F(1, 2086) | = | 13178.20 |
| Model | 2312.1455 | 1 | 2312.1455 | Prob > F | = | 0.0000 |
| Residual | 365.993538 | 2,086 | .175452319 | R-squared | = | 0.8633 |
| | | | | Adj R-squared | = | 0.8633 |
| Total | 2678.13904 | 2,087 | 1.28324822 | Root MSE | = | .41887 |

| lETHUSDClose | Coefficient | Std. err. | t | P>\|t\| | [95% conf. | interval] |
|---|---|---|---|---|---|---|
| lBTCUSDClose | 1.322377 | .0115193 | 114.80 | 0.000 | 1.299786 | 1.344967 |
| _cons | -6.213552 | .1113373 | -55.81 | 0.000 | -6.431896 | -5.995208 |

Based on the results of the OLS regression model, log (BTC) and intercept are statistically significant at 99% of the significance level. Therefore, in the long-run, when log (BTC) is increasing by 1%, then the log (ETH) is going to increase on average by 1.32%.

Augmented Dickey-Fuller test was performed on the residuals of the estimated OLS regression. Test statistics Z(t)=-1.811. Based on the table on critical values for the regression-residual based cointegration tests, the null hypothesis that time series has a unit root and therefore it is non-stationary, is not rejected and therefore residuals are not stationary and are not cointegrated.

**Conclusion.** The analysis findings confirm the absence of the cointegration and a long-term equilibrium relationship between Bitcoin and Etherium. These findings contribute to the existing literature by providing insights into the specific dynamics of the relationship between Bitcoin and traditional fiat currencies. The research has addressed the research questions and could not reject the Null Hypothesis formulated at the beginning of the study. The long-term equilibrium relationship between Bitcoin and Ethrerium has not been established.

**References:**


1. Brooks, C. (2018). Introductory Econometrics for Finance (2nd ed.). Cambridge: Cambridge University Press.
2. Ciaian, P., Rajcaniova, M., & Kancs, D. (2016). The economics of BitCoin price formation. Applied Economics, 48(19), 1799-1815.
3. Dickey, D. A., & Fuller, W. A. (1979). Distribution of the estimators for autoregressive time series with a unit root. Journal of the American Statistical Association, 74, 427–431.
4. Engle, R. F., & Granger, C. W. J. (1987). Co-integration and error correction: representation, estimation, and testing. Econometrica, 55(2), 251-276.
5. Engle, R. F., & Yoo, B. S. (1987). Forecasting and testing in co-integrated systems. Journal of Econometrics, 35(1), 143-159.
6. Johansen, S. (1988). Statistical Analysis of Cointegration Vectors. Journal of Economic Dynamics and Control, 12(2–3), 231–254.
7. Johansen, S. (1991). Estimation and Hypothesis Testing of Cointegration Vectors in Gaussian Vector Autoregressive Models. Econometrica, 59(6), 1551–1580.
8. Johansen, S. (1992). Determination of Cointegration Rank in the Presence of a Linear Trend. Oxford Bulletin of Economics and Statistics, 54(3), 383-397.

# TORPAQ, TİKİLİ VƏ AVADANLIQLARIN TƏMİR XƏRCLƏRİNİN MALİYYƏ HESABATLARININ BEYNƏLXALQ STANDARTLARI VƏ VERGİ MƏCƏLLƏSİ İLƏ UÇOTUNUN MÜQAYİSƏLİ TƏHLİLİ

**Rzayeva Kəmalə Elşad**
**Azərbaycan Dövlət İqtisad Universiteti**
**https://orcid.org/0000-0001-5623-8198**
**kerzayeva@gmail.com**

# COMPARATIVE ANALYSIS OF ACCOUNTING FOR REPAIR OF PROPERTY, PLANT AND EQUIPMENT WITH INTERNATIONAL FINANCIAL REPORTING STANDARDS AND TAX CODE

**Rzayeva Kamala Elshad**
**Azerbaijan State University of Economics**
**https://orcid.org/0000-0001-5623-8198**
**kerzayeva@gmail.com**

**Summary**

Financial statements have impacted the results of the entity's processes during the year. One of the factors that make the difference between the results in the financial statements and the figures compiled in the tax accounting is the maintenance cost of property, plant and equipment. Repair and maintenance costs limited to certain limits according to the Tax Code increase the value of assets or are reflected in the profit or loss statement, according to the nature of repair costs in the IFRS and the rules for repair and maintenance costs in accounting. This, creates differences in the cost of assets, affecting the statement of financial position and the statement of profit or loss.

**Keywords:** IFRS, Tax Code, repair cost

# СРАВНИТЕЛЬНЫЙ АНАЛИЗ УЧЕТА РЕМОНТОВ ОСНОВНЫХ СРЕДСТВ ПО МЕЖДУНАРОДНЫМ СТАНДАРТАМ ФИНАНСОВОЙ ОТЧЕТНОСТИ И НАЛОГОВОГО КОДЕКСА

**Рзаева Камала Эльшад**
**Азербайджанский Государственный Экономический Университет**
**https://orcid.org/0000-0001-5623-8198**
**kerzayeva@gmail.com**

**Резюме**

Финансовая отчетность отражает результаты процессов, протекающих на предприятия в течение финансового периода, и одним из факторов, определяющих разницу между результатами в бухгалтерской отчетности и цифрами, отраженными в налоговом учете, являются расходы на содержание основных средств. Затраты на ремонт основных средств, ограниченные определенными объемами согласно Налогового Кодекса Азербайджанской Республики увеличивают стоимость основных средств, либо отражаются в отчете о прибылях и убытках в соответствии с характером затрат на ремонт в соответствии с Международным Стандартом Финансовый Отчетности и Правилами отображения затрат на ремонт в

бухгалтерском учете. Это, в свою очередь, создает различия в стоимостях основных средств, влияя на отчет о финансовых результатах и отчет о прибылях и убытках.
**Ключевые слова:** МСФО, Налоговый Кодекс, затраты на ремонт

Torpaq, tikili və avadanlıqların təmiri maliyyə və vergi uçotunda əhəmiyyətli məsələlərdəndir. Vergi Məcəlləsi təmir xərclərinin gəlirdən çıxılan miqdarını torpaq, tikili və avadanlıqların ilin əvvəlinə qalıq dəyərinə müəyyən faizlər tətbiq etməklə məhdudlaşdırır. Azərbaycan Respublikası Maliyyə Nazirliyi Kollegiyasının Q-19 nömrəli "Təmir məsrəflərinin mühasibat uçotunda əks etdirilməsinə dair Qaydalar"ın təsdiq edilməsi haqqında Qərarda isə təmir xərcləri mahiyyətinə görə təsnifləşdirilmişdir. Mahiyyətindən asılı olaraq təmir xərcləri torpaq, tikili və avadanlıqların dəyərini artırar və ya həmin dövrdə xərc kimi nəzərə alınacaqdır. Məqalə müqayisəli metodla təmir xərclərinin təsnifatına aydınlıq gətirmişdir.

**Torpaq, tikili və avadanlıqların təmir xərclərinin tanınması**

Vergi Məcəlləsinin 115-ci maddəsində gəlirdən çıxılan xərclər olaraq məhdudlaşdırılan torpaq, tikili və avadanlıqların təmir xərcləri, Maliyyə Hesabatları Beynəlxalq Standartlarında xərclərin mahiyyətinə görə qruplaşdırılmışdır. 16 nömrəli "Torpaq, tikili və avadanlıqlar" adlı MHBS-də tanınma bölməsində növbəti məsrəflər hissəsində torpaq, tikili və avadanlıqlar üçün çəkilən xərclərin gündəlik və əvəzləşdirilən hissələr üzrə məsrəflər kimi təsnifləşdirilmişdir. 16 nömrəli MHBS-in torpaq, tikili və avadanlıqların tanınmasında zəruri olan növbəti məsrəflər bölməsinin 12-ci maddəsində torpaq, tikili və avadanlıqların saxlanılması üçün çəkilən gündəlik xərclər aktivlərin dəyərini artırmır, əvəzində mənfəət və ya zərər haqqında hesabatda xərc kimi tanınır. 16 nömrəli MHBS-in 13-cü maddəsində torpaq, tikili və avadanlıqların hissələrinin dəyişdirilməsi və dəyişdirilən hissələrin dəyərini isə xərc kimi deyil, aktivin dəyərini artıran əvəzləşdirilən hissələr üzrə çəkilən məsrəflər kimi nəzərə almışdır (IFRS Board, 2018). Kiçik və orta sahibkarlıq subyektləri üçün Maliyyə Hesabatlarının Beynəlxalq Standartının 17.5-ci maddəsinə əsasən ehtiyat hissələri və yardımçı maddələr torpaq, tikili və avadanlıqlar tərifinə cavab verirsə torpaq, tikili və avadanlıq kimi tanınacaq, əks halda isə belə maddələr material ehtiyatları kimi tanınır (IFRS Board, 2018).

16 nömrəli MHBS-in iki maddədə əhatə etdiyi təmir xərcləri "Təmir məsrəflərinin mühasibat uçotunda əks etdirilməsinə dair Qaydalar"ında əsaslı və cari təmir məsrəfləri olmaqla iki hissəyə bölünür. Qərarın 2-ci bölməsində torpaq, tikili və avadanlıqların istismar müddətini uzadan və istismar keyfiyyətinin yaxşılaşdırılması məqsədilə hesabat ilində bir dəfədən çox olmamaq şərtilə yerinə yetirilən işlər üzrə aktivlərin tam və ya əhəmiyyətli dərəcədə bərpasına, yaxud sıradan çıxmış aktivlərin struktur komponentlərinin dəyişdirilməsinə çəkilmiş məsrəflər əsaslı təmir xərcləri, topraq, tikili və avadanlıqların texniki və iqtisadi göstəricilərinin müəyyən edilmiş hədd daxilində saxlanılması üçün həyata keçirilən təmir işlərinə çəkilən məsrəflər isə cari təmir məsrəfləri adlandırılmışdır (AR Maliyyə Nazirliyi Kollegiyası, 2014).

Azərbaycan Respublikası Vergi Məcəlləsinə əsasən təmir xərcləri torpaq, tikili və avadanlıqların ilin əvvəlinə olan qalıq dəyərinin müvafiq faizlərlə məhdudlaşdırılan hissəsi gəlirdən çıxılan xərc kimi tanınır, artıq olan hissə isə aktivlərin dəyərini artırır. Həmçinin il ərzində alınan aktivlər üçün təmir xərcləri çəkilərsə o zaman o xərclər aktivin balans dəyərinin artırılmasına yönləndirilir (Azərbaycan Respublikası Vergi Məcəlləsi, 2023).

Qeyd edilənlər müqayisəli şəkildə aşağıdakı cədvəldə daha aydın şəkildə verilmişdir.

**Cədvəl 1. Vergi Məcəlləsi və MHBS-ə uyğun olaraq təmir xərclərinin uçotunun müqayisəsi**

| *16 nömrəli "Torpaq, tikili və avadanlıq" MHBS və "Təmir məsrəflərinin mühasibat uçotunda əks etdirilməsinə dair Qaydalar"* | *Vergi Məcəlləsi* |
|---|---|
| Hər torpaq, tikili və avadanlıq üzrə ayrılıqda hesablanılır. | Təmir xərcləri əsas vəsaitlərin hər bir kateqoriyasının ilin əvvəlinə qalıq dəyərinə nisbətdə hesablanılır (AR Vergi Məcəlləsi, 2023). |
| Əsaslı təmir xərcləri aktivlərin dəyərini artırır, cari təmir xərcləri mənfəət və ya zərər hesabatında xərc kimi tanınır. | Təmir xərclərinin yalnız əsas vəsait kateqoriyasından asılı olaraq ilin əvvəlinə qalıq dəyərinin 2-5% həcmində gəlirdən çıxılan xərc kimi tanınır, normadan artıq olan hissə aktivlərin dəyərini artırır (AR Vergi Məcəlləsi, 2023). |

Mənbə: Cədvəl müəllif tərəfindən Vergi Məcəlləsi və "Təmir məsrəflərinin mühasibat uçotunda əks etdirilməsinə dair Qaydalar"a əsasən hazırlanmışdır.

Qeyd edilənləri bir nümunə üzərindən nəzərdən keçirsək, mənfəət və ya zərər hesabatına və həmçinin maliyyə nəticələri haqqında hesabata təsirini daha aydın şəkildə görmək mümkündür.

Müəssisənin 2022-ci ilin əvvəlinə və il ərzində alınan torpaq, tikili və avadanlıqları aşağıdakı cədvəldə verilən şəkildə olmuşdur.

**Cədvəl 2. Verilmiş nümunə üzərində təmir xərclərinin qruplaşdırılması**

| Torpaq, tikili və avadanlığın adı | 2022-ci ilin əvvəlinə qalıq dəyəri | 2022-ci il ərzində alınmışdır | 2022-ci il ərzində çəkilən əsaslı təmir xərcləri | 2022-ci il ərzində çəkilən cari təmir xərcləri |
|---|---|---|---|---|
| İstehsal avadanlığı | 122 562.35 | | 12 564.32 | 5 527.22 |
| Kağız kəsmə avadanlığı | 98 541.67 | | | |
| Nəqliyyat vasitəsi | 77 582.96 | | 7 488.98 | 9 852.31 |
| Kompüter | 2 547.82 | | 527.88 | |
| Stol | 3 411.23 | | | |
| Kondisioner | | 6 521.47 | 1 403.91 | |
| CƏMİ | 304 646.03 | 6 521.47 | 21 985.09 | 15 379.53 |

Mənbə: Cədvəl müəllif tərəfindən nümunə müəssisə məlumatlarına əsasən hazırlanmışdır.

Verilən məlumatlar əsasında təmir xərclərinin hesablanmasını aparsaq, aşağıdakı cədvələ uyğun məlumatları almış olarıq. 16 nömrəli "Torpaq, tikili və avadanlıq" MHBS və "Təmir məsrəflərinin mühasibat uçotunda əks etdirilməsinə dair Qaydalar"a əsasən əsaslı təmir xərcləri aktivin dəyərini artırdığından aktivin qalıq dəyərinin üzərinə əlavə olunur, cari təmir xərcləri isə mənfəət və ya zərər hesabatında təmir xərcləri kimi tanınır.

Lakin Vergi Məcəlləsinə əsasən ilk növbədə təmir xərclərinin gəlirdən çıxıla bilən hissəsi müəyyənləşdirilməlidir. Bunun üçün maşın avadanlıqlar kateqoriyası üçün (122562.35+98541.67+2547.82)*5%=11182.59 manat, nəqliyyat vasitələri kateqoriyası üçün 77582.96*5%=3879.15 manat, digər əsas vəsaitlər kateqoriyası üçün isə 3411.23*3%=102.34 manat dəyərində təmir xərcləri gəlirdən çıxıla bilər.

**Cədvəl 3. Verilmiş nümunə üzərində təmir xərclərinin Vergi Məcəlləsi və "Təmir xərclərinin mühasibat uçotunda əks etdirilməsinə dair Qaydalara"a əsasən hesablanması**

| *“Təmir məsrəflərinin mühasibat uçotunda əks etdirilməsinə dair Qaydalar”a əsasən* | | | | |
|---|---|---|---|---|
| Torpaq, tikili və avadanlığın adı | 2022-ci ilin əvvəlinə qalıq dəyəri | 2022-ci il ərzində alınmışdır | 2022-ci il ərzində aktivlərin dəyərini artıran təmir xərcləri | 2022-ci il ərzində mənfəət və ya zərər hesabatında tanınan təmir xərcləri |
| İstehsal avadanlığı | 122 562.35 | | 12 564.32 | 5 527.22 |
| Kağız kəsmə avadanlığı | 98 541.67 | | | |
| Nəqliyyat vasitəsi | 77 582.96 | | 7 488.98 | 9 852.31 |
| Kompüter | 2 547.82 | | 527.88 | |
| Stol | 3 411.23 | | | |
| Kondisioner | | 6 521.47 | 1 403.91 | |
| CƏMİ | 304 646.03 | 6 521.47 | 21 985.09 | 15 379.53 |

| *Vergi Məcəlləsinə əsasən* | | | | |
|---|---|---|---|---|
| İstehsal avadanlığı | 122 562.35 | | 6 908.95 | 11 182.59 |
| Kağız kəsmə avadanlığı | 98 541.67 | | | |
| Kompüter | 2 547.82 | | 400.49 | 127.39 |
| Nəqliyyat vasitəsi | 77 582.96 | | 13 462.14 | 3 879.15 |
| Stol | 3 411.23 | | | |
| Kondisioner | | 6 521.47 | 1 403.91 | |
| CƏMİ | 304 646.03 | 6 521.47 | 22 175.49 | 15 189.13 |

Mənbə: Cədvəl müəllif tərəfindən nümunə müəssisə məlumatlarına əsasən hazırlanmışdır.

Kiçik və orta sahibkarlq subyektləri üçün MHBS, 16 nömrəli torpaq, tikili və avadanlıqlar adlı MUBS və Vergi Məcəlləsindəki təmir xərclərini əks etdirən maddələrin müqayisəsindən belə nəticəyə gəlmək olar ki, maliyyə uçotunda təmir xərclərinin əsaslı və cari təmir olmaqla təsnifləşdirilməsi rol oynasa da, vergi uçotunda xarakterindən asılı olmayaraq Vergi Məcəlləsinin 115-ci maddəsində qeyd edilən faiz nisbətlərini ilin əvvəlinə əsas vəsaitlərə tətbiq etməklə gəlirdən çıxılan təmir xərclərini müəyyən etmək olar və həmin həddən artıq hissə əsas vəsaitin kapitallaşdırılmasına xidmət edir. Maliyyə uçotunda qeyd edilən təmir xərclərinin təsnifləşdirilməsi torpaq, tikili və avadanlıqların təmir və kapitallaşdırılmış xərclərini düzgün bölməklə torpaq, tikili və avadanlıqların dəyərinin ədalətli dəyərlə yaxınlığının təmin olunmasında əhəmiyyətlidir. Vergi Məcəlləsinə əsasən yalnız müəyyən edilmiş hədlər daxilində təmir xərclərinin gəlirdən çıxılması əsas vəsaitlərin bazar dəyərindən çox kənarlaşmasına səbəb ola bilər.

**Ədəbiyyat:**

1. IFRS Board (2018). IAS 16 Property, Plant and Equipment, article 12-13

2. Azərbaycan Respublikası Maliyyə Nazirliyi (2018) 16 nömrəli “Torpaq, tikili və avadanlıqlar” adlı Mühasibat Uçotunun Beynəlxalq Standartı, bölmə 12.

3. Azərbaycan Respublikası Maliyyə Nazirliyi (2018) Kiçik və orta sahibkarlıq subyektləri üçün Maliyyə hesabatlarının Beynəlxalq Standartı, bölmə 17

4. Azərbaycan Respublikası Maliyyə Nazirliyi Kollegiyası (2014). Q-19 nömrəli “Təmir məsrəflərinin mühasibat uçotunda əks etdirilməsinə dair Qaydalar”ın təsdiq edilməsi haqqında Qərar

5. Azərbaycan Respublikası Vergi Məcəlləsi (2023), 114-115-ci maddələr

## QLOBAL TEXNOLOJİ YENİLƏŞMƏLƏR VƏ ƏMƏK BAZARINDA EVOLYUSİYA MEYİLLƏRİ

**Nəzərov Mehman Elman**
**Azərbaycan Dövlət İqtisad Universiteti**
**https://orcid.org/0009-0003-2852-3081**
**mehmanezerov700@gmail.com**

## GLOBAL TECHNOLOGICAL INNOVATIONS AND EVOLUTIONARY TRENDS IN THE LABOR MARKET

**Nazarov Mehman Elman**
**Azerbaijan State University of Economics**
**https://orcid.org/0009-0003-2852-3081**
**mehmanezerov700@gmail.com**

**Summary**

The article attempts to clarify the possible effects of the 4th industrial revolution, which creates new opportunities and challenges for society - the global technological changes that are formed on the foundations of IoT, EU, biotechnology, on the labor market, and to determine the expected innovation trends in the labor market. In the study, technological changes - the formation of the labor market mechanism was perceived as an important factor of global competitiveness, and it was claimed that such a mechanism can be formed at the level of social, cultural and economic values enriched with innovations. The research work will talk about the innovations brought by the 4th industrial revolution to the life of the countries and the labor market, its positive aspects will be emphasized, as well as the changes caused by the 4th industrial revolution in the labor market, where the human capital factor comes to the fore, and the application of digitalization and information and communication technologies is widespread will be studied.

**Keywords:** Fourth industrial revolution, human capital, education, labor market, digitization

## ГЛОБАЛЬНЫЕ ТЕХНОЛОГИЧЕСКИЕ ИННОВАЦИИ И ЭВОЛЮЦИОННЫЕ ТЕНДЕНЦИИ НА РЫНКЕ ТРУДА

**Назаров Мехман Эльман**
**Азербайджанский Государственный Экономический Университет**
**https://orcid.org/0009-0003-2852-3081**
**mehmanezerov700@gmail.com**

**Резюме**

В статье предпринята попытка прояснить возможные последствия 4-й промышленной революции, создающей новые возможности и вызовы для общества - глобальные технологические изменения, формирующиеся на базе IoT, ЕС, биотехнологий, на рынок труда, а также определить ожидаемые инновационные тенденции на рынке труда. В исследовании технологические изменения - формирование механизма рынка труда воспринимались как важный фактор глобальной конкурентоспособности, и утверждалось, что такой механизм может формироваться на уровне социальных, культурных и экономических ценностей, обогащенных инновациями. В исследовательской работе будет рассказано о нововведениях, привнесенных 4-й промышленной революцией в жизнь стран и рынок труда, будут подчеркнуты ее положительные стороны, а также изменения, вызванные 4-й промышленной революцией на рынке труда, где на первый план выходит фактор человеческого капитала, широко распространено применение цифровизации и информационно-коммуникационных технологий будет изучаться.

**Ключевые слова:** Четвертая промышленная революция, человеческий капитал, образование, рынок труда, цифровизация

Yeni rəqəmsal texnologiyalar getdikcə bütün iqtisadiyyata yayılır. 20-ci əsrin ortalarında vüsət almış, 21-ci əsrdə eksponensial templərlə inkişaf edən və bütün dünyanı bürüyən rəqəmsal texnologiyalar,

dünyanın sosial-iqtisadi həyatını kökündən dəyişərək, tamamilə yeni, inkişaf hüdudları, təsir imkanları və sosial-iqtisadi fəsadları aydın təsəvvür edilməyən yeni bir mühit yaratmışlar.

Baş verən proseslər, 4-cü sənaye inqilabı alimlərin diqqətini ciddi şəkildə zəbt etmişdir və müasir rəqəmsal texnologiyalar – biznesin idarəolunması; kommunikasiya və məlumat mübadiləsi; ticarət və ödəniş mexanizmləri və müxtəlif digər formalarda – əksər sosial-iqtisadi sahələrə ciddi təsir edərək, "intellektual" məhsulların əmtəə və xidmət bazarlarına çıxmasına təkan verir. Son illər yeni iqtisadi şəraitə uyğun rəqabət qabiliyyətli kadrların hazırlanması problemlərinin aşkarlanması, peşəkar kadrların hazırlanmasında informasiya texnologiyalarının tətbiqi, nəticədə insan kapitalının keyfiyyətinin artması hesabına müəssisələrin və bütövlükdə dövlətin sosial-iqtisadi inkişafının təmin edilməsi ilə bağlı tədqiqatların aparılması daha da genişlənmişdir.

Bu tədqiqat işində akademik ədəbiyyatlara əsaslanaraq əmək bazarları üçün texnoloji yeniliklərin vəzifəsi və nəticələri barədə ən son məlumatlar təqdim olunur, inklüziv iqtisadi siyasətin formalaşdırılması üçün müvafiq vasitələrin və tədbirlərin hazırlanması üçün potensial ssenarilər təhlil edilir, 4-cü sənaye inqilabı kimi də tanınan qlobal texnoloji yeniləşmələrin və avtomatlaşdırmanın əmək bazarına mümkün təsiri müəyyən edilir, əmək bazarının tələblərinə uyğun rəqabət qabiliyyətli peşəkar kadrların hazırlanması məsələləri öyrənilir, dövrün tələblərinə cavab verə biləcək kadr hazırlığı forma və üsullarının təkmilləşdirilməsi üsulları araşdırılır.

**Texnoloji dəyişikliklər və əmək bazarı**

Sürətlə dəyişən əmək bazarında uyğunlaşmaq və daim inkişaf etmək çox vacibdir. Çünki bütün bunlar gələcək əmək bazarında uğur qazanıb-qazanmayacağınızı müəyyən edən əsas amillərdəndir. İoT[i], Aİ[ii], biotexnologiyalar iqtisadiyyatda getdikcə daha çox yayılır. İnternet əşyalar, Süni İntellekt, robotlaşma və s. sayəsində maşınlar əvvəllər yalnız insanlar üçün mümkün olan işləri yerinə yetirmək qabiliyyətinə çevrilir. İstehsal prosesləri və təşkilatlar dəyişir, yeni məhsullar, xidmətlər və biznes modelləri yaranır. Bu tendensiyaların Avropa əmək bazarları üçün mühüm təsirləri var. İnnovasiya, texniki biliklərin və ixtiraların bazar dəyərləri və ya siyasətləri ilə idarə olunan institusional proqramlardan (korporativ və ya hökumət) faydalanmaq üçün seçilmiş şəkildə istifadə edildiyi sosial prosesdir. Kompüter texnologiyasının inkişafı yeni imkanlar yaradır və eyni zamanda cəmiyyətin müəyyən problemlərini həll edir.

Müasir dövrdə insan resurslarının idarə edilməsində, əhalinin məşğulluğunun təmin edilməsində əmək bazarının sistemli şəkildə öyrənilməsi və tənzimlənməsi mühüm əhəmiyyət kəsb edir. Bununla bağlı akademik iqtisadçıların fikirləri fərqlidir, bəzi alimlər iqtisadiyyatda dağıntıların gözlənildiyini düşünürlər. Digərləri bugünkü transformasiyaların əvvəlki texnoloji inqilablardan əhəmiyyətli dərəcədə fərqlənməyəcəyini iddia edirlər. Hazırlıq məqsədləri üçün potensial ssenarilər təhlil edilməli və inklüziv iqtisadi siyasətlərin formalaşdırılması üçün müvafiq alətlər və tədbirlər hazırlanmalıdır. Bunlardan ən başlıcası bacarıq meyli və onun nəticələridir. 19-cu əsrin Sənaye İnqilabı süni texnoloji dəyişikliklərə əsaslanmamışdı. Texnoloji tətbiqlər, süni intellektin təsirləri yüksək ixtisaslı əməyin məhsuldarlığını artırdı. Əsasən bu o deməkdir ki, 19-cu əsrdəki dəyişikliklərdən fərqli olaraq, texnologiyada mövcud irəliləyişlər maşın və alqoritmlərlə əvəzlənmək təhlükəsi ilə üzləşən əsasən aşağı ixtisaslı işçilərə nisbətən daha yüksək bacarıqlara malik işçilərə üstünlük verir. Tədqiqatçılar bunu bacarıqlara əsaslanan texnoloji dəyişiklik kimi təyin edirlər. 20-ci əsrdə texnoloji irəliləyişlərin asanlıqla proqramlaşdırıla bilən gündəlik vəzifələri əhəmiyyətli dərəcədə dəyişdirəcəyi gözlənilirdi. Eyni zamanda, yeni iş yerləri açılacaq və iş yerlərində müəyyən tapşırıqlar intellektual maşınlarla tamamlanaraq işçilərin diqqətini başqa işlərə yönəltməyə imkan verəcək. Bununla belə, empatiya və yaradıcılıq kimi mühüm insan qabiliyyətlərini, ən azı, yaxın gələcəkdə süni intellekt "öyrənmək" və ya avtomatlaşdırılmış texnologiyalarla əvəz etmək mümkün deyil.

**Dördüncü sənaye inqilabının əmək bazarına təsirinə dair iqtisadi baxışlar**

Bu gün biz iqtisadiyyatların və sənayelərin bütün sahələrinə təsir edən çoxlu yeni və qabaqcıl texnologiyalarla səciyyələnən Dördüncü Sənaye İnqilabının qarşısındayıq. Dördüncü Sənaye İnqilabının diqqət mərkəzində onun insan kapitalına təsiri və gələcək əmək və kapitalın bir-birini tamamlamasını təmin etmək üçün təhsil vasitəsilə "21-ci əsrin Bacarıqları"nın inkişaf etdirilməsi zərurəti olmuşdur. İşəgötürənlər əmək məhsuldarlığını və innovasiyaları artırmaq üçün əsas məqsəd qoymağa başlayırlar. Onlar yeni bacarıqlar axtarırlar: davamlılıq, dəyişikliyə həssaslıq, təşəbbüskar düşüncə tərzi və yeniliklərə hazır olmaq kimi rəftarları nümayiş etdirən insanlar. Bu yazı Dördüncü Sənaye İnqilabının əmək bazarına təsirini müzakirə etməyə çalışır. Digər məqsəd 4-cü sənaye inqilabı üçün uyğun bacarıqla gələcəkdə insan kapitalını necə inkişaf etdirəcəyini müzakirə etməkdir. Dünya İqtisadi Forumunun (2016) işin gələcəyi ilə bağlı hesabatında deyilir ki, "bir məşhur hesablamaya görə, bu gün ibtidai məktəbə daxil olan uşaqların 65%-i son nəticədə hələ mövcud olmayan tamamilə yeni iş növlərində işləyəcək". Klaus Şvab texnoloji innovasiyaların və ondan istifadə etmək qabiliyyətimizin sosial və iqtisadi artım üçün güc mərkəzinə çevrildiyi nikbin gələcəyi proqnozlaşdırır (Schwab, 2016).

2017-ci ilin yanvarında McKinsey tərəfindən aparılan bir araşdırma, peşələrin 60%-də tapşırıqların təxminən 30% -nin kompüterləşdirilə biləcəyini tapdı. İngiltərə Bankının baş iqtisadçısı, 80 milyon ABŞ və 15 milyon İngiltərə işinin robotlar tərəfindən ələ keçirilə biləcəyini söylədi (Haldane, 2015). 2013-cü ildə Oksford Universitetinin alimləri tərəfindən "Məşğulluğun Gələcəyi" adlı araşdırma 702 ümumi peşəni araşdırdı və müəyyən etdi ki, bəzi işlər - telemarketlər, vergi ödəyiciləri və idman hakimləri - istirahət psixoloqları, diş həkimləri və həkimlər də daxil olmaqla digərlərindən daha çox risk altındadır.

Dünya İqtisadi Forumunun (WEF) "İşlərin Gələcəyi" hesabatına əsasən, 2020-ci ilə qədər işəgötürənlərin prioritet sırasına görə ehtiyac duyacağı bacarıqlar bunlardır: mürəkkəb problemlərin həlli, tənqidi düşüncə, yaradıcılıq, insanların idarə edilməsi, başqaları ilə koordinasiya, emosional intellekt, əsaslandırma və qərar qəbul etmə, xidmət yönümlülük, danışıqlar və idrak çevikliyi. Koqnitiv çeviklik və emosional zəka 2020-ci ildə onları əvəz edəcək iki yeni bacarıq idi. Bunun səbəbi budur ki, iş avtomatlaşdıqca daha da sadələşir. İşçilər çevik olmalı və müxtəlif növ tapşırıqlar və kontekstlər arasında keçid edə bilməlidirlər. Dördüncü Sənaye İnqilabı mütəfəkkirlərini daha yaxşı hazırlamaq üçün dəyişdirilməlidir. Dördüncü Sənaye İnqilabı inklüziv fayda təmin etmək üçün hazırlanmış olsa da, o, cəmiyyətimizə meydan oxuya və insan kapitalını maşınlarla əvəz etməklə (sosial/sosial-iqtisadi) inkişafı əngəlləyə bilər. Buna görə də işçi qüvvəsinin ali təhsilə və keyfiyyətli təhsilə daha çox çıxışı lazımdır. Gələcəkdə aşağı ixtisaslı işlərə daha az rast gəlinəcək, çünki proqnozlaşdırıla bilən tapşırıqlar maşınlarla əvəz olunur. Həm yüksək ixtisaslı, həm də aşağı ixtisaslı işçilər yenidən hazırlanmalı və ya fərqli şəkildə hazırlanmalıdır. Müxtəlif texnologiyaların sürətli inkişafı bir çox iş vəzifələrinin qismən və ya tam avtomatlaşdırılmasına gətirib çıxardı.

Gleasona (Gleason, 2018) görə insanlar hətta tam avtomatlaşdırılmış iş mühitində də əvəzolunmazdır. Yeni texnologiyalar ilk dəfə tətbiq edildikdə, tətbiq tapşırıqlarını yerinə yetirmək və koordinasiya etmək üçün insanlara ehtiyac var. Sistemlər işə salındıqdan sonra insanlar sadə olmayan bir sıra texniki xidmət tapşırıqlarını yerinə yetirməlidirlər. İnsanlar həmçinin avtomatlaşdırma uğursuz olduqda öz bacarıqlarını təkmilləşdirmək imkanına malikdirlər. Bu təhlil bizə belə qənaətə gəlməyə kömək edə bilər ki, insan kapitalı Dördüncü Sənaye İnqilabı yaşında köhnə deyil, lakin qabaqcıl təlim tələb edir. Birinci sənaye inqilabından üçüncü sənaye inqilabına qədər maşınlar mexaniki vəzifələrə görə insanlardan üstün idi. Bununla belə, Dördüncü Sənaye İnqilabında insan əməyi ilə bağlı tapşırıqlarda mexaniki tapşırıqlardan idrak tapşırıqlarına keçid var.

Çin iqtisadçıları Yong Jin Kim və Jong-Wha Lee məqalələrində isə texnoloji dəyişmələrlə insan kapitalının strukturu arasındakı əlaqələr və bu qarşılıqlı əlaqələrin iqtisadi inkişafa təsiri araşdırılırdı (Lee, 2009).

S.Teo tərəfindən bu problem 1995-ci ildə çap edilən "insan kapitalı və texnoloji dəyişmələr arasındakı qarşılıqlı əlaqələr" adlı məqalədə də öyrənilir (Eicher).

Andrew Feenbergin texnoloji transformasiyaya aid kitabında da bu əlaqələr əhatəli araşdırılır (Feenberg, 1991).

David Deminq və Kadeem Noray tərəfindən bilgi iqtisadiyyatının insan kapitalına tələbləri öyrənilir (Deming David J., 2020).

Osborne və Frey (Frey and Osborne, 2013) qeyd etdilər ki, **Big Data**[iii] üçün süni intellektə əsaslanan alqoritmlər iş yerlərində çox sayda qeyri-müntəzəm idrakla əlaqəli tapşırıqları əvəz edir.

Dünya İqtisadi Forumu (2015) bildirir ki, qlobal bazarda strukturlaşdırılmamış problemlərlə məşğul olmağı, məlumatları təhlil etməyi və yeni texnologiyalarla əməkdaşlıq etməyi bacarmalı olan bacarıqlar dəstinə doğru köklü dəyişiklik var. Əvvəllər əl və gündəlik əməyin artan avtomatlaşdırılması və rəqəmsallaşması səbəbindən bu bacarıq dəstinə böyük ehtiyac var idi.

Beynəlxalq Əmək Təşkilatının araşdırmalarına görə 2020-ci ilin birinci yarısında işsizlik dərəcəsi orta hesabla 6,6%-ə qədər yüksəlib. Bu, bir daha gələcəyin əmək bazarı ilə bağlı düşünmək və gələcək əmək bazarını proqnozlaşdırmaq məsələlərinin vacibliyini göstərir.

Dünya İqtisadi Forumunun "Gələcəyin işləri sorğusu" proqnozlaşdırır ki, işəgötürənlərin 50%-i işlərin avtomatlaşdırılmasını, 80%-dən çoxu isə iş proseslərinin rəqəmsallaşdırılmasını genişləndirmək niyyətindədir. Bu o deməkdir ki, bəzi işlər tədricən yoxa çıxacaq və heç vaxt geri qayıtmayacaq. Həmin işlərin yerinə yeni peşələr yaranacaq və yeni bacarıqlar tələb ediləcək.

"Gələcəyin işləri sorğusu" proqnozlaşdırır ki, 2025-ci ilə qədər robot və insanların iş saatları bərabər olacaq. Təxminən 85 milyon iş, xüsusən də hər gün təkrarlanan öhdəliklər avtomatlaşdırılacaq. İş seçimlərinin sürətlə azalmasına baxmayaraq, hesabatda 2025-ci ilə kimi 97 milyon yeni iş yerinin yaranacağı proqnozlaşdırılır. Gələcək əmək bazarında data analitikləri, süni intellekt və maşın öyrənmə mütəxəssisləri, robototexnika mühəndisləri, proqram təminatı və tətbiqi tərtibatçıları, eləcə də rəqəmsal transformasiya mütəxəssisləri, informasiya təhlükəsizliyi analitikləri inkişaf etməkdə olan peşə sahələrinə aid edilir. Gələcəyin ən çox tələb olunan bacarıqları arasında insanlarla işləmək, problem həll etmək və davamlılıq, stresə dözümlülük və çeviklik kimi özünüidarəetmə bacarıqları böyük yer tutacaq. Bu artım başa düşüləndir, çünki işçilər yeni, rəqəmsal iş üsullarına uyğunlaşmaq üçün bir sıra çətinliklərlə üzləşirlər. Texniki biliklərlə paralel yumşaq bacarıqların da olması onlara bu çətinliklərin öhdəsindən daha rahat gəlməyə kömək edəcək.

**Əmək bazarında evolyusiya**

Qlobal texnoloji makrotrendlərlə birgə əmək bazarına başqa faktorların da – geosiyasi hadisələrin, "yaşıl iqtisadiyyat" tendensiyasının, demoqrafik meyillərin və s.-in də təsiri şübhəsizdir. Ancaq əmək bazarının evolyusiyasının önəmli drayveri İoT, Aİ və s.-dən qaynaqlanan texnoloji dəyişmələrdir və bu proseslərin mümkün nəticələri – pozitiv və neqativ nəticələri aşkarlanmalı, effektiv makro və mikro idarəetmə ilə prosesin "məsrəfləri" minimallaşdırılmalıdır. Dünya İqtisadi Forumunun tədqiqatları əmək bazarının evolyusiyası ilə əlaqəli təsəvvürləri yetərincə zənginləşdirir. Belə ki, Future of Jobs Survey tədqiqatlarında iştirak edən kompaniyaların 86,4% -i 2023-2027-ci illərdə rəqəmsal platformaları, 80% -i bulud texnologiyaları, 75,6% -i kibertəhlükəsizlik texnologiyalarını, 74,9%-i Süni İntellekti tətbiq edəcəklərini bildirmişlər (World Economic Forum, 30 april 2023). Texnoloji dəyişmələrin belə axarı mütləq olaraq, iş qüvvəsinə tələbatın enməsini şərtləndirmir və öncə göstərilən mərhələdə böyük data analitikləri üzrə məşğulluq 58% artacaq. Kibertəhlükəsizlik üzrə iş yerlərinin 43,3%, biotexnologiyalar sferasında 42,9%, İoT və biotexnoloji əsaslı aqrar sektorda 41,3%, rəqəmsal platformalarda 41%, onlayn ticarətdə 36,6% artacaq. Robotlarsa iş yerlərində 8,8% azalma vəd edir.

Beləliklə, qlobal innovasiya prosesləri dayanıqlı inkişafı da, məşğulluq transformasiyasını da şərtləndirəcək və əsas məsələ iqtisadi siyasətin innovasiya yönümlülüyüdür, çünki, "ölkələrin iqtisadi inkişafının təmin edilməsində başlıca rolu oynayan investisiyaların effektivliyi məhz onların innovasiya sahəsinə qoyulması ilə daha çox şərtlənir".

Bundan başqa innovasiya prosesləri əmək bazarında texnoloji bilikləri yüksək olan kadrlara tələbi artırır. Gələcəkdə isə ümumiyyətlə, avtomatlaşdırmanın tətbiq dairəsinin inkişafı ilə əmək bazarında bəzi peşələrin ümumiyyətlə yoxa çıxması mümkün ola bilər. Bu səbəbdən ali təhsil müəssisələrinin qarşısında yeni vəzifələr dayanır. Təhsil müəssisələri əmək bazarının müasir tələblərinə cavab verən rəqabətqabiliyyətli işçilər yetişdirməlidirlər. 4-cü sənaye inqilabı yeni ixtisasların yaranması zərurətini meydana çıxarır. Bəzi ixtisasların öz aktuallığını itirməsi, əksinə rəqəmsallaşma ilə bağlı olan ixtisaslara tələbatın artması təhsil sahəsi üzrə də müəyyən standartların dəyişməsi ilə nəticələnə bilər".

Tədqiqat nəticəsində Dördüncü Sənaye İnqilabı ilə baş verən qlobal texnoloji dəyişikliklərin əmək bazarına təsiri araşdırıldı. Belə ki, texnoloji inkişaf bütün sektorlarda olduğu kimi iş həyatında da yenidən formalaşmaya səbəb olacaq. Bu mexanikləşmə prosesinin işçi qüvvəsinə həm müsbət, həm də mənfi təsir göstərəcəyi proqnozlaşdırılır. Bununla bağlı bir-birinə zidd iki fikir var ki, birinci fikrə görə, texnoloji tərəqqi nəticəsində bir çox peşələr ortadan qalxacaq və kütləvi texnoloji işsizlik meydana gələcək. Digər fikir isə birinci hipotezin irəli sürdüyü tarixə qovuşan peşələri texnoloji inkişafla yeni peşələrin əvəz edəcəyi arqumentini müdafiə edir. İlkin baxışda birinci hipotezin doğru olduğu düşünülür. Lakin ətraflı analiz aparıldıqda ikinci hipotezin daha doğru olduğu aydın olur. Yuxarıda da qeyd edildiyi kimi, 4-cü sənaye inqilabı nəticəsində texnoloji inkişaf əmək bazarında yeni peşələrə olan tələbi artıracaq. Bu peşələr məhz İKT ilə əlaqəli peşələrdir. Yeni peşələrin yaranması ilə texnoloji tərəqqi ilə ayaqlaşa bilməyən peşələr isə ortadan qalxacaq.

**Ədəbiyyat:**


1. Deming David J., N. K. (2020). Replication Data for: 'Earnings Dynamics, Changing Job Skills, and STEM Careers". *Harvard Dataverse*, doi: 10.7910/DVN/4BRAD1.

2. Eicher, T. S. (1994, 1995, March, September). Interaction Between Endogenous Human Capital and Technological Change. *University of Washington*.

3. Feenberg, A. (1991). *Transforming technology: a critical theory revisited.*

4. Forum, W. E. (30 april 2023). *The Future of Jobs.*

5. Frey and Osborne. (2013). *The Future of Employment: How Susceptible are Jobs to.* Oxford Martin School Working Paper.

6. Gleason, N. W. (2018). Singapore's Higher Education Systems in the Era of the Fourth Industrial Revolution: Preparing Lifelong Learners. *Higher Education in the Era of the Fourth Industrial Revolution*, 145-169.

7. Haldane, A. (2015). "Labour's Share". *Trades Union Congress*. London.

8. Lee, Y. J.-W. (2009). Technological Change, Human Capital Structure, and Multiple Growth Paths. *Economics Working Paper Series*, 149.

9. Schwab, K. (2016). *The Fourth Industrial Revolution: what it means, how to respond*.

10. World Economic Forum. (30 april 2023). *The Future of Jobs report.*


## LOGİSTİKA İNVESTİSİYA LAYİHƏLƏRİNDƏ MALİYYƏ TƏMİNATININ OPTİMALLAŞDIRILMASI ALƏTİ KİMİ


**Namazova Aynur Məhəmməd**

**Azərbaycan Dövlət İqtisad Universiteti**
**https://orcid.org/0000-0001-8469-3630**
**aynur.namazova@mdu.edu.az**

## LOGISTICS AS A TOOL FOR OPTIMIZING THE FINANCIAL SUPPORT IN INVESTMENT PROJECTS

**Namazova Aynur Muhammed**
**Azerbaijan State University of Economics**
**https://orcid.org/0000-0001-8469-3630**
**aynur.namazova@mdu.edu.az**

**Summary**

The level of investment activity acts as the main factor determining macroeconomic development. Solving problems related to the management of the investment process is considered one of the most important points in the activity of every enterprise. Thus, ensuring the successful operation of the enterprise and timely achievement of its strategic goals depends on the preparation and implementation of specific investment projects, which act as the final act in the implementation of the investment process. During the successful organization of this process, if there is no appropriate balancing and financial security for the implementation of existing investment projects is weak, the growth trend of investment activity, and the overall economic development rates, will decrease. At the same time, one of the reasons that hinders the growth of investment activity is the lack of appropriate sources for investment financing, or the irrational use of existing financial sources by enterprises. The flow of financial flows, balanced in terms of duration, intensity and volume, not only enables the realization of investment projects, but also guarantees the high level of effectiveness of these projects.

**Keywords:** investment project, logistics, finance, tax

## ЛОГИСТИКА КАК ИНСТРУМЕНТ ОПТИМИЗАЦИИ ФИНАНСОВОГО ОБЕСПЕЧЕНИЯ ЛОГИСТИЧЕСКИХ ИНВЕСТИЦИОННЫХ ПРОЕКТОВ

**Намазова Айнур Мухаммед**
**Азербайджанский Государственный Экономический Университет**
**https://orcid.org/0000-0001-8469-3630**
**aynur.namazova@mdu.edu.az**

**Резюме**

Уровень инвестиционной активности выступает основным фактором, определяющим макроэкономическое развитие. Решение задач, связанных с управлением инвестиционным процессом, считается одним из важнейших моментов в деятельности каждого предприятия. Таким образом, обеспечение успешной деятельности предприятия и своевременное достижение его стратегических целей зависит от подготовки и реализации конкретных инвестиционных проектов, которые выступают завершающим актом в реализации инвестиционного процесса. При успешной организации этого процесса при отсутствии соответствующего балансирования и слабости финансового обеспечения реализации существующих инвестиционных проектов тенденция роста инвестиционной активности, а также общие темпы развития экономики будут снижаться. При этом одной из причин, сдерживающих рост инвестиционной активности, является отсутствие соответствующих источников финансирования инвестиций, либо нерациональное использование предприятиями имеющихся источников финансирования. Поток финансовых потоков, сбалансированный по продолжительности, интенсивности и объему, не только позволяет реализовать инвестиционные проекты, но и гарантирует высокий уровень эффективности этих проектов.

**Ключевые слова**: инвестиционный проект, логистика, финансы, налог.

Müəssisələrdə investisiyaların aktivlik səviyyəsinin aşağı olmasının əsas səbəblərindən biri investisiya layihələrinin maliyyələşməsi üçün real və effektiv mənbənin olmaması və ya müəssisələrin mövcud maliyyə resurslarından rasional şəkildə istifadə etməməsini göstərmək olar. Məlumdur ki, müddət, intensivlik və hərəkət baxımından balanslaşdırılmış maliyyə axınının hərəkəti, həm investisiya layihələrinin reallaşması imkanlarından, eyni zamanda onların reallaşmasının iqtisadi effektindən asılıdır. Maliyyə axınları logistik baxımdan investisiya layihələrinin həyata keçirilməsində logistik idarəetmənin alt sistemi kimi çıxış edir. (İmanov T.İ. 2005)

**Vergi güzəştlərinin tətbiqi:**

İlk növbədə müəssisədə investisiya prosesinin gedişində maliyyə resurslarının optimallaşması üzrə bəzi vergi güzəştlərindən istifadəni göstərmək olar.

Güzəştli vergi ödənişinin tətbiqi nəticəsində sərbəst qalmış vəsaitlər şəxsi vəsaitlərin gizli mənbələrinin tərkibinə daxil edilir və investorlar tərəfindən bu və ya digər investisiya layihələrinin reallaşdırılması üçün nəzərdə tutulmuş müvafiq xərclərin maliyyələşdirilməsinə yönəldilir. Beləliklə, bütün investisiya layihələrini reallaşdırarkən tələb olunan maliyyə vəsaitini optimallaşdırmaq məqsədilə müəssisələr güzəştli vergilər qismində onlar üçün nəzərdə tutulan dövlətin dəstək imkanlarını da nəzərə almalıdırlar.

Daha sonra investisiya layihələrinin reallaşması zamanı maliyyə axınlarının optimallaşması üçün az istifadə olunan, lakin çox perspektivli olan digər bir vasitə kimi investisiya üçün nəzərdə tutulmuş vergi kreditlərini göstərmək olar. Vergi kreditlərinin bankdan götürülmüş kreditdən əsas fərqi odur ki, bank krediti müəyyən faiz nisbətində pul şəklində verir, vergi krediti isə vergi ödəyicisinin heç bir faiz ödəmədən müəyyən vaxtda istifadə olunmasını nəzərdə tutur. Ona görə də vergi krediti anlayışı, vergi öhdəliyinin yerinə yetirilmə müddəti dəyişdirilməklə onun uzadılmasını nəzərdə tutur. Vergi öhdəliklərinin yerinə yetirilmə müddətinin dəyişdirilməsi beynəlxalq təcrübədə qısa vergi kreditləri 2 aydan 6 ayadək və ya 3 aydan 1 ilədək, uzunmüddətli vergi kreditləri 12 aydan 5 ilədək verilir.

Vergi ödəyicisi maliyyə çətinliyi yaşayarsa, qısamüddətli vergi kreditləri, investisiya layihəsinin işlənməsi üçün isə uzunmüddətli vergi kreditləri verilir və "investisiyalı vergi krediti" kimi təsbit olunaraq investisiya layihələrində motivasiya xarakteri daşıyır. Vergi kreditləri müəyyən şərtlər daxilində vergi ödəyicisi tərəfindən verilmiş müəyyən zəmanət əsasında həyata keçirilir.

Vergi öhdəliklərinin yerinə yetirilmə vaxtının dəyişdirilməsi vergi kreditlərinin verilməsi baxımından vergi öhdəliyinə xitam verilməsi, vergi ödəyicisinin vergi öhdəliyini qanunvericilikdə qeyd edilən zamanda yerinə yetirməməsi vergi qanunvericiliyi tələblərinin pozulması sayılmır, verginin gecikdirilməsinə görə də heç bir faiz hesablanmır. Bu zaman vergi öhdəliyinin yerinə yetirilmə müddətinin daha gec olan müddətə dəyişdirilməsi nəzərdə tutulur. Vergi ödəyicisi vergi kreditlərinin verilmə şərtlərini pozduqda vergi kreditinə xitam verilir və verginin vaxtında ödənilməməsinə görə faizlərin hesablanması həyata keçirilir. (https://banker.az/vergi-krediti/)

Respublikamızda vergi kreditlərinin verilməsini tənzimləyən normalar Vergi Məcəlləsinin 85-ci maddəsi ilə tənzimlənir. Maddədə qeyd olunur ki, təbii fəlakət, digər qarşısıalınmaz vəziyyətdə, vergi ödəyicisinə zərər dəydikdə, vergini birdəfəyə ödədiyi təqdirdə, vergi ödəyicisinin iflasa uğramaq təhlükəsi olduqda halların biri olduğu zaman vergi öhdəliklərinin yerinə yetirilmə müddəti 1 aydan 9 ayadək dəyişdirilə bilər:

Qeyd olunan müddətdə vergi ödəyicisinə faiz hesablanmır və vergi öhdəliyinin yerinə yetirilməsi müddətinin uzadılması vergi öhdəliyinin yerinə yetirilməsi üçün müvafiq girovun və ya zəmanətin verildiyini özündə əks etdirən müraciət əsasında vergi ödəyicisinin yazılı şəkildə əsaslandırılmış şəkildə olduqda vergi orqanının çıxardığı qərara uyğun olaraq həyata keçirilir. (https://www.e-qanun.az/ framework/46948)

**Lizinq üsulunun tətbiqi:**

İnvestisiyaların cəlb edilməsi və investisiya layihələrinin reallaşdırılması gedişində material (mal) axınına maliyyə xidmətinin optimallaşdırılması üçün istifadə olunan daha bir effektli üsul lizinqdən istifadə etməkdir (Tağıyev A.N., 2018). Vəsaitlərin cəlb edilməsi ilə bağlı lizinq üsulunun digər üsullardan bir sıra üstünlükləri vardır. Bu üstünlüklərin ən vacibləri isə aşağıdakılardır:

1. Müəssisə lizinq verən rolunda çıxış edən investora mövcud istehsalı təşkil etmək, (genişləndirmək) və hər hansı böyük itki ilə üzləşmədən vəsaitə nəzarəti qaydaya salmaq imkanı qazanır.

2. Vəsaitlərin məhdudlaşdırılması problemi yumşaldılır. Yəni avadanlıqların alınmasına sərf edilmiş xərclər bağlanmış müqavilənin bütün müddəti üzrə bərabər bölüşdürülür. Eyni zamanda başqa aktivlərə qoymaq üçün sərbəst vəsait yaranmış olur.

3. Lizinq müqaviləsi üzrə bütün ödənişlər alınmış avadanlığın istismar üçün köklənməsindən və işə salınmasından sonra həyata keçirilir. Bununla əlaqədar avadanlığa lizinq qismində sahib olmuş müəssisə həmin avadanlıq vasitəsi ilə istehsal olunmuş məhsulun satışı nəticəsində əldə etdiyi vəsait hesabına ödəniş etmək imkanı əldə edir.

4. Lizinq şərtləri baxımından obyekti tam olaraq təhvil almaq və bütün formal prosedurları lizinq kompaniyasına həvalə etmək, bununla da mövcud imkanları və diqqəti digər məsələlərin üzərində cəmləşdirmək mümkündür.

5. Lizinq avadanlıqların tez bir şəkildə yeniləşdirilməsinə və onların mənəvi köhnəlməsi ilə bağlı riskin vaxtında aradan qaldırılmasına şərait yaradır.

6. Lizinqə verilən avadanlıq mütləq (icbari) sığorta olunur.

7. Kreditdən fərqli olaraq, lizinq investisiyanın cəlb edilməsində daha əlçatan və optimal üsul hesab olunur. Çünki o, kredit sövdələşmələri üzrə mürəkkəb güzəşt paketləri tələb etmir və lizinq obyektini bütün sənədləşdirmə başa çatdıqdan sonra müəssisənin xüsusi mülkiyyətinə çevirir.

8. Lizinq müqaviləsi kredit müqaviləsindən daha çevik olur. Kredit həmişə məhdud ödəniş müddətlərini və ödəniş ölçülərini nəzərdə tutur. Lizinqdə isə arendator öz imkanlarını gəlirlərin daxil olmasına və arendaya verənlə özü üçün uyğun olan müvafiq maliyyələşdirmə sxemi hazırlaya bilər.

9. Avadanlığın lizinq yolu ilə əldə edilməsi müəssisələrə vergi ödənişlərini optimallaşdırmaq imkanları verir.

Beləliklə, investisiya layihələrinin reallaşmasında maliyyə dəstəyi baxımından müəssisə investorlar tərəfindən vergi güzəştlərinin, investisiya vergi kreditinin, lizinqin üstün cəhətlərinin, eyni zamanda dövlət dəstəyi vasitəsilə iqtisadiyyatın real sektoruna kredit təşkilatlarının cəlbinin genişləndirilməsidir.

**Ədəbiyyat:**


1. İmanov T.İ. (2005). Logistikanın əsasları. I hissə
2. İmanov T.İ. (2005). Logistikanın əsasları. II hissə
3. Tağıyev A.N. (2018). İnnovasiya. I cild
4. https://www.e-qanun.az/framework/46948
5. https://banker.az/vergi-krediti/)


## GREEN ECONOMY AS A FACTOR OF SUSTAINABLE DEVELOPMENT


**Huseynov Isgandarbay Ilham**
**Azerbaijan State Oil and Industry University**
**https://orcid.org/0009-0001-6318-5183**
**isgandarbay@gmail.com**

# YAŞIL İQTİSADİYYAT DAVAMLI İNKİŞAF AMİLİ KİMİ

**Hüseynov İsgəndərbəy İlham**
**Azərbaycan Dövlət Neft və Sənaye Universiteti**
**https://orcid.org/0009-0001-6318-5183**
**isgandarbay@gmail.com**

**Xülasə**

"Yaşıl iqtisadiyyat" konsepsiyası sosial rifah, iqtisadi şərait və ekoloji davamlılıq problemlərini həll etmək üçün əlverişli həll yolu kimi dünya miqyasında əhəmiyyətli diqqət qazanmışdır. Daha ekoloji cəhətdən təmiz iqtisadi modelə doğru bu keçid müxtəlif amillərin, o cümlədən fiskal siyasətlərin, resursların istifadəsi və çirklənməyə nəzarətin diqqətlə nəzərdən keçirilməsini tələb edir. Bu yazı zamanla "qəhvəyi iqtisadiyyat"dan "yaşıl iqtisadiyyat"a keçid prosesini təsvir edən sadə riyazi model təqdim edir. Model iqtisadiyyat daxilində "qəhvəyi" və "yaşıl" layihələrin nisbətlərini kəmiyyətlə müəyyən edir və ikisi arasında keçid sürətini göstərir. Təhlil göstərir ki, müvafiq siyasət müdaxilələri və strateji planlaşdırma vasitəsilə iqtisadiyyatlar tədricən "yaşıl" layihələrə, çirklənmənin azaldılmasına, təbii ehtiyatların qorunmasına və davamlı inkişafın təşviqinə doğru irəliləyə bilər. Model əsas olsa da, bu cür keçidin potensial təsiri haqqında dəyərli fikirlər təqdim edir və uzunmüddətli iqtisadi və ekoloji tərəqqi üçün yaşıl təşəbbüsləri qəbul etməyin vacibliyini vurğulayır.

**Açar sözlər:** "Yaşıl iqtisadiyyat", ətraf mühit, keçid

# ЗЕЛЕНАЯ ЭКОНОМИКА КАК ФАКТОР УСТОЙЧИВОГО РАЗВИТИЯ

**Гусейнов Искандербей Ильхам**
**Азербайджанский Государственный Университет Нефти и Промышленности**
**https://orcid.org/0009-0001-6318-5183**
**isgandarbay@gmail.com**

**Резюме**

Концепция «зеленой экономики» привлекла значительное внимание во всем мире как жизнеспособное решение проблем социального благополучия, экономических условий и экологической устойчивости. Этот переход к более экологически чистой экономической модели требует тщательного рассмотрения различных факторов, включая фискальную политику, использование ресурсов и борьбу с загрязнением. В данной статье представлена простая математическая модель, иллюстрирующая процесс перехода от «коричневой экономики» к «зеленой экономике» с течением времени. Модель количественно определяет пропорции «коричневых» и «зеленых» проектов в экономике и определяет скорость перехода между ними. Анализ показывает, что с помощью соответствующих мер политики и стратегического планирования экономика может постепенно переходить к «зеленым» проектам, уменьшая загрязнение, сохраняя природные ресурсы и способствуя устойчивому развитию. Хотя эта модель является базовой, она дает ценную информацию о потенциальном воздействии такого перехода и подчеркивает важность использования экологических инициатив для долгосрочного экономического и экологического процветания.

**Ключевые слова:** «Зеленая экономика», окружающая среда, переход.

In the 21st century, humanity has faced a significant challenge, namely, the disruption of social well-being, economic conditions, and the overall ecological state [1;4]. It is now time to effectively address this problem by transitioning from the well-known traditional "brown economy" to the "green economy."

The term "green economy" was first introduced in the work "Blueprint for a Green Economy" (Pearce et al., 1989), which focused on the concept of a sustainable development economy. Subsequently, in

international documents, phrases such as "green economy," "green industry," "green markets," "green employment," and other terms with the adjective "green" started to be used. Within a broad approach to interpreting "green" growth, there is a recognition of the necessity to make practically the entire economy and all aspects of socio-economic development more environmentally friendly.

"The green economy" represents a global innovative path for the development of the world economy as a whole, aiming to bring about real improvements in the sustainable well-being of people. It is considered an integral part of or an extension to the concept of sustainable development. In other words, the idea of the green economy has become increasingly relevant in recent years and is widely discussed in the context of sustainable development and poverty eradication. The issues of sustainable development and resource efficiency are highly pertinent in today's world. The transition to a "green" economy is intended to reduce poverty and enhance the quality of life for the population. It is important to note that the concept of the "green" economy does not replace the concept of sustainable development. Achieving stable and sustainable economic development depends on the greening of the economy.

The priority objectives of the "green economy" encompass the following key directions:

1. Efficient utilization of natural resources.
2. Preservation and enhancement of natural capital.
3. Reduction of pollution.
4. Low-carbon emissions.
5. Prevention of the loss of ecosystem services and biodiversity.
6. Promotion of income growth and employment opportunities.

The role of fiscal policy in the development of the "green economy" is also crucial. Each country possesses fiscal instruments that can be employed in green tax and budget policies, such as:

- Environmental taxes (e.g., carbon emissions tax).
- Penalties for intensive pollution.
- Green subsidies to incentivize positive environmental activities, like grants and credits.
- Elimination of subsidies for environmentally harmful activities.
- Direct government expenditures (e.g., supporting research and development for eco-friendly infrastructure or clean technologies).

One example of a fiscal policy instrument widely used in various countries worldwide is the carbon tax, also known as the tax on carbon emissions (CO2 tax) [2;7]. The carbon tax is considered one of the most critical drivers of global warming and climate change, acting as a lever to reduce carbon emissions resulting from the combustion of fossil fuels such as oil, coal, and natural gas. It serves to address the shortcomings of "green" subsidies. The primary goal of the carbon tax is to prevent pollution and protect natural resources [5].

The current type of ecological and economic development in Azerbaijan can be characterized as a technogenic form of economic development. In other words, it is a resource-intensive or environmentally destructive type of development, based on the use of artificial means of production without considering ecological constraints. The existing economic model in Azerbaijan is often referred to as "brown."

Characteristics of this type of development include [8;9;10;6]:

-Rapid and exhaustive utilization of all forms of natural resources.

-Environmental pollution.

Considering the negative manifestations of traditional economic practices, the world is increasingly paying attention to "green economy" projects [3]. Several foreign countries have already developed strategies or plans for "greening" their national economies.

Azerbaijan, like many other countries, inevitably follows global trends. However, it is important to note that the inertia of the national economic system hinders an immediate transition to "green" economic projects. This transition needs to be implemented gradually. Currently, there is a certain set of "green" projects that are ready for implementation. For example, Azerbaijan has green industrial parks such as Sumgait Chemical Industry, Garadagh, Mingachevir, Pirallahi, and Balakhani.

The following principles of environmental legislation in Azerbaijan emphasize the development of a green economy:

-Mutual resolution of socio-economic, moral, and ethical issues.

-Ensuring sustainable use of natural resources.

-Preservation and protection of ecological balance.

-An ecosystem-based approach to regulating environmental conservation and the use of natural resources.

-Sanctions for environmental pollution.

-Payment for natural resource use.

-Ensuring ecological balance in territories and restoring disrupted ecological systems.

-Efficient utilization and reproduction of natural resources, employing economic incentives for nature conservation and resource use.

-Ensuring the protection of environmental biodiversity.

Here's a simple mathematical model representing the transition from a "brown economy" to a "green economy" based on the increase in green projects over time:

Let:

B(t) be the proportion of the economy represented by "brown projects" at time t.

G(t) be the proportion of the economy represented by "green projects" at time t.

Assuming that the total economy is represented by B(t) + G(t), we can describe the dynamics of the transition as follows:

The rate of change of brown projects, dB(t)/dt, is given by the decrease due to the transition to green projects:

$dB(t)/dt = -k * G(t)$

where k is a constant representing the rate of transition from brown to green projects.

The rate of change of green projects, dG(t)/dt, is given by the increase due to the transition from brown projects:

$dG(t)/dt = k * B(t)$

The total economy remains constant, so we have the constraint:

$B(t) + G(t) = 1$

Initial conditions:

At t = 0, the economy is fully "brown" (B(0) = 1) as the transition begins (G(0) = 0).

Solving these differential equations with the initial conditions will yield the time-dependent proportions of "brown" and "green" projects in the economy.

In conclusion, the concept of transitioning from a "brown economy" to a "green economy" presents a promising pathway towards achieving sustainable development and addressing pressing environmental challenges. The mathematical model outlined in this study offers a simplified representation of the transition dynamics and highlights the importance of strategic policy interventions in promoting green projects. The "green economy" emphasizes efficient resource utilization, pollution reduction, and the preservation of natural capital, ensuring a more resilient and balanced economic system.

As nations worldwide increasingly recognize the urgent need for environmental responsibility and social welfare, the adoption of green initiatives becomes paramount. While the transition may be gradual due to the inertia of existing economic systems, it is imperative that governments, businesses, and individuals work collaboratively to implement measures that foster the growth of sustainable practices. Moving forward, policymakers and stakeholders must prioritize the development and implementation of green strategies and continue to refine and expand upon the mathematical model presented here. This would enable a deeper understanding of the complexities involved and facilitate evidence-based decision-making to drive the transition to a "green economy" successfully.

Ultimately, embracing the principles of the "green economy" holds the potential to create a more resilient, equitable, and environmentally responsible society, safeguarding the well-being of present and future generations. By acknowledging the significance of this paradigm shift, nations can collectively steer the course towards a more sustainable and prosperous future.

**References:**


1."The Green Economy: Environment, Sustainable Development, and the Politics of the Future" by Robert Pollin

2."Green to Gold: How Smart Companies Use Environmental Strategy to Innovate, Create Value, and Build Competitive Advantage" by Daniel C. Esty and Andrew S. Winston

3."The Green Collar Economy: How One Solution Can Fix Our Two Biggest Problems" by Van Jones

4."The Economics of Climate Change: The Stern Review" by Nicholas Stern

5."Natural Capitalism: Creating the Next Industrial Revolution" by Paul Hawken, Amory Lovins, and L. Hunter Lovins

6."Prosperity Without Growth: Foundations for the Economy of Tomorrow" by Tim Jackson

7."The Green New Deal: Why the Fossil Fuel Civilization Will Collapse by 2028, and the Bold Economic Plan to Save Life on Earth" by Jeremy Rifkin

8."The Economics of Ecosystems and Biodiversity: Ecological and Economic Foundations" by Pushpam Kumar

9."Ecological Economics: Principles and Applications" by Herman E. Daly and Joshua Farley

10. "Sustainable Energy - Without the Hot Air" by David J.C. MacKay


## ENERJİ SEKTORUNUN ÖLKƏNİN DAYANIQLI İQTİSADİ İNKİŞAFINA TƏSİRİ


**Vəliyev Orxan Mübariz**

**Azərbaycan Dövlət İqtisad Universiteti**

**https://orcid.org/0009-0004-9323-0143**

**orxan.veliyev42@gmail.com**

# IMPACT OF THE ENERGY SECTOR ON SUSTAINABLE ECONOMIC DEVELOPMENT OF THE COUNTRY

**Valiyev Orkhan Mubariz**
**Azerbaijan State University of Economics**
https://orcid.org/0009-0004-9323-0143
orxan.veliyev42@gmail.com

**Summary**

The development of the energy sector, which is one of the main factors determining the sustainable economic development of countries in modern times, benefits the country in several directions when it is organized effectively. These can be grouped into social, economic and environmental protection. Its social character comes from the fact that it affects the employment of the population and, thus, the improvement of their well-being. Economic means the increase of the country's income due to the export of the amount of energy saved as a result of efficient use, in other words, unused, or due to its use in another way within the country. Finally, the environmental factor can be listed as environmental protection either due to alternative energy sources that lead to less waste, or due to less consumption due to effective use and waste generated as a result of less energy production.

**Key words:** alternative energy, energy efficiency, sustainable economic development

# ВЛИЯНИЕ ЭНЕРГЕТИЧЕСКОГО СЕКТОРА НА УСТОЙЧИВОЕ ЭКОНОМИЧЕСКОЕ РАЗВИТИЕ СТРАНЫ

**Валиев Орхан Мубариз**
**Азербайджанский Государственный Экономический Университет**
https://orcid.org/0009-0004-9323-0143
orxan.veliyev42@gmail.com

**Резюме**

Развитие энергетического сектора, являющегося одним из основных факторов, определяющих устойчивое экономическое развитие стран в современное время, при эффективной организации приносит пользу стране по нескольким направлениям. Их можно разделить на социальные, экономические и экологические. Его социальный характер обусловлен тем, что он влияет на занятость населения и, таким образом, на повышение его благосостояния. Под экономическим понимается увеличение дохода страны за счет экспорта количества энергии, сэкономленной в результате эффективного использования, то есть неиспользованной, или за счет ее использования иным образом внутри страны. Наконец, экологический фактор может быть указан как охрана окружающей среды либо за счет альтернативных источников энергии, которые приводят к меньшему количеству отходов, либо за счет меньшего потребления за счет эффективного использования и отходов, образующихся в результате меньшего производства энергии.

**Ключевые слова:** альтернативная энергетика, энергоэффективность, устойчивое экономическое развитие.

Ölkələrin iqtisadi inkişafının təmin edilməsində əksər hallarda istehsal sənayesi imtina edilə bilməyəcək səviyyədə xüsusi çəkiyə malikdir ki, bu da öz növbəsində sənayenin ehtiyacı olan enerji təminatının təşkil olunmasının başlıca məqsəd olaraq qarşıya çıxmasına səbəb olur. Enerji təminatının davamlı olması nəticəsində ölkənin dayanıqlı iqtisadi inkişafına müsbət təsir tempindən danışmaq mümkün olar. Enerji mənbələrinin səmərəli istismar olunması onlardan istifadə imkanını genişləndirir. Belə ki, səmərəli istifadə nəticəsində eyni miqdar enerji vahidi üzrə effektivlik şərait yaradır ki, artıq qalan enerji miqdarı ya digər istifadəçilərə çatdırılmaqla daxili enerji təminatında qənaət əldə olunsun, ya da həmin enerji miqdarının beynəlxalq enerji bazarına ixracı nəticəsində ölkənin ixrac gəlirlərinin artması ilə nəticələnsin. Enerjidən istifadənin səmərəli təşkili və enerji istehsalı infrastrukturunun inkişaf etdirildiyi ölkələrin öz

növbəsində makroiqtisadi göstəricilərinə uyğun olaraq artdığı müxtəlif empirik araşdırmalarla öyrənilmişdir (Burke et al., 2018).

**Azərbaycanda enerji sektorunun inkişafı**

**Результаты исследования** – на основе пакета программ Eviews определено, что существует средняя корреляционная зависимость между объемом инвестиций, направляемых в основной капитал в этом секторе и производством продукции легкой промышленности. Однако, несмотря на умеренную корреляционную зависимость, инвестиции, направленные в основной капитал легкой промышленности, существенно увеличивают объем производства.

**Ключевые слова:** легкая промышленность, инвестиции, регрессия, модель, коэффициент.

Dünya iqtisadiyyatının qloballaşması şəraitində əhalinin yüngül sənaye məhsullarına tələbatı daim artır. Bu artım toxuculuq sənayesi, geyim, dəri məmulatları, ayaqqabı istehsalı üzrə hazır məhsul və yarımfabrikatlara tələbatın artmasını şərtləndirir. Bütün bunlar, yüngül sənaye sahəsi üzrə məhsul çeşidinin və keyfiyyətinin innovativ texnologiyaların tətbiqi ilə artırılmasını, istehsalın optimal idarə edilməsi hesabına səmərəliliyin artırılmasını tələb edir. Bazar iqtisadiyyatı şəraitində müəssisənin səmərəliliyinin daxili və xarici amilləri sistemində qarşılıqlı əlaqələrin inkişafı sənaye kooperasiyasının yeni formalarının yaranmasına kömək edir (Nuriyev, 2013). Təcrübələr göstərir ki, istehsalda daxili amillərin 85%-i istehsala, 15%-i isə xarici amillərə təsir göstərir (Алимов, 2010). Bu amillər birlikdə ayrılmaz bir sistem təşkil etsə də, xarici amillər daxili amillərin səmərəlilik səviyyəsinə təsirini ya gücləndirə, ya da zəiflədə bilər (Алимов, 2010)

### 1. Azərbaycanda yüngül sənaye müəssisələrinin inkişaf səviyyəsinin təhlili

Dünya əhalisinin sayının artımı, əhalinin yaşayış şəraitinin və alıcılıq qabiliyyətinin yüksəlməsi, yüngül sənaye məhsullarına olan tələbatı daha da artırır. Tədqiqatlar göstərir ki, inkişaf etməkdə olan ölkələr üzrə strateji əhəmiyyət kəsb edən yüngül sənayedə geyim məhsullarının ixracı 2022-ci ildə 65-70% təşkil etməklə digər yüngül sənaye məhsullarının ixracını üstələmişdir. Azərbaycanda isə yüngül sənaye məhsullarının istehsalının ümumi sənayedə payı 2022-ci ildə 21% olmuşdur. Emal sənayesi üzrə istehsal edilmiş məhsulların dəyərinin ümumilikdə sənaye məhsullarında payı 1990-2022-ci illərdə azalan dinamika ilə inkişaf edərək 2022-ci il üzrə 21% olmuşdur ki, bu da 1990-cı illə müqayisədə 4,3 dəfə aşağıdır. Yüngül sənaye məhsullarının emal sənayesində payı isə 2022-ci il üzrə 1990-ci illə müqayisədə 6,82 dəfə azalaraq 3,18% olmuşdur. Həmin dövrdə toxuculuq sənayesinin yüngül sənayedə payı 2,1%, geyim istehsalının payı 0,9 %, dəri və dəri məmulatları, ayaqqabı istehsalının payı isə 0,1% təşkil etmişdir ki, bu da ölkəmizdə əhalinin yüngül sənaye məhsullarına olan tələbatının əhəmiyyətli hissəsinin (90%-dən çoxunun) idxal hesabına tənzimlənməsinə səbəb olmuşdur. Aşağıdakı qrafikdən bunları daha aydın görmək olar.




**Qrafik 1.1. Azərbaycan Respublikasında emal sənayesinin ümumi sənayedə və yüngül sənayenin emal sənayesində payı**
**Mənbə: https://www.stat.gov.az/source/industry/**

Statistik mənbələrə əsasən, Azərbaycanda toxuculuq, geyim, dəri, ayqqabı istehsalının aşağı səviyyədə olması əsas fondların köhnəlmə dərəcəsinin yüksək olması, innovativ texnologiyaların zəifliyi, ölkəmizin geniş xammal potensialından səmərəli istifadə edilməməsi, xammala olan tələbatın daha çox hissəsinin idxal hesabına təmin edilməsi ilə bağlıdır (Əzizova, 2012). Bu problemlərin həlli üçün yüngül sənaye sahələrinə yönəldilən investisiyaların və innovasiya xərclərinin həcminin artması mühüm əhəmiyyət kəsb edir. Aşağıdakı qrafikdə Azərbaycanda toxuculuq, geyim, dəri məmulatları və ayaqqabı istehsalı üzrə yüngül sənaye sahələrində əsas kapitala yönəldilmiş investisiyaların emal sənayesində payı göstərilmişdir.




**Qrafik 1.2. Azərbaycan Respublikasında əsas kapitala yönəldilən investisiyalar üzrə emal sənayesinin ümumi sənayedə və yüngül sənayenin emal sənayesində payı, %-lə**
**Mənbə: https://www.stat.gov.az/source/industry/**

Qrafikdən göründüyü kimi, Azərbaycan Respublikasında əsas kapitala yönəldilən investisiyalar üzrə emal sənayesinin ümumi sənayedə payı 2005-2022-ci illər üzrə 2,8%-28,8% intervalında dəyişmişdir. 2019-cu ildə emal sənayesində əsas kapitala yönəldilən investisiya məbləği 9258 milyon manat olmuşdur ki, bu da ümumilikdə sənayeyə yönəldilən investisiyaların 28,8%-i deməkdir. 2022-ci ildə isə bu göstərici həmin dövrlə müqayisədə 2085,9 milyon manat azalaraq 16,8% təşkil etmişdir. Tədqiq olunan dövr üzrə yüngül sənaye sahələrində əsas kapitala yönəldilən investisiyaların emal sənayesində payı isə 0,7%-10,5% intervalında dəyişmişdir. Sənayenin digər sahələrindən fərqli olaraq, bu sahəyə yönələn investisiyalar yalnız daxili investisiyalar olmuşdur.

## 2. Əsas kapitala yönəldilən investisiyaların yüngül sənayenin inkişafına təsirinin Eviews-12 proqram paketində qiymətləndirilməsi

Emal sənayesinin müəssisələrinin dayanıqlı inkişafı digər sənaye sahələri kimi onların şəhər yaradan olması ilə yanaşı, əhalinin işlə təmin edilməsində mühüm rol oynayaraq sosial əhəmiyyət kəsb edir (Susan Schadler, 2019). Torpaqlarımızın işğaldan azad edilməsi hesabına artıq yüngül sənaye müəssisələrinin fəaliyyətinin səmərəliliyinin yüksəldilməsində mühüm rol oynayan xammal təchizatı üçün münbit şərait yaradılmaqdadır. Yüngül sənaye məhsullarının istehsalı məqsədi ilə geniş potensiala malik olan respublikamızda bu sektorun dayanıqlı və davamlı inkişafına bilavasitə gələcəkdə investisiya qoyuluşunun həcminin artması yerli istehsalın həcmin artmasına müsbət təsir göstərəcəkdir. Azərbaycanda yüngül sənaye üzrə istehsal edilmiş məhsulların faktiki qiymətlərlə dəyəri və əsas kapitala yönəldilən investisiyaların həcminin 2005-2022-ci illəri əhatə edən dövr üzrə statistik məlumatlarından istifadə etməklə, Eviews-12 proqram paketində qiymətləndirmə aparsaq aşağıdakı reqressiya matrisini alarıq.

**Cədvəl 2.1. Azərbaycanda yüngül sənaye üzrə istehsal edilmiş məhsulların dəyəri ilə bu sektorda əsas kapitala yönəldilən investisiyalar arasındakı reqressiya analizinin matrisi**

| | | | | |
|---|---|---|---|---|
| Dependent Variable: Y | | | | |
| Method: Least Squares | | | | |
| Date: 08/23/23 Time: 13:52 | | | | |
| Sample: 2005 -2022 | | | | |
| Included observations: 18 | | | | |
| Variable | Coefficient | Std. Error | t-Statistic | Prob. |
| X | 4.436213 | 1.030395 | 4.305354 | 0.0005 |
| C | 87.20488 | 41.10945 | 2.121286 | 0.0499 |
| R-squared | 0.536716 | Mean dependent var | | 216.5944 |
| Adjusted R-squared | 0.507761 | S.D. dependent var | | 169.6206 |
| S.E. of regression | 119.0054 | Akaike info criterion | | 12.50065 |
| Sum squared resid | 226596.4 | Schwarz criterion | | 12.59958 |
| Log likelihood | -110.5059 | Hannan-Quinn criter. | | 12.51429 |
| F-statistic | 18.53607 | Durbin-Watson stat | | 1.238934 |
| Prob(F-statistic) | 0.000545 | | | |

**Mənbə: Eviews-12 proqram paketində müəllif tərəfindən tərtib edilib.**

Azərbaycanda yüngül sənaye üzrə istehsal edilmiş məhsulların dəyəri ilə əsas kapitala yönəldilən investisiyalar arasındakı reqressiya tənliyi Eviews-12 proqram paketinə əsasən aşağıdakı kimi olacaqdır:

$$Y=4{,}4362*x+87{,}20488 \quad (1)$$
$$(t) \qquad (4{,}31) \qquad\qquad (2{,}12)$$
$$R2=0{,}508,\ DW=1{,}839$$

Cədvəl 2.1-dən göründüyü kimi, xətti reqressiya tənliyində izahedici dəyişənin və sərbəst həddin əmsalı onların standart xətasından əhəmiyyətli dərəcədə böyükdür. Bu isə modelə daxil olan amillərin statistik əhəmiyyətli olması deməkdir. Eviews-12 proqram paketində histoqram normallıq testi ilə qalıqların paylanmasını yoxlasaq aşağıdakı nəticəni alarıq:




**Qrafik 2.1.Qalıqların normal paylanması üzrə histoqram normallıq testi**
**Mənbə: (4) məlumatları əsasında müəllif tərəfindən tərtib edilib.**

Qalıqların normal paylanması üzrə histoqram normallıq testinə gör 95%-lik inamlı interval üzrə ehtimal 0,005-dən böyükdür. Yəni, 0,343>0,05 olduğundan mövcud model üzrə qalıqların normal paylanması histoqram normallıq testinə görə təsdiq edilir. 95%-li inamlı intervalla Fişer paylanmasına görə $F_{cədvəl}$=(a; m; n-m-1)=F(0,005;1;16)=4,49 olduğundan, F-Fişer kriteriyası=18,54 > $F_{cədvəl}$=4,49 olacaqdır ki, bu da xətti reqressiya tənliyinin statistik əhəmiyyətli olması deməkdir (Yadigarov, 2019). Darbon-Uotson statistikası üzrə böhran nöqtələri $d_l$=1,158≤DW=1,239<$d_u$=1,391 $4 - d_u \leq \mathbf{DW} < 4 - d_l$ şərtini ödədiyindən, avtokorrelyasiyanın mövcudluğu haqqında nəticə təyin edilməmişdir (Yadigarov, 2019). Bu isə reqressiya tənliyinin ümumən statistik əhəmiyyətli olmasını göstərir.

Model statistik əhəmiyyətli olduğundan, elastiklik əmsalını hesablamaqla aşağıdakı nəticəni alarıq: E=α∗x−y−=29,16667∗4,4362216,5944=0,59738

Tədqiqat nəticəsində müəyyən edilmişdir ki, Azərbaycan Respublikasında yüngül sənaye müəssisələrində əsas kapitala yönəldilən investisiyaların 1% artması, bu sahə üzrə istehsal edilmiş məhsulların həcminin 0,597% artmasına səbəb olur.

**Ədəbiyyat:**

1. Алимов, В.В. (2010) Влияние государственной инвестиционной политики на формирования инвестиционного климата страны// Бизнес в законе, 3(12), 247-249

2. Əzizova, G.A. Dövlətin investisiya və innovasiya siyasəti. Bakı, İqtisadiyyat Universitetinin Nəşriyyatı, 2012, 212 s.

3. Nuriyev, Ə.X. Azərbaycanda iqtisadi inkişaf və modernləşmə siyasətinin konseptual əsasları. Bakı, Avropa, 2013, 422 s.

4. Yadigarov, T.A. Əməliyyatlar tədqiqi və ekonometrik məsələlərin MS Excel və Eviews proqram paketlərində həlli: nəzəriyyə və praktika. Bakı, 2019, 352 s.

5. Susan Schadler, Leslie Lipschitz. (2019), Macroeconomics for Professionals, UK, Cambridge University Press, 278 p.

6. https://www.stat.gov.az/source/industry/

# TİCARƏTİN İNKİŞAFINDA NƏQLİYYAT-LOGİSTİKA XƏRCLƏRİNİN ROLU

**Bayramlı Aynurə Nemət**
**Azərbaycan Dövlət İqtisad Universiteti**
**https://orcid.org/009-0002-7522-4968**

aynura.bayramli99@gmail.com

## THE ROLE OF TRANSPORT AND LOGISTICS COSTS IN THE DEVELOPMENT OF TRADE

**Bayramli Aynura Nemat**
**Azerbaijan State University of Economics**
**https://orcid.org/009-0002-7522-4968**
**aynura.bayramli99@gmail.com**

**Summary**

The research work provides information about logistics infrastructure and costs as an important factor that directly affects the development of foreign trade and the process of attracting foreign investments, as well as the impact of the effective construction of the transport-logistics sector, trends in this field and the theoretical basis of the current situation. In this regard, stimulating factors in the relationship between foreign trade activity and the transport-logistics sector, as well as the relationship between the dynamics of the volume of trade turnover and income from the transport sector, were considered and relevant statistical data obtained for our country were analyzed. The results of the analyzed data related to the country's foreign trade turnover and transport-logistics sector were summarized, and the author's comment and conclusion were given at the end.

**Keywords:** Foreign trade, logistics efficiency, transport-logistics, trade stimulation

## РОЛЬ ТРАНСПОРТНО-ЛОГИСТИЧЕСКИХ ИЗДЕРЖЕК В РАЗВИТИИ ТОРГОВЛИ

**Байрамлы Айнура Немет**
**Азербайджанский Государственный Экономический Университет**
**https://orcid.org/009-0002-7522-4968**
**aynura.bayramli99@gmail.com**

**Резюме**

В исследовательской работе представлена информация о логистической инфраструктуре и затратах как важном факторе, непосредственно влияющем на развитие внешней торговли и процесс привлечения иностранных инвестиций, а также о влиянии эффективного построения транспортно-логистической отрасли, тенденциях в этой сфере и теоретические основы текущей ситуации. В связи с этим были рассмотрены стимулирующие факторы взаимосвязи внешнеторговой деятельности и транспортно-логистической сферы, а также взаимосвязь между динамикой объема товарооборота и доходов от транспортной сферы и получены соответствующие статистические данные для нашей стране были проанализированы. Подведены итоги проанализированных данных по внешнеторговому обороту страны и транспортно-логистическому сектору, а в конце даны авторский комментарий и заключение.

**Ключевые слова:** Внешняя торговля, эффективность логистики, транспортно-логистическая деятельность, стимулирование торговли.

Araşdırmanın obyekti olan xarici ticarət mühitinin səmərəli təşkili və nəqliyyat logistik xərclərin təsir faktoru kimi əlaqəsinin öyrənilməsində nəzəri təhlil, statistik analiz, müqayisə, induksiya, reqressiv analiz və digər tədqiqat metodlarından istifadə edilərək həmçinin tədqiqatın predmetinin tərkibi araşdırılmışdır.

İqtisadi sahələrin inkişafının təmin olunma səviyyəsi və iqtisadi artımın dəstəklənməsi, o cümlədən bazarın həcminin genişləndirilməsi ölkənin ticarət dövriyyəsinin effektiv şəkildə qurulmasından və inkişafından asılıdır. Bu proses eyni zamanda ölkənin investisiya cəlbediciliyini artıraraq daha çox kapital axınına səbəb olur. Xarici ticarət və xarici investisiyalar həm bir-birlərinə alternativ, həm də bir birinə rəqib olmaqdan daha çox bir-birini tamamlayan ünsürlər hesab olunur.

Nəzəri cəhətdən ticarətin asanlaşdırılması dərəcəsi ilə xarici birbaşa investisiyaların səviyyəsi arasında əlaqə mövcuddur. Bu nəzəriyyəyə görə istər real sektor, istərsə də xidmət sektoru olsun, müəssisələr istehsal etdikləri mal və xidmətlərə minimum xərclə ehtiyac duyduqları xammal, əmək, texnologiya, infrastruktur kimi istehsal amillərindən istifadə etmək məqsədində olurlar. Digər tərəfdən, maksimum gəlir ilə istehsal etdikləri mal və xidmətləri təklif edə biləcək yerlərdə fəaliyyət göstərmək istəyirlər (Neary, 2008). Bu baxımdan ticarət xərcləri bir ölkənin investisiya qoyuluşlarının bölüşdürülməsinə dair həlledici amil ola bilər. Müxtəlif istehsal mənbələri arasında aralıq və son məhsulların səmərəli şəkildə ötürülməsi vacib olduğundan, ticarət xərcləri xarici investisiya axınlarının artırılmasına təsir göstərməkdədir. İqtisadçı Bruce A. Blonigenin fikrincə, investisiya qəbul edən ölkə istehsal xətlərindəki istehsalçılarla yaxşı ticarət əlaqələri olan bölgələrdədirsə, xarici investisiya qoyuluşlarını artıran dayaqlar yaradıla bilər. Bu prosesdə ticarət xərclərinə daxil olan bir çox amillərdə müqayisəli üstünlüyün yaradılması və bununla investisiyaların cəlb edilməsi ölkələrin əsas məqsədlərindəndir (Blonigen, 2005). Bu növ xərclərə daşıma, saxlama, yükləmə, boşaltma və digər logistik xərclər, eləcə də sərhədkeçmə zamanı rəsmiləşmə ilə bağlı yaranan gömrük xərcləri də daxildir. Helpmanın şaquli FDI nəzəriyyəsi, transmilli firmanın müxtəlif mərhələlərdə xaricdə daha ucuz istehsal amillərindən faydalanmaq istəyinin və istehsal fəaliyyətlərinin bir çox ölkələrə yayılma meyillərinin olmasını nəzərdə tutur. Bunun səbəbi, daha səmərəli istehsalın əldə edilməsi üçün bir çox giriş faktoru təsirlərinin mövcud olması və müxtəlif bölgələrin müqayisəli üstünlükləri ilə seçilməsidir (Helpman, 1984). Bundan başqa bir investor firma və ya ölkə, ixracla üçüncü bir bazara xidmət etmək üçün müəyyən faydalı bir çıxış əldə edərək müqayisəli üstünlüyə sahib ola bilər, buna görə üçüncü bazarların, ümumiyyətlə qonşu bölgələrin ölçüsü də vacib amil kimi qiymətləndirilir. Bu baxımdan investisiya qoyuluşlarına təsir edən önəmli amil kimi logistik infrastruktur və xərcləri aid edə bilərik. Ölkənin logistika infrastrukturuna avtomobil yolları, dəmir yolları, hava və su yollarının nəqliyyat şəbəkəsi və s. daxildir. Nəqliyyat infrastrukturu, xüsusən də yolların və limanların keyfiyyəti ixrac və idxala təsir edən ən mühüm amildir. Dövlət orqanları bu makroiqtisadi logistika sistemlərinə həlledici təsir göstərir və onların logistik infrastrukturunun keyfiyyətindən asılı olan şirkətlərin uğuruna töhfə verirlər. Xüsusilə bütün sərhəd tənzimləmə qurumları, xüsusən gömrük idarələri üçün prioritet məsələ ticarətin asanlaşdırılması üçün səyləri artırmaq, xərclərin azaldılmasını və bunlar arasında balansı təmin etməkdir.

Logistika geniş mənada istehsal materiallarının, eləcə də hazır məhsulların istehsalçıdan istehlakçıya daşınması, saxlanması və idarə edilməsi üçün tələb olunan fəaliyyətlər çeşidi kimi müəyyən edilə bilər. Logistika sistemləri ticarət ilə sıx bağlıdır və ölkələrin rəqabət qabiliyyətinin müəyyən edilməsində getdikcə daha çox əhəmiyyət kəsb edir. Bir çox malların ixracatçıları tərəfindən həmin malların idxal bazarındakı istehlakçılara səmərəli, sərfəli və vaxtında çatdırılması logistik xidmətlərdən asılıdır (Nordas, Pinali, Grosso 2016).

Dünya ticarətinin artması həm də nəqliyyat texnologiyalarında tərəqqi tələb edir və keyfiyyətli logistika sistemlərinin qurulması da həmçinin investisiyaların bu sahəyə səmərəli qoyuluşunu tələb edir. Malların daşınması coğrafi baxımdan böyük məsafələri qət etməyə və sərhədləri keçməyə imkan verdiyindən, digər tərəfdən inkişaf edən nəqliyyat infrastrukturu ölkəyə xarici investorların cəlbində həlledici amil rolunu oynaya bilər. Bu baxımdan ölkənin səmərəli ticarət qabiliyyətini müəyyən edən bir sıra amillər var. Bu mürəkkəb, lakin bir-birindən asılı amillərdən üçü bunlardır:

I Ticarətlə əlaqəli infrastrukturun keyfiyyəti (limanlar, yollar, dəmir yolu şəbəkələri və İKT);

II Ticarətlə bağlı sərhəd prosedurları;

III Malların hərəkətinə cavabdeh olan özəl sektor xidmətlərinin keyfiyyəti (logistika xidmətləri).

Logistika təchizat zəncirinin rəqabətli və ardıcıl yenidən qurulması əslində ticarətin asanlaşdırılması islahatlarının cari miqyasını genişləndirir və buna görə nəqliyyat infrastruktrunun inkişafına investisiya qoyuluşlarının həyata keçirilməsi zəruri əhəmiyyət kəsb edir (Gantman & Dabós). İlkin mərhələdə dövlət tərəfindən həyata keçirilən proses ölkəyə investorların cəlb edilməsinə səbəb olur, bu da həm nəqliyyat, həm də digər sektorlarda inkişafın əsas amilidir. Buna görə xarici investisiyaların cəlb edilməsində səmərəli logistika sistemi iqtisadiyyatın təməl daşıdır.

Logistika və ticarət bütün sahələrin inkişafında və əlavə dəyər, yeni iş yerlərinin yaradılmasında və gəlirliliyin artırılmasında mühüm rol oynayır. Azərbaycanın coğrafi və logistik mövqeyi ticarətin həcmini müntəzəm olaraq artırmağa imkan verir. Azərbaycanın Asiya və Avropa sərhədində yerləşməsi ona ticarət və nəqliyyat qovşağı kimi xüsusi üstünlük verir. Bu rəqabət üstünlüyündən yararlanmaq üçün, əlverişli coğrafi mövqedən güclü gəmiçilik və logistika imkanlarını, eləcə də ticarət logistikasına əsaslanan sahələri inkişaf etdirmək üçün istifadə edilə bilər. Ölkənin tranzit daşıma vasitələri Asiya və Avropa arasında yük daşımaq, logistik mərkəzlər isə həm Asiya, həm də Avropa istehsal şəbəkələrini dəstəkləmək imkanına sahibdir. Bu proses logistik infrastrukturun formalaşdırılması, transsərhəd transferlərin əlaqələndirilməsi, ümumi qanunvericilik bazasının yaradılması, üçüncü dövlətlərlə daşımalarda rəqabətədavamlı tariflər ilə sintezdə nəqliyyat sisteminin inkişafını zəruri edir.

Ölkəmizin əlverişli coğrafi mövqeyi, Şərq-Qərb və Şimal-Cənub ticarət yolları üzərində yerləşməsi və müxtəlif növ nəqliyyat infrastrukturunun inkişaf etməsi daşınma xərclərinin azaldılmasına şərait yaradır. Ölkə dünyanın 50% istehlakçısını əhatə edən 50 ölkəyə 4 saatlıq uçuş məsafəsində yerləşir. Bu səbəbdən nəqliyyat sektorundan əldə olunan gəlirlərin artırılması prioritet istiqamətlərdəndir. Bu gəlirlərə təsir edən müxtəlif faktorlar var ki, bunlardan bir neçəsinin analizi onların gəlirlərə nə qədər təsir etdiyini anlamağa kömək edir (Laurila və Singh, 2001).

**Şəkil 1. Analiz nəticələri**

SUMMARY OUTPUT

| Regression Statistics | |
|---|---|
| Multiple R | 0,88126877 |
| R Square | 0,776634645 |
| Adjusted R Square | 0,677361154 |
| Standard Error | 935305,7101 |
| Observations | 24 |

ANOVA

| | df | SS | MS | F | Significance F |
|---|---|---|---|---|---|
| Regression | 4 | 2,73748E+13 | 6,84E+12 | 7,823183 | 0,005287945 |
| Residual | 9 | 7,87317E+12 | 8,75E+11 | | |
| Total | 13 | 3,5248E+13 | | | |

| | Coefficients | Standard Error | t Stat | P-value | Lower 95% | Upper 95% | Lower 95,0% | Upper 95,0% |
|---|---|---|---|---|---|---|---|---|
| Intercept | 1008179,651 | 1351647,321 | 0,74589 | 0,004748 | 2049459,018 | 4065818,32 | 2049459,018 | 4065818,32 |
| Nəqliyyat sektoruna yönəldilmiş investisiyalar | 391,8517829 | 404,4596577 | 0,968828 | 0,003579 | 1306,803095 | 523,0995289 | 1306,803095 | 523,0995289 |
| idxal | 518,931635 | 176,9504448 | 2,932638 | 0,001669 | 118,6419188 | 919,2213513 | 118,6419188 | 919,2213513 |
| ixrac | 44,47964475 | 27,82349026 | 1,598636 | 0,001444 | 107,4207525 | 18,46146304 | 107,4207525 | 18,46146304 |
| Gömrük büdcə daxilolmaları | 1,155147955 | 0,927743905 | 1,245115 | 0,002445 | 0,943554564 | 3,253850475 | 0,943554564 | 3,253850475 |

*Nəqliyyatdan əldə olunan gəlirlər=1008179,65+ α1*391,8+α2*518,93+α3*44,47+ α4*1,15*

Determinasiya əmsalı R - kvadratı =77 olmağı onu bildirir ki, approksimasiya yüksəkdir. Bu nəticəyə gəlmək olar ki, müvafiq reqressiya tənliyi 89%-i dispersiya göstəriciləri ilə, 23%-i isə digər faktorların təsiri ilə izah edilir. Determinasiya əmsalının yüksək olması reqressiya tənliyinin ilk daxil edilənləri daha yaxşı

ifadə etməsi və nəticə amilinin 77%-nin modelə daxil olan amillər hesabına izah edilməsi ilə bağlı olduğunu müəyyən edir. Significance F~0,0005 olduğundan, $p < 0,05$ şərtinə görə reqressiya modelimiz qiymətlidir. F-Fişer kriteriyasının köməkliyi ilə bütünlükdə çoxluq reqressiya tənliyinin statistik əhəmiyyətliliyini yoxlamaq olar.

Sərbəst dəyişənlərin ayrı-ayrılıqda və ümumilikdə modelə necə təsir etdiyini müəyyənləşdirmək üçün T və F statistikadan istifadə edilir. F-statistika ümumilikdə sərbəst dəyişənin modelə nə qədər təsir etdiyini müəyyənləşdirir. Bu modeldə F-statistika 7,23-ə bərabərdir. Təhlildən alınan P dəyərlərini qiymətləndirsək 0.005-dən aşağı olduğu müşahidə olunur. Bu, dəyişənlərin əhəmiyyətli olduğunu və asılı dəyişənə kifayət qədər təsir etdiyini göstərir. Durbin-Vatson testini yoxlayaq: $dl = 0.203 < DW = 1,22 < du = 3.06$ olduğundan qalıqların avtokorrelyasiyası müsbətdir. Bu isə o deməkdir ki, reqressiya tənliyi bütövlükdə statistik əhəmiyyətlidir. Sərbəst dəyişənlərdə baş verən bir faizlik dəyişmənin asılı dəyişənə necə təsir etdiyini müəyyən etmək üçün elastiklik əmsalları hesablanmalıdır.

**Şəkil 2. Korrelyasiya analiz nəticələri**

| | *Nəqliyyat sektoruna yönəldilmiş investisiyalar* | *idxal* | *ixrac* | *Gömrük büdcə daxilolmaları* | *Nəqliyyat sektorunda daşınmalardan əldə olunan gəlir* |
|---|---|---|---|---|---|
| Nəqliyyat sektoruna yönəldilmiş investisiyalar | 1 | | | | |
| İdxal | 0,417239588 | 1 | | | |
| İxrac | 0,39015968 | 0,037982 | 1 | | |
| Gömrük büdcə daxilolmaları | 0,478806799 | 0,608854 | 0,140494 | 1 | |
| Nəqliyyat sektorunda daşınmalardan əldə olunan gəlir | 0,397650657 | 0,774196 | 0,257941 | 0,72567732 | 1 |

Korrelyasiya sıxlığının çox olması vacibdir. Əgər bu əlaqə sıxlığı zəifdirsə, deməli modelin adekvatlığı zəifdir. X dəyişənlər əmsalında 0,1; 0,001; 0,02; 0,2 alınsaydı, deməli X (səbəb) amili, Y (nəticə amilinə) zəif təsir edir. Təsir dairəsi zəif olan amil heç bir rol oynamır. Bizdə isə bu göstərici X1 üçün 0,41 X2 üçün isə 0,39 X3 0,47 X4 0,40 alınıb. Hər biri ilə əhəmiyyətli müsbət əlaqə mövcuddur (Yadigarov, 2019).

Müxtəlif aspektlərdən aparılan araşdırmaya əsasən ölkənin qlobal dəyər zəncirində açar rolu oynaması üçün həm lokal, həm də beynəlxalq infrastruktur layihələrinə investisiya etməsi zəruridir. Xarici ticarət fəaliyyəti iştirakçıları üçün əlverişli infrastrukturun qurulması üçün yalnız dövlət sektoru deyil, eləcə də özəl sektorun iştirakının təşviq edilməsi vacibdir. Bu istiqamətdə sərhəd keçid vaxt və xərclərinin ölçülməsində istifadə olunan indikatorların daimi inkişaf etdirilməsi prioritet məsələlərdəndir. Dəyər zəncirinin hər bir mərhələsində vaxt və xərclərin minimallaşdırılması işi sərhədkeçmə prosesində xüsusi əhəmiyyət qazanır. Bu səbəbdəndir ki, ölkələr davamlı olaraq yeni texnologiyalar tətbiq etmək, infrastruktur təkmilləşdirmələri, bu prosesdə iştirak edən qurumlarda islahatlar apararaq vaxt və xərclərin minimallaşdırılmasına çalışırlar.

Ümumilikdə, Azərbaycanın Milli İnkişaf Strategiyasında müəyyən edilmiş prioritet sektorlarda xarici investisiyalarla əlaqəli ara malların və xidmətlərin idxalı və ixracı ilə bağlı xərclərin azaldılmasına yönəlmiş tədbirlər kimi koordinasiyalı ticarət və investisiya siyasətinin həyata keçirilməsi çox əhəmiyyətlidir və bu əldə olunan nəticə siyasətə əlavə dəstək verir. Tədqiqatın təhlili zamanı istifadə olunan müxtəlif məlumat nümunələri və qiymətləndirmə metodlarında xarici investisiyalar ilə logistik xərclər arasında güclü əlaqənin olduğu aşkar edilmişdir. Deyilə bilər ki, bu səbəbdən də ticarətin asanlaşdırılması ilə bağlı davamlı tədbirlərin görülməsi, ölkənin Sərhəddə Ticarət indikatoru üzrə mövqeyinin yaxşılaşdırılması investisiyaların ölkəyə cəlb edilməsinin önəmli şərtlərindəndir.

**Ədəbiyyat:**

1.Bernard, Andrew B., J. Bradford Jensen, and Peter K. Schott. (2005) Importers, Exporters and Multinationals: A Portrait of the Firms in the U.S. that Trade Goods. NBER Working Paper No. 11404, səh 11-20.

2.Bruce A. Blonigen (2015), Foreign Direct Investment Draft prepared for *The New Palgrave: A Dictionary of Economics* University of Oregon and NBER Department of Economics 1285 University of Oregon Eugene, səh.1-9.

3.Grainger, A. (2008). Customs and trade facilitation: from concepts to implementation. World customs journal, 2(1), səh.17-30.

4.Hildegunn K. Nordas, Enrico Pinali, Massimo Geloso Grosso (2016), Logistics and Time as a Trade Barrier, səh 32-48.

5.J.Laurila və R.Singh (2001), Sequential Reform Strategy: The Case of Azerbaijan, Russian & East European Finance and Trade journal, Vol. 37, səh. 25-76.

4.Neary, P.J. (2008), Trade Costs and Foreign Direct Investment. International Review of Economics and Finance No.18(2009) səh. 207-218.

6.R.Ibrahimov (2016), The Development of the Transport Sector in Azerbaijan: The Implementation and Challenges, Hankuk University of Foreign Studies, səh.101-115.

7.R.Gantman & Marcelo P. Dabós (2017), International trade and factor productivity as determinants of the real effective exchange rate, səh.331-334.

8.Yadigarov T. (2019) Əməliyyatlar tədqiqi və ekonometrik məsələlərin MS Excel və Eviews proqram paketlərində həlli: nəzəriyyə və praktika; səh.128-149.

9.Y. Duval və C.Utoktham (2014), Impact of Trade Facilitation on Foreign Direct Investment, səhifə 85-96.

## MÜHARİBƏNİN "ZƏKA AXINI"NA TƏSİRİ: RUSİYA NÜMUNƏSİ

**Əzimzadə Əliağa Bayram**
**Qərbi Kaspi Universiteti**

https://orcid.org/0000-0001-5071-2418
aliagha.azimzada@gmail.com

# THE EFFECT OF WAR ON THE "BRAIN DRAIN": THE EXAMPLE OF RUSSIA

**Azimzade Aliaga Bayram**
**Western Caspian University**
https://orcid.org/0000-0001-5071-2418
aliagha.azimzada@gmail.com

**Summary**

The term "brain drain" refers to the process of migration of a country's most valuable human resource, especially talented and educated people, to other countries for permanent residence, which occurred in the 20th century. This process poses a serious security risk to any source country. Because the loss of "intelligence" is not only a blow to the current personnel potential of a country, but also calls into question its future development. "Brain drain" has a number of social, economic and political reasons. In the thesis, the cause of the "brain drain" was even considered as an exacerbating factor. Although the material and human losses caused by the war in the country are reflected in a number of reports, alternative losses such as the "brain drain" are often overlooked. In particular, the citizens who left the territory of the intervening state against the background of the process of turning the citizens of the war-torn country into refugees are left out of attention. In the thesis, the history of the "brain drain" of Russia was briefly reviewed, and the facts showed that the migration process, accelerated by the collapse of the USSR, reached a critical level with Russia's intervention in Ukraine and the declaration of mobilization in the country. During the war, the "brain drain" is mainly caused by avoiding mobilization and active combat operations, restriction of democracy and the environment of freedom of thought due to the martial law, intolerance of anti-war critical opinions by the authorities, leaving the country in protest of the state's war policy. Regardless of the cause, this is a loss that is very difficult for any country to recover from.

**Keywords:** "brain drain", war, Russia

# ВЛИЯНИЕ ВОЙНЫ НА «УТЕЧКУ МОЗГОВ»: ПРИМЕР РОССИИ

**Азимзаде Алиага Байрам**
**Западно-Каспийский Университет**
https://orcid.org/0000-0001-5071-2418
aliagha.azimzada@gmail.com

**Резюме**

Под термином «утечка мозгов» понимается процесс миграции наиболее ценного человеческого ресурса страны, особенно талантливых и образованных людей, в другие страны на постоянное место жительства, произошедший в XX веке. Этот процесс представляет серьезную угрозу безопасности для любой страны происхождения. Потому что потеря «интеллекта» — это не только удар по нынешнему кадровому потенциалу страны, но и ставит под вопрос ее дальнейшее развитие. «Утечка мозгов» имеет ряд социальных, экономических и политических причин. В статье причина «утечка мозгов» рассматривалась даже как обостряющий фактор. Хотя материальные и человеческие потери, вызванные войной в стране, отражены в ряде отчетов, альтернативные потери, такие как «утечка мозгов», часто упускаются из виду. В частности, без внимания остаются граждане, покинувшие территорию интервенционного государства на фоне процесса превращения граждан раздираемой войной страны в беженцев. В статье была кратко рассмотрена история «утечка мозгов» России, а факты показали, что миграционный процесс, ускоренный распадом СССР, достиг критического уровня с интервенцией России на Украину и объявлением мобилизации в страна. Во время войны «интеллектуальный поток» вызван главным образом уклонением от мобилизации и активных боевых действий, ограничением демократии и среды свободы мысли из-за военного положения, нетерпимостью властей к критическим взглядам в отношении войны, и покинуть страну в знак протеста против военной

политики государства. Независимо от причины, это потеря, от которой очень трудно оправиться любой стране.
**Ключевые слова:** «утечка мозгов», война, Россия

Yaşadığımız 4-cü sənayə inqilabı dövründə zəkanın, yaradıcı təfəkkürün, zehni əməyin rolu durmadan artmaqdadır. Belə bir şəraitdə "zəka axını" hər bir ölkə üçün ciddi təhlükəsizlik məsələsidir. Beynəlxalq Miqrasiya Təşkilatının 2020-ci il hesabatına görə dünyada 281 milyon nəfər miqrant mövcuddur ki, bu da dünya əhalisinin 3.6 faizinə bərabərdir (World Migration Report, 2022). Yüksək insan inkişaf indeksinə sahib 36 ölkənin üzv olduğu İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının məlumatına əsasən üzv ölkələrdə yaşayan 120 milyon miqrantın ən az 30 faizi yüksək təhsilə malikdir (McCarthy, 2020). Beləliklə, ən az 36 milyon yüksək təhsilli insan müəyyən səbəblərdən öz ölkəsini tərk edərək inkişaf etmiş ölkələrdə məskunlaşmışdır. "Zəka axını" adlanan bu proses qəbul edən ölkələrə mənfəət gətirsə də, axın mənbəyi ölkələr üçün ciddi sosial-iqtisadi problemlərlə nəticələnir. Elmi ədəbiyyatlara nəzər saldıqda "zəka axını" anlayışının müxtəlif təriflərinə rast gəlirik:

"Zəka axını"- yüksəkixtisaslı mütəxəssislərin öz ölkələrində normal yaşam tərzi qura bilməyərək xarici ölkələrə miqrasiya etməsidir (Словарь экономических терминов, 2020). Və yaxud zəka axını-miqrasiya prosesi olub, yüksəkixtisaslı mütəxəssislərin öz yaşadıqları ölkədə onlara tələbat olmamasından və ya öz potensiallarını tətbiq edə bilməmələri səbəbindən işləmək üçün daimi olaraq xaricə köçmələridir (Борисов, 2003). Oksford lüğətinə əsasən isə bu anlayış yüksək istedad sahibi və ya yüksək təhsilli şəxslərin emiqrasiya vasitəsilə inkişaf etməkdə olan ölkələrdən inkişaf etmiş ölkələrə transferi prosesini bildirir (Oxford Reference, 2023). Bu anlayış elmi ədəbiyyata Britaniya Kral Cəmiyyətinin 1962-ci ildə hazırladığı hesabatla daxil olmuşdur. Hesabatda mühəndis, texnik və alimlərin Böyük Britaniyadan ABŞ-a köçməsi "Brain Drain"-"Zəka axını" adlandırılmışdır (İsmayılova, 2011). "Zəka axını"nın bir sıra sosial, iqtisadi, siyasi səbəbləri vardır ki, bunlardan biri də müharibədir. Müharibə çox sayda insanın öz ölkəsini tərk etməsinə səbəb olur ki, bunların içində elm adamlarının və yüksəkixtisaslı mütəxəssislərin olması danılmazdır. Birinci dünya müharibəsinin nəticəsi olaraq 7.5 milyon şəxs qaçqına çevrilmişdir (Gummer, 2014). İkinci dünya müharibəsi nəticəsində isə bu say 40-60 milyon nəfərə çatmışdır (The UN Refugee Agency, 2000). 1933-1941-ci illər ərzində 110 min yəhudi əsilli qaçqın Almaniyanın anti-semitizm siyasəti nəticəsində ABŞ-a köçmüşdür (Holocaust Encyclopedia).Və ya Suriyadakı münaqişə səbəbindən təkcə 2017-2018-ci illərdə 2000 nəfər akademik heyət ölkəni tərk edib (BBC, 2019). Ölkənin tibb işçilərinin isə 50 faizdən çoxu başqa ölkələrdə qaçqın həyatı yaşayır (Caritas Europe, 2022). Yuxarıda qeyd edilən faktlar müharibənin "zəka axını"na ciddi təkan verdiyini sübut edir.

**Rusiyada "zəka axını"nın tarixinə baxış**

Oktyabr inqilabı və vətəndaş müharibəsi səbəbindən 1920-ci ilə qədər Rusiyanı 2 milyona yaxın insan tərk etmişdi (Киселева, Сафронова, 2023). 1922-ci ildə Sankt-Peterburq şəhərindən sonralar "fəlsəfi gəmi" adlandırılacaq iki gəmi ilə Sovet ideologiyasına əks olan 160 nəfər – məşhur professor, müəllim, yazıçı, həkim və mühəndislərdən ibarət heyət ölkədən deportasiya edildi (Малышев, 2017). Sovet dövründə Rusiyada ikinci əhəmiyyətli "zəka axını" isə 1960-cı illərdən sonra baş verdi. Belə ki, sovet hakimiyyətinin yəhudi əsilli vətəndaşların İsrailə emiqrasiyasına icazə verməsi nəticəsində 1974-1984-cü illər ərzində 81555 nəfər ölkədən köçdü. Bu şəxslərin 14 faizdən çoxu (11571 nəfər) elmi işçi idi. Növbəti 10 il ərzində isə (1989-1999) daha 13000 elmi işçi keçmiş SSRİ məkanından İsrailə emiqrasiya etdi (Агамова Н.С., Аллахвердян А.Г., 2007). M.Qorbaçovun "yenidənqurma" siyasətinin tərkib hissəsi olaraq SSRİ ərazisinə giriş-çıxış rejiminin asanlaşdırılması nəticəsində 1987-1991-ci illər ərzində 134 min İsrailə, 102 min Almaniyaya, 15 min ABŞ-a, 20 min insan isə digər ölkələrə köçmüşdür (Chudinovskikh, Denisenko, 2017). SSRİ-nin dağılması ilə isə kütləvi miqrasiya baş verdi – 30 milyon insan Rusiya ərazisini tərk

etdi (McCauley, Lieven, 2006). Bu miqrasiya dalğasının tərkibindəki "zəka axını"nın ölçüsü ilə bağlı fərqli mənbələrdə müxtəlif rəqəmlər mövcuddur. Uşkalov və Malaxa (1999) qeyd edirlər ki, 1991-1992-ci illərdə Rusiya Elmlər Akademiyasının müxtəlif institutlarından 508 alim daimi yaşamaq üçün ABŞ-a köçmüşdür. Ümumiyyətlə, son 30 il ərzində baş verən "zəka axını" Rusiya iqtisadiyyatına 50 milyard dollar ziyan vurmuşdur (Ушкалов, Малаха, 1999). 2008-ci ilin məlumatına əsasən ölkədən xaricdə fəaliyyət göstərən rusiyalı elmi işçilərin sayı 30 mindən çoxdur və bu da Rusiya Elmlər Akademiyasının kadr potensialına bərabərdir (Newsweek, 2008). Məşhur rus fizika alimi Sergey Kapitsanın sözlərinə görə, 1995-2005-ci illər ərzində Moskva Fizika və Texnologiya İnstitutunu 1500-ə yaxın insan tərk edərək xaricə köçmüşdür. Bu isə təqribən qeyd olunan 10 il ərzində hər buraxılış məzun sayının 20 faizinə bərabərdir. Dünya bazarında fizika və riyaziyyat kimi elmlərdə bir mütəxəssisin hazırlanmasının təxmini 1 milyon ABŞ dollarına başa gəldiyini düşünsək, bu zaman təkcə bir institutun itkisi 1 milyard dollardan çoxdur (Малышев, 2015). Rusiya EA-nın Sibir bölməsinin rəhbəri Valentin Parmon qeyd edir ki, Rusiya son 5 ildə 50 minə yaxın elmi işçisini itirən yeganə ölkədir (İnterfaks, 2023). Moskva Dövlət Universitetinin rektoru V.Sadovniçiy Rusiya Statistika Xidmətinə istinadən bildirir ki, 2010-2021-ci illər arasında yaşı 30-a qədər olan gənc tədqiqatçıların sayı 71 mindən 53 minə, bunların içində elmi dərəcəsi olanların sayı isə 4350-dən 1750-yə qədər azalmışdır. O bunun səbəbini maliyyə çatışmazlığı ilə izah edir. Sadovniçiy həmçinin qeyd edir ki, SSRİ-nin çöküşü zamanı Rusiya ərazisində 992 min elmi tədqiqatçı var idisə, 2021-ci ildə bu say antirekord qıraraq 340 minə qədər azalıb (Мартов, 2023).

**Rusiya-Ukrayna müharibəsinin "zəka axını"na təsiri**

24 fevral 2022-ci ildə Rusiyanın Ukraynaya müdaxiləsi təkcə ərazisində müharibə gedən Ukrayna əhalisinin qaçqın düşməsinə səbəb olmadı, həm də müdaxilə edən ölkənin özündə xarici ölkələrə insan axınına səbəb oldu. Təqribi hesablamalara görə müharibə başlayandan sonra Rusiyanı 1 milyona yaxın insan tərk edib (The Economist , 2023). Bu prosesdə "zəka"ların da ölkəni tərk etməsi ciddi problemdir. Müharibənin ilk iki ayında 70 min informasiya texnologiyaları mütəxəssisi Rusiyanı tərk etdi. Bu isə ölkənin İT sahəsindəki kadr potensialının 10 faizindən çoxdur (Плэдсон, 2022). 21 sentyabr 2022-ci ildə prezident V.Putinin ölkədə qismən səfərbərlik elan etməsi ilə xaricə miqrasiya sahəsində vəziyyət daha da kəskinləşdi. Bir neçə gün sonra yüksək texnologiyalar sahəsində fəaliyyət göstərən 195 peşənin işçilərinə səfərbərlikdən möhlət hüququ verilsə də, sanksiyalar və müharibə nəticəsində baş verən iqtisadi dalğalanmalar və tətbiq olunan məhdudiyyətlər yüksəkixtisaslı mütəxəssisləri ölkədən getməyə təşviq etməkdə davam edir (Егорова, 2022). "Zəka axını"nın xüsusilə elmi-pedaqoji sahədə artması ölkə üçün bütün sferalarda ciddi təhlükənin göstəricisidir. Müharibə başlayandan bu günə kimi təkcə Ali İqtisad Məktəbini 150-yə yaxın müəllim tərk etmişdir (Радио Свобода, 2023). Elmi-pedaqoji heyətin ölkəni tərk etməsində səbəb təkcə müharibənin gətirdiyi çətinliklər deyil, həmçinin, müharibə əleyhinə fikir səsləndirənlərə təzyiqlərin artmasıdır. Nümunə üçün müharibə başlayandan hakimiyyətin Ukraynaya müdaxilə siyasətini tənqid edən 270 nəfər elmi işçi – tərkibində Moskva və S.Peterburqun yüksək ranqlı universitetlərinin rəhbər, professor və müəllim heyəti ölkəni tərk etmişdir (Таланова, 2023). Problemlə bağlı 2023-cü ilin aprel ayında Rusiya hakimiyyətinin sifarişi ilə 500 ali təhsil müəssisəsində keçirilən sorğu zamanı respondentlərin üçdə birinin ölkəni tərk etmək istədiyi məlum olmuşdur. (УЖВАК, 2023) Bu isə müharibə davam etdikcə "zəka axını"nın daha da güclənəcəyinin göstəricisidir.

Yuxarıda qeyd olunan faktlar müharibənin təkcə ərazisində müharibə gedən dövlət üçün deyil, həm də müdaxilə edən dövlət üçün də "zəka axını"na səbəb olduğunu sübut edir. Xüsusilə insan kapitalının əhəmiyyətinin artdığı dövrdə bərpası çox çətin olan bu resursun itirilməsi gələcək üçün ciddi təhlükəsizlik riski yaradır. SSRİ-nin dağılmasından sonra Rusiyada sosial-iqtisadi problemlər səbəbindən artan "zəka axını" Ukraynaya müdaxilə nəticəsində kritik həddə çatmışdır. "Zəka"ların itirilməsi təkcə bu günümüz

üçün deyil, gələcəyimiz üçün də ciddi zərərə səbəb olacaqdır və bu zərər zaman keçdikcə həndəsi silsilə üzrə artacaqdır. Bu axının qarşısının alınması isə səfərbərlikdən möhlət hüququnun verilməsi ilə deyil, ölkədə sabitliyin və elmi-pedaqoji, yaradıcı fəaliyyət üçün əlverişli mühitin yaradılması ilə mümkün olacaqdır.

**Ədəbiyyat:**


1. *The State of The World's Refugees 2000: Fifty Years of Humanitarian Action*. (2000). Retrieved from The UN Refugee Agency: https://www.unhcr.org/media/state-worlds-refugees-2000-fifty-years-humanitarian-action-chapter-1-early-years

2. *BBC*. (2019). Retrieved from Syrian universities weakened by 'brain-drain', says report: https://www.bbc. com/news/education-48664331

3. *Caritas Europe*. (2022). Retrieved from Syria must not be forgotten: https://www.caritas.eu/syria-must-not-be-forgotten/

4. Gummer, C. (2014). *World War I Centenary: Migration in Europe*. Retrieved from THE WALL STREET JOURNAL: https://graphics.wsj.com/100-legacies-from-world-war-1/migration-in-Europe

5. *Holocaust Encyclopedia*. (n.d.). Retrieved from United States Holocaust Memorial Museum: https://encyclopedia.ushmm.org/content/en/article/immigration-to-the-united-states-1933-41

6. *İnterfaks*. (2023). Retrieved from https://www.interfax.ru/russia/902007

7. İsmayılova, E. (2011). Qloballaşma dövründə "zəka axını". Bakı: "Elm".

8. Martin McCauley, Dominic Lieven. (n.d.). *Britannica.com*. Retrieved from Post-Soviet-Russia: https://www.britannica.com/place/Russia/Post-Soviet-Russia

9. McCarthy, N. (2020). *Where the world's highly educated migrants come from*. Retrieved from https://www.weforum.org/agenda/2020/12/where-do-highly-educated-migrants-come-from

10. Newsweek, R. (2008). Returning – low salary. pp. 3-9.

11. Olga Chudinovskikh, Mikhail Denisenko. (2017). *Russia: A Migration System with Soviet Roots*. Retrieved from Migration Policy İnstitute: https://www.migrationpolicy.org/article/russia-migration-system-soviet-roots

12. *Oxford Reference*. (2023). Retrieved from https://www.oxfordreference.com/display/10.1093/acref/9780199599868.001.0001/acref-9780199599

13. UNHCR. (2023). *Ukraine Refugee Situation*. Retrieved from UNHCR: https://data.unhcr. org/en/situations/ukraine

14. *World Migration Report*. (2022). Retrieved from https://worldmigrationreport.iom.int/wmr-2022 interactive/

15. Агамова Н.С., Аллахвердян А.Г. (2007). Утечка умов из России: причины и масштабы. *Ж. Рос. хим. об-ва им. Д.И. Менделеева*, 108-115.

16. Борисов, А. (2003). *Большой экономический словарь*. https://tochka.com/ info/glossary/ utechka-umov/ mənbəsindən əldə edilib.

17. Егорова, В. (2022). *Telesputnik.ru*. Retrieved from https://telesputnik.ru/materials/gov/article/kakie-it-specialnosti-mogut-poluchit-bron-ot-mobilizacii

18. И.Г. Ушкалов, И. А. Малаха. (1999). *«Утечка умов» – масштабы, причины, последствия.* Moskva: Nauka.

19. Малышев, В. (2015). *ТАЛАНТЫ ДЛЯ ЧУЖИХ. ПОЧЕМУ НЕ ПРЕКРАЩАЕТСЯ «УТЕЧКА МОЗГОВ» ИЗ РОССИИ*. Retrieved from RAS.ru: https://www.ras.ru/digest/showdnews. aspx?id=8a8ae666-96f9-440c-a68e-989928c35eab

20. Мария Киселева, В. С. (2023). *Новые российские эмигранты. Кто они, сколько их и куда уехали?* Retrieved from BBC.com : https://www.bbc.com/russian/features-65686712

21. Мартов, А. (2023). *Eurasianet*. Retrieved from https://russian.eurasianet.org/%D1%80%D0%BE%D1%81%D1%81%D0%B8%D1%8F-%D1%82%D0%B5%D1%80%D1%8F%D0%B5%D1% 82-

22. Плэдсон, К. (2022). *dw.com*. Retrieved from https://www.dw.com/ru/bez-tankov-i-kiberatak-chto-znachit-dlja-rf-utechka-mozgov-iz-it-sektora/a-61408550

23. *Радио Свобода*. (2023). Retrieved from https://www.svoboda.org/a/proekt-uchyonye-i-prepodavateli-vuzov-massovo-uezzhayut-iz-rossii/32335902.html

24. *Словарь экономических терминов*. (2020). Retrieved from http://www.glossary.ru/cgi-bin/gl_find.cgi? ph=brain+drain&action.x=0&action.y=0

25. Таланова, Д. (2023). *Новой газеты Европа*. Retrieved from https://novayagazeta.eu/articles/2023/08/17/ sledite-za-ukhodom-mysli

26. УЖВАК, П. (2023). *«Важные истории»*. Retrieved from https://istories.media/news/2023/05/18/administratsiya-prezidenta-i-ministerstva-zakazali-opros-studentov-ob-otnoshenii-k-voine-i-putinu-mi-poluchili-pervie-rezultati/

# İŞĞALDAN AZAD EDİLMİŞ ƏRAZİLƏRDƏ "AĞILLI ŞƏHƏR" VƏ "AĞILLI KƏND" LAYİHƏLƏRİ: XARİCİ İNVESTİSİYA PERSPEKTİVLƏRİ

**Məmmədov Misir İlham**
**Azərbaycan Dövlət İqtisad Universiteti**
**https://orcid.org/0009-0004-6194-5371**
**misirmammadli@gmail.com**

# SMART CITY AND SMART VILLAGE PROJECTS IN LIBERATED TERRITORIES: FOREIGN INVESTMENT PERSPECTIVES

**Mammadov Misir Ilham**
**Azerbaijan State University of Economics**
**https://orcid.org/0009-0004-6194-5371**
**misirmammadli@gmail.com**

**Summary**

The smart city concept has generated significant interest at the global level since the mid-2000s. The main goals of this concept are to improve the quality of life and achieve socio-economic development of cities through information and communication technologies.

The government of Azerbaijan prioritizes smart urban/rural projects for sustainable development in the territories freed from occupation in the last three years. The implementation of the smart city concept in Karabakh and Eastern Zangezur economic regions is considered important for the creation of a city and village network based on innovation, knowledge and technologies, in accordance with the principles of modern sustainable development. Thus, using innovative solutions will be necessary during the post-conflict period to quickly rebuild the region's cities and infrastructure as well as to address socioeconomic and environmental issues. However, the economic opportunities, the potential of improving infrastructure and services, and the existing problems of the application of the smart city concept in the liberated territories should be comprehensively investigated. Although it is considered appropriate to create smart cities or smart villages in these areas, the success of these projects will depend on public-private partnerships, a favorable investment climate, enabling the participation of all interested parties and a number of other factors.

**Keywords:** smart city, smart village, Karabakh, Eastern Zangezur, investment

## ПРОЕКТЫ «УМНЫЙ ГОРОД» И «УМНАЯ ДЕРЕВНЯ» НА ОСВОБОЖДЕННЫХ ТЕРРИТОРИЯХ: ПЕРСПЕКТИВЫ ИНОСТРАННЫХ ИНВЕСТИЦИЙ

**Мамедов Мисир Ильхам**

**Азербайджанский Государственный Экономический Университет**

**https://orcid.org/0009-0004-6194-5371**

**misirmammadli@gmail.com**

**Резюме**

Концепция умного города вызвала значительный интерес на глобальном уровне с середины 2000-х годов. Основными целями данной концепции являются повышение качества жизни и достижение социально-экономического развития городов за счет информационно-коммуникационных технологий.

Правительство Азербайджана отдает приоритет умным городским/сельским проектам для устойчивого развития на территориях, освобожденных от оккупации за последние три года; реализация концепции умный город в Карабахском и Восточно-Зангезурском экономических районах считается важной для создания сети городов и сел, основанной на инновациях, знаниях и технологиях, в соответствии с принципами современного устойчивого развития. Таким образом, использование инновационных решений будет необходимо в постконфликтный период для быстрого восстановления городов и инфраструктуры региона, а также для решения социально-экономических и экологических проблем. Однако следует всесторонне исследовать экономические возможности применения концепции умного города на освобожденных территориях, потенциал улучшения инфраструктуры и услуг, существующие проблемы. Хотя в этих районах считается целесообразным создание умный городов или умных деревень, успех этих проектов будет зависеть от государственно-частного партнерства, благоприятного инвестиционного климата, обеспечивающего участие всех заинтересованных сторон и ряда других факторов.

**Ключевые слова:** умный город, умное село, Карабах, Восточный Зангезур, инвестиции

### “Ağıllı şəhər” konsepsiyası və Azərbaycanın “ağıllı şəhər” prioritetləri

“Ağıllı şəhər” anlayışı inkişaf məqsədilə innovasiya, bilik və texnologiyalardan istifadə edən şəhər və kənd şəbəkələrini ifadə edir. “Ağıllı şəhər” həllərinin tətbiqi üçün əşyaların interneti (IoT), süni intellekt (AI) və böyük verilənlər (Big data) analitikası kimi innovativ texnologiyaların ənənəvi infrastruktur və texnologiyalarla inteqrasiyası tələb olunur. Sadə şəkildə ifadə etsək, “ağıllı şəhər” vətəndaşların həyat keyfiyyətini yaxşılaşdırmaq üçün qabaqcıl texnologiyalardan və məlumatların təhlilindən istifadə edən şəhərdir. “Ağıllı şəhər” həllərinə ağıllı nəqliyyat, ağıllı enerji, ağıllı binalar və ağıllı idarəetmə kimi müxtəlif elementlər daxildir. Bu elementlerin başlıca hədəfi sakinlərin rifahını artıran dayanıqlı və səmərəli şəhər mühiti yaratmaqdır (Huseynova et al, 2022).

Təsadüfi deyil ki, son 10-15 ildə “ağıllı şəhər” konsepsiyası bütün dünyada populyarlıq qazanıb. Bunun başlıca səbəbləri şəhərlərin iqlim dəyişikliyi, əhali artımı, siyasi və iqtisadi qeyri-sabitlik, nəqliyyat və kommunikasiya, enerji və su təchizatı, təhlükəsizlik kimi müxtəlif miqyaslı problemlərlə üzləşməsidir. Urbanizasiya bu problemlərin ən aktualıdır və digərləri bu və ya digər dərəcədə onun yan təsirləri kimi meydana çıxıb. Urbanizasiya ilə yanaşı, COVİD-19 pandemiyası da böyük şəhərlərdə sosial-iqtisadi problemləri dərinləşdirib və bu, yerli infrastrukturun təkmilləşdirilməsinə və rəqəmsal transformasiyaya diqqətin artırılmasına tələbatı yüksəldib. Bu kontekstdə “ağıllı şəhər” konsepsiyası nəqliyyatın idarə edilməsi, tullantıların utilizasiyası, resurslardan səmərəli istifadə, sakinlərin təhlükəsizliyi və həyat keyfiyyətinin artırılması, ekosistemin davamlılığı kimi bir sıra ənənəvi və yeni şəhər problemləri üçün ən mühüm və uğurlu həllərdən biri kimi nəzərdən keçirilir (Valiyev, 2022).

Bütün bu proseslərin fonunda 2-ci Qarabağ müharibəsində qələbədən sonra Azərbaycan hökumətinin gündəminə gələn ən mühüm məsələlərdən biri işğaldan azad edilmiş ərazilərdə şəhər və kəndlərin yenidən qurulması ehtiyacıdır; dayanıqlı inkişaf və “ağıllı şəhər” konsepsiyaları Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının sosial-iqtisadi yenidənqurma planlarında mühüm yer tutmağa başlayıb.

Müasir qlobal çağırışlar nəinki Qarabağ və Şərqi Zəngəzurda, eləcə də ölkə miqyasında “ağıllı şəhər” və “ağıllı kənd” layihələrinin aktuallığını artırır. 2021-ci ildə qəbul edilmiş “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”də sosial-iqtisadi inkişafa dair beş milli prioritetdən biri də “təmiz ətraf mühit və “yaşıl artım” ölkəsi”dir ki, bu da “ağıllı şəhər” və yaşıl enerji konsepsiyaları ilə birbaşa əlaqəlidir. Bundan əlavə, ölkə başçısının 2021-ci ilin aprel ayında “ağıllı şəhər” və “ağıllı kənd” konsepsiyalarının hazırlanması haqqında imzaladığı Sərəncamda informasiya texnologiyalarından istifadə etməklə ölkənin şəhər və kənd yerlərində xidmətlərin keyfiyyət, təhlükəsizlik və səmərəliliyinin artırılması dayanıqlı inkişafın başlıca prioritetləri sırasında qeyd edilir. Konsepsiyalar ağıllı infrastruktur və xidmətlər, sosial məşğulluq, ağıllı idarəetmə və digər komponentləri əhatə edəcəkdir. Ümumilikdə isə həyata keçirilən və nəzərdə tutulan “ağıllı şəhər” layihələri analitik şəhər idarəçiliyi, daha sıx vətəndaş-hökumət əməkdaşlığı, daha təhlükəsiz icmalar, alternativ enerji mənbələrindən istifadə, nəqliyyatın yüksək inkişafı, rəqəmsal bərabərliyin təşviqi, iqtisadi inkişaf üçün imkanların yaradılması və xidmətlərin davamlılıq məqsədlərini özündə birləşdirir (Ibrahimov, 2023).

**İnvestisiya cəlbediciliyini necə artırmaq olar – təhlil**

Baxmayaraq ki, Azərbaycan dövləti Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında xarici investorlar üçün mühüm investisiya imkanları təklif edir və “ağıllı şəhər” layihələrinə xarici investisiyaların cəlbi prioritet istiqamətlərdən biridir, hazırda “ağıllı şəhər/kənd” layihələrinin həyata keçirilməsi və infrastrukturun modernləşdirilməsində əsas investor kimi Azərbaycan hökuməti çıxış edir. İlkin ehtimallara əsasən, azad edilmiş ərazilərdə minalardan təmizləmə, infrastrukturun yenidən qurulması, iqtisadi və nəqliyyat əlaqələrinin bərpası istiqamətində aparılan genişmiqyaslı işlər bölgəyə yerli və xarici investisiyaların cəlb edilməsi üçün böyük perspektivlər vəd edir. Gözləntilər ondan ibarətdir ki, “ağıllı şəhər” layihələrinin həyata keçirilməsi bölgədə investisiya mühitini yaxşılaşdıracaq və ölkənin texniki imkanlarını artıracaqdır. Bununla belə, həyata keçirilən/keçiriləcək “ağıllı şəhər” layihələrində özəl-dövlət tərəfdaşlığını təşviq etmək və cəlbedici investisiya mühiti yaratmaq effektiv “ağıllı şəhər” yanaşmalarından, başqa sözlə, hökumətin bu istiqamətdəki siyasət və prioritetləri, bölgənin mövcud problem və resursları, yerli inzibati idarəçiliyinin effektivlik səviyyəsi kimi amillərdən asılı olacaqdır.

Tədqiqatlar göstərir ki, “ağıllı şəhər” həllərinin tətbiqi prosesində yüksək urbanizasiya templəri, mobil rabitə standartlarında irəliləyiş, IoT-un inkişafı, “ağıllı şəhər” həllərinin xərclərinin azaldılması və dövlət dəstəyi mühüm əhəmiyyət kəsb edir. İnkişaf etməmiş ölkələrdə yüksək xərclər, korrupsiya, pis idarəçilik, inkişaf etməkdə olan ölkələrdə isə ekosistem dəstəyinin olmaması, ixtisaslı kadr çatışmazlığı və s. problemlər “ağıllı şəhər” layihələrinə investisiyaların cəlb edilməsi qarşısında əsas maneələr kimi qiymətləndirilir (Huseynova et al, 2022).

Fikrimcə, yuxarıda qeyd edilən amillər içərisində ixtisaslı kadr çatışmazlığını Azərbaycanda “ağıllı şəhər” layihələrinə özəl investisiyaların cəlb edilməsini çətinləşdirəcək başlıca amillərdən biri kimi qiymətləndirmək mümkündür. Bu kontekstdə, azad edilmiş ərazilərdə “ağıllı şəhər” konsepsiyasının uğurlu icrası üçün ilk növbədə yaradıcı sənaye və informasiya-kommunikasiya sahələrində ixtisaslı işçi qüvvəsinin hazırlanması və yetişdirilməsi vacibdir. “Ağıllı şəhər” layihələrinin inkişafı və icrası üçün tələb olunan zəruri bacarıq və biliklərin artırılmasına kömək edə biləcək təhsil və təlim proqramlarının dövlət tərəfindən maliyyələşdirilməsi prioritet istiqamət kimi nəzərdən keçirilə bilər (Alasgarov, 2022).

Bundan əlavə, dünyanın müxtəlif ölkələrində tətbiq edilən uğurlu “ağıllı şəhər” modellərinin öyrənilməsi və tətbiqi imkanlarının araşdırılması azad edilmiş ərazilərdəki potensial “ağıllı şəhər” və “ağıllı kənd” layihələrinə mühüm faydalar verə bilər. Oxşar layihələrdəki hökumət və QHT-lər arasında birgə səylər, yerli idarəçilik orqanları arasında qarşılıqlı əlaqə, strateji planlaşdırma və innovativ texnologiyaların tətbiqi kimi məsələlər tədqiq edilərək mütərəqqi təcrübələr öyrənilə və yerli xüsusiyyətlər nəzərə alınmaqla

Azərbaycanın azad edilmiş bölgələrində tətbiq edilə bilər. Çünki xarici investorlar sınaqdan çıxmış və elmi tədqiqat nəticələrinə əsaslanan "ağıllı şəhər" modellərinə investisiya yatırmaqda daha çox maraqlı olacaqlar (Ismayılova, 2022).

"Ağıllı şəhər" layihələrinin inkişafı və maliyyələşdirilməsi həm də şəhər rəhbərlikləri, milli planlaşdırma agentlikləri, özəl sektor, investorlar və vətəndaşlar arasında inklüziv, şəffaf və hesabatlı əlaqələrin qurulmasını tələb edir. Bundan əlavə, sakinləri "ağıllı şəhər" layihələrinin daha yaxşı sosial xidmət və iş yerlərinin yaradılması kimi faydalarına inandırmaq investorlar üçün ümumi riskləri azaldır. Məhz bu səbəbdən "ağıllı şəhər" investisiyalarında uğur əldə etməyi hədəfləyən hökumətlər diqqəti ilk növbədə sosial bərabərsizliyin aradan qaldırılmasına, yeni iş imkanları və ekoloji davamlılığın təşviqinə yönəldirlər. Başqa sözlə, vətəndaşlara faydalı, o cümlədən şəhər və kəndlərin xüsusi ehtiyaclarına cavab verən "ağıllı şəhər" investisiyaları daha çox dəstək qazanır və əlavə investisiya cəlbi ehtimalını da artırır. Bu kontekstdə, bölgənin və orada məskunlaşacaq əhalinin konkret ehtiyac və problemlərinin müəyyən edilməsi və kənd icmalarının qərar qəbul etmə prosesində iştirakının təmin edilməsi və ya "ağıllı kənd təsərrüfatı" quruculuğu istiqamətində yerli əhalinin rəylərinin nəzərə alınması, o cümlədən layihələrdə hesabatlılıq və şəffaflığa diqqət yetirilməsi Qarabağdakı perspektiv "ağıllı şəhər" layihələrinin investisiya davamlılığı və effektivliyi üçün zəruridir.

İnkişaf etmiş ölkələrdə yerli idarəetmə orqanları "ağıllı şəhər" layihələrinə investisiyaların cəlb edilməsi və qərarların qəbulu prosesində mühüm rol oynayırlar. Azərbaycanda yerli idarəetmə orqanları rolunda çıxış edən bələdiyyələrin məhdud səlahiyyət dairəsi, o cümlədən seçkili mer institutlarının mövcud olmaması, icmaların qərar qəbulu prosesində zəif iştirak səviyyəsi, ümumilikdə isə yüksək dərəcədə mərkəzləşdirilmiş idarəetmə sistemi "ağıllı şəhər" layihələrinə özəl investisiyaların cəlbi üçün yerli əməkdaşlıq mühitinin formalaşdırılması qarşısında başlıca maneələrdən biri kimi qiymətləndirilə bilər (Valiyev, 2022). Bölgədə daha az mərkəzləşdirilmiş və əməkdaşlıq mühitinə əsaslanan idarəçilik sistemi perspektiv "ağıllı şəhər" layihələrinin həm sərmayə, həm də praktik cəhətdən uğurlu olmasında mühüm əhəmiyyət kəsb edə bilər.

Böyük maliyyə resurslarına ehtiyac olduğu üçün institusional investisiyalar "ağıllı şəhər" layihələrində mühüm əhəmiyyət kəsb edir və onlar şəhər infrastrukturunun maliyyələşdirilməsi üçün ideal vasitə hesab edilir. Lakin bir çox hallarda institusional investisiyalar cəlb edilməsi yuxarıda qeyd edilən problemlər, ənənəvi maliyyələşdirmə modelləri, o cümlədən hökumətlərə bağlı öhdəliklərə görə çətin olur.

Azərbaycanın investisiya mühiti beynəlxalq maliyyə qurumları və fondları, o cümlədən fərdi investorlar üçün geniş imkanlar təmin etsə də, bu istiqamətdə bir sıra problemlər mövcuddur. Məsələn, son Aİ Biznes Mühiti Hesabatına (Azərbaycan, 2021) əsasən, Azərbaycan hökumətinin Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarına, o cümlədən "ağıllı şəhər" və "ağıllı kənd" layihələrinə investisiya ilə bağlı planları avropalı investorların marağına səbəb olub. Keçirilmiş sorğuda respondentlərin yarıdan çoxu (54%) bölgədə həyata keçiriləcək layihələrdə iştirak etməkdə maraqlı olduqlarını bildirib. Hesabatdan aydın olur ki, "Avropa şirkətləri işğaldan azad edilmiş ərazilərə investisiya imkanlarında, xüsusən də "ağıllı şəhər"in inkişafı və alternativ enerji layihələri ilə bağlı imkanlarda maraqlıdır. Lakin ümumi konsepsiyanın hökumət tərəfindən elan edilməsindən sonra özəl sektorla sonrakı kommunikasiya çox məhdudlaşdı. Bu günədək mövcud və ya planlaşdırılan investisiya layihələri ilə bağlı heç bir aydınlıq yoxdur..." Bütün bunları nəzərə alaraq, Azərbaycan hökuməti "ağıllı" şəhər/kənd və alternativ enerji layihələrinə avropalı investorların və şirkətlərin marağını artırmaq üçün kommunikasiya imkanlarını genişləndirə, o cümlədən aydın investisiya planları və yol xəritələri hazırlaya bilər. Bundan əlavə, "ağıllı şəhər" layihələrinə özəl kapitalı və institusional investisiyaları cəlb etmək üçün proqnozlaşdırıla bilən, dəstəkləyici tənzimləmə və investisiya mühiti çox vacibdir.

Azərbaycan hökuməti işğaldan azad edilmiş ərazilərdə "ağıllı şəhər" layihələrinin həyata keçirilməsini prioritet istiqamətlərdən biri kimi qəbul edib. Lakin bu layihələrin müvəfəqiyyətində maliyyələşmə mənbələrinin şaxələndirilməsi, xüsusilə də xarici investisiyaların cəlb edilməsi mühüm rol oynayacaqdır.

Bu tədqiqat işinin gəldiyi nəticəyə görə, işğaldan azad edilmiş ərazilərdə "ağıllı şəhər" layihələrinə birbaşa xarici investisiyaların cəlbini stimullaşdırmaq və onların uğurlu icrası üçün aşağıdakı məqamlara xüsusi diqqət yetirmək lazımdır:

- Yaradıcı sənaye və informasiya-kommunikasiya sahələrində ixtisaslı işçi qüvvəsinin hazırlanması və yetişdirilməsi;
- Bölgənin və orada məskunlaşacaq əhalinin konkret ehtiyaclarının müəyyən edilməsi və kənd icmalarının bu layihələrlə bağlı qərar qəbulu prosesində iştirakının təmin edilməsi;
- Yerli idarəetmə orqanlarının daha az mərkəzləşdirilmiş və əməkdaşlıq mühitinə əsaslanan idarəçilik sisteminin yaradılması;
- İnstitusional investisiyaların cəlb edilməsi və dəstəklənməsi, institusional investorlar tərəfindən dəstəklənən yanaşmaların nəzərdən keçirilməsi və diqqətə alınması;

Beləliklə, işğaldan azad edilmiş ərazilərdə "ağıllı şəhər" layihələrinin uğurlu olmasının ilkin və əsas şərtləri kimi hökumət, özəl sektor və əhali arasında effektiv əməkdaşlığın təmin edilməsi, əlverişli investisiya mühitinin yaradılması, ixtisaslı işçi qüvvəsinin hazırlanması və s. çıxış edir. Bundan əlavə, bölgədə "ağıllı şəhər" layihələrinin inkişafı məqsədilə daxili və xarici investorların cəlb edilməsi üçün qabaqcıl maliyyə tədbirləri və tənzimləmələr tətbiq etməlidir.

**Ədəbiyyat:**


1. Alasgarov, H. (2022). Azerbaijan's smart cities/villages concepts for Karabagh region. How real and doable to lead to success? https://tudasportal.uni-nke.hu/xmlui/handle/20.500.12944/18633

2. Avropa İttifaqı. (2021). Biznes mühiti hesabatı – Azərbaycan. https://www.eeas.europa.eu/sites/default/files/documents/A%C4%B0%20Biznes%20M%C3%BChiti%20Hesabat%C4%B1%20Az%C9%99rbaycan%202021.pdf

3. Huseynova, A., Mazanova, O., Khudiyeva, P., Muradova, H., Leyla, H., & Kamala, N. (2022). Innovative way of solution of "Smart city" in Azerbaijan–city problems. *WSEAS Transactions on Business and Economics* , *19* , 1394-1402.

4. Ibrahimov, F. (2023). Concept Of "Smart City" World Experience And Plans Of Azerbaijan//III International Scientific and Practical Conference "World science priorities, Vienna. Austria. Pp.15-17. https://conference-w.com/wp-content/uploads/2023/04/AUS.V-0607042023.pdf#page=16

5. Ismayilova, N. (2022). The Smart Village Concept and Its Applicability in the Karabakh Region: Can It Succeed? Caucasus Analytical Digest, 125, 14-16. https://doi.org/10.3929/ethz-b-000525828

6. Valiyev, A. (2022). Building Smart Cities in Azerbaijan: Hard to Conceptualise, Difficult to Build. Caucasus Analytical Digest, 125, 2-6. https://doi.org/10.3929/ethz-b-000525828


## İQLİM DƏYİŞİKLİYİ İLƏ MÜBARİZƏDƏ BƏRPA OLUNAN ENERJİ MƏNBƏLƏRİNİN ROLU


**Tağıyeva Arzu Valeh**
**Azərbaycan Dövlət İqtisad Universiteti**
**https://orcid.org/0000-0002-8031-4768**
**arzuvalehqizi@gmail.com**

# THE ROLE OF RENEWABLE ENERGY SOURCES IN MITIGATING CLIMATE CHANGE

**Taghiyeva Arzu Valeh**
**Azerbaijan State University of Economics**
**https://orcid.org/0000-0002-8031-4768**
**arzuvalehqizi@gmail.com**

**Summary**

According to a recent report by the Intergovernmental Panel on Climate Change (IPCC), the world will face an imminent multiple climate threat of 1.5°C (2.7°F) of global warming over the next 2 decades. In this regard, one of the greatest challenges facing humanity in the current millennium is the need to mitigate climate change, and investing in renewable energy is one of the most viable options to overcome this challenge. Taking into account the relevance of the topic, the article provides detailed information about renewable energy sources, the benefits of using renewable energy, as well as the types of renewable energy sources in Azerbaijan. Thus, the use of renewable energy sources serves to reduce global warming, take care of people's health, efficient use of energy, and economic development. In Azerbaijan, renewable energy sources such as water, solar, wind and biomass and waste are mainly used.

**Keywords:** climate change, renewable energy sources, Sustainable Development Goals.

# РОЛЬ ВОЗОБНОВЛЯЕМЫХ ИСТОЧНИКОВ ЭНЕРГИИ В СМЯГЧЕНИИ ИЗМЕНЕНИЯ КЛИМАТА

**Тагиева Арзу Валех**
**Азербайджанский Государственный Экономический Университет**
**https://orcid.org/0000-0002-8031-4768**
**arzuvalehqizi@gmail.com**

**Резюме**

Согласно недавнему отчету Межправительственной группы экспертов по изменению климата (МГЭИК), мир столкнется с неминуемой множественной климатической угрозой глобального потепления на 1,5 °C (2,7 °F) в течение следующих 2 десятилетий. В связи с этим одной из самых больших проблем, стоящих перед человечеством в текущем тысячелетии, является необходимость смягчения последствий изменения климата, и инвестиции в возобновляемые источники энергии являются одним из наиболее жизнеспособных вариантов решения этой проблемы. Учитывая актуальность темы, в статье представлена подробная информация о возобновляемых источниках энергии, преимуществах использования возобновляемых источников энергии, а также видах возобновляемых источников энергии в Азербайджане. Таким образом, использование возобновляемых источников энергии служит снижению глобального потепления, заботе о здоровье людей, эффективному использованию энергии и экономическому развитию. В Азербайджане в основном используются возобновляемые источники энергии, такие как вода, солнце, ветер, биомасса и отходы.

**Ключевые слова:** изменение климата, возобновляемые источники энергии, Цели устойчивого развития.

Enerji qlobal iqtisadi və insan inkişafının əsas mühərriki olması səbəbindən Dayanıqlı İnkişaf Məqsədlərinə (DİM) nail olmaq üçün çox vacibdir. Məlumdur ki, həm bərpa olunan, həm də bərpa olunmayan enerji mənbələri məhsuldarlığın artırılması və yaşayış standartlarının yaxşılaşdırılması üçün geniş spektrli iqtisadi istehsal fəaliyyətinin təşviqi əsasında sosial-iqtisadi inkişafın əsas təyinediciləridir (Brini, 2021; Mahalik et al., 2021). Son 3 onillikdə urbanizasiya və sənayeləşmə əsasən bərpa olunmayan enerji mənbələrinin (kömür, neft və təbii qaz) artan istehlakına səbəb olmuşdur (İslam və digərləri, 2022).

Bununla belə, bir çox ölkələrdə insan inkişafı və iqtisadi artım üçün enerjidən istifadənin daha çox genişləndirilməsi, şübhəsiz ki, ətraf mühitin deqradasiyasını sürətləndirmişdir. Bərpa olunmayan qalıq yanacaqlarından çox istifadə atmosfer havasındakı istilik effekti yaradan qazların (İEYQ) miqdarının artmasına böyük töhfə verməsi çox açıq bir həqiqətdir (Kuşkaya və Bilgili, 2020). İEYQ emissiyaları 20-ci əsrin ortalarından bəri insan fəaliyyəti nəticəsində müşahidə olunan iqlim dəyişikliyinin ən mühüm hərəkətverici qüvvəsi olmuşdur. ABŞ-ın yeni hesabatına görə, ekoloji fəlakətin qarşısını almaq üçün istixana qazları emissiyaları 2050-ci ilə qədər 2000-ci ildəki səviyyəsi ilə müqayisədə 50%-85% azaldılmalıdır. Bir çox tədqiqatçılar hesab edir ki, bu məqsədə nail olmaq üçün adambaşına düşən karbon qazı emissiyaları ildə 0,8-2,5 ton karbon qazı ekvivalentinə qədər azaldılmalıdır (EPA, 2022).

İstixana qazlarının təsiri səbəbiylə yaranmış qlobal iqlim dəyişikliyinin təsirləri dayanıqlı inkişafa nail olmağa əngəl törədən əsas məsələlərdən biridir. Belə ki, iqlim dəyişikliyi quraqlıq səbəbindən kənd təsərrüfatında məhsuldarlığın azalması, yoluxucu xəstəliklərin artması, su qıtlığı və keyfiyyətinin pisləşməsi, dəniz səviyyəsinin qalxması, temperaturun yüksəlməsi, okeanın turşulaşması, buzlaqların əriməsi və əlaqədar təsirlər, şoranlaşma, torpaq və meşələrin deqradasiyası, səhralaşma, bioloji müxtəlifliyin azalması, dəniz canlılarının məhv olması, təbii fəlakətlərin artması, ərzaq çatışmazlığının yaranması, yoxsulluğun artması və s. kimi sosial, iqtisadi və ekoloji problemlərə səbəb olur (Arzu, 2022).

Bu məsələ "Dünyamızın transformasiyası: 2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəlik"də ("Gündəlik-2030") də öz əksini tapmışdır. Belə ki, "Gündəlik 2030"un 31-ci bəndi dünya ölkələrini qlobal İEYQ emissiyalarının azaldılmasını sürətləndirməyə və iqlim dəyişikliyinin mənfi təsirlərinə uyğunlaşmanı həll etməyə yönəlmiş mümkün olan ən geniş beynəlxalq əməkdaşlığa çağırır. Digər tərəfdən, Dayanıqlı inkişafın 13-cü məqsədi (İqlim dəyişikliyi və onun təsirlərinə qarşı mübarizə üzrə təcili tədbirlər görmək) birbaşa olaraq iqlim dəyişikliyinin təsirlərinin azaldılmasına və ona qarşı mübarizəyə həsr olunmuşdur (Arzu, 2022).

Bu təhdidlərlə üzləşən ABŞ, Avropa Birliyi və Çin kimi bir çox ölkələr, eləcə də dünyanın inkişaf etmiş və inkişaf etməkdə olan ölkələri də daxil olmaqla bir çox ölkələr emissiyaların azaldılmasına yönəlmiş bir sıra siyasətlər formalaşdırıblar. Beləliklə, iqlim dəyişikliyinə qlobal reaksiyanın bir hissəsi olaraq, bərpa olunan enerjinin gücləndirilməsi siyasəti tətbiq edilir (Dünya Bankı, 2021). Bununla belə, bərpa olunan, yaşıl enerji mənbələrinin etibarlılığının və əlçatanlığının yaxşılaşdırılması məsələsi vacib olaraq qalır. 2050-ci ilə qədər dünya enerji təchizatının üçdə ikisi bərpa olunan enerji hesabına təmin edilə bilər. Beləliklə, bərpa olunan enerji texnologiyalarının tətbiqi və inkişafı gələcəkdə aşağı karbonlu iqtisadiyyata keçid üçün imkandır (Slabe-Erker və başqaları., 2022).

Bu prizmadan yanaşaraq, "Gündəlik-2030"da  öz əksini tapmış 'Hamının sərfəli, etibarlı, dayanıqlı və müasir enerji mənbələrinə çıxışını təmin etmək' adlı 7-ci DİM-ə nail olunmasında 2030-cu ilədək, hamı üçün əlçatan, etibarlı, dayanıqlı və müasir enerji xidmətlərinə çıxış imkanını təmin etmək, qlobal enerji təchizatında bərpa olunan enerjinin payını əhəmiyyətli dərəcədə artırmaq, dünyada enerjidən istifadə səmərəliliyini artırmaq, enerji infrastrukturunu genişləndirmək və texnologiyaları yeniləmək, eləcə də təmiz enerji texnologiyalarına yatırımları təşviq etmək kimi hədəflər qarşıya qoyulmuşdur (DİM üzrə milli məlumatlandırma portalı, 2022).

**Bərpa olunan enerji mənbələri**

Bərpa olunan enerji mənbələri qalıq yanacaqların yanması nəticəsində yaranan istixana qazlarının emissiyalarını sıxışdırmaq və bununla da iqlim dəyişikliyini azaltmaq üçün böyük potensiala malikdir. Düzgün tətbiq olunarsa, bərpa olunan enerji mənbələri sosial və iqtisadi inkişafa, enerjiyə çıxışa, təhlükəsiz və dayanıqlı enerji təchizatına və enerji təminatının ətraf mühitə və insan sağlamlığına mənfi təsirlərinin azaldılmasına töhfə verə bilər.

Enerji resursları üç kateqoriyaya bölünür: qalıq yanacaqlar, bərpa olunan mənbələr və nüvə resursları (Demirbaş, 2001.). Bərpa olunan enerji mənbələri təkrar-təkrar enerji istehsal etmək üçün istifadə oluna bilən resurslardır, məsələn: günəş enerjisi, külək enerjisi, biokütlə enerjisi, geotermal enerji və s. və tez-tez alternativ enerji mənbələri də adlanır (Rathore NS, Panwar NL., 2007). Daxili enerji tələblərinə cavab verən bərpa olunan enerji mənbələri həm hava çirkləndiricilərinin, həm də istixana qazlarının sıfır və ya demək olar ki, sıfır emissiyası ilə enerji xidmətləri təmin etmək potensialına malikdir.

Bərpa olunan enerji sisteminin inkişafı: enerji təchizatının etibarlılığının və üzvi yanacağa qənaətin artırılması kimi hazırda ən mühüm vəzifələri həll etməyə imkan verəcək; yerli enerji və su təchizatı problemlərinin həlli; yerli əhalinin həyat səviyyəsinin və məşğulluq səviyyəsinin yüksəldilməsi; səhra və dağ zonalarında ucqar rayonların dayanıqlı inkişafının təmin edilməsi; ətraf mühitin mühafizəsi ilə bağlı beynəlxalq müqavilələrin yerinə yetirilməsi ilə bağlı ölkələrin öhdəliklərinin yerinə yetirilməsi.

**Bərpa olunan enerjidən istifadənin faydaları**

*Daha az qlobal istiləşmə.* İnsan fəaliyyəti atmosferimizi karbon qazı və digər İEYQ ilə həddindən artıq yükləyir. Bu qazlar istiliyi saxlayaraq yerin səthində süni şəkildə temperatur artımına səbəb olur. Əksinə, bərpa olunan enerji mənbələrinin əksəriyyəti İEYQ-ləri çox az və ya heç bir şəkildə istehsal etmir. Hətta təmiz enerjinin "həyat dövrü" zamanı baş verən emissiyaları (yəni, texnologiyanın ömrünün hər bir mərhələsindən - istehsal, quraşdırma, istismar, istismardan çıxarma) daxil etdikdə belə, bərpa olunan enerji ilə bağlı İEYQ emissiyaları minimaldır (IPCC, 2011).

*Canlıların sağlamlığının yaxşılaşdırılması.* Kömür və təbii qaz zavodlarının buraxdığı İEYQ hava və suyun çirklənməsinə səbəb olur ki, bu da öz növbəsidə tənəffüs problemləri, nevroloji zədələr, infarkt, xərçəng, vaxtından əvvəl ölüm və bir sıra digər ciddi problemlərlə nəticələnir (Epstein, P.R. və başqaları, 2011). Bərpa olunan enerji mənbələrindən istifadə isə bu kimi hallara səbəbiyyət vermir.

*Tükənməyən enerji.* Güclü küləklər, günəşli səma, bol bitki maddələri, yerdən gələn istilik və sürətlə hərəkət edən su hər biri böyük və daim yenilənən enerji təchizatı təmin edə bilər. Tədqiqatlar dəfələrlə göstərmişdir ki, bərpa olunan enerji potensial məhdudiyyətləri nəzərə aldıqdan sonra belə gələcək elektrik ehtiyaclarının əhəmiyyətli bir hissəsini təmin edə bilər.

*Yeni iş yerləri və digər iqtisadi faydalar.* Tipik olaraq mexanikləşdirilmiş və kapital tutumlu olan qalıq yanacaq texnologiyaları ilə müqayisədə bərpa olunan enerji sənayesi daha çox əmək tutumludur. Günəş panellərinin quraşdırılması üçün insanlar lazımdır; külək stansiyalarına texniki qulluq üçün texniki işçilər lazımdır. Bu o deməkdir ki, bərpa olunan mənbələrdən istehsal olunan elektrik enerjisinin hər bir vahidi üçün orta hesabla, qalıq yanacaqlardan daha çox iş yeri yaradılır.

*Sabit enerji qiymətləri.* Bərpa olunan enerji hazırda ölkə daxilində əlverişli elektrik enerjisi təmin edir və gələcəkdə enerji qiymətlərinin sabitləşməsinə kömək edə bilər. Bərpa olunan obyektlərin tikintisi üçün ilkin investisiyalar tələb olunsa da, onlar çox aşağı qiymətə işləyə bilərlər (əksər təmiz enerji texnologiyaları üçün "yanacaq" pulsuzdur). Nəticədə, bərpa olunan enerji qiymətləri zamanla çox sabit ola bilər.

*Etibarlılıq və davamlılıq.* Külək və günəş genişmiqyaslı uğursuzluğa daha az meyillidir, çünki onlar paylanmış və moduldurlar. Paylanmış sistemlər böyük bir coğrafi əraziyə yayılmışdır, buna görə də bir yerdə şiddətli hava hadisəsi bütün bölgənin enerjisini kəsməyəcək. Modul sistemlər çoxsaylı fərdi külək turbinlərindən və ya günəş massivlərindən ibarətdir. Sistemdəki bəzi avadanlıq zədələnsə belə, qalanları adətən işləməyə davam edə bilər.

**Azərbaycanda bərpa olunan enerji mənbələrinin növləri**

Ölkəmizdə su, biokütlə və tullantılar, günəş, külək kimi bərpa olunan mənbələrdən enerji təchiz olunur. Qeyd olunan mənbələr üzrə statistik məlumatlar aşağıdakı cədvəldə öz əksini tapmışdır.

**2015-2022-ci illər üzrə bərpa olunan mənbələrdən enerji təchizatı**

| | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 | 2021 | 2022 |
|---|---|---|---|---|---|---|---|---|
| Bərpa olunan mənbələrdən enerji təchizatı, min NET | 302.3 | 274.3 | 257.7 | 273.2 | 263.4 | 212.7 | 225.1 | 245.7 |
| *enerji mənbələri üzrə bölgüdə* | | | | | | | | |
| *Sudan* | 140.8 | 168.5 | 150.2 | 152.0 | 134.6 | 92.0 | 109.8 | 137.2 |
| *Biokütlə və tullantılardan* | 160.7 | 100.8 | 102.4 | 110.7 | 115.9 | 108.4 | 102.6 | 96.1 |
| *Günəş işığından* | 0.4 | 3.0 | 3.2 | 3.4 | 3.8 | 4.0 | 4.8 | 5.2 |
| *Küləkdən* | 0.4 | 2.0 | 1.9 | 7.1 | 9.1 | 8.3 | 7.9 | 7.2 |
| Son enerji istehlakının ümumi həcmində bərpa olunan enerjinin xüsusi çəkisi, faiz | 2.3 | 1.9 | 1.9 | 1.9 | 1.7 | 1.3 | 1.3 | 1.3 |

Mənbə: https://www.stat.gov.az/source/balance_fuel/

Cədvəl 1-dəki məlumatlara əsasən demək olar ki, bərpa olunan mənbələrdən enerji təchizatında 2010-2020-ci illərdə azalma olmasına baxmayaraq, Azərbaycan Respublikası Prezidentinin 29 yanvar 2019-cu il tarixli 500 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası regionlarının 2019–2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nda yer alan "enerji təchizatının yaxşılaşdırılması" tədbirləri çərçivəsində görülmüş işlərin nəticəsi olaraq son 2 ildə artım qeydə alınmışdır. Belə ki, 2020-ci illə müqayisədə 2022-ci ildə sözügedən göstərici 15.5 faiz artmışdır. Enerji mənbələri üzrə ən çox su, ən az isə günəş enerjisindən istifadə etdiyimizi deyə bilərik.

7-ci DİM ilə qarşıya qoyulmuş "2030-cu ilədək, qlobal enerji təchizatında bərpa olunan enerjinin payını əhəmiyyətli dərəcədə artırmaq" hədəfinə çatma vəziyyətinin qiymətləndirilməsi üçün BMT tərəfindən təsdiq olunmuş "Son enerji istehlakının ümumi həcmində bərpa olunan enerjinin xüsusi çəkisi" adlı göstəriciyə diqqət yetirsək görərik ki, 2020-ci ildən etibarən azalma tendendiyasının qarşısı alınaraq, son 3 ildə sabit olaraq qalmışdır.

Mövcud enerji sistemlərini dəyişdirmək üçün səylər göstərilsə, onun ən ciddi təsirlərinin qarşısı alına bilər. Bərpa olunan enerji mənbələri qalıq yanacaqların yanması nəticəsində yaranan istixana qazlarının emissiyalarını sıxışdırmaq və bununla da iqlim dəyişikliyini azaltmaq üçün böyük potensiala malikdir. Düzgün tətbiq olunarsa, bərpa olunan enerji mənbələri sosial və iqtisadi inkişafa, enerjiyə çıxışa, təhlükəsiz və dayanıqlı enerji təchizatına və enerji təminatının ətraf mühitə və insan sağlamlığına mənfi təsirlərinin azaldılmasına töhfə verə bilər.

Dövlət proqramı çərçivəsində enerji təchizatının yaxşılaşdırılması tədbirləri fonunda görülən işlərin nəticəsi olaraq, son illərdə bərpa olunan mənbələrdən enerji təchizatının həcmi artmış, son enerji istehlakının ümumi həcmində bərpa olunan enerjinin xüsusi çəkisi isə azalma tendensiyası ilə müqayisədə müsbət hal olaraq sabit qalmışdır.

**Ədəbiyyat:**


1. A.Tağıyeva (2022). Dayanıqlı inkişafın 13-cü məqsədinin nəzəri-metodoloji əsasları və Azərbaycan üzrə qiymətləndirilməsi. Mingəçevir Dövlət Universiteti, "Dayanıqlı inkişaf" multidisiplinar elmi jurnalı, cild 2, №2.
2. A.Tağıyeva (2022). İqlim dəyişikliyinin yoxsulluğa təsirinin ekonometrik qiymətləndirilməsi. Bakı, Mühəndislik Universitetinin jurnalı –İqtisadiyyat və İdarəetmə, cild 6, №1.
3. Azərbaycan Respublikasının Dayanıqlı İnkişaf Məqsədləri üzrə Milli Məlumatlandırma Portalı https://sdg.azstat.org/az/goals/7/bahali-olmayan-ve-temiz-enerji/indicators
4. Brini, R. (2021). Renewable and non-renewable electricity consumption, economic growth and climate change: Evidence from a panel of selected African countries. Energy 223, 120064.

5. Demirbas A. Recent advances in biomass conversion technologies. Energy Educational Science and Technology 2000; 6:19–40.

6. EPA (2022). Climate change indicators: Greenhouse gases. D.C., United States: Environmental Protection Agency. Available at: https://www.epa.gov/climate-indicators/greenhouse-gases.

7. Epstein, P.R., J. J. Buonocore, K. Eckerle, M. Hendryx, B. M. Stout III, R. Heinberg, R. W. Clapp, B. May, N. L. Reinhart, M. M. Ahern, S. K. Doshi, and L. Glustrom. 2011. Full cost accounting for the life cycle of coal in "Ecological Economics Reviews." Ann. N.Y. Acad. Sci. 1219.

8. Intergovernmental Panel on Climate Change (IPCC). 2011. IPCC Special Report on Renewable Energy Sources and Climate Change Mitigation. Prepared by Working Group III of the Intergovernmental Panel on Climate Change (Chapter 9).

9. Islam, M. M., Irfan, M., Shahbaz, M., and Vo, X. V. (2022). Renewable and non-renewable energy consumption in Bangladesh: The relative influencing profiles of economic factors, urbanization, physical infrastructure and institutional quality. Renew. Energy 184, 1130–1149.

10. Kuşkaya, S., and Bilgili, F. (2020). The wind energy-greenhouse gas nexus: The wavelet-partial wavelet coherence model approach. J. Clean. Prod. 245, 118872.

11. Mahalik, M. K., Mallick, H., and Padhan, H. (2021). Do educational levels influence the environmental quality? The role of renewable and non-renewable energy demand in selected BRICS countries with a new policy perspective. Renew. Energy 164, 419–432.

12. Rathore NS, Panwar NL. Renewable energy sources for sustainable development. New Delhi, India: New India Publishing Agency; 2007.

13. Sims REH. Bioenergy to mitigate for climate change and meet the needs of society, the economy and the environment. Mitigation and Adaptation Strategies for Global Change 2003; 8:349–70.

14. Slabe-Erker, R., Dominko, M., Bayar, A., Majcen, B., and Primc, K. (2022). Energy efficiency in residential and non-residential buildings: Short-term macroeconomic implications. Build. Environ. 222, 109364.

15. World Bank (2021). Energy transition in South Asia is critical to reaching global net-zero.D.C., United States: World Bank. Available at: https://blogs.worldbank.org/ endpovertyinsouthasia/energy-transition-south-asia-critical-reaching-global-net-zero.

# DEEP REINFORCEMENT LEARNING IN BOUNDED RATIONALITY: NEW INSIGHTS FOR BEHAVIORAL ECONOMICS

**Ibrahimzade Tamerlan Fikret**
**Azerbaijan State University of Oil and Industry**
**https://orcid.org/0009-0000-6209-3474**
**tamerlan.ibrahimzada@gmail.com**

# MƏHDUD RASİONALLIQDA DƏRİN GÜCLƏNDİRİCİ ÖYRƏNMƏ: DAVRANIŞ İQTİSADİYYATI ÜÇÜN YENİ ANLAYIŞLAR

**İbrahimzadə Tamerlan Fikrət**
**Azərbaycan Dövlət Neft və Sənaye Universiteti**
**https://orcid.org/0009-0000-6209-3474**
**tamerlan.ibrahimzada@gmail.com**

**Xülasə**

Dərin neyron şəbəkələri, əsas dərin öyrənmə metodlarından biri olmaqla, süni intellekt sahəsində inqilab yaratmışdır. Bu metodlar həm interaktivdir, həm də əsasən alqoritmik deyil, hansının ki konsepsiyası adətən Turing-Church hesablamalarının təsnifatına əsaslanır. Bu səbəbdən onların bəzi koqnitiv bacarıqları təqdimetmə qabiliyyəti bölüşməli və fərqli alqoritmik texnikalardan (məsələn, böl və fərqlə, dinamik proqramlaşdırma, cəsarətli heuristikalar və s.) çox daha yaxşıdır. Beləliklə, dərin neyron şəbəkələri məhdud rasionallıq üzərində daha yaxşı fikirlər təmin edəcəkdir. Əlavə olaraq, iqtisadiyyatda dərin gücləndirici öyrənmə (DGÖ) ilə bağlı son zamanlar tətbiq etmələri araşdıracağıq. Dərin gücləndirici öyrənmə, Süni İntellektin (Sİ) bir alt qismi olaraq, müstəsna bir tərəfdə çətin problemləri interaktiv öyrənmə yolu ilə həll etmək üçün ən effektiv yanaşmalardan biri hesab edilir. Bu irəliləyişlər, dərin öyrənmə (DÖ) və gücləndirici öyrənmə (GÖ) sahəsində müxtəlif metodların birləşməsi ilə əldə edilir ki, agentlərin mükafatlarını böyütmək üçün parametrlərdən necə öyrənə biləcəyini göstərsin. Bu birləşmə, dərin öyrənmə (DÖ) və gücləndirici öyrənmə (GÖ), maşın öyrənməsinin (MÖ) alt dəsti olan müxtəlif metodların birləşməsi ilə verilir ki, bu da agentlərin mükafatlarını artırmaq üçün qarşılıqlı əlaqə vasitəsilə mühitdən necə öyrənə biləcəyinə uyğun gəlir. DGÖ modelləri çoxsaylı və davamlı vəziyyət-fəaliyyət sahələrindən, qarışıq və hər zaman dəyişən mühitlərdən məlumat əldə edə bilər, beləliklə daha böyük effektivliyə nail olur. Bu modellər həm də nəzəri olaraq özlərinin öyrənmə alqoritmlərini təkmilləşdirmək qabiliyyətinə malikdirlər, bu da təcrübədən öyrənmə və ya nəyisə etmə yolu ilə də öyrənmə metodlarından istifadə edir. Bu tip öyrənmə də necə təkmilləşdirəcəyini öyrənən bir maşın öyrənmə texnikası olan "meta öyrənmə" olaraq məlum olan proses vasitəsilə mümkündür. Son illərdə DGÖ elmi ədəbiyyatlardan göründüyü kimi böyük inkişaf keçmişdir və əhəmiyyəti təsdiq edilməkdədir.

**Açar sözlər:** dərin neyron şəbəkələri, dərin möhkəmləndirici öyrənmə, möhkəmləndirici öyrənmə, maşın öyrənmə, davranış iqtisadiyyatı

# ГЛУБОКОЕ ПОДКРЕПЛЕНИЕ ОБУЧЕНИЯ В ОГРАНИЧЕННОЙ РАЦИОНАЛЬНОСТИ: НОВЫЕ ИССЛЕДОВАНИЯ ДЛЯ ПОВЕДЕНЧЕСКОЙ ЭКОНОМИКИ

**Ибрагимзаде Тамерлан Фикрет**
**Азербайджанский Государственный Университет Нефти и Промышленности**
**https://orcid.org/0009-0000-6209-3474**
**tamerlan.ibrahimzada@gmail.com**

**Резюме**

Глубокие нейронные сети, которые являются одной из основных архитектур глубокого обучения, привели к революции в искусственном интеллекте. Эти методы являются интерактивными и не являются фундаментально алгоритмическими, их понятие обычно основано на тьюринговском понимании вычислений, предложенном Тьюрингом и Чёрчем. Таким образом, их способность имитировать некоторые когнитивные способности значительно превосходит прежние алгоритмические методы, такие как метод «разделяй и властвуй», динамическое программирование, жадные эвристики и т. д. Таким образом, это позволит более глубоко понять ограниченную рациональность. Кроме того, мы исследуем недавние применения глубокого обучения с подкреплением в экономике. Глубокое обучение с подкреплением (ГОП) как подмножество искусственного интеллекта (ИИ) является одним из наиболее эффективных подходов к

решению сложных задач с помощью интерактивного обучения. Эти прорывы достигнуты за счет комбинации разных методов в глубоком обучении (ГО) и обучении с подкреплением (ОП), подразделе машинного обучения (МО), который соответствует тому, как агенты могут изучать окружающую среду через взаимодействие для увеличения своей награды. Эта комбинация может придать алгоритмам обучения с подкреплением большую выразительную способность, сделав их более подходящими для изучения и распознавания образов в данных. Модели ГОП могут получать информацию из многомерных и непрерывных пространств состояний и действий, из сложных и постоянно меняющихся сред, что делает их более эффективными. Эти модели также теоретически способны улучшать свои собственные алгоритмы обучения через процесс, известный как метаобучение — техника машинного обучения, которая позволяет научиться улучшать обучение путем опыта или практической деятельности. Все сказанное подтверждает, что ГОП добилось значительных успехов в последние годы, и их важность будет только расти в будущем.

**Ключевые слова:** глубокие нейронные, сети глубокое обучение с подкреплением, глубокое обучение, машинное обучение, поведенческая экономика

"Rationality" based on Cambridge Dictionary definition, is the behavioral pattern where all decision-making process is done by only taking into account all the information with disregard to preference or emotions and choosing the most optimal alternative with the highest given utility. Thus, all agents make their decisions solely based on reason but history as well as human psychology has proven repeatedly that human agents usually act upon given them situations and are included by variety of factors coming from their complex cognitive process. Knowing this, American political scientist as well as economist Herbert Simon introduced the term "bounded rationality" into academia which has become one of the defining parts of field of behavioral economics. "Bounded rationality" a human decision-making process where a person attempts to satisfice, rather than optimize (Simon, 1972). Alternatively speaking, person seeks a decision that will be good enough, rather than the best possible decision in the given setting. Also, the concept of "rationality" in Herbert Simon's works as a principle where humans make decisions by step-by-step or algorithmic reasoning utilizing systematic rules of logic to maximize utility. Within the context of bounded rationality, human decision maker is treated like a machine with limited resources, data as well as computational ability. According to Stanford Encyclopedia of Philosophy, under the principle of embodied cognition, a cognitive mind is an interactive machine. So, Turing (Turing, 1936) and Church (Church, 1932) computations are not interactive, and interactive machines can do operations Turing-Church computation can't accomplish.

**Potential of deep neural networks methods in better understanding of bounded rationality:**

What is special about deep learning methods such as deep neural networks (DNNs) is not their high level of computational prowess and data absorption capacity but also their ability to mimic or simulate neural process that occurs inside human brain. Hence, deep learning methods are closest process that we have than can pattern human behavior. Interesting to note that many optimization solutions in engineering are being commonly surpassed by deep neural networks (DNNs). It is common for DNNs to be described as algorithms but in reality they are not capable of rational decision-making level. Despite the fact that DNNs are usually calculated algorithmically on computers, when DNNs deliver a result, for instance, classifying an image as a stop sign, there is no step of rational or logical steps that would be possible to point to that could be rationally classified. That being said, the classification is more close to intuition rather than rationality. The human mind is not a procedure in a brain interacting the world via sensors. On the contrary, the human mind is an interaction between processes in a brain and the world around it (Thelen, 2000). Also, the decision-making process implemented by DNNs are quite inexplicable, resisting any classification as rational decisions. Considering the fact that DNNs could be achieved through the computers, these achievements are brute-force simulations of procedures that are not inherently algorithmic. While the field of reservoir computing (Tanaka et al., 2019), for instance, gives very different

architectures that have little similarity to Turing-Church calculations and would be challenging to classify as rational decision makers in the traditional sense. The field of feedback control, which is rests fundamentally upon the interaction, requires neither computers nor algorithms. Truly, earliest applications of feedback control were in the 1920s through the 1950s which predate even digital computers. According to philosophy of science, observation overtakes interaction. It is commonly accepted that the best science is objective, not subjective. In other words, allow the data to speak for itself meaning that designing your instruments to minimally disturb what you are observing. Additionally, science also shows us that observation without interaction is unattainable. Thus, it possible to achieve much more if we embrace feedback and interaction.

**Evolutionary development from reinforcement learning to deep reinforcement learning:**

Concerning brief history of Reinforcement Learning (RL), in the late 1980s, RL reached the machine learning scientific circles, where it was implemented to problems like simple mobile robots and chess. Watkin (1989) merged the temporal-difference learning and the optimal control literature in his development of Q-learning algorithm, which was the first modern RL algorithmic model. Furthermore, in the late 1990s, we observed that RL merged itself with artificial neural networks that enabled RL to be utilized to cases like learning how to play video games. While in the early 2000s, RL merged itself with evolutionary computation which enabled RL to implement to cases where controlling a robot arm was the priority. Then finally in in the late 2000s, RL was merged with deep learning that enabled RL to be utilized to cases like learning how to play video games or navigate 3D environments, thus creating Deep Reinforcement Learning (DRL) method as we know it today.

**Applications of deep reinforcement learning methods in macroeconomics and microeconomics:**

The utilizations of DRL methods in the field of economics and in macroeconomics more precisely speaking are developing very fast and extend from primitive single-agent optimization to comprehensive multi-agent settings. RL and DRL methods are quite novice to the field of economics, but economists have been utilizing similar models for longer period of time. The various utilizations of DRL algorithms in the field of economics and more precisely in macroeconomics are fast developing and extend from primitive single-agent optimization to sophisticated multi-agent settings. RL as well as DRL algorithms are very novice to the field of economics, but economics practitioners have been utilizing similar models for longer period of time. Implementation of DRL methods have gained recognition in recent time. More than 30 years ago, two profound academic researches on RL methods in computational economics have published by Barto and Singh (1991) as well as Arthur (1991). Also important to mention that, application of RL to particular economic topics has been done by Hughes (2014). Concerning financial economics and mathematics, Mosavi et al (2020) and Charpentier et al (2020) made important research on literature review of DRL application in risk analysis, portfolio management, insurance, pricing and bidding optimization. Although on relative scale the research focus was primarily on macroeconomics, there has been also research of RL application in microeconomics field. The work done by Johnson et al (2022) examines RL players who learn to make resources in a spatially complex environment, trade them with each other, and consume those that they have a preference. Paper shows that the supply and demand shifts explain emergent production, consumption and pricing patterns. It’s been observed that in case of emergence of price differences, some RL players learn to take arbitrage opportunities for profit. Overall, this academic work is part of a research initiative for the purpose of building human-like artificial general intelligence via multi-agent interactions in simulated societies. Also, this model includes heterogeneous tastes and physical abilities, and RL players negotiate with each other as a grounded type of communication. DRL has also application in monetary policy as well where it is used to determine optimal

interest rate reaction function that accomplishes the inflation and output gap targets of central banks (Hinterlang and Tänzer, 2022). Initially, ANN is utilized to make estimation of transitions equations of an economy which is determined by the three equation New Keynesian model in Rotemberg and Woodford (1997). Particular emphasis is given to the aggregate demand equation (i.e., the dynamic investment-saving curve), and the aggregate supply equation estimation. Finally, this estimated transition equations are used as a representation of the RL environment and train the central bank RL players to determine the optimal interest rate reaction function.

**References:**


1. Arthur, W. B. (1991). Designing economic agents that act like human agents: A behavioral approach to bounded rationality. The American economic review, 81(2), 353-359.

2. Athey, S., 2018. The impact of machine learning on economics. In The economics of artificial intelligence: An agenda (pp. 507-547). University of Chicago Press.

3. Barriga, A., Rutle, A., & Heldal, R. (2018, October). Automatic model repair using reinforcement learning. In MoDELS (Workshops) (pp. 781-786).

4. Barto, A. G., & Singh, S. P. (1991). On the computational economics of reinforcement learning. In Connectionist Models (pp. 35-44). Morgan Kaufmann.

5. Black, H.S. (1934). Stabilized feed-back amplifiers. Electric. Eng. 53, 114–120. doi: 10.1109/EE.1934.6540374.

6. Church, A. (1932). A set of postulates for the foundation of logic. Ann. Math. 32, 346–366. doi: 10.2307/1968337.

7. Clark, A. (2008). Supersizing the Mind. Oxford: Oxford University Press. doi: 10.1093/acprof:oso/9780195333213.001.0001.

8. Copeland, B. J. (2017). The Church-Turing Thesis. The Stanford Encyclopedia of Philosophy.

9.Covarrubias, M. (2022), Dynamic Oligopoly and Monetary Policy: A Deep Reinforcement Learning Approach.

10. Charpentier, A., Elie, R., & Remlinger, C. (2021). Reinforcement learning in economics and finance. Computational Economics, 1-38.

11. Chen, M., Joseph, A., Kumhof, M., Pan, X., Shi, R. and Zhou, X., (2021) Deep reinforcement learning in a monetary model. arXiv preprint arXiv:2104.09368.

12. Cheremukhin, A. (2018). Personalized ad recommendation systems with deep reinforcement learning.

13. Curry, M., Trott, A., Phade, S., Bai, Y., & Zheng, S. (2022). Finding General Equilibria in Many-Agent Economic Simulations Using Deep Reinforcement Learning. arXiv preprint arXiv:2201.01163.

14. Dreyfus, H. L., and Dreyfus, S. E. (1986). Mind Over Machine. New York, NY: Free Press.

15. Gallese, V., Mastrogiorgio, A., Petracca, E., and Viale, R. (2020). "Embodied bounded rationality," in Routledge Handbook of Bounded Rationality, ed R. Viale (London: Taylor & Francis Group), 14. doi: 10.4324/9781315658 353-26.

16. Kahneman, D. (2011). Thinking Fast and Slow. New York, NY: Farrar, Straus and Giroux.

17. Müller, V. C., and Hoffmann, M. (2017). What is morphological computation? On how the body contributes to cognition and control. Artif. Life 23, 1–24. doi: 10.1162/ARTL_a_00219.

18. Mosavi, A., Faghan, Y., Ghamisi, P., Duan, P., Ardabili, S. F., Salwana, E., & Band, S. S. (2020). Comprehensive review of deep reinforcement learning methods and applications in economics. Mathematics, 8(10), 1640.

19. Nagabandi, A., Clavera, I., Liu, S., Fearing, R.S., Abbeel, P., Levine, S. and Finn, C., 2018. Learning to adapt in dynamic, real-world environments through meta-reinforcement learning. arXiv preprint arXiv:1803.11347.

20. Newell, A., and Simon, H. A. (1976). Computer science as empirical inquiry: symbols and search. Commun. ACM 19, 113–126. doi: 10.1145/360018.360022.

21. Pfeifer, R., and Bongard, J. (2007). How the Body Shapes the Way We Think. Cambridge, MA: MIT Press. doi: 10.7551/mitpress/3585.001.0001.

22. Piccinini, G. (2007). Computational modelling vs. computational explanation: is everything a Turing machine, and does it matter to the philosophy of mind? Austral. J. Philos. 85, 93–115. doi: 10.1080/00048400601176494.

23. Piccinini, G. (2020). Neurocognitive Mechanisms: Explaining Biological Cognition. Oxford, UK: Oxford University Press. doi: 10.1093/oso/9780198866282.001.0001.

24. Shi, R.A., (2021a) Learning from Zero: How to Make Consumption-Saving Decisions in a Stochastic Environment with an AI Algorithm. arXiv preprint arXiv:2105.10099.

25. Simon, H. A. (1972). "Theories of bounded rationality," in Decision and Organization, eds C. B. McGuire and R. Radner (Amsterdam: North-Holland Publishing Company), 161–176.

26. Simon, H. A. (2000). Bounded rationality in social science: TODAY and tomorrow. Mind Soc. 1, 25–39. doi: 10.1007/BF02512227.

27. Sutton, R.S. and Barto, A.G., 2018. Reinforcement learning: An introduction. MIT press. Thelen, E. (2000). Grounded in the world. Infancy 1, 3–28. doi: 10.1207/S15327078IN0101_02.

28. Turing, A. M. (1936). On computable numbers with an application to the entscheidungsproblem. Proc. Lond. Math. Soc. 42, 230–265. doi: 10.1112/plms/s2-42.1.230.

# İSTEHLAKÇI DAVRANIŞLARINA TƏSİR EDƏN AMİLLƏRİN TƏHLİLİ

**Həsənova Ləzifə Ələkbər**
**Azərbaycan Dövlət İqtisad Universiteti**
**https://orcid.org/0000-0002-5603-3317**
**lazifa.hasanova@gmail.com**

# ANALYSIS OF THE FACTORS INFLUENCING CONSUMER BEHAVIOR

**Hasanova Lazifa Alakbar**
**Azerbaijan State University of Economics**

https://orcid.org/0000-0002-5603-3317
lazifa.hasanova@gmail.com

**Summary**

Today's marketing is significantly different from ten years ago. In recent years, consumer-oriented marketing has become more relevant. In fact, consumer behavior is considered a relatively new field of research. It is essential to examine the attitude formed by consumers towards the products and services offered by business subjects, when they make a purchase decision, as well as post-sale behavior, and what factors play a more decisive role at this time. Economic-social situation and technological development, in the new challenges of the global world, the research of consumer behavior during targeting and segmentation by marketing specialists has become crucial. In this regard, the review provides an analysis of the factors that shape consumer behavior. At the level of modern technological development, the issue of consumers' informativeness has been also highlighted, and the influence of modern consumers and information technology on them considered.

**Keywords:** marketing, consumer behaviour, information technology

## АНАЛИЗ ФАКТОРОВ, ВЛИЯЮЩИХ НА ПОВЕДЕНИЕ ПОТРЕБИТЕЛЕЙ

**Гасанова Лязифа Алекпер**
**Азербайджанский Государственный Экономический Университет**
https://orcid.org/0000-0002-5603-3317
lazifa.hasanova@gmail.com

**Резюме**

Сегодняшний маркетинг существенно отличается от того, что было десять лет назад. В последние годы маркетинг, ориентированный на потребителя, стал более актуальным. Фактически, поведение потребителей считается относительно новой областью исследований. Крайне важно изучить отношение, формируемое потребителями к товарам и услугам, предлагаемым субъектами бизнеса, при принятии ими решения о покупке, а также послепродажное поведение и то, какие факторы играют в это время более решающую роль. В условиях экономико-социальной ситуации и технологического развития, в условиях новых вызовов глобального мира решающее значение приобрели исследования поведения потребителей при таргетировании и сегментации специалистами по маркетингу. В связи с этим в обзоре представлен анализ факторов, формирующих потребительское поведение. На уровне современного технологического развития также освещена проблема информативности потребителей, рассмотрено влияние на них современных потребителей и информационных технологий.

**Ключевые слова:** маркетинг, поведение потребителей, информационные технологии

